MEHMAN SÜLEYMANOV

GÜLÜSTAN MÜQAVİLƏSİ

II HİSSƏ

“Elm və təhsil”
Bakı – 2014

Mehman SÜLEYMANOV
polkovnik, tarix elmləri doktoru

Mehman Süleymanov. Gülüstan müqaviləsi – II hissə.
“Elm və təhsil”, Bakı, 2014, 608 səh.

Kitab XVIII əsrin sonu və XIX əsrin əvvəllərində Azərbaycan xanlıqları ərazisində və bütnlükdə Cənubi Qafqazda baş verən hərbi-siyasi proseslərə həsr olunmuşdur. Nadir şah dövlətinin dağılmasından sonra Azərbaycan xanlıqlarının yaranması, xanlıqlar və qonşu xalqlar arasındakı qarşılıqlı münasibətlər, bu xanlıqların hərbi potensialı, xanlıqların işğalçı hücumlara qarşı mübarizəsi, xanlıqlar əhalisinin işğala qarşı mübarizəsi və "Gülüstan" müqaviləsinin imzalanmasına qədər bölgədə baş vermiş digər hərbi-siyasi hadisələr geniş şəkildə tədqiq edilmişdir.

$\frac{4603000000}{N098 - 2014}$ ***qrifli nəşr***

© «Elm və təhsil», 2014

I FƏSİL

CƏNUBİ QAFQAZ BEYNƏLXALQ MARAQLARIN KƏSİŞMƏSİNDƏ

1. İngilis siyasətinin bölgə maraqları

Cənubi Qafqaz uğrunda müharibələrin aparılması bütünlükdə, böyük dövlətlərin dünyanın zəngin məntəqələrinin yenidən bölüşdürülməsi uğrunda apardığı mübarizənin kəskinləşdiyi dövrə təsadüf edir. Bu mübarizəyə qoşulmuş olan Rusyanın, Fransanın və İngiltərənin maraq dairələri yaxın şərqdə də toqquşurdu. Məlumdur ki, hələ XVIII əsrin birinci yarısında Rusiya çarları Hind okeanının isti sularına çıxmağı qarşılarına məqsəd qoymuşdular. Cənubi Qafqazı istila etmədən isə Rusiya isti okeanlara yol tapmaq planlarını reallaşdıra bilməzdi. Belə bir təcavüzkar planın həyata keçirilməsi ehtimalı yalnız Qacarlar hakimiyyətinin deyil, artıq Hindistanda kök salmış ingilis sarayının da maraqlarına əks idi. Digər tərəfdən güclənməkdə olan və bütün Avropaya meydan oxuyan Napoleonun da Hindistana yürüş etmək haqqında müəyyən planları özünü hiss etdirməkdə idi. Xüsusən, XVIII əsrin sonlarında Misiri işğal edəndən sonra Napoleonun Hindistana yürüş planları haqqında ehtimallar və söz-söhbətlər artmağa başladı. Onun belə bir yürüşünün həyata keçirilməsi üçün isə İran ərazisindən istifadə edəcəyi Qacarlar sarayının və eləcə də Hindistandakı ingilis qoşunları rəhbərliyinin gizli narahatçılığını artırmaqda idi. Doğrudur, Napoleon dənizdən də Hindistan ərazisinə qoşun çıxara bilərdi. Lakin bu, konkret şərait üçün elə də inandırıcı görünmürdü. Çünki dənizdə çox da güclü olmayan Napoleon Hindistana hücum edəcəyi təqdirdə öz uğuruna nail olmaq üçün İran ərazisindən keçməsi daha real görünürdü. Başqa sözlə, daxili çəkişmələr istisna olmaqla Fətəli şah hakimiyyəti həm şimaldan, həm də cənubdan ciddi təhlükə ehtimalı qarşısında qalmışdı. Malik olduğu hərbi qüvvələr və potensial isə Fətəli şaha dünyanın böyük dövlətlərindən olan Rusiyaya və

Fransaya qarşı çıxmaq imkanı vermirdi. Ona görə Qacar sarayı Qafqazda fəal təcavüzkarlığa keçmiş Rusiyanın qarşısını saxlamaq və yenidən Cənubi Qafqaza sahib olmaq üçün müttəfiq axtarışına başladı və belə bir seçim XIX əsrin ilk illərində İngiltərənin üstünə düşdü.

İngiltərə ilə əməkdaşlıq istəkləri yalnız geosiyasi maraqlardan irəli gəlmirdi. Ağa Məhəmməd şahdan miras qalmış vəzifələrin icrası, o cümlədən Cənubi Qafqazın geri qaytarılması niyyətləri də Fətəli şahdan güclü bir dövlətə sığınmasını tələb edirdi. Çünki Qacar sarayı Cənubi Qafqaza iddialı olan Rusiyanın güclü qonşulara malik olduğundan xəbərdar idi. Rusiyanın güclü iqtisadiyyatı, böyük əraziləri, ən yaxşı silahlarla təchiz edilmiş güclü qoşunları Qacar dövlətinin imkanlarından daha üstün imkanlara malik idi. Qacarlar dövlətinin mövcud vəziyyətdə Rusiyaya üstün gəlməsi çox mürəkkəb bir vəzifə idi. Qısa müddət ərzində Qacar dövləti daxilində inqilabi dəyişikliklər edilməsi və bu dövlətin Rusiyaya güclü müqavimət göstərmək səviyyəsinə çatdırılması isə reallıqdan uzaq idi. Belə bir şəraitdə Qacar dövlətinin güclü bir dövlətlə müttəfiqlik münasibətlərinin olması kifayət qədər ciddi əhəmiyyət tələb edirdi. XVIII əsrin sonu XIX əsrin ilk illərində belə müttəfiqlik münasibətlərinin yaradılması üçün Qacar sarayı İngiltərə ilə əlaqələr qurulmasını mümkün saydı. İngiltərə Avropanın güclü dövləti olmaqla bərabər, şərqdə də özünə güclü hərbi-siyasi mövqe tutmuşdu. Xüsusilə, İranın ərazilərindən çox da uzaq olmayan Hindistanda hərbi-siyasi mövcudluğa malik olması Qacar dövlətinə ciddi köməyin göstərilməsini asanlaşdıra bilərdi.

Qeyd etmək lazımdır ki, Napoleonun rəhbərlik etdiyi Fransanın möhkəmlənməsi və onun şərq işğalının genişlənməsi də XVIII əsrin sonu və XIX əsrin əvvəllərinə təsadüf edir. Bu dövlətin də şərqlə bağlı böyük planları var idi və Hindistanın işğalı bu planların əsasını təşkil edirdi. Hindistana qoşun çıxarılması üçün isə Napoleonun Qacar sarayı ilə əməkdaşlıq etməsinə ehtiyacı var idi. İstər İngiltərə, istərsə də Fransa şərq maraqlarının qorunması üçün Qacarlar dövləti ilə münasibətlər yaradılmasına ehtiyac duyurdu. Qacar sarayı isə bu münasibətlərdən öz qoşunlarının möhkəmləndirilməsi və onların Azərbaycan xanlıqları üzərinə göndərilməsi fürsətini əldən buraxmaq istəmirdi.

Qacar sarayı ilkin olaraq İngiltərə ilə əməkdaşlıq etməyi qərara aldı. Bu, heç şübhəsiz ki, həmin dövlətlə olan ortaq maraqlarından irəli gəlirdi. Fətəli şahın hakimiyyətə gəlməsindən dərhal sonra əfqanların Qacarlara qarşı ərazi iddiaları ilə çıxış etməsi Fətəli şahı İngiltərə ilə əməkdaşlığa meylləndirdi. Çünki əfqan şahı Zaman şah həm də İngiltərənin işğalı altında olan Hindistanın şimal-qərb hissəsinə hücum etmək istəyirdi.

Yəni, əfqan şahı İngiltərə ilə Qacar sarayının ortaq düşməninə çevrildi və ona görə də ona qarşı müştərək müqavimət yarandı (1).

1798-ci ildə hind əyanlarının rəhbərliyi altında Hindistnda ingilis işğalına qarşı üsyan baş verdi və Əfqanıstan şahı Zaman şah da hind üsyanını dəstəkləməyə başladı. Bundan başqa hind əyanları ingilislərə qarşı başladıqları üsyanın nəticəsinə nail olmaq üçün Napoleondan da hərbi yardım istədilər. Napoleon da bir hərbi dəstəni hind əyanlarının yardımına göndərdi (2).

Bir tərəfdən Əfqanıstanın, digər tərəfdən də Napoleonun hind üsyanına yardım göstərməsi Hindistan kimi zəngin bir ölkəni əldən buraxmaq istəməyən ingilis sarayının ciddi narahatçılığına səbəb oldu. Bu narahatçılığın qarşısının alınması üçün Hindistanda bərqərar olmuş ingilis komandanlığı Qacarlar sarayı ilə əlaqə yaratmağı məqsədəuyğun saydı. 1798-ci ildə Hindistanın ingilis hakimi qərara aldı ki, Mehdiəli xan adlı elçisini Qacarlar sarayına göndərsin. Ingilis təbəəliyini qəbul etmiş Mehdiəli xan Buşehrdə yerləşən ingilis ticarət kompaniyasının nümayəndəsi idi və onun Qqacarlar sarayına olan missiyasına böyük ümidlər bağlanılırdı. Qeyd etmək lazımdır ki, Mehdiəli xan Qacarlar sarayında çox hörmətlə qarşılandı və onun vasitəlilə Qacarlar sarayı ilə ingilislər arasında yeni əməkdaşlığın bünövrəsi qoyuldu. İngilis tərəfinin təklifinə əsasən, Fətəli şah hind qiyamına yardım edən əfqan qoşunlarına qarşı qoşun çıxarmağa razı oldu. Zaman xan öz qoşunlarının əsas hissəsi ilə Hindistan sərhədində olanda Fətəli şahın qoşun dəstəsi Əfqanıstana doğru hərəkətə başladı. Qoşun dəstəsini Qacarlar sarayına pənah gətirmiş Zaman şahın qardaşı Mahmud da müşayiət edirdi. Onun iştirakı ilə Herat və Qəndəhar tezliklə ələ keçirildi. Pişavər və Lahoru tutaraq Dehliyə hücum etməyə hazırlaşan Zaman xan Qacar qoşunlarının irəliləməsi xəbərini eşidən kimi Hindistandan geri çəkildi və Əfqanıstana qayıtdı. Qəndəhar ətrafındakı döyüşdə o məğlub oldu və tutularaq kor edildi (3).

Zaman şahın məğlub edilməsi ilə ingilislərin Hindistandakı hakimiyyətinə qarşı yaranmış təhlükə bir müddət aradan qalxdı. Qacarlar sarayı ilə ingilislərin bu əməkdaşlığından Fətəli şah əslində heç nə qazanmadı. Fətəli şah yalnız ona ümid edirdi ki, ingilislərin köməyi ilə Əfqanıstan və Hindistana qədər olan ərazilər Qacar hakimiyyəti altına salına bilər. Hakimiyyətində yenicə möhkəmlənməyə başlamış Fətəli şahda hətta Əfşarlar dövlətinin sərhədini bərpa etmək xəyalları da var idi. Amma ingilislər heç də bunu istəmirdilər. İngilislərə görə Qacarlar dövlətinin möhkəmlənməyə başlaması ilk növbədə elə ingilislərin özləri üçün təhlükə ola bilərdi. Nadir şahın tarixi Hindistan yürüşünün nəticələrindən ruhlanıb yeni fatehlik arzularına düşməsi qacarlar sarayını nə

vaxtsa ingilislərlə üzbəüz qoya bilərdi. Belə bir ehtimalın reallığa çevrilməməsi üçün isə ingilislər Qacarlar dövlətinin zəifləməsində, çətinliklər məngənəsində qalmasında maraqlı idi. Hətta tarixçilər ehtimal edirlər ki, Rusiya ilə Qacarlar dövləti arasında müharibənin qızışdırılmasında da bu və ya digər dərəcədə ingilislərin əli var idi. Yəni, bu müharibənin başlanması Qacarlar dövlətini kifayət qədər zəiflədər və bu dövlət tərəfindən Hindistan üzərinə ola biləcək hücum gümanlarını də heçə endirərdi (4).

XVIII əsrin sonunda ingilislər hələ Fransa təhlükəsinə görə elə də narahat deyildilər. Ancaq XIX əsrin elə ilk illərində ingilislər üçün Fransa təhlükəsi də ortaya çıxdı. Həmin vaxtlar Hindistanda belə məlumatlar yayıldı ki, Rusiya çarı Pavel və Napoleon arasında olan anlaşmaya əsasən bu iki ölkənin qoşunlarının Qacarlar dövləti ərazisindən keçməklə Hindistana çıxarılması planlaşdırılır.

Mövcud olan məlumatlara görə, Fransa tərəfindən İran ərazisindən keçməklə Hindistana hücum edilməsi imkanları araşdırılmağa başlanmış və bu iş 1800-cü ildə başa çatdırılmışdı. Bu planın həyata keçirilməsi üçün Napoleon və Rusiya imperatoru qərara almışdılar ki, Volqa çayı sahillərində İran ərazisindən keçməklə Hindistana hücum üçün hazırlıq bazaları yaradılsın. Bu planın həyata keçirilməsi üçün Qacar sarayının məlumatlandırılmasına və Qacar dövlət ilə anlaşma əldə edilməsinə ehtiyac var idi. Bunun üçün qərara alındı ki, Qacar sarayına nümayəndə göndərilsin. Amma Rusiya imperatoru Pavelin dünyasını dəyişməsi ilə bu plan həyata keçməmiş qaldı (5).

İngilislər Fransa ilə Rusiya arasında aparılan danışıqlardan xəbərdar idilər. Bu danışıqların və sövdələşmələrin uğurla nəticələnməsi Fransanın və Rusiyanın isti sulara doğru irəliləməsinə yol aça bilərdi. Əslində, həm Rusiya, həm də Fransa bunda maraqlı idilər. Bu planların qarşısının alınması üçün də ingilislər yenidən üzlərini Qacar sarayına tərəf çevirdilər. İngilislər istəyirdilər ki, Qacar sarayı ilə münasibətləri yenidən genişləndirsinlər və bununla Fransanın quru yolla Hindistan üzərinə hücuma keçməsinin qarşısını alsınlar.

Fransa nigarançılığının aradan qaldırılması üçün Hindistanın ingilis hakimiyyəti 1799-cu ilin sonlarında kapitan Con Malkolmu Qacar sarayına səfir təyin etdi. Bu təyinat baş verəndə Mehdiəli xanın elçiliyi hələ başa çatmamışdı. Çox güman ki, qərb siyasətinə və maraqlarına daha dərindən bələd olduğu üçün Con Malkolmun elçiliyi Mehdiəli xanın elçiliyinə üstün tutuldu. Con Malkolm təcrübəli hərbçi olduğu kimi, artıq şərqlə də yaxından tanış idi və fars dilini də bilirdi. 1799-cu il dekabr ayının sonlarında Con Malkolm bir neçə hərbçinin müşayiəti ilə yola düşdü.

C.Malkolm Məsqət soltanı ilə görüşmək üçün əvvəlcə Məsqətə üz tutdu və sonra Buşehrə doğru hərəkətini davam etdirdi. Çox ləng keçən bu yolçuluqdan sonra C.Malkolm 1800-cü il fevral ayında Buşehrə çatdı (6).

Con Malkolmun elçiliyinə həm ingilislər, həm də şah sarayı böyük əhəmiyyət verirdi. Mövcud olan məlumata görə, Con Malkolmun elçiliyindən əvvəl İran ərazisinə heç vaxt belə böyük rəsmi heyət gəlməmişdi. Con Malkolm heyəti malik olduğu səlahiyyətlər və gətirdiyi hədiyyələrin miqdarı etibarilə də özündən əvvəlki elçiliklərdən fərqlənirdi (7).

Ser Con Malkolm rəsmi olaraq Hindistanın ingilis baş hakimi Velslinin rəsmi nümayəndəsi sayılırdı. Elçilik Buşehrdə 4 aya yaxın vaxt keçirməli oldu. Onun rəhbərlik etdiyi heyətə şah sarayında ümidlər bağlandığı üçün bu heyətin qarşılanmasına da şah sarayı tərəfindən xüsusi diqqət yetirilirdi. Şah sarayının bu heyətə xüsusi diqqəti heç şübhəsiz ki, şah qoşunlarının təchizatı üçün ingilislərin köməyinə bağlanan ümidlərdən irəli gəlirdi.

Buşehrin aid olduğu Fars vilayətinin hakimi Fətəli şahın oğlanlarından olan Hüseynəli Mirzə idi. O zaman onun 12 yaşında olduğu bildirilir. Şah sarayından aldığı tapşırığa əsasən, Hüseynəli Mirzə də Con Malkolmun yaxşı qarşılanmasına diqqəti gücləndirdi. Con Malkolmun Şiraza müşayiət edilməsi üçün Hüseynəli Mirzə öz nümayəndəsini mehmandar kimi ingilis elçisinin yanına göndərdi. Mehmandar 1800-cü ilin martında Buşehrə yetişdi və bir müddətdən sonra ingilis elçiliyi onun müşayiəti ilə Şiraza doğru hərəkətini davam etdirdi (8).

Con Malkolm heyətinin qarşılanması üçün Şirazda xüsusi bir mərasim təşkil olundu. Hüseynəli Mirzənin tapşırığı əsasında əvvəlcə miraxur və 9 baş bəzədilmiş at ingilis elçiliyinin qarşılanmasına çıxarıldı. Sonra iki sırada düzülmüş olan atlılar təbil və ney sədaları altında qarşılanma mərasiminə qoşuldu. Elçiliyin önündə çadırlar aparılırdı. Elçiliyin arxasınca isə qılınclarını sıyırmış atlılar hərəkət edirdilər. Elçilik Şiraza yerləşəndən sonra iyun ayının 21-də Hüseynəli Mirzənin vəzirləri ingilislərin görüşünə getdilər. Səhəri gün isə ingilslər Hüseynəli Mirzənin görüşünə yollandılar (9).

Con Malkolmun elçiliyi uzun müddət Şirazda qalmalı oldu. Bu dövr ərzində ona yüksək qonaqpərvərlik nümayiş etdirildi. 1800-cü il avqust ayının 21-də ingilis heyəti Şirazdan Tehrana yola düşdü. Tehrana hərəkət marşrutu üzərində yerləşən İsfahan şəhəri ingilis elçiliyinin növbəti dayanacağı oldu. Burada da elçiliyə xüsusi diqqət göstərildi və nəhayət noyabr ayında Con Malkolm Tehrana yetişdi. Onun Buşehrdən Tehrana qədər olan yolçuluğu bir ilə qədər uzanmalı oldu. Tehranda Con

Malkolm elçiliyinə lazımi diqqət yetirildi və şahın əmri ilə Con Malkolm vəzir Mirzə İbrahim xan Etimadüddövlənin evində yerləşdirildi (10).

1800-cü il noyabr ayının 16-da və 27-də Con Malkolm Fətəli şahla görüşdü. Bu görüşlərin həyata keçdiyi zaman bölgədə baş verən bütün dəyişikliklər ingilislərin Qacar sarayına olan ehtiyacını bir qədər azaltdı. Belə ki, bu zaman Fransanın Misirdən çəkilmək məsələsi gündəmə gəldi. Fransanın Misirdən çəkilməsi isə İngiltərənin narahatçılığını azalda bilərdi. Görüşlər zamanı Con Malkolm şaha və onun əyanlarına çoxlu hədiyyələr bağışladı. O, Qacar dövlət ilə daha çox ticarət münasibətlərinin gücləndirilməsi haqqında müzakirələrə üstünlük verdi. Qacar sarayı adından danışıqları aparan sədr-əzəm Mirzə İbrahim xan Etimadüddövlə ingilislərin həm siyasi, həm də ticarət müqaviləsinin bağlanmasına təkid göstərirdi. Bunun nəticəsi kimi, 1801-ci il yanvar ayının sonlarında Con Malkolm Qacar sarayı ilə iki müqavilə imzaladı. Onların biri siyasi müqavilə, digəri isə ticarət müqaviləsi idi. Ticarət müqaviləsinə əsasən, ingilis şirkətlərinə əvvəldən verilmiş güzəştlər öz qüvvəsində saxlandı və ingilis tacirlərinin İran ərazisində fəaliyyəti üçün daha yaxşı şərait yaradıldı. Müqaviləyə əsasən, ingilis tacirlərinə icazə verilirdi ki, İran ərazisindəki liman şəhərlərində istədikləri qədər qalsınlar. Bu güzəşt İngiltərənin koloniyası olan Hindistandan gələn tacirlərə də şamil edilməli idi. İngilis dövlətinə aid olan yüklər Qacarlar dövləti tərəfindən heç bir gömrük vergisinə məruz qalmalı deyildi. Mümkün vergiləri isə alıcılar ödəməli idilər. İngilislər İran ərazisində istədikləri qədər yerli adam işə götürə bilər və onları öz qaydalarına uyğun idarə edə bilərdilər. Qacar sarayı ilə əldə edilmiş razılaşmaya görə, ingilislər tikinti işlərində, mülk alınıb-satılmasında da azad idilər. İngilislər eyni zamanda istədikləri vaxt, istədikləri yerə hərəkət etmək azadlığına malik idilər. Bir sözlə, imzalanmış ticarət müqaviləsi ingilis tacirləri və bütünlükdə ingilislər üçün əlverişli bir müqavilə idi (11).

Ticarət müqaviləsi şah tərəfindən təsdiq edildi və bundan sonra vilayət hakimlərinə şahın fərmanı göndərildi. Həmin fərmanda vilayət hakimlərindən tələb olunurdu ki, Con Malkolmla bağlanmış olan ticarət müqaviləsinin bütün maddələri yerlərdə lazımi şəkildə yerinə yetirilsin (12).

Qacar sarayı üçün daha çox siyasi müqavilə əhəmiyyət kəsb edirdi. Lakin ingilislər diplomatik məharətini işə salaraq Qacar qoşunlarının təchizatının yaxşılaşdırılması üçün Qacar sarayı qarşısında xüsusi öhdəlik götürməkdən boyun qaçırdılar.

Bu anlaşma kifayət qədər yığcam olmaqla müqəddəmə və beş maddədən ibarət idi. Anlaşmanın 2-ci və 3-cü maddələrində bildirilirdi

ki, əgər Əfqanıstan şahı Hindistan üzərinə hücum etmək niyyətinə düşsə, onda Qacar şahı Əfqanıstana qarşı hərbi əməliyyata başlamağı öz üzərinə götürür. Bununla Əfqanıstandan Hindistana qarşı ehtimal edilən təhlükənin qarşısı alınmış olurdu. Anlaşmanın 4-cü bəndində isə qeyd olunurdu ki, əgər Əfqanıstan tərəfindən və ya Fransa tərəfindən Qacarlar dövləti üzərinə hücum baş versəydi, onda ingilislər Qacarlar qoşunlarına top, mərmilər və digər hərbi ləvazimat verməyi öz üzərinə götürürdü. Sonuncu maddədə isə təsbit olunmuşdu ki, əgər Fransa qoşunları İran ərazisindəki limanlardan birinə çıxarılmış olsa, onda onlara qarşı birgə hərbi qüvvələr yaradılmalı idi. Bu zaman əsas ağırlıq yəni, fransalılara qarşı qoşun çıxarılmasını Qacar sarayı təmin etməli, qoşunların silah və sursatla təminatına isə ingilislər yardım göstərməli idi (13).

Bu müqavilənin imzalanmasından sonra Avropada cərəyan edən proseslər onun icrasına da ciddi təsir göstərdi. Məlumdur ki, I Pavel qətlə yetiriləndən sonra I Aleksandr Rusiya çarı elan edildi. Onun çarlığı dövründə Rusiya ilə Fransa arasında münasibətlər dəyişdi və Rusiya ilə Fransa bir-birinə düşmən olan dövlətə çevrildilər. Rusiyanın İngiltərənin düşməni olan Fransaya qarşı mövqe tutması ingilislərin maraqlarına uyğun idi. Çünki bu zaman Fransa zəifləyə bilərdi. Ona görə ingilislər Rusiyanın zəifləməsinə səbəb ola biləcək addımlar atmaqdan çəkindilər. Nəticədə, ingilislərlə Qacar sarayı arasında imzalanan müqavilə də icra edilmədi. Çünki imzalanmadan sonra tərəflərin bu anlaşmaya münasibəti birmənalı olmadı. Qacar sarayı bu anlaşmanı öz mənafelərinə müvafiq saymadı və bir müddətdən sonra anlaşmanı imzalamış olan vəzir Hacı İbrahim xan Etimadüddövlə qətlə yetirildi. Digər tərəfdən, anlaşmanın məzmuna müxtəlif fərqli münasibətlər mövcud idi. Qacar sarayı ümid edirdi ki, bu anlaşmanın imzalanmasından sonra Cənubi Qafqazda güclənən rus təhlükəsinin aradan qaldırılmasına da ingilislər müvafiq hərbi yardımı göstərəcəklər. İngilislər isə 1801-ci il anlaşmasına əsasən özlərini Rusiya təhlükəsinin qarşısının alınması üçün Qacarlar sarayına kömək göstərməkdə borclu saymırdılar və bildirirdilər ki, bu anlaşmanın Qafqazdakı hadisələrlə heç bir bağlılığı yoxdur. Doğrudan da 1803-04-cü illərdə Azərbaycan xanlıqları ərazisində aparılan döyüşlərdə yardım göstərilməsi üçün Qacarlar sarayının ingilislərə olan müraciəti cavabsız qaldı. İngilislər Qacar sarayına əməli kömək göstərməməklə bərabər, Rusiyanın etirazına səbəb olacaq bir addım atmaq niyyətində deyildilər. Çünki ruslar Avropada ingilislərin düşməni olan fransalılara qarşı müharibə aparırdılar və ona görə də rusların zəiflədilməsi ingilislərin marağına uyğun deyildi (14).

Mövcud olan məlumatlara görə, ruslara qarşı Qacar qoşunlarına kömək göstərilməsi üçün ingilislər bir neçə ağır şərtlər irəli sürdülər. İngilislər şah sarayından tələb etdilər ki, Qafqazın ruslar tərəfindən işğalının qarşısının alınması üçün Fars körfəzindəki Xark adası, Xəzər dənizinin cənubundakı limanlar ingilislərə verilsin, habelə Buşehrdə ingilislər tərəfindən istehkamlar yaradılmasına şah sarayı razı olsun (15).

İrəvan xanlığının ərazisində rus qoşunları ilə baş verən döyüşlər bir daha göstərdi ki, Azərbaycan xanlıqlarına olan iddiaları həyata keçirmək üçün Qacar sarayının xarici yardıma ehtiyacı vardır.

Rusiyanın Qafqaz təcavüzünün qarşısının alınmasında yardım göstərilməsi üçün şah sarayı ingilis dövlətinin Bağdaddakı siyasi nümayəndəsi ser Harvard Consa müraciət etdi. Baxmayaraq ki, bu vaxt şah sarayı artıq Fransa ilə müəyyən əlaqələr qurmağa çalışırdı. Harvard Cons 1805-ci il sentyabrın 19-da Mirzə Bozorga göndərdiyi məktubunda bildirdi ki, şah sarayının xahişi Londona çatdırılıbdır. O eyni zamanda onu da çatdırırdı ki, Fransa nümayəndəsinin Tehrana gəlməsindən xəbərdardır və bu nümayəndə şah sarayı ilə İngiltərənin dostluğuna xələl gətirə bilər. Onun fikrincə, Fransa onsuz da şah sarayına yardım edə bilməyəcəkdi. Çünki belə bir yardımı göstərmək üçün Fransa Almaniyadan, Osmanlı dövlətinə və Rusiyaya məxsus olan ərazilərdən keçməli idi ki, bu da mümkün deyildi. Dəniz yolu ilə Qacar sarayına kömək göstərməyə isə Fransanın imkanı yox idi. Ona görə də qeyd olunurdu ki, Fransa vəd etsə də Qacar sarayına kömək göstərə bilməyəcək (16).

Qafqaz cəbhəsində vəziyyət daha da mürəkkəbliyə doğru gedəndə şah sarayı yenidən yardım üçün Məhəmməd Nəbi xanın rəhbərliyi altında Hindistandakı ingilis hakiminin yanına nümayəndə heyəti göndərdi. Həmin nümayəndə heyəti 1801-ci ildə imzalanmış anlaşmaya əsasən ingilislərdən rus təcavüzünün qarşısını saxlamaq üçün yardım istəsə də bir nəticə hasil olmadı (17). İngilislər bir daha belə bir bəhanə gətirdilər ki, şah sarayı ilə imzalanan anlaşma yalnız Fransanın müdaxilələrinə qarşı yardım göstərilməsini nəzərdə tutur. Qafqazda cərəyan edən hadisələr isə bu müqavilənin mövzusu deyil.

Bununla, şah sarayına bir dəfəlik aydın oldu ki, Rusiyanın Cənubi Qafqazdakı təcavüzünün qarşısını almaq üçün ingilislərə bağlanan ümidlər tam əsassızdır.

2. Azərbaycan xanlıqlarının işğalında Fransa amili

Şah qoşunlarının İrəvan xanlığı ərazisində general Sisianovun komandanlığı altında olan güclü rus qoşunlarına qarşı müharibəsi ciddi hərbi yardıma arxalanmadan başlanmalı oldu. Yuxarıda qeyd edildiyi kimi, elə ilk qarşılaşmanın Qacar qoşunları üçün əlverişsiz nəticəsi şah sarayını məcbur etdi ki, xarici dəstək axtarışına başlasın, bu dəstəyin yardımından bəhrələnməklə həm də qoşunların yenidən qurulmasına kömək alsın. Əks təqdirdə rus qoşunlarının güclü müqaviməti qarşısında Qacar sarayı Azərbaycan xanlıqlarında olan iddialarından əl çəkməli olacaqdı. Azərbaycan xanlıqlarının şah sarayı ilə hərbi-siyasi ittifaqa getməməsi isə qacarların hərbi durumunu daha da çətinləşdirirdi.

Əslində, Rusiya kimi güclənməkdə olan bir dövlətin qoşunlarının qarşısının alınmasının çətin olduğunu görən Fətəli şah başqa bir xarici dəstək axtarışına çıxdı və onun nəzəri Napoleonun üzərində dayandı. O, Napoleonun Avropada, o cümlədən Misirdə qazandığı uğurlar haqqında eşitmişdi və əmin idi ki, belə bir qüdrətli şəxslə müttəfiqliyə nail olunması Rusiyanın Cənubi Qafqazda başlayan təcavüzünün qarşısının alınmasında faydalı ola bilər.

Qacar sarayı hərbi-siyasi əməkdaşlığın qurulmasına əslində Fransa rəhbərliyi də maraq göstərirdi. Belə bir əməkdaşlıq bir tərəfdən Fransanın şərqdə işğalçılıq siyasətinin həyata keçirilməsinə kömək göstərə biləcəyi kimi, digər tərəfdən də Fransanın gərgin münasibətlərdə olduğu İngiltərənin şərqdəki mövqelərinin zəiflədilməsinə də kömək göstərə bilərdi. Bu istiqamətdə Fransanın İran ərazisindən keçməklə Hindistana qoşun çıxarmaq planının mövcudluğu da məlum idi.

Fransa direktoriyasının 1798-ci il aprel ayının 12-də qəbul etdiyi "İngilislərin bütün şərq mülklərindən qovulması haqqında" qərarından sonra Napleon şərq dövlətlərinin hakimləri ilə fəal yazışmalara başladı. İran və Cənubi Qafqaz ərazilərinə hərbi-strateji əhəmiyyəti olan ərazilər kimi Fransa rəhbərliyi tərəfindən xüsusi diqqət yetirilirdi (18).

Hələ Ağa Məhəmməd şah Qacarın dövründə Fransa sarayının Qacar sarayı ilə siyasi-iqtisadi əlaqələr qurmağa çalışması haqqında faktlar mövcuddur. Bununla bağlı, Fransanın bir heyəti İstanbuldan keçməklə Tehrana gəldi. 1801-ci ildə isə Fransanın Bağdaddakı konsulu Russonun köməyi ilə Fransa sarayının məktubları Tehrana göndərildi. Bildirilir ki, Tehranda kimsə Fransa dilində olan məktubu oxuya bilmədiyi üçün iki dövlət arasında ciddi əməkdaşlıq imkanları açılmadı (19).

1802-ci il iyun ayının 26-da Fransa ilə Osmanlı dövlət arasında imzalanmış müqaviləyə əsasən, boğazlar Fransa gəmilərinin keçidi üçün açıq elan edildi. Bu məsələ Fransanın şərqlə bağlı olan ticarət maraqlarını daha da rövnəqləndirdi. Fransanın Bağdaddakı konsulu Russo və bu ölkənin İstanbuldakı ticarət təmsilçilərindən olan Eskalon yeni şəraitdə Napoleonun diqqətini İrana göstərilməsinin əhəmiyyətinə cəlb etməyə çalışdılar. Onlar xüsusilə, İranın Hindistanla qonşu olmasına görə Napoleonun bu ölkəyə olan marağını daha da artıra bildilər. Xüsusilə, Misirin işğalından sonra Napoleon Bosfor və Anadolu ilə bağlı daha ciddi maraqlanmağa başladı. 1802-ci ildə fransalı marşal Brune İstanbula gedəndə Napoleondan tapşırıq aldı ki, Qacar sarayı ilə müzakirələrə girmək imkanını da arasın (20).

1803-cü il sentyabr ayının 24-də Napoleon Fransanın xarici işlər nazirinə göstəriş verdi ki, Fars dövləti (Persiya) ilə münasibətlər qurmaq istəyir (21). Fransanın xarici işlər naziri Taleyran da həmin ilin oktyabrında Fransanın Bağdaddakı nümayəndəsi Jan Fransua Russoya yazdı ki, Napoleon İranla münasibətlər qurmaq istəyir və bununla əlaqədar ona tapşırdı ki, Qacar sarayı ilə məktublaşmanın yolunu tapsın.

Qacar qoşunları Azərbaycan xanlıqlarına olan iddialarının həyata keçirilməsi üçün rus qoşunları ilə müharibəyə başlayanda, Napoleon bir daha Taleyrana tapşırdı ki, Fars dövləti ilə bağlı Russonun məlumatlarını toplasın, Rusiya ilə İran arasında başlanan müharibədə İngiltərənin rolunun olub-olmaması aydınlaşdırılsın. Napoleon eyni zamanda tələb etdi ki, Peterburq qəzetlərində İran haqqında yazılı məlumatlar araşdırılsın, fars dili bilən şəxslər tapılsın, həkim və ya alim adı altında kimsə fars dövləti haqqında məlumat toplamaq üçün İrana göndərilsin. 1804-cü ilin martında İstanbuldakı Fransa səfirinə tapşırıldı ki, Tehrana Fransa səfirinin göndərilməsi üçün zəmin yaradılsın (22).

1804-cü ildə Eçmiədzin ətrafında rus qoşunlarna qarşı aparılan döyüş kampaniyası dövründə Fətəli şah Eçmiədzin keşişləri ilə görüşməli oldu. Bu görüş zamanı Eçmiədzin keşişləri Fətəli şaha Napoleonun fəaliyyəti və hərbi uğurları barəsində xeyli məlumat verdilər. Həmin məlumatları alandan sonra Fətəli şah nəhayət ki, Napoleonla əlaqələrin yaradılmasını qətiləşdirdi və həmin əlaqələrin yaradılmasında yenə Eçmiədzin keşişləri onun köməyinə gəldilər. Fətəli şah Napoleona məktub yazdı və qərara alındı ki, həmin məktub İstanbulakı Fransa səfirliyi vasitəsilə Napoleona çatdırılsın. Məktubun İstanbula aparılması isə Osip Vasilyeviç adlı bir ermənіyə tapşırıldı. Osip Vasilyeviç Fətəli şahın məktubunu alan kimi dərhal yola düşdü və 1804-cü ilin dekabrında o, İstanbula yetişdi. Məktub Fransa səfirliyinin müşavirinə təhvil verildi və onun diqqətinə

çatdırıldı ki, bu məktub Naoleona yetişən kimi Fətəli şah Parisə öz elçisini göndərə bilər (23).

Fətəli şah Napoleona göndərdiyi ilk məktubunda yazırdı ki, Cənubi Qafqazda Rusiyaya qarşı mübarizə aparmaq üçün ona kömək lazımdır və o, Fransadan belə bir kömək istədi. Fətəli şah təklif etdi ki, Fransa və İran öz aralarında müttəfiqlik əlaqələri yaratsınlar və Rusiyaya qarşı iki istiqamətdən hərbi əməliyyata başlasınlar. Qeyd etmək lazımdır ki, Təbriz hakimi Əhməd xan da Fransa ilə əlaqələrin yaradılması istiqamətində müəyyən addımlar atdı. O, Qasım adlı öz nümayəndəsini Hələbdəki Fransa ticarət komissarının yanına göndərdi və ondan iki ölkə arasında əlaqələrin yaradılmasına kömək göstərməsini xahiş etdi (24).

Fətəli şahın məktubu 1805-ci ilin yanvarında Napoleona çatdı. O, Fətəli şahdan belə bir məktub almağa çox sevindi. Çünki o da Qacar sarayı ilə ikitərəfli əlaqələr yaradılmasında maraqlı idi. Napoleon yaxşı anlayırdı ki, onun şərq siyasətində Qacar dövləti əhəmiyyətli rola malik ola bilər. Bu dövlətlə müttəfiqlik əlaqələri həm Rusiyanın böyük planlarının qarşısının alınması, həm də Hindistan planlarının həyata keçirilməsi üçün faydalı ola bilərdi.

Şah eyni zamanda Napoleondan xahiş etdi ki, onun qoşunlarının öyrədilməsinə, qoşunların silahla təmin edilməsinə kömək göstərsin.

Napoleon bu məktubu alan kimi dərhal Fətəli şaha cavab yazdı və sarayının tərcüməçisi olan Amade Jober vasitəsilə Fətəli şaha göndərdi. Jober 1805-ci ilin fevralında İrana doğru hərəkətə başladı. Verilən tapşırığa əsasən Jober bir məktubu Osmanlı soltanına çatdırmalı və sonra yolunu davam etdirərək digər bir məktubu da Fətəli şah yetirməli idi. İkinci tapşırıq daha mühüm və gizli sayılırdı. Napoleon ümid edirdi ki, şərqi yaxşı bilən Jober bu tapşırığın öhdəsindən daha bacarıqla gələ bilər. O, Joberə tapşırdı ki, İrana səfərini tam gizli saxlasın, Fətəli şah tərəfindən Napoleona göndərdiyi məktubda yazılanların doğru olub-olmadığını müəyyənləşdirsin, şahın hansı hərbi yardıma ehtiyacı olduğunu aydınlaşdırsın. Şahın məktubunda yazılanların doğru olacağı və ona doğrudan da Rusiyaya qarşı mübarizədə kömək lazım olduğu təqdirdə Jober Fətəli şaha təklif etməli idi ki, Parisə öz elçisini göndərsin. Jober eyni zamanda şah ordusu haqqında da ətraflı məlumat toplamalı idi (25).

Napoleonun Qacar sarayı ilə əlaqə qurmaq cəhdi həm Rusiyanın, həm də İngiltərənin narahatçılığına səbəb oldu. Ona görə bu ölkələrin İstanbuldakı diplomatları fransalı nümayəndənin missiyasının pozulmasına çalışırdılar. Rusiya İstanbuldakı səfiri İtalinskini hər vasitə ilə çalışmalı idi ki, Joberin Osmanlı soltanı III Səlimlə görüşü baş

tutmasın. Mövcud faktlara görə, Jober Osmanlı soltanı ilə də, onun şahzadələri ilə də gəzinti zaman görüşə bildi (26).

Fətəli şahın məktubunu alandan sonra Napoleonda Qacar sarayı ilə əlaqə qurmaq marağı xeyli artdı. Fransa imperatoru Cənubi Qafqaza qoşun çıxarmaq niyyətində olmasa da, bu bölgədə gedən prosesləri də yaxından izləyirdi. Onun Qacar sarayı ilə əlaqə yaratmaqda qarşısına qoyduğu məqsədlərdən biri bu bölgədə Qacar qoşunlarının fəallaşdırılmasından ibarət idi. Napoleon çalışırdı ki, Cənubi Qafqaza güclü Qacar qoşunları çıxarılmasına və bununla da Rusiyanın diqqətinin Cənubi Qafqaza cəlb edilməsinə nail olsun. Güclü Qacar qoşunları qarşısına Rusiya daha böyük hərbi güc ayırmalı olacaqdı ki, bu da Rusiyanın Avropada zəifləməsinə yol aça bilərdi.

Jober İrana tərəf yola düşəndən sonra Napoleon Qacar sarayına başqa bir elçisini də göndərməyi qərara aldı. Bu dəfə elçi kimi Rumiyo seçildi və ona da Joberə verilən tapşırıqlar verildi. Napoleonun yazışmalarından aydın olur ki, Rumiyoyo da geniş səlahiyyətlər verilmişdi. O da Fətəli şaha Napoleonun məktubunu və şifahi təkliflərini çatdırmalı idi. 1805-ci il mart ayının sonlarında o da Fransadan İrana yola düşdü. Onun vasitəsilə göndərilən məktubda Napoleon hərarətli salamlarını Fətəli şaha çatdırmaqla Qacar sarayı ilə əlaqələr yaratmağa da hazır olduğunu bildirdi. Napoleon əlavə edirdi ki, şah sarayı Con Malkolmla bağladığı anlaşmanı ləğv edib ingilislərlə olan münasibətlərini dayandırmağa hazır olarsa, onda şahla möhkəm dostluğun və ittifaqın əsasını qoyub öz səfirini Tehrana göndərməyə hazırdır. Bundan əlavə, Napoleon vəd edirdi ki, Rusiya tərəfindən işğal olunmuş Qafqazın və Gürcüstanın geri qaytarılması üçün şaha hərbi və maliyyə yardımı da etməyə hazırdır. Napoleon eyni zamanda bir dəstə hərbçinin də İrana göndərilməsinə razı olduğunu qeyd edirdi (27).

"İran şahı 1801-ci il müqaviləsini ləğv edəndə və İngiltərə ilə ittifaqdan imtina edəndə imperator (Fransa imperatoru nəzərdə tutulur – M.S.) Tehrana səfir göndərəcək və şahla ittifaq haqqında müqavilə imzalanacaq. Gürcüstanın və Cənubi Qafqazın digər vilayətlərinin İrana qaytarılması üçün isə imperator İrana pul və qoşun göndərəcək ki, onlar şah qoşunları ilə birlikdə Rusiyaya qarşı döyüşsün " (28).

Napoleon öz məktubunda onu da əlavə edirdi ki, güclü qoşunlara malik olmaq üçün İran daxilində silah istehsalı mənimsənilməlidir, qoşunlara təlim-tərbiyə keçirilməlidir, döyüşçülər sürətlə fəaliyyət göstərməyi bacarmalıdırlar, səyyar toplar hücumun genişləndirilməsində fəal iştirak etməlidirlər, sərhəd xətlərində möhkəm istehkam qalaları qurulmalıdır (29).

Napoleon heç şübhəsiz ki, xatırlanan bütün bu məsələlərin həyata keçirilməsinə yardım göstərməyə hazır olduğunu bildirirdi.

Rumiyo İrana doğru hərəkətə gec başlasa da 1805-ci il may ayının ortalarında İstanbulda Joberlə görüşə bildi. Bununla belə, onlar yenə ayrı-ayrılıqda yollarını davam etdirdilər. Öncə Rumiyo hərəkətini davam etdirməli oldu. O, Hələbdən keçməklə Therana doğru hərəkət edirdi. Hərəkət marşrutunun belə uzun seçilməsi, həmçinin ayrı-ayrılıqda vəzifə icra olunması Napoleonun tapşırıqlarının gizli saxlanması istəyi ilə bağlı idi.

Rumiyodan bir müddət sonra Jober də yoluna davam etdi. Onun İrana üz tutması haqqında hətta Fransanın İstanbuldakı səfirliyinin də çox az əməkdaşının xəbəri var idi. 1805-ci il may ayının 28-də Jober Trabzona çatdı və özünü orada tacir kimi təqdim etdi. Sonra da ticarət işləri ilə məşğul olmaq adı ilə Ərzruma doğru səfərini davam etdirdi. Mövcud olan məlumatlara görə, ingilislər onun məqsədini başa düşdülər və elə ingilislərin təhriki ilə də o, Bəyazid paşası tərəfindən bir müddət həbsdə saxlandı (30). Bununla da Joberin səfəri xeyli yubandı və onun haqqında hətta Napoleon da uzun müddət hər hansı bir məlumata malik olmadı.

Mövcud olan başqa bir məlumata görə, Osmanlı ərazilərində avropalıların təqib oluna biləcəyindən qorxaraq Jober erməni libası geyindi və Bəyazidə tərəf yola düşdü. Yolda onun da olduğu dəstənin qarşısını quldurlar kəsdilər və onu həbs etdilər. Bəyazid paşasının göndərdiyi dəstənin səyləri quldurları geriləməyə məcbur etdi. Aparılan təhqiqatlar zamanı Joberin erməni deyil, fransalı olması aydınlaşdı və yaranan şübhələrə görə Bəyazid paşası onu həbs etdi (31).

Rumiyo 1805-ci il sentyabrın 25-də Tehrana çatdı. Qeyd etmək lazımdır ki, Fransanın Qacar sarayı ilə yarada biləcəyi münasibətlər İngiltərə və digər dövlətlər tərəfindən diqqətlə izlənilirdi. Ona görə Rumiyonun səfəri də ciddi müşahidə altında idi. O nəzərləri aldatmaq üçün yolunu Hələbdən salsa da ingilislər Rumiyonun hara yollandığından xəbər tutdular və Londona xəbər göndərdilər (32).

Rumiyo Tehrana yetişən kimi şah əyanları ilə danışıqlar başladı. Saray vəziri Mirzə Rzaqulu xan ölkənin vəziyyəti, xüsusilə qoşunların qarşılaşdığı çətinliklər barədə Fransa elçisinə məlumat verdi. Vəzir onun diqqətinə çatdırdı ki, sərbazların döyüş hazırlığı səviyyəsi çox aşağıdır və rus toplarının atəşləri qarşısında onların itkiləri xeyli çoxdur(33).

Sentyabr ayının 30-da isə Rumiyonu şah qəbul etdi. Şah Rumiyonu Fransanın səlahiyyətli elçisi kimi qəbul edirdi və güman edirdi ki, Rumiyoya Fransa dövləti adından müqavilə imzalamaq səlahiyyəti verilmişdir. Ona görə də şah görüş zamanı bildirdi ki, əgər şah sarayı ilə Fransa dövləti arasında müttəfiqlik yaransa, onda heç dünya özü də

onların qarşısında duruş gətirə bilməz. Müqavilə imzalamaq səlahiyyətlərinə malik olub-olmadığını Rumiyodan soruşanda o, şaha cavab verdi ki, gəlişinin məqsədi ölkənin vəziyyətini və ehtiyaclarını öyrənmək və şah qoşunlarının qarşılaşdığı çətinliklər barəsində məlumat toplamaqdır. Bunu eşidəndə şaha aydın oldu ki, Rumiyo heç də gözlənilən elçi deyilmiş (34). Ona görə Fətəli şah kifayət qədər təmkin göstərmək məcburiyyətində qaldı.

Bəzi tarixi ədəbiyyatda Rumiyonun Tehrana oktyabr ayının əvvəllərində çatdığı göstərilir. Eyni zamanda qeyd olunur ki, Fətəli şah Napoleonun elçisini çox soyuqqanlı və inamsız qarşıladı. Çünki, o hələ də ingilislərin imzalanmış müqaviləyə sadiq qalacağına və şah sarayına hərbi yardımlar göstərəcyinə ümidlər bəsləyirdi. Ona görə də şah sarayı ilə Rumiyo arasındakı müzakirələrin nəticəsi olmadı (35).

Hər halda Rumiyo danışıqlar zamanı şah sarayının Fransa ilə ittifaqa girməsinə nə dərəcədə hazır olduğunu yoxlamağa çalışdı. O, saray əyanlarının nəzərinə çatdırırdı ki: 1) şah sarayı Fransa ilə müttəfiqliyə razı olsa, Fransa rus qoşunlarının qovulması üçün yardım edə bilər. Fransa Rusiyaya qarşı elə bir hücum təşkil edər ki, heç vaxt yaddan çıxmasın; 2) Bunun əvəzində isə Qacar sarayı Fars körfəzindəki limanlardan birini Fransaya verməlidir (36).

Ölkənin vəziyyəti ilə bir neçə günlük tanışlıqdan sonra Rumiyo belə bir qənaətə gəldi ki, şah qoşunlarının Cənubi Qafqazda uğursuzluğa düçar olmasının əsas səbəblərindən biri sərbazların müharibə qaydalarına bələd olmamasıdır. O, İrəvan xanlığının böyük strateji əhəmiyyətə malik olmasını da anlayırdı. Rumiyonun fikrincə, Rusiya qoşunları əsas diqqəti Şirvan üzərinə yönəltməklə həm ticarət karvanlarının təhlükəsizliyini təmin edər, həm də Xəzərdən mümkün ola biləcək təhlükənin qarşısını ala bilərdi. Lakin Rusiyanın əsas niyyətlərindən birinin Osmanlı dövləti üzərinə hücum etmək olduğu üçün İrəvan xanlığının işğalı daha böyük əhəmiyyət kəsb edirdi. Məhz ona görə də Rusiyanın Qafqazda başladığı təcavüzün mərkəzində məhz İrəvan xanlığının ələ keçirilməsi dayanırdı (37).

Aparılan qarşılıqlı müzakirələrə bir aydınlıq gətirilməmiş Rumiyo Tehranda qəflətən dünyasını dəyişdi. Bununla, Fransa ilə yaradıla biləcək ittifaq məsələsi də bir anlaşılmazlıq kəsb etdi. Cəbhədə isə şah qoşunlarının vəziyyəti mürəkkəb olaraq qalmaqda idi. Cənubi Qafqazın müəyyən hissələri artıq Rusiyanın işğalı altına düşmüşdü.

Elə bu vaxtlarda Napoleonun birinci elçisi olan Jober haqqında məlumat alındı və şah sarayının bütün diqqəti yenidən Fransadan ehtimal edilən yardımlara dikəldi.

Tarixi ədəbiyyatda mövcud olan məlumatlardan aydın olur ki, Joberin son dərəcə ehtiyatlı hərəkətlərindən ingilislər xəbərdar ola bilmişdi və Fransa elçisinin İrana yollanması barəsindəki məlumatı onlara ermənilər vermişdilər. Tarixi ədəbiyyatda ingilislərin xeyrinə casusluq edən ermənin adı Ovanes Pitkarn kim göstərilmişdir. Ovanes Təbriz ermənilərindən idi və Abbas Mirzənin ətrafı ilə müəyyən əlaqələrə malik idi. Elə Təbrizdə ikən o, iki fransalı elçinin müxtəlif marşrutlarla şah sarayına gələcəyi barədə məlumat göndərmişdi (38).

Bu casusluğun nəticəsi idi ki, Jober Bəyaziddə həbs edildi və bir neçə ay həbsdə qalmalı oldu. Bu barədə xəbər Abbas Mirzəyə çatandan sonra onu əsirlikdən azad etmək mümkün oldu. Jober əvvəlcə Təbrizə gəldi, bir neçə gün Abbas Mirzənin yanında qaldı. Sonra isə şahla görüşmək üçün Soltaniyyə çəməninə yollandı (39).

1806-cı ilin iyun ayında Jober Tehrana yetişdi. Yolda rastlaşdığı çətinliklər, həbs yorğunluğu və s. Joberi əldən saldı. Tehranın klimatının namünasibliyi də onun səhhətinə mənfi təsir göstərdi. Buna baxmayaraq Jober çox tezliklə şah tərəfindən qəbul olundu və Napoleonun yazdığı məktub ona təqdim edildi. Şah Napoleonun elçisini çox böyük məmnunluqla qəbul etdi. Çünki bu görüş şahın ümidlərinə bir aydınlıq gətirə bilərdi. Məktubda yazılanlar isə Napoleonla ittifaq yaradılmasının mümkünlüyünə ümidi xeyli artırdı.

Napoleon Jober vasitəsilə Fətəli şaha kifayət qədər geniş bir məktub göndərmişdi. Məktubunun əvvəlində Napoleon dünyada baş verənləri diqqətlə izlədiyini, kimlərin köməyə ehtiyacı olduğunu bildiyini qeyd edirdi. Sonra o yazırdı ki, Fətəli şahın hansı köməyə ehtiyacı olduğunu onun öz dilindən eşitmək istəyir. Napoleon İranın tərifini edir və belə bir ölkənin yaxşı hökumətə layiq olduğunu vurğulayırdı. Bu məktubun maraqlı məqamlarından biri Napoleonun Nadir şah haqqında fikir söyləməsi idi. O yazırdı: "Nadir şah böyük cəngavər idi və əlində böyük bir qüdrət toplaya bilmişdi. O, fitnəkarlar qarşısında qorxmaz, öz qonşuları qarşısında isə dəhşət yaradan idi, düşmənləri üzərində qələbə çaldı, iftixarla padşahlıq etdi. Lakin uzaqgörən deyildi. Özü haqqında və gələcəyi haqqında fikirləşmədi " (40).

Sonra Napolein yazırdı ki, xidmətçilərindən birini onun yanına göndərir ki, fikirlərini ona çatdırsın. Napoleon öz elçisinə inandığını və onun vasitəsilə Fətəli şahın fikirlərini öyrənmək istədiyini bildirirdi. Şahın fikirlərini öyrənəndən sonra isə müvafiq əlaqələri qurmaq olardı. Napoleon sonra yazırdı ki, bu dünyada hamının bir-birinə ehtiyacı vardır. O vəd edirdi ki, şahın fikirləri ilə tanış olandan sonra iki ölkə arasındakı münasibətlərə yenidən baxıla bilər.

Joberin sonradan çap olunmuş xatirələrində Fətəli şahla olan görüşü haqqında qeydlər də vardır. Fransa elçisinin sözlərinə görə, danışıqlar zamanı Fətəli şah dəfələrlə fransalılara heyranlığını, Napoleonun əzəmətinə vurğunluğunu ifadə etdi və sonra da ruslara nifrətini, ingilislərə isə narazılığını bəyan etdi. Jober bildirirdi ki, Fətəli şah Napoleonla ittifaq bağlamağa razı olduğunu bildirməklə öhdəsinə götürürdü ki, Fransa imperatorunun xəbəri olmadan Rusiya ilə heç də danışıqlara və sülh müqaviləsinə getməyəcəkdir. Qacar şahı eyni zamanda ümid etdiyini bildirirdi ki, Fransa imperatoru da qacarların marağını nəzərə almadan ruslarla heç bir danışığa getməyəcəkdir. Joberin yazdığına görə, Fransa ilə əməkdaşlıq naminə Fətəli şah Hindistanda İngiltərəyə düşmən olan dairələrin qiyam qaldırmasına öz köməyini göstərəcəkdir. Fətəli şah sonra onu da bildirirdi ki, Napoleonun maraqları indi onun da maraqlarıdır və Napoleona böyük ümidlər bəsləyir (41).

Joberin Tehrana səfəri şah sarayında da Fransanın köməyinə müəyyən ümidlər yaratdı. Bu baxımdan Joberin səfəri Rumiyonun səfəri ilə müqayisədə konkretliyi ilə seçilirdi. Joberin səfərinin nəticələrindən biri də o oldu ki, fransalı elçi şah sarayını Fransaya öz elçisini göndərməyə razı saldı. Bu elçi şah sarayının marağında olduğu məsələlərin müzakirəsini aparmaqla Napoleonla müqavilə də imzalaya bilərdi. Fətəli şah bu təklifi qəbul etdi və Mirzə Məhəmməd Rza xan Qəzvinini Joberlə birlikdə Fransaya göndərdi. Mirzə Məhəmməd Rza xan eyni zamanda Fətəli şahın məktubunu Napoleona çatdırmalı idi (42). Tehranda olduğu vaxt Joberin də səhhəti pisləşdi. Onun da Rumiyo kimi Tehranda dünyasını dəyişə biləcəyindən ehtiyatlanan Fətəli şah onu yola salmağı qərara aldı.

Joberin Tehrana yetişməsi ərəfəsində şah sarayı bir daha imzalanan müqaviləyə əsasən İngiltərədən kömək almağa cəhd göstərdi. 1806-cı ilin may ayında Fətəli şah elçisi Məhmməd Nəbi xanı Hindistandakı ingilis hakiminin yanına göndərdi. Şah elçisinin ingilis hakiminə apardığı məktubda Fransa nümayəndələrinin Tehrana gəlməsi haqqında məlumat verilir və bir daha ingilislərdən hərbi yardım göstərməsi xahiş olunurdu. Amma şah sarayının bu cəhdi də uğursuz oldu və ingilislər Rusiyaya qarşı Cənubi Qafqazda aparılan müharibədə şah sarayına kömək göstərməkdən boyun qaçırdı (43).

Bununla da şah sarayının İngiltərəyə olan az-çox ümidlərinə son qoyuldu və bütün diqqət Fransaya tərəf istiqamətləndirildi.

Hadisələrin şahidi və Rusiya ilə müharibənin salnaməçisi Mirzə Məhəmməd Sadıq Vəqayeneqar da yazırdı ki, Fransa ilə kifayət qədər ümidverici münasibətlərin formalaşdığı bir dövrdə belə şah sarayı bir daha İngiltərə ilə əməkdaşlığın mümkünlüyü məsələsini aramağa çalışdı. Bu

məqsədlə sədr-əzəm Mirzə Şəfinin və Abbas Mirzənin razılığı əsasında Rusiya təcavüzünün qarşısının alınması ilə bağlı kömək üçün İngiltərəyə müraciət edildi. Lakin yenə də ingilislərdən konkret cavab alınmadı və onda ittifaq anlaşmasının imzalanması üçün şah sarayı öz nümayəndəsini Napoleonun yanına göndərməyi qərara aldı (44).

Şah sarayının Napoleonla əlaqələr yaratmaq cəhdləri Rusiya tərəfindən də diqqətlə izlənilirdi. Rusiya ilə Fransa arasındakı münasibətlərin mürəkkəbləşməsi Rusiyaya imkan vermirdi ki, Cənubi Qafqaza kifayət qədər qoşun göndərə bilsin və şah sarayının bu bölgəyə olan iddialarının qarşısını bir dəfəlik alsın. Bu dövlətin Cənubi Qafqazdan geri çəkilmək niyyəti isə yox idi. Ona görə Rusiya da bölgədəki maraqlarını qorumaq üçün şah sarayına nümayəndə heyəti göndərməyi və Cənubi Qafqaz məsələsini danışıqlar yolu ilə həll etməyi qərara aldı. Stefanov adlı birisi tərəfindən rəhbərlik edilən həmin nümayəndə heyəti 1806-cı ili aprelində Tehrana gəldi. Özü ilə çoxlu hədiyyələr gətirən Stefanovun əsas məqsədi o idi ki, Rusiya ilə şah sarayı arasında müqavilə imzalansın və həmin müqaviləyə əsasən Rusiyanın nəzarəti altına keçən Gürcüstan, Cənubi Qafqaz və Dağıstana şah sarayı daha heç bir iddia irəli sürməsin. Mənbələrdə olan məlumata görə, şahın bu təklifə cavabı birmənalı və qəti oldu. O bildirdi ki, sülh məsələsi istisna deyil. Amma nə qədər ki, ruslar işğalçılıqdan əl çəkməyiblər Rusiya dövlətinə qarşı düşmənçiliyi və inamsızlığı aradan qaldırmaq mümkün olmayacaq (45).

Bu sərt cavabdan sonra saray əyanları şaha məsləhət bildilər ki, Rusiyaya qarşı dərhal müharibənin yeni mərhələsini başlamasın. Təmkin göstərilsin, bəlkə Rusiya məsələnin nə yerdə olduğunu anlayıb Cənubi Qafqazda bir daha müharibəyə başlamasın. Abbas Mirzə isə bu mövqe ilə razı deyildi. O inanmırdı ki, Rusiya özünün Cənubi Qafqaz siyasətində yumşalmaya yol verə bilər. Ona görə tapşırıq göndərdi ki, hər yerdə Rusiya qoşunları ciddi müşahidə altında saxlansın.

Fransa ilə formalaşmaqda olan münasibətlərdən yaranan ümidlər də şah sarayını Rusiyaya qarşı sərt münasibətlər göstərməyə sövq edirdi. 1806-cı ildə şah sarayı ilə Fransa arasındakı əlaqələr daha da intensivləşdi və bu iki dövlət arasında hərbi ittifaqın yaradılması ehtimalı da artdı. Xüsusilə, Napoleonun yazdığı məktublar şah sarayında heç bir şübhə yeri qoymadı. 1806-cı il oktyabrın 18-də Napoleon yazırdı: "Russo və Jober vasitəsilə İran məqamlarına elan edin ki, indidən özlərini Fransanın müttəfiqi bilsinlər və özlərinin bütün qüvvələrini düşmənə qarşı mübarizəyə səfərbər etsinlər. Avropadakı müharibə uzun müddət davam edə bilməz. Asiyadakı müharibə də oxşar şəkildə və oxşar qüvvələrlə aparılsa tezliklə başa çatacaqdır. Həmin müharibə Rusiyanın tutduğu Gürcüstanı və Xəzər sahili vilayətləri gərək bu

ölkənin istibdadından azad etsin. Fransa İranı müharibə vaxtı da, sülh vaxtı da tək buraxmayacaqdır " (46).

Fransa nümayəndəsi Javer geri qayıdan kimi Fətəli şahla görüşü və Fətəli şahdan eşitdiyi təklifləri Napoleona çatdırdı. Bu məlumatı Napoleon razılıqla qarşıladı. Çünki Qacar sarayı ilə formalaşmaqda olan münasibətlər onun strateji niyyətlərinə cavab verirdi. Qacar sarayı ilə əlaqələrin daha da möhkəmləndirilməsi və bu əlaqələrin hərbi-siyasi müttəfiqlik səviyyəsinə çatdırılması üçün 1807-ci ilin əvvəllərində Napoleon daha iki nümayəndəsini Tehrana göndərməyi qərarlaşdırdı. Onlardan biri Napoleonun qardaşı oğlu Loanin Lablanş, o biri isə Ruman Bonten idi. Bonten hərbi mühəndis idi və Napoleonun tapşırıqlarına əsasən o, şah qoşunlarının cəbhədəki vəziyyəti ilə tanış olmalı idi. Nümayəndələrin hər biri ayrı-ayrılıqda Napoleonun məktubunu aparırdı (47). Joain Lablanş sonradan general Qardanın gəlişinə qədər Tehranda qaldı və əslində həmin müddət ərzində Fransa sarayının Qacar sarayı yanındakı nümayəndəsi vəzifəsini icra etdi.

Bu nümayəndələr vasitəsilə Napoleon tərəfindən şaha göndərilmiş məktublardan biri 1807-ci il yanvar ayının 17-də imzalanmışdı. Bu zaman Napoleon Şərqi Avropada müharibə aparmaqla Polşanı nəzarət altına almışdı. Məktubunda Napoleon əvvəlcə Polşada əldə etdiyi uğurlar barəsində Fətəli şahı məlumatlandırır, Prusiyanın fəth olunması haqqında xəbər verirdi. Napoleona görə, onun Avropada apardığı müharibə Rusiyanı da gücdən salmışdı və ona görə Fətəli şaha təklif edirdi ki, qoşunları ilə Rusiya qoşunları üzərinə güclü hücuma keçsin, Gürcüstan və digər ərazilərdən rusları sıxışdırsın, rusları Xəzər ətrafından geri qovsun. Sonra Napoleon təklif edirdi ki, Fransa, Osmanlı və Qacar dövlətləri arasında üçlü ittifaq yaradılsın və bu üçlü ittifaq düşmənlərə qarşı birgə mübarizə aparsın. Napoleon məktubunun sonunda yazırdı ki, belə bir ittifaqın yaradılması üçün Fətəli şahın elçisinin gəlməsini gözləyir (48).

Belə üçlü ittifaqın yaradılması üçün Napoleon Osmanlı sarayına da təklif göndərdi. Napoleon III Səlimə göndərdiyi məktubunda Osmanlı soltanını İranla çox əsirlik qarşıdurmaya son qoymağa və Qacar dövləti ilə birlikdə Rusiyaya qarşı birgə mübarizəyə çağırırdı. Napoleon eyni zamanda Osmanlı soltanından xahiş etdi ki, Berlindəki Osmanlı səfirini onun yanına göndərsin və Qacar sarayının elçisi ilə birlikdə üçtərəfli müttəfiqlik müqaviləsi bağlansın (49).


Mövcud məlumatlara görə, Fətəli şah bu təklifə müsbət yanaşdı və Napoleonun görüşünə yollanmış Mirzə Məhəmməd Rza xana da bu məzmunda müqavilənin imzalanmasına göstəriş verdi. Napoleonun yazışmalarında olan faktlar da bunu təsdiq edir. Napoleonun Fətəli şahın

elçisi ilə görüşü 1807-ci il aprel ayının 27-də baş verdi. Bu görüş zamanı da heç şübhəsiz ki, üç dövlət arasında müttəfiqlik anlaşmasının imzalanması məsələsi müzakirə olundu. Napoleona görə, Osmanlı dövləti ilə İran arasında uzun müddətdir ki, xoş münasibətlər olmasa da ümumi düşmən olan Rusiyaya qarşı mübarizə onları yaxınlaşdıra bilər. Bununla belə, Osmanlı dövləti ilə Qacar dövlətini bir-birinə yaxınlaşdırmaq cəhdi baş tutmadı və bunun nəticəsi kimi də üç dövlət arasında ittifaq müqaviləsinin imzalanması da alınmadı. Onda qərara alındı ki, Fransa həm Osmanlı dövləti ilə, həm də Qacar sarayı ilə ayrıca müqavilə imzalasın. 1807-ci il may ayının 4-də Şərqi Prusiyanın Finkinşteyn məntəqəsində Fransa ilə Qacar sarayı arasında müqavilə imzalandı. Tarixi ədəbiyyatda Finkinşteyn müqaviləsi kimi tanınan bu sənədi Fransa tərəfindən nazir More, Qacar sarayı tərəfindən isə Məhəmmədəli Mirzə və elçi Mirzə Məhəmməd Rza xan imzaladılar. Bu müqavilə Fransa ilə Qacar sarayı arasında münasibətləri və iki dövlətin Rusiyanın Qafqazdakı təcavüzünə qarşı əməkdaşlıq niyyətlərini rəsmiləşdirdi (50).

Farsdilli tarixi ədəbiyyatda olan məlumata görə, Osmanlı dövləti Qacar dövlətinə qarşı bir sıra iddialar irəli sürdü ki, bu da üçtərəfli müqavilənin imzalanmasına imkan vermədi. Bu iddiaların arxasında sərhəd məsələləri də var idi. Guya ərazi iddialarının Osmanlı dövlətinin xeyrinə həll edilməsi üçün Osmanı səfiri Napoleondan da köməklik göstərməyi xahiş etdi. Fransa imperatoru isə iki dövlət arasında olan narazılıqların aradan qaldırılmasından daha çox onların birgə və ayrı-ayrılıqda köməyindən öz maraqları naminə istifadə edilməsi haqqında düşünürdü. Fransa Osmanlı dövlətinin Rusiyaya qarşı qoşun işlədəcəyi halda hətta Gürcüstanın, Krımın və Qara dənizin Osmanlı dövlətinin nəzarətinə keçməsinə çalışacağını da bəyan etdi (51).

Napoleonun yanına göndərilən nümayəndə heyətinə Mirzə Rzaxan Qəzvini rəhbərlik edirdi. Həmin nümayəndə heyəti Napoleonla Polşanın Finkinşteyn məntəqəsindəki düşərgəsində görüşdü. Napoleon, şah sarayının nümayəndə heyətini mehribanlıqla qarşıladı və 1807-ci ilin may ayının 4-də iki ölkə arasında Finkinşteyn anlaşması kimi tanınan ittifaq anlaşması imzalandı. Bu anlaşma Fransa ilə Qacarlar sarayı arasında formalaşan münasibətləri iki dövlətin Rusiyanın Qafqazdakı təcavüzünə qarşı əməkdaşlığını rəsmiləşdirdi (52).

Finkinşteyn anlaşması 16 maddədən ibarət idi. Anlaşmanın 2-ci maddəsində Fransa dövləti İranın istiqlalına hörmətlə yanaşdığı, 3-cü maddəsində Gürcüstanın İrana məxsusluğu, 4-cü maddədə Gürcüstanın rus qoşunları tərəfindən tərk edilməsi üçün Fransa tərəfindən lazımi cəhdlərin göstəriləcəyi, 5-ci maddədə şah sarayında Fransanın səfirliyini təsis ediləcəyi bildirilirdi.



Qacar sarayının nümayəndə heyətinin Napoleonla görüşü

6-cı maddədə qeyd olunurdu ki, şahın öz piyada qoşunlarının, toplarının, hərbi istehkam xidmətinin Avropa üslubunda qurulması xahişinə əsasən Fransa imperatoru şah qoşunları üçün səhra topları, süngülü tüfənglər hazırlamağı və həmin silahların Avropa qiymətləri ilə satılmasını öz üzərinə götürür. 7-ci maddədə təsbit olunmuşdu ki, şah öz qoşunlarının yenidən qurulması, piyadaların təkmilləşdirilməsi, artilleriyanın yaradılması və istehkam xidmətinin sahmana salınması üçün nə qədər Fransa zabitinə ehtiyacı olsa, Fransa tərəfi həmin zabitləri göndərəcəkdir. Anlaşmanın 9-cu maddəsində də şah sarayına köməklər göstəriləcəyi ilə bağlı öhdəliklər var idi. Bu maddədə bildirilirdi ki, İngiltərə və Rusiya Fransa ilə İrana qarşı hansı ittifaqa girməli olsalar, Fransa ilə İran da həmin ittifaqa qarşı oxşar ittifaq yaradacaqlar. Eyni zamanda Fransa və ya İranın ayrılıqda təhlükəyə məruz qaldığı vaxt onlar bir-birinə məlumat verməli və düşmənə qarşı birgə mübarizə aparılmalı idi (53).

Anlaşmanın digər maddələrində isə İranın Fransa qarşısındakı öhdəlikləri təsbit olunmuşdu. 8-ci maddəyə əsasən şah sarayı İngiltərə ilə bütün siyasi və ticarət əlaqələrini kəsməli, tezliklə İngiltərəyə qarşı müharibə elan edilməli və bu dövlətlərin dostluq münasibətlərinə son qoyulmalı idi. Şah sarayı eyni zamanda Hindistana göndərdiyi elçisini geri çağırmalı, Fars körfəzi limanlarındakı ingilis şirkətlərinin fəaliyyətinə son qoymalı, ingilislərlə istər dəniz vasitəsilə, istərsə də quru vasitəsilə olan əlaqələr dayandırılmalı və İngiltərənin hər hansı bir səfirini qəbul etməməli idi. 10-cu maddəyə əsasən şah sarayı əfqanları və Qəndəhar əhalisini ingilislərə qarşı müharibəyə səfərbər etməyə çalışmalı idi. 11-ci maddəyə əsasən Fransa donanmasının gəmiləri İran limanlarına yaxınlaşdığı halda onların qəbuluna lazımi şərait yaradılmalı idi. 12-ci maddəyə əsasən isə şah öhdəsinə götürməli idi ki, Fransa qoşunları quru ilə Hindistana hücum etməyi qərara aldığı təqdirdə bu ölkənin qoşunlarının İran ərazisindən keçməsinə şərait yaratsın və Fransa qoşunlarına lazımi köməklik göstərsin (54).

Toxunulan maddələr, anlaşma ilə tərəflərin üzərinə qoyulan öhdəliklərin əsas məzmununu özündə əks etdirirdi. Şahın məqsədi Rusiyanı Cənubi Qafqazdan sıxışdıraraq bu bölgəni öz nəzarəti altına almaq idisə, Fransanın da məqsədi İrana qarşı müəyyən güzəştlərə getməklə bu ölkə üzərindən Hindistana hücum icazəsini almaq idi. Şah sarayı Gürcüstanın və Cənubi Qafqazın digər işğal olunmuş ərazilərindən Rusiyanın sıxışdırılması üçün İngiltərəyə qarşı müharibə elan etməyi, Fransa qoşunlarının İran üzərindən Hindistana yürüş etməsinə şərait yaradılmasını öz üzərinə götürürdü. Ən başlıcası isə Fətəli şah Napoleon kimi qüdrətli bir imperator və sərkərdə ilə ittifaqa girirdi. Bu məsələnin

psixoloji tərəfi də şah üçün çox əhəmiyyətli idi. Çünki bu ittifaq qərb ölkələrində, o cümlədən də Rusiyada müəyyən bir narahatlıq yaratmaya bilməzdi.

Fransa tərəfi eyni zamanda şah qoşunlarının yenidən qurulmasına kömək göstərilməsini öz üzərinə götürürdü. Bu məsələdə Fransa özü də kifayət qədər maraqlı idi. Çünki güclü şah qoşunları Fransanın böyük düşməni olan Rusiyanın zəiflədilməsində müəyyən rol oynaya bilərdi. Əvəzində isə Fransa gələcək böyük fəthləri üçün özünə zəmin yaratmış oldu. Rusiyanın zəifləməsi isə Fransanın istər Avropa, istərsə də Asiya siyasətinin çətinliklərini aradan qaldıra bilərdi. Napoleon Fransanın xarici işlər naziri Taleyrana belə yazırdı: "Siz bilirsiniz ki, mən İranla ittifaqa nə qədər meylliyəm....Siz səfirlə söhbət edin (şahın səfiri nəzərdə tutulur-red.) və ona deyin ki, mən 10-12 min İran sərbazından ibarət bir korpusun təşkili üçün lazım olan qədər zabiti o ölkəyə göndərərəm. Bu korpus iki ay ərzində Rusiya ilə döyüşə hazır olacaqdır" (54a). Onun sözlərinə görə Tehrana göndəriləcək Fransa hərbi heyəti üç aydan sonra Rusiya və İngiltərəni də heyrətə gətirəcəkdi.

3. General Qardanın İran missiyası

Fransa ilə Qacar sarayı arasında aparılan danışıqların və imzalanan müqavilənin ilk əməli nəticələrindən biri bu oldu ki, Napoleon general Qaranın rəhbərliyi altında İrana hərbi nümayəndə heyəti göndərməyə razı oldu. Şah qoşunlarının qısa müddət ərzində yeni tələblər üzərində qurulması üçün Qacar sarayının belə bir heyətin göndərilməsinə ehtiyacı var idi. Həm Fətəli şah, həm də Abbas Mirzə şah qoşunlarının yenidən qurulmasının zəruriliyini qəbul edirdilər və Fransa ilə formalaşmaqda olan münasibətlər bu istiqamətdə yeni imkanlar açа bilərdi.

General Qardan Fransa imperatorunun etibar etdiyi şəxslərdən biri idi və Napoleonun şərq siyasətinin həyata keçirilməsində onun təcrübəsinə müəyyən ümidlər bağlanılırdı. Şərqlə tanış olduğu bildirilən general Klod Metyu Kent Qardan 1766-cı ildə anadan olmuşdu. Gənc yaşlarında hərbi xidmətə qoşulmuş və Fransa inqilabından əvvəl piyada qoşunları üzrə kapitan rütbəsi almışdı. Tarixi məlumatlara görə, 1792-ci ildən etibarən onun daha fəal hərbi həyatı başlandı və 1799-cu ildə general rütbəsinə layiq görüldü. 1804-cü ildə general Qardan Fransa imperatorunun mühafizə dəstəsinin rəisi təyin edildi. 1805-ci ildən etibarən isə o, Napoleonun adyutantı oldu. Qardanın əcdadlarından biri şərq ölkələrində Fransa konsulu vəzifəsini yerinə yetirmişdi. Ona görə də şərq limanlarında bu adı hələ də xatırlayanlar var idi (55).

General Qardan İran ərazisində olan missiyasına şah qoşunlarının yenidən qurulmasına kömək görüntüsü verilsə də, o eyni zamanda Napoleonun gizli tapşırıqlarını da yerinə yetirməkdə idi. General Qardan İran ərazisində olduğu zaman buradan Hindistana hücum imkanlarını araşdırmalı və bu hücumun təşkili üçün zəmin yaratmalı idi. Eyni zamanda Fransanın düşmənləri olan Rusiyanın və İngiltərənin zəiflədilməsi üçün lazımi tədbirlərin həyata keçirilməsi də general Qardanın vəzifələrinə daxil idi. Bu məqsədlə liman şəhərləri, Hindistana aparan yollar öyrənilməli idi. Napoleon açıq etiraf edirdi ki, İran bizim üçün bir tərəfdən Rusiyaya qarşı mübarizə meydanıdır, bir tərəfdən də Hindistan üzərinə hücum meydanıdır.

General Qardanın heyətinin hazırlanıb İrana göndərilməsinə xüsusi diqqət yetirilirdi. Əvvəla, bu heyətin tərkibinin seçilməsi nəzarət altında saxlanılırdı. Heyət həm çoxsaylı idi, həm də onun tərkibinə müxtəlif ixtisaslı hərbçilər daxil edilmişdilər. Qacar qoşunlarının yenidən qurulması işi ilə də bu hərbçilər məşğul olmalı idilər. Nümayəndə heyətinin tərkibinə seçilənlərin öz ixtisasları üzrə lazımi təcrübəyə malik olması nəzərə alınırdı.

General Qardanın heyəti iki dəstədən ibarət idi. Birinci dəstə siyasətçilərdən və diplomatlardan təşkil olunmuşdu və bu dəstə Fransanın Qacar sarayındakı səfirliyi funksiyasını öz üzərinə götürməli idi. İkinci dəstə isə hərbçilərdən ibarət idi. Bu dəstəyə ümumqoşun zabitləri, topçular, istehkamçılar, topoqraflar, hərbi həkimlər və başqaları daxil idi. Şah sarayının xahişlərini nəzərə alaraq Napoleon hələ Finkinşteyn anlaşması imzalanmazdan əvvəl, 1807-ci il aprel ayının 12-də İrana hərbi heyət göndərilməsi haqqında əmr imzaladı. Amma belə bir əmrin imzalanması iyun ayınn əvvəlində elan olundu (56). Finkinşteyn anlaşmasının imzalanması isə belə bir əmr üçün hüquqi baza oldu. Belə bir heyətin formalaşdırılması və ona rəhbərlik edilməsi general Qardana tapşırıldı.

Doğrudur, tarixi araşdırmalarda Finkinşteyn anlaşmasında şah sarayının öz üzərinə götürdüyü öhdəliklər qeyri-real sayılır. Napoleonun İranın ağır daxili vəziyyətindən xəbərdar olduğu və şah qoşunlarının ingilislərə qarşı müharibə etmək iqtidarında olmadığı qeyd edilir (57).

Bununla belə, general Qardanın rəhbərliyi altında hərbi nümayəndə heyətinin İrana göndərilməsini anlaşmanın əməli əhəmiyyəti kimi qiymətləndirmək olar. Qacar sarayı ilə Fransa arasında sonradan tamamilə fərqli münasibətlərin yaranması üzündən general Qardan öz missiyasını sona qədər yerinə yetirə bilməsə də, hər halda onun heyətinin

köməyi ilə Qafqaz cəbhəsinə göndəriləcək qoşunların təkmilləşdirilməsi sahəsində xeyli əməli işlər görüldü.

General Qardanın heyətinin yola düşməsindən əvvəl Napoleon tərəfindən onun üçün xüsusi bir təlimat hazırlandı. Finkinşteyn anlaşmasının imzalanmasından 11 gün sonra imzalanmış bu təlimatda general Qardanın qarşısında dayanan vəzifə və tapşırıqlar təsbit olunmuşdu (58). Təlimatda general Qardanın Fransa sarayı ilə əlaqə saxlamaq yolları və onun hərəkət marşrutu göstərilmişdi. Qeyd olunurdu ki, general Qardan İstanbuldan keçməklə İrana doğru irəliləməli idi. Napoleon təlimatın əvvəlində general Qardana topladığı məlumatların Fransaya göndərilməsi yolları, vasitələri və üsulları haqqında da öz məsləhətlərini verirdi. Napoleon general Qardana tapşırdığı məsələləri Rusiya-İran münasibətlərinin xarakteri, Fransanın İrana yardımı və Fransanın Hindistana yürüş planları ətrafında qruplaşdırmaq olar. O xatırladırdı ki, İran Rusiya ilə müharibə vəziyyətindədir, Rusiya Gürcüstanı işğal edib və rus sarayı indiyə kimi Qacarlar hakimiyyətini rəsmən tanımayıb. Onun fikrincə, bu məqamları qabartmaqla İran daxilində, şah sarayında Rusiyaya qarşı təbliğatı genişləndirmək olar. General Qardan eyni zamanda çalışmalı idi ki, Qacar sarayı ilə Osmanlı dövlətinin ittifaqına nail olsun və ittifaqa girmiş bu dövlətlər birlikdə Qara dənizlə Xəzər dənizi arasında Rusiyaya qarşı müharibə aparsınlar. Çünki Rusiya əslində dövlətlərin hər ikisi üçün eyni dərəcədə təhlükə törədirdi.

Təlimatın sonunda Napoleon bir daha xatırladırdı ki, general Qardanın qarşısında dayanan başlıca vəzifələrdən biri Fransa, Osmanlı və İran üçbucağının təşkilinə və Rusiya əleyhinə ittifaqın yaradılmasına nail olunmasıdır. Napoleon hətta Monqolustana qədər əl uzatmaq arzularını da gizlətmirdi. Belə böyük ərazilərin nəzarət altına alınması onun fikrincə, Rusiyanın imkanlarını xeyli məhdudlaşdırmış olardı.

General Qardan, şah sarayının əyanlarının nəzərinə çatdırmalı idi ki, İran Rusiyanın və ingilis müstəmləkələrinin təzyiqinə məruz qalmışdır. İngiltərənin və Rusiyanın işğalçılığı nə qədər genişlənsə, İrana olan təzyiq dı o qədər arta bilər. Napoleona görə şah sarayı ingilis işğalına qarşı vaxtında müqavimət göstərməsə və ya ingilislərə qarşı mübarizə aparan Fransaya yardım göstərməsə, onda İran İngiltərənin müstəmləkəsinin şimal hissəsinə çevrilə bilər. Napoleonun fikrincə, İran Rusiyanın təbii düşməni idi və general Qardan bunu öz fəaliyyətində nəzərə almalı idi.

Şah qoşunlarına təlim verilməsi məsələsi də başlıca vəzifə kimi general Qardana tapşırıldı. Napoleon ondan tələb edirdi ki, döyüşlər zamanı əldə etdiyi bütün təcrübəni şah qoşunlarına öyrətsin və şah

qoşunlarının komandanı Abbas Mirzəni öz müttəfiqi bilsin. Napoleonun tələbinə əsasən şah qoşunları rus qüvvələri ilə döyüşə biləcək bir səviyyəyə qaldırılmalı və Avropada müharibə aparılması üçün Rusiyanın Qafqazdakı qüvvələrinin azalmasından istifadə edilməli idi. Bu şəraitdən istifadə etməklə ruslara həm zərbə endirmək, həm də onları Cənubi Qafqazda işğal etdikləri ərazilərdən çıxarmaq olardı. Napoleonun fikrincə, qoşunları qüvvətlənəcək Qacar sarayı imkan verməməli idi ki, ruslar bu dağlardan cənuba doğru irəliləsin.

Napoleon general Qardana tapşırırdı ki, onun heyətinə daxil olan zabitlər də yeni döyüş taktikasını, istehkamların tikilməsinin yeni qaydalarını şah qoşunlarına öyrətsinlər. Napoleona görə, hərbi təlim-tərbiyə məsələsini yüksək səviyyədə icra etməklə həm Rusiyaya müqavimət göstərəcək qoşun formalaşdırıla bilər, həm də bu proses dövründə ölkə ilə bağlı kifayət qədər hərbi məlumatlar toplana bilər. General Qardana həm də icazə verilirdi ki, şah qoşunlarının təchizi üçün Fransadan süngülü tüfənglər və toplar alınması haqqında şah sarayı ilə müqavilələr imzalasın. Şah qoşunlarına satılan silahların qiymətində güzəşt edilməli və bu qiymətlər Fransadakı daxili qiymətlərdən baha olmamalı idi. Napoleon qeyd edirdi ki, şah sarayına satılacaq silahların qiymətindənsə, onların bacarıqla işlədilməsi daha əhəmiyyətlidir. Silahların nə vaxt alınması, hara gətirilməsi imzalanan müqavilədə nəzərdə tutlmalı idi. Napoleon general Qardana icazə verirdi ki, satılan silahların puluna İrandan ərzaq əşyaları alınsın və silah daşıyan gəmilər vasitəsilə geri göndərilsin. Fransa imperatoru şah qoşunlarına 10 min ədəd tüfəngin və 30 ədəd topun satılmasını mümkün sayırdı.

Napoleon tapşırdı ki, Fransa hərbçiləri yalnız şah qoşunlarına təlim verməklə kifayətlənməsin və onlar öz sahələri üzrə lazımi məlumatlar toplasınlar. O tələb edirdi ki, hərbi və dəniz mühəndisləri, topçular keçdikləri yolları, rastlaşdıqları istehkam qurğularını, Fars körfəzində və Xəzər dənizində olan limanları öyrənsinlər və onların xəritəsini hazırlasınlar. Sonra əldə edilən məlumatlar xəritə üzərində təsbit edilərək Fransaya göndərilməli idi.

General Qardan bir sıra digər tapşırıqlar da aldı və onun seçdiyi heyət tapşırıqların mahiyyətinə uyğun olaraq toplanmışdı. General Qardan az sonra səfərə yola düşmək hazırlığına başladı. Finkinşteyn müqaviləsinin imzalanmasından təxminən bir ay sonra, iyun ayının 8-də general Qardan Tehrana yola düşdü.

Mirzə Rzaxan Qəzvini Finkinşteyn anlaşmasının imzalandığı günlərdə Fransa sarayının əyanları ilə bir sıra danışıqlar da apardı. Şahın tapşırığına əsasən, Mirzə Rza xan şah qoşunlarının silaha olan ehtiya-

cının ödənməsi, istehkam xidmətinin fransalılar vasitəsilə yenidən qurulması üçün fikir mübadiləsi apardı. Taleyranın yazışmalarına əsasən belə bir qənaətə gəlmək olar ki, Mirzə Rza xan Fransadan 10 min ədəd süngülü tüfəng istəməklə bərabər, bu tüfənglərin İran daxilində istehsalının qurulması arzusunu da bildirmişdi (59).

General Qardanın rəhbərliyi altında müxtəlif ixtisaslı zabit heyətinin İrana göndərilməsi haqqında Napoleonun qərarı isə şah elçisini xüsusilə sevindirdi. Finkinşteyn anlaşmasının imzalanmasından sonra Fransa hərbi nümayəndə heyətinin Tehrana göndərilməsi xəbəri Fətəli şahı və Abbas Mirzəni də xüsusilə sevindirdi və onlarda Napoleonla hərbi ittifaqın reallığına olan ümidləri daha da gücləndirdi. Çünki bu ittifaq Rusiyanın Cənubi Qafqazdakı təcavüzünün qarşısını dayandırmağa real yardım ola bilərdi.

Finkinşteyn anlaşmasına sadiqliyini bildirmək və onun icrası istiqamətində ilk addımı atmaq məqsədilə Fətəli şah Fransa nümayəndələri ilə 20 min ədəd tüfəng alınması haqqında müqavilə imzaladı və Xark adasını da fransalıların ixtiyarına verdiyini bəyan etdi. Amma bu alışlar son dərəcə gizli şəkildə həyata keçirildi ki, ingilislər bundan xəbər tutmasınlar (60).

General Qardanı müşayiət edən 14 nəfərlik hərbi nümayəndə heyəti 1807-ci ilin sentyabrında Ərzuruma yetişdi və Ərzurum sərəsgəri Yusif paşa tərəfindən çox hörmətlə qarşılandı. Burada çox dayanmadan general Qardan Mirzə Rza xan Qəzvininin müşayiəti ilə Təbrizə doğru istiqamət götürdü. General Qardan Abbas Mirzə tərəfindən çox təntənəli şəkildə qarşılandı və o, Napoleonun məktubunu Abbas Mirzəyə təqdim etdi. Nümayəndə heyəti Təbrizdə qaldığı günlər ərzində general Qardanla Abbas Mirzə arasında bir sıra müzakirələr keçirildi, fransalı hərbçilər qoşunların vəziyyəti ilə tanış oldular, qoşun düşərgələrinə baş çəkdilər, şah qoşunları haqqında müəyyən məlumatlar əldə etdilər. Bir neçə gündən sonra nümayəndə heyəti Tehrana doğru istiqamət götürdü. Abbas Mirzə fransalı hərbçilərdən birinin onun yanında qalmasını xahiş etdi (61).

General Qardan və onun nümayəndə heyəti 1807-ci il dekabrın 4-də Tehrana daxil oldu. Burada da o, şah sarayı tərəfindən böyük ehtiramla qarşılandı. Əvvəlcə, şah Finkinşteyn müqaviləsini təsdiq etdi, anlaşmanın şərtlərinə əsasən İran ərazisindəki ingilis ticarət şirkətlərinin ölkədən çıxarılmasına başlandı, general Qardanla ticarət müqaviləsi imzalandı (62).

Qacarların tarixi haqqında mötəbər mənbələrdən olan "Məəssər-e Soltaniyyə" əsərinin müəllifi Ə.Dünbəli general Qardanın heyətinin Təbrizə yetişməsi və Abbas Mirzə tərəfindən qarşılanması haqqında müxtəsər qeydlər etmişdir. Amma bu müxtəsər qeydlər də onu göstərir

ki, fransalı hərbçilərin gəlişinə böyük ümidlər bağlanılırdı. Fransalı heyəti müşayiət edən Mirzə Məhəmməd Rza Qəzvini Napoleonun məktubunu bu görüş zamanı Abbas Mirzəyə təqdim etdi. Abbas Mirzə öz yaxın əyanlarından birini Fransadan olan heyətin mehmandarı təyin etdi. Bir neçə gündən sonra Tehrana yola salınan general Qardana Ə.Dünbəlinin yazdığına görə, xan titulu verildi. Mənbədə qeyd olunub ki, Fransa imperatoru ya müharibə yolu ilə, ya sülh yolu ilə Rusiyanın Gürcüstandan və digər işğal olunmuş ərazilərdən çıxarmağa söz vermişdi (63). Mənbədə Napoleonun vəd verdiyi bəzi digər öhdəliklərə də toxunulmudur.

Əslində isə Napoleon rus qoşunlarının Gürcüstandan və işğal olunmuş Azərbaycan xanlıqları ərazisindən çıxarılması üçün ciddi bir addım atmadı. Onun verdiyi vədlər söz olaraq qaldı. Fransa ilə imzalanan müqavilənin Qacar sarayı üçün müsbət və əməli əhəmiyyət kəsb edən tərəfi daha çox general Qardanın rəhbərliyi altında olan heyətin İrana göndərilməsi oldu. Baxmayaraq ki, bu heyət İrana çatmazdan əvvəl Fransa artıq Rusiya ilə Tilzit sülh müqaviləsini imzalamışdı və general Qardanın heyəti də bu müqavilənin şərtlərindən irəli gələn qeyri-müəyyən şəraitdə işləməli olmuşdu. Bununla belə, Qacar qoşunlarının yenidən qurulması istiqamətində bu heyət müəyyən nəticələr əldə etməyə nail oldu.

Qacar qoşunlarının yenidən qurulması istiqamətində müxtəsər olaraq aşağıdakı işlər görüldü: Tehranda və İsfahanda iki toptökmə zavodu tikildi, əvvəllər İranda tətbiq olunmayan süngü döyüşü qaydaları öyrədildi. Qoşunlarda vahid geyim forması tətbiq olundu, piyada, atlı, topçu, istehkam qoşun növləri və qisimləri yaradıldı, dağ toplarından istifadəyə başlandı, "sərbaz" (əsgər) sözünün tətbiqinə başlandı. Yeni qoşun dəstələrinin Təbrizdə formalaşmasına başlananda yuxarıda qeyd edildiyi kimi, dövrün tanınmış şəxsi və yazıçısı, sonralar Qacar sarayının sədr-əzəmi olmuş Mirzə Əbülqasım Fərahanidən xahiş olundu ki, sıravi hərbçilər üçün yeni bir ad tapsın. Həmin dövrdə sıravi silahlılara rus sözü olan "soldat" kimi müraciət olunurdu. Fərahaninin təklifi ilə qəbul olunan "sərbaz" sözü "sər" və "baxtən" fars sözlərindən düzəldilmişdi ki, "baş qoymaq ", "baş vermək " mənasında idi. Yəni, sərbaz o şəxslər adlandırılırdı ki, onlar başlarını qurban verməyə hazır idilər (64).

General Qardanın missiyası əsasən, 1808-ci ilə təsadüf edir. Bu zaman artıq Sisianovun yerinə başqası təyin edilmiş və Cənubi Qafqazdakı rus işğalı da xeyli genişlənmişdi. Bir il ərzində Qacar qoşunlarını Rusiya qoşunları səviyyəsinə çatdırmaq sözsüz ki, mümkün deyildi. Bunun üçün İranda tələb olunan iqtisadi imkan, siyasi iradə və

yeni bir hərbi təfəkkür mövcud deyildi. Məhz bunun görə idi ki, General Qardanın həyata keçirmək istədiyi bəzi islahatlar da müəyyən subyektiv və obyektiv çətinliklərlə qarşılaşırdı.



General Qardanın heyət üzvləri

Qoşunların yenidən qurulmasında piyadaların və atlıların təşkilinə böyük diqqət yetirilirdi. Nəzərdə tutulmuşdu ki, piyadalar və atlılar əvvəlki dağınıq vəziyyətdən çıxarılsın, onların qurumlanması, idarəçiliyi, təlim-tərbiyəsi müəyyən təcrübə üzərində aparılsın. Bu vəzifənin yerinə yetirilməsi üçün Qacar qoşunlarının piyada və atlılarını və hətta onların rəhbərliyini adət etdiyi çərçivədən kənara çıxarmaq elə də asan başa gəlmədi. General Qardan heyətinin üzvü Trezel öz qeydlərində göstərirdi ki, iki fransalı zabit Təbrizə göndərildi. Bu zabitlər orada yerli atlılara Fransa süvarilərinə xas təlim verməli idilər. Amma Qacar atlılarının rəhbərlərindən olan Əmənulla xan və digər rəhbərlər yeni təlimlərə

barışmazcasına yanaşdılar və bu təlimlər müəyyən zəhmət tələb etdiyi üçün ondan imtina etdilər (65).


Qacar qoşunlarının yenidən qurulması çətinliklərindən biri onun tayfalar və elatlar üzrə toplanması idi. Yeni qoşun təlimi üçün onları əvvəlki çərçivədən çıxarmaq lazım idi və bu istiqamətdə çətinliklə də olsa müəyyən addımlar atmaq mümkün oldu.

Görülən işlər nəticəsində Azərbaycanda, İraqda (İranın cənub-qərb hissəsi nəzərdə tutulur – M.S.) və Mazandaranda yeni qüvvələr təşkil olundu. Azərbaycanda təşkil olunan qüvvələr "sərbaz ", İraq və Mazandaranda təşkil olunan dəstələrin sıravi heyəti isə "canbaz " adlandırıldı. Mövcud məlumatlara görə, sərbazların baş komandanı Abbas Mirzə, canbazların baş komandanı isə sipəhdar Yusif xan Gürcü idi (66).

Sərbazlardan təşkil olunan qüvvələrin 12 alaydan ibarət olduğu bildirilir ki, onların da hər biri 1000 nəfərdən ibarət idi. Canbaz qüvvələrinin isə 8-9 alaydan (fövc) ibarət olduğu bildirilir. Qoşunların idarəçiliyinin təkmilləşdirilməsi üçün onlar kiçik struktur vahidlərinə bölündülər və bu struktur vahidlərinin rəhbərləri üçün də uyğun rütbələr müəyyənləşdirildi (67).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqar öz əsərində yazırdı ki, general Qardanın səyləri nəticəsində qısa müddətdən sonra Azərbaycanda piyada qüvvələri yenidən təşkil edildi və onlara yeni üsüulla təlim verildi. Abbas Mirzənin təşəbbüsü ilə şahın bütün öğlanları yeni hərbi təlimin öyrənilməsinə cəlb olundular. Müəllifin yazdığına görə, 5 min nəfərlik yeni qoşun hazırlanandan sonra ilkin olaraq Abbas Mirzə onlara sıra baxışı keçirdi. Mirzə Məhəmməd Sadıq da təsdiq edir ki, Abbas Mirzənin qoşunları azərbaycanlılardan ibarət idi. Bildirilir ki, onlar tezliklə hərbi təlimlərə yiyələndilər. Yeni yaradılmış qoşunlara sıra baxışının keçirilməsində Fətəli şah da iştirak etdi. Müəllifin yazdığına görə, Fətəli şahın iştirak etdiyi sıra baxışında 70 minlik qoşun dəstəsi var idi (68).

Qoşunların yenidən qurulması Tehranda da aparılırdı. Qısa müddətdən sonra kapitan Verdye Teranda formalaşdırdığı və vahid geyimlə təchiz etdiyi 4 min nəfərlik dəstəni Fətəli şaha təqdim etdi. Bu dəstə Fətəli şahın o dərəcədə xoşuna gəldi ki, dərhal 50 min könüllünün bu qaydada hazırlanmasına göstəriş verdi. Abbas Mirzə isə qoşun təlim-tərbiyəsinin yeni təcrübəsini tətbiq etməklə bərabər, qoşun rəhbərlərini də məcbur edirdi ki, həndəsəni və istehkam işlərini öyrənsin. Yeni təlim keçmiş qoşun başçılarını Abbas Mirzə dərhal Cənubi Qafqaza göndərirdi ki, onların səyi ilə Rusiyaya qarşı aparılan döyüşlərə yeni bir məzmun gətirilsin (69).



Abbas Mirzə yeni formalaşdırılan qoşun dəstələrinə baxış keçirir

Qoşunların təlim-tərbiyəsinin aparılması üçün üç təlim mərkəzi təşkil edilmişdi. Bu təlim mərkəzləri Tehran, Təbriz və İsfahanda idilər. Fransalı hərbçilər İran ərazisində olduqları bir il iki ay ərzində bu təlim mərkəzlərində qoşunların öyrədilməsi ilə məşğul olurdular (70).

Abbas Mirzə özü də fransalılardan yeni hərbi təcrübənin öyrənilməsində iştirak edirdi. Fransalı zabitlərin rəhbərliyi altında təlim dövrləri başa çatan kimi qoşun dəstələri Rusiya qoşunları ilə döyüşlərə göndərilirdi.

Qacar qoşunlarının yenidən təşkili istiqamətində diqqət yetirilən məsələlərdən biri onun təchizat məsələsi idi. Yuxarıda qeyd edildiyi kimi, general Qardan İrana gələn kimi Fransadan tüfəng alınması haqqında müqavilə imzaladı. Həmin müqaviləyə əsasən, 20 min tüfəng, 5 min fişəng, 2500 fişəng yeri, 100 min tüfəng daşı Qacar qoşunlarına verilməli və 15 nəfər fransalı mütəxəssis də onların istifadəsini öyrətməli idi. Amma bu müqavilə icra edilməmiş qaldı. Tarixi ədəbiyyatda Qacar sarayının pulunun çatmaması, Fransa tərəfindən məsələnin uzadılması və s. məsələlər ortaya atılsa da, əslində müqavilənin icra edilməməsi siyasi məqamlarla bağlı idi. Çünki silah alış-verişi haqqında Qacar sarayı ilə general Qardan arasında müqavilə imzalananda Fransa ilə Rusiya arasında artıq barışıq imzalanmışdı. Belə güman edilirdi ki, 1807-ci ilin iyulunda Fransa ilə Rusiya arasında Tilzit müqaviləsinin imzalanmasından general Qardan xəbərsiz idi və silah ticarəti haqqında müqavilə imzalananda Fransa ilə Rusiya arasında artıq barışıq imzalanmışdı. Belə güman edilirdi ki, 1807-ci ilin iyulunda Fransa ilə Rusiya arasında Tilzit müqaviləsinin imzalanmasından general Qardan xəbərsiz idi və silah ticarəti haqqında müqavilə imzalananda da onun Fransa ilə Rusiya arasında yaranan yeni münasibətlərdən xəbəri yox idi. Fransa sarayı isə tüfənglərin Qacar qoşunlarına verilməsinə razı olmadı. Çünki bu halda Qacar qoşunları güclənib Rusiya qoşunlarına daha ciddi müqavimət göstərə bilərdi.

Məlumdur ki, İranın özündə də tüfənglər istehsal olunurdu. Məsələn, qoşunların yenidən təlimlərinə başlanandan sonra Fətəli şah fərman verdi ki, İsfahanda 3 min ədəd tüfəng istehsal edilsin. Onun fərmanına əsasən 15 min tüfəng də digər şəhərlərdə istehsal edilməli idi (71).da onun Fransalı hərbçilər Qacar qoşunlarının təchizi üçün lazımlı olan topların tökülməsində və istehsalında da müəyyən işlər görə bildilər. Bu işlərə Qardan heyətinin üzvü Fabye rəhbərlik edirdi. Qacar qoşunlarının zərbə qüvvəsinin artırılmasında həlledici rol oynaya biləcək top istehsalı üçün həm Abbas Mirzə, həm də Fətəli şahın özü tərəfindən xüsusi diqqət ayrıldı. Bunun nəticəsi idi ki, əvvəlcə İsfahanda, sonra isə Təbrizdə top tökmə zavodu açıldı (72).

O vaxta qədər Qacar qoşunlarında olan toplar rusların və portuqalların istehsalı olan köhnə toplar idilər. Onların daşınması və istifadəsi çətin, atəş zərbəsi isə çox zəif idi.



Qacar qoşunlarına sıra baxışı

Yəni topların istehsal edilməsi üçün Fabyeyə lazım olan şərait yaradıldı və o, köməkçisi ilə birlikdə İsfahana göndərildi. Fabyeyə verilən tapşırığa əsasən 0, 1808-ci ilin sonuna kimi 50 ədəd top hazırlamalı idi (73).

İsfahandakı toptökmə zavodu ilə tanışlıqdan sonra istehsal texnologiyasını tamamilə yenidən qurmaq lazım gəldi. Çünki əvvəlki istehsal bazası yeni topların istehsalı üçün yararlı deyildi. Bundan başqa lazım olan kadrlar da mövcud deyildi. Onların hazırlanması da yeni vəzifələrdən biri idi. Yeni texnologiyanın yaradılması kifayət qədər mürəkkəb olsa da, Fabye nəhayət ki, topların istehsal edilməsinə nail oldu. Mövcud tarixi məlumatlara görə, Fabye 1808-ci ilin avqustunda istehsal etdiyi topların İsfahanda nümayişini keçirdi. Avqustun 15-də isə onların sınağı keçirildi və şəhər əhalisi qarşısında onlardan atəş açıldı. İsfahanda yeni topların istehsalı və onların uğurlu sınağı xəbərini Fətəli şah da sevinclə qarşıladı və sərəncam verdi ki, həmin toplar Tehrana gətirilsin. Fabye 1808-ci ilin oktyabrında belə bir tapşırıq aldı və dərhal da top təkərlərinin hazırlanmasına başladı. Bunun üçün bir müddət vaxt sərf edildi. 1808-ci ilin noyabrında İsfahanda tökülən toplar Tehrana yola salındı və onların 1808-ci il dekabr ayının sonunda Tehrana çatması ehtimal olunur (74).

Fətəli şah 20 ədəd topa baxış keçirdi və dərhal da onların Təbrizə göndərilməsinə göstəriş verdi. Abbas Mirzə də bu topları məmnuniyyətlə qəbul etdi və onları qoşunların istifadəsinə verdi.

Qoşunların yenidən qurulması üçün şəxsi heyətin xarici görkəminin dəyişdirilməsi istiqamətində də müəyyən işlər görüldü. Yeni geyim forması hazırlandı və bu zaman Fransa ordusunda mövcud olan təcrübə də nəzərə alındı. Piyadaların geyimləri ingilis istehsalı olan göy və ya qırmızı mahuddan, topçuların geyimləri isə göy mahuddan ibarət idi. Sərbazlar bellərinə yun kəmər, zabitlər isə gümüş kəmər bağlayırdılar. Şalvarlar ağ rəngdə və geniş olurdular. Qoşun üzvləri başlarına quzu dərisindən papaq, ayaqlarına isə çəkmə geyirdilər.

Qeyd etmək lazımdır ki, müxtəlif tarixi araşdırmalarda yeni təlim keçmiş və təchiz edilmiş şah qoşunlarının sayı haqqında müxtəlif rəqəmlər göstərilir. Buna baxmayaraq hər halda aydındır ki, general Qardanın rəhbərliyi altında hərbi təlimatçılar heyətinin İrana gəlməsi şah qoşunlarının yenidən qurulmasında bir canlanma yaratdı və təlim-tərbiyəsi yenidən qurulan qoşunlar Cənubi Qafqazda Rusiya qoşunları ilə döyüşmək üçün nəzərdə tutulmuşdu. Fransalıların yardımı ilə şah qoşunlarında belə fəal işlərin aparıldığı bir vaxtda Qardanın, onu

nümayəndə heyətinin və şah sarayının xəbəri olmadan Fransa ilə İran münasibətlərində gizli dəyişikliklərin baş verdiyi məlum oldu.

Bu gizli dəyişikliklərin obyektiv bazası əslində Finkinşteyn müqaviləsinin imzalanmasından az sonra, 1807-ci ilin iyununda qoyuldu. Həmin ay Fransa qoşunları Fridlend ətrafında Rusya qoşunlarına qalib gəldi və rastlaşdığı məğlubiyyətdən sonra Rusiya çarı sülh müqaviləsi imzalanması üçün Napoleona müraciət etdi və 1807-ci il iyun ayının 4-də Tilzitdə Rusiya ilə Fransa arasında sülh müqaviləsi imzalandı (75).

Napoleonun Tilzit müqaviləsini imzalaması onun Finkinteyn müqaviləsinin İran-Rusiya münasibətlərinə, Rusiyanın Cənubi Qafqaz təcavüzünə aid olan maddələrdən imtina edilməsi demək idi. Başqa sözlə, Fransanın yardımlarına böyük ümidlər bağlayan şah sarayı bu müqavilənin şərtlərinə görə yenə də Rusiya ilə təkbaşına qalmalı oldu. Tilzit müqaviləsində birbaşa İranla bağlı olan maddə yox idi. Amma Fransanın Rusiya ilə sülh bağlaması, Fransanın Rusiyaya qarşı müharibəni dayandırması, birbaşa İranın vəziyyətinə təsir edirdi və şah sarayı yenidən təklikdə Rusiyaya qarşı müharibə aparmaq məcburiyyətində qalırdı. Eyni zamanda Avropa cəbhəsində Fransaya qarşı mövqe tutmuş rus qoşunlarının Qafqaza atılması ehtimalı şah sarayının vəziyyətini daha da mürəkkəbləşdirirdi.

Maraqlısı isə ondadır ki, Rusiya ilə Fransa arasında Tilzit müqaviləsinin imzalanması həm general Qardanın rəhbərlik etdiyi nümayəndə heyətindən, həm də şah sarayından uzun müddət gizli saxlandı. Tilzit müqaviləsi imzalananda general Qardanın nümayəndə heyəti hələ İstanbulda idi və oradan Təbrizə doğru irəliləməli idi. Ehtimal var ki, hətta Tehrana çatanda belə general Qardanın Tilzit müqaviləsinin imzalanmasından xəbəri yox idi.

Yuxarıda yazılanlardan göründüyü kimi, şah sarayı da Tilzit müqaviləsindən xəbərsiz Finkinşteyn anlaşmasının icrasında böyük nikbinlik və fəallıq nümayiş etdirirdi. Şah sarayı yaxşı anlayırdı ki, Finkinşteyn anlaşması icra olunacağı təqdirdə Cənibi Qafqazda hərbi-siyasi şərait Rusiyanın zərərinə dəyişə bilər. Şah sarayının xəbəri olmadan imzalanan Tilzit müqaviləsi isə əksinə, Qafqazda hərbi-siyasi şəraiti İranın zərərinə dəyişə bilərdi. Bu, əslində elə belə də oldu. Şah sarayı sonradan Tilzit müqaviləsinin imzalanmasını Fransanın İrana qarşı xəyanəti kimi qiymətləndirdi. Şah sonralar bu müqavilə ilə bağlı münasibətlərini belə açıqlamışdı: "Napoleon Tilzit müqaviləsinin imzalanması zamanı İranın mənafelərini nəzərə ala bilərdi. Fransa fateh ölkə kimi hansı şərti irəli sürsə idi, məğlub Rusiya tərəfindən qəbul olunacaqdı. O zaman Napoleon İran üçün faydalı ola bilərdi" (76).

Elmi dövriyyədə olan sənədlərə əsasən belə ehtimal etmək olar ki, hətta general Qardanın özü də Tilzit müqaviləsinin imzalanmasından 1808-ci ilin əvvəlində xəbər tutmuşdu. Fətəli şah və saray əyanları bu hadisədən son dərəcə məyus oldular. Çünki bu müqavilə Rusiyanın Avropa cəbhəsində sərbəstlik əldə edərək bütün qüvvələrini Cənubi Qafqaza yönəltməsinə imkan verəcəkdi.

Şah sarayı Tilzit müqaviləsinin imzalanması ilə bağlı öz ciddi etirazını general Qardana və onun vasitəsilə Fransa sarayına çatdırdı. Şah sarayı bildirdi ki, İran tərəfi Finkinşteyn anlaşmasına sadiq qalaraq onun şərtlərinin icrasına da başlamışdır. Başqa sözlə, ingilislərlə əlaqələr kəsilmiş və ingilis ticarət mərkəzləri ölkə ərazisindən çıxarılmışdılar. Fransa isə bunun əvəzində Tilzit müqaviləsini imzalayarkən İranın mənafelərini heç də nəzərə almamışdı (77).

Bunun əvəzində Fransa tərəfdən belə bir izahat verildi ki, Tilzit müqaviləsi imzalananda Finkinşteyn anlaşması hələ İran tərəfindən təsdiq edilməmişdi. Mümkün idi ki, şah sarayı onu heç qəbul etməsin. Fransa imperatoru əmin deyildi ki, İranla gələcəkdə yaxşı münasibətlər qurulacaq. Belə münasibətlərin olmadığı halda Fransa tərəfi Tilzit müqaviləsində İranın mənafelərini də müdafiə edə bilməzdi.

Bu izahat şah sarayını sözsüz ki, razı salmadı və şah sarayı Rusiya qoşunları qarşısında tək qalacağını hiss etdiyi üçün Qardanın nümayəndə heyətinin köməyi ilə öz qoşunlarının yenidən qurulmasını diqqət önünə çəkdi.

Mövcud olan məlumatlara görə, ilk vaxtlar Fransa tərəfindən Tilzit müqaviləsinin imzalanmasının gizli saxlanması, bu müqavilə imzalanandan sonra Fransa nümayəndə heyətinin rəhbərliyi altında şah qoşunlarının yenidən qurulmasının davam etdirilməsi Qacar sarayı ilə İngiltərənin yenidən yaxınlaşması meylinin qarşısının alınması ilə bağlı idi. Fransa sarayı qətiyyən istəmirdi ki, Qacar sarayı ilə İngiltərə arasındakı münasibətlər yaxşılaşsın və Qacarlar dövləti İngiltərənin təsiri altına düşsün. Ona görə də Fransa şah qoşunlarının yenidən qurulmasına yardımını davam etdirirdi. Baxmayaraq ki, Fransa artıq Rusiya ilə müttəfiq idi və fransalıların rəhbərliyi altında yenidən qurulan şah qoşunları da məhz Rusiya ilə müharibə aparmaq üçün nəzərdə tutulmuşdu.

İranda qaldığı müddətdə general Qardan həm də hər vasitə ilə şah sarayının yenidən İngiltərə ilə yaxınlaşmaq meylinin qarşısını almağa çalışdı. Fransanın xarici işlər naziri general Qardana göndərdiyi məktubunda onun qarşısına qoyduğu tapşırıqlardan biri məhz İngiltərənin Qacar sarayı ilə yaxınlaşmasının qarşısının alınması idi. Məktubda deyilirdi ki, Fətəli şahın hər hansı ingilis nümayəndəliyi ilə görüşməsinə

yol verilməməlidir. Fransa naziri ingilislərin şah məmurlarına yol tapmasına maneçilik törədilməsinin zəruriliyini də vurğulayırdı (78).

Fransa xarici işlər nazirinin Qardana verdiyi digər tapşırıq isə Qacar sarayı ilə Rusiya arasında vasitəçilik edilməsi idi. Onun sözlərinə görə, Napoleon artıq Rusiya ilə şah sarayı arasında sülh əldə edilməsinə meylli idi.

1808-ci ilin əvvəllərində Fransa hətta Rusiya ilə Qacar sarayı arasında vasitəçilik təşəbbüsü ilə çıxış etdi. Lakin mövcud sənədlər göstərir ki, Tilzit müqaviləsinin imzalanması üçün Fransa və Rusiya imperatorlarının görüşündə qeyri-rəsmi şəkildə şah sarayının iddia irəli sürdüyü Cənubi Qafqazın Rusiya tərəfindən işğalına Fransa razılıq vermişdi. Fransa bunu onunla izah edirdi ki, Qacarlar dövləti İngiltərənin nəzarəti altına düşməkdənsə, Rusiyanın nəzarəti altına düşsə daha yaxşı olar. Çünki İngiltərə Fransanın islaholunmaz düşməni, Rusiya isə gələcək dostudur (79).

General Qardanın nümayəndə heyəti 1808-ci ilin oktyabr-noyabr aylarına kimi fəal çalışsa da, Napoleonun Asiya siyasətində artıq köklü dəyişikliklər baş vermişdi. Tilzit müqaviləsinin imzalanması ilə Napoleonun Cənubi Qafqaza olan fəal marağına son qoyuldu. Şah sarayı ilə Rusiya arasında vasitəçilik cəhdi istisna olmaqla Cənubi Qafqazda Rusiyanın maraqları qəbul edildi və hətta Fransa Cənubi Qafqazın İrana mənsubluğu mövqeyindən də imtina etdi. Yəni, bununla Rusiya xarici təzyiq mənbələrindən azad olaraq Qafqazda tam sərbəst fəaliyyət göstərmək imkanı əldə etdi. Tilzit müqaviləsinin imzalanmasından sonra Fransa həm Hindistana hücum etmək niyyətindən, həm də Qacar və Osmanlı dövlətləri ilə ittifaq qurmaq niyyətindən əl çəkdi.

1808-ci ilin əvvəllərində general Qardan İrandakı fəaliyyətini yeni şəraitlə uyğunlaşdırmağa çalışdı. Həmin ilin fevralında şaha göndərdiyi məktubunda general Qardan Rusiya ilə sülhün əldə edilməsi məsələsini irəli sürdü O, şahın nəzərinə çatdırdı ki, yenicə aldığı məktubda Napoleon Rusiya ilə İran arasında müharibənin dayandırılacağına ümidlə yanaşır. Napoleonun fikirlərinə əsasən, Qardan qeyd edirdi ki, Rusiya artıq Fransanın müttəfiqləri ilə dostluq əlaqələri yaratmağa hazırdır. O eyni zamanda Fransa sarayı tərəfindən rəsmən vasitəçilik etmək səlahiyyətinə malik olduğunu şahın nəzərinə çatdırırdı. General Qardan bildirirdi ki, yaxınlarda Rusiyanın elçisi sədr-əzəmlə müzakirələr aparmaq üçün gələcəkdir. Onun yazdığına görə, Napoleon bu müzakirələrin şah üçün faydalı olacağını bildirirdi və arzu edirdi ki, həmin müzakirələr iki ölkə arasında sülh anlaşmasının imzalanması ilə başa çatsın (80).

Məktubunda general Qardan sonra Napoleonu və onun ətrafını Fətəli şahla ingilislər arasında yarana biləcək əlaqələrin münasibətlərinə də toxunurdu. General Qardana görə, Napoleon istəmirdi ki, bütün dünyanın qapıları ingilislərin üzünə bağlı olduğu halda, İranın qapıları onların üzünə açıq olsun. Napoleon çox arzu edirdi ki, ingilislərin əlləri bütünlüklə İrandan kəsilsin və İranın xeyrinə olan belə addımların atılması barəsindəki xəbərlər tezliklə ona çatdırılsın.

Fətəli şah general Qardana yazdığı cavab məktubunda onun qaldırdığı məsələlərə öz münasibətini bildirdi. Rusiya ilə İran arasında sülh əldə edilməsi məsələsi ilə bağlı Fətəli şah Napoleona öz təşəkkürünü bildirdi ki, belə bir məsələni yaddan çıxarmayıb. Onun fikrincə, Napoleon bu mövqeyi ilə şah taxt-tacının hələ də yaxın dostu olduğunu nümayiş etdirdi və ona da öz ümidini ifadə etdi ki, İranla Fransa arasındakı dostluq günü-gündən daha da yaxşılaşacaqdır. İngilislərlə bağlı məsələyə gəlincə isə Fətəli şah bildirirdi ki, Fransa ilə ittifaqın əsası qoyulan gündən Hindistana göndərilmiş səfir geri çağırılıb, İranın bütün qapıları İngiltərənin üzünə bağlanıb və ingilis şirkətləri ölkədən çıxarılıbdır (81).

Bu məktubun məzmunundan görünür ki, Fətəli şah Fransa ilə başlayan münasibətlərin həmin axarda davam edəcəyinə ümidini kəsməmişdir və Fransa ilə imzalanmış anlaşmaya sadiq qaldığını göstərir. Çünki məhz bu ittifaqın qalması Rusiya ilə Cənubi Qafqaz uğrunda aparılan müharibəni şah qoşunlarının xeyrinə nəticələndirə bilərdi.

1808-ci ilin sonlarına yaxın Rusiya qoşunlarının Azərbaycan xanlıqları üzərinə yeni hücum xəbərləri Qacar sarayında təşvişə səbəb oldu. Azərbaycan xanlıqlarına olan iddiaları bir dəfəlik həyata keçirmək üçün Qacar sarayı bir daha Fransanın dəstəyini qazanmağı cəhd göstərdi. Bununla əlaqədar, Qacar sarayının sədr-əzəmi Mirzə Şəfi Fransanın xarici işlər nazirinə məktub göndərdi, Cənubi Qafqazdakı yeni hərbi-siyasi şərait haqqında ona məlumat verdi. Lakin Fransa tərəfi bu məktuba heç bir cavab vermədi və əslində, Qacar sarayına hər hansı bir kömək göstərilməsindən imtina edildi. Fransa xarici işlər nazirinin general Qardanla olan yazışmalarından aydın olur ki, 1808-ci ilin sonlarına yaxın Qacar sarayı Fransanın vasitəçiliyi ilə Parisdə Rusiya ilə danışıqlar aparılması niyyətində olmuşdu. Rusiyanın Parisdəki səfiri qraf Tolstoy belə bir göstəriş almadığı üçün ikitərəfli danışıqlar da baş tutmadı. Fransanın xarici işlər naziri məktubunda təmsil etdiyi dövlətin də belə bir danışıqların aparılmasında maraqlı olmadığı qeyd edilirdi. (82).

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. ینـــاب علی اکبر. تـاریخ سیاسـی و دیپلوماسـی ایران. جلد اول، تهران، 1348، ص.101
2. بینا ، مدنی ج. تاریخ تحولات سیاسی و روابت خارجی ایران. جلد اول، تهران، 1378، ص.99
3. نجمی ناصر. ,عباس میرزا.تهران، 1374، ص.159، مدنی، 101
4. نجمی ناصر، 162
5. نجمی ناصر، 160، بینا ع. ، ص.102
6. نوایی. ایران و جهان. تهران، 1369، ص.44
7. زندفرد. سر گور اوزلی. تراح عهدنامـه گلستان و اولین سفیر انگلیس در دربـار قاجاریـه. تهران، 1386، ص.51-52
8. نوایی، 46
9. نوایی،47
10. نوایی، 48
11. نوایی،52؛ زندفرد، 52
12. نوایی، 53
13. مدنی، 103
14. زندفرد، 54-57
15. بیانی. سیاست ناپولیون در ایران. تهران، 1346، ص.28
    قایمقامی ج. تحولات سیاسی و نظامی ایران. تهران، 1326، ص.18
16. بینا ، 104
17. بینا، 104-105
18. Балаян Б.П. Дипломатическая история русско-иранской войны и присоединение Восточной Армении к Росии. Ереван, 1988, с.40
19. بینا، 106
20. بینا، 107
21. Балаян Б.П., с.40
22. Балаян Б.П., с.41
23. امینی. ناپولیون و ایران. تهران، 1378، ص.80-81
24. امینی، ص.81-82
25. نفیسی سعید. تاریخ اجتماعی و سیاسی ایران در دوره معاصر. جلد اول، تهران، 1383، ص.127
26. Балаян Б.П., с.42
27. نجمی ناصر، 178؛ امینی، 98
28. Балаян Б.П., с.43
29. امینی، ص.99
30. ماموریت ژنرال گاردان در ایران. تهران، 1362، ص.18
31. نجمی ناصر، 176

32. 17 ماموریت ژنرال گاردان،
33. 108 امینی،
34. 110-109 امینی،
35. 178 نجمی ناصر،
36. 112 امینی،
37. 115 امینی،
38. 104 بینا،
39. 176 نجمی ناصر،
40. 184-183 نجمی ناصر،
41. Балаян Б.П., с.48
42. 177 نجمی ناصر،
43. Балаян Б.П., с.50
44. میرزا محمد صادق وقایع نگار(آهنگ سروش). تاریخ جنگهای ایران و روس. تهران، 1369، ص.153
45. 148 آهنگ سروش،
46. 150 امینی،
47. 19 ماموریت زنرال گاردان،
48. 117 بینا،
49. Балаян Б.П., с.51
50. نفیسی سعید، 130؛ Балаян Б.П., с.52
51. 201 نجمی ناصر،
52. 130 نفیسی سعید،
53. 131-130 نفیسی سعید،
54. 132-131 نفیسی سعید،
54a. 150 امینی،
55. 208-207 نجمی ناصر،
56. 21-20 ماموریت ژنرال گاردان،
57. مغری. تاریخ روابت سیاسی ایران با دنیا. تهران، ص.273.
58. محمود محمود. تاریخ روابت سیاسی ایران و انگلیس. جلد اول، تهران، 1378، ص.70- 76
59. 151 امینی،
60. 27 ماموریت ژنرال گاردان،
61. 213-212 نجمی ناصر،
62. بیانی، 56؛ نفیسی سعید، 150
63. عبدالرزاق دنبلی. ماثر سلطانیه. تهران، 1383، ص.278.
64. 144 نفیسی سعید،
65. یاداشتهای ژنرال ترزل در سفر به ایران. تهران 1338 ، ص.69.
66. قلیمقامی. تحولات سیاسی نظامی ایران. تهران، 1326، ص.23.
67. سعید موصتفی موسوی تبری. عبای میرزا قاجار. تهران، 1353، ص.79-83.
68. 155-154 آهنگسروش،

69. نجمی ناصر، 220
70. نفیسی سعید، 151
71. یاداشتهای ژنرال ترزیل، 71
72. نجمی ناصر، 219
73. نجمی ناصر، 219
74. نوایی، 137
75. نفیسی سعید، 262
76. قایمقامی، 25
77. ماموریت ژنرال گاردان، 32-33
78. نجمی ناصر، 227
79. محمود محمود، 77
80. سفرنامه ابولحسن خان شیرازی(الچی) به روسیه. تهران، 1363، ص.28 (مقدمه) شیرازی م.
81. Yenə orada
82. مدنی ج.، 135-136

II FƏSİL

QARABAĞ XANLIĞININ İŞĞALI

1.Kürəkçay müqaviləsinin imzalanması və Qarabağın Rusiyaya birləşdirilməsi

XIX əsrin başlanğıcında Qarabağ xanlığı kifayət qədər mürəkkəb hərbi-siyasi vəziyyətdə idi. Xanlığın müstəqilliyini təhdid edən təhlükələr günü-gündən daha real xarakter almaqda idi. Bir tərəfdən Rusiya Gürcüstanda möhkəmlənməyə nail olmaqla Azərbaycan xanlıqları üzərində işğalın genişləndirilməsinə hazırlıqlar aparır. Digər tərəfdən də Qacar sarayı Azərbaycan xanlıqlarına olan iddiasının həyata keçirilməsi üçün qoşun toplayırdı. 1802-ci ildə Qacar qoşunlarının Araz çayının şimalına adlayacağı barədə xəbərlər yayıldı. Çox böyük sayda olduğu ehtimal edilən şah qoşunlarının bir hissəsi İrəvan xanlığını nəzarət altına alandan sonra Gürcüstan üzərinə irəliləməli idi. Qoşunların digər bir hissəsi isə Qarabağa gəlməli və buradan Şamaxı-Şəki istiqamətində hücumu davam etdirməli idi. Sonrakı məlumatlar göstərdi ki, Qarabağ xanlığına gələcək şah qoşunlarına Pirqulu xan rəhbərlik edirdi və bu qoşun dəstəsi hətta Naxçıvan xanlığının ərazisinə keçibmiş. Mövcud olan məlumatlara görə, İbrahim xan oğlanlarından birini və Şəki xanlığına iddia edən kürəkəni Səlim xanı Pirqulu xanın yanına göndərdi. İbrahim xan onların vasitəsilə Pirqulu xana əlavə hərbi qüvvə verməyi və Car ləzgilərini də bu işə cəlb etməyi vəd etdi. Ehtimal edilirdi ki, Pirqulu xan Qarabağ döyüşçüləri ilə möhkəmləndirilməndən sonra Şəki və Şamaxı üzərinə hücum etsin və Şəki xanlığını yenidən Səlim xana versin (1).

Çox güman ki, çoxsaylı şah qoşunlarının İrəvan xanlığını öz nəzarəti altına alacağı, Şəkidə hakimiyyətə yenidən Səlim xanın gətiriləcəyi, İbrahim xanın Şəki-Şamaxı xanlıqlarında nüfuzunun möhkəmlənə

biləcəyi ehtimalı yenidən İbrahim xanı şah sarayı ilə əməkdaşlığa sövq etdi. Əslində İbrahim xanın başqa bir seçim yolu da yox idi. Çünki Rusiya hələ Qafqazda o dərəcədə möhkəmlənməmişdi ki, bu dövlətə arxalanaraq şah qoşunları ilə əməkdaşlıqdan imtina etmək mümkün olsun. Buna görə, İbrahim xan şah qoşunları rəhbərliyi ilə müəyyən münasibətlər qurulması imkanlarını aramağa başladı. Lakin əslində, onun bu cəhdi əbəs oldu. Bütün söz-söhbətlərə baxmayaraq şah qoşunları Cənubi Qafqazın dərinliklərinə doğru irəliləməkdən imtina etdi və Pirqulu xanın rəhbərliyi altında olan qoşun dəstəsi də Şuşaya gəlib çıxmadı.

1804-cü ilin əvvəlində Gəncə xanlığı işğal edildikdən sonra Sisianov güman etdi ki, artıq Qarabağ və Şəki xanlıqlarını ələ keçirməyin vaxtıdır. Onun nəzərincə, Qarabağ xanlığı ilə başlanmış olan müzakirələr bu xanlığın Rusiya tabeçiliyinə keçməsini sürətləndirməli idi. Amma istər Qarabağ xanlığı, istərsə də digər xanlıqlar tərəfindən belə bir meyl hiss edilmirdi.

Heç şübhəsiz ki, Gəncə xanlığı üzərinə çoxsaylı qoşun çıxarılması, işğaldan sonra Gəncə əhlinə divan tutulması İbrahim xanının Rusiyaya olan münasibətinə ciddi təsir etdi. İbrahim xan da digər Azərbaycan xanları kimi, rus qoşunlarının xalqa qarşı belə vəhşilik edəcəyini gözləmirdi. Həmin vəhşiliklə Qarabağ xanlığı da qarşılaşa bilərdi. Ona görə də İbrahim xan Rusiyaya qarşı mövqeyini yenidən götür-qoy etmək istədi. Bu isə Sisianov tərəfindən heç də rəğbətlə qarşılanmadı.

Gəncənin işğalından dərhal sonra Qarabağ və Şirvan xanlığına göndərdiyi məktubunda Sisianov onları açıqca hədələməyə başladı və hətta onlara açıq irad tutdu ki, indiyə qədər Gəncə xanlığının rus qoşunları tərəfindən ələ keçirilməsinə bu xanlar öz münasibətlərini bildirməyiblər. İbrahim xana yazdığı məktubunda Sisianov bildirirdi ki, Cavad xan və oğlu Hüseynqulu xan 1500 nəfərlik rus qoşunları qarşısında süqut etdilər və Siz də güclünün himayəsini qazanmağa çalışmalısınız. Bununla Sisianov özünü güclü sayırdı və İbrahim xanı da onu qalib kimi təbrik etmədiyinə görə qınayırdı. Sisianov yenə təhqiramiz şəkildə bəyan edirdi ki, məğrurları Allah sevmir və ona görə də Cavad xan öz qanına qəltan oldu. Rus generalı ümid etdiyini yazırdı ki, İbrahim xan Gəncə xanının yolunu təkrarlamayacaq, ümumi qaydalara riayət edərək güclüyə tabe olacaq və onunla çəkişməyəcəkdir. Sisianovun fikrincə, Rusiyanın gücü artıq bəlli idi və ona görə də İbrahim xan öz gələcək yolunu seçməli idi. Sonra da general Sisianov öz tələblərini İbrahim xana çatdırırdı. İlk tələb ondan ibarət idi ki, Gəncə əhalisinin Qarabağ xanlığı ərazisində olan mal-qarası geri qaytarılsın.

Rus qoşunları Gəncə yaxınlığında olarkən yerli əhali canları və malları üçün qorxduqlarına görə mal-qaranı sürüb Qarabağ xanlığı ərazisinə aparmışdı. Sisianovun digər bir tələbi ondan ibarət idi ki, Gürcüstan ərazisinə qaçıb gizlənmiş məlik Cəmşidin Qarabağda qalan oğlunu və ailəsini Sisianova təhvil versin. Nəhayət, Sisianov Qarabağ xanından tələb edirdi ki, nümayəndəsini və ya oğlanlarından birini danışıqlar aparmaq üçün Sisianovun yanına göndərsin. Bu danışıqlarda Qarabağ xanının hansı şərtlər daxilində Rusiya təbəəliyinə qəbul olunacağı müzakirə edilməli idi (2).

Sisianov coğrafi şəraitinə görə Qarabağ xanlığını Azərbaycanın (Cənubi Azərbaycan da nəzərdə tutulur) və bunun davamı kimi bütün Fars dövlətinin qapısı kimi dəyərləndirirdi (3). Şimali Azərbaycan xanlıqlarını işğal edib cənuba doğru irəliləmək və Qacar sarayının Şimali Azərbaycan xanlıqlarına olan iddiadan imtina etməyə məcbur etmək üçün Sisianov Qarabağ xanlığının işğalına böyük əhəmiyyət verirdi.

Bu işdə Sisianov ermənilərin fəliyyətinə xüsusi önəm verirdi. Hələ bölgəyə gəlməmişdən əvvəl Rusiya çarı I Aleksandr da ona Şimali Azərbaycan xanlıqlarının işğalında erməni elementlərindən istifadə edilməsini tövsiyə etmişdi. Rusiya çarı bildirirdi ki, ermənilər ticarətlə məşğul olurlar və onlar Asiyanın bütün ticarətini öz əllərində cəmləşdirmişlər. Çarın fikrincə, ermənilər Azərbaycan xanlıqları ərazisində çox əziyyət çəkirlər və onların öz hökumətləri ilə təmin edilməsi yaxşı olardı (4).

Qarabağ və İrəvan xanlığının işğalında erməni elementlərindən istifadə edilməsi Rusiyanın işğal siyasətinin həyata keçirilməsində Sisianovun işini xeyli asanlaşdıra bilərdi. Ancaq bölgəyə gəldikdən sonra Sisianov əmin oldu ki, ermənilər nə İrəvan xanlığının, nə də Qarabağ xanlığının ictimai-siyasi həyatında ciddi bir rola malik deyildirlər. Ona görə də, bu xanlıqların gələcək statusunun müəyyənləşdirilməsini Sisianov həmin xanlıqların xanları və onların övladları ilə aydınlaşdırmaq məcburiyyətində qaldı.

İbrahim xan isə Rusiya təcavüzünün Qarabağ sərhədinə çatdığını görəndə Sisianovla əlaqə qurmaq məcburiyyətində qaldı. O rus generalına məktub yazdı və Mirzə Məhəmmədəli adlı birisi ilə oni Siainova göndərdi. İbrahim xan rus generalının hədə dolu məktubunun qarşısında ona cavab yazmalı olsa da, Rusiya təbəəliyini qəbul etmək haqqında konkret fikir bildirmədi. Bu da Sisianovun hədsiz qəzəbinə səbəb oldu və o, imperiyapərəst yırtıcı mahiyyətini və insanlarla ünsiyyət qabiliyyətsizliyini bir daha nümayiş etdirdi. Sisianova görə, İbrahim xanın göndərdiyi məktubda məkr hiss olunurdu və ona görə qəzəblə

bildirdi ki, İbrahim xan tərəfindən möhürlənmiş məktubu qəbul etmir. Sisianov qəzəblə belə bir məktubun göndərilməsinin Qarabağ xanının qanı bahasına başa gələcəyi ilə hədələdi. O, İbrahim xana çatdırırdı ki, Qacar qoşunlarına ümid etməsin və rus silahının gücündən ehtiyatlansın. Sisianovun yazdığına görə, rus silahının qarşısında Şuşa qalası da taqət gətirməyəcəkdir. Ona yazdığına görə, bir vaxtlar Cavad xan da qalasının möhkəmliyinə əmin idi. Amma rus qoşunları hər şeyi dağıtdı. Sisianov bir daha həqarətli şəkildə özünü güclü adlandırır və ondan gücsüz olan Qarabağ xanının isə ona tabe olmalı olduğunu bildirirdi. Bundan sonra Sisianov əvvəlki məktubunda irəli sürdüyü şərtlərini bir daha təkrarlayırdı.

İbrahim xan bu hədələrdən çəkinmədi və Sisianovun irəli sürdüyü tələbləri yerinə yetirmədi. Onda Sisianov qərara aldı ki, mayor Lisaneviçin rəhbərliyi altında Qarabağ xanlığı ərazisinə silahlı dəstə göndərsin və silah gücünə öz tələblərini qəbul etdirsin. Mayor Lisaneviç 1804-cü il mart ayının əvvəlində silahlı dəstə ilə Qarabağa gəldi. Qarabağ əhalisi rus dəstəsinin gəlməsindən xəbər tutanda mal-qaranı yaylaqlara sürdü. Ona görə Gəncə əhalisinə aid edilən mal-qaranı Gəncəyə qaytarmaq mümkün olmadı. Mayor Lisaneviçin gücü ona çatdı ki, Qarabağ xanlığı ərazisindən bir sıra erməni ailəsini Gəncə ərazisinə aparsın. Mövcud olan məlumatlara görə, mayor Lisaneviçin silahlı dəstəsi Qarabağ xanlığı ərazisində silahlı müqavimətlə də rastlaşdı (6).

1804-cü il may ayının əvvəllərində xanlıq ərazisində yenidən Qacar qoşunlarının hücum edəcəyi barəsində xəbərlər yayıldı. Həmin məlumatlara görə, Abbas Mirzə Ərdəbil yaxınlığında topladığı qoşunları hərəkətə gətirərək Qarabağ istiqamətində irəliləyirdi. Baxmayaraq ki, Sisianovun irəli sürdüyü tələblər Qarabağ xanlığında yerinə yetirilməmişdi, bununla belə İbrahim xan kömək üçün rus qoşunlarına müraciət etməyi qərara aldı. Konkret tarixi şəraitdə İbrahim xan iki böyük dövlətin çoxsaylı qoşunlarının təhlükəsi altında idi. Bu dövlətlərin heç biri ilə etibarlı münasibətlərin qurulması və ya onların işğalçılıq niyyətlərindən çəkindirilməsi mümkün deyildi. Bununla belə İbrahim xan rus generalına müraciət etməyə üstünlük verdi və Sisianovun yanına nümayəndəsini göndərdi. Çünki Sisianov ilkin vədlərində Rusiya təbəəliyini qəbul edəcək Qarabağ xanlığının müstəqilliyinin saxlanmasını mümkün sayırdı.

Qacar qoşunlarının ehtimal olunan təhlükəsi ilə bağlı Qarabağ xanı polkovnik Karyaginə də məktub ünvanladı. Həmin məktubda xahiş olundu ki, polkovnik Karyagin ya özü Qarabağ ərazisinə silahlı dəstə göndərsin, ya da Gəncədən Qarabağ ərazisinə bir topun müşayiəti ilə

200-300 nəfərlik dəstə istiqamətləndirilsin və bu dəstə Əsgəranda yerləşdirilsin (7).

İbrahim xanın Sisianova yazdığı məktubu isə İsrafil bəy adlı birisi rus qoşunları baş komandanına çatdırdı. Qarabağ xanı xanlıq ərazisinin Qacar qoşunlarının hücumlarından qorumaq üçün rus qüvvələrinin yardım göstərməsini istədi. Sisianov bu xahişi Qarabağ xanlığının nəzarət altına alınması üçün əlverişli fürsət kimi qiymətləndirdi və onun gümanında Qarabağ xanı nəhayət öz xoşu ilə Rusiyanın himayəsi altına girməyə razılaşırdı. Ona görə də Sisianov irəli sürdüyü tələblərinin icra edilməməsinə baxmayaraq İbrahim xanın Rusiya imperatoru adından bağışlandığını bəyan etdi və İbrahim xanın Rusiya təbəəliyinə daxil olması üçün şərtlərini yenidən irəli sürdü. Bu şərtlər qəbul olunacağı halda Sisianov Qarabağ xanlığının mühafizəsinə yardım göstərməyə hazır idi.

General Sisianovun təklifləri aşağıdakılardan ibarət idi: 1)İbrahim xan Rusiyaya sədaqət nümayiş etdirməli; 2) Sisianov tərəfindən göndərilmiş rus nümayəndələri qarşısında İbrahim xan Rusiyaya sədaqət andını imzalamalı; 3) Şuşa qalasında rus qarnizonu yerləşdirilməli; 4) İbrahim xan böyük oğlunu zəmanət üçün ruslara girov verməli; 5) Qarabağ xanı Rusiya xəzinəsinə 10 min çervon vergi verməyə razı olmalı idi. Sisianov vəd edirdi ki, bu təkliflərin qəbul olunacağı halda Rusiya imperatoru İbrahim xanın və onun varislərinin xanlığa olan hüququnu tanıyacaqdır. Təkliflərin qəbul olunduğunu İbrahim xan dərhal bəyan etməli idi və bunun ardınca da öz oğlanlarından birini girov kimi Sisianovun yanına göndərməli idi. Yalnız bundan sonra İbrahim xanın köməyinə topla müşayiət olunan qoşun dəstəsi göndərilməli idi (8).

Sisianovun böyük ümidlərinə baxmayaraq İbrahim xan onun təkliflərini heç də qəbul etmədi. Bu, hər şeydən əvvəl Qacar qoşunlarının Arazın şimalına çıxarılmasının təxirə salınması ilə bağlı idi. Yeni bir dinc fürsət yarandığı üçün İbrahim xan da Rusiya təbəəliyi altına düşməyə tələsmədi.

Sisianov isə Qarabağ xanının bu qərarını qəzəblə qarşıladı. 1804-cü ilin yay və payızında Sisianov bütün diqqətini İrəvan qalasının alınmasına yönəltməli oldu. İrəvan qalasından geri çəkilən kimi o öz nümayəndəsini yenidən İbrahim xanın yanına göndərdi və tələblərini bir daha onun diqqətinə çatdırdı. Bu tələblər yuxarıda qeyd olunan tələblərin oxşarı idi. Yeni olan o idi ki, Sisianov İbrahim xanın oğlunun yerinə nəvəsinin də girovluğa verilməsini mümkün saydı və bir də Rusiya xəzinəsinə verilməli olan illik verginin 8 min çervona endirilməsinə razı oldu (9).

Qeyd edildiyi kimi, Sisianov 1804-cü ilin sonlarına yaxın İrəvan xanlığı üzərinə hücumda ağır məğlubiyyətə düçar olub böyük itkilərlə geri qayıtdı. Sisianov gözləmədiyi bu məğlubiyyətin əvəzini Qarabağ və digər Azərbaycan xanlıqlarını işğal etməklə çıxmaq istəyirdi. Başqa sözlə, digər Azərbaycan xanlıqlarına təzyiqləri gücləndirməklə Sisianov həm tapdalanmış nüfuzunu geri qaytarmaq, həm də rus silahının gücdən düşmədiyini bir daha Azərbaycan xanlarına nümayiş etdirmək niyyətində idi.

Sisianovun rəhbərliyi altında rus qoşunlarının İrəvan ətrafında uğursuzluğa düçar olması Qacar sarayını yenidən Azərbaycan xanlıqları üzərinə hücuma sövq etdi. Baxmayaraq ki, Sisisanov qoşunlarının məğlub edilməsi daha çox İrəvan xanının qoşunlarının xidməti idi, bununla belə Qacar sarayı da özünü qalib sayıb yaranmış fürsətdən istifadə etməyi, rus qoşunlarını sıxışdıraraq Cənubi Qafqazda möhkəmlənməyi qərara aldı. Qacar sarayı xüsusilə Qarabağ xanlığını ciddi nəzarət altına almaqda israrlı idi. Çünki İbrahim xanla rus qoşunları komandanlığı arasındakı əlaqələrin fəallaşması Qacar sarayının ciddi təşvişinə səbəb olurdu və bu təşvişin aradan qaldırılması üçün Fətəli şah ciddi addımlar atılmasını vacib sayırdı.

İrəvan yürüşündən geri qayıdandan sonra Fətəli şah İbrahim xanın üstünə 5 min nəfərlik qoşun dəstəsi göndərdi. 1805-ci ilin yanvarından Qarabağ xanlığına göndərilən həmin qoşun dəstəsinə İbrahim xanın Qacar sarayında girov olan oğlu Əbülfət ağa rəhbərlik edirdi. Bununla Fətəli şah Qarabağ xanını silah gücünə bütünlüklə nəzarət altına almağa yeni bir cəhd göstərdi. Qoşun dəstəsinin hərəkətə başlaması ilə İbrahim xana xəbər göndərildi ki, o, rus qoşunları ilə bütün əlaqələrini kəssin, rusların Qarabağ xanlığına daxil olmasına yol verməsin. Bu tələblərə sədaqətli olacağını nümayiş etdirmək üçün xan böyük oğlu Məhəmməd Həsən ağanı və xanlığın bir sıra bəyzadələrini əlavə girov kimi Qacar sarayına göndərməli idi. Əbülfət ağa isə Qarabağ xanının xanın yanında qalmalı və onun bütün fəaliyyətini nəzarət altında saxlamalı idi. Daha doğrusu İbrahim xan ondan icazəsiz heç bir qərar qəbul etməli deyildi. Fətəli şahın tələblərinin həyata keçəcəyi halda İbrahim xan oğlu Əbülfət ağanın girovuna çevrilməli idi. Bunun baş verəcəyinə Fətəli şah əmin idi. Çünki İbrahim xanın üstünə böyük bir qoşun dəstəsi göndərilirdi və Qarabağ xanının bu qoşun dəstəsinə müqavimət göstərə biləcəyi inandırıcı görünmürdü (10).

Ömrünün ixtiyar çağında olan İbrahim xan bu tələbləri qəbul etmədi. Bu heç də ondan irəli gəlmirdi ki, İbrahim xan Qacar himayəsinə yox, Rusiya himayəsinə üstünlük verirdi. İbrahim xan əslində bu dövlətlərdən

heç birinin himasəyi altına düşmək istəmirdi. O hələ ki, xanlığın müstəqilliyinə qarşı yönəlmiş təcavüzə cavab vermək imkanı vardı və xanlığın müstəqilliyinin qorunması naminə bu imkanlardan istifadə edirdi. İbrahim xan onun üstünə yürüşə gələn kəbinsiz arvadından doğulmuş oğlu Əbülfətə xəbər göndərdi ki, Qarabağ ərazisinə daxil olmadan geri qayıtsın. Əbülfət ağa isə bu təklifi qəbul etmədi və tezliklə Qarabağda hakimiyyəti ələ keçirə biləcəyinə ümid etdiyindən hücumu davam etdirdi. Onun rəhbərliyi altında kifayət qədər yaxşı silahlanmış qoşun dəstəsi Tuğ kəndində olan İbrahim xanın və Məhəmməd Həsən ağanın üstünə hücum çəkdi, amma uğur qazana bilmədi. Çünki bir tərəfdən İbrahim xan özü Qacar qoşunlarının hücumunun qarşısının alınması üçün hazırlıq görmüşdü. O biri tərəfdən xanın Zəngəzur mahalında olan oğlu Mehdiqulu ağa şah qoşununun yaxınlaşması xəbərini eşidən kimi ətrafına topladığı dəstəsi ilə İbrahim xanın köməyinə gəldi. Nəticədə Əbülfət ağanın rəhbərliyi altında olan qoşun dəstəsi ağır məğlubiyyətə düçar oldu. Əbülfət ağanın özü isə azsaylı adamlarla geri qaçıb Arazın o tayına adlamağa məcburiyyətində qaldı (11).

Döyüşün gedişində Qacar piyadalarından və atlılarından 1000 nəfərə yaxını Qarabağ qüvvələri tərəfindən əsir götürüldü (12). Bu barədə məlumatı polkovnik Karyaginə məktub yazmış İbrahim xanın oğlu Məhəmməd Həsən ağa verirdi. Həmin döyüşdən sonra Məhəmməd Həsən ağa Sisianova da məktub göndərdi. Eyni zamanda İbrahim xan da Məmməd ağa adlı birisi ilə Sisianova məktub göndərdi. İbrahim xan istər məktubunda, istərsə də şifahi ismarıcında Rusiya təbəəliyini qəbul etməyə hazır olduğunu bildirdi. Bu addımı atmaqla İbrahim xan özünü Qacar qoşunlarının növbəti yürüşlərindən sığortalamağa çalışırdı. Çünki şübhə yox idi ki,Qacar qoşunlarının təkrarlana biləcək yürüşləri xanlığı çox ciddi sınaqlar qarşısında qoya bilərdi.

General Sisianov İbrahim xanın Rusiya təbəəliyinə hazır olması xəbərini məmnunluqla qarşıladı. O, İbrahim xanı yenidən əmin etməyə çalışdı ki, Rusiya təbəəliyinə daxil olmaqla xanlığı mühafizə etmək və Qacar qoşunlarının yeni hücumlarından qorunmaq olar. Öz niyyətinə nail olmaq üçün general Sisianov Qarabağ xanının düşdüyü vəziyyətin kifatyət qədər təhlükəli olduğunu da onun nəzərinə çatdırırdı. O yazırdı ki, Qacar qoşunları Qarabağda üzləşdikləri məğlubiyyətlə razılaşmayacaq və yazın gəlməsi ilə Qarabağ xanlığı bir daha Qacar qoşunlarının yeni hücumuna məruz qalacaqdır. Bu növbəti təhlükədən nicat tapmağın yeganə yolunu isə Sisianov Qarabağ xanının Rusiyaya sığınmasında görürdü. Bununla belə general Sisianov onu da yaddan çıxarmırdı ki,

Rusiya himayəsini qazanmaq üçün İbrahim xan müəyyən tələbləri qəbul etməlidir və o öz məktubunda həmin tələbləri bir daha təkrar edirdi. Konkret olaraq isə Sisianov tələb etdi ki, İbrahim xan tezliklə Gəncədən apardığı ilxını geri qaytarmalıdır. (13).

Sisianov Qarabağ xanına yazdığı məktubu mayor Lisaneviç vasitəsilə göndərdi. Gürcü zadəganlarından olan Corayev adlı birisi də mayor Lisaneviçin yanına verildi. Corayev əvvəllər Sisianov tərəfindən İbrahim xanın yanına göndərilmişdi. Onun İbrahim xan haqqında, Şuşa qalası haqqında müəyyən məlumatları var idi və ona görə də, onun Lisaneviçə köməyi dəyəcəyi güman edilirdi. Sisianov mayor Lisaneviç vasitəsilə İbrahim xana Qarabağ xanlığının Rusiyaya birləşdirilməsi haqqında müqavilə layihəsini də göndərdi. Sisianovun tələbinə əsasən, Lisaneviç İbrahim xanı inandırmalı idi ki, müqavilənin imzalanması üçün 2 günlüyə Gəncəyə gəlsin, müqavilənin imzalanmasından sonra isə rus qoşun dəstəsi ilə birlikdə Şuşaya qayıtsın. Müqavilə İbrahim xanla general Sisianov adından yazılmışdı və onların hər ikisi tərəfindən imzalanmalı idi. Sisianov ehtimal edirdi ki, İbrahim xan Gəncəyə gəlməyə ehtiyatlana bilər. Başqa sözlə, İbrahim xan ruslara etibar etməyə də bilərdi. Ona görə də Sisianov İbrahim xanı əmin etməyə çalışırdı ki, ruslar belə sədaqətsizliyi nümayiş etdirməzlər. Lisaneviç eyni zamanda öyrənməli idi ki, İbrahim xanın ərzaq ehtiyatları qalıbmı? Çünki rus qoşunlarının ərzaq ehtiyatı tükənməkdə idi. Mayor Lisaneviç həm də İbrahim xanın böyük oğlu Məhəmməd Həsən ağaya məktub gətirdi. O, Məhəmməd Həsən ağanı da rusların tərəfinə çəkməyə çalışmalı və Məhəmməd Həsən ağanı inandırmalı idi ki, Rusiya ilə qurulan münasibətlər onun da xeyrinə olacaqdır. Mayor Lisaneviç eyni zamanda atların geri qaytarılması məsələsini qaldırmalı və Şuşa qalasının kəşfiyyatını aparmalı idi. İtmiş atların haqqının ödənməsini də Sisianov tələb edirdi. Amma tövsiyə edirdi ki, bu məsələdə ehtiyat nümayiş etdirsin və İbrahim xanı incik salmasın. Qala daxilində kəşfiyyat işlərinin aparılmasında məqsəd isə gələcəkdə Şuşa qalasına göndərilməsi planlaşdırılan rus qoşunlarının yerləşdirilməsi üçün daha münasib yerin müəyyənləşdirilməsi idi (14).

Sisianov İbrahim xana göndərdiyi məktubunda xüsusi olaraq vurğulayırdı ki, Rusiyanın himayəsinin qəbul edilməsini təsdiqləyən traktat İbrahim xana öz xanlığında sakit yaşamaq və hakimiyyəti irsi olaraq ötürmək imkanı verəcək. Sisianov əmin etməyə çalışırdı ki, onun verdiyi vədlər mütləq həyata keçiriləcəkdir və İbrahim xan da buna görə narahat olmamalıdır(15).

Xanlığın irsi olaraq qorunub saxlanacağı vədi yaranmış qarışıq vəziyyətdə İbrahim xanı razı salmaya bilməzdi. Çox güman ki, bu vəd İbrahim xanı Rusiya tərəfi ilə daha fəal danışıqlar aparmağa sövq etdi. Ona görə də, 1805-ci il fevral ayının 6-da Şuşaya çatan Lisaneviçin gətirdiyi təkliflər maraqla qarşılandı.

Təxminən bir həftədən sonra mayor Lisaneviç Şuşada İbrahim xanla görüşdü və imzalanması nəzərdə tutulan traktatın layihəsi ona təqdim olundu. Mövcud olan məlumata görə, Lisaneviçlə görüşün sabahı günü, yəni fevralın 15-də yerli bəylərin toplantısı çağırıldı və xanlığın Rusiya himayəsini qəbul etməsi məsələsi bu toplantıda müzakirəyə çıxarıldı. Qarabağ bəyləri xanlığın Rusiya himayəsini qəbul etməsinə razı olmadılar. Bununla belə, İbrahim xan Rusiyanın himayəsini qəbul etmək ideyasından əl çəkmədi və fevral ayının 21-də öz qərarını Lisaneviçə də açıqladı.(16).

Yaranmış vəziyyətdə İbrahim xan rus generalının irəli sürdüyü təklifləri qəbul etməli oldu. Bunu o öz məktubu vasitəsilə Sisianova da bəyan etdi. İbrahim xanın Rusiya təbəəliyini qəbul etməyə razılığını bildirən məktubunu 1805-ci il mart ayının ortalarında Qarabağ xanın nümayəndəsi olan Məhəmməd ağa ilə İbrahim bəy və gürcü zadəganı Caroyev Sisianova çatdırdılar. Sisianovun isə ona yazdığı cavab məktubundan belə bir qənaətə gəlmək mümkündür ki, İbrahim xanın rus təbəəliyinin qəbul edilməsi ilə bağlı Sisianovun hazırladığı müqavilənin imzalanmasına da hazır idi. Amma İbrahim xan Gəncəyə deyil, Gəncə vilayətinin sərhədinə gəlməyə və müqaviləni də orada imzalamağa razı idi. Sisianov bu təklifi qəbul etdi. Lakin İbrahim xana bildirdi ki, Bakıya və Gilana dəniz ekspedisiyasının göndərilməsinə hazırlıq apardığı üçün müqavilənin imzalanmasını bir qədər təxirə salmaq lazımdır (17).

Qacar sarayı isə Qarabağa hücum cəhdi baş tutmayandan sonra öz niyyətindən heç də əl çəkmədi. Məsələnin birdəfəlik həllini Qacar sarayı Qarabağa daha güclü qoşun dəstəsinin çıxarılmasında gördü. Bu məqsədlə dərhal qoşun toplanmasına da başlandı. Lakin qoşunların hərəkətə gətirilməsindən əvvəl Qacar sarayı İbrahim xanın danışıqlar yolu ilə itaətə gətirilməsi üçün bir də cəhd göstərdi. Ona görə də Fətəli şah Qarabağa öz elçilərini göndərdi. Bu elçiliyə Kərim xan, Rəhim xan və Abdulla xan kimi nüfuzlu şəxslər daxil idi. Şah adından qiymətli hədiyyələr aparan elçilər Fətəli şahın vədlərini də xana çatdırmalı idilər. Qarabağ xanlığını nəzarət altında saxlamağa çalışan şah vəd edirdi ki, Qacar hakimiyyəti tanındığı halda Qarabağ xanlığından şah xəzinəsinə çatan bütün vəsaitlər İbrahim xan bağışlanacaqdır. Fətəli şah İbrahim xanı yola gətirmək üçün hətta öz övladlarından ikisini onun yanına girov

göndərməyə də hazır olduğunu bildirirdi. İbrahim xan isə əvəzində Əsgərandakı qalaları və Şuşa qalasının üç verstliyində olan səngərləri şah qoşunlarının ixtiyarına verməli idi. Həmin yerlərdə yerləşdirilmiş şah qoşunları rus qüvvələrinin Qarabağ xanlığına aparan yollarını kəsməli idi. Xanlıq ərazisində yerləşən şah qoşunlarının xərclərini də Qacar sarayı öz üzərinə götürürdü (18).

1805-ci ilin əvvəllərində Qarabağ xanlığında cərəyan edən hadisələri Qarabağnamə müəlliflərindən olan Mir Mehdi Xəzani bir qədər fərqli şəkildə təsvir etmişdir. O, Qacar sarayı ilə İbrahim xan arasında münasibətlərin kəskinləşməsinə bir qədər fərqli prizmadan yanaşmışdır. Onun fikrincə, yaşının çoxluğu üzündən xanın fəaliyyət çevikliyini itirməsi, xanın övladları arasında çəkişmələrin artması, xanla övladları arasında fikir yekdilliyinin olmaması bu ziddiyyətin əmələ gəlməsinin başlıca səbəbləri idi. Mir Mehdi Xəzaninin yazdığına görə, müəyyən dairələr xanla övladları arasında nifaq yaranmasına nail oldular. Xüsusilə, Məhəmməd Həsən ağanı müdafiə edən Cəbrayıllı tayfasının xana müti olmaqdan imtina etməsi, xanın digər övladlarının da Məhəmməd Həsən ağaya rəğbətlə yanaşmaları İbrahim xanda müəyyən təşviş yaratdı. Belə olanda, Mir Mehdi Xəzaniyə görə, İbrahim xan Qacar sarayında olan Əbülfət ağanı məsləhət üçün yanına dəvət etdi. Fətəli şah bu xəbəri eşidəndə Əbülfət ağanın Qarabağa yollanmasına razı oldu və ona 5 min nəfərlik qoşun dəstəsi də verdi. Çünki şah İbrahim xanın rus qoşunları ilə əlaqə yaratmaq meylindən xəbər tutmuşdu və ehtimal edirdi ki, Əbülfət ağanın öz dəstəsi ilə Qarabağda möhkəmlənməklə rusların ora gəlişinin də qarşısını ala bilər. Şah həm də tapşırmışdı ki, İbrahim xanın narahatçılığına səbəb olan Məhəmməd Həsən xan və bir sıra bəylər tutulub Qacar sarayına göndərilsin. Guya bundan sonra, Əbülfət ağanın Qarabağda qalmalı və İbrahim xana öz yardımlarını göstərməli idi (19).

Mir Mehri Xəzaninin əsərində olan məlumatlara görə, İbrahim xanın övladları Məhəmməd Həsən ağa, Mehdiqulu ağa və Xanlar ağa öz aralarında birləşib Əbülfət ağaya müqavimət göstərməyi qərarlaşdırdılar. Məlumdur ki. Əbülfət ağa İbrahim xanın milliyyətcə erməni olan kəbinsiz övrətindən doğulmuşdu. Ona görə xanın adı çəkilən övladları xanlığın Əbülfət ağanın nəzarəti altına düşməsinə razı olmaq istəmirdilər. İbrahim xan özü də oğlanlarının mövqeyi ilə razılaşmalı oldu və eyni zamanda anladı ki, Fətəli şahın Qarabağa qoşun göndərməsi yalnız İbrahim xana kömək etmək niyyətindən doğmur. Şahın başlıca məqsədi xanlığı öz nəzarəti altına almaq idi. Ona görə İbrahim xan Əbülfət ağaya xəbər göndərdi ki, daha Qarabağa gəlməsin və geri qayıtsın. Əbülfət ağa isə artıq hərəkətə başlamışdı və şahın himayəsi ilə Qarabağı ələ keçirmək

üçün əlinə düşən fürsəti də fövtə vermək istəmirdi. Mövcud məlumata görə, Əbülfət ağa hətta Bərgüşad çayına qədər olan yaşayış məntəqələrinin böyükləri vəzifəsinə öz adamlarını təyin etdi. Bununla kifayətlənməyən Əbülfət ağa Qarabağın bir çox kəndlərinin və elatlarının bəylərini yanına çağırdı və onlardan xana tabe olmamağı tələb etdi. Vəziyyətin getdikcə mürəkkəbləşdiyini görəndə İbrahim xan müqavimət göstərməyi qərara aldı və Məhəmməd Həsən ağa ilə birlikdə Tuğ kəndinə gəldi. Mehdiqulu ağa ilə Xanlar ağa isə əlavə kömək toplanması üçün Zəngəzur tərəfə yola düşdü və Əbülfət ağa Tuğ üzərinə hücuma başlayana qədər onlar da özlərini İbrahim xana yetirdilər. Məhz onların rəhbərliyi altında olan dəstənin vaxtında köməyə yetişməsi nəticəsində Əbülfət ağanın dəstəsini məğlub etmək mümkün oldu (20).

Sisianovun yazışmalarından belə bir qənaətə gəlmək olar ki, 1805-ci ilin fevral-aprel ayları ərzində Fətəli şahın üç elçiliyi İbrahim xanın yanına gəldi. Amma İbrahim xan bu elçiliklərin şaha itaətlə bağlı gətirdikləri təkliflərinin heç birini qəbul etmədi (21).

Qacar elçilərinin gətirdiyi təklifi İbrahim xan birmənalı qarşılamadı. Dərhal da İbrahim xan bu barədə Sisianova məktub göndərdi. Bu məktubla İbrahim xan çox güman ki, Sisianova onunla ciddi və ehtiyatlı davranılmasını çatdırmaq istəyirdi. Yazışmalardan və elə sonrakı proseslərdən də görünür ki, İbrahim xan Qacar sarayının təklifini qəbul etmədi. Amma Fətəli şah elçilərinin Şuşaya gəlməsi istər-istəməz Sisianovu ciddi təşvişə salırdı. Sisianov qorxurdu ki, bu gediş-gəlişlərin nəticəsində İbrahim xan Qacar şahının təklifini qəbul edə bilər. Çünki konkret tarixi şəraitdə, Sisianovun ixtiyarında Qarabağ xanlığını şah qoşunlarından qoruya biləcək yetərincə qüvvə yox idi. Belə olanda isə İbrahim xan çıxış yolu kimi Qacar sarayına sığına bilərdi. Sisianov Qarabağ xanına yazdığı cavab məktublarında bildirirdi ki, əgər İbrahim xan Rusiya təbəəliyini qəbul edirsə, onda imzalanacaq müqavilənin şərtlərinə görə o, qonşu xanlarla və hakimlərlə ünsiyyəti yalnız Gürcüstanın baş komandanının (yəni, Sisianovun) razılığı ilə qura bilərdi. Ona görə Sisianov İbrahim xanı birtərəfli şəkildə Qacar sarayı ilə danışıqlara getməkdən çəkindirməyə çalışırdı (22).

Hər halda məlumdur ki, İbrahim xan şah elçilərinin gətirdiyi təklifləri qəbul etmədi. Əvəzində isə 1805-ci il aprel ayının sonu və may ayının əvvəllərində bu müqavilənin imzalanmasına əməli hazırlıq işləri başlandı.

1805-ci il may ayının əvvəlində Qarabağ xanlığı ilə Gəncənin sərhəd xəttini təşkil edən Kürəkçay sahilində İbrahim xanla Sisianovun görüşü və danışıqları baş tutdu. İbrahim xanı bu görüşdə oğlanları Məhəmməd Həsən ağa, Mehdiqulu ağa, Xanlar ağa və Qarabağın bir sıra tanınmış

bəyləri müşayiət edirdilər. İbrahim xanın dəvəti əsasında kürəkəni olan Şəki xanı Səlim xan da ora gəldi. Aparılan danışıqların nəticəsi kimi, 1805-ci il may ayının 14-də Qarabağ xanı Rusiyanın təbəəliyini qəbul etmək barədə andı və tərtib olunmuş müqaviləni imzaladı. Bu müqavilə sonradan Kürəkçay müqaviləsi kimi tanındı.

İbrahim xanın imzaladığı sədaqət andında bildirilirdi ki, o, Rusiya imperatoruna sədaqətli olmaqla ona xidmət etməyə, dövlətə fayda verməyə, dövlətin maraqlarına cavab verməyən əməllərin qarşısını almağa çalışmaqla xanlığı imperator adından idarə etməyə, dövlət sirlərini qorumağa, Rusiyanın yerdəki canışınına şərtsiz tabe olmağa və s. söz verir (23).

On bir maddədən ibarət olan Kürəkçay müqaviləsi də İbrahim xanın sədaqət andı ruhunda tərtib olunmuşdu. Rusiya İbrahim xanın şərtsiz tabeçiliyinə nail olmağa çalışsa da müqavilədə xanlığın müstəqilliyini təmin edə biləcək müəyyən məqamlar mövcud idi. Doğrudur, müqavilə xanın və onun varislərinin hakimiyyətini müəyyən nəzarət altına alırdı. Bununla belə, ona bütünlükdə əməl olunacağı təqdirdə Qarabağ xanlığını və xanlıq daxilində yerli hakimiyyəti qoruyub saxlamaq mümkün idi.

Müqavilənin giriş hissəsində göstərilirdi ki, bu müqavilə Qarabağ xanı İbrahim xanla Rusiya imperatoru Aleksandr Pavloviçin iradəsini həyata keçirən tam infanteriya (piyada) generalı Pavel Sisianov arasında Qarabağ xanının Rusiya təbəəliyini qəbul etməsi ilə imzalanır.

Müqavilənin 1-ci maddəsi İbrahim xanın Rusiya təbəəliyini qəbul etməsini təsbit edirdi. Maddədə deyilirdi: "Mən Şuşalı və Qarabağlı İbrahim xan öz adımdan, varislərim və vəliəhdim adından İran və ya hər hansı bir dövlətin hər hansı vassallığından və ya hər hansı ad altında olsa da hər cür asılılığından təntənəli surətdə həmişəlik imtina edərək və bütün dünya qarşısında bununla bildirirəm ki, mən özüm və varislərim üzərində bütün Rusiyanın böyük imperator həzrətlərinin və onun yüksək varislərinin və vəliəhdlərinin ali hakimiyyətindən başqa heç bir dövlətin hakimiyyətini tanımıram, həmin taxt-taca sədaqət vəd edirəm çünki onun sadiq quluyam və bu haqda, adətə görə müqəddəs Qurana and içməliyəm" (24).

Müqavilənin ikinci maddəsində Rusiya hakimiyyəti adından Rusiya təbəəliyini qəbul edən İbrahim xanın və onun varislərinin xanlıq daxilindəki hakimiyyətinin qorunub saxlanacağına vəd verilirdi: " İmperator həzrətləri zati-aliləri həzrətlərinin belə səmimi söz verməsini qəbul edərək özünün və vəliəhdinin adından imperator sözü ilə vəd edir və söz verir ki, onlar zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xandan və onun varislərindən öz sadiq təbəələri kimi mərhəmət və nəcib havadarlığı

heç vaxt əsirgəməyəcəkdir, buna sübut olaraq imperator həzrətləri, zati-alilərinin (xan nəzərdə tutulur-M.S.) və onun varislərinin ölkəsinin bütövlüyünün saxlanılmasına öz imperator zəmanətini verir".

Üçüncü maddədə bildirilirdi ki, Rusiyanın təbbəliyini qəbul edən İbrahim xan, Sisianovun yanında Rusiyaya sədaqət andını qəbul etməlidir. İbrahim xandan sonra onun böyük oğlu və ondan sonra xanlığa yiyələnən varisləri Rusiyanın Gürcüstandakı canişini qarşısında sədaqət andını qəbul etməli və sonra onun xanlığını təsdiq edən fərman almalı idi.

Dördüncü maddədə Qarabağ xanı öz üzərinə başqa bir öhdəlik götürürdü. Bu maddəyə əsasən Rusiyanın Gürcüstandakı baş hakiminin icazəsi olmadan İbrahim xan digər xanlıqlarla əlaqəyə girə və onların elçilərini qəbul edə bilməzdi. Digər xanlıqlardan alınmış məktublar mühüm məsələyə aid olsaydı Gürcüstanın baş hakiminə göndərilməli və onun qərarını öyrənməli idi. Məktub xüsusi ciddi əhəmiyyət daşımazdısa, onda onun yalnız məzmunu Gürcüstan hakiminə çatdırılmalı idi. Bundan başqa İbrahim xan fəaliyyəti barəsində yanında olan Gürcüstanın baş hakimin nümayəndəsi ilə məsləhətləşməli və öz qərarları haqqında ona məlumat verməli idi.

Müqavilənin 5-ci maddəsində İbrahim xanla Rusiya imperiyası arasında qarşılıqlı münasibətlərin aydınlaşdırılması istiqamətində daha bir neçə məsələyə öz münasibətlərini bəyan etdilər. Əvvəlcə, Rusaiya imperatoru adından bəyan edildi ki, xanlığın əhalisi Rusiya imperiyasının əhalisindən fərqləndirilməyəcək və bərabər hüquqa malik olacaqdır, İbrahim xanın və onun varislərinin xanlıq üzərindəki hakimiyyəti dəyişməz olaraq qalacaqdır; Qarabağ xanlığı daxilində idarəetmə və hakimiyyət, məhkəmə və divanxana işləri, xanlıq daxilində toplanan vergilər xana mənsub olacaqdır. Qarabağ xanının və ailəsinin təhlükəsizliyinin qorunması adı altında Şuşa qalasına 500 nəfərlik qoşun dəstəsi yeridilməli idi. Vəziyyət mürəkkəbləşdiyi halda Gürcüstanın baş hakiminə icazə verilirdi ki, həmin dəstəni gücləndirsin.

Altinca maddədə İbrahim xanın bəzi öhdəlikləri öz əksini tapmışdı: "Mən Şuşalı və Qarabağlı İbrahim xan, mənim sadiq təbəəlik istəyimin əlaməti olaraq söz verirəm: 1) istər indi, istərsə də sonralar yuxarıda adı çəkilən qoşuna lazım olan buğda və darı yarmasını (Gürcüstan) baş hakiminin müəyyən etdiyi qiymətlə tədarük edəcəyəm, çünki onların Yelizavetpoldan gətirilməsi ya çox çətindir, ya da tamamilə qeyri-mümkündür; 2) qoşunların Şuşa qalasında yerləşdirilməsi üçün qoşun rəisinin bəyəndiyi evləri ayıracaq və lazımi qədər odunla təmin edəcəyəm; 3) Şuşa qalasına Yelizavetpol tərəfdən yoxuşu sahmana salacaq və yolu arabaların gedişi üçün yararlı edəcəyəm; 4) hökumət Şuşa

qalasından Cavada kimi yolu qaydaya salmaq istəsə, onda bu iş üçün lazım olacaq işçilər hökumətin müəyyən etdiyi məzənnə ilə mənə verilməlidir" (25).

Müqavilənin 7-ci maddəsində qeyd olunurdu ki, Rusiya imperatoru Şuşa və Qarabağ xanı və onun varislərini böyük ehtiram əlaməti olaraq üzərində Rusiya imperiyasının gerbi olan bayraqla təltif edir. Bu bayraq xanlığın və xanlıq daxilində hakimiyyətin rəmzi sayılmaqla İbrahim xanın yanında saxlanılmalı və xan müharibəyə yollanarkən bayraq da onunla aparılmalı idi.

Müqavilənin 8-ci maddəsində İbrahim xanın Rusiya dövlət qarşısında öz üzərinə götürdüyü öhdəliklər təsbit olunmuşdu. Baxmayaraq ki, İbrahim xan Qarabağ xanlığından gəlirlərdən istifadə etməkdə müstəqil idi, bununla belə vəd edirdi ki, Rusiya imperatorluğunun Tiflisdə yerləşən xəzinəsinə ildə 8000 çervon vəsait ödəyəcəkdir. Bu vəsait il ərzində iki dəfə ödənməli idi. Birinci hissə fevralın 1-də, ikinci hissə isə sentyabrın 1-də ödənməli idi. İlk vəsait 4000 çervondan ibarət olmaqla Kürəkçay müqaviləsi imzalanandan dərhal sonra ödənməli idi. Bundan başqa İbrahim xan böyük oğlu Məhəmməd Həsən ağanın ikinci oğlu Şükürallahı girov kimi Tiflisə göndərməyi də boynuna götürürdü.

9-cu maddədə deyilirdi ki, xanın Tiflisə göndərəcəyi girovun dolanması üçün Rusiya xəzinəsindən gündə 10 gümüş manat ayrılacaqdır. 10-cu maddədə müqavilənin əbədilik bağlandığı və onun heç vaxt dəyişikliyə uğramayacağı təsbit olundu. Müqavilənin sonuncu maddəsində onun imzalandığı tarix göstərilir və bildirilirdi ki, bu müqavilə onun imzalanmasından sonrakı 6 ay ərzində Rusiya imperatoru tərəfindən təsdiq olunacaqdır.

Beləliklə, İbrahim xanın imzaladığı Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı Rusiyanın hakimiyyəti altına düşdü. Adı çəkilən müqavilədə Qarabağ xanlığına müəyyən səlahiyyətlər nəzərdə tutulsa da, əslində xanlıq Rusiya sarayının idarəçiliyini qəbul etdi və İrəvan xanlığı ətrafında aldığı zərbədən sonra Sisianov çar sarayının böyük sevincinə səbəb olan bir müqaviləyə imza atmağa nail oldu. Heç bir silahlı müqavimətlə olmadan Qarabağ xanlığı kimi böyük bir xanlıq Rusiyanın cənginə keçdi. Rus generalı Sisianov Qarabağ xanlığının işğalını yuxarıda qeyd edildiyi kimi, Azərbaycana və fars dövlətinə açılan qapının ələ keçirilməsi kimi qiymətləndirirdi. Onun fikrincə, Qarabağ eyni zamanda Gürcüstanı Bakıya da yaxınlaşdırırdı və Gürcüstanla Bakının əlaqələrinin qurulması üçün bu şəhəri 1806-cı ilin yay ayında işğal etməyi planlaşdırırdı. Sisianov onu da qeyd edirdi ki, Qarabağın işğal edilməsi Rusiyanın bölgə ilə ticarət əlaqələrini də genişləndirə bilər.

Bütün bunları Rusiyaya çarına yazan Sisianov onun qarşısında İbrahim xana general-leytenant rütbəsi verilməsi, qılıncla mükafatlandırılması və xan olmasını təsdiq edən fərman verilməsi haqqında vəsatət qaldırdı. Rus generalı eyni zamanda xanın oğlanları olan Məhəmməd Həsən ağaya və Mehdiqulu ağaya general-mayor rütbəsinin verilməsi haqqında çar qarşısında məsələ qaldırdı (26).

17-ci yeger alayının mayoru Lisaneviç 1805-ci ilin fevralında Sisianovun məktubunu və Kürəkçay müqaviləsinin layihəsini İbrahim xana aparandan sonra 2 ay müddətində Şuşa qalasında qalmalı olmuşdu. Mayor Lisaneviç Azərbyacan türkcəsini yaxşı bilirdi və ona görə onunla ünsiyyət qurmaq İbrahim xanın özü üçün də asan idi. Kürəkçay müqaviləsinin imzalanmasından sonra İbrahim xan Şuşa qalasına göndəriləcək rus qarnizonuna rəhbərliyin mayor Lisaneviçə tapşırılmasını xahiş etdi. General Sisianov Şuşa qalasına 500 nəfərlik bir rus dəstəsinin göndərilməsini planlaşdırırdı. Müqavilədə nəzərdə tutulduğu kimi, bu rus dəstəsinin ərzağı münasib qiymətlərlə xanlıq tərəfindən təmin edilməli idi.

İbrahim xanın və onun oğlanlarının hərbi rütbələrə layiq görülməsi haqqında Sisianovun vəsatəti qəbul edildi və təklif olunan rütbələrin verilməsi haqqında çar sərəncamı imzalandı. Bundan başqa, hərbi rütbəyə layiq görülən şəxslər həmin rütbəyə uyğun olan maaş almaq haqqı qazandılar (27).

Kürəkçay müqaviləsinin imzalanmasına Sisianov çox böyük sevinc hissləri keçirsə də, bu müqavilənin uzun ömürlü olacağına heç də əmin deyildi. Xüsusilə, İbrahim xandan sonra xanlıq daxilində yarana biləcək vəziyyət general Sisianovun naigarançılığına səbəb olurdu. Çünki yaşı 80-i ötmüş bu xanın dünyasını dəyişəcəyi təqdirdə onun varislərinin hamısı Qarabağ xanlığı uğrunda mübarizəyə qalxa bilərdilər. Bu varislərin Rusiyaya qarşı münasibəti isə heç də birmənalı deyildi. Ona görə də onların Rusiya meylliliyini artırmaq üçün general Sisianov səxavətlilik göstərir, xanın övladlarına müxtəlif hədiyyələr bağışlayır və bu yolla onları ələ almağa çalışırdı. Bu məqsədlə o mərkəzə də çoxlu hədiyyə sifarişi verirdi (28).

İbrahim xan Rusiya ilə müqavilə imzalanmasını Kürəkçay sahilində keçirdiyi bir neçə günlük məclislə qeyd etdi və görünür bununla o, rus hərbçilərində imzalanmış müqaviləyə sədaqətli olacağı görüntüsü yaratmağa çalışırdı. Amma geri qayıtdıqdan sonra İbrahim xan heç də bütünlüklə Kürəkçay müqaviləsinə sadiq olmadığını nümayiş etdirdi. Sisianov yazdığı məktubunda qeyd edirdi ki, İbrahim xan Rusiya təbəəliyini qəbul etsə də onun sarayında və ətrafında olan şəxslər

içərisində Qacar sarayına meylli olanlar az deyildilər. Bundan başqa Kürəkçay müqaviləsində İbrahim xanın nəvəsinin girov kimi Tiflisə göndərilməsi nəzərdə tutulsa da, İbrahim xan bu tələbə də əməl etməyə tələsmirdi. 1805-ci il iyun ayının 13-də İbrahim xana yazdığı məktubunda Sisianov bu məsələyə toxunur və İbrahim xandan tezliklə nəvəsini Tiflisə göndərməyi tələb edirdi (29).

Sisianovla İbrahim xanın sonrakı yazışmalarından da aydın görünür ki, Qarabağ xanı girov göndərilməsi barəsində Kürəkçay müqaviləsinin müvafiq maddəsinə əməl etmək fikrində deyildi və girov göndərilməsini hər vasitə ilə ləngidirdi.

Sisianov isə Qarabağ xanlığını nəzarət altına almaq üçün mayor Lisaneviçin rəhbərliyi altında çox da böyük olmayan bir qoşun dəstəsini xanlıq ərazisinə göndərdi. Bu dəstə əvvəlcə Şuşa qalasının 10 verstliyində olan Xanbağında yerləşdi, bir müddətdən sonra isə qala daxilinə gəldi (30).

2. Qacar qoşunlarının Qarabağ üzərinə hücumu

Kürəkçay müqaviləsini imzalamaqla İbrahim xanın Rusiya himayəsini qəbul etməsi Qacarlar sarayının sonsuz qəzəbinə səbəb oldu. Bu müqavilənin imzalanması Qarabağa və bütünlükdə Şimali Azərbaycan xanlıqlarına olan şah iddialarına son qoyulması ola bilərdi. Qafqazın itirilməsi təhlükəsinin reallaşmaq üzrə olduğunu görən şah sarayı daha qətiyyətli addımlar atmağı qərarlaşdırdı.

Qacarlar sarayı əslində heç vaxt Qafqazı yenidən ələ keçirmək fikrindən əl çəkməmişdi. Lakin qətiyyətli addımların atılmaması, saray bürokratiyasının əhəmiyyətsiz məsələlər ətrafında vaxt keçirməsi Qafqazın tədricən təsir sahəsindən çıxması və Rusiya işğalının Qafqazda genişlənməsi ilə nəticələnirdi. Mövcud olan məlumatlara görə, İbrahim xanın Rusiya meylliliyi güclənəndə Abbas Mirzə Azərbaycandan Tehrana gəldi və şah sarayında məsləhətləşmələr apardı. O, şaha və şah əyanlarına çatdırdı ki, təcili qoşun toplanıb rusların qarşısı alınmasa, onda rus qoşunları nəinki bütün Azərbaycanı tutacaqlar, hətta Tehrana doğru da irəliləyə biləcəklər (31).



Fətəli şahın rus qoşunları ilə döyüş səhnəsi
(Tarixdən məlumdur ki, Fətəli şah rus qoşunları ilə döyüşdə iştirak etməyib. Rəsm rəssam tərəfindən xəyali mövzu kimi işlənilmişdir)

Fətəli özü də şah vəziyyətin ciddi olduğunu anlayırdı. Abbas Mirzənin ixtiyarında isə elə böyük qüvvə yox idi ki, rus qoşunlarının qarşısını saxlaya bilsin. Ona görə şah qoşun toplanmasına göstəriş verməklə bərabər, Abbas Mirzəyə də əlavə yardımlar göstərəcəyini bildirdi. Saray daxilində Abbas Mirzəyə qarşı qısqanclıqdan doğan güclü müxalifət olmasına baxmayaraq, Fətəli şah onun fikirləri ilə razılaşdığını bildirdi və onu Cənubi Qafqaz uğrunda yeni döyüşlərə hazırlaşmaq üçün yenidən Təbrizə göndərdi. Bölgədə rus qoşunlarının mövcudluğuna son qoymaq üçün Fətəli şah böyük bir qoşunla Cənubi Qafqaza doğru hərəkət etməyi qərarlaşdırdı. Nəzərdə tutulmuşdu ki, Abbas Mirzə 50 minlik qoşun dəstəsi ilə rus qoşunları üzərinə hücuma başlasın, Fətəli şah isə 100 min nəfərlik qoşun dəstəsi ilə hücumu daha da genişləndirsin. Abbas Mirzə Tehrandan Təbrizə qayıdandan az sonra Fətəli şah da böyük qoşun dəstəsi ilə Azərbaycana doğru hərəkətə başladı və bir neçə gündən sonra Soltaniyyə çəməninə yetişdi. Burada o, oğlu Əlixana, İsmayıl xan Damğaniyə və İsmayıl xan Qacara göstəriş verdi ki, öhdələrində olan dəstələrlə birlikdə Abbas Mirzənin qoşun dəstəsinə qoşulsunlar və onun dəstəsini daha da gücləndirsinlər (32).

Yeni tarixi şəraitdə rus qoşunlarının Cənubi Qafqazda möhkəmlənməsi ilə şah sarayı heç də barışmaq istəmirdi. Əksinə, İrəvan xanlığı ərazisində aparılan döyüşlər Fətəli şahda hətta Gəncənin də ruslardan geri alınması üçün müəyyən ümidlər yaratdı. Bunu Fətəli şah onun qəbuluna gəlmiş kabardin hakimlərinə də bəyan etdi. Fətəli şah bildirirdi ki, Abbas Mirzəni qoşun dəstəsi ilə Gəncə üzərinə göndərməyə, özü isə 1805-ci ilin avqust ayında Tiflis üzərinə hücum etməyə hazırlaşır. Fətəli şah və ona sığınmış olan gürcü şahzadəsi belə güman edirdilər ki, Quba xanı Şeyxəli xanın və Şamaxı xanı Mustafa xanın dəstəyi rus qoşunları üzərinə hücumu daha da uğurlu edəcəkdir (33).

Kabardin hakimlərinə göndərdiyi məktubunda Fətəli şah yaxın vaxtlar üçün öz planlarını bir daha açıqladı. Fətəli şahın sözlərinə görə, onun qoşunlarında 400 ədəd top da var idi. Fətəli şah kabardin hakimlərinə yazırdı ki, bu hücum zamanı o, rusları qıracaq, məhv edəcək və onları Gürcüstandan qovacaqdır. Sonra da Fətəli şah Kabarda hakimlərindən tələb edirdi ki, Qacar qoşunlarının hücum xəbərini eşidən kimi onlar da öz silahlı dəstələri ilə rusların üzərinə hücum etsinlər və Qacar qoşunlarına qoşulsunlar (34).

Qarabağ üzərinə yürüşə başlamazdan əvvəl Fətəli şah İbrahim xana bir daha məktub göndərdi və onu Rusiya ilə olan münasibətlərindən çəkindirməyə çalışdı. Fətəli şah inandırmağa çalışırdı ki, rusların Qafqaza gəlişi uzunmüddətli ola bilməz və ona görə də Rusiya

himayəsini qəbul etməyin gələcəyi yoxdur. Onun sözlərinə görə, hətta Rusiya çarı Fars sərhədlərini aşsa belə yenə də burada uzun müddət duruş gətirə bilməzdi. Qafqazdakı rus hərbçilərini istehza ilə balıqçı adlandıran şaha görə onların bu az qüvvəsi heç bir nəticəyə nail ola bilməyəcəkdi. Rus qoşunlarının Gürcüstanı işğal etməsini şah müvəqqəti uğur adlandırır və bu uğurun səbəbini bir tərəfdən gürcü çarının fərsizliyi və gücsüzlüyü, digər tərəfdən də həmin vaxt şah qoşunlarının Xorasanda olması və rus qoşunlarına müqavimət göstərilməməsi ilə əlaqələndirirdi. Fətəli şah daha sonra əlavə edirdi ki, nəhayət rus qoşunlarının Gürcüstandan qovulması qərara alınmışdır və orada yerləşən kafirlərə divan tutulacaqdır. Şah bu məqsədinə nail olacağına şübhə etmirdi. Onun fikrincə, əgər 1804-cü ildə ciddi hazırlıq görmədən İrəvan xanlığı ərazisində rus qoşunları məğlub edilmişdisə, indi toplanan saysız qoşunlara qarşı çıxmağa Sisianov cəsarət etməzdi (35).

Rus mənbələrinin məlumatına görə, Qafqaza hücuma başlayan şah qoşunlarının qarşısını almaq üçün Sisianovun ixtiyarında kifayət qədər qüvvə yox idi. Rus generalı 1200 nəfərlik qoşun dəstəsinə və 9 ədəd topa malik idi. Bununla isə şah qüvvələrinin qarşısını almaq elə də asan olmayacaqdı. Belə bir şəraitdə Sisianov qərara aldı ki, Xəzər dənizində olan hərbi gəmilər vasitəsilə Ənzəli və Rəştə desant çıxarsın və bununla şah qüvvələrinin diqqətini Cənubi Qafqazdan yayındırsın.

Bununla belə, Abbas Mirzənin rəhbərliyi altında olan qoşun dəstəsi qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün Təbrizdən hərəkətə başladı və Əhər qəsəbəsində düşərgə saldı. Bu qoşun dəstəsinin yaxınlaşması xəbərini eşidən kimi İbrahim xan öz adamları vasitəsilə Sisianova məktub göndərdi və ondan əlavə hərbi yardım istədi. Çünki mayor Lisaneviçin tabeliyində olan kiçik dəstənin Abbas Mirzə qoşunu qarşısında davam gətirəcəyi xanda şübhə oyadırdı. Sisianov bir neçə gündən sonra İbrahim xanın məktubuna cavab yazdı. Həmin məktubunda Sisianov qaldırılan məsələ ilə bağlı cavab vermək əvəzinə İbrahim xanı nəvəsini girov kimi Tiflisə göndərməməkdə günahlandırdı (35).

Sisianov bu məktubunda da ondan kömək istəyən İbrahim xanın nə üçün nəvəsini girov kimi Tiflisə göndərməməsi məsələsinə xüsusi diqqət yetirdi. Bundan kifayət qədər əsəbiləşmiş olan Sisianov İbrahim xanı hədələyirdi ki, verdiyi vədə əməl etməsə qoşun dəstəsini Qarabağdan geri çəkəcək və o, şah qoşunu ilə təklikdə üzbəüz qalacaq. İbrahim xanın Qarabağa əlavə rus qoşun dəstəsinin göndərilməsi xahiinə cavab olaraq isə Sisianov hirslə bildirirdi ki, onun kimsənin məsləhətinə ehtiyacı yoxdur və tabeliyi altında olan qoşun dəstələrinin hara və nə üçün göndərilməsini o özü müəyyənləşdirir (36).

Bir müddət sonra İbrahim xan yenidən Sisianova məktub yazdı və bu məktubu mayor Lisaneviç vasitəsilə Sisianova göndərdi. İbrahim xan həmin məktuba Fətəli şahdan aldığı növbəti məktubu da əlavə etdi. Yazdığı məktubunda İbrahim xan bir daha vəziyyətin mürəkkəbliyini Sisianovun diqqətinə çatdırmaqla girov göndərilməməsinə də aydınlıq gətirdi. İbrahim xan yazdığından belə bir qənaətə gəlmək olardı ki, onun oğlunun rusların girovunda olduğu halda nəvəsinin girov olub-olmaması məsələsi narahatçılıq doğurmamalı idi. Oğlu deyəndə o, Məhəmməd Həsən ağanı nəzərdə tuturdu və bildirirdi ki, Məhəmməd Həsən ağa onsuz da bütünlüklə mayor Lisaneviçin nəzarəti altında idi. O biri tərəfdən İbrahim xan Əsgəranın Abbas Mirzə qoşunlarının nəzarəti altında olduğunu və Gəncəyə gedən yolun bağlı olduğunu yazaraq bu şəraitdə nəvəsinin rus generalının yanına göndərilməsinin qeyri-mümkünlüyünə işarə edirdi. İbrahim xana görə əslində, bütün Qarabağ rusların girovunda idi. Ona görə də, İbrahim xan yenidən rus qoşunlarının köməyinə ehtiyac olduğunu Sisianova çatdırdı və bildirdi ki, Fətəli şah da qoşunla Qarabağ xanlığına gəlmək və Əsgəran ətrafında Abbas Mirzənin dəstəsi ilə birləşmək niyyətindədir (37).

Rus tarixçiləri Araz çayını keçməmişdən əvvəl Abbas Mirzə tərəfindən Qacar qoşunlarının iki dəstəyə bölündüyünü, bir dəstənin Pirqulu xanın rəhbərliyi altında Xudafərin istiqamətinə, digər dəstənin isə İrəvan xanlığı istiqamətinə göndərildiyini yazırlar (38). Əslində isə, Abbas Mirzə bütün qoşun dəstəsi ilə Qarabağ xanlığı üzərinə hücum etdi və əsas diqqəti də Qarabağ xanlığı üzərinə istiqamətləndirdi.

"Məəssər-e Soltaniyyə"də bildirilir ki, Abbas Mirzə Qarabağa qoşun çıxarmaq üçün Fətəli şahın fərmanını alan kimi Azərbaycana yollandı və Əhər yolu ilə Qarabağa doğru istiqamət götürdü. Qeyd olunur ki, Əhərdən əvvəlcə İsmayıl bəy Damğaninin rəhbərliyi altında olan bir dəstəni Abbas Mirzə ön dəstə kimi Araz sahilinə, Xudafərin istiqamətinə göndərdi (39). Mirzə Məhəmməd Sadıq Vəqayeneqara görə isə, şah özü İsmayıl xan Damğaniyə göstəriş verdi ki, dəstəsi ilə Xudafərin körpüsünə doğru irəliləsin (40). Bu dəstə Xudafərin körpüsünü nəzarət altına almaqla onun təhlükəsizliyini və Qacar qoşunlarının rahatlıqla Araz çayını adlamasını təmin etməli idi.

Şah sarayının Azərbaycan xanlıqları üzərinə planlaşdırılan hücumunun Tiflisə qədər davam etdiriləcəyini bəyan etməsi və bu niyyətin həyata keçirilməsi üçün şah qoşunlarının Araz çayına yaxınlaşması bölgədəki rus qüvvələrinin vəziyyətini xeyli çətinləşdirdi. Bir tərəfdən rus tarixçilərinin yazdığına görə, Sisianov Rusiya imperatorundan Qacar qoşunları ilə döyüşə girməmək tapşırığı almışdı (41). Digər tərəfdən isə

Qacar qoşunları ilə müqayisədə Sisianovun ixtiyarındakı qüvvələrin sayı xeyli az idi. Zərurət yarandığı halda bu qüvvələrlə Qacar qoşunlarına müqavimət göstərmək elə də asan olmayacaqdı. Sisianov isə arzulamasa da Qacar qoşunları ilə qarşılamaq məcburiyyətində idi. Əks təqdirdə rus qoşunları öz mövqelərini tərk edib Cənubi Qafqazdan çəkilməli idilər. Buna yol verməmək üçün Sisianov ixtiyarında olan qüvvələrin yenidən qruplaşdırılmasını bir də nəzərdən keçirdi və Qacar qoşunlarının yürüşü başlamazdan əvvəl Samxetiyada olan Tiflis alayının iki taborunun Gəncəyə gətirilməsini mümkün saydı (42).

Qacar qoşunlarının Qarabağ xanlığı üzərinə hücumu iyun ayının əvvəllərinə təsadüf edirdi və bu vaxt Araz çayı adətən bol sulu olardı. Belə bir vəziyyətdə Xudafərin körpüsü Araz çayını adlamaq üçün xüsusi hərbi əhəmiyyət kəsb edirdi və bu körpünü nəzarət altına almaqla şah qoşunlarının Qarabağ xanlığı ərazisinə daxil olmasına maneçilik yaratmaq olardı. Bu vəzifəni həyata keçirmək üçün isə Qarabağ xanlığı ərazisində mayor Lisaneviçin rəhbərliyi altında olan dəstədən başqa bir qüvvə yox idi.

Rus tarixi ədəbiyyatında olan məlumata görə, mayor Lisaneviçin rəhbərliyi altında Şuşa qalasında olan dəstə cəmi 300 nəfərdən ibarət idi. Bu dəstə ilə mayor Lisaneviç həm qalanı, həm də İbrahim xanın özünü nəzarət altında saxlamalı, qala daxilində Rusiya işğalına qarşı müxalifətçiliyin baş qaldırmasına, İbrahim xanın digər Azərbaycan xanları və Qacar sarayı ilə məktublaşmasına yol verməməli idi. Amma yaranmış vəziyyətin təhlükəli olmasını nəzərə alaraq İbrahim xan mayor Lisaneviçin dəstəsinin Xudafərin istiqamətinə göndərilməsinə nail oldu. Bu dəstənin gücünün artırılması üçün Məhəmməd Həsən ağanın rəhbərliyi altında olan bir atlı dəstəsi də mayor Lisaneviçlə birlikdə Xudafərin körpüsü ətrafına göndərildi. Nəzərdə tutulmuşdu ki, Xudafərin körpüsündə şah qüvvələrinin qarşısını müəyyən müddət saxlamaqla Qarabağ əhalisinin tarlalarda yetişdirdiyi məhsulların toplanmasına vaxt qazanılsın. Eyni zamanda da güman edilirdi ki, şah qüvvələrinin Xudafərin körpüsündə ləngidildiyi vaxt Sisianov tərəfindən göndərilən əlavə kömək də gəlib yetişə bilər (43).

Lakin Məhəmməd Həsən ağanın və Lisaneviçin dəstəsi Araza yetişənə kimi şah qüvvələri artıq Xudafərin körpüsünü adlamışdılar. Qarabağ xanlığı ərazisinə ilkin daxil olan dəstələrdən biri İsmayıl xanın rəhbərliyi altında olan dəstə idi. Bu dəstə Arazı adlayan kimi Cəbrayıl bağlarında mövqe seçdi. Yəni, mayor Lisaneviçlə Məhəmməd Həsən xanın dəstəsi Araz çayına yetişəndə İsmayıl xan dəstəsi ilə artıq Qarabağ xanlığı ərazisində döyüş mövqeləri tutmuşdular. Məhəmməd Həsən ağa

ilə mayor Lisaneviç Xudafərin körpüsünə vaxtında yetişə bilməsələr də, Xudafərin körpüsünü ilk adlamış İsmayıl xanın dəstəsi üzərinə hücum etməyi qərara aldılar. Sisianovun yazışmalarından aydın olur ki, bu dəstələr arasındakı döyüş iyun ayının 9-da baş verdi (44).

Rus tədqiqatçılarının yazdığına görə isə Araz çayı boyunca dayanan Qarabağ qarovullarından şah qüvvələrinin Araz çayını adlaması xəbərini eşidən kimi Lisaneviç öz dəstəsi ilə irəliyə doğru hərəkət etdi. Şah qüvvələrinin 7 qrupda hərəkət etməsi müşahidə olunurdu. Rus qüvvələrini görən kimi, şah silahlıları dərhal irəli atıldılar. Şah qüvvələri elə böyük bir sürətlə hücuma qoşuldular ki, rus toplarının atəşləri də onların qarşısını saxlaya bilmədi. Yalnız döyüş səngərlərinə yaxınlaşanda rus hərbçiləri tüfəng atəşləri ilə onların hərəkətini dayandıra bildilər. Şah qüvvələri bir qədər geri çəkilib yenidən qruplaşdılar və bir daha irəli atıldılar. Lakin bu dəfə də kazaklar və Məhəmməd Həsən ağanın rəhbərliyi altında olan atlı dəstə şah döyüşçülərinə yaxınlaşmaq imkanı vermədilər. Bildirilir ki, ciddi müqavimətə rast gələn Qacar qüvvələri geri çəkilib yaxınlıqdakı təpəliklərə sığındılar. Amma sonra hücumu davam etdirdilər. Bununla belə, Qacar qoşunlarının hücumunun qarşısı bir də alındı və onlar hətta Məhəmməd Həsən ağanın dəstəsi və kazaklar tərəfindən müəyyən məsafədə təqib olundular. Mövcud məlumata görə, iyunun 12-də mayor Lisaneviç Qacar dəstəsinin Arazın cənubuna çəkilməsi haqqında məlumat aldı. Bundan sonra o özü də Cəbrayıldan Şuşa qalasına qayıtdı. Rus tarixi ədəbiyyatında olan məlumata görə, bu qərar bir tərəfdən Lisaneviçin ixtiyarında süvari qoşun qüvvələrinin olmaması və növbəti hücumun qarşısının alınmasının qeyri-mümkünlüyü, o biri tərəfdən də İbrahim xan tərəfindən onun qalaya çağırılması ilə bağlı idi. Guya İbrahim xan deyibmiş ki, Lisaneviç geri qayıdaraq Qacar qoşunlarından qorxan Şuşa əhalisinin şəhərdən qaçmasının qarşısını almalıdır. Bu məlumatın doğruluğu şübhəli görünür. Çünki İbrahim xan mayor Lisaneviçin qalada olmasına belə ehtiyac duysaydı, onda onun yenidən Şuşa qalasından uzaqlaşmasına razı olmazdı. Mayor Lisaneviç qalaya qayıdandan sonra İbrahim xan Sisianova daha bir məktub yazdı və bu məktubda Araz kənarında baş verən döyüçü xatırladaraq Sisianovdan əlavə kömək istədi. Həmin məktub Sisianova mayor Lisaneviç vasitəsilə göndərildi. Əgər İbrahim xanın qalada mayor Lisaneviçin köməyinə xüsusi ehtiyacı olsaydı onda Sisianova yazdığı məktubu da onunla göndərməzdi.

General Sisianovun yazışmalarından aydın olur ki, iyunun 9-10-da baş verən döyüş mayor Lisaneviçin dəstəsi üçün kifayət qədər ciddi bir döyüş olmuş və onun gedişində ruslar itkilərlə də qarşılaşmışdılar.

Sisianov bu itkilərin verilməsini İbrahim xan tərəfindən lazımi sayda kömək göndərilməməsi ilə əlaqələndirdi. Araz çayı yaxınlığındakı döyüşdə Məhəmməd Həsən ağanın rəhbərliyi altında Qarabağ xanlığının 100 nəfərlik atlı dəstəsi iştirak edirdi ki, bunu da Sisianov kifayət saymırdı və İbrahim xanın daha böyük dəstə göndərməli olduğunu yazırdı (46).

Mayor Lisaneviçin dəstəsi ilə qarşılaşmadan sonra Qacar dəstəsinin Arazın cənubuna çəkilməsi haqqında məlumat farsdilli mənbələrdə öz əksini tapmamışdır. Mirzə Məhəmməd Sadıq Vəqayeneqarın yazdığına görə, İsmayıl xan Damğaninin rəhbərliyi altında olan dəstə Xudafərin körpüsünü keçdikdən sonra Cəbrayıl yaxınlığında qarşı tərəfin dəstəsi ilə qarşılaşdı. Məhəmməd Həsən ağa şah qüvvələrinin qarşısını saxlamaq üçün irəli çıxdı. Lakin Qacar dəstəsinin qarşısını saxlamaq mümkün olmayacağı üçün Məhəmməd Həsən ağa dəstəsini meşələrə çəkdi. İsmayıl xan Damğani Qarabağ atlılarını təqib etdi və sonra da baş verənlər haqqında Abbas Mirzəyə məlumat çatdırdı. Mənbədəki məlumata görə, bundan sonra İbrahim xan dəstəsini Məhəmməd Həsən ağanın köməyinə göndərdi. Müəllif rus dəstəsinin sayı haqqında verdiyi məlumat doğru deyildir. Bununla belə, müəllifə görə, rusların köməyə yetişməsi İsmayıl xan Damğanini qorxutmadı. O yenidən xan dəstəsinin və rusların üzərinə hücum etdi və onları Şuşa qalasına çəkilməyə məcbur etdi (47).

"Məəssər-e Soltaniyyə"də isə bildirilir ki, Qacar qoşunlarının hücum xəbərini eşidəndə İbrahim xan oğlunun rəhbərliyi altında olan dəstəni rus dəstəsi ilə birlikdə Xudafərin körpüsünün mühafizəsinə göndərdi. Mənbəyə görə, İsmayıl xan Damğani dərhal Qarabağ xanı tərəfindən göndərilən dəstə ilə döyüşə girdi. Buradakı məlumatdan aydın olur ki, qarşılaşmanın ikinci günü də döyüş davam etdi və ikinci gün Qarabağ dəstəsi geri çəkildi. Bildirilir ki, bu qarşılaşma zamanı şah döyüşçülərinin göstərdiyi məharət İsmayıl xan Damğaninin sevincinə və bu sevincdən göz yaşlarının axmasına səbəb oldu. Çünki şah sarayı üçün əhəmiyyət kəsb edən bu yürüşün ilk döyüşünün Abbas Mirzənin və Fətəli şahın arzusunda olduğu nəticə ilə başa vurmaq mümkün olmuşdu. Mənbənin məlumatına görə, döyüşün ilk günündə baş verən qarşıdurma haqqında Abbas Mirzəyə xəbər çatdırıldı. Çox güman ki, Abbas Mirzə Arazın şimalında çox böyük rus qoşun dəstəsinin dayandığını güman edirdi və ona görə də dərhal İsmayıl xan Damğaninin köməyinə yollanmağı qərara aldı. O, qarşıdurmanın ikinci günü döyüşün baş verdiyi əraziyə gəlib çıxdı. Mənbədən məlum olur ki, Abbas Mirzə də geri çəkilən dəstənin təqibində oldu və Məhəmməd Həsən ağanın dəstəsi ilə rus dəstəsini Ağoğlana qədər təqib etdi. Abbas Mirzə Ağoğlanın mühafizəsini

Nəcəfqulu xan Gorus adlı birisinə tapşıraraq özü qoşun dəstəsi ilə Çanaxçıya qədər irəlilədi (48). Başqa bir mənbənin məlumatına görə isə, Məhəmməd Həsən ağanın dəstəsi İsmayıl xan Damğaniyə güclü müqavimət göstərməyə çalışdı. Ancaq bir nəticə hasil olmadı. Bildirilir ki, Məhəmməd Həsən ağa çoxlu itki verəndən sonra meşəliklərə çəkilməli oldu. İsmayıl xan Damğani bu dəstəni meşədə mühasirə edib Abbas Mirzəyə xəbər göndərdi. Abbas Mirzə də bu xəbəri eşidəndə Əhərdən hərəkətə başladı. O gəlib çatana kimi Məhəmməd Həsən ağa mühasirədən çıxaraq Şuşa qalasına pənah apardı. Abbas Mirzə isə onun dəstəsinin arxasınca hərəkətini davam etdirdi. Onları tapa bilməyəndə Ağoğlan yaxınlığında düşərgə saldı (49).

Rus mənbələrində və Qarabağnamələrdə Xudafərin yaxınlığında baş verən ilk qarşıdurmada Abbas Mirzənin iştirakı barədə məlumat yoxdur. Amma hər halda Qarabağnamə müəllifləri də Cəbrayıl meşələrində tərəflər arasında qanlı döyüşlər olmasını təsdiq edirlər. Qeyd olunur ki, şiddətli döyüş axşama kimi davam etdi. Havanın qaralmağa başlaması ilə döyüş də dayandırıldı. Məhəmməd Həsən ağa qardaşı Əbülfət ağanın Şuşa qalasında olan yaxınlarının xan əleyhinə iğtişaş yarada biləcəyindən ehtiyatlanaraq qalaya qayıtmağı məqsədəuyğun saydı. Bu məqsədlə həm öz atlılarını, həm də rus döyüşçülərini hərəkət etdirərək o biri gün səhər Tuğ kəndinə yetişdi. Şah qüvvələri bundan xəbər tutaraq Məhəmməd Həsən ağanın qarşısını kəsməyə cəhd göstərsələr də, buna nail ola bilmədilər. Şah qüvvələri Məhəmməd Həsən ağanın və onlarla bilikdə olan rusların qarşısını kəsməklə Şuşa qalasını müdafiəsiz qoymaq və Abbas Mirzənin gəlişi ilə onun ələ keçirilməsini asanlaşdırmaq istəyirdilər. Məhəmməd Həsən ağa və onu müşayiət edən rus qüvvələri Tuğ kəndinə hərəkət edib Şuşa qalasına daxil ola bildi. Şah qüvvələri bu istəklərinə nail ola bilmədilər və qalanın 4 ağaclığında olan Ağbulaqda dayandılar. Bir müddət sonra isə Abbas Mirzə Çanaxçıya gəlib orada düşərgə qurdu. Şuşa qalasına hücuma başlamazdan əvvəl Abbas Mirzə qoşun sərkərdəsi olan Şahsevən sərdarını beş min nəfərlik bir dəstə ilə Əsgəran qalası istiqamətinə göndərdi ki, Tiflisdən gələ biləcək rus dəstələrinin qarşısını saxlaya bilsin. Ümumiyyətlə, belə planlaşdırılmışdı ki, Abbas Mirzə bir tərəfdən, Əsgəran ətrafında olan dəstə isə başqa bir istiqamətdən Şuşa üzərinə hücum etsin (50).

Qacar sarayı təkcə Qarabağa qoşun çəkməklə kifayətlənmədi. Abbas Mirzənin Qarabağda yerləşən qərargahı Qarabağ əhalisi arasında ruslara qarşı təbliğat işini genişləndirməklə özünə yerlərdə bir dəstək də qazanmağa çalışırdı. Bu işlərə Əbülfət ağa rəhbərlik edirdi. O, xüsusilə erməni kəndləri içərisində təbliğat aparır, erməni məliklərini və

koxalarını şahpərəst mövqe tutmağa meylləndirirdi. Nəticədə bir sıra məliklər və erməni koxaları Abbas Mirzənin qərargahına gələrək hədiyyələr alır və şaha sədaqət nümayiş etdirməklə öz maraqlarını qorumağa çalışırdılar (51).

Qarabağ əhalisi arasında ruslara və İbrahim xana qarşı təbliğat aparılmasını farsdilli mənbələr də təsdiq edirlər (52). Əbülfət ağa yerli ermənіləri şaha tərəf çəkməyə çalışmaqla İbrahim xanı da zəiflətmək istəyirdi. Ermənilərin belə üzüdönüklüyü isə Sisianovun özünü də təəccübə salmışdı. Rus qoşunlarının bölgəyə gəlməsi üçün hay-küy salan, Rusiya sarayı ilə əlaqələr yaratmaq istəyən ermənilərin bölgədə olan rus qüvvələrini və ya Rusiya himayəsini qəbul etmiş İbrahim xanı deyil, şah qüvvələrini müdafiə etməsi rus qüvvələrinin ağır olan vəziyyətini daha da ağırlaşdıra bilərdi. Bunun qarşısını almaq üçün Sisianov Qarabağ ermənilərinə müraciət etdi, onları şah meylli mövqedən çəkindirməyə çalışdı: "Yəni siz indiyə kimi igidliyi ilə seçilən Qarabağ ermənіləri sizin nüfuzlu Qarabağ xanınız Rusiya imperiyasının daimi təbəəliyini qəbul etdikdən sonra dəyişmişsiniz? Siz indi imperator qüvvələrinin qüdrətinə arxalanaraq daha da cəsur olmalı idiniz. Amma siz arvad xasiyyətli olmuşsunuz, yalnız ticarətlə məşğul olan ermənilərin tayına çevrilmişsiniz " (53).

Müraciətinin sonunda Sisianov bir daha Qarabağ ermənilərini ayılmağa, əvvəlki görkəmlərini almağa və şah qüvvələrinə qarşı çıxmağa səsləyirdi. Ermənilərin belə üzüdönüklüyü rus qüvvələrinin təchizatında da müəyyən problemlər yarada bilərdi ki, bu da Sisianov üçün arzuolunmaz idi.

Yuxarıda qeyd edildiyi kimi, iyunun 9-da baş verən ilk döyüşün nəticələrinə görə, Sisianov Qarabağ xanından da narazı qaldı və bunu ona göndərdiyi məktubunda da açıqladı. Bu narazılıq ondan ibarət idi ki, həmin döyüşdə Qarabağ xanlığından azsaylı bir dəstə iştirak edirdi. Sisianov ümid edirdi ki, Rusiya himayəsini qəbul etməklə İbrahim xan xanlığın bütün gücünü Rusiya maraqlarının qorunmasına səfərbər edəcəkdir. Əslində isə belə olmadı. Sisianov şübhə etmirdi ki, igidliyi ilə ad çıxarmış Qarabağ atlıları toplaşdığı halda rus qüvvələrinin köməyi ilə şah qoşunlarının qarşısını etibarlı şəkildə almaq mümkün idi. Sisianovun fikrincə, Qarabağ atlılarının toplanmamasının başqa bir səbəbi var idi ki, o da İbrahim xanın hələ də şah sarayı ilə münasibətlərini kəsməmişdi. Rus generalının fikrincə, İbrahim xan hələ də həm Rusiya, həm də şah sarayı ilə müəyyən münasibətlər saxlanmasına çalışmaqla ikibaşlı siyasət yeridirdi. Bölgədə kifayət qədər hərbi qüvvəyə malik olmayan Sisianovu isə belə bir mövqe təmin etmirdi. Ona görə də Sisianov tələb edirdi ki,

Qarabağ xanı İrəvan xanı kimi ikibaşlı mövqe tutub ruslardan şah qüvvələrinə qarşı, şah sarayından isə ruslara qarşı kömək istəməsin, İbrahim xan Rusiya sarayına sədaqətli olmasını nəhayət ki, sübuta yetirsin (54).

Bununla belə, Sisianov vəziyyətin ciddi olduğunu da anlayırdı. Yenicə Rusiya himayəsi altına alınan Qarabağ xanlığının qorunmasına nail olmaq üçün o, polkovnik Karyaginin rəhbərliyi altında bir yeger taborunu Qarabağa göndərdi. Bu tabor Lisaneviçin dəstəsi ilə birləşərək şah qoşunlarının hücumunun qarşısını almalı və Qarabağın rus nəzarəti altında qalmasını təmin etməli idi. Amma Sisianov bu qüvvələrin də şah qoşunlarının qarşısının alınması üçün yetərli olmayacağını görürdü. Ona görə nəzərdə tutulmuşdu ki, özü də Qarabağa göndərdiyi dəstələrin köməyinə hazırlaşsın və vəziyyət mürəkkəbləşəcəyi halda Tiflis alayının iki taboru ilə birlikdə Qarabağa yollansın (55).

Sisianov bu barədə İbrahim xana da məlumat çatdırdı və onun qarşısında məsələ qaldırdı ki, heç olmasa İbrahim xan polkovnik Karyaginin dəstəsinin Qarabağa yetişməsinə və mayor Lisaneviçin dəstəsi ilə birləşməsinə lazımi kömək göstərsin (56).

3. Əsgəran döyüşü

Rus qoşunlarının baş komandanı general Sisianovun Qarabağda cərəyan edən hadisələrlə bağlı apardığı yazışmalarından belə bir qənaətə gəlmək mümkündür ki, İbrahim xan siyasi manevr etməklə Rusiya qüvvələri ilə şah qüvvələrinin üz-üzə gəlməsində və onların ağır döyüşlərə girərək zəifləməsində maraqlı idi. Əslində, İbrahim xan tərəfindən belə bir siyasət yeridildiyini istisna etmək olmaz. Çünki əvvəldən də məlum idi ki, İbrahim xanın başlıca məqsədi məhz xanlığın müstəqilliyinin qorunması, onun işğalına və ya hər hansı bir dövlətin himayəsi altına düşməsinə yol verməmək idi.

Sisianov kimi şah sarayı da İbrahim xanı öz tərəfinə çəkməyə hələ də ümidini kəsməmişdi. Bunun nəticəsi idi ki, Ağoğlanda olan Pirqulu xan İbrahim xana məktub göndərdi və onu şah himayəsini qəbul etməyə çağırdı. Bir neçə gün gözləsə də Pirqulu xan təkliflərinə İbrahim xandan cavab almadı. İbrahim xanın Sisianovla yazışmalarından aydın olur ki, Pirqulu xandan aldığı məktubu İbrahim xan mayor Lisaneviçə təqdim etmiş, o da həmin məktubu Sisianova göndərmişdi. Bununla İbrahim xan bir daha Qacar sarayının təkliflərini qəbul etmədiyini Sisianova nümayiş etdirdi. Həmin günlərdə Abbas Mirzə də öz ətrafı ilə birlikdə Ağoğlana gəlib çıxdı. Onun yetişməsindən sonra Pirqulu xan İbrahim xana daha bir məktub

göndərdi. Pirqulu xanın yazdıqlarından belə aydın olur ki, Abbas Mirzə dərhal Qarabağ xanlığı dəstələrinin və rus qüvvələrinin üzərinə hücum etmək istəyirmiş. Pirqulu xan isə ona İbrahim xana göndərdiyi ilk təkliflərə cavab verməsini gözləməyi təklif edibmiş. Pirqulu xan ikinci məktubda yazırdı ki, Fətəli şah özü də böyük saylı qoşun dəstəsi və çoxlu toplarla Qaradağın Əhər qəsəbəsindən hərəkətə başlayıb və bir neçə gündən sonra Xudafərin körpüsünə çatacaqdır. O, Fətəli şahla Abbas Mirzənin birləşmiş qoşunlarının qarşısında isə duruş gətirmək mümkün olmayacağını yazırdı. Pirqulu xan bir daha İbrahim xana təklif edirdi ki, Fətəli şahın və Abbas Mirzənin görüşünə gəlsin və şah hakimiyyətini qəbul etdiyini bildirsin, ya da elə bir yer seçsin ki, özü oraya İbrahim xanın görüşünə gəlsin. Şah sərkərdəsi vəd edirdi ki, bununla İbrahim xanın bütün istəklərinə əməl olunacaqdır. Pirqulu xan hətta İbrahim xanın nümayəndəsinin də şah düşərgəsinə göndərilməsinə razı idi. O, İbrahim xanı əmin etmək istəyirdi ki, şah himayəsindən uzaqlaşmaq cəhdlərinə görə də qorxmasın. Onun fikrincə, İbrahim xan da İrəvan xanı Məhəmməd xan kimi hərəkət etməli və Şuşa qalasının qapılarını şah qoşunlarının üzünə açmalıdır (56a).

İbrahim xanın yazdığı məktubdan aydın olur ki, o, Pirqulu xanın məktubunu gətirən elçiləri, habelə qala daxilində etibarsız saydığı bəzi xanları həbs edib Lisaneviçə təhvil verdi. Bunları yazmaqla İbrahim xan bir daha Rusiyaya sədaqət nümayiş etdirdiyini göstərir və nəvəsini girov kimi Tiflisə göndərmədiyi üçün Sisianovu ondan şübhələnməməyə çağırırdı. Başqa sözlə, İbrahim xan bildirmək istəyirdi ki, nəvəsini Tiflisə göndərməməsi hələ onun Rusiyaya olan qeyri-sədaqətsizliyi kimi yozulmamalıdır. İbrahim xanın yazdığına görə o, Rusiya sarayına biganə olsaydı onda şah qüvvələrinin elçilərini qorxmadan həbs edib Rusiya tərəfinə təhvil verməzdi. Bütünlükdə isə, İbrahim xan nəvəsinin hələ də Tiflisə göndərilməməsini Əsgərandan keçən yolun təhlükəli olması ilə əlaqələndirirdi.

Şuşa ətrafında isə vəziyyət təhlükəli olaraq qalırdı. İbrahim xana göndərilən təkliflərə cavab alınmayanda Abbas Mirzə Şuşa üzərinə hücum etməyi qərara aldı. O, Nəcəfqulu xan Gorus adlı sərkərdəsini bir dəstə ilə Ağoğlandakı düşərgəsinin mühafizəsində saxladı və özü isə Şuşaya doğru hərəkətə başladı. Şuşa yaxınlığında Abbas Mirzə Qarabağa əlavə kömək kimi göndərilən rus dəstəsinin Əsgərana yaxınlaşması xəbərini aldı və dərhal da həmin qüvvənin qarşısının alınması üçün göstəriş verdi. Abbas Mirzə üçün aydın idi ki, həmin dəstə Şuşaya yaxınlaşacağı təqdirdə şah qoşunları mühasirəyə düşə bilərdi. Əksinə, Əsgərana yaxınlaşan dəstə məhv ediləcəyi təqdirdə Şuşa daxilində olan qüvvələr həm canlı yardımdan, həm də ərzaq və təchizatdan məhrum ola bilərdilər. Bu da Şuşa qalasının süqutunu yaxınlaşdıra bilərdi.

Abbas Mirzə qoşunlara istirahət vermədən dərhal Əsgəran istiqamətinə yollanmağı qərarlaşdırdı. İsmayıl bəy qoşun çərxçisi təyin edildi. Tanınmış sərkərdələr olan Pirqulu xan Qacar, Əli xan Qovanlı, Sadıq xan Əzadanlı atlı dəstələrin rəhbərləri təyin edildilər. Fərahani və Kəzzaz tüfəngdarları Hacı Allahverdi xan Qacarın rəhbərliyi altına verildilər. Qoşun dəstəsi yenidən qruplaşdırıldı və Abbas Mirzə qoşunların mərkəzində mövqe tutdu. Axşam qürubuna üç saat qalmış Abbas Mirzənin qoşun dəstəsi Əsgəran yaxınlığına yetişdi (57).

Əsgərana yaxınlaşmaqda olan rus dəstəsi polkovnik Karyaginin rəhbərliyi altında olan dəstə idi. Tərkibində 16-cı yeger alayının 400 döyüşçüsü və iki topu olan bu dəstə iyun ayının 21-də hərəkətə başladı və həmin ayın 24-də Əsgəran yaxınlığındakı Şahbulaq çayına yetişdi. Elə burada da Karyaginin dəstəsi Abbas Mirzənin döyüşçüləri ilə üzbəüz gəldi və tərəflər arasında qanlı döyüş başladı. Rus mənbələrinə görə, şah qoşunları 3 min nəfərlik bir dəstə idi. Amma bu dəstənin sürətli hücumu Karyaginin dəstəsini uzun müddət müdafiə olunmağa məcbur etdi. Arada yaranan fürsətdən istifadə edərək rus dəstəsi axşama yaxın Əsgərana yetişə bildi. Daha irəliləmək mümkün olmadığı üçün rus dəstəsi Qarağacı məntəqəsindəki müsəlman qəbiristanlığında mövqe tutmalı oldu (58).

Həmin qəbiristanlıq döyüş aparmaq tutmaq üçün elə də münasib bir yer deyildi. Çoxsaylı təchizat arabaları ilə qəbiristanlıq daxilindəki dar cığırlarla irəliləmək çətin idi. Amma Karyagin geri qayıdıb Şahbulaqda mövqe tutmağı da məqsədəuyğun saymadı. Şah qoşunlarının təhlükəsindən qorunmaq üçün ruslar arabalardan dövrə qurdular, onların ətrafında xəndək qazdılar, xəndək boyunca isə daşlar düzdülər. Toplar atəş vəziyyətinə gətirildi. Abbas Mirzə rusların bu müdafiə tədbirlərindən heç də çəkinmədi və öz tüfəngdarlarına müvafiq mövqelər tutmağı əmr etdi. Fars mənbələrinə görə, Fətəli şah oğlunun rəhbərliyi altında olan qoşun dəstəsinin ruslarla qarşılaşdığını eşitcək Damğani dəstəsini və öhdəsində 4 top olan Hüseynqulu xan Qacarı da Abbas Mirzənin köməyinə göndərdi. Bu qüvvələrin Əsgəran ətrafına yetişməsi Abbas Mirzənin zərbə qüvvəsini daha da gücləndirdi (59).

Güclənmiş şah qüvvələri dərhal rusların müdafiə mövqelərinin üzərinə hücuma keçdilər və tərəfələr arasında ciddi bir döyüş başladı. Bu döyüşlə rusların mövqelərini ələ keçirmək mümkün olmasa da hər halda onların Şuşaya irəliləmək niyyətinin qarşısı alındı. Rus mənbələrinə görə, Karyaginin dəstəsindən 33 nəfər öldürüldü və 164 nəfər yaralandı. Atlar arasında da itkilər çox idi. Polkovnik Karyagin üç güllə yarası aldı, onun köməkçisi mayor Kotlyarevski isə ayağından yaralandı. Ona görə də polkovnik Karyagin Şuşa qalasına doğru irəliləmək imkanını əldən verdi (60).



Abbas Mirzə

Farsdilli mənbələrdən biri həmin döyüşü təsvir edərkən yazır ki, Abbas Mirzə rus qoşun dəstəsinin yaxınlaşması xəbərini eşidən kimi qoşunları Allahverdi xan Xəzinədara və Mehdiqulu xan Qovanlıya tapşırdı. Özü isə İsmayıl xan Damğani, Pirqulu xan Şambayati, Əlixan Qovanlı, Sadıq xan Əzadanlı, habelə Fərahani, və Kəzzazi atlıları və piyadaları ilə Əsgərana tərəf yola düşdülər. Bu yürüşdə onu bir neçə top da müşayiət edirdi. Dəstə axşama yaxın Sisianovun göndərdiyi qüvvələrlə rastlaşdı və dərhal da döyüşə girdi. Hava qaralana kimi tərəflər arasında döyüş davam etdi. Mənbə döyüşün ağır keçdiyini və Abbas Mirzənin bu döyüş zamanı xüsusi mərdanəlik nümayiş etdirdiyini xəbər verir. Hücum zamanı Sadıq xan Əzadanlı yaralandı, bir neçə dəstə başçısı isə dünyasını dəyişdi. Döyüş kifayət qədər gərgin keçdiyi üçün Pirqulu xan Qacar şahın yanına çapar göndərdi və ondan kömək istədi. Rus qoşun dəstəsinin qəbiristanlıqda yerləşməsi, gecə ikən müdafiə xətti boyunca rusların xəndək qazmaları faktı bu mənbədə də təsdiq olunur. İkinci gün səhər tezdən tərəflər arasında döyüş davam etdi. Həmin gün Kəzzazi və Fərahani tüfəngdarları ətraf yüksəkliklərdə mövqe tutdular, atlılar isə üç tərəfdən rus mövqeləri üstünə hücumu davam etdirdilər (61).

Ümumən, bu döyüş zamanı polkovnik Karyaginin dəstəsi kifayət qədər ağır bir vəziyyətlə üzləşdi. Sisisnovun bu vəziyyətdən xəbər tutub-tutmadığını söyləmək çətindir. Hər halda Sisianov bu ümiddə idi ki, polkovnik Karyaginin ön dəstəsi çətin şəraitlə üzləşəcəyi təqdirdə İbrahim xan və mayor Lisaneviç onun köməyinə çata bilərdilər.

Sisianovun ümid etməsinə baxmayaraq İbrahim xan polkovnik Karyaginə kömək göstərmədi. Rus generalı bundan da çox qəzəbləndi və iyunun 23-də İbrahim xana göndərdiyi məktubunda öz qəzəbini açıq bəyan etdi. Sisianov İbrahim xana belə yazırdı: "...Siz istəyirsiniz ki, mən özüm qoşunla gəlim və sizin əvəzinizə farslarla döyüşüm? Siz isə öz tərəfinizdən Rusiya qoşunlarına azacıq da olsa kömək etməyəsiniz? Siz polkovnik Karyaginə heç bir kömək etmədiniz ki, o, mayor Lisaneviçlə görüşsün və Şuşa qalasına gəlsin" (62).

İbrahim xan vəd etmişdi ki, Qarabağa göndərilən Karyaginin dəstəsinin azuqə və təchizat məsələlərinin həllinə də kömək göstərəcəkdir. Sisianov artıq buna da inanmırdı və İbrahim xandan izahat istəyirdi. İbrahim xan isə qalada üsyan qalxması ehtimalından ehtiyatlandığı üçün Karyaginin kömək göndərə bilmədiyini yazırdı və əlavə olaraq yenidən Sisianovdan kömək göndərilməsini xahiş edirdi. Sisianov isə cavab məktubunda qəzəblə İbrahim xandan soruşurdu ki, göndərdiyi dəstəyə kömək etmədiyi halda ona əlavə kömək göndərməyə arxayın ola bilərmi?

Əsgəran ətrafını tərk etməyəcəyi təqdirdə polkovnik Karyaginin dəstəsini daha ağır nəticələr gözləyə bilərdi. Polkovnik Karyagin özü də düşdüyü mühasirədən çıxmağa çalışırdı və Şuşa qalasına yollanmağın daha düzgün seçim olduğunu qəbul edirdi. Amma mühasirə xeyli güclü idi. O biri tərəfdən də rus dəstəsində çoxlu sayda yaralı var idi. Atların çoxu öldürüldüyü üçün onların daşınması da çətinləşirdi. Buna görə də, polkovnik Karyagin Şuşaya doğru irəliləyə bilmədi.

İbrahim xanın polkovnik Karyaginə kömək göstərməməsi isə çox güman ki, məqsədyönlü şəkildə izlənilən bir siyasət idi. Rus qüvvələrinin sayının yetərli olmadığı halda açıq ruspərəst mövqedə dayanması Qacar sarayının ona qarşı qəzəbini daha da artıra bilərdi. Şuşa qalasının ətrafında baş verən döyüşlərin şah qüvvələrinin üstünlüyü şəraitində keçməsi də sözsüz ki, İbrahim xanı daha səbirli hərəkət etməyə sövq edirdi. Digər tərəfdən də Sisianovun girov göndərilməsi məsələsini ifratlaşdırması rusların sədaqətinə və etibarlılığına şübhə yaratmaya bilməzdi. Şuşa qalasının çoxsaylı Qacar qoşunlarının əhatəsində olduğu günlərdə də Sisianovu İbrahim xana ciddi yardım göndərilməsi deyil, daha çox İbrahim xanın nəvəsinin girovluğa alınması maraqlandırırdı. Sisianovun İbrahim xanla və onun ailə üzvləri ilə həmin günlərə aid olan yazışmaları da bunu nümayiş etdirirdi.

Farsdilli mənbənin məlumatına görə, Pirqulu xanın göndərdiyi çapar Fətəli şahın hüzuruna çatanda Qacar şahı Abbas Mirzəyə əlavə kömək göndərməyi qərara aldı. Bunun üçün Hüseynqulu xan Dəvəliyə və Zülfüqar xan Dəvəliyə fərman verildi ki, ixtiyarlarında olan dəstələrlə və üç topun müşayiəti ilə Qarabağa yola düşsünlər. Bildirilir ki, bu dəstə üç gün sonra Əsgəran yaxınlığına yetişdi və dərhal da döyüşə qatıldı. Mənbənin məlumatına görə, Əsgəran ətrafında döyüş 6 gün davam etdi və nəticədə polkovnik Karyaginin dəstəsinə ağır zərbə vuruldu (63).

Qeyd etmək lazımdır ki, irəliyə doğru hərəkət etməyin mümkün olmadığını görəndə polkovnik Karyagin iyun ayının 24-də Şuşa qalasında olan mayor Lisaneviçə məktub yazdı və onu köməyə çağırdı. Polkovnik Karyagin Qarabağ xanından atlıların göndərilməsini xahiş etdi. Şuşa qalasından gələn qüvvənin köməyi ilə polkovnik Karyagin şah qüvvələrinin müqavimət xəttinin yarıb irəliləyə biləcəyinə ümid edirdi. Amma yuxarıda qeyd edildiyi kimi, İbrahim xan ona kömək göstərmədi. Mayor Lisaneviç də onu köməksiz qoydu. Onlar hər ikisi bu köməyin göstərilməməsini Şuşada və onun ətrafında əhalinin ruslara qarşı qiyam qaldıra bilməsi ehtimalı ilə bağlayırdılar. Şah nümayəndələrinin, o cümlədən Əbülfət ağanın xanlıq daxilində apardığı təbliğat nəticəsində şahı müdafiə edənlərin sayı çoxalmaqda idi Lisaneviç də əmin idi ki, Şuşa qalasını tərk

edərsə, onun yenidən geri qayıtması çox çətin ola bilər. Bu, hər halda onun qərarı idi və Sisianov onun qərarı ilə heç də razı deyildi. General Sisianov polkovnik Karyaginin təhlükə içində olduğu bir vaxtda mayor Lisaneviçin Şuşa qalasını tərk edib onun köməyinə getməməsini anlaşılmamazlıq kimi qiymətləndirirdi (64).

Sisianov mayor Lisaneviçdən qətiyyətlə tələb etdi ki, onun göstərişlərini polkovnik Karyaginə çatdırsın. Bu göstərişlərə əsasən, polkovnik Karyagin Şuşaya doğru hərəkət etməyə çalışmalı idi. Şuşa ətrafına gələndən sonra isə polkovnik Karyagin ya qala daxilində, ya da qala kənarında düşərgə salaraq onun növbəti göstərişlərini gözləməli idi. Amma sonrakı yazışmalarında Sisianovun da Qarabağdakı həbi şəraitin mürəkkəb olduğunu anlaması başa düşülür. Lisaneviçə yazdığı növbəti məktubunda Sisianov artıq Karyaginin dəstəsinin Şuşaya çıxması məsələsini qoymurdu və o başa düşürdü ki, bu artıq mümkün deyil. Ona görə o, mayor Lisaneviçdən tələb edirdi ki, heç olmasa polkovnik Karyaginin dəstəsinə ərzaq çatdırılmasına çalışsın. Çünki polkovnik Karyaginin dəstəsində artıq ərzaq qıtlığı yaranmışdı. Bunu general Sisianova göndərdiyi məktubunda polkovnik Karyagin də təşvişlə bildirirdi. General Sisianov eyni zamanda mayor Lisaneviçə heç olmasa 50 nəfərlik bir qrupun polkovnik Karyaginin köməyinə göndərilməsi imkanını araşdırmağı tapşırdı. Əlavə köməyin təmin edilməsi üçün isə Sisianov Gürcüstandakı qoşun hissələrinin bəzi bölmələrinin Gəncəyə göndərilməsi barədə göstəriş verdi. Həmin qüvvələrin yetişəcəyi təqdirdə Sisianov özü Qarabağa yollanmaq məcburiyyətində qalmışdı. Polkovnik Karyaginin vəziyyətinin yüngülləşdirilməsi üçün o, erməni casuslarından istifadə etməyi də qərar aldı. Polkovnik Karyaginin nyanına göndərilmiş olan həmin ermənilər rus dəstəsinin gizli yolla mühasirədən çıxarılmasına kömək etməli idi (65).


Əlavə kömək almayan polkovnik Karyaginin dəstəsinin vəziyyəti isə mürəkkəbləşməkdə davam edirdi.Yaxınlıqda su mənbəyinin olmaması da dəstəni əldən salırdı. Şah qüvvələri Qarqar çayının qarşı tərəfində güclü mövqelər quraraq rus döyüşçülərinin suya yaxınlaşmasına imkan vermirdilər. Belə olanda ruslar qərarlaşdıqları ərazidə su quyusu qazmağa başladılar. Lakin həmin quyudan su çıxmadı. Susuzuq probleminin aradan qaldırılması üçün polkovnik qəfil təşkil edilmiş hücumu ilə şah qüvvələrinin döyüş xəttini bir dəfə yarmağa müvəffəq oldu. Lakin əldə edilən su rus döyüşçülərinin ehtiyacını uzun müddət ödəməyə yetərli olmadı (66).

İyunun 27-də Sisianova yazdığı məktubunda polkovnik Karyagin bir daha vəziyyətin çıxılmaz olduğunu bildirməklə Şahbulaq qalasına tərəf geri çəkilmək niyyətində olduğunu açıqladı. Ərzaq çatışmazlığı ilə bərabər, sursat çatışmazlığı da polkovnik Karyagindən mühasirədən tezliklə çıxmağı

tələb edirdi. Bir neçə gündən sonra Sisianov ona öz cavabını göndərdi. Hərbi qüvvə ilə yardım etmək imkanı olmayan Sisianov polkovnik Karyagini ruhdan düşməməyə çağırır və tövsiyə edirdi ki, dəstə üzvlərinin psixoloji əhval-ruhiyyəsinin qaldırılmasına çalışsın. Sisianov bir daha onun nəzərinə çatdırırdı ki, Tiflisdən çağırılan qüvvələr yetişməyincə ona kömək göndərilməsi mümkün deyildir. O vaxta kimi isə çıxış yolunu İbrahim xanın göndərəcəyi ərzaq yardımına bağlayırdı. Mayor Lisaneviçə yazdığı məktubunda isə Sisianov onu qorxaqlıqda, polkovnik Karyaginə kömək göstərməməkdə ittihamlandırırdı. Sisianov polkovnik Karyaginin köməyinə çatmaq üçün Kartaliniyadan 9-cu yeger alayının 6-cı bölüyünün və Sevastopol muşketyor alayının bir taborunun yetişməsini gözləyirdi. Amma onun mayor Lisaneviçə yazdığı məktubundan aydın olur ki, general Sisianov adları çəkilən hərbi qüvvələrin Gəncəyə vaxtında yetişəcəyinə inanmırdı (67).

Şah qüvvələrinin təzyiq və hücumları isə davam edirdi. Abbas Mirzə qarşısında dayanan rus dəstəsini məhv etməklə Qarabağın taleyini həll etmək, həm də Gəncəyə aparan yolu açmaq istəyirdi. İyun ayının sonlarında Abbas Mirzə bütün qüvvələrini səfərbərliyə alaraq rus mövqelərinə hücum təşkil etdi. Topların bu döyüşə cəlb edilməsi Abbas Mirzənin zərbə gücünü artırmaqla rus düşərgəsində itkilərin sayını çoxaltdı. Polkovnik Karyaginin öz mövqeyini qorumaq üçün böyük cəhdlər göstərməsi şah qüvvələrinin qarşısını saxlasa da təhlükəli vəziyyəti sovuşdurmaq mümkün olmadı. Vəziyyət elə böhranlı hal aldı ki, bir sıra rus döyüşçüləri labüd ölümdən xilas olmaq üçün əsir düşməyi üstün tutdular. Bunun nəticəsi idi ki, ağır döyüşlərdən birinin gedişində poruçik Lisenko üç unter-zabit və 33 nəfər yegerlə birlikdə şah qüvvələri tərəfinə keçdilər. Bu hadisə şah qüvvələrini xeyli ruhlandırdı və rus mövqeləri üzərinə təzyiqlər daha da gücləndirildi. Həmin günün axşamı daha 20 rus döyüşçüsü şah qüvvələri tərəfinə keçməklə rusların sıralarını bir qədər də seyrəltdilər (68).

Polkovnik Karyaginin dayandığı mövqelərdə apardığı döyüşlərin hər hansı bir nəticə verməyəcəyini və əksinə, ötən hər günün onları tamamilə məhv olmaq vəziyyətinə çatdıracağını gördüyü üçün Şahbulaq qalasına çəkilib onun qalın divarlarına sığınmağı qərara aldı. Bu qalanın ətrafında da şah dəstələri dayandığından rusların buraya çəkilməsi müəyyən çətinlikləri ortaya çıxardı. Lakin bu qalaya çəkilmək rusların məhv olmaqdan yeganə çıxış yolu olduğu üçün polkovnik Karyagin dəstəsini bu hücuma hazırlaşdırmağa başladı. Nəhayət iyun ayının 28-i gecəsi polkovnik Karyagin Şahbulaq (Tərnəküt) qalasına geri çəkilməyə müvəffəq oldu (69).



Şahbulaq qalası

Şahbulaq qalasına asanlıqla çatmaq üçün polkovnik Karyagin dəstəsinin təchizat parkını döyüş meydanında tərk etdi, şah qoşunlarından əldə etdiyi zənburəkləri isə yerə basdırdı. Yalnız dəstənin topları əsgərlərin özü tərəfindən nəql edilməyə başladı. Erməni bələdçilərin müşayiəti ilə dəstə gecə ikən mövqeyini tərk etdi və Şahbulağa üz tutdu. Bununla belə, Qacar qoşunlarında Karyaginin dəstəsinin öz mövqelərini tərk etməsi tezliklə aşkar olundu və həmin dəstənin təqib olunması qərara alındı. Səhər açılana yaxın Karyaginin dəstəsi Şahbulaq qalasına yetişdi (70)

Mənbələrdə olan məlumatlar göstərir ki, ruslar Şahbulaq qalasına heç də asanlıqla daxil olmadılar. Onların təslim olmaq təklifinə qalanı müdafiə edən şah qüvvələri rədd cavabı verəndə tərəflər arasında döyüş başladı. Rus toplarının sərrast atəşlərinin qala darvazasını dağıtması şah döyüşçülərini çaş-baş saldı və onlar qaçıb-dağılmağa üz tutdular. Buradakı dəstənin rəhbərlərindən biri olan Əmiraslan adlı sərkərdə isə qala divarlarından yıxılıb dünyasını dəyişdi (71).

Əsgəran ətrafında döyüşün keçirildiyi günlərdə polkovnik Karyaginin ixtiyarında 400 nəfərlik dəstədən 90 nəfər öldürüldü, 167 nəfər yaralandı və 54 nəfər isə əsir düşməyi üstün tutdu. Polkovnik Karyagin və mayor Kotlyarevski bir neçə güllə yarası aldılar. Böyük itkilərə məruz qalmış bu dəstənin Şahbulaq qalasına yetişməsi yerli ermənilərin bələdçiliyi ilə baş tutdu. Qalaya yetişəndən sonra isə ermənilər dəstənin ərzaqla təmin edilməsi işində öz səylərini əsirgəmədilər. Erməni bələdçi gecə ikən qala

ətrafından mühasirəni adlamağa müvəffəq olaraq Kasapet kəndinə çatdı. Burada ərzaq tədarükü etməklə bərabər, dəstənin vəziyyəti haqqında general Sisianova da məlumat göndərdi. Yerli ermənilərin köməyi ilə polkovnik Karyaginin dəstəsinin ərzaqla təmin edilməsi o biri günlərdə də davam etdirildi (72).

Şahbulaq qalasına sığınmaları rusları heç də onları izləyən təhlükədən xilas etmədi. Pirqulu xan Qacarın rəhbərliyi altında olan dəstə Şahbulaq qalasını mühasirə etdi. Farsdilli mənbələrə görə, polkovnik Karyagin təhlükə məngənəsini qıra bilmədiyini görəndə qarşı tərəfə məktub göndərdi və ona üç gün möhlət verilməsini xahiş etdi. Abbas Mirzə mərhəmətlilik nümayiş etdirərək bu xahişi qəbul etdi və qala üzərinə hücumun dayandırılmasına göstəriş verdi. Məlumata görə, polkovnik Karyagin bu fürsətdən bəhrələnərək verilən möhlətin üçüncü günü Şahbulaq qalasından da dəstəsi ilə birlikdə xəlvətcə qaçdı. Şah qüvvələri bundan xəbər tutdular və dəstənin təqibinə başladılar. Ruslardan ələ keçənlər qılıncdan keçirildilər. Bununla belə, polkovnik Karyagin Cermuq dağına yetişib orada özünə və adamlarına sığınacaq tapdı (73).

Qarabağnamə müəllifləri də bu hadisəni oxşar şəkildə təsvir edirlər. Daha müfəssəl məlumata malik olan M.M.Xəzaninin yazdıqlarına görə, Abbas Mirzə polkovnik Karyaginin dəstəsini təqib edərək Şahbulaq qalasını mühasirəyə aldı. Şah qüvvələrinə yaxşı məlum idi ki, polkovnik Karyagin mayor Kotlyarevski və dəstənin döyüşçülərinin çoxu yaralıdır, ərzaq qıtlığı da dəstəni əldən salıb və belə bir vaxtda dəstənin müqaviməti uzun sürə bilməz. Ona görə də, Abbas Mirzə polkovnik Karyaginə təslim olmaq barədə təklif göndərdi. Abbas Mirzə məktubunda ruslara təslim olmağı, Qacar qoşunlarında xidməti davam etdirməyi təklif edirdi. Bunun əvəzində, Abbas Mirzə hərbçilərə yüksək maaş və mükafatlar vəd edirdi. Polkovnik Karyagin Abbas Mirzəyə xəbər göndərdi ki, onun sualına özü cavab verə bilməz və bu cavabı Sisianovdan almaq lazımdır. Polkovnik Karyagin bildirdi ki, əgər Abbas Mirzənin adamları toxunmasalar general Sisianova məktub göndərər və ondan aldığı cavabı da Abbas Mirzəyə yetirər. Abbas Mirzə bu təkliflə razılaşdı və polkovnik Karyaginin çaparlarının rahat gedib-qayıtması üçün 4 günlük atəşkəs elan edildi. Bundan sonra polkovnik Karyagin Abbas Mirzənin məktubunu və öz məktubunu general Sisianova göndərdi (74).

5 iyul 1805-ci il tarixində yazılmış məktubunda polkovnik Karyagin Sisianovun diqqətini bir daha dəstənin ağır vəziyyətinə yönəltdi. Polkovnik Karyagin general Sisianovdan təkidlə xahiş edirdi ki, özünü tezliklə ona çatdırsın. Əldə olunmuş məlumatlara əsasən, Fətəli şah da

qoşunla Qarabağa gəlmək niyyətində idi. Polkovnik Karyaginin sözlərinə görə, Fətəli şah Gəncə üzərinə irəliləməyi planlaşdırırdı. Şahın özünün qoşun dəstəsi ilə Qarabağa gəlməsi ehtimalı polkovnik Karyaginin onsuz da ağır vəziyyətdə olan dəstəsinin vəziyyətini çıxılmaz edə bilərdi. Ərzaq ehtiyatı qurtardığı üçün dəstə üzvləri ot və dəstədə olan atların ətini yeməklə dolanırdılar. Polkovnik Karyaginin yazdığına görə, qərar tutduğu qala Abbas Mirzə tərəfindən mühasirə olunmuşdu və Abbas Mirzənin fikrincə, rusların ona təslim olmaqdan başqa yolu yox idi. Polkovnik Karyagin bildirirdi ki, Sisianovun gözlənilən cavabının gətirilməsi üçün Abbas Mirzə qala üzərinə hücumlar ara vermişdi. Yoxsa, polkovnik Karyaginin artıq ona müqavimət göstərmək gücü yox idi. İbrahim xandan və mayor Lisaneviçdən də ona kömək gəlmədiyini polkovnik Karyagin təəssüflə Sisianovun diqqətinə çatdırırdı (75).

General Sisianovun yenə də təsəlli verməkdən başqa heç nəyə gücü çatmadı. Bir gün sonra erməni bələdçi ilə Sisianov polkovnik Karyaginə göndərdiyi məktubda yeni hərbi qüvvələrin hələ yetişmədiyini və həmin qüvvələrin bir neçə gündən sonra yetişəcəyini bəyan edirdi. Sisianov vəd edirdi ki, bu qüvvələr yetişənə kimi dərhal Qarabağa yola düşəcəkdir. Sisianov eyni zamanda polkovnik Karyaginin adından Abbas Mirzəyə məktub yazdırdı və onu da polkovnik Karyaginə yolladı. O da öz növbəsində bu məktubu Abbas Mirzəyə göndərməli idi. Həmin məktubun məzmunu ondan ibarət idi ki, Rusiya dövlətinin sərhədi Kür və Araz çaylarından keçir. Sərhəd xəttinə qədər olan ərazilər Rusiya əraziləridir və rus hərbçiləri də bu ərazilər uğrunda qanlarını tökməyi özlərinə xoşbəxtlik bilirlər (76).

Bu məktubun Abbas Mirzəyə çatıb-çatmadığını söyləmək çətindir. Amma Abbas Mirzə polkovnik Karyagindən təkidlə təslim olmağı tələb edirdi. Polkovnik Karyagin isə son cavabı verməyi uzadırdı. Nəhayət, general Sisianovdan kömək gəlməsinə ümid olmadığını biləndə xəlvəti şəkildə mühasirədən çıxmağa cəhd göstərməyi qərara aldı. O əvvəlcə Abbas Mirzəyə məktub göndərdi və təslim olmağa hazırlaşması ilə ona ümidverici mövqe çatdırdı. Sonra polkovnik Karyagin dəstəsi ilə gizli olaraq qaladan çıxıb Cermuq dərəsinə doğru irəlilədi. Aldığı cavabdan arxayın olan Abbas Mirzə və onun sərkərdələri rus dəstəsinin yoxluğundan vaxtında xəbər tuta bilmədi. Rus dəstəsi Cermuq dərəsindəki qalaya doğru iki gün yol getmiş olduqlarından şah qüvvələri onları yaxalaya bilmədilər. Bir müddət burada qalıb qüvvələrini bərpa edən rus dəstəsi sonra Murov dağının xəlvət yolları ilə Gəncəyə tərəf hərəkəti davam etdirdi (77).

Polkovnik Karyaginin dəstəsi böyük itkilər verərək geri dönsə də, şah qoşunları Qarabağda qalmaqda idi. Bu isə nəinki mayor Lisaneviçin dəstəsinin, habelə bütünlükdə Qarabağın itirilməsinə təhlükə yaradırdı. Ona görə Sisianov qərar qəbul etdi ki, öhdəsində olan qüvvələri səfərbər edib Qarabağa doğru hərəkət etsin. Onun İbrahim xana yazdığı məktubuna əsasən müəyyən etmək olar ki, 1805-ci il iyul ayının 12-də Sisianov ixtiyarında olan dəstə ilə Gəncədən Qarabağa doğru hərəkətə başladı. Həmin məktubunda Sisianov nəvəsini girov kimi hələ də Tiflisə göndərmədiyi üçün İbrahim xanı hədələməklə ondan rus dəstəsinə yem və azuqə toplanmasını da tələb etdi (78).

General Sisianovun dəstəsinə Tiflis muşketyor alayının qrenadyor taboru, Sevastopol alayının iki taboru, 9-cu yeger alayının 10 bölüyü, 10 ədəd top və 109 nəfər kazak daxil idi.

Dəstənin ümumi şəxsi heyəti 2371 nəfər idi. Rus mənbələrinə görə, bu dəstə 4 gün yol getdikdən sonra Tərtər çayının sahilinə çatdı (79).

Sisianov ixtiyarında olan dəstə ilə Qarabağa doğru yola düşəndə polkovnik Karyagin hələ Gəncəyə çatmamışdı. Lakin təhlükəli şəraitdən çıxmağa imkan tapmışdı. Sisianov onun dəstəsinin vəziyyətini yüngülləşdirməklə bərabər, həm də Qacar qoşunlarını Qarabağ xanlığı ərazisindən uzaqlaşdırmağa çalışmalı idi. Sisianovun yazdıqlarına görə, o, Gəncədən Qarabağa doğru hərəkətə başlayanda Fətəli şah rəhbərlik etdiyi qoşun dəstəsi ilə Araz çayını keçərək Qarabağ ərazisinə daxil olmuşdu (80). Farsdilli mənbələrdə isə bu məlumat birmənalı şəkildə təsdiqlənmir. Mirzə Məhəmməd Sadıq Vəqayeneqar yazırdı ki, Fətəli şah Sisianovun Qarabağa hərəkət xəbərini alan kimi qoşunları hərəkətə gətirdi, Araz çayını keçərək Aslandüzdə düşərgə saldı (81). Aslandüzün Arazın cənubunda olduğunu nəzərə alsaq, müəllifin bu cümlələrindən aydın olmur ki, Fətəli şah qoşunları ilə Qarabağ ərazisinə daxil oldu ya yox.

Havaların çox isti olması ilə bağlı general Sisianovun dəstəsi çox ləng hərəkət edirdi. İyulun 14-də Sisianovun dəstəsi Tərtər çayına yetişdi və elə həmin gün də Qacar qüvvələrinin hücumuna məruz qaldı. Bu hadisə farsdilli mənbələrdə də təsdiqlənir. Bildirilir ki, Sisianovun dəstəsi ilə Tərtər çayı yaxınlığına yetişməsi xəbəri alınan kimi Abbas Mirzənin tapşırığına əsasən, İsmayıl bəyin rəhbərliyi altında ruslara qarşı qoşun dəstəsi göndərildi. İsmayıl bəyin dəstəsi hərəkət zamanı rus atlıları və piyadaları ilə qarşılaşdı. Mənbənin məlumatına görə, İsmayıl bəyin dəstəsi rusların bir hissəsini qırdı, bir hissəsini də əsir götürdü və sonra da Abbas Mirzənin dəstəsinə geri döndü. Bildirilir ki, bu döyüşdən sonra Sisianov daha irəli hərəkət edə bilmədi.



Rəssam F.Rubonun rəsmi" Canlı körpü. Polkovnik Karyaginin 1805-ci ildə Muxrata səfərinin epizodu"

Abbas Mirzə isə Sisianovu bir qədər də irəli çəkərək onu döyüşə cəlb etmək istəyirdi. Ruslara vurulmuş bu zərbə Abbas Mirzə tərəfindən sevinclə qarşılandı və döyüşün nəticələri haqqında məlumat Fətəli şaha da çatdırıldı. Fətəli şah bu xəbəri "Təxti-Tavus" adlandırılan məntəqədəki düşərgəsində aldı və Tərtər ətrafındakı döyüşün iştirakçılarının mükafatlandırılması haqqında fərman verdi (82).

General Sisianovun təsvirinə görə isə iyul ayının 14-də dəstəsi ilə Tərtər çayına yaxınlaşdıqda qarşı tərəfdə Qacar qoşunlarının atlı dəstəsi göründü. Onun fikrincə, Qacar dəstəsi qarşı tərəfdə otlaq əraziləri yandırmaq istəyirdi. Bunu görəndə Sisianov yasovul Frolov adlı birisinə göstəriş verdi ki, kazak dəstəsi ilə Tərtər çayının qarşı sahilinə adlasın və od vurulmuş ərazilərdə yanğını söndürsün və orada mövqe tutsun. Sisianovun məlumatına görə, Qacar atlılarının sayı 2 minə çatırdı. Tərtər çayının qarşı tərəfində Qacar atlıları ilə kazak dəstəsi arasında döyüş baş verdi. Döyüşün nəticələri də onun xeyli gərgin keçdiyini deməyə əsas verir. Bu döyüşdə ruslardan 12-si öldürüldü, 4 nəfər yaralandı və 4 nəfər də itkin düşdü. İtkin düşənlər heç şübhəsiz ki farsdilli mənbələrdə göstərilən əsirlər idi. Sisianova görə, Qacar atlıları geri çəkilmək məcburiyyətində qaldılar. Frolovun rəhbərliyi altında olan dəstənin qarşı tərəfdə əlverişli mövqelər tutması isə qalan dəstənin təhlükəsiz şəkildə Tərtəri adlamasına şərait yaratdı (83).

İyul ayının 15-də Sisianov dəstəsi ilə irəliyə doğru hərəkətini davam etdirdi. 13,5 verst yolu keçdikdən sonra Sisianovun dəstəsi dağıdılmış Mardəşti kəndi yaxınlığında düşərgə saldı. Sisianov bu məntəqəni xüsusi olaraq seçdi. Bu məntəqə polkovnik Karyaginin də hərəkət marşrutu üzərində idi. Burada dayanmaqla general Sisianov polkovnik Karyaginin dəstəsinin onun dəstəsinə birləşməsini asanlaşdırmaq istəyirdi. Bu hadisə iyulun 16-da baş verdi. Polkovnik Karyagin Qacar qoşunlarının hücumlarından və təzyiqlərindən nicat taparaq, nəhayət ki, rus qüvvələrinə birləşə bildi. Polkovnik Karyaginin dəstəsi əldən düşdüyü üçün mühafizə qrupunun müşayiəti altında Gəncəyə yola salındı. Sisianovun yazdığına görə, iyulun 17-də İbrahim xandan Qarabağ ərazisində olan Fətəli şahın yenidən Arazın cənubuna çəkilməsi haqqında məlumat aldı. Guya Fətəli şahın geri çəkilməsinə səbəb də Sisianovun qoşun dəstəsi ilə Qarabağa doğru irəliləməsi olmuşdu (84).

Sisianov iyul ayının 17-də heç bir təhlükə ilə qarşılaşmadığını bildirirdi. Amma həmin gün Qacar qüvvələri Sisisnovun dəstəsini dövrələyərək Gəncə şəhəri ətrafına çıxmış və burada ruslarla döyüşə qatılmışdılar. Rus mənbələrində və tarixi ədəbiyyatında olan məlumata görə, Abbas Mirzə 25 min nəfərlik qoşunla Gəncə üzərinə hücum etdi

(85). Abbas Mirzənin qoşun dəstəsinin sayı haqqında göstərilən bu rəqəm elə də inandırıcı görünmür. Tərtər çayı kənarında dayanan Sisianovun nəzarətindən kənar 25 minlik qoşunun Gəncə istiqamətinə ötürülməsi elə də asan deyildi. Hər halda iyul ayının 17-də Abbas Mirzənin qüvvələri Gəncə ətrafında idilər. Qacar qoşun dəstəsinin yetişməsi rus işğalından cana doymuş yerli əhalinin sevincinə səbəb oldu və yerli əhalinin xeyli nümayəndəsi ruslarla mübarizə aparmaq üçün Qacar qoşunlarına qoşuldular. Rusiya işğalına qarşı üsyan qaldıran Şəmşəddil əhalisinin bir hissəsi də Qacar qoşunlarına qoşuldular. Gəncə ətrafında yaşayan ermənilər isə rusların ağır vəziyyətə düşməsini görərək Gəncəyə, onların yardımına yollandılar. Yerli əhalinin də kömək etdiyi Qacar qüvvələri Gəncəni mühasirəyə aldılar. İyul ayının 18-də Gəncəyə gedən içməli suyun qarşısı kəsildi. Rus tarixi ədəbiyyatında olan məlumata görə, Abbas Mirzə və onun yanında olan gürcü şahzadəsi Aleksandr Qazax əhalisinə müraciət edib onları da ruslara qarşı mübarizəyə səslədilər. Bildirilir ki, Qazax əhalisi Qacar qoşunlarına qoşulmaqdan imtina etdilər. Sisianov Qarabağa doğru hərəkətə başlayanda mayor Koçiyev adlı birisini Gəncədə qalan rus qoşun dəstəsinin komandiri təyin etmişdi. Mayor Koçiyev heç bir yerdən kömək almayacağı üçün ixtiyarında olan qüvvələrlə Qacar qoşunlarına müqavimət göstərməyi qərara aldı. İyul ayının 19-da mayor Koçiyev 200 silahlı və 50 kazakdan ibarət bir dəstəni bir topun müşayiəti ilə qaladan kənara çıxardı ki, Abbas Mirzənin dəstəsini şəhər ətrafından uzaqlaşdırmağa cəhd göstərsin. Ruslara 300 nəfərlik erməni dəstəsi də köməklik edirdi. Sisianovun yazdığına görə, azərbaycanlı əhali də ruslara qarşı fəal şəkildə döyüşürdü. Onların sol cinahda əzmkarlıq göstərməsi Qacar qüvvələrinin Gəncədən uzaqlaşdırılmasını müəyyən qədər ləngitdi. Göstərilən müqavimət nəticəsində hər halda ruslar Abbas Mirzənin dəstəsini şəhərdən uzaqlaşdırılmasına nail oldular. Bununla belə, ruslar 3 nəfər itirdilər və onlardan 7 nəfəri isə yaralandı. Sisianovun fikrincə, Abbas Mirzənin Gəncə üzərinə hücum etməsi Cavad xanın oğlu Uğurlu xanın ruslara qarşı apardığı işlərin nəticəsi idi (86).

General Sisianov Qacar qoşunlarının Gəncə-Şamxor ətrafında toplaşmasından xəbər tutsa da, Qarabağdakı vəziyyəti nəzarətdən kənar qoymamaq üçün geri qayıda bilmədi. Onun geri qayıtması Qarabağ xanlığının tamamilə Qacar qüvvələrinin nəzarəti altına keçməsi ilə nəticələnə bilərdi. Gəncə istiqamətində isə Abbas Mirzənin dəstəsi iyulun 23-də yenidən ruslarla döyüşə girdi. Həmin gün Tiflisdən Gəncəyə ərzaq karvanı gəlirdi. Bu ərzaq karvanını 2 ədəd topa malik olan 300 nəfərlik rus qoşun dəstəsi müşayiət edirdi. Gəncə şəhərinin 47 verstliyində,

Zəyəm çayının isə 5 verstliyində olanda ərzaq karvanı Qacar dəstəsinin hücumuna məruz qaldı. Rus mənbələrinin məlumatına görə, ərzaq karvanı müdafiə mövqeyi tutaraq 4 gün ərzində müdafiə olundu. Bu günlər ərzində karvanı mühafizə edən dəstə itki də verməli oldu. Ərzaq karvanının düşdüyü vəziyyətdən yenicə Gəncəyə qayıtmış olan polkovnik Karyagin xəbər tutdu və dərhal ixtiyarında olan 570 nəfərlik dəstə ilə ərzaq karvanının köməyinə yollandı. Polkovnik Karyaginin dəstəsini Zəyəm çayı yaxınlığında Qacar tüfəngdarları qarşıladılar. Rusların top atəşləri Qacar tüfəngdarlarını geri çəkilməyə məcbur etdi. Bundan həvəslənən polkovnik Karyagin Qacar qüvvələri üzərinə hücumunu davam etdirdi və Qacar qüvvələrini geri çəkilməyə məcbur etdi. İyul ayının 31-də polkovnik Karyaginin dəstəsi və ərzaq karvanı Gəncəyə yetişə bildilər (87).

İstinad olunan farsdilli mənbələrdə də Abbas Mirzənin Gəncə üzərinə hücumu ilə bağlı yuxarıdakı faktlar bir qədər fərqli də olsa ümumən təsdiqlənir. Farsdilli mənbələr Gəncə üzərinə yürüşün təşkil edilməsini Sisianovun şəhəri tərk etməsi və şəhərin müdafiəsinin zəifləməsi ilə əlaqələndirirlər. Mirzə Məhəmməd Sadıq Vəqayeneqar Gəncə üzərinə hücumun təşkil edilməsini Abbas Mirzənin öz təşəbbüsü olduğunu bildirir. Onun yazdığına görə, Abbas Mirzə Tərtər çayına yaxınlaşanda şahsevən elinin başçılarından birini dəstəsi ilə birlikdə Sisianovun üzərinə göndərdi ki, onun başını qatsın. Özü isə Gəncə üzərinə hücum etdi (88).

"Məəssər-e Soltaniyyə" və "Tarix-e Zülqərneyn" əsərlərində Gəncə üzərinə hücum təşəbbüsünün Fətəli şaha aid olduğu bildirilir. Ümumiyyətlə, bu iki əsərdə hadisələrin təsviri çox oxşar şəkildə verilmişdir. Məlumata görə, Fətəli şah "Təxti-Tavus"dakı düşərgəsində olarkən Abbas Mirzəyə Gəncə üzərinə hücum haqqında göstəriş verdi. General Sisianova qarşı müqavimət göstərilməsini isə Fətəli şah sərkərdəsi İsmayıl bəy Damğaniyə tapşırdı. Mənbələrdə yazılanlardan aydın olur ki, general Sisianov dəstəsi ilə Tərtər çayına yaxınlaşanda Abbas Mirzə Əsgəranda idi. O, rus qoşunları ilə qarşılaşmaya vaxt itirmədən Gəncəyə doğru istiqamət götürdü. Abbas Mirzə Gəncə kənarında düşərgə saldı və dəstəsi isə Gəncə şəhərini mühasirəyə aldı. "Tarix-e Zülqərneyn"dəki məlumata görə, Gəncə şəhərini mühasirəyə alandan sonra Abbas Mirzə əhalini Şəmkir ətrafına köçürtdü. "Məəssər-e Soltaniyyə"dəki məlumata görə isə Qacar qüvvələrinin qaladan uzaqlaşmaq istədiyini güman edən şəhər əhalisi Abbas Mirzənin dəstəsinə qoşuldular. Abbas Mirzə də onlarla birlikdə hərəkət edərək Şəmkir yaxınlığında düşərgə saldı. Bu mənbədə Şəmkir yaxınlığında

Abbas Mirzənin ruslarla döyüşə girməsi haqqında məlumat vardır. Həmin mənbədə eyni zamanda Tiflisdən göndərilən ərzaq karvanının üstünə hücum edilməsi haqqında da məlumat vardır. Bildirilir ki, ərzaq karvanının üzərinə ilk hücum zamanı bir neçə rus hərbçisi və 2 nəfər də zabit qətlə yetirildi. Bu döyüşün təfərrüatı barəsində geniş məlumat toxdur. Amma mövcud məlumatlardan aydın olur ki, bu döyüşdən sonra Abbas Mirzə Gəncədən köçürülmüş olan 5-6 min ailəni Pirqulu xanla Məhəmmədəli xana tapşırdı. Özü isə Həsənsudan keçməklə İrəvana, oradan da Təbrizə yollandı (89).

Qeyd edilməlidir ki, Abbas Mirzənin dəstəsi Gəncə-Şəmkir ətrafında olanda Sisianov hələ Qarabağda idi. Sisianov çalışırdı ki, Qacar qoşunlarını tamamilə Qarabağ ərazisindən sıxışdırıb çıxarsın. Əks təqdirdə, Qacar qüvvələrinin nüfuzu digər Azərbaycan xanlıqları üzərində də xeyli möhkəmlənə bilərdi.

Sisianovun yazışmalarından belə bir qənaətə gəlmək mümkündür ki, o hələ Araz çayını adlamaq, Arazın cənub ətrafında olan Qacar qoşunları ilə döyüşə girmək niyyətində də olmuşdu. Bunun üçün iyul ayının 21-də Sisianov dəstəsi ilə Əsgəran qalasından cənuba doğru hərəkətə başladı. Dəstə 19 verst məsafəni keçərək dağıdılmış Qarakənd ətrafında düşərgə saldı. Həmin gün Sisianov məlumat aldı ki, Fətəli şah Araz yaxınlığındakı düşərgəsini tərk edərək Meşkinə çəkilmişdir. Buna görə də Sisianov artıq Araza doğru irəliləməyə ehtiyac görmədi. İyulun 25-də Sisianov dəstəsi ilə geriyə, Əsgərana doğru hərəkətə başladı. İyulun 25-dən 28-nə kimi Sisianovun dəstəsi Əsgəranda oldu. Həmin günlər ərzində İbrahim xan general Sisianovun görüşünə gəldi və onu Şuşaya dəvət etdi. Sisianov da bu dəvəti qəbul edib Şuşaya yollandı və bir gün orada qaldı.

Şuşa qalasında olarkən Sisianov eşitdi ki, İbrahim xanın əmisi uşaqları – Mirzəli bəy, Feyzi bəy və Məhəmməd Həsən bəy və onlara tabe olanlar Əbülfət ağaya rəğbət bəsləyirlər. Adları çəkilən şəxslər Əbülfət ağanın xanlıqda hakimiyyət sahibi olmasını istəməsələr də, onun gəlişi ilə daha çox müstəqillik əldə edəcəklərinə əmin idilər. Sisianova görə, onların Şuşada qalması xanlığın Rusiya himayəsində qalmasına da bir təhlükə idi. Ona görə onları girov kimi Tiflisə aparmağı qərarlaşdırdı. İbrahim xan Sisianovdan xahiş edərək həmin şəxslərin azad olunmasını istədi. Sisianov bu xahişlə razılaşsa da Mirzəli bəyin və Fəzli bəyin oğlanlarını girov kimi Gəncəyə göndərdi. Məhəmməd Həsən ağanın oğlu da nəhayət ki, girov kimi Şuşaya gətirildi. Bundan başqa Şuşa qalasında digər hansı bəylərin də Əbülfət ağa ilə əlaqədə olması aydınlaşdırıldı. Onlara hədə-qorxu gəlindi ki, əgər bu mövqelərindən əl çəkməsələr ciddi

cəzalanacaqlar. Bundan sonra Sisianov Şuşa qalasında saxlanılan şah elçilərini özü ilə götürüb Tiflisə qayıtdı(90).

İyul ayının 28-də general Sisianov dəstəsi ilə Əsgərandan Gəncəyə doğru hərəkətə başladı və avqust ayının 3-də Gəncəyə yetişdi. Dəstənin belə ləng hərəkət etməsi havaların çox isti olması ilə bağlı idi. Adamların və atların əldən düşməməsi üçün gün ərzində dəstənin sürəti elə də böyük deyildi. Gəncəyə çatan kimi Sisianov Şəmkir istiqamətində yürüşə hazırlıq göstərişi verdi. Sisianov bu zaman Abbas Mirzə qüvvələrinin bölgədə qala bilməsindən ehtiyatlanırdı. Onun yürüşündə məqsəd Qacar qoşunlarının bölgədən sıxışdırılması və azərbaycanlı əhalinin yenidən itaət altına gətirilməsi idi. Bu məqsədlə avqust ayının 6-da Sisianov qoşun dəstəsi ilə Şamxora doğru hərəkətə başladı. Onun dəstəsinə Sevastopol muşketyor alayının 2 taboru, Tiflis alayının bir qrenadyor bölüyü, 9-cu yeger alayının 6-cı bölüyü daxil idi. Avqust ayının 7-də Sisianov Qacar qoşunlarının bölgədən çəkilməsini təsdiqləyən məlumat aldı. Ona görə yürüşünü ləğv etdi və Gürcüstandan çağırılmış qoşun hissələrinin geri qaytarılmasına göstəriş verdi.

General Sisianov Qarabağ xanlığı ərazisində baş verənlər haqqında dərhal Rusiya sarayına məruzə etdi. Alınan xəbərlər Rusiya sarayında məmnunluqla qarşılandı. Bununla belə göstəriş verildi ki, hələlik Azərbaycan xanlıqları ərazisində döyüş əməliyyatlarına son qoyulsun. Həmin göstəriş Rusiyanın xarici işlər naziri Çartorıyski tərəfindən general Sisianova çatdırıldı. Avropada baş verən hadisələr və bunun nəticəsi kimi Rusiya dövlətinin əsas diqqətinin Avropaya yönəldilməsi Qafqaza əlavə qoşun göndərilməsini mümkünsüz edirdi. Başqa sözlə, Qafqazda hücum xarakterli siyasətin aparılması üçün lazım olan qüvvə məhdudluğu yaranmışdı. Ona görə Rusiya imperatoru bir mənalı şəkildə tələb edirdi ki, Qafqaz cəbhəsində hərbi əməliyyatlar dayandırılsın. Bölgədəki rus qüvvələri yalnız özünümüdafiə üçün döyüşlərə qatıla bilərdilər. Rusiya sarayı hətta Qafqazın müəyyən ərazilərində hərbi təşəbbüsün Qacar qüvvələri əlinə keçməsinin mümkünlüyünü də qəbul edirdi. Amma Rusiya sarayı Qafqazda öz mövcudluğunu itirmək də istəmirdi. Ona görə belə bir qərar məqsədəuyğun sayılırdı ki, vəziyyət yaxşılaşana qədər ən azı ələ keçirilmiş qalalar qorunub saxlansın. Eyni zamanda general Sisianova tapşırılırdı ki, Rusiyanın müvəqqəti olaraq müdafiə taktikası seçməsi Qacar sarayından gizli saxlanılsın. Qacar sarayının diqqətinin yayındırılması üçün isə tövsiyə edilirdi ki, ikitərəfli danışıqlar təklifi ortaya atılsın, qacarlara qarşı müəyyən yumşalma nümayiş etdirilsin. Lazım gələrsə Qacar nümayəndələri danışıqlar üçün Sankt-Peterburqa da göndərilə bilərdi. Bununla general Sisianovdan tələb

olunurdu ki, Qafqazda sakitliyin yaranmasına nail olunsun. Rusiya xarici işlər naziri general Sisianova göndərdiyi digər bir məktubunda təkidlə Fətəli şahı danışıqlara cəlb etməyi lazım bilirdi. Sisianov Qacar şahının diqqətinə çatdırmalı idi ki, onun nə üçün Rusiyaya qarşı narazı olması anlaşılmır. Hərbi əməliyyatlara qacarlar başlayıb və ruslar da onlara cavab vermək məcburiyyətində qalıblar. Sisianov bildirməli idi ki, böyük dövlətlər arasında başlanan müharibə sülhlə başa çatmalıdır. Ona görə Qacar sarayı sülh danışıqlarına cəlb olunmalı idi (91).

General Sisianov Rusiyanın xarici işlər nazirinə cavab məktubunda bildirdi ki, imperatorun fərmanını icra etməyə çalışır. Onun sözlərinə görə, İrəvan və Qarabağ xanlıqlarına qoşun çıxarılması işğalçılıq məqsədilə deyil, yaranmış şəraitdən irəli gələn tələblə bağlı idi. Həmin məktublarında general Sisianov özünü sülhpərəst bir insan olduğunu nümayiş etdirməyə çalışaraq Qacar sarayı ilə danışıqların başlanmasına cəhd göstərəcəyini bəyan edirdi (92).

Bu vədinə baxmayaraq, Sisianov öz yırtıcı və ifrat xarakterindən əl çəkmədi. 1805-ci ilin ikinci yarısında onun Qarabağ xanı və onun oğlanları ilə apardığı yazışmalarında da Sisinovun kobudluğunu, qarşı tərəfə həqarətlə yanaşmasını görmək mümkündür. 1805-ci ilin sonlarına yaxın Sisianov hətta Şəki və İrəvan xanlıqları üzərinə qoşun da çəkdi.

General Sisianovun bu hücumları dövründə İbrahim xanın böyük oğlu Məhəmməd Həsən ağanın noyabrın 19-da xəstəlikdən vəfat etməsi xəbəri yayıldı. Məhəmməd Həsən ağa Rusiyaya meylli bir siyasətin tərəfdarı idi. Ona görə onun ölüm xəbərini Sisianov təəssüflə qarşıladı. Çara yazdığı məktubunda Sisianov vəfat etmiş Məhəmməd Həsən ağanın yerinə vəliəhd seçilməsinin vacibliyini də vurğulayırdı. İbrahim xanın bütün övladlarının qısaca xarakteristikasını verəndən sonra Sisianov Məhəmməd Həsən ağanın oğlu Cəfərqulu bəyin namizədliyi üzərində dayandı. Sisianov çox istəyirdi ki, Cəfərqulu bəy özünü çox təmkinli aparsın, Rusiya meylli bəyləri və nüfuzlu şəxsləri öz ətrafında toplasın və vaxtı yetişəndə xanlığa öz iddiasını irəli sürsün. Cəfərqulu bəyin və onun ailəsinin Rusiyapərəst mövqeyinin qorunması üçün Sisianov çar qarşısında bu ailənin himayə altına alınması haqqında vəsatət qaldırdı (93).

Kifayət qədər cavan olmasına baxmayaraq 19 yaşlı Cəfərqulu bəy ciddi döyüşlərdə də iştirak edirdi. Məsələn, 1805-ci ilin dekabrında Cəfərqulu bəyin rəhbərlik etdiyi dəstə tez-tez Qarabağa soyğunçu basqınlar edən Qaradağ kürdlərini cəzalandırmaq üçün Arazın cənubuna hücum etdi. Cəfərqulu bəy bu yürüş zamanı Qarabağ xanlığına rahatlıq verməyən Qaradağ kürdlərinə ağır zərbə vurdu və Qarabağdan qovulub

aparılmış xeyli sayda heyvan geri qaytarıldı. Sisianov bu xəbərdən çox sevindi və ümid etdi ki, bu uğur daha çox adamım Cəfərqulu bəyin ətrafında birləşməsinə və onun Qarabağ xanı üçün daha real namizədə çevrilməsinə səbəb olacaqdır (94).

4. İbrahim xanın qətli

Rusiya general və zabitlərinin ümidlərinin əksinə olaraq Kürəkçay müqaviləsi imzalanandan sonra Qarabağda Rusiyameylli mövqe heç də tam aydınlığı ilə özünü göstərmədi. Bir tərəfdən Rusiya hakimiyyətinin dayağı ola biləcək kifayət qədər hərbi qüvvə Qarabağda yox idi. Digər tərəfdən də İbrahim xanın siyasətində və Qarabağ əhalisinin əhval-ruhiyyəsində Rusiyapərəstlik özünün elə də aydın ifadəsini tapmırdı. Bu da Rusiya canişinlərini heç də qane etmirdi. Xüsusilə, Məhəmməd Həsən ağanın ölümü rus zabitlərinin təşvişini bir qədər də artırdı. Çünki onun ölümü, Mehdiqulu ağanın isə Sisianovun dəstəsində olması Qarabağ xanlığının idarəçiliyində bir boşluq yaratdı. Bu dövrdə İbrahim xanın xanlığa iddialı olan və Abbas Mirzə düşərgəsində güzəran keçirən oğlu Əbülfət ağanın Qarabağa olan talançı yürüşləri artdı, yerli bəylər arasında ona rəğbət bəsləyənlərin sırası genişləndi. Xəstə günlərini keçirən İbrahim xanın bir çox hadisələrə müşahidəçi mövqeyində olması şahmeylli qüvvələrin fəallaşmasını daha da artırdı.

İbrahim xanın əmisi oğlu Mirzəli bəy yaranmış qarışıq vəziyyətdən istifadə edərək Gəncədə girovluqda olan oğlu Behbut bəyi oradan oğurlatdı və onlar hər ikisi Əblüfət ağanın yanına qaçdılar. Bu da Sisianovla İbrahim xan arasında olan münasibətlərin daha da soyuqlaşmasına səbəb oldu. Mirzəli bəy isə ətrafında 300 atlı olan Əbülfət ağanın Qarabağ xanlığı ərazisində talanlar etməsinə əlavə dəstək oldu. Belə əməlləri ilə Əbülfət ağa yerli əhalini İbrahim xandan narazı salmağa və əhalinin şaha olan meylini gücləndirməyə çalışırdı. Mövcud olan məlumatlara görə, bu dövrdə Abbas Mirzə də Təbrizdə möhkəmlənməyə və Azərbaycan xanlıqları üzərinə yeni yürüş keçirməyə hazırlaşırdı.

Mirzəli bəyin oğlu Behbud bəyi Gəncədə rus girovluğundan qaçırması Sisianovu kifayət qədər təşvişə saldı. O da mayor Lisaneviçin ona yazdıqları ilə razılaşaraq xanlıq daxilində antirus mövqelərinin və ab-havasının güclənməsini İbrahim xanın idarəçiliyinin zəifləməsi ilə əlaqələndirirdi. Eyni zamanda belə bir hadisənin baş verməsinə görə Sisianov mayor Lisaneviçi də ittihamlandırırdı. Sisianova görə, mayor

Lisaneviç azərbaycanlı əhaliyə qarşı yumşaqlıq nümayiş etdirir və öz qətiyyətini göstərmirdi. Onun sözlərinə görə, Lisaneviçə buraxılan pulla o, azərbaycanlı ağalar arasında casus tapa və onun vasitəsilə baş verəcək hadisədən vaxtında xəbər tuta bilərdi. Ona görə Sisianov mayor Lisaneviçin Qarabağa göndərilməsi ilə bağlı qəbul etdiyi qərarında səhv etdiyini bildirirdi. Baş vermiş hadisənin aradan qaldırılması üçün Sisianov mayor Lisaneviçdən tələb etdi ki, Mirzəli bəylə Fəzləli bəyin tapılması üçün lazımi işlər görülsün, lazım olarsa bunun üçün müəyyən maliyyə vəsaitləri istifadə edilsin və necə olursa-olsun verilən tapşırıq yerinə yetirilsin. Əks təqdirdə Sisianov onu hərbi tribunala verəcəyi ilə hədələdi. (95).

General Sisianov baş vermiş hadisə ilə bağlı İbrahim xana da məktub yazdı və onu da zəif idarəçilikdə günahlandırdı. O, İbrahim xana çatdırdı ki, indiki şəraitdə rus qoşunları tərkibində xidmət edən İbrahim xanın oğlu Mehdiqulu ağanın Şuşaya qayıtmasını və onun xanlıqdakı satqınların cəzalandırılması ilə məşğul olmasını məqsədəuyğun sayır (96).

Yanvar ayının 9-da Sisianov geri qayıtmasını qərara aldığı Mehdiqulu ağaya məktub yazdı. Rus generalı Behbud bəyin Gəncədən qaçırılması xəbərini ona çatdırmaqla belə bir hadisənin baş verməsini atası İbrahim xanın qocalığı və idarəçiliyi ciddi nəzarət altında saxlaya bilməməsi ilə əlaqələndirirdi. Sisianov qeyd edirdi ki, atasına kömək göstərməsi məqsədilə onun Şuşaya qayıtmasını lazım bilir. Rusiya qoşunları komandanı Mehdiqulu ağadan tələb edirdi ki, Mirzəli bəy və Fəzli bəy kimi antirus mövqeli şəxsləri tapsın və onları ciddi cəzalandırsın. Sisianov eyni zamanda xəbərdar edirdi ki, əgər Mehdiqulu ağa xanlıq ərazisində Rusiya mövqelərini qorumasa, onda Rusiya imperatoru qarşısında günahkar sayılacaq və ona ağır cəzalar veriləcəkdir (97).

Qarabağnamə müəlliflərinin fikrincə, Mehdiqulu ağa Şuşa qalasına yetişəndən sonra antirus mövqedə olanların qarşısının alınması ilə məşğul oldu (98). Bunun neçə həyata keçirilməsi və hansı tədbirlərin görülməsi haqqında isə müəlliflər yazmırlar. Hər halda müəlliflər Mehdiqulu ağanın atasına qarşı müxalifət təşkil etməsi haqqında məlumat vermirlər.

Eyni zamanda xanlıq ərazisində şah mövqelərinin təmsilçisi olan Əbülfət ağaya qarşı da ciddi bir tədbir həyata keçirilməsi haqqında məlumat mövcud deyil. İbrahim xan isə hər hansı tərəfə qarşı əsaslı münasibət nümayiş etdirmirdi. Şuşada rus qoşun dəstəsinin yerləşməsi onu rusmeylli kimi təqdim etməyə əsas versə də, şah qüvvələrinə qarşı

heç də kəskin münasibət göstərmirdi. Çox güman ki, o, yenə də əvvəlki siyasətini davam etdirməklə, şah qüvvələri ilə rus qüvvələrini üz-üzə qoymaqla hər iki tərəfin zəifləməsini istəyirdi.

1806-cl ilin fevralında Bakı xanı ilə danışıqlar apararkən Sisianov qətlə yetirildi. Bu hadisə İbrahim xanı bir qədər təşvişə saldı. Ola bilsin ki, o, şah qüvvələrinin bu fürsətdən istifadə edərək böyük qüvvələrlə Qarabağ xanlığı üzərinə hücuma keçəcəyindən ehtiyat edirdi. Ona görə İbrahim xan öz adamlarını Qafqazdakı rus qoşunlarına müvəqqəti komandanlığı öz üzərinə götürmüş general Nesvetayevin yanına göndərdi və generaldan qarşılıqlı münasibətlərin davam etdiriləcəyinə bir əminlik aldı (99).

Qeyd etmək lazımdır ki, bu barədə xəbər verən Qarabağnamələr Rusiyanın Qafqazdakı hökmranlığı dövründə yazıldığından həmin mənbələrdə Rusiyaya qarşı kəskin münasibət bildirilməsinə yol verilməmişdir. Ona görə bu əsərlərdə İbrahim xanın Rusiya istilasına qarşı aydın mövqeyi də işıqlandırılmamışdır. Rus tarixçilərinin qabartmağa çalışdığı məqamlara görə isə İbrahim xan Rusiya himayəsinə sədaqətli olan bir şəxs deyildi və bunu onun əməllərində də görmək mümkün idi. Məsələn, elə Sisianovun vaxtında olduğu kimi, onun qətlindən sonra da İbrahim xan xanlıq ərazisində olan rus qoşun dəstəsi üçün yem və azuqə verməkdən imtina etdi. Şuşa qalasından rus qoşun dəstəsinin komandiri mayor Lisaneviç düşdüyü çətin vəziyyətin aradan qaldırılması üçün dəfələrlə İbrahim xana müraciət etsə də, o, məhsul sahələrinin şah qoşunları tərəfindən yandırılıb məhv edildiyini bəhanə gətirərək rus dəstəsinin təchizatına heç bir yardım göstərmədi. Rus hərbçiləri tərəfindən İbrahim xana onun imzaladığı Kürəkçay müqaviləsinin şərtlərinin xatırlanması da heç bir nəticə vermədi. Əksinə, rus zabitinin davranışı İbrahim xan tərəfindən xanlıq işlərinə müdaxilə kimi qiymətləndirilirdi (100).

Rus zabitləri İbrahim xanı imzaladığı Kürəkçay müqaviləsinin şərtlərinə əməl etməməkdə günahlandırdığı halda, heç Rusiya tərəfi özü də bu müqavilənin şərtlərinə əməl etmirdi. Rusiya tərəfi İbrahim xanın hakimiyyətinin təhlükəsizliyinə zəmanət versə də, xanlığın şah qoşunlarından müdafiə olunması üçün lazımi işlər görülmürdü. Araz yaxınlıqlarında düşərgə salmış və sayı on minlərlə hesablanan şah qüvvələrinə qarşı Qarabağ xanlığı ərazisinə yuxarıda qeyd edildiyi kimi, mayor Lisaneviçin rəhbərliyi altında kiçik bir dəstə göndərilmişdi. Bu dəstənin də vəzifəsi xanlığın müdafiəsi deyil, Şuşa qalasının, habelə İbrahim xanın fəaliyyətinin nəzarət altında saxlanması idi. Əslində, Qarabağ xanlığı əvvəllər olduğu kimi şah qoşunları qarşısında yenə də

müdafiəsiz idi. Verilən vədlərə baxmayaraq rus qoşunları komandanlığı xanlığın qorunması üçün hələ də xanlıq ərazisinə kifayət qədər qüvvə göndərməmişdi. Bundan başqa rus zabitləri hələ Qarabağın yerli silahlı dəstələri üçün mövcud olan azuqə və yemə də göz dikmişdilər. Belə bir şəraitdə İbrahim xan da müvafiq siyasət yeritmək məcburiyyətində qalırdı. Xüsusilə də 1806-cı ilin yazında şah qüvvələrinin yenidən Qarabağ xanlığına hücuma hazırlaşması xəbərləri İbrahim xanı ciddi seçim qarşısında qoydu. Qarabağ xanlığını 1805-ci ilin yayında şah qüvvələri tərəfindən törədilmiş talanlardan xilas etmək, bunun nəticəsi kimi qıtlığın, aclığın vüsət almasına yol verməmək üçün İbrahim xanın rus qüvvələrinə ümidi yox idi. Çünki rus qüvvələrinin buna imkanı yox idi. Sisianovun ölümündən sonra onun yerini tutacaq bir şəxsin Rusiya sarayı tərəfindən müəyyənləşdirilməməsi isə bütünlükdə Rusiyanın Azərbaycan xanlıqları ilə bağlı siyasətinin gələcəyi suallar doğururdu.

1806-cı ilin yazında şah qüvvələrinin Qarabağa yenidən hücum edəcəyi real xarakter aldı. Bu dövrdə İbrahim xanın rus hərbçiləri ilə münasibətləri xeyli gərginləşdi. Rus tarixçisi N.Dubrovin ilkin mənbələrdən geniş istifadə etməklə yazdığı əsərində İbrahim xanla münasibətlərin gərginləşməsini onun şah himayəsini qəbul etməyə meylli olması ilə əlaqələndirirdi. Müəllif bildirir ki, İbrahim xan Rusiya təbəəliyini qəbul etmək barədə müqaviləyə imza atsa da, fars meylliliyini saxlayırdı. Xüsusən, xanlığın işlərinə rusların müdaxilə etməsi guya onun Rusiyaya münasibətini dəyişmişdi. Onun yazdıqlarına görə, İbrahim xan şah taxt-tacının şahzadəsi Abbas Mirzə ilə tez-tez əlaqə saxlayır və onunla gizli yazışma aparırdı. Onların arasındakı bu əlaqələr, habelə Abbas Mirzə elçilərinin tez-tez İbrahim xanın yanına gəlməsi isə rusların xoşuna gəlmirdi. Guya İbrahim xan Abbas Mirzəyə göndərdiyi və ruslar tərəfindən ələ keçirilən məktublarının birində Rusiya təbəəliyini qəbul etdiyinə görə onu bağışlamağı xahiş edir və vəd edirdi ki, əgər ona şah qüvvələri yardım edərsə rusları çox qısa zaman ərzində Qarabağ torpaqlarından çıxarmaq mümkündür. Qarşılıqlı münasibətlərin yaxşılaşdırılması xatirinə guya İbrahim xan öz iki qızını Fətəli şahın oğlanlarına ərə verməyə hazır olduğunu da bildirmişdi (101).

Farsdilli mənbələr də İbrahim xanın ruslar tərəfindən qətlinin səbəblərinə toxunarkən bir-birindən fərqli olan versiyalar irəli sürülmüşdürlər. Hər halda bu mənbələrdə İbrahim xanda rus təbəəliyinə qarşı bir nifrətin yarandığı və bu təbəəlikdən qurtulmağın yeganə yolu kimi Qacar sarayına müraciət edilməsi öz əksini tapmışdır. "Məəssər-e Soltaniyyə"dəki məlumatlara görə, Sisianovun qətlindən sonra İbrahim xanda Qacar sarayına müraciət etmək meyli daha da gücləndi. Çox

güman ki, İbrahim xan Sisianovun qətlə yetirilməsindən sonra Rusiyanın Cənubi Qafqazdakı gücünün zəifləyəcəyi qənaətinə gəlmiş və ona görə də Qacar sarayı ilə münasibətlərə yenidən baxmaq məcburiyyətində qalmışdı. Bildirilir ki, bundan sonra İbrahim xan öz nümayəndələrini şah sarayına göndərdi. Fətəli şah Qarabağ xanının bu mövqeyini razılıqla qarşılayaraq onunla yeni münasibətlər qurmağa hazır olduğunu bildirdi. Bu xəbəri alandan sonra İbrahim xan öz nümayəndəsini Ərdəbildə olan Abbas Mirzənin yanına göndərdi və Abbas Mirzədən xahiş olundu ki, Əbülfət ağanı silahlı dəstə ilə Qafan istiqamətində, Fərəculla xan Şahsevəni isə Çanaxçı yolundan Qarabağa göndərsin. Əbülfət ağa və Fərəculla xan Qarabağa doğru hərəkətə başlayaraq Araz çayı kənarında düşərgə saldılar. Burada Əbülfət ağaya xəbər çatdı ki, Cəfərqulu bəy İbrahim xanın Qacar sarayı ilə əlaqələrinin genişləndirilməsi haqqında rusları məlumatlandırıb və İbrahim xan da ailəsi ilə birlikdə ruslar tərəfindən qətlə yetirilib (102).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqar isə əsərində İbrahim xanın ailə üzvləri ilə birlikdə qətlə yetirilməsini ruslar tərəfindən törədilən kütləvi qətl kimi dəyərləndirirdi. Mirzə Məhəmməd Sadıq da İbrahim xanda rusların sədaqətinə və etibarına inamsızlıq yarandığını yazırdı. Müəllifə görə, İbrahim xan "Rusiya ilə saziş bağlanmasını hər vətənpərəstin şərəfinə zidd əməl" kimi qəbul etdi. Bildirilir ki, İbrahim xan nəvəsi Cəfərqulu bəyin yanında Abbas Mirzə ilə düşmənçilik xəttini tutmaqdan peşman olduğunu və onunla barışıq niyyətində olduğunu bəyan etmişdi. Müəllifə görə, Cəfərqulu bəy Qarabağ xanlığının Rusiya nəzarətindən kənarlaşmasını istəmirdi. Bunu müəllif Cəfərqulu bəy ilə bir erməni qızı arasındakı eşq macərası ilə əlaqələndirirdi. Müəllifə görə, Cəfərqulu bəy bilirdi ki, ruslarla münasibətlər gərginləşsə, Tiflisdə yaşayan həmin erməni qızı ilə daha əlaqə saxlaya bilməyəcəkdir. Adı çəkilən müəllif öz əsərində Cəfərqulu bəyin tanışı olan erməni qızı məkrli bir insan kimi təsvir etmişdir. Bir sözlə guya Rusiyadan uzaqlaşmaq istəməyən Cəfərqulu bəy İbrahim xanın Qacar sarayı ilə yaxınlaşması haqqında ruslara məlumat çatdırdı və ruslar da İbrahim xanın bu əməlinə görə onu ailəsi ilə birlikdə qətlə yetirdilər (103).

Rus tarixçilərinin iddiasına görə, İbrahim xanın rus təbəəliyindən üz çevirməsi Fətəli şah tərəfindən böyük məmnunluqla qarşılandı. Fətəli şah hətta Qarabağa, İbrahim xanın köməyinə hərbi dəstə göndərməyi, ona 120 min rubl maliyyə vəsaiti ayırmağı və Qaradağı Əbülfət ağanın idarəçiliyinə verməyi vəd etdi. Belə vədləri alandan sonra İbrahim xan guya mayor Lisaneviçin müdaxilələrinə dözmədiyi üçün Şuşa qalasında qala bilməyəcəyini bəhanə edib qala kənarında çadır qurdu və ailəsi ilə ora köçdü.



Q.İ.Lisaneviç general-leytenant rütbəsində. Rəs. C.Dou

Səbəbinə toxunmadan İbrahim xanın Şuşa qalasını tərk etməsi mayor Lisaneviçin yaxınlaşan təhlükə qarşısında İbrahim xanın da yardımlarından məhrum olması demək idi. Bundan başqa İbrahim xanın Şuşa qalasını tərk etməsi Şuşa əhalisində onsuz da ruslara qarşı mövcud olan barışmazlıq əhval-ruhiyyəsini daha da gücləndirə bilərdi. İbrahim xanın qaladan kənarda olmasını mayor Lisaneviç özü üçün təhlükə sayırdı və bu təhlükənin sovuşdurulması üçün o öz rəhbərləri ilə məsləhətləşmədən İbrahim xanın aradan götürülməsini və bununla da xanlığın daxilində antirus əhval-ruhiyyəsinin qarşısının alınmasını qərarlaşdırdı.

N.Dubrovin hadisələrin sonrakı gedişini belə təsvir edirdi: 1806-cı ilin may ayında şah qüvvələri Ərdəbilə toplaşıb oradan Naxçıvan və İrəvan istiqamətində hərəkət etmək niyyətində idilər. Bir qoşun dəstəsi də Qarabağ istiqamətində hərəkət etməli idi. Bu istiqamətdə isə çoxsaylı şah qüvvələrinin qarşısını almaq üçün kifayət qədər rus qüvvələri yox idi. General Nesvetayev hətta Qarabağa göndərmək üçün əlavə qüvvə tapa bilmədi. İyun ayının 1-də Abbas Mirzə qoşunlarının 20 min nəfərdən ibarət olan avanqard dəstəsi Şuşa qalasına yaxınlaşdı. Bunu görəndə mayor Lisaneviç İbrahim xandan tələb etdi ki, qalaya qayıtsın və ailə üzvlərini də ora gətirsin. İbrahim xan isə nəinki qayıtmadı, əksinə 400-500 nəfərlik dəstə toplayıb möhkəmlənməyə başladı. Bundan başqa İbrahim xan ətraf kəndlərə çaparlar göndərərək yerli əhalini narahat olmamağa çağırdı. O xəbər yaydı ki, əhali şah qüvvələrinin Qarabağa gəlişindən narahat olmasın və şah qüvvələrinin məqsədi yerli əhalini qorumaqdır. Bütün bunları İbrahim xanın Rusiyaya xəyanəti kimi dəyərləndirən rus tarixçisinin məlumatına görə, mayor Lisaneviç əvvəlcə Cəfərqulu bəyi, sonra da Mehdiqulu ağanı İbrahim xanın yanına göndərdi və onların vasitəsilə İbrahim xanı Rusiyaya xəyanət yolundan çəkindirməyə çalışdı. Müəllif mərhum Məhəmməd Həsən ağanın oğlu Cəfərqulu bəyi etibarlı ruspərəst kimi, Mehdiqulu ağanı isə ruslara loyal münasibətdə olan şəxs kimi təqdim edir və əlavə edirdi ki, onlar hər ikisi gün ərzində İbrahim xanı təkidlə Şuşa qalasına qayıtmağa çağırsalar da nəticə olmadı. Sözünün üstündə dayanan İbrahim xan əksinə, Cəfərqulu bəydən xahiş etdi ki, mayor Lisaneviçi həbs edib onun yanına gətirsin. Guya İbrahim xan onu da bildiribmiş ki, bu gecə ya özü şah qüvvələrinə birləşəcək, ya da şah qüvvələri qala divarları altında onunla birləşəcəkdir. Bu məlumatları eşidəndə mayor Lisaneviç İbrahim xanı həbs etmək qərarına gəldi (104).

N.Dubrovinin yazdığına görə, mayor Lisaneviç 100 nəfərlik dəstə ilə İbrahim xanın həbsinə yollandı və əsgərlərinə ilkin olaraq atəş açmamaq əmri verdi. Guya İbrahim xan ehtiyat tədbirlərinə əl ataraq qaladan

başlayıb yaşadığı çadıra qədər yol boyu mühafizəçilər düzdürmüşdü. Lisaneviç isə kəsmə yolla hərəkət etdiyindən rusları yalnız İbrahim xanın çadırına yaxınlaşan zaman müşahidə etmək mümkün oldu. Bildirilir ki, İbrahim xanın mühafizəçiləri heç bir sözə, xahişə baxmayaraq atəş açmağa başladılar. Onda Lisaneviç də atəş açmaq əmri verdi. İbrahim xan güllə ilə yerindəcə qətlə yetirildi. Onun oğlunun və qızının meyiti sonradan kolluqda tapıldı (105).

Bununla da 1806-cı ilin iyul ayında Qarabağ xanlığının möhkəmləndirilməsində böyük xidmətləri olan İbrahimxəlil xanın həyatına təbəəliyini qəbul etdiyi Rusiyanın hərbçiləri tərəfindən son qoyuldu. Yuxarıda qeyd edilənlər rus tarixçilərinin fikirləri olduğu üçün həmin qeydlər daha çox İbrahim xanın qatili mayor Lisaneviçin amansızlığına haqq qazandırılmasına xidmət edir. Ona görə də sözsüz ki, bu fikirlərin birmənalı şəkildə qəbul edilməsi mümkün deyildir. Özlüyündə müəllifin yazılarında diqqəti cəlb edən bir sıra məqamlar da bunu göstərir. İbrahim xanın niyə görə Lisaneviçi qala daxilində tərksilah etməməsi, İbrahim xanın söylənildiyi kimi şah qüvvələri ilə birləşmək istəyirdisə niyə görə şah qüvvələrini qalada qarşılamaması, ətrafında 400-500 nəfərlik dəstə olduğu halda niyə görə mayor Lisaneviçin 100 nəfərlik dəstəsinin qarşısını ala bilməməsi, mayor Lisaneviçin hücum zamanı İbrahim xanın ətrafının müqavimət göstərib-göstərməməsi və s. məqamlar müəyyən suallar doğurmaqdadır. Qarabağnamə müəlliflərinin yazdıqları da rus tarixçisinin fikirlərinə çox ciddi şəkildə yanaşılmasını tələb edir.

V. Potto isə öz əsərində İbrahim xanın qətlə yetirilməsinə rus hərbçilərinin təşəbbüsü kimi toxunmuşdur. Onun yazdıqlarında belə bir maraqlı məqam var ki, İbrahim xan həftə sonu, yəni həftənin 4-5-ci günləri ailəsi ilə birlikdə qaladan kənarda vaxt keçirər və cümə günü axşamı geri qayıdardı. Çox güman ki, qətlindən əvvəl də İbrahim xan məhz istirahət məqsədilə bütün ailəsi ilə birlikdə şəhər kənarına çıxmışdı. Amma müəllif rus hərbçilərinin cinayətinə haqq qazandırmaq üçün İbrahim xanın qala kənarına ailəsi və uşaqları ilə birlikdə çıxmasını onun satqınlığı ilə bağlayır. Müəllifə görə, İbrahim xanın nəvəsi Cəfərqulu ağa (bəy) onun niyyətindən xəbər tutub mayor Lisaneviçə xəbər verdi. Mayor Lisaneviç də İbrahim xanı həbs etmək istəyərkən Qarabağ xanı həlak oldu (106)

Erməni salnaməçisi Mirzə Yusif Nersesovun "Tarixi-Safi" əsərində İbrahim xanın antirus mövqe tutması qeyd olunsa da, rusların İbrahim xanın çadırını dörd tərəfdən mühasirəyə alaraq onu bütün ailəsi ilə birlikdə qətlə yetirildiyi bildirilir (107). Açıq ruspərəst mövqedə olan Nersesov İbrahim xanın mühafizəçiləri tərəfindən ruslara hər hansı bir

müqavimət göstərildiyini qeyd etmir. Başqa sözlə, İbrahim xan ailəsi və qulluqçuları rus hərbçiləri tərəfindən heç bir maneəyə rast gəlmədən açıq güllə-baran edildilər.

Bu mövzuya toxunan Qarabağnamə müəlliflərindən hər biri İbrahim xanın şah təbəəliyini qəbul etmək fikrində olmasını və buna görə də rus təbəəliyindən üz döndərməsini təsdiq etmirlər. Eyni zamanda İbrahim xanın Abbas Mirzə ilə yazışmağa başlaması deyil, Abbas Mirzənin və Qacarlar sarayının Qarabağ xanlığına hücumdan əvvəl İbrahim xanın yanına qasidlər göndərilməsi, onun şah təbəəliyinə dəvət olunması qeyd edilir. Bildirilir ki, 1806-cı ilin yazında şah qüvvələrinin Qarabağa hücumu ərəfəsində Fətəli şah qasidlərini İbrahim xanın yanına göndərdi, ona ümidlər verdi, onu öz tərəfinə çəkməyə çalışdı (108). İbrahim xanın elə bir qüvvəsi yox idi ki, şah qoşunlarının qarşısını alsın. Şah qoşunlarına müqavimət göstərmək üçün ruslardan da hər hansı bir köməyin gələcəyi inandırıcı deyildi. M.M.Xəzaniyə görə, bu çıxılmaz vəziyyətdə İbrahim xan başa düşdü ki, şah qüvvələri Qarabağa tərəf üz tutsa, mayor Lisaneviçin tabeliyində olan dəstə ilə onların qarşısını kəsmək mümkün olmayacaqdır. Qarabağın bir çox bəylərinin şah qoşunlarına qoşulması isə xanlığın müdafiə şanslarını daha da azaldırdı. Digər tərəfdən də Əbülfət ağa xanlığın kəndlərinə soyğunçu basqınlar edir və əhalini Arazın cənubuma köçürürdü. Ona görə İbrahim xan onu təhdid edən şah qüvvələri ilə daha isti münasibətdə olmağı və beləliklə də, şah qüvvələrinin xanlıq ərazisində törədə biləcəyi dağıntıların qarşısının alınmasına cəhd göstərməyi qərarlaşdırdı. O bu barədə mayor Lisaneviçə də məlumat verdi. Lisaneviç də İbrahim xanın tədbirliliyini bəyəndi və eyni zamanda tezliklə Qarabağa əlavə rus hərbi qüvvələri gətiriləcəyinə vəd verdi. Əslində isə yuxarıda qeyd edildiyi kimi, rus komandanlığının ixtiyarında əlavə hərbi qüvvələr yox idi ki, Qarabağa göndərsin. Ona görə də Lisaneviçin vədləri əməl olunmamış qaldı. Tezliklə Abbas Mirzə rəhbərlik etdiyi qoşun dəstəsi ilə Arazı adlayıb Şuşa qalası yaxınlıqlarında düşərgə saldı. Abbas Mirzə bir daha İbrahim xanın yanına adam göndərib onu şah təbəəliyini qəbul etməyə dəvət etdi. İbrahim xan da məsələni yenidən mayor Lisaneviçə çatdırdı. Lisaneviç isə bir daha məsləhət gördü ki, xan vaxtı uzatmağa çalışsın ki, rus qüvvələri gəlib yetişsin. İbrahim xan da Abbas Mirzəyə çox da aydın olmayan bir cavab göndərdi və bildirdi ki, vəziyyət sakitləşərsə şah təbəəliyini qəbul etməyə hazırdır (109).

Qarabağnamə müəllifləri yazırlar ki, bu əsnada İbrahim xan Şuşada deyil, Şuşanın 12 kilometrliyində olan Xan bulağında yaşayırdı. Şah

qoşunlarının hücumu ərəfəsində o, Xan bulağına köçüb Qaraqaya adlı məntəqədə düşərgə saldı (110).

M.M.Xəzaninin yazdıqlarına görə, Mehdiqulu ağa da burada, xanın yanında idi. Lisaneviç Qaraqayada yaşayan İbrahim xandan xahiş edir ki, Şuşa qalasına qayıtsın. İbrahim xan isə məlumdur ki, qalaya qayıtmadı və bunun səbəbi ilə bağlı Qarabağnamələrdə hər hansı bir məlumat yoxdur. Yalnız yaxınlarının verdiyi məlumata görə, İbrahim xan əlavə rus hərbi qüvvələri gələnə kimi şah qüvvələrinin Qarabağa hücumunu ləngitməyə çalışırdı (111). Bunun nə yolla ediləcəyini söyləmək çətindir. Çox güman ki, İbrahim xanın konkret planları var idi və bu planlara əsasən şah qüvvələrinin talançı yürüşlərini ləngitməyə çalışırdı.

Qarabağnamələrdə olan məlumatlardan belə bir qənaətə gəlmək olar ki, mayor Lisaneviç özlüyündə İbrahim xanın qalaya qayıdıb-qayıtmamasında elə də israrlı deyildi. Yalnız onun ətrafında olan bəzi qüvvələrin qızışdırıcılığı və təhrikçiliyi nəticəsində Lisaneviçdə İbrahim xana qarşı ciddi şübhələr baş qaldırdı. M.M.Xəzani belə qızışdırıcılar içərisində Miraxur adlı bir gürcünün adını çəkir. İbrahim xanı gözü götürməyən bir sıra adamların fitnəkarlığından sonra mayor Lisaneviç İbrahim xanı qətlə yetirmək qərarına gəldi. 1806-cı il iyun ayının 14-də mayor Lisaneviç gecə səhərə yaxın İbrahim xanın yaşadığı yerə yaxınlaşdı. Rus zabiti əvvəlcə ətrafı yaxşıca nəzərdən keçirdi və mühafizəçilərin olub-olmaması ilə maraqlandı. M.M.Xəzaninin yazdığına görə, İbrahim xanın ətrafında hər hansı silahlı dəstənin olmadığını görüncə gəldiyinə peşman oldu. Çox güman ki, İbrahim xanın öz ətrafında silahlı dəstə saxlaması barədə mayor Lisaneviçə yalan məlumat verilmişdi. İbrahim xan da yuxudan ayılıb ətrafını əsgərlər bürüdüyünü gördü və Lisaneviçdən məsələnin nə yerdə olduğunu soruşdu. Lisaneviç isə gəlişini əsaslandırmaq əvəzinə, əsgərlərə atəş açmaq əmri verdi. Nəticədə İbrahim xan, arvadı Tutu xanım, qızı Səltənət bəyim, 12 yaşlı oğlu Abbasqulu ağa, kəbirli Abbasqulu ağa, Hacı Həsənli bəy, Mirzə Haqverdi, qərvəndli Hümmətəli bəy sarıcalı Gülməli bəyin oğlu Cavanşir və Həsənağa, qərvəndli qulluqçu Əlipənah, Əfşar Cavanşir, Mirzə Nağı, kəbirli Əcəmoğlunun oğlu Hacı Həsən və onun iki oğlu və digər şəxslər, ümumən 17 nəfər qətlə yetirildi (112).

Araşdırmalar göstərir ki, İbrahim xanın qətli üçün mayor Lisaneviçin qızışdırılmasında Qarabağ məliklərinin də əli vardır. Məsələn, Myurel Etken adlı müəllif Nyu-Yorkda çap olunmuş məqaləsində İbrahim xanın qətlinin Qarabağ məlikləri, konkret olaraq məlik Cəmşidin fitnəkarlığı ilə əlaqələndirirdi. Müəllif bölgədə Qacarlar hakimiyyəti ilə Rusiya arasında kəskin mübarizə getdiyini, bu mübarizənin İbrahim xanın qətlinə təsirsiz

ötüşmədiyini bildirir və eyni zamanda məlik Cəmşidin qızışdırıcılıq fəaliyyətini də istisna etmirdi (113).

Qarabağ xanı ilə açıq mübarizəyə girişməyi bacarmayan məliklər o cümlədən məlik Cəmşid İbrahim xanın aradan götürülməsi üçün rus hərbçilərindən istifadə olunmasını məqsədəuyğun saydılar və güman edirdilər ki, İbrahim xanın aradan götürülməsi ilə Qarabağ məliklərinin hakimiyyəti bərqərar ola bilər. Bu niyyətinə nail olmaq üçün məlik Cəmşid mayor Lisaneviçlə yaxın münasibətlər qurmağa nail oldu. Məlik Cəmşidin yalnız mayor Lisaneviçi deyil, rus generallarını da İbrahim xana qarşı qaldırmağa çalışması onun yazdığı məktublardan da aydın görünür. Məsələn, o, general-mayor Nesvetayevə göndərdiyi məktubunda belə yazırdı: " Bu ərzimlə hörmət və ehtiramımı bildirərək əlahəzrətin nəzərinə çatdırıram ki, buradakı vəziyyət və hadisələr haqqında soruşsanız ərz edim: hal hazırda İbrahim xan yolunu azıb və böyük hökmdara xidməti tərk edib. O, farslarla sövdələşib, onların qoşununu gətirib yaxınlaşdırıb ki, özü onlarla birləşsin və birlikdə gələrək qalanı dörd yandan mühasirə etsin. Mərhəmətli cənab! Ancaq onun oğulları Mehdiqulu xan və Cəfərgulu ağa hökmdara xidmətdən əl çəkməmişlər. Onlar hər ikisi xeyirxah mayor Dimitri Tixonoviçə (Lisaneviç) bəyan etmişlər ki, biz şəfqətli hökmdara sədaqətlə xidmət edəcəyik və biz ata-mız İbrahim xana nə qədər desək də ki, bu yol düz deyil, bunu etmə, hökmdara yaxşı qulluq et, yenə yerinə yetirmir. Bundan sonra siz deyən olacaq. Sizin və sizin hökmdarın qoşunları və faydası nə tələb edirsə, eləcə də hərəkət edin. Mərhəmətli cənab! Qəti əmin olun ki, mayor Lisaneviçin başqa yolu yox idi. Ona görə həmin gecə İbrahim xanın üzərinə getdi. Çünki səhərə fars qoşunları gəlməli idi ki, o həmin qoşunla birləşsin. İbrahim xan öz qoşunlarını qaladan çıxarmışdı. Buna görə də mayor rus qoşunlarının bir hissəsi ilə gecə İbrahim xanın üzərinə getdi və qarma-qarışıq vaxtı güllə onun bir neçə adamını öldürdü" (114).

Məlik Cəmşidlə mayor Lisaneviçin İbrahim xanın qətlində birgə fəaliyyətini erməni müəllifləri də etiraf edirlər. Məsələn, Arakelyan adlı bir müəllif belə yazırdı: "Bu işdə Lisaneviçə məlik Cəmşid böyük kömək göstərmişdir. O öz atlı dəstələri ilə İbrahim xanın Şuşadan çıxdığı məlum yolun üstündə durmuşdu. Çar ordusu qarşısındakı bu xidmətinə görə məlik Cəmşid polkovnik rütbəsi aldı" (115).

Buradan belə bir qənaətə gəlmək mümkündür ki, məlik Cəmşid təkcə Lisaneviçi qızışdırmaqla kifayətlənməmiş, atlı dəstəsi ilə ona yardım göstərmiş və İbrahim xanın geri çəkilmək yolunu bağlamışdı.

İbrahim xanın qətlində məlik Cəmşidin əlinin olmasını Raffi də öz əsərində təsdiqləyir. Müəllif iddia edirdi ki, İbrahim xan rus maraqlarına

xəyanət etdi və qardaşını Abbas Mirzənin yanına göndərdi ki, ruslar Qarabağı tərk etdiyi üçün qoşunu ilə Arazı adlasın və onlar birlikdə ruslara qarşı müharibəni davam etdirsinlər. Guya Abbas Mirzə də bu xəbəri alan kimi çoxsaylı qoşunla Arazı adladı və Şuşa qalasına yaxınlaşdı. Şuşa kəndi ətrafında düşərgə salan Abbas Mirzə qalanı top atəşinə tutmağa hazırlaşanda İbrahim xan 24 nəfərlik ailəsini götürüb Şuşanı tərk etdi. Müəllifə görə, xanın qalanı tərk etməsini məlik Cəmşiddən başqa kimsə görmədi. O da bu barədə Lisaneviçə xəbər verdi. Qeyd olunur ki, bundan sonra onlar hər ikisi İbrahim xanı təqib etməyə başladılar. Lisaneviçlə məlik Cəmşid İbrahim xanı haqlayaraq onu və yaxınlarını qətlə yetirdilər, ətrafındakı qadınlara və uşaqlara toxunmadılar (əslində isə İbrahim xanın xanımlarına və kiçik yaşlı uşaqlarına da aman verilmədi-M.S.). Raffi yazırdı ki, Qarabağ məliklərinin süqutuna səbəb olan şəxs qətlə yetirildi, məlik Cəmşid həm özünün, həm də digər məliklərin qisasını İbrahim xandan aldı. O da təsdiq olunur ki, məlik Cəmşid öz xidmətlərinə görə polkovnik rütbəsi qazandı (116).

Rus tarixçiləri İbrahim xanın qətlə yetirilməsini onun şah təbəəliyini qəbul etməyə hazırlaşması və rus təbəəliyinə sədaqətini itirməsi ilə əlaqələndirməyə çalışsalar da, hadisənin müasiri olan rus generalları İbrahim xanın qətlinə hər hansı bir ehtiyacın olmadığını etiraf edirdilər. Məsələn, general-feldmarşal Qudoviç 1806-cı il avqust ayının 12-də Rusiya hərbi piyada qüvvələr naziri Vyazmitinova göndərdiyi məktubunda belə yazırdı: "Gürcüstan qoşunlarının komandanı general-mayor Nesvetayevdən aldığım raportdan aydın olur ki, 17-ci yeger alayının podpolkovniki Lisaneviç və onunla olmuş mayor Corayev va-daredici səbəb olmadan yeger dəstəsi ilə İbrahim xan Şuşalının üzərinə hücum etmişlər. Qoşunsuz olan İbrahim xanın yanında kişi və qadından ibarət olan 35 nəfər xidmətçi, bir arvadı və üç azyaşlı uşağı olmuş və Şuşa qalasının o biri tərəfində heç bir istehkam olmayan dağda imiş. Dəstəni qarşılamağa çadırdan özü çıxmış və heç bir atəş açmamışdır. Ancaq yegerlər atmağa və süngü ilə doğramağa başlayıblar. İbrahim xan orada öldürülüb. Onun bütün mülkü və əmlakı isə basqın edənlər tərəfindən talan olunub. İbrahim xanın oğlu Mehdiqulu xanın, eləcə də Qarabağ və Şuşa əhalisinin talan edilmiş çoxsaylı əşyaların qaytarılması barədə xahişləri və yazdıqları məktublar general-mayor Nebolsin tərə-findən aparılan araşdırmalarla təsdiq olunur" (117).

Daha sonra Qudoviç sonradan rütbəsi artırılmış olan Lisaneviç və Corayev üzərində formal istintaqın aparılmasına göstəriş verdi. Bu deyilənlərin özü də göstərir ki, İbrahim xanın qətlinin hər hansı bi

səbəblə bağlanmasının əsası yoxdur. Bu qətl Lisaneviç və onu əhatə edənlər tərəfindən qəsdən planlaşdırılmış və törədilmiş bir akt idi.

5.İbrahim xanın qətlindən sonra Qarabağda hərbi-siyasi vəziyyət

İbrahim xan qətlə yetiriləndə Mehdiqulu ağa da və Sisianov tərəfindən xanlığın varisi kimi nəzərdə tutulmuş Cəfərqulu ağa da Şuşa qalasında idilər. Mayor Lisaneviç xanlıq daxilində narazılıqların və həyəcanların qarşısını vaxtında almaq üçün əhalini toplayıb Mehdiqulu ağanı Qarabağ xanı elan etdi. İbrahim xanın nəvəsi Cəfərqulu ağa Mehdiqulu ağanın xan elan edilməsinə özlüyündə sakitliklə yanaşdı və ciddi etiraz bildirməyə cəsarət etmədi (118).

Çox güman ki, Cəfərqulu ağa etiraz etməyin bir nəticə verməyəcəyini görürdü. Çünki mövcud həyəcanlı vəziyyətdə mayor Lisaneviç Mehdiqlu ağanın xanlığının tərəfdarı olmuşdusa, onu müdafiə edəcəyi də şübhəsiz idi.

İbrahim xanın qətli isə xanlıq əhalisi arasında geniş həyəcanlara səbəb oldu. Bunun nəticəsində əhali arasından Arazın cənubuna kütləvi köçlər genişləndi. Onların əksəriyyəti Qaracadağda məskunlaşdılar. Bu köç elə geniş miqyas aldı ki, Abbas Mirzə tərəfindən Ataulla Şahsevənə bu köçlərin nizamlanması haqqında göstəriş verildi.

Rus hərbçilərinin vəhşiliklərindən qorxuya düşən əhali arasında antirus mövqe açıq xarakter aldı. Mehdiqulu xan əhalinin antirus əhval-ruhiyyəsinin aşıq qarşıdurmaya keçməsinə yol verməmək üçün mahal nayiblərinə, bəylərə, nüfuzlu adamlara məktublar göndərdi və onları sakitliyə çağırdı. Bu məktubda Mehdiqulu xanla Lisaneviç arasında qarşılıqlı anlaşma yarandı və az sonra hətta Mehdiqulu xan əhali arasında rus hərbi qüvvələri üçün azuqə və yem toplanmasına da başladı.

Bir tərəfdən Abbas Mirzənin rəhbərliyi altında olan şah qüvvələrinin Ağoğlanda düşərgə salması, digər tərəfdən də İbrahim xanın qətlindən sonra xanlıq daxilində ruslara qarşı narazılıqların genişlənməsi və xanlığın nəzarətdən çıxa bilmək ehtimalı rus qoşunları komandanlığını məcbur etdi ki, müəyyən qəti tədbirlər həyata keçirilsin. Bununla bağlı qərara alındı ki, Troitski muşketyor alayının iki taboru general-mayor Nebolsinin komandanlığı altında Qarabağ istiqamətinə göndərilsin. Baxmayaraq ki, Şuragöl-Pəmbək istiqamətində də hadisələr rusların xeyrinə olmayaraq inkişaf edirdi və burada da əlavə rus qüvvələrinə ehtiyac var idi, general Nesvetayev Qarabağ istiqamətində olan təhlükəni daha qorxulu saydı və general Nebolsinə əmr etdi ki, polkovnik

Karyaginin komandirliyi altında olan 17-ci yeger alayının salamat qalmış qüvvələrini də özünə birləşdirib hərəkətə başlasın. Polkovnik Karyaginin rəhbərliyi altında olan dəstənin birləşdirilməsindən sonra general Nebolsinin rəhbərliyi altında 1092 nəfər piyada, 113 nəfər kazak və 8 ədəd top var idi. Bu qüvvələri ilə Nebolsin bir neçə gündən sonra Əsgərana yetişdi və burada şah qoşunlarının dəstələri ilə qarşılaşdı (120).

Rus mənbələrinə görə, general Nebolsin burada 16 verstlik yolu əlbəyaxa döyüşlərlə adlamalı oldu. Abbas Mirzənin əsas qüvvələri Ağoğlanda dayandığından Nebolsin Əsgəran ətrafında olan şah qüvvələrinin müqavimətini qırmağa müvəffəq oldu. Rus mənbələrinə görə, Lisaneviçin rəhbərliyi altında olan dəstə də Şuşa qalasını tərk edib Əsgəran ətrafında Nebolsinin dəstəsinə qoşuldu (121). Qarabağnamələrdə isə bildirilir ki, mayor Lisaneviç Şuşa qalasında qaldı. Mehdiqulu xan da Qarabağ atlılarından təşkil etdiyi dəstə ilə Əsgərana rus generalının yanına yollandı. M.M.Xəzaninin yazdığına görə, general Nebolsinin Əsgərana gəlməsi təxminən İbrahim xanın qətlindən 15 gün sonraya təsadüf edir (122).

Əsgəran yaxınlığında general Nebolsin iki gün Abbas Mirzənin qoşun dəstəsinin hücumunu gözlədi. Görünür, Əsgəran ətrafında döyüşə girmək Abbas Mirzəni qane etmirdi. Ona görə də öz düşərgəsindən hərəkət etmədi. Belə olanda general Nebolsin irəli hərəkət etməyi qərara aldı. O ümid edirdi ki, Abbas Mirzə də ona doğru irəliləməyə başlayacaq. Rus hərbçilərinin irəliləməsi xəbərini eşidəndə Abbas Mirzə də hərəkət əmri verdi və Xanaşen dərəsi rayonunda iki qoşun dəstəsi üz-üzə gəldi (123).

Xanaşen ətrafında tərəflər arasında döyüş başlandı. Səhərin açılması ilə tərəflər bir-birinin üstünə atıldılar. Qarabağnamələrə görə, Mehdiqulu xan da bu döyüşdə iştirak edirdi. Onun rəhbərliyi altında olan Qarabağ atlıları həm bir başa döyüşə qatıldılar, həm də yeri gəldikcə ruslara bələdçilik edirdilər. İyul ayının 15-də baş verdiyi iddia olunan bu döyüş 7 saat davam etdi. Günün sonunda Abbas Mirzənin dəstəsi təzyiqə davam gətirməyərək geri çəkilmək məcburiyyətində qaldı. Mövcud olan məlumata görə, şah qüvvələri arasında xeyli öldürülən və əsir götürülən var idi. Ruslar arasında isə 10 nəfərin öldürüldüyü və yaralandığı bildirilir. Nebolsin geriləməkdə olan Abbas Mirzə dəstəsini təqib etsə də, onları haqlaya bilmədi. Şah qüvvələri təchizat əşyalarının çoxunu ataraq geri çəkildi və Araz çayının cənubuna adladı (124).

Rus mənbələrinə görə isə rus hərbçilərindən 8 nəfər öldürüldü, 56 nəfər də yaralandı (125).

Erməni müəllifi rus dəstəsinin bu döyüşdə xeyli itki verdiyini qeyd edir. Doğrudur, müəllif bu döyüşdə rus dəstəsinə bələdçilik edən Avan yüzbaşının ruslara göstərdiyi sonsuz fədakarlığını qabartmağa, ermənilərin də Qarabağ hadisələrində söz sahibi olduğunu vurğulamağa çalışırdı. Bununla belə, onun yazdığına görə, polkovnik Karyagin yaralandı, dəstəsinin isə yarısı həyatını itirdi. Müəllifə görə, əgər Avan yüzbaşının köməyi olmasaydı polkovnik Karyaginin dəstəsi bütünlüklə məhv ola bilərdi (126).

Farsdilli mənbələrdə Xanaşen döyüşünün gedişi bir qədər özünəməxsus fərqləri ilə təsvir edilmişdir. Qacarlar dövrünün müharibələrinin daha müfəssəl tarixini yazmış Ə.Dünbəli bildirir ki, rus qüvvələri Xanaşenə yetişib hakim yüksəkliklərdə mövqe tutdular və döyüşə girişməyə cəsarət etmədilər. Abbas Mirzə Xanaşenə yetişəndən sonra iki gün rus qüvvələrinin aşağı enəcəyini və döyüşə girəcəyini gözlədi. Rusların hərəkətə gəlmədiyini görəndə yerli adamların vasitəsilə onlara xəbər çatdırıldı ki, guya tarlalara, ota, ələfə od vurulub və şah qüvvələri də indi təchizat çətinlikləri içindədir. Yalnız bundan sonra ruslar şah qüvvələri ilə döyüşə girdilər. Şah qoşunları tərkibində olan Bestam ərəbləri, İran tüfəngdarları irəli çıxarıldılar və onlar hətta ruslarla əlbəyaxa döyüşə girdilər. Bu döyüş axşama qədər davam etdi və heç bir tərəfin uğuru olmadan başa çatdı. Mənbəyə görə, Abbas Mirzənin dəstəsinin doğrudan da təchizat çətinlikləri var idi. Arxada qalmış ərazilərdə isə yem və azuqə toplanması imkanı yox idi. Ona görə də Abbas Mirzə daha çətin vəziyyətlə qarşılaşmamaq üçün geri çəkilmək əmri verdi və Araz çayının cənubuna adlayaraq orada düşərgə qurdu (127).

Hər halda farsdilli mənbədə olan məlumat da onu göstərir ki, Abbas Mirzə növbəti dəfə Qarabağda uğur əldə edə bilmədən geri çəkildi.

Abbas Mirzənin Qarabağ xanlığı ərazisinə keçməsi ilə onun yanında olan Əbülfət ağa da bir dəstə ilə xanlıq ərazisinə daxil olaraq talançı basqınlar edir, əhali üçün müxtəlif problemlər yaradırdı. Qarabağın bir sıra qaçqın bəyləri də ona qoşularaq hətta kəndlərin bütünlüklə Qarabağdan köçürülməsini də həyata keçirirdilər. Abbas Mirzə öz qoşonu ilə Qarabağdan geri çəkiləndən sonra mayor Lisaneviç və Cəfərqulu ağa silahlı dəstə ilə Zəngəzur istiqamətinə yollandılar ki, Əbülfət ağanın qanunsuz əməllərinin qarşısını alsınlar, yurdlarından köçürülmüş əhalini geri qaytarsınlar. Cəfərqulu ağa rəhbərliyi altında olan dəstəsi ilə Əbülfət ağanən dəstəsinə Qafan və Ordubad dağlarında yetişdi və bu dəstələr arasında döyüş baş verdi. Cəfərqulu ağa öz dəstəsi ilə Əbülfət ağaya üstün gəldi, yurdundan köçürülən əhalini geri

qaytarmağa müvəffəq oldu. Öz yurdlarından sürülən əhalinin geri qaytarılmasını yerli əhali razılıqla qarşıladı və bütünlükdə xanlıq ərazisində müvəqqəti bir sakitlik bərqərar oldu (128).

M.M.Xəzani Qarabağdan sürülmüş elatın geri qaytarılması üçün baş verən döyüşlərdə Cəfərqulu ağanın böyük şücaət göstərdiyini yazırdı. Müəllif onu da qeyd edirdi ki, general Nebolsin Quruçay və Dizak tərəflərindən geri qayıdıb qoşunla Əsgəran ətrafında düşərgə saldı. Rus qoşun dəstəsi Əsgəran ətrafında yerləşdikdən sonra general Nebolsin ayrılıqda Şuşa qalasına gəldi və orada Mehdiqulu xanın qonağı oldu. Bu görüşləri zamanı İbrahim xanı qətlə yetirmiş Lisaneviçin Qarabağdan uzaqlaşdırılması barəsində Mehdiqulu xan general Nebolsin qarşısında məsələ qaldırdı. Mehdiqulu xan istəyini bununla əsaslandırırdı ki, İbrahim xanın qətlə yetirilməsi, onun və ətrafının əmlakının qarət edilməsi qarabağlıların ciddi narazılığına səbəb olub. Lisaneviç Qarabağda qaldığı müddətdə yerli əhalinin qəzəbi ilə qarşılaşmalı olardı. Lisaneviçin təhlükəsizliyinin təmin edilməsi üçün Mehdiqulu xan onun əvəz olunmasını xahiş etdi (129).

General Nebolsin bu fikirlə razılaşdı və Şuşadakı dəstənin komandiri vəzifəsinə Kotlyarevskini təyin etdi. M.M.Xəzani yazır ki, Pyotr Stepanoviç Kotlyarevski mayor Lisaneviçin yaxın dostu olduğu və dostunun incidildiyi üçün Mehdiqulu xanla ədavətə başladı. Bunun nəticəsi kimi, Kotlyarevski Mehdiqulu xanla Cəfərqulu ağa arasında qarşıdurmanın yaranmasına nail oldu. Yuxarıda qeyd edildiyi kimi, mayor Lisaneviç İbrahim xanın qətlindən sonra Mehdiqulu ağanı xan elan etdi və bununla bağlı Tiflisdəki rus canişinliyinə müraciət edəndə Cəfərqulu ağa bundan narazı qalmışdı. Çünki o özünü xanlığın qanuni iddiaçısı hesab edirdi. Kotlyarevski də Mehdiqulu xanla Cəfərqulu ağanın arasında məhz bu məsələni qızışdırdı.

Kürəkçay müqaviləsinə görə, İbrahim xandan sonra xanlıq onun böyük oğluna keçməli və ondan sonra da varislik bu prinsiplə davam etməli idi. Bu məqamı nəzərə alaraq Kotlyarevski tərəfindən dəstəklənən Cəfərqulu ağa açıq şəkildə xanlığa iddiasını irəli sürdü. Yuxarıda qeyd edildiyi kimi, Sisianov da Qarabağın gələcək xanı kimi Cəfərqulu ağanı görürdü. Amma İbrahim xanın qətlindən sonra yaranmış gərginlikdən Lisaneviçin fikrincə, Mehdiqulu ağa kimi daha təcrübəli şəxs çıxa bilərdi və ona görə də onun namizədliyini dəstəklədi. Mayor Lisaneviç eyni zamanda general Nesvetayevə məktub göndərdi ki, Məhəmməd Həsən ağanın ölümündən sonra İbrahim xan özü Mehdiqulu ağanı varis elan etmişdir.

Rus tarixçisi N.Dubrovinin yazdığına görə, iddialarının təmin edilməsi üçün həm Mehdiqulu ağa, həm də Cəfərqulu ağa Tiflisə yollandılar. Onların hər ikisini dəstəkləyən qüvvələr var idi və həmin qüvvələr də müəyyən yollarla Rusiya qoşunlarının Qafqaz komandanına təsir göstərməyə çalışırdılar. Rus qoşunlarının komandanı eyni zamanda Qafqazda mülki işlərə rəhbərlik edirdi. Başqa sözlə bu şəxs Cənubi Qafqazın hərbi-siyasi rəhbəri idi. Müəllifin bildirdiyinə görə, Mehdiqulu ağa öz gücünə əmin olmadığı üçün Tiflisdə yaşayan keçmiş Xoy hakimi Cəfərqulu xanı da bu işə cəlb etdi. Cəfərqulu xanın Rusiyaya sədaqətli şəxs kimi rus generalları yanında xüsusi hörməti var idi. Mehdiqulu ağa da məhz buna görə Cəfərqulu xanın feldmarşal Qudoviçin yanına getməsini və namizədliyini dəstəkləməsini xahiş etdi. Cəfərqulu xan da müəyyən vədlərin əvəzində bu xahişi yerinə yetirməyə razı oldu.

Cəfərqulu xan da feldmarşal Qudoviçlə görüşüb Mehdiqulu ağanın Qarabağ xanı məqamında saxlanmasını xahiş etdi. 18 yaşlı Cəfərqulu ağanın xanlığı idarə etmək üçün hələ xeyli gənc olması barədə onun söylədikləri ilə Qudoviç də razılaşdı və çar fərmanı gələnə kimi Mehdiqulu ağanın Qarabağ xanlığını idarə etməsinə razı oldu(130).

M.M.Xəzani isə yazır ki, Rusiya qoşunlarının Qafqazdakı baş komandanı təyin edilən Qudoviç hələ Tiflisə çatmamışdan qabaq Mehdiqulu ağaya məktub göndərdi və Rusiya sarayının onun xan olmasına razılıq verməsi ilə əlaqədar Tiflisə dəvət etdi. Bu məlumatı eşidən kimi Qarabağ xanlığına iddialı olan Cəfərqulu ağa da Tiflisə yollandı. O, Mehdiqulu ağadan da əvvəl Tiflisə gəldi və orada bir ay Qudoviçin Tiflisə gəlib çatmasını gözlədi. İlk görüşlərində Qudoviç onun Mehdiqulu ağa tərəfindən göndərildiyini güman etdi. Cəfərqulu ağanın xanlıq iddiası ilə gəlməsi aydınlaşandan sonra Qudoviç bildirdi ki, İbrahim xan qətlə yetiriləndə 17 yaşında olmusan. Mayor Lisaneviç səni xanlığa layiq bilməyib və Mehdiqulu ağa haqqında təqdimat hazırlayıb çar sarayına göndərib. Artıq çar sarayının qərarı var və daha bu qərarı dəyişmək olmaz. Cəfərqulu ağa bu deyilənlərlə razılaşmalı oldu və eyni zamanda xahiş etdi ki, xan tərəfindən ona bağışlanmış 36 para kəndə toxunulmasın. Qudovuç bu xahişlə razılaşdı və Mehdiqulu xana da tapşırdı ki, həmin kəndlər Cəfərqulu xanın güzəranının təmin edilməsi üçün onun ixtiyarında saxlanılsın (131).

Bir müddətdən sonra 1806-cı il sentyabrın 10-da Rusiya çarı Aleksandr Mehdiqulu xanın Qarabağ xanlığına təsdiq edilməsi barədə fərman imzaladı. Həmin fərmanda deyilirdi: "Biz ali məqamlı və ali cəlallı, ehsani-ümumə şamil olunan Allahın mərhəməti və köməyi ilə bütün Rusiya məmləkətlərinin, habelə başqa vilayət və ölkələrin istiqlal

və rifahını təmin edən imperator I Aleksandr bildiririk: qoy bizim şahanə lütf və qayğımıza, imperatorluq qüdrət və mərhəmətimizə ümid bağlayan Qarabağ vilayətinin bütün ali üləma, hörmətli başbilənləri, görkəmli və şərafətli əyanları, bəyləri, sərkərdələri, kəndxudaları, ağsaqqalları və bütün rəiyyətləri bilsinlər ki, keçən il – 1220-ci ildə (1805) mərhum İbrahim xan, bizim şahlıq canişinimiz olan general knyaz Sisianovla bilrikdə bir "Andlı öhdəlik" tərtib etmişdilər və general onu dərhal imperatorluq dərgahına çatdırmışdır. Biz həmin "Andlı öhdəliyin" tələb və şərtləri ilə tanış olduqdan sonra mərhum xanın irəli sürdüyü bütün arzu və tələbləri, öz sonsuz şahanə lütf və qayğıkeşliyimizlə qarşılayıb onu bütün Qarabağ xanı ilə birlikdə himayəmizə alıb onları ali Rusiya dövlətimizin qədim sədaqətli təbəələri sırasına daxil edərək mərhum İbrahim xanı xüsusi imperatorluq fərmanı ilə Qarabağ vilayətinin müstəqil hakimi elan etdik və təminat verdik ki, Qarabağın imperatorluq təbəəliyinə daxil olan bütün rəiyyətləri, mərhum xanın varisləri daima imperatorluq tərəfindən lazımınca mühafizə olunacaq və dünya durduqca bu ocaqdan çıxan onun varisləri nəsildən-nəslə Qarabağın xanlıq taxtına oturub müstəqil surətdə hökmdarlıq etmək hüququ ilə təmin olunacaqdır.

İbrahim xanın bir iğtişaş nəticəsində qətlə yetirilməsi kimi hüznlü bir hadisədən sonra yenə sədaqətli vilayət rəiyyətlərinin məişətlərini təmin etmək sahəsində əlahəzrətin xeyirxah fikirləri və münasibəti dəyişməmiş qaldı.

Əlahəzrət verdiyi sözə əməl edərək öz şahlıq mərhəməti və qayğısı ilə yüksək rütbəli vərəsə general-mayor Mehdiqulu ağanı mərhum atasının yerinə bərqərar edib Qarabağ vilayətinin xanlıq taxtına oturtdu və bu qərarı imperatorluq turqası (fərmanı) ilə təsdiq etdi. Eyni zamanda lazım bilindi ki, bu fərman məlumat üçün bütün Elbrus və Gürcüstan əyalətlərində şahlıq canişini olan qraf Qudoviçə də göndərilsin. Aliməqam Mehdiqulu xana da qətiyyətlə bildirir ki, o, Qarabağ vilayətində qüdrətli Rusiya dövlətinin himayəsi və mərhəməti sayəsində xanlığı möhkəm ələ alsın. Onun atası mərhum İbrahim xana verilmiş bütün xoş vədlər və şərtlərin hamısının təməni eynilə qüvvədə saxlanılsın.

Belə bir mövqedə əlahəzrət imperatorun fərmanı ilə lazım görüldü ki, həmin bu şahanə fərman və elannamə vasitəsilə Qarabağ xanlığının böyük üləma fazilləri, görkəmli şəxsləri, əyan-əşrəfləri, bəyləri, sərkərdələri, kəndxudaları, ağsaqqalları və başqa əhalisinin hamısı bilməlidir ki, aliməqam general Mehdiqulu xan əlahəzrət imperatorun mübarək fərmanı ilə xanlıq rütbəsi alıb Qarabağ vilayətinə müstəqil hakim təyin edilmişdir. Lazımdır ki, bütün əhali ona tabe olub, baş

əyərək sözündən çıxmasın. Xanın əmrilə və hakimiyətinə aid olan bütün qayda-qanunlara əməl etsinlər. Xanlıq xeyrinə olan işlərdə ona köməklik edib zərərli hərəkət və əməllərdən uzaq olsunlar. Eyni zamanda əmin olsunlar ki, imperatorluq öz ali mərhəməti və qayğısı ilə həmişə onlara lazım olan köməyi əsirgəməyəcəkdir" (132).

Qarabağnamə müəlliflərinin yazdığına görə, Mehdiqulu xan bütün kəndxudalar və yerli bəylərlə bərabər Tiflisə gələrək qrafla görüşdü. O biri gün isə böyük mərasim keçirildi və həmin mərasimdə Mehdiqulu xana Qarabağ xanı təyin edilməsi barədə çar fərmanı, qiymətli daşlarla bəzədilmiş qılınc və bayraq təqdim edildi. Qudoviç eyni zamanda vəd etdi ki, Mehdiqulu xana xanlığın idarə edilməsi üçün hərtərəfli yardım göstərəcəkdir (133).

Mövcud olan məlumatlara görə, qraf Qudoviç Mehdiqulu xana kömək göstərməklə bərabər, həm də ona inanırdı və hətta Qarabağdakı rus hərbi dəstəsinin komandiri podpolkovnik Kotlyarevskiyə də tapşırdı ki, xanlığın daxili işlərinə qarışmasın (134).

Qarabağın xanlıq dövrü tarixinə toxunan erməni müəllifləri bir qayda olaraq məlikliklərin müstəqilliyini, erməni dövlətçiliyi uğrunda aparılan mübarizənin Rusiya sarayı tərəfindən dəstəklənməsini, erməni milli-azadlıq mübarizəsini qabartmağa çalışırlar. Belə bir güman yaranır ki, Rusiya sarayı ciddi-cəhdlə erməni milli-azadlıq mübarizəsini dəstəkləyərək Qarabağda xristian əhalisinin müsəlman zülmündən qurtarılması və Qarabağda xristian dövlətinin qurulmasına xüsusi maraq göstərirdi. Əslində isə yuxarıda qeyd edildiyi kimi, Rusiya işğalçılıq siyasətinin həyata keçirilməsi üçün ermənilərdən və Qarabağ xristianlarından yalnız öz məqsədləri üçün istifadə edilməsini maraqlarına uyğun bilirdi. Çünki ermənilərin və Qarabağ xristianlarının istəklərinə və məkrli əməllərinə uyun olaraq Rusiya sarayı Qarabağda xristian qurumunun yaradılması üçün heç bir cəhd göstərmədi. Hətta İbrahim xan qətlə yetiriləndən sonra onun varisinin kim olacağı Rusiya sarayı tərəfindən araşdırılarkən də xanlıqda xristianların hakimiyyətə gətirilməsi heç yada da düşmədi və bu barədə hər hansı bir təşəbbüs də ortaya atılmadı. Sankt-Peterburqda yaşayan ermənilərin qızışdırıcı məktublarına cavab olaraq isə Qarabağ məlikləri bildirirdilər ki, artıq onlara ciddi əhəmiyyət verilmir və hətta onların rus qoşunları tərkibindəki mübarizələri belə rus komandanlığı tərəfindən lazımınca qiymətləndirilmir. Yəni, Rusiya sarayı vəziyyəti reallıqla qiymətləndirərək ermənilərı və yerli xristian əhalini Qarabağın taleyinin müəyyənləşdirilməsinə təsir göstərəcək bir element kimi qəbul etmirdi. Erməni müəllifi qeyd edirdi ki, İbrahim xanın qətlindən sonra ermənilər və Qarabağ məlikləri artıq Qarabağda

müstəqil məlikliklərin yaradılması haqqında düşünmürdülər (135). Müəllif bunu başqa səbəblərlə bağlamağa çalışsa da, əslində vəziyyət yuxarıda qeyd edildiyi kimi idi. Yəni, erməni iddialarının mahiyyəti Rusiya sarayı tərəfindən yaxşıca anlaşılırdı və onlardan yaxşı halda xanlığa və müsəlman əhaliyə qarşı xəyanətkarlıqda və düşmənçilikdə istifadə olunurdu.

Sonrakı bir neçə il ərzində Qarabağ xanlığında vəziyyət nisbətən sakit keçdi. Bu bir tərəfdən Rusiyanın Osmanlı dövləti ilə müharibə aparması, Rusiya qoşunlarının İrəvan xanlığı üzərinə hücumu, başlıcası isə Rusiya sarayının əsas diqqətinin Avropa cəbhəsinə cəmləşməsi ilə bağlı idi. Şah sarayının, o cümlədən Abbas Mirzənin diqqəti isə Fransa ilə münasibətlərin aydınlaşdırılmasına, Fransa hərbçilərinin köməyi ilə şah qoşunlarının yenidən qurulmasına istiqamətlənmişdi. Bununla belə, şah sarayı nə diplomatik sahədə Azərbaycan xanlıqları uğrunda niyyətlərinə, nə də qoşunların ciddi şəkildə yenidən qurulmasına nail oldu. Doğrudur, fransalı mütəxəssislərin köməyi ilə şah qoşunlarında baş verən dəyişikliklər istisna edilməməlidir. Lakin şah qüvvələri Qafqaz cəbhəsində ciddi üstünlüklərə yol açan dəyişiklikləri əldə edə bilmədi.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Акты Собранные Кавказской Археологической Комиссии (АКАК). Т. I, Тифлис, 1866, с.692
2. Акты Собранные Кавказской Археологической Комиссии (АКАК). Т. II, Тифлис, 1868, с.696
3. АКАК, т. II, с.703
4. Присоединение Восточной Армении к Росии. Ереван, т. I, 1972, с.9
5. АКАК, т. II, с.696
6. АКАК, т. II, с.696-697
7. АКАК, т. II, с.697
8. АКАК, т. II, с.697
9. АКАК, т. II, с.698
10. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair. Bax: Qarabağnamələr. Birinci kitab. Bakı, 1989, s.150-183
11. Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xanın və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri, s.232. Bax: Qarabağnamələr. İkinci kitab. Bakı, 1991, s.203-248;
12. АКАК, т. II, с.698
13. АКАК, т. II, с.700
14. АКАК, т. II, с.699
15. АКАК, т. II, с.699; Дубровин Н. История войны и вла-дычества русских на Кавказе. Т. IV, С-Петербург, 1886, с.422
16. Дубровин Н. , т. IV, с.422
17. АКАК, т. II, с.701
18. Rzaqulu bəy Mirzə Camal oğlu, s.232
19. Xəzani, Mir Mehdi "Kitabi tarixi Qarabağ", s.162. Bax: Qarabağnamələr. İkinci kitab, Bakı 1991 s.94-204
20. Xəzani M.M., s.163-165
21. АКАК, т. II, с.704
22. АКАК, т. II, с.703
23. АКАК, т. II, с.704
24. Kürəkçay müqaviləsi. www.az.wikipediia.org/wiki/kürəkçay_müqaviləsi
25. Yenə orada
26. АКАК, т. II, с.703
27. АКАК, т. II, с.704, 705
28. АКАК, т. II, с.706, 707

29. АКАК, т. II, c.708
30. Əlizadə, Həsən İxfa. Şuşa şəhərinin tarixi, s.335. Bax: Qarabağnamələr. İkinci kitab. Bakı, 1991, s.310-350
31. نجمی ناصر. عباس میرزا.تهران، 1374، ص.144
32. نجمی ناصر، 145
33. Дубровин Н. , т. IV, c.434
34. Дубровин Н. , т. IV, c.435
35. Дубровин Н. , т. IV, c.436
36. АКАК, т. II, c.709
37. АКАК, т. II, c.709
38. Дубровин Н. , т. IV, c.440
39. عبدالرزاق دنبلی . ماثر سلطانیه. تهران،1382، ص. 225
40. آهنگسروش (میرزا محمد صادیق وقایع نگار. تاریخ جنگهای ایران و روس. تهران، 1360، ص.108
41. Дубровин Н. , т. IV, c.440
42. Дубровин Н. , т. IV, c.436
43. Xəzani M.M., s.169
44. АКАК, т. II, c.709
45. Дубровин Н. , т. IV, c.443
46. АКАК, т. II, c.709
47. آهنگ سروش، 109
48. ماثر سلطانیه،226
49. میرزا فضل اله شیرازی. تاریخ ذولقرنین.جلد دوم، تهران، 1380، ص.222
50. Xəzani M.M., s.170; Rzaqulu bəy MİrzəCamal oğlu, s.234
51. Xəzani M.M., s.170
52. ماثر سلطانیه، 227
53. Дубровин Н. , т. IV, c.443
54. АКАК, т. II, c.710
55. Дубровин Н. , т. IV, c.443
56. АКАК, т. II, c.710

56a. АКАК, т. II, c.708

57. ماثر سلطانیه، 228
58. Дубровин Н. , т. IV, c.446
59. ماثر سلطانیه، 229
60. Дубровин Н. , т. IV, c.447
61. آهنگ سروش، 110
62. АКАК, т. II, c.710
63. آهنگ سروش، 111
64. АКАК, т. II, c.710; Дубровин Н. , т. IV, c.447-448
65. АКАК, т. II, c.834

66. Xəzani M.M., s.171
67. АКАК, т. II, с.834-836
68. Дубровин Н. , т. IV, с.450
69. Дубровин Н. , т. IV, с.450
70. Потто В. Кавказская война.Т. I. Глава - Подвиг полков-ника Карягина.
www.vehi.net/istoriya/potto/kavkaz/221.html
71. Дубровин Н. , т. IV, с.451; Xəzani M.M., s.171
72. Дубровин Н. , т. IV, с.452
73. ماثر سلطانیه، 229
74. Дубровин Н. , т. IV, с.452-454
75. Дубровин Н. , т. IV, с.454
76. АКАК, т. II, с.837
77. Xəzani M.M., s.172
78. АКАК, т. II, с.712
79. Дубровин Н. , т. IV, с.457-458
80. АКАК, т. II, с.839
81. آهنگ سروش، 116
82. ماثر سلطانیه، 229-230
83. АКАК, т. II, с.839
84. АКАК, т. II, с.839
85. Дубровин Н. , т. IV, с.461
86. АКАК, т. II, с.838
87. АКАК, т. II, с.846
88. آهنگ سروش، 116
89. ماثر سلطانیه، 231
محمد تقی لسانالملک سپهر. تاریخ التواریخ. تاریخ قاجاریه. جلد اول، تهران، 1377، ص.230-229
90. Xəzani M.M., s.173
91. АКАК, т. II, с.849
92. АКАК, т. II, с.851, 853
93. АКАК, т. II, с.725
94. АКАК, т. II, с.727
95. АКАК, т. II, с.727
96. АКАК, т. II, с.727
97. АКАК, т. II, с.727
98. Mirzə Camal Cavanşir Qarabağı. Qarabağ tarixi. Bakı, 1959, s.42
99. Mirzə Camal Cavanşir Qarabağı. Qarabağ tarixi. Bakı, 1959, s.42
100. Дубровин Н. История войны и владычества русских на Кавказе. Т. V, С-Петербург, 1888, с.38

101. Дубровин Н. , т. V, с.39
102. ماثر سلطانیه، 248-249
103. آهنگ سروش، 129-130
104. Дубровин Н. , т. V, с.41-42
105. Дубровин Н. , т. V, с.43
106. Потто В.А. Кавказская война. Т. II. Ермоловское время. С.363
107. Mirzə Yusif Qarabağı. Tarixi Safi, s.51. Bax: Qarabağnamələr. İkinci kitab. Bakı, 1991, s.6-94
108. Rzaqulu bəy Mirzə Camal oğlu, s.236
109. Xəzani M.M., s.177
110. Əlizadə H., s.337
111. Дубровин Н. , т. V, с.39
112. Xəzani M.M., s.178; Rzaqulu bəy Mirzə Camal oğlu, s.236-237
113. Axundov N. Qarabağ salnamələri. Bakı, 1989, s.144
114. АКАК, т. III, с.329
115. Əliyev M.M. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı. Tarix elmləri namizədi alimlik də-rə-cəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 1996, s.48 (Azərbaycan Milli Kitabxanasının Dissertasiya fondu).
116. Raffi. Melikstva Xamsa. http://armenianhouse.org/raffi/novels-r5u/khamsa/meliks/_14.html
117. АКАК, т. III, с.334
118. Xəzani M.M., s.178
119. ماثر سلطانیه، 250
120. Дубровин Н. , т. V, с.45
121. Дубровин Н. , т. V, с.46
122. Раффи...., глава, XLI
123. Mirzə Camal Cavanşir Qarabağı, s.44
124. Rzaqulu bəy Mirzə Camal oğlu, s.237
125. Дубровин Н. , т. V, с.46
126. Раффи...., глава, XLI
127. ماثر سلطانیه، ص.251
128. Mirzə Camal Cavanşir Qarabağı, s.44-45
129. Xəzani M.M., s.180
130. Дубровин Н. , т. V, с.52
131. Xəzani M.M., s.180
132. www.mektebler.az/blog/796/entry/63
133. Mirzə Camal Cavanşir Qarabağı, s.45
134. Дубровин Н. , т. V, с.47
135. Раффи...., глава, XLI

III FƏSİL

RUSİYA İŞĞALÇILIĞININ SİSİANOV DÖVRÜNÜN SONU

1.Şəki xanlığının Rusiyaya birləşdirilməsi

Car-Balakənin və ardınca da Gəncə xanlığının işğalı digər Azərbaycan xanlıqları kimi Şəki xanlığının müstəqilliyi üçün də ciddi təhlükənin yaxınlaşmaqda olduğundan xəbər verirdi. Bölgədə olan rus qoşunlarına müqavimət göstərmək üçün Şəki xanı Məhəmməd Həsən xanın ixtiyarında yetərli sayda hərbi qüvvə yox idi.Qonşu xanlıqlarla olan gərgin münasibətlər isə birgə müqavimət ümidini aradan qaldırırdı. Ona görə Şəki xanı Rusiya qoşunlarının işğalçılığına qarşı Qacar sarayı ilə əməkdaşlığa müəyyən ümid bağlayırdı. Baxmayaraq ki, XIX sərin əvvəllərində Məhəmməd Həsən xan xanlığın müstəqilliyinin qorunması üçün Rusiyanın himayəsinə də biganə deyildi (1).

Car-Balakən və Gəncə əhalisinə rus qoşunları tərəfindən divan tutulması, Gəncə xanə Cavad xana qarşı qəddarlıq nümayiş etdirilməsi Məhəmməd Həsən xanda Rusiya ilə bağlı gümanlarında əbəs olduğu qənaətini yaratdı. Məhəmməd Həsən xan öz məktublarının birində yazırdı ki, rus kafirləri Gəncəni fəth ediblər, əhalisini qırıb və əsir ediblər. Onların qoşunlarının bir hissəsi isə Car-Talaya gediblər və oranın əhalisinə böyük ziyan yetiriblər (2).

Mövcud olan məlumatlara görə, Məhəmməd Həsən xan bütünlükdə Rusiya işğalına qarşı idi və Cavad xanı da rus qoşunlarına müqavimət göstərməyə çağırdı. Xüsusilə, rus qoşunlarının Gəncə üzərinə hücuma hazırlıq günlərində Məhəmməd Həsən xan qoşunu ilə Gəncənin köməyinə gələcəyini bildirməklə Cavad xanı ciddi müqavimətə çağırsa da belə bir köməyi göstərə bilmədi (3).

Gəncənin işğalından sonra Məhəmməd Həsən xan general Sisianova məktub yazdı və yuxarıda qeyd edildiyi kimi, Cavad xanın xanımı olan bacısını uşaqları ilə birlikdə Şəkiyə buraxılmasını xahiş etdi. Bu məktubda da Məhəmməd Həsən xanın ruslara olan rəğbətsiz münasibətini müşahidə etmək mümkündür. Məhəmməd Həsən xan təəssüflə Gəncənin ruslar tərəfindən alındığını və şəhərin talanlara məruz qaldığını bildirirdi. General Sisianov isə onun bu fikirlərinə öz xarakterinə uyğun cavab verirdi. O, Məhəmməd Həsən xanı hədələdi və ondan da Rusiya təbəəliyini qəbul etməyi tələb etdi(4). Başqa sözlə, Sisianov çox açıq şəkildə bəyan etdi ki, Məhəmməd Həsən xan ya Rusiyaya itaəti qəbul etməli, ya da Gəncə xanının aqibəti ilə qarşılaşmalıdır.

Mürəkkəb vəziyyətə düşdüyünü görəndə Məhəmməd Həsən xan ruslarla danışıqlar aparmağa başladı. Bu məqsədlə Hacı Mustafa adlı birisi general Sisianovun yanına göndərildi və onun vasitəsilə ruslara dostluq münasibətləri təklif olundu. Sisianov isə cavabında bildirdi ki, Məhəmməd Həsən xanın sözdə olan vədlərini qəbul edə bilməz. O tələb etdi ki, Şəki xanı Rusiya imperatoruna sədaqətini öz əməli ilə sübut etsin, oğlunu dostluğa zəmanət kimi onun yanına girov göndərsin. Əks təqdirdə Sisianov Şəki xanının vədlərini qəbul etməyəcəyini bildirirdi (5).

Məlumdur ki, Məhəmməd Həsən xan general Sisianovun tələblərini qəbul etmədi. Çünki Məhəmməd Həsən xan həm də Qacar sarayı ilə münasibətlər qurmağa çalışırdı. Sisianovun rəhbərliyi altında olan rus qoşunlarının İrəvan xanlığı ərazisində uğursuzluğa düçar olması isə Məhəmməd Həsən xanda qacarlara bağladığı ümidini daha da artırdı. Məktublarının birində Məhəmməd Həsən xan yazırdı ki, Sisianov rus qoşunları ilə İrəvanda Fətəli şahın məngənəsinə düşüb və Allaha dua edirdi ki, bu döyüşdə Fətəli şah qalib gəlsin. Rus qoşunlarına qarşı mübarizə aparan çeçenlərə və kabardinlərə Məhəmməd Həsən xan heyranlığını bildirir və Aksay camaatını da rus kafirlərinə qarşı mübarizəyə səsləyirdi (6).

Rus qoşunlarının İrəvan qalası üzərinə hücumu başa çatdıqdan sonra Fətəli şah əyanlarından olan İbrahim bəy adlı birisi ilə Məhəmməd Həsən xana məktub göndərdi. Məktubda rus qoşunlarının məğlub olaraq geri çəkilməsi haqqında xəbər verilir və rus qoşunlarının məğlubiyyətə uğradılmasının xidmətləri də şah qoşunlarına aid edilirdi. Qacar şahı bəyan edirdi ki, məqsəd Gürcüstana kimi irəliləmək və Gizlərə qədər səpələnmiş rus qoşunlarını məhv etmək idi. Lakin havaların soyuması ilə bu planın həyata keçirilməsi təxirə salındı. Məktubda deyilirdi ki, Novruzun gəlişi ilə şah qoşunları yenidən öz yürüşlərini davam etdirəcəklər. Ona görə yerli hakimlərdən tələb olunurdu ki, öz qoşun dəstələri ilə şah

qoşunlarının növbəti yürüşlərinə qoşulmağa hazırlaşsınlar. Məhəmməd Həsən xanın nəzərinə isə çatdırılırdı ki, ehtiyacları haqqında şah sarayına məlumat versin və həmin ehtiyacların aradan qaldırılacağına da əmin olsun (7).

Şəki xanlığının xaricində olduğu kimi, daxilində də kifayət qədər mürəkkəb bir durum mövcud idi. Məhəmməd Həsən xanın qardaşı Səlim xanın xanlıqda hakimiyyət iddialarını ortaya qoyması xanlıq daxilindəki parçalanmanı gücləndirməkdə idi. Rus qoşunlarının köməyinə istinad etmək ümidi isə Səlim xanı daha qətiyyətli addımlar atmağa sövq edirdi ki, bu da Məhəmməd Həsən xanın nigarançılığını artırmaya bilməzdi. Məhəmməd Həsən xanın qacarlara meyli Səlim xanla rus hərbi komandanlığı arasındakı fəaliyyət birliyini daha da yaxınlaşdırırdı. Sisianov üçün də Səlim xana istinad edilməsi Şəkidə möhkəmlənmək üçün bir fürsət yaradırdı.

General Sisianov Səlim xana vədlər verməklə eyni zamanda ondan Şamaxı xanı Mustafa xanın rus təbəəliyinə cəlb edilməsi üçün istifadə etməyə çalışırdı. Səlim xanla Mustafa xanı bir tərəfdən nikah qohumluğu birləşdirirdi. Mustafa xan Səlim xanın qızını özünə nikah etdirmişdi (8). Digər tərəfdən də Səlim xan Mustafa xana sığınmışdı və onun yanında yaşayırdı. Şəki xanlığının ələ keçirilməsi üçün Səlim xan general Sisianovla əlaqə yaratdı, ondan kömək istəməklə xan olacağı təqdirdə ruslar qarşısında bir sıra öhdəlikləri boynuna götürəcəyini vəd etdi. Sisianov Səlim xanın müraciətini müsbət qarşıladı. Rus generalı Səlim xana kömək göstərməklə onun vasitəsilə İbrahim xana da müəyyən təsir göstərməyi planlaşdırırdı (9). Çünki Səlim xanla İbrahim xan da nikah qohumluğuna malik idilər. İbrahim xanın qızı Səlim xana nikah edilmişdi.

1804-cü il ərzində general Sisianovla Səlim xan arasında fəal yazışma aparıldı. Bu yazışmalarda Səlim xan rus generalını Qacar qoşunları, rus işğalı ilə barışmayan gürcü şahzadələri haqqında məlumatlandırırdı. Səlim xan məktublarının birində Sisianova Mustafa xanın rus təbəəliyinə gətirilməsinə çalışacağına söz verdi. Sisianovun fikrincə, bu ilk növbədə elə Mustafa xanın özünə lazım idi. Rus generalına görə, Mustafa xan yalnız Quba xanı ilə yaxşı münasibətdə idi. Onun da məqsədi Şamaxı xanlığını parçalamaq və Salyanı öz nəzarəti altına almaq idi. Sisianov yazırdı ki, Mustafa xan Rusiya təbəəliyini qəbul etsə xanlığının parçalanmayacağına əmin ola bilərdi (10).

Rus qoşunlarının köməyinə əmin olan Səlim xan Şamaxı xanı Mustafa xanın qoşun dəstəsi ilə Şəkiyə hücum etdi. Bu hücum uğurla nəticələndi.

Məhəmməd Həsən xan Şamaxı qoşunlarının hücum xəbərini eşidəndə bu hücumun qarşısının alınması üçün hazırlıq işlərinə başladı. Lakin Şəki xanlığının nüfuzlu adamlarının heç də hamısı Mustafa xanın qoşun dəstəsi ilə qarşı-qarşıya gəlməyə razı olmadılar. Bundan əlavə, Mustafa xanın qoşun dəstəsi həm də say üstünlüyünə malik idi. Belə olanda Məhəmməd Həsən xan döyüşə girmədən məğlub olduğunu bildirdi. Mustafa xan təslim olmuş Məhəmməd Həsən xanı əsir edərək Şamaxıya göndərdi. Səlim xana isə bildirdi ki, onun etibarına şübhə ilə yanaşır və əgər Şəki xanı olmaq istəyirsə gərək oğlunu və qızını Şamaxıda girov saxlasın. Səlim xan bu tələbi qəbul etdi. Lakin Mustafa xan gizli olaraq Şəkiyə öz nayibini göndərdi. Mustafa xanın nayibi Şəkini idarə etməklə bərabər, həm də Məhəmməd Həsən xanın var-dövlətini ələ keçirməli idi. Səlim xan bundan xəbər tutan kimi Məhəmməd Həsən xan tərəfindən kor edilmiş digər qardaşı Fətəli bəyə və Şəki əhalisinə xəbər göndərdi ki, yad nayibin Şəkidə hakimlik etməsinə imkan verməsinlər. Şəki əhalisi doğrudan da Mustafa xanın nayibinin hakimiyyətinə imkan vermədilər və onu Şəkidən qovdular. Belə olanda Mustafa xan Fətəli bəylə əlaqə yaratdı və ona oğlunu girov göndərəcəyi halda xan olmasına kömək edəcəyini vəd etdi. Fətəli bəy dərhal oğlunu girov kimi Mustafa xanın yanına göndərdi. Səlim xana isə Şamaxı xanlığı ərazisində mülk veriləcəyi bildirildi. Səlim xan bu təklifə razılıq görüntüsü yaradıb Mustafa xandan xəlvət Şəkiyə gəldi. Yerli əhali və eləcə də Fətəli bəy onu yenidən xanlığa bərpa etdilər.

Bununla da, 1805-ci ilin fevralında Səlim xan Şəki xanlığını ələ keçirdi. O dərhal da general Sisianovla əlaqə yaratdı və nümayəndəsi Mustafa bəy adlı birisi ilə ona Şəki xanlığını ələ keçirdiyini çatdırdı. Səlim xan eyni zamanda onun Rusiya təbəəliyinə qəbul olunmasını xahiş etdi. General Sisinov rus meylli Səlim xanın Şəki xanı olmasından sevindi. Çünki Səlim xanın mövqeyi Şəki xanlığını dinc yolla Rusiyaya birləşdirilməsinə yol açа bilərdi. Bununla belə, general Sisianov Səlim xandan Rusiya təbəəliyinə qəbul olunmaq üçün bəzi şərtlərin qəbul edilməsini tələb etdi. Səlim xan ilk növbədə oğlunu girov kimi Sisianovun yanına göndərməli idi. Sonra Səlim xan Rusiya xəzinəsinə ildə 7 min çervon vergi verməli, xanlıq ərazisində yerləşdiriləcək 500 nəfərlik rus qoşun dəstəsini ərzaq və yeməklə təmin etməli və nəhayət rus zabitlərinin rəhbərliyi altında torpaq qalanın tikilməsinə köməklik göstərməli, tikinti işlərinə lazım olan sayda işçi qüvvəsi ayırmalı idi. Bu şərtlərə razılıq bildirilməndən sonra Şəki xanlığının Rusiya himayəsinə qəbul olunması rəsmiləşdirilə bilərdi (12).

Hakimiyyətinin qorunması üçün Səlim xan rus qoşunlarının ona kömək edəcəyinə ümid edirdi. Ona görə Səlim xan Sisianovun təkliflərinə dərhal cavab verdi. Şəki xanı bəyan etdi ki, Sisianov tərəfindən irəli sürülən təkliflərin üçü qəbul edilə bilər. Amma o, Rusiya xəzinəsinə ildə 7 min çervon vergi verilməsi təklifi ilə razı deyildi. Onun fikrincə, xanlığın buna imkanı yox idi. Ona görə də Səlim xan xəzinə vergisini 2 min çervona qədər azaldılmasını xahiş edirdi. Sisianov isə əvvəlki şərtini dəyişmədi və Səlim xanın nəzərinə çatdırdı ki, Rusiya təbəəliyini qazanmaq istəyirsə irəli sürdüyü təklifləri qəbul etməlidir (13).

1805-ci ilin mart ayında da Səlim xanla Sisianov arasında yazışmalar davam etdirildi. Bu yazışmalarda Sisianov təkidlə öz tələblərini təkrar edir, Səlim xan isə onun müəyyən güzəştlərə razı olmasını istəyirdi. Bu yazışmalardan aydın olur ki, Səlim xanın kiçik yaşlı oğlu Qarabağda, İbrahim xanın yanında idi. Ona görə, Səlim xan oğlunun girovluğa verilməsini də sual altına alırdı. General Sisianov müvəqqəti hal kimi Səlim xanın qardaşı Fətəli bəyin girov göndərilməsinə də razılığını bildirirdi (14).

1805-ci ilin mart ayı həm də Səlim xanın şamaxılı Mustafa xan tərəfindən hücuma məruz qaldığı ay idi. Səlim xan bu hücumun qarşısının alınması və xanlığın müdafiəsi üçün Sisianovdan kömək istədi. Sisianov da Şəki xanlığını Səlim xanın xanlığı altında saxlamaq üçün onun köməyinə 2 ədəd topla müşayiət olunan 300 nəfərlik qoşun dəstəsi göndərdi (15).

Sisianovla Səlim xanın yazışmalarından aydın olur ki, rus qoşun dəstəsinin Şəki xanlığına göndərilməsi təxminən 1805-ci il mart ayının ortalarına təsadüf edir. Rus qoşun dəstəsi Şəkiyə yaxınlaşanda Şamaxı xanı Mustafa xanın qoşun dəstəsinin hücumuna məruz qaldı. Bununla belə, Mustafa xan rus qoşun dəstəsinin müqavimətini qıra bilmədi və Şəki xanlığı ərazisindən geri çəkilməli oldu. Səlim xan bundan həvəslənib əlavə kömək üçün bir daha Sisianova müraciət etdi. Səlim xan istəyirdi ki, əlavə kömək almaqla Mustafa xanın üzərinə hücum etsin. Görünür, Səlim xan Şamaxı xanlığını da öz nəzarəti altına almaq istəyirdi. Lakin Sisianov buna razı olmadı. Əvəzində o, Səlim xana xatırlatdı ki, hələ də Rusiya təbəəliyini qəbul etməmişdir. Bununla bağlı, Sisianov öz şərtlərini bir daha onun nəzərinə çatdırdı və 1805-ci ilin aprel ayında Gəncəyə gözlənilən səfəri zamanı Şəki xanı ilə Rusiya təbəəliyinə qəbul edilməsi üçün müqaviləni imzalamaq arzusunda olduğunu bildirdi (16).

Qacar qoşunlarının Araz kənarına toplanması xəbəri Səlim xanın ciddi təşvişinə səbəb oldu və o yenidən kömək üçün Sisianova müraciət

etdi. Səlim xan bəyan etdi ki, Qacar qoşunları, Qacar sarayı tərəfindən himayə olunan Mustafa xan, habelə qazıqumıqlı Surxay xan Şəki xanlığı üçün ciddi təhlükədir. Onlardan qorunmaq üçün isə Səlim xan çıxış yolunu rus qoşun dəstəsinin köməyində görürdü. Bunun üçün Səlim xan təklif edirdi ki, rus qoşun dəstəsi Nuxaya daha da yaxınlaşsın, Nuxadan 2-3 ağac məsafədə olan məntəqədə yerləşdirilsin. Bundan əlavə, Səlim xan xahiş edirdi ki, bir rus zabitinin rəhbərliyi altında olan 50-60 nəfərlik rus dəstəsi də onun şəxsi mühafizəsinə ayrılsın. Qacar qoşunlarından və Şamaxı xanının qoşunlarından qorunmaq üçün Səlim xan Ərəş və Ağdaş camaatını da şimala doğru köçürmək niyyətində olduğunu bildirdi (17).

Rus təbəəliyini qəbul etmədən Səlim xanın yeni-yeni kömək iddialarına düşməsini Sisianov birmənalı şəkildə qəbul etmirdi. General Sisianov Səlim xana bir daha çatdırdı ki, onun şəxsi mühafizəsi haqqında kömək istəməsi düzgün deyil. Onun sözlərinə görə, Səlim xan hələ Rusiya təbəəliyini qəbul etməmişdi. Rusiya təbəəliyini qəbul edəndən sonra isə onun artıq belə bir köməyi istəməyə ehtiyacı qalmayacaqdı. Çünki Rusiya təbəəsi kimi Səlim xan da Rusiyanın himayəsini qazanacaqdı (18).

Görünür, Səlim xanın ətrafındakı təhlükə ciddiləşmək üzrə idi. Ona görə Səlim xan özünün mühafizəsi üçün Surxay xandan silahlı dəstə almaq qərarına gəldi. Bu barədə məlumat Sisianovun açıq qəzəbinə səbəb oldu. Sisianov Səlim xanın Rusiyaya düşmən münasibətdə olan Surxay xandan kömək istəməsini onun Rusiya təbəəliyinə sədaqət göstərməməsi kimi qiymətləndirdi. Sisianov eyni zamanda tələb etdi ki, Səlim xan kənardan heç bir kömək almasın(19).

1805-ci il aprel ayının ikinci yarısında Sisianov Gəncəyə gəldi. Bu gəlişdə onun əsas məqsədi Qarabağ xanlığı ilə Şəki xanlığının Rusiyaya birləşdirilməsi üçün hazırlanmış müqavilələrin imzalanması idi. Sisianov Qarabağ və Şəki xanları ilə işləri elə qurmaq istəyirdi ki, bu xanların hər ikisi ilə eyni vaxtda müqavilə imzalansın. O, İbrahim xanı da, Səlim xanı da Gəncəyə gətirmək və Qarabağla Şəki xanlıqlarının Rusiyaya birləşdirilməsi haqqındakı müqavilələri Gəncədə imzalamaq istəyirdi. İbrahim xan ruslara etibar etmədiyi üçün Gəncəyə getməkdən imtina etdi. Belə olanda, Səlim xan da Gəncəyə getməkdən imtina etdi. Sisianov Gəncəyə gələndən sonra Səlim xana yazdığı məktubunda müqavilənin harada imzalanması barədə ondan təklif istədi. Müqavilənin imzalanmasından qabaq Rusiyaya olan xoş münasibətinin sübutu kimi Sisianov Şəki xanından bəzi təkliflərin icrasını tələb etdi. Sisianov əvvəlcə Şəki xanlığı ərazisində olan Samux hakimi Şirin bəyin və onun ailəsinin tutulub ruslara verilməsini istədi. Ondan əlavə isə Sisianov

Səlim xandan tələb edirdi ki, Şamaxı xanlığı ərazisində gizləndiyi ehtimal edilən Uğurlu ağanın və ailəsinin tutulub təhvil verilməsi üçün Mustafa xana təsir göstərsin. Sisianov yazırdı ki, rusların köməyi sayəsində Səlim xan özünü Mustafa xan təhlükəsindən qoruya bilməlidir. Rusların göstərdiyi bu köməyin əvəzi kimi isə Sisianov istəyirdi ki, Səlim xan onun tələblərini yerinə yetirsin. Onun sözlərinə görə, bununla Səlim xan Rusiyaya olan sədaqətini əməli ilə sübuta yetirmiş olardı (20).

General Sisianov həm İbrahim xanla, həm də Səlim xanla Rusiya təbəəliyini qəbul etmək haqqında müqavilənin imzalanması üçün ortaq bir tarix müəyyənləşdirdi. Kürəkçay yaxınlığında hər iki xanla müqavilənin imzalanması tarixi ərəfəsində Səlim xan Sisianova məktub göndərərək xəstələndiyini çatdırdı. Səlim xan eyni zamanda Sisianova təklif etdi ki, müqavilənin imzalanması üçün Mingəçevirdə görüş keçirilsin. Sisianov bu təklifi qəbul etmədi və Səlim xana yazdı ki, görüşün harada və nə vaxt keçiriləcəyi haqqında qərarı o özü qəbul edir. İbrahim xanla Qarabağ xanlığının Rusiyaya birləşdirilməsi haqqında Kürəkçay müqaviləsi imzalanandan sonra Sisianov dərhal Gəncəyə qayıtmaq istəyirdi. Lakin o, Kürəkçay ətrafını tərk etməmişdən əvvəl Səlim xandan növbəti məktubu aldı. Bu məktubda Səlim xan gəlməkdə olduğunu və artıq Mingəçevirə çatdığını bildirirdi. Onda Sisianov Kürəkçay ətrafında Səlim xanı gözləməyi qərara aldı və onun yetişməsindən sonra 1805-ci il may ayının 21-də Kürəkçay ətrafında Səlim xanla Şəki xanlığının Rusiyaya birləşdirilməsi haqqında müqavilə imzalandı (21).

İbrahim xanla Səlim xanın Rusiyaya birləşmək haqqında imzaladıqları müqavilələrin mətni bəzi istisnalarla bir-birinin oxşarı idi. Mətndə başlıca olaraq xanların və xanlıqların adları fərqli idi. Müqavilənin məzmununda olan fərqliliklər isə aşağıdakılardan ibarət idi: İbrahim xanın imzaladığı müqavilənin 5-ci maddəsində Şuşa qalası yerinə Nuxa qalası yazılmışdı. Bu maddədə eyni zamanda o da təsbit olunurdu ki, Gürcüstanın baş komandanının planına əsasən, rus mühəndis zabitlərinin seçimi əsasında Nuxadakı rus silahlı dəstəsi üçün qala tikilməli və Səlim xan da bu tikintini işçi qüvvəsi ilə təmin etməli idi.

İbrahim xanın imzaladığı müqavilənin 6-cı maddəsində Qarabağ xanı öz üzərinə belə bir öhdəlik götürürdü: 1) istər ilk vaxtlar, istərsə də sonrakı vaxtlar üçün yuxarıda göstərilən qoşunlar üçün baş komandanın təsdiq etdiyi münasib qiymət əsasında lazım olan miqdarda buğda və darı yarması tədarük etmək. Səlim xanın imzaladığı müqavilədə isə həmin maddədə onun öz üzərinə qəbul etdiyi öhdəlik aşağıdakı kimi təsbit olunmuşdu: 1) yuxarıda göstərilən qoşunlara ildə 529 xalvar un və 80.5

xalvar buğda verməklə ərzaqla təmin etməli idi. Maddənin qalan hissəsi İbrahim xanın imzaladığı müqavilədə olduğu kimi davam etməli idi; 2) yuxarıda göstərilən qoşunları Şəki ərazisinə təyin etmək, ya da 5-ci maddədə deyildiyi kimi, onların rəhbərinin seçiminə əsasən daimi evdə yerləşdirmək və onları lazım olan həcmdə odunla təchiz etmək; 3) yuxarıda göstərilən ərzaq elə çatdırılsın ki, həmişə 2-3 aylıq ehtiyat mövcud olsun və qoşunların heç bir çatışmazlığı olmasın.

Müqavilənin 8-ci maddəsinə əsasən, Qarabağ xanı Rusiya xəzinəsinə ildə 8 min çervon vergi verməli idisə, Səlim xan 7 min çervon vergi verməli idi. Həmin maddəyə görə, İbrahim xan girov kimi nəvəsini Sisianovun sərəncamına göndərməli idisə, Səlim xan öz oğlunu girov verməli idi. Lakin onun oğlu 4 yaşında idi. Ona görə 8-ci maddədə təsbit olunmuşdu ki, Sisianovun qərarına əsasən Səlim xanın oğlunun yerinə Şəkinin beş nəfər bəyinin böyük oğlanları girov verilməli idi. 1-2 ildən sonra isə Səlim xan öz oğlunu girov göndərməli və bəy uşaqları geri qaytarılmalı idi. Səlim xanın qayınatası İbrahim xan da Səlim xanın bu tələbi yerinə yetirəcəyinə yazılı təminat verməli idi.

Müqavilənin 9-cu maddəsi də fərqli idi. Bu maddə girov verilən şəxslər üçün pul vəsaitinin ayrılması haqqında idi. İbrahim xanın girov verilən ailə üzvləri üçün gündə 10 rubl ayrılmalı idisə, Şəki bəylərinin girov uşaqları üçün 5 rubl ayrılmalı idi. Qəbul olunmuş sədaqət andının mətnində isə xanların adları istisna olmaqla digər dəyişiklik yox idi (22).

Şəki xanlığının Rusiyaya birləşdirilməsi Rusiya işğalının genişləndirilməsindən əlavə, Gürcüstanın mühafizəsinin möhkəmləndirilməsi və ticarət yollarının açılması baxımından da Rusiya üçün xüsusi əhəmiyyət kəsb edirdi. General Sisianovun qiymətləndirməsinə görə, Cardan sonra Şəkidə də rus qoşun dəstəsinin yerləşdirilməsi Dağıstan xalqlarının silahlı dəstələrinin yürüşlərinin qarşısını ala bildi. Bundan başqa Bakı ilə Gəncə arasındakı ticarət yolunun da Şəki xanlığı ərazisindən keçməsi bu yolun işləkliyini və təhlükəsizliyini artıra bilərdi. Nəhayət, Qarabağ xanlığı ilə eyni vaxtda Şəki xanlığının nəzarət altına alınması Şamaxı və Bakı xanlıqları üzərinə təzyiqlərin artırılmasına əlverişli məkan yaradırdı.

General Sisianov Rusiya imperatoruna yazdığı məktubunda Səlim xanın kiçik oğlunun əvəzinə Şəki bəylərinin uşaqlarının girov götürülməsinə qəsdən razı olduğunu bildirirdi. Onun fikrincə, Şəki bəylərinin və əhalisinin Şəki xanı üzərinə təsiri böyük idi. Səlim xan Şəki əhalisinin iradəsi əsasında xan seçilmişdi və istənilən vaxt da Şəki əhalisinin iradəsi ilə xanlıqdan kənarlaşdırıla bilərdi. Xanlıqdan kənarlaşdırılacağı təqdirdə isə ondan alınan girovun da əhəmiyyəti

olmayacaqdı. Ona görə, Sisianovun qənaəti belə idi ki, Şəkinin ən nüfuzlu beş bəyinin uşaqlarının girov götürülməsi ilə Şəki əhalisinin ictimai fikrini də nəzarət altında saxlamaq olardı (23).

Səlim xanın Rusiyaya bağlılığını artırmaq üçün o da Sisianov tərəfindən general-leytenant rütbəsinə təqdim edildi. İmzalanmış müqaviləyə əsasən, Şəki xanının hakimiyyəti də kifayət qədər məhdudlaşdırılırdı. Siyasi baxımdan varislik saxlansa da, xanlar Rusiya imperatoru tərəfindən təsdiqlənməli idi. Şəki xanının qonşu xanlarla, Qacar sarayı ilə bütün təmasları Sisianovun razılığı ilə baş verməli idi. Sisianovun icazəsi olmadan Şəki xanı qonşu hakimlərlə hər hansı bir razılaşmaya getməyə haqqı yox idi. İqtisadi baxımdan isə ilk növbədə Rusiya xəzinəsi üçün müəyyənləşdirilmiş vəsait ödənməli idi.

Müqavilənin imzalanmasından sonra onun müəyyən şərtlərinin, o cümlədən də Şəki xanlığı ərazisində rus qoşun dəstəsinin yerləşdirilməsinin icrasına başlandı. Şəkiyə yerləşdiriləcək qoşun dəstəsinə mayor Rebinder adlı birisi rəhbərlik etməli idi və ona tapşırıldı ki, qoşun dəstəsinin yerləşdirilməsi üçün qala tikintisinə başlasın. Səlim xan rus qolun dəstəsi üçün Böyük Dəhnə və Kiçik Dəhnə kəndləri yaxınlığında qala tikilməsi üçün yer ayırdı. Lakin bu yer mayor Rebinderi qane etmədi. Onun fikrincə, qala tikiləcək yerdə əlverişsiz coğrafi şərait, otlaq sahələrinin olmaması və su ehtiyatlarının azlığı rusların vəziyyətini çətinləşdirə bilərdi. Bölgənin təhlilini aparandan sonra mayor Rebinder qoşun dəstəsinin Ərəş qalasında yerləşdirilməsini təklif edirdi. Ərəş qalası Bakı ilə Gəncə arasındakı yolun təhlükəsizliyinin də təmin edilməsinə imkan verirdi. Bundan əlavə, mayor Rebinder təklif etdi ki, əlavə olaraq Mingəçevir və Kürəkbasanda kazak postları qurulsun (24).

Şəki xanı, Şəki bəyləri və Şəki ruhaniləri rus qoşun dəstəsinin Ərəş qalasında yerləşməsinə razı deyildilər. Amma Kürəkçay müqaviləsinin imzalanmasından sonra Qacar qoşunlarının Qarabağ xanlığı üzərinə hücum xəbərini eşidəndə Səlim xan öz fikrini dəyişməli oldu. Çünki Ərəş qalasında yerləşdirilmiş qoşun dəstəsi Qacar qoşunlarının hücumunun qarşısını Şəki xanlığının sərhədində saxlaya bilərdi. Bundan əlavə, burada müdafiə xətti təşkil etməklə xanlıq əhalisinin tarla məhsullarının toplanması üçün də vaxt qazanmaq olardı. Təklif olunurdu ki, sonradan rus qoşun dəstəsi Dəhnə kəndi istiqamətində, şəhərin qarşı tərəfindəki köhnə qalada daimi olaraq yerləşsin. Mayor Rebinderin yazdığına görə, qoşun dəstəsinin yerləşdirilməsi üçün bu qalada Ərəş qalasına nisbətən daha yaxşı şərait var idi. Səlim xanın təklifinə əsasən, rus qoşun dəstəsindən 60 nəfərlik bir qrup isə Nuxa qalasının mühafizəsinə ayrılmalı idi. Bundan başqa, Səlim xan xahiş etdi ki, ruslar Nuxa

qalasında olan topların təmirinə kömək etsinlər. Səlim xan bu toplardan heç olmasa yaxınlaşacaq düşməni qorxutmaq üçün istifadə etmək istəyirdi. Səlim xan eyni zamanda əlavə rus qoşun dəstəsinin göndərilməsini istədi. Bu qoşun dəstəsinin göndərilməsini o, Qacar qoşunlarının hücumlarından qorunmaq zərurəti ilə bağlayırdı. General Sisianov əlavə qoşun dəstəsinin göndərilməsinə ehtiyac olmadığını və təhlükə yaranan anda Səlim xanın Rusiya himayəsində olacağını bildirdi (25).

Rusiya təbəəliyini qəbul etməsinə baxmayaraq, Səlim xanın general Sisianovun siyasətinə qarşı şübhəli və ehtiyatlı bir mövqeyi var idi. Səlim xanın öz mühafizəsini ləzgi silahlılarına tapşırması və rus qoşun dəstəsinin mümkün qədər Nuxa qalasından kənarda saxlaması da bununla bağlı idi. Çox güman ki, bu ehtiyatlı münasibətə görə, Səlim xan nəzərdə tutulan girovların Tiflisə göndərilməsində də qətiyyətlilik göstərmədi. Qacar qoşunlarının hücum xəbəri Səlim xanın xanlıq ərazisinə göndərilmiş rus qoşun dəstəsinin yerləşdirilməsinə münasibətini bir qədər dəyişdi. Səlim xan özü də etiraf edirdi ki, rus qoşun dəstəsinin Nuxa yaxınlığına buraxılması Qacar qoşunlarının Qarabağ ərazisində olması ilə bağlı idi. Qacar qoşunları geri qayıdan kimi Şəki xanlığı ərazisindən rus qoşun dəstəsi də geri qayıdaraq Ərəş qalasında yerləşməli idi. Rus qoşun dəstəsinin rəhbəri mayor Rebinder Nuxaya yaxınlaşmasının ardınca Səlim xanın qarşısına yeni bir tələb qoydu. Mayor Rebinder istəyirdi ki, rus qoşun dəstəsi Nuxa qalasının daxilinə buraxılsın. Bu, Şəki xanının fəaliyyətinin daha ciddi nəzarət altına alınmasına imkan verərdi. Səlim xan isə bu tələblə razılaşmadı. İmzalanmış müqavilədə rus qoşun dəstəsinin Nuxa qalasına buraxılması haqqında şərt olmadığını əsas tutaraq Səlim xan Sisianov qarşısında belə bir tələbin irəli sürülməməsi məsələsini qaldırdı. General Sisianov mövcud tarixi şəraitdə Səlim xanın bu xahişi ilə razılaşdı. Onun fikrincə, Səlim xana təzyiq etmək Nuxa daxilində rus qoşunlarının mövcudluğuna qarşı münasibəti dəyişə bilərdi. Xüsusilə, Sisianov ondan qorxurdu ki, Qacar əyanları Şəki xanlığının ruhaniləri vasitəsilə xanlıq əhalisini Rusiya işğalı əleyhinə səfərbər edə bilərdilər. Ona görə Sisianov mayor Rebinderə yazdı ki, qoşun dəstəsinin Nuxa qalasında yerləşdirilməsi ilə bağlı Səlim xana təzyiqi dayandırsın (26).

Amma bu heç də o demək deyildi ki, general Sisianov rus qoşun dəstəsinin Nuxa qalasına yerləşdirilməsi planlarından əl çəkdi. Sisianov da əmin idi ki, rus qoşun dəstəsini Nuxa qalasına yerləşdirilməklə Şəki xanının Rusiya itaətində qalmasına etibarlı zəmanət əldə etmiş olardı. Bu məqsədə çatmaq üçün Sisianov mayor Rebinderlə Səlim xana gizli

məktub göndərdi və xahiş etdi ki, Səlim xan həmin məktubu mirzələrin iştirakı olmadan oxusun. Sisianov məktubunda yazırdı ki, ona rus generalı kimi deyil, Səlim xana qohumluğu çatan məşhur rus sərkərdəsi Pyotr İvanoviç Baqrationun dostu kimi müraciət edir. (Səlim xanın general Baqrationla qohumluq bağlılığı olduğu güman edilirdi). General Sisianov mövcud şəraitdə Səlim xana bütün işlərində azad hərəkət etmək ixtiyarı verirdi. Ondan tələb olunan yalnız o idi ki, özünün mühafizəsinə ləzgi silahlılarını cəlb etməsin. Sisianovun sözlərinə görə, ləzgi dəstəsinin Şəki xanlığı ərazisində olması Rusiya imperatoru üçün təhqiredici bir fakt idi. Bundan əlavə, Sisianov ruhanilərlə ehtiyatlı olmağı da Səlim xana tövsiyə edirdi. Sisianova görə, Şəki əhalisi və ruhaniləri sabit xarakterli deyildi. Şəki əhalisinin rus işğalına qarşı birmənalı mövqedə dayanmaması general Sisinovu narahat edirdi. Xüsusilə, Qacar qoşunlarının Qarabağda olduğu vaxt Qacar əyanlarının Şəki ruhaniləri vasitəsilə yerli əhalini Rusiya təbəəliyini qəbul edən Səlim xana qarşı qaldırması ehtimalı böyük idi. Bunun qarşısının alınması üçün Sisianov tövsiyə edirdi ki, Səlim xan xanlığın axundunun kim olmasına diqqət yetirsin, elə bir şəxsi axund etsin ki, həmin şəxs həm Səlim xana, həm də Rusiyaya sədaqətli olsun. Sisianov sonra Səlim xanın şəxsi mühafizəsinin etibarlı şəkildə qurulmasını da rus hərbçilərinə tapşırılmasını lazım bilirdi. Nuxa qalasının gözlənilmədən əldən verilməsi təhlükəsinin aradan qaldırılması üçün Sisianov tövsiyə edirdi ki, heç olmasa qala darvazalarının qorunması ruslara tapşırılsın. Sisianov bəzi digər təklifləri də edirdi. Onun fikrincə, Qacar qoşunları Qarabağdan sıxışdırıldıqdan sonra Səlim xanın şəxsi mühafizəsi adı altında az saylı rus hərbçilərini Nuxa qalasına yeritmək yaxşı olardı. Səlim xan da qala daxilində ona mane olan (başqa sözlə rus işğalı əleyhinə olan) şəxsləri həbs etdirə bilərdi. Sisianovun yazdığına görə, rus qoşun dəstəsi üçün təklif olunan Ərəş qalası dar idi və bu darısqallıqdan çıxmaq üçün qoşun dəstəsinin bir hissəsini Nuxanın özündə yerləşdirmək yaxşı olardı (27).

Qeyd edildiyi kimi, Kürəkçayda imzalanmış müqaviləyə əsasən, Səlim xan Şəkinin nüfuzlu bəylərinin uşaqlarının girov kimi Tiflisə göndərməli idi. Həmin bəylərin kimliyi general Sisianov tərəfindən müəyyənləşdirilməli idi. Amma Səlim xan general Sisianovun müəyyənləşdirdiyi bəylərin deyil, başqa bəylərin uşaqlarını girov göndərdi. Bu da rusların narazılığına səbəb oldu. Bu narazılığa cavab olaraq Səlim xan bildirdi ki, bir aydan sonra Tiflisə girov kimi göndərilən uşaqlar Sisianovun təyin etdiyi bəylərin uşaqları ilə əvəz ediləcəkdir. Sisianov bu vəziyyətlə bağlı təəssüfünü bildirsə də, Səlim xana tövsiyə etdi ki, verdi-

yi vədə sadiq qalsın və bir aydan sonra nəzərdə tutulan bəylərin uşaqları girov kimi rusların sərəncamına göndərilsin (28).

Kürəkçay müqaviləsi əsasında Şəki xanlığı ərazisində olan rus qoşun dəstəsinin ərzaqla təmin edilməsi məsələsində Səlim xanın tutduğu mövqe də Sisianovun narazılığı ilə qarşılaşdı. Müqaviləyə əsasən, ərzaq xanlıq daxilində rus qoşunları baş komandanı tərəfindən müəyyənləşdirilmiş münasib qiymət əsasında hazırlanmalı idi. Sisianovun müəyyənləşdirdiyi qiymətlər isə toplanmalı olan ərzağın dəyərindən çox aşağı idi. Səlim xan məktubla müraciət edərək Sisianovdan ərzağın alınma qiymətinin artırılmasını xahiş etdi. Sisianov bu təklifi nəinki qəbul etmədi, əksinə, təhqiramiz şəkildə Səlim xandan onun tərəfindən müəyyənləşdirilmiş qiymətlərin qəbul olunmasını tələb etdi (29).

Söylənilən bu narazılıqlar, habelə Şamaxı xanlığı ilə bağlı Səlim xanın istəklərinə qarşı Sisianovun əks mövqeyi Şəki xanını Rusiyaya qarşı münasibətini dəyişdirməyə sövq edirdi. Səlim rus qoşunlarının yardımından istifadə etməklə Şamaxı xanlığını ələ keçirmək niyyətindən hələ əl çəkməmişdi və bununla bağı o, Sisianov qarşısında yenidən məsələ qaldırdı. Səlim xanın fikrincə, Şamaxı xanlığı onun üçün potensial təhlükə olaraq qalmaqda idi. Çünki bir tərəfdən Mustafa xan Səlim xana qarşı düşmən münasibətdə qalmaqda idi və Səlim xanın təkbaşına Mustafa xana qarşı çıxmaq imkanı yox idi. Digər tərəfdən də Səlim xanın Şəki xanlığından uzaqlaşdırılan qardaşı Məhəmməd Həsən xan Şamaxı xanlığı ərazisində idi. Onun da Şəki xanlığına iddiası Səlim xan üçün real təhlükə olaraq qalmaqda idi. Səlim xan Sisianova sübut etməyə çalışırdı ki, Şamaxı xanlığı əvvəllər Şəki xanlığının tabeliyində olmuşdur və ona görə də bu xanlığı özünə tabe etməyə haqqı vardır. Səlim xan bir daha xahiş etdi ki, Qacar qoşunları Qarabağdan geri çəkilən kimi rus qoşunları Şamaxı xanlığını tutub onun tabeliyinə versinlər. Səlim xan Şamaxı xanlığının ona veriləcəyi ilə bağlı Sisianovdan əvvəlcədən zəmanət məktubu almağa çalışırdı (30). Sisianov Səlim xanın bu təklifi ilə yenidən razılaşmadı. Çünki Şamaxı xanlığının işğalına Rusiya özü iddialı idi və belə bir şəraitdə Sisianov Şamaxı xanlığını işğal edib ruspərəstliyinə şübhə ilə yanaşdığı Səlim xanın ixtiyarına verməyi qeyri-mümkün saydı.

Sisianovun fəaliyyətinin açıq işğalçı mahiyyəti, rus hərbçilərinin onun xanlığını məhdudlaşdırmaq cəhdləri Səlim xanda Rusiya təbəəliyinə münasibətin qeyri-sabitliyinə zəmin yaratdı. Rus hərbçilərinin yazışmalarına əsasən, belə bir qənaətə gəlmək mümkündür ki, Səlim xan rusların təzyiqi altında şəxsi mühafizəsi üçün yanında saxladığı ləzgi silahlılarının xidmətindən imtina etdi. Bu isə rusların sevincinə səbəb

oldu. Lakin çox keçmədi ki, Səlim xan yenidən ləzgilərlə danışıqlara başladı. Bu barədə alınan məlumat Sisianovun qəzəb və təşvişinə səbəb oldu. Çünki Səlim xanın ruslardan aralanmaq cəhdi günü-gündən daha da qabarıqlaşırdı. Əldə edilmiş məlumatlara görə isə Səlim xan ləzgilərin yanına öz nümayəndəsini göndərmiş, Fətəli şahın məktubunu gətirən nümayəndəni isə xoş münasibətlə qəbul etmişdi. Sisianov həm ləzgiləri, həm də Fətəli şahı Rusiyanın düşməni sayırdı və ona görə Səlim xandan tələb etdi ki, öz seçimini etsin – ya ləzgilər, ya da rus qoşun dəstəsi. Sisianov bildirirdi ki, əgər Səlim xan ləzgilərə arxalanmaq istəyirsə, ondan xanlıq ərazisindəki rus qoşun dəstəsini geri çəkəcəkdir. Səlim xanın diqqətinə çatdırılırdı ki, rus qoşun dəstəsinin geri çağırılması onun üçün ağır nəticələr verə bilər. Xüsusilə, Səlim xana Şamaxı xanının təhlükəsi xatırladıldı. Sisianov hədələyici şəkildə bildirdi ki, Şamaxı xanı Mustafa xan və onun yanında sığınacaq tapmış Məhəmməd Həsən xan Şəki xanlığı üzərinə hücum üçün fürsət gözləyirlər. Rus qoşun dəstəsinin Şəki xanlığından geri çəkilməsi belə bir fürsəti yarada bilərdi (31).

Səlim xan bu ittihamların heç birini qəbul etmədi və Rusiya təbəəliyinə sədaqətli qaldığını və imzaladığı müqavilənin şərtlərini pozmayacağını bildirdi. Lakin sonrakı müşahidələr göstərdi ki, Səlim xanın fəaliyyəti yenə də rusları qane etmirdi. Xüsusilə, Rusiyanın düşməni olan şəxslərlə və qüvvələrlə Səlim xanın əlaqədə olması ruslar tərəfindən həyəcanla qarşılanırdı. Kaxetiya şahzadəsi Ancik Beburovun Şəki xanlığında olması, Abbas Mirzənin, İbrahim xanın oğlu Əbülfət ağanın, gürcü şahzadəsi Aleksandrın nümayəndələrinin Şəki xanlığında olmasını Sisianov Səlim xanın Rusiyaya sədaqətsizliyi kimi qiymətləndirirdi. Sisianov mayor Rebinderə göstəriş verdi ki, Rusiya üçün etibarsız şəxslərin Şəki xanlığı ərazisinə gəlməsi nəzarət altında saxlansın və belələrinin tutularaq ruslara təhvil verilməsi üçün Səlim xana təzyiq göstərilsin (32).

Sisianovu isə daha çox Səlim xanın ləzgilərlə əlaqə yaratmaq cəhdləri qorxudurdu. Çünki ləzgi silahlı dəstələrinin Şəki xanlığına gətirilməsi ilə xanlıq ərazisindəki azsaylı rus dəstəsini sıxışdırıb oradan çıxarmaq mümkün idi. Sisianovun aldığı yeni məlumata görə, Səlim xan Surxay xana 300 rublluq hədiyyə yollayaraq ondan 1000 nəfər ləzgi silahlılarının Şəki xanlığına göndərilməsini xahiş etmişdi. Surxay xan da alınan məlumatlara görə, Şəki ərazisinə göndəriləcək ləzgi silahlılarının maaşının müəyyənləşdirilməsi üçün Qazı əfəndi adlı birisini Səlim xanın yanına göndərdi (33).

Lakin mövcud faktların araşdırılması göstərir ki, 1805-ci ildə Şəki xanlığı ərazisinə ləzgi silahlıları gəlməmişdilər. Bununla belə, Səlim

xanla rus qoşunları arasında anlaşılmazlıq qalmaqda idi.1805-ci ilin sonlarına yaxın Səlim xan 500 nəfərlik rus qoşun dəstəsini ərzaqla təmin etməkdən imtina etdi. Səlim xan bunu onunla izah etdi ki, xanlıq ərazisində qıtlıq olub, əhalidən bu qədər ərzaq toplamaq qeyri-mümkündür. Onun fikrincə, ərzaq zorla toplanacağı təqdirdə Şəki əhalisi köç edib başqa yerlərə gedəcəkdi. Ərəşdə olan qoşun dəstəsinin atları üçün təyin olunan samanın da yalnız yarısı Səlim xan tərəfindən tədarük olunmuşdu. Rus qoşun dəstəsi üçün kazarmaların tikilməsinə də Səlim xan lazımi diqqət ayırmırdı. Bunun nəticəsi idi ki, 1805-ci ilin sonlarında rus hərbçilərinin bir hissəsi hələ də çadırlarda yaşayırdılar (34).

1805-ci ilin noyabr ayında Sisianov Şamaxı xanlığının da Rusiyaya birləşdirilməsi üçün ciddi addımlar atmaq qərarına gəldi. Şamaxı xanlığı üzərinə yürüş həyata keçirmək üçün Sisianov Səlim xandan da silahlı dəstə təşkil etməyi və həmin dəstəni Sisianovun ixtiyarına verməyi tələb etdi. Səlim xan 500 nəfərlik atlı silahlı dəstə toplamalı və Göyçay yaxınlığında həmin dəstə Sisianovun dəstəsinə qatılmalı idi. Səlim xan isə Sisianovun tələb etdiyindən artıq sayda silahlı dəstə topladı. Bu toplanış Ərvətən məntəqəsində keçirildi. Bu məntəqəyə nəzərdə tutulandan artıq silahlı atlıların toplanması rus hərbçilərinin təşvişinə səbəb oldu. Ruslara bildirildi ki, bura toplanan atlılar arasından 500 nəfər seçilib rus dəstəsinin tərkibinə göndəriləcək, qalanlar isə buraxılacaqdır. 500 nəfərlik dəstə seçilib rusların ixtiyarına veriləndən sonra yerdə qalan atlılar evlərinə buraxılmadı və Sisianovun Şamaxı xanlığı üzərinə yürüşü başa çatana kimi həmin atlılar toplu şəkildə saxlanıldılar (35).

Səlim xanın Sisianovla Mustafa xan arasında vasitəçilik etmək cəhdinin uğursuzluğu da rusların narazılığına səbəb oldu. Sisianovun özünün Mustafa xanla danışıqlar aparmaq cəhdi gözlənilən nəticə vermədikdə, rus generalı Şamaxı xanlığı üzərinə qoşun çəkməyi və Şamaxı xanlığını zor gücünə Rusiyaya birləşdirməyi qərara aldı. Sisianov planlaşdırırdı ki, Mingəçevir yaxınlığında dəstəsi ilə Kür çayını adlasın və Şəki xanlığının ərazisindən keçməklə Şamaxı üzərinə hərəkətini davam etdirsin. Sisianovla Səlim xanın yazışmalarından belə bir qənaətə gəlmək mümkündür ki, Səlim xan 1805-ci il noyabr ayının əvvəllərində vasitəçilik üçün Sisianov qarşısında məsələ qaldırdı və ondan 2 həftə vaxt istədi. Bu müddət ərzində o, Mustafa xanla əlaqə yaratdı və onu Sisianovla görüşə razı salmağa çalışdı. Mustafa xanın təhlükəsizliyinə zəmanət vermək üçün Səlim xan öz oğlunu ona girov verməyə də hazır idi. Mustafa xan Sisianovun yanında olduğu müddətdə Səlim xanın oğlu Şamaxıda qala bilərdi. Mustafa xan isə buna razı olmadı. Müəyyənləşdirilən vaxt başa çatanda Sisianov qoşun dəstəsi ilə hərəkət

etmək qərarına gəldi. Bu zaman Səlim xanın nümayəndəsi yenidən Sisianovun yanına gələrək vasitəçilik üçün 4 gün vaxt verilməsini xahiş etdi (36).

Lakin məlumdur ki, Səlim xanın vasitəçiliyi heç bir nəticə vermədi və 1806-cı ilin fevralında Sisianov qətlə yetiriləndə Səlim xanla rus qoşunları arasında münasibət gərgin olaraq qalmaqda idi.

2. Şamaxı xanlığının Rusiyaya birləşdirilməsi

Gəncə xanlığının işğalından sonra general P.D.Sisianov digər Azərbaycan xanlıqları kimi Şamaxı xanlığının işğalı üçün də əməli addımlar atmağa başladı. General Sisianovla Şamaxı xanı Mustafa xan arasındakı təmaslar və yazışmalar isə daha əvvəldən başlamışdı. 1803-cü ilin sonlarında Mustafa xan rus generalına məktub göndərdi və həmin məktubda ticarət yüklərinin Salyanda yüklənməsinə icazə verilməsini istədi. Çox güman ki, bu istək Salyanın ticarət dövriyyəsinə qatılması və Salyanın ticarət gəlirlərinin artırılması arzusu ilə bağlı idi. Sisianov Gəncəni işğal edəndən bir neçə gün sonra Mustafa xanın məktubuna cavab verdi və onun xahişini rədd etdi. Sisianova görə bu xahişə əməl edilməsi o zaman mümkün olardı ki, Şamaxı xanlığı Rusiyanın himayəsinə qəbul edilmiş olaydı. General Sisianov təkidlə Mustafa xanın Rusiya təbəəliyini qəbul etməyə və Gəncə xanı Cavad xanın taleyindən ibrət götürməyə çağırdı. Rus silahının gücünə Mustafa xanı inandırmaq üçün Sisianov qeyd etdi ki, Gəncənin mühasirəsinin uzanması məsələnin dinc yolla həll etmək istəyindən irəli gəlirdi. Sonra da o, Mustafa xana tövsiyə edirdi ki, Rusiya himayəsinə daxil olmaqla bağlı öz nümayəndəsini onun yanına göndərsin (37).

Rusiya üçün bütün Azərbaycan xanlıqlarının işğalı aparılan dövlət siyasətinin mahiyyətini təşkil edirdi. Şamaxı xanlığının işğalı isə rusların hərbi daşınmalarının təşkili üçün xüsusi əhəmiyyət təşkil edirdi. Şamaxı xanlığını işğal etməklə rus hərbi yüklərini Həştərxan-Bakı-Gəncə-Tiflis marşrutu üzrə daşımaq mümkün idi. Bu marşrut ruslar üçün daha münasib marşrut idi. Ona görə də, Şamaxı xanlığına nəzarətin ələ keçirilməsi diqqət mərkəzində saxlanılırdı. Bölgədə formalaşan hərbi-siyasi vəziyyət üzündən Şamaxı xanlığının Rusiyaya birləşdirilməsi istiqamətində 1805-ci ilin əvvəllərində fəallaşma daha da genişləndi. Həmin ilin əvvəlində Sisianov Şəki xanlığını ələ keçirdi, Səlim xanın vasitəsilə Mustafa xana təsir göstərməyə və onu Rusiya təbəəliyinə meylləndirməyə cəhd göstərdi. Lakin onun bu cəhdi bir nəticə vermədi. Mustafa xan Rusiyaya qarşı münasibətdə kifayət qədər ciddi və prinsipial

mövqe tutmaqda davam edirdi. O birmənalı şəkildə ruslara qarşı barışmaz mövqe nümayiş etdirirdi.

Mustafa xanı bu mövqedən çəkindirmək üçün Sisianiov 1805-ci ilin mart ayında ona məktub göndərdi. Həmin məktub 1805-ci il mart ayının 7-də imzalanmışdı. Bu vaxt Şəki xanı Səlim xan Rusiya təbəəliyini qəbul etməyə söz versə də, Kürəkçay müqaviləsi hələ imzalanmamışdı. Sisianovun Mustafa xana məktubunda isə Şəki xanlığı artıq Rusiya ərazisi kimi təqdim olunurdu. Ona görə Sisianov Şamaxı xanlığını Rusiyanın qonşusu adlandırır və Mustafa xanı dinc qonşuluq münasibətlərinə çağırırdı. Rus generalı bəyan edirdi ki, Nuxanın və Səlim xanın düşmənləri Rusiyanın düşmənləri kimi qəbul ediləcək və onlara qarşı sərt münasibət nümayiş etdiriləcəkdir. Sisianov onu da əlavə edirdi ki, Qafqazda olduğu il ərzində sadəcə danışıqlarla məşğul olmamış və dediyi sözü rus silahının gücü ilə həyata keçirmişdi. Sonra da Mustafa xana Rusiya təbəəliyini qəbul etmək təklif olunurdu. Sisianova görə, Rusiya təbəəliyini qəbul etmək Mustafa xan üçün öz hakimiyyətini qoruyub saxlamaq istiqamətində ən sərfəli yol idi. General Sisianov Mustafa xanın hansı şərtlər altında Rusiya təbəəliyinə girə bilməsini də yazılı şəkildə ona çatdırdı. Həmin şərtlər aşağıdakılar idi:

1. Mustafa xan bir dəfəlik olaraq digər bir dövlətin asılılığından imtina etməli, öz üzərində yalnız Rusiya imperatorunun və onun varislərinin hakimiyyətini qəbul etməli idi;
2. Mustafa xan Rusiya imperatoruna sədaqət andı qəbul etməli idi;
3. Mustafa xan yazılı şəkildə öz üzərinə öhdəlik götürməli idi ki, Gürcüstanın baş hakiminin razılığı olmadan ətraf hakimlərlə təmas qurmayacaqdır;
4. Mustafa xan Şamaxı qalasına rus qoşun dəstəsini yerləşdirməli və ya da bu qoşun dəstəsi üçün yeni qala tikməli idi;
5. Mustafa xan münasib qiymət əsasında Şamaxıda yerləşdirilmiş rus qoşun dəstəsi üçün lazımi miqdarda taxıl və darı yarması tədarük etməli idi;
6. Şamaxı qalasında rus hərbçiləri üçün mənzil ayırmalı və bu mənzilləri odunla təmin etməli idi;
7. Şamaxı xanı Rusiya xəzinəsinə ildə 8 min çervon vergi verməli idi;
8. Mustafa xan Rusiyaya sədaqətinin zəmanəti kimi böyük oğlunu girov verməli idi.

Bu şərtlərin yerinə yetiriləcəyi təqdirdə Rusiya tərəfi də müəyyən öhdəlikləri öz üzərinə götürürdü. Başqa sözlə, Şamaxı xanı Rusiya imperatorunun himayəsi altına alınmalı, Şamaxı xanlığının irsiliyi təmin edilməli, xanın bütün əmlakı qorunmalı, Rusiya imperatoru tərəfindən

Şamaxı xanı və onun varislərinə bayraq və gerb verilməli idi. Mustafa xanın xanlığı və ondan sonra gələcək xanların xanlığı Rusiya imperatorunun fərmanı ilə təsdiqlənməli idi (37).

Mustafa xana məktubun çatdırılması Qazaxdakı rus qoşun dəstəsinin tərkibində olan mayor Tarasov adlı birisinə tapşırıldı. Mayor Tarasov tanıdığı 5 nəfər azərbaycanlını yanına alıb Gəncə və Nuxa xanlıqları ərazisindən keçməklə Şamaxıya doğru hərəkət etdi. Mayor Tarasov general Sisianovun məktubunu təqdim etməklə bərabər, Mustafa xanla danışıqlar aparmalı və onu Rusiya təbəəliyinin üstünlüyünə inandırmalı idi. Mayor Tarasov özü ilə Tərki şamxalının məktubunu da aparırdı. Həmin məktubda Dağıstan hakimlərinin Mustafa xana qarşı düşmən münasibətdə olduğu bildirilirdi. Çox güman ki, mayor Tarasov bununla da Mustafa xanı inandırmalı idi ki, həmin düşmənçilikdən qurtarmağın yeganə yolu Rusiya himayəsinin qəbul edilməsidir. Mustafa xana Salyanın Şamaxı xanlığı tərkibində qalacağı da çatdırılmalı idi. Mayor Tarasov çalışmalı idi ki, tez bir zamanda geri qayıtsın və mümkün olardısa Mustafa xanın cavabını da özü ilə gətirsin (38).

Müəyyən hazırlıqdan sonra mayor Tarasov Şamaxıya yola düşdü və 1805-ci il mart ayının sonlarında Mustafa xanla görüşə bildi. Sisianovun məktubu və Rusiya təbəəliyinə qəbul olunmaq şərtləri ilə tanışlıqdan sonra Mustafa xan öz mövqeyini məktubla ifadə etdi və həmin məktubu mayor Tarasovun dəstəsinə qoşduğu Musaxan bəy adlı birisi ilə Sisianova göndərdi. Məktub kifayət qədər ehtiyatla yazılmış bir məktub idi. Onun məzmununa əsasən, Mustafa xan Rusiya təbəəliyinə müəyyən meyllilik göstərirdi. Amma Rusiya təbəəliyinə qəbul olunacağı halda lazımi təşviq və dəstəyi almayacağına öz təəccübünü gizlətmirdi. Başqa sözlə, Mustafa xan Sisianova çatdırırdı ki, könüllü şəkildə öz hakimiyyətindən əl çəkməyin əvəzində Rusiya ona heç nə vəd etmirdi.

Mustafa xan məktubunun əvvəlində yazırdı ki, bir çox Dağıstan hakimləri Rusiyaya birləşmək əvəzində Rusiya xəzinəsindən böyük miqdarda maliyyə vəsaiti alırlar. Azərbaycan xanlarına isə belə vəsait verilmirdi. Mustafa xan onu da bildirirdi ki, Fars hakimləri də (yəni Qacar sarayı) Fars tabeliyini qəbul edəcəyi halda Mustafa xana böyük mükafatlar vəd edirdilər. Mustafa xan bəyan edirdi ki, o da güclü bir dövlətə xidmət etməyə hazırdır ki, bir vaxtlar ona aid olan Salyanı, Bakını, Şəkini yenidən öz hakimiyyəti altına ala bilsin. Onun sözlərinə görə, Şəki xanlığı Rusiyanın səyləri nəticəsində artıq əlindən çıxmışdı. Yeni statusda Mustafa xanın ətraf hakimlərlə təmas qurmaq səlahiyyəti də əlindən alınırdı. Şamaxı ərazisində yerləşdiriləcək rus qoşun dəstəsinin təmin edilməsi Mustafa xana tapşırılır və bununla yanaşı

ondan ildə 8 min çervon vəsaitin Rusiya xəzinəsinə verməsi tələb olunurdu. Mustafa xan öz təəccübünü gizlətmirdi ki, onun hakimiyyəti əlindən alındığı və ya məhdudlaşdığı halda ondan nə üçün bu qədər vəsait tələb olunur? Mustafa xan qeyd edirdi ki, Qarabağ və Şəki xanları Fars hakimindən və ondan (Şamaxı xanından) ehtiyatlandıqları üçün Rusiya xəzinəsinə 8 min çervon verməyə razı olmuşdular. Ona qarşı belə tələb irəli sürülməsini isə Mustafa xan anlaşılmazlıq sayırdı. Mustafa xan tələb edirdi ki, ona onun ləyaqətinə uyğun münasibət göstərilsin. Onun Rusiya təbəəsi olması istənilirsə onda, sakit yaşaması üçün lazımi şərait təmin olunsun. Könüllü şəkildə öz hakimiyyətindən əl çəkməsinin əvəzində Mustafa xan onun gələcək həyatı və təminatı üçün etibarlı zəmanət verilməsini istəyirdi. Hakimiyyətdən könüllü imtinanın əvəzində Mustafa xan Rusiya sarayından uyğun nəvazişin və səxavətin göstəriləcəyinə zəmanət almaq istəyirdi. Mustafa xan Rusiya tərəfindən elə bir mükafatla rastlaşmaq istəyirdi ki, bu mükafat onda Rusiya imperiyasına xidmət üçün bir həvəs yaratmış olsun (39).

Mustafa xan Rusiya işğalçılığının təmsilçisi olan Sisianovdan ona müstəqil xanlığın hakimi kimi ehtiram qoyulmasını, xanlıq hakiminə yalnız işğalçı təfəkkürü ilə yanaşılmamasını tələb etdi. Bu tələb isə istər Rusiyanın işğalçılıq və hegemonluq siyasətinə, istərsə də Sisinaovun özünün diktat hökmranlıq xarakterinə uyğun deyildi. Ona görə də Mustafa xanın məktubuna Sisianov tərəfindən işgüzarcasına yanaşılacağı inandırıcı deyildi. Mustafa xanla sonrakı yazışmalarında Sisianov bildirirdi ki, tezliklə onun təkliflərinə öz münasibətini bildirəcəkdir (40). Təəssüf ki, istinad olunan mənbələrdə Sisianovun Mustafa xana cavabı haqqında məlumat yoxdur. Bununla belə, onun Mustafa xana əvvəlki münasibətinin dəyişməməsindən ona hansı cavabı verdiyini ehtimal etmək mümkündür.

Mustafa xanın nümayəndəsi Musaxan bəy isə Tiflisdən qayıtdıqdan sonra Qacar sarayına göndərildi və onun vasitəsilə Qacar sarayına çatdırıldı ki, Tiflisdə çox az sayda rus qoşunları mövcuddur (41). 1805-ci ilin yayında Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərinə hücumunun Tiflisə qədər davam etdirilməsi planlaşdırılarkən, heç şübhəsiz ki, bu məlumat da nəzərə alınmışdı.

Sisianov Mustafa xanı da Qarabağ və Şəki xanları ilə eyni zamanda Rusiya təbəəliyinə qəbul edilmək haqqında müqavilə imzalanmasına sövq etmək istəyirdi. Bunun üçün həm qarşılıqlı yazışmalar aparılır, həm də qonşu xanlıqlar vasitəsilə ona təsir göstərilməsinə çalışılırdı.

1805-ci ilin yayında Kürəkçay müqavilələri imzalanandan sonra Qacar qoşunları Qarabağa hücum edəndə, Mustafa xan da Abbas Mirzənin

köməyinə 500 nəfərlik silahlı atlı dəstəsi göndərdi. Bu dəstə şah qoşunlarının tərkibində Qarabağ xanlığının qoşunlarına və rus qoşunlarına qarşı döyüşdə iştirak etdi. Qacar qüvvələri bu hücumda ciddi bir nəticə əldə etmədilər. Amma geri qayıdarkən Qacar silahlıları onların köməyinə gəlmiş Mustafa xan atlılarının silah və təchizatını zorla onların əlindən alıb özləri ilə apardılar. Bununla Mustafa xan bir daha anladı ki, Qacar qoşunlarına sığınmaq heç də doğru çıxış yolu deyildir. Ona görə də Sisianov Şuşada olarkən Mustafa xan nümayəndəsi Məhəmməd Hüseyn yüzbaşını məktubla onun yanına göndərdi. General Sisianov isə Şamaxı dəstəsinin Qacar qoşunları tərkibində vuruşmasına qəzəblənərək Mustafa xanın məktubunu qəbul etmədi və Məhəmməd Hüseyn yüzbaşını geri qaytardı (42).

Məhəmməd Hüseyn yüzbaşı geri döndükdə Mustafa xana belə bir xəbər çatdırdı ki, Sisianov Gəncəyə qayıdandan sonra Şamaxı xanlığı nümayəndəsi ilə görüşmək istəyir. Sisianov Gəncəyə qayıdandan sonra Mustafa xan məktub yazıb Bağır bəy adlı birisi vasitəsilə Sisianova göndərdi. Bağır bəy həm də Sisinovla danışıqlarda Şamaxı xanlığını təmsil etməli idi. Amma rus qoşunları baş komandanı Mustafa xanın bu məktubunu da sonsuz qəzəblə qarşıladı və bu qəzəbini o, Mustafa xana göndərdiyi məktubunda da ifadə etdi. Sisisanov Mustafa xanın nəzərinə çatdırdı ki, onunla hər hansı danışıqlar aparmaq niyyətində deyil və yalnız insan qanı axıdılmasına yol verməmək üçün öz tələblərini bir daha ona göndərir. Bu tələblər mayor Tarasovla göndərilmiş tələblərdən daha sərt idi. Sisianovun birinci tələbi əvvəlki tələbin eyni idi Onun ikinci tələbi isə belə ifadə olunmuşdu – Gürcüstanın baş komandanı ilə razılaşdırmadan ətraf hakimlərlə və onların nümayəndələri ilə, məktub gətirənlərlə heç bir təmas qurmamaq, icazə olmadan onları geri göndərməmək, Rusiyanın düşmənlərindən, o cümlədən Baba xandan və ya başqalarından məktub gətirənləri saxlamaq, məktub açılmadan onu gətirənlə birlikdə etibarlı adamların müşayiəti ilə Gürcüstanın baş komandanına göndərmək.

General Sisianovun Mustafa xana qarşı irəli sürdüyü sonrakı tələblər aşağıdakılardan ibarət idi:

-Şamaxı xanlığı ərazisində olan Qarabağ əhalisini geri qaytarmaq;

-Cavad ərazisi əvvəllər Qarabağ xanlığına mənsub olduğu üçün onu yenidən Qarabağ xanlığına geri qaytarmaq;

-Rusiya imperatoruna sədaqətin zəmanəti kimi Mustafa xanın böyük qardaşı İsmsyıl bəyi, habelə Şeyxəli bəyi, Ömər sultanı, Cəbrayıl bəyi və məlik Umudun uşaqlarını girov vermək;

-Rusiya imperatorunun xəzinəsinə ildə 10 min çervon vergi vermək. Bu verginin birinci 5 minini müqavilə imzalananadək ödəmək;

-Həştərxandan gələn, Bakıdan keçməklə Gürcüstana qədər gedən yük karvanlarının təhlükəsizliyini təmin etmək. Bunun üçün Mustafa xan yük karvanlarına müşayiətçilər ayırmalı idi;

- Məhəmməd Həsən xanı (keçmiş Şəki xanı) geri qaytarmaq (43).

Bu tələblərin əvəzində Rusiya tərəfinin öz üzərinə götürməli olduğu öhdəliklər əvvəlki öhdəliklərin oxşarı idi. Əvvəlki öhdəliklərə bir öhdəlik əlavə olunmuşdu. Həmin öhdəliyə görə, Sisianov Mustafa xanı onun qardaşı olan Həşim bəylə barışdırmağa söz verirdi.

Mustafa xan general Sisanovun irəli sürdüyü tələbləri ciddi şəkildə nəzərdən keçirdi. İki böyük dövlətin işğalçı yürüşlərinin kəsişməsində qaldığı və müstəqilliyin qorunması üçün etibarlı seçimi olmadığı üçün Mustafa xan Rusiya təbəəliyinə qarşı kəskin münasibət nümayiş etdirmədi. Lakin Sisianovun irəli sürdüyü hər tələbə öz münasibətini bildirdi və bu fikirlərini məktub vasitəsilə Sisianovun diqqətinə çatdırdı. Mustafa xan həmin məktubu nümayəndəsi Maqsud bəy adlı birisi ilə Sisianova göndərdi. Maqsud bəy Şamaxı xanının bir sıra fikirlərini də şifahi olaraq Sisianova çatdırmalı idi. Mustafa xan general Sisianova göndərdiyi məktubunda əvvəlcə onun tələblərini bir də yazılı şəkildə təkrarlayır və sonra da həmin tələblərə cavab verirdi. Məktubun məzmunu aşağıdakı kimi idi:

1. Fars şahından və fars xanlarından imtina etmək.

Cavab – Sərdarın (general Sisianov nəzərdə tutulur) iradəsinə uyğun olaraq mən farslardan imtina etdim. Bu hətta o vaxt baş verib ki, mən sizin yanınıza bir kəndxuda göndərmişdim.

2. Başqa xanlarla yazılı və şifahi təmasda olmamaq və əgər onların nümayəndəsi məktubla gəlsə, sərdarın icazəsi olmadan onlara cavab verməmək.

Cavab- Müxtəlif vəziyyətlə, zərurətlə, az əhəmiyyətli işlərlə bağlı Kür çayının bu tərəfində olan qonşu Səlim xanla və Şeyxəli xanla əlaqələrim olur. Bununla bağlı sərdarı məlumatlandırmağa ehtiyac yoxdur. Fars xanlarına gəlincə isə sərdarın xəbəri olmadan onlarla əlaqəm olmayacaq.

3. Qarabağlıları geri qaytarmaq.

Cavab – Bunun cavabına üç tərəfdən yanaşmaq lazımdır. Əvvəla, Qarabağ ailələrinin bir hissəsi əslən Şirvan əhli sayılırlar və onlar öz torpaqlarına qayıtmışlar. Məsələn, Hacı Əlili və Quru əhalisi kimi. İkincisi, onların bir hissəsi qıtlıq zamanı gəlmişlər, onlara maliyyə yardımı göstərilmişdir, onların bəziləri taxıl ilə təmin ediliblər və burada

onlar özlərinə ailə qurmuşlar. Üçüncüsü isə onların bəziləri talanlar vaxtı gələrək burada özlərin vətən tapmışlar, buranı xoşlayaraq burada özlərinə bağ və mülk qurmuşlar. Onlar Qarabağa qayıtmaq arzusunda deyildirlər. Şirvan da, Qarabağ da hər ikisi padşahın vilayətləridir. Sərdar da gərək bizim və rəiyyətimizin haqqına cəfa etməsin və elə eləsin ki, dil tapa bilək.

4. Həşim bəyi geri gətirmək.

Cavab – Onun arxasınca adam göndərmişəm. İnşaallah gələrsə, onu sakitləşdirərəm.

5. Xəzinəyə 10 min çervon (əşrəfi) verilməsi haqqında.

Cavab – Səlim xan bizim qardaşımızdır. Onunla necə razılaşmışsınızsa, eyni ilə də biz xidmət göstərməyə hazırıq.

6. Girov verilməsi haqqında.

Cavab – Səlim xan və Şəki xanlığı necə girov veribsə, biz də eyni girovu verməyə hazırıq.

7. Cavad keçidini İbrahim xan Qarabağlıya güzəştə getmək.

Cavab – Heç bir vaxt Cavad keçidi Qarabağ xanlığının tərkibində olmayıb. Bu keçid Muğanla Şirvan arasındadır. Qarabağdan və ya digər yerdən kimsə təsdiqləsə ki, Cavad keçidi nə vaxtsa Qarabağa mənsub olub, onda sizin iradənizcə olsun.

8. Salyanda istehkam qurğusu tikilərsə onu işçi qüvvəsi ilə təmin etmək (Sisianovun yuxarıdakı tələbləri arasında bu tələb yoxdur. Ola bilsin ki, bu tələb şifahi şəkildə Mustafa xana çatdırılmışdı).

Cavab – Sərdarın iradəsinə uyğun olaraq işçilər veriləcək.

9. Xanlıq daxilində karvanların təhlükəsizliyini təmin etmək

Cavab – Sərdarın iradəsinə uyğun olaraq öz mülküm daxilində Gürcüstan sərhədinə qədər yükləri müşayiət edəcəyəm (44).

Bununla Mustafa xan Sisianovun irəli sürdüyü şərtləri qəbul etməyə meylli olduğunu nümayiş etdirdi. Şamaxı xanı yalnız ödənməli olan verginin miqdarı və girov verilməsi ilə bağlı öz əlavə təkilf irəli sürdü. Qarabağ əhalisinin geri qaytarılması və Cavadın Qarabağ xanlığına verilməsi ilə bağlı Mustafa xanın cavabı Sisianova inandırıcı və qaneedici göründü və bunu o, Qarabağ xanı İbrahim xana göndərdiyi məktubunda da açıqladı (45).

Başqa sözlə, Mustafa xan Cavadın Qarabağ xanlığına verilməsi və Şirvana köçürüldüyü iddia olunan Qarabağ əhalisinin geri qaytarılması ilə razılaşmadı Eyni zamanda xahiş etdi ki, o da Şəki xanı kimi Rusiya xəzinəsinə ildə 7 min çervon vergi ödəsin.

P.D.Sisianov Şamaxı xanının fikir və təkliflərini diqqətlə öyrəndi, Şamaxı xanlığının dinc yolla Rusiyaya birləşdirmək imkanının

mövcudluğunu sevinclə qarşıladı və elə Maqsud bəylə də öz fikirlərini və mülahizələrini Mustafa xana çatdırdı. Sisianov Şamaxı xanının Fars asılılığından imtina etməsini müsbət hal saydı və Mustafa xana çatdırdı ki, bu tələb onun deyil və bu tələb Rusiya imperatorunun iradəsi ilə bağlıdır. Qonşu xanlarla münasibətlərinə gəlincə isə Sisianov Mustafa xanın Səlim xanla təmasda olmasına etiraz etmədi. Çünki, Sisianova görə, Səlim xan da Rusiya təbəəsi idi. Bütünlükdə, Sisianov Rusiya təbəəsi olan şəxslərlə Mustafa xanın təmasda olmasını mümkün sayırdı. Şeyxəli xanı isə Sisianov Rusiyanın düşməni sayırdı. Ona görə Mustafa xanın onunla təmasda olmasını Sisianov qəbul etmək istəmirdi. Rusiya xəzinəsinə verilməli olduğu vergilərin miqdarına Mustafa xanın etirazına da Sisianov öz münasibətini açıqladı. Sisianovun fikrincə, Şəki xanlığının ərazisi Şamaxı xanlığının ərazisindən kiçik, əhalisi də Şamaxı xanlığının əhalisindən az idi. Ona görə Sisianov Şamaxı xanlığının Şəki xanlığı ilə müqayisə edilməsini düzgün saymırdı. Bununla belə, o, Mustafa xanın təklifini qismən nəzərə aldı və Şamaxı xanlığı üçün illik vergini 8 min çervon təyin etdi. Sisianov məktubunda girovlarla bağlı yaranmış vəziyyətə aydınlıq gətirdi. Xüsusilə, Şəki xanlığının verməli olduğu girovlar haqqında Mustafa xana məlumat verdi. Girovlarla bağlı Şəki xanlığına tətbiq edilən təcrübənin mahiyyətini açıqlayandan sonra general Sisianov bir daha Mustafa xanın qardaşı İsmayıl bəyin özünün və müəyyənləşdirdiyi bəzi bəylərin uşaqlarının girov verilməsini tələb etdi. Sisianov məktubunda qarabağlıların Qarabağa qaytarılması və Cavadın Qarabağ xanlığı tabeliyinə verilməsi ilə bağlı Mustafa xanın cavabına da münasibətini bildirdi. Mustafa xandan tələb olundu ki, qarabağlılığı şübhə doğurmayan şəxslər Qarabağa qaytarılsın. Qalanları isə Şamaxı xanlığında yaşaya bilərdilər. Cavadla bağlı isə Sisianov Mustafa xanın dəlilləri ilə razılaşırdı və Cavadın Qarabağa mənsubluğu sübut edilməyincə onun Şamaxı xanlığı tərkibində qalmasını qəbul edirdi (46).

Maqsud bəylə Narv draqun alayının podpolkovniki Elizbar Eristov da Mustafa xanın yanına göndərildi. Knyaz Eristov Şamaxı xanlığının Rusiyaya birləşdirilməsi haqqında müqavilə layihəsini Mustafa xana gətirdi. Mustafa xan bu layihə ilə tanış olandan sonra onu geri qaytarmalı idi (47).

Knyaz Eristov Mustafa xanla görüşərək Sisianovun məktubunu və müqavilə layihəsini ona təqdim etdi. Mustafa xan onlarla tanış olandan sonra yeni mülahizələrini hazırladı və bu mülahizələrini məktub halına salaraq onu knyaz Eristovun vasitəsilə Sisianova göndərdi. Mustafa xan bir sıra tələbləri olduğu kimi qəbul etdi, bir sıra tələblərə isə öz münasibətini bəyan etdi. Onun razılaşmadığı tələblərdən biri Quba xanı

Şeyxəli xanla bütün əlaqələrin kəsilməsi tələbi idi. Mustafa xan bəyan etdi ki, Quba xanlığı qonşu xanlıqdır və bu xanlıq Şamaxı xanlığının dolanışığının təşkilində xüsusi rola malikdir. Mustafa xan bildirirdi ki, iqtisadi xarakterli münasibətlərin davam etdirilməsinin heç bir ziyanı olmamalıdır. O, Quba xanlığı ilə münasibətlərin saxlanılmasını istəyirdi və eyni zamanda söz verirdi ki, Quba xanlığı ilə münasibətlər davam etdirilərkən Rusiyanın düşmənlərinə heç bir kömək göstərilməyəcəkdir. Qarabağlıların geri qaytarılması ilə bağlı da Mustafa xan müəyyən güzəştlərə getməyi qərara aldı. O bildirdi ki, əslən qarabağlı olan əhalinin geri qaytarılmasına etiraz etmir. Lakin bu məsələdə ona təzyiq edilməsinə də razı deyildi. Rusiya xəzinəsinə veriləcək verginin miqdarı azaldılsa da Mustafa xan bu məsələyə də etirazla yanaşdı. Mustafa xan vertginin azaldılmasını istəyirdi və bunu Şamaxı əhalisinin daha çox köçərilərdən ibarət olması ilə izah etdi. Bununla belə o, Sisianovun iradəsini qəbul etməyə hazır olduğunu da yazırdı. Girovların verilməsinə də Mustafa xan öz bildiyi kimi yanaşmağı üstün tutdu. Sisianov özü tərəfindən müəyyənləşdirilən bəylərin uşaqlarının girov göndərilməsini istəyirdi. Mustafa xan isə özünün seçimi ilə girov göndərəcəyini bildirdi. Nəhayət, ticarət karvanlarının təhlükəsizliyinin təmin edilməsi məsələsinə gəlincə, Mustafa xan bəyan etdi ki, bu işi öz xanlığı daxilində etməyə hazırdır (48).

Sonrakı aylarda Mustafa xanla Sisianov arasında yazışma yenə davam etdi. Bu yazışmalarda gücə, qüvvəyə daha çox üstünlük verən Sisianovun yırtıcı xarakterinin qarşısında Mustafa xanın müdrikliyi xüsusi bir qabarıqlıqla nəzərə çarpır. Sisianovun əsassız ittihamlarının qarşısında düşünülməmiş mövqe açıqlayan Mustafa xan xarakter bütövlüyü ortaya qoysa da, Rusiyanın imperiya işğalçılığının təmsilçisinin qarşısında məhdud seçim imkanları ilə üzləşməli oldu və nəhayətdə haqsız tələblərlə razılaşmaq məcburiyyətində qaldı.

Sisianov isə öz xarakterinə uyğun olaraq Mustafa xanın əzmkar iradəsi qarşısında gücsüz qalıb onu ənənəvi ittihamlarla təqsirləndirməyə çalışdı. Qeyd etmək lazımdır ki, Mustafa xan öz məktubunu knyaz Eristovla və Maqsud bəylə yollayarkən Sisianova hədiyyə olaraq bir baş at da göndərmişdi. Sisianov bu atı qəbul etmədi və səbəbini də onunla izah etdi ki, hələlik onunla Mustafa xan arasında dostluq münasibətləri qurulmamışdır (49). Başqa sözlə, Mustafa xan hələ Sisianovun iradəsini qəbul etmədiyi üçün, Sisianovun dediyi ilə durub-oturmadığı üçün rus generalın etimadını və etibarını qazanmamışdı. Bundan başqa Sisianov Mustafa xanı Fətəli şahla münasibətlərdə olmaqda, ondan hədiyyələr almaqda günahlandırdı. Mustafa xan sonrakı yazışmalarında izah etdi ki,

Fətəli şahın elçiləri ilə Sisianovla münasibətlər qurulmazdan əvvəl görüşmüşdü və həmin görüş haqqında Sisianovun da məlumatı var idi. Ona görə də Mustafa xan onun Rusiyanın düşməni olan dövlətlə əlaqələr qurmaqda ittihamlandırılması ilə barışmadı (50).

General Sisianovu qəzəbləndirən digər bir məqam Mustafa xanın Şamaxı xanlığının Rusiyaya birləşdirilməsi haqqında müqavilə imzalanması üçün Kürəkçay ətrafına gəlməkdən imtina etməsi idi. Sisiasnov onun tələbinə qarşı iradə nümayiş etdirilməsini şəxsiyyətinin təhqiri kimi qəbul edirdi və bunun üçün də Mustafa xana özünə xas ironiya ilə məktub göndərdi. Sisianov bildirdi ki, imzalanacaq müqavilənin şərtlərinə əsasən, Mustafa xan Gürcüstanın baş hakiminin (yəni Sisianovun) iştirakı ilə Rusiya imperatoruna sədaqət andı qəbul etməlidir. Ona görə də o tələb edirdi ki, Mustafa xan bir neçə əyanı ilə birlikdə Kürəkçay yaxınlığına gəlsin və müqaviləni orada imzalasın. Mustafa xanın təhlükəsizliyinə təminat verilməsi üçün Sisianov knyaz Eristovu Mustafa xanın olmadığı günlərdə Şamaxıda saxlamağa hazır idi (51).

General Sisianovun təkidli tələbinə baxmayaraq, Mustafa xan xanlığı tərk edərək Kürəkçaya getməkdən imtina etdi. O bəyan etdi ki, bu tələbi qəbul etməmək üçün onun əsasları vardır və həmin əsaslar Sisianovun nümayəndələrinin diqqətinə çatdırıldı. Mustafa xan bütünlükdə müqavilənin harada imzalanacağına görə narahatçılığı əbəs sayırdı. O təklif etdi ki, general Sisianov öz etibarlı nümayəndələrini onun yanına göndərsin və həmin nümayəndələrin iştirakı ilə həm müqavilə, həm də Rusiya imperatoruna sədaqət andı qəbul edilsin. Şamaxı xanı Sisianovun nümayəndələrinin Şamaxıda təntənə ilə qarşılaşacağına söz verdi. Mustafa xan Sisianov tərəfindən onun etibarsızlıqda günahlandırılmasını qəbul etmədi. Əksinə, məktubunun sonunda o, Sisianova anlatdı ki, onun ruslara qarşı inamsızlığı vardır və general Sisianov onun narahatçılıqlarını aradan qaldıranda ikilikdə görüş keçirməyə də hazır olacaqdır (52).

Bütün təkidlərinə baxmayaraq, general Sisianov öz tələblərini bütünlüklə Mustafa xana qəbul etdirə bilmədi. Belə olanda general Sisianov özünün sınanmış vasitəsi olan güc tətbiqinə əl atmağı qərarlaşdırdı. Sisianov əvvəlcə rus qoşun dəstəsini Şəki xanlığına çıxarmaqla Şamaxı xanlığına yaxınlaşmaq, qoşunların yaxında olduğunu göstərməklə Mustafa xana təzyiq etmək istədi. Bununla bağlı Sisianov Şəki xanlığındakı rus qoşun dəstəsinin rəhbəri mayor Rebinderə müvafiq göstəriş verdi. General Sisianov Mingəçevir yaxınlığında Kür çayını adlamaq istəyirdi. O, mayor Rebinderdən tələb etdi ki, çoxlu ağac qırıb Mingəçevir yaxınlığına gətirsin ki, Kürü adlamaq üçün həmin ağaclardan sal düzəldilsin (53).

Sonradan Sisianov sadəcə güc nümayişi etdirmək deyil, doğrudan da Şamaxı xanlığı üzərinə hücum təşkil etməyi qərar aldı. Bu məqsədlə Kür çayını adlamaq üçün Mingəçevirə doğru istiqamət götürdü.

Mustafa xan isə görünür, açıq müqavimət göstərməyin onun üçün və xanlıq üçün yaxşı qurtarmayacağını hiss edirdi. Ona görə də Şamaxı xanı Rusiya təbəəliyinə qəbul edilməsi üçün müqavilə imzalamaq məqsədilə general Sisianovla Tərtər çayı ətrafında görüşməyə razı oldu.

Mustafa xanın yazdıqlarından belə bir qənaətə gəlmək mümkündür ki, Tərtər çayı sahilində görüş keçirmək də Sisianovun nümayəndəsi Eristov tərəfindən təklif olunmuşdu. Mustafa xan bu təklifə razılığını bildirərək öz nümayəndəsini Sisianovun yanına göndərsə də rus generalı artıq bu razılaşmadan da imtina etdi. Sisianov Mustafa xanı müharibə ilə hədələdi və bəyan etdi ki, ya onun təklifi birmənalı şəkildə qəbul olunmalıdır, ya da Mustafa xan Fitdağda müharibə ilə qarşılaşmalıdır (54).

Sisianov Mustafa xanın yaxınları və qoşunu ilə Fitdağdakı qalada yaxşı müdafiə olunmaq imkanından xəbərdar idi. Ona görə də yürüşə daha böyük qoşun dəstəsi çıxarmağı planlaşdırırdı. Bununla bağlı o, İbrahim xana da məktub yazdı və ondan 1000 nəfərlik qoşun dəstəsi göndərilməsini tələb etdi. Sisianov həmin dəstəyə xanın oğlu Mehdiqulu ağanın rəhbərlik etməsini istədi. O tələb edirdi ki, dəstə yürüşə hazır vəziyyətdə olsun və işarə verilən kimi hərəkət etsin. Sisianov eyni zamanda Qarabağ ərazisində olan mayor Lisaneviçin dəstəsini də yürüşə cəlb etməyi planlaşdırırdı (55).

General Sisianov eyni zamanda Şəki xanı Səlim xandan 500 nəfərlik bir dəstənin hazırlanmasını tələb etdi. Yuxarıda qeyd edildiyi kimi, 1805-ci il noyabr ayının ortalarında Səlim xan Sisianovla Mustafa xan arasında vasitəçilik etmək təşəbbüsünü ortaya atdı və məlum olduğu kimi bu təşəbbüs bir nəticə vermədi. Belə olanda Sisianov dəstəsi ilə Mingəçevir yaxınlığında Kür çayını adlamağı qərara aldı. 1805-ci il noyabr ayının 30-da Sisianov dəstəsi ilə Kür çayını adladı və Şəki xanlığı ərazisi ilə hərəkətini davam etdirərkən Səlim xanın hazırladığı 500 nəfərlik qoşun dəstəsi də ona qoşuldu. General Sisianov Şamaxı yaxınlığına kimi 10 günlük yürüş həyata keçirdi və 1805-ci il dekabr ayının 11-də Yeni Şamaxıdan 5 verst aralı olan Burumarx adlı məntəqəyə yetişdi. Rus qoşun dəstəsinin Şamaxıya doğru irəliləməsi Mustafa xan tərəfindən diqqətlə izlənilirdi və bu yürüş əslində Mustafa xanın iradəsinin əksinə olaraq həyata keçirilirdi. Rus qoşun dəstəsi Burumarx ətrafında düşərgə salanda yaxınlıqdakı yüksəkliklərin birində Mustafa xanın 80 nəfərlik atlı dəstəsi göründü. Bu dəstədən qorunmağı Sisianov kazaklara tapşırdı. Sisianovun yazdığına görə, kazaklar Mustafa xanın atlıları ilə danışıqlara

girmək istəyəndə atəşlə qarşılaşdılar. Belə olanda qarşılıqlı döyüş baş verdi. Mustafa xanın atlıları oradan geri çəkilməli oldu (56).

Böyük qoşun dəstəsi ilə Şamaxı xanlığına daxil olmasının yerli əhalidə yarada biləcəyi təşviş və qorxunun qarşısının alınması üçün Sisianov tərəfindən "Şirvan vilayətinin xalqlarına vəd" adlı bir sənəd imzalandı. Sisianov bu vədin əvvəlində öz adından Şirvan vilayətinin mollalarına, bəylərinə, kovxalarına və bütün əhalisinə bəyan edirdi ki, Rusiya imperatorunun ona verdiyi səlahiyyətlərə əsasən, Gürcüstanın qonşuları Rusiya təbəəliyinə və himayəsinə daxil olmaq kimi imkan əldə ediblər. Sisianov sonra söyləyirdi ki, onun Gürcüstanın baş komandanı olduğu üç il ərzində Rusiya imperatorunun qoşunları böyük qələbələr əldə etmişdir. Rus generalı sonra da əlavə edirdi ki, verdiyi vədə heç vaxt xəyanət etmir. Sisianova görə İmeretiya çarlığı, Minqreliya knyazlığı, Qarabağ və Şəki xanlıqları öz xoşbəxtliyini taparaq bu xoşbəxtlikdən hərtərəfli bəhrələnirlər. Guya Rusiya qoşunlarının Baba xanın sayca çox, amma zəif olan qüvvələrindən necə müdafiə olunduğuna yayda şirvanlıların özləri də şahid olmuşdular. Onun sözlərinə görə, Mustafa xan Şamaxılı 4 ay öncə qonşularının əmin-amanlığa çatdığını görüb özü də Rusiya imperiyasının təbəəliyinə yol axtarmağa başladı və öz nümayəndələrini onun yanıma göndərdi. Amma Sisianova görə, Mustafa xan tək onun yanına deyil, həm də Fətəli şahın yanına öz nümayəndələrini göndərdi. Rus generalı Şamaxı xanının Qacar sarayı ilə əlaqələrini kəsmədiyi üçün Şamaxıya gələrək məkrli Mustafa xanı cəzalandırmaq fikrində olduğunu vurğulayırdı. Sisianov bildirirdi ki, Şamaxı əhalisinin həyatına, əmlakına və təhlükəsizliyinə qarşı biganə deyildir. Ona görə də 15 gün Kürəkbasanda dayanıb Mustafa xanın cavabını gözlədi. Mustafa xan isə şərtləri qəbul etsə də Sisianovun yanında Rusiya imperatoruna sədaqət andığı imzalamağa razı olmadı ki, bunsuz məsələ həll oluna bilməzdi. Qoşun dəstəsi ilə Şamaxı xanlığı ərazisinə gəlməsini Sisianov Mustafa xanın ikitərəfli görüşə gəlməməsi ilə əsaslandırır və bununla özünə bir növ haqq qazandırırdı. Ona görə Sisianov yerli əhaliyə müraciət edirdi ki, onun tərəfindən yeni xan təyin edilənə kimi öz ev-eşiklərini tərk etməsinlər və vəd edirdi ki, onların dini mərasimlərinin və ibadətlərinin azad şəkildə icrasına şərait yaradılacaq, müharibə qurtaran kimi onların canının və malının təhlükəsizliyi təmin ediləcəkdir. Sisianova görə Şamaxı əhalisi müharibədən sonra Rusiya imperatoruna sədaqət andı qəbul edəcək və həmin gündən də onların xoşbəxt həyatı başlayacaqdır.

Burumarx ətrafındakı düşərgədən Sisianov bir daha Mustafa xana məktub göndərdi və onu Rusiya təbəəliyini qəbul etməyə çağırdı.

Sisianov yazırdı ki, Mustafa xan Rusiya təbəəliyini qəbul etmək üçün bütün şərtlərə razı olsa da müqavilə imzalanması üçün görüşə gəlmədi. Ona görə də Sisianov özü məcbur olub qoşunla Şamaxı yaxınlığına gəlmişdir. Bununla belə, Sisianov fikirləşmək və qərar qəbul etmək üçün Mustafa xana 48 saat vaxt verməyə hazır olduğunu bildirdi. Bu müddət ərzində Mustafa xan Rusiya təbəəliyini qəbul etmək üçün son qərarını qəbul etməli idi. Mustafa xan tələbi qəbul etdiyi halda əyanları ilə birlikdə Sisianovun yanına gəlməli və Rusiya imperatoruna sədaqət andı imzalamalı idi (57).

Dekabr ayının 13-də general Sisianov Mustafa xandan cavab məktubu aldı. Məktubun məzmunundan hiss olunurdu ki, Mustafa xan rus qoşunları düşərgəsinə gəlməyə ehtiyat edir. Ona görə Mustafa xan bir daha Sisianovdan öz nümayəndələrini onun yanına göndərməyi xahiş etdi və bildirdi ki, həmin nümayəndələrin yanında Rusiya təbəəliyinə qəbul edilməsi üçün tərtib edilmiş müqaviləni imzalamağa hazırdır. Mustafa xan onu da bildirdi ki, müqavilə layihəsini alandan sonra öz bəylərini Fitdağdakı qalaya toplayacaq və onlarla məsləhətləşmə aparacaqdır (58).

General Sisianov Mustafa xanın istəkləri ilə yenə də razılaşmadı. Müqavilənin layihəsini və öz nümayəndələrini onun yanına göndərməklə ona dekabrın 17-nə qədər vaxt verdiyini bildirirdi. Bundan sonra Sisianov Burumarx yaxınlığındakı düşərgədən hərəkət etdi və Fitdağdakı qalaya daha yaxın olan Çərtmə dağında düşərgə saldı. Sisianov Mustafa xanın qardaşı Həşim bəylə də əlaqə yaratdı. Rus generalı güman edirdi ki, Mustafa xan Fitdağdakı qalanı tərk edərək Muğana çəkilə bilər. Sisianov Həşim bəydən istədi ki, Mustafa xanın Muğana çəkilmək cəhdinin qarşısını almağa köməklik göstərsin (59).

Mustafa xan isə belə bir cəhd göstərmədi. Qazaxdakı kazak dəstəsinin və azərbaycanlılar arasından seçilmiş atlıların rəhbəri mayor Tarasovla görüşəndən sonra Mustafa xan general Sisianovun yanına getməyə razı oldu. Mayor Tarasov Mustafa xanın təhlükəsizliyini təmin etmək üçün Sisianovun vədlərini ona çatdırdı və nəhayət onu görüşə razı sala bildi. Mustafa xan Sisianovla görüşün rus qoşun dəstəsinin düşərgəsindən kənarda, müəyyən sayda mühafizəçilərin müşayiəti ilə çadır daxilində deyil, açıq havada keçirilməsinə razı oldu (60).

Nəhayət 1805-ci il dekabr ayının 25-də Mustafa xan böyük qoşun dəstəsi ilə onun üstünə gəlmiş general Sisianovun tələbləri ilə razılaşmaq məcburiyyətində qalaraq Şamaxı xanlığının Rusiyaya birləşdirilməsi haqqında müqaviləni və Rusiya imperatoruna sədaqət andını imzalamalı oldu. İmzalanma mərasimi rus qoşun dəstəsinin Çərtmə dağındakı düşərgəsi ətrafında, Şirvan əfəndisi Yəhya əfəndinin şahidliyi ilə

keçirildi. Mustafa xanın imzaladığı müqavilənin Kürəkçay müqavilələrindən fərqli məqamları var idi. Həmin müqavilənin məzmunu aşağıdakı kimi idi (61).

Müqavilənin giriş hissəsində deyilirdi ki, Mustafa xan Şirvanlı və bütün vəzifələri və ordenləri sadalanan tam infanteriya (piyada-M.S.) generalı Pavel Sisianov Mustafa xanın bütün ailəsi, nəsilləri və mülki ilə birlikdə Rusiya imperiyasının təbəəliyinə daxil olması haqqında aşağıdakı şərtlərlə müqavilə imzaladılar;

Birinci maddədə Mustafa xan öz üzərinə götürürdü ki, özü, varisləri və davamçıları fars dövlətinin və ya digər dövlətin asılılığından imtina edir və bəyan edirdi ki, Rusiya imperatorunun, onun varislərinin və davamçılarının hakimiyyətindən başqa digər hakimiyyəti tanımayacaqdır. Mustafa xan Rusiya imperatoruna sədaqətli olacağına söz verir və bunun üçün Quran üzərində and qəbul edəcəyini bildirirdi.

İkinci maddədə isə təsbit olunmuşdu ki, Rusiya imperatoru Mustafa xanın təmiz vədlərini qəbul edərək özü və davamçıları adından Mustafa xana və onun davamçılarına mərhəmət və qayğı vəd edir. Bu mərhəmətin və qayğının sübutu kimi Rusiya imperatoru Mustafa xanın və onu davamçılarının hakimiyyətinin saxlanmasına söz verirdi.

Üçüncü maddədə bildirilirdi ki, Mustafa xan Rusiya imperatorunun və onun varislərinin hakimiyyətini qəbul etdiyi üçün, Mustafa xanın və onun oğlunun xanlığı, oğlu olmadıqda qardaşının xanlığı Rusiya imperatoru tərəfindən təsdiqlənəcək, təsdiqləyici sənəd olan imperator fərmanı Gürcüstanın baş komandanı tərəfindən xana çatdırılacaq və möhürlə təsdiqlənmiş fərman alınandan sonra yeni xan Rusiya imperatoruna sədaqət, Rusiya imperatorunun hakimiyyətinin tanınması haqqında and imzalayacaq.

Dördüncü maddəyə görə, Rusiya imperiyasına sədaqətin, Rusiya imperiyası hakimiyyətini tanımağın sübutu kimi Mustafa xan vəd edirdi ki, Gürcüstanın baş komandanı ilə razılaşdırılmadan ətraf hakimlərlə əlaqəyə girməyəcəkdir. Həmin hakimlərin nümayəndələri və məktubları gələndə isə Mustafa xan onları saxlamalı və onlarla bağlı Gürcüstanın baş hakiminin razılığını almalı idi. Rusiyaya düşmən olan Baba xanın (Fətəli şahın – M.S.) sərdarlarından, xanlarından və başqalarından məktubu və nümayəndələri Mustafa xan qəbul etməməli, əgər məktub gələrsə Mustafa xan onu açmadan Şəki xanlığındakı Ərəş qalasında olan rus qoşun dəstəsinin rəhbərinə göndərməli idi.

Beşinci maddəyə əsasən, Mustafa xanın xanlığı üzərində Rusiya imperatorunun hakimiyyəti tanındığı üçün Rusiya imperatoru özü və varisləri adından aşağıdakıları vəd edirdi: 1) Şamaxı xanlığının əhalisi

Rusiyanın digər əhalisi ilə fərq qoyulmadan Rusiya imperatorunun təbəələri hesab olunacaq; 2) Mustafa xanın, onun varislərinin və nəslinin Şamaxı xanlığına haqqı saxlanılacaq; 3) Xanlığın daxili idarəetmə hakimiyyəti, məhkəmə, cəzalandırma, daxili gəlirlər Mustafa xanın ixtiyarına veriliəcək; 4) Müqavilə imzalanan vaxt Salyan Şamaxı xanlığının tərkibində olduğu üçün Mustafa xanın tabeliyində saxlanılacaq. Bundan başqa zərurət yarananda rus qoşun dəstələri Şamaxı xanlığını xarici müdaxilədən qorumalı idi.

Altıncı maddəyə əsasən, Mustafa xan Rusiya təbəəliyinə meylliyinin əlaməti kimi aşağıdakıların icrasını öz üzərinə götürməli idi: 1) Əsli Qarabağlı olan ailələr İbrahim xana qaytarılmalı idilər. Qarabağdan gələnlər arasında əslən şamaxılı olan ailələr isə geri qaytarılmamalı idilər; 2) Cavad məntəqəsinin Qarabağa məxsusluğu sübut olunacağı təqdirdə bu məntəqə Qarabağ xanlığına qaytarılmalı idi; 3) Həştərxandan Gürcüstana gedən karvanlar Şamaxı ərazisindən keçərkən onların təhlükəsizliyi təmin edilməli idi. Bunun üçün Mustafa xan mühafizə qüvvəsi ayırmalı idi; 4) Kür çayının mənsəbində və Cavadda hərbi-istehkam tikililəri aparılmalı olsaydı, Mustafa xan Gürcüstanın baş komandanının təyin etdiyi qiymətlər əsasında işçi qüvvəsi təşkil etməli idi.

Yeddinci maddəyə əsasən, Rusiya imperatoru Mustafa xana öz mərhəmətinin və qayğısının əlaməti kimi Rusiya imperiyasının gerbi olan bayraq bağışlamalı idi. Bu bayraq hakimiyyət simvolu kimi xanın yanında qalmalı idi və yalnız xan müharibəyə yollanarkən həmi bayrağı özü ilə apara bilərdi.

Səkkizinci maddədə Mustafa xanın Rusiya xəzinəsinə ödəməli olacağı verginin miqdarı öz əksini tapmışdı. Mustafa xan Rusiya imperatorunun Tiflisdəki xəzinəsinə ildə 8 min çervon ödəməli idi. Bu vergi il ərzində iki dəfəyə ödənməli idi. Fevral ayının 1-də verginin birinci yarısı, sentyabr ayının 1-də isə ikinci yarısı təhvil verilməli idi. Bununla yanaşı Mustafa xan girov göndərmək haqqında da öz üzərinə öhdəlik götürdü. Müqavilədə təsbit edildi ki, Mustafa xan uşaqsız olduğu, qardaşlarından birinin kor, digərinin isə xəstə olduğu üçün ilk üç ay müddətinə Şamaxı bəyləri olan Əhməd ağanı, Ağa bəyi, Muxay bəyi və İsmayıl bəyi girov verməli idi. İlk üç ay keçəndən sonra isə Şıxəli bəyin, Ömər bəyin və Mustafa bəyin uşaqları növbə ilə girovluğa göndərilməli idi.

Doqquzuncu maddəyə əsasən, Tiflisə göndərilməli olan girovlara gündəlik xərc üçün pul ayrılmalı idi. Bəylərin hər birinə gümüş pulla 10 rubl, uşaqlar üçün isə 4 rubl verilməli idi.

Onuncu maddəyə əsasən, müqavilə əbədi olaraq imzalanırdı və heç bir dəyişikliyə məruz qalmalı deyildi.

On birinci maddəyə əsasən, müqavilə Rusiya imperatorunun fərmanı və möhürü ilə təsdiqləndikdən sonra 6 ay müddətində və ya imkan yaranarsa ondan da tez təqdim olunmalı idi.

İmzalanmış müqavilənin hər bir maddəsi Mustafa xanın möhürü ilə təsdiqləndi. Müqavilənin imzalanmasından sonra qeyd edildiyi kimi, Rusiya imperatoruna sədaqət andı da imzalandı.

Şamaxı xanlığının Rusiyaya birləşdirilməsini Sisianov dərhal Rusiya sarayına məruzə etdi. Rusiya imperatorunun tapşırığına əsasən, Sisianov rus qoşunları ilə Azərbaycan xanlıqlarının üzərinə hücum etməməli və Rusiya qoşunlarının çətin vəziyyətə düşməsinə yol verməməli idi. Müdafiə mövqelərində qalmalı olduğu halda Sisianov apardığı məkrli siyasəti nəticəsində Şəki və Şamaxı xanlıqlarını Rusiyaya birləşdirməyə nail oldu. Bu zaman o elə bir siyasət ortaya qoydu ki, rus qoşun dəstələrinin yerdəyişmələri ilə Mustafa xana ciddi təzyiq göstərə bildi. Mustafa xan da rus qoşun dəstəsinin təzyiqi qarşısında yetərli müdafiə imkanları olmadığı üçün general Sisianovun tələblərini qəbul etməli oldu. Bununla Sisianov Rusiyanın Qafqazdakı sərhədini şərqə doğru bir qədər də genişləndirməyə müvəffəq oldu.

General Sisianovla Mustafa xan arasında aparılan sonrakı yazışmalar göstərdi ki, bir tərəfdən yerli əhali rus işğalını birmənalı şəkildə qarşılamadı. Digər tərəfdən də Mustafa xan Sisianovun tələblərini birmənalı şəkildə qəbul etmədi. Rus işğalı ilə barışa bilməyən Şamaxı əhalisinin müəyyən hissəsi öz yerlərini tərk edib köçməyə üstünlük verdilər. Sisianov yuxarıda haqqında danışılan müraciətini də bələləri üçün nəzərdə tutmuşdu və bununla köçlərin qarşısının alınmasına çalışdığını bildirirdi. Şamaxı əhalisinin köçlərinin qarşısının alınması üçün Sisianov yerli bəylərin xidmətindən istifadə edilməsini də vacib sayırdı (62).

Sisianovun verdiyi bütün vədlərə baxmayaraq rus əsgərlərinin Şamaxı əhalisinə qarşı soyğunçuluğunun və talanlarının qarşısını almaq mümkün olmadı. Rus hərbçiləri yerli əhalidən zorla yem və ərzaq alır və onlar üçün narahatlıqlar yaradırdılar. Buna görə də əhalinin nümayəndələri Mustafa xanı himayə edirdilər. Mustafa xan da bununla bağlı öz narazılıqlarını general Sisianova çatdırdı. Qeyd etmək lazımdır ki, Sisianovla müqavilə imzalanandan sonra da Mustafa xan ruslara inanmırdı və Fitdağındakı qalada yaşamaqda davam edirdi. Fitdağındakı qalaya toplanmış əhali də qalanın kiçik olmasına baxmayaraq orada yaşamağa üstünlük verirdilər. Sisianov isə özünün tabeçiliyində hesab

etdiyi Mustafa xanın öz narazılığını ifadə etməsindən xeyli qəzəbləndi və bildirdi ki, Mustafa xanın onu öyrətməyə haqqı çatmır. Sisianova görə, hətta Rusiya imperatoru da nə etməyin lazım olduğu haqda ona məktub göndərmir, amma Mustafa xan buna cəsarət edir. Tabeçiliyində olanların yerli əhaliyə qarşı qanunsuzluqlar etməsini inkar edəndən sonra Sisianov Mustafa xan qarşısında yenidən qarabağlıların geri qaytarılması məsələsini qaldırdı. Bu məsələ imzalanan müqavilədə də öz əksini tapmışdı və nəzərdə tutulmuşdu ki, dərhal bu məsələnin yerinə yetirilməsinə başlansın. Müqavilənin imzalanmasından 7 gün sonra Mustafa xan Şirvanda olan qarabağlıların geri qaytarılması şərtinin icrasına başlamamışdı. Sisianov təkid etdi ki, Mustafa xan dərhal qarabağlıların geri qaytarılmasına başlasın və həm də onu xəbərdar etdi ki, göndərdiyi məktublarında Sisianova dərs verməyə çalışsa, onda həmin məktublara cavab verməyəcəkdir (63).

Günlər ötdükcə yalnız Mustafa xan deyil, yerli əhalinin də ruslara qarşı narazılığı açıq şəkildə özünü göstərməyə başladı. 1806-cı il yanvar ayının 3-də yem toplayan rus yegerlərindən biri yerli adamların açdığı atəşlə yaralandı. Həmin gün üç kazakın atı əlindən alındı, rus düşərgəsinə gələn bəylər də yerlilərin atəşinə tutuldu. Bü isə Sisianovun ciddi təşvişinə səbəb oldu. Buna görə Sisianov göstəriş verdi ki, Şamaxı bağlarında şübhəli görünənlərə qarşı atəş açılsın. Bütün bunlar haqqında Mustafa xana məlumat verən Sisianov onun qarşısında məsələ qaldırdı ki, ruslara atəş açmamaq və rus düşərgəsinə yaxınlaşmamaq üçün öz adamlarına göstəriş versin. Sisianov eyni zamanda xan tərəfindən vəd edilmiş həcmdə ərzağın çatdırılmasını da ona xatırlatdı.

Mustafa xanla yazışmalarında Sisianov dəstəsinin ərzaq və yemlə təmin edilməsi məsələsini diqqət mərkəzində saxlayırdı. Çünki Sisianov Şamaxıdan geriyə yox, irəliyə, Bakı xanlığına doğru hərəkət etməyi planlaşdırırdı. Şamaxı xanlığının Rusiyaya birləşdirilməsindən sonra Bakı xanına təzyiq göstərilməsi və onun da Rusiya təbəəliyinə sövq edilməsi üçün Sisianov əlverişli məqam və şərait əldə etmişdi. Bakının işğalı sərhədlərin genişləndirilməsindən əlavə, Hətərxan-Bakı-Gəncə-Tiflis marşrutunun işə salınmasını təmin etmiş olardı. Şamaxının Rusiyaya birləşdirilməsindən sonra Rusiya xarici işlər naziri knyaz Çartorıyskiyə yazdığı məktubunda Sisianov bildirirdi ki, dərhal Bakya doğru hərəkət etməyi planlaşdırır. Onun yazdığına görə, general-mayor Zavalişinin rəhbərliyi altındakı qoşun dəstəsi də Bakı yaxınlığında onun gəlməsini gözləyirdi (64).

3. Bakı xanlığının işğalı cəhdi və Sisianovun qətli

Rusiyanın Cənubi Qafqazdakı qoşunlarının təminat və təchizatının təhlükəsiz marşrutunun yaradılması baxımından Bakı xanlığının işğalı da Rusiya üçün ciddi əhəmiyyət kəsb edirdi. Bu xanlığın işğalı Rusiyanın Cənubi Qafqazdakı işğalının genişləndirilməsi və Rusiyanın Qara dənizlə Xəzər dənizi arasında möhkəmlənməsi, habelə Xəzər dənizində etibarlı liman şəhərinin əldə edilməsi baxımından da Rusiya üçün mühüm əhəmiyyət kəsb edirdi. Ona görə sələfləri kimi, Sisianov da Qafqaza gələn gündən Bakının işğalına lazımi diqqət ayırdı. Danışıqlar, təşviq və təhdid cəhdləri alınmadıqda rus silahına əl atılması qərarlaşdırıldı.

Bakı xanlığının və Xəzəryanı əraziləri işğal etmək, Xəzər dənizində və Xəzəryanı ərazilərdə möhkəmlənmək üçün Xəzər dənizindəki hərbi donanmanın təkmilləşdirilməsi və yeniləşməsi Rusiyanın bölgə siyasətinin tərkib hissəsini təşkil edirdi. 1804-cü ilin noyabrında Rusiya imperatorunun sərəncamına əsasən Rusiyanın xarici işlər naziri Çartorıyski Sisianovun nəzərinə çatdırırdı ki, Cənubi Qafqaza çıxarılan quru qoşunlarının möhkəmləndirilməsi üçün Xəzər dənizindəki donanmanı işlək və hazır vəziyyətdə saxlamaq lazımdır. Bununla əlaqədar, Rusiya imperatoru Rusiya dəniz qüvvələri nazirinin müavininə göstəriş vermişdi ki, Xəzər hərbi donanmasının işlək və döyüş vəziyyətinə gətirilməsi və lazım olanda hərəkət etməsi üçün zəruri işlər görülsün. İmperator tərəfindən eyni zamanda Xəzər donanmasına rəhbər təyin olunmuş Sisianovdan tələb olunurdu ki, Xəzər donanmasının möhkəmləndirilməsi üçün lazımi məsələləri hərbi dəniz nazirinin qarşısında qaldırsın və Xəzər donanmasını döyüşə hazır vəziyyətə gətirsin (65).

Rusiya imperatorunun sərəncamına müvafiq olaraq dəniz qüvvələri nazirinin müavini general Çiçaqov, Həştərxan limanının komandiri general-mayor Pevsova göstəriş verdi ki, Xəzər dənizindəki gəmiləri möhkəmləndirsin və onları toplarla təmin etsin. 1804-cü ilin dekabrında general Çiçaqov bildirirdi ki, Xəzər donanmasının 11 hərbi və bir neçə nəqliyyat gəmisi artıq döyüş tapşırıqlarının icrasına hazırdır. Onun yazdığına görə, 1805-ci ilin yazının başlanğıcında bu gəmiləri hərbi tapşırıqların icrasına cəlb etmək olardı (66).

Rusiyanın Azərbaycan xanlıqları üzərinə hücumunun həyata keçirilməsi üçün Sisianovun 1805-ci ilə planlaşdırdığı fəaliyyətində Xəzər donanmasından fəal şəkildə istifadə olunması nəzərdə tutulmuşdu. Hələ 1804-cü ilin sonunda Sisianov Xəzər donanmasının Ənzəliyə göndərilməsi planları haqqında Rusiya sarayını məlumatlandırdı. Onun

planına əsasən, 1805-ci ilin aprelində nəqliyyat gəmiləri ilə müşayiət olunan hərbi gəmilər 6 bölükdən ibarət olan silahlı dəstə ilə birlikdə Ənzəliyə getməli (67) və Xəzəryanı ərazilərin işğalının həyata keçirilməsi üçün əlverişli mövqe tutmalı idi.

Sisianovun general-mayor Zavalişinə ünvanladığı təkliflərdən də göründüyü kimi, Xəzər donanmasının 1805-ci ilin yazında Ənzəliyə göndərilməsi Azərbaycan xanlıqlarının işğalı üçün 1805-ci ilə planlaşdırılan kampaniyasının tərkib hissəsi idi. Ənzəliyə göndərilən desant dəstələrinə rəhbərliyi general-mayor Zavalişinə həvalə edən Sisianov onun nəzərinə çatdırırdı ki, ekspedisiyanın həyata keçirilməsi Xəzər sahillərinin işğal edilməsi, Fətəli şahın cəzalandırılması və bir də Rusiya imperatorunun yalnız ona (Sisianova) açıqladığı planın bir hissəsini icra edilməsi üçün nəzərdə tutulmuşdur. Rusiya imperatorunun yalnız Sisianova açıqladığı planın isə Azərbaycan xanlıqlarının işğalı və Xəzəryanı ərazilərdə möhkəmlənmək olduğunu istisna etmək olmaz. Ənzəli ekspedisiyasının icra edilməsi üçün 16-cı yeger alayının təcrübəli podpolkovniki Aseyev general-mayor Zavalişinin köməkçisi təyin olundu (68).

Sisianova görə, dəniz desant qüvvələrinin qarşısına aşağıdakı vəzifələr qoyulmuşdu: 1) Qacar şahı Fətəli şahı qorxutmaq lazım idi ki, əvvəlki hərbi kampaniya zamanı əsir düşmüş rus hərbçilərini, ələ keçirilmiş gürcü knyazlarını, zadəganlarını geri qaytarsın, hərbi kampaniya üçün xərc edilmiş 1 milyon rubl vəsaitin əvəzini ödəsin, Tiflisə hücum zamanı Ağa Məhəmməd xan Qacarın gürcü qoşunlarından ələ keçirdiyi 12 ədəd topu təhvil versin; 2) Bakı şəhəri işğal edilsin və orada qarnizon yerləşdirilsin (69).

Hadisələrin sonrakı gedişi göstərdi ki, Ənzəliyə göndərilən hərbi qüvvələrin vəzifəsi yalnız bundan ibarət deyildi. Sisianov Ənzəliyə göndərilən hərbi qüvvələrin fəallaşmasına nail olmaqla Fətəli şah qüvvələrinin bir hissəsini ora cəlb etmək və bununla da Qarabağa göndərilməli olan Qacar qoşunlarının gücünü zəiflətmək istəyirdi.

Ənzəliyə göndəriləcək desant qüvvəsinin tərkibində 8 bölük var idi. Onlardan 6-sı Kazan muşketyor alayından, 2-si isə 16-cı yeger alayından idi. Bu bölüklərin şəxsi heyətinin sayı belə idi: 35 zabit, 86 unter-zabit, 23 təbilçi, 1046 sıravi, 115 qeyri-nizami, 40 topçu. Şəxsi heyətin ümumi sayı 1345 nəfər idi. Dəstənin ixtiyarında 1 ədəd 12 funtluq top, 3 ədəd 6 funtluq top var idi. Dəstənin daşınması üçün 12 ədəd hərbi gəmi və dəstənin ərzağının və təchizatının daşınması üçün 11 ticarət gəmisi vəzifələndirilmişdi. Hərbi gəmilərin özlərinin də topları var idi (70).

Desant dəstəsinin rəhbəri təyin olunan general-mayor Zavalişin Gizlər yaxınlığındakı Sladkosroçnı limanına yollanmalı və orada həm hərbi qüvvənin gəmilərə yüklənməsinə və dəstə üçün zəruri olan ərzaq və təchizatın yetərli olmasına nəzarət etməli və sonra da Xəzərin qərb sahili boyu hərəkətə başlamalı idi. Ekspedisiyanın uzunmüddətli səfər üçün hazırlığına general Zavalişin məsuliyyət daşıyırdı və anlaşılırdı ki, ekspedisiyanın qarşısına qoyulan vəzifələrin həlli də dəstənin hazırlanmasının yüksək səviyyədə olmasından asılı idi. Ənzəli ekspedisiyasının fəaliyyəti haqqında hazırlanmış təlimatdan aydın olur ki, rus qoşun dəstəsi Ənzəli və Rəştdə öz vəzifələrini icra etdikdən sonra Bakıya qayıtmalı və bu şəhəri nəzarət altına almalı idi. Dəstə Ənzəliyə çatandan sonra quruya çıxmalı və topların daşınması üçün at və digər heyvanlar tapmalı, habelə yerli əhalinin qorunması üçün onlardan ipək almalı idilər. Bildirilir ki, yerli tacirlər talanlara məruz qaldıqları üçün onların mühafizəyə ehtiyacları var idi. Tövsiyə olunurdu ki, rus hərbçiləri istər Rəştdə, istərsə də Bakıda əhalini talan etməkdən çəkinməli və bununla da yerli əhalinin Rusiyaya qarşı düşmənçiliyinə yol verilməməlidir (71).

Rəşt və Bakıya münasibətdə ekspedisiyanın qarşısında fərqli vəzifələr dayanırdı. Rəşt şəhəri ruslar tərəfindən müvəqqəti işğal edilməli idi. Rəşt şəhərini işğal etməklə Fətəli şaha rus silahının gücü nümayiş etdirilməli və eyni zamanda ondan müharibə xərclərinin alınmasına cəhd göstərilməli idi. Bakı isə birdəfəlik işğal edilib Rusiya imperiyasının tərkibinə qatılmalı idi. Bu şəhər liman şəhəri kimi rus tacirlərinin Xəzər dənizindəki sığınacağı olmalı idi. Rus dəstəsi Rəşt şəhərindən 8 verst aralı olan Pəribazar çayı mənsəbində sahilə çıxmalı və orada möhkəmlənməli idi. İlkin olaraq sahilə iki bölüyün və bir ədəd topun çıxarılması lazım bilinirdi. Bu dəstə sahilə çıxan kimi çayın hər iki sahilində səngərlər qazaraq orada yerləşməli idi. Adı çəkilən çayın mənsəbində ruslar yerli əhalinin silahlı müqaviməti ilə rastlaşsaydılar, onda qamışlıqdan və ya tüstü pərdəsindən istifadə etməklə başqa bir ərazidə sahilə çıxmağa nail olmalı idilər. Sahilə çıxdıqdan sonra Pəribazar yaxınlığında mühafizə postu saxlamaqla ruslar topların müşayiəti ilə Rəştə doğru irəliləməli idi. Rus dəstəsi vaxtilə polkovnik Şişkovun yerləşdiyi karvansaranın qarşısındakı meydana toplaşmalı idi. Pəribazarda sahilə çıxan kimi ruslar Rəştə öz nümayəndəsini göndərib şəhərin təslim olmasını tələb etməli idilər. Ruslar ümid edirdilər ki, rəştlilər şəhəri təhvil verməklə bərabər, müharibə xərci də ödəyəcəklər. Rəştin tutulmasından sonra ruslar Qəzvin yolunun nəzarət altına alınmasını planlaşdırırdılar. Çünki güman edirdilər ki, bu yolla Fətəli şah

Rəştin azad edilməsi üçün qoşun dəstəsi göndərə bilər. Rəştin ruslara qarşı müqavimət göstərməsinin aradan qaldırılması üçün yerli əyanların ailələrindən girov götürülməsi də planlaşdırılırdı. Rəştin tam nəzarət altında alındığına əminlik hasil olduqdan sonra ruslar yerli əyanların nümayəndələri ilə birlikdə Sisianovun məktubunu Fətəli şaha aparmalı idilər (72).

Sisianov Qacar şahına yazdığı məktubunda bildirirdi ki, Rusiya imperatoru Qara dənizlə Xəzər dənizi, Volqa çayı ilə Kür-Araz çayları arasındakı əraziləri onun rəhbərliyi altına verib və ona qədim İberiyanın bərpa edilməsini tapşırıb. Onun yazdığına görə, guya Gürcüstan əraziləri vaxtilə Qara dəniz sahilində olan Abxaziyadan Xəzər sahilində olan Dərbəndə qədər uzanırmış və indi həmin ərazilərin geri qaytarılması ilə məşğuldur. Sisianov bu istiqamətdə artıq ilk addımları atdığını, İrəvan xanlığı ərazisində Abbas Mirzənin rəhbərliyi altında olan şah qoşunlarını geri qovduğunu, Qacar qoşunlarına çoxlu itki yetirdiyini yazırdı. Sisianov sonra İrəvan xanlığı ərazisində göstərdiyi şücaətini şişirdir və bunun üçün müxtəlif rəqəmlər sadalayırdı. Onun sözlərinə görə, İrəvan xanlığı ərazisində bir sıra gürcü zadəganları və ermənilər qacarlara əsir düşüblər. Onların geri qaytarılması üçün irəli sürülən tələb yerinə yetirilmədiyi üçün Sisianov Fars sahillərinə dəniz qüvvələri göndərdiyini bildirirdi. Sisianov yazırdı ki, onun tələblərinə yenə də əməl olunmasa onda Qacar əraziləri qılıncdan keçiriləcək, yandırılacaq və viran qoyulacaqdır. Onun tələbləri isə aşağıdakılar idi: 1) Qacar qoşunlarına silahla və ya silahsız əsir düşmüş bütün rusların geri qaytarılması; 2) Qacarlara əsir düşmüş bütün gürcü knyazlarının və zadəganlarının geri qaytarılması; 3) Ağa Məhəmməd xan Qacarın Tiflisə hücumu zamanı ələ keçirdiyi bütün topların geri qaytarılması; 4) Əvvəlki müharibə kampaniyasına görə, rus pulu ilə bir milyon rubl təzminat ödənməsi. Bu tələblər yerinə yetiriləcəyi təqdirdə rus qoşunları geri qayıda bilərdilər. Sisianovun tələbləri bununla bitmirdi. O rus qoşunlarını o şərtlə geri çəkmək istəyirdi ki, Qacar qoşunları daha Arazdan şimalda olan ərazilərə gəlməsinlər. Sisianov Qacar şahını hədələməkdən də çəkinmirdi və ona çatdırırdı ki, əgər tələblərini qəbul etməsə Qacar ərazisindən keçməklə Hindistana qədər irəliləyə bilər (73).

Təkəbbürlü Sisianov hədə-qorxularının Tehran sarayı tərəfindən qəbul olunacağına o dərəcədə əmin idi ki, hətta məğlub hesab etdiyi Fətəli şahla müqavilə bağlanması üçün də öz məsləhət və təkliflərini hazırladı. Bu təkliflər əsasən onun məktubunda açıqlanan tələblər idi. Sisianov Tehran sarayının təkid göstərəcəyi təqdirdə müharibə təzminatının 800 min rubla, sonra da 600 min rubla qədər endirilməsinə

razı idi. Bundan əlavə müqavilədə o da əksini tapmalı idi ki, Qacar sarayı Rəştdə Rusiya konsulluğunun açılmasına razılıq verir və rus tacirlərinin azad fəaliyyətinə şərait yaradır.

Tehran sarayının Rusiyanın tələblərini qəbul etməyəcəyi təqdirdə Sisianiv tələb edirdi ki, Rəşt şəhəri işğal edilsin və Qacarlar dövlətindən qoparılsın, Rəştə yeni hakim təyin edilsin, ona təzminat müəyyənləşdirilsin və rus ticarətinin qorunması üçün Rəşt sahillərində bir rus gəmisi saxlanılsın. Əgər Rusiyanın tələbləri qəbul olunsaydı belə, Sisianov Rəştdə konsulluğun açılmasını və rus tacirlərinin qorunması üçün bir rus hərbi gəmisinin orada saxlanmasını vacib sayırdı. Rəşt ətrafında verilən tapşırıqlar yerinə yetiriləndən sonra rus qoşun dəstəsi Bakıya gəlməli və Bakı buxtasına daxil olaraq bu şəhəri dənizdən mühasirə etməli idi. Bundan sonra bir rus hərbçisi Bakı hakimləri yanına göndərilməli və şəhərin təhvil verilməsi təklif olunmalı idi. Bakı hakimləri bu tələbi yerinə yetirməzdilərsə, onda bəyan edilməli idi ki, 1803-cü ildə Bakı hakimləri öz nümayəndələrini Tiflisə, Sisianovun yanına göndərməklə Rusiya təbəəliyinin qəbul edilməsi haqqında müqavilə imzalamış, lakin bu müqaviləyə əməl etməmişdilər. Rus qoşun dəstəsinin gəlişi imzalanmış müqaviləni icra etməyənlərin cəzalandırılması ilə bağlanmalı idi. Bildirilməli idi ki, Bakı şəhəri ruslara təslim olmalıdır. Əks təqdirdə şəhər yandırılaraq külə döndərilə bilərdi. Bakı hakimləri lazımi cavab verməsəydilər və ya rus nümayəndəsi yüksək səviyyədə qəbul olunmasaydı, onda gəmilərdən şəhərə bir neçə atəş açılmalı idi. Şəhər ələ keçirildikdən sonra liman ətrafındakı yaşayış məhəlləsəri ələ keçirilməli və orada ruslar yerləşdirilməli idi. Şəhərin mühüm nöqtələrində isə toplar qurulmalı idi ki, şəhər əhalisini qorxu altında saxlamaq mümkün olsun. Şəhər üzərinə nəzarət təmin edildikdən sonra qoşun dəstəsi bütünlüklə şəhərə yeridilməli idi. Bundan sonra gəmilər Həştərxana qayıtmalı idi. Ənzəlidə, Talışda və Bakıda bir ədəd olmaqla gəmi saxlanmalı idi. Rus hərbçilərinin ərzaq və təchizatla təmin etmək üçün Sisianov Nargin adasında anbar yaradılmasını təklif edirdi. Onun fikrincə, belə bir anbarın yaradılması üçün Nargin adası yararlı yer idi. Bakı şəhəri işğal edildikdən sonra general Zavalişin Sisianovun yanına çapar göndərməli idi. Sisianov ümid etdiyini bildirirdi ki, Bakı şəhəri işğal ediləndə Qarabağ və Şəki xanlıqları artıq Rusiyaya birləşdirilmiş olacaqlar (74).

1805-ci il aprel ayının sonlarında hərbi dəniz dəstəsinin Ənzəliyə doğru hərəkətə başlayacağı güman edilirdi (75). Lakin bu baş vermədi və dəstənin yola düşməsinin ləngiməsi müəyyən təşviş və narahatlıqları da ortaya qoydu. Rusiyanın Ənzəlidəki konsulu Skibnevski bu ləngimənin

arzuolunmaz nəticələrlə başa çata biləcəyini general Sisianovun nəzərinə çatdırdı. Skibnevski bunu onunla izah edirdi ki, iyulun başlanğıcına kimi gilanlılar ipək istehsalını başa çatdırıb yaylaqlara çəkilirlər. Ruslar isə Gilan sahillərində gözləməli olmaqla o yerlərdə çox yayılmış xəstəliklərə tutula bilərdilər. Belə bir şəraitdə Qacar qoşunları da rusları sakit buraxmazdılar. Xoşagəlməz hadisələrlə qarşılaşmamaq üçün Skibnevski rus dəstəsini yerli tayfaların silahlıları ilə möhkəmləndirməyi təklif etdi. Sisianov da bu təkliflə razılaşdı (76).

Uzun-uzadl hazırlıqdan sonra 1805-ci il iyun ayının 10-da gəmilər Ənzəliyə doğru hərəkətə başladılar və iyun ayının 23-də Ənzəliyə çatdılar. Rus hərbi gəmilərinin Ənzəli sahillərində peyda olması şəhər əhalisinin narahatçılığı ilə qarşılaşdı. Rusların gəlişinin məqsədi ilə maraqlanan şəhər hakiminin nümayəndələrinə bildirildi ki, Ənzəli işğal edilməlidir. Şəhər təslim edilməsə, onda bu məsələ silah gücünə həyata keçiriləcəkdir. Səhəri gün ruslar sahil boyu yerli əhalinin silahlı müqaviməti ilə qarşılaşdılar. Müqavimətin qarısının alınması üçün ruslar üç hərbi gəmini limana doğru hərəkət etdirdilər və bununla da şəhər əhalisinin müqaviməti aradan qalxdı. Rusların qarşısının saxlanmasının çətin olacağını görən şəhər sakinlərinin çoxu ev-eşiklərini tərk edib dağlara və meşələrə çəkildilər. Ənzəlidə yaşayan ermənilər bu xəbəri ruslara çatdırdılar. Ruslar da rahatlıqla şəhər qalasını nəzarət altına aldılar (77).

Rəşt ətrafında da ruslar yerli əhalinin silahlı müqaviməti ilə rastlaşdı. İyun ayının 1-də podpolkovnik Aseyevin rəhbərliyi altında 450 nəfərlik yeger dəstəsi Pəribazar çayının mənsəbində hər iki tərəfdən sahilə çıxdılar. Pəribazar məntəqəsinə qədər olan üç verstlik sahədə yerli əhali müdafiə mövqelərində müqavimət göstərdilər. Yegerlərin hücumu sahilə yaxınlaşmış 4 ədəd gəmi vasitəsilə müşayiət olunurdu. Göstərilən bütün cəhdlərə baxmayaraq, yerli silahlılar rusların hücumunun qarşısını saxlaya bilmədilər və nəticədə Pəribazar məntəqəsi də rusların əlinə keçdi. Rusların qarşısında dayanan sonrakı vəzifə isə Rəşt şəhərinin işğalı idi. Yerli əhalinin çağırılmamış işğalçılara qarşı müqavimətinin güclənməkdə olduğunu görən general Zavalişin Hərbi Şura topladı. Hərbi Şurada belə bir qənaətə gəlindi ki, Rəşti ələ keçirmək mümkün olsa da orada möhkəmlənmək mümkün olmayacaqdır. Xüsusilə də, arxada Pəribazarın və Ənzəlinin müdafiəsiz qalması ruslara daha ehtiyatlı fəaliyyətə sövq edirdi. Qərara alındı ki, Rəşt üzərinə hücum təşkil edilsin, oradakı silahlı qüvvələr şəhərdən sıxışdırılsın və sonra da ruslar Pəribazar və Ənzəliyə çəkilsinlər. İyul ayının 5-də general Zavalişinin rəhbərliyi altında olan 800 nəfərlik rus dəstəsi 3 ədəd topun müşayiəti ilə Rəştə doğru hərəkətə başladı. Rus mənbələrində Rəşt ətrafında yerli əhalinin 7

minlik silahlı dəstəsinin müqavimət göstərməsi haqqında məlumat vardır. Verilən məlumata görə, guya yerli silahlıların çox olması general Zavalişinin dəstəsinin irəliləməsinə imkan vermədi. Ruslar Rəştə qədər olan yolun yarısını keçə bildilər. General Zavalişin geri çəkilmək haqqında əmr verdi. Ruslar yerli silahlıların davamlı atəşləri altında geri çəkilməli oldular. Ruslar Pəribazara çəkilə bilsələr də orada dayanmağı da təhlükəli hesab etdilər. Belə olanda onlar Ənzəliyə üz tutdular. Bununla ruslar qarşılarına qoyduqları məqsədə nail ola bilmədilər. Ənzəlini işğal edəndən sonra general Zavalişin yerli əhalinin nümayəndələri vasitəsilə general Sisianovun məktubunu Fətəli şaha göndərdi. Rəşt istiqamətində başlanan hücumda uğursuzluğa düçar olub yenidən Ənzəliyə qayıdan rusların son ümidi Fətəli şahdan rusların şərtlərini qəbul edəcəyi haqqında məktub almaq idi (78).

Yerli silahlı dəstələr Ənzəlidə də rusları sakit buraxmadılar. Ruslar hər gün silahlı hücuma məruz qalırdılar. Bundan əlavə əsgərlər arasında yayılan xəstəlik rusların gücünü daha da zəiflətdi. Belə olanda general Zavalişin Ənzəlidə qalmağın təhlükəli olduğunu anladı. O eyni zamanda Fətəli şahdan da cavab məktubu alacağına ümidini itirdi. Nəticədə iyul ayının 26-da rus dəstəsi Ənzəlidən uzaqlaşmağı qərara aldı. Dəstə əvvəlcə Lənkərana, oradan da Bakıya doğru hərəkətə başladı. 1805-ci il avqust ayının 12-də rus dəstəsi Bakı yaxınlığına gəlib çıxdı (79).

General Zavalişinin rəhbərliyi altında rus hərbi dəniz dəstəsinin Ənzəliyə və Rəştə hücumu haqqında Qacarların tarixi haqqında yazılmış bəzi məlum farsdilli mənbələrdə də müxtəlif məlumatlar mövcuddur. Bu məlumatlar hadisələrin təsvirində rus mənbələri ilə müqayisədə bəzi fərqli məqamları ortaya qoyurlar. Həm "Məəssər-e Soltaniyyə"də, həm də Mirzə Məhəmməd Sadıq Vəqayeneqarın əsərində Ənzəli və Rəştə hücum edən rus dəstəsinin rəhbəri olan generalın adı Şeft (Shaft) kimi göstərilmişdir. Bu adın haradan götürüldüyünü söyləmək çətindir. Ə.Dündəli reyddə iştirak edən gəmilərin sayının 12 ədəd olduğunu göstərmişdir. Onun yazdığına görə, Ənzəliyə doğru irəliləyərkən rus dəstəsi Talış yaxınlığında ləngər atdı və 2 gündən sonra yoluna davam etdi. Rusların Ənzəliyə yaxınlaşı zamanı Dilman hakiminin göstərişinə əsasən, yerli silahlıların Ənzəlidə mövqe tutduqları bildirilir. Müəllif səbəbini göstərməsə də müəllif onların Ənzəlini tərk etdiyini və rusların şəhərə daxil olduğunu yazır (80).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqara görə, ruslar Ənzəliyə daxil olanda şəhərdəki məmurların sayı kifayət qədər deyildi və olanların da ruslara müqavimət göstərmək imkanı yox idi. Ona görə də onlar ruslara müqavimət göstərmədən geri çəkildilər. Ruslar da yaranmış fürsətdən

istifadə edərək Ənzəliyə daxil oldular, şəhər daxilində talanlara başladılar və əllərinə keçənləri gəmilərə daşıdılar (81).

Adları çəkilən hər iki əsərdə bildirilir ki, Gilanda idarəçiliyin qurulmasına göndərilmiş olan Mirzə Musa Münəccimbaşı adlı birisi rusların hücum xəbərini alan kimi yerli hakimləri, əyanları və əhalini müqavimət üçün öz ətrafında birləşdirməyə nail oldu. Yenə hər iki əsərdə Mirzə Musa Münəccimbaşının rəhbərliyi altında yerli qüvvələrin Pəribazar ətrafında səngərləndikləri yazılmışdır. Bu əsərlərə görə, belə bir qənaət əldə etmək mümkündür ki, ruslar ümumiyyətlə Rəştə hücum etməyə cəsarət etməmişlər və hadisələrin əsas gərginliyi də məhz Pəribazar ətrafında baş vermişdi.

Ə.Dünbəliyə görə, Mirzə Musa Münəccimbaşı tüfəngdarlar dəstəsini Pəribazarın küçələrində yerləşdirdi. Şəhər kənarındakı səngərlərdə də döyüş mövqeləri tutuldu. Pəribazar ətrafındakı meşələrdə tərəflərin güclü atışması baş verdi. Gərgin keçən döyüşlər rusların geriləməsi və yerlilərin təzyiqlərinə dözməyərək Ənzəliyə geri çəkilməsi ilə nəticələndi. Mirzə Musa Münəccimbaşının rəhbərliyi altında ruslara səmərəli müqavimət göstərilməsi şah tərəfindən də təqdir olundu və Pəribazarın müdafiəçiləri Fətəli şahın ənam və mükafatlarına layiq görüldü (82).

M. Məhəmmədsadıq Vəqayeneqar isə yazırdı ki, 15 gün Ənzəlidə qalandan sonra ruslar Pəribazarı tutmaq istədilər. Bu məqsədlə ruslar Pəribazara doğru irəliləyərkən meşələrin içərisində Mirzə Musa Münəccimbaşının güclü müqaviməti ilə rastlaşdılar. Müəllifə görə, ruslar burada üç gün yerli dəstənin müqavimətini qırmağa çalışdılar. Çoxlu adam və silah itkisi verəndən sonra ruslar Ənzəlidən çəkildilər və öz gəmilərinə minib Bakıya doğru üz tutdular (83).

General Zavalişin Ənzəlinin və Rəştin işğalını həyata keçirə bilmədiyi kimi, Fətəli şah qoşunlarının Qarabağ cəbhəsindən yayındırılmasına və bununla da rus qoşunlarının vəziyyətinin yaxşılaşdırılmasına da nail ola bilmədi. Pəribazar və Ənzəli ətrafında ruslara qarşı vuruşanlar əsasən yerli qüvvələr idi və Təbriz ətrafına toplanan Qacar qoşunlarından ora hər hansı bir qüvvə göndərilməmişdi. Sisianov da çox böyük təəssüflə general Zavalişinin diqqətinə çatdırırdı ki, onun ləngliyi üzündən Fətəli şah bütün qoşunları Qarabağ xanlığına istiqamətləndirə bilmişdi (84).

General Zavalişinin Bakı ətrafına gəlməsi və Bakını mühasirəyə almaq cəhdi haqqında rus mənbələrində olduğu kimi, farsdilli mənbələrdə də məlumat mövcuddur. Lakin bu məlumatlar bir-birindən xeyli fərqlidir. Rus mənbələrinə istinad edən rus tarixçilərinin yazdığına görə, Bakı buxtasına yetişən günün sabahı Hüseynqulu xan öz nümayəndələrini rusların yanına göndərdi ki, onların gəlişinin məqsədilə maraq-

lansın. General Zavalişin də həmin nümayəndələrə çatdırdı ki, Allahverdi bəy tərəfindən imzalanan müqaviləyə əməl edilmədiyi üçün Bakı xanının cəzalandırılmasına gəlmişdir. General Zavalişin də öz növbəsində öz nümayəndəsini Bakı xanının yanına göndərdi və ondan qalanın təslim edilməsini və qaladakı silahların toplanıb rus gəmilərinə göndərilməsini tələb etdi. Bildirilir ki, bu tələblər Bakı xanı tərəfindən normal qarşılandı. Xan nümayəndələri xanlıq əhalisinin Rusiya imperatorunun təbəəsi olduğunu təkrar etdilər. Guya Rusiya dövlətinin təbəələri kimi də Rusiyadan xahiş etdilər ki, xanlıq əhalisinin Quba və Şamaxı xanlıqları sərhədlərindəki mal-qaranı geri qaytarmağa kömək etsinlər. Rusların nəzərinə çatdırıldı ki, Bakı əhalisinin onlara qarşı xoş münasibətdə olmasını Quba və Şamaxı xanları eşitsələr onda mal-qaranı geri almaq çətin olacaqdır. Mövcud məlumata görə, ruslar qalanın təslim edilməsi üçün bir-neçə gün möhlət verdilər (85).

Ruslara görə, avqustun 15-də şəhər təslim edilməli olduğu halda Hüseynqulu xan daha iki aylıq möhlət istədi. General Zavalişin bu təklifi qəbul etmədi və günün sonuna qədər şəhərin təslim edilməyəcəyi təqdirdə onun top atəşinə tutulacağını bildirdi. Belə olanda qala daxilindəkilər də şəhərin müdafiəsi üçün hazırlıq görməyə başladılar. Elə həmin gün də ruslar şəhəri top atəşinə tutdular. Sonrakı bir neçə gün ərzində ruslar şəhərin bombalanmasını davam etdirdilər. Bununla belə, rusların göstərdiyi cəhdlər bir nəticə vermədi. Top atəşləri ilə bir nəticə hasil olmayanda general Zavalişin şəhərin mühasirəsi üçün sahilə desant çıxardı. Avqust ayının 22-də rusların iki dəstəsi sahilə çıxarıldı. Bu dəstələrdən birinə general Zavalişin, digərinə isə polkovnik Aseyev rəhbərlik edirdilər. Bildirilir ki, ruslar şəhər müdafiəçilərini qala daxilinə sıxışdıra bildilər. Avqust ayının 29-da rus dəstələri Bakının ətrafındakı yüksəkliklərə çıxarıldı. Güman edilirdi ki, bu yüksəkliklərdə mövqe tutmaqla şəhərin ətrafla olan əlaqələrini kəsmək olar. Rusların iki dəstəsi 700 nəfərdən təşkil olunmuşdu. Bu dəstələrin ixtiyarında üç ədəd top var idi. Ruslar qala divarlarından kənara çəkildiyi üçün qala müdafiəçiləri daha azad şəkildə müdafiə olunmaq imkanı əldə etdilər. Onlar hətta rusların cinahlarını da hücuma məruz qoydular. Rus mənbələrinə görə, qala müdafiəçilərinin hər bir hücumu onların itkiləri ilə nəticələnirdi. Rus tarixçilərinin yazdığına görə, Bakı ətrafındakı kəndlərdə də yerli silahlı dəstələr var idi və onlar öz mövqelərini inadcıllıqla qoruyurdular. Sentyabr ayının 3-də Zavalişin Bakı ətrafında dayanmağı özü üçün təhlükəli saydı və ona görə də bütün qüvvələrin gəmilərə çəkilməsinə göstəriş verdi. Ruslar general Zavalişinin geri çəkilməsini və Bakının

mühasirəsindən çəkilməsini Quba xanının və Qazıqumıx hakiminin Bakının müdafiəsinə kömək göndərməsi ilə bağlayırdılar (86).

General Sisianova görə isə, general Zavalişinin geri çəkilməsi onun əməliyyatı qura bilməməsinin nəticəsi idi. Onun yazışmalarından görünür ki, Bakı şəhərinin işğalını çox böyük səbirsizliklə gözləyirdi. General Zavalişinin geri çəkilməsi xəbəri isə onun sonsuz qəzəbinə səbəb oldu. Onun fikrincə, general Zavalişinin uğursuzluğu Rusiyanın şərəfini havaya sovurmaq demək idi. Sisianov general Zavalişinin qala divarları ətrafından şəhər ətrafındakı yüksəkliklərə çəkilməsinin mənasını da başa düşə bilmirdi. Ona fikrincə, şəhər ətrafındakı yüksəkliklərdə dayanmaq heç də Bakının mühasirəsi demək deyildi və ona görə də qoşun dəstəsinin uğursuzluğa düçar olmasına Sisianov təəccüb etmədi (87).

Hər halda general Zavalişin Bakı müdafiəçilərinin iradəsini qıra bilmədi. Pəribazar ətrafında olduğu kimi, Bakı ətrafında da general Zavalişinin qazancı geri çəkilmək oldu.

General Zavalişin Bakı buxtasında dayanmağı da özünə təhlükə saydı. O, dəstənin tərkibindəki zabitləri toplayaraq sentyabrın 8-də onlarla məsləhətləşdi və bu məsləhətləşmə zamanı qərara alındı ki, Sara adasına geri çəkilmək lazımdır. Doğrudur, geri çəkilmək üçün başqa bəhanə ortaya atıldı. Guya general Zavalişin Şəqqaqi xanının təbəəliyində olan əhalinin Gəncə xanlığına köçürülməsinə yardım göstərməli idi (88).

Lakin general Sisianov bu bəhanə ilə razılaşmadı. General Sisianov etiraf edirdi ki, o, doğrudan da Zavalişinə şəqqaqilərlə bağlı tapşırıq vermişdi. Lakin Sisianov onu da təkidlə bildirirdi ki, general Zavalişin üçün ən başlıca vəzifə Bakının işğal edilməsi idi. Bu tapşırıq icra ediləndən sonra general Zavalişin əlavə vəzifə kimi şəqqaqilərlə məşğul ola bilərdi. Amma şəqqaqilər bəhanəsi ilə general Zavalişinin Bakının mühasirəsini ataraq Sara adasına uzaqlaşmasını Sisianov düzgün qərar saymırdı (89).

General Sisianov tapşırıq verdi ki, general Zavalişin dəstəsi ilə yenidən Bakı ətrafına qayıtsın, Bakı ətrafında su mənbəyi olan yüksəkliklərdən birində səngərlənsin və möhkəmlənsin. General Zavalişin rus dəstəsinin ərzaq anbarının yerləşdiyi Nargin adasını nəzarət altında saxlamaqla Bakı ətrafında general Sisianovu dəsətəsi ilə gəlməsini gözləməli idi. General Zavalişin də bu tapşırığı yerinə yetirməli oldu. Bir müddət Sara adasında istirahət etdikdən sonra o, Bakı ətrafına gəldi və orada müdafiə mövqeyi qurdu. Mövcud məlumatlara əsasən, belə bir qənaətə gəlmək mümkündür ki, general Zavalişin 1805-ci ilin noyabr ayında Bakı ətrafında yenidən müdafiə mövqeyi tutdu (90).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqarın qeydlərinə görə, general Zavalişinin Gilandan Bakıya gəlməsi P.D.Sisianovun göstərişi əsasında baş verdi. Sisianov Bakının işğalına üstünlük verdiyi üçün ona tezliklə Bakı ətrafına yollanmağı tapşırdı. Müəllif yazırdı ki, Sisianov generaıl Zavalişinə ünvanladığı məktubu bir rusa verdi və onu bir erməni ilə Zavalişinin yanına göndərdi. Bildirilir ki, həmin günlərdə ləzgi Surxay xanın oğlu bir neçə nəfərlə Bakı yaxınlığında ovla məşğul idi. Onlar Sisianovun məktubunu aparan adamları görüb onları dayandırdılar. Tutulanlar hara və nə məqsədlə getdiklərini gizlətməyə çalışsalar da, Sisianovun məktubu tapılandan sonra onlar həbs edilərək Hüseynqulu xanın yanına göndərildilər. Hüseynqulu xan da məktubun məzmunu ilə tanış olandan sonra məsələ ilə bağlı Quba xanı Şeyxəli xana məlumat göndərdi. Müəllifin yazdığına görə, Şeyxəli xan da məlumatı Abbas Mirzəyə çatdırdı və Sisianovun Bakı ilə bağlı niyyətləri haqqında onu məlumatlandırdı. Abbas Mirzə də bundan xəbər tutan kimi 12 minlik qoşun dəstəsini Əsgər xan Urmiyalının rəhbərliyi altında Şeyxəli xanın köməyinə göndərdi (91).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqarın yazdığına görə, general Zavalişin Sisianovdan gözlədiyi məktubu almadıqda özü öz qərarı ilə Bakının mühasirəsinə yollandı. O, dənizlə hərəkət edərək Bakı buxtasında lövbər saldı. Bildirilir ki, Abbas Mirzənin köməyə göndərdiyi dəstənin Bakıya yetişməsi rus dəniz dəstəsinin Bakı buxtasına yetişməsi ilə bir vaxta təsadüf edirdi. Abbas Mirzənin göndərdiyi dəstənin rəhbəri Əsgər xan ixtiyarında olan toplardan birini sahilə yaxınlaşdırdı və rus gəmilərini atəşə tutdu. Məlumata görə, bu atəşdən sonra rusların bir neçə gəmisinə ziyan dəydi və onlardan biri də dənizdə batdı. Mirzə Məhəmməd Sadıq Vəqayeneqar rusların sahilə çıxmasını da bu atışma ilə əlaqələndirir. Quruya çıxan rus qoşun dəstəsi Əsgər xanın dəstəsi ilə döyüşə girdi. Bundan xəbər tutan Hüseynqulu xan əvvəlcə qala daxilində müdafiə tədbirləri həyata keçirdi və sonra da qala xaricində döyüş mövqeləri tutdu. Bildirilir ki, bu zaman Şeyxəli xanın və Surxay xanın oğlu Nuh bəyin də dəstələri Bakı xanının köməyinə gəldilər. Bundan sonra rus qoşun dəstəsi geri çəkilmək məcburiyyətində qaldı və ruslar gəmilərə doluşaraq Sara adasına doğru hərəkətə başladılar (92).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqar yazır ki, general Zavalişin Sara adasında olarkən ermənilərin vasitəsilə Mir Mustafa xanla təmas qurdu, onu Rusiyaya tərəf meylləndirməyə çalışdı. Bildirilir ki, bu yazışmalardan sonra Mir Mustafa xan general Zavalişinin yanına yollandı və onunla görüş keçirdi (93).

General Zavalişin yuxarıda qeyd edildiyi kimi, Sara adasında uzun müddət qala bilmədi və yenidən Bakı ətrafına qayıtdı. Bakıdan 40 verst aralıda sahilə çıxan general Zavalişin Hüseynqulu xana məktub göndərib onu Rusiya təbəəliyini qəbul etməyə çağırdı. O, Rusiya təbəəliyinin qəbul edilməsi üçün imzalamalı olacaq müqavilə layihəsini Hüseynqulu xana Bakıya əvvəlki səfəri zamanı çatdırmalı idi. Lakin Bakı ətrafında yaranmış şərait üzündən rus generalı bunu edə bilmədi. Bu müqavilə layihəsi digər Azərbaycan xanları ilə imzalanmış müqavilənin oxşarı idi. Müqavilə layihəsinin birinci maddəsinə əsasən, Hüseynqulu xan Rusiya imperatorunun hakimiyyətindən başqa digər bir kimsənin hakimiyyətini tanımadığını öz öhdəsinə götürməli idi. Bunun əvəzində də ikinci maddəyə əsasən, Rusiya imperatoru onun və varislərinin xanlıq haqqını tanımalı idi. Üçüncü maddəyə görə, Rusiya imperatoru Hüseynqulu xanın xanlığını möhürlənmiş fərmanla təsdiq etməli idi. Hüseynqulu xan Rusiyaya sədaqət andı qəbul etməli idi. Dördüncü maddəyə görə, Bakı xanı Sisianovun razılığı olmadan qonşu hakimlərlə əlaqəyə girməli deyildi. Beşinci maddəyə görə, Bakı şəhərinin bütün gəlirləri toplanıb Rusiya xəzinəsinə verilməli idi. Bakı xanına isə ildə 10 min rubl maaş verilməli idi. Bakı qalasında 800-1000 nəfər arasında rus qarnizonunun yerləşdirilməsi də bu maddəyə əsasən tənzimlənməli idi. Altıncı maddəyə əsasən Bakı xanı rus qarnizonunu bina ilə təmin etməli idi. Digər maddələr də Kürəkçay müqavilələrinin maddələrinin təkrarı idi. Hüseynqulu xan girov kimi öz böyük oğlunu Sisianovun yanına göndərməli idi (94).

Rus mənbələrinə görə, general Zavalişinin məktubuna Hüseynqulu xan özünə məxsus cavab verdi və özünün artıq rus təbəəsi olduğunu da yazdığı məktubunda general Zavalişinin diqqətinə çatdırdı. Hüseynqulu xan bildirdi ki, əgər müqavilə layihəsini əvvəlcə almış olsaydı, artıq imzalanardı da. Yeni şəraitdə Hüseynqulu xan buna tələsmədiyini ona çatdırdı. Hüseynqulu xan şübhə etmirdi ki, ona imzalanmaq üçün göndərilmiş müqavilə Sisianov tərəfindən hazırlanmışdır (95).

Beləliklə də general Zavalişinin yeni hədə-qorxuları bir nəticə vermədi və Bakı xanlığını Rusiya tabeliyinə gətirmək ona qismət olmadı. Ona görə də general Zavalişinin Sisianovun dəstəsinin gəlib çıxmasını gözləməkdən başqa çarəsi qalmadı.

Bakı şəhərinin yenidən ruslar tərəfindən mühasirəyə alınmasını görəndə Hüseynqulu xan öz nümayəndələrini kömək üçün Şeyxəli xanın və Şamaxı xanı Mustafa xanın yanına göndərdi. Hüseynqulu xan onların hər birindən 500 nəfərlik dəstənin göndərilməsini xahiş etdi. Onlar da bu köməyi Hüseynqulu xana göndərməyə razı oldular (96).

Bakı ətrafında yaranmış vəziyyətdən xəbər tutan Sisianov bu şəhərin də danışıqlar yolu ilə Rusiyaya birləşdirilməsinin mümkün olmayacağını anladı və özünün sınanmış metodu olan silah işlədilməsinə əl atmağı qərarlaşdırdı. Sisianov əmin idi ki, yalnız güc nümayiş etdirməklə Hüseynqulu xanı öz inadından çəkindirmək və Bakı xanlığının müstəqilliyinə son qoymaq olar. Ona görə Sisianov Gəncədən şərqə doğru başlayacağı yürüş zamanı həm Şamaxı xanını, həm də Bakı xanını müqavilə imzalamağa məcbur etmək istəyirdi.

Bununla belə, Gəncədən hərəkət başlayandan sonra Sisianov Hüseynqulu xana məktub yazdı və onu Rusiya təbəəliyini qəbul etməyəcəyi təqdirdə hədələməkdən çəkinmədi. Sisianov Hüseynqulu xana onunla tanışlığını, 1803-cü ildə onun nümayəndəsi Allahverdi bəy tərəfindən Rusiya təbəəliyinin qəbul edilməsi haqqında müqavilə imzalanmasını, sonra da bu təbəəlikdən imtina etməsini xatırlatdı. Sisianov bildirdi ki, Hüseynqulu xanın müqavimət göstərməsinin heç bir mənası yoxdur. Əksinə, müqavimət göstərməsi ona itkilər bahasına başa gələr. Sisianov bəyan etdi ki, Hüseynqulu xanın çıxış yolu general Zavalişin vasitəsilə göndərilən müqavilə layihəsinin imzalanmasıdır. Sisianov, əks təqdirdə qalanın hücumla alınacağı, Hüseynqulu xanın isə Cavad xanın taleyini yaşamalı olacağını bildirdi. Sisianov təkidlə təklif edirdi ki, Hüseynqulu xan müqaviləni imzalasın, rus qarnizonunu Bakı qalası daxilinə buraxsın. Belə olacağı təqdirdə Sisianov Bakı xanı ilə dost kimi görüşəcəyini bəyan edirdi (97).

Sisianov şəkili tacir vasitəsilə göndərdiyi bu məktubunun Hüseynqulu xanı yumşaldacağına və onu müqavilənin imzalanmasına sövq edəcəyinə əminliklə yanaşırdı. O, general Zavalişini də xəbərdar etdi ki, Bakıya yaxın olsun. Yoxsa, müqavilənin imzalamağa hazır olan Hüseynqulu xan onu axtarıb tapa bilməzdi (98).

Hüseynqulu xan isə Sisianovun heç bir hədə-qorxusunu qəbul etmədi. Ona görə də general Sisianov Şamaxı xanı ilə müqavilə imzalayandan sonra Bakı xanlığı üzərinə hücumun hazırlığına başladı. Hava şəraitinin mürəkkəb olmasına baxmayaraq, Sisianov Bakıya doğru irəliləməyi məqsədəuyğun sayırdı. Çünki onun fikrincə, mürəkkəb qış şəraitində Qacar sarayı Bakı xanına lazımi köməyi göndərə bilməyəcəkdi ki, bu da Bakı xanının müdafiə imkanını xeyli zəiflədərdi. Lazımi hazırlıq işlərini görəndən sonra P.D.Sisianov 1806-cı ilin yanvarının ilk günlərində Şamaxı ətrafından Bakıya doğru hərəkətə başladı.

General Sisianov 1806-cı il yanvar ayının 30-da Bakı yaxınlığına yetişdi və Naharbulaq adlı məntəqədə düşərgə saldı. Rus generalı Bakı ətrafına gec çatmasını yolların qarlı olması ilə əlaqələndirirdi. Bir gün

sonra o, general Zavalişinə məktub göndərdi. Bu məktubun məzmunundan belə bir qənaətə gəlmək mümkündür ki, Sisianov Bakı ətrafına çatanda general Zavalişin gəmilərdə idi. Sisianov öz dəstəsindən 300 nəfərlik bir qrupu onun yanına köməyə göndərdi ki, həmin qrupun himayəsi altında general Zavalişinin 100 nəfərlik dəstəsi bir ədəd topla sahilə çıxsın. Başqa sözlə, gəmilərdə olan rus dəstəsinin görünür, təhlükəsiz sahilə çıxmasının özü də müəyyən çətinliklərlə qarşılaşırdı. Fevral ayının 2-də general Zavalişin bütün dəstəsi ilə Sisianovun dəstəsinə birləşdi. Bu zaman onun dəstəsində 486 nəfər silahlı və 4 ədəd top var idi. General Zavalişin Bakının Quba yolu istiqamətində toplaşan Sisianovun dəstəsinin sol cinahında yerləşdirildi (99).

General Sisianov Bakı ətrafına yetişəndən bir gün sonra Hüseynqulu xana yenidən məktub göndərdi. Sisianov öncə yazdığı məktuba cavab olmadığını, Bakı xanı tərəfindən əvvəlcə imzalanan müqaviləyə əməl edilmədiyini Hüseynqulu xanın diqqətinə çatdırdı. Sisianov yazırdı ki, Hüseynqulu xanın general Zavalişinə qarşı müqavimət göstərməsini və rus qoşunlarına qarşı güllə atılmasını da təəccüblə qarşılamışdır. General Sisianov bir daha Bakı qalasının əvvəldən təqdim edilmiş müqavilə layihəsi əsasında təhvil verilməsini tələb etdi. Sisianov yenə özünə xas olan təkəbbürlə bəyan edirdi ki, Bakı xanı onu silaha əl atmağa məcbur etməsin və Bakı qalasını təhvil versin. Guya o bununla humanistlik və mərhəmət nümayiş etdirirdi. Hüseynqulu xana isə Bakının təhvil verilməsi barəsində 24 saat vaxt verildi (100).

Hüseynqulu xan dərhal Sisianovun məktubuna cavab verdi və onun tələbinə də öz münasibətini bildirdi. O, general Zavalişinə xoş münasibət nümayiş etdirdiyini, lakin bu xoş münasibətin əvəzində şəhəri təhvil vermək tələbi ilə qarşılaşdığını yazırdı. Onun sözlərinə görə, general Zavalişin şəhəri top atəşinə tutanda o da müqavimət göstərmək məcburiyyətində qaldı. Sonra Hüseynqulu xan Sisianovun fəaliyyətinə və əməllərinə öz narazılığını bildirdi. Hüseynqulu xan soruşurdu ki, Sisianov hansı əsaslarla məlumat vermədən Bakı ətrafına gəlib, Bakı sakinlərinin mal-qarasını icazəsiz qənimət götürüb və onlardan ərzaq kimi istifadə edib? Sisianovun Bakı ətrafına yetişərkən öz nümayəndəsini Bakı xanının yanına göndərməməsini, məqsədini və tələblərini ona çatdırmamasını da Hüseynqulu xan təəccüblə qarşılayırdı. Hüseynqulu xan bir daha bildirirdi ki, ruslarla heç bir düşmənçiliyi yoxdur, atışmanı da ilkin olaraq xan döyüşçüləri deyil, rus hərbçiləri başlayıblar. Bakı xanı məktubunun sonunda general Sisianova bəyan edirdi ki, əgər o, xeyirxah məqsədlə gəlibsə, bunu öz əməllərində nümayiş etdirsin (101).

Farsdilli mənbələrin verdiyi məlumata görə, Bakı sakinlərinin mal-qarasının ruslar tərəfindən aparılması onların ərzaq ehtiyatlarının tükənməsi ilə bağlı idi. Sərt qış şəraitində rusların kənardan tez bir zamanda ərzaq yardımı almaq imkanı yox idi (102). Buna görə də onların qarşılarına çıxan mal-qaranı aparmaqdan başqa çarələri yox idi.

Farsdilli mənbələrdə Hüseynqulu xanın rus qoşunlarından müdafiə olunmaq üçün Abbas Mirzədən kömək istəməsi haqqında da məlumat vardır (103). Bu zaman Abbas Mirzə Təbriz ətrafında idi və sonradan Ərdəbil ətrafında düşərgə saldı. General Sisianovun Şamaxı və Qazax yürüşləri onun tərəfindən də ciddi izlənilirdi. Lakin o da hava şəraitinin mürəkkəbliyi üzündən Azərbaycan xanlıqları üzərinə çoxsaylı qoşun dəstəsi aparmaq imkanına malik deyildi. Mənbələrdəki məlumata görə, Abbas Mirzə Bakı xanı Hüseynqulu xandan kömək göstərilməsi haqqında xəbər alında Hüseynqulu xan Qacar adlı sərkərdəsini qoşun dəstəsi ilə, habelə Əsgər xan Əfşarı 1000 atlı ilə köməyə göndərdi. Abbas Mirzə özü isə rus qoşunları ilə növbəti döyüşə hazırlıq üçün düşərgəsini Təbrizdən Ərdəbilə dəyişdi ki, döyüş bölgəsinə daha da yaxınlaşsın. Verilən məlumatlara görə, Abbas Mirzənin göndərdiyi Hüseynqulu xan Qacar dəstəsi ilə Kür çayı üzərindəki körpünün mühafizəsində dayandı. Pirqulu xan Bakı ətrafında Şeyxəli xanın dəstəsi ilə birləşərək Hüseynqulu xana kömək göstərilməsi üçün mövqe tutdu. Əsgər xan isə dəstəsi ilə qalaya daxil ola bildi.

Hüseynqulu xanın qətiyyətli mövqe nümayiş etdirməsinə baxmayaraq, general Sisianov Bakı qalasını güc işlətmədən alacağına müəyyən bir ümidlə yanaşırdı. Ona görə 1806-cı il fevral ayının 1-də o, Bakı xanına növbəti məktubunu göndərdi. General Sisianov yeni məktubunda Bakı xanının Rusiya təbəəliyini qəbul etməyə müsbət cavab verməməsindən razı qalmadığını yazdı və əlavə etdi ki, onun Bakı xanına olan narazılıqlarının əsasını Allahverdi bəy tərəfindən imzalanan müqavilənin şərtlərinə əməl edilməməsi təşkil edir. Bu məktubun məzmunundan görmək mümkündür ki, Bakı xanı şəhəri mühasirə etmiş rusları sadəcə müşahidə etməklə kifayətlənmirdi, həm də ruslara qarşı silahlı müqaviməti davam etdirirdi. Bununla bağlı xan döyüşçüləri qaladan kənarda mövqe tutaraq fürsət yaranan kimi rusları atəşə məruz qoyurdular. Bakı xanının adamları ruslar haqqında məlumat da toplamağa çalışırdılar. Belə məlumat toplayanların bəziləri hətta Sisianov tərəfindən həbs də edilmişdi. Bunlar isə rusların təşvişinə səbəb olurdu. Sisianov məktubunda bir daha Bakı qalasının təhvil verilməsini tələb etdi və Hüseynqulu xanı bu addımı atmağa inandırmaq üçün Volqa kazak alayının komandiri mayor Tarasovu da onun yanına göndərdi (104).

Lakin Hüseynqulu xan Sisianovun hədə-qorxusu qarşısında Bakı qalasının ruslara təhvil verməyə razı olmadı. O, Əbülhüseyn bəy adlı nümayəndəsi ilə Sisianova göndərdiyi məktubunda da Sisianovun intizarında olduğu cavabı vermədi. Ona görə general Sisianov Hüseynqulu xanı bir daha xəbərdar etdi ki, Bakı şəhəri liman şəhəri olduğu üçün orada rus qarnizonu yerləşdirilməlidir, liman şəhərində toplanan gömrük gəlirləri yalnız xanın istifadəsində qalmamalıdır, Bakıda tacirlərin sıxışdırılmasına son qoyulmalıdır və nəhayət Bakı şəhəri təslim edilməklə bərabər, Bakı xanı böyük oğlunu girov verməlidir. Sisianov bu şərtlərinin icrasını Bakı xanından tələb edirdi. Bu tələblərin və şərtlərin əks olunduğu məktubla bərabər, Sisianov bu dəfə Narv draqun alayının podpolkovniki knyaz Elisbar Eristovu da Hüseynqulu xanın yanına göndərdi (105).

Hüseynqulu xan bu dəfə rus generalının bu məktubuna yazdığı cavabında Bakını təhvil verməyə və Rusiya təbəəliyini qəbul etməyə hazır olduğunu bildirdi. General Sisianov bu xəbəri sevinclə qarşıladı və Bakı xanlığının hansı şərtlər altında təhvil alınacağını bildirdi: 1) xanlıq ərazisində bütün əhalinin dini ibadətlərini azad şəkildə icra etmək hüququ qorunacaq; 2) xanlığın idarə edilməsi hüququ Hüseynqulu xan və onun varisləri üçün saxlanılacaq; 3) Bakı xanı məhkəmə və cəzalandırma üzərində nəzarəti öz əlində saxlayırdı. Cinayət məsələlərinin həllində isə Bakı komendantı iştirak etməli idi; 4) gömrük gəlirlərindən başqa xanlıq ərazisində toplanan gəlirlər xanın ixtiyarında qalacaq; 5) Qafqazda yerləşən rus qoşunlarının ehtiyacının ödənməsi üçün zəruri olan duz və neft rus qoşunlarına havayı verilməli idi; 6) Bakı ətrafında rus qarnizonu üçün münasib binalar ayrılmalı idi; 7) Bakı xanı Rusiyaya sədaqət andı qəbul etməkdən əlavə, öz oğlunu da girov verməli idi; 8) Bakı xanı bölgənin baş komandanına (yəni Sisianova) və onun təmsilçisinə sözsüz tabe olmalı idi; 9) qəbul etdiyi sədaqət andına əməl etməməsi xanın xanlıqdan kənarlaşdırılması ilə nəticələnməli idi (106).

Hüseynqulu xan general Sisianovun irəli sürdüyü tələblərə qarşı öz razılığını və münasibətini Əbülhəsən bəyə çatdırdı. Əbülhəsən bəy də Sisianovla görüşündə onun Hüseynqulu xanla görüşünün və Bakı qalasının açarlarının ona təhvil verilməsinin tarixini razılaşdırdı. Bu razılaşmaya əsasən, 1806-cı il fevral ayının 8-də səhər çağı Sisianov Bakı divarları yaxınlığında Hüseynqulu xanla görüşməli və bu görüş zamanı Bakı xanlığının Rusiyaya birləşdirilməsi haqqında müqavilə imzalanmalı idi.

Mövcud olan məlumatlara görə, fevral ayının 8-də tam piyada generalı Sisianov parad geyimində Bakı xanı ilə görüşə hazır olduğunu bəyan etdi. Bu görüşün onun üçün uğurla nəticələnəcəyinə əmin olan rus

generalı sevincini şərab içməklə nümayiş etdirdi və sonra da generalların və hərbçilərin müşayiəti ilə görüş təyin olunan məkana yollandı (107).

General Sisianovu podpolkovnik Aseyevin rəhbərliyi altında 16-cı yeger alayının 200 nəfərlik qarovul dəstəsi, habelə general Zavalişin və general Quryev müşayiət edirdilər. Görüşün Bakı qalası divarlarından yarım verst aralı olan su quyusu ətrafında olması razılaşdırılmışdı. Sisianov ora yollanmazdan əvvəl qarovul dəstəsi həmin məkana yollandı ki, orada mövqe tutsun. Səhər saat 10-da general Sisianov, digər generallar Zavalişinin və Quryevin müşayiəti ilə su quyusunun yanına yolandılar. Başqa bir məlumata görə isə, Sisianovu yalnız knyaz Eristov və bir də onların atını saxlayan bir kazak müşayiət edirdi. Rus generalının qarşısına əvvəlcə Bakı əyanları və bəyləri çıxdılar. Onlar Sisianova duz-çörək, habelə şəhər qalalarının açarlarını təqdim etdilər. Həmin adamlar eyni zamanda bildirdilər ki, Hüseynqulu xan həmin gün görüşə hazır olmadığı üçün bu görüşü o biri günə keçirsinlər. Başqa bir məlumata görə isə, Bakı əyanları bildirdilər ki, Hüseynqulu xan rus qoşunlarından ehtiyat edir və ona görə də bu görüşə gəlməmişdir. Sisianov da cavabında bildirdi ki, Hüseynqulu xanın ehtiyatlanmasına səbəb yoxdur. Əgər o ehtiyatlanırsa onda 1000 nəfərlik mühafizə dəstəsi ilə gələ bilər. Sisianov şəhər darvazasının açarlarını və duz-çörəyi də geri qaytardı və onları yalnız Hüseynqulu xanın əlindən qəbul edəcəyini bildirdi. Eyni zamanda onu da bəyan etdi ki, əgər Hüseynqulu xan gəlməsə onda o özü hücum nərdivanları ilə qala divarlarını aşıb onun yanına getməli olacaq. Bundan sonra Sisianov knyaz Eristovu Hüseynqulu xanın yanına göndərdi ki, onu ehtiyat etmədən arxayın şəkildə görüş yerinə gəlməsinə inandırsın (108).

Sisianovun təkidli tələbindən sonra Hüseynqulu xan onun görüşünə gəldi. Hüseynqulu xan Sisianovu əvvəldən də tanıdığı üçün onunla köhnə tanışlar kimi görüşdü. Sonra onlar hər ikisi yer üzərinə sərilmiş keçənin üstündə oturdular, birlikdə qəlyan çəkdilər. Bu zaman onların yanında iki xidmətçinin, Sisianovun arxasında isə xanın qohumlarından olan İbrahim bəyin dayandığı bildirilir. Verilən məlumata görə, Sisianov qəlyanı əlinə alanda əvvəldən planlaşdırıldığı kimi, İbrahim bəy onu boynundan güllə ilə vurdu. Sonrakı atəşlə isə knyaz Eristov qətlə yetirildi. Çox qısa bir zaman daxilində İbrahim bəy Sisianovun başını bədənindən ayırdı və özü ilə qala daxilinə apardı. Məlumata görə, Sisianovun öldürülməsi anında qala divarları üzərində mövqe tutmuş xan döyüşçüləri də ruslara atəş açdılar və ruslar da öldürülmüş Sisianovun və Eristovun cəsədlərini götürməyə müvəffəq olmadan geri çəkildilər (109).

General Sisianovun qətlə yetirilməsi ilə bağlı bir-birindən fərqli olan məlumatlar və xatirələr, habelə general Zavalişinin rəsmi raportu möv-

cuddur. Lakin bu materialların heç biri Sisianovun qətlə yetirilməsi hadisəsi, bu hadisənin planlaşdırılması haqqında tam təsəvvür yaratmır. Sisianovun qətlinin əvvəldən planlaşdırılmasını bir mənalı şəkildə söyləmək çətindir. Farsdilli mənbələr bu hadisənin əvvəldən planlaşdırılması üzərində dayanmağa meyllidirlər. İstinad edilən farsdilli mənbələrdə İbrahim bəyin Bakı xanının işarəsi əsasında atəş açması və bununla da Sisianovun qətlə yetirilməsi qeyd olunur. Qacar sarayının bu qətldə əli olması da bu mənbələrdə birbaşa və ya dolayısı yolla etiraf edilir. Sisianovun başının kəsilərək Ərdəbilə, oradan da Tehrana göndərilməsi də Qacar sarayının bu qətldə iştirakına əsas kimi qəbul olunur. Məlumdur ki, Sisianovun kəsilmiş kəlləsi əvvəlcə Ərdəbilə, Abbas Mirzəyə, sonra da oradan Tehran sarayına göndərildi. Ə.Dünbəlinin yazdığına görə, Abbas Mirzə general Sisianovun kəsilmiş kəlləsini görəndə heç də sevinmədi və bildirdi ki, məmurlar başlarını döyüş vaxtı itirməlidirlər, görüş və ya söhbət vaxtı yox (110).

Farsdilli mənbələrdə Sisianovun qətlə yetirilməsinin Qacar sarayı tərəfindən təşkil edilən cadu və əfsunların nəticəsi olması haqqında da məlumat vardır. "Rövzət-üs səfa" əsərində bu cadu və əfsunların icraçısı kimi Mirzə Məhəmməd Əxbarinin adı çəkilir və bildirilir ki, Sisianov qətlə yetiriləndən sonra Hacı Mirzə Məhəmməd Əxbarinin cadu və əfsun sahibi kimi şöhrəti daha da artdı (111).

Tarixi ədəbiyyatda olan məlumatlara görə, Mirzə Məhəmməd Əxbari kifayət qədər oxumuş və savadlı bir şəxs idi və hətta özü də bir sıra əsərlər yazmışdı. Bununla belə, onda xürafata meyllilik var idi və əfsunlarının təsir etdiyinə inanırdı. Bildirilir ki, dövrün tanınmış ruhani alimləri onun savadı və əməlləri qarşısında gücsüz qalmışdılar. O çalışırdı ki, Fətəli şahla da görüşsün və onu da öz tilsimlərinin gücünə inandırsın. Rus qoşunları Azərbaycan xanlıqlarını işğal etməyə başlayanda Mirzə Məhəmməd Əxbari Fətəli şahla görüşmək fürsəti tapdı və onu inandıra bildi ki, əgər çillə oturub 40 gün əfsun və tilsimlərlə məşğul olsa, Sisianovun kəsilmiş başını gətirib Fətəli şahın ayaqları altına atacaqlar. Mirzə Məhəmməd Əxbari xahiş etdi ki, əgər dediyi doğru çıxarsa, onun sonrakı fəaliyyətinə imkan yaradılsın, ona düşmən olanlar cəzalandırılsın. Fətəli şah bu xahişlə razı oldu və doğrudan da 40 gündən sonra Sisianovun kəsilmiş başı Qacar sarayına gətirildi. İstər saray daxilində, istərsə də saray xaricində Sisianovun qətli Mirzə Məhəmməd Əxbarinin tilsim və əfsunlarının nəticəsi kimi qəbul edildi və bundan sonra onun şöhrəti daha da artdı (112).

Yuxarıda qeyd edildiyi kimi, general Zavalişin Sisianovun qətlə yetirilməsinin şahidi idi və o, gördüklərini Rusiya sarayına göndərdiyi

rəsmi raportunda əks etdirmişdi. Onun yazdığına görə, general Sisianov və Bakı xanı onlar üçün hazırlanmış yerdə oturub dostcasına söhbət etdikləri vaxt arxada dayanan şəxsin pistoletdən açdığı atəşlə Sisianovu qətlə yetirdi. Dərhal İbrahim bəy Sisianovun başını kəsərək Təbrizə apardı. Sisianovun başının gətirildiyi gün Təbriz çil-çıraqla bəzədilibmiş. Abbas Mirzə də general Sisianovun kəlləsini kəsib gətirən İbrahim bəyə mükafat olaraq xan rütbəsi verdi (113).

Bu məlumat Ə.Dünbəlinin yuxarıda istinad edilən məlumatından xeyli fərqlidir. Əvvəla, məlumdur ki, Sisianovun başı Abbas Mirzəyə Ərdəbildə təqdim olundu. Digər tərəfdən Abbas Mirzənin bu hadisəyə münasibətinin Ə.Dünbəlinin yazdığı kimi olduğu halda şəhərin çil-çıraqla bəzədilməsi yəqin ki, qeyri-real olardı.

Hadisələrin başqa bir şahidinin yazdığına görə, Sisianov Hüseynqulu xanla görüşəndən dərhal sonra qətlə yetirildi. Bildirilir ki, Sisianovla Hüseynqulu xan qucaqlaşaraq salamlaşandan sonra qaladan çıxıb gələn iki atlı görüş yerinə yaxınlaşdılar və onların açdığı atəşdən Sisianov qətlə yetirildi. Həmin atlılar xəncərlə Sisianovun başını kəsdilər. Bu zaman qaladan atlı dəstə çıxaraq xana yaxınlaşdı və onu qala daxilinə müşayiət etdi. Bildirilir ki, Sisianovun qətlə yetirilməsinə görə knyaz Eristov xana çox qəzəbləndi və ona görə xan onu da qətlə yetirməyi əmr etdi. Qala divarları üzərində qurulmuş topların işə salınması isə rus dəstəsinin Sisianovun cəsədini götürməsinə mane oldu və rus dəstəsi qaladan uzaqlaşmaq məcburiyyətində qaldı (114).

Başqa bir şahidin ifadəsinə görə, Hüseynqulu xan qala darvazasından piyada çıxıb görüş yerinə yaxınlaşdı. O, qala açarlarını özü ilə gətirməmişdi. Çünki onun məqsədi yalnız danışıqlar aparmaq idi. Hüseynqulu xanın yanınca ona yaxın olan Kazım bəy və Kərim bəy addımlayırdılar. Onları isə nökərlər müşayiət edirdilər. Hüseynqulu xan və onun yanındakılar görüş yerinə çatıb yerə salınmış keçə üzərində oturdular. General Sisianov sonradan görüş yerinə gəlib çıxdı. Onu da mühafizəçilər müşayiət edirdilər.

General Sisianov öz mühafizəçilərini aralıda saxlayıb yavəri və iki nəfər kazakla görüş yerinə gəldi. Sisianovun yavərinin knyaz Eristov olması güman edilir. Həmin vaxtlarda qalada Qacar sarayı tərəfindən göndərilmiş iki nəfər xan yaşayırdı. Bu xanlar Hüseynqulu xanın qohumu olan İbrahim bəylə əlaqəyə girmişdilər. Bildirilir ki, İbrahim bəyin Hüseynqulu xanla yaxşı münasibətləri yox idi və general Sisianovun öldürülməsi ideyası da ona məxsus idi. Sisianovla Hüseynqulu xan arasında danışıqlar başlayandan sonra İbrahim bəy iki nökəri ilə qaladan çıxıb görüş yerinə tərəf irəlilədi.



Bakıda general Sisianovun qətlə yetirildiyi yerdə onun xatirəsinə tikilmiş abidə



Hadisələrin başqa bir şahidinin yazdığına görə, Sisianov Hüseynqulu xanla görüşəndən dərhal sonra qətlə yetirildi. Bildirilir ki, Sisianovla Hüseynqulu xan qucaqlaşaraq salamlaşandan sonra qaladan çıxıb gələn Hüseynqulu xan onların kənarlaşmasına işarə versə də, İbrahim bəy onun iradəsini qəbul etmədi və qəfildən tüfəngini çəkib Sisianova atəş açdı. Hüseynqulu xanın bu plandan xəbəri olmadığı üçün dəhşətə gəldi. İbrahim bəy xanın etirazına baxmayaraq Sisianovun başını kəsdi və Təbrizə apardı. Şahidlərin xatirələrində bildirilir ki, bu əməlinə görə Abbas Mirzə İbrahim bəyi Qacar qoşunlarına qəbul etdi və onu dəstə başçısı təyin etdi. Məlumata görə, yerli əhali Sisianovun cəsədini yaxınlıqda zibil toplanmış bir əraziyə atdılar və sonradan orada Sisianovun xatirəsinə abidə ucaldıldı (115).

Bütün bu fərqli məlumatlara baxmayaraq, hər halda 1806-cı il fevralın 8-də P.D.Sisianov işğalçılıq niyyəti ilə soxulduğu Bakı ətrafında qətlə yetirildi Bununla Rusiyanın Cənubi Qafqazda işğalçılığının Sisinov dövrü başa çatdı. Silah gücünə xanlıqların taleyini həll etməyə qadir olduğunu sübut etmək istəyən Sisianov xalq qəzəbinin də qurbanı oldu. Mövcud olan bütün məlumatlara baxmayaraq, Hüseynqulu xanın Sisianovun qətlindəki iştirakını istisna etmək olmaz. Çünki başqa imkanları tükənmiş olan Hüseynqulu xanın xanlığın müstəqilliyinin qorunub saxlanması üçün başqa bir seçimi yox idi.

Qəribədir ki, qətlə yetiriləndən sonra gücünə arxalandığı rus generalları və qoşunları Sisianovun cəsədinin geri alınmasına heç bir cəhd göstərmədilər. Baxmayaraq ki, onların buna imkanı var idi. Sisianovun dəstəsi ilə general Zavalişinin dəstəsi birlikdə kifayət qədər gücə malik idilər. Məlumdur ki, Sisianovun cəsədi qala daxilinə aparılmadı və qala xaricində kimsəsiz qaldı.

Yerli ermənilər Sisianovun cəsədini qırlanmış tabuta qoyub yerə basdırdılar. Yəni, general Zavalişin cəhd göstərmiş olsaydı Sisianovun cəsədini əldə edə bilərdi. Amma general Zavalişin tərəfindən rəhbərlik edilən rus qoşunlarının belə bir cəhd göstərməsi barəsində məlumat mövcud deyil.

1808-ci ilə qədər Sisianovun cəsədi Bakıdan kənardakı kiçik erməni kilsəsində qaldı. Həmin il rus qoşunlarının Qafqazdakı baş komandanı markiz Pauluççinin tapşırığı ilə Sisianovun cəsədinin qalıqları Tiflisdəki Sion kilsəsinə aparıldı və orada dəfn edildi. Hüseynqulu xan isə Bakı xanlığının müstəqilliyini qoruyub saxlamağa müvəffəq oldu.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. İsmayılov M. Şəki. Bakı, 1982, s.40
2. Акты Собранные Кавказской Археологической Комиссии (АКАК). Т. II, Тифлис, 1868, с.639
3. АКАК, Т. II, с.638
4. АКАК, Т. II, с.636
5. АКАК, Т. II, с.638
6. АКАК, Т. II, с.639
7. АКАК, Т. II, с.640
8. Bayramova N. Şamaxı xanlığı. Bakı, 2009, s.116
9. İsmayılov M. Şəki, ...,s.41
10. АКАК, Т. II, с.641
11. АКАК, Т. II, с.642
12. АКАК, Т. II, с.641
13. АКАК, Т. II, с.642
14. АКАК, Т. II, с.643
15. АКАК, Т. II, с.643
16. АКАК, Т. II, с.644
17. АКАК, Т. II, с.644
18. АКАК, Т. II, с.645
19. АКАК, Т. II, с.645
20. АКАК, Т. II, с.645
21. АКАК, Т. II, с.646
22. АКАК, Т. II, с.647
23. АКАК, Т. II, с.646
24. АКАК, Т. II, с.647
25. АКАК, Т. II, с.648-649
26. АКАК, Т. II, с.651
27. АКАК, Т. II, с.652
28. АКАК, Т. II, с.648
29. АКАК, Т. II, с.649
30. АКАК, Т. II, с.649
31. АКАК, Т. II, с.650
32. АКАК, Т. II, с.654
33. АКАК, Т. II, с.654
34. АКАК, Т. II, с.658
35. АКАК, Т. II, с.658
36. АКАК, Т. II, с.657

37. АКАК, Т. II, с.661-662
38. АКАК, Т. II, с.661
39. АКАК, Т. II, с.662
40. АКАК, Т. II, с.663
41. АКАК, Т. II, с.663
42. АКАК, Т. II, с.664; Дубровин Н. История войны и владычества русских на Кавказе. Т. V, С-Петербург, 1887, с.481
43. АКАК, Т. II, с.664
44. АКАК, Т. II, с.665-666
45. АКАК, Т. II, с.665
46. АКАК, Т. II, с.667
47. АКАК, Т. II, с.667
48. АКАК, Т. II, с.669
49. АКАК, Т. II, с.669
50. АКАК, Т. II, с.670
51. АКАК, Т. II, с.670
52. АКАК, Т. II, с.671
53. АКАК, Т. II, с.667
54. АКАК, Т. II, с.671
55. АКАК, Т. II, с.671
56. АКАК, Т. II, с.675
56a. АКАК, Т. II, с.677
57. АКАК, Т. II, с.671
58. АКАК, Т. II, с.671
59. АКАК, Т. II, с.673
60. АКАК, Т. II, с.675
61. АКАК, Т. II, с.676-677
62. АКАК, Т. II, с.677
63. АКАК, Т. II, с.678
64. АКАК, Т. II, с.674
65. АКАК, Т. II, с.796
66. АКАК, Т. II, с.796, 797
67. АКАК, Т. II, с.797
68. АКАК, Т. II, с.824-825
69. АКАК, Т. II, с.826
70. АКАК, Т. II, с.826
71. АКАК, Т. II, с.825
72. АКАК, Т. II, с.825
73. АКАК, Т. II, с.826
74. АКАК, Т. II, с.825

75. АКАК, T. II, c.799
76. АКАК, T. II, c. 828, 831
77. Дубровин Н. История войны... T. V, c.468-469
78. Дубровин Н. История войны... T. V, c.371
79. Дубровин Н. История войны... T. V, c.472
80. عبدالرزاق دنبلی . ماثر سلطانیه. تهران،1382، ص. 235
81. آهنگسروش (میرزا محمد صادیق وقایع نگار. تاریخ جنگهای ایران و روس. 114 تهران، 1360، ص.
82. ماثر سلطانیه،235
83. آهنگ سروش، 116
84. АКАК, T. II, c.835
85. Дубровин Н. История войны... T. V, c.472-473
86. Дубровин Н. История войны... T. V, c.473-474
87. АКАК, T. II, c.737
88. Дубровин Н. История войны... T. V, c.474
89. АКАК, T. II, c.737
90. Дубровин Н. История войны... T. V, c.475-476
91. آهنگ سروش، 121
92. آهنگ سروش، 122
93. آهنگ سروش، 125
94. АКАК, T. II, c.738
95. Дубровин Н. История войны... T. V, c.473
96. АКАК, T. II, c.742
97. АКАК, T. II, c.742
98. АКАК, T. II, c.742
99. АКАК, T. II, c.745; Дубровин Н. История войны... T. V, c.486
100. АКАК, T. II, c.745
101. АКАК, T. II, c.745
102. ماثر سلطانیه، 238
103. میرزا فضل اله شیرازی. تاریخ ذولقرنین.جلد دوم، تهران، 1380، ص.238.
رضاقلی خان هدایت. روضتالصفا ناصری. جلد نهم، تهران، ص.7556.
میرزا محمد تقی لسانالملک سپهر. ناسخ التواریخ. تهران، 1311، ص.139.
104. АКАК, T. II, c.746
105. АКАК, T. II, c.746
106. Дубровин Н. История войны... T. V, c.488
107. Большая Кавказская война (16). http://www.vko.ru/DesktopModules/Articles/ArticlesView.aspx?tabLD=...
108. Дубровин Н. История войны... T. V, c.489; Большая Кавказская война (16).

109. Дубровин Н. История войны... Т. V, с.490
110. 239 ماثر سلطانیه،
111. رضاقلی خان هدایت. روضتالصفا ناصری. جلد نهم، تهران، ص.7557
112. نفیسی س. تاریخ اجتماعی و سیاسی ایران در دوره معاصر.جلد اول، تهران، 1383، ص.318
113. Большая Кавказская война (16)....; Искендерова М. Бакинское ханство. Баку, 1999, с.155
114. Большая Кавказская война (16)....
115. Большая Кавказская война (16)...

IV FƏSİL

AZƏRBAYCAN XANLIQLARI ÜZƏRİNDƏ İŞĞALIN MÖHKƏMLƏNDİRİLMƏSİNİN YENİ DÖVRÜ

1.Sisianovun qətlindən sonra bölgədə hərbi-siyasi şərait

P.D.Sisianovun Bakı ətrafında qətlə yetirilməsi Rusiya sarayında və rus qoşunları komandanlığında bir çaxnaşma yaratsa da, Rusiyanın Azərbaycan xanlıqlarına qarşı siyasətində hər hansı bir dəyişikliyə səbəb olmadı. Yeni şəraitdə Rusiya işğalçılıq siyasətinin yeni icraçıları tapıldı və bölgədə başlanmış olan işğalçılıq siyasətinin həyata keçirilməsi davam etdirildi.

Bununla belə, P.Sisianovun Bakı sakinləri tərəfindən qətlə yetirilməsi bölgənin hərbi-siyasi şəraitində bir canlanma yaratdı. Bu da Rusiya işğalına qarşı yeni bir müqavimət hərəkatının fəallaşmasında özünü göstərdi. Hətta Qacar qoşunları rəhbərliyi də yeni şəraitdə Azərbaycan xanlıqları üzərinə hücum başlanmasına təkid göstərirdi(1). Lakin hava şəraitinin mürəkkəbliyi Qacar qoşunlarının Arazdan şimala adlamasını may-iyun aylarına qədər təxirə saldı.

Bakı əhalisinin Rusiya zorakılığına qarşı hiddəti və qəzəbi bura toplanmış olan qoşun dəstəsinin vəziyyətini xeyli mürəkkəbləşdirdi. Rus tarixi ədəbiyyatında istedadsız bir zabit kimi xarakterizə olunan general Zavalişin isə (2) Bakı əhalisinin müqavimətinə qarşı çıxmağa cəsarət etmədi və hətta öz baş komandanının kimsəsiz qalmış cəsədini geri almağa cəhd göstərmədən bölgədən uzaqlaşmağın yollarını aramağa başladı. Bəzi rus tarixçiləri bunu sərt hava şəraiti, ərzağın tükənməsi, xəstələrin çoxalması ilə əlaqələndirməyə çalışsalar da, etiraf edirdilər ki, general Zavalişinin tabeliyində 1000 nəfər sağlam rus döyüşçüsü var idi.

O, Bakı ətrafına toplanmış olan qoşun dəstəsinə əvvəlcə şəhərdən uzaqlaşmağa göstəriş verdi. Qoşun dəstəsi Bakıdan 6 verst aralı olan bir məkanda düşərgə salıb bir neçə gün orada gözlədi. General Zavalişin sonradan Rusiya imperatoruna göndərdiyi məktubunda dəstənin tamam düşgün bir vəziyyətə gəldiyini bildirərək, yeganə yolun geri çəkilməkdə olduğunu əsaslandırmağa çalışdı. Dəstənin vəziyyəti Rusiya imperatoruna son dərəcə böhranlı bir durum kimi təsvir olundu. Onun yazdığına görə, rus dəstəsi burada tələyə salınmışdı və onu yalnız Allah buradan çıxara bilərdi. Amma dəstənin gələcək fəaliyyəti ilə bağlı general Zavalişinin fevralın 11-də çağırdığı Hərbi Şurada bir neçə zabit Bakı üzərinə hücumun davam etdirilməsinə səs verdilər (3). Buradan da belə bir qənaətə gəlmək olar ki, dəstənin hücum etmək gücü hələ də var idi və dəstənin vəziyyəti heç də general Zavalişinin təsvir etdiyi kimi deyildi.

Fevral ayının 11-də təşkil olunmuş Hərbi Şurada dəstənin yüksək rütbəli zabitləri iştirak edirdilər. Digər zabitlər hücumun davam etdirilməsi haqqında konkret fikir söyləməsələr də, geri çəkilmək barəsində də rəy vermədilər və onlar belə bir qərarın qəbul edilməsini general Zavalişinin ixtiyarına buraxdılar. General Zavalişin isə Bakı əhalisinin qəzəbi və müqaviməti ilə üzbəüz gəlməkdənsə geri çəkilməyi üstün tutdu. O, dəstəsini gəmilərə mindirərək Sara adasına apardı. Eyni zamanda Georgiyevskiyə, Rusiya qoşunları Qafqaz xəttinin komandanı general-leytenant Qlazenapın yanına adam göndərildi və ondan Sara adasına ərzaq yollamasını xahiş etdi. Sara adasında bir müddət istirahət etdikdən sonra general Zavalişin ümumiyyətlə Azərbaycan xanlıqları ərazisindən uzaqlaşmağı planlaşdırırdı. Sonradan general Zavalişin Georgiyevskidən göndərilə biləcək ərzağın çatmasını gözləmədən Gizlərə yola düşdü (4).

Bununla da, general Zavalişin bütün ekspedisiyası boyu heç bir tapşırığın öhdəsindən gəlmədən geri qayıtdı. Nəticədə, Cənubi Qafqazda, o cümlədən də Azərbaycan xanlıqları ərazisində bir neçə aylıq nisbi sakitlik yarandı. Əslində, bu nisbi sakitlik sərt qış şəraitində döyüş əməliyyatlarının keçirilməsinin çətinlikləri ilə bağlı idi. Ona görə də nisbi sakitliyin arxasında hərbi fəallığın yeni mövsümünə bir hazırlıq da aparılırdı. Rus qoşunları daxilində də general Sisianovun qətlindən sonra yaranmış vəziyyətin bərpası və işğal edilmiş ərazilərdə imperiya nüfuzunun zəifləməsinin qarşısının alınması üçün müəyyən işlər görülürdü. Bu dövr Rusiya qoşunları üçün aktual olan məsələlərdən biri də vahid komandanlığın müəyyənləşdirilməsi idi. Çünki general Sisianovun qətlindən sonra rus qoşunlarına baş komandanlığın kimin üzərində

olması qaranlıq qalmışdı. Georgiyevskdə olan general-leytenant Qlazenap rus qoşunlarının Qafqaz xəttinin komandanı olmaqla Qafqazda ən yüksək rütbəli rus generalı idi. Sisianov isə Şamaxı və Bakı xanlıqları üzərinə yürüşə başlamazdan əvvəl əmr əsasında general-mayor Portnyagini Cənubi Qafqazdakı digər qoşunların komandanı vəzifəsinə təyin etdi. General-mayor Nesvetayev isə rütbədə qədəmli olduğu üçün rus qoşunlarının komandanlığına iddia edirdi. Pəmbəkdə olan general Nesvetayev general Sisianovun qətlindən sonra Tiflisə gəldi və əmr yazaraq Cənubi Qafqazdakı rus qoşunlarına komandanlığı öz üzərinə götürdüyünü bəyan etdi. General Portnyagin onun bu əmri ilə razılaşmadı və general-leytenant Qlazenapa məktub göndərərək yaranmış vəziyyət haqqında ona məruzə etdi. General Qlazenap isə general-mayor Nesvetayevin baş komandan vəzifəsini icra etməsi ilə razı oldu. Bu da general Nesvetayevlə general Portnyagin arasında çəkişmələri daha da qızışdırdı. Onların hər biri özünü komandan sayır və hər biri də komandan kimi əmr verir və bu əmrin icrasını da tələb edirdilər. Rusiya qoşunları daxilində yaranmış olan bu vəziyyət Rusiya imperatoruna da çatdırıldı. O da anlaşılmazlığa son qoyulması üçün general-leytenant Qlazenapı Qafqazdakı bütün rus qoşunlarının müvəqqəti komandanı təyin etdi (5).

General Qlazenapın Qafqazdakı bütün rus qoşunlarının baş komandanı təyin edilməsi qoşunların idarəçiliyinin gücləndirilməsinə və bütün diqqətin Rusiyanın bölgədəki işğalının möhkəmləndirilməsinə imkan verdi. Bu dövrdə Cənubi Qafqazda Rusiya qoşunlarının 9 piyada alayı, bir draqun (süvari), beş kazak alayı və bir topçu taboru var idi. Topçu taborunda da 48 top var idi. Bu hissələr Gürcüstan və Azərbaycan xanlıqları ərazisinə səpələnmişdilər. Bölgədəki rus işğalının qorunmasını da məhz bu hissələr təmin etməli idilər (6).

Rusiya sarayı ehtiyat edirdi ki, Sisianovun qətlindən sonra Azərbaycan xanlıqlarında formalaşmaqda olan müqavimət hərəkatının qarşısını yuxarıdakı qüvvələrlə almaq çətin ola bilər. Əlavə qüvvələrin Cənubi Qafqaza göndərilməsi isə məlum olduğu kimi mümkün deyildi. Ona görə Rusiya sarayında bir daha belə bir qənaətə gəlindi ki, yaxın gələcəkdə Cənubi Qafqazda rus qoşunlarının hərbi əməliyyatları dayandırılsın və əsas diqqət Rusiyanın işğal etdiyi ərazilərin qorunub saxlanmasına yönəldilsin. Bu qənaətlərlə bağlı Rusiya Xarici İşlər Nazirliyi ölkə imperatoruna məktubla müraciət etdi. Rusiya Xarici İşlər Nazirliyinin həmin məktubunda bildirilirdi ki, ölkənin sərhədlərinin cənuba doğru genişləndirilməsi istəyi böyük olsa da, hazırkı şəraitdə bu istək məhdudlanmalıdır. Nazirlik bunu bölgədəki hərbi qüvvələrin yetərli

olmaması ilə əlaqələndirirdi. Bildirilirdi ki, Qacar qoşunlarının hücumlarının qarşısının alınması üçün bölgədə mövcud olan qüvvələrdən əlavə, ehtiyat qüvvələrin olmasına da ehtiyac vardır. Nazirlik Sisianovun qətlə yetirilməsindən sonra Cənubi Qafqazda müqavimət hərəkatının genişlənəcəyini istisna etmirdi. Bu müqavimət hərəkatının genişlənməsi ehtimalı da rusların ehtiyat qüvvələrinin artırılmasına diqqəti gücləndirməyi tələb edirdi. Bununla belə, Xarici İşlər Nazirliyi tövsiyə edirdi ki, Sisianovun yerinə təyin ediləcək yeni baş komandan dərhal Bakıya qoşun dəstəsi göndərsin, Bakı şəhəri işğal edilsin, Hüseynqulu xan və onun varisləri xanlıq hüququndan məhrum edilsinlər. Bundan başqa təklif olunurdu ki, Kür çayı boyunca yeni xətt yaradılsın və bu xətt hərbi postlar və istehkamlar vasitəsilə Gəncə ilə birləşdirilsin. Rusiya Xarici İşlər Nazirliyi Kür çayının mənsəbində yerləşən Salyana, Kür və Arazın qovşağı olan Cavada rus qoşunları yerləşdirməyi məsləhət bilirdi. Bu məntəqələrdə hərbi istehkam qurğularının tikilməsi də lazım bilinirdi. Bununla Kür çayında kiçik gəmilərdən istifadə etməklə gəmiçiliyin də nəzarət altına alınması nəzərdə tutulurdu. Kür çayı boyunca rus qoşunlarının möhkəmlənməsi Bakı-Gürcüstan yolunun təhlükəsizliyinin qorunması baxımından əhəmiyyətli sayılırdı. Xarici İşlər Nazirliyi belə bir qənaətini ifadə edirdi ki, bu yolun təhlükəsizliyini Şamaxı xanı poza bilər. Xarici İşlər Nazirliyi Şamaxı xanının Rusiya təbəəliyindən çıxmasını və onun ruslara qarşı mövqe tutmasının mümkünlüyünü də istisna etmirdi (7).

Rusiya Xarici İşlər Nazirliyi təklif edirdi ki, hərbi əməliyyatların məhdudlaşdırıldığı vaxt ərzində rus qoşunları işğal edilmiş ərazilərin mənimsənilməsi ilə məşğul olsun, həmin ərazilərdə qalalar tikilsin, yollar abadlaşdırılsın. Bununla eyni zamanda gələcək hərbi əməliyyatlar üçün möhkəm hazırlıq işləri aparılsın. Konkret olaraq, Rusiya Xarici İşlər Nazirliyi aşağıdakı məsələlər üzərində diqqəti cəmləşdirməyi lazım bilirdi: 1) mövcud qüvvələrin imkanlarına uyğun fəaliyyət göstərmək, hərbi əməliyyatları dayandırmaq, yeni işğaldan imtina etmək və münasib şəraitin yetişməsini gözləmək. Amma bu zaman Bakı məsələsinə istisna hal kimi yanaşılırdı. Tövsiyə olunurdu ki, Xəzər dənizinin ən yaxşı limanı kimi Bakı şəhəri işğal edilsin və bununla da Sisianovun qətlinin intiqamı alınsın. Bildirilirdi ki, şəhərin işğalı heç də ağır nəticələr verməyəcək. Əksinə, Həştərxanla əlaqələrin yaradılması üçün Bakının işğalı vacib sayılırdı; 2) Azərbaycan xanlıqları ərazisində təşkil olunan yeni idarəçilik orqanlarını müdafiə etmək, Fətəli şahla danışıqların başlanmasına cəhd göstərmək. Bununla, qoşunların hərbi əməliyyatlara cəlb edilməsinin əvəzinə digər əhəmiyyətli işlərin görülməsi lazım

bilinirdi; 3) Dağlı xalqları ilə isə döyüşlərin aparılması zəruri sayılırdı, Dağıstanın mühasirədə saxlanması təklif edilirdi. Çünki Rusiya Xarici İşlər Nazirliyi Dağıstan xanlıqlarının döyüşgənliyindən, Rusiya ilə barışmazlığından çox ehtiyatlanırdı və bu fəallığın qarşısının alınmasının qeyri-mümkünlüyü də qəbul edilirdi. Ona görə Rusiya Xarici İşlər Nazirliyi dağlı xalqlarının həmişə nəzarət altında saxlanmasını zəruri sayırdı (8).

Havaların qızması ilə həm Azərbaycan xanlıqları daxilində Rusiya işğalına qarşı müqavimət əhval-ruhiyyəsi gücləndi, həm də Qacar qoşunlarının Arazdan şimala yürüşü üçün hazırlıqları genişləndirdi. Yəni, Cənubi Qafqazda hərbi şəraitin gərginləşdiyi vaxtda, iyun ayının 2-də Rusiya imperatoru feldmarşal İvan Vasilyeviç Qudoviçi Rusiya qoşunları Qafqaz xəttinin və Gürcüstanın baş komandanı təyin etdi. Feldmarşal Qudoviç baş komandan təyin edildiyi günlərdə Qarabağ xanı İbrahimxəlil xanın rus hərbçiləri tərəfindən qətlə yetirilməsi Azərbaycan xanlıqları ərazisində ruslara qarşı barışmaz mövqeni daha da gücləndirdi və Qacar qoşunlarının Cənubi Qafqaza yürüş etməsinə təkan verdi.

Rusiya işğalı ilə barışmayan Azərbaycan xanlıqlarının itaət altına gətirilməsi üçün Qafqazdakı qoşunların baş komandanı təyin edilmiş İ.Qudoviçin əvvəlki fəsillərdə göründüyü kimi, bölgə ilə tanışlığı var idi. Lakin bu tanışlıq onun və onu təyin edənlərin düşündüyü kimi deyil, səthi tanışlıq idi. Feldmarşal Qudoviç bölgə əhalisinin işğalçılıqla barışmayan xarakterinə bələd deyildi və həyatının qürub yaşlarında olmasına baxmayaraq zorla və güclə Qafqazda hər şeyə nail olmağı mümkün hesab edirdi. Bu baxımdan o öz sələfi Sisianovdan elə də fərqlənmirdi və Cənubi Qafqazda imperiyanın dayaqlarının möhkəmləndirilməsini də Qudoviç yeni təyinatının əsas vəzifəsi sayırdı. Bu istiqamətdə Qudoviç müstəqilliyə meyl göstərən hakimlərə divan tutulmasını, onların var-yoxunun və mülklərinin əllərindən alınıb itaətkar hakimlər arasında bölüşdürülməsini məqsədəuyğun sayırdı.

Feldmarşal Qudoviç rus tarixi ədəbiyyatında özündən razı, təkəbbürlü və eqoist bir şəxs kimi təsvir olunur. O, əmin idi ki, Qafqaz xanlıqlarını susdurmağa gücü çatacaqdır. Tabeçiliyində olanlardan da tələb edirdi ki, onun adı ətrafında bir vahimə yaradılsın, yerli xanlar onun adı ilə qorxudulsun və onun əlavə qoşun hissələri ilə bölgəyə gəlməsi haqqında şayiələr yayılsın. Məntiqsiz iddialarının həyata keçirilməsi üçün Qudoviç heç kimlə məsləhətləşmir, kimsənin də fikirlərini nəzərə almırdı. Bu mənada feldmarşal Qudoviç hətta öz həmkarları arasında da lazımi nüfuza malik deyildi (9).



Fətəli şah

Feldmarşal Qudoviçin yeni vəzifəsinin icrasına hazırlaşması, bölgəyə gəlib çıxması xeyli vaxt apardı. Onun 1806-cı il iyun ayının 2-ci yarısında Sankt-Peterburqdan yola düşdüyü ehtimal olunur. Həmin günlərdə Qacar qoşunları artıq Araz çayının şimalına adlamış, Azərbaycan xanlıqlarında isə Rusiya işğalına qarşı çıxışlar baş qaldırmışdı. İ.Qudoviç bir də iyulun 27-də Georgoyevskə gəlib çatdı. Burada da o çox gözləməli oldu. Məlumdur ki, onun Tiflisə yetişməsi 1806-cı il oktyabr ayının əvvəllərinə təsadüf edir. Qudoviçin baş komandan vəzifəsinə təyin olunduğu vaxtdan Tiflisə gəlib çıxdığı vaxta qədər Cənubi Qafqazda və o cümlədən Azərbaycan xanlıqları ərazisində ciddi proseslər baş verdi. Bu prosesləri İ.Qudoviç kənardan izləmək məcburiyyətində qaldı.

1806-cı ilin yayında Rusiyanın işğalına düşmüş Azərbaycan xanlıqlarının Rusiya işğalından qurtarılması üçün fəallaşması bölgənin hərbi-siyasi şəraitinə təsir göstərən əsas amillərdən biri idi. Digər bir amil isə heç şübhəsiz ki, Arazı adlayan Qacar qoşunlarının fəallaşması idi. Qacar sarayı bu çox istiqamətli yürüşü ilə rus qoşunlarını bölgədən sıxışdırmaq niyyətində olduğu kimi, həm də Azərbaycan xanlıqlarını öz nəzarəti altına almaq istəyirdi.

Qacar sarayı bir sıra istiqamətə qoşun dəstəsi göndərməklə bütün Azərbaycan xanlıqlarını, Dağıstanı və Gürcüstanı əhatə etmək istəyirdi. Bu yürüş zamanı gürcü şahzadəsi Aleksandr da Azərbaycan ərazilərindən keçməklə Tiflisə doğru irəliləməyi planlaşdırırdı. Nəzərdə tutulmuşdu ki, şahzadə Aleksandrın rəhbərliyi altında olan qoşun dəstəsi Akstafa çayı ətrafına toplaşsın, buradan Dağıstan hakimləri ilə əlaqəyə girsin və sonra da Abbas Mirzə ilə birlikdə Tiflisə doğru yürüşünü davam etdirsin. Şahzadə Aleksandr yürüşə başlamazdan əvvəl Qazax əhalisinə xəbər göndərdi ki, yürüşü ilə onlara heç bir ziyan yetirməyəcək. Abbas Mirzənin isə dəstəsi ilə əvvəlcə Qarabağa və oradan da Gəncəyə yollanacağı ehtimal edilirdi. Fətəli şahın özünün də Arazdan şimala həyata keçirilən yürüşdə iştirak edəcəyi haqqında məlumatlar alınmışdı. Onun qoşun dəstəsi ilə Göyçə gölü ətrafına gələcəyi gözlənilirdi (10).

Qacar qoşunlarının hücuma hazırlaşması xəbəri rus qoşunları komandanlığında təşvişlə qarşılansa da, işğalın qorunub saxlanması üçün müəyyən addımlar atıldı. Müdafiənin daha yaxşı qurulması üçün qüvvələrin bölüşdürülməsinə və onların daha mühüm məntəqələrdə yerləşdirilməsinə dair qərarlar qəbul edildi. General-mayor Nebolsinin rəhbərliyi altında Troitski muşketyor alayının 2 taboru Kürəkçay ətrafına göndərildi. Bu dəstə döyüşə hazır vəziyyət almalı və göstəriş verilən kimi

Qarabağa daxil olmalı idi. Troitski muşketyor alayının üçüncü taborunun iki bölüyü polkovnik Simanoviçin və Pəmbək və Şuragöldə dayanmış dəstəsinin gücləndirilməsinə göndərildi. Polkovnik Simanoviçin tabeliyində adları çəkilən mahallarda Saratov muşketyor alayı və Qafqaz qrenadyor alayının bir taboru var idi. Bu mahallar ruslar tərəfindən yaxşı qorunmaqla bərabər, polkovnik Simanoviç bu bölgədə şah qoşunlarının Gürcüstan üzərinə geniş hücumunun qarşısını ala bilərdi. Bunun üçün polkovnik Simanoviç əvvəlcə bu mahalların sərhəddə olan kəndlərinin əhalisini başqa yerə köçürtdü. Sonra Gümrü və Hamamlı kəndlərinə qoşun bölmələri yerləşdirdi. Gürcüstanla əlaqələrin daha yaxşı qurulması üçün Qazax və Şəmşəddil ətrafına da əlavə qoşun bölmələri göndərildi. Toplarla müşayiət olunan həmin bölmə bölgədəki qüvvələri möhkəmləndirməklə Gəncə-Tiflis yoluna nəzarəti təmin etməli idi (11).

Məlum olduğu kimi, 1806-cı il iyul ayının əvvəllərində Qacar qoşunları yenidən Azərbaycan xanlıqları üzərinə yürüş etdilər. Qoşunların bir dəstəsi Qarabağ xanlığı ərazisində ruslarla qarşılaşmalı oldu. Başqa bir dəstə isə Hüseynqulu xan Urmiyəlinin rəhbərliyi altında Gəncə istiqamətində irəliləyirdi və iyul ayının 16-da bu dəstə Gəncədən 60 verst məsafədə, Qaramurad adlanan məntəqədə düşərgə saldı. Cavad xanın oğlu Uğurlu ağanın da qoşulduğu bu dəstənin tərkibi 4 min nəfərlik döyüşçüdən ibarət idi. Bu məntəqədə dayanarkən Car-Balakənə məktub göndərildi və Car-Balakən əhalisi ruslara qarşı mübarizəyə çağırıldı. Bütünlükdə, yerli əhaliyə Fətəli şahın müraciəti gətirilmişdi. Bundan başqa Uğurlu ağa özü də yerli əhaliyə məktubla müraciət etdi (12).

Uğurlu ağanın Gəncənin xristian əhalisinə müraciəti də mövcuddur və həmin müraciət rus tarixi ədəbiyyatında da çap olunmuşdur. Həmin müraciətdə deyilirdi: "Siz həmişə bizim çalışqan təbəələrimiz olmuşsunuz və heç vaxt bizə xidmətdən imtina etməmişsiniz. Əgər siz xristian olduğunuza görə ehtiyat edirsinizsə ki, biz gəlib ölkəni alandan sonra azərbaycanlılara üstünlük verəcəyik və sizi sıxışdıracağıq, Allaha və rəhmətlik atamın ruhuna and olsun ki, sizi azərbaycanlılardan fərqləndirməyərək hörmətinizi saxlayacağıq. Əgər siz güman edirsinizsə ki, indiki yürüşümüz əvvəlki yürüşlərimizin oxşarı olacaq, bu belə deyil. Biz bu il burada qalacağıq və şahzadə də (Abbas Mirzə nəzərdə tutulur - M.S.) buradakı əyalətlərdə olacaq və əmin olun ki, farslar bu niyyətindən geri çəkilməyəcəklər. Əksinə, hökmdar özü (Fətəli şah nəzərdə tutulur – M.S.) çoxsaylı və məğlubedilməz qoşunlarla Təbrizdən yola düşmüş və Sofiyandadır. Əgər siz öz çalışqanlığınızı göstərsəniz mərhəmətlə qarşılanacaqsınız. Əgər etməsəniz, onda əbəs yerə talanlarla qarşılaşacaqsınız " (13).

Eyni zamanda Hüseynqulu xanın özü də yerli əhaliyə müraciət etdi. Bu müraciət onunla bağlı idi ki, yerli əhali Qacar qoşunlarının yürüşündən narahatçılıq keçirirdi. Rus işğalının aradan qalxmadığı bir vaxtda Qacar qoşunlarının yürüşləri yerli əhaliyə əlavə çətinliklər və sıxıntılar gətirə bilərdi. Hüseynqulu xan inandırmağa çalışırdı ki, Qacar qoşunlarının yürüşü yerli əhaliyə qorxu və təlaş yox, yalnız mərhəmət və qayğı bəxş edəcəkdir. Hüseynqulu xan Qazax və Şəmşəddil əhalisini Qacar qoşunları ilə birləşməyə, ruslara qarşı birgə mübarizə aparmağa çağıraraq bütün rusları qıracağını bildirirdi. Hüseynqulu xan bəyan edirdi ki, Abbas Mirzənin göstərişi ilə bölgəyə gəlmişdir və məqsədi də Gürcüstanın məsələsi ilə məşğul olmaqdır. Oxşar çağırışlarla gürcü şahzadəsi Aleksandr da bölgə əhalisinə müraciət etdi. Onun qoşulduğu Qacar dəstəsi birbaşa Gürcüstana istiqamət götürmək qərarında idi. Şahzadə Aleksandr bəyan edirdi ki, bütün Gürcüstanı ruslardan xilas edəcəkdir. Gürcü şahzadəsi Balıxlı çayı ətrafında düşərgə salaraq Qazax bəyləri yanına öz adamını göndərdi, qazaxlıları rus qoşunlarına qarşı mübarizəyə çağırdı və eyni zamanda onlardan ruslara qarşı mübarizəyə sadiqlik əlaməti kimi 4 nəfərin girov göndərilməsini istədi. Şahzadə Aleksandr Qazax və Şəmşəddil əhalisini də öz ətrafında səfərbər edə biləcəyini ehtimal edirdi. O, yerli əhalini də bunun zəruriliyinə inandırmağa çalışırdı və bildirirdi ki, indiki yürüş nəticəsiz qalmayacaqdır. Ya bütün qoşun məhv olacaq, ya da bu qoşunun qılıncı ilə düşmən məhv ediləcəkdir. Şahzadə Aleksandr bölgənin azərbaycanlı əhalisinə onu da çatdırırdı ki, bu yürüşə başlamaqla Fətəli şahın məqsədi yerli əhalini azad etmək və əmin-amanlığı bərpa etməkdir. Onun yazdığına görə, guya Qarabağ əhalisi artıq azadlığa çıxarılmışdı. Qaçqın gürcü şahzadəsi onu da bildirirdi ki, Abbas Mirzə özü də qoşunla Gəncəyə gələcək və oradan da Tiflisə yol açacaqdır. O bildirirdi ki, kim Abbas Mirzənin qarşılanmasına çıxsa mərhəmət qazanacaq, kim bunu etməsə və müqavimət göstərsə cavabını alacaqdır (14).

Rus tarixçiləri Hüseynqulu xan Urmiyəlinin və şahzadə Aleksandrın çağırışlarının qəbul edilmədiyini yazırlar (15). Amma bu onunla bağlı deyildi ki, Gəncə, Qazax, Şəmşəddil əhalisi rus işğalının altında qalmağa üstünlük verirdilər. Əksinə, yerli əhali rus işğalından nicat tapmağa çalışsa da Qacar qoşunlarının onları rus işğalından azad edəcəklərinə inanmırdılar. Qacar qoşunlarının özü ilə gətirmək istədiyi yaşayış tərzi isə yerli əhali tərəfindən qəbul edilmirdi və ona görə də Qacar qoşunlarının yürüşü yerli əhalinin qacarlar ətrafında səfərbər olmağa sövq etmədi.

Qacar qoşunları Qarabağ xanlığı ərazisində və qonşu xanlıqlar ərazisində müəyyən fəallıqlar göstərsələr də, bütünlükdə onlar ciddi bir nəticəyə nail ola bilmədilər. Bununla onlar bir daha nümayiş etdirdilər ki, Qacar qüvvələri Cənubi Qafqazda yaranmış yeni hərbi-siyasi şəraiti dəyişmək potensialına malik deyildirlər. Qacar sarayı eyni zamanda Azərbaycan xanlıqlarına qarşı siyasi mövqeyindən əl çəkmədiyini nümayiş etdirdi. Qacar dövlətinin Azərbaycan xanlıqlarına qarşı siyasi münasibəti həmin xanlıqların müstəqilliyinə əks mövqedə formalaşmışdı. Ona görə Qacar sarayı Azərbaycan xanlıqlarının davamlı dəstəyi ilə qarşılaşmırdı. Bunun nəticəsi idi ki, Qacar sarayının siyasəti Cənubi Qafqazda artıq özünü möhkəmləndirə bilmədi.

Qacar qoşunlarının 1806-cı ilin yay kampaniyasını feldmarşal İ.Qudoviç Georgiyevckdən izləməli oldu. Ümumən, onun Georgiyevskdə olduğu bir neçə ay ərzində Cənubi Qafqaz və Azərbaycan xanlıqları ətrafında baş verən proseslər əsasən üç istiqamətdə inkişaf edirdi. Bir tərəfdən Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərinə daha bir kütləvi yürüşü baş verdi. Digər tərəfdən rus qoşunlarının dağlı xalqları, sonra isə Dərbənd, Quba və Bakı üzərinə hücumu həyata keçirildi. Quba və Bakı xanlıqları üzərinə hücum da İ.Qudoviç Tiflisə yetişməzdən əvvəl baş verdi. Bunlardan əlavə eyni zamanda Qacar sarayı ilə danışıqların aparılmasına başlandı. İ.Qudoviç bölgədən uzaq olsa da bu danışıqların aparılmasına şəxsən nəzarət edirdi.

1806-cı ilin sentyabrında Gilan hakimi Mirzə Musa nümayəndəsi Mirzə Məhəmmədəli adlı birisini məktubla Həştərxana göndərdi. Mirzə Məhəmmədəli gətirdiyi məktubu şəxsən İ.Qudoviçə təqdim etməli olduğunu bildirəndə onu Georgiyevskiyə göndərdilər. Bu zaman İ.Qudoviç hələ də Georgiyevskdə idi. Gilan hakiminin nümayəndəsi onunla görüşdü və gətirdiyi məktubunu təqdim etdi. Mirzə Musa sülh danışıqlarının başlanmasını təklif edirdi. Məktubun məzmunundan aydın olur ki, Mirzə Musa yalnız həmin dövr üçün qarşıdurmanın dayandırılmasını yox, bütünlükdə rus qoşunlarının Qafqazdan geri dönməsini arzulayırdı. O, Azərbaycan xanlıqları, bu xanlıqlar ərazisində yaşayan xalqları Qacar sarayına məxsus sayırdı və onların yenidən Fars sarayı nəzarətinə qaytarılmalı olduğuna təkid edirdi. Mirzə Musa general Sisianov dövrünün hücumlarına toxunur və onları qanunsuz adlandırırdı. Mirzə Musa rus qoşunları baş komandanını sülhə dəvət edirdi və təklif edirdi ki, razı olacağı təqdirdə nümayəndəsini Qacar sarayına göndərsin (16).

Feldmarşal İ.Qudoviç Gilan hakiminin məktubuna cavab yazdı və sülhün bərqərar edilməsinə razı olduğunu bildirdi. Lakin İ.Qudoviç sülhü

Gilan hakiminin arzuladığı kimi yox, Rusiyanın imperiya maraqlarına cavab verən bir vəziyyət kimi görmək istəyirdi. Onun fikrincə, Qacar dövləti ilə Rusiya arasında sülhün bərqərar edilməsi iki dövlət arasındakı sərhəd xəttinin Kür və Araz çaylarından keçəcəyi təqdirdə mümkün ola bilərdi. Ona görə bəyan edirdi ki, Qacar dövləti sərhəd xəttinin adları çəkilən çaylar boyunca keçməsinə razıdırsa, onda məsələni Rusiya imperatoruna çatdırar və ondan sülh danışıqlarının aparılmasına razılıq alınar. Feldmarşal İ.Qudoviç başqa bir məktubu da Rusiyanın xarici işlər naziri Budberqə göndərdi və sülh danışıqları barəsində onun təlimatını istədi (17).

Qacar sarayının sülh danışıqlarına getmək təklifi Rusiya sarayında maraqla qarşılandı. Rusiyanın beynəlxalq vəziyyəti də Qacar sarayı ilə sülh danışıqlarına gedilməsini zəruri edirdi. Ona görə həm Rusiya imperatoru I Aleksandr, həm də Rusiya xarici işlər naziri baron Budberq bu məsələyə öz münasibətlərini bildirdilər. Rusiya imperatoru Qacar sarayı ilə sülh danışıqlarının başlanmasının, habelə iki dövlət arasında sərhəd xəttinin Kür və Araz çayları üzrə müəyyənləşdirilməsi ideyasını təqdir edirdi. Bununla belə, o, sülh danışıqları zamanı sərhəd xəttinin müzakirəyə çıxarılmasını hələ tez sayırdı və tövsiyə edirdi ki, sülh danışıqları aşağıdakı şərtlər ətrafında aparılsın: 1) Hər iki tərəfdən hərbi əməliyyatlar dayandırılsın; 2) Tərəflərin qoşunları sülh danışıqlarının aparıldığı vaxt qərar tutduqları mövqelərdə dayansınlar; 3) Sülh müqaviləsi imzalanana kimi və ya danışıqlar prosesi dayandırılana qədər təmas xəttində baş verən hadisələr iki tərəfin heyətlərinin sərhəd xəttindəki məntəqələrdən birində keçirdikləri görüşdə araşdırılsın; 4) Bu ilkin şərtlər əsasında razılıq imzalanandan sonra Fətəli şahın nümayəndəsi sülh müqaviləsinin imzalanması üçün Sankt-Peterburqa göndərilsin (18).

Rusiyanın xarici işlər naziri baron Budberq feldmarşal Qudoviçə yazırdı ki, hazırkı vəziyyətdə Qacar dövlətinin Osmanlı dövləti ilə yaxınlaşmasına imkan vermək olmaz. Onun fikrincə, Gilan hakiminin müraciəti bu istiqamətdə yaxşı bir şans idi. Baron Budberq feldmarşal İ.Qudoviçin göndərdiyi təkliflərin Qacar sarayı tərəfindən qəbul olunacağına inanmadığını bildirdi. O, danışıqların Rusiya imperatoru tərəfindən irəli sürülən ilkin şərtlər üzərində aparılmasını tövsiyə edirdi. Rusiyanın xarici işlər naziri istisna etmirdi ki, danışıqlar çox uzun çəkə bilər. Ona görə lazım bilirdi ki, ilk növbədə ilkin barışıq əldə edilsin və tərəflərin qoşunları hazırda dayanmış olduqları ərazilərdə saxlanılsın. Qacar sarayının tərəflər arasındakı sərhəd xəttinin Kür və Araz çayları boyunca keçməsinə razı olduğu halda, ilkin danışıqlarda irəli sürülən

şərtlərdən biri belə ifadə oluna bilərdi - Rusiya ilə İran arasında sərhəd xətti dəqiqləşdirilənə kimi sərhəd xətti Kür çayının mənsəbindən Cavada, Araz çayının Kürə qovuşan nöqtəsinə qədər, oradan isə Araz çayı boyunca Türkiyə yaxınlığında Arpaçayın Araza qovuşan nöqtəsinə qədər qəbul edilə bilərdi. Rusiya qoşunları və ya Qacar qoşunlarının bu xətti keçmələri sülh danışıqlarının pozulması sayılmalı idi. Mülki əhalinin bu xətti keçməsi isə qanun pozğunluğu kimi qəbul edilməməli idi. Yalnız hərbi qüvvələrin sərhədi keçməsinə qadağa qoyulmalı idi (19).

Rusiya sarayı ilə İ.Qudoviç arasında yazışmanın aparılması Bakının Rusiya qoşunları tərəfindən işğal edildiyi günlərə təsadüf edirdi. Buna qədər isə Quba xanlığı işğal edilmişdi. Şəki xanlığı ərazisində Səlim xanın Rusiya işğalına qarşı qiyamının yatırılmasına hazırlıq aparılırdı. İ.Qudoviç inanırdı ki, bütün bu hadisələr Qacar sarayını güzəştə getməyə məcbur edəcəkdir. Ona görə İ.Qudoviç Rusiya imperatoruna göndərdiyi məktubunda danışıqlar zamanı sərhəd xəttinin Kür və Araz çaylarından keçməsi üzərində təkid göstərilməsini təklif edirdi (20).

General Qudoviç Gilan hakiminə ünvanladığı məktubın çatdırılması xeyli ləngiməli oldu. Çünki Xəzər dənizində fırtınaların uzun müddət davam etməsi Gilan hakiminin nümayəndəsi Mirzə Musanın Həştərxanda oktyabr ayının 24-nə qədər dayanıb gözləməsinə səbəb oldu. Onun Gilan hakiminə çatdıracağı məktuba nə vaxt cavab alınacağı isə məlum deyildi. Rusiya sarayı mövcud şəraitdə yaranmış fürsəti əldən buraxmaq istəmirdi. Ona görə Rusiya sarayı general Qudoviçi sülh danışıqlarına başlaması üçün tələsdirirdi.

2. Azərbaycan xanlıqları ətrafında İ.Qudoviçin Qacar sarayı ilə danışıqlar aparması

Rusiya Xarici İşlər Nazirliyi Qacar sarayı ilə Rusiya dövlətinin maraqlarına cavab verən danışıqların başlanması üçün general İ.Qudoviçə konkret tapşırıqlar verdi. Xarici İşlər Nazirliyindən alınan məktubda bildirilirdi ki, sülhün əldə edilməsi üçün mümkün olan bütün vasitələrdən istifadə edilsin. Həmin məktubda qeyd olunurdu ki, Dağıstan və Azərbaycanın bir hissəsi Rusiya işğalı altında olduğu halda, Qudoviçin sülh təklifi ilə şah sarayına müraciət etməsi Rusiyanın şərəfinə heç bir xələl gətirməz. Xarici İşlər Nazirliyinin mövqeyi belə idi ki, sülh danışıqlarına gedilməsini Fətəli şah heç də Rusiyanın təslimçiliyi kimi qəbul etməz. Çünki Cənubi Qafqazın xeyli hissəsinin Rusiyanın nəzarəti altında olması şah sarayını belə bir fikirdən çəkindirərdi.

Belə olanda Qudoviç öz nümayəndəsini şah sarayına göndərməyi qərara aldı və öz seçimini adyutantı mayor Stepanovun üzərində saxladı. Qudoviç qərara aldı ki, sülh müzakirələrinə başlanması üçün şah sarayının vəziri Mirzə Şəfiyə də müraciət etsin. Bunun üçün Qudoviç mayor Stepanov vasitəsilə Mirzə Şəfiyə həm məktub, həm də çoxlu qiymətli hədiyyələr göndərdi.

Yuxarıda qeyd edildiyi kimi, bu məktub Bakı və Quba xanlıqlarının işğal edildiyi, digər xanlıqlar ərazisində Rusiya işğalının və nüfuzunun möhkəmləndirildiyi bir dövrdə yazılmışdı. İ.Qudoviç bölgədə hərbi-siyasi təşəbbüsü öz əlinə aldığını güman edirdi və onun bu əminliyi və bundan doğan ötkəmliyi Mirzə Şəfiyə göndərdiyi məktubunda da öz əksini tapmışdı. Məktubun məzmunundan Azərbaycan xanlıqları üzərində hakimlik etmək haqqı olan bir şəxsin amiranəlik pafosu qabarıq şəkildə özünü göstərirdi.

Mirzə Şəfiyə ünvanladığı məktubunda İ.Qudoviç bir daha sülh danışıqlarına meylli olduğunu qeyd edir və ona müraciət etməyin səbəbini Gilan hakiminə göndərdiyi məktuba cavab almaması ilə bağlayırdı. O yazırdı ki, Rusiya imperatoru insan qanı axıdılmasının əleyhinədir və ona görə də döyüşlərin dayandırılmasına, sülhün əldə edilməsinə üstünlük verir. İ.Qudoviç Gilan hakiminin nümayəndəsini dostcasına qarşıladığını və yola saldığını yazırdı və əlavə edirdi ki, həmin nümayəndə vasitəsilə göndərdiyi məktubun Tehran sarayına çatıb-çatmadığından xəbəri olmadığı üçün öz adyutantı Stepanovu Tehrana göndərməyi qərara almışdır. General Qudoviç bir daha öz təkliflərini irəli sürür və ilkin şərtlər əsasında hərbi əməliyyatların dayandırılması üçün danışıqlara başlanmasına hazır olduğunu bildirirdi. Aparılacaq danışıqlar zamanı iki dövlət arasında sərhəd xətti kimi Araz və Kür çayları təklif edilirdi və bildirilirdi ki, sülh müqaviləsi imzalanana və sərhəd xətti birdəfəlik təyin olunana kimi Kür və Araz çayları sərhəd xətti kimi qalmalı və hər iki tərəf bu sərhəd xəttinə riayət etməlidir. İki dövlət arasında müvəqqəti sərhəd xətti kimi götürüləcəyi təqdirdə Arazdan şimalda qalan Naxçıvan və İrəvan xanlıqları Rusiyanın işğalı altında olmayan ərazilər idi. General-feldmarşal İ.Qudoviç bu xanlıqların ərazisinə gediş-gəlişin sərbəstliyinin saxlanmasını mümkün sayırdı. Əslində isə İ.Qudoviç Naxçıvan və İrəvan xanlıqlarına Rusiyanın işğalı altına düşməli olan ərazilər kimi baxırdı. Qacar sarayına təzyiq göstərilməsi ilə sərhəd xəttinin Kür və Araz boyu keçməsinə nail olunduğu halda Qacar dövlətinin Naxçıvan və İrəvan xanlıqlarını özünə birləşdirmək iddiası aradan qalxmış olar və bununla həmin xanlıqların işğalı da asanlaşardı.

İ.Qudoviç öz məktubunda həmin əraziləri "hələlik Rusiya tərəfindən işğal edilməmiş" ərazilər kimi xarakterizə edirdi (21).

General-feldmarşal İ.Qudoviç sonra təklif edirdi ki, irəli sürülən şərtlər əsasında ilkin danışıqlar aparılması üçün Qacar sarayının 2 nümayəndəsi sərhəd xəttinə yaxın olan Şuşa şəhərinə gəlsin. Həmin şəxslərlə danışıqlar aparmaq üçün 2 nəfər də İ.Qudoviç tərəfindən Şuşaya göndərilməli və bu nümayəndələr də döyüşlərin dayandırılması və sülh müqaviləsi danışıqlarının başlanması üçün razılaşma imzalamalı idilər. Rus generalı məktubun sonunda bəyan edirdi ki, irəli sürülən şərtlər əsasında danışıqlar aparılmazsa onda tökülən qanlara Qacar sarayı cavabdeh olacaqdır. Bunlardan əlavə İ.Qudoviçin yavəri mayor Stepanov şah sarayına onu da çatdırmalı idi ki, Cənubi Qafqaza yeni rus hərbi qüvvələr gəlişir. Buna baxmayaraq, general Qudoviç hərbi əməliyyatları müvəqəti olaraq dayandırıb və Qacar sarayının sülh danışıqlarına münasibətinin necə olacağını gözləyir (22).

General Qudoviçin məktubunu aparmalı olan mayor Stepanov 1806-cı il dekabr ayının ortalarında Tiflisi tərk etdi və həmin ayın sonuncu günü Təbrizə yetişdi. Mayor Stepanov Təbrizdə maraqla qarşılandı. O, Abbas Mirzə və onun hamisi vəzir Mirzə Bozorgla görüşdü. General Qudoviçin Mirzə Şəfiyə məktub göndərmək təşəbbüsü isə Abbas Mirzə tərəfindən birmənalı şəkildə qarşılanmadı. Məktubun məzmunu ilə tanış ola bilməyən Abbas Mirzə mayor Stepanovu Təbrizdə saxladı. Onun nəzərinə çatdırıldı ki, general Qudoviç Qacar sarayı ilə əlaqəyə girmək istəyirsə, ilk növbədə o, Abbas Mirzə ilə təmas qurmalı, maraq kəsb edən məsələni Abbas Mirzə ilə müzakirə etməli və yalnız bundan sonra Abbas Mirzə rus generalının elçisinə Qacar sarayına getməyə icazə verməli idi. Mayor Stepanov Təbrizdə ləngiməli olduqda yerli ermənilərdən birinin vasitəsilə general Qudoviçə məktub göndərdi və vəziyyət haqqında ona məlumat verdi. General Qudoviç həmin məktubu alandan sonra qərara gəldi ki, Abbas Mirzəyə və onun vəziri Mirzə Bozorga qiymətli hədiyyələr göndərsin və onların mövqeyinin yumşalmasına nail olsun. Belə bir ideya əslində ona mayor Stepanov tərəfindən verilmişdi. İ.Qudoviç də bu ideya ilə razılaşaraq adları çəkilən şəxslərə qiymətli hədiyyələr göndərdi. General İ.Qudoviç eyni zamanda mayor Stepanova məktub yazdı və ona tezliklə Tehrana doğru hərəkətə başlamağın yolunu tapmağı tapşırdı. Bu zaman Qacar dövləti ilə Fransa arasında müəyyən münasibətlərin formalaşması meylləri var idi və şah nümayəndələri bu münasibətlərə böyük ümidlərlə yanaşırdılar. İ.Qudoviç mayor Stepanovdan tələb edirdi ki, Qacar sarayının Fransa və Osmanlı Türkiyəsi ilə yaratmağa çalışdığı münasibətlərin Qacar dövlətinə bir fayda verməyəcəyinə görüşdüyü adamlara da çatdırsın.



Feldmarşal Qudoviç

Onun fikrincə, həm Mirzə Şəfi, həm də Mirzə Bozorg ağıllı adamlar idilər və onlar Rusiya ilə düşmənçiliyin dayandırılmasına etiraz etməzdilər. Dediklərinin əsaslandırılması üçün İ.Qudoviç bir daha böyük gücə malik olduğunu, Qafqaza əbəs yerə gəlmədiyini, bütün Dağıstanı fəth etdiyini xatırlatmağı da unutmurdu (23).

Abbas Mirzə mayor Stepanovla keçirdiyi görüşünün birində onun sədrəzəm Mirzə Şəfiyə apardığı məktubun məzmunu ilə tanış ola bildi. Mayor Stepanov məktubun məzmunundan xəbərdar idi və ona görə də Rusiya tərəfindən danışıqlar aparılması üçün Qacar sarayına irəli sürdüyü şərtlərin məzmununu açıqladı. Bundan sonra Abbas Mirzə mayor Stepanovun Tehrana yollanmasına icazə verdi və mayor Stepanov 1807-ci il yanvar ayının 20-də Təbrizdən Tehrana doğru hərəkətə başladı. İ.Qudoviç bundan xəbər tutan kimi poruçik Məlikov adlı birisini mayor Stepanovun arxasınca göndərdi. General Qudoviç əlavə olaraq Mirzə Şəfinin nəzərinə çatdırmaq istəyirdi ki, Rusiya ilə müharibəni davam etdirmək Qacar dövlətinin xeyrinə deyildir. Əksinə, Rusiya ilə xoş münasibətlərin qurulması Qacar dövlətinə daha böyük fayda verə bilərdi. İ.Qudoviç ona da işarə edirdi ki, Rusiya ilə xoş münasibətlər qurandan sonra Qacar sarayı bir vaxtlar Osmanlı dövlətinin ələ keçirdiyi Bayazid və Ərzrum vilayətlərinin geri qaytarılması fikrinə düşsə, bu zaman Rusiya şah sarayına kömək edə bilər (24).

Farsdilli mənbələrə görə, feldmarşal İ.Qudoviçin böyük ümidlə yola saldığı mayor Stepanov 1807-ci il fevral ayının 16-da Tehrana yetişdi (25). Amma mayor Stepanov Tehran sarayında gözlənildiyi qədər də dostcasına qarşılanmadı. Çünki Qacar sarayı Azərbaycan xanlıqlarını özünə birləşdirmək planlarından əl çəkməmişdi və əl çəkmək niyyətində də deyildi. Əksinə, Qacar sarayı bu niyyətə nail olmaq üçün Fransa ilə ittifaq yaratmağa cəhd göstərirdi. Qacar sarayı Azərbaycan xanlıqlarını öz ərazisi sayırdı və İ.Qudoviçin təklifləri ilə tanış olandan sonra mayor Stepanova da bu məzmunda cavab verdi. Farsdilli mənbələrə görə, Fətəli şah Rusiyanın təkliflərinə münasibətini belə bildirdi ki, sülh istisna deyil. Amma Fətəli şah rusların Qagqazda qalması ilə razı olmadığını bəyan etdi (26).

Mövcud olan başqa bir məlumara görə isə Stepanov şah sarayında xeyli gözləməli oldu və şah sarayından Qudoviçin təkliflərinə heç bir cavab almadı. Ona verilən şifahi cavab isə bundan ibarət oldu ki, əgər rus qoşunları hücuma keçməsə, şah qoşunları da hücuma keçməyəcəkdir (27).

Başqa bir məlumata görə isə Abbas Mirzə Qudoviçin məktubunun məzmunu ilə tanış olanda son dərəcə qəzəbləndi və sərdarlarına əmr etdi

ki, bütün qoşunlar Xoydakı düşərgədə toplansınlar. O, qoşun başçılarına tapşırdı ki, müharibəyə hazır olsunlar. Abbas Mirzə bütün qoşun başçılarını Qudoviçin məktubunun məzmunu ilə tanış etdi və onlardan tələb etdi ki, bütün qüvvələri rus qoşunları ilə müharibəyə hazırlasınlar (28).

Dağıstan böyüklərinə göndərdiyi məktubunda Abbas Mirzə yazırdı: "Yəqin ki, sizin də xəbəriniz var ki, bir müddət əvvəl rus baş komandanının elçisi mənim yanıma gəlmişdi. O, əvvəlki hərəkətlərinə görə üzr istəyərək dostluq haqqında söhbət açdı. Mən bu elçini əlahəzrət şahın sarayına göndərdim. Onun gəlişinin məqsədi belə idi ki, biz ruslarla barışaq, düşmənçilik tozu bizdən silinib atılsın. Amma bu torpaqlar onların mövcudluğunun yaramazlıqlarından təmizlənməyincə onun xahişinə ehtiram göstərilməyəcək" (29).

Buunla belə, Abbas Mirzə Cənuba Qafqaza olan iddialarından Qacar sarayının əl çəkmədiyini də Dağıstan böyüklərinin nəzərinə çatdırırdı. O bəyan edirdi ki, Rusiyanın işğalçı qüvvələri Qafqazdan qovulacaq və bu ərazilər Qacar sarayının hakimiyyəti altına düşəcəkdir.

Sonra Abbas Mirzə Dağıstan böyüklərini xəbərdar etdi ki, onlar da müqəddəs müharibəyə hazırlaşsınlar və nicat yolunu tutsunlar.

Rus mənbələrinin məlumatlarına görə, Abbas Mirzə yalnız Dağıstana deyil, Azərbaycan xanlıqlarına da çaparlar göndərdi və müharibəyə hazırlaşmağın zəruriliyini onlara da çatdırdı. Azərbaycan xanlıqlarından xahiş olundu ki, onlar da öz silahlarını Rusiyaya qarşı qaldırsınlar.

Bu çağırışlar Cənubi Qafqazda möhkəm dayağı olmayan rus qoşunlarının baş komandanı general-feldmarşal Qudoviçi narahat etməyə başladı. Bölgədə hərbi təşəbbüsün şahın və Azərbaycan xanlarının qoşunlarının əlinə keçməsinə yol verilməməsi üçün qraf Qudoviç bir sıra məntəqələrdə rus qoşun dəstələrinin möhkəmləndirilməsini qərara aldı. Həmin qərara əsasən, Tiflis yaxınlığındakı Soğanlıda, Qarabağda, Bərdə yaxınlığında, Pəmbəkə aid olan Hamamlı kəndində rus dəstələri möhkəmləndirildi. Hamamlı kəndində Qars və İrəvandan gələn yollar birləşirdi. Bu istiqamətdən həm Osmanlı qoşunları, həm də İrəvan xanlığının qoşunları hücuma keçə bilərdilər. Möhkəmləndirildikdən sonra Soğanlıda aşağıdakı hissə və bölmələr dayanırdı: hər biri üç tabordan ibarət olan Xerson və Qafqaz alayarı, 2 tabordan ibarət 15-ci yeger və 9-cu alay, Narv süvari alayının 4 eskadronu, Borisqleb draqun süvari alayının 5 eskadronu, Don kazak alayı, Xətti kazak alayı və 34 top. Bərdə ətrafında Troitski muşketyor alayı, 16-cı Don alayının və 17-ci Yger alayının 6 bölüyü dayanırdı. Buradakı qüvvələrə general Nebolsin rəh-

bərlik edirdi. Nəhayət, Hamamlıda isə general Nesvetayevin rəhbərliyi altında olan Saratov muşketyor və 2-ci Don alayları dayanırdı (30).

Rusların Cənubi Qafqazda bu fəallaşmasına şah qoşunlarından da əməli cavab gəldi. Abbas Mirzə, Hüseyn xan qullarağasının və Şərəf xan Dəmavəndinin rəhbərliyi altında İrəvan istiqamətində qoşun dəstəsi göndərdi ki, İrəvanın müdafiəsi daha da gücləndirilsin. Bundan başqa Abbas Mirzə qoşun başçılarına da məktub göndərdi ki, rus qoşunlarının müşahidəsi aparılsın (31).

1807-ci ildə Cənubi Qafqazda vəziyyətin kifayət qədər mürəkkəb və gərgin olduğu vaxtda Rusiyanın işğal etmək istədiyi İrəvan xanlığında Əhməd xanın yerinə sərdar Hüseynqulu xan (mənbə və tarixi ədəbiyyatda o Hüseyn xan kimi də xatırlanır) təyin edildi. Məhəmməd xanın İrəvan xanlığından kənarlaşdırılmasından sonra İrəvan xanlığının idarə edilməsində şah sarayının təsiri çox böyük idi. Sərdar Hüseyn xan da məhz şah sarayının təzyiqi ilə İrəvan xanı oldu. Mənbələrdə bildirilir ki, sərdar Hüseyn xan özü ilə İrəvana bir alay da gətirdi ki, qalanın müha-fizəsini daha da möhkəmləndirsin (32).

Abbas Mirzənin öz ətrafına 40 min nəfərlik qoşun dəstəsi toplaması haqqında xəbərlər də yayıldı. İ,Qudoviç bu xəbərlərin doğruluğuna inanmırdı (33). Bununla belə, qacarların doğrudan da yeni yürüşlərə hazırlaşması general İ. Qudoviçi təşvişə salırdı. Alınan həyəcanlı xəbərlərə baxmayaraq, Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərinə yeni kütləvi yürüşü baş vermədi. 1807-ci ilin aprelində Qacar qoşunlarının fəaliyyət təcrübəsinin təhlil edən rus qoşunları komandanlığı belə bir qənaətə gəldi ki, yaxın aylar üçün Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərinə hərbi yürüşü inandırıcı görünmür. Qacarlarla hərbi əməliyyatların başlanmasını arzulamayan Rusiya sarayı isə İ.Qudoviçə bir daha sülh danışıqlarına cəhd göstərməyi tövsiyə etdi. Rusiya xarici işlər naziri İ.Qudoviçə göndərdiyi məktubunda 250 illik tarixi olan Rusiya-İran münasibətlərinin heç də həmişə gərgin olmadığını bildirirdi. Cənubi Qafqazda müharibə başlanmasına və bununla Qacar dövləti ilə gərginlik yaşanmasına Rusiya xarici işlər naziri bölgə xalqlarının və Dağıstan hakimlərinin Rusiyanın ticarət maraqlarına qarşı olması və onların silah gücünə itaət altına gətirilməsi zərurəti ilə bağlayırdı. Qacar sarayının qəbul etmədiyi ərazi iddialarını isə Rusiya xarici işlər naziri iki ölkə arasında etibarlı sərhəd xəttinin yaradılmaması ilə bağlayırdı. Rusiyanın xarici işlər nazirinə görə, həmin ərazi iddiaları Qacar sarayı üçün ağır sayılmalı deyildi. Çünki Kür və Arazın hər iki sahillərindəki ərazilər onsuz da Qacar dövlətinə mənsub deyildi (34).

General-feldmarşal Qudoviç Rusiya sarayının tövsiyəsindən sonra Abbas Mirzəyə məktub. Həmin məktubda İ.Qudoviç sülh danışıqlarının aparılması üçün ilkin şərtləri bir daha Abbas Mirzənin nəzərinə çatdırdı. Bütünlükdə, 1807-ci ilin may ayında Qudoviçlə Qacar sarayının müxtəlif nümayəndələri arasında fəal yazışmalar aparıldı. Həmin yazışmalardan belə bir qənaətə gəlmək olar ki, Qacar sarayı danışıqların aparılmasına loyallıqla yanaşmaqdadır. Bu da çox güman ki, 1807-08-ci illərdə Fransa hərbçilərinin iştirakı ilə Qacar qoşunlarının yenidən qurulması üzərində fəal iş aparılması ilə bağlı idi. Azərbaycan xanlıqlarının Qacar dövlətinə birləşdirilməsi üçün təkcə Azərbaycan xanlıqlarının deyil, eyni zamanda Rusiyanın müqavimətini qırmaq lazım idi. Abbas Mirzə və şah sarayı da yaxşı bilirdi ki, mövcud qoşunlarla Rusiyanın Qafqazdakı qoşunlarının müqavimətini qırmaq mümkün deyil. Ona görə də, bütün ümidlər yenidən qurulacaq qoşunlara bağlanılırdı. Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərinə ehtimal edilən yürüşünün təxirə salınması da bununla bağlı idi.

Abbas Mirzə general Qudoviçə yazdığı cavab məktubunda onun sadaladığı şərtlərə öz münasibətini bildirdi. İ.Qudoviçin irəli sürdüyü ilk şərt hərbi əməliyyatların dayandırılması idi. Qacar şahzadəsi bəyan edirdi ki, mayor Stepanov məktubu gətirən gündən Qacarlar tərəfindən döyüşlər dayandırılıbdır. Abbas Mirzə onu da əlavə edirdi ki, hava şəraiti döyüşlərin aparılmasına imkan versə də qacarlar tərəfindən buna yol verilmir. General Qudoviçin irəli sürdüyü ikinci şərt ondan ibarət idi ki, ticarət karvanlarının qarşılıqlı səfərlərinə maneə yaradılmasın. Abbas Mirzəyə görə, tərəflər arasında döyüş əməliyyatları aparılmadığı halda tacirlərin qarşılıqlı səfərlərini də problemsiz həyata keçirmək mümkündür. Qudoviçin üçüncü şərti belə idi ki, tərəflər arasında anlaşılmaz hadisə baş verərdisə, onun araşdırma yolu ilə aradan qaldırılmasına cəhd göstərilsin. Abbas Mirzə bu təklifə də öz münasibətini bildirdi. Qudoviçin Abbas Mirzəyə ünvanladığı sonuncu məsələ isə tərəflərin səlahiyyətli nümayəndələrinin görüşünün və müzakirələrinin təşkil edilməsi məsələsi idi. Abbas Mirzə bu məsələyə birmənalı şəkildə cavab vermədi. O bəyan etdi ki, tərəflərin nümayəndələrinin görüşməsi üçün onların müzakirə edəcəkləri məsələlərə aydınlıq gətirilməlidir. Ona görə bilmək istəyirdi ki, Rusiya tərəfi sülhün bağlanması üçün hansı məsələləri müzakirəyə çıxarmaq istəyir. Abbas Mirzə Rusiyanın səlahiyyətli nümayəndəsi kimi Qudoviçdən də sülh danışıqları üçün konkret təkliflərinin irəli sürülməsini xahiş edirdi. Abbas Mirzə Rusiyanın təkliflərinin konkretləşəcəyi halda müzakirələrin başlanmasının mümkünlüyünə işarə etdi (35).

Mayor Stepanovun Tehran sarayında yüksək səviyyədə qarşılanmamasına baxmayaraq hər halda general Qudoviçin məktubu cavabsız qoyulmadı. Qudoviçin məkrubu sədr-əzəm Mirzə Şəfinin adına yazıldığı üçün o da irəli sürülən təkliflərə cavab verdi. Daha doğrusu, Mirzə Şəfi general Qudoviçin irəli sürdüyü təkliflərə aydınlıq gətirməkdən daha çox Arazdan şimalda yerləşən Azərbaycan xanlıqlarının, habelə Gürcüstan və Dağıstanın İrana mənsubluğunu sübut etməyə çalışdı. Qudoviç ilk növbədə Gürcüstanın və Dağıstanın İrana mənsubluğuna münasibətini bildirdi və bəyan etdi ki, Dağıstan hakimləri uzun illərdir ki, azaddırlar, Gürcüstan isə Rusiyanın təbəəliyinə qəbul edilmişdir. Bəzi Azərbaycan xanlıqlarının İrana mənsub olmamasını isə o, həmin xanlıqların gürcü çarlarına vergi verməsi ilə əsaslandırırdı. Sonra isə qraf Qudoviç məktubunda ilkin razılaşmanın imzalanması üçün irəli sürdüyü ilkin şərtlərin mahiyyətini bir daha Mirzə Şəfiyə açıqladı (36). 1807-ci ilin yayında Fransa ilə Rusiya arasında Tilzit sülh müqaviləsi imzalanandan sonra Osmanlı Türkiyəsi Rusiyaya qarşı müharibəyə Qacar sarayını da cəlb etməyə çalışdı. Qarşılıqlı razılaşma əsasında Abbas Mirzə ilə Ərzrum sərəsgəri Yusif paşa hər biri ayrılıqda 20 min nəfərlik qoşun dəstəsi ilə Arpaçaya doğru istiqamət götürdülər. Qərara alınmışdı ki, iki ölkənin qoşunlarının səyləri ilə Rusiyanın Qafqazdakı qüvvələrinə zərbə vurulsun. Qudoviç bu plandan duyuq düşən kimi Arpaçay istiqamətinə qoşun dəstəsi göndərdi. Həmin qoşun dəstəsi Yusif paşanın dəstəsinə Abbas Mirzənin dəstəsi ilə birləşməyə imkan vermədi. Abbas Mirzənin dəstəsi döyüş meydanına vaxtında yetişə bilmədiyi üçün Yusif paşaya lazımi kömək göstərə bilmədi və İrəvan istiqamətində geri çəkilmək məcburiyyətində qaldı. Bu döyüşün nəticəsinə görə Osmanlı dövləti 1807-ci il sentyabrın 2-də Uzunkilsə anlaşmasını imzalamalı oldu (37).

Həmin döyüşün şah sarayı və Azərbaycan xanlıqları üçün nəticəsi ondan ibarət oldu ki, Rusiya Cənubi Qafqazın işğalına mane ola biləcək bir qüvvəni də zərərsizləşdirməyə nail oldu. Fransa və Osmanlı dövlətləri tərəfindən gözlənilə biləcək təzyiqlər aradan qaldırılandan sonra şah qoşunları da, Azərbaycan xanlıqları da yenidən Rusiyaya qarşı təkbaşına qalmalı oldular.

Osmanlı Türkiyəsi ilə sülh müqaviləsinin imzalanması, eyni zamanda şah sarayından xəbərsiz Rusiya ilə Fransa arasında Tilzit sülh müqaviləsinin imzalanması Rusiyanın beynəlxalq mövqelərini müəyyən qədər yaxşılaşdırdı. Nəticədə Rusiyanın Cənubi Qafqaz cəbhəsinə əlavə qoşun çıxarmaq imkanı da artdı. Bununla belə, Rusiya sarayı danışıqların aparılmasına da diqqəti azaltmadı.

Arpaçay yaxınlığında türk qoşunlarına qalib gəldikdən sonra Qudoviç zənn edirdi ki, şah sarayını İrəvan və Naxçıvan xanlıqları ilə bağlı olan niyyətlərindən əl çəkməyə asanlıqla məcbur edəcəkdir. Şah sarayı isə Rusiya ilə danışıqları hər vasitə ilə uzadır və eyni zamanda xarici dövlətlərin təhriki ilə Rusiya ilə müharibəyə hazırlığı da davam etdirirdi. Buna görə də 1807-ci ilin axırlarında Qudoviç Rusiya Xarici İşlər Nazirliyinə məktub yazıb ona əlavə qüvvələr verilməsini xahiş etdi. Qudoviçin fikrincə, bir draqun və bir kazak alayının Gürcüstana göndərilməsi şah sarayını qorxudacaq və onu Rusiyanın tələbləri ilə razılaşmağa məcbur edəcəkdi. Qudoviç bəzi təxribatların həyata keçirilməsini də istisna etmirdi (38).

Ancaq danışıqların uzandığını və Rusiyanın işğalı altında olan ərazilərdə Rusiya əleyhinə güclü təbliğat aparıldığını görəndə Qudoviç Şimali Qafqazdan yeni alay gətizdirib onun bölmələrini şah qoşunlarının hücum təhlükəsi olan sərhəd zonalarda yerləşdirdi. Yeni gətirilmiş qüvvələrin Rusiyanın təzavüzkarlıq imkanlarını artırdığından İrəvan xanı sərdar Hüseyn xan da xanlıq ərazilərində müəyyən müdafiə tədbirləri həyata keçirdi: əlavə qoşun hissələri toplandı, qala divarları möhkəmləndirildi, yem, ərzaq və sursat ehtiyatı artırıldı, qala ətrafındakı saxlanclara su doldurudu. Bunlardan əlavə sərdar Hüseyn xan Gürcüstan sərhədinə qoşun dəstələri göndərdi.

Şah sarayı ilə danışıqlar uzandığına görə Qudoviç hədələyici tələblər irəli sürdü. O gizlətmirdi ki, Rusiyanı bu danışıqlarda yalnız və yalnız Arpaçay, Araz və Kürdən şimaldakı ərazilərin güzəştə gedilməsi təmin edə bilər. Bu tələblərinin qəbulunu asanlaşdırmaq üçün Qudoviç mənasız dəlillər irəli sürməkdən belə çəkinmirdi. Onun fikrincə, həmişə dövlətlər arasında ən yaxşı sərhəd xətti onların arasından keçən çay hesab edilmişdi. Ona görə də Qudoviç bildirirdi ki, belə bir qaydaya "hörmətlə yanaşaraq nə üçün Rusiya ilə İran arasında Arpaçay, Araz və Kür çayları kimi ciddi sərhəd xətləri qəbul edilməsin? Sülhün möhkəmləndirilməsi üçün başlıca əsas da budur və o da Rusiyanın tələblərinin əsasını təşkil edir" (39).

Rusiya hökuməti eyni zamanda şah sarayını inandırmağa çalışırdı ki, təklif olunan güzəştlər Qacarlar üçün ağır və alçaldıcı güzəştlər olmayacaqdır. Çünki əvvəla İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Kür və Arazdan şimalda olan ərazilər artıq çoxdan şah sarayının hakimiyyəti altından çıxmışdır. Yəni, onsuz da şah sarayı bu ərazilər üzərində heç bir hüquqa malik deyildir. O biri tərəfdən isə bu ərazilər yaxşı halda ildə 100 min rubl gəlir gətirə bilərdi. Şah sarayının burada çəkdiyi hərbi xərclər isə bundan qat-qat artıqdır. Deməli həmin ərazilərin

Rusiya hakimiyyəti altında qalacağı təqdirdə şah sarayının xərcləri xeyli azalacaq və nəticədə Rusiya ilə münasibətlərin yaxşılaşması ilə ticarətdən gələn gəlirlər xeyli artacaqdır. Rusiya tərəfi əsaslandırmağa çalışırdı ki, Arazdan şimaldakı ərazilərin Rusiyanın hakimiyyəti altına düşməsi Rusiyadan daha çox şah sarayının mənafelərinə cavab verir və buna görə də şah sarayı bu haqlı tələblə razılaşmalıdır.

Şah sarayının danışıqların aparılması sahəsində qeyri-fəal mövqeyinə baxmayaraq, qraf Qudoviç yalnız səsləndirdiyi şərtlərlə kifayətlənmək istəmirdi. O, şah sarayı qarşısında şərt qoymaq istəyirdi ki, Xəzər dənizinə hərbi gəmilər çıxarmaq səlahiyyətindən imtina etsin (40). Amma irəli sürülə biləcək şərtlərin qəbul etdirilməsi üçün əvvəlcə şah sarayını danışıqlara cəlb etmək lazım idi. Bu məqsədə nail olmaq üçün qraf Qudoviç 1808-ci il may aynın 25-də Abbas Mirzəyə yeni bir məktub göndərdi. Kifayət qədər həcmli olan bu məktubda qraf Qudoviç şah sarayını bir daha irəli sürülən şərtlərin qəbul olunmasına inandırmağa çalışdı. Bu məktubda da əsas məsələ Azərbaycan xanlıqlarının kimim işğalı altına verilməsi, iki dövlət arasındakı sərhəd xəttinin Azərbaycan xanlıqları üzərində necə təsbit edilməsi idi.

Həmin məktubda yeni bir fikir mövcud deyildi. Qraf Qudoviç şah sarayının təşəbbüsü əsasında başlanan danışıqlara meylli olduğunu, bu danışıqların nəticəsinin şah sarayı üçün faydalı ola biləcəyini açıqlayırdı. Qraf Qudoviç onu da etiraf edirdi ki, imzalana biləcək sülh müqaviləsinin əsası iki dövlət arasında sərhəd xəttinin müəyyənləşdirilməsi məsələsidir.

Qudoviç 1808-ci il mart ayının 25-də Abbas Mirzəyə yazdığı məktubunda onu da əsaslandırmağa çalışırdı ki, Rusiya Fransa ilə sülh müqaviləsi imzalayandan sonra Qacar sarayı beynəlxalq aləmdə təklənmişdir və Rusiyanın bu bölgədə öz siyasətini yeritməsinə heç kim mane olmayacaqdır. Onun fikrincə, Cənubi Qafqazda hegemonluq etməyə Rusiyanın daha ox haqqı vardır və o bu niyyətindən imtina etməyəcəkdir (41).

Arazdan şimalda olan ərazilərin, əsasən də Azərbaycan xanlıqlarının dinc yolla bölüşdürülməsi istiqamətində şah sarayı ilə Rusiya arasında aparılan yazışmalar və danışıqlar tərəfləri qane edən bir nəticəyə gətirib çıxarmadı.

Qudoviçin Abbas Mirzəyə yazdığı məktubu şah sarayına pod-polkovnik baron Vrede çatdırdı. Qraf Qudoviç baron Vrede vasitəsilə eyni zamanda general Qardana da məktub göndərdi. Qudoviç bir tərəfdən onu xatırladırdı ki, Rusiya ilə Fransa arasında sülh bağlanmalıdır və bu dövlətlərin nümayəndələri də biri digərinə qarşı çıxmamalıdır. Yəni, Qudoviç onu xatırlatmağa çalışırdı ki, general Qardan İrandakı

fəaliyyəti ilə Rusiyanın mənafelərini əksinə getməməlidir. Qudoviç eyni zamanda xahiş edirdi ki, general Qardan şah sarayını da tutduğu yoldan çəkindirsin və şah sarayını Rusiya ilə sülh müqaviləsi bağlamasına sövq etsin. Digər tərəfdən də Qudoviç xatırladırdı ki, Rusiya ilə Fransa da İngiltərəyə qarşı düşməm mövqedədir və ona görə də general Qardanın nəzərinə çatdırılırdı ki, o, ingilislərin şah sarayına yol tapmasına imkan verməsin. Qraf Qudoviç bütünlükdə general Qardanı inandırmağa çalışırdı ki, Fransa dövləti şah sarayına kömək etmək niyətində deyil və Fransanın İrandakı səfiri də bu yolu tutmalıdır.

Qudoviçin həyasızlıqla dolu məktubları şah sarayının hədsiz qəzəbinə səbəb olduğundan Abbas Mirzə də Qudoviçə oxşar cavab göndərdi: "Əlahəzrət, nümayəndəniz podpolkovnik Vrede ilə göndərdiyiniz məktubu aldım. Yazırsınız ki, Kür, Araz və Arpaçay çayları qadir Allah tərəfindən iki dövlət arasında sərhədin müəyyənləşdirilməsi üçün düz xətdir. Siz möhtərəmə gizli deyil ki, Mozdok ətrafında çox çaylar vaxtilə İran ilə Rusiya arasındakı sərhədi təşkil etmişdi və onlar da düz xətt kimi iki dövləti bir-birindən ayırırdı. Onu da yazırsınız ki, şah sarayı iddia olunan vilayətlərin heç bir xeyir götürmür və ona görə də Rusiya ilə dostluq münasibətlərinə böyük fayda verəcək bu az əhəmiyyətli ərazilərin qurban verilməsi heç bir çətinlik yaratmamalıdır. Cavab verirəm ki, Rusiya da iddia olunan ərazilərdən heç bir qazanc götürməyəcəkdir. Buna görə də, daha yaxşı olardı ki, xeyirsiz vilayətləri oğruların əlinə verməkdənsə, onlar köhnə sahiblərinin əlində qalsın" (42).

Abbas Mirzə sonra yazırdı ki, Fransanın Rusiya ilə müqavilə imzalamasını, Fransanın şah sarayı qarşısında verdiyi vədləri yerinə yetirməyəcəyini xatırlatmağın heç bir mənası yoxdur. Onun sözlərinə görə, Fransanın öz vədlərini yerinə yetirməyəcəyi heç də fəlakət deyil. Bu ona əsas vermir ki, şah sarayı öz vilayətlərindən əl çəksin və bu istiqamətdə öz səylərini əsirgəsin.

Abbas Mirzə əlavə edirdi ki, anlaşma imzalanan vaxtdan sonra Fransa hələlik öz vədlərinə xilaf çıxmamışdır. Onun yazdığına görə, əgər Fransa belə vədə xilaf olsaydı onda Rusiya da onunla ittifaqa girməzdi. Abbas Mirzə bildirirdi ki, baron Vrede Tehrana səfər edəndən sonra şah sarayı Rusiya ilə sülhün bağlanmasını Fransa hökumətinə həvalə etmişdir. Eyni zamanda şah sarayının Fransadakı səfirinə tapşırıq verilmişdi ki, oradakı Rusiya səfiri qraf Tolstoyla əlaqəyə girsin və İran, Fransa və Rusiya arasında dostluq traktatının imzalanması məsələsini müzakirə etsin (43).

Abbas Mirzənin toxunduğu bu məsələlər general Qardanın yazışmalarında da öz əksini tapmışdı. İranda olduğu müddət ərzində

general Qardan bir tərəfdən Fransa ilə Rusiya arasında imzalanmış müqaviləyə əsasən Rusiyanın maraqlarına qarşı çıxmırdısa, digər tərəfdən şah sarayının Fransaya isti münasibətini saxlamağa və ona görə də şah sarayı ilə Rusiya arasında vasitəçiliyi həyata keçirməyə çalışırdı. General Qardan yaxşı anlayırdı ki, qraf Qudoviçin ağır şərtləri şah sarayı tərəfindən qəbul edilməzdir. Bunu əyani görüşləri zamanı Fətəli şah da ona bildirmişdi. General Qardan etiraf edirdi ki, şah sarayının təklifləri ilə Rusiya generalının təkliflərini vahid məxrəcə gətirmək lazımdır. Ona görə o, Fransa xarici işlər naziri De Şampaniyə göndərdiyi məktubunda Rusiya ilə şah sarayı arasında sülh müqaviləsinin əldə edilməsi üçün vasitəçiyə ehtiyac olduğunu təsdiq edirdi. Şah sarayı belə bir vasitə kimi Fransa hökumətini görürdü. Bu məsələ ilə bağlı şah sarayı ilə general Qardan arasında danışıqlar aparılmış və general Qardan şah sarayını inandıra bilmişdi ki, Rusiya ilə sülh müqaviləsinin bağlanması səlahiyyəti şah sarayının Fransadakı səfiri Əsgər xana verilsin (44).

General Qardanın məlumatına görə, Abbas Mirzə Rusiya çarı Aleksandra, şah sarayını vəziri Mirzə Şəfi isə prins Romanova məktub göndərdi. Abbas Mirzə öz məktubunda bildirirdi ki, Fətəli şah Rusiya ilə yenidən qədim dostluq əlaqələrini bərpa etməyə və Rusiya sarayı ilə sülh bağlamağa tərəfdardır. Mirzə Şəfi isə prins Romanovdan xahiş etdi ki, iki ölkə arasında sülh barışığı məsələsinə daha fəal müdaxilə etsin, Rusiya çarından xahiş edilsin ki, sülh anlaşması istiqamətində müzakirələr aparılması üçün Rusiyanın Fransadakı səfirinə lazımi səlahiyyətlər verilsin (45).

General Qardanın fikrincə, Fətəli şah Avropanın iki böyük dövləti olan Fransa və Rusiya ilə əməkdaşlıq qurmağa çox meylli idi. Onun sözlərinə görə, Fətəli şahın Rusiya ilə sülh bağlamağa meylliliyini qraf Qudoviçin elçisi olan De Vredenin çox mehribanlıqla qarşılanması və yola salınmasında da görmək mümkündür. Özü də bu qəbul o vaxt baş verdi ki, ingilislər ölkənin cənubuna hərbi qüvvə çıxarmağa cəhd göstərdilər. General Qardan ona da ümid edirdi ki, De Vrede geri qayıdandan sonra Rusiya ilə şah sarayı arasında atəşin dayandırılması haqqında anlaşma imzalanacaqdır (46).

Farsdilli mənbələrdə olan məlumatlara görə, De Vrede Tehranda öz missiyasını başa vurub geri qayıdanda general Qardan gizli şəkildə ona qraf Qudoviçə ünvanlanmış bir məktub verdi. Qardan məktubunda yazırdı ki, şah sarayı sülh anlaşmasının imzalanması üçün öz səfirini göndərməyə razı olmadı. O vəd edirdi ki, Rusiya tərəfi bu il İran üzərinə hücuma keçməyəcəyi barədə zəmanət versə, onda şah sarayı ilə Rusiyanın arzusunda olduğu sülhü bağlamaq istiqamətində lazımi işlər

apara bilər. General Qardan Qudoviçdən müharibəni başlamamaq haqqında yazılı öhdəlik istəyirdi (47).

Qraf Qudoviç Abbas Mirzə tərəfindən Rusiya çarı Aleksandra, sədr-əzəm Mirzə Şəfinin isə şahzadə Romanova məktub göndərməsi faktlarını təsdiq etmirdi. Onun yazdığına görə, sədr-əzəm Mirzə Şəfi qraf Qudoviçə və Rusiyanın xarici işlər naziri Rumyantsevə məktub göndərdi. Tehrana göndərilmiş olan podpolkovnik baron De Vrede həm də general Qardandan qraf Qudoviçə məktub gətirdi. Bu məktublarda bir tərəfdən Fransanın sülh danışıqlarına cəlb edilməsi cəhdi var idisə, digər tərəfdən də sülh danışıqlarına yeni bir yanaşma təklif olunurdu. Qraf Qudoviçin fikrincə, Fransa hakimiyyəti şah sarayı ilə yaxınlığından istifadə etməklə Rusiya ilə danışıqların Fransanın vasitəçiliyi ilə aparılmasının faydalı ola biləcəyinə inandıra bilmişdi. Fransa rəsmiləri söz vermişdilər ki, onlar Rusiyanın sərhəd xəttini Kür-Araz çayından yox, Qacar dövlətinin maraqlarına cavab verən başqa xətt üzrə keçməsinə razı salacaqdır (48).

Podpolkovnik baron Brede ilə birlikdə Abbas Mirzənin xüsusi nümayəndəsi olan Fətəli xan da qraf Qudoviçin yanına gəldi və ona Abbas Mirzənin və onun vəziri Mirzə Bozorgun məktublarını çatdırdı. Abbas Mirzə də danışıqların aparılmasına Fransanın cəlb edilməsinə tərəfdar idi. Şah əyanlarından alınan məktublarda təklif olunurdu ki, bir illik barışıq elan edilsin və sonra sülh müqaviləsi imzalansın. Sülh müqaviləsinin isə Parisdə imzalanması təklif olunurdu. Abbas Mirzə öz məktubunda bu təkliflər üzərində təkid edirdi və həmin təkliflərin qəbul olunmayacağı təqdirdə Rusiya generalını hədələyirdi də. Abbas Mirzə yazırdı ki, təklif qəbul olunmasa nələrin baş verəcəyini yalnız yaradan bilir. Qraf Qudoviç Abbas Mirzənin və şah əyanlarının yeni təkliflərini qəbul etmədi və bildirdi ki, ona Rusiya imperatoru tərəfindən təklif olunan sərhəd xətti üzrə Qacar sarayı ilə müqavilə imzalamaq səlahiyyəti verilibdir. Bir illik barışığın imzalanması və danışıqlar prosesinə Fransanın cəlb edilməsi ilə bağlı isə ona Rusiya sarayı tərəfindən lazımi səlahiyyətlər verilmədiyini çatdırırdı. Abbas Mirzənin hədələrinə gəlincə isə qraf Qudoviç bəyan etdi ki, hər şeyə hazırdır və Qacar dövlətinin hər addımına müvafiq cavab veriləcəkdir (49).

Qacar sarayı ilə bir illik barışığın qəbul olunmaması Rusiya imperatoru I Aleksandr tərəfindən müdafiə olundu. Rusiya imperatoru eyni zamanda sülh müqaviləsi imzalanması üçün danışıqların Parisdə aparılmasına da razı olmadı. Onun fikrincə, Paris döyüş bölgəsindən çox uzaq idi. Rusiya imperatoru tələb etdi ki, Qacar sarayı ilə danışıqlar əsasən əvvəlcə irəli sürülmüş şərtlər üzərində qurulsun. Rusiya xarici işlər naziri qacarlar sarayı tərəfindən yuxarıdakı təkliflərin irəli

sürülməsini isə məntiqsiz hesab edirdi. Onun yazdığına görə, Qacar qoşunları Rusiya qoşunları ilə bütün qarşılaşmalarında uduzduğu halda Qacar əyanlarının öz iradəsini Rusiyaya qəbul etdirməyə çalışmağa haqları çatmır. Rusiyanın xarici işlər nazirinə görə, şah dövləti Rusiyanın daxilində və xaricində baş verənlərdən düzgün nəticə çıxarmalı və Rusiyanın timsalında daha bir düşmən qazanmasına yol verməməli idi. Abbas Mirzənin hədələri ilə bağlı Rusiyanın xarici işlər naziri Rusiya imperatorunun mövqeyini qraf Qudoviçə çatdırdı. Rusiya sarayı qacarlar tərəfindən yenidən silaha əl atılacağı təqdirdə döyüşə girməyə icazə verirdi. Bunun üçün Rusiya qoşunları döyüş hazırlığı vəziyyətində olmalı idi. Eyni zamanda Qacar sarayına çatdırılmalı idi ki, Rusiya tərəfi təklif olunan şərtlər əsasında sülh müqaviləsinin imzalanmasına hazırdır (50).

Rusiya sarayının bu mövqeyi xarici işlər naziri Rumyantsevin sədr-əzəm Mirzə Şəfiyə göndərdiyi cavab məktubunda açıqlandı. Bir illik sülh bağlanması məsələsini Rusiya sarayı vaxtın uzadılması kimi qiymətləndirdi və ona görə də bu təklifə mənfi münasibət bildirdi. Sülh müqaviləsinin hazırlaşmasının şah sarayının Parisdəki elçisi Əsgər xana və Rusiyanın elçisi qraf Tolstoya tapşırılmasına da əks münasibət ifadə olundu. Rusiya xarici işlər naziri bəyan etdi ki, hazırda Fransa ilə yaxşı münasibətlər olsa da, Paris hadisələrin baş verdiyi bölgədən çox uzaqdır və müzakirələrin orada keçirilməsi çoxlu vaxt itkisinə səbəb ola bilər (51).

Rusiya sarayının mövqeyi qraf Qudoviçin göndərdiyi məktubla Abbas Mirzəyə də çatdırıldı. 1808-ci ilin sentyabrında yazmış olduğu məktubunda qraf Qudoviç Abbas Mirzəyə sonuncu dəfə irəli sürülmüş şərtlər əsasında danışıqları başlamaq təklifini elan etdi. Qraf Qudoviç irəli sürdüyü şərtlərin nəhayət ki, Qacar sarayı tərəfindən qəbul olunacağına və qoşunların istifadəsinə ehtiyac olmayacağına ümidini kəsməmişdi. Bu niyyətinə çatmaq üçün qraf Qudoviç general Qardanın da şah sarayına təsir imkanından bəhrələnməyə çalışırdı. Podpolkovnik baron Vredenin vasitəsilə göndərdiyi növbəti məktubunda qraf Qudoviç general Qardana çatdırırdı ki, o, dövləti tərəfindən səlahiyyətli şəxsdir və səlahiyyətli şəxs kimi general Qardana söz verir ki, o öz vədlərinə əməl etsə, rus qoşunları Qacar hüdudlarını aşmayacaqdır. Onun sözlərinə görə Rusiya ilə İran arasında sülh əldə edilsə, onda Rusiya qoşunları Osmanlı sərhədinə göndəriləcəkdir (52).

General Qardan yazışmalarında Rusiya qoşunlarının hücumu dayandırmaq barəsində verdiyi vədə toxunmuşdur. O yazırdı ki, Qudoviçin yazışmalarına əsasən mən, Rusiya qoşunlarının hücuma keçməyəcəyi barədə şah sarayına zəmanət vermişəm. Amma bu o halda

ola bilər ki, şah qoşunları ilkin olaraq döyüşə başlamasın və Fətəli şah da ölkənin cənubuna hərbi qüvvə çıxarmaq istəyən ingilislərə qarşı əməliyyata başlasın. Fətəli şah bu şərtə razı olub ingilislərə qarşı qoşun dəstəsi göndərdi. O eyni zamanda çox ümid edirdi ki, Fransada Rusiya və şah sarayı nümayəndələri arasında aparılan danışıqların gedişinə Fransa hökuməti müdaxilə edəcək və şah sarayını qane edəcək anlaşma şərtləri Rusiyaya qəbul etdiriləcəkdir (53).

Fars mənbələrinə əsasən, general Qardan şah sarayına göndərdiyi məktubunda bildirdi ki, Rusiyanın Fransa ilə sülh münasibətlərində olması üçün Fransa tərəfindən Gürcüstandan rus qoşunlarının çıxarılması məsələsi müzakirələrə çıxarılacaqdır. General Qardan eyni zamanda işğal olunmuş Azərbaycan xanlıqlarının boşaldılmasının da Fransa ilə Rusiya arasındakı müzakirələrinin mövzusu olacağına ümid edirdi. O, əminliklə şah sarayına bildirirdi ki, Cənubi Qafqazın boşaldılması əmri tezliklə Rusiya dövləti tərəfindən Qafqazdakı rus komandanına veriləcəkdir. Ona görə də general Qardan şah sarayına məsləhət bilirdi ki, cəbhə xəttinə əlavə qoşun göndərilməsinə ehtiyac yoxdur. Mənbə bildirir ki, general Qardan məktubdan əlavə şah sarayına öz əli ilə zəmanət də yazıb göndərdi. O bu zəmanətində Qudoviçin hücuma başlayacağı təqdirdə şah sarayı qarşısında şəxsən məsuliyyət daşımağa hazır olduğunu bildirirdi (54).

Şah sarayının istədiyi də əslində o idi ki, Rusiya qoşunları Cənubi Qafqazdan çıxsın. Bundan sonra müstəqilləşmək niyyətində olan Azərbaycan xanlarını hakimiyyət altına gətirmək elə də çətin olmazdı. Amma Abbas Mirzə Rusiyanın belə bir addım atacağına çox şübhə ilə yanaşırdı. Bu məsələdə onun mövqeyi ilə Fətəli şahın mövqeyi heç də uyğunluq təşkil etmirdi. Ona görə Abbas Mirzə təkid edirdi ki, general Qardanın vədləri şah sarayında tam bir arxayınçılıq yaratmamalıdır. Abbas Mirzə təklif edirdi ki, Qardanın söylədiklərinə səbirli yanaşmaqla bərabər, qoşunları toplayıb Azərbaycana gətirmək lazımdır. Əgər Rusiya tərəfi təklif olunan sülhə sədaqət göstərməsə, onda qoşunları dərhal döyüş meydanına çıxarmaq mümkün olardı (55).

İstər mənbələr, istərsə də tarixi araşdırmalar onu göstərir ki, Fransa hökuməti doğrudan da Rusiya ilə Cənubi Qafqazdakı vəziyyət barədə müzakirələrə başlamışdı. Görünür, Fətəli şah da bu xəbəri eşidib Cənubi Qafqaza artıq qoşun göndərilməsinə ehtiyac olmayacağını güman edirdi və ona görə də Abbas Mirzənin təklifi qəbul edilmədi. Mənbə məlumatlarına görə, şah sarayında da Rusiya ilə müharibə aparılması əleyhdarları var idi. Onların mövqeyi də şaha təsirsiz ötüşmədi. Mövcud olan məlumatlara görə, çoxlu sayda sərbaza, qoşun başçısına məzuniyyət

verildi və onlar öz evlərinə qayıtdılar. İddia olunur ki, qraf Qudoviç şah sarayının bu məsuliyyətsiz addımlarından xəbər tutdu və şah qoşunlarının döyüş hazırlığının olmamasından istifadə etməyi qərara aldı (56).

General Qardan da Fransa hökuməti üzvlərinə yazdığı məktublarında bildirirdi ki, Fətəli şah Fransanın vasitəçiliyi ilə Rusiyanın İranla sülh müqaviləsi imzalayacağına çox inanır. Məktublarında yazdıqlarına əsasən general Qardanın da bu qənaətdə olduğunu qəbul etmək olar. Lakin tezliklə məlum oldu ki, istər Fətəli şah, istərsə də general Qardan öz gümanlarında yanılırmışlar. Çünki qraf Qudoviç şah sarayına göndərdiyi məktubunda yuxarıda qeyd edildiyi kimi, Qacar sarayı ilə sülh bağlanması üçün yenidən əvvəlki təkliflərin qüvvədə olduğunu bəyan etdi.

General Qardan bu barədə 1808-ci il oktyabrın 3-də Fransa xarici işlər nazirinə göndərdiyi məktubunda yazırdı. Qardan bildirirdi ki, qraf Qudoviç öz məktubunu Təbrizə göndərmiş, Abbas Mirzə isə onu şah sarayına ünvanlamışdı. Buradan belə bir qənaətə gəlmək olar ki, Qudoviçin şah sarayına ünvanladığı məktub sentyabr ayının ortalarında yazıla bilərdi. Bu ölkə ilə Rusiya arasında aparılan müzakirələr son nəticədə İrəvan xanlığı istiqamətində döyüşlərin yenidən başlamasına rəvac verdi. Çünki, Napoleonun şah sarayını himayə etmək, İranda öz nüfuzunu möhkəmləndirmk cəhdi Rusiya imperatorunu heç də qane etmirdi. Ona görə Rusiyanın Fransadakı elçisi Cənubi Qafqazdan rus qoşunlarının çıxarılması təklifinə razılığını bildirmədi. Heç şübhəsiz ki, Rusiya Cənubi Qafqazı, Azərbaycan xanlıqlarını işğal etmək niyyətindən çəkinmək fikrində deyildi. Bölgədə hərbi təşəbbüs Rusiyanın əlində idi və şah qoşunları o potensiala malik deyildi ki, Rusiya hərbi qüvvələrinə qarşı müqavimət göstərə bilsin. Fransanın təzyiqləri isə yetərli deyildi ki, Rusiyanı Cənubi Qafqazın işğalı planından çəkindirsin.

Rusiya imperatorunun Cənubi Qafqazı işğal etmək niyyətindən dönmədiyini görəndə qraf Qudoviç sülh müzakirələrini başa çatmış hesab etdi və eyni tələblərlə şah sarayına məktub göndərdi. Həmin məktubda qraf Qudoviç tələb edirdi ki, hər iki tərəfdən səlahiyyətli şəxslər müəyyənləşdirilsin və onlar sülh anlaşmasını imzalasınlar. Əks təqdirdə, Qudoviç şah sarayı ilə aparılan sülh müzakirələrini dayandırılmış hesab etməli idi. Tələbinin təsir gücünə malik olması üçün o, qoşunları Pəmbəyə doğru hərəkət etdirdi .

Şah sarayının vəziri Qudoviçin məktubunun məzmunundan xəbər tutan kimi dərhal general Qardanla görüşdü və bildirdi ki, qraf Qudoviç Rusiyanın sərhədlərini Kür və Araz çaylarına qədər genişləndirməklə İrəvan və Eçmiədzini də ələ keçirmək istəyir. Mirzə Şəfi bir daha

Qardana xatırlatdı ki, Finkinşteyn anlaşmasına görə, Fransa İranın istiqlalını tanımışdır. Ona görə Mirzə Şəfi adı çəkilən anlaşmanın 3-cü və 4-cü maddələrinə əsasən Qardandan tələb etdi ki, Fransa tərəfindən Qudoviçin yanına elçi göndərilsin və bu elçi vasitəsilə rus komandanı fikrindən çəkindirilsin. General Qardan vəzirin dedikləri ilə razılaşdı və söz verdi ki, onun dedikləri Fransa hökumətinə çatdırılacaqdır (57).

Qraf Qudoviç eyni zamanda general Qardana da məktub göndərdi. Ona bildirdi ki, sülh anlaşması imzalanması şərtləri Rusiya tərəfindən axırıncı dəfə elan edilir. Bu şərtlər iki dövlət arasında sərhəd xəttinin Kür və Araz çaylarından keçməsindən ibarətdir. Qraf Qudoviç bildirirdi ki, Cənubi Qafqazın bir hissəsi imperator qılıncı gücünə ələ keçirilib, bir hissəsi də könüllü şəkildə Rusiyaya birləşib. Onun sözlərinə görə, bu vilayətlər heç özlərini İranın tərkib hissəsi də hesab etmirlər.

Rus qoşunlarının komandanı çəkinmədən bəyan edirdi ki, Rusiya dövləti öz əzəmətinə və nizəsinin gücünə görə öz sərhədini istədiyi yerdən müəyyənləşdirmək hüququna malikdir. O, hələ Pyotrun dövründə bütün Gilan vilayətinin rus qoşunları tərəfindən işğal edildiyini xatırladır və əlavə edirdi ki, indi Rusiya imperatoru daha insaflı hərəkət edir. Qraf Qudoviç qeyd edirdi ki, rus qoşunlarının işğalı altında olan ərazilərin boşaldılması tələbi artıq mənasızdır. Rus generalının fikrincə, düşdüyü şəraitdə şah sarayı gərək belə iddialar irəli sürməsin. Çünki belə iddialar qarşılıqlı dostluq münasibətlərinə xələl gətirir. O, bir qədər istehza ilə bildirirdi ki, belə iddiaları irəli sürmək üçün İran heç olmasa gərək Rusiya dövlətindən güclü olsun. General Qudoviç hətta şah sarayını qorxutmağa da çalışırdı. O yazırdı ki, ingilislər İranın cənubuna qoşun çıxarıb, bir neçə vilayətdə mərkəzi hakimiyyətə qarşı üsyanlar başlayıb. Bağdad paşası İranla düşmənçilik edir. Belə bir şəraitdə onun fikrincə, İranın Rusiya timsalında yeni düşmən qazanması vəziyyəti daha da mürəkkəbləşdirə bilər. Bir sözlə qraf Qudoviç şah sarayından tələb edirdi ki, vaxt itirmədən irəli sürdüyü şərtlərlə sülh anlaşmasını imzalasın və general Qardandan da xahiş olunurdu ki, o, da bu işdə yardımçı olsun (58).

Qraf Qudoviçin yazdığı məktub general Qardanı da təşvişə saldı. O, rus generalının belə gözlənilməz təcavüzkar addım atacağını ehtimal etmirdi və ona görə də onu bu addımdan çəkindirməyə çalışırdı. Məktubunda general Qardan Qudoviçə yazırdı ki, onun Fransanın vasitəçiliyi olmadan sülh bağlamaq haqqında şah sarayına təcili açıqladığı tələbinə Fransa səfirliyinin nümayəndəsi vasitəsilə şifahi şəkildə öz cavablarını göndərmişdir. General Qardan bildirirdi ki, əgər Fransa səfirliyinin nümayəndəsinin izahatları onu qane etməsə və

Qudoviçi öz qərarından döndərməsə, onda rus qoşunlarının komandanı bilməlidir ki, İran hazırda Fransa imperatorunun müttəfiqidir, Rusiya tərəfindən işğal olunmuş əraziləri Fransa İranın tərkib hissəsi sayır və İran sərhədlərinə hər hansı bir hücum Fransa dövlətinə qarşı hücum kimi qiymətləndiriləcəkdir. General Qardan qraf Qudoviçə məsləhət bilirdi ki, Fransa və Rusiya imperatorları arasında gedən müzakirələrin nəticəsini gözləsin, əks təqdirdə bütün məsuliyyət onun üzərinə düşəcəkdir. Onun sözlərinə görə, Qudoviçin hücuma başlamaq niyyəti Parisdə aparılan müzakirələri də çətin vəziyyətə sala bilər (59).

Qeyd etmək lazımdır ki, Qardanın bu məktubu 1808-ci il oktyabr ayının ortalarına yaxın rus qoşunlarının artıq İrəvan xanlığı üzərinə hücuma keçdiyi vaxt yazılmışdı və ona görə də onun ciddi bir təsirə malik olacağını gözləmək də düzgün deyildi. Qardanın məktubunu alan Fransa səfirliyinin katibi Lejar isə oktyabrın 17-də Tehrandan cəbhə xəttinə doğru hərəkətə başladı. Şah sarayının vəziri Mirzə Şəfi Lejar vasitəsilə Abbas Mirzəyə məktub göndərdi və ondan xahiş etdi ki, həm Lejarın missiyasının həyata keçirilməsinə köməklik göstərsin, həm də Qudoviç təklif olunan şərtlərə razı olduğu halda Lejara döyüşün dayandırılması barədə anlaşma imzalamaq səlahiyyəti verilsin. Abbas Mirzə Qudoviçin yazdığı məktubdan son dərəcə qəzəbləndi və ona cavab yazmadan döyüşlərə hazırlıq işlərinə başladı. General Qardan Mirzə Şəfiyə məsləhət gördü ki, Abbas Mirzə də Qudoviçə cavab məktubu göndərsin və heç olmasa ölkə daxilindəki hərbi-siyasi vəziyyətin Qudoviçin təsəvvür etdiyi kimi olmadığını onun nəzərinə çatdırsın.

Mirzə Şəfi Lejardan xahiş etdi ki, bu məsələ ilə bağlı Abbas Mirzə ilə söhbət etsin. Lejarla bərabər qraf Qudoviçin elçisi də Tehrandan geri qayıtmalı idi. Mirzə Şəfi onun vasitəsilə qraf Qudoviçə öz cavab məktubunu göndərdi. Mirzə Şəfi bu məktubunda bir qədər nəzakətli şəkildə Qudoviçi təcavüzkar addım atmaqdan çəkindirməyə çalışdı (60).

Rusiya qoşunları yeni təcavüzə başlamaq niyyətini bəyan edəndə şah sarayında artıq çoxları Fransanın ittifaqına və şah sarayına hər hansı vasitəçilik edəcəyinə inanmırdı. General Qardanın yazdığına görə, yalnız Fətəli şah, Abbas Mirzə və Mirzə Şəfi Fransanın kömək edəcəyinə ümidlərini itirməmişdilər. General Qardanın yazışmalarından görmək mümkündür ki, o da son anlara qədər Fransanın İranla ittifaqda olmasına, Rusiyanın Cənubi Qafqaz təcavüzünə qarşı çıxmasına tərəfdar qalmışdı.

Qraf Qudoviç təcavüzə başlamaq niyyətini açıqlayanda şah sarayının vəziri Mirzə Şəfi Fransanın xarici işlər nazirinə də məktub göndərdi. Mirzə Şəfinin yazdığına görə, şah sarayının elçisi Əsgər xan artıq 8 ay idi ki, Parisdə idi. Amma istər onun elçiliyindən, istərsə də general Qardan

vasitəsilə Fransa hökumətinə göndərilmiş çoxsaylı məktublardan bir nəticə yox idi. Mirzə Şəfi bilmək istəyirdi ki, şah sarayının təklifləri Fransa hökuməti tərəfindən necə dəyərləndirilir. Mirzə Şəfi qeyd edirdi ki, Fransa hökuməti ilə yazışmalar uzun vaxt tələb etdiyindən general Qardana şah sarayı tərəfindən zəmanət verilmişdir ki, Fransa dövlətindən müvafiq təlimat alınana qədər Rusiya qoşunlarına qarşı əməliyyata başlanmayacaqdır. Şah sarayının vəziri yazırdı ki, bundan sonra şah sarayının nüfuzlu əyanlarından biri olan Fətəli xan Nuru feldmarşal Qudoviçin düşərgəsinə göndərilib və Fətəli xan vasitəsilə Qudoviçin nəzərinə aşağıdakılar çatdırılıb: Fransa imperatoru Rusiya imperatorunun dostu olmaqla bərabər, İrana da rəğbətlə yanaşır. Buna görə şah sarayı özünün həyati mənafelərinin qorunmasını onun öhdəsinə buraxmışdır. Yaxşı olardı ki, Parisdə Fransa imperatorunun vasitəçiliyi ilə iki ölkə arasında sülh anlaşması imzalansın. Fransadan xəbər gələnə kimi sərhəd xəttində hər cür düşmənçilik hərəkətlərinə son qoyulsun. Mirzə Şəfi sonra əlavə edirdi ki, bunun əksinə olaraq bu gün Qudoviçdən məktub almışdır və orada bildirilmişdir ki, Rusiya dövləti Fransanın vəsatətini rədd etməklə sülh anlaşmasının imzalanmasını istəmir. Bu sözlərindən sonra Mirzə Şəfi Finkinşteyn anlaşmasının 2, 3, 4-cü maddələrini Fransa xarici işlər nazirinə xatırladıb Fransa dövlətinin həmin maddələrə uyğun olaraq şah sarayına kömək göstərilməsini xahiş etdi (61).

Lakin bu yazışmaların bir nəticəsi olmadı. Bir tərəfdən Rusiya Cənubi Qafqazı işğal etməkdə israrlı idi. Ona görə də şah sarayı ilə hər hansı sülh danışıqları aparılmasına meylli deyildi. Hətta şah sarayının Fransadakı səfiri Əsgər xan Fransanın vasitəçiliyi ilə Rusiyanın bu ölkədəki səfiri qraf Tolstoyla danışıqlara başlamağa cəhd göstərsə də, qraf Tolstoy çar sarayı tərəfindən bu barədə hər hansı tapşırıq almadığı üçün danışıqlar da baş tutmadı. Digər tərəfdən Fransa sarayı da konkret şəraitdə Rusiya ilə İran arasında vasitəçilik etməyi özü üçün dərdi-sər hesab edirdi. Ona görə Fransa Xarici İşlər Nazirliyi general Qardana tapşırdı ki, o özü Fransa dövləti üçün əlavə problem yaratmadan Rusiya ilə İranın mövqelərini bir-birinə yaxınlaşdırmağa cəhd etsin (62).

Başqa sözlə, Fransa Rusiyaya təzyiq göstərmək yolundan imtina etdi. Rusiyanı isə yalnız güclü təzyiq Cənubi Qafqazı işğal etməkdən çəkindirə bilərdi.

İrəvan xanlığı üzərinə hücum zamanı Abbas Mirzə və sədr-əzəm Mirzə Şəfi qraf Qudoviçə müraciət edərək döyüşlərin dayandırılmasını təklif etsələr də rus generalı yalnız şərtlərinin qəbul ediləcəyi təqdirdə döyüşləri dayandıra biləcəyini bəyan etdi. İrəvan xanlığı üzərinə hücuma başlamaqla qraf Qudoviç Arazdan şimalda qalan İrəvan və Naxçıvan

xanlıqlarını da işğal etməyə, Kür və Araz çayının Rusiya ilə Qacarlar dövləti arasında real sərhəd xəttinə çevirməyə çalışırdı. Qraf Qoduviç buna nail olmadı və ümumən, onun vaxtında vüsət alan sülh danışıqları heç bir nəticə vermədi. Başqa sözlə, Rusiyanın sərhəd xəttini Azərbaycan xanlıqları üzərində rəsmiləşdirmək ona qismət olmadı.

3. Quba və Bakı xanlıqlarının işğalı

1806-cı ildə Azərbaycan xanlıqları daxilində Rusiya işğalına qarşı müqavimət hərəkatının güclənməsi üçün əlverişli bir şərait mövcud idi. Bir tərəfdən yuxarıda qeyd edildiyi kimi, Rusiyanın bölgədəki işğalçılığının simvolu olan tam piyada generalı Sisianovun Bakı qalası ətrafında qətlə yetirilməsi rus qoşunları daxilində çaşqınlıq yaratmaqla Azərbaycan xanlıqlarında müqavimət hərəkatının genişlənməsinə təkan verdi. Digər tərəfdən isə bölgədəki Rusiya hərbi qüvvələrinin gücləndirilməsi üçün mərkəzdən yardım göndərilməsinin qeyri-mümkün olması işğala qarşı mübarizənin səmərəliliyinə müsbət zəmin yaradırdı. Yaranmış olan bu fürsət bəzi Azərbaycan xanlıqları arasında müqavimət hərəkatının genişlənməsinə təkan verdi. Lakin bu hərəkat ciddi bir nəticəyə yol açmadı. Çünki Azərbaycan xanlıqlarının ixtiyarında rus qoşun dəstələrinə müqavimət göstərə biləcək hazırlıqlı qüvvə yox idi. Azərbaycan xanlıqlarının yeganə seçimi yardım üçün Qacar dövlətinə müraciət etmək ola bilərdi. Burada da nəzərə almaq lazımdır ki, Qacar qoşunları da lazımi hazırlığa malik qüvvə deyildi. O biri tərəfdən də Qacar sarayı Azərbaycan xanlıqlarına hərbi yardıma ilk növbədə həmin xanlıqların nəzarət altına alınması imkanı kimi baxırdı. Ona görə Azərbaycan xanlıqları ilə Qacar sarayı arasında Rusiya işğalına qarşı səmərəli və etibarlı fəaliyyət birliyi alınmırdı. Bu da öz növbəsində Rusiyanın bölgədəki hökmranlığına əlavə imkanlar açırdı.

Belə bir şəraitdə də hər halda Şəki və Şamaxı xanlıqlarında Rusiya işğalına qarşı açıq etiraza cəhd göstərildi. Qazıqumıq hakimi Surxay xan da Şəki və Şamaxı xanlarına qoşuldu. Bu müqavimət cəhdləri barəsində Azərbaycan və farsdilli mənbələrdə yetərincə məlumat mövcud deyil. Bu hadisə barəsində daha çox rusdilli mənbələrin məlumatları əsasında mühakimə yürütmək mümkündür. Həmin mənbələrin məlumatlarına görə, Səlim xan, Mustafa xan və Surxay xan birlikdə rus qüvvələrinə qarşı çıxmağı qərarlaşdırdılar. Nəzərdə tutulubmuş ki, Azərbaycan xanlıqları ərazisindən rus qoşunları Car-Balakənə tərəf cəlb edilsin və sonra arxada qalan yolların bağlanması ilə rus qoşunlarına ağır zərbə vurulsun. Bununla da Azərbaycan xanlıqları ərazisindəki rus qüvvə-

lərinin müqaviməti qırılmalı idi. Planın həyata keçirilməsi üçün Surxay xan öz qüvvələrini gücləndirdi və belə bir şayiə də yayıldı ki, Surxay xan öz qüvvələrini möhkəmləndirdikdən sonra Şəki xanlığı üzərinə hücum edəcəkdir. Səlim xan da guya bu gözlənilən təhlükədən qorunmaq üçün rus qoşunları komandanlığına müraciət etdi. Şəki xanı ilə Sisianov arasında imzalanan müqaviləyə əsasən, Şəki xanlığı ərazisində 500 nəfərlik rus qoşun dəstəsi saxlanılmalı idi. Bu dəstənin komandiri polkovnik Karyagin Şəki xanının müraciəti əsasında Tiflisdə olan general Nesvetayevlə əlaqə saxladı və Surxay xanın başçılığı altında olan ləzgi dəstəsinin hücum təhlükəsinin aradan qaldırılması üçün xüsusi bir dəstə göndərilməsi haqqında məsələ qaldırdı. General-mayor Nesvetayev bu təkliflə razılaşmadı. Çünki xüsusi reyd dəstəsinin təşkili üçün Azərbaycan xanlıqları ərazisinə səpələnmiş bölmələri toplamaq lazım gəlirdi. Həmin bölmələrin toplanması Azərbaycan xanlıqları üzırində rus nəzarətinin zəifləməsinə səbəb ola bilərdi. Bundan başqa rus bölmələrinin olmadığı xanlıqlar Qacar qoşunlarının hücumuna məruz qala bilərdi. Ona görə general-mayor Nesvetayev ləzgi dəstələrinə qarşı müqavimət göstərilməsini Cənubi Qafqaza əlavə rus qoşun hissələrinin gəlməsinə qədər təxirə salmağı məsləhət bildi. Polkovnik Karyagin də məsələni məktub vasitəsilə Səlim xana çatdırdı (63).

Səlim xan bu cavaba etirazını bildirdi və yenidən polkovnik Karyaginə məktub göndərdi. Polkovnik Karyaginin kömək göstərilməməsi üçün Tiflisdən göstəriş alınması cavabı ilə razılaşmadı. Bildirdi ki, belə cavab verilməsi imzalanmış müqavilənin şərtlərinə ziddir. Səlim xan əlavə edirdi ki, Rusiya imperatorunun fərmanına əsasən, ona general-leytenant hərbi rütbəsi verilmişdir və Şəki xanlığına qarşı təhlükə mövcud olduğu halda onun ixtiyarı var ki, rus zabitlərindən soruşmadan rus qoşun dəstəsini götürüb təhlükəni aradan qaldırmağa çalışsın. Səlim xan narazılıqla bildirirdi ki, Gəncədəki rus zabitlərinin fəaliyyəti üçün Tiflisdəki komandanlığın göstərişinin alınması xeyli müddət uzana bilər. Bu müddətdə isə təhlükə reallaşa bilərdi. Səlim xan təəccüblə bəyan edirdi ki, əgər rus qoşunları lazım olan zaman kömək göstərə bilməyəcəksə, onda rus qoşun dəstəsinin saxlanması üçün ərzaq və pul verilməsinin nə əhəmiyyəti vardır? Səlim xan Rusiya təbəəliyinin qəbul edilməsi haqqında imzaladığı müqavilənin tələblərinə uyğun olaraq polkovnik Karyagindən tələb etdi ki, ya ona kömək göstərsin, ya da kömək göstərilməməsinin səbəbi barəsində ona sənəd təqdim etsin. Kömək göstərilməyəcəyi halda Səlim xan rus qoşun dəstəsinin xanlıq ərazisində saxlanmasına hər hansı bir lüzum da görmürdü. Polkovnik Karyagini fakt qarşısında qoyan Səlim xan bəyan edirdi ki, ruslardan

kömək almayacağı təqdirdə o, təhlükəsizliyinin təmin edilməsi üçün Surxay xana müraciət edəcəkdir. Səlim xan eyni zamanda kömək üçün Qacar sərkərdələrinə müraciət edilməsinin mümkünlüyünü də yazırdı (64).

Səlim xanın əsaslandırılmış tələbləri qarşısında polkovnik Karyagin yenidən rədd cavabı verməyə cürət etmədi. Buna görə də o, mayor Rebinderə tapşırıq verdi ki, dəstəsi ilə Səlim xan üçün təhlükənin mövcud olduğu məntəqəyə hərəkət etsin. Kür çayı üzərindəki keçidin qorunmasını isə polkovnik Karyagin Gəncədən göndərilmiş 100 nəfərlik dəstəyə həvalə etdi. Səlim xan bu xəbəri razılıqla qarşıladı və özü də ixtiyarında olan silahlılarla mayor Rebinderin qarşılanmasına çıxdı. Onun ixtiyarında olan atlıların sayının 3 min nəfər olduğu göstərilir. Rus mənbələrinin məlumatına görə, Səlim xan rus qoşun dəstəsinin tez bir zamanda Surxay xanın üzərinə hücumunu arzulayırdı. Bu məlumatlara görə, həmin günlərdə Abbas Mirzənin nümayəndəsinin Səlim xanın yanına gəlməsi rus zabitlərində Səlim xana qarşı şübhəni artırdı. Mayor Rebinderin dəstəsinin mürəkkəb vəziyyətə düşə biləcəyindən ehtiyatlanan polkovnik Karyagin onun köməyinə kiçik bir qüvvə göndərdi. Bu qüvvə 107 nəfər piyadadan, 10 nəfər kazakdan və 2 ədəd topdan ibarət idi. Ardınca polkovnik Karyagin Şəki istiqamətinə mayor Kotlyarevskinin rəhbərliyi altında başqa bir qrupu da göndərdi. Həmin qrupa Tiflis muşketyor alayının 55 nəfəri 17-ci yeger piyada alayının 62 nəfəri və 16 nəfər kazak daxil idi. Mayor Kotlyarevski qısa zaman ərzində Kür çayını adlayaraq mayor Rebinderin dəstəsi ilə birləşməli və onlar birlikdə Surxay xana qarşı döyüşə girməli idilər. Rus tarixi ədəbiyyatında olan təsvirə görə, Surxay xan dəstəsi Nuxaya yaxınlaşsa da, ruslarla döyüşə girməyə cəsarət etmədi və Dağıstana doğru geri çəkildi (65).

İstinad olunan rus mənbələrinə görə, mayor Kotlyarevski Surxay xanın ardınca Cara doğru irəliləmək və onu cəzalandırmaq istəyirdi. Bildirilir ki, ləzgilər onun yanına gələrək qoşun dəstəsi ilə Cara doğru irəliləməməsini istədilər, ona ödənc və girov verməklə niyyətindən döndərməyə müvəffəq oldular. Kotlyarevski də irəliyə doğru hərəkətini dayandıraraq may ayının 24-də Gəncəyə qayıtdı (66).

Faktlar göstərir ki, Surxay xanın dəstəsi elə də zəif deyildi. Çünki Surxay xanın dəstəsinin mövcudluğu rus qoşunları üçün müəyyən təhlükə törədirdi və bu təhlükənin qarşısının alınması üçün Rusiya qoşunları Qafqaz xəttinin müvəqqəti komandanı general-leytenant Qlazenap öz silahlı dəstə ilə Dağıstan istiqamətinə yola düşdü. General-feldmarşal İ.Qudoviç Georgiyevskiyə çatanda general Qlazenap dəstəsi

ilə Surxay xan təhlükəsinin aradan qaldırılması üçün artıq hərəkət başlamışdı. İ.Qudoviç onu geri qaytarmaq və komandanlığı bütünlüklə ondan təhvil almaq istəsə də, Rusiya imperatoru buna razı olmadı və Dağıstanda Rusiya işğalına qarşı mövcud olan təhlükənin aradan qaldırılmasını daha mühüm saydı.

General Qlazenap yalnız Surxay xanı Rusiya təbəəliyi altına gətirməklə kifayətlənmək istəmirdi. Surxay xana qarşı mübarizə uğurla nəticələnəcəyi halda rus qoşun dəstəsi Dərbəndə doğru irəliləməli və Xəzərboyu aparılan hərbi yürüş Bakının işğalı ilə başa çatmalı idi. General Qlazenap Bakı şəhərinin işğalını Rusiyanın Şamaxı və Qarabağdakı işğalının möhkəmləndirilməsi üçün vacib sayırdı və bu qənaəti o, Rusiya imperatoruna göndərdiyi məktubunda da açıqlayırdı (67). Rusiya sarayı bu fikirlə razılaşdı. Çünki Bakının işğalı Rusiyanın işğalçılığını möhkəmləndirməklə Xəzər dənizinə nəzarətinin gücləndirilməsi, Sisianovun qisasının alınması baxımından da ruslar üçün müəyyən əhəmiyyət kəsb edirdi.

Xəzərboyu ərazilərə yeni hərbi yürüşün başlanması üçün general-leytenant Qlazenap 10 ədəd topa malik 3 min nəfərlik dəstə hazırladı. Mövcud məlumatlara əsasən, general Qlazenap 1806-cı il aprel ayının sonlarında hərbi yürüşə başlaması qənaətinə gəlmək mümkündür. Dəstə həmin il may ayının əvvəllərində Terek çayını adladıqdan sonra yaxınlıqdakı məntəqələrdən birində düşərgə saldı. Rus tarixi ədəbiyyatında olan məlumata görə, Surxay xan dəstəsi ilə öz vilayətinə çəkildi və buna görə onunla döyüşə girmək zərurəti də aradan qalxdı (68).

General Qlazenap rus qoşun dəstəsinin bölgəyə gəlməsini Dağıstan hakimlərini və o cümlədən də Surxay xanı qorxudacağını və bununla da onun Rusiya işğalına qarşı müxalifətçiliyinin aradan qaldırılacağını güman edirdi. Qraf Qudoviç isə heç də belə hesab etmirdi və general Qlazenapdan tələb edirdi ki, Surxay xanın Rusiya təbəəliyinə daxil olmasına çalışsın. Onun fikrincə, Surxay xanın fəaliyyətinə əmin olmadan onu arxada qoyaraq Bakı üzərinə hücum təşkil etmək təhlükəli ola bilərdi (69).

İstər Dərbənd üzərinə hücum zamanı, istərsə də Bakı üzərinə hücum zamanı Qazıqumıq hakimi Surxay xanın Rusiya nəzarətindən kənarda qalması rus hərbi komandanlığının narahatçılığını artırmaqda idi. Qraf İ.Qudoviç onun Rusiya təbəəliyini qəbul etməsinə bir də 1806-cı ilin dekabr ayında nail ola bildi (70). Çox güman ki, Quba və Bakı xanlıqlarının işğalından sonra seçim yeri qalmadığını görən Surxay xan Rusiya təbəəliyini qəbul etmək məcburiyyəti ilə üzləşdi.

Hər halda Dağıstan ərazisində Rusiya işğalçılığına qarşı güclü müxalifətin baş qaldırmayacağına əmin olan general-leytenant Qlazenap Dərbənd istiqamətində yürüşünü davam etdirmək fürsəti əldə etdi. Həmin fürsətin həyata keçirilməsi üçün iyun ayının 2-də dəstəyə Dağıstandan adlamaqla hərəkət göstərişi verdi. Onun tapşırığına əsasən, quru ilə irəliləyən qüvvələri dənizdən hərbi gəmilər müşayiət etməli idi. Hərbi gəmilər Dərbəndə doğru irəliləməli və bu şəhər alındıqdan sonra Bakıya doğru hərəkətlərini davam etdirməli idilər. Məlumdur ki, rus qoşun dəstəsi xüsusi bir müqavimətə rast gəlmədən iyun ayının 21-də Dərbənd şəhərini ələ keçirdi. Rusların müqavimətsiz Dərbəndi işğal etmələrinin müəyyən səbəbləri vardır. Başlıca olaraq, Tərki şamxalı Mehdi xan öz qüvvələrini rusların ixtiyarına verdi və bununla rus qoşunları üçün güclü yerli dəstək yarandı. Mehdi xanın xanımı Pəricahan xanım Fətəli xanın qızı idi. Ona görə də Mehdi xan Dərbənd hakimliyinin irsən xanımına, əməli şəkildə isə onun özünə çatmalı olduğunu iddia edirdi. Bununla bağlı, Mehdi xan Dərbənd əhalisi arasında təbliğat aparmağa, şəhər daxilində Şeyxəli xana qarşı narazılığı qızışdırmağa çalışırdı (71).

Rus qoşunlarının yürüşü Tərki şamxalının iddiasının həyata keçməsi üçün münasib bir fürsət idi. Ona görə heç şübhə yoxdur ki, Mehdi xan Dərbəndin müdafiə imkanları haqqında lazım olan məlumatları da rus komandanlığına təqdim etdi.

Rus tarixçilərinin əsərlərində belə bir məqama toxunulmuşdur ki, Dərbənd əhalisi taxılın hələ toplanmadığı və bu taxılın rus qoşunları tərəfindən məhvinə yol verilməməsi üçün ruslara təslim olmaq qərarına gəldilər (72). Qeyd etmək lazımdır ki, bu məqam da Dərbəndin müqavimətsiz təhvil verilməsinə öz təsirini göstərə bilərdi. Çünki rus qoşunlarının soyğunçuluğu və talançılığı haqqında yerli əhalinin acı təcrübəsi var idi. Taxıl zəmilərinin məhv edilməsi yerli əhalini çox ciddi çətinlik və məhrumiyyətlərlə üzbəüz qoya bilərdi. Ola bilsin ki, bu məqam da rusların şəhərə yaxınlaşmasına daha loyal münasibət göstərilməsinə səbəb olmuşdu.

Rus qoşunlarının soyğunçuluğuna və talançılığına münasibət şəhər əhalisi daxilində parçalanma yaratdı. Şeyxəli xan Dərbəndin müdafiə olunması mövqeyində dayandı. Şəhər əhalisinin bir hissəsi isə ruslara göstərilən müqavimətin şəhər əhalisini talanlardan xilas etməyəcəyini bildirdi. Onların üstünlüyü Şeyxəli xanın şəhəri tərk etməsinə səbəb oldu. Şəhər əhalisinin təkidinə baxmayaraq, Şeyxəli xan ruslara təslim olmağa və Rusiya təbəəliyini qəbul etməyə razı olmadı. Güman etmək olar ki, Şeyxəli xanın müqavimət göstərmək üçün müəyyən imkanları var idi və həmin imkanların səfərbər edilməsi üçün də Dərbəndi tərk etdi.

Rus qoşunlarına müqavimət göstərilməsinə tərəfdar olmayan şəhər bəylərindən biri Əlipənah bəy rus qoşunlarının düşərgəsinə öz nümayəndələrini göndərdi və şəhərin müqavimətsiz təhvil veriləcəyi general-leytenant Qlazenapa çatdırıldı. General Qlazenap bu məlumatı alan kimi Dərbəndə doğru irəliləməyə cəsarət etmədi. O şəhərdə ruslara qarşı müqavimətin olmayacağına heç də inanmadı. Dərbənddə doğrudan da nələrin baş verdiyini müəyyənləşdirmək üçün 16-cı yeger alayının komandiri general-mayor Lixaçov ora yollanmağa hazır olduğunu bildirdi. Səhəri gün general Lixaçov 600 kazakla və bir ədəd topun müşayiəti ilə Dərbəndə yollandı və o, Dərbənd əhalisinin könüllü surətdə şəhəri təhvil verməyə hazır olmasına əminlik hasil etdi. O biri gün general-leytenant Qlazenap bütün qoşun dəstəsi ilə şəhərə gəldi və Dərbənd şəhəri rus qoşunlarının nəzarəti altına düşdü. Rus tarixçiləri rus qoşunlarının əsas dəstəsinin iyunun 23-də Dərbəndə daxil olduğunu yazırlar. Bildirilir ki, səhəri gün şəhər məscidində bütün şəhər əhalisinə Rusiya təbəəliyinə sədaqət haqqında and qəbul etdirildi (73).

Bəlli olduğu kimi, 1806-cı ilin yayında İbrahim xanın qətlindən sonra Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərinə yürüşü başladı, Şəki və Şamaxı xanıqları daxilində rus işğalına qarşı müqavimət hərəkatı formalaşdı. Azərbaycan xanlıqları daxilində hərbi-siyasi şəraitin dəyişməsi üzündən Dərbənddə dayanan rus qoşun dəstəsinin Bakı üzərinə hücumu da ləngiməli oldu. Bir də 1806-cı ilin avqustunda rus qoşunları komandanlığı Bakı üzərinə hücum üçün əlverişli şəraitin yetişməsi qənaətinə gəldi. Bakı üzərinə hücum hazırlığı ilə bağlı qraf Qudoviç general Qlazenapa göndərdiyi təlimatında Tərki şamxalının ixtiyarında olan silahlı qüvvənin də hücuma cəlb edilməsini lazım bilirdi. Qraf Qudoviçə görə, Tərki şamxalına vəd edilən Dərbənd xanlığı əvəzində o da öz köməyini ruslardan əsirgəməzdi. Bakı üzərinə yürüşün Rusiyanın marağında olan nəticə ilə başa çatdırılması üçün qraf Qudoviç general Qlazenapın sərəncamına Don alayını göndərdi. Bundan əlavə, general-mayor Barkovun rəhbərliyi altında olan hərbi gəmilər 15 ədəd topu yükləyərək Dərbəndə doğru hərəkət etməli və orada Sevastopol alayının bir taboru ilə 8 ədəd topu general Qlazenapın dəstəsinə çatdırmalı idi. General Barkov gəmiləri ilə sonra Bakıya doğru hərəkətini davam etdirərək piyada qüvvələrinin hücumunu müşayiət etməli idi. Bu qüvvələr Dərbəndə yetişəndən sonra general Qlazenap Sevastopol alayının taborunu və 8 ədəd topu, habelə kiçik kazak dəstəsini Dərbəndin mühafizəsində saxlamaqla Bakıya doğru hücuma başlamalı idi. Qraf Qudoviçin tapşırığına əsasən, əvvəlcə Rusiyaya qarşı müxalifətçiliyindən əl çəkməmiş Surxay xan zərərsizləşdiriləndən sonra Quba və Bakı fəth

edilməli idi. Tövsiyə edilirdi ki, Bakı şəhərinin də müqavimətsiz alınmasına cəhd göstərilsin. Bunun üçün bir tərəfdən Tərki şamxalı Bakı əhalisi arasında təbliğat işini genişləndirməli və onların Rusiya təbəəliyinə maraqlandırmalı, digər tərəfdən də Bakı buxtasına daxil olan hərbi gəmilər əhalidə qorxu və təlaş yaratmalı idi. Bakı ətrafında hərbi gəmilərin fəaliyyətinə xüsusi ehtiyac olmayacağı təqdirdə onlar Gilan sahillərinə göndərilməli və onların vasitəsilə Qacar qüvvələrinin bir hissəsinin diqqəti Gilana yayındırılmalı idi (74).



General-leytenant Qlazenap

General-leytenant Qlazenap Bakı üzərinə hücum hazırlığını başa çatdırmağa macal tapmamış dəstəyə rəhbərlikdən kənarlaşdırıldı. Onun yerinə general-leytenant Bulqakov təyin edildi. Qraf Qudoviç əvvəlcə general Bulqakovu Georgiyevskdə rus qoşunları Qafqaz xəttinin komandanı təyin etməklə özü Tiflisə yollanmaq və Gürcüstanın baş komandanı vəzifəsinin icrasına başlamaq istəyirdi. Amma general Qlazenapla onun arasında qarşılıqlı münasibətlər olmadığı üçün bütünlükdə onu kənarlaşdırmağı və onun bütün vəzifələrini general Bulqakova təhvil verməyi qərara aldı. Qraf Qudoviç general Qlazenapın fəaliyyətində müşahidə etdiyi nöqsanları onun özünə də açıqladı. Qraf Qudoviçin general Qlazenapdan narazılığı ilk növbədə onun öz fəaliyyəti haqqında qeyri-doğru məlumatlar təqdim etməsi ilə bağlı idi. Qraf Qudoviçin

yazdığına görə, general Qlazenap əvvəlki raportlarında qazıqumıqlı Surxay xanın, Şeyxəli xanın, Bakı əhalisinin Rusiyaya təslim olduğunu yazırdısa, sonradan məlum olurdu ki, bu heç də belə deyil. Surxay xan nəinki təslim olmağa hazırlaşmır, əksinə rusların işğal etdiyi kəndləri də öz nəzarəti altına alırdı. Bakı şəhəri üzərinə hücum üçün hazırlıq işləri heç də lazımi səviyyədə deyildi. Qraf Qudoviçə görə, belə hazırlığa malik olan dəstə Bakı ətrafına gəlib çatana kimi tamam əldən düşə bilər və həmin dəstə ilə Bakını almaq olmazdı. Qraf Qudoviç qoşun dəstəsi üçün ərzaq və yem ehtiyatlarının lazımi miqdarda hazırlanmamasında da general Qlazenapı günahlandırırdı. Onun sözlərinə görə, ərzaq ehtiyatı olmadan belə bir döyüşə yollanmaq da düz deyildi. General Qlazenap bu məsələ ilə maraqlanmadığı üçün onun icrasını qraf Qudoviş öz üzərinə götürməli olmuş və Həştərxandan Dərbəndə bir miqdar ərzaq göndərmişdi. Qafqaz xəttinin müdafiəsinin zəiflədilməsi, Qafqaz xəttində dayanan hərbçilərə maaş verilməməsi və s. məsələlərə görə də qraf Qudoviç general Qlazenapa öz narazılıqlarını bildirir və həmin səbəblərə görə onun general Bulqakovla əvəzləndiyini bəyan edirdi (75).

Qraf Qudoviç general Bulqakovun adı çəkilən vəzifəyə təyin edilməsi haqqında Rusiya imperatoru qarşısında vəsatət qaldırdı və həmin vəsatətə də müsbət cavab aldı. Qraf Qudoviç general Bulqakovdan tələb etdi ki, dərhal Dərbəndə yollansın və Bakı üzərinə hücuma hazırlaşan dəstəni general Qlazenapdan təhvil alsın. General Bulqakov avqust ayının 26-da Dərbəndə yetişdi və dəstəyə rəhbərliyi öz üzərinə götürdü. Həmin dəstədə 11 zabit və 2927 döyüşçü var idi. Bu dəstəni 10 ədəd top müşayiət edirdi (76).

General Bulqakovun dəstəsinin gücləndirilməsi üçün qraf Qudoviç Tiflisdə olan general Nesvetayevə tapşırıq verdi ki, Gürcüstan və Azərbaycan xanlıqları ərazisində olan qoşun qüvvələrindən xüsusi dəstə təşkil edilsin və Bakı istiqamətinə göndərilsin. General Nesvetayev isə qoşunların dağınıqlığını, Azərbaycan xanlıqlarına nəzarətin zəiflədilməsini düzgün saymayaraq qoşun göndərməkdən imtina etdi. Onun bu təkəbbürü də qraf Qudoviçin qəzəbinə səbəb oldu. Bakının işğalının qarşıda dayanan başlıca vəzifə olduğunu bildirərək qraf Qudoviç general Nesvetayevdən Bakının işğalı üçün qoşun dəstəsi göndərməsini tələb etdi (77).

Qraf Qudoviç eyni zamanda general Bulqakova hərbi donanmanın Bakının işğalı ilə bağlı fəaliyyətinin nizamlanmasını tapşırdı. Nəzərdə tutulmuşdu ki, Həştərxandan yola düşən hərbi gəmilər sentyabr ayının əvvəllərində Dərbəndə çatacaqlar. Hərbi gəmilər sonra hərəkət edərək Bakı buxtasında dayanmalı və yerli əhalini qorxutmalı idi. Qraf Qudoviç

əmin idi ki, Bakı şəhəri işğal olunacaqdır. Ona görə Bakı şəhərinin işğalından sonra qoşunların hansı tapşırıqlar yerinə yetirməli olduğunu qraf Qudoviç müəyyənləşdirmişdi. General Bulqakov Bakı şəhəri işğal olunandan sonra Sevastopol alayının bir taborunu, 200 nəfər kazakı və 8 ədəd topu orada saxlamalı idi. Sonra qalan qüvvə ilə general Bulqakov Şəki xanı Səlim xanın cəzalandırılmasına yollanmalı idi. General Nebolsinin rəhbərliyi altında olan dəstə də Şəki ərazisinə gəlməli və iki dəstə birləşərək Şəki xanına zərbə endirməli idi. General Bulqakov Şəki xanının müxalifətçiliyinin aradan qaldırılması üçün Şamaxı xanı Mustafa xanı da cəlb etməyə çalışmalı idi. Mustafa xan rus qoşunlarına kömək göstərəcəyi təqdirdə onun himayəsində olan Məhəmməd Həsən xanın Şəki xanı elan edilməsi vədi verilə bilərdi (78).

Həştərxandan hərəkət edən donanma sentyabr ayının 5-də Dərbəndə çatdı. General Bulqakov dərhal rəhbərliyi altında olan dəstə ilə Bakıya doğru hərəkətə başladı. Mövcud məlumatlara görə, Bulqakov dəstəsi ilə Bakıdan 90 verst aralıda düşərgə saldı və şəhərin döyüşsüz təhvil alınması üçün cəhd göstərdi. Bunun üçün şəhər əhalisinə müraciət yolladı, onları Rusiya təbəəliyini qəbul etməyə çağırdı. Bildirdi ki, əks təqdirdə rus silahının gücü ilə bütün Bakını lərzəyə gətirəcəkdir. Çox tezliklə general Bulqakov öz müraciətinə cavab aldı. General Bulqakova aydın oldu ki, şəhər əhalisi Hüseynqulu xana sədaqətlidir və şəhərin təslim edilib-edilməyəcəyi Hüseynqulu xanın iradəsindən asılıdır. General Bulqakova o da çatdırıldı ki, Hüseynqulu xanın təhlükəsizliyinə zəmanət verilərsə, o, şəhəri təhvil verə bilər (79). Görünür, Hüseynqulu xan şəhər əhalisinin müqavimət göstərmək əzmində olmasına baxmayaraq, vəziyyəti təhlil etmiş və başqa bir seçimin olmadığı qənaətinə gəlmişdi.

General Bulqakov cavab məktubu yazıb onu xan nümayəndəsi Kazım bəylə Hüseynqulu xana göndərdi. Rus generalı şəhərin təhvil veriləcəyi təqdirdə Hüseynqulu xana təhlükəsizliyini vəd etdi. Vədinin əsaslı olduğunu nümayiş etdirmək üçün general Bulqakov Borisqleb draqun alayında podpolkovnik rütbəsində xidmət edən oğlunu da Kazım bəylə birlikdə Bakı qalasına göndərdi. Bununla belə, Hüseynqulu xan və bir sıra şəhər ağaları şəhəri işğal edəcək rusların qanunsuz əməllərindən kənarda qalacaqlarına inanmadılar və şəhəri tərk etdilər. Hüseynqulu xanın şəhəri tərk etməsi isə müqavimət göstərə biləcək qüvvələri başsız qoydu. Ona görə, 1806-cı il oktyabr ayının 3-də şəhər əhalisi qala açarlarını şəhərə yaxınlaşan rus qoşunları rəhbərliyinə təhvil verdi. Bununla, Bakı şəhəri Rusiyanın işğalı altına düşdü (80).

Hüseynqulu xan Bakını tərk etdikdən sonra Şeyxəli xanın yanına getdi və bir müddət Quba xanlığı ərazisində yaşamalı oldu. Onun Şeyxəli xanın yanına getməsindən güman etmək olar ki, Hüseynqulu xan rus qoşunlarına qarşı müqavimət göstərilməsinin mümkün olacağını ehtimal edirdi və ona görə də Şeyxəli xanla birləşdi.

Sonrakı hadisələr göstərdi ki, Hüseynqulu xan və onun ətrafı şəhəri tərk etməkdə doğru addım atmışdılar. Rus qoşunlarının şəhəri nəzarət altına almasından sonra rus qoşunları mayoru Tarasovun Bakı əhalisinə müraciətindən də görmək mümkündür ki, Rusiya qoşunları rəhbərliyi Sisianovun qətlində ittihamlandırılan Hüseynqulu xanın cəzalandırılmasını başlıca vəzifə kimi qarşıya qoymuşdu. Mayor Tarasov etiraf edirdi ki, şəhər təslim edilməsəydi onun daşı daş üstündə qalmayacaqdı. Əslində, mayor Tarasov bu bəyanatı ilə şəhərdə qalan əhalini də qorxutdu və bildirdi ki, əhali Rusiya təbəəliyini qəbul etməyəcəyi halda məhv olmaqdan başqa seçimi yoxdur. Şəhər əhalisindən tələb olundu ki, hamılıqla Rusiyaya sədaqət andını qəbul etsinlər (81).

Oktyabr ayının 4-də əvvəlcə qala divarları üzərində Bakının işğalını bildirən rus bayrağı qaldırıldı. Bakı üzərində yürüşdə iştirak edən rus qoşunlarının paradı təşkil edildi. Sonra da rus generalları yerli əhaliyə Rusiyaya sədaqət andı qəbul etdirilməsi üçün Bakı kəndlərinə göndərildi. Bakı əhalisinə sədaqət andı qəbul etdirilməsində Gürcüstanın baş komandanı qraf Qudoviçin oğlu general-mayor Qudoviç də iştirak edirdi. Bakı şəhərinin idarəçiliyi Sevastopol muşketyor alayının rəhbəri general-mayor Quryevə tapşırıldı. General Quryevin yanına şəhər ağsaqqallarından üç nəfər nümayəndə verilmişdi. Şəhərin qorunması üçün isə Bakıda Sevastopol alayının qrenadyor taboru, bu taborun komplektləşdirilməsinə verilmiş Tiflis bölüyü, 296 nəfər kazak saxlanıldı. Bakı buxtasında isə "Qrim" gəmisi, 1 nömrəli freqat, "Volqa" briqi və 11 ədəd mülki nəqliyyat gəmiləri dayanmışdı. Qraf Qudoviçin fikrincə, Bakıya qarşı kənardan heç bir təhlükə yox idi. O daha çox şəhər əhalisindən ehtiyatlanırdı və ona görə göstəriş verdi ki, şəhər əhalisi tərksilah edilsin (82).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqar da öz əsərində Bakı şəhərinin işğal olunmasına müxtəsər şəkildə toxunmuşdur. O yazırdı ki, Qacar qoşunları Arazın cənubuna çəkiləndən sonra rus qoşunları Bakı üzərinə hücum etdilər. Mənbəyə görə, general Bulqakov Bakı xanı Hüseynqulu xanın Rusiya təbəəliyinə sövq edilməsinin çətin olacağını bilirdi və ona görə də təbliğat və xəyanət yolunu tutdu. Müəllifə görə, rus qoşun dəstəsində olan Gürcüstan ermənilər Bulqakov tərəfindən Bakı şəhərinə göndərildi. Həmin ermənilər Bakı ətrafında mövcud olan ermənilər şəhər

əhalisi daxilində Hüseynqulu xan əleyhinə təbliğata sövq etdilər. Mirzə Məhəmməd Sadıq Vəqayeneqar öz əsərində ermənіləri satqın və xəyanətkar kimi təsvir edir. Onun məlumatına görə, şəhər əhalisi arasında Hüseynqulu xana qarşı narazılıq baş verdi. Hüseynqulu xan da şəhər əhalisinin bir hissəsinin bu narazılığı qarşısında Bakını tərk etməli oldu. Müəllif daha sonra yazır ki, rus qoşunları şəhərə daxil olduqdan sonra Bakı əhalisi ciddi nəzarət altına alındı. Rusiya işğalı ilə barışmayanlar şəhərdən sürgün olundu və onların mal-mülkü isə rusların talanlarına məruz qaldı (83).

Hüseynqulu xan şəhəri tərk edəndən sonra Bakı xanlığına iddia edənlər də tapıldı. Bu, Bakı xanının qohumlarından olan Əbdülrəhim ağa idi. O, Bakı xanlığının işğalından dərhal sonra Rusiya sarayına müraciət etdi. Həmin müraciətində Əbdülrəhim ağa Bakı xanları nəslindən olduğunu çatdırmaqla bərabər, general Sisianovun Bakı üzərinə hücumunda iştirak etdiyini bildirdi. Rusiya meyliliyinə görə, Əbdülrəhim ağa sonradan Gizlərə qaçaraq orada yaşamaq məcburiyyətində qalmışdı. Məsələnin aydınlaşdırılmasını Rusiya Xarici İşlər Nazirliyi qraf Qudoviçə tapşırdı. Qraf Qudoviç birmənalı şəkildə Əbdülrəhim ağanın Bakı xanı təyin edilməsinin əleyhinə çıxdı və bütünlükdə Bakı xanlığının ləğv edilməsi haqqında vəsatət qaldırdı (84). Bakı xanının əmlakı isə müsadirə olundu.

Qraf Qudoviç də Bakı əhalisinə müraciət göndərdi. Onun müraciətində bildirilirdi ki, Bakı şəhəri bütün kəndləri ilə birlikdə Rusiya imperiyası üçün fəth edilmişdir. Bunun ardınca isə qraf Qudoviç bəyan edirdi ki, Rusiya imperiyasına sədaqət nümayiş etdirənlər himayə olunacaq, Rusiya ağalığına qarşı çıxanlar isə cəzalandırılacaqlar (85).

Bakı əhalisinin Rusiya təbəəliyinə meylliyi görüntüsü yaradılması məqsədilə general Bulqakov yerli ağalardan olan Məhəmməd bəy adlı birisini şəhərin işğalından bir neçə gün sonra Peterburqa göndərdi. Məhəmməd bəy orada rus qoşunlarının Bakı əhalisinə aman verməsinə görə Rusiya sarayına təşəkkürünü bildirməli və sonra da Bakı əhalisinin Rusiya təbəəliyinə qəbul edilməsini xahiş etməli idi (86).

Bakı xanlığının işğalı Azərbaycan xanlıqları üzərində Rusiya işğalının möhkəmləndirilməsi istiqamətində daha bir addım oldu. Bakının işğalı ilə Rusiya Cənubi Qafqazda və o cümlədən də Xəzər dənizi sahilindı kifayət qədər strateji əhəmiyyət kəsb edən məntəqəni ələ keçirdi. Bununla, dənizdən keçməklə Həştərxan-Bakı-Gəncə-Tiflis marşrutu açılmış oldu və bu marşrutla rus qoşunlarının təminat məsələlərini həll etmək olardı. Amma ruslar bununla da kifayətlənmədilər. Onlar üçün aydın idi ki, Həştərxandan Bakıya quru yolu da açmaq olar və

bunun üçün Quba xanlığı işğal altına gətirilməlidir. Quba xanlığının işğal edilməsi ilə həm də Bakıdan Həştərxana kimi olan Xəzərsahili ərazilər Rusiya işğalı altına düşə bilərdi. Həmin niyyətin həyata keçməsi üçün Şeyxıli xanın müqavimətini qırmaq lazım idi ki, bu da ruslardan ciddi səylər göstərilməsini tələb edirdi.

Bakı şəhərində rus idarəçiliyinin nizamlanmasından sonra Rusiya qoşunlarına Qubaya doğru irəliləmək tapşırığı verildi. Qoşun dəstəsi yenə də general-leytenant Bulqakovun rəhbərliyi altında fəaliyyət göstərməli idi. Quba üzərində hərbi yürüşü həyata keçirməli olan dəstənin tərkibində 98 nəfər zabit və 2072 nəfər döyüşçü var idi. Dəstəni 10 ədəd top müşayiət edirdi (87).

Rus generallarının yazışmalarından aydın olur ki, Quba şəhəri müqavimətsiz təslim oldu. Rus qoşunları şəhərə yaxınlaşanda Şeyxəli xan şəhəri tərk etdi və yaxınları ilə birlikdə Qubanın 7 verstliyində düşərgə saldı. Buradan o, general Bulqakova xəbər göndərdi ki, Rusiya təbəəliyini qəbul etməyə və Rusiyaya sədaqət andı qəbul etməyə hazırdır. Bir şərtlə ki, ondan general Bulqakovun yanına gəlməsi tələb olunmasın və Rusiyaya sədaqət andının qəbul edilməsi üçün onun yanına nümayəndə göndərilsin. General Bulqakov bu təkliflə razılaşdı və general-mayor Lixaçovu onun yanına göndərdi. Bildirilir ki, Şeyxəli xana sədaqət andı qəbul etdirildi. Eləcə də Quba əhalisi Rusiya taxt-tacına sədaqət andı qəbul etmək məcburiyyətində qaldı. Qraf Qudoviç bununla belə Şeyxəli xana etibar etməməyi tövsiyə edirdi. Rusiyaya sədaqət andı qəbul edəndən sonra Quba xanlığının bütünlüklə yenidən Şeyxəli xanın nəzarət altına verilməsi ilə qraf Qudoviç razı deyildi. O təkid edirdi ki, Dərbənd Tərki şamxalının idarəsi altında qalsın. Şeyxəli xan isə müvəqqəti olaraq Qubada saxlanmalı, sonra da bütünlükdə Qubadan uzaqlaşdırılmalı idi. Rusiya imperatoru da Şeyxəli xanı Quba xanı kimi təsdiqləməkdən imtina etdi. Rusiya sarayı qraf Qudoviçə məsləhət gördü ki, Quba xanı ilə bir razılaşma əldə edilsin və həmin razılaşmaya riayət edənə qədər Şeyxəli xan öz məqamında saxlanılsın. Öz vəzifəsini Rusiya maraqları çərçivəsində icra etməyəcəyi təqdirdə isə Şeyxəli xan məqamından məhrum edilməli idi (88).

Qraf Qudoviç 1806-cı il dekabr ayının 6-da Rusiya sarayına göndərdiyi məktubundan aydın olur ki, Şeyxəli xan o vaxta kimi Quba şəhərinə geri dönməmişdi və o, xanlıq məqamından da hələ məhrum edilməmişdi. Şeyxəli xan xanlıq kəndlərini gəzir və xanlıq əhalisi arasında Rusiya işğalına qarşı təbliğat aparırdı. Şeyxəli xanın Rusiyaya sədaqətli qalmaması rus generallarına bəlli idi. Ona görə qraf Qudoviç onun xanlıq məqamında saxlanmasına lüzum görmürdü. Qraf Qudoviç

hətta ona qarşı yürüş həyata keçirilməsinə göstəriş də verdi. General Bulqakov onu həbs etməli və sonradan Şeyxəli xan xanlıq ərazisindən sürgün edilməli idi. Qraf Qudoviç bildirirdi ki, rus qoşunlarının hücumu zamanı Şeyxəli xan könüllü olaraq təslim olsa, Rusiyaya qarşı çevrilmiş fəaliyyətinin düzgün olmadığını etiraf etsə, onda onu bağışlamaq və onunla razılaşma əldə etmək mümkündür (89).

Amma çox tezliklə məlum oldu ki, Şeyxəli xan Rusiya işğalı ilə barışmaq niyyətində deyil. Onun dönməzliyi və inadkarlığı qraf Qudoviçin sonsuz qəzəbinə səbəb oldu. General Bulqakova yazdığı məktubunda da o, Şeyxəli xanla bağlı gümanlarında yanılmadığını və Şeyxəli xanın ciddi şəkildə cəzalandırılması zəruriliyini qabartdı. Qraf Qudoviç bir tərəfdən Bakı xanı Hüseynqulu xanın Şeyxəli xanın yanında olmasından qəzəbləndi, bir tərəfdən də Şeyxəli xanın qəbul etdiyi Rusiyaya sədaqət andını saya salmamasından təşviş keçirirdi. Qraf Qudoviç eyni zamanda öz qəzəbini general Bulqakova çatdırırdı ki, Şeyxəli xanla bağlı onun ehtimallarını general Bulqakov ciddi qəbul etməmişdi. Qraf Qudoviçə bəlli idi ki, Şeyxəli xan Quba xanlığının kəndlərini gəzməklə Rusiya işğalı əleyhinə təbliğat aparır, Rusiya qoşunlarına müqavimət göstərmək istəməyənləri isə cəzalandırırdı. Bütün bunlarla qraf Qudoviç barışa bilmirdi və çıxış yolunu da Şeyxəli xanın həbs edilməsində görürdü (90).

Quba şəhərini ələ keçirəndən sonra general-leytenant Bulqakov tabeliyində olan qoşun dəstəsinin əsas hissəsi ilə şimala doğru hərəkətini davam etdirdi ki, qazıqumıxlı Surxay xanı bir dəfəlik Rusiya təbəəliyinə gətirsin. Həmin vəzifəni yerinə yetirəndən sonra general Bulqakov 1806-cı il dekabr ayının ortalarında Qubaya qayıtdı və qayıdan kimi də Şeyxəli xan üzərinə hücum etmək üçün qraf Qudoviçdən tapşırıq aldı. Şeyxəli xan üzərinə hücuma Dərbəndi idarə edən Tərki şamxalı, qazıqumıqlı Surxay xan, Şamaxı xanı və Şəki xanlığını müvəqqəti idarə edən general Nebolsin də köməklik göstərməli idilər. Güman edilirdi ki, böyük qoşun dəstəsinin bir neçə istiqamətdən Şeyxəli xan üzərinə hərəkət etməsi onun taleyini həll edə bilər. Şeyxəli xan ələ keçirildikdən sonra ruslar üçün etibarlı sayılan bir neçə yerli bəy Qubanı idarə etməli idi. Həmin bəylər rus zabitinin nəzarəti altında işləməli idilər. Qubanın təhlükəsizliyinə nail olmaq üçün isə Kazan alayının iki bölüyü və bir ədəd top orada saxlanmalı idi. Qubanın idarəçiliyinin tapşırıldığı rus zabiti Bakıda dayanan general-mayor Quryevin ümumi nəzarəti altında olmalı və Quba ərazisində toplanan vergilər də general Quryevin sərəncamına göndərilməli idi. Şeyxəli xanın ələ keçirilməsinin mümkün olmayacağı təqdirdə yerli əhalidən tələb edilməli idi ki, onunla bütün əlaqələr kəsilsin. Eyni

zamanda Qubanın nüfuzlu ağalarından iki nəfər girov götürülərək Bakıya göndərilməli idi (91).

General Bulqakov dəstəsi ilə Dağıstandan geri qayıdanda Quba əhalisinin və eləcə də yəhudi məhəlləsinin sakinlərinin böyük hissəsinin evlərini tərk etməsinin şahidi oldu. Rus generalı bu əhalinin Şeyxəli xan tərəfindən zorla evlərindən çıxarıldığını yazırdı. Amma ağır qış şəraitində Şeyxəli xan tərəfindən bu qədər əhalinin zorla dağlara sürüldüyü inandırıcı görünmür. General Bulqakov dərhal Şeyxəli xan üzərinə hücum edilməsi haqqında göstəriş verdi. Onun tapşırığına əsasən, general-leytenant Qlazenap dəstəsi ilə Şeyxəli xanın olduğu məntəqənin sağ tərəfindən, general-mayor Lixaçov da sol tərəfindən hərəkət etməli idi. Mayor Baqrationun rəhbərliyi altında olan kazak dəstəsi isə dağlardan Şeyxəli xanın yolunu kəsməli idi. Rus generalları tərəflər arasında silahlı qarşıdurma olması haqqında yazmırlar. Rus qoşun dəstəsinin yaxınlaşmasını görəndə Şeyxəli xan geri çəkilməli oldu. General Bulqakov Şeyxəli xanın ətrafında olan bəylərə xəbər göndərdi ki, artıq Şeyxəli xan öz məqamından kənarlaşdırılmışdır, onun yerinə şəhərə nayib təyin olunmuşdur. Ruslar Şeyxəli xanın ətrafındakı bəylərdən Şeyxəli xana tabe olmamağı və nüfuzlu bəylərin uşaqlarından 10 nəfər girov göndərməyi tələb etdilər. Əks təqdirdə həmin bəylər Rusiya imperatorundan heç bir mərhəmət görə bilməzdilər. Müraciət olunan bəylər Şeyxəli xanı tərk etdilər və çox tezliklə 10 nəfər girov general Bulqakovun ixtiyarına verildi. Bundan sonra Hacı bəy adlı birisi Quba nayibi təyin olundu və Qubanın idarəçiliyi ona tapşırıldı. General Bulqakov yeni təyin olunan nayibə göstəriş verdi ki, Şeyxəli xanın Quba kəndlərindən birində yaşamasına imkan verilsin və onun ərzaqla təminatı üçün köməklik göstərilsin. General Bulqakov bunu onunla əlaqələndirirdi ki, təmin olunmayacağı təqdirdə Şeyxəli xan hər şeyi silah gücünə əldə etməyə çalışacaqdı ki, bu da xanlıq ərazisində narahatlıqları genişləndirə bilərdi (92).

Şeyxəli xana qarşı yürüşdə iştirak etmək üçün qraf Qudoviçin çağırışı yalnız Tərki şamxalı və Dərbənd nayibi Əlipənah bəy tərəfindən qəbul olundu. Onların 200 nəfərlik atlı dəstəsi rus qoşun dəstəsinə qoşuldu. Şamaxı xanı Mustafa xan isə bu yürüşdə iştirak etmədi və bunu xanlıq üzərinə Qacar qoşunları tərəfindən gözlənilən hücumun qarşısının alınmasına hazır olmaq zərurəti ilə əlaqələndirdi (93).

Şeyxəli xanın yazışmalarında da onun rus qoşunlarına qarşı vuruşması haqqında məlumatlar vardır. Həmin vuruşmalar Qubanın təhvil verilməsindən sonra baş vermişdi. Dəqiq müəyyənləşdirmək çətin olsa da Şeyxəli xanın təsvir etdiyi döyüşlərin məhz yuxarıda haqqında

danışılan hərbi qarşıdurma olduğunu güman etmək olar. Şeyxəli xan Qubanın təhvil verilməsində daxili xəyanətin rolunu qeyd etməklə bildirir ki, 20 gün ərzində Dağıstandan 10 min nəfərlik dəstə toplandı və Quba yaxınlığında, Şabran mahalında düşərgə saldı. Şeyxəli xanın yazdığına görə, tərələr arasında baş verən silahlı qarşıdurma zamanı ruslar arasında itkilər baş verdi. Lakin qarşıdurmada üstün gəlmək mümkün olmadı. Şeyxəli xanın fikrincə, bu, ləzgi silahlılarının müəyyən hissəsinin ruslara satılması, lazımi maliyyə vəsaitinin olmadığından muzdlu qoşunun saxlanılmasının mümkün olmaması və havaların çox soyuq keçməsi ilə bağlı idi. Şeyxəli xan Qacar sədr-əzəmi Mirzə Şəfiyə göndərdiyi məktubunda bəyan edirdi ki, Quba və Dərbənd ətrafında yerli əhali arasında Rusiya işğalına qarşı ciddi narazılıq mövcuddur. Onun fikrincə, Qacar qoşunlarının köməyi ilə Rusiya qoşunlarına zərbə vurulması mümkün idi (94).

Quba nayibi təyin edilməzdən əvvəl Hacı bəy general Bulqakovun iştirakı ilə Rusiyaya sədaqət andı qəbul etdi. Hacı bəy Allaha, peyğəmbərə, islamın dörd xəlifəsinə və müqəddəs Qurana and içərək bildirdi ki, Rusiya imperatoruna, onun varislərinə sadiq qalacaq, onlara doğru-düzgün xidmət edəcək, son damla qanınadək onlara itaət edəcək, Rusiyanın maraqlarını qoruyacaq, Rusiyanın maraqlarına qarşı olan hadisələr haqqında vaxtında məlumat verəcək, onların aradan qaldırılmasına çalışacaq, ona tapşırılan sirləri qoruyacaq, yerlərdə təyin olunmuş rəislərin göstərişlərini yerinə yetirəcək, qəbul etdiyi andın şərtlərini pozmayacaqdır (95).

Qubanın idarəçiliyinin necə aparılması üçün general Bulqakov tərəfindən Hacı bəy üçün xüsusi bir təlimat da hazırlanmışdı. Təlimatda deyilirdi ki, Hacı bəy Qafqaz xəttində, Gürcüstanda və Dağıstanda olan bütün qoşunların baş komandanı qraf Qudoviçin iradəsi ilə Quba şəhərinin və vilayətinin nayibi seçilir, ona bütün kəndlərin idarə edilməsi tapşırılır. Fəaliyyəti zamanı Hacı bəy aşağıdakıları icra etməli idi:

1) Hacı bəy bütün Quba bəylərinə, ağalarına və əhalisinə elan etməli idi ki, onlar Rusiya imperatorunun təbəələridirlər və onlar qəbul etdikləri andın tələblərinə uyun fəaliyyət göstərməlidirlər, onlar Şeyxəli xanı Quba xanı kimi tanımamalı və onunla hər hansı təmasa malik olmalı deyildilər. Əks təqdirdə, belə addımları atan hər bir şəxs cəzalandırılmalı idi. Hacı bəyə tapşırılırdı ki, o da öz tərəfindən vəziyyəti nəzarət altında saxlamalı və Rusiya işğalına müxalif olan şəxsləri tutaraq Dərbənd xanının sərəncamına göndərməli idi;

2) Şəhər və kəndlərdə sakitlik təmin edilməli idi, ortaya çıxa biləcək mübahisəli məsələlər ədalətli həll edilməli, günahkar şəxslərə qarşı ciddi

cəzalar verməyə və ölüm hökmü müəyyənləşdirməyə Hacı bəyin ixtiyarı yox idi;

3) Quba bəyləri Rusiya imperatoruna sədaqətli qalacaqları, Rusiya imperiyasına müxalifətçilik nümayiş etdirməyəcəkləri təqdirdə onlar öz kəndlərinin idarəçiliyini əvvəlki kimi davam etdirə bilərdilər;

4) Quba şəhərinin və vilayətinin vergiləri Şeyxəli xanın dövründə olduğu kimi toplanmalı və sonra qraf Qudoviçin müəyyənləşdirdiyi qaydada həmin vergilər lazım olan yerə təhvil verilməli idi;

5) Qraf Qudoviçin bildirdiyinə görə, Şeyxəli xanın taleyi Rusiya imperatorunun iradəsi ilə müəyyənləşdirilməli idi. İmperatorun müvafiq sərəncamına kimi isə Şeyxəli xan Quba kəndlərindən birində yaşaya bilərdi. Hacı bəy onun ərzaq təminatına da yardım göstərməli idi. Lakin heç bir halda Şeyxəli xan Quba şəhərinə buraxılmamalı, habelə onun tərəfindən vergi toplanmasına yol verilməməli idi. Əhaliyə də elan edilməli idi ki, Şeyxəli xana vergi verilməsin;

6) Quba daxilində baş verən bütün hadisələr, toplanılan vergilərin miqdarı, xoşagəlməz hallar haqqında Hacı bəy dərhal rus qoşunlarının Bakıda və Dərbənddə olan rəhbərlərini məlumatlandırmalı və məktubla İ.Qudoviçə çatdırmalı idi;

7) Hacı bəy daim Rusiyaya sədaqət nümayiş etdirməli idi. Belə çalışacağı təqdirdə onun işinin Rusiya imperatoru tərəfindən mükafatlandırılması üçün qraf Qudoviç vasitəsilə vəsatət qaldırılması vəd edilirdi (96).

General Bulqakovun Hacı bəyi Quba nayibi təyin etməsi qərarı qraf Qudoviç tərəfindən də təsdiq edildi. Bununla bağlı o, 1807-ci il yanvar ayının əvvəllərində Hacı bəyə məktub göndərdi. Qraf Qudoviç öz məktubunda Hacı bəyə Rusiya imperatoruna sədaqətli qalmağı, Şeyxəli xana qarşı ciddi münasibət göstərməyi, vergiləri vaxtlı-vaxtında yığıb təhvil verməyi tapşırdı. Hacı bəy öz işini Bakı hakimi təyin edilmiş general Quryevin göstərişləri əsasında nizamlamalı və onun hər bir göstərişini yerinə yetirməli idi (97).

Amma gözlənilənlərin əksinə olaraq, Şeyxəli xan Rusiya işğalına qarşı mübarizəsini heç də dayandırmadı. O öz ətrafına yenidən dəstə topladı və Quba kəndlərindən Rusiya xeyrinə vergi toplanmasına imkan vermədi. Qazıqumıx hakimi Surxay xan da ona kömək göstərirdi. Şeyxəli xanın dəstəsində 300 nəfər silahlının olduğu bildirilirdi. Ruslar tərəfindən nayib təyin edilmiş Hacı bəy isə Şeyxəli xanın müxalifətçiliyinə qarşı çıxmağa cəsarət etmədi. Ümumiyyətlə, Rusiyanın maraqlarının qorunmasında fəallıq göstərməməsinə görə Hacı bəyin fəaliyyəti rus generalları tərəfindən heç də təqdir olunmurdu. Qraf Qudoviç 1807-ci ilin yanvar

ayının əvvəllərində Bakı hakimi general Quryevə yazdığı məktubunda ona zərurət yaranan vaxt qoşun dəstəsi ilə Şeyxəli xan üzərinə yürüş etmək tapşırığını verdi. Həmin tapşırığa istinad edərək general Quryev həmin ilin yanvar ayının 26-da bir tabor qüvvə ilə Şeyxəli xanın üzərinə hücum etmək üçün Qudoviç qarşısında məsələ qaldırdı. General Quryev məqsədini açıqlamadan bir taborluq qüvvə ilə Quba istiqamətində hərəkət etmək və Şeyxəli xanı həbs etmək istəyirdi. General Qudoviçin fikrincə, general Bulqakov qoşun dəstəsi ilə Georgiyevskə qayıdandan sonra əhali arasında rus qoşunlarının gücünə münasibət dəyişmişdi. Yeni qoşun dəstəsini Bakıdan Qubaya gəlməsi isə əhalidə rus qoşunlarının istənilən vaxt bölgəyə gələ biləcəyi haqqında təsəvvür yaradırdı. Başqa sözlə, əgər Şeyxəli xan ələ keçirilməsəydi belə, heç olmasa əhali arasında Rusiyaya münasibətin dəyişməsinin qarşısı alına bilərdi (98).

Bir neçə gündən sonra general Quryev bir daha qraf Qudoviçə müraciət etdi və Şeyxəli xanın fəaliyyətinin xeyli genişləndiyini onun diqqətinə çatdırdı. Onun ətrafındakı dəstənin sayı da artaraq 400 nəfərə çatmışdı. Qubanın idarəçiliyini öz üzərinə götürməli olan Hacı bəyin isə əhali arasında heç bir nüfuzu yox idi və Şeyxəli xana qarşı da hər hansı bir tədbir görə bilmirdi (99).

Şeyxəli xanın rəhbərliyi altında Quba kəndlərində Rusiya işğalına qarşı müqavimətin genişlənməsinə baxmayaraq, qraf Qudoviç Bakıdan ona qarşı xüsusi dəstə göndərilməsinə razı olmadı. Qraf Qudoviçin fikrincə, bu dəstənin göndərilməsinin vaxtı deyildi. Onu xüsusilə o narahat edirdi ki, general Bulqakovun bölgəni tərk etməsindən sonra yerli əhalinin rus qoşunlarına münasibəti xeyli dəyişmişdi. Ona görə də qraf Qudoviç ora əlavə qoşun yeridilməsinə hələlik lüzum görmədi. İ.Qudoviç onu da bildirdi ki, münasib vaxt çatanda Şeyxəli xanın tutulması üçün lazımi addımları atacaqdır. General Quryevə tapşırıq verildi ki, əhali arasında təbliğat işləri genişləndirilsin və əhalinin Şeyxəli xanla təmaslardan çəkindirilməsinə cəhd göstərilsin. Şeyxəli xanı tutub ruslara təhvil verənlərə isə mükafat vəd olundu (100).

Sonrakı faktlar göstərir ki, Şeyxəli xanın müqavimət hərəkatı rusların ciddi təşvişinə səbəb oldu. 1807-ci ilin martında general Quryev qraf Qudoviçə təşvişlə yazırdı ki, artıq ixtiyarında olan qüvvələrlə Şeyxəli xanın müqavimətini qırmaq mümkün deyildir. Ona görə general Quryev qraf Qudoviçə Şeyxəli xanla hələlik ehtiyatlı davranılmasını, ona zahiri nəvaziş göstərilməsini məsləhət bilirdi (101).

Qraf Qudoviç bu təkliflə razılaşdı. O da anlayırdı ki, Şeyxəli xanın böyük gücü vardır və ona görə onu zərərsizləşdirmək elə də asan deyil. İ.Qudoviç hətta Şeyxəli xanın xanlıq məqamına qaytarılmasının müm-

künlüyünü də bəyan edirdi. Müqavimətini qıra bilməyəcəyi halda müəyyən yollarla Şeyxəli xanın Rusiyaya tərəf meylləndirilməsi rus generallarının təşvişini aradan qaldıra bilərdi. Qudoviç bildirirdi ki, Şeyxəli xan onun yanına gəlib Rusiyaya sədaqət andı qəbul edərsə onda onun xanlıq məqamına təyinatı üçün Rusiya imperatoru qarşısında vəsatət qaldıra bilər (102).

1807-ci il ərzində rus qoşunları komandanlığı Şeyxəli xanın müqavimətinin qırılmasına müvəffəq olmadı. Qacar sarayı ilə danışıqların aparılması, Rusiya qoşun hissələrinin yeni qüvvələrlə möhkəmləndirilməmısi ola bilsin ki, Şeyxəli xana qarşı da ciddi tədbirlərin həyata keçirilməsinə mane olurdu. Amma Şeyxəli xanın da Rusiya işğalına qarşı mübarizə təcrübəsi böyük idi. Bu da sözsüz ki, onun daha çevik fəaliyyət göstərməsinə və ruslara qarşı daha səmərəli taktika seçməsinə imkan verirdi. Mövcud məlumatlardan aydın olur ki, 1808-ci ildə Şeyxəli xanın müqaviməti rusların təşviş və nigarançılığının əsas mənbəyi idi. Mənbələrdən o da aydın olur ki, 1808-ci ildə artıq Şamaxılı Mustafa xanın dəstələri də Şeyxəli xana qarşı mübarizə aparılmasına cəlb edilmişdi. Bu da o demək idi ki, rusların təklikdə öz qüvvələri ilə Şeyxəli xan qarşı cəbhə tutmaq imkanı yox idi.

1808-ci ilin payızında Mustafa xanın atlılarından ibarət dəstə Quba çayının sağ sahilində yerləşən Qudyal qalasından 2 verst aralıda mühafizə postuna təyin olunmuşdu. Oktyabr ayının 20-də Şeyxəli xan həmin mühafizə postuna hücum etdi. Şamaxı atlıları bu hücumun qarşısını ala bilməyərək geri çəkilməli oldu. Amma nədənsə Şeyxəli xan hücumu davam etdirmədən geri çəkildi. Şamaxı atlılarının qoşulmuş olduğu rus bölmələrinin rəhbəri polkovnik Tixanovski Mustafa xana müraciət edərək dəstənin tərkibinin 500 nəfərə çatdırılmasını xahiş etdi. Mustafa xan bu xahişi qəbul etdi. Bununla belə, Şeyxəli xanın təzyiqlərinin qarşısını almaq yenə mümkün olmadı. Çünki Şeyxəli xanın dəstəsi də günü-gündən genişlənməkdə idi. Şeyxəli xanın artan təzyiqlərinin qarşısının saxlanması üçün podpolkovnik Tixanovski onun üzərinə hücum etməyi qərara aldı. Bunun üçün rus qoşunlarının iki bölüyündən və Şamaxı xanının atlılarından ibarət bir dəstə təşkil etdi. Dəstəsinin sərəncamında bir ədəd top da var idi. Məhz elə həmin top Şeyxəli xanın dəstəsi ilə qarşıdurmanın taleyini həll etdi. Müəyyən müddət davam edən atışmadan sonra Şeyxəli xanın dəstəsi geri çəkilmək məcburiyyətində qaldı. Bu döyüş Qudyal qalasının ətrafında baş verdi. Şeyxəli xanın atlıları geri çəkilsələr də başqa bir istiqamətdən qala üzərinə hücuma keçdilər. Bu dəfə də rusların top atəşləri döyüşün

gedişinə ciddi təsir göstərdi və Şeyxəli xanın atlıları yenidən geri çəkilmək məcburiyyətində qaldılar (103).

Bununla belə, Şeyxəli xanın dəstəsi kifayət qədər güclü bir dəstə idi və Quba xanlığının böyük bir hissəsi onun nəzarəti altında idi. Şeyxəli xan hətta Quba-Bakı yolunun bir hissəsini də öz nəzarəti altına ala bilmişdi. Şeyxəli xanın yaratdığı təhlükənin aradan götürülməsi üçün rus zabitləri onunla danışıqlara getməyə belə razı oldular. Noyabr ayının 5-də Şeyxəli xanın etibarlı nümayəndələri olan İmamqulu bəy, Hacı bəy və Əli ağa Qudyal qalasının 2 verstliyində rus qoşunlarının nümayəndəsi olan mayor Pisemski ilə görüşdülər. Mayor Pisemski ilk növbədə bəyləri inandırmağa çalışmalı idi ki, onlar Şeyxəli xandan üz döndərib geri qayıtsınlar, Rusiya imperatoruna sədaqət andı qəbul etsinlər və bununla sakit həyata qatılsınlar. Eyni zamanda Şeyxəli xana təklif edildi ki, geri qayıtsın, sədaqət andı qəbul etsin, Quba ağalarından 10 nəfər girov verilsin. Şeyxəli xanın nümayəndələri isə bildirdilər ki, rusların irəli sürdüyü tələbləri qəbul etmirlər. Onlar qətiyyətli şəkildə tələb etdilər ki, ruslar qalanı tərk etməli və Şeyxəli xan da yenidən xan elan olunmalıdır. Əks təqdirdə onlar son damla qanlarına qədər vuruşacaqlarını bildirdilər. Podpolkovnik Tixonovski Şeyxəli xanın nümayəndələrinin inadkarlığını görəndən sonra yeganə çıxış yolunun hücum təşkil olunmasında gördü. Bunun üçün onun sərəncamında müəyyən qüvvə var idi. Yalnız Şamaxı atlılarının sayı 2000 nəfərə çatdırılmışdı. Mövcud rus qoşun bölmələrinin döyüşə cəlb edilməsi də Tixonovskinin fikrincə, Şeyxəli xanın üzərinə hücumun uğurunu təmin etməli idi (104).

1808-ci il noyabr ayının 24-də Dərbənddən Qubaya gələn 40 nəfərlik rus silahlısı yenidən Şeyxəli xanın silahlılarının hücumuna məruz qaldı. Rus dəstəsinin ixtiyarında bir ədəd top var idi. Topun döyüş vəziyyətinə gətirilməsi Şeyxəli xanın hücumunu müəyyən qədər səngidə bildi. Digər tərəfdən top və tüfəng atəşlərinin səsi Qudyal qalasında eşidiləndə döyüş rayonuna əlavə rus dəstəsi gətirildi. Köməyə göndərilən dəstəyə mayor Pisemski rəhbərlik edirdi. Onun ixtiyarına bir ədəd top verilmişdi. Pisemskinin dəstəsinə Şamaxı atlıları da qoşuldular. Həmin dəstənin döyüş məntəqəsinə yetişməsi Dərbənddən gələn dəstəni məhv olmaqdan xilas etdi. Şeyxəli xanın atlıları Quba şəhərinin ətrafında da xeyli güclü döyüş mövqeləri tutmuşdular. Ruslar öz təhlükəsizliklərinin təmin edilməsi üçün Şeyxəli xanın silahlılarının sıxışdırılmasına başladılar və çətinliklə də olsa buna nail ola bildilər. Şeyxəli xanın dəstəsi geri çəkildi və xan özü isə Qazıqumıxa Surxay xanın yanına yollandı (105).

Rus generallarının yazışmalarında noyabr ayının 24-25-də Şeyxəli xanın dəstəsi ilə baş verən döyüş geniş təsvir olunur və bu döyüş

Qubanın Şeyxəli xandan alınması kimi qiymətləndirilir. Bildirilir ki, Quba və onun ətrafı rusların nəzarəti altına düşdülər, Şeyxəli xan isə döyüşü uduzaraq dağlara çəkildi. Bir məlumata görə, Şeyxəli xan Tərki şamxalının yanına yollandı və rusların Qubadan sıxışdırılması üçün ondan kömək istədi. Rus mənbələrinə görə, Tərki şamxalının tabeliyində olan xalqların nümayəndələri müşavirə keçirərək Şeyxəli xanın ixtiyarına 10 minlik dəstə verilməsinə razı oldular. Sonrakı məlumatlar göstərir ki, Şeyxəli xan doğrudan da dağlı xalqlarından, bütün Akuşin xalqlarından aldığı yardımla yenidən Quba ətrafına gəldi, rus qoşunları ilə döyüşə girdi. Lakin o yenə rus qoşunlarının müqavimətini qıra bilmədi. Bununla belə, Şeyxəli xan yenə də geri çəkilmədi. O öz dəstəsi ilə Quba qalasını mühasirəyə aldı və Qubanın ələ keçirilməsi üçün 20 gün ərzində mayor Ryabınının taboru ilə mübarizə apardı. Vəziyyətinin pis olduğunu görəndə mayor Ryabının general Quryevə məlumat göndərdi və ondan kömək istədi. General Quryev də Şeyxəli xanın hücumunun qarşısının alınması üçün mayor Loqvinenkonun rəhbərliyi altında 2 bölükdən ibarət bir dəstəni Quba qalasına göndərdi. Şeyxəli xan bundan xəbər tutanda mayor Loqvinenkonu qabaqlamağı qərara aldı və dəstəsini Şabran qəzasına doğru hərəkət etdirdi. Burada mayor Loqvinenkonun dəstəsi ilə döyüş baş verdi. Bu döyüş bir neçə gün davam etdi. Mayor Loqvinenkonun dəstəsində ölən və yaralananların sayı 120 nəfərə çatdı. Quba qalasından mayor Ryabınının göndərdiyi bölmə bu dəstəni tamamilə məhv olmaqdan xilas edə bildi (106).

Fevral ayının 3-nə kimi Şeyxəli xanın dəstəsi ilə Quba qalasına sığınmış rus dəstəsi arasında atışma davam etdi. Fevral ayının 3-də general-mayor Quryev 500 nəfərlik bir dəstə ilə Qubaya gəldi və Şeyxəli xana barış təklif etdi (107). Bu barışığın hansı şərtlərlə əldə edilməsi isə mənbələrdə açıqlanmır.

Sonrakı məlumatların təhlili Şeyxəli xanla Rusiya qoşunları arasında hər hansı barışığın olmasını nümayiş etdirmir. Şeyxəli xanın Rusiya işğalına qarşı barışmaz mövqeyi Rusiya qoşunları komandanlığının əsaslı narahatçılığına səbəb olurdu və qraf Qudoviç Qafqazdan gedənə qədər Şeyxəli xanı tutduğu yoldan döndərmək mümkün olmadı.

4. Şəki xanlığında Rusiya işğalına qarşı qiyam

Səlim xan Şəki xanlığının Rusiyaya birləşdirilməsi haqqında müqavilə imzalamağa məcbur olsa da əslində, Rusiya asılılığı altına düşməyə razı deyildi. Fəaliyyətində Rusiyaya qarşı etimadsızlığı nümayiş

etdirən Şəki xanı rus qoşun dəstəsini özünə yaxın buraxmadığı kimi, imzaladığı müqavilə ilə üzərinə düşən öhdəliklərin icrasına da xüsusi bir ciddiliklə yanaşmırdı. Xüsusilə, xanlıq ərazisindəki rus qoşun dəstəsinin təchizat məsələləri ilə bağlı Səlim xanın mövqeyi rus qoşun dəstəsi komandanlığının narazılığı ilə müşayiət olunurdu.

Qarabağ xanı İbrahim xanın rus hərbçiləri tərəfindən vəhşicəsinə qətlə yetirilməsi Səlim xanın Rusiya işğalına qarşı barışmazlığını daha da kəskinləşdirdi. Qarabağda qətlə yetirilənlər arasında Səlim xanın bacısı da var idi ki, o, İbrahim xanın kəbinində idi. Ruslara qarşı müqavimətin gücləndirilməsi üçün Səlim xan qonşuları ilə bərabər, həm də yuxarıda qeyd edildiyi kimi, Abbas Mirzə ilə əlaqə yaratmışdı. Rus mənbələrində olan məlumatlara görə, 1806-cı ilin iyun ayında Abbas Mirzənin nümayəndələri Nuxaya gəlmişdilər. Həmin məlumata görə, Abbas Mirzə tərəfindən Nuxaya 300 nəfərlik bir dəstə ilə bərabər, Səlim xana da 30 min çervon pul göndərilmişdi. Şəki xanı bu vəsaitlə ləzgilər arasından muzdlular toplamalı idi (108).

Farsdilli mənbələr də Səlim xanla Abbas Mirzə arasında əlaqə olduğunu təsdiqləyirlər. Ə.Dünbəlinin yazdığına görə, Şəki xanı Abbas Mirzədən aldığı vəsaiti ləzgi hakimlərinə göndərdi və onların vasitəsilə ilə avarların, carlıların və talalıların dəstələrini yanına cəlb edə bildi. Müəllif onu da yazır ki, Səlim xan ətrafına topladığı qüvvələrlə "Gələsən-Görəsən" qalasında ruslara qarşı müqavimət göstərdi (109).

Mövcud məlumata görə, 1806-cı ilin yayında Şəki xanlığı ərazisində mayor Parfyonovun rəhbərliyi altında 284 nəfərlik rus qoşun dəstəsi yerləşmişdi. İxtiyarında 2 ədəd top olan bu dəstə Nuxa şəhərinin 20 verstliyində düşərgə salmışdı. Qarabağ xanı İbrahim xanın və onun ailəsinin qətlə yetirilməsi xəbərini alandan sonra, Səlim xan bu qətlin qisasını mayor Parfyonovun dəstəsindən çıxmağı qərarlaşdırdı. Bunun üçün Səlim xan öz nümayəndəsini mayor Parfyonovun yanına göndərdi və onu yanına dəvət etdi. Rus mayoruna belə bir xəbər çatdırıldı ki, Qacar qoşunlarının Şəki xanlığı üzərinə hücum xəbəri alınıb və həmin hücumun qarşısının alınması üçün Səlim xan rus dəstəsi ilə birlikdə fəaliyyət göstərmək istəyir. Bu zaman Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərinə hücumu doğrudan da başlamışdı. Görünür, bunun üçün aldığı xəbərin doğruluğuna şübhə etməyən mayor Parfyonov 15 nəfərlik mühafizə dəstəsi ilə Səlim xanın düşərgəsinə yollandı. Nuxa şəhərindən 7 verstlik məsafədə olan xan qüvvələri düşərgəsində mayor Parfyonov və onun mühafizə dəstəsi tərksilah edildi və onlar həbs edilərək Nuxa qalasına göndərildilər. Rusların ehtimalının əksinə olaraq, mayor Parfyonov qətlə yetirilmədi və o, tezliklə azad edildi. Xan məmurları

tərəfindən ona xəbərdarlıq edildi ki, geri qayıdan kimi öz dəstəsi ilə Şəki xanlığı ərazisini tərk etsin (110).

Sabahı gün isə Səlim xan öz nümayəndəsini mayor Parfyonovun yanına göndərdi və polkovnik Karyaginə yazdığı məktub ona təqdim edildi. Bu məktubda Səlim xan ruslara olan münasibətini polkovnik Karyaginə çatdırdı və ruslara arxalanmağın mənasız olmasını dilə gətirdi. Başlıcası isə, İbrahim xanın ailəsinə qarşı törədilmiş vəhşiliyin doğurduğu hiddət bu məktubda öz əksini tapdı. Səlim xan məktubunda yazırdı: " Sizə məlumdur ki, mərhum İbrahim xan və mən bizə ayıb olsa da dindaşımız olan hökmdardan qoparaq Rusiya təbəəliyinə daxil olduq və öz malikanələrimizi ruslara verdik. Biz bunu ona görə etdik ki, lazım olan vaxt onlar bizə kömək versinlər və biz də sakitlik içində yaşayaq. Rusların bizə ilk köməyi o oldu ki, güclü düşmən mənim malikanəmə gələndə, onlar bizə heç bir kömək verə bilmədilər. İkincisi, İbrahim xana minnətdarlıq əvəzinə siz ona bədbəxtlik gətirdiniz, mayor Lisaneviç yaramaz davranışı ilə onu sıxışdırdı və İbrahim xan yalnız iki ay dindaşı olan hökmdarla danışıqlar apardı. Bununla belə, qala hələ də rusların əlində idi və o da onlara hörmət və qayğı göstərirdi. Bax, sizin adətiniz belədir, siz mənim bacımı və onunla birlikdə digərlərini öldürdünüz. Sizin bu vəhşiliyinizdən sonra mən sizə inana və qoşunlarınızı saxlaya bilərəmmi? Mənim təbəələrim belə əməllərdən qəzəblənərək məndən xəbərsiz bütün rus qoşunlarını qırmaq istəyirdilər. Bir yerə toplaşaraq mayoru tutdular, bir neçəsini öldürdülər, onların bütün atlarını sürüb gətirdilər. Mən bununla razılaşmadım, Bakı xanı Hüseynqulu xan kimi qəddarlıq etmədim, rus qoşunlarını bura mən gətirdiyim üçün onlara qarşı sizin kimi qəddarlıq törətmədim, mayoru və digərlərini azad etdim, atlarınızı geri qaytardım. İndi siz bu vilayətdən öz qoşunlarınızı çəkməlisiniz. Əgər bunu etməsəniz sizə pis olacaq. Çünki xalq onlara qarşı üsyan edib və onlar burada olmamalıdırlar " (111).

Səlim xanın sözlərinə görə, rusların qəlbində kin-küdurət olmasaydı Şuşa qalasında olan mayor Lisaneviç Qarabağ xanını sakitləşdirər və ya da düşmən qüvvələri gələnə kimi, onu qalada saxlamağa çalışardı. İbrahim xana qarşı əl atılmış vəhşilikdən sonra Səlim xan ruslara etibar edilməsinin mümkünsüzlüyünü yazırdı. Məktubunun sonunda Səlim xan polkovnik Karyagindən bir daha rus qoşun dəstəsinin Şəki xanlığı ərazisindən çıxarılmasını tələb etdi. Sözsüz ki, Səlim xan rus qoşun dəstəsinin asanlıqla geri çəkilməyəcəyini anlayırdı. Ona görə xanlığın silahlı dəstələri rus düşərgəsi ətrafına göndərildi və bununla rusların nəzərinə çatdırıldı ki, o öz tələbində ciddidir. Səlim xan qüvvələrinin təzyiqi və qorxusu ilə qarşılaşmış olan mayor Parfyonov döyüşə girməyə

risq etməyərək geri çəkildi və xanlıq ərazisini tərk edərək Gəncəyə doğru istiqamət götürdü. Bununla Səlim xan xanlıq ərazisinin rus qoşunlarından təmizlənməsinə nail oldu və xanlığın müstəqilliyini yenidən bərpa etdi. Rus zabitləri ilə təmaslarında Səlim xan bəyan etdi ki, Rusiya təbəəliyinə sədaqətini o zaman nümayiş etdirər ki, İbrahim xanı qətlə yetirmiş Lisaneviçə qarşı təhqiqat aparılsın və ona layiqli cəza verilsin. Əks təqdirdə, Səlim xan ruslara qarşı barışmaz mövqedə dayanacağını bildirdi (112).

Şəki xanlığının Rusiya işğalından çıxması və Səlim xanın özünü müstəqil elan etməsi heç şübhəsiz ki, Rusiyanın işğalçılıq planları ilə səsləşmirdi. Bu hadisənin baş verməsi digər Azərbaycan xanlıqlarında da Rusiya işğalına qarşı müqaviməti gücləndirə bilərdi. Ona görə, 1806-cı ilin payızında qraf Qudoviç Şəki xanlığını yenidən Rusiya işğalı altına gətirmək üçün ora qoşun dəstəsi göndərməyi qərara aldı. Bu zaman rus qoşunları Dağıstandan keçməklə Bakıya qədər yürüş etmiş və Dağıstan ərazisindən Rusiya işğalına qarşı ehtimal edilən təhlükə müəyyən qədər aradan qaldırılmışdı. Digər tərəfdən havaların soyumaqda olması Qacar qoşunlarının Arazın şimalına yürüş etmək ehtimalını azaldırdı. Bu da general Qudoviçə imkan verirdi ki, Cənubi Qafqaza səpələnmiş rus qüvvələrindən xüsusi bir dəstə təşkil edərək Şəki xanlığına göndərsin. Şəki xanlığı üzərinə yürüş general-mayor Nebolsinin rəhbərlik etdiyi dəstəyə tapşırıldı. Bölgədə rus maraqlarının daha yaxşı təmin edilməsi üçün general Qudoviç başqa bir qoşun dəstəsini də knyaz Orbelianinin rəhbərliyi altında Car-Balakən istiqamətinə göndərdi. Həmin dəstə Car-Balakəndən Gürcüstan üzərinə tez-tez təkrarlanan ləzgi yürüşlərinin qarşısını almağa çalışmalı idi. Knyaz Orbeliani ona həvalə edilmiş tapşırığı yerinə yetirəndən sonra dəstəsi ilə general Nebolsinin dəstəsinə yardım göstərməli idi. General Nebolsin isə Rusiya işğalından çıxmağa cəsarət etmiş Səlim xanı cəzalandırmalı və Şəki xanlığını yenidən Rusiya işğalı altına gətirməli idi. Yürüş zamanı Səlim xanın xanlıqdan uzaqlaşdırılması da istisna edilmirdi.

Gəncə yaxınlığında dayanmış olan general Nebolsin dəstəsi ilə oktyabr ayının ortalarında Şəki xanlığına yetişdi. Onun dəstəsinə Troitski alayının, Tiflis alayının və kazak alayının hərbçiləri daxil idi. Dəstənin tərkibində bütünlükdə 28 zabit və 886 döyüşçü var idi. General Nebolsinin ixtiyarında 5 ədəd top da verilmişdi (113).

Farsdilli mənbələrdə Səlim xanın "Gələsən-Görəsən" qalasına sığındığı və döyüş zamanı bu qalanın imkanlarından yararlanmağa çalışması barədə müəyyən məlumatlar vardır (114). Bu mənbələrdə də rus qoşun dəstəsinə general Nebolsinin rəhbərlik etməsi təsdiq olunur.

General Nebolsin dəstəsi ilə ilkin olaraq Nuxa yaxınlığında düşərgə saldı. Rus qoşun dəstəsinin Nuxaya doğru irəliləməsi Səlim xanın silahlı dəstələrinin müşahidəsi alında baş verirdi. Rus qoşun dəstəsinin ətrafında Səlim xanın silahlılarının olması ruslar tərəfindən də müşahidə edilmişdi. General Nebolsin qarşısına qoyulan tapşırığın icrasına dinc yolla nail olmağa çalışırdı. Bunun üçün o, Səlim xana xəbər göndərdi, onu Rusiya təbəəliyinə çağırmaqla girov verməsini də tələb etdi. Səlim xan isə rus generalının təkliflərini rədd etdi. Belə olanda, general Nebolsin dəstəsi ilə Nuxaya doğru hərəkətə başladı. Qışlaq kəndində yerləşən yerli silahlıların müqavimətini qırandan sonra rus qoşun dəstəsi 1806-cı ilin oktyabrın 22-də Nuxanın 2 verstliyinə qədər irəlilədi. Burada ruslar Səlim xanın güclü müqaviməti ilə qarşılaşdılar. Rus tarixçilərinin məlumatına görə, yerli silahlıların sayı 8 min nəfərə çatırdı. Bildirilir ki, tərəflər arasında döyüş səhərdən başlayaraq axşama kimi davam etdi. Rus tarixçilərinin məlumatına görə, həmin gün Səlim xanın dəstəsi geri çəkilmək məcburiyyətində qaldı. Sonrakı gün isə general Nebolsin hücumla Nuxa şəhərini aldı (115).

Rus qoşun dəstəsi Nuxa üzərinə yürüşə başlayanda şəhər əhalisi təcavüzdən qorunmaq üçün dağlara, o cümlədən "Gələsən-Görəsən" qalasına çəkilmişdilər. Səlim xan geri çəkiləndən sonra rus zabitləri əhalinin geri qaytarılması üçün çox çalışmalı oldular. Görünür, dağlara çəkilən əhali öz təhlükəsizliyi üçün zəmanət aldıqdan sonra hissə-hissə geri qayıtmağa başladılar. Oktyabr ayının 24-də yerli əhalinin 200 nəfərlik dəstəsi öz evlərinə qayıtdı. Oktyabr ayının axırına kimi isə bütün əhali öz ev-eşiklərinə geri döndülər (116).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqarın yazdığına görə isə qarşılaşmanın ilk günü qüvvə və təchizat üstünlüyünə baxmayaraq, general Nebolsin Səlim xanın dəstəsinin qarşısından geri çəkilməli və Nuxadan uzaqda düşərgə salmalı oldu. Növbəti gün Səlim xana üstün gəlmək üçün rus generalı tədbirlər tökməli oldu və müəllifin yazdığına görə, bu zaman o, "sərgərdan və dövlətsiz" ermənilərdən istifadə etməyi qərara aldı. Məlumata görə, guya rus generalının təhrik etdiyi ermənilər yerli əhali arasında Səlim xana qarşı təbliğat aparırdılar və əhalinin müəyyən hissəsini onlar Səlim xana qarşı qaldıra bildilər. Nəticədə, Səlim xan ruslara qarşı mübarizədə davam gətirə bilmədi və məğlub olaraq ailəsi ilə birlikdə Təbrizə yollandı (117).

"Məəssər-e Soltaniyyə" və "Nasex-ət təvarix. Tarix-e Qacariyyə" əsərlərində də Nuxa ətrafında Səlim xanın dəstəsi ilə general Nebolsin arasında baş verən döyüş haqqında oxşar məlumatlar mövcuddur. Bu məlumatlara görə, Səlim xan rus qoşun dəstəsi ilə qarşılaşmaq üçün

müəyyən hazırlıqları gördü, Car və Taladan əlavə qoşun dəstəsi topladı, "Gələsən-Görəsən" qalasını möhkəmlətdi. Bildirilir ki, tərəflər arasında iki dəfə döyüş baş verdi. Səlim xan xanlığı Rusiya işğalından qorumaq üçün ciddi müqavimət göstərdi. Ə.Dünbəli yazırdı ki, Səlim xan rusların müqavimətini qırmaq üçün "mərdanə cəhdlər etdi ", düşmən qarşısında dağ kimi dayandı. Müəllifin sözlərinə görə, Səlim xanın muzdla tutduğu ləzgilər rus toplarının atəşi qarşısında duruş gətirə bilmədilər və onların geri çəkilməsi ilə Səlim xan da geri çəkilmək məcburiyyətində qaldı (118).

Farsdilli mənbələr general Nebolsinin dəstəsi ilə döyüşdə geri çəkilməli olan Səlim xanın Ərdəbildən keçməklə Təbrizə yollandığını və sonradan Abbas Mirzənin iradəsinə əsasən, ailəsi ilə birlikdə Ərdəbildə məskunlaşdığını yazırlar (119).

Rusdilli mənbələrdən aydın olur ki, Səlim xan ruslarla döyüşdən sonra bir müddət Şəki xanlığı ərazisində qaldı. General Nebolsin 1806-cı il oktyabrın 28-də yazırdı ki, Səlim xanın Göynük və ya Gəldək kəndlərində olması haqqında məlumat almışdır. Rus generalı Səlim xanı ailəsi ilə birlikdə tutmağa çalışacağını bildirirdi (120).

Səlim xanın Göynük kəndində olduğunu dəqiqləşdirəndən sonra general Nebolsin onun yanına öz yavərini yolladı və Səlim xanı ailəsi ilə birlikdə Nuxaya dəvət etdi. Səlim xanın ailə üzvlərindən başqa, ona yaxın olan adamlar, rus işğalı ilə barışmayan bəylər də Göynük kəndinə toplaşmışdılar. Səlim xan general Nebolsinin tələbini qəbul etmədi və Nuxaya qayıtmadı. O, Gəldək kəndinə köçməyə icazə verilməsini istədi. Oktyabrın 30-da Səlim xan general Nebolsinin yanına öz nümayəndəsini göndərdi və xahiş etdi ki, bu nümayəndənin Tiflisə yollanmasına kömək etsin. General Nebolsin Səlim xana onun nümayəndəsinin deyil, özünün Tiflisə yollanmasını təklif etdi. Bu yolla rus generalı Səlim xanı Şəki xanlığından uzaqlaşdırmaq istəyirdi. O ehtiyat edirdi ki, Səlim xan yenidən ətrafına dəstə toplayaraq Şəki xanlığının Rusiya tərəfindən işğalına qarşı mübarizəsini davam etdirə bilər. General Nebolsin Səlim xanın Tiflisə yollanacağı təqdirdə ona mühafizəçilər verməyə də hazır olduğunu bildirirdi (121).

Rus generalının yazışmalarından belə bir qənaətə gəlmək olar ki, Səlim xan Rusiya sarayı ilə təmas quraraq bağışlanmasının xahiş etmək istəyirdi. Qraf Qudoviç isə onun bağışlanması və yenidən öz məqamına qayıtması ilə razı deyildi. Bunu o, general Nebolsinə göndərdiyi məktubunda da açıqlayırdı. Qraf Qudoviç general Nebolsindən tələb edirdi ki, Səlim xana bağışlanacağı haqda heç bir vəd verilməsin. O hər vasitə ilə Səlim xanın və onun ailəsinin həbsini vacib bilirdi. Bunun

mümkün olmayacağı təqdirdə qraf Qudoviç Səlim xanın Şəki xanlığı ərazisindən qovulmasını zəruri sayırdı. Qraf Qudoviç Səlim xanın Tiflisə göndərilməsini də mümkün sayırdı. Qraf Qudoviç onun Tiflisə səfərini xanlıq ərazisindən uzaqlaşdırılması kimi qəbul edirdi. Ona görə o, general Nebolsinə tapşırdı ki, Səlim xan Tiflisə gəlməyi qəbul etsə, ona güclü mühafizə dəstəsi təyin etsin və bununla Səlim xanın səfər zamanı rusların nəzarətindən yayınmasına imkan verilməsin (122).

Amma Səlim xan Tiflisə getməyin bir nəticə verməyəcəyi qənaətində idi və bir müddət sonra Şəki xanlığı ərazisini tərk etdi. Rus tarixçilərinin yazdığına görə, Səlim xan Şəki xanlığını tərk edəndən sonra bir müddət Şamaxı xanı Mustafa xanın yanında qaldı. Sonradan ruslar Mustafa xandan onun tutulub təhvil verilməsini tələb etdilər. Səlim xan yəqin ki, ruslar tərəfindən Şamaxıda da rahat buraxılmayacağını bilirdi. Ona görə də ruslar bu tələbi ortaya qoyanda Səlim xan artıq Şamaxını da tərk etmişdi (123).

Şəki xanlığı ərazisində rus işğalına qarşı həyəcanların aradan qaldırılması üçün general Nebolsin bir müddət orada saxlanıldı. Ona tapşırıldı ki, xanlığın idarə edilməsi işlərini də təşkil etsin. General Nebolsin Şəki ağaları içərisində Rusiya işğalı ilə barışan şəxsləri seçməklə, xanlığın idarəsini onlara tapşırmalı idi. Yerli əhalinin əhval-ruhiyyəsini və istəklərini nəzərə almaqla general Nebolsin Şəki xanlığının idarə edilməsini Səlim xanın kiçik qardaşı Fətəli bəylə Məhəmməd bəy adlı birisinə tapşırdı. Bu şəxslərin hər ikisinin Səlim xanla ədavəti olduğu bildirilir və güman edilirdi ki, onlar Səlim xandan fərqli olaraq Rusiyaya itaət nümayiş etdirəcəklər (124).

Qraf Qudoviç Şəki xanlığının idarəçiliyinin iki nəfərə tapşırılmasından razı qalsa da, Səlim xanın qardaşının bu işə cəlb edilməsini müsbət qarşılamadı. Qraf Qudoviç bir tərəfdən xanlığın idarəçiliyinə əlavə 2 nəfərin cəlb edilməsini və 4 nəfərdən ibarət bir şura yaradılmasını, digər tərəfdən də Fətəli bəyin müəyyən bəhanə ilə həmin şuradan uzaqlaşdırılmasını təklif etdi. O, Səlim xanın nəslinin bütünlüklə xanlıq imtiyazlarından məhrum edildiyini və buna görə də Fətəli bəyin də xanlığın idarəçiliyindən uzaqlaşdırılmalı olduğunu bəyan edirdi (125).

Qraf Qudoviç nəinki Fətəli bəyə, ümumiyyətlə Şəki ağalarına da etibar etmirdi və onların da Səlim xan kimi nə vaxtsa rus işğalına qarşı mövqe tutacaqlarından ehtiyat edirdi. Ona görə də qraf Qudoviç Şəki xanlığını Rusiyaya sədaqətli bir şəxs kimi Tiflisdə yaşayan keçmiş Xoy xanı Cəfərqulu xana təklif etdi. Bu təklif Cəfərqulu xana 1806-cı il noyabr ayının əvvəllərində çatdırıldı. Cəfərqulu xandan müsbət cavab alınması və onun xanlığa təsdiqlənməsi təxminən bir ay vaxt apardı.

Cəfərqulu xanın cavabının uzanması isə qraf Qudoviçdə müəyyən nigarançılıq yaratdı. Şəki xanlığının Rusiyaya itaət nümayiş etdirməsi qraf Qudoviç üçün müəyyən əhəmiyyət kəsb edirdi. Çünki Şəki xanlığında Rusiya mövqeyinin möhkəmləndirilməsi ilə Dağıstan istiqamətindən Gürcüstan üzərinə həyata keçirilən talançı yürüşlərin qarşısını almaq mümkün olardı.

Qudoviçin yazışmalarından məlum olur ki, Şəki üzərinə qoşun dəstəsi göndərilməsindən əvvəl Cəfərqulu xanın Rusiyaya sədaqətli bir şəxs kimi Şəki xanı təyin edilməsini istəyirdi. Onun bu təklifə cavab verməyəcəyi isə heç də Qudoviçin ürəyincə deyildi. Ona görə Rusiya Xarici İşlər Nazirliyinə yazdığı məktubunda da Cəfərqulu xanın bu təklifi qəbul etməyəcəyi halda Şəki xanlığının idarəçiliyi ilə bağlı məsləhət istədi. Rusiya Xarici İşlər Nazirliyindən isə bildirildi ki, Cəfərqulu xan Şəki xanlığından imtina edərsə, onda qraf Qudoviç öz seçimi ilə sədaqətinə arxayın olduğu bir nəfəri Şəki xanı təyin edə bilər. Eyni zamanda Rusiya Xarici İşlər Nazirliyi Şəki xanı məqamına hakimiyyətdən məhrum olmuş və Rusiya təbəəliyində olan keçmiş xanlardan birinin gətirilməsini məsləhət bildi (126).

Şəki xanlığının idarəçiliyinə müvəqqəti rəhbərlik edən Səlim xanın qardaşı Fətəli bəy də Şəki xanı olmaq niyyətində idi. Fətəli bəy qraf Qudoviçə göndərdiyi məktubunda da buna işarə etdi. Qraf Qudoviç isə nəinki Fətəli bəyin xan təyin edilməsinə, hətta Şəki xanlığının müvəqqəti idarəçiliyində iştirak etməsinə də razı deyildi. Ona görə də 1806-cı il noyabr ayının sonlarına yaxın qraf Qudoviç general Nebolsindən bir daha tələb etdi ki, Fətəli bəyi xanlığın idarəçilik şurasından uzaqlaşdırsın. Bunun mümkün olmayacağı təqdirdə qraf Qudoviç tələb edirdi ki, hansısa bir bəhanə ilə Fətəli bəyi onun yanına göndərsin (127).

Fətəli bəyin qraf Qudoviçin yanına göndərilib-göndərilmədiyini söyləmək çətindir. Lakin qısa müddətdən sonra Cəfərqulu xanın Şəki xanı olmasına razılığı alındı və 1806-cı il dekabr ayının əvvəllərində Cəfərqulu xan Rusiya sarayı tərəfindən Şəki xanı məqamına təsdiq edildi. Onun bu təyinatı haqqında 1806-cı il dekabrın 10-da çar fərmanı imzalandı. Elə həmin tarixdə çar fərmanı ilə Cəfərqulu xana general-leytenant rütbəsi verildi (128).

Qraf Qudoviç Cəfərqulu xanın razılığını sevinclə qarşıladı və dərhal onu yanına çağırtdıraraq onunla Şəki xanlığının Rusiyaya birləşdirilməsi haqqında yeni bir traktat imzaladı. Bu traktat Səlim xanın 1805-ci ildə imzaladığı müqavilənin oxşarı idi və yalnız 6-cı maddəyə bəzi dəyişikliklər edilmişdi. Əvvəlki müqavilənin mətnindəki Səlim xan sözü Cəfərqulu xan sözü ilə əvəzlənmişdi. Yeni traktata əsasən, Şəki

xanlığının əhalisi Rusiya imperiyasının təbəələri sayılır, Cəfərqulu xanın və onun ailəsinin irsi olaraq Şəki xanlığına hüquqları tanınırdı, xanlığın idarəçiliyi Cəfərqulu xana tapşırılırdı. Cəfərqulu xanın ailəsinin və malikanələrinin qorunması üçün Nuxa və ya onun ətrafında lazım olan miqdarda rus qoşun dəstəsi yerləşdirilməli idi. Zərurət yarandığı vaxt isə Rusiya qoşunlarının Qafqazdakı baş komandanının əmri ilə Şəki xanlığında rus qoşunlarının sayı artırıla bilərdi. Müqavilənin 6-cı maddəsinin mətni dəyişdirilmişdi. Bu maddədə Cəfərqulu xanın Rusiya imperiyası qarşısında öz üzərinə götürdüyü öhdəliklər əks olunmuşdu. Cəfərqulu xan öz üzərinə aşağıdakı öhdəlikləri götürürdü: 1) Gəncədən ərzaq gətirilməsi çətin olduğu üçün Cəfərqulu xan xanlığın ərazisində yerləşən rus qoşun dəstəsini ərzaq və yeməklə təmin etməli idi. Bunun üçün qoşun bölməsinə bir çetvert un, hər bir hərbçiyə bir çervondan çox olmayan maliyyə vəsaiti, qarşılıqlı şəkildə razılaşdırılmış qiymətlər əsasında rus hərbçilərinin sayına uyğun olaraq yarma və buğda ayrılmalı idi; 2) rus qoşun dəstəsi Nuxada və ya onun ətrafında münasib mənzillərdə yerləşdirilməli və odunla təmin edilməli idi; 3) rus qoşun dəstəsinin təchizatı elə aparılmalı idi ki, bu dəstənin ən azı 2-3 aylıq ehtiyatı olmalı idi; 4) müqaviləyə əlavə olunmuş yeni tələbə görə, Cəfərqulu xan ləzgi dəstələrinin xanlıq ərazisindən keçərək Gürcüstan ərazisinə soxulmasının qarşısını almağa çalışmalı idi. Bildirilirdi ki, ləzgilər artıq fəth edilmiş və onlar itaət altına gətirilmişdir. Bununla belə, ehtimal edilirdi ki, ləzgilər öz əhdini poza və itaətdən çıxa bilərdilər. Belə olan halda Şəki xanı ləzgilərin yürüşlərinin və onların Gürcüstana girməsinin qarşısını almalı idi. Şəki xanı eyni zamanda ləzgilərin niyyətindən əvvəlcə xəbər tutmağa çalışmalı, öz ixtiyarında olan silahlı dəstə ilə ləzgi yürüşlərinin qarşısını almağı bacarmadıqda xanlıq ərazisində olan rus qoşun dəstəsindən yardım almalı idi. Baş verən hadisə ilə bağlı Rusiya qoşunlarının baş komandanı da məlumatlandırılmalı idi. Bundan başqa Şəki xanı Şamaxı xanı Mustafa xanla və Rusiya təbəəliyini qəbul etmiş digər xanlarla əlaqədə olmalı və onların birgə səyi ilə ləzgi yürüşlərinin qarşısını almalı idi; 5) Şəki xanı eyni zamanda Rusiya təbəəliyini qəbul etmiş Azərbaycan xanlarının Rusiya imperiyasına qarşı müxalif münasibətini hiss etdikdə, bu barədə dərhal Rusiya qoşunlarının baş komandanına məlumat verməli idi. Müqavilədə qeyd edilmişdi ki, belə bir halın baş verəcəyi inandırıcı deyil. Buna baxmayaraq Cəfərqulu xanın üzərinə belə bir öhdəlik qoyulmuşdu. 1806-cı il dekabr ayının 31-də imzalanan müqaviləyə əsasən, Cəfərqulu xan girov kimi öz oğlanlarından birini də Tiflisə göndərməli idi (129).

Cəfərqulu xanın Şəki xanı təyin edilməsi Şəki ağaları və bəyləri tərəfindən ciddi narazılıqla qarşılandı. Onlar general Nebolsinlə əlaqə saxladılar və Cəfərqulu xanın Şəki xanı olması ilə bağlı öz etirazlarını ona çatdırdılar. Təklif olunurdu ki, Şəki ağaları və bəyləri arasından bir nəfər Şəki xanı seçilsin və Cəfərqulu xan Şəkiyə buraxılmasın. General Nebolsin də Şəki ağalarının təklifini və narazılığını qraf Qudoviçə çatdırdı. Qraf Qudoviç bu narazılıqları və irəli sürülən təklifi qəbul etmədi və general Nebolsin vasitəsilə Şəki əhalisinə öz hədələrini göndərdi. Qraf Qudoviç Şəki ağalarını Səlim xanla əlbir olmaqda, Rusiya taxt-tacına sədaqətli olmağa verdikləri vədi pozmaqda, Səlim xana qarşı göndərilən rus qoşun dəstəsinə qarşı silah qaldırmaqda və bir neçə rus hərbçisini də qətlə yetirməkdə günahlandırdı. Baş komandanın fikrincə, Rusiya təbəəliyinə xəyanət etmiş bu Şəki ağaları əslində ciddi cəzalandırılmalı idilər. Lakin onlara mərhəmət göstərildi və günahları bağışlandı. Qraf Qudoviç Şəki ağalarını rus silahı ilə fəth edilmiş insanlar hesab edir və onların dinməz-söyləməz Rusiya taxt-tacına itaət etməli olduqlarına və onların özlərinə xan seçmək hüququnun artıq qalmadığını bildirirdi. Qraf Qudoviç tələb edirdi ki, Şəki ağaları Rusiya imperatoru tərəfindən təsdiq edilmiş Cəfərqulu xanın xanlığını qəbul etsinlər. Əks təqdirdə, Şəki xanlarını ciddi cəzalar gözləyə bilərdi. Qraf Qudoviç Şəki ağalarının baş vermiş təyinata etiraz olaraq başqa xanlıqların ərazisinə qaçmasını da mümkünsüz sayırdı və bildirirdi ki, artıq digər xanlıqlara xəbər verilmişdir və digər xanlıqlar ərazisində müşahidə edilən Şəki ağaları dərhal tutularaq geri göndəriləcəklər. Yeni Şəki xanına etiraz əlaməti olaraq xanlıq ərazisini tərk edənləri də ciddi cəzalar gözləməli idi (130).

Qraf Qudoviçin general Nebolsinə göndərdiyi məktubunun məzmunundan anlamaq mümkündür ki, Şəki bəylərinin və ağalarının ciddi narazılıqlarına səbəb Cəfərqulu xanın kənardan gətirilməsi deyil, daha çox onun fərqli məzhəbə mənsub olması idi. Qraf Qudoviç Şəki ağalarının bu narazılığını qəbul etmədi və bəyan etdi ki, Cəfərqulu xan fərqli məzhəbə mənsub olsa da, xanlıq ərazisində məzhəb azadlığı saxlanılacaqdır. Şəki ağalarının Cəfərqulu xanın xanlığına müxalifətinin israrlı olacağı halda qraf Qudoviç onların tərksilah edilməsini tələb etdi. Şəki əhalisinin müqavimətinə rəhbərlik edən şəxslərin isə həbs edilməsini irəli sürdü. Baş komandan Şəki əhalisinin Cəfərqulu xanın Şəkiyə gəlişinə mane ola biləcəyini də ehtimal edirdi. Buna görə də o, general Nebolsinə tapşırdı ki, Cəfərqulu xanın qarşılanmasına və müşayiət edilməsinə bir bölük silahlı göndərsin. General Nebolsin həm də Cəfərqulu xana hər tərəfli kömək göstərməklə onun nüfuzunun

möhkəmləndirilməsinə çalışmalı idi. Qraf Qudoviç eyni zamanda Şəki bəylərinə, ruhanilərinə və ağalarına müraciət hazırladı, onu azəri türkcəsinə tərcümə etdirərək yayılması üçün general Nebolsinə göndərdi (131).

Qraf Qudoviç öz müraciətində yalnız Şəki bəylərini və ağalarını Rusiyanın general-leytenantı olan Cəfərqulu xana tabe olmağa çağırmaqla kifayətlənmədi. O eyni zamanda Şəki ağalarının Səlim xanla birlikdə Rusiya işğalına qarşı çıxmalarını xatırladaraq onları hədələməkdən də çəkinmədi. Qraf Qudoviç hirs və hikkə ilə bildirirdi ki, Şəki ağaları Rusiyaya itaətdən üz döndərdiyinə, Səlim xanın cəzalandırılması üçün göndərilmiş rus qoşunlarına müqavimət göstərdiyinə, rus hərbçilərini qətlə yetirdiklərinə görə cəzalandırılmalı və onlardan böyük həcmdə təzminat tələb olunmalı idi. Onun yazdığına görə, Rusiya imperatoru bunun əvəzində onları bağışladı və mərhəmət göstərərək Cəfərqulu xanı da Şəkiyə xan təyin etdi. Bunun əvəzində isə qraf Qudoviçin fikrincə, şəkililər minnətdar olmalı və Rusiya imperatoruna bu minnətdarlığı itaətkar xidmətləri ilə nümayiş etdirməli idilər. Müraciətinin sonunda qraf Qudoviç Şəki bəylərindən, ruhanilərindən və ağalarından tələb edirdi ki, Cəfərqulu xanı Şəki xanı kimi tanısınlar, ona itaət göstərsinlər. Əks təqdirdə, Şəki ağalarını ağır cəza gözləməli idi (132).

Qraf Qudoviçin həyata keçirdiyi qabaqlayıcı tədbirlərdən sonra Şəki əhalisi Cəfərqulu xanın təyinatına qarşı açıq etiraz nümayiş etdirə bilmədi və Cəfərqulu xan Nuxaya gələrək xanlığın idarəçiliyini öz üzərinə götürdü. Bununla belə, Şəki əhalisinin narazılığı da aradan qalxmadı. Bu narazılığın nə vaxtsa silahlı müxalifətə çevrilməsinin qarşısını almaq üçün qraf Qudoviç ona yerli əhalini tərk-silah etməyi tapşırdı. Əhalinin tərk-silah edilməsinin vacibliyini qraf Qudoviç bir də general Nebolsinin dəstəsinin bir hissəsinin geri qaytarılması zəruriliyi ilə əlaqələndirirdi. Qraf Qudoviç əmin olmaq istəyirdi ki, general Nebolsinin geri çağırılmasından sonra Şəkidə Rusiya işğalına qarşı hər hansı bir qiyam qalxmayacaqdır. Şəkinin Rusiya işğalı altında qalmasının möhkəmləndirilməsi üçün xan sarayında kiçik rus dəstəsi hələ bir müddət saxlanmalı idi. Bundan əlavə, qraf Qudoviç Cəfərqulu xana təklif etdi ki, ona yaxın və etibarlı olan adamlardan seçilmiş 500 nəfərlik bir silahlı dəstə təşkil etsin. Bu dəstə Cəfərqulu xanın təhlükəsizliyini təmin edə bilərdi (133).

1807-ci il mart ayının sonlarına yaxın general Nebolsin dəstəsinin bir hissəsi ilə geri çağırılaraq Bərdə yaxınlığında yerləşdirildi. Tərtər çayı sahilində düşərgə salan general Nebolsin Qarabağ, Şamaxı və Şəki

xanlıqlarını nəzarət altında saxlamalı, Qacar qoşunlarının yürüşləri baş verən vaxtda onlara qarşı mövqe tutmalı idi. Amma onun sərəncamında kifayət qədər qüvvə olmadığı üçün Qarabağ xanı Mehdiqulu xan və Şamaxı xanı Mustafa xan öz atlıları ilə ona yardım göstərməli idi. Qraf Qudoviç Cəfərqulu xana məktub göndərərək onu da öz atlı dəstəsi ilə zərurət yaranan anda general Nebolsinə yardım göstərməyə hazır olmağı tapşırdı. Qraf Qudoviç Mingəçevir keçidinin nəzarət altında saxlanmasını da Cəfərqulu xana həvalə etdi (134).

Cəfərqulu xan qraf Qudoviçin tapşırıqlarını qəbul etdi və Şəki xanlığı ərazisində Rusiya işğalına qarşı hər hansı bir hərəkata yol verməyəcəyinin məsuliyyətini öz üzərinə götürdü. Lakin Cəfərqulu xan Şamaxı xanı Mustafa xanla əməkdaşlığın mümkün olmayacağını söylədi. Onun nəzərində Mustafa xan formal olaraq Rusiyaya sədaqət göstərəcəyini vəd etmişdi. Cəfərqulu xan bildirirdi ki, Mustafa xan qəlbən Rusiyaya sədaqətli deyil və buna görə onu etibarsız adlandırırdı. O, Mustafa xanın Səlim xanla əlaqədə olmasını, Səlim xanın adamlarına Mustafa xan tərəfindən qayğı göstərilməsini Mustafa xanın Rusiya işğalına biganə qalması kimi dəyərləndirirdi. Cəfərqulu xanın yazdığına görə, həmin günlərdə Səlim xan öz adamlarını Şəki ərazisinə göndərdi. Mustafa xanın xəbəri və qayğısı ilə Şamaxı xanlığı ərazisindən keçib Şəki xanlığı ərazisinə gələn bu adamlar Rusiya işğalına qarşı təbliğat aparırdılar. Mustafa xanın yaxınlarından olan Azay sultan adlı birisi Şamaxı xanlığı ilə Şəki xanlığı qovşağında yerləşərək Səlim xanın nümayəndələrinin Şəki ərazisinə keçməsinə kömək edirdi. Cəfərqulu xan qraf Qudoviç qarşısında məsələ qaldırdı ki, Azay sultanın Şəki xanlığı sərhədindən uzaqlaşdırılmasını Mustafa xandan tələb etsin. Səlim xanın yaxın adamlarından olan Mirzə Hüseyn, Zeynal bəy və başqaları Mustafa xanın yanında sığınacaq tapmaqla keçmiş Şəki xanının yenidən öz məqamına qaytırılmasına çalışırdılar ki, bu da Cəfərqulu xanın narahatçılığı ilə qarşılaşırdı (135).

Keçmiş Şəki xanı Səlim xan doğrudan da Rusiya işğalına qarşı mübarizəsini dayandırmamışdı və Ərdəbildən vaxtaşırı öz nümayəndələrini Şəki əhalisi arasına göndərirdi. Onun rus işğalına qarşı mövqeyini bölüşdüyü üçün Mustafa xan da ona öz köməyini əsirgəmirdi. Digər tərəfdən Şəki əhalisi arasında da istər Rusiya işğalına qarşı, istərsə də Cəfərqulu xanın təyinatına qarşı bir narazılıq əhval-ruhiyyəsi qalmaqda idi. Bundan Cəfərqulu xanın da, qraf Qudoviçin də xəbəri var idi və onlar narahat idilər ki, Səlim xan öz təbliğatı ilə Şəki əhalisini bir daha rus işğalına qarşı qiyama qaldırmağa müvəffəq olar. Şəki xanlığı ərazisində rus işğalına qarşı təbliğat aparan adamlardan biri Cəfərqulu

xanın adamları tərəfindən ələ keçirildi. Qraf Qudoviş Şəki xanlığı ərazisinə Səlim xan tərəfindən göndərilmiş həmin adamın dərhal Tiflisə göndərilməsini tələb etdi (136). Güman edilirdi ki, bu adamın vasitəsilə Səlim xanın planları haqqında daha geniş əldə etmək mümkün olar.

Bundan başqa qraf Qudoviç eyni zamanda Şamaxı xanlığı ərazisindəki rus qoşun dəstəsinin rəhbəri podpolkovnik Tixonovskiyə məktub göndərdi və ona tapşırdı ki, Səlim xanın adamlarının Şamaxı xanlığından ərazisindən keçməklə Şəki xanlığı ərazisinə gəlməsinin və Mustafa xanın da onlara kömək göstərib-göstərməməsinin doğruluğunu araşdırsın. Podpolkovnik Tixonovski həm də Mustafa xanın Səlim xanla təmasda olmasının, Ərzrum paşasının nümayəndəsinin Mustafa xanın yanında olması xəbərlərinin düzgünlüyünü də yoxlamalı idi. Mustafa xanın yanında sığınacaq tapmış Səlim xanın yaxınlarından olan Mirzə Hüseyn bəy və Zeynal bəy dərhal həbs edilməli idilər. Mustafa xandan isə tələb edilməli idi ki, Azay sultanı Şəki xanlığı sərhədindən geri çağırsın. Nəhayət, podpolkovnik Tixonovski çalışmalı idi ki, Mustafa xanın Rusiya sarayına itaətinin gücləndirsin və onu Cəfərqulu xanla xoş münasibətlərə sövq etsin.

Mövcud olan faktlar göstərir ki, Rusiya ağalığına qarşı həm Səlim xan, həm də Şamaxı xanı Mustafa xan ciddi fəaliyyət aparırdı. Məhz bu fəaliyyətin nəticəsi idi ki, 1807-ci il aprel ayının sonlarında Şəki xanlığının ərazisində rus işğalına qarşı çox da geniş əraziləri əhatə etməyən qiyam baş verdi. Həmin qiyama Sultan Murad yüzbaşı adlı birisi rəhbərlik edirdi. Sultan Murad yüzbaşı Şəki xanlığının Aşağı və Yuxarı Göynük kəndlərini, habelə Bürcü ləzgi kəndini qiyama qaldıra bilmişdi. Sultan Murad yüzbaşı rəhbərlik etdiyi qiyamı Şəki xanlığının digər kəndlərinə də yaymaq istəyirdi. Görünür, Sultan Murad yüzbaşı ətrafına güclü dəstə toplaya bilmişdi. Çünki Cəfərqulu xanın bu qiyamı yatırmağa gücü çatmadı. Ona görə də xanlıqda qalmış rus qoşun dəstəsinə kömək üçün müraciət etdi. Bu qoşun dəstəsinin rəhbəri mayor Qrekov 100 nəfərlik dəstə ilə qiyamçılara qarşı yollandı. Onun ixtiyarında olan topdan açılan atəş qiyamçılar üçün gözlənilməz oldu. Onlar rus qoşun dəstəsinin müqavimətini qıra bilməyəcəklərini anlayaraq geri çəkilməli oldular. Bununla, Şəki xanlığında Rusiya işğalına qarşı qaldırılan növbəti qiyam cəhdinə son qoyuldu (137).

1807-ci ilin oktyabr ayında Şəki xanlığında əhalinin rus işğalına qarşı yenidən qiyam hazırlıqları haqqında məlumat alındı. Yerli əhalinin nümayəndələri Səlim xana məktub göndərdilər və onun nəzərinə çatdırdılar ki, əgər 1000 nəfərlik Qacar qoşunu ilə xanlıq ərazisinə gəlsə, yerli əhali də ona qoşularaq xanlıq ərazisindəki rus qoşun dəstəsini məhv

edə bilərlər. Görünür, bu məlumat kifayət qədər ciddi məlumat idi və ona görə də qraf Qudoviç Şəki xanlığına əlavə bir tabor rus qüvvəsinin göndərilməsini qərara aldı. Sonradan Cəfərqulu xan xanlıq ərazisində qiyam əhval-ruhiyyəsinin olmadığını bildirsə də qraf Qudoviç əlavə göndərilmiş rus taborunun hələlik xanlıq ərazisində saxlanmasını lazım bildi (138).

Səlim xan Rusiya işğalına qarşı apardığı mübarizəni müqəddəs mübarizə sayırdı (139). Ona görə sonrakı ildə də o, öz mübarizəsindən əl çəkmədi. Mövqeyinin müəyyən eniş-yoxuşlarına baxmayaraq Qazıqumıq hakimi Surxay xan da Səlim xanın həmfikirlərindən biri idi. O dəfələrlə öz nümayəndələrini Cəfərqulu xanın yanına göndərərək onu da Rusiya işğalına qarşı mövqe tutmağa, Şəki xanlığını Rusiya işğalı altından çıxarmağa çağırdı. Surxay xan Şəki xanlığının Rusiya işğalı altından çıxarılması üçün hətta Cəfərqulu xanın üzərinə qoşun çəkdi. Amma Cəfərqulu xan öz gələcəyini Rusiya sarayına xidmətdə görürdü və rus qoşunlarının köməyi ilə Surxay xanın hücumunun qarşısını aldı. Rusiya bayrağı altında öz hakimiyyətinin qorunub saxlanması üçün Cəfərqulu xan xanlıq ərazisində olan "Gələsən-Görəsən " və digər qalaların sökülüb-dağıdılmasına göstəriş verdi ki, həmin qalalar müqavimət və qiyam ocaqlarına çevrilməsinlər (140).

Lakin bu da Şəki əhalisinin Rusiya işğalına qarşı barışmaz mövqeyinin qarşısını ala bilmədi. General Qudoviçlə Cəfərqulu xan arasında aparılan yazışmalardan aydın olur ki, 1808-ci ilin yayında işğal əleyhinə olanlar xeyli fəallaşdılar. Bu qüvvələr o dərəcədə fəallaşmışdılar ki, Cəfərqulu xan xanlıq ərazisindəki vəziyyəti artıq nəzarət altında saxlaya bilmirdi. Vəziyyətin gərginləşməsinə yol verməmək üçün qraf Qudoviç ondan tələb edirdi ki, qiyam əhval-ruhiyyəsində olanlarla sərt davransın və qiyam fəalları kimliyindən asılı olmayaraq həbs edilib Tiflisə göndərilsinlər. İstər Qudovuç, istərsə də Cəfərqulu xan şübhə etmirdilər ki, həmin qiyam fəalları Səlim xanla da müəyyən əlaqədə idilər. Səlim xan göndərdiyi məktublar vasitəsilə Şəki ağalarını daha qətiyyətli fəaliyyətə səsləyirdi. Səlim xan onu da bildirirdi ki, Şəki bəyləri və ağaları əməli fəaliyyətə keçdikləri halda özü də Qacar qoşun dəstəsi ilə Şəkiyə gələcək və işğal əleyhinə qiyama qoşulacaqdır. Gözlənilən qiyamın qarşısının alınması üçün Cəfərqulu xan 1808-ci ilin iyun ayında silahlı dəstə ilə Səlim xanla əlaqədə olan bəylərin təqibinə başladı, onların övladlarını və yaxınlarını girov götürərək Nuxa qalasına gətirdi ki, bununla həmin bəyləri qiyama qoşulmaqdan çəkindirsin (141). Amma bu təqiblər heç də gözlənilən nəticəni vermədi.

1808-ci il iyul ayının əvvəllərində Səlim xanın özünün də Şəki xanlığına gəlməsi haqqında xəbərlər yayıldı. Həmin xəbərlər rus hərbçilərini, o cümlədən qraf Qudoviçin özünü ciddi qorxuya saldı. Şəki xanlığının yenidən rus işğalı altından çıxmasına yol verməmək üçün polkovnik Lisaneviçin rəhbərliyi altında Şəkiyə əlavə rus dəstəsinin gətirilməsi qərara alındı. İxtiyarında 2 ədəd top olan bu dəstə 600 nəfərdən ibarət idi. Şəki xanının təşkil etdiyi atlı dəstəsi də rus qoşun dəstəsinə qoşulmalı idi. Qraf Qudoviçə çatan xəbərə görə, Səlim xan dəstəsi ilə Pirəzə kəndi yaxınlığında Kür çayını adlayaraq Şəkiyə istiqamət götürmüşdü. Baş komandan Səlim xanla hər hansı danışıq aparılmasını qeyri-mümkün sayırdı və ona görə də tələb edirdi ki, Səlim xanın dəstəsinə qarşı qətiyyətli mövqe tutulsun. Qraf Qudoviç çalışırdı ki, imkan daxilində Səlim xan ələ keçirilsin və bununla da o, ətraf aləmdən təcrid edilsin. Onun tərəfindən Cəfərqulu xana belə bir tapşırıq da verildi. Və nəhayət Cəfərqulu xandan tələb olundu ki, polkovnik Lisaneviçin köməyi ilə Şəkidə qaldırılması gözlənilən yeni qiyamın təşkilatçıları və fəalları həbs edilərək Tiflisə göndərilsinlər (142).

Sonradan məlum oldu ki, Səlim xan Şəki xanlığına gəlməyib. Yalnız onun yaxınlarından olan Mahmud ağa adlı birisi ətrafında olan az saylı dəstə ilə Şəkiyə gələrək Rusiya işğalına qarşı qiyam qaldırmağa çalışıb. Əhali içərisində qiyam əhval-ruhiyyəsi olduğu üçün mövcud olan məlumata görə, iyul ayının 5-də silahlı çıxış baş verdi. Rus mənbələrinə görə, bu silahlı qiyamda Mahmud ağa ilə gələn 13 nəfər və bir də Şəkidən 500 nəfər iştirak etdi. Rus qoşun dəstəsinin və Cəfərqulu xanın atlı dəstəsinin vasitəsilə bu qiyamı yatırmaq mümkün oldu. Qiyam iştirakçılarının bir çoxu qətlə yetirildi və onlardan 40 nəfəri isə əsir götürüldü. Bildirilir ki, bu qiyamda Ağdaş əhalisi xüsusilə fəal şəkildə iştirak etdilər. Ağdaşın özünün və Kür qırağı kəndlərinin əhalisi rus işğalı ilə barışmaq istəmirdilər. Amma onların gücü az olduğu üçün rus silahının qarşısında geri çəkilmək məcburiyyətində qaldılar (143).

1809-cu ilin əvvəllərində bir daha Səlim xanın Kür çayı ətrafına gəlməsi haqqında xəbərlər alındı. Bu dəfə Səlim xan doğrudan da Arazın şimalına adlamış və hətta ailəsini də özü ilə gətirərək Zərdab yaxınlığında yerləşmişdi. Rus zabitlərinin verdiyi məlumata görə, Səlim xan bu dəfə Arazı dinc məqsədlə adlamışdı. O artıq Şəki xanı olması arzusundan əl çəkərək dinc yaşamaq üçün imkan əldə etmək istəyirdi. Başqa sözlə, Səlim xan Rusiya məqamları tərəfindən bağışlanmasına nail olaraq Azərbaycan xanlıqlarından birinin ərazisində ömrünü sürmək istəyirdi. Amma 1809-cu ilin aprelinə aid olan məlumatda bildirilirdi ki, Səlim xan yenidən Şəkidə rus işğalına qarşı qiyam qaldırmaq istəyir,

Ağdaşın əhalisi isə artıq bütünlüklə onu müdafiə edir. Bu qiyam xəbərdarlığının qarşısının alınması üçün qraf Qudoviç yenidən rus qoşunlarının gücünə üz tutdu, Şəki və Şamaxı xanlıqları ərazisində yerləşən rus qoşun dəstələrini döyüş hazırlığı vəziyyətinə gətirdi (144).

Bir sözlə, Qudoviç Qafqazı tərk edənə kimi Şəki xanlığında Rusiya işğalına qarşı barışmazlıq əhval-ruhiyyəsini aradan qaldıra bilmədi. Şəki əhalisi isə başda Səlim xan olmaqla təklikdə Rusiya qoşunlarının müqavimətini qırmağa müvəffəq olmadı.

Yalnız Şəki xanlığının itaət altına gətirilməsi ilə bölgədə Rusiyanın marağında olduğu bir vəziyyəti yaratmaq mümkün deyildi. Çünki bölgənin Car-Balakən əhalisi də, Dağıstan xalqları da Rusiya boyunduruğundan çıxmağın yollarını axtarırdılar. Bundan əlavə, ləzgi dəstələrinin vaxtaşırı olaraq Şəki xanlığı və Gürcüstan üzərinə yürüşlər etməsi də Rusiya hərbi komandanlığının durumunu xeyli çətinləşdirmişdi.

1806-cı ilin avqustunda general-mayor Nesvetayev qraf Qudoviçə xəbər göndərdi ki, rus qoşunlarının Dağıstana çıxarılması ləzgi atlı dəstələrinin yürüşlərinin səngiməsinə heç də təsir etməmişdir. Avqustun 3-də iki ləzgi dəstəsi, biri 260 nəfərdən, digəri 80 nəfərdən ibarət olmaqla Alazan çayını adlayaraq Samux ətrafında gizlənmişlər (145). Buradan da onlar Gürcüstan ərazisinə yürüşlər edirdilər.

Yuxarıda qeyd edildiyi kimi, qraf Qudoviç tərəfindən general Nebolsinin rəhbərliyi altında bir dəstə Şəki qiyamının yatırılmasına göndəriləndə, bir dəstə də general-mayor knyaz Orbelianinin rəhbərliyi altında Car-Balakən istiqamətinə göndərildi. Qraf Qudoviç ona tapşırdı ki, Rusiyaya sədaqət andını pozan, vergi verməkdən imtina edən, Gürcüstan ərazisinə yürüşlər edən ləzgilərə güclü zərbə vurulsun və onlar bir də Gürcüstan üzərinə yürüş etməyə cəsarət etməsinlər (146).

Rus mənbələrində Gürcüstan üzərinə edilən yürüşlər daha çox ləzgilərin adı ilə bağlanılır. Amma məlumdur ki, bölgə əhalisi yalnız ləzgilərdən ibarət deyildi. Bölgədə yaşayan digər xalqlar da öz ənənəvi azadlıqlarını rus tabeliyinə qurban vermək istəmirdilər və ona görə onlar da rus işğalına qarşı idilər. Qeyd etmək lazımdır ki, Gürcüstan ərazisində yaşayan xeyli sayda azərbaycanlı əhali də rus işğalı ilə barışmayaraq bu bölgəyə pənah gətirmişdi. Onlar da yerli xalqlarla birlikdə ruslara qarşı yürüşlərdə iştirak edirdilər (147).

Car bölgəsinin əhalisinin asanlıqla Rusiya itaəti altına gətirilməsinin mümkün olmayacağını bilən knyaz Orbeliani ona güclü dəstə verilməsini xahiş etdi. Knyaz Orbeliani bilirdi ki, carlılar bu mübarizədə tək deyildirlər və onların köməyinə qluxodar silahlıları da gəlmişdilər.

Verilən məlumata görə, qluxodarlıların dəstəsində 4 min atlı və 6 min piyada var idi. Qraf Qudoviç knyaz Orbelianinin xahişini qəbul etdi və onun dəstəsinin gücləndirilməsinə göstəriş verdi. Knyaz Orbelianinin dəstəsinin əsasını onun özünün rəhbərliyi altında Alazanda dayanan rus qoşun dəstəsi təşkil edirdi. Bu dəstənin tərkibində 1400-ə yaxın adam var idi. Qraf Qudoviçin əmrinə əsasən, 15-ci yeger alayının bir bölüyü, habelə Telavi və Sıqnaxda yerləşən rus komandasının yarısı knyaz Orbelianinin dəstəsinə birləşdirildi. Bunlardan başqa, gürcülərin qeyri-nizami atlı dəstələri də knyaz Orbelianinin köməyinə verildi. Onların ümumi sayı 2 min nəfər idi (148).

Gürcü atlı dəstələri əsas dəstəyə qoşulandan sonra knyaz Orbeliani Cara doğru hərəkətə başladı. Noyabr ayının 8-də Alazan çayını adlayan dəstə Katexi kəndi ətrafında düşərgə saldı. Katexi kəndinin əhalisi rus qoşun dəstəsinin gəlməsindən ehtiyatlanaraq ev-eşiklərini tərk edib dağlara çəkildilər. Katex dərəsində isə 400 nəfərlik silahlı dəstə qalmışdı ki, bu dəstə ruslara müqavimət göstərməli idi. Lakin bu dəstə çoxsaylı rus dəstəsinin irəliləməsinin qarşısını saxlaya bilmədi. Həmin məntəqədə 2 gün istirahət edəndən sonra knyaz Orbelianinin dəstəsi Cərəm kəndinə doğru hərəkəti davam etdirdi. Məlum oldu ki, burada da yerli əhalinin böyük dəstəsi toplanmışdır. Qazıqumıx hakimi Surxay xanın silahlıları da yerli əhalinin köməyinə gəlmişdi. Cərəm ətrafına avar silahlıları da toplanmışdı. Avar hakimi Sultan Əhməd knyaz Orbeliani ilə əlaqə saxlayaraq carlılar adından onunla danışıqlar aparmaq istədiyini bildirdi. Knyaz Orbeliani onun təklifini qəbul etdi və Sultan Əhmədlə görüşdü. Sultan Əhməd knyaz Orbelianidən carlılara qarşı mərhəmətli olmağı xahiş etdi. Knyaz Orbeliani isə qarşılıqlı anlaşmaya gedilməsinə razı olmadı və carlılara məktub göndərdi ki, ötən müddət ərzində Rusiya xəzinəsinə ödənməmiş vergiləri toplayıb ödəsinlər. Bölgəyə yürüş edən çoxsaylı rus dəstəsinin gücü qarşısında Car əhalisinin bu tələbi yerinə yetirməkdən başqa seçimi yox idi. Çünki knyaz Orbelianinin ixtiyarında çox böyük dəstə var idi. Ona görə də knyaz Orbeliani tərəfindən irəli sürülən şərt yerli əhali tərəfindən qəbul edildi (149).

Car əhalisinin silahlı müqavimət göstərmədən knyaz Orbelianinin şərtlərini qəbul etməsi haqqında xəbəri qraf Qudoviç sevinclə qarşıladı. Bununla belə o, knyaz Orbelianidən tələb etdi ki, verilən tapşırıqları bütünlüklə icra etsin. Bu tapşırıqlardan biri də Balakən əhalisinin itaət altına gətirilməsi, habelə yerli imkanlı adamların övladlarının girov götürülərək Tiflisə göndərilməsi idi. Başlıcası isə qraf Qudoviç elə tədbirlərin həyata keçirilməsini istəyirdi ki, yerli əhali bir də Rusiyaya itaətdən üz döndərməyə cəsarət etməsin (130).

Avar hakimi Sultan Əhməd xanın bölgədən uzaqlaşması isə qraf Qudoviçi daha da cəsarətləndirdi. Çünki avar hakiminin döyüş meydanını tərk etməsi carlıların müqavimət imkanını müəyyən qədər zəiflətdi. Mövcud faktlardan aydın olur ki, Sultan Əhməd xan daha çox öz maraqlarının təmin edilməsi qayğısında idi və rus hərbi komandanlığından bəzi vədlər alandan sonra qiyamçıların sırasını tərk etməyə üstünlük verdi. Sultan Əhməd xan çar tərəfindən əvvəlcə ona təyin edilmiş olan maaşın yenidən ona verilməsini istədi və əvəzində də Rusiya sarayına itaət nümayiş etdirəcəyini bəyan etdi. Qraf Qudoviç onun istəyi ilə razılaşdı. Ancaq ondan girov verməyi və üzərinə yazılı öhdəlik götürməyi tələb etdi. Sultan Əhməd xan yaxın qohumlarından birini və iki ağanı girov kimi onun yanına göndərdi. Eyni zamanda o, öhdəsinə götürdü ki, Rusiyaya sədaqətli olacaq, onun tabeliyində olan camaat Gürcüstan üzərinə yürüşlərdən əl çəkəcək və Rusiyaya düşmən olan Dağıstan hakimlərini öz düşmənləri kimi qəbul edəcəkdir. Qraf Qudoviç də ona əvəzində maaş verilməsini təmin etdi və general-mayor rütbəsi ilə təltif edilməsi haqqında çar qarşısında vəsatət qaldırdı. 1807-ci il martın 16-da avar hakimi Sultan Əhməd xana general-mayor rütbəsi verildi (151).

Avar sultanının bölgəni tərk etməsindən sonra knyaz Orbeliani car ağalarını və nümayəndələrini öz yanına topladı, onlara verməli olduqları vergi borclarını xatırlatdı və həmin vergilərin toplanması üçün 11 günlük möhlət verdi. Car əhalisi bu müddətlə razılaşıb vergini toplamağa söz versələr də onların iqtisadi imkanları kifayət qədər kəsad idi və tələb olunan vergini toplamaq gücündə deyildilər. Tələb olunan vergilərin vaxtında çatdırılmadığını görəndə knyaz Orbeliani qoşun dəstəsi ilə Zaqatalaya doğru irəliləməyə başladı. Bununla knyaz Orbeliani yerli əhalini qorxutmaqla tələblərində israrlı olduğunu göstərmək istəyirdi. Zaqatalanın sağ cinahı kabarda alayının bölmələri, sol cinahı isə 15-ci yeger alayının qüvvələri tərəfindən tutuldu. Kabardin alayının bir dəstəsinə göstəriş verildi ki, Zaqatalanın içməli su mənbələrinin qarşısını kəssin. Bundan başqa knyaz Orbeliani Zaqatala qalası ətrafındakı yüksəklikləri də nəzarət altına götürdü. Qalanın sağındakı və solundakı yüksəkliklərin hər birinə 150 nəfər rus silahlısı yerləşdirildi. Sonra da Zaqatala qalasında yaşayan əhalinin cəzalandırılması üçün knyaz Orbeliani xüsusi əməliyyat planının icrasına başladı. Knyaz Orbeliani özü də etiraf edirdi ki, Zaqatalada yaşayan əhalinin çox kəsad ərzaq ehtiyatları vardır. Bununla belə, onların qalan var-yoxunun da əlindən alınması üçün rus qoşun dəstələrinin gücü ortaya qoyuldu. Rus qoşun dəstəsinin bu xüsusi hazırlığı yerli əhalini böyük təşviş və qorxu içinə saldı. Əhalinin

nümayəndələri knyaz Orbelianinin yanına gəldilər və onlar rus qoşunları qarşısında aciz qalaraq irəli sürülən bütün vergilərin toplanmasına və vaxtında təhvil verilməsinə çalışacaqlarını bildirdilər. Qoşun dəstəsinin fəallığı yerli əhalinin qorxusuna səbəb olmaqla bərabər, həm də yerli əhalinin ətraf aləmlə əlaqələrini məhdudlaşdırdı ki, bu da onların ağır güzəranını daha da ağırlaşdırdı. Knyaz Orbeliani anladı ki, Zaqatalanı mühasirədə saxlamaqla yerli əhalinin vergi toplamaq imkanlarını daha da azaldır. Ona görə knyaz Orbeliani 1806-cı il dekabrın 23-də qoşun dəstəsini Zaqatalanın mühasirəsindən geri çəkdi və yenidən Car yaxınlığındakı düşərgəyə qayıtdı (152).

Səhəri gün Zaqatala əhalisi gücləri çatan vergiləri toplayaraq knyaz Orbelianiyə təhvil verdi. Knyaz Orbeliani bölgədən nəzərdə tutulan bütün vergini toplaya bilməsə də, hər halda ona verilən tapşırığın icrasına müəyyən dərəcədə nail oldu. Ona görə də, dekabrın son günlərində o, Cardan geri çəkildi və 1807-ci ilin ilk günlərində Əliabad kəndinə gəldi. 1807-ci ilin yanvar ayında knyaz Orbeliani Car vilayətinin əhalisinin nümayəndələrini yanına toplayaraq onlara Rusiyaya sədaqət andı qəbul etdirdi. Sədaqət andını imzalayan şəxslər bəyan edirdilər ki, Car vilayəti hələ 1803-cü ildə general Qulyakov tərəfindən fəth edilmiş, əhali tərəfindən Rusiyaya sədaqətli olmaq andı qəbul edilmiş və 1805-ci ildə isə Rusiya imperatoruna sədaqətli olmaq barəsində yazılı vəd verilmişdi. Sədaqət andının mətnində sonra bildirilirdi ki, Car əhalisi verdiyi bu vədlərə sonradan əməl etməmiş, Gürcüstan üzərinə çoxlu yürüşlər həyata keçirmiş, Rusiya təbəələrini əsir götürmüş və ciddi cəzalara layiq olan əməllər törətmişlər. Car əhalisi bu əməllərdən peşman olduğunu bəyan etməklə Allahdan və Rusiya imperatorundan mərhəmət dilədiklərini bildirirdilər. Car əhalisi Qurana and içərək aşağıdakıları icra etməyə hazır olduqlarını vəd edirdilər: 1) hər bir kəndin sayılıb-seçilən ailələri öz övladlarını və yaxınlarını girov verməli idilər. Girovların kimlər olmasını və neçə nəfər olmasını knyaz Orbeliani təyin etməli idi; 2) 1804-cü ildə kazakların əlindən alınmış atların hər biri üçün 25 rubl və eyni zamanda ödənməmiş 1509 rubl vəsait sədaqət andının imzalanmasından bir ay sonra toplanıb knyaz Orbelianiyə təhvil verilməli idi; 3) əsir götürülmüş hər bir Rusiya təbəəsi üçün carlılar cərimə olaraq 1500 rubl ödəməli idilər; 4) carlılar Rusiya imperiyasının ağalığını qəbul etməklə dağıstanlıların və digərlərinin Gürcüstana keçməsinə yol verməməli, talançı yürüşləri həyata keçirənlərə qarşı müqavimət göstərməli, belələrini tutaraq Rusiya hakimiyyətinə təhvil verməli idilər; 5) verdiyi vədləri pozduqları halda carlılar ciddi cəzalara layiq olduqlarını iqrar edirdilər (153).

Rus qounları qarşısında geri çəkilməli olan Car əhalisinin silahlı müqavimət göstərmədən Rusiya təbəəliyini qəbul etməyə hazır olması haqqında məlumatlar qraf Qudoviçin dərin sevincinə səbəb oldu. Bu barədə ondan alınan məlumatlar Rusiya çarı I Aleksandrı da məmnun etdi. Knyaz Orbelianinin rəhbərliyi altında rus qoşunlarının Cara yürüşü rus generallarının yazışmalarında Carın fəthi kimi təsvir olunur. 1807-ci ilin yanvarında İlisu sultanı Əhməd Sultan da yaranmış vəziyyəti araşdıraraq Rusiya təbəəliyini qəbul etməkdən başqa seçimin olmadığı qənaətinə gəldi. Ona görə o, Tiflisə gələrək Rusiya təbəəliyini qəbul etməyə hazır olduğunu bildirdi (154).

5. Şamaxı və Lənkəran xanlıqlarında vəziyyət

1806-cı ilin yayında Qacar qoşunlarının Arazın şimalına yürüşə başlaması ilə Şamaxı xanlığı ətrafında da mürəkkəb hərbi-siyasi şərait yarandı. Bu xanlığa nəzarətin əldə saxlanması həm Qacar sarayı, həm də Rusiya qoşunlarının Qafqazdakı komandanlığı üçün xüsusi əhəmiyyət kəsb edirdi. Çünki Şamaxı xanlığı Azərbaycan xanlıqlarının mərkəzində yerləşirdi və bu xanlığa hakim olmaqla digər xanlıqlardakı vəziyyətə də ciddi təsir göstərmək mümkün idi.

Qraf Qudoviç də Sisianov dövründə Rusiyaya birləşdirilmiş olan Şamaxı xanlığının Rusiya tabeliyində saxlanmasına xüsusi diqqət yetirirdi. Bunun üçün Şamaxı xanlığında rus hərbçiləri saxlanılırdı. Bu hərbçilər Mustafa xanın fəaliyyətinə nəzarət etməklə bərabər, xanlığı həm də ruslara qarşı mümkün kənar təhdidlərdən qorumalı idilər. 1806-cı ilin ikinci yarısında və 1807-ci ilin əvvəllərində aşağıdakı qoşun bölmələri Şamaxı xanlığı ərazisində yerləşdirilmişdi: Bığır kəndi yaxınlığında bir rus əsgəri, 2 kazak və 25 nəfər Şamaxı atlısı; İncə kəndi yaxınlığında Troitski muşketyor alayının bir əsgəri, kazak alayından 2 nəfər kazak və 25 nəfər Şamaxı atlısı; Köhnə Şamaxıda və Mərəzə kəndi ətrafında da həmin sayda silahlı adam dayanırdı. Adları çəkilən məntəqələrdə yerləşdirilmiş rus əsgərləri azəri türkcəsinə bələd idilər (155).

Mövcud şəraitdə Rusiya sarayının Şamaxı xanlığı ərazisində daha güclü hərbi kontingenti saxlamaq imkanı yox idi. Çünki lazım olan qüvvələr çatışmırdı. Ona görə də 1806-cı ilin yayında Şamaxı xanlığı Qacar qoşunlarının hücumuna məruz qaldı. Qacar qoşunları Şamaxı xanlığı ərazisində ciddi hərbi nəticələr əldə etməsələr də, Qacar sarayı Şamaxı xanlığına olan iddialarını bir daha nümayiş etdirməli oldu.

1806-cı ilin iyul ayında Abbas Mirzə öz nümayəndəsini şamaxılı Mustafa xanın yanına göndərdi və onu Qacar hakimiyyətini tanımağa sövq etməyə çalışdı. Abbas Mirzə ona çatdırdı ki, Salyanı Lənkəran xanının nəzarətindən çıxararaq Mustafa xanın nəzarəti altına vermək istəyir. Buna görə Mustafa xandan tələb olunurdu ki, Qacar şahına xidmət etsin və Abbas Mirzənin sərəncamına qoşun dəstəsi versin. Abbas Mirzə bu dəstəni də öz qoşununa qatmaqla Rusiyaya qarşı müharibəyə getməli idi. Mustafa xan Abbas Mirzənin tələbini qəbul etmədi və bildirdi ki, Abbas Mirzəyə qoşun dəstəsi verməyəcək, Qacar sarayına xidmət etməyi arzulamır və Qacar şahzadəsindən də Salyanı istəmir (156).

Mustafa xan şah qoşunlarının Şamaxı xanlığı ərazisinə hücum edəcəyinə şübhə etmirdi və ona görə də o, qraf Qudoviçdən kömək göndərilməsini istədi. Şamaxı xanı xahiş edirdi ki, onun köməyinə 400 nəfərlik bir dəstə göndərilsin. Bunun mümkün olmayacağı təqdirdə heç olmasa 200 nəfərlik dəstənin göndərilməsini xahiş etdi. Mustafa xana görə, rus dəstəsinin Şamaxı xanlığı ərazisinə gəlməsi xəbərinin özü Qacar qoşunlarına ciddi təsir göstərə bilərdi. O istəyirdi ki, ona köməyə gəlmiş rus qoşun dəstəsinə öz atlılarını da qoşsun və bu birləşmiş dəstə ilə Qacar qoşunlarının Şamaxı xanlığı ərazisinə girməsinin qarşısını alsın (157).

Əslində, rus generalları da şübhə etmirdilər ki, Qacar qoşunları Şamaxı xanlığına daxil olacaqlar. Lakin bir tərəfdən fəallaşan Qacar qoşunlarının Şamaxı xanlığı üzərinə hücumunun qarşısını almaq üçün yetərli sayda rus qüvvəsi yox idi. Digər tərəfdən isə bölgədə baş komandanın olmaması hətta mövcud olan rus qüvvələrinin fəaliyyətini lazımınca nizamlamağa imkan vermirdi. Ona görə Mustafa xan şah qoşunlarının yürüş təhlükəsi qarşısında tək qalmalı oldu.

Qacar sarayı Mustafa xanın Rusiya təbəəliyini qəbul etməsi ilə razı deyildi və 1806-cı ilin yayında başlanan hücum kampaniyasında Mustafa xanın ciddi cəzalandırılması da bir vəzifə kimi qarşıya qoyulmuşdu. Gözlənilən təhlükədən müdafiə olunmaq üçün Mustafa xan Fit dağındakı qalaya çəkildi və əhalinin müəyyən hissəsini də dağlara köçürdü. Qacar qoşunları 1806-cı ilin yayında Şamaxı xanlığı ərazisinə daxil olanda Mustafa xan artıq Fit dağında idi. Rus mənbələrinə görə, Mustafa xan burada olarkən onun yanına bir daha Abbas Mirzənin nümayəndəsi gəldi və onu Rusiya təbəəliyindən üz döndərməyə və Qacar hakimiyyətini tanımağa çağırdı. Mustafa xan bu dəvətdən yenə imtina etdi və güclənə biləcək Qacar təzyiqlərinin qarşısında duruş gətirmək üçün bir daha rus generallarından kömək istədi (158).

Bu zaman Şamaxı şəhəri artıq Qacar qoşunlarının mühasirəsində idi və Qacar qoşunlarının mühasirəsini yarmaq Mustafa xanın hərbi imkanları daxilində deyildi. Belə bir şəraitdə onun ümidi təbəəliyini məcburiyyət üzündən qəbul etməli olduğu rus qoşunlarına idi. Amma rus generalları da vədlərinə xilaf çıxaraq Mustafa xana lazım olan köməyi göndərmədilər və bunun üçün müxtəlif bəhanələrə əl atdılar. General-mayor Nebolsin tapşırıq aldı ki, tabeliyində olan qoşun dəstəsi ilə Şamaxıya doğru istiqamət götürsün. Amma o, dəstəsinin ərzaq ehtiyatının olmaması bəhanəsi ilə Mustafa xanın köməyinə yollanmadı. Müvəqqəti olaraq rus qoşunlarına komandanlığı öz üzərinə götürmüş general Nesvetayev də ərzaq ehtiyatının və təchizatının olmaması üzündən Şamaxı xanına kömək göndərə bilmədiyini bəyan etdi (159).

Qacar qoşunlarının Şamaxı xanlığı ərazisində möhkəmlənməsi və sonradan Şeyxəli xanın və Rusiya işğalına müxalif olan bəzi Dağıstan hakimlərinin silahlı dəstələrinin Qacar qoşunlarına qoşulması bölgədəki rus işğalına qarşı ciddi bir təhlükə yarada bilərdi. Görünür, bu təhlükənin nəzərə alındığı üçün idi ki, rus generalları heç olmasa Şirvan istiqamətinə dəstə çıxarmağı qərarlaşdırdılar. 1000 nəfərdən və beş ədəd topdan ibarət olan bu dəstəyə polkovnik Karyagin rəhbərlik edirdi. Polkovnik Karyagin Zərdab yaxınlığında Kür çayını adlayaraq Şirvan istiqamətinə hərəkət etdi. Mənbələrdə bildirilir ki, polkovnik Karyagin xəstələndiyi üçün yürüşü davam etdirə bilmədi. Onun əvəzinə podpolkovnik Lisaneviç dəstənin kiçik bir hissəsi ilə Kürü adlayaraq Cavada doğru irəliləməyə başladı. Lakin podpolkovnik Lisaneviç bu yürüşü çox gecikmə ilə icra etdi (160).

Mövcud faktlardan aydın olur ki, düşdüyü mürəkkəb vəziyyəti aradan qaldırmaq üçün Mustafa xan şahzadə Abbas Mirzə ilə danışıqlara girdi. Bunu yazışmalarında Mustafa xan qeyd edirdi ki, danışıqlara getməkdə məqsədi Şamaxı xanlığının əhalisini və yaşayış məntəqələrini yersiz talanlardan və viran qalmaqdan qorumaq idi. Amma Mustafa xan öz danışıqlarının nəticələri barəsində heç bir məlumat açıqlamırdı. Bununla belə, aydın olur ki, həmin danışıqlardan sonra Abbas Mirzənin mövqeyində dəyişiklik baş verdi və sentyabr ayının 11-də Abbas Mirzə öz qoşunlarını Ağsu və Şamaxı ətrafından Kür çayına tərəf çəkdi. Belə bir vaxtda Mustafa xan yenə kömək üçün rus generallarına müraciət etdi, onlardan kömək istədi. Mustafa xan bildirirdi ki, birgə qoşun dəstəsini Zərdab və ya Körpükənd yaxınlığına çıxarmaqla Qacar qüvvələrinin geri çəkilməsinə nail olmaq mümkündür. 1806-cı il sentyabr ayının ortalarında general Nebolsinə göndərdiyi məktubunda Mustafa xan təkidlə xahiş edirdi ki, rus dəstəsi gecə-gündüz istirahət etmədən çox

təcili şəkildə köməyə gəlsin. Onun fikrincə, bu kömək yetişərsə vəziyyət arzu olunan xarakter ala bilərdi (161).

Mustafa xanın təkidlə Rusiya köməyini istəməsi heç də onun Rusiyaya olan etimadından irəli gəlmirdi. İstər Rusiya hakimiyyətinin tanınması, istərsə də Qacar hakimiyyətinin tanınması Şamaxı xanlığının müstəqilliyinin məhdudlaşdırılması demək idi. Qacar qoşunlarının yürüşünə qarşı Mustafa xanın qətiyyətli mövqe tutması yəqin ki, bu qoşunların yetirə biləcəyi daha böyük dağıntıların qarşısının alınması və Mustafa xanın dəyişdirilməsinə çalışan Qacar sarayının planlarının icrasına yol verilməməsi ilə bağlı idi. Rus generalları isə Mustafa xanın kömək xahişləri qarşısında ona yaxınlarından kiminsə girov göndərilmədiyini xatırlatdılar. Qacar qoşunları Ağsu ətrafından çəkilməzdən əvvəl general Nebolsin göndərdiyi məktubunda Mustafa xana xatırlatdı ki, polkovnik Karyaginin arxasınca onun da köməyə gəlməsini istəyirsə, onda girov və bələdçi göndərsin və rus dəstəsini ərzaqla təmin edəcəyi barədə onu məlumatlandırsın (168). Başqa sözlə, rus generalları hələ də Mustafa xana etimadsızlıqla yanaşırdılar və onların Şamaxıya qoşun dəstəsi göndərməkdə lənglik nümayiş etdirmələri çox güman ki, bu məsələ ilə bağlı idi.

Mustafa xan Rusiya qoşunlarının müvəqqəti baş komandanı general-mayor Nesvetayevə göndərdiyi məktubunda bir daha xatırlatdı ki, rus qoşunlarının köməyini almaq üçün dəfələrlə müraciət etmişdir. Mustafa xan yazırdı ki, dostunu talan və qırğınlar qarşısında qoyaraq ona yad adam kimi uzaqdan baxmaq heç bir qanunda yoxdur. Ona qarşı belə münasibət göstərilməsini Mustafa xan anlamadığını bildirirdi və bununla bərabər ondan yenə kömək göndərilməsini xahiş edirdi (163). General Nebolsin isə göndərilməsi mümkün olan köməyin əvəzində Mustafa xan qarşısında başqa şərtlər qoyurdu və bunu açıq şəkildə səsləndirməkdən də çəkinmirdi.

General Nebolsin yenidən Mustafa xandan ona yaxın qohum olan ailələrdən bəzilərinin övladlarının girov verilməsini istədi. Mustafa xan isə onun yaxın qohumlarının uşaqlarının hələ körpə olduğunu və buna görə də onların girov verilməsinin qeyri-mümkün olduğunu yazdı. Bundan əlavə Mustafa xan Şamaxı xanlığının Qacar və Şəki xanlığı qoşunlarının mühasirəsində olduğu bir vaxtda girov məsələsinin ortaya atılmasının düzgün olmadığını bildirdi. Kiçik yaşlı qohumlarının əvəzinə Mustafa xan general Nebolsinin yanına Şirvanın tanınmış adamlarını göndərdi. Onun yazdığına görə, bu adamlar həm də rus qoşunlarına bələdçilik edə bilərdilər (164).

Qacar qoşunlarının geri çəkilməsi ilə Şamaxı xanlığı ətrafındakı gərginlik müəyyən qədər səngidi. Qraf Qudoviç bölgəyə gələndən sonra Şamaxı xanlığı ilə münasibətləri daha da yaxşılaşdırmağa çalışdı. Mustafa xan rus generallarının göstərdiyi laqeydlik və biganəliyə baxmayaraq, onlarla imzaladığı müqavilənin şərtlərindən çıxmağı məqsədəuyğun saymırdı. Belə bir addım atılmasının konkret tarixi şəraitdə düzgün olmadığı aydın idi. Azərbaycan xanlıqlarının mərkəzində qərar tutmaqla əslində Şamaxı xanlığı rus qoşunlarının əhatəsində idi. Bunu qraf Qudoviç də dolayısı yolla öz məktubunda Mustafa xana xatırlatdı. Bakı sahillərində Rusiyanın güclü dəniz qüvvələri lövbər salmışdı. Şamaxıdakı rus qarnizonu kifayət müəyyən potensiala malik idi. Şəki xanlığı ərazisində də rus qoşun dəstəsi var idi. Gəncədə yerləşən rus qarnizonu da Şamaxı xanlığından elə də uzaq deyildi. Qraf Qudoviç bu hərbi qüvvələri Şamaxı xanlığının təhlükəsizliyinin təminatı kimi təqdim edir və bununla Mustafa xanı Rusiya ilə münasibətlərində itaətkar mövqeyini davam etdirməyə çağırırdı (165).

Qraf Qudoviç formal olaraq Mustafa xana qarşı səmimiyyət göstərməyə çalışsa da imperiya maraqlarında ona güzəştə getməyi mümkün saymırdı. Buna görə də o, 1806-cı ilin sonlarına yaxın Mustafa xandan Rusiya xəzinəsinə verməli olduğu 8000 rubl maliyyə vəsaitinin ödənməsini tələb etdi və Mustafa xanın fəaliyyətini bütünlüklə nəzarət altında saxlamaq üçün podpolkovnik Tixonovskini onun sarayına göndərdi. Qraf Qudoviç adı çəkilən zabitə verdiyi təlimatında Mustafa xanın davranışını daim nəzarət altında saxlanmasını onun başlıca vəzifələrindən biri kimi xarakterizə etdi. Bundan başqa podpolkovnik Tixonovski davranışı ilə Şamaxı xanını narazı salmamalı və ona mümkün köməyi göstərməklə Rusiyaya bağlılığını artırmağa çalışmalı idi. Qraf Qudoviç daha sonra podpolkovnik Tixonovskidən tələb etdi ki: 1) icrası mümkün olan xan tələblərinin həyata keçməsinə çalışsın; 2) Şirvan ərazisindən keçənlərin Şamaxı əhalisinə ziyan yetirməməsini nəzarət altında saxlasın; 3) Şəki xanlığı ərazisində yerləşən general Nebolsinlə və Bakıda olan general Quryevlə əlaqə saxlamaqla zərurət yarandıqda onların köməyi ilə Şamaxı xanlığına mümkün kömək göstərilsin; 4) qraf Qudoviçin müdaxilə etməsi zəruri olan məsələlər barədə dərhal ona məlumat çatdırsın və xanlıq ərazisindəki vəziyyət haqqında ayda bir dəfə raport təqdim etsin (166).

Mustafa xan isə bütün bunlara baxmayaraq yenə də qraf Qudoviçdən Şamaxı xanlığı ərazisinə rus qoşun dəstəsi göndərilməsini xahiş etdi. Qraf Qudoviçin söylədiklərinə baxmayaraq, Şamaxı xanlığı mümkün Qacar yürüşləri qarşısında etibarlı şəkildə müdafiə olunmamışdı. 1807-ci

ilin martında Qacar qoşunlarının yeni yürüşü haqqında məlumat alınanda belə Şamaxı xanlığı ərazisinə rus qoşun dəstəsi göndərilmədi və qraf Qudoviç hətta buna zərurət olmadığını bildirdi. İrəli sürülən təkliflər və xahişlərə rus komandanlığının biganə qalması Mustafa xanın Rusiya təbəəliyinə olan münasibətinə heç də təsirsiz ötüşmürdü. 1807-ci ilin ortalarına yaxın Mustafa xanın rus işğalı ilə barışmayan keçmiş Bakı xanı Hüseynqulu xanla və Şəki xanı Səlim xanla təmasları haqqında məlumatlar yayıldı. Bundan başqa Mustafa xan Səlim xan tərəfindən rus qoşunlarının Fransa qoşunlarına məğlub olması və zəifləməsi, çeçenlərin general Bulqakovun dəstəsinə ağır zərbə vurması, Osmanlı qoşunlarının Arpaçay yaxınlığında toplaşması, Qacar sarayının Səlim xanın ixtiyarına 12 minlik qoşun dəstəsi verəcəyini vəd etməsi barədə xanlıqlar ərazisində təbliğat aparılmasına heç də etiraz etmirdi. Baxmayaraq ki, rus komandanlığı bunun əksinə idi. Rus qoşunları komandanlığının təqib etdiyi Səlim xanın yaxınlarından olan Mirzə Hüseyn adlı birisi Mustafa xanın himayəsi altında idi. Mustafa xan rusların təkidli tələbinə baxmayaraq Fit dağındakı qalada yaşayırdı və rusların istəyinin əksinə olaraq Şamaxıya qayıtmırdı (167). Bütün bunlar Mustafa xanın Rusiya təbəəliyinə münasibətinin birmənalı olmadığını göstərirdi.

1807-ci il boyu Şəki xanlığı ətrafında cərəyan edən hadisələr Rusiya komandanlığının təşvişlə izlədiyi məsələlərdən biri idi. Keçmiş Şəki xanı Səlim xanın Şəki bəylərinin və ağalarının rus işğalına və Cəfərqulu xanın xan təyin edilməsinə qarşı davam edən barışmazlığı xanlıq ətrafındakı vəziyyətin mürəkkəb olaraq qalmasını şərtləndirirdi. Mustafa xanla Cəfərqulu xan arasında işgüzar münasibətlərin olmaması da Şəki xanlığı ətrafındakı münasibətlərə rusların marağında olmayan təsir göstərirdi. Ona görə rus komandanlığı Mustafa xanla Cəfərqulu xanı barışdırmağa çalışırdı və bunu təkidlə Mustafa xana tövsiyə edirdi. Rus komandanlığı eyni zamanda keçmiş Quba xanı Şeyxəli xanın tutulmasında da Mustafa xanın köməyindən istifadə etmək istəyirdi. Rus zabitlərinin göstərdiyi səylər nəticəsində 1807-ci il dekabr ayının 12-də nəhayət ki, Mustafa xanla Cəfərqulu xanı görüşdürüb barışdırmaq mümkün oldu. Podpolkovnik Tixonovski bu barədə böyük sevinclə qraf Qudoviçə xəbər verdi (168).

Qraf Qudoviçi Rusiya sarayına göndərdiyi məktubunda bildirirdi ki, Səlim xanla Mustafa xanın barışması Şəki xanlığında rus işğalına qarşı müxalifətçiliyin səngiməsinə və ləzgi dəstələrinin fəal yürüşlərinin qarşısının alınmasına kömək edə bilər. Şəki xanı ilə barışığa getdiyinə görə, Mustafa xana maaş kəsilməsi haqqında qraf Qudoviç Rusiya imperatoru qarşısında vəsatət də qaldırdı (169).

Qraf Qudoviç Şamaxı xanının Şəki xanı ilə barışığına sadəcə iki xanlıq arasında münasibətlərin yaxşılaşdırılması kimi yox, bütünlükdə Rusiyanın bölgədə maraqlarının möhkəmləndirilməsi kimi baxırdı. Bundan sonra rus komandanlığı əsas diqqəti Şeyxəli xanın müqavimət hərəkatının yatırılmasına yönəldə bilərdi ki, bu imkandan da istifadə edildi. Rus komandanlığı hətta Şeyxəli xanın müqavimətinin qırılması üçün Mustafa xanın atlı dəstələrindən də istifadə etdi.

Qraf Qudoviç Qafqazı tərk edənə qədər rus komandanlığı ilə Mustafa xan arasında daha hər hansı ciddi bir gərginlik yaşanmadı.Hər halda rus qoşunları komandanlığı ilə əməkdaşlıq Mustafa xanın müəyyən maraqlarına cavab verirdi. Bu əməkdaşlığın mövcudluğu Mustafa xanın hakimiyyətinə müəyyən təminat verirdi. Sonradan Şamaxı xanlığı ərazisinə rus qoşun bölməsinin yerləşdirilməsi isə xanlıq üzərinə edilə biləcək hücumların qarşısının alınması üçün ciddi bir vasitə oldu. Amma bununla yanaşı Mustafa xanın Rusiya boyunduruğu altında olmağı qəbul etdiyini söyləmək olmaz. 1809-cu ilin aprelində Mustafa xanın fəaliyyətinə nəzarət edən podpolkovnik Tixonovski Şamaxı xanının şübhəli hərəkətləri haqqında məlumat verirdi. Onun yazdıqlarına görə, Mustafa xan Fit dağındakı qalanı möhkəmləndirməyə başlamış, ora böyük miqdarda barıt və ərzaq əşyaları yerləşdirmişdi. Podpolkovnik Tixonovski bildirirdi ki, İrandan gələn ticarət karvanlarını Mustafa xan dayandırmalı olsa da, artıq bunu etmir, Lənkəran xanı Mir Mustafa xanın nümayəndələri mütəmadi olaraq onun yanına gəlirlər və s. (170). Yəni, Qudoviç bütün cəhdlərinə baxmayaraq Şamaxı xanı Mustafa xanın tam itaətkarlığına nail ola bilmədi.

Qraf Qudoviçin Qafqazda xidməti dövründə Lənkəran xanlığı ilə olan münasibətlər də rus qoşunları komandanlığının təşviş və narahatçılığına səbəb olan bir məsələ idi. Gözlənildiyinin əksinə olaraq Lənkəran xanı Mir Mustafa xan rus işğalına qarşı kəskin bir mövqe ortaya qoydu. Bu xanın əvvəlki illərdə rus qoşunları ilə olan sıx təmaslarına görə Lənkəran xanlığının asanlıqla Rusiyaya birləşdiriləcəyi gözlənilirdi. Bu isə baş vermədi. Əksinə, Mir Mustafa xan rus komandanlığının təşvişinə səbəb olacaq bir sıra ciddi addımlar atdı. Bakı xanlığı işğal olunanda rus generallarının ələ keçirmək istədiyi Hüseynqulu xan bir müddət Lənkəran xanının himayəsində qaldı və sonra da oradan Səraba yola salındı. Rus zabitlərinin məlumatlarına görə, bu zaman Mir Mustafa xan keçmiş Bakı xanını lazım olan əşyalarla və bələdçilərlə təmin etdi (171).

Qraf Qudoviçin Qafqaza gəldiyi vaxtlar Mir Mustafa xan Salyanı da öz nəzarəti altında saxlayırdı. Rus qoşunları komandanlığı Salyanın

Lənkəran xanlığı tərkibində olmasından razı deyildi və ona görə bu məsələ rus generalları ilə Mir Mustafa xan arasında gərginliyə səbəb oldu. Qraf Qudoviç Lənkəran xanına yazdığı məktubunda Salyanın vaxtilə Quba xanlığına mənsub olduğunu, Şamaxı xanlığı Rusiyaya birləşəndə isə Salyanın şamaxılı Mustafa xanın nəzarəti altında olduğunu söyləyərək Mir Mustafa xanın Salyana iddia irəli sürməsini əsassız saydı. Ona görə qraf Qudoviç Salyanın yalnız Şamaxı xanlığına mənsubiyyətini tanıdığını bildirirdi. Bundan başqa Qacar qoşunlarının 1806-cı ilin yayında Şamaxı xanlığına hücumdan sonra özləri ilə aparmaq istədikləri Şamaxı əhalisinin bir hissəsi Lənkəran xanlığı ərazisində qalmışdı. Lənkəran xanı onları geri buraxmaq istəmirdi. Qraf Qudoviç Mir Mustafa xandan həmin əhalinin də Şamaxı xanlığına qaytarılmasını tələb edirdi (172).

Şamaxı xanlığından gətirilmiş olan əhalinin geri qaytarılması ilə bağlı göstərilə biləcək təzyiqlərin qarşısının alınması üçün Mir Mustafa xan Qacar sarayından kömək istədi. Bu müraciətə hansı cavabın verildiyini söyləmək çətindir. Çox güman ki, Mir Mustafa xanın ruslara qarşı olan müraciəti Qacar sarayı tərəfindən müsbət qarşılandı. Lakin Qacar qoşunları Azərbaycan xanlıqlarının ərazisini yenicə tərk etmişdilər və havaların soyumağa doğru getdiyi bir vaxtda Qacar qoşunlarının geri qayıdacağı inandırıcı deyildi. Əvəzində rus qoşunları 1806-cı ilin oktyabrında Cavaddan keçərək Salyana çatdılar. 1806-cı il oktyabrın 9-da Salyana gələn rus qoşun dəstəsi podpolkovnik Lisaneviçin rəhbərliyi altında olan dəstə idi. Həmin dəstə Şamaxı xanı Mustafa xanın təkidli tələbindən sonra bölgəyə göndərilmiş polkovnik Karyaginin rəhbərliyi altında olan qoşun dəstəsinin bir hissəsi idi. Yuxarıda qeyd edildiyi kimi, polkovnik Karyagin xəstələndiyi üçün polkovnik Lisaneviç kiçik bir dəstə ilə Cavada doğru irəlilədi. O, Cavada çatanda Qacar qoşunları Şamaxı xanlığı ərazisini artıq tərk etmişdilər. Bununla belə, podpolkovnik Lisaneviç Cavaddan Salyana keçməyi qərarlaşdırdı. Ruslar bu keçidlə heç olmasa Şamaxı xanlığı ərazisindən gətirilmiş əhalinin geri qaytarılmasına nail olmaq istəyirdilər. Bu işdə rus dəstəsinə Mustafa xanın atlıları kömək edirdilər. Salyan hakimi və Mir Mustafa xanın Salyanda olan qardaşı Bağır bəy rus dəstəsinin və Şirvan atlılarının Kür çayını adlamasını istəmirdilər. Podpolkovnik Lisaneviç nümayəndələrini göndərib Salyan hakimindən çayı adlamaq üçün qayıqlar istədi. O, xəbərdarlıq etdi ki, qayıqlar verməsə Salyanı top atəşinə tutacaqdır. Salyan hakimi də məcburiyyət qarşısında qalaraq tələb olunan qayıqları verdi. Podpolkovnik Lisaneviç sentyabrın 9-da Kür çayını adlayaraq Salyanı tutdu. Salyan hakimi Əli xan şəhəri tərk edib qaçdı. Mir Mustafa

xanın qardaşı Bağır bəy və onun ətrafında olan bəylər və silahlılar Mustafa xanın atlıları tərəfindən ələ keçirildilər. Beləliklə, Lənkəran xanının nəzarəti altında olan Salyan rus qoşun dəstəsinin nəzarəti altına alındı və onun idarəçiliyi Şamaxı xanına həvalə olundu (173).

Salyanın Lənkəran xanının nəzarətindən çıxarılması və Şamaxı xanlığına birləşdirilməsi məsələsi bir sıra farsdilli mənbələrdə də əz əksini tapmışdır. Amma məsələnin qoyuluşu rus mənbələrindəki məlumatlardan fərqli şəkildədir. Mustafa xan sözsüz ki, Salyanı Şamaxı xanlığına birləşdirmək istəyirdi. Lakin rus generallarının və Mustafa xanın özünün rus generalları ilə yazışmalarından aydın olur ki, 1806-cı ilin yayında və payızında Mustafa xanı daha çox Qacar qoşunlarının Şamaxı xanlığına müdaxiləsinin qarşısını almaq və Şamaxı xanlığını belə müdaxilələrdən sığortalamaq düşündürürdü. Bunun üçün Mustafa xanın rus generallarından hərbi kömək almaq səyləri çox gecikməklə və qismən həyata keçdi ki, bu da podpolkovnik Lisaneviçin dəstəsinin Cavad və Salyana gəlməsindən ibarət oldu. "Məəssər-e Soltaniyyə" əsərində bildirilir ki, Mustafa xan gizli şəkildə Gəncədəki rus komandanlığı ilə əlaqə yaratdı və Şirvana rus qoşun dəstəsinin göndərilməsini xahiş etdi. Ruslar isə cavabında söylədilər ki, "Mustafa xanın dəstəsi" Gəncəyə gəlsə ona kömək göstərilə bilər. "Mustafa xanın dəstəsi" dedikdə yəqin ki, burada Mustafa xanın özü nəzərdə tutulurdu. Çünki o, həmişə rus generalları ilə görüşməkdən qaçırdı. Müəllifə görə, Mustafa xan bir də kömək xahişi edəndə ruslar belə bir bəhanəyə əl atdılar ki, biz bu məsələni Gizlərdə olan Qudoviçə çatdırmışıq və onun cavabını gözləyirik. Sonra qeyd olunur ki, Mustafa xan özünün bu hərəkətindən, yəni ruslardan kömək istəməsindən peşman oldu və hətta ruslara nifrət etməyə başladı. Bu fikrin ardınca müəllif rus qolun dəstəsinin Şamaxı xanlığına gəlməsindən söz açır. Ə.Dünbəli yazır ki, Mustafa xan Salyan və Talışla ədavətdə idi, rusların köməyi ilə neçə illər arzusunda olduğu Salyana sahib olacağına və Şirvandan Salyana qovulan əhalini geri qaytaracağına ümid edirdi. Müəllifin yazdığına görə, şah sərkərdəsi Pirqulu xan bu zaman Kür qırağında idi. Amma məlumdur ki, oktyabr ayına qədər Qacar qoşunları bölgəni tərk etmişdilər. Aydın olur ki, Salyanın əhalisinin bir hissəsi yerli hakim olan Əli xandan çox narazı idi. Ona görə də bu əhali Mustafa xanla əlaqə yaratdı və Mustafa xan da bundan ürəklənib Salyan üzərinə hücum etdi. Ə.Dünbəli Mustafa xanın özünün əvvəlcə Pirqulu xanla döyüşə girməsi və bu döyüşün uzanmasından yazır. Bəllidir ki, bu fakt doğru deyil. Mustafa xanın özünün bu döyüşdə iştirak etmədiyi kimi, Pirqulu xan da həmin vaxt Salyanda deyildi. Bununla belə, bu mənbədə də təsdiq olunur ki, Salyan hakimi

şəhəri tərk edib qaçdı. Abbas Mirzə tərəfindən 300 nəfərlik dəstə ilə Salyanın qorunmasına təyin edilmiş Lənkəran xanının qardaşı Mir Bağır bəy isə ələ keçirildi (174).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqar da Salyanın tutulmasını və Lənkəran xanlığından alınmasını tamam başqa bir məzmunda təsvir etmişdir. Onun yazdığına görə, general Nebolsin Şamaxı xanı Mustafa xanı məcbur etmişdi ki, Salyan hakimi ilə əlaqəyə girsin və onu Salyanın ruslara təhvil verilməsinə məcbur etsin. Əsərdə Salyanın mühafizəsinə vəzifələndirilmiş Mir Bağır bəy də Şamaxı xanının qardaşı kimi təqdim olunur. Bildirilir ki, Mustafa xan öz qasidini məktubla Salyan hakimi Əli xanın yanına göndərdi. Bu qasidi rus dəstəsi müşayiət edirdi. Qasid şəhərə daxil olur, dəstə isə şəhər kənarında gizlənir. Qasidlə şəhər hakiminin söhbəti tutmasa da gecə ikən qasid şəhər darvazasını açmağa imkan tapır ki, bununla da rus dəstəsi şəhərə daxil olur və şəhəri tutur. Sonrakı məlumatlardan aydın olur ki, ruslar Mir Bağır bəyi həbs edərək Tiflisə göndərirlər (175).

"Rövzət-üs səfa" əsərində də mövzu ilə bağlı müxtəsər qeydlər vardır. Bu qeydlərdən aydın olur ki, Qacar qoşunlarının Şamaxı xanlığı üzərinə hücumuna İsmayıl xanla Hüseynqulu xan rəhbərlik edirdilər və onlar Şirvandan 6 min ailəni köçürüb Muğana apardılar (176). Məlumdur ki, bu ailələrdən 2 min nəfəri Lənkəran xanlığı ərazisində saxlanıldı və Şamaxı xanının təkidli tələblərinə baxmayaraq Mir Mustafa xan onları geri qaytarmaq istəmirdi. Qraf Qudoviç də Mir Mustafa xana yazdığı məktubunda Şirvandan köçürülmüş 2 min ailənin geri qaytarılmasını tələb etdi. Şamaxı xanlığının Rusiyaya birləşdirilməsi zamanı bu xanlıq ərazisindən köçürülən əhalinin də Rusiya təbəələri olduğunu bildirən qraf Qudoviç Mustafa xanın Şamaxıdan köçürülən əhalinin geri qaytarılması ilə bağlı iddiasını doğru sayırdı. Qraf Qudoviç etiraf edirdi ki, Mir Mustafa xan həmin ailələri geri qaytarmaqla əslində Qacar sarayına qarşı çıxmış olur. Ona görə Qudoviç qeyd edirdi ki, Mir Mustafa xan bu ailələri geri qaytarmaqla həm də Rusiyanın düşmənləri ilə əlaqələrini kəssin və gələcəkdə rusların köməyinə arxayın olsun (177).

Mir Mustafa xan bu tələbi qəbul etmədi. Əksinə, onun qardaşı Salyana hücum etdi, Salyan əhalisinin əmlakını, mal-qarasını talan edib özü ilə apardı. Mir Mustafa xan qraf Qudoviçə göndərdiyi məktubunda Şamaxı xanını öz düşməni kimi dəyərləndirdi və Şirvandan gətirilən ailələri yenidən öz düşməninə təhvil verməyəcəyini bəyan etdi. Mir Mustafa xanın inadkar mövqeyi qraf Qudoviçi heç də razı salmadı və o da çox sərt şəkildə Mir Mustafa xana cavab qaytardı. Qraf Qudoviç xatırlatdı ki, Mir Mustafa xan Rusiya təbəəliyini qəbul edib və o, verdiyi

vədə sədaqətlidirsə digər Rusiya təbəəsi olan şamaxılı Mustafa xanla düşmənçiliyi kənara qoymalıdır. Lənkəran xanlığının Rusiyanın köməyindən vaxtilə bəhrələndiyinə işarə edən qraf Qudoviç tələb şəklində istədi ki, Mir Mustafa xan öz imkanlarından kənara çıxmasın, özünü risqə atmasın və öz xanlığında dinc yaşamaq istəyirsə onda tələb olunanlara əməl etsin. Qraf Qudoviç eyni zamanda tələb etdi ki, Salyandan aparılmış əmlak da tezliklə geri qaytarılsın (178).

Qraf Qudoviçin bu hədələrindən sonra Lənkəran xanı bir qədər ehtiyatlı davranmağa və rus generallarının qəzəbini coşdurmamağa çalışdı. Mövcud olan məlumatlar onu deməyə əsas verir ki, rus qoşunları baş komandanının hədələrindən sonra Mir Mustafa xan Qacar sarayı ilə əlaqələrini müəyyən çərçivəyə saldı və Qacar sarayının ondan qoşun dəstəsi istəməsi haqqında məlumatı rus generallarına çatdırdı. 1807-ci ilin əvvəlində həm Fətəli şah, həm də Abbas Mirzə ona məktub göndərdi. Fətəli şah ondan 200 nəfərlik silahlı dəstə, Abbas Mirzə isə 150 nəfərlik silahlı dəstə göndərilməsini tələb etdi (179). Qraf Qudoviç qətiyyətli şəkildə Mir Mustafa xanın Qacar sarayına qoşun bölməsi verməsinin əleyhinə çıxdı və Lənkəran xanlığının təhlükəsizliyinin möhkəmləndirilməsi üçün Salyandakı rus dəstəsinin gücləndirilməsini tapşırdı. Dəniz istiqamətindən isə Lənkəran xanlığının təhlükəsizliyini rus gəmiləri təmin etməli idilər. Bununla belə, Mir Mustafa xan Şamaxıdan gətirilmiş ailələri qaytarmağa heç də tələsmədi. 1808-ci ilin yanvarında qraf Qudoviç bu məsələni bir daha ona xatırlatdı. Eyni zamanda Şamaxı xanı Mustafa xanın qardaşı Həşim bəyin Lənkəran xanlığı ərazisində himayə olunmasını da qraf Qudoviç Lənkəran xanının Rusiyaya münasibətində sədaqətsizliyi kimi qiymətləndirdi (180).

Bütünlükdə qraf Qudoviçin Qafqazda olduğu müddətdə rus qoşunları komandanlığı ilə Lənkəran xanlığı arasında da Rusiyanın maraqlarına tam cavab verən münasibət formalaşmadı. Əksinə, 1809-cu ilin əvvəllərində Qacar sarayı ilə Mir Mustafa xan arasında Rusiya qoşunları üzərinə birgə hücum edilməsi haqqında müzakirələr aparılması xəbəri yayıldı (181).

6. İrəvan xanlığı üzərinə ikinci hücum

General-feldmarşal İ. Qudoviç 1808-ci ilin payızında rus qoşunlarının İrəvan qalası üzərinə ikinci hücumunu təşkil etdi. Tam piyada generalı P.Sisianovun baş komandanlığı dövründə İrəvan qalası ətrafında baş verən ağır məğlubiyyət ağır bir yük kimi rus generallarının boynunda qalmışdı və İrəvan xanlarına zərbə vurulması üçün onlar fürsət

gözləyirdilər. Bunun üçün idi ki, qraf Qudoviç hələ Cənubi Qafqaza çatmamış rus generalları onu yenidən İrəvan üzərinə hücuma təhrik etməyə çalışırdılar (182). Qraf Qudoviç də əslində İrəvan və Naxçıvan xanlıqlarının işğalını rus qoşunlarının qarşısında dayanan ciddi bir vəzifə kimi qəbul edirdi. Lakin bölgədə cərəyan edən proseslər İrəvan xanlığı üzərinə hücumu 1808-ci ilin oktyabrına kimi təxirə salmağa məcbur etdi.

İrəvan xanlığının işğalı ilə Rusiya Qafqazdakı işğalçılıq siyasətini təbii sərhədlərlə yekunlaşdırmaq və Araz çayına çıxmaq istəyirdi. Bu planın həyata keçirilməsi İranla Osmanlı sərhədlərinin qovşağında mühüm əhəmiyyət kəsb edən ərazilərin nəzarət altına alınması ilə nəticələnərdi. İrəvan və Naxçıvan xanlıqlarının işğalı Gürcüstanın və Azərbaycan xanlıqlarının Osmanlı istiqamətindən gözlənilən müdaxilələrin qarşısının alınmasına imkan verərdi. Bu işğalın başa çatdırılması ilə general-feldmarşal Qudoviç özünün P.D.Sisianovdan da qüdrətli bir sərkərdə olduğunu, onun məğlubiyyətlə üzləşdiyi İrəvan qalası üzərinə təşkil etdiyi yeni hücumu qələbə ilə başa çatdırmağa qadir olduğunu nümayiş etdirməyə çalışırdı.

Lakin Qacar sarayı ilə sülhün əldə edilməsi üçün aparılan danışıqların uzanması, Cənubi Qafqazda İrəvan xanlığı üzərinə hücum üçün yetərli sayda qoşunların olmaması, Azərbaycan xanlıqları ərazisində rus işğalına qarşı müqavimət hərəkatının genişlənməsi İrəvan xanlığı üzərinə hücumu təxirə salırdı. Car-Balakəndə, Şəki, Şamaxı və Quba xanlıqları ərazisində rus işğalına qarşı mövcud olan müqavimət müəyyən qədər səngidikdən sonra qraf Qudoviç İrəvan xanlığı üzərinə hücuma qərar verdi.

Qraf Qudoviç Qafqazda olduğu müddətdə İrəvan xanlığı ərazisində baş verən proseslər diqqətlə izlənilirdi və İrəvan xanlığı ərazisindən Gürcüstan üçün mövcud olan təhdidlər də rus generalları tərəfindən təşvişlə qarşılanırdı. Bu proseslər rus generallarında belə bir əminlik yaradırdı ki, Gürcüstanda rus mövqelərinin qorunması və Cənubi Qafqazda rus işğalının möhkəmləndirilməsi üçün İrəvan və Naxçıvan xanlıqları itaət altına gətirilməlidir.

Bölgədə işğalçı siyasətin aparılmasına münasibətdə qraf Qudoviç öz sələfi Sisianovdan elə də fərqlənmirdi. Onun Qafqazdakı rus qoşunlarının baş komandanı təyin edilməsi bölgə ətrafında diplomatik fəallığın artması dövrünə təsadüf edir. O bu fəallığa müəyyən diqqət yetirsə də, öz təcavüzkar mövqelərindən heç də əl çəkmədi. Diplomatik danışıqların aparılmasına da Qudoviç daha çox Cənubi Qafqazın müharibəsiz işğal edilməsi vasitəsi kimi baxırdı.

Qudoviç elə güman edirdi ki, rus ordusunda almış olduğu təcrübə Cənubi Qafqazın Azərbaycan xanlıqlarını tezliklə tutmağa imkan

verəcəkdir. Qafqaza gəldiyi gündən də Qudoviç inadkar azərbaycanlı xanları cəzalandırmaq, onların yerinə sədaqətli adamları təyin etmək barədə fikirləşirdi ki, bunu o, Rusiya imperatoruna göndərdiyi məktubunda da açıqlayırdı.

Çoxları Qudoviçə baş komandan kimi Qafqazdakı fəaliyyətini İrəvan xanlığının işğalından başlamağı təklif edirdi. Gürcüstanla İrəvan xanlığı sərhədində dayanan rus qoşun dəstəsinin komandanı general Nesvetayev hələ Qudoviç Tiflisə gəlməzdən əvvəl xarici işlər nazirinə yazdığı məktubunda strateji mövqedə yerləşən İrəvan xanlığının işğalını ləngitməməyə çağırırdı. Belə bir təkliflə general Nesvetayev 1806-cı il avqustun 9-da yenicə Tiflisə gəlmiş Qudoviçə də müraciət etdi. Nesvetayev öz raportunda bildirirdi ki, hazırda İrəvan qalası çox pis müdafiə olunur və rus qoşunlarının uğurlu hücumu qalanın işğalı ilə başa çata bilər. Qudoviç bununla razılaşmadı və Bakı üzərinə qoşun çəkməyi vacib saydı (183).

Həmin il sentyabr ayının əvvəllərində general-mayor Nesvetayev yenə raportla Qudoviçə müraciət edib İrəvan qalasının işğalı üçün əlverişli şərait yarandığını onun diqqətinə çatdırdı. O təklif edirdi ki, rus qoşunları İrəvan qalasını mühasirəyə alandan sonra bir dəstə Ordubada doğru hərəkət etsin. Burada həmin dəstənin Şuşadakı dəstə ilə birləşməsi Naxçıvanın və İrəvanın İranla bütün əlaqələrini kəsər və beləliklə də həmin qalaların süqutu qaçılmaz olar. Nesvetayevin podpolkovnik Simanoviçdən aldığı raporta görə İrəvan qalasında cəmi 1500 nəfərlik bir qarnizon var idi. Onların da çoxu xəstə olmalı idi. Xəstəlik əhali arasında da yayılmışdı.

Bundan başqa ilin quraqlıq keçməsi, məhsulun olmaması camaatı çətin vəziyyətə salmışdı. General Nesvetayevin qənaəti belə idi ki, İrəvan üzərinə hücum ediləcəyi təqdirdə camaat özü qalanı təslim edəcəkdi. Ancaq hələlik Qudoviç öz qərarından dönmək fikrində deyildi və İrəvan qalası üzərinə hücuma keçmək təklifi ilə razılaşmırdı. Gilan hakimi Mirzə Musa xanın nümayəndəsinin Qudoviçlə danışıqlara başlaması da onu tələsməməyə sövq edirdi. Müharibə aparmağa hazır olmayan şah sarayının çoxmənalı vədləri Qudoviçdə dinc yolla İrəvan xanlığının Rusiya hakimiyyəti altına salınacağına bir ümid yaratmışdı. 1806-cı ilin sentyabrında başlanan həmin danışıqlarda Rusya yenə sərhədlərin Kür və Araz çaylarından keçməsini israr edirdi. Doğrudur, Rusiyanın hakim dairələri həmin təkliflərin Qacar sarayı tərəfindən qəbul ediləcəyinə o qədər də inanmırdı. Bununla belə Türkiyə ilə münasibətlərin kəskinləşdiyi bir vaxtda tövsiyə edilirdi ki, Qacar sarayı ilə danışıqlar

davam etdirilsin və bu danışıqlarda müəyyən çeviklik göstərməklə Qacar sarayının Osmanlı dövləti ilə yaxınlaşmasına yol verilməsin.

Rusiya sarayı həmin dövrdə doğrudan da şah sarayı ilə sülh müqaviləsi imzalanmasının tərəfdarı idi. Çünki Osmanlı dövləti ilə münasibətlərin kəskinləşməsi, cənubda iki dövlətlə müharibə aparmaq gücündə olmaması Rusiyanı çevik hərəkət etməyə məcbur edirdi. Şah sarayının ümumi düşməni olan Rusiyaya qarşı Osmanlı dövləti ilə ittifaqa girmək ehtimalı isə Rusiyanı daha çox narahat edirdi.

1806-cı ilin sentyabrında İrəvan xanı Mehdiqulu xanın yerinə Marağa xanı Əhməd xan təyin edildi. Kifayət qədər yumşaq xasiyyətli insan olan Əhməd xan hərbi şəraitlə tanış olandan sonra qətiyyətli addımlar atılmasının zəruriliyini hiss etdi. Xanlığı Rusiya təcavüzündən qorumaq üçün o, Qars paşasını əməkdaşlığa dəvət etdi (184).

Əhməd xan heç şübhəsiz ki, Cənubi Qafqazı ələ keçirmək niyyətində olan Rusiyanın yenidən İrəvan qalası üzərinə hücum edəcəyinə əmin idi. Ona görə də xan İrəvan qalasının müdafiəsinin möhkəmləndirilməsinə diqqət yetirməyə çalışırdı. Bununla belə, Rusiya generalları hiss edirdilər ki, 1806-cı ilin payızında İrəvan qalası elə də güclü deyildir və bu qalaya hücum üçün ən münasib vaxt yetişib. Həmin vaxt general Nesvetayevin yerinə təyin edilən general-leytenant baron Rozen bu vəziyyətlə tanış olandan sonra Qudaviçə İrəvan qalası üzərinə hücum etməyi məsləhət bildi. Qudoviç bu təklifi də rədd etdi və hətta baron Rozenə sərt cavab verdi ki, İrəvanın nə vaxt işğal ediləcəyini o özü yaxşı bilir (185).

Sonralar Qudoviç 1806-cı ilin payızında İrəvan qalası üzərinə hücum etmədiyinə görə peşman olduğunu bildirirdi (186). Amma ruslar üçün əlverişli məqam əldən verildi. Məlum olduğu kimi, Əhməd xanın təxminən bir il uzanan xanlığından sonra onun yerinə Hüseynqulu xan (tarixi ədəbiyyatda o, sərdar Hüseyn xan kimi də təqdim olunur-M.S) İrəvan xanı təyin edildi. Mənbələrdə və tarixi ədəbiyyatda olan məlumatlar sərdar Hüseyn xanı bacarıqlı və qabiliyyətli bir xan, qorxmaz bir sərkərdə kimi xarakterizə edir. İrəvan xanlığının sonuncu 20 illik tarixi onun adı və fəaliyyəti ilə bağlıdır və xanlığın, xanlıq qoşunlarının möhkəmlənməsində heç şübhəsiz ki, onun böyük xidmətləri var idi. Sərdar Hüseyn xan xüsusilə, İrəvan qalasının, onun müdafiə tikililərinin möhkəmləndirilməsinə xüsusi fikir verirdi.



Aşağı sırada ortada İrəvan xanı sərdar Hüseynqulu xan

İrəvan qalasının divarlarının təkmilləşdirilməsi, Sərdarabad qalası kimi bir qalanın tikilməsi də sərdar Hüseyn xanın adı ilə bağlı idi. İrəvan xanlığının qoşunlarına rəhbərlik edən Həsən xan da qardaşı sərdar Hüseyn xan kimi igid və mübariz bir sərkərdə idi. Bu qardaşların birgə səyi və fəaliyyəti nəticəsində qoşunların maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, döyüşçülər zəruri silah və sursatla təmin edilmişdilər. Görülən işlər İrəvan qalasının və bütünlükdə xanlığın müdafiə imkanlarını xeyli artırdı.

1808-ci ilin sentyabrında İrəvan xanlığı üzərinə yürüşün başlanmasını general-feldmarşal İ.Qudoviç konkret səbəblərlə əlaqələndirməyə çalışırdı. Onun yazdıqlarından belə bir qənaət hasil olurdu ki, general Qudoviç Qacar sarayı ilə sülh danışıqların aparılmasına sadiq idi. Lakin sərhəddə cərəyan edən hadisələr onu hücuma başlamağa məcbur etdi. Onun fikrincə, Osmanlı dövləti sərhəd xəttində ciddi hərbi hazırlıqlar aparırdı, Gürcüstanla sərhəd bölgəsindəki qalalar möhkəmləndirilir və bu qalalara qoşun toplanırdı. O biri tərəfdən də Qacarlar sarayı Rusiya ilə sülh danışıqlarını uzatmağa ümid edərək hərbi qüvvələrini yenidən qurmaqla məşğul idi. Qraf Qudoviç həm Qacar qoşunlarının təkmilləşdirilməsinə yol verməmək, həm də havaların soyuduğu bir vaxtda onların hərbi fəallığından istifadə edərək İrəvan qalası üzərinə yürüşə qərar verdi. Onun gümanınca, hücumun payızda başlaması rus qoşunlarına müəyyən üstünlük verə bilərdi. Yəni, havaların soyuduğu üçün Qacar sarayı lazım olan sayda qoşun toplaya bilməyəcək və İrəvan xanlığına da ciddi kömək göndərilməsi mümkün olmayacaqdır. Qudoviçə görə, mövsümi çətinliklərlə bağlı ərzaq və yem təminatı da həm Qacar qoşunları, həm də İrəvan xanlığı üçün mürəkkəb vəziyyət yaradacaq və bununla da Qacar sarayını, habelə İrəvan xanını güzəştə getməyə məcbur edəcəkdir (187).

Rus qoşunları İrəvan xanlığı üzərinə iki istiqamətdən hərəkət etməli idilər. Birinci istiqamət Qarabağ istiqaməti idi. Həmin istiqamətdən qoşun hissələri Naxçıvanı işğal etməli və İrəvan xanlığı ilə Qacar qoşunlarının əlaqələrini kəsməli idi. Qudoviçin komandanlığı altında olan əsas qüvvələr isə Pəmbəkdən İrəvana doğru hərəkət etməli idi. Bu planın səmərəliliyi onun üçün o qədər real görünürdü ki, Qudoviç bu əməliyyatın uğurla başa çatacağına şübhə etmirdi. O, xanlığın qoşununa ciddi bir qüvvə kimi baxmırdı. Ona görə Qudoviç əmin idi ki, bir zərbə ilə xanlığın qoşununu məhv edəcək və asanlıqla İrəvan qalasını ələ keçirəcəkdir.

1808-ci il sentyabr ayının 3-də general Nebolsin rəhbərlik etdiyi xüsusi dəstə ilə Qarabağ ərazisindən Naxçıvan xanlığının sərhədinə doğru irəliləməyə başladı. Bu dəstə mümkün qədər Naxçıvan xanlığı sərhədinə yaxınlaşmaqla şah qoşunlarının rəhbərliyinin diqqətini özünə cəlb etməli idi ki, Qacar qoşunları bütünlüklə İrəvan qalasının müdafiəsinə səfərbər oluna bilməsinlər. Həmin gün qraf Qudoviç praporşik Baluyev vasitəsilə Abbas Mirzəyə, onun vəziri Mirzə Bozorga, Fətəli şahın vəziri Mirzə Şəfiyə və Fransanın Qacar sarayındakı səfiri general Qardana məktub göndərdi. Həmin məktublarında qraf Qudoviç bir daha Rusiyanın tələblərini sadalayırdı və bu tələblərə əməl olunmasına

çağırırdı. Bu vaxt İrəvan xanlığı üzərinə hücum etməli olan əsas qoşun dəstəsi Sopi çayı ətrafında düşərgə salmışdı. Rus qoşun dəstəsi Soğanlıda təchizat və təminat məsələlərini həll etdikdən sonra Sopi çayı ətrafında hücum hazırlığı mövqeləri tutmuşdular. Sentyabr ayının 4-dən etibarən general-feldmarşal Qudoviçin rəhbərlik etdiyi qoşun dəstəsi Sopi çayı ətrafından İrəvan xanlığına doğru hərəkətə başladı və sentyabr ayının 12-də qoşun dəstəsi Gürcüstanla İrəvan xanlığı sərhədinə çatdı. Sentyabrın 13-də qraf Qudoviç özü qoşunların bir hissəsinin müşayiəti ilə Dərbaz kəndinə gəldi. Sonrakı günlər isə qoşunların digər hissəsi ağır dağ yollarını aşaraq baş komandanın dəstəsinə birləşdilər (188).

Rus qoşunlarının İrəvan xanlığı sərhədinə çıxması həmsərhəd Osmanlı vilayətlərinin hakimlərinin, həm də İrəvan xanının təbii narahatçılığına səbəb oldu. Bununla bağlı, Ərzrum, Qars vilayətlərinin sərəsgərləri və İrəvan xanı öz nümayəndələrini rus qoşunları qərargahına yolladılar və rus qoşunlarının bu yürüşünün məqsədini öyrənmək istədilər. Ərzrum sərəsgəri Osman paşanın nümayəndəsi sentyabrın 20-də rus düşərgəsində oldu. Qars sərəsgəri Abdul paşa ilə İrəvan xanının nümayəndələri də düşərgəyə yetişdilər. Bu zaman rus qoşunları bir qədər irəliləyərək Hamamlıya çatmışdı. Qraf Qudoviç Osmanlı nümayəndələrinə bildirdi ki, onların narahatçılığına əsas yoxdur və Rusiya ilə Osmanlı arasında mövcud olan barışığa görə rus qoşunları Osmanlı sərhədini keçməyəcəklər. Baş komandan bu yürüşün həyata keçirilməsini Qacar sarayı ilə barışığın hələ də əldə edilməməsi ilə bağladı və bildirdi ki, həmin barışıq əldə edilmədiyi üçün Rusiya dövləti İrəvan xanlığı ilə sərhədin təhlükəsizliyini təmin etməlidir. İrəvan xanının nümayəndəsinə isə başqa bir cavab verildi. Qeyd etmək lazımdır ki, İrəvan xanının iki nümayəndəsini general Qardanın heyətinin iki üzvü müşayiət edirdi. İrəvan xanının nümayəndəsinə isə çatdırıldı ki, Osmanlı dövləti ilə barışıq mövcud olsa da dövlətlər arasında tam sülh əldə edilməmişdir. Ona görə də rus qoşunları komandanlığı Qars istiqamətindən baş verə biləcək təhlükənin qarşısının alınması üçün hazırlıq tədbirləri görür. Qraf Qudoviçə görə, rus qoşunlarının yerdəyişmələri Rusiya sərhədləri daxilində baş verir və ona görə İrəvan xanlığında bu yerdəyişmələrdən narahat olmamalı idilər. Belə cavabla bərabər, baş komandan həm Osmanlı sərəsgərlərinə, həm də İrəvan xanına qiymətli hədiyyələr göndərərək onların diqqətini rus qoşunlarının yürüşünün əsil məqsədindən yayındırmağa çalışdı (189).

Rus qoşunları Hamamlıda olarkən dəstənin təchizat karvanları da gəlib yetişdilər. Qoşunların təchizatı üçün əminlik hasil edən general Qudoviç sentyabrın 25-də İrəvan istiqamətində hərəkətini davam etdirdi.

Arxa ilə əlaqələrin qorunması üçün qraf Qudoviç Pəmbək və Şuragöldə 4 tabordan ibarət qüvvə saxladı. Sentyabr ayının 26-da rus qoşunları İrəvanın sərhədində olan Aparan kəndinə yetişdi. Burada da rus qoşunları İrəvan xanının 500 nəfərlik dəstəsi ilə qarşılaşmalı oldu. Xan atlıları çoxsaylı rus qoşunu ilə döyüşə girmədi. Onlar ətrafın ot örtüyünü yandırmaqla rusların irəliləməsinə mane olmağa çalışdılar. Sentyabr ayının 28-də Çibinli çayı yaxınlığında da 20 nəfərlik xan atlıları ilə rus qoşunlarının ön dəstələri qarşı-qarşıya gəldilər. Tərəflər arasında atışma baş verdi və rus qoşunlarına ziyan da yetirildi. Amma rus qoşunlarının əsas dəstələri yetişəndə xan atlıları da geri çəkilməli oldular (190).

Tərəflər arasında ilk ciddi qarşıdurma isə sentyabrın 29-da Gərni çayı ətrafında baş verdi. Rus qoşunları yürüşlərini davam etdirərək sentyabrın 29-da burada düşərgə saldılar. Onlar Gərni çayına yetişən kimi əks tərəfdən xan atlıları göründü. General Qudoviçə görə, 4000-5000 nəfər arasında olan xan atlılarına Hüseynqulu xan özü rəhbərlik edirdi (191). Rus qoşunlarına aid olan digər yazışmalarda isə xan dəstəsinin sayı xeyli az göstərilir (192). Rus generallarının öz xidmətlərini şişirtmək üçün müəyyən faktları təhrif etməsi heç də gizli deyildir. Amma onu qeyd etmək lazımdır ki, rus generallarının və hərbçilərinin mövzu ilə bağlı yazışmalarında olan təfərrüatlar digər mənbələrdə yoxdur. Ona görə rus generallarının məlumatlarının digər mənbələrlə müqayisə edilməsi bir çox hallarda qeyri-mümkün olur.

Xan atlıları əlverişli mövqeləri tutmaqla ilkin olaraq gürcü atlılarını atəşə tutdular. General Qudoviçin əmri ilə kazak dəstəsi, 200 nəfərlik gürcü atlıları, 15-ci yeger alayının hərbçiləri və Tiflis alayının dəstəsi xan qüvvələrinə qarşı çıxarıldı. Bu qüvvələrin möhkəmləndirilməsi üçün ehtiyat da nəzərdə tutulmuşdu. Lakin ehtiyatı işə salmağa ehtiyac olmadı. Rus qoşunlarının hücumunun qarşısını saxlaya bilməyən xan qüvvələri geri çəkildilər. Xan qoşunlarının itkisi haqqında general Qudoviç Rusiya imperatoruna göndərdiyi məlumat da, digər yazışmalarda olan məlumatla uzlaşmır. İ.Qudoviç bir neçə xan döyüşçüsünün öldürülməsi və xan qüvvələrinə məxsus 3 ədəd zənburəkin ələ keçirildiyini yazırdı. Digər məlumatda isə xan döyüşçülərindən 2 nəfərin öldürüldüyü və 2 ədəd də zənburəkin ələ keçirildiyi bildirilirdi. Sentyabr ayının 29-da Eçmiədzin monastrının nümayəndələri qraf Qudoviçin yanına gəldilər və xahiş etdilər ki, ruslar öz hərəkətlərini sürətləndirsinlər və Eçmiədzini tutsunlar. Rus generalları güman edirdilər ki, xan qüvvələri geri çəkilməklə Eçmiədzini tutmuş və orada yerləşmişlər. Sonradan daxil olan əlavə məlumata görə, bəlli oldu ki, xan qüvvələri Eçmiədzin ətrafında dayanmayıblar və Eçmiədzin müdafiəsizdir (193).

Sentyabr ayının 30-da rus qoşunları Eçmiədzinə yetişdilər. Qoşunların ön dəstələrində olan qraf Qudoviç Eçmiədzinə daxil olaraq erməni keşişləri ilə görüşdü və onların rus qoşunlarına verdiyi köməyə məmnunluğunu ifadə etdi. Elə bu görüşdə olarkən İ.Qudoviç xan qüvvələrinin ətrafdakı hakim yüksəkliklərdə görünməsi barəsində məlumat aldı. O dərhal draqun eskadronlarına, gürcü atlılarına, yeger alayının bölmələrinə və Tiflis alayının bir taboruna müdafiə mövqeləri tutmaq əmri verdi. Rus qoşunlarının hamısı bu zaman hələ gəlib çıxmamışdı. Müdafiə mövqelərinin tutulması ilə İ.Qudoviç arxada qalan qüvvələrin də salamat şəkildə düşərgəyə yetişməsini istəyirdi. Xan qüvvələri atışmaya girmədən yenidən geri çəkildi. Qraf Qudoviç xüsusi bir müqavimətlə rastlaşmadan Eçmiədzini ələ keçirdi (194).

General P.D.Sisianovdan fərqli olaraq general Qudoviç Eçmiədzini heç bir müqavimətlə rastlaşmadan ələ keçirdi. Bu hadisədən xeyli sevinən Qudoviçə elə gəlirdi ki, onun bütün yürüşü belə ciddi müqavimətə rast gəlmədən aşa çatacaqdır.

Rus qoşunları iki gün Eçmiədzin ətrafındakı düşərgədə dayandılar. Bu düşərgə İrəvan qalası üzərinə hücum üçün baza kimi nəzərdə tutulmuşdu. Həm yaralılar, həm də qoşunların təchizat arabalarının bir hissəsi burada saxlanılmalı idi. Eçmiədzində olduğu günlərdə rus hərbçiləri yem toplamaq üçün ətraf kəndlərə yollandılar. Amma onları bu kəndlərdə xan qüvvələrinin kiçik dəstələri qarşılayırdılar. Oktyabrın 3-də isə qoşunların əsas hissəsi İrəvana doğru hərəkətini davam etdirdi və Zəngi çayını keçərək İrəvan qalasının 6 verstliyində olan Çarbağdakı kəndin yaxınlığında düşərgə saldılar. İrəvan qalasına doğru hərəkət zamanı rus qoşunları müqavimətlə rastlaşmasa da onların yürüşünü xan atlıları daimi müşahidə altında saxlayırdılar.

Qudoviç İrəvanın ətəklərinə çatanda qalanın möhkəmləndirilməsi üçün sərdar Hüseynqulu xan və Həsən xan tərəfindən xeyli iş görüldüyünün şahidi oldu. Qalaya yaxın olan ağaclar qırılmış, tikililər sökülmüşdü. Əlavə istehkam işləri görülmüş və su saxlancları möhkəmləndirilmişdi. Qalaya xeyli ağac tirləri və daşlar gətirilmişdi ki, güclü hücum zamanı onları qala divarları üstündən rus döyüşçülərinin üzərinə atsınlar.

Feldmarşal Qudoviç bunlara da ciddi fikir vermədi. O hətta əvvəlki döyüşün təcrübəsindən də lazımi nəticə çıxarmadı. Qudoviç hələ də İrəvan əhalisinin və qoşunlarının ruslara ciddi bir müqavimət göstərə biləcəyini təsəvvür edə bilmirdi və güman edirdi ki, onun bəzi hədə-qorxuları qalanın təslim edilməsi ilə nəticələnəcəkdir.

Həmin gün general Qudoviç məlumat aldı ki, Hüseynqulu xan dəstəsi ilə İrəvan qalasını tərk edərək Vedi qalasına yollanmışdır. Baş komandan özü də etiraf edirdi ki, Hüseynqulu xanın qalanı tərk etməsi rus qoşunlarına qarşı müqavimətin gücləndirilməsi məqsədilə edilmişdi. İrəvan qalasının daxilində müdafiə işlərinə İrəvan xanının qardaşı Həsən xan başçılıq edirdi. Onun ixtiyarında İ.Qudoviçin yazdığına görə, 2 min nəfərlik qarnizon və tüfəngçilər dəstəsi var idi. Hüseynqulu xan isə qaladan kənarda öz qüvvələrini müxtəlif istiqamətlərə yerləşdirməklə rus qoşunlarının fəaliyyətini nəzarət altında saxlamalı və çevik hücumlarla onlara itkilər yetirməli idi. İ.Qudoviç anlayırdı ki, Hüseynqulu xan İrəvan ətrafında sərbəst qaldıqca daim onun qəfil hücumlarını gözləməli olacaqdı. Ona görə də o, general Portnyaginin rəhbərliyi altında bir dəstə təşkil edib Hüseynqulu xanın ardınca göndərdi. General Portnyaginin dəstəsinə Narv draqun alayının 4 eskadronu, Tiflis alayının bir taboru, 15-ci yeger alayının 2 taboru və 300 nəfərlik kazak dəstəsi daxil idi. Bu dəstə Hüseynqulu xanın ola biləcəyi yerə getsə də onu tapa bilməyib geri qayıtmalı oldu (195).

Hüseynqulu xanın öz dəstəsi ilə qalanı tərk etməsi həm də general Qudoviçdə qala qarnizonunun zəifləməsi təsəvvürünü yaratdı. Buna görə də o, qalanın dinc yolla ələ keçirilməsinə cəhd göstərdi. Oktyabr ayının 4-də general Qudoviç İrəvan qarnizonunun rəisinə, İrəvan ağalarına, ruhanilərinə və bütün əhalisinə müraciət etdi və onları İrəvan qalasını təhvil verməyə çağırdı. Müraciətinin əvvəlində İ.Qudoviç bildirirdi ki, böyük və mərhəmətli Rusiya imperatorunun ali şərəfli və qalib qoşunları ilə İrəvan qalası ətrafına gəlmişdir və rus monarxının humanist qaydalarına uyğun olaraq nahaq insan qanının axıdılmasına yol verməmək üçün qılınca əl atmazdan əvvəl İrəvan əhalisini, İrəvan qarnizonunun rəisini təslim olmağa, qalanı təhvil verməyə çağırmağı özünə borc bilir. Bunun əvəzində İ.Qudoviç vəd edirdi ki, İrəvan qarnizonunu azad buraxacaq, silahlıların evlərinə dağılmasına imkan verəcək, İrəvan əhalisinin isə can və əmlak toxunulmazlığı təmin ediləcəkdir. Əks təqdirdə İ.Qudoviç silaha əl atmalı olacağını və tökülən qanların günahının onun üzərinə düşməyəcəyini bəyan edirdi. Öz müraciətini general İ.Qudoviç belə tamamlayırdı: “"Şərəfli qarnizon rəisi və İrəvan xalqı, siz özünüz nahaq tökülmüş insan qanının, arvad və uşaqlarınızın bədbəxtliyinin, bütün var-dövlətinizin itirilməsinin günahkarı olacaqsınız. Çünki qalanın alınması ilə hər şey qılınc altına düşəcək və rus qoşununu tez bir zamanda qırğın törətməkdən çəkin-dirmək mümkün olmayacaqdır. İrəvan əhli! Sizin fikriniz heç də İrəvan qalasının əvvəlki mühasirəsinə getməsin. Onda tamam başqa vəziyyət

idi, indi isə başqa vəziyyətdir. Onda qoşunlara hərb sənətindən elə də təcrübəsi olmayan cavan general Sisianov rəhbərlik edirdi, indi isə əlahəzrət böyük imperatorun məğlubedilməz qoşunlarına mən komandanlıq etmək şərəfinə layiq görülmüşəm. 30 ildən çoxdur ki, mən güclü Rusiya qoşunlarına komandanlıq edirəm. Bundan başqa İrəvanın əvvəlki mühasirəsinə xeyli az qoşun cəlb edilmişdi. İndi isə mənim qoşunlarım o qədərdir ki, onlarla nəinki qalanı dağıdaram, hətta bütün İrandan da keçə bilərəm.

Ona görə də insan qanına rəhm edərək, müqavimət göstərəcəyiniz halda yaxınlaşmaqda olan fəlakət barədə, könüllü təslim olacağınız və qalanı təhvil verəcəyiniz halda isə təhlükəsizliyiniz və salamat qalaraq öz mülkiyyətiniz üzərində həmişəki kimi sahibliyinizi saxlamağınız barədə düşünməyə çağırıram. Onu, ya da bunu seçin. Mən bunu sizin öhdənizə buraxıram. Ancaq nə qədər ki, fürsət var, tez bir qərara gəlin. İrəvan əhli, heç bir yandan kömək gözləməyin. Çünki heç bir yandan qalaya kömək gələ bilməz. O qədər qoşunum var ki, onun bir hissəsi köməyə gələ biləcək qüvvələrin qarşısını kəsib onları məhv edər. Beləliklə, indi sizin həyatınız və tam sakitliyiniz şəhəri təslim etmək barəsindəki qərarınızdan asılıdır. Cavabınızı sabah səhər gözləyirəm" (196).

İrəvan qalasından hansı cavabın alınacağını gözləmədən general İ.Qudoviç qalanın mühasirəsinə hazırlıq işlərini davam etdirdi. Oktyabrın 5-6-da həm Hüseynqulu xanın harada olması ilə bağlı axtarış davam etdirildi, həm də ətraf kəndlərdə yem və ərzağın toplanması davam etdirildi, suxarı gətirilməsi üçün Hamamlıya dəstə göndərildi. Hüseynqulu xana gəlincə isə məlumat alındı ki, o, Arazı adlayaraq cənuba çəkilmişdir. Bu xəbər təsdiqlənəndən sonra İ.Qudoviç İrəvan xanının qəfil hücumlarından arxayınlaşdığını güman etdi və dekabrın 7-də İrəvan qalasının mühasirəsinə başladı. Gecə saat 3-də ilkin olaraq polkovnik Simanoviçin dəstəsi hərəkətə başladı. İ.Qudoviçin təcrübəli, məharətli və yerli şəraitə yaxşı tanış olan bir zabit kimi xarakterizə etdiyi polkovnik Simanoviç qalanın arxasına adlayaraq Gürcüstan yolu istiqamətində mövqe tutmalı idi. Onun dəstəsinə Qafqaz qrenadyor alayından, Tiflis qrenadyor alayından, 9-cu yeger alayından və 15-ci yeger alayından taborlar daxil idi. Xerson alayının bir taboru isə mayor Buxvostovun rəhbərliyi altında İrəvan qalası ətrafındakı bağlarda mövqe tutmalı idi. Xerson alayı İrəvan bağlarının yaxınlığındakı yüksəkliklərin birinə yetişərək polkovnik Simanoviçin öz mövqelərini tutmasını gözləməyi qərara aldı. Polkovnik Simanoviçin dəstəsi müşahidə olunmadan mövqelərinə doğru hərəkət edə bilsə də, qala müdafiəçiləri

Xerson taborunu müşahidə edə bildi və bu tabor atəşə tutuldu. Xerson taborunun döyüşçüləri qala müdafiəçilərinin güclü atəşlərindən qorunmaq üçün sahəyə səpələnməli oldular. Onlar qala müdafiəçilərinin top atəşlərindən qorunmaq üçün lazımi məsafədə səngərləndilər. Düşərgədə bu taborun güclü atəş altına düşməsindən xəbər tutan kimi dərhal əlavə kömək göndərildi. Baş komandanın əmri əsasında 15-ci yeger alayından 60 nəfər yeger, gürcü atlıları və kazaklar döyüş xəttinə yollandılar. Yalnız əlavə köməyin gəlməsi ilə qala kənarında və xan bağlarında yerləşmiş olan müdafiəçilər geri çəkilmək məcburiyyətində qaldılar. Bundan sonra mayor Buxvostovun rəhbərliyi altında olan Xeson taboru onun üçün müəyyənləşdirilmiş mövqeləri tuta bildi. Qarşıdurma zamanı qala müdafiəçiləri ruslara xeyli itki yetirə bildi. Doğrudur, İ.Qudoviç xan döyüşçülərinin də itki verdiyini yazır. Amma konkret rəqəmlər göstərmir. Rusların itkisinə gəlincə isə 2 nəfər öldürülmüş və 130 nəfər də yaralanmışdı. Rusların bir sıra atları da sıradan çıxarılmışdı (197).

Qafqaz alayının taboruna göstəriş verildi ki, qala ətrafındakı bağları ələ keçirsin və sonra da bir topla birlikdə 100 nəfəri orada saxlasın. Taborun qalan döyüşçüləri isə yenidən düşərgəyə qayıtmalı idi. Mayor Borşovun rəhbərliyi altında olan Saratov taboru isə 40 nəfər yegeri Zəngi çayının sol sahilində saxlayaraq çay yuxarı hərəkət etmək və qala yaxınlığındakı Muxan yüksəkliyini tutmaq tapşırığı aldı. Bu dəstə adı çəkilən mövqedə yerləşəndən sonra oktyabrın 8-də səhər saat 8-dən başlayaraq İrəvan qalasını top atəşinə tutmalı idi. Mayor Borşovun ixtiyarında 2 ədəd top da var idi ki, onlar Arpaçay ətrafında Osmanlı qoşunları ilə döyüşdə qənimət kimi götürülmüşdülər.

Rus tarixçilərinin təsvirinə görə, qala müdafiəçiləri mayor Buxvostovun rəhbərlliyi altında olan dəstənin Müxənnət təpəsinə doğru irəliləməsini görəndə belə qənaətə gəldilər ki, rus qoşunları əsas zərbəni bu istiqamətdən vurmaq istəyirlər. Ona görə də Həsən xan buradakı rus qoşunları üstünə hücuma keçdi. Xan qoşunlarının qəfil və güclü zərbəsi rusların yüksəklikdən xeyli uzaqlaşması ilə nəticələndi. Elə ilk döyüşdə uğursuzluğa düçar olacağından qorxan general-feldmarşal Müxənət təpəsinə əlavə qoşun bölmələri göndərdi. Yeni gələn qüvvələrin səyləri də uzun müddət bir nəticə vermədi. Xan döyüşçülərinin igidliyi və hünəri qarşısında gücsüz olan rus qoşunları yenidən geri çəkilmək məcburiyyətində qaldılar. Onda Qudoviç döyüşə başqa bir taboru da cəlb etdi. Yalnız bu tabor döyüşə daxil edildikdən sonra Həsən xan qalaya çəkilməli oldu (198).

Polkovnik Simanoviçin rəhbərliyi altında olan dəstə səhərə yaxın Gürcüstan yolu istiqamətindən müəyyən edilmiş mövqelərə çıxdılar. Bu dəstənin İrəvan qalası ətrafına gəlməsi də xan döyüşçülərinin müqaviməti ilə qarşılaşdı. Xan döyüşçüləri həm qala üzərindən Simanoviçin dəstəsini atəşə tutdular, həm də qala kənarına çıxan tüfəngçilər onları təzyiq altına aldılar. Bununla belə, xan döyüşçüləri çoxsaylı rus dəstəsinin fəallaşması nəticəsində geri çəkilməli oldu (199).

İrəvan qalasının mühasirəsi oktyabr ayının 8-də gündüz başa çatdırıldı. Mühasirənin həyata keçirildiyi vaxt ətraf yüksəkliklərin üzərində silahlı atlılar göründü. Rus generallarının fikrincə, atlılar Hüseynqulu xanın dəstəsindən olan atlılar idi və onlar rus generallarının diqqətini özünə cəlb etməklə qala mühafizəçilərinin vəziyyətini yüngülləşdirmək istəyirdilər. Bu atlılar rus qoşunları ilə döyüşə girməsələr də onların mövcudluğu rusları təşvişə saldı. Həmin atlıların qala ətrafından uzaqlaşdırılması üçün podpolkovnik Podlutskinin rəhbərliyi altında çevik dəstə yaradıldı. Bu dəstəyə Narv draqun alayının eskadronu, 15-ci yeger alayının 200 nəfərlik dəstəsi və 200 kazak daxil edildi. Podpolkovnik Podlutski dəstəsi ilə Gərni çayına qədər xan atlılarını təqib etdi. Xan atlıları bu dəstə ilə atışmaya girməyərək geri çəkildilər. Xan atlılarının sonrakı hücumlarının qarşısının alınması üçün əlavə qüvvələr də ayrıldı və təhlükə gözlənilən istiqamətlərdə mövqelərə yerləşdirildi (200).

Oktyabr ayının 8-də general Qudoviç Vedi, Şadlı, Sədərək, Dəvəli və Uluxanlı ağalarına və əhalisinə müraciət etdi. Hüseynqulu xanın dəstəsinin bu məntəqələrin əhalisi tərəfindən müdafiə olunduğu çox güman ki, İ.Qudoviçi ciddi narahat edirdi və ona görə də bu məntəqələrin əhalisini o, Hüseynqulu xanı müdafiə etməməyə çağırırdı. Baş komandan çox böyük əminliklə bəyan edirdi ki, güclü və qalib rus qoşunları İrəvan qalası ətəklərinə gəlib və onu mütləq ələ keçirəcəkdir. İ.Qudoviç özünün digər bir sıra məktublarında da bu ifadəni xüsusi olaraq işlədirdi və onda şübhə yox idi ki, İrəvan qalasının müdafiəçiləri rus qoşunlarının hücumunun qarşısını saxlaya bilməyəcəklər. Sonra general İ.Qudoviç Vedi dərəsinin ağalarına və əhalisinə çatdırırdı ki, Həştərəkə yollanan Hüseynqulu xanın dəstəsi rus qoşunlarının ön dəstələri tərəfindən bir an içərisində məğlub edilərək Arazın cənubuna qovulmuşdur. Baş komandan İrəvan xanının Vedi dərəsindən uzaqlaşdırılmasını da rus qoşunlarının qəhrəmanlığı kimi vəsf edirdi və bu dərənin əhalisində ruslara qarşı rəğbət yaratmaq üçün rus qoşunlarının yerli əhaliyə toxunmayacağını yazırdı. Buna görə də o özünü Hüseynqulu xandan mərhəmətli hesab edirdi. İ.Qudoviç Vedi əhalisinin öz evlərini tərk edib

Arazın cənubuna köçməsini də Hüseynqulu xanın yerli əhaliyə qarşı zülmkarlığı kimi qiymətləndirirdi. İ.Qudoviç sonra yazırdı ki, onun çoxlu qoşunu var, bu qoşunlar bütün İranı baş-ayaq edə bilər. Amma humanist olduğu üçün bunu etmir, İrəvan əhalisinə əziyyət vermək istəmir. İrəvan qalası üzərinə hücuma keçməməsini də İ.Qudoviç öz humanizmi ilə, şəhəri dağıtmaq istəməməsi, günahsızların qanının axıdılmasına razı olmaması ilə əlaqələndirirdi. Müraciətinin sonunda İ.Qudoviç rus generallarının gəlişindən qorxub ev-eşiklərini tərk edən əhalini geri qayıtmağa səsləyirdi (201).

Oktyabrın 9-da polkovnik Simaneviçin rəhbərliyi altında olan dəstə Gürcüstan yolu üzərində olan İrəvan şəhərini (bayır şəhəri) tutub qalanın şimalında öz mövqeyini qurdu. Qala müdafiəçiləri bu dəstəni atəşə tutsa da ruslar şəhər karvansarasını, məscidi, şəhər bağını və digər obyektləri nəzarət altına aldı. Qala müdafiəçilərinin mümkün müqaviməti dəstənin 2 hərbçisinin yaralanması ilə nəticələndi. Bununla da İrəvan qalasının tam mühasirəsi başa çatdırıldı. Qalanın cənub-qərbində Borşovun dəstəsi, cənub-şərqində Buxvostovun dəstəsi, şimalında Simaneviçin dəstəsi, cənubda isə İ.Qudoviçin özünün də tərkibində olduğu əsas qüvvələr dayanırdı (202).


İrəvan qalasının mühasirəsinin başa çatdırılmasını general İ.Qudoviç bu qalanın ələ keçirilməsinin ilkin şərti kimi qəbul edirdi və öz yazışmalarında da bu məqama toxunmaqla İrəvan qalasını və onun müdafiəçilərini tezliklə diz çökdürəcəyinə ümid edirdi. Qalanın mühasirəsini tamamlamaq üçün oktyabrın 11-də Teymurbulaqdan qalaya gələn su xətti də kəsildi (203). İçməli su xəttinin kəsilməsi qala sakinlərinin vəziyyətini sözsüz ki, çətinləşdirdi. Bununla belə, İrəvan qalası rus qoşunları qarşısında duruş gətirdi. Qala daxilindəki vəziyyət rus qoşunlarının baş komandanı tərəfindən də diqqətlə izlənilirdi. İ.Qudoviç çarəsiz qalmış qala əhalisinin təslim olacağı günlərin yaxınlaşmaqda oldu ğunu güman edirdi. Ona görə qalanın top atəşlərinə tutulmasını da lazım bilmirdi.


İrəvan qalası ətrafında yaranan mürəkkəb vəziyyət xanlıq ərazisindəki məntəqələrin əhalisi tərəfindən də izlənilirdi. Bu məntəqələrin əhalisi rus qoşunları qarşısında tamamilə müdafiəsiz qalmışdı. Görünür elə bunun üçün idi ki, bir sıra məntəqələrin, o cümlədən Vedi dərəsinin sultanı Aslan sultan da ruslara itaət göstərmək məcburiyyətində qaldı. Şəki xanı Cəfərqulu xan isə Rusiyaya sədaqətinin nümayişi kimi İ.Qudoviçin köməyinə öz dəstəsini göndərdi. Doğrudur, onun dəstəsi elə də böyük deyildi və cəmi 30 atlıdan ibarət idi. Amma rus hakimlərinin

idarəçiliyi altında olan Qazax və Şəmşəddil mahallarından göndərilən dəstələrin tərkibi isə daha böyük idi (204).

İrəvan qalasının mühasirəsi başa çatdıqdan sonra general İ.Qudoviç qaladan kənarda olan Hüseynqulu xanın dəstəsinə qarşı bir daha qəti tədbirlər həyata keçirməyə qərar verdi. Bununla bağlı, o oktyabrın 14-də Hüseynqulu xanın hücumlarının qarşısını almaq üçün Gərni çayı ətrafında mövqe tutmuş podpolkovnik Podlutskinin dəstəsinə tapşırıq verdi ki, xan dəstəsini tapıb ona zərbə vursun və bu dəstənin Arazdan cənuba uzaqlaşmasına nail olsun. Podpolkovnik Podlutskinin dəstəsinə elə həmin gün Araz istiqamətinə göndərilmiş olan general-mayor Or belianinin dəstəsi də kömək göstərməli idi. General Orbelianinin əsas vəzifəsi isə Araz çayının cənubuna keçərək ora köçmüş olan İrəvan əhalisini geri qaytarmaq idi. Yürüşü zamanı Hüseynqulu xanın qüvvələri ilə rastlaşacağı təqdirdə general Orbeliani bu qüvvələrə zərbə vurmağa çalışmalı idi. Rus mənbələrinin verdiyi məlumata görə, podpolkovnik Podlutski İrəvan xanının dəstəsi ilə qarşılaşması olub və tərəflər arasında döyüş baş verib. Rus mənbələri bu döyüşün də rus qoşun dəstəsinin qələbəsi ilə başa çatdığını bildirirlər. Qeyd olunur ki, döyüşün nəticəsi kimi, Hüseynqulu xan Arazın cənubuna çəkilməli oldu, onun silahlılarından onlarla adam öldürüldü və 7 nəfər də əsir götürüldü (205).

Oktyabrın 15-də qala ətrafında rusların top mövqelərinin tikintisinə başlandı. Nəzərdə tutulmuşdu ki, dörd mövqe düzəldilsin və həmin mövqelərdə qurulan toplar müxtəlif istiqamətlərdə atəş aparsınlar. Qala ətrafındakı məscid yaxınlığında qurulan top mövqeyi qala müdafiəçilərinin ciddi atəşlərinə məruz qaldı. Eyni zamanda qaladan 500 nəfərlik bir dəstə başqa bir top mövqeyinin üzərinə hücum etdi. Amma qala müdafiəçilərinin bu qəfil hücumu rus toplarının atəşi ilə dayandırıldı və bu top atəşlərinin qarşısında qala müdafiəçiləri geri çəkilmək məcburiyyətində qaldılar. Oktyabrın 16-da qala müdafiəçilərinin rusların top mövqeləri üzərinə hücumu davam etdirildi və bu hücum zamanı rus silahlılarından 4 nəfər öldürüldü (206).


ПЛАНЪ ОСАДЫ И ШТУРМА
КРѢПОСТИ ЭРИВАНСКОЙ ВЪ 1808 ГОДУ.
ЭРИВАНЬ



Oktyabr ayının 17-də Vedi sultanı Aslan sultan general İ.Qudoviçin yanına gələrək itaətini bildirdi. Vedi dərəsi Hüseynqulu xanın qərar tuta biləcəyi bir məkan hesab edilirdi. Bu dərənin Rusiyaya itaət nümayiş etdirməsi Hüseynqulu xanın qaladankənar fəaliyyətini də müəyyən qədər məhdudlaşdıra bilərdi. General İ.Qudoviç bu xəbəri məmnunluqla qarşıladı. Elə həmin gün o, İrəvan qalasındakı qarnizonun və İrəvan qalasının müdafiəsinin rəhbəri olan Həsən xana məktub göndərdi. İ.Qudoviç güman edirdi ki, sərdar Hüseynqulu xanla bütün əlaqələri kəsilmiş Həsən xan nəhayət ki, müqavimət göstərməyin mənasız olduğunu qəbul edəcək və qalanı ruslara təslim edəcəkdir. Baş komandanın məktubu kifayət qədər geniş bir məktub idi. Ümumiyyətlə, qalanın mühasirəsi zamanı İ.Qudoviçlə Həsən xan arasında bir neçə məktub mübadiləsi olmuşdu. Bu yazışmalar qarşı-qarşıya gəlmiş iki təcrübəli sərkərdənin həm də iradə və mənəvi keyfiyyətlərinin nümayişi idi. General İ.Qudoviç öz adına-sanına, xidmət təcrübəsinə, rütbəsinə və qoşunlarının sayına arxalanaraq ötkəmlik göstərməyə çalışsa da, elə rus tarixçilərinin yazdığı kimi, onun ulduzu artıq sönməkdə idi. Həsən xan isə yurdunu, yuvasını, Vətənini qoruyan bir şəxs kimi sərkərdəliyinin zirvəsini yaşayırdı. Şərəfli xidmət yoluna malik olmaqla bərabər, Həsən xan igidlik və qorxmazlıq təcəssümü idi. İştirak etdiyi döyüşlərdə göstərdiyi şücaətə görə, Həsən xana "Sarı aslan" ləqəbi verilmişdi. General-feldmarşal İ.Qudoviçlə olan qarşıdurması da göstərdi ki, Həsən xana bu ləqəb təsadüfi verilməmişdi.

Hədə-qorxu ilə dolu olan məktubunda general İ.Qudoviç rus qoşunlarının gücünü özünəməxsus ifadələrlə şişirdərək bildirirdi ki, hələ İrəvan qalasına yaxınlaşanda, bayır şəhəri tutmazdan və qalanı mühasirə etməzdən əvvəl İrəvan qalasının təslim edilməsini istədi. Bunun əvəzində İ.Qudoviç İrəvan əhalisinə və onun qarnizonuna sağ-salamat şəkildə qalanı tərk etmək şansının yaradıldığını bildirdi. Onun yazdığına görə, İrəvan qalasının müdafiəçiləri isə təyin olan vaxtda qalanı ruslara təhvil vermədilər və hətta təyin edilən vaxtdan xeyli sonra da qalanın təslim edilməməsi İ.Qudoviçin qəzəbinə səbəb olmuşdu. O bu qəzəbini məktubunda Həsən xana da çatdırdı. Qalanın təslim edilməsi üçün razılıq olmadığına görə İ.Qudoviç qalanın silah gücünə ələ keçirilməsi istiqamətində lazımi hazırlıq işlərinin görüldüyünü bəyan edirdi. Bunları yazdıqdan sonra İ.Qudoviç bir daha Həsən xanı qalanı təslim etməyə çağırdı. O həlledici hücumdan əvvəl yenidən dinc yolla məsələni həll etməyə çalışmasını özünün mərhəmət və humanizmi kimi təqdim etdi. Sonra general Qudoviç məktubunda Həsən xanı vəziyyətinin çıxılmazlığına inandırmağa çalışdı. O bildirirdi ki, çoxsaylı qoşunla İrəvan

qalasının ətəklərinə gəlib və bu qoşunların çoxlu sayda topu vardır, sərdar Hüseynqulu xanın dəstəsinə ağır zərbə vuraraq onu Arazın cənubuna çəkilməyə məcbur edib, xanın dəftərxanasını ələ keçirib və çoxlu sayda döyüşçüsünü öldürüb, çoxlu sayda mal-qarasına və atlarına sahib olub. Həsən xanın nəzərinə belə bir məqam da çatdırıldı ki, Qacar dövləti daxilində vəziyyət yaxşı olmadığı üçün kənardan kömək gəlməsi ümidi də yoxdur. Qraf Qudoviç başqa bir qoşun dəstəsinin Şəki və Qarabağ xanlığının atlıları ilə birlikdə Naxçıvan xanlığını işğal etdiyini və buna görə də ətraf məntəqələrin də Rusiyaya itaət göstərdiyini yazırdı. Bununla o, bildirmək istəyirdi ki, Həsən xanın hətta kənardan ərzaq və yem ehtiyatı əldə etmək imkanı da yoxdur. Yaranmış vəziyyətin mürəkkəbliyini təsvir edəndən sonra İ.Qudoviç Həsən xanın qarşısında belə bir sual qoyurdu: "Beləliklə, belə bir şəraitdə İrəvan qalasına nə etmək qalır? Mənim böyük və sonsuz mərhəmətli imperatorumun qalib qoşunlarının güclü silahı qarşısında o dayana biləcəkmi? Mən bunu Sizin mühakimənizə verirəm" (207).

General Qudoviç qalanın könüllü şəkildə təslim edilməyəcəyi halda qətiyyətli tədbirlər həyata keçiriləcəyini bəyan etməklə Həsən xanı bir daha bu addımı atmağa çağırdı. Qalanın təslim ediləcəyi halda İ.Qudoviç bir sıra şərtlərə əməl olunacağını da vəd etdi. Yəni, qala könüllü şəkildə təslim edilərdisə onun qarnizonu təhlükəsiz şəkildə qalanı tərk edə və hətta Arazdan cənuba keçə bilərdi. Bir şərtlə ki, əgər qala qarnizonu Qacar dövlətinin ərazisinə keçmək istəsəydi, gərək bu zaman yol üstündə olan yaşayış məntəqələrinə ziyan yetirməyəydi və Arazın cənubundan qayıdan əhaliyə toxunmayaydı. Buna əminlik hasil etmək üçün qarnizon nümayəndələri rusların yanında girov saxlamalı idilər. Həsən xanın özünə isə daha səxavətli vədlər verilirdi. Həsən xan da istəsəydi Qacarlarla birləşə bilərdi, qalmalı olsaydı ona İrəvan xanı vəzifəsi vəd edilirdi. İ.Qudoviç bildirirdi ki, qalanın təslim edilməsindən sonra İrəvan qalası istisna olmaqla bütün xanlıq Həsən xanın idarəçiliyi altına veriləcəkdir. İrəvan qalası isə Rusiyanın nəzarəti altında qalmalı idi.

Əks təqdirdə qala qarnizonunu və Həsən xanı qırğınlar gözləyirdi. İ.Qudoviçin yazdığına görə qala üzərinə hücum başlanarsa qırılan insanların günahı Həsən xanın boynunda qalacaqdır. Çünki məhz onun inadkarlığı İrəvan qalasının könüllü təslim edilməsinə mane olacaq və bu, insan qanının tökülməsinə gətirib çıxaracaqdır (208).



Gürcüstan arxivlərindən götürülmüş bu rəsmin Həsən xana aid olduğu güman edilir

General Qudoviç məktubunda Həsən xana Naxçıvanın işğal edilməsinə işarə edirdi. Naxçıvanın işğal edilməsi İrəvan kampaniyasının tərkib hissəsi idi. Bu xanlığın işğal edilməsi ilə həm Rusiya sərhədləri Araz çayına qədər genişlənə bilərdi, həm də Qacar qoşunlarının İrəvan qalasına kömək yolunu bağlamaq olardı. Amma İ.Qudoviç Həsən xana məktub yazdığı vaxt Naxçıvan işğal edilməmişdi. Rus qoşunları baş

komandanı bu barədə Həsən xana yalan məlumat göndərirdi. Heç şübhəsiz ki, İ.Qudoviç bu yolla Həsən xanın iradəsini qırmaq istəyirdi. Mühasirədə olan Həsən xanın isə bu məlumatın doğruluğunu yoxlamaq imkanı yox idi.

Naxçıvan xanlığının işğalı üçün əslində hazırlıq aparılırdı. Oktyabr ayının 18-də general Nebolsinə göndərdiyi məktubunda
general Qudoviç ondan tələb edirdi ki, dayanmadan Naxçıvana doğru hərəkət etsin (209).

Farsdilli mənbələrə əsasən, Abbas Mirzə Naxçıvanda rus qüvvələri ilə döyüşə girməyi qərara aldı. Amma eşidəndə ki, Qudoviçin əsas qüvvələri İrəvan qalasını mühasirəyə alıb, onda İrəvan xanının köməyinə dəstə göndərməyi lazım bildi. Bununla bağlı o, İsmayıl xan Qacara dəstəsi ilə İrəvana tərəf irəliləmək əmri verdi. İsmayıl xan İrəvan qalasına yetişəndə bu qalanın rus qoşunları tərəfindən mühasirə edildiyini gördü. Belə olanda o, dəstəsi ilə qala yaxınlığında mövqe tutdu. Amma Abbas Mirzə yalnız bu dəstənin göndərilməsi ilə kifayətlənmədi. Çünki anlayırdı ki, İrəvan qalasını müdafiə etmək üçün xana daha böyük kömək lazımdır. Ona görə Abbas Mirzə Fərəculla xanla Əmənulla xanı da dəstələri ilə birlikdə İrəvan qalasının köməyinə göndərdi. Onlar da rusların mühasirəsində olan İrəvan qalasına daxil ola bilmədilər və qala xaricində olan sərdar Hüseynqulu xanın dəstəsi ilə birləşdilər (210).

Fərəculla xanın və onun oğlu Əmənulla xanın qoşun dəstəsinin sərdar Hüseynqulu xanın dəstəsi ilə birləşməsi haqqında məlumat oktyabr ayının 20-də daxil olmuşdu. Rus mənbələrində Əmənulla xanın dəstəsində 2 min nəfərin olduğu, Əmənulla xanın Fərəculla xanla birgə dəstəsində isə 3500 nəfərin olduğu göstərilir. Araz ətrafında olan general-mayor Orbeliani ilə podpolkovnik Podlutskiyə tapşırıq verildi ki, sərdar Hüseynqulu xanla Fərəculla və Əmənulla xanların dəstələri Arazın şimalında görünərsə ona zərbə vurulsun. Rus mənbələrində olan məlumatlardan belə bir qənaətə gəlmək olar ki, 1808-ci ilin oktyabr ayının 20-si ərəfəsində sərdar Hüseynqulu xanın dəstəsi ilə Qacar dəstəsi doğrudan da Arazın şimalına adlayıbmış. Bildirilir ki, Hüseynqulu xanın dəstəsinin İrəvan qalasına yaxınlaşmasının qarşısının alınması üçün general-mayor Portnyaginin rəhbərliyi altında olan bir dəstə də Gərni çayı istiqamətinə göndərildi. Ruslar bundan əlavə yerli ağaların silahlı dəstələrindən də Hüseynqulu xana qarşı istifadə etmək istəyirdi. Amma oktyabr ayının 22-də Hüseynqulu xan və Fərəculla xan dəstələri ilə yenidən Arazın cənubuna çəkilməli oldular. Görünür sərdar Hüseynqulu xan İrəvan qalasına aparan yollar üzərində möhkəmləndirilmiş rus qüvvələrinin

müqavimətinin qırılmasının heç də asan olmayacağını görüb geri dönməli oldu (211).

Elə həmin günlərdə, yəni oktyabrın 22-də general Qudoviçə Qacar şahzadəsinin vəziri Mirzə Bozorgun və İrəvan xanı Hüseynqulu xanın məktubları çatdırıldı. Rus mənbələri bu məktubların məzmununu açıqlamır. Ancaq general Qudoviçin yazışmalarından aydın olur ki, Hüseynqulu xan ilk növbədə İrəvan qalasının mühasirəsinə son qoyulmasını və rus qoşunlarının geri çəkilməsini tələb edirdi. General İ.Qudoviç bununla razı deyildi və heç şübhəsiz ki, oktyabrın 23-də göndərdiyi cavab məktublarının məzmunu da bunu təsdiqləyirdi.

İrəvan qalasına kənardan gələn köməklərin qarşısının kəsilməsi istiqamətində Qudoviç Naxçıvanın işğalına xüsusi əhəmiyyət verirdi. Yuxarıda qeyd edildiyi kimi, həmin vəzifəni Qarabağdan hərəkət edən general-mayor Nebolsinin dəstəsi yerinə yetirməli idi. Oktyabr ayının axırlarında general Nebolsinin dəstəsi Naxçıvana yaxınlaşdı və Naxçıvandan 19 verst məsafədə olan Qarababa kəndi yaxınlığında düşərgə saldı. Farsdilli mənbələrə görə, general Nebolsinin dəstəsi yüksəkliyin üstündə səngərləndi ki, buraya hücum etmək xeyli çətin idi. Rus dəstəsinin Naxçıvana yaxınlaşmasından Abbas Mirzə də xəbər tutdu və bu dəstə ilə döyüşə girməyi qərara aldı. Buna görə də o, Çors yaxınlığındakı düşərgəsini tərk edib Naxçıvanın yarım fərsəngliyində düşərgə saldı (212).

Abbas Mirzənin ilkin qənaətinə görə, Nebolsinin dəstəsi çox əlverişli mövqelərə sahib idi və rusları bu mövqedən çıxarmaq elə də asan olmayacaqdı. Bununla belə, Abbas Mirzə döyüşsüz geri çəkilməyi məqsədəuyğun saymadı. Onun köməyinə gəlmiş sərdar Hüseyn xanın dəstəsini, habelə öz tabeliyində olan dəstələri döyüşqabağı yenidən qruplaşdırdı. Sağ cinahda sərdar Hüseyn xanın, Əmənulla xan Əfşarın, Məhəmməd xan Zənginənin, Məhəmməd bəy Qacarın dəstələri yerləşdirildi. Əli xan Qacarın, Hatəm xan Dünbəlinin və Nəbi xan Gəzzazinin dəstələi isə sol cinahda mövqe tutdular (213).

Rus tarixçilərinin məlumatına görə, bütünlükdə Abbas Mirzənin dəstəsi 3 min piyada, 12 min süvari, 12 ədəd top və 60 ədəd zənburəkdən ibarət idi. Nebolsinin dəstəsində isə 78 nəfər zabitin, 3052 nəfər aşağı rütbəli hərbçinin və 9 ədəd topun olduğu göstərilir (214).

Təfərrüatını söyləmək çətin olsa da tərəflər arasında gərgin keçən bir döyüş baş verdi. Rusların əlverişli mövqelərdə olmasına baxmayaraq Abbas Mirzənin dəstəsi qətiyyətli hücuma keçdi. Nəticədə, Abbas Mirzənin dəstəsi ruslara xeyli itki yetirəndən sonra əlverişli mövqelərə çıxdılar. Amma bu dəstə ilkin uğurlarını sonradan davam etdirə bilmədi.

Polkovnik Lisaneviçin və polkovnik Kotlyarevskinin rəhbərlik etdiyi dəstələr tədricən də olsa təşəbbüsü ələ aldılar və Abbas Mirzənin dəstəsini geri çəkilməyə məcbur etdilər. Rus mənbələrinə görə döyüşün gedişində rus qüvvələri 37 nəfər itki verdi, 6 nəfər itkin düşdü və 72 nəfər isə yaralandı. Şah qüvvələrinin geri çəkildiyini görən general Nebolsin onları təqib etməyi qərara aldı. Ağır döyüşdən sonra Abbas Mirzə öz dəstəsini yenidən qruplaşdırmağa və yeni bir döyüşə səfərbər etməyə müvəffəq olmayaraq geri çəkildi. Bundan sonra oktyabr ayının 31-də general Nebolsinin dəstəsi yeni bir müqavimətə rast gəlmədən Naxçıvana daxil oldu (215).

Farsdilli mənbələrə görə, general Nebolsinə əlavə kömək gəlməsi döyüşün taleyini həll etdi və Abbas Mirzə geri çəkilmək məcburiyyətində qaldı. Bu mənbələrə görə, hər iki tərəfdən 1000 nəfərə yaxın adam öldürüldü və geri çəkilmək əsnasında Abbas Mirzənin dəstəsi döyüş meydanında 3 ədəd top qoyub getdi (216).

Naxçıvanın işğal edilməsi qraf Qudoviçi çox sevindirdi. O şübhə etmirdi ki, çox tezliklə İrəvan qalası da işğal ediləcək və Rusiya imperiyasının cənub sərhədi Araz çayına qədər genişləndiriləcəkdir. Rus qoşunları baş komandanı general Nebolsinə tapşırdı ki, təkcə Naxçıvan şəhərini deyil, bütün Naxçıvan xanlığının Rusiyanın nəzarəti altına keçməsini xanlıq əhalisinə elan etsin. O, Naxçıvan ətrafındakı döyüşlərdə göstərdiyi köməkliyə görə Naxçıvan xanının oğlu Şeyxəli xanın fəaliyyətini təqdir etdi və Həsən xana da Şeyxəli xandan ibrət götürməyi, Şeyxəli xan kimi Rusiyaya sədaqət nümayiş etdirməyi təklif etdi (217).

Naxçıvan xanlığının işğal edilməsi rus komandanlığı üçün xüsusi əhəmiyyət kəsb edirdi. Bu xanlığın işğal edilməsi ilə 1808-ci ilin oktyabr ayının son günlərində və noyabrın əvvəlində Rusiya qoşunlarının Qacar sarayına qəbul etdirmək istədiyi sərhəd xətti artıq əldə edilmişdi. Naxçıvan xanlığı ilə bərabər İrəvan xanlığının İranla və Osmanlı dövləti ilə olan sərhəd xətti əslində Rusiyanın yeni sərhəd xəttini təşkil edirdi. Yalnız İrəvan qalası istisna təşkil edirdi. Həsən xana göndərdiyi ilk məktublarından sonra general Qudoviç İrəvan qalası ətrafında xüsusi hərbi fəallıq nümayiş etdirmədi. O, əsas diqqəti Naxçıvan xanlığının işğalına və Hüseynqulu xanın qüvvələrinin İrəvan xanlığına daxil olmasının qarşısını almağa yönəltdi. General Qudoviç bunlara nail oldu. Onun fikrincə, bu vəzifələrin həlli öz özlüyündə hər tərəfdən mühasirədə olan və köməksiz qalan İrəvan qalasının süqutuna gətirib çıxaracaqdı. Hətta Qacar şahzadəsi və onun ətrafındakılar, o cümlədən Hüseynqulu xan da yaranmış vəziyyətin son dərəcə mürəkkəbliyini anlayırdılar. Onların Həsən xana kömək göndərmək cəhdi isə heç bir nəticə vermədi.

İrəvan qalasının süqut edəcəyi İrəvan qalasının ətrafında gedən proseslərin bütün iştirakçılarına artıq təbii görünsə də, Həsən xan rus generallarının da inana bilməyəcəyi bir iradə nümayiş etdirdi, qalanın müdafiəsini və müqavimətini təşkil etməyi bacardı. Bütün mühasirə və təchizat çətinliklərinə baxmayaraq o, İrəvan qalası ətrafında hərbi təşəbbüsün rus qoşunlarının əlinə keçməsinə imkan vermədi.

Həsən xan İrəvan qalasının müdafiəsi üçün kifayət qədər fəal bir taktika seçmişdi. O, qalanın möhkəmləndirilməsinə çalışdığı kimi, qala ətrafındakı rus postlarının üzərinə də vaxtaşırı hücumlar təşkil edir və rus hərbçilərinə itkilər yetirirdi. Rus mənbələrində olan məlumata görə, oktyabr ayının 22-də qala müdafiəçiləri birinci və ikinci top mövqelərinin üzərinə hücum təşkil etdilər və bu hücum zamanı rus hərbçilərindən ölən və yaralanan oldu. Oktyabrın 24-25-də yenidən qala müdafiəçilərinin fəallığı müşahidə olundu, oktyabrın 28-də rus mövqeləri bir daha atəşə tutuldu. Oktyabr ayının sonrakı günlərində də qala müdafiəçiləri rus qoşunlarına qarşı fəallıq nümayiş etdirdilər. Noyabr ayının 2-də gecə qala müdafiəçilərinin rusları atəşə tutması xüsusilə gücləndi. Qala divarları üzərində qurulmuş toplardan xüsusilə Tiflis alayının taborunun dayandığı mövqe ciddi atəşə məruz qaldı. Bununla kifayətlənməyən qala müdafiəçiləri qaladan bayıra çıxaraq rus qoşunları ilə üzbəüz mövqelər tutmağa cəhd göstərdilər. Amma ruslar da öz toplarını işə salaraq onları qalaya dönməyə məcbur etdilər. Noyabrın 3-4-də qala müdafiəçilərinin ruslar üzərinə təzyiqi daha da genişləndi, qala ətrafındakı rus mövqeləri atəşə tutuldu. Qala müdafiəçilərinin fəallığı elə bir dərəcəyə çatdı ki, mühasirə qurulandan sonra rus qoşunları ilk dəfə ciddi itkilərlə qarşılaşmalı oldular – 4 ölü və 15-ə qədər yaralı (218).

Bununla belə, general Qudoviç İrəvan qalasını dinc yolla almaq ümidini də kəsməmişdi. Mövcud faktlardan aydın olur ki, 1808-ci ilin oktyabrında İ.Qudoviç İrəvan qarnizonunun rəhbəri Həsən xana daha bir məktub göndərmiş və eyni zamanda Həsən xandan bir məktub almışdı (219).

General İ.Qudoviçin Qacar sarayı, Qacar sarayındakı Fransa nümayəndəsi general Qardanla da yazışmaları davam edirdi. Şah sarayı rus qoşunlarının geri çəkiləcəyinə müəyyən ümid bağladığı kimi, general Qardan da rusların İrəvan xanlığından geri çəkilməsinin hələlik Fransa-İran maraqları çərçivəsində olduğunu güman edirdi. Oktyabr ayının sonlarında həm general Qardan, həm də şah sarayının əyanları bir daha məktubla general İ.Qudoviçlə təmas qurmağı lazım bildilər.

1808-ci il noyabr ayının əvvəlində Fransanın Qacar sarayındakı səfirliyinin nümayəndəsi olan Lejar Abbas Mirzənin düşərgəsinə gəldi.

Yuxarıda qeyd edildiyi kimi, o, Tehrandan özü ilə general Qardanın və şah sarayının vəziri Mirzə Şəfinin qraf Qudoviçə ünvanlanmış məktubunu gətirmişdi. Cəbhə xəttini adlamaq məsələsi tənzimlənəndən sonra Lejar gətirdiyi məktubu Qudoviçə yetirməli, onunla müzakirələr aparmalı və sonra da aldığı cavab məktubunu geri gətirməli idi. Lejar Abbas Mirzənin düşərgəsində Abbas Mirzənin özü ilə və onun vəziri Mirzə Bozorgla da görüşüb fikir mübadiləsi apardı. Adları çəkilən şəxslər də Qudoviçə məktub yazdılar və çatdırılması üçün onları Lejara təhvil verdilər. Bundan başqa, Lejar sərdar Hüseyn xanla da görüşdü və Hüseyn xan da Qudoviçə məktub yazdı. Bu şəxslərin hamısı Qudoviçə təcavüzün dayandırılmasını, Rusiya qoşunlarının geri çəkilməsini təklif etdilər.

Şah sarayının vəziri Mirzə Şəfi məktubunu Kərim bəy adlı birisi, Abbas Mirzənin və Mirzə Bozorgun məktublarını isə Səfər bəy adlı birisi gətirdi. Çox güman ki, Hüseynqulu xanın məktubu da bu bəylər tərəfindən İ.Qudiviçə təqdim olundu. Məktubları gətirən heyət noyabr ayının 7-də Araz çayını adladı və noyabr ayının 8-də məktub İ.Qudoviçə təqdim olundu. General İ.Qudoviçin fikrincə, İrəvan qalasının mühasirəyə alınması Qacar sarayını böyük qorxu içərisinə salmışdı və İrəvan qalasına hər hansı köməyin çatdırılmasının mümkün olmadığı üçün isə rus düşərgəsinə heyət göndərilmişdi.

Sərdar Hüseyn xan Qudoviçə göndərdiyi məktubunda yazırdı ki, hazırda Dəvəlidə düşərgə salıb və onun sərəncamına yeni qüvvələr gəlib. Bununla belə, Hüseyn xan onu da əlavə edirdi ki, sülh danışıqlarının aparılması üçün döyüşləri üç günlüyə dayandırmışdır. Qudoviç sonradan sərdar Hüseyn xana istehza dolu bir cavab yazdı. Qudoviç özünü elə göstərməyə çalışdı ki, guya sərdar Hüseyn xanın sərəncamına yeni qüvvələr gəlməsinin, sülh danışıqlarının aparılması üçün döyüşlərin üç günlüyə dayandırılmasının onun üçün heç bir əhəmiyyəti yoxdur. Yəni, feldmarşal Qudoviç sərdar Hüseyn xanın yazdıqlarına qeyri-ciddi yanaşdı. İrəvan qalasının təslim edilməsi üçün az qala hər gün Həsən xana yalvarış dolu məktublar göndərən Qudoviç sərdar Hüseyn xana yazırdı ki, İrəvan xanlığının taleyini onunla deyil, Qacarlar hakimiyyətinin vəliəhdi ilə həll edəcəkdir (221).

Başqa sözlə, Qudoviç sərdar Hüseyn xanı danışıqlar aparılması üçün tərəf kimi qəbul etmirdi. Amma onun qardaşına, sərdar Hüseyn xanın qoşunlarının baş komandanı Həsən xana məktub yazıb İrəvan qalasını təhvil verməyə və bunun üçün şah sarayından qorxmamğa çağırırdı. Həmin məktubda Qudoviç dolayısı ilə olsa da etiraf edirdi ki, İrəvan qalasının taleyini xanlıq qoşunları ilə həll edə bilər. İrəvan qalasını xan

qoşunları qoruyurdu və Qudoviçi də məhz xan qoşunları fiziki və mənəvi cəhətdən məhv olmaq dərəcəsinə çatdırdılar. Şah sarayı ilə razılaşmalar isə İrəvan qalasına olan şah iddialarını aradan qaldıra bilərdi ki, bu da Qudoviç tərəfindən qalanın ələ keçirilməsinə daha əlverişli şərait yarada bilərdi.

General Qardana gəldikdə isə o da öz məktubunda Rusiya qoşunlarının İrəvan qalasını mühasirəyə almasına etiraz edirdi. Fransalı general Qacar sarayının təzyiqləri altında rus qoşunlarının Cənubi Qafqazdakı işğalçılıq siyasətini məhdudlaşdırmağa çalışırdı. General İ.Qudoviç fransalı generalın təkliflərini qəbul etmədi və onun nümayəndəsinə çatdırdı ki, son iki il ərzində Rusiya tərəfi sərhəd xəttinin müəyyənləşdirilməsinə çalışırdı. İndi həmin sərhədlər artıq rus silahlarının gücünə əldə edilmişdir və bu sərhəd xəttindən geri çəkilmək meyli yoxdur. Sonra İ.Qudoviç Fransa ilə Rusiya arasında yaranmaqda olan yeni münasibətlərə toxunaraq fransalıların artıq Rusiyaya kömək etməli olduqlarına işarə edirdi. Nəhayət, rus qoşunları baş komandanı onu da bəyan etdi ki, o, Rusiya imperatorunun göstərişi əsasında fəaliyyət göstərir və ona görə də general Qardanın tələbləri qəbul olunmazdır. General İ.Qudoviç Rusiyanın Qafqazla bağlı siyasəti, İrəvan qalasının ətrafındakı vəziyyət haqqında general Qardanın nümayəndəsi Lejara ətraflı məlumat verdi. İ.Qudoviçlə görüşdən və aparılan danışıqlardan sonra general Qardanın nümayəndəsi Rusiyanın işğalçılıq siyasətini dəstəkləmək qənaətinə gəldi. Bunun nəticəsi kimi, Lejar İrəvan qarnizonunun rəhbəri Həsən xana məktub yazdı və onu qalanı təslim etməyə çağırdı. General İ.Qudoviç də həmin məktubu öz məktubu ilə birlikdə Həsən xana göndərdi (222).

Farsdilli mənbələrin məlumatına görə, Lejar qraf Qudoviçlə görüşündə rus qoşunlarının İrəvan xanlığı üzərinə hücumu ilə bağlı etirazını bildirdi. Lakin aparılan danışıqlar zamanı Lejar Avropada yaranmış tarixi şərait haqqında geniş məlumat aldı. Qraf Qudoviç Tilzit müqaviləsi, Fransa ilə Rusiya arasında yaranan münasibətlər haqqında ona məlumat verdi. Lejar bu məlumatlardan sonra belə bir qənaətə gəldi ki, beynəlxalq münasibətlər, o cümlədən Fransanın mövqeyi şah sarayının xeyrinə olmadan dəyişməkdədir və vəziyyət belə davam edərsə qısa zamandan sonra Qacar sarayı beynəlxalq aləmdə təklənəcəkdir. Ona görə, Lejar qraf Qudoviçlə söhbətinin ahəngini dəyişdi və ona təkidli etiraz etməkdən çəkindi (223).

General İ.Qudoviç həm Abbas Mirzəyə, həm də onun vəziri Mirzə Bozorga məktub yazdı və noyabr ayının 14-də həmin məktubları Qacar nümayəndələri ilə ünvanlarına göndərdi. General Qardanın nümayəndəsi

Lejar isə müalicə olunmaq üçün rus düşərgəsində qaldı. Abbas Mirzə və onun vəzirinə yazdığı məktubunda general İ.Qudoviç Qacar dövləti ilə münasibətlərin normaya salınmasının məhz Qacar sarayından asılı olduğunu qeyd etdi. Rus qoşunları baş komandanı sonra yazırdı ki, münasibətlərin düzəldilməsi Rusiya ilə İran arasındakı sərhəd xəttinin Kür və Araz çaylarından keçməsi ilə bağlıdır. Onun sözlərinə görə, bu məsələ əslində öz həllini tapmışdır və Araz çayına qədər olan ərazilər demək olar ki, artıq Rusiyanın əlinə keçmişdir (224). Bununla, İ.Qudoviç birmənalı şəkildə bildirdi ki, İrəvan qalasını işğal etməkdən əl çəkməyəcəkdir.

Qacar əyanlarına göndərilən məktubun ardınca, yəni noyabr ayının 12-də general İ.Qudoviç İrəvan qalasının qarnizon rəisi Həsən xana, İrəvan qalasının və xanlığının əhalisinə müraciət göndərdi. Müraciətin məzmunundan onun Həsən xana ünvanlandığı görünməkdədir. Müraciətin məzmunundan o da aydın olur ki, qraf Qudoviçin əvvəlki məktublarına Həsən xan cavab göndərmişdi. Həmin məktublarda Həsən xan qalanın etibarlı şəkildə müdafiə olunduğunu, onun ixtiyarında 5-6 min nəfərlik qüvvənin olduğunu yazıbmış. General İ.Qudoviç isə onun bu məlumatını istehza ilə qarşıladı, qala müdafiəçilərinin sayından, qala müdafiəçilərinin ərzaq ehtiyatlarından xəbərdar olduğunu çatdırdı. Bundan sonra İ.Qudoviç Həsən xanı inandırmağa çalışdı ki, Həsən xana haradansa yem və ərzaq ehtiyatlarının çatdırılacağına heç bir ümid yoxdur. Baş komandan məktubunda Arazın cənubundan İrəvan qalasına yem və ərzaq ehtiyatı göndərilməsi cəhdinə də toxundu. Onun sözlərinə görə, bu ehtiyatların İrəvan qalasına çatdırılmasına Abbas Mirzə rəhbərlik edirdi. Abbas Mirzəni də Hüseynqulu xan, Abbasqulu xan Naxçıvani, Marağalı Məhəmməd xan, Fərəculla xan Şahsevən və gürcü şahzadəsi Teymuraz müşayiət edirdilər. Təvazokarlığa elə də əhəmiyyət verməyən İ.Qudoviç adları çəkilən sərkərdələrin qoşun dəstəsini məğlub etdiyini, Qacar sərkərdələrinin onun qarşısında duruş gətirə bilmədiyini, bu qoşunların onun qarşısından qaçmasını da Həsən xana çatdırdı. Başqa sözlə, İ.Qudoviç bir daha Həsən xanın tək qaldığını, bu təkliyin isə onun müqavimətini mənasız etdiyini əsaslandırmaq istədi. Məktubda qeyd olunurdu ki, İrəvan qalasına çatdırılmalı olan 3 ton ərzaq da rusların əlinə keçmişdir (225).

İ.Qudoviç ona məxsus olan hikkə ilə bəyan edirdi ki, Həsən xanın köməyinə gələn böyük qoşun dəstəsini məğlub edib. O yazırdı ki, Naxçıvan qalasını ələ keçirdiyi kimi, İrəvan qalasını da ələ keçirə bilər. Baş komandan əlavə edirdi ki, onun sərəncamında seçilmiş qoşunlar vardır və İrəvan qalasının ələ keçirilməsi üçün hər şey hazırdır. Lakin

onun humanistliyi və imperatorunun mərhəmətli ürəyi onu insan qanı axıdılmasından saxlayır. İ.Qudoviç sonuncu dəfə müraciət etdiyini bəyan edirdi, Həsən xanı da, İrəvan qalasının sakinlərini də tez bir zamanda qalanı təhvil verməyə çağırırdı. Bununla qala sakinlərinin bir daha istədikləri yerə getməsinə icazə veriləcəyini onların nəzərinə çatdırdı. Sonra baş komandan yazırdı: "Əks təqdirdə həqiqət adına sizi inandırıram ki, qalanın taleyinin həll edilməsini ləngitməyəcəyəm. İnadkarlıq göstərsəniz sizə də, qarnizona da heç bir aman verilməyəcək və siz onların qırılmasının günahkarı olacaqsınız" (226).

İ.Qudoviç bildirirdi ki, qala üzərinə hücum başlarsa onun döyüşçülərinin qarşısını saxlamaq çətin olacaqdır. O öz borcundan çıxdığını, insan qanının tökülməsinə yol verilməməsinə xəbərdar etdiyini bəyan edir və son dəfə qalanın təhvil verilməsinə 24 saat vaxt olduğunu bildirirdi. Onun sözlərinə görə, 24 saat ərzində cavab verilməməsi Həsən xanın mənfi cavabı kimi qiymətləndirilməli idi.

General İ.Qodoviçin hədə-qorxuları Həsən xanı və qala müdafiəçilərini iradələrindən döndərə bilmədi və baş komandanın tələb etdiyi kimi 24 saatdan sonra İrəvan qalası təhvil verilmədi. Həsən xana bəlli idi ki, malik olduğu potensial ilə rus qoşunlarına müqavimət göstərmək olar. Ona görə qala qarnizonunu da rus qoşunlarının təcavüzünə qarşı mübarizəyə səfərbər edə bildi. Bu isə rus qoşunları baş komandanının hövsələsini daha da daraltdı. Noyabr ayının 14-də o yenidən Həsən xana məktub yazdı. Bu məktubdan aydın olur ki, onun əvvəlki tələbinə Həsən xan cavab veribmiş. Təəssüf ki, çap olunmuş mənbələr toplularında bu cavabın mətni yoxdur. Hər halda İ.Qudoviçin məktubundan aydın olur ki, Həsən xan qalanı təhvil verməyəcəyini və onu son ana kimi müdafiə edəcəyini bildiribmiş. Çox güman ki, İ.Qudoviç də qala üzərinə hücuma başlamazdan əvvəl artıq hiss edirdi ki, İrəvan qalasını fəth edə bilməyəcəkdir. Ona görə də Həsən xanı hədə-qorxu ilə yola gətirməyə çalışırdı. 14 noyabr tarixli məktubunda da İ.Qudoviç əvvəlki məktublarında olduğu kimi köhnə bayatısını təkrar edir, İrəvan qalasına heç yandan kömək gəlməyəcəyini vurğulayır və yazırdı: "Siz qalanı müdafiə etməmiş təslim etsəydiniz günahkar sayılardınız. (Bununla Qudoviç Həsən xanı tovlamağa çalışırdı ki, qalanı təslim edərsə heç kim onu qınamayacaqdır – M.S.) Divarlarda yaranan uçuqlara və məhv edilmiş bir neçə topa görə demək olar ki, siz onu lazımınca müdafiə etmişsiniz. Kənardan gələn köməyin çatmasını gözləməmiş qalanı təslim etsəydiniz günahkar sayılardınız. Ancaq öz vəzifənizdə hər şeyi etmiş Siz aliməqam insanpərvərlik səsinə qulaq asmayıb xalqın fəlakətinə gətirəcək və hədsiz qan axması ilə

nəticələnəcək hücuma yol versəniz, onda qalanın komendantı kimi günahkar sayılacaqsınız" (227).

Bu sözlərədən sonra Qudoviç axırıncı dəfə Həsən xana bir gün möhlət verdiyini bildirdi. Əks təqdirdə o, hücuma başlamalı idi.

Həsən xan Qudoviçin bu məktubuna əvvəlki məktubundan da kəskin cavab verdi. O, özündən razı generala başa saldı ki, gözlənilən hücumda rus qoşunları üstün gəlsələr belə onlar İrəvan qalasının hər daşı uğrunda ölüm-dirim mübarizəsi aparmalı olacaqlar. Həsən xan qətiyyətlə bildirirdi ki, o təkcə qalaya sığınmaqla ruslardan qorunmur və onlarla hər cürə şəraitdə vuruşmağa hazırdır: "Əlahəzrət, mən sizin məktubunuzu aldım. Orada siz bizim qoşunları məğlub edib Arazın o tayına qovduğunuzu bildirərək təklif edirsiniz ki, İrəvan qalasını sizə təslim edim. Sizə məlum olsun ki, biz bu qalada dayanarkən qoşunlarımızın kənardan bizə kömək göstərəcəyi ümidində deyilik. Onun mövcud olub-olmaması bizim üçün eyni şeydir, ona görə də biz onu gözləmirik, qoy hara lazımdır ora da getsin. Allaha şükür ki, biz onun köməyinə ehtiyac duymuruq. Həmçinin yazırsınız ki, sizin toplarınızın mərmiləri qalanın bir neçə bürcünü uçurub və orada yerləşən toplar aşıblar. Biz hazırıq ki, hətta qaladan kənarda da – açıq sahədə sizinlə vuruşaq. Çünki qalanın daxilində müdafiə olunmaq və sizə qarşı vuruşmaq heç də çətin deyil. Qalanın daxilində hər kəs müdafiə olunar və Ahalkələkin mühasirəsində olduğu kimi başınıza gələnləri müşahidə edə bilər.

Əmin edirsiniz ki, güc və hücumla qalanı fəth edəcəksiniz... Hər halda sizə məlum olsun ki, bu qalanın qarnizonu son nəfəsədək müdafiə olunmaq qərarına gəlib və Allahın qismətini gözləyir.

Mənə ərz edirsiniz ki, Mirzə Şəfiyə və Mirzə Bozorga yazdığınız cavab məktubunda öz padşahınızdan İrəvan qalasını fəth etmək barədə göstəriş almışsınız. Bilin ki, biz də öz padşahımızdan onu müdafiə etmək tapşırığı almışıq " (228).

Həsən xanın məktubunu gətirən elçi də general İ.Qudoviçə çatdırdı ki, qala müdafiəçiləri bir nəfər kimi ölməyə razı olarlar, amma qalanı təhvil verməzlər (229).

Belə bir cavabdan sonra Qudoviç tam başa düşdü ki, qalanı dinc yolla almağa heç bir ümid yeri qalmayıbdır. Uzun sürən mühasirə, hava şəraiti üzündən arxa ilə əlaqələrin zəifləməsi, qala müdafiəçilərinin aramsız hücumları rus qüvvələrini xeyli əldən salsa da, Sisianov kimi özünə arxayın olan Qudoviç də şəstini sındırmamaq, təkəbbürünü qırmamaq üçün qaladan geri çəkilməyi də özünə sığışdıra bilmirdi. Ona görə də, o, nəhayət qala üzərinə hücum üçün hazırlıq əmri verdi. Həmin əmrdə Qu-

doviç göstərirdi ki, qalaya hücum dörd istiqamətdən həyata keçirilsin və bunun üçün dörd dəstə təşkil edilsin (230).

Birinci dəstənin tərkibində 1200 nəfər döyüşçü var idi və ona polkovnik Simanoviç komandanlıq etməli idi. General-leytenant baron Rozen də bu dəstənin tərkibində idi. İkinci dəstənin tərkibində 558 nəfər döyüşçü var idi və ona mayor Novitski komandanlıq etməli idi. Kapitan Çelişevin komandanlığı altında olan üçüncü dəstəyə 732 nəfər daxil idi. Dördüncü dəstənin tərkibində isə həvalə edilmiş qüvvələrlə birlikdə 695 nəfər var idi. Dəstəyə komandanlıq mayor Borşova tapşırılmışdı. Bu dəstədən əlavə ümumi ehtiyat qüvvəsi də müəyyənləşdirilmişdi və general-feldmarşal Qudoviçlə tam süvari generalı Tormosov həmin qüvvələrin tərkibində idilər.

Hücum əmrində göstərilirdi ki, dəstələr sürətlə hərəkət etməli, nərdivanlarla cəld divara dırmaşmalı, bürclərin barmaqlıqlarını dəmir linglərlə qırmalıdırlar. Qudoviç planlaşdırdığı hücumun qələbəsinə şübhə etməyən bir şəxs kimi öz əsgərlərinə qalanın bütün müdafiəçilərini qırmamış talanlara başlamağı qadağan etdi. Baş komandan vəd edirdi ki, qaladakı ərzaq anbarlarından başqa qalan hər şey döyüşçülərin ixtiyarına veriləcəkdir (231).

Əmrdə göstərilirdi ki, İrəvan qalası üzərinə hücum qaranlıq ikən, işarə üçün atılmış üç top atəşindən sonra başlanacaqdır. Qudoviç məsləhət bilirdi ki, hücumdan əvvəl artilleriya hazırlığı aparılsın və topların atəşi ilə qala müdafiəçilərinə daha çox itki verilsin. Sonra hücum əmrində hər bir dəstənin konkret olaraq hansı istiqamətdən hücuma keçəcəyi dəqiqləşdirildi. Əmrdə hücumun başlanma vaxtı göstərilməmişdi. Ancaq görülən hazırlıq işləri onun yaxın günlərdə başlayacağına şübhə yeri qoymurdu (233).

Qudoviç tələb edirdi ki, hücumdan əvvəlki axşam qüvvələr bölüklər üzrə toplansın və hücum əmri komandirlər tərəfindən onlara aydınlaşdırılsın. Onun fikrincə, rus hərbçiləri İrəvan qalası üzərinə qalxmamış atəş açmağa başlasalar daha çox özləri itki verə bilərlər.

Ona görə də məsləhət bilirdi ki, İrəvan qalasının divarları qısa zaman ərzində fəth edilsin və qala müdafiəçiləri çətin vəziyyətə salınsın. Qudoviç göstəriş verdi ki, Saratov taborundan 200 nəfərlik bir dəstə mayor Borşovun rəhbərliyi altında Zəngi çayının sol sahilinə keçirilsin, qalanın sərt qaya üzərində yerləşən künc bürcünə yaxınlaşdırılsın, 200 nəfərlik qrenadyor dəstəsinə rəhbərlik edən Pleşkov isə daş körpünü adlamaqla sol küncdəki bürclə xan evi arasında nərdivanlarla hücuma keçməli, kapitan Ostrovski isə 50 nəfər qrenadyorla dəyirman istiqamətindən hücuma keçməli idi (234).

İrəvan qalasının qarnizonu da müdafiəyə hazırlaşırdı. Qala divarları üzərindəki növbətçilik gücləndirildi, sərvaxtlıq artırıldı. Rus qoşunlarının bütün yerdəyişmələri ciddi nəzarət altına götürüldü. Gecə döyüşlərinin aparılması üçün işıqsaçan top mərmiləri yığıldı.

Qalanın müdafiəsinə cəlb edilmiş döyüşçülərə adlı-sanlı sərkərdələr başçılıq edirdilər. Qoşun hissələrində yüksək əhval-ruhiyyə mövcud idi. Həsən xan qala qarizonunda mübariz əhval-ruhiyyə yaratmağa nail oldu. Elə bu mübarizliyin nəticəsi idi ki, qala qarnizonu rus qoşunlarının qəfil hücumundan özünü itirmədi, öyünməyi çox sevən feldmarşl Qudoviçə və onun komandanlığı altında olan çoxsaylı qoşunlara nəyə qadir olduğunu nümayiş etdirdi.

Əvvəlcə qala qarnizonunun sərvaxtlığını azdırmaq üçün noyabr ayının 15-də rus qoşunları atəşə başladılar. Bununla qala döyüşçülərini əsas hücumun başlandığına inandıraraq onların əsas qüvvələrini döyüşə cəlb etmək istəyirdilər. Belə hərəkətləri bir neçə dəfə təkrarlamaqla diqqəti yayındırmaq və gözlənilmədiyi halda hücuma başlamaq Qudoviçin fikrincə, onun qoşunlarına uğur gətirməli idi (235).

Qala qoşunları bu aldadıcı hücumlara lazımi şəkildə cavab verirdilər. Onların əks-atəşləri bir neçə rus döyüşçüsünü öldürdü və yaraladı. Rus komandanlığının həyata keçirmək istədiyi fəndlərin nəticəsi heç də gözlənildiyi kimi olmadı. Çünki qalanın müdafiəsi yaxşı təşkil edildiyindən rusların bu hərəkətinə layiqli cavab verilirdi.

Noyabr ayının 17-də səhər saat 5-də, hava hələ işıqlanmamış rus qoşunları qala üzərinə qəfil hücuma keçdilər (236). Bu hücum qəfil başlasa da yenə də rusların gözlədiyi nəticə alınmadı. Divarlar üzərində topların düzgün yerləşdirilməsi, onların atəşlərindən məharətlə istifadə edilməsi feldmarşal Qudoviçin niyyətlərini alt-üst etdi. O, sonradan Rusiya imperatoruna göndərdiyi məktubunda da etiraf edirdi ki, İrəvan qalasının müdafiəçiləri böyük igidliklə vuruşurdular. Məhz bu igidliyin, Həsən xanın sərkərdəlik və təşkilatçılıq qabiliyyətinin nəticəsi idi ki, rus qoşunları heç bir istiqamətdə uğur qazana bilmədilər (237).

General-feldmarşal Qudoviç polkovnik Simanoviçin komandanlıq etdiyi dəstənin uğuruna daha çox ümid bağlayırdı. Bu dəstə sayca da o biri dəstələrdən böyük idi. Qala üzərinə hücum işarəsi verilən kimi dəstə irəliyə atıldı. Qala müdafiəçiləri rus qoşunlarının yaxınlaşdığını biləndə havaya toplardan işıqsaçan mərmilər atdılar. Bu, yaxınlaşmaqda olan düşməni aydın görməyə imkan verdi.

Qudoviç imperator I Aleksandra göndərdiyi raportunda təəssüflə qeyd edirdi ki, Simanoviçin başçılıq etdiyi əsas dəstə qala müdafiəçilərinin müqavimətini qıra bilmədi. Əksinə, Həsən xanın

döyüşçülərinin vurduğu zərbə bu dəstəyə ciddi itkilər yetirdi. Qala divarlarına dırmaşmaq istəyəndə Simanoviçin özü də ağır yaralandı. Onu əvəz edən mayor Vılazkov da məqsədinə nail olmadı və qala döyüşçülərinin atəşi ilə ağır yaralandı. Dəstənin üzvləri arasında da xeyli itki var idi. Tamamilə məhv olmaq təhlükəsi yarananda dəstə geri çəkilməyə məcbur oldu (238).

İkinci dəstənin hücumu da birinci dəstənin hücumu kimi uğursuz oldu. Bu dəstə itkilərə məruz qalsa da divarların yaxınlığına qədər hərəkət edə bildi. Hətta bəzi döyüşçülər nərdivanlarla divarın üzərinə də qalxa bildilər. Lakin onlar bundan artq heç nə edə bilmədilər. Tezliklə dəstənin komandiri mayor Novitski ağır yaralandı. Onun yerini tutan podpolkovnik Bulqakov da xüsusi bir hünər göstərə bilmədi. O, aldığı yaradan bir neçə gün sonra dünyasını dəyişdi. Divarlar üzərinə qalxan döyüşçülər qala müdafiəçilərinin keçilməz müqaviməti ilə rastlaşdılar. Onların igidliyi və qəhrəmanlığı rus hərbi qüvvələrini geri çəkilməyə məcbur etdi. İkinci dəstənin ehtiyatında olan qüvvələr irəli atılsalar da qala topçularının sərrast atəşləri onları yaxın buraxmadı (239).

Üçüncü və dördüncü dəstələr isə xüsusi bir fəaliyyət göstərə bilmədilər. Üçüncü dəstə heç qala divarlarına yaxınlaşmamış geri çəkilməli oldu. Dəstə üzvlərinin hazırladığı nərdivanlar çox qısa olduğundan divarları aşmaq mümkün olmadı. Digər tərəfdən qala müdafiəçilərinin sərrast atəşləri rus döyüşçülərinin gözünü açmağa imkan vermədi.

Dördüncü dəstə iki yerə bölünüb ayrı-ayrılıqda qalaya hücum etdi. Qala müdafiəçiləri bu dəstələrə də böyük itkilər yetirdilər. Dəstəyə komandirlik edən mayor Borşov döyüşdə ağır yara aldı. Dəstənin ikinci yarısı mayor Pleşşakovun rəhbərliyi altında nərdivanlarla divarlara dırmaşmaq istədi. Lakin bu cəhd də uğursuz oldu və nərdivanlar gödək olduğu üçün döyüşçülər divarın üzərinə dırmaşa bilmədilər. Bununla, hücum uğursuzluğa düçar oldu və general İ.Qudoviçin əmrinə əsasən bütün dəstələr geri çəkilməli oldu. Baş komandan qala toplarının tuta bilməyəcəyi düşərgəsinə çəkildi. Təsəllini isə onda tapdı ki, qalanı yenidən mühasirədə saxlamağı qərarlaşdırdı. Qraf Qudoviç gözləmədiyi ağır məğlubiyyətin səbəbini sərkərdəlik istedadının sönməsində və ya qala döyüşçülərinin mübarizliyində deyil, İrəvan qalasının divarlarının möhkəmliyində axtardı. Rusiya imperatoruna yazdığı məktubunda İ.Qudoviç qoşunlarının və topların azlığını da uğursuzluğun səbəbi kimi izah etdi (240).

Beləliklə, Qudoviçin təşkil etdiyi dəstələrin hamısı qala müdafiəçilərinin zərbəsi qarşısında biabırcasına geri çəkilməli oldular.

Dəstələrin çoxu öz komandirlərini, alayların bəziləri isə öz tərkibinin yarıdan çoxunu qala divarları altında itirdilər. Məsələn, döyüşdə iştirak edən Tiflis alayının 463 döyüşçüsündən cəmi 194 döyüşçü qalmışdı. Bütünlükdə isə rus mənbələrinə görə İrəvan qalası üzərinə hücum zamanı 289 nəfər ölmüş, 574 nəfər ağır, 285 nəfər isə yüngül yaralanmışdı. Gün ərzində qala döyüşçüləri rus qoşunlarının 1000 nəfərdən artıq döyüşçüsünü sıradan çıxardı. Qudoviç təsəvvürünə gətirə bilmədiyi bir mənzərə ilə rastlaşdı. Gücsüz hesab etdiyi qala qarnizonu çoxsaylı rus qarnizonunu məğlub etdi və general-feldmarşal nüfuzu İrəvan qalasının divarları ətrafında payimal oldu (241).

Bu qoşunların faciəsi təkcə onun çoxsaylı itkiləri ilə bitmədi. Rus ordusu mənən də şikəst oldu. Həsən xanın və onun döyüşçülərinin misilsiz qəhrəmanlığı Qudoviçdən başlamış sonuncu rus döyüşçüsünə qədər hamıya bir fəlakət gətirdi. Hətta fərarilik halları da artmağa başladı. Hikkəli və təkəbbürlü feldmarşal Qudoviçin hərbi həyatının son nöqtəsi qoyuldu. Onun geri çəkilməkdən başqa bir çarəsi qalmadı.

Həsən xanın və İrəvan qalasının müdafiəçilərinin çoxsaylı rus qoşunları qarşısındakı igidliyi və şücaəti dövrün tarixinin yaddaqalan hadisələrindən biri idi və ona görə mövzuya toxunan farsdilli mənbələrin çoxunda İrəvan qalasının müdafiəsinin təşkili ilə bağlı məlumatlara rast gəlmək mümkündür. Bu məlumatların oxşar və fərqli məqamları olsa da rus qoşunlarının İrəvan qalası ətrafındakı ikinci böyük məğlubiyyətinin müəyyən təfərrüatları öz əksini tapmışdır.

"Nasex-ət təvarix" əsərində Həsən xana kömək çatdırılmamasının səbəbi havaların soyuması və yağan qarın yolları bağlaması ilə izah olunur. Bildirilir ki, Abbas Mirzə, sərdar Hüseynqulu xan, Fərəculla xan Əfşar, Əmənulla xan Əfşar, Sadıq xan Qacar qoşun dəstəsi ilə İrəvan qalasına yollanmaq istəsələr də qarın yolları kəsməsinə görə geri qayıtmalı oldular. Bu vəziyyətdən xəbərdar olandan sonra general İ.Qudoviç İrəvan qalasının tutulmasına qərar verdi. Bildirilir ki, rus qoşunları şəvval ayının 9-da gecə yarı dörd tərəfdən İrəvan qalası üzərinə hücum çəkdilər. Hələ gecə ikən rus döyüşçüləri nərdivanlarla qala ətrafındakı xəndəkləri adlayaraq qala divarları üzərinə qalxmağa cəhd göstərdilər. Bu vaxt onlar qala müdafiəçilərinin müqaviməti ilə qarşılaşdılar. Qala müdafiəçilər məşəlləri və çıraqları yandıraraq ətrafı işıqlandırdılar ki, bu da rus qoşunlarının hücumunu daha yaxşı müşahidə etmək imkanı verdi. Mənbədə bildirilir ki, Həsən xan həmin gün özünü yaxşı hiss etmirdi. Lakin səhhətində problem olmasına baxmayaraq qalanın müdafiəsinə Həsən xan rəhbərlik edirdi. Onun tapşırığına əsasən, tüfəngçilər və qala topları hücumun qarşısını almaq üçün bütün gücünü

ortaya qoydular. Mənbədə qalanın müdafiəsində xüsusi xidməti olan bir neçə sərkərdənin də adı çəkilir. Onlar Əşrəf xan Dəmavəndi, Mirzəli Nağı xan Astrabadi, Kəlbəli xan Qacar və digərləri idilər. Tərəflərin itkiləri haqqında bu mənbədə olan məlumat da rus mənbələrindəki məlumatdan fərqlənir. Qeyd olunur ki, 3 min rus hərbçisi öldürüldü, 2 mini isə yaralandı. Qala müdafiəçiləri arasında isə 3 nəfərin öldüyü və 6 nəfərin də yaralandığı qeyd olunmuşdu (242).

"Tarix-e Zülqərneyn" əsərinin müəllifi general Qudoviçi İrəvan qalası üzərinə hücum qərarı verməsinə görə "axmaq" və "gic" adlandırırdı. Bu əsərdə də İ.Qudoviçin məktublarla Həsən xana müraciət etməsi və qalanın təslim edilməsi haqqında ondan rədd cavabı alması haqqında məlumat vardır. Müəllif yazır ki, Həsən xan və qala müdafiəçilərinin bu cavabından məyus olan İ.Qudoviç qoşunları dörd hissəyə böldü və bütün toplara qala divarlarını atəşə tutmaq əmri verdi. Bu atəşlərdən sonra qala divarlarında uçuqların yaranması bildirilir. Yuxarıda adları çəkilən sərkərdələr haqqında bu mənbədə də məlumat vardır. Müəllifin yazdığına görə, ruslar hücuma başlayanda qala müdafiəçiləri mövqelərində hərəkətsiz gözlədilər və bununla rusların arxayın şəkildə yaxınlaşmasına imkan verdilər. Ruslarda belə bir təsəvvür yarandı ki, qala müdafiəçiləri gecə yarısı başlayan hücumdan xəbərsizdir. Onların qalaya yaxınlaşması ilə tərəflər arasında qızğın döyüş başladı. Müəllif bu döyüşü qiyamət günü ilə müqayisə edirdi və qala müdafiəçilərinin qəhrəmanlıqlarının rus qoşunlarının ağır məğlubiyyətinə yol açdığını bildirirdi (243).

Dövrün hadisələrinin şahidi kimi, Ə.Dünbəlinin və Mirzə Məhəmməd Sadıq Vəqayeneqarın əsərlərində də İ.Qudoviçin rəhbərliyi altında İrəvan qalası üzərinə hücum haqqında xeyli məlumatlar mövcuddur. Rus mənbələri ilə müqayisədə bu mənbələrdəki məlumatlar daha çox ümumiləşdirilmiş məlumatlardır. Bununla belə, müəyyən məqamlar haqqında konkretliyi ilə fərqlənən məlumatlara da bu mənbələrdə rast gəlmək mümkündür.

Ə.Dünbəli bu hücumun hicri-qəməri tarixi ilə 1223-cü il şəvval ayının 9-da baş verməsini yazır. Mənbədə tərəflər arasında döyüşün əsasən, rus qoşunlarının İrəvanın qala divarlarına dırmaşmasından sonra başlandığı qeyd olunur (244). Mirzə Məhəmməd Sadıq Vəqayeneqar isə İ.Qudoviçlə Həsən xan arasında aparılan yazışmaya xüsusi olaraq toxunmuşdur və İ.Qudoviçin bu yolla qalaya sahib olmaq niyyətini İ.Qudoviçin hiyləsi kimi təqdim edirdi. Müəllif yazır ki, rus toplarının davamlı atəşləri İrəvan qalasının şərq divarlarının uçulmasına səbəb oldu. Bu da ruslarda müəyyən ümid yaratdı ki, çətinlik çəkmədən qalaya

daxil ola biləcəklər. Bildirilir ki, rus qoşunlarının hücumu başlayanda Həsən xan ətrafındakı sərkərdələrlə müşavirə keçirdi və qərara alındı ki, ruslar mümkün qədər yaxına buraxılsın və sonra onlara qarşı müqavimət göstərilsin. Buna görə də ruslar yaxınlaşana kimi qaladan tüfəng və top atəşlərinin səsi eşidilmədi. Mənbədə bildirilir ki, qala müdafiəçilərinin bu taktikası ruslara hətta bəzi qala bürclərinin ələ keçirilməsinə imkan verdi. Əvvəldən verilmiş tapşırığa əsasən, qala sakinləri çoxlu sayda neft dolu qablar hazırlamışdılar. Tərəflər arasında döyüş başlayanda qala sakinləri də bu qabları rus hərbçilərinin üstünə atdılar və yanan qablar da ruslara müəyyən itkilər yetirdilər. Mənbədəki məlumata görə, gərgin döyüş 4 saat davam etdi və bu döyüşün gedişində çoxlu sayda rus döyüşçüsü öldürüldü. Başqa bir məlumata görə isə İsmayıl xanın rəhbərliyi altında olan bir dəstə İrəvan müdafiəçilərinin köməyinə gəlmişdi. Bu dəstə isə bayırdan rusların üzərinə hücuma keçdi. İsmayıl xanın dəstəsi zərbə altına düşəndə qala daxilindəki bir dəstə bayıra çıxaraq bu dəstəyə kömək etdi. O da bildirilir ki, döyüşün gedişində İ.Qudoviç özü də iki dəfə yaralandı və nəhayət böyük itkilər verən rus generalı qoşunları geri çəkmək məcburiyyətində qaldı (245).

Rus qoşunları düçar olduqları uğursuzluqdan sonra sadəcə qala üzərindən çəkilmədilər. Qala müdafiəçilərinin inadkarlığı və taktikası onları qala ətrafında tutuqları bəzi mövqelərdən də geri çəkilməyə məcbur etdi. Bu, Xerson taborunun təşkil etmiş olduğu ön mövqelərə aid idi. Qala müdafiəçiləri rusların bu mövqeyini güclü təzyiq altına aldılar və onda rusların bu mövqeni tərk etməkdən başqa çarəsi qalmadı (246).

Noyabr ayının 18-də qala müdafiəçiləri öz fəallıqlarını bir daha nümayiş etdirdilər. Onların bir dəstəsi qala darvazalarından bayıra çıxaraq rus mövqeləri üzərinə hücum etdilər. Qaladan kənarda da hərbi təşəbbüsün qala müdafiəçilərinin əlinə keçməsinin heç də yaxşı nəticələrə gətirməyəcəyini anlayan İ.Qudoviç bu hücumun qarşısını almağa nail oldu. Elə həmin gün məlumat alındı ki, sərdar Hüseynqulu xan Arazı adlayaraq İrəvan qalasına yaxınlaşmaq istəyir. Hüseynqulu xana qalaya yaxınlaşmaq imkanı verməmək üçün Gərni çayı istiqamətində rus hərbi postu qoyuldu. Ayın 19-da bu post bir qədər də gücləndirildi. Bura Qazax və Şəmşəddil könüllüləri, 50 nəfərlik yeger dəstəsi və kazak dəstəsi göndərildi (247).

Rus mənbələrinin məlumatına görə, noyabrın 20-də sərdar Hüseynqulu xan 3 min nəfərlik atlı dəstəsi ilə İrəvana yaxınlaşmağa çalışdı. Buna imkan verməmək üçün general-mayor Portnyaginin rəhbərliyi altında olan qoşun dəstəsi Gərni çayı ətrafında möhkəmlənmiş olan podpolkovnik Podlutskinin köməyinə göndərildi. Bildirilir ki,

noyabrın 20-si və 22-si bu dəstə ilə Hüseynqulu xanın dəstəsi arasında döyüş oldu. Noyabrın 22-də general Portnyagin Bozavənd kəndi ətrafında sərdar Hüseynqulu xanın dəstəsi ilə üzbəüz gəldi və Hüseynqulu xanın dəstəsini geri çəkilməyə məcbur etdi (248).

İrəvan qalası üzərinə rus qoşunlarının uğursuz hücumundan sonra Hüseynqulu xanın qalaya yaxınlaşmaq cəhdi barəsində məlumat "Məəssər-e Soltaniyyə" əsərində də təsdiqlənir. Bildirilir ki, Hüseynqulu xan İsmayıl xan Qacarla birlikdə rus qoşunlarına yetişdilər və rusların çoxunu qətlə yetirməklə, həm də əsir götürdülər. O da bildirilir ki, bu, həm də elə təhlükəli oldu ki, bir çox rus döyüşçüləri özləri könüllü şəkildə əsir düşməyi qənimət saydılar. Mənbənin məlumatına görə, Qacar şahzadəsi Abbas Mirzə başqa bir qoşun dəstəsini Naxçıvandan rus qoşun dəstəsi üzərinə göndərdi. Həmin dəstəyə isə Əli xan Qacarla Əmənulla xan Qacar rəhbərlik edirdilər. (249).

Noyabrın 23-də general İ.Qudoviç yenidən məktubla Həsən xana və qala qoşunlarına müraciət etdi. Ağır məğlubiyyətin iztirabını yaşayan baş komandan şərəfsizcəsinə İrəvan qalası ətrafından çəkilməyi mənliyinə sığışdıra bilməyərək son ümidlərini də yoxlamağa əl atdı, yenidən özünəməxsus mənəmlik nümayiş etdirərək Həsən xanı qalanı təslim etməyə çağırdı.

Ancaq heç şübhəsiz ki, parlaq qələbə əldə etmiş Həsən xan və onun döyüşçüləri bu məktubu ciddi bir sənəd kimi qəbul etmədilər. Qudoviç yazırdı: "Əgər ümid edirsinizsə ki, ötən hücumdan sonra mən qoşunlarla İrəvan qalasından geri çəkiləcəyəm, doğru deyil. Bu gümanlarınızın əksinə olaraq inandıra bilərəm ki, ümidləriniz sizi aldadır. Mənimlə olan qoşunların beşdə biri hücumda iştirak edirdi. Qala üzərinə qalxanlar artıq qalaya yolu tanıyırlar. Beləliklə, mənim sözümə inanın ki, şücaətli qoşunlarımla mən ikinci və üçüncü hücumu da təşkil edə bilərəm Ona da inanın ki, mən qala divarlar altında qalaram, ancaq geri çəkilmərəm. Mənim qoşunum çoxdur, onun azuqəsi də kifayət qədərdir. Şücaətli qoşunlarımızın heç nəyə ehtiyacı yoxdur, qış isə ruslar üçün qorxulu deyil. Çünki soyuq klimatda doğulan ruslar müharibələr zamanı sərt qışı həmişə çöllərdə keçirirlər. Nəhayət, bir qaladan başqa bütün İrəvan vilayəti və bütün Naxçıvan vilayəti həmişəlik olaraq Rusiya imperiyası üçün fəth edilmişdir. Yeri gəlmişkən, İrəvan qalası heç bir yerdən kömək gözləyə bilməz. Çünki ötən hücumdan sonra Arazın bu tayına keçən sərdar Hüseyn xan orada saxladığım dəstə tərəfindən dağıdılmış və həmin dəstə tələsik Qarasu çayını adlamışdır. Beləliklə, qətiyyətlə və son dəfə xəbərdar edirəm ki, möhtərəm komendant və qala əhli, siz dərhal qalanı könüllü şəkildə mənə təslim etməsəniz sonradan qalanı tutanda

mənim əvvəlki lütfkar vədlərimə əməl edilməyəcək və qalanı müdafiə edən bütün qarnizon hərbi əsirə çevriləcəkdir (250).

Qraf Qudoviç məktubuna təcili cavab verilməsini tələb etdi və iki həftə həmin cavabı gözlədi. Həsən xan isə Qudoviçin sonuncu ümidini əlindən aldı və əvvəlki məktubları ruhunda ona cavab göndərdi. 1808-ci il noyabrın 21-nə aid olan həmin məktubda deyilirdi: " Sizin iki nəfər vasitəsilə göndərdiyiniz dostluq məktubunu aldım və yazılarınızdan xəbər tutdum. Mən bilirəm ki, siz ağıllı və səmimi adamsınız. Amma yazdığınızda səmimiyyət yox idi. Siz Hüseyn xanı və onun qüvvələrini məğlub etdiyinizi, dəstəsinin isə uzaqlaşdırıldığını yazmışsınız. Onun ki, qüvvələri yox idi, yalnız ətrafında onu müşayiət edənlər var idi. Bir neçə gündən sonra onun qoşunları toplananda bundan xəbər tutacaqsınız. Əgər o vaxt onlara qalib gəlib sərvət əldə etsəniz onda haqlı olacaqsınız" (251).

Həsən xan sonra bildirirdi ki, qalada 5-6 min adam döyüşməyə hazırdır və onların 2-3 illik azuqə ehtiyatı vardır. O xəbərdar edirdi ki, rus qüvvələri İrəvan qalasından müəyyən məsafədə dayanmalı və öz hərəkətləri barədə əvvəlcədən razılıq almalıdır. Yəni, Həsən xan sadəcə qalanın təslim edilməyəcəyini bildirmirdi. O eyni zamanda tələb edirdi ki, xanlıq ərazisində yad qüvvələr icazəsiz hərəkət etməyi dayandırmalıdırlar.

Həsən xan açıq-aydın bəyan etdi ki, İrəvan qalası ruslara təslim edilməyəcəkdir. Qudoviçin isə artıq qala üzərinə yeni hücum təşkil etməyə cəsarəti çatmırdı. Getdikcə havaların pisləşməsi isə rus qoşunlarının Gürcüstandan tamamilə təcrid olunmasına və onların tam məhvinə doğru aparırdı. Buna görə də feldmarşal öz şəxsiyyətinə sığışdıra bilmədiyi bir qərarı qəbul etmək məcburiyyətində qaldı və nəhayət rus qoşunlarına İrəvan qalasının mühasirəsindən geri çəkilmək əmri verdi.

Mövcud faktlar isə göstərir ki, general İ.Qudoviç sonuncu məktubunu Həsən xana göndərəndə artıq İrəvan qalası ətrafından geri çəkilmək haqqında qərar qəbul etmişdi. Çünki İrəvan qalasını ələ keçirməyə onun iradəsi və bacarığı çatmadı. Mühasirənin davam etdirilməsi isə bütün qoşun dəstəsinin məhvinə gətirib çıxara bilərdi. 1808-ci il noyabr ayının 23-də general-mayor Nebolsinə göndərdiyi məktubunda general İ.Qudoviç yazırdı ki, İrəvan qalası ətrafından geri çəkilmək üçün qərar qəbul etmişdir. Ona görə də o, general Nebolsindən tələb edirdi ki, Naxçıvandan geri çəkilsin (252).

Noyabr ayının 28-də rus qoşunlarının geri çəkilməsinə başlanması nəzərdə tutulmuşdu. Həmin gün qala müdafiəçilərinin bir dəstəsi qala

kənarına çıxaraq Tiflis taborunun mövqeləri üzərinə hücum etdi. Bu mənbələrdəki məlumata görə, elə həmin gün Pəmbək yoluna çoxlu qar yağdı. General İ.Qudoviç arxaya aparan bütün yolların bağlanması təhlükəsindən ehtiyatlanaraq dərhal geri çəkilmək əmri verdi.

1808-ci il noyabr ayının 28-dən 29-na keçən gecə yüklər, arabalar və yaralılar əsas düşərgəyə çəmləşdirildi. Ayın 30-da isə qoşunlar İrəvan qalasının mühasirəsinə son qoyub düşərgəyə toplaşdılar və oradan da Gürcüstana doğru istiqamət götürdülər. Lakin qarşıda rus qoşunlarını yeni çətinliklər gözləyirdi. Hərəkət zamanı qar və şaxta adamları tamamilə əldən saldı. Altı günlük yol ərzində 1000-dən artıq adam itirildi. Qudoviç özü də xəstələnərək güclü revmatizmə tutuldu. Bu xəstəliyin güclənməsi sonradan onun bir gözünün itirilməsinə səbəb oldu (253).

Qudoviç İrəvan ətrafından yola düşəndə general Nebolsinə Naxçıvanı tərk edib Gəncəyə qayıtmaq əmri verdi. Bu dəstə 1808-ci il dekabrın 1-də Naxçıvanı tərk etdi. Elə həmin gün də Abbasqulu xanın süvariləri Naxçıvana daxil oldular. Naxçıvan süvariləri geri çəkilməkdə olan rus hissələrinin təqibinə başladılar. Bu vaxt Abbas Mirzə də öz qoşunları ilə Arazı adlayıb Qarababa kəndi yaxınlığında rus qoşunlarının keçəcəyi yol üzərində mövqe tutdu. Dekabr ayının 4-də burada böyük bir döyüş baş verdi. Hava həddən artıq soyuq idi. Hələ döyüş ərəfəsində general Nebolsin əmr etdi ki, bütün yük arabaları sökülüb yandırılsın və adamlar şaxtadan xilas edilsin. Ancaq bu tədbir də rus qoşunlarını soyuqdan xilas edə bilmədi və təkcə bir gün ərzində 60-dək adam dondu (254).

Mühasirəyə düşən ruslar Abbas Mirzənin və Naxçıvan xanlığı qüvvələrinin güclü zərbəsinə məruz qaldılar. Mühasirənin yarılması üçün bir neçə dəfə cəhd göstərilsə də bir nəticə hasil olmadı. Onda general Nebolsin öz qüvvələrini toplayıb bir istiqamətdən, Qarabağ istiqamətindən mühasirəni yarmağa cəhd göstərdi. Nebolsin əvvəlcə Troitski alayını irəli göndərdi. Amma bu alay Abbas Mirzənin qoşunlarının mühasirəsini yara bilmədi. Əksinə, güclü zərbə alıb geri çəkildi. Tərəflər arasında döyüş qızışdı. Sonra Lisaneviçin rəhbərliyi altında olan yegerlər mühasirəni yarmağa cəhd göstərdilər. Onlar çox çətinliklə buna nail olaraq Qarabağa tərəf geriləməyə başladılar. Dekabrın 8-də onlar Şuşaya çatdılar (255).

Ə.Dünbəli Naxçıvanda rus qoşunları ilə Qacar qüvvələri arasında döyüşü təsvir edərkən yazırdı ki, həmin döyüşdə Əli xan Qacar, Əmənulla xan Əfşar, Fətəli xan Nuri və başqalarının rəhbərliyi altında olan qüvvələr xüsusilə fəallıq nümayiş etdirdilər. Onlar tabeliyində olan dəstələrlə Arazın şimalına adlayaraq General Nebolsinin dəstəsinin

üzərinə hücum çəkdilər. General Nebolsin bu hücumun təzyiqinə dözməyərək dəstəsi ilə geri çəkilmək məcburiyyətində qaldı. Qacar qüvvələri onları təqib edib Naxçıvandan 4 fərsəng məsafədə dəstəni mühasirəyə aldılar. Rus qoşun dəstəsi yenidən mürəkkəb bir vəziyyətlə qarşılaşmalı oldu. Ruslar arabaları və topları dövrə yığaraq onların arasında müdafiə olundular və qırılmaqdan nicat tapmaq üçün gecənin düşməsini gözləməli oldular. Havalar qaralandan sonra ruslar geri çəkilmək yolunu tutdular və çox çətinliklə özlərini Qarababa kəndinə çatdırdılar. Qacar qüvvələri onların təqibini davam etdirdi və adı çəkilən məntəqə ətrafında ruslara yetişdilər. Ağır yüklərlə Qacar qüvvələrinin təqibindən qurtarmağın çətin olduğunu görəndə general Nebolsin dəstənin arabalarının, yüklərinin, barıtın və hətta ərzağın yandırılmasına göstəriş verdi. Dəstənin topçularına isə göstəriş verildi ki, hərəkət marşrutu üzərində olan yüksəkliklərdə mövqe tutaraq Qacar qüvvələrinin yaxınlaşmasının qarşısını alsınlar. General Nebolsinin dəstəsi Sisiyan istiqamətində hərəkətini davam etdirərək sonradan Qarabağa çıxmaq istəyirdi. Abbas Mirzə ətrafında olan sərkərdələrdən Kərim xan Kəngərli adlı birisinə tapşırıq verildi ki, dar keçidlərlə irəliləyərək rusların qarşısını kəssin. Başqa bir dəstəni isə Abbas Mirzə sağ cinahdan irəliləməklə rusların qarşısını kəsməyə göndərdi. Bölgənin dağlıq və qayalıq olması və hərəkətin çətinliyi üzündən Abbas Mirzə bütün qüvvələrini ruslarla döyüşə ata bilmədi və Qarababada düşərgə saldı. Səhəri gün Abbas Mirzənin tapşırığı ilə Əhməd xan Müqəddəm adlı sərkərdəsi də dəstəsi ilə rusların ardınca göndərildi. Bu dəstə Salvartı yolu ilə hərəkət etməli idi. Qacar qüvvələri müəyyən müddətdən sonra rus dəstəsinə yetişdi. Qarlı havada tərəflər arasında gərgin döyüş baş verdi. Bildirilir ki, bu döyüşdə ruslar çox ciddi itkilər verdilər və sağ qalanlar çox çətinliklə Qacar qüvvələrinin mühasirəsindən çıxmağa müvəffəq oldular (256).

İrəvan qalasının mühasirəsini dayandırmaqla general İ.Qudoviçin rastlaşdığı sınaqlara heç də son qoyulmadı. Soyuq hava şəraitində böyük qoşun dəstəsi ilə geri çəkilmək rus qoşunlarının yeni çətinliklərlə üzbəüz qoydu. Bir tərəfdən havaların xeyli soyuması, qızınmaq üçün odunun və yanacağın olmaması, digər tərəfdən də yem və azuqənin tükənməsi qoşunların mürəkkəb olan vəziyyətini bir qədər də mürəkkəbləşdirdi. Dekabr ayının 1-də Don kazak alayı və Saratov alayının bir taboru Pəmbəkə göndərildilər ki, bu qüvvələr yolları qardan təmizləsinlər. Ayın 3-də isə general Portnyagin öz eskadronları ilə Pəmbəkə göndərildi ki, azuqə və yem ehtiyatı toplasın. Bu çətin şəraitdə də İrəvan qalasının qüvvələri rus qoşunlarının təqibini

dayandırmadılar. Dekabr ayının 3-də İrəvan qüvvələri rus qoşunlarının arxada qalan hissəsi üzərinə hücum etdilər. Bu hücumun qarşısını çox çətinliklə almaq mümkün olsa da ruslar yenidən itki verməli oldular. Dekabrın 4-də İrəvan xanlığı qüvvələrinin rus dəstəsi üzərinə hücumu təkrar olundu. Ağır vəziyyətə düşmüş olan qoşun dəstəsinə mümkün köməyin göndərilməsi üçün general İ.Qudoviç dekabrın 6-da dəstədən ayrılıb Pəmbəkə yollandı. Elə həmin gün İrəvandan çəkilməkdə olan qoşun dəstəsinə 100 baş at göndərildi. Pəmbəkdəki düşərgədə olan 2 muşketyor taboru və kazak dəstəsi də dəstənin mühafizəsinə yola salındı. Dekabrın 9-da qoşun dəstəsini Pəmbək mahalına çatdırmaq mümkün oldu (257). Bununla da general İ.Qudoviçin İrəvan qalası üzərinə hücum kampaniyası başa çatdı.

Böyük iddialarla Cənubi Qafqaza gələn general-feldmarşal İ.Qudoviçin İrəvan qalası ətrafında Həsən xandan aldığı ağır məğlubiyyət onun sərkərdəlik həyatına son qoydu. Qarşılaşdığı uğursuzluğu öz şəstinə sığışdıra bilməyən İ.Qudoviç xəstəliyinə görə xidmətdən tərxis olunmaq haqqında Rusiya imperatoruna müraciət etdi. Rusiya imperatoru İ.Qudoviçin tərxis olunmaq haqqındakı xahişini təəssüflə qəbul etdiyini bəyan etdi və İ.Qudoviçə çatdırdı ki, onun xahişi qəbul olunur, amma tərxisə hələ tələsməsin. Rusiya imperatoru istəyirdi ki, İ.Qudoviçin yerinə nəzərdə tutulan tam süvari generalı Aleksandr Petroviç Tormosov bir müddət İ.Qudoviçin rəhbərliyi altında xidmət etsin, vəziyyətlə yaxından tanış olsun. İ.Qudoviç bu tapşırığı qəbul etdi. A.Tormosov bir müddət onun rəhbərliyi altında fəaliyyət göstərdi. 1809-cu il mart ayının 5-də A.Tormosov İ.Qudoviçun yerinə təyin edildi. 1809-cu il aprel ayının 12-də isə A.Tormosov Qafqazdakı rus qoşunlarının baş komandanı vəzifəsini öz üzərinə götürdü.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Акты Собранные Кавказской Археологической Комиссии (АКАК). Т. III, Тифлис, 1869, с.413
2. Большая Кавказская война (16). http://www.vko.ru/DesktopModules/Articles/ArticlesView.aspx?tabLD=...
3. Дубровин Н. История войны и владычества русских на Кавказе. Т. V, С-Петербург, 1887, с.1-2
4. Дубровин Н. История войны... Т. V, с.3
5. Дубровин Н. История войны... Т. V, с.4-5
6. Дубровин Н. История войны... Т. V, с.6
7. Дубровин Н. История войны... Т. V, с.21-22
8. Дубровин Н. История войны... Т. V, с.22
9. Дубровин Н. История войны... Т. V, с.27
10. АКАК, Т. III, с.413
11. Дубровин Н. История войны... Т. V, с.43-44
12. АКАК, Т. III, с.414
13. Дубровин Н. История войны... Т. V, с.45
14. Дубровин Н. История войны... Т. V, с.46-47
15. Дубровин Н. История войны... Т. V, с.48
16. АКАК, Т. III, с.419
17. АКАК, Т. III, с.419
18. АКАК, Т. III, с.420
19. АКАК, Т. III, с.421
20. АКАК, Т. III, с.422
21. اسنادی از روابط ایران و روسیه از قاجاریه تا صفویه. تهران، 1387، ص.476
22. اسنادی از روابط ایران و روسیه...ص.477
23. АКАК, Т. III, с.429-431
24. АКАК, Т. III, с.431
25. سفرنامه ابولحسن خان شیرازی(الچی) به روسیه. تهران، 1363، ص.28 (مقدمه) شیرازی م.
26. آهنگسروش (میرزا محمد صادیق وقایع نگار. تاریخ جنگهای ایران و روس. تهران، 1360، ص.149

27. نفیسی سعید. تاریخ اجتماعی و سیاسی ایران در دوره معاصر. جلد اول، تهران، 1383، ص.160
28. ناصر نجمی. عباس میرزا. تهران، 1374، ص.241
29. Дубровин Н. История войны... T. V, c.127
30. Дубровин Н. История войны... T. V, c.202
31. آهنگسروش (میرزا محمد صادیق وقایع نگار). تاریخ جنگهای ایران و روس. تهران، 1360، ص.150
32. دنبلی عبدالرزاق . ماثر سلطانیه. تهران،1382، ص.264
33. АКАК, T. III, c.434
34. АКАК, T. III, c.436
35. АКАК, T. III, c.437
36. АКАК, T. III, c.439-440
37. ینـــاب اکبر. تاریخ سیاسی و دیپلوماسی ایران. جلد اول، تهران، 1348 ، ص.125
38. Присоединение Восточной Армении к Росии. Ереван, 1972, c.376
39. Дубровин Н. История войны... T. V, c.203
40. АКАК, T. III, c.452
41. مدنی ج. تاریخ تحولات سیاسی و روابت خارجی ایران. جلد اول، تهران، 1378، ص.132
ناصر نجمی. عباس میرزا. تهران، 1374، ص. 242
42. Дубровин Н. История войны... T. V, c.206
43. Дубровин Н. История войны... T. V, c.206-207
44. ماموریت ژنرال گاردان در ایران. تهران، 1362، ص. 98
45. ماموریت ژنرال گاردان در ایران. تهران، 1362، ص.99
46. ماموریت ژنرال گاردان ، ص.100
47. آهنگسروش ، ص. 160
48. АКАК, T. III, c.477
49. АКАК, T. III, c. 477-479
50. АКАК, T. III, c. 486
51. АКАК, T. III, c. 487
52. آهنگسروش ، ص. 161
53. ماموریت ژنرال گاردان ، ص.11
54. آهنگسروش ، ص. 162
55. آهنگسروش ، ص. 162
56. آهنگسروش ، ص. 162 ؛ مدنی ج، ص.134
57. ماموریت ژنرال گاردان ، ص.112
58. ماموریت ژنرال گاردان ، ص.116-117

59. ماموریت ژنرال گاردان ، ص.119
60. ماموریت ژنرال گاردان ، ص.12
61. مدنی ج، ص.135
62. مدنی ج، ص.136
63. Дубровин Н. История войны... Т. V, с.32-33
64. Дубровин Н. История войны... Т. V, с.34
65. Дубровин Н. История войны... Т. V, с.35-36
66. Дубровин Н. История войны... Т. V, с.36
67. Azərbaycan tarixi. IV c. Bakı, 2000, s.27
68. Дубровин Н. История войны... Т. V, с.62
69. АКАК, Т. III, с.90
70. АКАК, Т. III, с. 378
71. Mustafazadə T. Quba xanlığı. Bakı, 2005, s.214
72. Дубровин Н. История войны... Т. V, с.64
73. Дубровин Н. История войны... Т. V, с.65
74. АКАК, Т. III, с.90
75. АКАК, Т. III, с. 90-91
76. Дубровин Н. История войны... Т. V, с.74
77. АКАК, Т. III, с.91-92
78. АКАК, Т. III, с.92-93
79. Дубровин Н. История войны... Т. V, с.92-93
80. Искендерова М. Бакинское ханство. Баку, 1999, с.159
81. Дубровин Н. История войны... Т. V, с.78
82. Дубровин Н. История войны... Т. V, с.78-79
83. آهنگسروش ، ص. 138
84. АКАК, Т. III, с.349
85. АКАК, Т. III, с.349
86. Искендерова М., с.159
87. Дубровин Н. История войны... Т. V, с.80
88. АКАК, Т. III, с.393
89. АКАК, Т. III, с.393
90. АКАК, Т. III, с.394
91. АКАК, Т. III, с.394
92. АКАК, Т. III, с.395
93. АКАК, Т. III, с.395
94. АКАК, Т. III, с.396
95. АКАК, Т. III, с.396

96. АКАК, Т. III, с.396
97. АКАК, Т. III, с.396
98. АКАК, Т. III, с.353, 397
99. АКАК, Т. III, с.397
100. АКАК, Т. III, с.353
101. АКАК, Т. III, с.355
102. АКАК, Т. III, с.397
103. АКАК, Т. III, с.398
104. АКАК, Т. III, с.399
105. АКАК, Т. III, с.401
106. АКАК, Т. III, с.402-403
107. АКАК, Т. III, с.403
108. АКАК, Т. III, с.268
109. دنبلی عبدالرزاق . ماثر سلطانیه. تهران،1382، ص.262
110. Дубровин Н. История войны... Т. V, с.58-59
111. Дубровин Н. История войны... Т. V, с.59-60
112. Дубровин Н. История войны... Т. V, с.60-61
113. Дубровин Н. История войны... Т. V, с.85
114. میرزا محمد تقی لسانالملک سپهر. ناسخ التواریخ. تهران، 1311، ص.153
دنبلی عبدالرزاق . ماثر سلطانیه. تهران،1382، ص.262
115. Дубровин Н. История войны... Т. V, с.86
116. АКАК, Т. III, с.269
117. آهنگسروش ، ص. 142
118. میرزا محمد تقی لسانالملک سپهر. ناسخ التواریخ. تهران، 1311، ص.153
دنبلی عبدالرزاق . ماثر سلطانیه. تهران،1382، ص.263
119. دنبلی عبدالرزاق . ماثر سلطانیه. تهران،1382، ص.263
120. АКАК, Т. III, с.269
121. Дубровин Н. История войны... Т. V, с.87
122. АКАК, Т. III, с.269
123. Дубровин Н. История войны... Т. V, с.86
124. Дубровин Н. История войны... Т. V, с.88
125. АКАК, Т. III, с.269
126. АКАК, Т. III, с.270, 348
127. АКАК, Т. III, с.270
128. АКАК, Т. III, с.271
129. АКАК, Т. III, с.274
130. АКАК, Т. III, с.275

131. АКАК, Т. III, с.275
132. АКАК, Т. III, с.276
133. АКАК, Т. III, с.276
134. АКАК, Т. III, с.277
135. АКАК, Т. III, с.278
136. АКАК, Т. III, с.278
137. АКАК, Т. III, с.279
138. АКАК, Т. III, с.280-281
139. АКАК, Т. III, с.283
140. АКАК, Т. III, с.284, 286
141. АКАК, Т. III, с.286-287
142. АКАК, Т. III, с.287-288
143. АКАК, Т. III, с.287
144. АКАК, Т. III, с.293
145. АКАК, Т. III, с.319
146. Дубровин Н. История войны... Т. V, с.90-91
147. АКАК, Т. III, с.319
148. Дубровин Н. История войны... Т. V, с.91
149. АКАК, Т. III, с.319
150. АКАК, Т. III, с.319
151. Дубровин Н. История войны... Т. V, с.93
152. АКАК, Т. III, с.322-323
153. АКАК, Т. III, с.323-324
154. АКАК, Т. III, с.326
155. АКАК, Т. III, с.96
156. АКАК, Т. III, с.295
157. АКАК, Т. III, с.295
158. Дубровин Н. История войны... Т. V, с.68-69
159. Дубровин Н. История войны... Т. V, с.70
160. Дубровин Н. История войны... Т. V, с.70-71
161. АКАК, Т. III, с.297
162. Дубровин Н. История войны... Т. V, с.71
163. АКАК, Т. III, с.302
164. АКАК, Т. III, с.302
165. АКАК, Т. III, с.298
166. АКАК, Т. III, с.300
167. АКАК, Т. III, с.307

168. АКАК, Т. III, с.310
169. АКАК, Т. III, с.311
170. АКАК, Т. III, с.318
171. АКАК, Т. III, с.359
172. АКАК, Т. III, с.360
173. АКАК, Т. III, с.359
174. دنبلی عبدالرزاق . ماثر سلطانیه. تهران،1382، ص.262
175. آهنگسروش ، ص. 144
176. رضاقلی خان هدایت. روضتالصفا ناصری. جلد نهم، تهران، ص.7569
177. АКАК, Т. III, с.360
178. АКАК, Т. III, с.361
179. АКАК, Т. III, с.354
180. АКАК, Т. III, с.361
181. АКАК, Т. III, с.515
182. АКАК, Т. III, с.231
183. Потто. Утверждение русского владычества на Кавказе. Т. I, Тифлис, 1901, с.256
184. Присоединение Восточной Армении к Росии. Ереван, 1972, с.361
185. Потто., с.265
186. Потто., с.265
187. АКАК, Т. III, с.242
188. АКАК, Т. III, с.242, 258
189. АКАК, Т. III, с.242
190. АКАК, Т. III, с.259
191. АКАК, Т. III, с.243
192. АКАК, Т. III, с.258
193. АКАК, Т. III, с.243, 258
194. АКАК, Т. III, с.244, 258
195. АКАК, Т. III, с.244, 258
196. АКАК, Т. III, с.237
197. АКАК, Т. III, с.244, 259
198. Потто., с.297; Дубровин Н. История войны... Т. V, с.212
199. АКАК, Т. III, с.244, 258
200. АКАК, Т. III, с.259
201. АКАК, Т. III, с.238
202. АКАК, Т. III, с.259

203. АКАК, Т. III, с.259
204. АКАК, Т. III, с.259
205. АКАК, Т. III, с.260
206. АКАК, Т. III, с.259-260
207. АКАК, Т. III, с.240
208. АКАК, Т. III, с.240
209. АКАК, Т. III, с.260
210. میرزا محمد تقی لسانالملک سپهر. ناسخ التواریخ. تهران، 1311، ص.175
211. АКАК, Т. III, с.260
212. میرزا محمد تقی لسانالملک سپهر. ناسخ التواریخ. تهران، 1311، ص.175
213. میرزا محمد تقی لسانالملک سپهر. ناسخ التواریخ. تهران، 1311، ص.175
214. Дубровин Н. История войны... Т. V, с.215
215. Присоединение Восточной Армении к Росии. Ереван, 1972, с.480; Григорян З.Т. Присоединение Восточной Армении к Росии в начале XIX века. Москва, 1959, с.85
216. میرزا محمد تقی لسانالملک سپهر. ناسخ التواریخ. تهران، 1311، ص.176
دنبلی عبدالرزاق . ماثر سلطانیه. تهران،1382، ص.290
217. Дубровин Н. История войны... Т. V, с.216
218. АКАК, Т. III, с.260-261
219. АКАК, Т. III, с.246
220. АКАК, Т. III, с.252
221. Дубровин Н. История войны... Т. V, с.218
222. АКАК, Т. III, с.253, 264
223. دنبلی عبدالرزاق . ماثر سلطانیه. تهران،1382، ص.291
224. Дубровин Н. История войны... Т. V, с.218
225. АКАК, Т. III, с.248
226. АКАК, Т. III, с.248
227. АКАК, Т. III, с.249
228. АКАК, Т. III, с.250
229. Дубровин Н. История войны... Т. V, с.222
230. Присоединение Восточной Армении к Росии. Ереван, 1972, с.486
231. Yenə orada, s.486
232. Yenə orada, s.487
233. Yenə orada, s.487
234. Yenə orada, s.488
235. Yenə orada, s.489

236. Потто., с.303
237. Присоединение Восточной Армении..., с.478
238. Yenə orada, s.481
239. Потто., с.303
240. АКАК, Т. III, с.254
241. Присоединение Восточной Армении..., с.490
242. محمد تقی لسانالملک سپهر. تاریخ التواریخ. تاریخ قاجاریه. جلد اول، تهران، 1377، ص.174
243. میرزا فضل اله شیرازی. تاریخ ذولقرنین.جلداول، تهران، 1380، ص.286
244. دنبلی عبدالرزاق . ماثر سلطانیه. تهران،1382، ص.292
245. آهنگسروش ، ص. 167
246. АКАК, Т. III, с.262
247. АКАК, Т. III, с.262
248. АКАК, Т. III, с.262
249. دنبلی عبدالرزاق . ماثر سلطانیه. تهران،1382، ص.294
250. АКАК, Т. III, с.251
251. Присоединение Восточной Армении..., с.472
252. АКАК, Т. III, с.450
253. Потто., с.305
254. Потто., с.305-306
255. Потто., с.306
256. دنبلی عبدالرزاق . ماثر سلطانیه. تهران،1382، ص.295
257. АКАК, Т. III, с.263

V FƏSİL

GÜLÜSTAN MÜQAVİLƏSİNİN İMZALANMASI ƏRƏFƏSİNDƏ AZƏRBAYCAN XANLIQLARININ HƏRBİ-SİYASİ VƏZİYYƏTİ

1. Azərbaycan xanlıqları ətrafında yeni beynəlxalq şəraitin formalaşması

1809-cu il aprel ayının 14-də tam süvari generalı Aleksandr Petroviç Tormosov feldmarşal İ.Qudoviçi əvəzləyərək vəzifəsinin icrasına başladı. Rus qoşunlarının Qafqazdakı baş komandanı olmaqla A.Tormosovun təyin edildiyi vəzifə rəsmi şəkildə belə adlanırdı – Həştərxan, Qafqaz və Gürcüstan quberniyalarının baş hakimi. A.Tormosov kifayət qədər mürəkkəb dövrdə bu vəzifəyə təyin olundu və onun qarşısına İ.Qudoviçin komandanlığı dövründə icra olunmamış vəzifələrin icrası tələbi qoyuldu. Bu, hər şeydən əvvəl Rusiya sərhədlərinin Kür və Araz çaylarına çatdırılması və bu çaylara qədər olan ərazilərin birdəfəlik Rusiyanın işğalı altına gətirilməsi idi. Həmin ərazilərin tutulması, Cənubi Qafqazın işğalının başa çatdırılması Rusiya xarici siyasətinin strateji hədəflərindən biri idi.

A.Tormosov zabit kimi rus ordusunda xidmətə 1772-ci ildə başlamışdı. Bütün bacarığını və istedadını ortaya qoymaqla o, qısa zamandan sonra polkovnik rütbəsinə layiq görüldü. 1791-ci ildə A.Tormosov Aleksandr qusar alayının komandiri kimi Osmanlı Türkiyəsinə qarşı müharibədə iştirak etdi. Həmin müharibədəki xidmətlərinə görə ona general-mayor rütbəsi verildi və süvari briqadasının komandiri təyin olundu. 1798-ci ildə A.Tormosov general-leytenant, üç il sonra isə tam süvari generalı rütbəsi aldı. 1807-ci ildə A.Tor-

mosov rus ordusunda xidmətdən tərxis olundu. 1809-cu ildə Rusiya imperatoru onu yenidən xidmətə çağırdı və Qafqazdakı qoşunların baş komandanı təyin etdi (1).

Vəzifəsinin rəsmi icrasına başlamazdan əvvəl A.Tormosov bölgənin hərbi-siyasi şəraiti ilə az-çox tanış ola bilmişdi. O, vəzifəsinin icrasına başlamaq haqqında Rusiya sarayına göndərdiyi məktubunda da bu vəziyyətin bəzi məqamlarını açıqladı. Bu məktubda bildirilirdi ki, Rusiya dövləti İranla müharibə vəziyyətində qalmaqdadır. Rusiya Cənubi Qafqazın işğalı siyasətindən əl çəkmədiyi kimi, Qacar sarayı da Cənubi Qafqazı öz nəzarəti altına almaq niyyətindən əl çəkmirdi. Amma Qacarlar dövlətinin hərbi potensialı Cənubi Qafqaz uğrunda Rusiya ilə bərabər səviyyədə mübarizə aparmaq imkanı vermirdi. Fransa müşavirlərinin rəhbərliyi altında Qacar qoşunlarının yenidən qurulması və təkmilləşdirilməsi isə başa çatmamışdı. Ona görə qacarlar sarayı Rusiya ilə aprılan sülh danışıqlarına maraq nümayiş etdirirdi. Çünki danışıqların Qacar dövlətinin maraqlarına cavab verə biləcəyi haqqında müəyyən ümidlər mövcud idi. A.Tormosovun vəzifəsinin icrasına başlaması ərəfəsində də Qacar sarayından danışıqların davam etdirilməsi və şah nümayəndəsinin Sankt-Peterburqa göndərilməsinə kömək göstərilməsi haqqında müraciət daxil oldu (2).

A.Tormosov Qacar sarayı ilə danışıqların davam etdirilməsinə razı idi və o da ümid edirdi ki, bu danışıqlarla Rusiyanın Qafqazdakı işğalçılıq siyasətinin tamamlanmasına fürsət əldə edəcəkdir. Amma bununla belə, A.Tormosov Qacar qoşunlarının Arazın cənubunda fəallaşması haqqında da məlumat əldə etmişdi. Baş komandanın fikrincə, Qacar sarayı danışıqların davam etdirilməsini təklif etməklə Rusiya sarayının və Rusiya qoşunları komandanlığının sayıqlığını yayındırmağa çalışırdı və münasib fürsət düşən kimi Arazın şimalına hücuma keçmək fürsətini əldən verməyəcəkdi. Ona görə də A.Tormosov çevik bir fəaliyyət şəbəkəsi yaratmağı qərarlaşdırdı. Onun nəzərincə, qoşun hissələrini və bölmələrini elə yerləşdirmək lazım idi ki, zərurət yaranan anda həm Qacar qoşunlarının, həm də Osmanlı qoşunlarının hücumlarının qarşısını almaq mümkün olsun. Çünki Osmanlı Türkiyəsi ilə də münasibətlər kəskinləşməkdə idi və Rusiya ilə Osmanlı arasında müharibənin başlayacağı istisna deyildi (3).

Həm Qacarlar dövlətinin, həm də Osmanlı dövlətinin qoşunlarının hücumlarına qarşı vaxtında tədbir görülməsi isə rus qoşunlarının İrəvan və Naxçıvan xanlıqları ətrafında yerləşdirilməsi ilə mümkün ola bilərdi.

Bu istiqamətlərdə qoşunların yerdəyişmələrinin edilməsi isə Qacar sarayının diqqətindən qaçmırdı.

Qacar sarayının əldə etdiyi məlumata görə, A.Tormosov general-mayor Nebolsini dəstəsi ilə birlikdə Qarabağa göndərdi. Rus qoşunlarının başqa bir dəstəsi Pəmbək və Şuragöl istiqamətində yerləşdirildi. Gəncə ətrafını, Qazax və Şəmşəddil mahallarını qoruyan rus qüvvələri də gücləndirildi (4). Bu məlumat alınandan sonra Qacarlar sarayı da Azərbaycan xanlıqları üzərinə yeni hücum hazırlığı əmrini verdi. Fətəli şah özü şəxsən Azərbaycan xanlıqları üzərinə planlaşdırılan kampaniyada iştirak etmək üçün Zəncan yaxınlığındakı Soltaniyyə çəməninə gəldi. Bura çatandan sonra Fətəli şah böyük oğlu Məhəmmədəli Mirzəni qoşun dəstəsi ilə birlikdə yanına çağırdı. Məhəmmədəli Mirzə Dövlətşah Fətəli şahın böyük oğlu olsa da, onun anası qacarlar boyundan olmadığı üçün vəliəhd təyin edilməmişdi. Əvəzində isə ona İranın qərb hissəsinin hakimiyyəti tapşırılmışdı. Onun iqamətgahı Kermanşahda yerləşirdi. Azərbaycan üzərinə hücumda iştirak etmək göstərişi alan kimi Məhəmmədəli Mirzə qoşun dəstəsi ilə Fətəli şaha qoşuldu. Onların qarşılanması üçün şahlıq səltənətinin vəliəhdi Abbas Mirzə Təbrizdə xüsusi mərasim təşkil etdi. Onun tapşırığı ilə 20 min nəfərlik yeni hazırlanmış qoşun dəstəsi 20 ədəd topla qonaqların qarşılanması üçün qarşı-qarşıya iki sırada mərasim duruşuna dayandılar. Fətəli şah müşahidə etdiyi bu qoşun dəstəsindən xoş təəssürat aldı və bu qoşun dəstəsinin təşkilində iştirakı olanları səxavətlə mükafatlandırdı (5).

Qeyd etmək lazımdır ki, Qacar qoşunlarının Təbriz ətrafına toplanması və Fətəli şahın ora gəlməsi 1809-cu ilin yayına təsadüf edir. Bu zaman rus qoşunları komandanlığında artıq ehtimal edilirdi ki, Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərinə hücumu qaçılmaz olacaqdır. Güman edilirdi ki, Qacar qoşunlarının hücum istiqamətlərindən biri İrəvan xanlığı ərazisindən keçəcəkdir. Çünki Gürcüstana və Gəncə ətrafına çıxmaq üçün İrəvan xanlığından keçən marşrut daha münasib idi. Ona görə A.Tormosov həm bu istiqamətdəki qoşunları möhkəmləndirdi, həm də İrəvan xanı ilə təmas qurmağa cəhd göstərdi.

İrəvan xanlığı İ.Qudoviçin hücumundan sonra ağır müharibədən çıxsa da, özünün hərbi potensialını qoruyub saxlamağa müvəffəq olmuşdu. Çünki xanlığın qoşunlarının bir hissəsi sərdar Hüseyn xanın rəhbərliyi altında fəal döyüşlərdən kənarda qalmışdı. İrəvan qarnizonu isə qalanın müdafiə imkanlarına sığınaraq müdafiə döyüşü aparırdı. Qalanın özünə müəyyən ziyanlar yetirilsə də, qala qarnizonu elə də ciddi itki

vermədən döyüşü başa çatdıra bildi. Digər tərəfdən də çoxsaylı rus qoşunları üzərində qələbə xanlıq qoşunlarının mübarizliyinin yüksəlməsinə də öz müsbət təsirini göstərmişdi.

Rus qoşunlarının geri çəkilməsindən sonra İrəvan xanı sərdar Hüseynqulu xan xanlığın idarə olunmasını yenidən öz əlinə aldı. A.Tormosov vəzifəsinin icrasına başladığı ilk aylarda sərdar Hüseyn xanla əlaqə yaradıb sülhə tərəfdar olduğunu bildirdi. Amma rus generalı bu sülhü İrəvan xanlığının Rusiya tərkibinə qatılması və Rusiya sərhədlərinin Araz çayına çatdırılması kimi görürdü. Bu mövqeyini general A.Tormosov İrəvan xanına göndərdiyi məktubunda da açıqladı və irəli sürdüyü təklifinə sərdar Hüseyn xan tərəfindən sərt münasibət aldı. Sərdar Hüseyn xan rus qoşunları komandanına Rusiya ilə Qacarlar dövləti arasında sərhədin Araz çayından keçməsi, bu çayın iki dövlət arasında dostluq və anlaşma çayına çevrilməsi təklifi ilə razılaşmadı. İrəvan xanı bildirdi ki, əzəmətli Elbrus dağı iki dövlət arasında daha təbii sərhəd xətti ola bilərdi. Onun fikrincə, Araz çayının axarının zəifləməsi mümkündürsə, Elbrus dağının kiçilməsi mümkün deyil. Sərdar Hüseyn xan Elbrus dağını iki dövlət arasında Allah tərəfindən yaradılmış təbii sərhəd bilirdi. İrəvan xanı sülh və dostluq anlayışının tərəflər arasında müxtəlif şəkildə qəbul edildiyini yazırdı. Onun nəzərində sülh iki tərəf arasında bərabər hüquqlu müqavilənin bağlanması, hər iki tərəfin səylərinin mövcud düşmənçilik vəziyyətinin dəyişdirilməsinə yönəldilməsi, tərəflər arasında anlaşma bərqərar edilməsi demək idi. Amma mövcud vəziyyəti təhlil edəndən sonra Hüseynqulu xan iki dövlət arasında sülhün və dostluğun mümkün olacağına şübhə ilə yanaşırdı. Sərdar Hüseynqulu xan tarixdən nümunələrə istinad etməklə bölgənin çoxsaylı təcavüzlərə məruz qaldığını bildirirdi və ona işarə edirdi ki, indi də Rusiyanın təcavüzü ortaya gəlməkdədir. İrəvan xanı bildirirdi ki, insanlar isə əvvəlki insanlardır və həmin insanlarla təcavüzün izlərini aradan qaldırmaq olar (6).

General A.Tormosovun İrəvan xanı ilə anlaşma əldə etmək cəhdi baş tutmadı. Sərdar Hüseynqulu xan nəinki rus hakimiyyəti altına düşmək istəmirdi, əksinə İrəvan xanlığı ətrafında olan mahalları da rus işğalı altından çıxarmağa çalışırdı. Onun bu niyyəti həm şah sarayı tərəfindən, həm də Osmanlı dövləti tərəfindən müdafiə olunurdu. Məsələn, sonralar Ərzrum sərəsgəri də İrəvan xanlığı qoşunlarının hərbi təchizatının təkmilləşdirilməsinə kömək göstərirdi (7).

İki dövlət arasında müharibənin alovlanmasına yol verməmək üçün general A.Tormosov Qacar taxt-tacının vəliəhdi Abbas Mirzəyə də

məktub göndərdi. Çünki yaranmış mürəkkəb beynəlxalq vəziyyət üzündən yuxarıda qeyd edildiyi kimi, Rusiya dövləti hələlik Qafqaz müharibəsinin qızışdırılmasında maraqlı deyildi. Qacar şahzadəsi Abbas Mirzəyə göndərilən məktub kifayət qədər böyük bir məktub idi və orada Rusiyanın Qafqaz siyasəti, Rusiyanın təklif etdiyi sülhün mahiyyəti açıqlanmışdı. Məktubda qeyd olunurdu ki, İ.Qudoviç vəzifəsini tərk etməsindən əvvəl Abbas Mirzənin vəziri Mirzə Bozorgdan sülh danışıqlarının davam etdirilməsi haqqında təklif almışdı. A.Tormosov yazırdı ki, həmin təklif Rusiya imperatoruna göndərilmişdir və ondan hər hansı tapşırıq alınana qədər Rusiya öz qoşunlarının döyüş fəaliyyətini dayandırmışdır. Baş komandan bildirirdi ki, hazırda bölgənin hakimi və rus qoşunlarının baş komandanı kimi fəaliyyətə başlamış və Qacarlar sarayı ilə danışıqlar aparılması üçün Rusiya imperatorundan lazımi səlahiyyətlər almışdır. Öz növbəsində o da təklif edirdi ki, əgər Qacar sarayı doğrudan da sülh danışıqlarına hazırdırsa, onda heç kimin vasitəçiliyi olmadan bu danışıqlar başlansın. Sonra A.Tormosov iki dövlət arasında əldə edilə biləcək sülhün Qacar dövlətinə gətirə biləcəyi faydaları sadalayırdı. Bunlar Rusiya ilə ticarətin genişləndirilməsindən əldə edilən fayda və bir də Rusiya ilə ittifaqda Osmanlı dövlətinə qarşı əldə oluna biləcək mövqe üstünlüyü idi. A.Tormosov ona da işarə edirdi ki, Rusiya ilə müttəfiqliyi gücləndirməklə Qacar sarayı Bağdadı, Bəsrəni, Bayazidi və başqa əraziləri öz nəzarəti altına ala bilər. Bunların əvəzində isə Rusiya sərhəd xəttinin Kür, Araz və Arpaçaydan keçməsini istəyirdi. Həmin sərhəd xəttinin tanınacağı təqdirdə Rusiyanın Fətəli şahı dövlət başçısı kimi, Abbas Mirzəni isə onun vəliəhdi kimi tanıyacağı vəd edilirdi. Əlavə olaraq, Rusiya dövləti İranın təhlükəsizliyinə də zəmanət verirdi. A.Tormosov məktubunda Qacar sarayının İngiltərə və Fransa ilə müttəfiqlikdən də çəkindirməyə çalışırdı və bildirirdi ki, Avropa dövlətləri ilə ittifaq qurmaq şah dövlətinin təhlükəsizliyinə təminat verə bilməz. Məktubunun sonunda A.Tormosov bir daha təklif edirdi ki, Rusiyanın irəli sürdüyü şərtlər əsasında danışıqlar bərpa olunsun və bu danışıqların aparılması üçün Rusiya sarayına yollanacaq nümayəndə heyəti haqqında ona məlumat verilsin (8).

A.Tormosovun məktubu Abbas Mirzəyə o vaxt göndərildi ki, Qacar qoşunlarının fəal şəkildə yürüşə hazırlaşması və Fətəli şahın da bu yürüşdə iştirak etməsi haqqında məlumat alınmışdı. Rus qoşunları baş komandanı Qacar qoşunlarının hazırlıq prosesini izləməyə çalışsa da onların Arazın şimalına yürüş edəcəyinə inanmırdı. A.Tormosov daha çox onu ehtimal edirdi ki, bu hazırlıq görüntüsü ilə Qacar sarayı

Qafqazdakı rus qoşunlarını qorxutmaq və rus qoşunlarını gələcək hücumlardan çəkindirmək istəyir. Bununla belə, general Tormosov Qacar qoşunlarının yürüşünün başlanacağı təqdirdə hansı addımların atılmalı olduğunu da aydınlaşdırmağa çalışırdı. Qacarların hücumunun qarşısının alınması ilk növbədə general-mayor Nebolsinin rəhbərliyi altında olan qoşun dəstəsinin üzərinə düşməli idi. Qacarlara qarşı müdafiənin təşkili üçün A.Tormosov Şəki, Şamaxı və Qarabağ xanlarının hər birinin 1000 nəfərlik atlı dəstə təşkil etmələrini xahiş etdi. Bu xanlıqların atlı dəstələri ilk növbədə həmin xanlıqlarının öz malikanələrinin müdafiəsində dayanmalı, zərurət yarandığı təqdirdə isə A.Tormosovun sərəncamına daxil olmalı idilər (9).

İstər Abbas Mirzə, istərsə də Qacar sarayı general A.Tormosovun bu təklifi ilə razı olmadı. Əksinə, ölkə daxilində ruslara qarşı müharibə ab-havası daha da genişləndi. Rusiyanın Cənubi Qafqazdakı işğalçılıq siyasətinin məhdudlaşdırılması üçün şah sarayı hətta İngiltərə ilə yeni əlaqələr qurulmasına da razı oldu.

Cənubi Qafqaz və onun ətrafında cərəyan edən hadisələr İngiltərə tərəfindən də diqqətlə izlənilirdi. Xüsusilə, İngiltərənin düşmənləri sayılan Fransanın və Rusiyanın Cənubi Qafqazdakı proseslərdə iştirakı və bununla onların şah sarayına bu və ya digər təsir göstərmək imkanı İrana olan marağı xüsusilə artırırdı. İngiltərə tərəfindən bu proseslər ilk növbədə onun Hindistandakı mövqelərinə necə təsir göstərəcəyi bucağından qiymətləndirilirdi. Şah sarayının Rusiyaya üstün gəlib Azərbaycan xanlıqlarını və Gürcüstanı ələ keçirməsi onun mövqelərini daha da gücləndirər və İranın Hindistana təcavüz ehtimalını daha da artıra bilərdi. Digər tərəfdən Rusiyanın Cənubi Qafqazı işğal etməsi də bu dövlətin və onun müttəfiqi Fransanın zəifləmiş İran üzərindən Hindistana doğru hərəkətinə başlanğıc ola bilərdi. Ona görə İngiltərə Cənubi Qafqazda cərəyan edən hadisələrə müdaxilə etməklə bütünlükdə şah sarayına təsir etmək yollarını axtarmaqda idi.

Rusiya ilə Fransa arasında Tilzit müqaviləsinin imzalanması İngiltərənin şərq siyasətində daha da fəallaşmasına yol açdı. Bu müqaviləyə əsasən Fransanın İranın mənafelərini nəzərə almadan Rusiya ilə ittifaqa girməsini qabartmaqla şah sarayı ilə Fransa arasındakı münasibətləri dəyişmək və İranla İngiltərə arasındakı münasibətlərin yenidən qurulmasına yeni bir şans əldə etmək mümkün idi. Ona görə də İngiltərə hakim dairələri Tilzit müqaviləsinin imzalanmasından sonra İranla münasibətlərin yaxşılaşdırılması üçün qətiyyətli addımlar atmağı qarşısına məqsəd qoydu. Bu istiqamətdə İngiltərənin hakim dairələri

hətta müəyyən tələsgənliyə də yol verdi və eyni zamanda iki ingilis nümayəndə heyəti şah sarayına ezam edildi. Bu nümayəndə heyətlərindən biri İngiltərənin Hindistandakı hakimi Jilbert Minto tərəfindən, digəri isə Londondan, İngiltərə hökuməti tərəfindən təyin edilmişdi. İngiltərənin Hindistandakı hakimi, Fransanın İran ərazisindən keçməklə Hindistana təcavüzünü çox real sayırdı və bundan xeyli narahatçılıq keçirirdi. Onun fikrincə Fransanın İrandakı hərbi-siyasi nümayəndə heyəti Fransanın Hindistana çıxarmaq istədiyi avanqard dəstə idi. Minto eyni zamanda belə güman edirdi ki, Londona nisbətən Hindistandan daha çevik fəaliyyət göstərmək olar və ona görə general Qardanın İranda olduğu vaxt bu ölkəyə öz nümayəndə heyətini göndərməyi qərara aldı. Bu nümayəndə heyətinin rəhbəri Con Malkolm seçildi. Minto əmin idi ki, İranla yaxşı tanışlığa malik olan Con Malkolm qarşıya qoyulan məqsədə çatmaq üçün yaxşı namizəddir. O, 1808-ci ilin mart ayının 9-da Con Malkolma məktub yazaraq onu İrana göndəriləcək nümayəndə heyətinin rəhbəri təyin etdiyini bildirdi və xahiş etdi ki, tezliklə bu səfərin icrasına başlasın. C.Malkolm bu tapşırığı alan kimi onun icrasının hazırlığına başladı və 1808-ci il may ayının 10-da 4 gəmi ilə Buşehrə doğru istiqamət götürdü (10).

Bəzi tarixi ədəbiyyatda C.Malkolmun may ayının 10-da Buşehrə çatdığını bildirilir (11). Hər halda məlumdur ki, ingilis elçisi 1808-ci ilin may ayında İran ərazisinə yetişdi. Özü də o, ingilislər ilə münasibətlərin mürəkkəb olduğu bir dövrdə İrana gəldi. Tilzit müqaviləsinin məzmunu və Fransa imperatorunun şah sarayını Rusiya ilə barışdırmağa çalışması şah sarayına məlum olsa da, Fransa ilə ittifaqın qorunacağına ümid bağlayanlar da çox idi. Fətəli şah və onun əyanları Fransa ilə ittifaqın qorunacağına hələ də ümidlərini kəsməmişdilər. Digər tərəfdən general Qardan da bu ittifaqın saxlanmasına çalışırdı və şah sarayında müəyyən nüfuza malik idi. O, ingilis elçisinin gəlişini çox narahatçılıqla qarşıladı və malik olduğu nüfuzdan istifadə edərək onun şah tərəfindən qəbul olunmasına mane olmağa çalışdı. General Qardan şah sarayının vəziri Mirzə Şəfiyə məktub göndərərək xəbərdar etdi ki, ingilis elçisinin İranda hərəkətinə icazə verilsə, onda o, Tehranı tərk edəcəkdir (12).



Con Malkolm

General Qardanın tələbindən asılı olmayaraq C.Malkolmun elçiliyi bir nəticə vermədi və o, Buşehrdən də geri qayıtmalı oldu. Fətəli şah və onun əyanları ingilis elçisini qəbul etməkdən imtina etdilər. İlk növbədə yuxarıda qeyd edildiyi kimi, Fransanın vasitəçiliyi ilə şah sarayı ilə Rusiya arasında müzakirələr bu zaman davam edirdi. General Qardanın vədlərinə əsasən, Fətəli şah ümid edirdi ki, Rusiya Cənubi Qafqazda işğal etdiyi əraziləri boşaldaraq geri çəkiləcəkdir. Belə olardısa İngiltərə ilə


münasibətlərin yenidən qurulmasına elə bir ehtiyac qalmırdı. O biri tərəfdən 1801-ci ildə İngiltərə ilə bağlanan müqaviləyə əsasən, Rusiya ilə müharibə başlananda ingilislərin İrana hərbi yardım göstərməməsi Fətəli şahın ingilislərə olan etimadına təsir göstərdi. İngilislərdən fərqli olaraq fransalılar şah sarayına konkret hərbi yardım göstərdilər və C.Malkolmun Buşehrə gəldiyi vaxt fransalı hərbçilər Abbas Mirzənin düşərgəsində şah qoşunlarının yenidən qurulması ilə məşğul idilər.

Doğrudur, Tilzit müqaviləsindən sonra Fətəli şah Fransa ilə gözlənilən ittifaqın davam edəcəyinə nigarançılıqla yanaşırdı, bununla belə ingilis nümayəndə heyətini qəbul etmədi.

Mövcud olan məlumatlara görə, İrana doğru hərəkətə başlamazdan əvvəl C.Malkolm Fətəli şaha məktub göndərdi. O, məktubunda şaha təklif edirdi ki, fəaliyyətlərinin nəticəsizliyinə görə fransalıları şah sarayından üzr istəməyə məcbur etsin və bundan sonra şah sarayı ingilislərlə yeni dostluq müqaviləsi imzalasın (13).

Hər halda Buşehrə daxil olarkən C.Malkolmun nəzərinə çatdırıldı ki, onun bu şəhərdən kənara çıxmağa icazəsi yoxdur. Şiraz hakiminə də tapşırıldı ki, C.Malkolmla görüşsün, onun İrana gəlişinin səbəbləri öyrənilsin və şah sarayına bu barədə məlumat çatdırılsın. C.Malkolm bu qərarı çox narazılıqla qarşılasa da, gəlişinin məqsədini açıqlamaqdan çəkinmədi. O bildirdi ki, şah sarayı ilə yeni münasibətlər qurulmasına, Rusiyaya qarşı müharibədə kömək göstərilməsinə ingilis dövləti hazırdır. Amma bunun üçün C.Malkolm yenə bir sıra şərtlər irəli sürdü: Xark adasının ingilislərə verilməsi, cənub körfəzi sahilində ingilislərin istehkam mövqelərinin tikilməsi və s. (14).

Fətəli şah öz əyanlarından olan İsmayıl Damğanini mehmandar sifətilə C.Malkolmun yanına göndərdi və onun vasitəsilə də C.Malkolma çatdırıldı ki, hazırda general Qardan Rusiya qoşunlarının Cənubi Qafqazdan çıxarılması üçün danışıqlar aparır. Ona görə də ingilis elçisinin Tehrana gəlişi düzgün deyil. Ona məsləhət görüldü ki, vəziyyət aydınlaşana qədər bir müddət Buşehrdə. C.Malkolm deyilənləri qəbul etmək məcburiyyətində qaldı və heç bir nəticəyə nail olmayacağını gördüyü üçün 1808-ci il iyun ayının sonlarında artıq öz missiyasını bitirmiş hesab etdi. Həmin il iyul ayının 12-də isə İranı tərk edərək Hindistana doğru hərəkətə başladı (15).



İngilis elçisi Con Malkolm

Qeyd etmək lazımdır ki, o, İranı son dərəcə qəzəbli hisslərlə tərk etdi və geri qayıdandan sonra Hindistandakı ingilis hakimini inandırmağa çalışdı ki, İran qarşı hərbi qüvvə tətbiq etməyin vaxtı çatmışdır. C.Malkolmun təklifi belə idi ki, ingilis və hind qüvvələri vasitəsilə Xark adası işğal edilsin, Fars körfəzindəki limanlar mühasirəyə alınsın və Kərim xan Zəndin nəslindən olan Məhəmmədəli xan şahlığa hazırlansın və münasib şərait yarananda onun taxta çıxmasına köməklik göstərilsin (16). Ölkə taxt-tacına iddia edən Məhəmmədəli xan bu vaxt Hindistanda baş girləyirdi.

Qeyd edildiyi kimi, Londonda İrana göndərilməsi üçün başqa bir nümayəndə heyəti seçilmişdi. Bu nümayəndə heyətinə Harvard Cons rəhbərlik edirdi. Onun qarşısına qoyulan vəzifə də İngiltərənin İrandakı maraqlarının qorunması idi. Müvafiq hökumət təlimatlarını alandan sonra Harvard Cons İrana doğru hərəkətə başladı. Mövcud olan məlumatlara görə, 1808-ci ilin aprel ayında H.Cons Bombeyə yetişdi. O burada ingilis hakimi ilə görüşüb onun da məsləhətlərini eşitməyi vacib bildi. Amma elə Bombeydə ikən ona Hindistanın ingilis hakimi Mintodan tapşırıq gəldi ki, İrana C.Malkolmun göndərilməsi qərara alındığı üçün bir müddət gözləsin (17).

Harvard Cons dörd ay yarım Bombeydə gözləməli oldu. Nəhayət, 1808-ci ilin iyul ayında C.Malkolmun heç bir nəticəyə nail olmadan geriyə hərəkət etdiyi barədə xəbər alındı. Bundan sonra Harvard Consa Tehrana yola düşmək əmri verildi. Müvafiq hazırlıq işlərini görəndən sonra o, İrana doğru hərəkətə başladı. H.Consun səfəri xeyli uzun çəkdi və bir də oktyabr ayının 14-də H.Consun rəhbərlik etdiyi nümayəndə heyəti Buşehrə yetişdi. Buşehrdə ikən H.Cons Fətəli şaha məktub göndərdi. Həmin məktubda H.Cons bildirirdi ki, İngiltərə dövləti tərəfindən İrana səfir təyin edilib və Rusiya qoşunlarına qarşı mübarizə aparılması üçün mümkün köməklərin göstərilməsini əsirgəməyəcəkdir. Lakin H.Cons şah sarayına kömək göstərilməsi əvəzində təmsil etdiyi dövlətin şərtlərini də xatırlatdı. Bu şərtlər ondan ibarət idi ki, Fransa ilə münasibətlər kəsilsin və general Qardan İrandan çıxarılsın (18).

Fətəli şah İngiltərənin yeni səfirinin Tehrana gəlmək niyyətində olduğunu eşidən kimi əyanlarının müşavirəsini çağırdı və məsələ barəsində saray əyanlarının məsləhətlərini dinlədi. Saray əyanları bir daha bildirdilər ki, general Qardan dövləti adından verdiyi vədləri həyata keçirə bilmədi, Qudoviçin İrəvan qalası üzərinə hücumun dayandırılması üçün general Qardanın nümayəndəsi nəinki atəşin dayandırılmasına nail olmadı, əksinə Qardanın nümayəndəsi qala müdafiəçiləri təslim olmağa çağırdı. Saray əyanları sonra konkret olaraq bildirdilər ki, general Qardan Abbas Mirzənin düşərgəsində yeni hərbi taktikadan dərs keçən müsyö Verdiyə və həndəsədən dərs keçən müsyö Lamiyeyə öz fəaliyyətlərini dayandırmaq barədə göstəriş vermişdir. Saray əyanları narahatçılıqla qeyd edirdilər ki, Qudoviçin rəhbərliyi altında olan rus qoşunları ilə döyüşlərin getdiyi bir vaxtda general Qardan adları çəkilən zabitlərdən öz işlərini dayandırmağı tələb etmiş və bununla da şah qoşunlarının yenidən qurulması istiqamətində göstərilən yardımlara son qoyulmuşdu. Bundan başqa şahın nəzərinə çatdırıldı ki, Fransaya göndərilmiş səfir Əsgər xana vəd edilən hərbi-texniki yardımlar hələ də göstərilməyib. Əsgər xan da intizarla bu yardımların nə vaxt göstəriləcəyini gözləyirdi (19).

Müşavirədən sonra səslənən fikirlər general Qardanın diqqətinə çatdırıldı. O bildirirdi ki, Rusiya qoşunlarının Cənubi Qafqazdan çıxarılmasına nail olmasa da Fransa dövləti tərəfindən şah qoşunları üçün nəzərdə tutulan tüfənglər mütləq veriləcəkdir və bunun üçün bir müddət vaxt istədi. Onu da əlavə etdi ki, əgər bu tüfənglər gəlməsə, onda özü İranı tərk edib vətəninə dönəcəkdir. Şah və saray əyanları bu deyilənlərlə razılaşdılar və bir müddət də gözləməyi qərara aldılar. Ona görə göstəriş verildi ki, H.Consun nümayəndə heyəti bir müddət Şirazda, sonra da bir müddət İsfahanda ləngidilsin. Nəzərdə tutulmuşdu ki, Fransadan vəd

olunan tüfənglər gəlsə, onda Qardan öz missiyasını Tehranda davam etdirə bilərdi (20). Başqa sözlə, əgər silahlar gəlib çıxsaydı, onda H.Consun nümayəndə heyəti Tehrana buraxılmaya bilərdi.

Müşavirədən sonra Fətəli şah özü də general Qardanla görüşdü və Fransanın ittifaq anlaşmasına riayət etməməsini bir daha onun nəzərinə çatdırdı. Şah bildirdi ki, Fransa millətinə olan sədaqətini nümayiş etdirmək üçün o, İngiltərənin bir səfirini ölkənin cənubundan geri qaytardı. Amma ingilislərin yeni bir səfiri gəlmək üzrədir. Şah qeyd etdi ki, ingilislərin bu elçisi çoxlu hədiyyələrlə gəlir General Qardanın diqqətinə çatdırıldı ki, ingilislər konkret təkliflərlə çıxış edirlər. Onlar deyirlər ki, Fransa şah qoşunları üçün çoxlu sayda tüfəng vəd etsə də, indiyədək onlar verilməyib. Lakin ingilis dövləti bunu etməyə hazırdır. Şahın sözlərinə görə, ingilislər əməkdaşlıq məsələsini qəti şəkildə qoymuşdular. Ya ingilislərlə şah sarayı arasında əməkdaşlıq başlanmalı idi və belə olanda ingilislər Rusiya qoşunlarının Cənubi Qafqazdan çıxarılmasında şah sarayına yardım etməli idi, ya da əks təqdirdə ingilislər İrana hücum edəcəkdilər. Fətəli şah general Qardana çatdırdı ki, İranın iki cəbhədə mübarizə etməyə imkanı yoxdur və bu məsələyə Fransa elçisi öz münasibətini bildirməlidir (21).

General Qardan isə Fransadan hansı cavabın gələcəyini gözləməyi məsləhət bildi. O, şah sarayına ümid dolu cavablar verdi və tarixçilərin fikrincə, general Qardan artıq yalnız vaxtı uzatmaqla məşğul idi. Bir tərəfdən Fransa sarayı şah sarayını qane edəcək cavablarla ingilils nümayəndə heyətinin Tehrana gəlməsinə qətiyyətli etirazını bildirdi, digər tərəfdən isə Abbas Mirzə düşərgəsində olan hərbçiləri geri çağırdı. Hətta Abbas Mirzənin şəxs xahişinə baxmayaraq İrəvan qalası mühasirə olduğu vaxt Fransalı mütəxəssislərin cəbhə xəttində saxlanmasına nail olunmadı (22).

Bir tərəfdən general Qardanın vədlərinin doğrulmaması, digər tərəfdən də fransalı mütəxəssislərin şah qoşunları daxilindəki fəaliyyətlərini dayandırması 1808-ci ilin son aylarında general Qardanın heyətinə olan münasibəti də dəyişdi. Heyətin üzvləri artıq əvvəlki hörmət və ehtiramla qarşılanmadılar. Belə bir şəraitdə şah sarayı H.Consun nümayəndə heyətini Tehranda qəbul etməyə qərar verdi və bu heyətin qarşılanması üçün hazırlıq işləri başlandı. General Qardan görəndə ki, ingilis nümayəndə heyətinin Tehrana gəlişinin qarşısını almağa qadir deyil, onda İranı tərk etməyi qərarlaşdırdı. Çünki ingilis nümayəndə heyətinin Tehrana gəlişi onun İranda qalmasını mənasız edirdi.

1809-cu il fevral ayının 6-da general Qardanın nümayəndə heyətinin səfiri Joain şah sarayının vəziri ilə görüşdü və son zamanlar Fransa

nümayəndə heyətinə qarşı əhali arasında hörmətsizliklərin artdığını söylədi. Şah bundan təəssüfləndiyini söyləyərək fransalılara mühafizəçilər təyin edəcəyinə söz verdi və onu da əlavə etdi ki, əhali tərəfindən artan hörmətsizliklərin qarşısının alınmasının bir yolu vardır – o da İranın tərk edilməsidir. Sonra vəzir Fətəli şahın da mövqeyini tərcüməçiyə çatdırdı. Şah bildiribmiş ki, daha general Qardanın Tehranda ləngiməsinə ehtiyac yoxdur (23).

Bununla da, düşdükləri vəziyyət general Qardanın heyətinə aydın oldu. 1809-cu il fevral ayının 12-də general Qardan və onun nümayəndə heyəti sonuncu dəfə şahla görüşdü və ondan ölkəni tərk etmək üçün icazə aldı. Bir gün sonra isə general Qardanın nümayəndə heyəti Təbrizə yola düşdü. Burada Abbas Mirzə ilə görüş keçirildi və sonra da general Qardan vətəninə dönmək üçün Tiflis marşrutu ilə hərəkətə başladı.

General Qardan yola düşəndən iki gün sonra, yəni 1809-cu il fevralın 14-də H.Consun nümayəndə heyəti Tehrana daxil oldu. Bu nümayəndə heyəti həm yüksək səviyyədə, həm də böyük ümidlərlə qarşılandı. Özü ilə çoxlu qiymətli hədiyyələr gətirməsi H.Consun nümayəndə heyətinə olan marağı daha da artırdı. Mövcud olan məlumatlara görə, H.Consun nümayəndə heyətinin tərkibinə 60 əsgər və bir neçə zabit daxil idi (24).

H.Cons Tehrana çatan kimi saray əyanları arasında ikitərəfli münasibətlər qurmaq istiqamətində danışıqlara başladı. Farsdilli mənbələrin verdiyi məlumata görə, arıq bir dəfə öz əhdinə sədaqət nümayiş etdirməmiş İngiltərə ilə ittifaqa girilməsinə qarşı şah sarayında güclü müxalifət var idi. O cümlədən, Abbas Mirzə də ingilislərə etibar edilməsinin əleyhinə idi. H.Consun nüfuzlu saray əyanlarından olan Mirzə Əbülhəsən xanla görüşləri və danışıqları öz səmərəsini verməyə başladı. Mirzə Əbülhəsən xan öz nüfuzu ilə Fətəli şahın diqqətini İngiltərə ilə müqavilə imzalanmasına cəlb edə bildi. İngilislərlə müqavilə bağlanması o demək idi ki, şah sarayı digər Avropa dövlətləri ilə olan münasibətlərinə son qoymalı idi. Fransa ilə yaradılmasına cəhd göstərilən münasibətlərin nəticəsizliyi və Cənubi Qafqazda yaranmış vəziyyətin mürəkkəbliyi şahı ingilislərlə yeni bir müqavilə imzalamağa sövq etdi. Yaranmış tarixi şəraitdə şah sarayı əslində heç nə itirmədi. Əksinə, ingilislərin verdiyi yeni vədlərə əməl ediləcəyi halda şah qoşunları xeyli gücləndirilə bilərdi.

Nəhayət aparılan qarşılıqlı müzakirələr 1809-cu il martın 12-də İngiltərə ilə şah sarayı arasında ilkin ittifaq müqaviləsinin imzalanması ilə nəticələndi. Şah sarayı tərəfindən müqaviləni baş vəzir Mirzə Şəfi, maliyyə vəziri Məhəmməd Hüseyn xan, İngiltərə tərəfindən isə ser Harford Cons imzaladı (25).

8 maddədən ibarət olan ilkin müqavilənin 1-ci maddəsində bildirilirdi ki, iki dövlət arasında möhkəm dostluq münasibətlərinin əsası qoyulur və qərara alınır ki, gələcəkdə daha geniş məsələləri əhatə edən müfəssəl bir müqavilə imzalansın. 2-ci maddədə iki dövlət arasında anlaşmanın genişləndirilməsi zəruriliyinə toxunulurdu. Xüsusi əhəmiyyət kəsb edən 3-cü maddədə qeyd olunurdu ki, İran dövləti Fransa ilə imzaladığı anlaşmanı ləğv edir və ölkə ərazisindən Fransa hərbi qüvvətlərinin Hindistana doğru hərəkətinə imkan verilməyəcəkdir. 4-cü maddəyə əsasən İran ərazisinə Fransa qüvvələri çıxarılacağı təqdirdə ingilis dövləti şah sarayına hərbi qüvvələrlə, silah-sursat və maliyyə vəsaiti ilə kömək etməli idi. Nəzərdə tutulurdu ki, hansı hərbi qüvvə və nə qədər maliyyə vəsaiti ilə kömək göstərilməsi gələcək müqavilədə aydınlaşdırılsın. İrana qarşı hərbi əməliyyatlar başlanacağı təqdirdə İngiltərə sona qədər İrana kömək etməyə söz verirdi. Eyni zamanda əfqanların Hindistan üzərinə yürüşləri başlanacağı təqdirdə şah sarayı onların qarşısının alınmasına da öz köməyini göstərməli idi. Sonrakı maddələrdə zərurət yarandığı halda İranın cənubuna ingilis qüvvələrinin çıxarılması və bu qüvvələrin fəaliyyətinin nizamlanması şərtləri var idi (26).

Araşdırmaçıların və tarixçilərin gəldiyi qənaətə görə ilkin ittifaq müqaviləsi daha çox ingilislərin maraqlarına cavab verirdi. Şah sarayı Cənubi Qafqazın geri alınmasında ingilislərin köməyi əvəzində bir sıra güzəştlərə getməyə razı oldu. Lakin bu müqavilənin imzalanması ərəfəsində ingilis məqamları arasında müəyyən anlaşılmazlıqların olduğu ortaya çıxdı. Bu anlaşılmazlıqlar İngiltərənin Hindistan hakimi Minto ilə Harford Cons arasında özünü göstərdi. Həmin anlaşılmazlıq daha çox bu iki şəxs arasında olan ədavətdən doğurdu.

Minto, H.Consun İranda səfir olmasına, xüsusilə C.Malkolmdan fərli olaraq onun şah sarayı ilə dil tapmasına qısqanclıqla yanaşırdı. Bu iki şəxs arasında olan ədavət ona gətirib çıxardı ki, İrana yeni bir səfirin təyin edilməsi zərurəti ortaya çıxdı. Bəzi tarixi ədəbiyyatın məlumatlarına görə, imzalanan müqavilənin "ilkin" adlandırılması da bununla bağlı idi.

Hər halda imzalanmış bu ilkin müqavilə Londonda təsdiqlənməli idi. Bu məsələ ilə bağlı qərara alındı ki, Londona şahın elçisi göndərilsin. Həmin elçi həm ilkin müqavilənin təsdiqlənməsi ilə bağlı, həm də yeni və müfəssəl müqavilənin mətninin razılaşdırılması ilə bağlı iş aparsın. Şahın seçimi Mirzə Əbülhəsən xanın üzərində dayandı və şahın 29 aprel 1809-cu il tarixli fərmanı ilə o, İngiltərədə səfir vəzifəsinə təyin edildi. Mirzə Əbülhəsən xan eyni zamanda London sarayı tərəfindən göndərilmiş H.Consun və Minto tərəfindən yenidən Tehrana göndərilmiş

C.Malkolmun hansının daha səlahiyyətli olması məsələsini də araşdırmalı idi. Mirzə Əbülhəsən xanın rəhbərlik etdiyi nümayəndə heyəti 1809-cu il sentyabrın 7-də gəmi ilə Londona doğru hərəkətə başladı və həmin il noyabrın 25-də Londona çatdı (27).

Qeyd edildiyi kimi, ilkin müqavilə imzalanandan sonra İngiltərənin Hindistan hakimi Minto C.Malkolmu yenidən Tehrana göndərdi. C.Malkolm imzalanan müqavilənin icrası və şah sarayı ilə İngiltərənin münasibətlərinin yenidən qurulması üçün fəaliyyətə başlamalı idi. C.Malkolmla bərabər bir neçə ingilis zabiti də Tehrana gəldi və onlar şah qoşunlarının yenidən qurulmasına cəlb edildilər (28).

Farsdilli mənbələrdə olan məlumatlara görə, C.Malkolm Hindistandan bir neçə top və topçu da gətirdi. Şah sarayı tərəfindən bu əməl məmnunluqla qarşılandı və dərhal toplar da, topçular da Abbas Mirzənin düşərgəsinə göndərildi. Baxmayaraq ki, Abbas Mirzə C.Malkolmun yenidən Tehrana gəlməsinə narazı idi, lakin onun hərbi yardım cəhdləri maraqla qarşılandı. Abbas Mirzənin düşərgəsində yerli topçular ingilis topçularından təlim almağa başladılar. Yenə elə mənbələrin yazdığına görə yerli topçular çox qısa müddətdə ingilis topçularının təcrübəsini əxz etdilər. Bunun nəticəsi idi ki, onlar bir dəqiqə ərzində topdan yeddi dəfə atəş açа bilirdilər (29).

Bununla belə, Qacar sarayında heç də hamılıqla İngiltərə ilə münasibətlər qurulmasına razı deyildi. Saray daxilindəki müəyyən qüvvələr dərhal Rusiyaya qarşı müharibə başlanmasını və Arazın şimalında olan Azərbaycan xanlıqlarının nəzarət altına alınmasını tələb edirdilər. Farsdilli tarixçilərin yazdığına görə, həmin dairələr Rusiyaya qarşı müharibədə İngiltərənin köməyinin səmərəli olacağına inanmırdılar və onlar ruhanilərin vasitəsilə Rusiyaya qarşı cihad elan olunmasına çalışırdılar (30).

Bu məqam Mirzə Məhəmməd Sadıq Vəqayeneqar tərəfindən də təsdiqlənir. O da yazırdı ki, bəzi dairələr ingilislərin köməyinin səmərəliliyinə arxayın deyildilər. Onlar istəyirdilər ki, ruhanilərin ruslara qarşı cihad elan etməsi ilə bütün əhalini hərəkətə gətirsinlər. Müəllif yazırdı ki, məsələ Fətəli şaha çatdırıldı və onunla razılaşdırıldı. Sonra cihad qərarının verilməsinə nail olunması Abbas Mirzənin vəziri Mirzə Bozorg Fərahaniyə həvalə olundu. Görünür, Abbas Mirzənin vəziri cihad yolu ilə Azərbaycan xanlıqlarının Rusiyanın işğalından çıxarılmasına razı idi və ona görə də bu məsələnin həllinə başladı. Mirzə Bozorg əvvəlcə Hacı Molla Bağır Səlmasi və Sədrəddin Təbrizi ilə görüşdü. Məsələnin mahiyyətini, Azərbaycan xanlıqlarının, Dağıstanın və Gürcüstanın Rusiya tərəfindən işğal edilməsini anlatdıqdan sonra Mirzə Bozorg

onlardan Şeyx Məhəmməd Cəfər Nəcəfinin və A.İsfahaninin yanına yollanmalarını xahiş etdi. Onlar da xahişi yerinə yetirib məsələni adları çəkilən ali məqamlı üləma ruhanilərə çatdırdılar. Bununla da ali məqamlı ruhanilər tərəfindən rus qoşunlarının Cənubi Qafqazdan çıxarılması üçün cihad fitvası verildi. Cihad fitvası böyükdən kiçiyə bütün əhalini rus qoşunlarına qarşı müharibəyə çağırırdı. Fitva belə tamamlanırdı – Dinin və məmləkətin bütün hüdudlarının istiqlalının möhkəmləndirilməsi üçün cihada başlanması vacibdir, əcdadlardan irs qalan, malik olduğu mülk üzərində haqqı olduğu ev düşmənlərdən, təcavüzkar və talançı ruslardan azad edilməlidir, onlar bu məqsədə çatmaq üçün öz qanlarını əsirgəməməlidirlər (31).

Mirzə Bozorg islam müctəhidlərinin cihad fitvasını risalə şəklinə salaraq yerli hakimlər vasitəsilə bütün əhali arasında yaydı. Bu fitva əhalini, xüsusilə Araz çayı ətrafında yaşayan azərbaycanlı əhalini hərəkətə gətirdi. Mirzə Sadıq Vəqayeneqar onu da bildirir ki, fitva verilən aylarda Tehranda, Xəzəryanı bölgələrdə güclü zəlzələ baş verdi və böyük dağıntılara səbəb olan bu zəlzələ əhalinin diqqətini müəyyən qədər cihaddan yayındırdı (32).

Bununla belə, Fətəli şah rus qoşunlarına qarşı müharibə hazırlığını davam etdirirdi. İrəvan xanlığı qoşunlarının uğurlu müdafiəsi və general Qudoviçin geri çəkilməyə məcbur olması şah sarayının əhval-ruhiyyəsini xeyli qaldırmışdı. Fətəli şah güman edirdi ki, İrəvan qalası ətrafında ağır məğlubiyyətə uğramış rus qoşunları özünə gəlməmiş növbəti güclü zərbə alarsa, onları Cənubi Qafqazdan çıxarmaq olar.

Arazın şimalına yürüşə başlamazdan əvvəl Fətəli şah Dağıstan hakimlərinə, Osetiya və İmeretiya hakimlərinə, habelə Quba xanı Şeyxəli xana, Lənkəran xanı Mir Mustafa xana müraciət göndərdi və onların hamısını rus qoşunlarına qarşı qalxmağa çağırdı. Fətəli şah eyni zamanda Gürcüstanla həmsərhəd olan Osmanlı vilayətlərinin sərəsgərlərini də bu müharibəyə çağırdı və onlara qələbədən sonra böyük səxavət göstərəcəyini vəd etdi. Rus qoşunları baş komandanlığında olan məlumata görə, yaxın zamanlarda başlanacağı gözlənilən hücumda Abbas Mirzə 20 minlik qoşunla İrəvan xanlığına gəlməli və xanlıq ərazisindən Pəmbək və Şuragöl mahallarına hücum etməli idi. Şahın böyük oğlu Məhəmmədəli Mirzənin isə 12 minlik qoşunla Qarabağ istiqamətində irəliləyəcəyi gözlənilirdi. Rus qoşunları komandanlığının planına görə, Qacar qoşunlarının Qarabağ istiqamətindəki hücumunun qarşısı Tərtər çayı sahillərində düşərgə salmış general Nebolsinin dəstəsi tərəfindən alınmalı idi. İrəvan xanlığı ərazisindən davam etdiriləcək

hücumun qarşısını A.Tormosov Gürcüstan ərazisində olan qüvvələrlə almalı idi (33).

Rus komandanlığının aldığı başqa bir məlumata görə isə Bəyazid və Ərzrum ətrafında Osmanlı qoşunlarının toplanmasına da başlanmışdı. Həmin qoşunların 10 min nəfərdən az olmadığı bildirilirdi. General A.Tormosov Osmanlı qoşunlarının hücuma hazırlaşmaları haqqında ciddi məlumatlara malik olmasa da, bu məlumatın alınması onun narahatçılığına səbəb oldu (34). Çünki iki cəbhədə vuruşmaq üçün onun yetərli qüvvəsi yox idi.

Beləliklə, 1809-cu ilin hücum kampaniyası cihad fitvası altında aparılmalı idi və Ə.Dünbəlinin yazdığına görə, Abbas Mirzə bu hücumun təşkilinə xüsusi hazırlıq görürdü. Onun tabeliyində olan qoşun dəstəsi təkmilləşdirilmiş qoşun dəstəsi hesab edilirdi və onun təşkilinə 2-3 illik vaxt sərf olunmuşdu. Ona görə də Abbas Mirzə bu dəstəni xüsusi bir maraqla Fətəli şaha təqdim etdi və yuxarıda qeyd edildiyi kimi, Fətəli şah da şahidi olduğu qoşun hazırlığından razı qaldı.

Mövcud olan faktlara əsasən, belə bir qənaətə gəlmək mümkündür ki, Qacar qoşunları 1809-cu il iyul ayının ortalarında Arazı adlayaraq Azərbaycan xanlıqları ərazisinə daxil oldular. Rus qoşunları baş komandanlığının məlumatının əksinə olaraq Abbas Mirzənin rəhbərliyi altında olan qoşun dəstəsi Qarabağ istiqamətində hərəkət etdi. İrəvan xanlığına doğru hərəkət edən qoşun dəstəsinə isə Məhəmmədəli Mirzə rəhbərlik edirdi.

Mirzə Məhəmməd Sadıq Vəqayeneqarın yazdığına görə, Məhəmmədəli Mirzənin qoşun dəstəsi 25 min nəfərdən ibarət idi. Yuxarıda olan məlumatlardan göründüyü kimi, rus mənbələri Məhəmmədəli Mirzənin rəhbərliyi altında daha az sayda qoşun dəstəsinin olduğunu göstərirlər. Mirzə Məhəmməd Sadığın yazdıqlarından görünür ki, Abbas Mirzənin dəstəsinin təşkilinə daha ciddi diqqət yetirilmişdi. İrəvan xanı Sərdar Hüseynqulu xanın yaxın qohumu Əli xan, habelə İsmayıl xan Damğani, Məhəmmədəli xan Şambayati, Mirzə Məhəmmədxan Laricani, Zülfüqar xan və bəzi digər hakimlər və sərkərdələr Abbas Mirzəni müşayiət edirdilər. Sonradan Abdulla xan Firuzkuhi, Mehdi xan Mazandarani, Məhəmməd Saleh xan Bestami, Əlimurad xan Əfşar, Məhəmməd Nəzər xan dəstələri ilə Abbas Mirzənin tabeliyinə göndərildilər (35).

"Məəssər-e Soltaniyyə" əsərində isə İsmayıl xan Damğaninin Abbas Mirzə ilə yox, Məhəmmədəli Mirzə ilə birlikdə olması bildirilir. İyul ayının ortalarında Araz çayını adlayan Məhəmmədəli Mirzənin dəstəsi İrəvan xanlığı ərazisində düşərgə saldı. Bu dəstə piyadalardan və

atlılardan təşkil edilmişdi. Rus qoşunları komandanlığının məlumatına görə, bu dəstə İrəvan xanlığı ərazisindən keçməklə hücumunu davam etdirməli idi. Bu istiqamətdə həmin dəstənin qarşısına general Portnyaginin rəhbərliyi altında olan dəstə çıxarılmalı idi. General A.Tormosov da ixtiyarında olan qüvvələrlə general Portnyaginin köməyinə yollanmalı idi. Bundan başqa A.Tormosov Qazax ağalarına tapşırmışdı ki, yerli atlılardan dəstə təşkil edib Pəmbəyə göndərsin (36).

"Məəssər-e Soltaniyyə" əsərində olan məlumata görə, Məhəmmədəli Mirzənin qoşun dəstəsi İrəvan xanlığı ərazisindəki Aparan düzündə düşərgə saldı. Burada o, İrəvan xanı sərdar Hüseynqulu xanla görüşdü. Bir neçə günlük istirahətdən sonra Məhəmmədəli Mirzə bir dəstəni İsmayıl bəy Damğaninin rəhbərliyi altında Hamamlı və Bəykənd yaxınlığındakı rus qoşun dəstəsi üzərinə göndərdi. Mənbənin verdiyi məlumata görə, Qacar qoşunları qəhrəmanlıq göstərdilər və ruslar onların hücumunun qarşısını ala bilmədilər. Rus hərbçiləri özlərini müdafiə etməkdə aciz qaldılar. Bundan sonra şah qoşunları vaxtilə İrəvan ətrafından Şuragölə və Pəmbəyə köçürülmüş əhalinin geri qaytarılmasına şərait yaratdılar. Pəmbək bəylərindən olan və rus qoşunlarına qarşı barışmazlığı ilə fərqlənən Nağı bəy bu döyüşlər zamanı şah qoşun dəstəsinin ərzaq və yemlə təminatına faydalı yardım göstərdi ki, bu məsələ də mənbələrdə öz əksini tapmışdır (37).

Rus mənbələrinin və tarixi ədəbiyyatının bu hadisə ilə bağlı məlumatı fərqlidir. Rus tarixçilərinin yazdığına görə, iyul ayının 23-də 10 min nəfərlik Qacar qoşunu Pəmbək mahalının Hamamlı kəndi yaxınlığındakı Saratov alayının iki taborunun dayandığı posta hücum etdilər. Burada tərəflər arasında 6 saat davam edən döyüş baş verdi. Bildirilir ki, Qacar qoşunları bu döyüşdə məğlub oldular və geri çəkilərək Aparan yaxınlığında düşərgə saldılar (38).

Başqa bir mənbədə isə bildirilir ki, Məhəmmədəli Mirzənin rəhbərliyi altında olan 15 minlik Qacar qoşunları Pəmbək və Şuragöl mahallarında rus qoşunlarının dayandığı üç nöqtəyə hücum etdilər. General A.Tormosov yazırdı ki, bu hücumlar zamanı Qacar qoşunlarına elə zərbələr vuruldu ki, onlar bir daha rus qoşunlarının gözünə görünməyə cəsarət etmədilər. Həmin döyüşlərin belə nəticələnməsini general A.Tormosov öz qərarlarının doğruluğu ilə bağlamağa çalışırdı. O qeyd edirdi ki, Gürcüstanın İrəvan xanlığı ilə sərhədinə xeyli sayda qüvvə toplaya bilmişdi və bu qüvvə ilə hətta general-mayor Portnyagin Qacar qoşunları üzərinə hücuma keçməyə də cəhd göstərmişdi. General A.Tormosovun yazdığından aydın olur ki, Məhəmmədəli Mirzə qoşun dəstəsi ilə Borçalı mahalına da hücum etmiş və oranın bir çox kəndlərini

talan edərək geri çəkilmişdi. Qacar qoşunlarının Borçalıya daxil olması xəbərini eşidəndə A.Tormosov yanındakı dəstə ilə həmin istiqamətə hərəkət etdi (39). Çox güman ki, Məhəmmədəli Mirzə bölgəyə əlavə rus qoşun dəstəsinin gəlməsi xəbərini eşidəndən sonra yenidən İrəvan xanlığına çəkilməyi məqsədəuyğun bildi. Bununla da Məhəmmədəli Mirzənin bölgədəki fəaliyyəti başa çatmış oldu.

Mirzə Məhəmməd Sadıq Vəqayeneqar öz əsərində Məhəmmədəli Mirzənin dəstəsinin fəaliyyəti haqqında yazarkən bildirirdi ki, o öz dəstəsi ilə İrəvan yaxınlığında bir neçə rus qüvvəsi ilə qarşılaşdı, aramsız hücumların gedişində onların əksəriyyətini qırdı, yaraladı və əsir götürdü. Bildirilir ki, əsir götürülənlərin çoxunu Məhəmmədəli Mirzə Qacar şahının hüzuruna göndərdi. Nəhayət, Məhəmmədəli Mirzənin Tiflis istiqamətində hərəkət etməsi haqqında da məlumat vardır. Qeyd olunur ki, o, Tiflis ətrafında məskunlaşmış bir sıra gürcü və erməni ailələrini köçürərək Şuşa ətrafına gətirdi. Sonra Məhəmmədəli Mirzə İrəvana çəkildi və burada Abbas Mirzəni gözlədi. Müəllifin yazdığına görə, Abbas Mirzə Gəncədən keçməklə İrəvana gələndə Məhəmmədəli Mirzə ilə görüşdü və onu şah düşərgəsinə yola saldı (40).

Avqust ayının sonlarında tərəflərin nümayəndələrinin görüşməsi və sülh danışıqlarının yenidən başlaması ilə hərbi qarşıdurmanın səngiməyə başlaması bildirilir. Danışıqlara başlanmasının kim tərəfindən təklif olunması haqqında mənbələrdə müxtəlif məlumatlar vardır. Tərəflərə məxsus olan mənbələr danışıqlara başlamaq təklifinin qarşı tərəfdən gəldiyini iddia edirlər.

Yuxarıda qeyd olunduğu kimi, Abbas Mirzə Qarabağ istiqamətində irəliləməli olan qoşun dəstəsinə rəhbərlik edirdi. Rus qoşunları baş komandanının nəzərincə, Tərtər çayı ətrafında düşərgə salmış olan general-mayor Nebolsinin dəstəsi Qarabağ istiqamətindən hücuma keçərək Qacar qoşunlarının qarşısını almaq üçün lazımi şansa malik idi. Rus qoşunları baş komandanı A.Tormosov Soğanlı yaxınlığında düşərgə salmaqla həm Abbas Mirzənin, həm də Məhəmmədəli Mirzənin qoşun dəstələrinin hücumlarını nəzarət altında saxlamalı, lazım gələn anda bu və ya digər tərəfə kömək göndərməli idi. Amma general A.Tormosov bu düşərgədə çox dayanmadı və Qacar qoşunlarının hücumları başlananda o da dəstəsi ilə Axalsıx mahalına doğru istiqamət götürdü. General A.Tormosovun yazdığına görə, onun Axalsıxa doğru irəliləməsi Qacar əyanlarında bu rus dəstəsinin İrəvan xanlığı üzərinə hücum edəcəyi təsəvvürü yaratmışdı. Belə güman edilirdi ki, Pəmbək və Şuragöldə yerləşən rus qoşun dəstələri ilə birləşəndən sonra general A.Tormosov nəhayət ki, İrəvan xanlığını işğal etməyə cəhd edəcəkdir. A.Tormosova

görə, Abbas Mirzədə də belə bir təsəvvür yaranmışdı. Guya Abbas Mirzə Qarabağ ətrafındakı rus qoşun dəstəsini məğlub etməyin çətin olacağını anlayanda öz qərarını dəyişdi və Gəncəyə tərəf istiqamət götürdü. İddia olunur ki, A.Tormosov dəstəsi ilə Axalsıx istiqamətinə yollananda Abbas Mirzə Gəncənin müdafiəsiz qaldığını görüb onu asanlıqla ələ keçirə biləcəyinə ümid etdi. Ona görə də Abbas Mirzə Naxçıvandan Şamxora doğru hərəkətə başladı. A.Tormosov isə bundan xəbər tutan kimi dəstəsinin bir hissəsini dərhal geriyə, Şamxora göndərdi və bununla da Abbas Mirzənin Gəncəyə girməsinin qarşısı alındı. A.Tormosov Şamxor düzündə mövqe tutan dəstəyə özü rəhbərlik edirdi. Burada da rus qoşunları komandanı elə bir mövqe seçdi ki, həm Gəncəni, həm də Qazax və Şəmşəddil mahallarını nəzarət altında saxlasın. A.Tormosov yazırdı ki, bununla da Abbas Mirzə öz məqsədinə nail olmadı və bütünlükdə qacarlar işlərinin yaxşı getmədiyini gördülər və A.Tormosovun yanına öz nümayəndələrini göndərdilər. Həmin nümayəndə sonradan vəzifəsi böyüdülərək Fətəli şahın vəziri təyin edilmiş Mirzə Bozorgun məktubunu gətirdi. Qacar sarayı Rusiya ilə sülh danışıqlarının aparılmasına və Sankt-Peterburqa nümayəndə heyətinin göndərilməsinə razılığını bildirdi. Bir şərtlə ki, Rusiya əvvəlcədən sərhəd xəttinin haradan keçməsi barəsində şərt irəli sürməsin (41).

Farsdilli mənbələr Gəncə ətrafında cərəyan edən hadisələrin tərəfləri sülh danışıqlarına sövq etdiyini təsdiq edirlər. Lakin bu mənbələrdə məsələnin qoyuluşu fərqli şəkildədir. Bildirilir ki, Abbas Mirzənin qoşunları Gəncə ətrafının əhalisini köçürmək niyyətində idi. Guya Abbas Mirzənin bununla bağlı müvəffəqiyyət qazanması Gəncə ətrafındakı rus qoşunlarının vəziyyətini çətinləşdirə bilərdi. Qeyd olunur ki, hətta Gəncə ətrafındakı qoşun dəstəsinin rəhbəri olan bir polkovnik vəziyyətin ağırlaşacağından qorxaraq oradan qaçmalı oldu. Mənbədə deyilir ki, Gəncə ətrafında vəziyyətin düzəldilməsi üçün A.Tormosov Soğanlıdan hərəkət edərək Zəyəmdə düşərgə saldı. Müəllifə görə, A.Tormosov gecəliklə Qacar qüvvələri üzərinə hücum etmək istəyirdi. Sonra məlum olur ki, Abbas Mirzə də rus qoşunları üzərinə qəfil hücum hazırlayırmış. Bildirilir ki, rus qoşunları Qacar qoşunları ilə üzbəüz gəlməkdən çəkinirdilər və ona görə də A.Tormosov öz nümayəndəsini Abbas Mirzənin yanına göndərdi və ona təklif edildi ki, Qacar qoşunları Gəncə üzərinə hücumu dayandırarlarsa, onda rus qoşunları də çəkilib yenidən Tiflis yaxınlığındakı Soğanlıya gedərlər. Bununla, ruslar bütünlüklə Gəncə ətrafından çəkiləcəklərinə söz verdilər. Müəllifə görə, Abbas Mirzə bu təkliflə razılaşdı və İrəvana doğru yola düşdü (42).

Farsdilli mənbələrdə mövcud olan bu məlumatların doğruluğu şübhəli görünür. Çünki rusların işğal etdikləri əraziləri güzəştə getməyə hazır olmaları inandırıcı görünmür. Əksinə, rus qoşunlarının baş komandanlığı işğal edilmiş Naxçıvan və İrəvan xanlıqlarının da Rusiyanın tərkibinə qatılmasını iki dövlət arasında sülh anlaşmasının əsas şərti sayırdı.

Hər halda, 1809-cu il avqust ayının 22-də Mirzə Bozorgun məktubu, bundan bir neçə gün sonra isə Abbas Mirzənin məktubu general A.Tormosova çatdırıldı. Bu zaman Abbas Mirzə hələ də Azərbaycan xanlıqları ərazisində idi və onun ümumiyyətlə, Arazın cənubuna dönməsi noyabr ayının əvvəllərinə təsadüf edir. Abbas Mirzə general A.Tormosova yazdığı məktubunda iki dövlət arasında sülhün yaradılmasına meylli olduğunu və buna görə də Gəncə ətrafından öz qoşunlarını geri çəkməyə başladığını bildirirdi. Bununla belə, geri çəkilən Qacar qoşunlarının general Portnyagin tərəfindən atəşə tutulması onu qəzəbləndirmişdi. Abbas Mirzə öz məktubu ilə general A.Tormosovun nə etmək istədiyini müəyyənləşdirməyə çalışırdı (43).

A.Tormosov bu məktuba öz münasibətini bildirdi və Rusiya sarayının mövqeyini bir daha Qacar əyanlarının nəzərinə çatdırdı. A.Tormosov bəyan etdi ki, irəli sürülən şərtlər daxilində Rusiya sülhün əldə edilməsinə tərəfdardır və hətta sülh danışıqları ilə bağlı rus elçiliyinin Təbrizdə olduğu vaxt Qacar qüvvələri Rusiya ərazisinə hücum etmişlər. Rusiya ərazisi dedikdə general A.Tormosov işğal altında olan Azərbaycan xanlıqlarını nəzərdə tuturdu. Onun yazdığına görə, Qacar qoşunlarına qarşı döyüşə qatılmaqla rus qoşunları Rusiya sərhədini qoruyurdular. A.Tormosov çox ötkəmliklə bildirirdi ki, Qacar sarayı İngiltərənin təhriklərinə uyaraq Rusiyanın hər hansı ərazi güzəştinə gedəcəyi ümidində olmasın və iki dövlət arasında sərhəd xətti müəyyənləşənə qədər Qacar elçilərinin Rusiya sarayına yollanmasına imkan verilməyəcəkdir (44).

A.Tormosov eyni məzmunlu məktubu Abbas Mirzəyə də göndərdi və eyni zamanda ona zərbə vurulması üçün dəstəsinin dayandığı ehtimal olunan məntəqəyə yollandı. Lakin onun dəstəsini tapa bilmədi. Əvəzində ona Abbas Mirzədən yeni bir məktub gəldi. Qacar şahzadəsi bu məktubunda general A.Tormosova barışıq təklif etdi. A.Tormosov isə bu barışığı qəbul etmədi və bildirdi ki, onun barışıq imzalamaq yox, tam sülh müqaviləsi imzalamaq səlahiyyəti vardır (45).

Görünür, Abbas Mirzənin böyük qoşun dəstəsinə malik olduğu general Tormosova yaxşı məlum idi. Ona görə də onun qoşun dəstəsi ilə döyüşdə istədiyi nəticələri əldə etmək üçün A.Tormosov Qarabağdan general Nebolsinin dəstəsini yanına çağırmışdı. Şamxor dağlarının

yüksəkliklərində Abbas Mirzənin qoşun dəstəsinə zərbə endirilməsinə də A.Tormosov general Nebolsinin dəstəsi ilə birlikdə yollandı. Ehtimal olunan məntəqəyə rus qoşunları Yasəmən dərəsindən çox çətinliklə keçərək getməli oldu. Amma qeyd edildiyi kimi, A.Tormosov Qacar qoşunlarını tapa bilməyib geri qayıtdı, özü Tiflisə yollandı, general Nebolsin isə Gəncə ətrafında düşərgə saldı (46).

Tərəflər arasında barışıq elan edilməsinə general A.Tormosov səlahiyyətinin çatmadığını bəyan etsə də, bu məsələ ilə bağlı Rusiya sarayına məktub göndərdi və barışıq elan edilməsinə Rusiya sarayının münasibətinin açıqlanmasını xahiş etdi. Tezliklə general A.Tormosov məktubuna cavab aldı və Rusiya sarayının tərəflər arasında müvəqqəti barışıq elan edilməsinə münasibətindən xəbər tutdu. Rusiya imperatorunun iradəsi əsasında cavab yazan qraf Rumyantsev Qacar şahzadəsi ilə danışıqların davam etdirilməsini lazım bildi və general Tormosova məsləhət gördü ki, Abbas Mirzənin özünü Rusiyanın işğalı altında olan ərazilərin sərhədi yaxınlığındakı məntəqələrin birinə görüşə dəvət etsin və ya ondan öz səlahiyyətli nümayəndəsini danışıqlara göndərməsini xahiş etsin. Abbas Mirzənin diqqətinə çatdırılmalı idi ki, Rusiya imperatoru iki dövlət arasında qan axıdılmasına son qoyulması və əvvəlki qonşuluq münasibətinin bərpası üçün barışıq elan edilib-edilməməsindən asılı olmayaraq Qacar elçilərinin Sankt-Peterburqa göndərilməsinə razıdır. Qacar sarayı belə bir elçilik göndərmək qərarına gəlsəydi A.Tormosov həmin elçiliyin Sankt-Peterburqa yollanmasına öz köməyini göstərməli idi. Abbas Mirzə danışıqlar zamanı yenidən barışıq barəsində məsələ qaldıracağı təqdirdə ona bildirilməli idi ki, Rusiya sarayı 2 illik və ya 5 illik barışıq elan edilməsinə razıdır. Amma Rusiya bu barışığın elan edilməsinə razılığını müəyyən şərtlər çərçivəsində bildirirdi. Qacar sarayına çatdırılmalı idi ki, barışığın möhkəm olması üçün Naxçıvan və İrəvan qalaları müvəqqəti olaraq Rusiya qoşunlarına girov kimi verilməlidir. Rusiya tərəfi vəd verməli idi ki, adları çəkilən qalalar müvəqqəti olaraq barışığın qüvvədə qaldığı müddətdə Rusiyanın nəzarəti altında olacaqdır. Barışığın elan edildiyi müddətdə sülh müqaviləsi imzalanmazdısa, onda qalalar sonradan Qacar hakimiyyətinin nəzarəti altına qaytarılmalı idi. Rusiya sarayı tövsiyə edirdi ki, Qacar sarayı bu təkliflə razı olmayacağı təqdirdə heç olmasa qalalardan birinin girov alınmasına cəhd göstərilsin. Buna da nail olunmadıqda Rusiya sarayı heç bir girov olmadan 2 illiyə barışıq elan edilməsini mümkün sayırdı. Barışığın elan edildiyi vaxt tərəflərin qoşunları qərar tutduqları mövqelərdə dayanmalı idilər. Belə bir barışığın elan edilməsi Rusiya üçün də faydalı idi. Çünki barışıq dövründə Rusiyanın işğal etdiyi Azər-

baycan xanlıqlarının sərhədlərində möhkəmlənmə işləri aparıla bilərdi. General A.Tormosov da tövsiyə edirdi ki, sərhəd xətti boyunca elə möhkəmləndirmə işləri aparılsın ki, Qacar qoşunlarının hücumunun qarşısını asanlıqla almaq mümkün olsun (47).

General A.Tormosov da Abbas Mirzə ilə əlaqə saxlayaraq Rusiya sarayının iki dövlət arasında barışıq əldə edilməsinə və sonra da sülh müqaviləsi imzalanması üçün Sankt-Peterburqa nümayəndə heyəti göndərilməsinə razılığını bildirdi. Qacar şahzadəsinin nəzərinə çatdırıldı ki, Rusiya paytaxtına göndərilməli olan heyətin siyahısı əvvəlcə A.Tormosovla razlaşdırılmalıdır. General A.Tormosovun məktubu Qacar sarayına çatandan sonra Rusiya paytaxtına göndərilməli olan heyətin tərkibi müəyyənləşdirildi. Qacar sarayının heyətinin tərkibinə ilkin olaraq şahın vəziri olan Mirzə Şəfi və Mirzə Bozorg, İrəvan xanı Hüseynqulu xan, habelə Fətəli xan Nuri və İsmayıl bəy daxil idilər. Heyətin tərkibində Abbas Mirzəni Marağalı Əhməd xan və Mirzə Mehdi təmsil etməli idilər. Abbas Mirzə və Mirzə Bozorg barışığın imzalanmasının Qarabağ ərazisində olması barəsində təklif irəli sürdülər. General A.Tormosov isə Qacar sarayında olan nümayəndəsi polkovnik Vrede vasitəsilə iki dövlət arasında barışığın Tərtər çayı sahilindəki Talış kəndində imzalanmasına razı olduğunu bildirdi. 1810-cu ilin mart ayında general Tormosov polkovnik Vredeyə tapşırıq göndərdi ki, bu təklifin qəbul edilməsi mümkünlüyünü araşdırsın.

General A.Tormosovdan belə bir tapşırıq alan polkovnik Vrede dərhal məsələnin araşdırılmasına başladı və təmasda olduqları saray əyanlarını inandırmağa çalışdı ki, danışıqların aparılması ilə bağlı Rusiya tərəfinin mövqeyi ciddidir və Rusiya paytaxtında Qacar sarayının nümayəndə heyətini gözləyirlər. Bunun əvəzində şah sarayından polkovnik Vredeyə çatdırıldı ki, Novruz bayramından sonra Mirzə Bozorgun rəhbərliyi altında nümayəndə heyəti Rusiya nümayəndələri ilə görüşəcək və bu görüşdə barışığın əldə edilməsi məsələsi araşdırılacaqdır. Polkovnik Vrede bu xəbəri yanındakılar vasitəsilə general A.Tormosova çatdırdı. Özü isə Təbrizdə qaldı (48).

Rusiyanın şah sarayına yenidən barışıq təklif etməsi və şah sarayı tərəfindən bu məsələyə maraqla yanaşılması hələlik Tehranda olan ingilis səfiri H.Consun diqqət mərkəzində idi. H.Cons ehtiyat edirdi ki, Rusiya ilə şah sarayı arasında barışıq əldə edilsə yenidən İran ərazisindən Hindistan üzərinə təhlükə yarana bilər. Mirzə Bozorg və Abbas Mirzə ilə olan yazışmalarında H.Cons təkid edirdi ki, Rusiya təklif etdiyi barışıq şah sarayının maraqlarına cavab verə bilməz və Rusiya heç bir halda Cənubi Qafqazdakı qoşunlarını geri çağırmayacaqdır. O, Tormosovun

məktublarına istinadən də qeyd edirdi ki, Rusiya tərəfinin yeni sülh təklifləri mahiyyət etibarilə qraf Qudoviçin təkliflərindən heç də fərqlənmir. Başqa sözlə H.Cons vurğulayırdı ki, yeni təkliflər də Rusiyanın cənub sərhədinin Araz çayından keçməsini nəzərdə tutacaqdır (49).

Rusiya ilə barışıq müzakirələrinin 1810-cu ilin novruzundan sonraya təxirə salınması da əslində H.Consun şah sarayına göstərdiyi təzyiqlərin nəticəsi idi. Barışıq müzakirələrinin başlanmasını H.Cons istəmirdi. Bununla belə Abbas Mirzə şahdan tapşırıq aldı ki, Rusiya ilə barışıq müzakirələri başlansın. Şah bilmək istəyirdi ki, Rusiya hansı təkliflərlə barışığa gəlir və bu təkliflər şah sarayı üçün nə dərəcədə qəbul olunandır. Fətəli şah onu da əlavə edirdi ki, Rusiya tərəfi ilə danışıqlar çox ehtiyatla aparılmalı və general Tormosovun diqqətinə çatdırılmalı idi ki, şah sarayı İngiltərə və Osmanlı dövləti kimi müttəfiqlərinin maraqlarından üz döndərməyəcəkdir (50).

Nəhayət qərara alındı ki, 1810-cu ilin yazında general Tormosovla Mirzə Bozorg arasında sülh anlaşmasının müzakirəsi ilə bağlı görüş təşkil edilsin. Görüşün harada keçirilməsi barədə Tormosov bir neçə təklif versə də, nəhayət onun Əsgəranda keçirilməsi qərara alındı. Tarixi ədəbiyyatda bəzən Əsgəran konfransı kimi də xatırlanan bu görüşün Əsgəranda təşkili şah sarayı tərəfindən danışıqsız qəbul edildi və 1810-cu il aprel ayının 15-də Mirzə Bozorg Əsgəran görüşünə yola düşdü. O, Əsgərana yola düşməzdən əvvəl H.Consla görüşdü və ingilis səfirinə zəmanət verildi ki, Rusiya tərəfi ilə sülh anlaşmasının imzalanması ehtimalı olarsa, həmin sənəddə Osmanlı dövlətinin mənafelərinə xələl gətirəcək maddə olmayacaqdır (51).

Rusiya tərəfi Əsgəran müzakirələrinin öz mənafelərinə uyğun nəticələnməsini arzulayırdı. Çünki konkret tarix şəraitdə Avropa istiqamətində Rusiya üçün yaranmış nisbi sakitlikdən istifadə edərək bu dövlət cənubda Osmanlı dövlətinə də müharibə elan etmişdi. Cənubi Qafqazda qarşısına qoyduğu məqsədinə çatmaq üzrə olan Rusiya hakim dairələri İranla barışığa nail olub bütün qüvvələri Osmanlı dövlətinə qarşı istiqamətləndirmək istəyirdi. Rusiya sarayı hətta şah sarayını da Osmanlı dövlətinə qarşı qaldırmaq arzusunda idi. Farsdilli mənbələrdə Əsgəran müzakirələrinin təfərrüatı barədə geniş məlumat olmasa da, şah sarayının da bu danışıqlara böyük ümid və diqqətlə yanaşdığı bildirilir. Əsgərana yola düşməzdən əvvəl Mirzə Bozorg bir də Abbas Mirzə tərəfindən qəbul olundu və Abbas Mirzə onu təlimatlandırdı. Abbas Mirzə qeyd etdi ki, irəli sürülən təkliflərə diqqətlə yanaşılsın. Lakin şah sarayının

mənafelərinə cavab verməyən təkliflər üzərində Rusiya təkid göstərsə, onda danışıqlar dayandırılsın və nümayəndə heyəti geri qayıtsın (52).

Mirzə Bozorg Əsgərana yola düşəndən sonra H.Cons da Abbas Mirzə ilə görüşdü və Rusiya tərəfi ilə aparılan müzakirələr haqqında fikir mübadiləsi edildi. Ser H.Cons hətta İran tərəfinin maraqlarını əks etdirən barışıq layihəsini hazırlayıb Abbas Mirzəyə təqdim etdi və danışıqların məhz bu layihə üzərində aparılmasını məqsədəuyğun saydı. Bu layihə şah sarayının istəklərini əks etdirsə də reallıqdan uzaq idi. Əslində H.Consun məqsədi də elə bu idi. Layihə ilk baxışdan şah sarayı üçün cəlbedici olsa da Rusiyanın bu layihəni qəbul etməyəcəyi aydın idi. Bununla da danışıqlar pozulmalı idi. Məsələn, H.Cons öz layihəsində təklif edirdi ki, barışıq imzalanandan sonra Azərbaycanda şah qoşunlarının, Gürcüstanda isə rus qoşunlarının sayı artırılmasın. Layihə həmçinin nəzərdə tuturdu ki, Rusiya qoşunları Osmanlı dövlətinin hüdudlarına hücum etməyəcəkdir. Hətta belə bir təklif də irəli sürülürdü ki, şah sarayının nümayəndəsi barışıq əldə edilməsi üçün Sankt-Peterburqa göndərilsin və Rusiyanın Gürcüstanı və Cənubi Qafqazı tərk etməsi iki dövlət arasında imzalanacaq sülh müqaviləsinin əsasını təşkil etsin (53).

Gözləndiyi kimi, Tormosovun rəhbərliyi altında olan nümayəndə heyəti şah sarayı tərəfindən irəli sürülən bu təklifləri qəbul etmədi. Rusiya tərəfi açıq şəkildə bəyan etdi ki, Axısqa və Qars istiqamətində Osmanlı üzərinə hücum etmək istəyir.

Bundan başqa Əsgəranda danışıqların aparıldığı vaxt Mehriyə yeni bir rus qoşun dəstəsi göndərildi. Qacar nümayəndələri buna etiraz edəndə A.Tormosov bildirdi ki, Mehri Qarabağın bir hissəsidir. Qarabağ isə rus nəzarəti altında olduğundan bu xanlıq ərazisində qoşunların yerdəyişmələrinin aparılmasına Rusiyanın ixtiyarı vardır. Bununla da Əsgəran görüşü uğursuzluğa düçar oldu və tərəflər bir nəticəyə nail olmadan geri qayıtdılar (54).

Qeyd etmək lazımdır ki, yuxarıda söylənilənlər farsdilli mənbələrin Əsgəran danışıqları ilə bağlı çatdırdığı məlumatlardır. Rusdilli mənbələrdə isə danışıqların gedişi fərqli şəkildə təsvir edilir. Həmin mənbələrə görə, danışıqlarda iştirak etmək üçün general A.Tormosov aprel ayının 19-da Əsgərana gəldi. Mirzə Bozorg isə öz nümayəndə heyəti ilə səhəri gün, yəni aprel ayının 20-də Əsgərana yetişdi və onun nümayəndə heyəti rus qoşunları rəhbərliyi tərəfindən xüsusi ehtiramla qarşılandı. Bütünlükdə, tərəflər arasında müzakirələr 18 gün davam etdi. Görüşün ilk günü daha çox təşrifat məsələlərinə həsr olundu, tərəflər danışıqların nəticə ilə bitməsinə meylli olduğunu ifadə etdilər (55).

Barışığın maddələrinin müzakirəsinin başlanğıcında tərəflərin mövqelərindəki ciddi fərqlər özünü göstərdi. İlkin olaraq Lənkəran xanlığının barışıq zonasına daxil edilməsi haqqında Rusiya tərəfinin təklifi Mirzə Bozorg tərəfindən qəbul olunmadı. Rusiya tərəfi iddia edirdi ki, 10 ildən çox bir müddətdə Lənkəran xanlığı Rusiyanın himayəsi altındadır. Ona görə Rusiyanın ərazisi kimi Lənkəran xanlığı da barışıq zonasına daxil edilməlidir. Qacar sarayının nümayəndələri isə Lənkəran xanlığını İranın tərkib hissəsi sayırdı. Baxmayaraq ki, Lənkəran xanı heç də Qacar hakimiyyətini qəbul etmək istəmirdi. Şah nümayəndələri belə fikirləşirdilər ki, rus qoşunları Lənkəran xanlığını işğal etməyib və ona görə bu xanlıq Rusiya ilə barışıq zonasından kənarda qalmalıdır. Xanlıqla Qacar sarayı arasındakı münasibətlərə gəlincə isə bunun barışığın imzalanmasından sonra araşdırılacağı bildirilirdi. Bu məsələnin müzakirəsi ilə bağlı qərara alındı ki, barışıq anlaşmasında Lənkəran xanlığının adı çəkilməsin və Lənkəran xanlığının məsələsi sülh müqaviləsinin müzakirəsi gedişində həll olunsun. Həmin vaxta qədər tərəflər Lənkəran xanlığı ərazisinə hərbi qüvvə göndərməməyi öz öhdələrinə götürdülər (56).

Barışıq anlaşmasının sonrakı maddələri tərəflərin xüsusi narazılığına səbəb olmadı və A.Tormosovun yazdığına görə, barışıq mətni imzalanmaq üçün hazır idi. Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı bildirirdi ki, barışıq mətninin hazırlanması ərəfəsində Mirzə Bozorg şah sarayından məktub və yeni təlimat aldı. Bundan sonra Mirzə Bozorg yeni təkliflər irəli sürməyə başladı. Rus mənbələrinə görə, şah sarayı əlavə olaraq təklif etdi ki, Rusiya ümumiyyətlə Lənkəran xanlığına himayədarlıqdan əl çəksin, barışıq mətnində A.Tormosovun vəzifəsi göstərilərkən onun Dağıstan hakimi olması yazılmasın. Şah sarayı sonra təklif edirdi ki, Şamaxı xanı Arazın cənubundan toplayıb apardığı qoyun sürülərini geri qaytarsın və ən başlıcası isə təklif olunurdu ki, Rusiya tərəfi Axalsx və Qars paşalığına qarşı qoşun yeritməsin. Nəhayət, Qacar sarayı Araz çayı sahilində olan Mehri və Güney məntəqələrinin İrana verilməsini istəyirdi. General A.Tormosov bu məntəqələri Rusiya tərkibində olan Qarabağ xanlığının ərazisi sayırdı. General A.Tormosov irəli sürülən bu təkliflərlə razılaşmadı və bununla da Əsgəranda başlanmış danışıqlar dayandırılmış oldu (57).

General A.Tormosovun fikrincə, Qacar sarayının özünün təklif etdiyi barışığın imzalanmasından üz döndərməsinin səbəbləri var idi. Birinci səbəb İngiltərənin Tehrandakı səfiri Harford Consun bu barışığın imzalanmasına mane olması idi. Guya H.Cons bildirmişdi ki, İngiltərənin köməyi sayəsində indi Qacar dövlətinin çoxlu sayda topu və təlim

görmüş qoşunları vardır. Ona görə barışıq olmadan da Rusiyanın işğal etdiyi əraziləri geri qaytarmaq olar. İkinci səbəb kimi isə Osmanlı dövlətinin təzyiq və təsirlərinin olması göstərilir. İddia olunur ki, Osmanlı dövləti Rusiyanın başının müharibəyə qatışmasını və bununla da Rusiyanın Osmanlıya qarşı qoşun çıxarmaq imkanının olmamasını istəyirdi. Bildirilir ki, Osmanlı sarayı şah sarayına həm çoxlu hədiyyələr göndərdi, həm də şahzadənin köməyinə 12 min nəfərlik qoşun dəstəsi verəcəyini vəd etdi. Guya bununla da şah sarayı barışıq imzalanmasından çəkindirildi və Rusiya ilə növbəti müharibəyə təhrik olundu (58).

Farsdilli tarixi ədəbiyyatda olan məlumata görə, danışıqların gedişində Mirzə Bozorgun heyəti tərəfindən Rusiya heyətinə 6 maddəlik barışıq anlaşması təqdim olundu. Bu anlaşmanın 5-ci və 6-cı maddələri rus nümayəndə heyətinin ciddi etirazına səbəb oldu ki, onların məzmunu aşağıdakı kimi idi: Maddə 5 - Bu anlaşmanın qüvvədə olduğu müddətdə İranın Azərbaycandakı və Rusiyanın Gürcüstandakı qüvvələri artmamalı və dəyişdirilməməlidir. Qacar dövləti ilə Osmanlı dövləti arasında ittifaqın mövcudluğunu nəzərə alaraq anlaşmanın qüvvədə olduğu müddətdə rus qüvvələri sərhəd məntəqəsinə hücum etsə, bu hücum Osmanlı və Qacar sarayları arasındakı baxışlarda ixtilaf yarada bilər. Ona görə səlahiyyətli nümayəndələr belə bir razılığa gəlirlər ki, bu anlaşmanın qüvvədə olduğu müddətdə rus qüvvələri Osmanlı ilə sərhədin heç bir məntəqəsinə, xüsusilə də Qars, Van və Axalsıx şəhərlərinə hücum etməyəcəkdir.

Maddə 6 – Bu anlaşmanın qüvvədə olduğu müddətdə İran padşahı sülh təklifləri ilə bağlı Sankt-Peterburqda səfir göndərmək istəsə Rusiya dövləti Gürcüstanın boşaldılmasını və bütün işğal olunmuş ərazilərin geri qaytarılmasını sülh müqaviləsinin əsası kimi qəbul edir (58a).

General A.Tormosov öz yazışmalarında Qacar sarayının danışıqlar prosesinə səmimi yanaşmadığını, danışıqların davam etdiyi vaxt Araz çayı kənarında Şamaxı və Qarabağ xanlıqları üzərinə, İrəvan xanlığı ərazisində isə Pəmbək mahalı üzərinə hücum üçün qoşun dəstəsi toplandığını qeyd edirdi. General A.Tormosov sonra mövcud şəraitdə Axalsıxı işğal edə bilməyəcəyini də Rusiya sarayına çatdırdı. Bunu o, qüvvələrin azlığı ilə əlaqələndirirdi. Yuxarıda qeyd edildiyi kimi, Axalsıxın işğal edilməsi məsələsinə Əsgəran müzakirələrində də toxunuldu. Mirzə Bozorg da barışıqdan danışan Rusiya tərəfinin belə bir niyyətdə olmasına etiraz etdi (59).



General Tormosov

Qeyd etmək lazımdır ki, qarşı tərəfi danışıqlarda qeyri-səmimi adlandıran A.Tormosovun özü də bu danışıqlara yalnız Rusiyanın siyasi maraqları mövqeyindən yanaşırdı. Farsdilli mənbələr rus qoşun dəstələrini Mehriyə və Güneyə göndərilməsini A.Tormosovun danışıqlara qeyri-ciddi münasibəti kimi qiymətləndirirdilər. Farsdilli tarixçilər yazırlar ki, danışıqların aparılmasına ehtiram əlaməti olaraq Abbas Mirzə

şah qoşunlarının döyüşlərinin dayandırılmasını lazım bilsə də, ruslar elə danışıqlar dövründə Mehriyə qoşun dəstəsi göndərdilər. Farsdilli tarixi ədəbiyyatda olan məlumata görə, rus qoşunları hələ danışıqlar başlamazdan əvvəl Mehriyə daxil olmuşdular. Amma o zaman Abbas Mirzənin xahişi ilə bu qoşunlar oradan çıxarıldı. Əsgəran danışıqlarının gedişində isə rus qoşun dəstəsi yenidən Mehriyə yeridildi ki, bu da narazılıqla qarşılandı (60).

Əsgəran danışıqlarının nəticələrinə tərəflər fərqli yanaşsalar da hər halda bu danışıqlar tərəflərə heç nə vermədi. Bu, hər şeydən əvvəl tərəflərin mövqelərinin bir-birindən kəskin şəkildə fərqlənməsi ilə bağlı idi. Başqa sözlə, tərəflərin heç biri Arazın şimalında olan Azərbaycan xanlılarına olan iddialarından əl çəkmək istəmirdilər.

Farsdilli tarixi ədəbiyyatda Əsgəran danışıqlarının baş tutmamasında İngiltərənin təzyiqlərinin olması etiraf edilir. Bildirilir ki, Harford Cons açıq şəkildə Qacar sarayı qarşısında tələb qoydu ki, əgər Əsgəranda Rusiya ilə razılaşma əldə edilərsə onda Tehranı tərk edib vətəninə qayıdacaqdır. H.Cons tələb irəli sürməkdən əlavə həm də vədlər verirdi. İngilis səfiri ingilis topları ilə Rusiya qoşunlarına qalib gəlməyin mümkünlüyü qənaətini qəbul etdirməyə çalışırdı. Həm də Rusiyanın danışıqlara razı olmasını bu ölkənin zəifliyi kimi qiymətləndirirdi (61). Qacar sarayı H.Consun dəlillərini doğru kimi qəbul etdi və bu məsələnin Əsgəran danışıqlarının gedişinə təsirsiz qalmadığını istisna etmək olmaz. Qacar sarayı Azərbaycan xanlıqlarını ələ keçirmək üçün hər vasitədən istifadə etməyə hazır idi. İngiltərənin kömək vədlərinin həyata keçəcəyi təqdirdə Əsgəran razılaşmasına heç bir ehtiyac da qalmazdı. Görünür, elə buna görə də Qacar sarayı ingilislərə qulaq asmağı, yenidən döyüşlərə başlamağı daha doğru seçim kimi qəbul etdi.

Əsgəran danışıqlarının getdiyi dövrdə İngiltərənin Qacar sarayı üzərinə müəyyən təsiri var idi. Qacar sarayı 1809-cu ilin martında H.Consla imzalanan müqavilənin faydalı olacağına da ümidini kəsmirdi və bu müqavilənin icrasının sürətləndirilməsi məsələsi də Londona göndərilmiş Mirzə Əbülhəsən xanın elçiliyinin qarşısında dayana başlıca məsələ idi. Mirzə Əbülhəsən xanın Londonda apardığı danışıqlar və müzakirələr əsasən 1810-cu ilin birinci yarısına təsadüf edir. Mirzə Əbülhəsən xan Londonda apardığı danışıqlar zamanı aşağıdakı məsələlərin həllinə çalışmalı idi: 1) H.Consla imzalanmış müqavilənin London tərəfindən təsdiqlənməsi; 2) Rusiya ilə sülh bağlayacağı təqdirdə İngiltərə çalışmalı idi ki, Cənubi Qafqaz ərazilərinin azad edilməsi şərti ilə Rusiya ilə Qacar sarayı arasında razılaşmanın əldə edilməsi məsələsini qaldırsın; 3) İngiltərə tərəfindən 200 min tümənlə birlikdə 20 minlik

qoşun dəstəsi Qacarların köməyinə göndərilsin; 4) tam səlahiyyətli ingilis səfirinin Tehrana göndərilməsi. Qacar sarayı Londondan elə bir səfir istəyirdi ki, onun Tehrandakı fəaliyyəti Hindistandakı ingilis hakimi tərəfindən də dəstəklənsin; 5) Tehrana top, silah, hərbi təchizat və mütəxəssislər göndərilməsi; 6) H.Cons ilə Hindistanın ingilis hakimi olan Minto arasındakı ixtilafın aradan qaldırılması (62).



Mirsə Əbülhəsən xan

Əsgəran müzakirələrindən fərqli olaraq Londonda aparılan müzakirələrdə şah sarayının ümidini artıracaq bir sıra razılıqlar əldə edildi. Hər

şeydən əvvəl tərəflər arasında imzalanmış ilkin müqavilə ingilis sarayı tərəfindən təsdiq edildi. Eyni zamanda da iki dövlət arasında imzalanması nəzərdə tutulan böyük müqavilənin bir sıra detalları razılaşdırıldı. Mirzə Əbülhəsən xan çalışırdı ki, Rusiya qoşunları ilə aparılan müharibədə ingilislərin daha çox yardımına nail olsun, Rusiyaya qarşı ingilislərlə olan ittifaq daha da möhkəmləndirilsin. Doğrudur, ingilis sarayı şah sarayının bir sıra yardım xahişlərinə, konkret olaraq qoşunların yenidən qurulmasına maliyyə yardımı göstərilməsinə söz verdi. Bununla belə, ingilis məqamları şah sarayı ilə münasibətlərində ehtiyatı da əldən vermir və Rusiyaya qarşı kəskin radikallıq nümayiş etdirmək istəmirdi (63).

Mirzə Əbülhəsən xanın elçiliyinin Londonda görməli olduğu işlərdən biri İngiltərə sarayı tərəfindən lazımi səlahiyyətlər verilmiş bir səfirin Tehrana gəlməsinə nail olunması idi. Şah sarayı bu zaman Tehranda olan ingilis səfiri H.Consun fəaliyyətinin səmərəliyi ilə razı deyildi. Çünki H.Cons ilə Hindistanın ingilis hakimi Minto arasında müəyyən ixtilaf var idi (64). Nəticədə H.Cons İngiltərə tərəfindən İrana edilən vədlərin həyata keçməsini sürətləndirə bilmirdi. İngilis sarayından uzun müddət hər hansı bir məlumatın gəlmədiyi bir vaxtda Hindistanın ingilis hakimi tərəfindən ser Con Malkolm yenidən Tehrana səfir təyin edildi və o dərhal da İrana yola salındı. Bu təyinat Əsgəran danışıqlarının aparıldığı bir dövrdə baş verdi. Con Malkolm özü ilə şah sarayı üçün çoxlu hədiyyələr, habelə 12 ədəd top, çoxlu tüfəng, 20 min tüfəng, Qacar döyüşçülərinə paltar tikilməsi üçün parça və s. gətirdi (65). Ölkəyə ikinci ingilis səfirinin göndərilməsi şah sarayının təəccübünü doğursa da, göndərilən silah, sursat və hədiyyələrə görə Hindistanın ingilis hakimi bir növ göstərmək istəyirdi ki, İngiltərəni təmsilçi-səfiri məhz C.Malkolmdur. H.Cons isə C.Malkolmun Tehranda səfir kimi tanınmasının əleyhinə idi. Onun etirazlarına və Abbas Mirzənin narahatçılığına baxmayaraq Fətəli şah Təbriz şəhəri yaxınlığındakı düşərgəsində C.Malkolmu qəbul etdi. C.Malkolm şahla və onun əyanları ilə bir neçə gizli görüş keçirdi. Bu görüşlərdən sonra məlum oldu ki, C.Malkolm şah sarayında İngiltərənin elçisi kimi tanınır. Bundan az sonra C.Malkolm yenidən Hindistana qayıtmalı oldu (66).

1810-cu ilin yayının əvvəllərində Mirzə Əbülhəsən xandan xəbər gəldi ki, İngiltərə sarayı Tehrana özünün yeni səlahiyyətli səfirini təyin etmişdir. Bu, Qor Uzeley idi. Qor Uzeley 1810-cu ilin yayında Londondan Tehrana doğru hərəkətə başlasa da 1811-ci ilin martında Buşehrə çatdı. "Gülüstan" müqaviləsinin hazırlanmasında və imzalan-

masında birbaşa iştirak edən Qor Uzeleyin səfir kimi fəaliyyəti A.Tormosovun vəzifəsindən getməsindən sonrakı dövrə təsadüf edir.

2. Qarabağ xanlığında hərbi-siyasi vəziyyət

General A.Tormosovun baş komandanlığı dövründə Cənubi Qafqazda cərəyan edən hərbi-siyasi proseslərin qaynar məkanlarından biri Qarabağ xanlığı idi. Çünki coğrafi mövqeyi etibarilə bu xanlıq Cənubi Qafqaz uğrunda mübarizə aparan həm Qacar sarayı, həm də Rusiya üçün xüsusi əhəmiyyət kəsb edirdi. Qacar qoşunlarının Arazın şimalına doğru yürüşlərinin əsas marşrutlarından biri Qarabağ xanlığı ərazisindən keçirdi. Bu xanlıq ərazisinə qoşun qüvvələri çıxarılması hər dəfə bölgədə yeni bir hərbi-siyasi durum yaradırdı. Qarabağ xanlığı ərazisində möhkəmlənmədən Qacar qoşunları digər Azərbaycan xanlıqları ərazisində möhkəmlənə bilməzdilər. Oxşar mənzərə Rusiya qoşunları üçün də xarakterik idi. Azərbaycan xanlıqları üzərində işğalın möhkəmləndirilməsi üçün Qarabağ xanlığı ərazisində güclü şəkildə möhkəmlənməklə Qacar qoşunlarının Arazın şimalına olan yürüşlərinin qarşısını almaq və Azərbaycan xanlıqlarına qarşı şəriksiz iddiaları həyata keçirmək mümkün ola bilərdi. Ona görə Qarabağ xanlığının sərhədinin möhkəmləndirilməsi və Qarabağ xanlığı ətrafında cərəyan edən hadisələr rus qoşunlarının baş komandanının diqqət mərkəzində idi.

General A.Tormosov Cənubi Qafqaza gələn kimi Qarabağ xanlığına diqqət ayırmağa məcbur oldu. Çünki 1809-cu ilin yazının gəlişi ilə Qacar qoşunları Araz yaxınlığında fəallaşmağa başlamışdılar. Bu fəallaşma Qarabağ sərhədinin yaxınlığında baş verdiyi üçün rus qoşunları baş komandanlığını narahat etməyə bilməzdi. Bütünlükdə, Qarabağ xanlığının sərhədində baş verən hadisələr rus qoşunları komandanlığını daim narahat edirdi. Arazın cənubundan mütəmadi olaraq Qarabağ xanlığı ərazisinə kiçik dəstələrlə yürüşlər baş verirdi. Rus mənbələrində bu yürüşlər talançı yürüşlər kimi xarakterizə olunsa da, bir çox hallarda həmin yürüşlərə rus işğalına qarşı barışmaz olan və Arazdan cənuba mühacirət etmiş Qarabağ bəyləri tərəfindən rəhbərlik edilirdi. Bu bəylərin isə Qarabağ ərazisində özlərinə təəssübkeş tapacaqlarını istisna etmək olmazdı.

1809-cu ilin aprelində Qarabağ xanı Mehdiqulu xanın mühacirətdə olan qohumu Fəzli bəyin rəhbərliyi altında Qarabağ xanlığına yürüş olacağı barəsində məlumat alındı. Bu zaman Qarabağ xanlığı daxilində bir yeger taboru mövcud idi. Lakin rus zabitləri ehtiyat edirdilər ki, Fəzli bəy və onun silahdaşlarının rəhbərliyi altında baş verəcək hücumun

qarşısını almaq çətin olsun. Ona görə Qarabağ xanından tələb olundu ki, yerli atlılardan ibarət dəstə toplasın və bu dəstə rus qoşun hissəsinin köməyinə verilsin (67).

Bütünlükdə, rus qoşunları komandanlığı Qarabağ xanlığının Araz çayından keçən sərhəd xətti boyunca mühafizə xətti təşkil etməyə çalışırdı. Lakin bu sərhəd xətti xeyli uzun olduğu üçün müəyyən çətinlik ortaya çıxırdı. Çünki bu xətt boyu yerləşdirilməsi üçün yetərli rus qüvvələri mövcud deyildi. Rus qoşunları komandanlığı bu məsələnin həllində də Qarabağ atlılarından istifadə etməyi planlaşdırırdı və bununla bağlı Qarabağ ərazisindəki rus qüvvələrinin rəhbərliyinə müvafiq göstəriş verildi (68).

Lakin Rusiya qoşunları tezliklə daha ciddi təhlükə ilə üzbəüz qalmalı oldu. Havaların istiləşməsi ilə Fətəli şahın özünün rəhbərliyi altında Qacar qoşunlarının Arazın şimalına ən azı iki istiqamətdən hücum hazırlanması haqqında məlumat alındı. Yuxarıda deyildiyi kimi, Qacar qoşunlarının daha güclü dəstəsi Qarabağ istiqamətindən Azərbaycan xanlıqları ərazisinə daxil olmağa hazırlaşırdı. General A.Tormosov İrəvan istiqamətindən gözlənilən hücumun qarşısını almalı olduğu halda, Qarabağ istiqamətini də general-mayor Nebolsinin rəhbərliyi altında Bərdə yaxınlığında yerləşən dəstə öz üzərinə götürməli idi. Bu dəstə kifayət qədər güclü bir dəstə idi və xüsusi olaraq Bərdə yaxınlığında, Tərtər kənarında yerləşdirilmişdi. Bu məntəqə Qarabağ, Gəncə, Şəki və Şamaxı xanlıqları kəsişməsində idi və adları çəkilən xanlıqların ərazisində rus işğalına qarşı müxalifətçilik baş versəydi onda bu dəstə qısa zaman ərzində həmin xanlıq ərazisinə yetişə bilərdi.

Qacar qoşunlarının hücum hazırlığı xəbəri alınanda general A.Tormosov general Nebolsinin dəstəsini daha da gücləndirmək qayğısına qaldı. Bununla bağlı, Şəki, Şamaxı və Qarabağ xanlarından tələb etdi ki, onların hər biri 1000 nəfərlik dəstə təşkil edib general Nebolsinin tabeçiliyinə versinlər. Bundan əlavə, polkovnik Lisaneviçin rəhbərliyi altında olan iki yeger taboru Bərdə ilə Gəncə arasında yerləşdirildi. Bu dəstə Gəncə qalasını qorumaqla bərabər, zərurət yarandığı halda general Nebolsinin dəstəsinin köməyinə yetişməli idi. Əlavə olaraq Şəmşəddil mahalının hakimindən tələb olundu ki, o da təşkil etdiyi dəstə ilə polkovnik Lisaneviçə kömək versin (69).

Gözləndiyi kimi, 1809-cu il iyul ayının ortalarında başlanan yeni döyüş mövsümündə Abbas Mirzənin rəhbərliyi altında olan qoşun dəstəsi Qarabağa doğru istiqamət götürdü. Rus mənbələrinə görə, Abbas Mirzə 25 min nəfərlik qoşun dəstəsi ilə Qarabağdan keçməklə Şəki və Şamaxı xanlıqları ərazisinə hücum etmək niyyətində idi (70).

Farsdilli mənbələrin məlumatına görə, Abbas Mirzə əvvəlcə Qarabağ xanının qardaşı Əbülfət ağanın və bir sıra Qarabağ bəylərinin rəhbərliyi altında olan bir dəstəni Qafan və Mehriyə göndərdi. Abbas Mirzə özü isə Ordubad yolu ilə Naxçıvana gəldi (71).

Maraqlıdır ki, Abbas Mirzə buradan Qarabağ üzərinə yox, Gəncə üzərinə yürüş etdi. Yuxartıda qeyd edildiyi kimi, general A.Tormosov bunu Gəncə ətrafındakı rus qüvvələrinin sayının azaldılması və Gəncənin asanlıqla ələ keçirilcəyi ehtimalı ilə bağlayırdı. Mövzuya toxunan farsdilli mənbələrdə isə Abbas Mirzənin Qarabağa girməməsinin səbəbi haqqında məlumat verilmir. Məlumdur ki, Gəncə-İrəvan istiqamətində də Qacar qoşunları hər hansı bir ciddi nəticəyə nail ola bilmədilər və bir müddətdən sonra bu qüvvələr yenidən Arazın cənubuna çəkildilər.

Qacar qoşunları Arazın cənubuna 1809-cu il noyabr ayının əvvəllərində çəkildilər. Bu zaman havalar artıq kifayət qədər soyumuşdu, döyüşlərin aparılması Qacar qoşunları üçün münasib deyildi. O biri tərəfdən də tərəflər arasında barışıq anlaşması üzərində danışıqların aparılması məsələsi müzakirə olunurdu. Buna görə də döyüşlərin aparılmasına ara verildi.

Barışıq anlaşması ətrafında tərəflərin görüşünün və danışıqlarının aparılması üçün A.Tormosov Əsgərana gələndə bir neçə günlüyə Qarabağ xanlığı ərazisində qaldı və rus qoşunlarının bu xanlıq ərazisindəki mövqeyi ilə tanış oldu. Bir tərəfdən danışıqların nəticəsiz bitməsi, digər tərəfdən də ingilislər tərəfindən təhrik olunan Qacar qoşunlarının Qarabağa hücum ehtimalı A.Tormosovun Qarabağdakı rus qoşunlarının daha da möhkəmləndirilməsi qənaətinə gətirdi. Tezliklə alınan xəbərlər də A.Tormosova bu ehtimalın əbəs olmadığını göstərdi.

1810-cu ilin yayında Abbas Mirzənin çoxsaylı qoşunlarla Arazdan şimaldakı ərazilərə hücuma hazırlaşması barəsində məlumatlar əldə edildi. Mövcud olan məlumatlara görə, Abbas Mirzənin tabeliyində 12 min nəfərlik dəstə var idi. Abbas Mirzənin böyük planları olsa da hər halda dəstələrinin birinin Qarabağdan keçəcəyi də gözlənilirdi. Ona görə Rusiyanın Qafqazdakı qoşunlarının növbəti komandanı olan general Tormosov 17-ci yeger alayını Qarabağda cəmləşdirdi. Amma rus generalı şübhə etmirdi ki, bu alay çoxsaylı şah qüvvələrinin qarşısını almağa yetərli olmayacaq. Ona görə o, Mehdiqulu xana tapşırdı ki, xanlıq ərazisində atlıların toplanmasına başlasın və adı çəkilən alayın sərəncamına 250 nəfər atlı göndərsin. Mehdiqulu xanın topladığı digər atlılar isə Araz boyunca yerləşdirilməli idi və lazım gəldikdə bu atlıların Arazın cənubuna yürüş etməsi planlaşdırılırdı. Xanlığın müdafiəsinin gücləndirilməsi üçün general Tormosov Şəki xanı Cəfərqulu xana tapşırdı ki,

Xudafərin körpüsü ətrafına 500 nəfərlik atlı dəstəsi göndərsin. General Tormosov Araz çayı boyunca müdafiənin qurulması üçün atlı dəstəsi göndərilməsi haqqında Şirvan xanına da tapşırıq göndərdi (72).

General A.Tormosov Azərbaycan xanlıqlarından yalnız silahlı dəstələr almaqla kifayətlənmədi. O, xanlardan, habelə Qazax, Şəmşəddil və Borçalı mahalının hakimlərindən tələb etdi ki, dəstələri ilə İrəvan xanlığına, habelə Arazdan cənuba yürüşlər etsinlər, rus işğalı altında olmayan əraziləri talan etsinlər və bununla da rus qoşunlarına qarşı müqaviməti zəiflətsinlər (73).

Bu dövr elə bir dövr idi ki, rus generallarının Mehdiqulu xana qarşı münasibətində bir soyuqluq yaranmışdı. Şah sarayının Cənubi Qafqazda möhkəmlənmək üçün göstərdiyi cəhdlər rus generallarının Rusiya təbəəliyini qəbul etmiş Azərbaycan xanlarının Rusiyaya sədaqətinə şübhələrini artırırdı. Digər tərəfdən Əbülfət xanın rəhbərliyi altında Qarabağ xanlığı ərazisinə davam edən talançı yürüşlərinin qarşısının alınması üçün qətiyyətli tədbirlərin görülməsi də Mehdiqulu xana qarşı rus generallarında narazı münasibət formalaşdırırdı. Rus tarixçiləri də Qacar qoşunlarının hücum təhlükəsi ərəfəsində Mehdiqulu xanla bərabər, Şamaxı xanı Mustafa xanın da ruslarla gözlənilən köməyi göndərdiyini yazırdılar. Bildirilir ki, bu xanlar ruslara kömək göndərməyi vəd etsələr də, bu vədi yerinə yetirməyə tələsmirdilər. Mustafa xanın Qacar şahzadəsi Abbas Mirzə ilə əlaqə yaratdığı, Abbas Mirzə il məktublaşmaqla bərabər, onun yanına elçisini göndərdiyi də iddia olunurdu. Mehdiqulu xanın Qacar şahzadəsi ilə əlaqə yaratmaq cəhdlərindən A.Tormosov da xəbər tutmuş və Mehdiqulu xana göndərdiyi məktubunda bununla bağlı öz qəzəbini də nümayiş etdirmişdi. Həmin məktub əslində hədələyici bir məktub idi və bununla Mehdiqulu xanı da Rusiyaya sədaqətli qalmağa məcbur etmək istəyirdi. A.Tormosov həmin məktubunda Mehdiqulu xanın Səlim xanla əlaqədə olmasını qəbuledilməz hesab edirdi və Mehdiqulu xanın nəzərinə çatdırırdı ki, onun təmasda olduğu bütün şəxslərin adı bəllidir və həmin adamlar da cəzalandırılacaqlar. Baş komandan Mehdiqulu xandan tələb etdi ki, qohumu Səlim xanla əlaqələrini kəssin və Səlim xanın Rusiya sərhədlərindən uzaqlaşmasına nail olsun. Əks təqdirdə Səlim xanın tutulması üçün lazımi tədbirlərin görüləcəyini bildirdi. Məktubunun sonunda A.Tormosov Qarabağ xanını Rusiyaya düşmən olan şəxslərdən uzaq olmağa, Qacar əyanları ilə təmasları kəsməyə çağırdı və Mehdiqulu xanın yenidən öz andına sədaqətli qalacağına ümidlərini ifadə etdi. Oxşar məzmunda başqa bir məktubu A.Tormosov Şamaxı xanına da göndərdi (74).

Yuxarıda qeyd edildiyi kimi, Əsgəran danışıqları başa çatandan sonra A.Tormosov bir neçə gün Qarabağ xanlığı ərazisində qaldı və xanlıq daxili vəziyyətlə tanış oldu. Rus general və zabitlərinin məruzə və məlumatlarından sonra general A.Tormosov xanlıq daxili vəziyyətdən razı qalmadı. Xüsusilə, xanlıq daxilində vergilərin toplanması və xəzinəyə təhvil verilməsi rus generalını az qala özündən çıxardı. Xanlıq ərazisində vergi toplanmasını rus maraqlarına uyğunlaşdırmaq və bu prosesi nəzarət altında saxlamaq üçün general A.Tormosov tərəfindən xüsusi komitə təşkil edildi. Bu komitəyə general-mayor Portnyagin, general-mayor Nebolsin, polkovnik Aseyev və A.Tormosovun dəftərxanasının müdiri Mogilyevski daxil edildi. Bu komitə Qarabağda yaşayan əhalinin sayını və bu əhalidən toplanmalı olan vergilərin miqdarını müəyyənləşdirməli idi. Vergiləri vaxtında verməyənlər və ya onun toplanmasına mane olanlar rus qoşunları tərəfindən cəzalandırılmalı idilər (75).

Qacar qoşunlarının hücum ehtimalı ərəfəsində A.Tormosov Qarabağ xanına məktub göndərərək onun özünü fəal olmağa, Xudafərin körpüsünün mühafizəsi üçün Şəki xanının göndərdiyi dəstəyə kömək göstərməyə çağırdı. Şəki xanının dəstəsinin yem və ərzaqla təmin edilməsi Mehdiqulu xana tapşırıldı. Eyni zamanda A.Tormosov Qarabağ xanından tələb etdi ki, xanlıq əhalisini də Qacar qoşunlarına qarşı müqavimət göstərməyə qaldırsın. Bununla belə, Mehdiqulu xan tərəfindən elə bir fəallıq duyulmadı. Qarabağ xanı A.Tormosovun tapşırığı əsasında polkovnik Kotlyarevskinin sərəncamına 250 atlı göndərilməli olduğu halda 1810-cu il may ayının sonuna cəmi 70 atlı göndərmişdi. A.Tormosov bu məlumatı alanda yenidən qəzəbləndi və qəzəbini Mehdiqulu xana göndərdiyi məktubunda da gizlətmədi. A.Tormosov inandırmağa çalışırdı ki, Qarabağın möhkəmləndirilməsi Mehdiqulu xanın xeyrinədir və xanlığa gətirilən rus qoşunlarının qarşısına qoyulan vəzifə də ondan ibarətdir ki, Mehdiqulu xanın nəzarətindən kənar xanlıq ərazilərini Mehdiqulu xanın nəzarəti altına gətirsin. Baş komandan bir daha Mehdiqulu xandan tələb etdi ki, polkovnik Kotlyarevskinin sərəncamına lazımi sayda atlı göndərsin, Qarabağ qoşununun bir hissəsi Sisiyanın mühafizəsinə göndərilsin, Araz boyu sərhəd xətti xan atlılarının müşahidəsi altına götürülsün, Arazın cənubuna adamlar göndərməklə Qacar qoşunlarının planları haqqında məlumat toplansın. Bu tapşırıqların yerinə yetiriləcəyi halda Mehdiqulu xana icazə verilirdi ki, Arazın cənubuna talançı yürüşlər etsin, Arazın cənubunda olan kəndləri Qarabağ xanlığı ərazisinə köçürsün (76).

Məlumdur ki, Mehdiqulu xan rus qoşunları baş komandanına məktub göndərdi və Rusiyaya sədaqətli qaldığına A.Tormosovu inandırmağa

çalışdı. Əslində isə Mehdiqulu xan rus generallarının və zabitlərinin tələblərini yerinə yetirməkdə yenə də fəallıq göstərmədi. A.Tormosovun tələbi əsasında polkovnik Kotlyarevskinin dəstəsinə 250 atlı göndərməli olsa da təkrar tələbdən sonra da həmin atlılar göndərilmədi. 1810-cu il iyul ayının əvvəllərində polkovnik Kotlyarevskinin yanına göndərilmiş 70 atlıdan da 20-si geri qayıtdı. Polkovnik Kotlyarevskinin yanında qalmış 50 atlının atlarının zəif olduğu üçün onlar da lazımi tapşırıqları yerinə yetirmək gücündə deyildilər. Başlıcası isə Qarabağ xanlığı əhalisi arasında Rusiya təbəəliyinə bir sədaqət yox idi. Polkovnik Aseyev baş komandana yazdığı məktublarından birində hətta pul qarşılığında belə xanlıq əhalisi arasında Rusiyaya sədaqətli adamları tapmağın çətin olduğunu yazırdı. 1810-cu il may ayının sonunda Qafan kəndlərindən 150 ailənin Naxçıvana getməsini də rus zabitləri əhalinin rus işğalına qarşı olan mövqeyi ilə əlaqələndirirdi. Həmin ailələrin geri qaytarılması üçün polkovnik Kotlyarevskinin göstərdiyi cəhd də bir nəticə vermədi. Çünki polkovnik Kotlyarevski məntəqəyə gələndə Qafan ailələri artıq Naxçıvan xanlığı ərazisində idilər və rus qoşunları da bu xanlıq ərazisinə keçməyə cəsarət etmədilər. Qafan da Qarabağ xanlığının ərazisi sayıldığından rus zabitləri bu bölgənin əhalisinin xanlıq ərazisindən köç etməsini Mehdiqulu xanın fəaliyyətsizliyi və onun rus maraqlarının qorunmasına çalışması ilə əlaqələndirirdilər (77).

Ona görə general A.Tormosov bir daha Mehdiqulu xandan polkovnik Kotlyarevskinin sərəncamına 250 atlı göndərməyi, Araz boyu sərhəd xəttinin qorunması üçün atlı dəstəsinin təşkil edilməsini, kəşfiyyat məlumatlarının toplanması üçün adamlar göndərilməsini tələb etdi. Bir neçə gündən sonra, yəni, 1810-cu il iyun ayının 19-da Mehdiqulu xana göndərdiyi növbəti məktubunda general A.Tormosov əvvəlki tələblərini yenidən təkrarlamalı oldu. İyun ayının ortalarına kimi polkovnik Kotlyarevskinin sərəncamında olan Qarabağ atlılarının sayı 50-ni keçməmişdi. Bu atlıların sayının dəyişdirilməsi üçün Mehdiqulu xan tərəfindən heç bir iş görülmürdü. Bu da A.Tormosovun əlavə təşvişinə səbəb olurdu. Qacar qoşunlarının Arazın şimalına hücumunun yaxınlaşması ehtimalı isə general A.Tormosovun təşvişini daha da artırırdı. Ona görə o, Mehdiqulu xandan bir daha tələb etdi ki, atlı dəstənin təşkili sürətləndirilsin. General A.Tormosov Qarabağ xanını bir daha hədələdi ki, verilən tapşırıqlar yerinə yetirilməzsə, rus qoşunları Qarabağ ərazisindən çıxarıla bilər və onda Qacar qoşunlarının hücumu qarşısında Mehdiqulu xan təkbaşına qalmalı olacaqdır (78).

Qarabağ xanlığı ərazisindən Arazın cənubuna köç edənlər də Qarabağ ərazisində baş verənlərə biganə qalmırdılar və onlar da Qarabağ

ərazisindəki rus işğalına qarşı mübarizədən çəkinmirdilər. Qarabağ ərazisindən köç edənlər arasından Qacar qoşunlarına qoşulanlar da az deyildi. İstər Əbülfət xanın dəstəsi, istərsə də adları yuxarıda çəkilən Qarabağ bəyləri rus işğalına qarşı bir barışmazlıq göstərirdilər. Hətta Qarabağdan çıxanlar arasında Qacar qoşunlarına qoşulmadan belə rus işğalına qarşı mübarizə təşəbbüskarlığı göstərənlər də var idi. Ə.Dünbəli Qarabağın Əmirli tayfasının bir neçə üzvünün bu mənada Şuşa qalasına daxil olması, Xəlifəli darvazası yaxınlığındakı barıt anbarını partlatmasından söz açmışdır. Bu adamlar Şuşa qalası daxilində və ətrafında rus qoşunlarının atları üçün toplanmış ot tayalarına da od vurmuşdular. Ə.Dünbəli onu da yazırdı ki, Arazın qarşı tayında Qarabağ xanlığı ilə sərhəd olan Qaradağ xanlığının xanı Hacı Məhəmməd xan da sərhədləri yaxınlığında rus qoşunlarının dayanması ilə barışa bilmirdi. Qaradağ xanı əhalini ruslara qarşı cihada səfərbər etmək istəyir və bu cihadın aparılması üçün də əməli fəaliyyət göstərirdi. Qarabağdan köçən əhali də ilkin olaraq Qaradağ xanlığı ərazisinə toplanırdılar və bu köçkünlər də Qaradağ xanlığı ərazisində Qarabağdakı rus işğalına qarşı mübarizəyə cəlb edilirdilər (79).

Qacar sarayının Azərbaycan xanlıqları ilə bağlı öz iddiaları mövcud idi. Bununla belə, Azərbaycan xanlarının və xanlıqlar əhalisinin rus işğalına qarşı biganə qalmaması Qacar qoşunlarının rəhbərliyində başlanacaq yürüşlərin uğuruna əlavə ümidlər yaradırdı. Ə.Dünbəli 1810-cu ilin yeni döyüş mövsümü ərəfəsində Qacar qoşunlarının bəzi çətinliklərlə qarşılaşdığını yazırdı. Bu çətinliklərdən biri zəruri olan maliyyə vəsaitinin çatışmaması idi. Doğrudur, şah xəzinəsindən Abbas Mirzənin qoşun dəstəsinin təşkili və təchizi üçün müəyyən bir vəsait ayrılmışdı. Lakin bu vəsait yetərli miqdarda deyildi (80).

Hələ Əsgəran danışıqlarının gedişində Abbas Mirzə qoşunların toplanmasını diqqət mərkəzində saxlayırdı. Mirzə Bozorg tərəfindən danışıqların nəticəsiz başa çatması haqqında məlumat alan kimi isə o, Fətəli şaha məktub göndərdi və Arazın şimalına yürüşlərin başlanması zəruriliyini ona çatdırdı. Fətəli şah Azərbaycan xanlıqları üzərinə yeni yürüşlərin başlanması ilə razılaşdı və hücum kampaniyası dövründə özünün də Təbriz yaxınlığına gələcəyini bildirdi. Bununla da Təbrizdə qoşunların və qoşun təchizatının toplanması sürətləndirildi. İlkin məlumatlara görə, Təbriz ətrafında 12 min nəfərlik qoşun dəstəsinin formalaşdırılması nəzərdə tutulmuşdu. Fətəli şah eyni zamanda böyük oğlu Məhəmmədəli Mirzəyə də 15 min nəfərlik qoşun dəstəsi toplamaq haqqında göstəriş verdi. Alınan məlumatları görə, Məhəmmədəli Mirzə yenidən rus qoşunlarına qarşı hücuma cəlb edilməli idi. Bu hücumun

gücləndirilməsi üçün Fətəli şahın özünün də 15 min nəfərlik qoşun dəstəsi gətirəcəyi ehtimal edilirdi (81).

Araz çayının cənubunda Qacar qoşunları düşərgəsində baş verənlər rus qoşunları komandanlığı tərəfindən yaxından izlənilirdi. Kəşfiyyat məlumatlarının toplanması üçün Arazın cənubuna göndərilənlər orada cərəyan edənləri vaxtlı-vaxtında rus qoşunları rəhbərliyinə çatdırırdılar. Ona görə general A.Tormosova yaxşı bəlli idi ki, 1810-cu ilin may ayının sonları, iyun ayının əvvəllərində Qacar qoşunlarının yeni təzyiqi ilə üzbəüz qala bilər. Qacar qoşunlarının kütləvi şəkildə və inadkarlıqla hücuma qoşulmaları rus qoşunlarını mürəkkəb vəziyyətə sala bilərdi. General A.Tormosova o da bəlli idi ki, Azərbaycan xanları və xanlıq əhalisi arasında rus işğalına qarşı narazılıq əhval-ruhiyyəsi mövcud idi. Qacar qoşunlarının uğuru bu narazılıqları genişləndirə bilərdi.

İrəvan və Naxçıvan xanlıqlarının silahlı dəstələrinin qoşulması ilə daha da güclənəcək Qacar qoşunlarının hücumunun qarşısını almaq üçün Cənubi Qafqazdakı rus qoşunları üç dəstədə qruplaşdırıldı. Birinci dəstə general-leytenant baron Rozenin rəhbərliyi altında olmaqla Tiflis yaxınlığındakı Soğanlı kəndi ətrafında dayanırdı. 8 piyada taborunun, 6 eskadronun və 3 kazak alayının daxil olduğu bu dəstə bir qədər arxa xətdə yerləşdirilmişdi və çox güman ki, bu dəstədən qacarların daha güclü olduğu istiqamətdə istifadə olunması nəzərdə tutulmuşdu. General-mayor Portnyaginin rəhbərliyi altında olan dəstə Gümrü və Hamamlı yaxınlığında düşərgə salmışdı. Hamamlı kəndi yaxınlığında Narv draqun alayının 2 eskadronu, Saratov muşketyor alayının 2 taboru, Don kazak alayı, Qazax və Pəmbəkdən olan könüllülər dayanırdı. Gümrü ətrafında isə Tiflis muşketyor alayının 2 taboru və digər bir Don kazak alayı yerləşdirilmişdi. İkinci dəstəyə aid olan Saratov və Tiflis alaylarının hər birinin bir taboru isə Osmanlı sərhədi yaxınlığındakı mövqelərdə idilər. General-mayor Portnyaginin dəstəsi İrəvan xanlığı ərazisindən başlanan hücumların qarşısını almalı idi. General-mayor Nebolsinin rəhbərliyi altında olan üçüncü dəstə isə Qarabağla Gəncə arasında qərar tutmuşdu. Troitski muşketyor alayının 2 taboru Tərtər çayı sahilində olan Çardaxlı məntəqəsində, bu alayın digər bir taboru Gəncədə yerləşdirilmişdi. Çardaxlıda yerləşən əsas düşərgədə 17-ci yeger alayının 3 taboru, Popovun rəhbərliyi altında olan 16-cı Don kazak alayı da var idi. Bu dəstənin Qarabağ, Şəki və Şirvan atlıları tərəfindən möhkəmləndiriləcəyi gözlənilirdi (82).

1810-cu il may ayının sonlarında və iyun ayının əvvəllərində Qacar qoşunları fəallaşmağa başladılar. Bu fəallaşma zamanı Qacar qoşunları ilə ilk qarşılaşan polkovnik Kotlyarevskinin dəstəsi oldu. Yuxarıda qeyd

edildiyi kimi, polkovnik Kotlyarevskinin dəstəsi Qafan istiqamətinə göndərilmişdi. O, bölgənin əhalisinin Naxçıvan və Qaradağ xanlıqları ərazisinə köçürülməsinin qarşısını ala bilməsə də rus qoşunları komandanlığı tərəfindən digər tapşırıqların icrasına cəlb edildi. Qacar qoşunları hələ Araz çayını adlamazdan əvvəl, yəni iyun ayının 2-də polkovnik Kotlyarevski general Nebolsindən Mehrini tutmaq tapşırığı aldı. Mehrinin tutulması Qacar qoşunlarının yürüşlərinin qarşısının alınması baxımından əhəmiyyət kəsb edirdi. Polkovnik Kotlyarevskinin dəstəsi Mehriyə doğru hərəkətə başlayandan sonra Qarabağ xanı Mehdiqulu xan həmin dəstənin çətin vəziyyətə düşəcəyi barəsində general Nebolsini xəbərdar etdi. Çünki yolların qeyri-münasibliyi üzündən polkovnik Kotlyarevskinin dəstəsinə ərzaq və digər təchizat çatdırılması çox çətin ola bilərdi. General Neçolsin Qarabağ xanının dəlilləri ilə razılaşaraq polkovnik Kotlyarevskinin dəstəsinin geri qaytarılması və bu dəstənin Xinzirək kəndində yerləşdirilməsi haqqında polkovnik Aseyevə göstəriş verdi. General Nebolsin eyni zamanda belə bir tapşırıq da verdi ki, Qafanda qalmış ailələr də rus dəstəsi ilə Xinzirək kəndinə gətirilsin (83).

Rus müəlliflərinin yazdığına görə, polkovnik Kotlyarevski öz dəstəsi ilə Mehriyə doğru hərəkətə başlayanda Abbas Mirzənin də böyük qoşun dəstəsinin həmin məntəqəyə doğru yola düşməsi haqqında məlumat alındı. Bu məlumat rus komandanlığını müəyyən təşvişə saldı. Ona görə də, polkovnik Kotlyarevskiyə geri dönmək haqqında əmr göndərildi. Amma bu əmr ona çatmazdan əvvəl artıq tərəflər arasında döyüş başlamışdı. Mehriyə gedən yollar Abbas Mirzə qüvvələrinin ciddi nəzarəti altında olduğu üçün Kotlyarevski öz dəstəsinə sıldırımlı dağları aşaraq hərəkət etmək əmri vrdi. Mehriyə aparan yolları mühafizə edən Abbas Mirzə qüvvələri hadisələrin belə cərəyan edə biləcəyini heç də gözləmirdilər. İyun ayının 12-də rus dəstəsinin Mehri ətrafında peyda olması Abbas Mirzə qüvvələrini çıxılmaz vəziyyətə saldı. Dəstəsini bir neçə qrupa bölən Kotlyarevski Abbas Mirzə qüvvələri üzərinə sürətli hücum təşkil etdi və qısa müddət ərzində bir-birinin ardınca Abbas Mirzə qüvvələrinin döyüş mövqeləri ələ keçirildi. Bildirilir ki, polkovnik Kotlyarevski 35 nəfər itki verməklə Mehriyə nəzarəti ələ keçirdi (315).

1810-cu il iyun ayının ortalarında Qacar qoşunlarının başqa bir dəstəsinin Qarabağ xanlığı içərilərinə doğru irəliləməsi haqqında məlumat alındı və rus mənbələrinin verdiyi xəbərə görə, 500 nəfərlik Qacar dəstəsi iyun ayının 16-da Qarabağın Tuğ kəndi yaxınlıqlarına qədər irəlilədi. İyun ayının 17-də isə Qacar qüvvələri Əsgəran, Şuşa və Şahbulaq istiqamətində irəlilədilər. Bu qüvvələrin Tərtər və Kür çayına

qədər hərəkət etməsi bildirilir. Məlumatlardan aydın olur ki, bu dəstənin rus qoşunları ilə qarşılaşmaq niyyəti yox idi. Həmin dəstə daha çox talanla, mal-qaranın aparılması ilə məşğul idi. Görünür, Qacar qüvvələri bununla Qarabağ ərazisindəki yerli və rus qüvvələrin vəziyyətini çətinləşdirməyə çalışırdı. İyun ayının 18-də həmin dəstə yenidən Arazı adlayıb Qaradağa çəkildi. Polkovni Aseyev bildirirdi ki, Qacar qüvvələrinin qarşısını almaq üçün Qarabağ ərazisində onun yetərli qüvvəsi yoxdur. Qacarlara müqavimət göstərmək üçün o, Şamaxı xanlığı ərazisindən bir taboru çağırmalı oldu. Həmin tabor da yalnız ayın 19-da Əsgərana yetişə bildi. Qacar qüvvələrinin maneəsiz Qarabağ xanlığına girməsinin bir səbəbini də rus zabitləri Mehdiqulu xanın fəaliyyətsizliyində görürdülər. Onların sözüncə, Mehdiqulu xan Xudafərin körpüsünü müşahidə altına almadığı kimi, ətrafına dəstə də toplamamışdı. Mehdiqulu xan isə Qarabağ xanlığının Rusiya qoşunları tərəfindən qorunmalı olduğunu bildirir və ona görə də silahlı dəstə toplanması ilə bağlı rus tələblərinə elə də əhəmiyyət vermirdi (85).

Polkovnik Aseyev Qarabağda heç kimin, hətta erməni məliklərinin də ruslara yardım etmədiyini yazırdı və Qarabağın Rusiya hüdunda saxlanmasının yeganə yolunu ora 2 rus alayının göndərilməsində görürdü (86).

Qacar qüvvələrinin Qarabağ xanlığı daxilinə nüfuz etməsi haqqında polkovnik Aseyev general A.Tormosovu da məlumatlandırdı. Baş komandana eyni zamanda çatdırıldı ki, Qacar qoşunlarının əsas qüvvələr Xudafərin körpüsü ətrafında toplanmışdır və 12 min nəfərdən ibarət olan bu qüvvələrə Pirqulu xan, Hacı Məhəmməd xan, İsmayıl xan və Əbülfət xan rəhbərlik edirdilər. 12 min nəfərdən ibarət olan başqa bir dəstənin də Qarabağ xanlığı üzərinə hücuma hazırlaşdığı bildirilirdi. Bu dəstəyə də Fətəli şahın böyük oğlu Məhəmmədəli Mirzə rəhbərlik edirdi. Belə böyük bir qüvvənin qarşısını kəsmək üçün general Nebolsinin dəstəsinin bütünlüklə Əsgəran istiqamətində səfərbər olması tapşırıldı. General Neboısindən tələb olundu ki, polkovnik Kotlyarevskinin dəstəsi də geri çağırılsın və bu dəstədən də Qarabağda Qacar hücumunun qarşısının alınması üçün istifadə edilsin. Bundan başqa mayor Parfyonovun rəhbərliyi altında olan bir tabor da Bakıdan Qarabağa çağırıldı (87).

Farsdilli mənbələr Qarabağa göndərilən Qacar qüvvələrinə Hacı Məhəmməd xanın rəhbərlik etdiyini bildirirlər. Hacı Məhəmməd xan Qaraközlüyə ikili vəzifə tapşırılmışdı. O, həm Qarabağ xanlığı ərazisindəki rus qoşunlarına zərbə vurmalı idi, həm də Qarabağ xanı Mehdiqulu xanı cəzalandırmalı idi. Qacar əyanlarının nəzərində Mehdiqulu xan Rusiyanın adamı idi və ona görə də ona qarşı mənfi münasibət var idi.

Bildirilir ki, bu zaman Mehdiqulu xan Əsgəran qalasında idi. Hacı Məhəmməd xan onun müqavimətini qıra bilmədikdə Cəbrayıla tərəf geri çəkilməli oldu (88).

1810-cu il iyun ayının 24-nə aid olan yazışmalarında isə general A.Tormosov Qacar qoşunlarının bir dəstəsinin Pirqulu xanın rəhbərliyi altında artıq Arazı adladığını bildirirdi. Digər dəstələr də Araz çayını adlamaqda idi. Qacar qüvvələri hətta Əsgəran qalasına qədər irəliləmişdilər. Alınan məlumata görə, Abbas Mirzə də 10 minlik qoşun dəstəsi ilə Naxçıvana yaxınlaşmaqda idi. Vəziyyətin kifayət qədər mürəkkəbləşdiyini görən A.Tormosov Mehridə olan polkovnik Kotlyarevskinin dəstəsinin təcili olaraq Qarabağa çağırılmasını tələb etdi. Onun fikrincə, Qacar qoşunları bu dəstəni mühasirəyə alıb məhv edə bilərdilər (89).

Abbas Mirzə doğrudan da Mehri istiqamətinə diqqətini gücləndirdi və oradakı rus qoşun dəstəsinin məhv edilməsi üçün rus mənbələrinə görə, 1000 nəfərlik qoşun dəstəsini Mehriyə göndərdi. Həmin dəstə iyun ayının 17-də Araz çayı kənarına yetişdi və orada Mehridən geri çəkilmək məcburiyyətində qalan Qacar dəstəsi ilə rastlaşdı. Araz çayı bol sulu olduğu üçün Qacar dəstəsi qarşı tərəfə adlaya bilmədi və ona görə polkovnik Kotlyarevskinin dəstəsi üzərinə planlaşdırılan hücum da alınmadı. Polkovnik Kotlyarevski isə geri çəkilmək haqqında aldığı tapşırığı yerinə yetirmədi və bunu onunla əsaslandırdı ki, Mehridəki müdafiə mövqeləri kifayət qədər möhkəmləndirilib. Onun yazdığına görə, hətta Abbas Mirzə də gəlsəydi bu mövqeləri ələ keçirə bilməzdi. Ona görə də polkovnik Kotlyarevski mövqelərini tərk etməyi lazım bilmədi. Lakin Mehri ətrafında sakit vəziyyət də uzun sürmədi. Abbas Mirzə göndərdiyi dəstənin Mehri ətrafına yetişmədiyini eşidəndə ora başqa bir dəstəni göndərməyi tapşırdı. Həmin dəstə Xudafərin körpüsündən keçməklə Mehriyə doğru istiqamət götürməli idi. Əldə olunan məlumatlara görə, bu dəstə Mehrini aldıqdan sonra Qarabağ xanlığının içərilərinə doğru yürüşünü davam etdirməli idi. Pirqulu xanın və Naxçıvan xanı Kəlbəli xanın rəhbərliyi altında bir dəstə də Mehriyə aparan yolları kəsməklə rus dəstələrinin Mehriyə gəlməsinin qarşısını almalı idi. Bu dəstənin ixtiyarında 10 ədəd topun olduğu da bildirilirdi. Bu xəbəri alan kimi general Nebolsinin tapşırığı əsasında podpolkovnik Aseyevə tapşırıq verildi ki, taboru ilə birlikdə Mehri istiqamətinə yollansın və polkovnik Kotlyarevskinin dəstəsinə kömək göstərilsin. Rus mənbələrində olan məlumatlara görə, podpolkovnik Parfyonovun taboru Mehriyə yetişə bilmədi. General Nebolsin eyni zamanda mayor Tereşkoviçin rəhbərliyi altında 2 bölüyü ərzaq və yem ehtiyatları ilə birlikdə Mehriyə göndərdi və həmin bölüklər iyulun 2-də Mehriyə yetişə bildilər. Bu

bölüklərin yetişməsi ilə polkovnik Kotlyarevskinin rəhbərliyi altında olan döyüşçülərin sayı 600 nəfərə çatdı (90).



Abbas Mirzə

Polkovnik Kotlyarevskiyə lazımi köməyin çatdırılması və Qarabağ ərazisində Qacar qoşunlarının hücumunun qarşısının alınmasının əla-

qələndirilməsi üçün general Nebolsin iyul ayının 7-də Tərtər çayı sahilindəki düşərgəsini tərk edərək 2 tabor qüvvənin müşayiəti ilə iyulun 5-də Xocalı yaxınlığında mövqe tutdu. Qarabağdakı vəziyyətlə tanış olandan sonra general Nebolsin bir daha belə bir qənaətə gəldi ki, polkovnik Kotlyarevskinin dəstəsini Mehridən çıxarmaq lazımdır. General A.Tormosov da belə bir fikirdə idi. Baxmayaraq ki, Mehri istər Qacar qoşunları üçün, istərsə də rus qoşunları üçün strateji əhəmiyyət kəsb edən məntəqə idi və bu məntəqəni əldə saxlamaqla Qarabağ və İrəvan xanlıqları ərazisində baş verənlərə daha yaxşı və daha yaxından nəzarət etmək olardı. Bununla belə, rus düşərgələrinin uzaqlığı və Qacar qoşunlarının bu məntəqəyə xüsusi diqqəti polkovnik Kotlyarevskinin vəziyyətini təhlükəli edirdi. Bu təhlükənin qarşısının alınması üçün general Nebolsin Bakıdan göndərilmiş mayor Parfyonovun dəstəsini Tatev adlı məntəqədə saxlatdırdı ki, çətin vəziyyət yarandığı halda bu dəstə vasitəsilə polkovnik Kotlyarevskiyə kömək göstərilməsinə cəhd edilsin (91).

Qacar qoşunlarının Arazın şimalına başlanan yürüşünün ilk güclü zərbəsi Mehridəki rus qoşun dəstəsinin məhv edilməsinə yönəldildi. Yuxarıda qeyd edildiyi kimi, bu məntəqə Qacar qüvvələri üçün də strateji əhəmiyyət kəsb edirdi və həyata keçirilən yeni hücumla bu məntəqənin ələ keçirilməsi nəzərdə tutulurdu. Bunun üçün Mehri üzərinə 8 min nəfərlik atlı və piyadalardan ibarət qoşun dəstəsi yeridildi. Qoşun dəstəsinə Təbriz bəylərbəyi Əhməd xan və Abbas Mirzənin vəziri Mirzə Bozorgun oğlu Həsən xan rəhbərlik edirdilər. Mirzə Bozorg şah sarayında yeni vəzifə alandan sonra oğlu Həsən xanın Abbas Mirzənin yeni vəziri təyin edilməsinə çalışırdı. Rus mənbələrinə görə, Əhməd xanla Həsən xanın qarşısına nəyin bahasına olursa olsun Mehrinin alınması tapşırığı qoyulmuşdu. Bu tapşırıqla Araz çayını adlayan dəstə iyul ayının ilk günlərində Mehridəki rus dəstəsinin sığınacağını mühasirəyə aldı. Qacar qüvvələri ətraf bağların içərisində mövqe tutdular və beş gün ərzində rus dəstəsinin möhkəmləndirilmiş sığınacağını zənburək və tüfəngdən atəşə tutdular. Qacar qüvvələri hətta rus dəstəsinin sığınacağına gedən suyun da qarşısını kəsdilər. Amma bir nəticəyə nail ola bilmədilər. Qacar dəstəsində olan iki ingilis zabiti rus dəstəsinin sığındığı müdafiə mövqelərini nəzərdən keçirərkən belə bir qənaətə gəldilər ki, onların alınması mümkün deyil. Ona görə də onlar Abbas Mirzəyə xəbər göndərdilər ki, Mehri ətrafında vaxt keçirməyə dəyməz və dəstənin geri çəkilməsi məsləhətdir. Abbas Mirzə də bu məsləhəti qəbul etdi. Görünür, Abbas Mirzə özü də böyük bir dəstənin günlərlə Mehridə ilişib qalmasını məsləhət bilmədi və ona görə də dəstənin geri çəkilməsinə razı oldu. Rus

dəstəsinin sığınacağının mühasirəsində ən adi qətiyyət və bacarıq nümayiş etdirə bilməyən Qacar dəstəsi geri çəkilmək əmrinin icrasına da son dərəcə məsuliyyətsizcəsinə yanaşdı. Gün ərzində Qacar dəstəsi Arazın cənubuna adlamağa müvəffəq olmadı. Dəstənin böyük bir hissəsi Arazın sol sahilində gecələməli oldu. Lakin bu dəstənin mühafizəsi təşkil edilmədi. Ona görə də dəstə bu məsuliyyətsizliyin qurbanı oldu. Polkovnik Kotlyarevski dəstəsinin sayının az olmasına baxmayaraq gizli şəkildə Qacar dəstəsini təqib etdi və gözlənilməyən anda arxayınlaşmış olan Qacar dəstəsinin üzərinə hücum etdi. Qəfil hücumu gözləmədikləri üçün Qacar dəstəsinin rəhbərləri ruslara qarşı müqavimət təşkil edə bilmədilər. Döyüşçülər daha çox canlarını salamat qurtarmaq haqqında düşünürdülər və bu zaman qarşı tərəfin güllələrinə hədəf oldular. Rus mənbələri Qacar dəstəsindən 800 nəfərin öldürüldüyünü iddia edirlər. Bu rəqəm şişirdilmiş görünsə də hər halda Qacarlar itki verərək geri çəkilmək məcburiyyətində qaldılar. Ruslar tərəfindən isə 19 nəfərin öldürüldüyü və yaralandığı bildirilir (92).

Mehri döyüşü haqqında farsdilli tarixi ədəbiyyatda məlumat yoxdur. Qacar tarixçiləri diqqəti daha çox qacarların az-çox uğuru olan döyüşlərə yönəltmişlər. Ona görə bu döyüşün daha təkmil mənzərəsini yaratmaq da çətindir.

Qacar qoşunları yalnız Mehri üzərinə deyil, digər məntəqələrə də yürüş etdilər. Lakin bu dəfə də Qacar qoşunları heç bir istiqamətdə hərbi üstünlüyə malik ola bilmədilər. Mehri döyüşü ərəfəsində Əli xanın rəhbərlik etdiyi bir atlı dəstə Qarabağ xanlığı ərazisinə yürüş etdi. Bu dəstəni Cəfərqulu ağanın rəhbərliyi altında olan dəstə qarşıladı. Cəfərqulu ağa ona məxsus kəndlərin Qacar qoşunları tərəfindən talanmasına yol verməmək üçün dəstəsi ilə onlara müqavimət göstərdi. Əli xanın dəstəsindən əsir götürülən atlının verdiyi ifadəyə görə, onların dəstəsi 105 nəfərdən ibarət idi və dəstəyə Qarabağ xanlığı ərazisində talançı yürüşlər etmək tapşırığı qoyulmuşdu. Şahbulaq bağları ətrafında Qacar dəstəsi Cəfərqulu ağanın dəstəsi tərəfindən məğlubiyyətə uğradıldı (93).

Mehri döyüşündən sonra Əli xanın rəhbərliyi altında olan bir dəstə İrəvan istiqamətində yürüş etdi. Elə həmin günlərdə Pirqulu xanın və Nəcəf xanın rəhbərliyi altında olan başqa bir dəstə isə Qarabağın Goranzur kəndi yaxınlığında düşərgə saldı. Rus mənbələrinə görə, Pirqulu xanın dəstəsi əsasən ətraf kəndlərin talan edilməsi ilə məşğul idi. Goranzur bəylərindən olan Qasım bəy adlı birisi ətrafına 150 nəfərlik bir dəstə toplayaraq kəndin talan olunmasının qarşısını almağa çalışdı Sonra ətraf kəndlərdən də Qasım bəyə kömək gəldi və bunun nəticəsində ətraf kəndlərin talan edilməsinin qarşısını almaq mümkün oldu. Bölgədə

yerləşmiş podpolkovnik Parfyonovun dəstəsindən olan poruçik Zarubinin də Qacar qüvvələri ilə döyüşə girdiyi bildirilir. Bu döyüş iyul ayının 10-da baş verdi (94).

Bununla, Qacar qüvvələri Qarabağ xanlığı daxilində hər hansı ciddi bir döyüş keçirilməsinə nail ola bilmədilər. Abbas Mirzə Təbriz ətrafından bütün yürüşlərin təşkilinə rəhbərlik etsə də özünün bu dəfə Arazın şimalına adlaması haqqında mənbələrdə məlumat yoxdur. Rus generalları Qarabağda ciddi döyüşlərin baş verməməsini burada güclü rus qoşun dəstəsinin dayanması ilə əlaqələndirirlər. Hər halda mövcud faktlar onu göstərir ki, Mehri döyüşü istisna olmaqla Qacar qüvvələri Qarabağ xanlığı ərazisində rus qüvvələri ilə ciddi qarşılaşmaya meyl göstərmədilər.

Qacar qoşunlarının başqa bir dəstəsi isə İrəvan xanlığına doğru hərəkət etdi və Aparan yaxınlığında düşərgə saldı. Buradan Qacar qoşunlarının Pəmbək və Şuragöl mahallarına hücum etməsi gözlənilirdi. Aparan ətrafına Qacar qoşunlarının kifayət qədər böyük bir dəstəsi gətirilmişdi. Rus mənbələrinə görə, İrəvan xanlığına Naxçıvanda olan 12 min nəfərlik atlı qoşun dəstəsi göndərildi. Bu dəstənin ardınca isə 8 min nəfərlik piyada dəstəsi göndərilməli idi. İyul ayının sonlarına yaxın Qacar qüvvələri Aparan istiqamətində 2 böyük düşərgədə qərarlaşdılar. Qoşunlara şahın böyük oğlu Məhəmmədəli Mirzə rəhbərlik edirdi. Bildirilir ki, qoşunların ixtiyarında 100 ədəd zənburək var idi. Qacar əyanları əlavə kömək alınması üçün Ərzrum sərəsgərinə də müraciət etdilər. Ərzrum sərəsgəri də 500 nəfərlik bir dəstəni göndərməyi vəd etdi (95).

İrəvan xanlığı ərazisindən hücum etməli olan Qacar qoşunlarının qarşısını Hamamlı-Gümrü ətrafında general-mayor Portnyaginin rəhbərliyi altında olan rus qoşun dəstəsi kəsməli idi. Bu dəstə də iki yerə bölünürdü. Onlardan biri Hamamlı yaxınlığında dayanırdı və onun tərkibinə 1380 nəfər daxil idi. Hamamlı dəstəsinin ixtiyarında 9 ədəd top da var idi 600 nəfərdən və 4 ədəd topdan ibarət olan ikinci dəstə isə Tomar daşı adlı məntəqədə dayanırdı. Bunlardan əlavə Gümrü yaxınlığında 367 nəfər və bir topdan ibarət bir dəstə, Artik yaxınlığında 587 nəfər və bir topdan ibarət bir dəstə, Qarakilsədə 560 nəfər və 2 topdan ibarət bir dəstə və nəhayət Bekantda 395 nəfər və bir topdan ibarət başqa bir rus dəstəsi dayanırdı (96).

Rus qoşun qüvvələrinin belə dağınıqlığı onların yerləşdikləri məntəqənin əldə saxlanılması əhəmiyyətindən irəli gəlirdi. Qüvvələrin bir yerə toplanması ilə digər məntəqələr qacarlar tərəfindən ələ keçirilə bilərdi. Raportlarının birində general Portnyagin Gümrüdə olan dəstənin

rəhbərinə oradakı qüvvələrin sayını azaltmaqla qalan qüvvənin Artikə göndərilməsi haqqında tapşırıq verdi. General Portnyagin Qacar qüvvələrinin ilkin yürüşünün məhz Artikə olacağını ehtimal edirdi. Ona görə də bu məntəqənin möhkəmləndirilməsini lazım bilirdi (97).

1810-cu il iyul ayının sonuna kimi Qacar qoşunları hücuma keçmədilər. Bu günlər ərzində Qacar qoşunlarının qruplaşdırılması, sayının artırılması və s. işlər aparıldı. Qruplaşmadan sonra Qacar qoşunları da iki dəstədə birləşdirildilər. Dəstələrin birinə şahzadə Məhəmmədəli Mirzə rəhbərlik edirdi. Rus mənbələri bu dəstənin ixtiyarında 100 ədəd zənburəyin olmasını bildirməklə həmin dəstənin daha güclü olmasına işarə edirdilər. İkinci dəstə isə İrəvan xanı Hüseynqulu xanın rəhbərliyi altında idi. Həmin dəstədə 8 min seçmə atlının olduğu bildirilirdi. General-mayor Portnyagin yazışmalarından birində bildirirdi ki, onun mövqelərinə hücum başlanmazdan qabaq qacarların elçisi ilə görüşdü. Generalın yazdığına görə, qacarlar Əsgəranda barışıq əldə edilməməsinin səbəbini Mirzə Bozorgun ingilislərlə əlbir olmasında görürdülər. General Portnyaginin yanına gələn elçi də bu məsələ barəsində onda olan məlumatları almaq istəyirdi. General Portnyagin də Qacar elçisinə danışıqların gedişi haqqında bildiyi məlumatları çatdırdı (98).

General A.Tormosovla general Portnyagin arasındakı yazışmalardan belə bir qənaətə gəlmək olar ki, Qacar qoşunlarının İrəvan xanlığı ərazisində olduğu günlərdə rus qoşunları tərəfindən hücum edilməsi və təşəbbüsün ələ alınması məsələsi qaldırılmışdı. General Portnyagin bunu mümkün saymırdı və bildirirdi ki, Qacar qüvvələri rusların mühafizə etdiyi məntəqələrdən çox uzaqdır. Rus qoşunları Qacar düşərgəsinə hücum edərsə onda sürətli Qacar atlıları kənar yoldan yürüş etməklə rusların mühafizə mövqelərini ələ keçirə bilərlər (99).

Gürcüstanın Osmanlı və İrəvan xanlığı ilə həmsərhəd olan qərb hissəsində vəziyyətin gərginləşə biləcəyini görən general A.Tormosov Gürcüstan ərazisində qalmış qoşunların bir hissəsi ilə həmin istiqamətə irəliləməyi qərara aldı. General A.Tormosov Gürcüstan daxilində vəziyyətin sakit qalacağına da əmin deyildi. Ona görə də o, Gürcüstanın müxtəlif məntəqələrində dayanan qoşun qüvvələrinin vəzifələrini dəqiqləşdirdi və sonra da baş komandan 1810-cu il avqustun 11-də gecə Soğanlı yaxınlığındakı düşərgəni tərk edib onu müşayiət edən dəstə ilə birlikdə Sopi çayı yaxınlığına gəldi (100).

Avqust ayının əvvəllərinə aid olan məlumatlara görə, Məhəmmədəli Mirzənin rəhbərliyi altında olan qoşun dəstəsi Eçmiədzinə doğru irəliləyərək Karniyar yaxınlığında düşərgə saldı. Bu düşərgə general

Portnyaginin dəstəsindən 70 verst aralı idi. Qacarlar tərəfindən hərbi fəallığın başlanması İrəvan xanı sərdar Hüseynqulu xanın üzərinə qoyulmuşdu. Hüseynqulu xan 5 min nəfərlik atlı dəstə ilə Qars paşalığından keçməklə Axalsıxa çıxmalı və oradan da Şuragöl istiqamətinə hücum etməli idi. Bu yürüş zamanı Hüseynqulu xan kürd və Qarapapaq atlılarını da özünə birləşdirməli idi. Sonradan sərdar Hüseynqulu xanın dəstəsi Şuragöl üzərinə hücumdan imtina etdi. Qərara alındı ki, sərdar Hüseynqulu xan Qars paşalığı ərazisi ilə irəliləyərək Axalsıx paşalığına daxil olsun və burada Axalsıx paşası Şərif paşanın qoşun dəstəsi ilə birləşərək İmeretiya üzərinə hücum etsin. Hüseynqulu xanın belə bir tapşırıq yerinə yetirməli olması heç də təsadüfi deyildi. Qacar sarayı İmeretiyada Rusiya işğalına qarşı qiyam qalxması haqqında məlumat almışdı. Burada rusların mövqeyi xeyli zəifləmişdi. Görünür, Qacar sarayı güman edirdi ki, İmeretiyanı ələ keçirməklə Cənubi Qafqazı ruslardan təmizləmək üçün təsirli addımlar atmaq mümkün olacaqdır. Digər tərəfdən bu yürüş zamanı İrəvan xanlığının qoşunları ilə Axalsıx paşalığının qoşunlarının birləşdirilməsi qərara alınmışdı. Bu da ruslara qarşı əldə edilən ittifaqın əməli fəaliyyətə gətirilməsi demək idi ki, ruslar heç də bundan razı deyildilər. İmeretiya istiqamətində birləşmiş qoşunların əldə edəcəyi uğurun sonradan bütün Gürcüstanda rus işğalına qarşı qiyama çevrilə biləcəyi də rusları ehtiyatlandırırdı (101).

Sərdar Hüseynqulu xanın hücumunun qarşısını almaq üçün general Portnyagin avqustun 11-də Hamamlıdan hərəkət edərək Artiklə Gümrü arasında mövqe tutdu. Onun rəhbərliyi altında olan dəstənin tərkibində 140 nəfər draqun, Saratov muşketyor alayının 400 silahlısı, 100 nəfər kazak, Qazax könülü atlı dəstəsi və 4 ədəd top var idi. Avqustun 14-də general Portnyagin dəstəsi ilə Gümrüyə gəldi, Artikdə dayanan polkovnik Urakova isə tapşırdı ki, Artikdən 4 verst məsafədə olan Kəsməli kəndi yaxınlığında mövqe tutsun və Pəmbək mahalını Qacar qoşunlarının hücumundan qorusun. General A.Tormosov tərəfindən isə polkovnik Stalın rəhbərliyi altında olan başqa bir dəstə Kartaliniya istiqamətinə göndərildi. Bu dəstənin tərkibində 2 eskadron, 50 nəfər yeger, 65 nəfər kazak və 2 ədəd top var idi. Polkovnik Stal həmin məntəqəyə çatandan sonra orada olan qoşun dəstəsinə də rəhbərliyi öz üzərinə götürməli idi (102).

General-mayor Portnyagin Gümrü ətrafında olarkən İrəvan xanının qardaşı Həsən xan və İsmayıl xanın rəhbərliyi altında olan qoşun dəstəsinin Artik ətrafına gəlməsi haqqında məlumat alındı. Lakin İrəvan xanlığının qoşun dəstəsi burada dayanmayıb Aparan tərəfə geri çəkildi. Yəni, tərəflər arasında hərbi qarşıdurma baş vermədi. General Portnyagin Gümrü ətrafında istər İrəvan xanlığının, istərsə də Qacar qüvvələrinin

qoşun dəstələrinin hücum təhlükəsinin olmadığını görəndə yenidən Hamamlıya qayıtmağı qərara aldı.

Avqust ayının ortalarında sərdar Hüseynqulu xan İrəvan xanlığının qoşunları ilə Ahalkələkə gəldi. Güman edilirdi ki, burada Axalsıx paşası Şərif paşanın qoşun dəstəsi ilə sərdar Hüseynqulu xanın dəstəsinə qoşulacaq. Sərdar Hüseynqulu xanın ixtiyarında olan dəstəni Axalsıx paşasının dəstəsi hesabına möhkəmləndirmək və sonra da birləşmiş qoşun dəstəsi ilə Kartaliniya və Kaxetiyaya doğru yürüşü davam etdirmək istəyirdi. Sərdar Hüseynqulu xan bir müddət gözləsə də Axalsıx qoşun dəstəsi onun sərəncamına verilmədi. Axalsıx paşası qəsdən qoşun dəstəsi göndərmədi. Çünki o bilirdi ki, onun rəqibi və Axalsıx hakimliyinə iddialı olan Səlim paşanın ruslarla əlaqəsi var və əgər Şərif paşa sərdar Hüseynqulu xanla birlikdə Gürcüstan üzərinə yürüşə getsəydi, Səlim paşa onun yoxluğundan istifadə edib rusların köməyi ilə Axalsıxda hakimiyyəti ələ ala bilərdi. Axalsıx paşalığından kömək almayanda sərdar Hüseynqulu xan Gürcüstan üzərinə yürüşünü davam etdirmədi və bir müddət Ahalkələk ətrafında dayanmalı oldu. Çox güman ki, sərdar Hüseynqulu xanın Ahalkələk yanında dayanması Abbas Mirzənin göstərişini gözləməsi ilə bağlı idi. Çünki o Abbas Mirzəyə məktub yazaraq Şərif paşanın qoşunu olmadan Gürcüstan üzərinə hücumun bir nəticə verməyəcəyini və buna görə də İrəvana geri qayıtmağın düzgünlüyünü çatdırdı. İrəvan xanının qoşun dəstəsinin hərəkətsiz qalması isə rusların bu dəstə üzərinə hücum şansını yaratdı. Rus qoşunları baş komandanlığı qərara aldı ki, sərdar Hüseynqulu xanla bərabər, şahzadə Məhəmmədəli Mirzənin dəstəsi üzərinə hücum təşkil etsin və bu dəstələrin hər ikisini Gürcüstan sərhədindən uzaqlaşdırsın.

Avqust ayının axırlarında Abbas Mirzənin öz qoşun dəstəsi ilə birlikdə Arazın şimalına adlaması və Naxçıvanda yerləşməsi haqqında məlumat yayıldı. Əldə olunan məlumata görə, Abbas Mirzə qoşun dəstəsi ilə əvvəlcə Mehriyə hücum etməli, oranı ələ keçirdikdən sonra İrəvan xanlığına gələrək burada Məhəmmədəli Mirzənin qoşun dəstəsi ilə birləşməli idi. Gözlənilirdi ki, Ərzrum sərəsgərinin qoşun dəstəsi də həmin vaxt İrəvana yetişərək Qacar qoşunları ilə birləşəcək və bundan sonra birləşmiş qoşunların rus qoşunları üzərinə birgə hücumları başlayacaqdır. Görünür, belə bir məlumatın alınması rus qoşunları baş komandanlığında İrəvan xanlığı və şahzadə Məhəmmədəli Mirzənin qoşun dəstəsi üzərinə hücum qənaəti yaratdı. Çünki bu qoşun dəstələrinə zərbə vurulması onların Abbas Mirzə ilə birgə fəaliyyət imkanlarını da azaldırdı. Axalsıx paşasının qoşun dəstəsinin sərdar Hüseynqulu xanın dəstəsi ilə birləşməməsi isə rus qoşunlarının uğurlu hücum şansını bir

qədər də artırırdı. Belə bir şəraitdə general A.Tormosov ilkin niyyətlərinə düzəliş edərək sərdar Hüseynqulu xanın dəstəsinin üzərinə hücum etmək qərarı verdi. Bununla əlaqədar olaraq, general A.Tormosov Sopi yaxınlığındakı düşərgəsini tərk edərək Kveşiyə doğru irəlilədi. O istəyirdi ki, Salkedə dayanmış polkovnik Peçerskinin dəstəsini daha da gücləndirsin və bu dəstəni sərdar Hüseynqulu xanın üzərinə göndərsin. Polkovnik Peçerski həm də Axalsıx qoşunlarının ona qoşulacağını gözləyən sərdar Hüseynqulu xanın dəstəsinə zərbə vurmaqla onu Gürcüstan sərhədinə yaxın ərazilərdən geri çəkilməyə məcbur etməli idi. Lakin general A.Tormosov ilk zərbəni şahzadə Məhəmmədəli Mirzənin dəstəsinə vurulmasını lazım bilirdi. Onun nəzərində Məhəmmədəli Mirzənin dəstəsi daha zəif idi. A.Tormosov general Portnyagindən tələb etdi ki, Gürcüstan sərhədinin mühafizəsini təşkil etməklə yanaşı çevik hücum dəstəsi təşkil etsin və həmin dəstə ilə Məhəmmədəli Mirzənin dəstəsi üzərinə hücum etsin. Təklif olunurdu ki, bu hücum çox gilzi şəkildə və gözlənilmədən həyata keçirilsin. Rus dəstəsi Məhəmmədəli Mirzənin dəstəsini dağılmağa məcbur etməklə yanaşı İrəvan xanlığı ərazisində təlaş və həyəcan yaratmalı və bununla sərdar Hüseynqulu xanı da geri çəkilməyə sövq etməli idi. Təklif olunurdu ki, sərdar Hüseynqulu xanın geri çəkiləcəyi təqdirdə onun da yolunun kəsilməsinə cəhd göstərilsin. General A.Tormosov onu da tövsiyə edirdi ki, İrəvan xanlığı daxilində qarışıqlıq yarandığı vaxt Qazax hakimi İrəvan xanlığı daxilinə nüfuz etsin, xanlıq əhalisinin talan edilməsini, ailələrin tutulub gətirilməsini əldən buraxmasın (103).

Sərdar Hüseynqulu xanın dəstəsi üzərinə hücum etmək üçün general-nayor Pauluççinin rəhbərliyi altında çevik hücum dəstəsi təşkil edildi. Bu dəstəyə 9-cu yeger alayının polkovnik Lisaneviçin rəhbərliyi altında olan bir taboru, 15-ci yeger alayının bir taboru (polkovnik Peçerskinin rəhbərliyi altında), 200 kazak və 150 nəfər yerli könüllü atlı daxil idi (104).

Sentyabr ayının 3-də general Pauluççi dəstəsi ilə İrəvan xanının dəstəsi üzərinə hücum üçün hərəkətə başladı. Bundan əvvəl isə sərdar Hüseynqulu xanın dəstəsinin kəşfiyyatı aparıldı və müəyyən edildi ki, onun dəstəsi hələ də Ahalkələk yaxınlığındadır. Əldə edilən məlumata görə, sərdar Hüeynqulu xan yaxın günlərdə Ahalkələk ətrafından geri çəkilməli idi. General Pauluççi qərara aldı ki, sərdar Hüseynqulu xanın dəstəsinin üzərinə elə Ahalkələk yaxınlığında hücum etsin. Hüseynqulu xanın dəstəsinin 6 min nəfərdən ibarət olduğu güman edilirdi. Bunun üçün general Pauluççi sentyabr ayının 3-də Dumanisdən dəstəsi ilə yola düşdü və Ahalkələkdən 26 verst məsafədə olan bir yerdə polkovnik

Peçerskinin dəstəsi ilə birləşdi. Sentyabr ayının 5-də axşama yaxın saat 5-də general Pauluççi özünə birləşdirdiyi taborla birlikdə Ahalkələkə doğru hərəkətini davam etdirdi və gecə saat 3-də Ahalkələk qalasının ətrafında mövqe tutmuş xan qoşunları ilə üzbəüz yerləşdi. Elə gecə ikən general dəstəsini qruplaşdırıb döyüş mövqelərinə yerləşdirdi. Döyüş mövqelərinin birinə polkovnik Lisaneviç, o birinə isə polkovnik Peçerski rəhbərlik etməli idilər. Rus qüvvələrinin qruplaşdırılması və yerləşdirilməsi qaranlıq ikən aparıldı ki, xan qoşunları bundan xəbər tuta bilməsinlər. Yaranmış imkandan istifadə edərək general Pauluççi həm Lisaneviçə, həm də Peçorskiyə dəstələri ilə birlikdə xan qoşunları düşərgəsinin cinahlarına doğru irəliləməyi tapşırdı. Dəstələr də verilən tapşırığın icrasına başladılar və xan qoşunları düşərgəsinin 100 sajenliyinə qədər yaxınlaşdılar. Bu vaxtda xan qoşunları rusların yaxınlaşmasından xəbər tutmadılar. Verilən işarə əsasında rus dəstələri eyni vaxtda xan qoşunlarına əvvəlcə toplardan atəş açdılar, sonra da xan qoşunları düşərgəsinə doluşaraq əlbəyaxa döyüşə başladılar. Polkovnik Lisaneviçin dəstəsi xan qoşunları düşərgəsinin bir cinahını, polkovnik Peçerskinin dəstəsi isə xan qoşunlarının digər cinahını hücuma məruz qoydular. Rus mənbələrinə görə, xan döyüşçüləri sərdar Hüseynqulu xanın çadırı qarşısında müəyyən müqavimət göstərməyə çalışdılar. Lakin onların müqaviməti uzun sürmədi. Qəfil hücumun çaşqınlığı xan qüvvələrinə öz diqqətlərini cəmləşdirməyə aman vermədi və onlar böyük vahimə içərisində qaçıb ətrafa dağılışdılar. Ahalkələk qalasının mühafizəçiləri nə baş verdiyini anlayandan sonra qala üzərindən rusları atəşə tutdular. Ruslar xan qoşunları düşərgəsinin əmlakının bir hissəsini talamağa fürsət tapıb sonra oradan uzaqlaşdılar Rus qoşun dəstəsi xan qoşunları düşərgəsindən yarım verst aralıya çəkildilər ki, Ahalkələk qalasından açılan atəşlərdən qoruna bilsinlər (105).

Səhər açılanda xan qoşunları toplanmağa başladılar və rus qoşunları üzərinə təzyiqi gücləndirdilər. Eyni zamanda Ahalkələk qalasının mühafizəçiləri də ruslara qarşı xeyli fəallaşdılar. Xan qoşunlarının hücumu elə təhlükəli xarakter aldı ki, rus dəstəsinin rəhbərliyi dəstəni qorumaq üçün lazımi addımlar atmalı oldu. Əvvəlcə, qoşun dəstəsi Ahalkələk qalasından bir qədər də aralaşdırıldı ki, top atəşləri ruslara ziyan yetirməsin. Sonra da rus atlıları ilə piyadaları bir-birinə daha da yaxınlaşdırıldı ki, onların qarşılıqlı müdafiəsi əlaqələndirilsin. Buna baxmayaraq, xan döyüşçülərinin təzyiqinin qarşısını saxlamaq mümkün olmadı. Onlar hətta tüfəng atəşi məsafəsi qədər ruslara yaxınlaşdılar. Bununla belə, rus dəstəsi bu təzyiqlərin qarşısını saxladı və təhlükədən xilas olmaq üçün Ahalkələk qalasından 10 verst aralandı (106).

Ə.Dünbəli də öz əsərində Hüseynqulu xanın dəstəsinin Axısqa ətrafında ağır zərbə almasını təsdiq edir. Müəllif onu da təsdiq edir ki, sərdar Hüseynqulu xanın yürüşü Gürcüstanın daxilinə davam etməli və rus işğalına qarşı olan gürcü şahzadələrinin hakimiyyəti dəstəklənməli idi. Amma Ahalkələk qalası ətrafındakı döyüş İrəvan xanının planlarını pozdu. Şərif paşanın intizama riayət etməməsi nəticəsində rus dəstəsi qarovul olmayan istiqamətdən İrəvan dəstəsinin üzərinə hücum etdi. Müəllifin yazdığına görə, yalnız Mirzə Əlinağı xan Astrabadinin dəstəsi ruslara ciddi müqavimət göstərdi və hətta bu dəstə ruslardan müəyyən qənimət də əldə edə bildi (106a). Bütünlükdə isə sərdar Hüseynqulu xanın dəstəsi ağır zərbə aldı.

Beləliklə, döyüş tapşırığının icrası üçün xanlıq ərazisindən xeyli uzaqlaşmış xan dəstəsinin mühafizəsinin təşkilinə məsuliyyətsizcəsinə yanaşılması bu dəstənin ciddi zərbə alması ilə nəticələndi. Rus mənbələrində xan qoşunlarının itkisi ilə bağlı böyük rəqəmlər göstərilir. Bununla belə, bəlli idi ki, bir tərəfdən hücumun gözlənilməzliyi, digər tərəfdən də qəfil hücumdan baş verən çaşqınlıq və anlaşlılmazlıq xan döyüşçülərini çox asanlıqla rusların hədəfinə çevirdilər. Bu döyüşün ruslara sevinc gətirən nəticələrindən biri o oldu ki, onlar çoxlu sayda var-dövlət və sərvət əldə etdilər. Bunu rus mənbələri də gizlətmirdilər. Ənənəvi yürüş təcrübəsinə sadiq qalan Hüseynqulu xanın dəstəsinin çadırları da çox zəngin şəkildə bəzədilmişdi. Döyüşə aidiyyatı olmayan qiymətli əşyaların, geyimlərin daşınması xan döyüşçülərinin də yürüş atributu olaraq qalmaqda idi. Gecə hücumunun çaşqınlığı zamanı xan döyüşçüləri bu qiymətli əşyaları ataraq qaçmalı oldular ki, onlar da rusların əlinə keçdi. Məlumatlardan aydın olur ki, xan düşərgəsində o qədər qiymətli əşyalar var idi ki, onların hamısının talan edilməsinə rusların fiziki gücü çatmadı və onların bir hissəsi toplanaraq yerində yandırıldı. Rus generallarının yazışmalarındakı məlumatlara görə, İrəvan xanının 3 döyüş bayrağı da rusların əlinə keçdi (107).

Rus mənbələrinə görə, Ahalkələk ətrafındakı düşərgə üzərinə hücum zamanı ruslardan cəmi 4 nəfər ölmüş və 17 nəfəri isə yaralanmışdı (108). Əvəzində isə ruslar xan qoşunlarının Gürcüstan üzərinə hücumunun qarşısını ala bildilər. Sərdar Hüseynqulu xan bu hücumun həyata keçirilməsi üçün əlavə qüvvə gözlədiyi bir vaxtda öz dəstəsi də çaşqın və dağınıq bir hala gətirildi. Rus tarixçiləri onun dəstəsini ağır nəticələrlə üzləşməsinin bir səbəbini də Axalsıx paşasının ona təsirli yardım etməməsində görürdülər (109). Şərif paşa ixtiyarında olan qoşun dəstəsini səfərbər edib sərdar Hüseynqulu xanın köməyinə yetişmədi və bununla rus dəstəsinin uğuruna yol açdı. Ahalkələk ətrafında döyüşün

baş verdiyi günlərdə Abbas Mirzə öz dəstəsi ilə artıq İrəvan xanlığı ərazisində idi. Maraqlıdır ki, sərdar Hüseynqulu xanın dəstəsi ilə baş verən hadisədən sonra Abbas Mirzə rus qoşunları üzərinə əks hücuma keçilməsi üçün heç bir qərar qəbul etmədi. Ümumiyyətlə, İrəvan xanlığı ərazisində Abbas Mirzə hər hansı bir fəallıq nümayiş etdirmədi. Sərdar Hüseynqulu xan isə Ahalkələk ətrafında dayanmağın mənasız olduğunu görüb dəstəsi ilə geri, İrəvana çəkilməli oldu. İrəvan xanlığı ərazisinə gəlmiş olan Məhəmmədəli Mirzənin qoşun dəstəsi də ruslara qarşı hər hansı bir fəallıq göstərmədilər.

Məhəmmədəli Mirzənin dəstəsinin qarşısının saxlanması üçün də general Portnyagin tərəfindən xüsusi çevik dəstə təşkil edildi. Bu dəstəyə 140 nəfər draqun, Saratov muşketyor alayından 500 nəfər, 100 nəfər kazak, Qazaxdan könüllü atlılar qrupu və 4 ədəd top daxil idi. Əldə edilən məlumatlara görə, Məhəmmədəli Mirzə Abbas Mirzənin dəstəsi ilə birləşərək Artikə hücum etməli idi. General Portnyagin bu hücumun qarşısını almaq üçün sentyabrın 5-də Hamamlı yaxınlığından hərəkətə başlayaraq ayın 6-da Artikə gəldi. Sabahısı gün isə general Portnyagin orada dayanan polkovnik Uranovun dəstəsini də özünə birləşdirib Talına yollandı. Talında general Portuyagin belə bir məlumat əldə etdi ki, Abbas Mirzə Eçmiədzin yaxınlığında dayanıb və şahzadə Məhəmmədəli Mirzənin dəstəsinə göstəriş verib ki, Hamamlı üzərinə hücum etsin. Belə olanda general Portnyagin yenidən geri qayıtmağı və Hamamlıdakı rus dəstəsinin köməyinə yetişməyi qərarlaşdırdı. Lakin o, Hamamlıya lazım olan vaxt yetişə bilmədi. Ayın 8-də general Portnyagin dəstəsi ilə Artikdə olarkən Qacar qoşunları rus mənbələrinə görə, 6 minlik bir qoşun dəstəsi ilə Hamamlıdakı rus dəstəsinin üzərinə hücum etdilər. Həmin vaxt orada Saratov muşketyor alayının bölmələri dayanmışdı. Qacarlarla rus dəstəsi arasında səhər saat 7-də başlanan döyüş günorta saat 1-ə qədər davam etdi. Rus qoşunlarının ixtiyarında olan toplar bu dəfə də qacarların hücumunun qarşısının alınmasında əsas rol oynadılar və nəticədə Hamamlının ələ keçirilməsi Qacar dəstəsinə nəsib olmadı. Rusların 3 döyüşçüsü öldürüldü. Bir neçəsinin isə yaralandığı bildirilir. Göstərilən cəhdə baxmayaraq, qacarlar bu dəfə də təşəbbüsü ələ ala bilmədilər və hətta bu döyüşdən sonra Abbas Mirzə öz düşərgəsini bir qədər də İrəvan xanlığının içərilərinə doğru geri çəkdi (110).

Rus generallarının yazışmalarından aydın olur ki, Hamamlı döyüşündən bir neçə gün sonra sərdar Hüseynqulu xan da Artikdə dayanan rus qoşun dəstəsi üzərinə hücum etmiş, amma bu hücum da uğursuzluğa düçar olmuşdu.

Ə.Dünbəli öz əsərində Ahalkələk döyüşündən sonra Qacar qoşunları ilə İrəvan xanlığı qoşunlarının Pəmbək yaxınlığında rus qoşunları ilə döyüşə girməsindən söz açmışdır. Hadisələrin təsvirindən belə bir qənaətə gəlmək olar ki, müəllifin məlumatı yuxarıda haqqında danışılan döyüş barəsindədir. Onun yazdığına görə, Ahalkələk yaxınlığındakı döyüşdən sonra sərdar Hüseynqulu xan İrəvan xanlığına, Məhəmmədəli Mirzə isə Abbas Mirzənin yanına yollandı. Məhəmmədəli Mirzə xahiş etdi ki, qulamlardan və tüfəngdarlardan ibarət olan bir alayı ona versin və bu alayın köməyi ilə Pəmbək üzərinə hücum etsin. Abbas Mirzə bu xahişlə razılaşdı və Məhəmməd bəy Qacarın dəstəsi ilə Qasım bəyin tüfəngdarlar dəstəsini ona verdi. Həmin qüvvələr sonra da sərdar Hüseynqulu xanın sərəncamına göndərildi. Yenidən formalaşdırılan qoşun dəstəsi Pəmbəkə doğru yola salındı. Məqsəd Pəmbək ətrafındakı rus dəstəsinin üzərinə hücum edilməsi idi. Qacarların və İrəvan xanlığının birgə qoşun dəstəsi Pəmbəkin 5 fərsəngliyində döyüş mövqeyi tutdu. Səhərə yaxın qoşun dəstəsi mövqelərində möhkəmləndilər və bir neçə nəfər məlumat toplamaq üçün rus səngərlərinə doğru göndərildilər. Səhər açılana yaxın rus döyüşçülərindən iki nəfəri əsir götürmək mümkün oldu. Onlardan müəyyən məlumatlar alandan sonra birləşmiş qoşun dəstəsi rus səngərləri üzərinə hücuma keçdi. Mənbədəki məlumata görə, bir sıra rus döyüşçüsü və onlarla birlikdə olan bəzi ermənilər öldürüldülər və əsir götürüldülər. Bildirilir ki, hətta ermənilərin evlərində gizlənmiş olan rus silahlıları da birləşmiş qoşun dəstəsinin zərbəsindən kənar qalmadı və müəllifin verdiyi məlumata görə, bu döyüş birləşmiş qoşun dəstəsinin uğuru ilə yekunlaşdı. İrəvan xanı əsirləri və qənimətləri toplayaraq Abbas Mirzənin yanına getdi və məlumata görə, Abbas Mirzə də bu döyüşə görə Məhəmmədəli Mirzəyə təşəkkürünü bildirdi (110a).

Uzun müddət İrəvan xanlığı ərazisində dayanan Abbas Mirzə bu xanlığının sərhədi boyunca mövcud olan rus dəstələri üzərinə hücum həyata keçirmədi. Rus mənbələrinə görə, Abbas Mirzə rus dəstələri üzərinə hücuma keçməsə də, İrəvan xanlığını müdafiəsiz buraxmaq istəmirdi, Qacar şahzadəsi bir tərəfdən İrəvan qalasını möhkəmləndirir, bu qalaya əlavə müdafiə qüvvələri yerləşdirir, digər tərəfdən də havaların soyumasını gözləyirdi ki, qalın qar düşmüş yollarla rus qoşunlarının İrəvan üzərinə hücum etməyəcəyinə əmin olsun (111).

1810-cu ilin avqustunun sonlarında şah qoşun dəstələrinin yenidən Qarabağa yaxınlaşması barəsində xəbərlər alındı. Bununla bağlı ruslar həm özləri müvafiq hazırlıq gördülər, həm də yenidən Mehdiqulu xandan yardım istədilər. Rus zabitləri ondan tələb etdilər ki, 500 nəfər atlı

toplasın və onları Cəfərqulu ağanın rəhbərliyi altına versin. Cəfərqulu ağa həmin dəstəni öz topladığı atlılarla birləşdirib Abbas Mirzənin qoşun dəstələrinə qarşı müqavimət göstərməli idi. Cəfərqulu ağa iki gün ərzində 130 atlı toplasa da Mehdiqulu xan tərəfindən onun sərəncamına cəmi 30 nəfər göndərildi (112).

Bu dəfə də Mehdiqulu xanın rus hərbçilərinin istəyini lazımınca icra etməməsi general Tormosovun narazılığına səbəb oldu. O həmin narazılıqlarını Mehdiqulu xana göndərdiyi məktubunda da bəyan etdi. General Tormosov açıq şəkildə Mehdiqulu xana çatdırdı ki, o, Rusiya imperatorunun ümidlərini doğrultmur, xanlığın qorunması üçün imkanlarını sərf etmir. Qarabağ xanlığına edilən talançı yürüşlərin qarşısının alınmamasını da general Tormosov təşvişlə xatırladırdı. Mehdiqulu xan bu məsələ ilə bağlı bir neçə dəfə bəyan etmişdi ki, Qarabağ xanlığı Rusiya xəzinəsinə vergi verir və ona görə xanlığın təhlükəsizliyini də Rusiya qoşunları qorumalıdır. General Tormosov bu mövqe ilə razılaşmırdı və xana çatdırırdı ki, onun vəzifəsi yalnız xanlıq ərazisində vergi toplanması deyil, həm də xanlığın qorunmasını təmin edilməsidir. Tormosovun yazdığına görə, Mehdiqulu xanın yalnız rus qoşunlarına arxayın olması üzündən igidliyi ilə ad çıxarmış Qarabağ atlıları indi öz qabiliyyətlərini də yaddan çıxarıblar. Rus generalı bir daha Mehdiqulu xandan tələb edirdi ki, öz atlıları ilə imperator qoşunlarına yardım göstərsin, xanlıq ərazisinin qorunmasında daha səmərəli iştirak etsin (113).

Rus generalları Qacar qoşunlarının Qarabağ üzərinə başlana biləcəyi yeni hücumları zamanı polkovnik Kotlyarevskinin dəstəsinə görə daha çox narahatçılıq keçirirdilər. Lakin general Nebolsinin yazdıqlarından aydın olur ki, Abbas Mirzənin İrəvan istiqamətinə yollanacağı halda polkovnik Kotlyarevskinin dəstəsi xüsusi bir nigarançılıq doğurmurdu. Bir tərəfdən polkovnik Kotlyarevskinin qərar tutduğu mövqelər kifayət qədər möhkəm mövqelər idi. Digər tərəfdən isə Şuşadan onun sərəncamına toplar göndərildi ki, bu da dəstənin müdafiə imkanlarını artırırdı (114).

Abbas Mirzənin dəstəsi ilə İrəvan xanlığına çəkilməsindən sonra yeni Qacar qüvvələrinin Qarabağ xanlığı üzərinə hücum ehtimalı da azalmışdı. Amma sentyabrın 11-12-də belə bir hücumun baş verməsi haqqında məlumat alındı. Təxminən, 6 min nəfərlik qoşun dəstəsi Kür və Tərtər çaylarına qədər irəlilədilər. Bu qoşun dəstəsinə İbrahim xan Qacar, Həşim xan, Fəzli bəy və Səlim xan rəhbərlik edirdilər. Mövcud olan məlumatlara görə, bu qoşun dəstəsi daha çox talançılıqla məşğul oldu. Əslində bu qoşun dəstəsinin talanla məşğul olacağı gözlənilən idi. Fəzli

bəy Mehdiqulu xanın qohumlarından idi və xanlıq ərazisindən qaçaq düşmüşdü. Həşim xan Şamaxı xanının mühacirətdə olan və qacarlara sığınan qardaşı idi. Səlim xan da digərləri kimi həm rus işğalına, həm də rusların himayəçiliyini qəbul etmiş xanlara müxalifətdə olan bir şəxs idi. Bu adamların rus qoşunlarına üstün gələ biləcək qüvvəsi yox idi. Mövcud qüvvələr isə ötəri yürüşlərin həyata keçirilməsinə çatırdı. Adları çəkilənm şəxslərin rəhbərliyi altında olan dəstələr Şahbulaq yaxınlığındakı mühafizə postuna hücum etdilər, sonra da geri çəkildilər. Mehdiqulu xan Sisiyanda olduğu üçün bu hücumun qarşısının alınması istiqamətində ciddi addımlar atılmadı. Ümumiyyətlə, rus zabitləri bildirirdilər ki, belə hücumların qarşısının alınması üçün Mehdiqulu xan lazımi hazırlıq görməmişdi və onun ətrafında lazım olan qədər qüvvə toplanmamışdı (115).

Qarabağ xanlığı üzərinə hücumlar uzun sürmədi. Ehtimal edilir ki, 1810-cu ilin oktyabrında Abbas Mirzə dəstəsi ilə İrəvan yaxınlığından Təbrizə çəkildi və döyüş mövsümünün başa çatması ilə əlaqədar qoşunlar da buraxıldı (116). Bununla Qarabağ xanlığı ərazisində nisbi bir sakitlik yarandı.

3. Lənkəran xanlığı uğrunda iddiaların kəskinləşməsi

General A.Tormosovun Cənubi Qafqazdakı hakimliyi illərində Lənkəran xanlığı ətrafında cərəyan edən proseslər də kifayət qədər ciddiləşdi. Bu da hər iki tərəfin Lənkəran xanlığı ərazisində möhkəmlənmək istəyi və Lənkəran xanı Mir Mustafa xanın da güclənməkdə olan bu iddialar qarşısında öz müstəqilliyini qoruyub saxlamaq əzmi ilə bağlı idi. Rus qoşunları baş komandanlığı Rusiyanın himayəsini almış Lənkəran xanlığını da Rusiyanın Qafqaz işğallarının tərkib hissəsi hesab edirdi. Lakin Lənkəran xanlığının ərazisinə işğalçı rus qoşun dəstəsinin yerləşdirilməməsi Qacar sarayında bu xanlığa olan iddiaların həyata keçəcəyinə bir ümid yaradırdı. Rusiyanın bölgədə kifayət qədər qüvvəsi yox idi ki, bütün xanlıqları hərbi nəzarət altında saxlasın. Sara adası həndəvərində ara bir rus gəmiləri görünürdü ki, rus qoşunları komandanlığı bu gəmilər vasitəsilə xanlığa Qacar qüvvələrinin gəlməsinin qarşısını almağa çalışırdı. Qacar təhlükəsinin gücləndiyi bir vaxtda Lənkəran xanı Mir Mustafa xan da Sara adasındakı rus gəmilərinə sığınmalı olurdu. Mir Mustafa xanın əməli kömək xahişlərindən birinə general İ.Qudoviç bildirirdi ki, Lənkəran xanlığı meşələrlə və dərin dərələrlə əhatə olunmuşdur, Qacar qoşunları üçün keçilməzdir və ona görə də qraf Qudoviç Lənkəran xanını Qacar qoşunlarından ehtiyatlan-

mamağa çağırırdı (117). Başqa sözlə, feldmarşal İ.Qudoviç bununla Lənkəran xanlığı ərazisinə rus qoşun dəstəsinin göndərilməsinin mümkün olmadığını çatdırırdı. Buna görə də Qacar təhlükəsi güclənəndə Mir Mustafa xan müdafiə olunmağın səmərəli yollarının tapılmasını da diqqət mərkəzində saxlayırdı.

Rus mənbələrində Mir Mustafa xanın 1809-cu ilin əvvəllərində Abbas Mirzənin vəziri Mirzə Bozorgla görüşməsi və rus qoşunları üzərinə birgə hücum üçün danışıqlar aparması haqqında məlumat vardır (118). Bəllidir ki, general İ.Qudoviçin Qafqazdakı hakimliyi dövründə Mir Mustafa xanla ruslar arasında müəyyən bir gərginlik mövcud idi. Bu gərginlik Salyanla və Abbas Mirzə tərəfindən Şamaxı xanlığından Salyana köçürülmüş 2 min ailənin geri qaytarılması ilə bağlı idi. Mir Mustafa xan Salyan ərazisinə iddia irəli sürdüyü kimi Şamaxı xanlığından gətirilmiş ailələri də geri qaytarmaq istəmirdi. Bununla bağlı rus generallarının Mir Mustafa xana göndərdiyi bir neçə məktubu da cavabsız qaldı. Lakin Mir Mustafa xan rus qoşunları komandanlığı ilə münasibətlərin müharibə dərəcəsinə çatdırılmasına da ehtiyat edirdi. Ona görə Rusiyaya qarşı birgə hücumla bağlı Mir Mustafa xanın Mirzə Bozorgla görüşməsi elə də inandırıcı görünmür. Çünki 1808-ci ilin sonu və 1809-cu ilin əvvəlində Mir Mustafa xanla Qacar sarayı arasında gərginlik də xeyli artmışdı. Bu gərginlik xüsusilə, rus qoşunlarının İrəvan qalası üzərinə hücumu dövründə yeni bir həddə çatdı. Həmin dövrdə Mir Mustafa xanın bacısının əri Nəzərəli xan Ərdəbil xanı idi (119). Bəzi tarixi ədəbiyyatda Nəzərəli xan Lənkəran xanının kürəkəni kimi təqdim olunmuşdur (120). Nəzərəli xan Şahsevən tayfasının nümayəndəsi idi. Ə.Dünbəlinin yazdığına görə, İrəvan qalası rus qoşunlarının mühasirəsində olanda Abbas Mirzə şahsevən atlılarını öz qoşunlarına cəlb etmək istəyirmiş. Lakin gözlənilənin əksinə olaraq şahsevən atlılarının Qacar qoşunlarına səfərbər edilməsi baş vermədi. Məsələni araşdıranda məlum olur ki, Lənkəran xanı Mir Mustafa xanın təsiri ilə Nəzərəli xan şahsevən atlılarının Qacar qoşunlarına göndərilməsinə mane olmuşdur (121).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqar detallara toxunmadan Mir Mustafa xanın şahsevən xanları ilə birlikdə Qacar sarayına qarşı müxalifət təşkil etməsini təsdiq edirdi (122). Şahsevən atlılarının Qacar qoşunlarına qoşulmaması bütünlükdə Abbas Mirzə tərəfindən Nəzərəli xanın Rusiya ilə əməkdaşlıqda olması kimi qiymətləndirildi. İrəvan xanlığı ərazisində döyüşlərin hələ davam etdiyi vaxt Nəzərəli xan Ərdəbil xanlığından kənarlaşdırıldı və Ərdəbil qalasına Qacar qoşunları yerləşdirildi. Bu hadisəyə Mir Mustafa xan özünə məxsus şəkildə yanaşdı

və rus zabitlərinə müraciət edərək Ərdəbilə rus qoşunlarının yeridilməsi haqqında məsələ qaldırdı. Bununla Mir Mustafa xan həm öz qohumunu xanlıq məqamına bərpa etmək və həm də cənubdan xanlıq ərazisinin Qacar qoşunlarının hücumundan mühafizə etmək imkanı əldə etmiş olardı (123).

1808-ci ilin noyabr ayında Nəzərəli xan özü də məktubla rus qoşunları komandanlığına müraciət etdi. Həmin məktubunda Nəzərəli xan Qacar sarayı tərəfindən hakimiyyətdən sıxışdırıldığını, yaxın adamları ilə birlikdə yaşamaq üçün Lənkəran (Talış) xanlığı ərazisinə gəldiyini yazırdı. Nəzərəli xan xahiş edirdi ki, rus qoşunları Ərdəbilin alınmasına kömək etsin. Bunun əvəzində Nəzərəli xan Ərdəbil xanlığının Rusiya himayəsini qəbul edəcəyini və bunun təsdiqi kimi girovlar verməyə hazır olduğunu bildirirdi (124).

Mir Mustafa xan özü də general Qudoviçə məktub yazdı. Görünür, rus qoşunlarının Ərdəbil xanlığına yeridilməsinin mümkün olmayacağını görəndə Mir Mustafa xan da, Nəzərəli xan da general İ.Qudoviçdən Rusiya himayəsi haqqında xahiş etməyə başladılar. Nəzərəli xan bununla bağlı hətta Qarabağ xanlığı ərazisində olan polkovnik Aseyevə də bir neçə məktub yazdı. Nəzərəli xan və onunla birlikdə olan şahsevən ailələri Muğan düzündə yerləşmişdilər və onlar qorxurdular ki, Qacar qoşunları Muğana soxulmaqla onları Arazın cənubuna apara bilərlər. Nəzərəli xan xahiş edirdi ki, onu və ətrafındakıları Rusiya təbəəliyinə qəbul etməklə onlara Qarabağ xanlığı ərazisində yaşamağa icazə verilsin (125).

1808-ci ilin sonlarında general İ.Qudoviç Lənkəran xanının müraciətinə cavab verdi və ona çatdırdı ki, imkan yarananda Nəzərəli xana hərbi yardım göstərəcəkdir. Bu yardımı almaqla Nəzərəli xan Ərdəbil xanlığı ərazisində qalmış əmlakını qaytarmaq istəyirdi. Nəzərəli xanın Rusiya təbəəliyinə qəbul edilməsinə isə general İ.Qudoviç konkret cavab vermədi. Yalnız onu bildirdi ki, Nəzərəli xan Rusiya təbəəliyinə olan meylini qoruyub saxlasın və öz vaxtında o da Rusiya himayəsi altına qəbul olunacaqdır (126).

Görünür, belə bir cavab Mir Mustafa xanı qane etmədi və ona görə öz nümayəndələrini yenidən qraf Qudoviçin yanına göndərdi. 1809-cu ilin yanvarında İ.Qudoviç keçmiş Ərdəbil xanının və onun yaxınlarının Rusiya təbəəliyinə qəbul edilməsinə razı olduğunu bildirdi. Nəzərəli xan və şahsevən ailələrinə Qarabağ xanlığı ərazisində yaşamağa icazə verildi. İ.Qudoviç bildirirdi ki, şahsevənlər hələlik Qarabağ xanlığı ərazisində yaşasınlar və zərurət yarananda onlardan Rusiyanın xeyrinə istifadə olunacaqdır (127).

Mövcud məlumatlardan aydın olur ki, general A.Tormosov Qafqazda fəaliyyətə başlayandan sonra Nəzərəli xan şahsevən ailələri ilə birlikdə hələ də Lənkəran xanlığı ərazisində idi. Mövcud məlumatlardan aydın olur ki, Mir Mustafa xan onun mövcudluğundan istifadə etmək, onun vasitəsilə Ərdəbil xanlığı üzərinə öz nüfuzunu bərpa etmək istəyirdi. Lakin məlumdur ki, rus qoşunları baş komandanlığı Ərdəbilə qoşun çıxarmadı və əslində rus qoşunları komandanlığının buna imkanı yox idi. 1809-cu ilin yay döyüş mövsümündə işğal altında olan ərazilərin qorunması üçün ruslar qoşun qıtlığı ilə qarşılaşmışdılar. Bu qıtlığı aradan qaldırmaq üçün ruslar xanlıqların əhalisi arasından könüllülər toplamağa da başladılar.

Ərdəbil xanlığına qoşun çıxarılmasına nail ola bilməsə də Mir Mustafa xan heç olmasa öz xanlığını Qacar qoşunlarının hücumundan qorumaq üçün ruslardan konkret kömək almaq istəyirdi. Çünki bu dövrdə Qacar qoşunları Cənubi Qafqaz üzərinə ciddi yürüşə hazırlaşırdılar və Mir Mustafa xanın da bundan xəbəri var idi. Qacar qoşunlarının iri miqyaslı hücumu qarşısında Lənkəran xanının öz qüvvəsi ilə qorunması mümkün deyildi. Yaxınlaşmaqda olan təhlükənin qarşısının alınması üçün Mir Mustafa xan yenidən nümayəndəsini İ.Qudoviçin yanına göndərdi. Lakin hərbi köməklə bağlı ondan müsbət cavab alınmadı. İ.Qudoviç Lənkəran xanına çatdırdı ki, xanlıq üçün bir təhlükə yaransa Bakı buxtasındakı güclü rus donanması və bir də yaxınlıqdakı rus qoşunları onun köməyinə gələcəkdir(128).

1809-cu il iyun ayının əvvəllərində general A.Tormosov da Lənkəran xanlığına hərbi qüvvə göndərilməsinin qeyri-mümkünlüyünü bəyan etdi. Onun fikrincə, qurudan Qacar qoşunlarının Lənkəran xanlığı üzərinə hücumu mümkün deyildi. Dənizdən isə xanlıq ərazisi rus gəmiləri tərəfindən qorunurdu. Onun fikrincə, Qacar qüvvələrinin dənizdən hücum etməsi ehtimalı daha inandırıcı idi. Buna görə də o, təklif edirdi ki, qacarların hərbi gəmi qurmaları nəzarət altında saxlansın. Əgər qacarlar Xəzər dənizində hərbi gəmi quraşdırılmasına başlasaydılar Bakıdakı hərbi gəmilər vasitəsilə onları məhv etmək olardı (129).

Qacar qoşunlarının Arazın şimalına yürüş təhlükəsi reallaşanda general A.Tormosov Lənkəran xanlığına əlavə qüvvə göndərmək barədə qərar qəbul etdi. Bu qüvvələri göndərməklə general A.Tormosov bir tərəfdən Lənkəran xanlığını Rusiyanın himayəsi altında saxlamaq istəyirdisə, digər tərəfdən də Qacar qüvvələrini Qarabağ xanlığı üzərinə gözlənilən irimiqyaslı hücumdan yayındırmaq, Qacar qüvvələrini parçalamaq istəyirdi. Bununla bağlı general A.Tormosov Bakıda dayanan rus qüvvələrinin rəhbəri general-leytenant Repinə tapşırdı ki, Lənkəran

xanlığı sahillərinə 3 ədəd gəmi göndərsin. Gəmilər sahil boyu hərəkət etməklə xanlığı mühafizə etməliidi. Qacar qoşunlarının Lənkəran xanlığı üzərinə hücum edəcəyi təqdirdə isə Sevastopol alayının bir bölüyü xanlıq ərazisinə göndərilməli idi. Piyada bölüyü Xəzər sahili boyunca fəaliyyət göstərməli və ağır vəziyyətə düşməməsi üçün sahildən uzaqlaşmalı deyildi. Təhlükəli vəziyyətlə qarşılaşmayacaqları halda rus hərbi qüvvələri gəmilərə yüklənərək geri qayıtmalı idilər (130).

Ancaq məlumdur ki, Abbas Mirzə Qarabağ xanlığı ərazisinə böyük qoşun dəstəsi çıxarmadı. Onun rəhbərliyi altında olan çoxsaylı qoşun dəstəsi Naxçıvandan Gəncəyə doğru istiqamət götürdü. Ona görə də Qarabağ və o cümlədən Lənkəran xanlığındakı gərginlik bir qədər səngidi. Bununla görə də general Repin artıq Lənkəran xanlığı sahillərinə üç gəmi göndərməsinə ehtiyac görmədi. Bu gəmilərdən yalnız biri Lənkəran istiqamətinə yola düşdü. Gəmidəki hərbçilər vasitəsilə general Repin Lənkəran xanına məktub da göndərdi. Məktubda deyilirdi ki, vəziyyətin dəyişməsi ilə əlaqədar olaraq yalnız bir gəmi göndərilir. Eyni zamanda Mir Mustafa xanın diqqətinə çatdırıldı ki, vəziyyət pisləşərsə, yəni Qacar qoşunları Lənkəran xanlığı üzərinə hücum edərsə, onda Lənkəran sahillərinə əlavə 4 ədəd gəmi göndəriləcəkdir. Bundan əlavə, general Repin Lənkəran xanlığına öz kəşfiyyatçılarını da göndərdi. Bu adamlar həm Lənkəran xanlığı daxilində vəziyyətin necə olması barəsində, həm də Xəzərin cənubunda qacarlar tərəfindən hərbi gəmilərin quraşdırılıb-quraşdırılmaması barəsində məlumat toplamalı idilər (131).

Bununla belə, 1809-cu ilin iyul ayında Bakı komendantı general-leytenant Repin bir bölük qüvvəni Lənkəran xanlığına göndərdi. General A.Tormosov bu bölüyün Lənkərana göndərilməsi ilə razı deyildi. Çünki o, Lənkəran xanlığı üzərinə irimiqyaslı hücumun olacağını gözləmirdi. Həmin bölüyün göndərilməsi ilə Bakıda və Quba xanlığı ərazisində rusların qüvvəsinin zəifləməsi baş verdi. Ona görə general A.Tormosov Lənkəran xanlığı ərazisində olan bölüyün geri çağırılmasını tələb etdi.

Mövcud məlumatlara əsasən, belə bir qənaətə gəlmək olar ki, Lənkəran xanlığı ərazisindəki həmin rus bölüyü geri qaytarıldı. Çünki 1809-cu il iyulun sonu və avqustun əvvəlində Lənkəran xanı vəziyyətin mürəkkəbləşməkdə olduğunu əsas tutaraq xanlıq ərazisinə rus qüvvələrinin göndərilməsi haqqında rus komandalığı qarşısında təkrar-təkrar məsələ qaldırdı.

1809-cu il avqust ayının əvvəlində Mir Mustafa xan yenidən xanlıq ərazisinə rus qoşun dəstələrinin göndərilməsi barəsində məsələ qaldırdı. Bununla Lənkəran xanı yerli əhali üçün ciddi çətinliklər yarada biləcək şah qoşunlarının hücumunun qarşısını almaq istəyirdi. Lənkəran xanının

bu təşvişi heç də əbəs deyildi. Çünki tezliklə Lənkəran xanlığı yeni bir hücuma məruz qaldı. Doğrudur, bu hücum şah qoşunları tərəfindən təşkil edilməmişdi. Amma bu hücum şahın razılığı ilə Qacar sarayına sığınmış olan Bakı xanı Hüseynqulu xan, Salyanın keçmiş hakimi Əli xan Rudbari, Şamaxı xanı Mustafa xanın qardaşı Həşim xan, habelə Məhəmməd xan Beqdeli və digərləri tərəfindən həyata keçirildi. Mövcud olan məlumatlara əsasən, belə bir qənaətə gəlmək olar ki, adları çəkilən xanların fəaliyyətinə keçmiş Bakı xanı Hüseynqulu xan rəhbərlik edirdi və belə bir yürüşün hazırlanmasında da məqsəd Bakı xanlığını rus qoşunlarından təmizləmək və yenidən xanlığa sahib olmaq idi. Hüseynqulu xan Salyandan keçməklə Bakıya doğru irəliləmək istəyirdi. O, Mir Mustafa xana müraciət etdi ki, bu yürüşün həyata keçirilməsinə mane olmasın. Eyni zamanda bəyan edildi ki, bu yürüş Fətəli şahın iradəsi əsasında həyata keçirilir. Mir Mustafa xan bu müraciəti qəbul etmədi. Onda Hüseynqulu xan və onun ətrafındakılar Lənkəran xanının razılığı olmadan Bakı üzərinə yürüşə başladılar. Mir Mustafa xan oğlu Mir Həsən xanın və Muğanlı Məhəmməd Saleh xanın rəhbərliyi altında qoşun dəstəsi təşkil etdi və bu dəstəni keçmiş xanların dəstəsi üzərinə göndərdi. Mir Həsən xanın qoşun dəstəsi keçmiş xanların qoşun dəstəsinə üstün gəldi və həmin dəstənin Bakıya doğru irəliləməsinin qarşısı alındı. Bu döyüş zamanı Əli xan Rudbari, Həşim xan, Cəfər bəy və bir çox başqaları əsir götürüldülər. Hüseynqulu xan və onunla birlikdə bir neçə digər ağalar əsir düşməkdən nicat taparaq döyüş meydanını tərk edə bildilər (132).

Rus mənbələrində o da bildirilir ki, avqust ayının 14-də baş verən bu döyüşdə Mir Həsən xanın 1000 nəfərlik, Hüseynqulu xanın və onun ətrafındakıların 4 min nəfərlik qoşun dəstəsi var idi (133).

Ə.Dünbəli əsərində Hüseynqulu xanın və ətrafının dəstəsi ilə Mir Həsən xanın dəstəsi arasında döyüş baş verməsinə, yuxarıda adları çəkilən şəxslərin əsir düşməsinə işarə etmişdir. Lakin bu döyüşün nə səbəbə baş verməsini yazmır. Farsdilli tarixi ədəbiyyatda isə Lənkəran xanlığı üzərinə həyata keçirilən bu hücumun Lənkəran xanının Rusiya ilə yaxınlaşmasına etiraz əlaməti olaraq baş verdiyi bildirilir. Qeyd olunur ki, Mir Mustafa xanın Rusiya ilə yaxınlaşması onun oğlanlarının, qardaşlarının, bacılarının, Lənkəranın nüfuzlu adamlarının etirazına səbəb oldu (134). Amma müəllif Mir Mustafa xanın ailə üzvlərindən, yaxınlarından, habelə Lənkəran bəylərindən kimin müxalifətdə olduğunu konkretləşdirmir və Lənkəran xanlığı üzərinə hücumda yuxarıda adları çəkilən xanların və bəylərin adını çəkməklə kifayətlənir.

Farsdilli tarixi ədəbiyyatda Qacar sarayına gəlmiş ingilis elçisi H.Consun da məktubla Mir Mustafa xana müraciət etməsi və onu rusların himayəsindən üz döndərməyə çalışması haqqında məlumat vardır (135). Rus sənədləri toplusunda da tarix göstərilmədən ingilis elçisinin Mir Mustafa xana yazdığı məktub çap olunmuşdur. Çox güman ki, həmin məktub farsdilli tarixi ədəbiyyatda haqqında danışılan məktubdur. İngilis elçisi həmin məktubunda Qacar şahı tərəfindən ölkənin daxili həyatının idarə edilməsinin Mirzə Bozorgla birlikdə ona tapşırıldığını açıqlayır və sonra da bildirirdi ki, o, Abbas Mirzənin Lənkəran xanlığına qarşı daha rəğbətli münasibət göstərməsinə, habelə Fətəli şahın Mir Mustafa xana qarşı qəzəbinin yumşaldılmasın çalışır. İngilis elçisi məsləhət görürdü ki, Mir Mustafa xan bağışlanması haqqında Fətəli şaha məktub göndərsin. İngilis elçisinin yazdığından aydın olur ki, Mir Mustafa xan Qacar əyanları yanına öz elçisini də göndəribmiş. Guya həmin nümayəndə Mir Mustafa xanın qacarlara meylli olduğunu deyibmiş. Ona görə ingilis elçisi ümid etdiyini bildirirdi ki, Mir Mustafa xan əməli ilə də bağlı qacarlara qarşı olan meylliliyini nümayiş etdirəcəkdir. İngilis elçisi sonra da inandırmağa çalışırdı ki, ruslara bağlılıq Mir Mustafa xana heç bir fayda verməyəcəkdir. Onun fikrincə, Ruslar yalnız marağı olduğu şeylərə can atırlar və başqa dinə mənsub olan ruslardan Mir Mustafa xan heç bir fayda görməyəcəkdir (136).

Bununla belə, 1809-cu ilin avqustunda Mir Mustafa xan təhlükəsizliyinin təmin edilməsi üçün bir neçə dəfə ruslara müraciət etməli oldu və nəhayət ki, onun xahişi qismən ödənildi. Nəticədə, Bakı buxtasında dayanmalı olan eskadra kapitan-leytenant Çelyevin rəhbərliyi altında Lənkəran sahillərinə doğru istiqamət götürdü. 36 saatlıq hərəkətdən sonra eskadra 1809-cu il oktyabrın 31-də Lənkəran sahilinə yetişdi. Kapitan-leytenant Çelyev Lənkəran şəhərinin tamamilə boşalması ilə rastlaşdı və Qacar qoşunlarının hücum təhlükəsinin yerli əhali tərəfindən təşvişlə gözlənildiyinin şahidi oldu. Rus gəmilərinin yaxında olmasına və Lənkəran qalasının divarları arxasında mühafizə olunmaq imkanlarına baxmayaraq, yerli əhali daha etibarlı çıxış yolunu şəhəri tərk etməkdə görürdü. Ənzəli və Ərdəbildən gözlənilən hücumların qorxusu altında şəhər əhalisi hətta əkin məhsullarını toplamadan dağlara və meşəliklərə çəkilməli olmuşdular. Kapitan Çelyev bölgəyə gələn kimi Mir Mustafa xanla görüşdü və gətirdiyi qüvvələr haqqında ona məlumat verdi. Mir Mustafa xan isə ona general A.Tormosov tərəfindən vəd verilmiş 500 nəfərlik qoşun dəstəsinin gəlməsinə ümid bağladığını bildirdi. Kapitan-leytenant Çelyev xanlıq ərazisində gərgin vəziyyət olduğuna görə general A.Tormosov qarşısında

ora ən azı iki bölük miqdarında qoşun qüvvəsinin göndərilməsi haqqında vəsatət qaldırdı. Kapitan Çelyev yazırdı ki, əlavə rus qoşun dəstəsinin Lənkəran xanlığına gətirilməsi heç olmasa Qacar qüvvələrinə psixoloji təsir göstərər və onları xanlıq üzərinə hücumdan çəkindirə bilər (137).

Mir Mustafa xan özü isə ehtimal olunan təhlükənin qarşısını almaq üçün 1000 nəfərlik rus qoşun dəstəsinin göndərilməsini xahiş edirdi. Lənkəran xanı bildirirdi ki, bu qoşun dəstəsi ilə nəinki xanlığı Qacar qoşunlarından qoruya bilər, hətta Gilan vilayətini, Ərdəbili, Xalxal və Meşkini də tutub Rusiya hakimiyyəti altına gətirə bilər. General A.Tormosov isə ona belə bir dəstəni vermək imkanında olmadığını bildirdi (138).

1809-cu il sentyabr ayının ilk günlərində Fərəculla xanın rəhbərliyi altında Qacar qoşunları Lənkəran xanlığı ərazisinə hücum etdi. Farsdilli mənbə və ədəbiyyatda Fərəculla xanın hücumuna ötəri şəkildə toxunulmuşdur. Mirzə Məhəmməd Sadıq Vəqayeneqarın yazdığına görə, Fərəculla xan Ərdəbilin keçmiş xanı Nəzərəli xanın əmisi Fərəculla xan Şahsevənlə Mir Mustafa xanın planlarının qarşısını almaq üçün Lənkəran xanlığı üzərinə hücum etdilər(139). "Rövzət üs-səfa" əsərində isə deyilirdi ki, Fərəculla xan əvvəlcə Nəzərəli xanla Fərəculla xan Şahsevənin üstünə hücum etdi, onları tutub şah hüzuruna göndərdi, sonra isə Mustafa xan Talışın üzərinə hücumu davam etdirdi. Mənbədə bildirilirdi ki, Mustafa xan Sara adasına sığınmağa çalışdı və sonra Lənkəran qalasında müdafiə olunurdu. Daha sonra bu mənbədə Qacar qoşunlarının Lənkəran xanının qüvvələrinə üstün gəlməsi haqqında məlumat verilir (140).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqara görə, Fərəculla xan Lənkəran xanlığına hücum edəndə Mir Mustafa xan rus qoşunları komandanlığına xəbər göndərdi və Sara adasındakı hərbçilərə vəziyyət haqqında məlumat çatdırıldı. Onun qeydlərinə görə, ruslar böyük sayda Mir Mustafa xanın köməyinə gəldilər. Tərəflər arasında baş verən döyüş çox gərgin hal aldı və əlbəyaxa döyüş qaçılmaz oldu. Ruslardan kömək almasına baxmayaraq Lənkəran xanlığının qüvvələri Fərəculla xanın dəstəsinin qarşısında duruş gətirə bilmədi. Mənbənin məlumatına görə, Mir Mustafa xan gərginliyə dözməyərək döyüş meydanını tərk etməli oldu, onun qoşun dəstəsi isə qaçıb dağıldı. Mir Mustafa xanın Lənkəran qalasına sığındığı bildirilir. Məlumata görə, Fərəculla xan yenə də ondan əl çəkmədi və Lənkəran qalasını mühasirəyə aldı. Belə olanda Mir Mustafa xan gecəliklə qalanı tərk etdi və Qamışavan qalasına yollanmalı oldu. Müəllifin yazdığına görə, sabahı gün Fərəculla xanın onun Qamışavan qalasına getməsindən xəbər tutdu və Lənkəran qalasına daxil oldu, bu qa-

lada saxlanılan bütün ehtiyatları qənimət kimi ələ keçirdi. Sonra Lənkəran qalası təxrib edilib dağıdıldı, qala daxilində olan tikililərə od vuruldu. Ardınca Qamışavan qalası mühasirəyə alındı. Bu qala üç tərəfdən su ilə əhatə olunmuşdu və onun daxilinə yalnız bir tərəfdən giriş var idi. Bir dəstə əfşar atlıları və piyadaları qalaya aparan yolun kəsilməsinə tapşırıq aldı. Fərəculla xan vəziyyət haqqında Abbas Mirzəyə məlumat çatdırdı. Abbas Mirzə də Məhəmməd xanın başçılığı altında onun köməyinə əlavə qüvvə göndərdi. Fərəculla xanın qalanı mühasirəyə alması tezliklə öz təsirini göstərdi. Mənbənin məlumatına görə, ərzaq qıtlığı ilə rastlaşdığı üçün Mir Mustafa xan bir neçə dəfə Fərəculla xana müraciət etdi, onu müharibədən əl çəkməyə çağırdı. Lənkəran xanı onu da bildirdi ki, mühasirədən çıxan kimi Abbas Mirzə ilə əlaqə saxlayacaq və onunla razılığa gələcəkdir. Fərəculla xan mühasirəni dayandırmadı və ruslardan kömək gələ biləcəyindən ehtiyatlandığı üçün Mir Mustafa xanın təklifini qəbul etmədi. Belə olanda Mir Mustafa xan su yolu ilə Abbas Mirzəyə məktub göndərdi, onun günahlarının bağışlanmasını istədi. Məktubu alandan sonra Abbas Mirzə vəziri Mirzə Bozorgu Lənkəran xanının yanına göndərdi. Mirzə Bozorg da Mir Mustafa xanla görüşdü, onuun ruslardan aralaşacağı barədə vədlərini alandan sonra Fərəculla xana mühasirəni dayandırmaq tapşırığı verdi. Fərəculla xan da mühasirəni dayandırıb dəstəsi ilə İrəvan xanlığı ərazisində olan Abbas Mirzənin yanına yollandı (141).

Bira daha qeyd edilməlidir ki, bu məlumatlar Mirzə Məhəmməd Sadıq Vəqayeneqarın əsərində öz əksini tapmışdır.

Rus mənbələrində Fərəculla xanın Lənkəran xanlığı üzərinə hücumu haqqında daha konkret məlumatlar mövcuddur. Bu mənbələrdəki məlumatlardan aydın olur ki, 1809-cu il sentyabr ayının 5-də Fərəculla xanın qoşun dəstəsi artıq Lənkəran xanlığı ərazisində idi. Fərəcullıa xanın rəhbərliyi altında olan 6 min nəfərlik qoşun dəstəsi Muğan tərəfdən sərhədi keçərək xanlığa doğru irəlilədi. Məhəmmədrza xanın rəhbərliyi altında olan digər dəstə isə Gilandan başlayaraq Xəzər sahili ilə Lənkərana doğru irəliləyirdi (142). Bununla da Lənkəran xanlığı kifayət qədər ağır bir vəziyyətə düşdü. Qüvvə üstünlüyü yaratmaqla Qacar sarayı heç olmasa Lənkəran istiqamətində hərbi təşəbbüsü ələ almağa çalışırdı. Əslində bunun üçün yaxşı bir fürsət də ələ düşmüşdü. Lənkəran xanlığı ərazisində rus qoşun dəstəsinin olmaması Qacar qoşunlarına həm bu xanlığı ələ keçirməyə, həm də qonşu xanlıqlar üzərinə hücumu davam etdirməyə imkan verirdi. Qacar qoşunlarının qonşu xanlıqlar üzərinə hücumu davam etdirmək ehtimalı şamaxılı Mustafa xan tərəfdən də təşvişlə qarşılanırdı və ona görə də o, general A.Tormosova müraciət etdi

ki, Lənkəran xanlığına kömək göndərilməsi məsləsini nəzərdən keçirsin. Şamaxı xanı əvvəldən də Lənkərana kömək göstərilməsi haqqında məsələ qaldırdığını, amma onun təklifinin kimsə tərəfindən qəbul edilmədiyini bildirirdi. Mustafa xan şübhə etmirdi ki, Lənkəran xanlığı tutulandan sonra Qacar qoşunları Salyana doğru irəliləyəcək və ona da şübhə etmirdi ki, Qacar qoşunları hətta Salyana gələndən sonra ruslar bu hücumun qarşısının saxlanması üçün ciddi addım atmayacaqdır. Məktubunun sonunda gözlənilən təhlükənin qarşısının alınması üçün Şamaxı xanı Mustafa xan bir daha təklif etdi ki, bir dəstə Lənkəran xanlığının mühafizəsinə və 200-300 nəfərlik bir dəstə də Salyanın mühafizəsinə göndərilsin (143).

Lənkəran xanlığının ağır vəziyyətə düşdüyünü və nəticədə bu xanlığın Rusiyanın nüfuz dairəsindən çıxa biləcəyini general A.Tormosov da yaxşı anlayırdı. Qacar sarayı Lənkəran xanının ciddi cəzalandırmağa çalışırdı və bunun səbəbini general A.Tormosov aşağıdakılarla bağlayırdı: 1) Mir Mustafa xanın Fətəli şahın tabe olmaq tələbindən imtina etməsi və qızını Fətəli şahın kiçik oğluna verməməsi; 2) Lənkəran xanının keçmiş Bakı xanı Hüseynqulu xanın rəhbərliyi altında olan Qacar qoşun dəstəsinə qoşulmaması; 3) ötən yay ərzində üç dəfə Lənkəran xanlığı ərazisinə yürüş etmiş Qacar qoşun dəstələrinin məğlub edilməsi (144).

Bundan başqa, Fətəli şahla Lənkəran xanı arasında münasibətlərin gərginləşməsinə səbəb ola biləcək digər məsələlər də var idi. Mir Mustafa xanın girov kimi Qacar sarayına göndərdiyi bacısının və qardaşının müəmmalı şəkildə dünyalarını dəyişmələri, Rusiya ağalığından üz döndərilməsi barəsində Qacar sarayının təkidli tələblərinin Mir Mustafa xan tərəfindən qəbul olunmaması Qacar sarayının Lənkəran xanına qarşı qəzəbini artırmaqda idi və buna görə də Mir Mustafa xana qarşı cəza fürsətinin əldən verilməyəcəyi şübhəsiz idi. Bununla belə, A.Tormosov Lənkəran xanlığına yalnız hərbi gəmilər göndərilməsi ilə kifayətləndi ki, bu da xanlığın mühafizəsini təmin etmədi. Lənkəran sahillərinə göndərilmiş gəmilər yalnız sahil zolağını qorumalı və Qacar qüvvələrinə psixoloji təsir göstərməli idi. Lənkəran xanlığının mühafizəsini öz üzərinə götürə biləcək piyada dəstələri isə xanlıq ərazisinə göndərilmədi. Bunun səbəblərinin biri o idi ki, rus qoşunları baş komandanlığının yetərincə hərbi qüvvəsi yox idi. General A.Tormosov bildirirdi ki, Dərbənd, Quba və Bakı xanlıqlarının ərazisi yalnız bir Sevastopol alayı tərəfindən qorunur. Bu alaydan Lənkəran xanlığına göndərmək üçün qüvvə ayırmaq mümkün deyildi. Çünki həm keçmiş Quba xanı Şeyxəli xan Dağıstan hakimləri ilə razılaşaraq rus işğalına

qarşı üsyan hazırlayırdı, həm də Qacar qüvvələrinin Bakı üzərinə hücum edəcəyi gözlənilirdi. Digər tərfədən Lənkəran xanlığı Araz çayının cənubunda yerləşirdi. Rusiya sarayı isə sərhəd xəttinin Kür və Araz çaylarından keçməsi haqqında təklif irəli sürmüşdü. Həmin təklifin qəbul ediləcəyi təqdirdə Rusiya tərəfi Arazın və Kürün cənubuna keçməyəcəyini öz üzərinə götürməli idi. Ruslar tərəfindən Lənkəran xanlığının işğal edilməsi hələlik açıq şəkildə irəli sürülmürdü. Rus qoşunlarının Lənkərana göndərilməsi Rusiyanın işğalçılığının Kür və Araz çaylarından cənuba yayılması kimi qiymətləndirilə bilərdi. Nəhayət, A.Tormosov Rusiya imperatorundan qoşunların müdafiə mövqelərində saxlanması əmrini bəhanə gətirərək Lənkərana piyada qoşun dəstələrinin göndərilməsinin mümkünsüzlüyünü bildirirdi. Baş komandanın nəzərincə, Lənkəran sahilinə rus hərbi gəmilərinin göndərilməsi isə Qacar sarayını şübhələndirməzdi. Çünki əvvəllər də Lənkəran sahillərinə rus hərbi gəmiləri lövbər salırdılar (145).

Beləliklə, 1809-cu il sentyabr ayının 5-də Qacar qoşunları yuxarıda qeyd edildiyi kimi, iki istiqamətdən Lənkəran xanlığı üzərinə hücuma başladı. Mir Mustafa xan xanlığın qoşun dəstəsi ilə Fərəculla xanın qoşun dəstəsinin irəliləməsinin qarşısını almağa yollandı. Xanlığın bütün qoşunları bu istiqamətə cəlb olunduğından digər istiqamətlər müdafiəsiz qaldı. Xəzər sahili ilə Gilandan irəliləyən qoşun dəstəsinin qarşısını saxlamaq üçün isə kapitan Çelyev sahilə tərəf iki gəmi göndərdi. İlk günlərin qarşılaşması Lənkəran xanlığı üçün uğurlu oldu. Mir Mustafa xan Qacar qoşunlarının avanqard dəstələrini 2-3 mil geri çəkilməyə məcbur etdi. Xəzər sahili boyu reyd edən rus gəmiləri isə Məhəmmədrza xanın rəhbərliyi altında irəliləyən Gilan dəstəsinin qarşısını saxlamağa müvəffəq oldu (146).

Fərəculla xanla ilk döyüş zamanı Mir Mustafa xan şah silahlılarından 40-50 nəfəri əsir götürə bildi. Bununla, Qacar qoşunları heç də öz hücumlarından əl çəkmədilər. Bir neçə gündən sonra Qacar qoşunları ilə Mir Mustafa xanın qoşun dəstəsi arasında yeni bir döyüş baş verdi. Bu döyüşdə də Mir Mustafa xanın dəstəsi üstün gəldi və Qacar qoşunlarından xeyli sayda öldürülən və əsir götürülən oldu. Amma Mir Mustafa xanın əldə etdiyi uğur, Xəzər sahili boyunca irəliləyən Gilan dəstəsi ilə döyüşdə əldə olunmadı. Lənkəran xanı Gilan dəstəsinin sayının 8 min nəfər olduğunu bildirirdi. Bu dəstə növbəti hücum zamanı rus gəmilərinin müqavimətini qıraraq Lənkərana daxil ola bildi. Bu barədə məlumat alanda Mir Mustafa xan Lənkərana çəkilməli oldu. Bundan sonra Fərəculla xanın dəstəsi də Lənkərana doğru irəlilədi və bununla da Mir Mustafa xan iki istiqamətdən Qacar qoşunlarının güclü

təzyiqi qarşısında qaldı. Lənkəran daxilində Qacar qoşunlarının təzyiqi güclənəndə Mir Mustafa xan ailə üzvləri və yaxınları ilə birlikdə Qamışavan qalasına çəkildi. Ətrafda dayanmış olan rus gəmiləri bu qalanın təhlükəsizliyinə bir təminat oldu. Lənkəran xanlığının ərazisi isə müdafiəsiz qaldı. Mir Mustafa xanın yazdığına görə, Qacar qoşunları bundan istifadə etdilər, xanlıq ərazisindəki evləri talayıb onlara od vurdular. Xanlıq ərazisində müdafiəsiz qalmış əhali isə əsir götürüldü. Bütün xanlıq ərazisi nəzarət altına alındıqdan sonra Qacar qüvvələri Qamışavan qalasını mühasirəyə aldılar. Dənizdən kapitan Çelyev xana kömək çatdırmağa çalışsa da onun vəziyyəti heç də yüngülləşmədi. Belə olanda Mir Mustafa xan öz nümayəndəsi Kərbəlayi Əhmədi gizli yolla A.Tormosovun yanına göndərdi və ondan kömək xahişi etdi. Lənkəran xanı general A.Tormosova çatdırdı ki, düşdüyü vəziyyətdən onu 500-600 nəfərlik rus qoşun dəstəsi çıxara bilər. Buna görə xahiş etdi ki, Bakıdan və ya Qarabağdan yeni bir qoşun dəstəsi toplarla birlikdə onun köməyinə göndərilsin (147).

Bakı şəhərinin komendantı general-leytenant Repin də aldığı kəşfiyyat məlumatı əsasında Mir Mustafa xanın ağır vəziyyətə düşdüyünü və mühasirədə qaldığını təsdiq etdi. O da ehtiyat edirdi ki, Qacar qoşunları Lənkəran xanlığını talayıb başa çatdırdıqdan sonra Salyan üzərinə hücum edə bilər. Belə olduğu təqdirdə o da Salyanın qorunmasının çətin olacağını bildirirdi. General Repin bildirirdi ki, Salyana göndərilmək üçün Bakıda əlavə qoşun qüvvəsi yoxdur. Mövcud olan qüvvə də yalnız Bakının müdafiəsi üçün bəs edər (148).

General A.Tormosov da Lənkəran xanlığına göndərmək üçün qüvvə tapa bilməyəcəyini bəyan etdi. Mir Mustafa xan mühasirədə olduğu zaman general A.Tormosov ona göndərdiyi məktubunda Fətəli şahın tələbini qəbul etmədiyinə, qızını şah oğluna vermədiyinə, şahın tələbi əsasında Bakı üzərinə hücumda iştirak etmədiyinə görə razılığını bildirdi və onun bu mövqeyini Rusiyaya bağlılığının nişanəsi kimi dəyərləndirdi. Xanlığa hərbi qüvvə göndərmək xahişi qarşısında isə A.Tormosov Lənkəran xanına təskinlik verməklə kifayətlənirdi. Bildirirdi ki, payızın başlanması ilə Qacar qoşunlarının döyüş mövsümü də sona çatır və Qacar qoşunları qışda Muğan düzündə qalmayacaqdır. O biri tərəfdən də A.Tormosova görə, ölkə daxilində vəziyyət sabit deyildi. Xorasan vilayətinin qacarların hakimiyyəti əlindən çıxması, Qacar qoşunlarının əfqanlarla gözlənilən qarşıdurması Qacar sarayının diqqətini özünə çəkməkdə idi. Ona görə A.Tormosov inandırmağa çalışırdı ki, Qacarlar Lənkəran xanlığına əlavə qoşun dəstəsi göndərə bilməyəcək və əgər göndərməli olsalar da Lənkəran xanlığının təbii şəraiti onların qarşısının

alınmasına kömək edəcəkdir. Sonra A.Tormosov Lənkəran xanının 1000 nəfərlik qoşun dəstəsi göndərmək xahişinə münasibət bildirdi. Rus qoşunları baş komandanı Qacar qoşunlarının Arazın şimalına yürüş etməsi və rus qoşunlarının da bu yürüşlərin qarşısının alınmasına səfərbər olması haqqında məlumat verərək Lənkəran xanlığına haradansa qoşun dəstəsinin qoparılıb göndərilməsini qeyri-mümkün sayırdı. General A.Tormosov əlavə edirdi ki, Qacar sarayı sülh danışıqlarına ciddi yanaşıb Arazın şimalına hücumlarını dayandırsa, onda Lənkəran xanlığına göndərmək üçün əlavə qüvvə tapa bilər. General A.Tormosov eyni zamanda Lənkəran xanlığının mühafizəsinin təmin edilməsi ilə bağlı təkliflərini Rusiya sarayına göndərmək istədiyini bəyan edirdi Əməli köməyə gəlincə isə general A.Tormosov bunun yalnız gəmilərlə mümkün olacağını yazırdı. O bildirirdi ki, bir neçə gəminin toplarla və dəniz əsgərləri ilə Lənkərana göndərilməsi haqqında Bakı komendantına göstəriş vermişdir (149).

Bu tapşırıqla bağlı general A.Tormosov Bakı komendantı general-leytenant Repinə də məktub göndərdi və ondan tələb etdi ki, əlavə olaraq bir neçə digər gəmi də Lənkərana göndərilsin. Həmin gəmilər Lənkəran ətrafında dənizdə dayanmalı və bu gəmilərin şəxsi heyəti quruya çıxmalı deyildilər. Lənkərana göndərilən gəmilər daha çox Qacar qüvvələrinin qorxudulması vəzifəsini icra etməli idilər (150).

Başqa sözlə, Mir Mustafa xanın rus qoşunlarının köməyinə bağladığı ümidlər puça çıxdı. Lənkəran xanlığının köməyinə Lənkəran ətrafında dayanan gəmilər yetişə bilərdilər ki, bu gəmilərin köməyi ilə yalnız Qamışavan qalasını qorumaq mümkün idi. Lənkəran ətrafında olan rus hərbi gəmilərinin rəhbəri kapitan-leytenant Çelyev də rus generallarına göndərdiyi məktublarında Mir Mustafa xanın köməyinə rus piyada dəstələrinin göndərilməsinin zəruriliyini qeyd edirdi. Lakin onun da təklifləri qəbul olunmadı. Onda kapitan Çelyev özü mümkün qüvvələrlə Mir Mustafa xana kömək göstərməyə çalışdı Onun gəmilərindəki toplardan açılan atəş Qacar qüvvələrinin Qamışavan qalasına yaxınlaşmasına mane oldu. Bir neçə gəmini Həştərxana göndərməli olsa da kapitan Çelyev onları ləngitməyi məqsədəuyğun saydı və sonra da Lənkəran xanına kömək göstərilməsinə münasibətlə bağlı gəmi rəislərinin şurasını təşkil etdi. Gəmi rəisləri şurası Lənkəran xanına mümkün köməyin göstərilməsinə səs verdi və qəbul olunan qərar aşağıdakı səbəblərlə əlaqələndirildi: 1) rus gəmilər Bakıya çəkilərsə Mir Mustafa xan Qacar qoşunlarının mühasirəsinə davam gətirə bilməyəcək və bununla da Rusiya özünün yaxşı təbəələrindən birini itirəcək. Dənizçilərin fikrincə, Lənkəran xanlığı Bakı qalasının və gəmilərin ağac və meşə materialları ilə təmin edilməsi

mənbəyi idi. Xanlığın itirilməsi belə bir mənbədən də məhrum olmaq demək idi; 2) əgər Lənkəran xanı ailəsi ilə birlikdə rus gəmilərindən birinə alınsaydı, onda onunla birlikdə mühasirədə olan 3 min nəfər yerli əhali mühafizəsiz qalar və köməksiz buraxıldığı üçün onlar Rusiyanın düşmənlərinə çevrilərdilər; 3) mühasirədə olanların Sara adasına köçürülməsi və bununla da onların təhlükəsizliyinin təmin edilməsi də mümkün deyildi. Çünki həmin adaya bu qədər adamı yerləşdirmək çox çətin idi və orada yerləşdirilən əhalinin ərzaqla təmin edilməsi də asan deyildi (151).

General A.Tormosov bir də sentyabr ayının sonlarına yaxın Lənkəran xanlığına piyada bölmələrinin göndərilməsini mümkün saydı. Bu qərarın qəbul edilməsi daha çox Abbas Mirzənin və Məhəmmədəli Mirzənin rəhbərliyi altında olan qoşun dəstələrinin Gəncə və İrəvan xanlıqları istiqamətindəki yürüşlərinin qarşısının alınması və Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərində yaratdığı gərginliyin səngiməsi ilə bağlı idi. 1809-cu ilin sentyabr ayının sonlarına yaxın general A.Tormosov sülh danışıqlarının başlanması təklifi ilə Qacar sarayından gəlmiş elçi ilə görüşdü və onun qarşısında tələb qoydu ki, Qacar qoşunları Lənkəran xanlığı ərazisindən çıxarılsın. General A.Tormosov bildirdi ki, əgər Qacar qoşunları geri çəkilməsə, onda Rusiyanın himayəsində olan Lənkəran xanlığının qorunmasına əlavə rus qüvvələri göndəriləcəkdir. A.Tormosov yalnız Qacar elçisini xəbərdar etməklə kifayətlənmədi və Bakı qalasının komendantı general Repinə tapşırdı ki, Sevastopol alayının 2 bölüyünü topla birlikdə Lənkəran xanlığına göndərməyə hazırlasın. Bununla belə, A.Tormosov yenə bildirdi ki, bölüklər Lənkəran xanlığına xüsusi zərurət yarananda göndərilsin və bu bölüklər təhlükədən sığortalansın. Rus bölmələrinə təcrübəli zabitlər rəhbərlik etməli və bu bölmələr dəniz sahilindən çox da aralanmalı deyildilər (152).

Bakı qalasının komendantı general-leytenant Repin isə rus qoşunları baş komandanının bu qərarı ilə razılaşmadı. General Repin öz mövqeyini onunla əsaslandırdı ki, Qacar qoşunlarının hücumu ilə yaranan gərginlik səngisə də Dağıstanda vəziyyətin sakitləşdiyinə və Şeyxəli xanın da ruslara qarşı mübarizədən əl çəkdiyinə heç kim zəmanət verə bilməz. O bildirirdi ki, Şeyxəli xan qısa müddət ərzində ətrafına çoxlu adam toplamaqla Qubanın üzərinə hücum edə bilər. Rus işğalı ilə barışmayan Şeyxəli xanın fəaliyyəti rus generalları üçün narahatçılıq mənbəyi olaraq qalmaqda idi və yerli əhali arasında da rus işğalına qarşı narazılıq güclü idi. Ona görə də general Repin Bakıda olan 4 bölükdən 2-nin Lənkəran xanlığına göndərilməsini qeyri-mümkün saydı. Həmin bölüklərin göndərilməsi Bakının və ətrafının mühafizəsini ruslar üçün zəiflədə

bilərdi. Digər tərəfdən də general Repin düşünürdü ki, həmin bölüklərin göndərilməsinə heç bir ehtiyac yoxdur. Çünki onun fikrincə, Qacar sarayı ilə danışıqlar aparılırdı və bu danışıqların nəticəsi müsbət ola bilərdi. Həm də general Repinin fikrincə, Lənkəran xanı sığındığı qalada hələ 3 ay da duruş gətirə bilərdi (153).

Görünür, general Repin ona işarə etmək istəyirdi ki, Lənkəran xanı 3 ay müqavimət göstərməyə qadirdirsə, 3 aydan sonra orada artıq Qacar qüvvələri qalmayacaq və havaların soyuması ilə əlaqədar onlar geri çəkiləcəklər. Amma Qacar şahının və əyanlarının ələ keçirilmiş məktubları göstərirdi ki, havalar soyusa belə şah qüvvələri Qamışavan qalasının mühasirəsini davam etdirmək tapşırığı almışdılar. Qacar sarayı Mir Mustafa xanım müqavimətini qırmadan qoşunları geri çağırmaq niyyətində deyildi. Qacar qoşunlarının Lənkəran ətrafında qalması isə oradakı azsaylı rus qüvvələri üçün müəyyən təhlükə yarada bilərdi. Ona görə general A.Tormosov da Lənkəran xanlığı ərazisində olan rus qüvvələrinin geri qaytarılması haqqında düşünməyə başladı. Bununla əlaqədar general A.Tormosov kapitan Çelyevə tapşırıq verdi ki, Lənkəran sahillərində olan gəmilər daimi müşahidə altında saxlansın, təhlükə yaranan anda həmin gəmilərin mühafizəsi gücləndirilsin. Rus gəmilərin Lənkəran sahillərini tərk edəcəyi halda Mir Mustafa xanın gəmilərin biri ilə mühasirədən uzaqlaşdırılması mümkün sayılırdı. Amma ruslar gəmilərə Mir Mustafa xanın ətrafında olan adamların hamısını yox, yalnız onun azsaylı yaxınlarını götürə bilərdilər (154).

Yazışmalardan aydın olur ki, Bakı qalasından Lənkəran xanlığının köməyinə bir bölük göndərildi. Həmin bölüyün Lənkəran sahillərinə yetişməsi oktyabr ayının sonlarına təsadüf edir. Amma bu bölük yetişməzdən əvvəl Qacar qüvvələri ilə xan qüvvələri arasında döyüşlər baş verdi. Bu qarşıdurma oktyabr ayının ortasında baş verdi. Oktyabr ayının 17-də Fərəculla xan Lənkəran xanının məğlub edilməsinin elə də asan olmayacağını görüb onu danışıqlar yolu ilə Qacar hakimiyyətini tanımağa sövq etmək istədi. Bununla bağlı o öz nümayəndəsini Mir Mustafa xanın yanına göndərdi, onu Qacar hakimiyyətini tanımağa çağırdı və Qacar sarayına sədaqət əlaməti kimi oğlunu girov verməsini istədi. Mir Mustafa xan bu tələblə razılaşmadı və Qacar elçisini əliboş geri qaytardı. Amma Fərəculla xan bununla Mir Mustafa xandan ələ çəkmədi və onun mövqeyinin dəyişdirilməsi üçün danışıqlar davam etdirildi. 1809-cu il noyabr ayının əvvəllərində kapitan Çelyev Qacar Fərəculla xandan dəstəsi ilə birlikdə Lənkəran xanlığını tərk etməsini tələb etdi. Onun bu tələbindən sonra Fərəculla xanının Lənkəran xanına qarşı təzyiqi səngiməyə başladı və nəhayət noyabr ayının 8-də Fərəculla xan yalnız Mir

Mustafa xanın Muğan düzündəki döyüş zamanı əsir götürdüyü 3 nəfər xanın qaytarılması xahişi ilə kifayətləndi. Mir Mustafa xan bu xahişi qəbul etdi və noyabr ayının 9-dan etibarən Fərəculla xanın dəstəsi Lənkəran xanlığının ərazisini tərk etməyə başladı (155).

Bakıdan Lənkəran xanının köməyinə göndərilən piyada bölüyünə kapitan Loqvinenko rəhbərlik edirdi və qeyd edildiyi kimi, bu bölük Qacar qüvvələrinin Lənkəran xanlığını tərk etməsi ərəfəsində yetişdi. Mir Mustafa xanın fikrincə, Fərəculla xanın dəstəsini geri çəkməyə başlamasında bu bölüyün yetişməsinin də təsiri var idi və ona görə Mir Mustafa xan general Repinə öz məmnunluğunu çatdırdı. Onun yazdığına görə, rus bölüyünün gəlməsindən sonra Fərəculla xanın tələblərində də yumşalma baş verdi. Mir Mustafa xan 1810-cu ilin yayında da general A.Tormosovdan hərbi kömək alınmasına ümid edirdi və istəyirdi ki, həmin köməklə Qacar qüvvələrinə qarşı döyüşə girsin (156).

Qacar qoşun dəstəsinin Lənkəran xanlığı ərazisini tərk etməsindən sonra kapitan-leytenant Çelyev Lənkəran sahilində olan gəmilərin geri qaytarılması haqqında məsələ qaldırdı. Gəmilərin geri qaytarılmasının zəruriliy havaların soyuması və bununla da hərbi gəmilərin təchizatının çətinləşəcəyi ilə bağlanılırdı. General A.Tormosov Lənkəran xanlığının yenidən Qacar qoşunlarının hücumuna məruz qala biləcəyini ehtimal edirdi. Lakin bununla belə general A.Tormosov hərbi eskadrilyanın təhlükəsizliyini Lənkəran xanlığının təhlükəsizliyindən üstün tuturdu. O bildirirdi ki, heç vaxt Rusiya imperiyasının birbaşa təbəəliyində olmayan Lənkəran xanlığından daha çox eskadrilyanın və Lənkərana göndərilmiş bölüyün qayğısına qalmağa borcluyuq. Ona görə kapitan Çelyevə icazə verilirdi ki, yerli şəraitə uyğun olaraq eskadrilyanın və piyada bölüyünün təhlükəsizliyinin təmin edilməsi haqqında qərar qəbul etsin. General A.Tormosov eyni zamanda təhlükənin mövcud olmadığı təqdirdə Lənkəran sahillərində bir qədər dayanmağın mümkünlüyünü də lazım bilirdi. Amma o, gəmilərin geri qayıdacağı halda piyada bölüyünün gətirilməsini də mütləq hesab edirdi. Onun fikrincə, piyada bölüyü xanlıq ərazisində dəstəksiz qalardısa onda Qacar alayları qayıdıb onu məhv edərdilər (157).

Rus hərbi qüvvələrinin Lənkəran xanlığı ərazisindən çıxarılması çox güman ki, Rusiya ilə Qacar sarayı arasında barışıq müqaviləsi ətrafında aparılan danışıqlarda Lənkəran xanlığı ilə bağlı xüsusi mövqe nümayiş etdirilməsindən irəli gəlirdi. Rusiya bu danışıqlarda Lənkəran xanlığının işğaldan kənarda qalmasına xüsusi təkid göstərirdi və Qacar qoşunlarını da Lənkəran ərazisində olmasını istəmirdi. Konkret tarixi şəraitdə Rusiyanın marağı və imkanları bunu tələb edirdi. Yəni, məhz buna görə

idi ki, general A.Tormosov da Lənkəran xanını və xanlığını ciddi nəzarət altına alınmasına bir qədər loyallıqla yanaşırdı.

Qacar qoşunları Lənkəran xanlığını tərk etsələr də Lənkəran xanlığının sərhədindən çox da uzaqlaşmadılar. Fərəculla xanın dəstəsi Ərdəbilə, Məhəmmədrza xanın dəstəsi isə Gilana çəkildi. Görünür, buna görə də Mir Mustafa xan rus qoşun dəstəsinin geri çəkilməsi ilə razılaşmadı. Kapitan-leytenant Çelyev rus dəstəsinin geri çəkilməli olduğunu çatdıranda Mir Mustafa xan bunun xanlıq üçün ağır nəticələrə gətirə biləcəyini söylədi və fikrini aşağıdakılarla əsaslandırmağa çalışdı: 1) Qacar qoşunları xanlıq ərazisini tərk etsə də, xanlıq daxilində vəziyyət heç də sabit deyildir, əhali heç də bütünlüklə Mir Mustafa xanın tabeliyinə gətirilməyibdir. Ona görə də Mir Mustafa xan özünü xanlıq daxilində arxayın hesab edə bilmirdi; 2) Mir Mustafa xan ehtiyat edirdi ki, ruslar xanlıq ərazisini tərk edən kimi Qacar qoşunları yenidən hücum edə bilər. Ərdəbildən qoşunlar 2 gün ərzində Lənkəran xanlığına yetişə bilərdilər; 3) Rusiya ilə qacarlar dövləti arasında barışıq əldə edilsə də, şah sarayı qoşunlarının Lənkəran xanlığı ərazisinə göndərilməsinə bir bəhanə tapa bilərdi. Bu səbəblərə görə, Mir Mustafa xan rusların xanlıq-da saxlanılmasına təkid göstərirdi. Əvəzində, Lənkəran xanı rus qoşun-larının yaşayış şəraitinin yaxşılaşdırılmasına söz verirdi. Mir Mustafa xan söz verirdi ki, xanlıq ərazisində saxlanılan rus dəstəsini isti mənzillərlə, ərzaqla təmin etsin (158).

Mir Mustafa xan güman edirdi ki, rus piyada bölüyü daimi olaraq xanlıq ərazisində yerləşdirilmək üçün göndərilmişdir. Onun bütün tələb və xahişlərinə baxmayaraq, kapitan-leytenant Çelyev piyada bölməsinin Lənkəranda qalmasına razı olmadı və noyabr ayının sonunda bu bölməni gəmilərlə Bakıya göndərdi. General A.Tormosov özü də piyada bölməsinin Lənkəranda saxlanmasına razı deyildi və o, general Repinə tapşırdı ki, heç bir səbəblə piyada bölüyü Lənkəranda saxlanılmasın. Lənkəranda qalacağı halda bölmənin rastlaşa biləcəyi bütün hadisələrin məsuliyyəti kapitan Çelyevin üstünə düşməli idi. Amma kapitan Çelyev həmin bölməni yola salandan sonra özü tabeçiliyindəki gəmilərlə bir müddət də Lənkəran sahillərində qalmalı oldu (159).

Bununla belə, Mir Mustafa xan rus qoşunlarından kömək almaq inadından əl çəkmədi. Rus qoşunları baş komandanlığının Lənkəran xanlığının Qacar hücumlarından qorunmasına meylli olması Mir Mustafa xanda qarşılıqlı əməkdaşlıq ümidləri yaradırdı və ona görə öz niyyətlərinin həyata keçirilməsində hələ də Rusiyaya güvənirdi. 1809-cu ilin dekabrında Mir Mustafa xan elçisini yenidən general A.Tormosovun yanına göndərdi və bir daha ondan rus qoşun dəstəsi almağa cəhd

göstərdi. Lənkəran xanı istəyirdi ki, A.Tormosov tərəfindən ona topla müşayiət olunan rus qoşun dəstəsi versin və o da bu qoşun dəstəsi ilə Qacar qoşunları üzərinə hücum etsin, Qacar qoşunları tərəfindən ona vurulmuş ziyanların əvəzini çıxsın.

Yuxarıda qeyd edildiyi kimi, 1809-cu ilin sonlarından başlayaraq barışıq anlaşmasının əldə edilməsi ətrafında Rusiya sarayı ilə Qacar əyanları arasında danışıqlar gedirdi. Bu danışıqların nəticəsi kimi konkret təkliflər ətrafında fikir mübadiləsi aparılmışdı. Rusiya tərəfi bu danışıqların nəticəsinə müəyyən ümidlərlə yanaşırdı. Ona görə də general A.Tormosov Lənkəran xanına bildirdi ki, hazırkı şəraitdə ona qoşun dəstəsi verə bilməz. Çünki rus qoşun dəstəsinin Qacar qoşunlarına qarşı istifadə edilməsi tərəflər arasında aparılan danışıqları poza bilərdi. Amma general A.Tormosov onu da qeyd etdi ki, Lənkəran xanının bu xahişi Rusiya imperatorunun nəzərinə çatdırılacaqdır və əgər Rusiya imperatoru razı olsa, onda Lənkəran xanının xahiş etdiyi qoşun dəstəsi onun sərəncamına göndəriləcəkdir (160).

1810-cu il yanvar ayının 20-də kapitan Çelyev tabeçiliyində olan eskadra ilə Lənkəran sahillərini tərk edərək Bakıya doğru istiqamət götürdü. Lənkəran sahillərində yalnız bir gəmi saxlanıldı. Hərbi eskadranın da Bakıya dönməsi Mir Mustafa xanın əlavə təşvişinə səbəb oldu. Bununla da xanlığın mühafizəsi bütünlüklə xanın üzərinə düşdü. Baxmayaraq ki, Qacar dövləti ilə Rusiya sarayı arasında barışıq anlaşmasının imzalanması üçün fəallıq duyulmaqda idi, bununla belə, Abbas Mirzə hərbi hazırlığını da diqqətdən kənara qoymamışdı. Bu isə Mir Mustafa xanı narahat edirdi. Çünki Qacar qoşunlarının hücumu qarşısında Mir Mustafa xanın müdafiə oluna biləcəyi heç də asan olmayacaqdı. Ehtimal olunan təhlükədən sığortalanmaq üçün Mir Mustafa xan bir daha ruslardan hərbi kömək istədi. Bu dəfə Lənkəran xanı Bakı qalasının komendantı general-leytenant Repinə məktub göndərdi. General Repin isə bu məsələ ilə bağlı general A.Tormosova müraciət etdi və Mir Mustafa xanın məktubunu ona göndərdi. General A.Tormosov da 1809-cu ilin dekabrında Mir Mustafa xana verdiyi cavabı bir daha təkrarladı. Başqa sözlə, mövcud şəraitdə Mir Mustafa xana qoşun dəstəsi göndərilməsinin qeyri-mümkünlüyü təkrarladı. Eyni zamanda general A.Tormosov general Repindən tələb etdi ki, Mir Mustafa xanla mehribancasına davranmağa çalışsın, onun rus mövqeyindən uzaqlaşmasına imkan verməsin. Çünki Mir Mustafa xanda ruslara meylliliyinin saxlanması A.Tormosovun fikrincə, Rusiyanın marağına cavab verirdi (161).

Mir Mustafa xan general Repindən gözlədiyi cavabı almadıqda kapitan-leytenant Çelyevə məktub göndərdi. Kapitan Çelyev Lənkəranı tərk edərkən Mir Mustafa xana yenidən geri qayıdacağı barəsində söz vermişdi. Lənkəran xanı məktubunda ondan soruşurdu ki, 2 ay keçməsinə baxmayaraq nə üçün geri qayıtmayıb. Lənkəran xanı bildirirdi ki, Qacar qoşunları Ərdəbilə toplaşıblar. Bu qoşunlar Lənkəran xanlığı üzərinə hücuma hazırlaşırlar. Qacar nümayəndələri yerli adamları təhrik etməklə Lənkəran daxilində qeyri-sabit vəziyyət də yaratmaq istəyirdilər. Bu məqsədlə Çaruq dərəsində sabitliyin pozulmasına cəhd göstərildiyi bildirilirdi. Mir Mustafa xan da oğlanları Mir Həsən xanın, Mir Hüseyn bəyin və Məhəmməd bəyin rəhbərliyi altında qoşun dəstəsini həmin dərəyə göndərmişdi ki, qiyama təhrik hallarının qarşısı alınsın. Lənkəran xanı kapitan Çelyevə Abbas Mirzə tərəfindən təhdid olunması haqqında da yazırdı. Onun yazdıqlarından məlum olur ki, Abbas Mirzə vaxtaşırı elçilərini xanın yanına göndərərək ondan Rusiya təbəəliyindən imtina etməsini, qızını girov kimi Ərdəbilə göndərməsini tələb edirmiş. Mir Mustafa xan da ona ruslardan gördüyü mərhəmət qarşısında Rusiya təbəəliyindən imtina etməyəcəyini çatdırmışdı. Rusiya sarayı ilə razılaşma əsasında alacağı rus köməyinə görə Mir Mustafa xan oğullarından birini girov verməli idi. Mir Mustafa xan məktubunda bu məsələyə də toxunurdu. O, kapitan Çelyevin nəzərinə çatdırırdı ki, hazırkı vəziyyətdə Qacar təhlükəsindən ehtiyat etdiyi üçün girov göndərə bilmir. Çünki Qacarlar bundan xəbər tutsaydı Talış əhalisindən ciddi qisas alardılar. Mir Mustafa xan xahiş edirdi ki, kapitan Çelyev heç olmasa bir freqatla Sara adasına gəlsin, xanlığın müdafiə üçün bir ümid yaransın, ondan sonra onun oğlanlarından biri ruslara girov verilsin. Lənkəran xanlığının vəziyyətini bilən bir şəxs kimi kapitan-leytenant Çelyevdən xahiş olunurdu ki, general Repinlə razılaşdıraraq Lənkərana gəmi göndərilməsini sürətləndirsin. Mir Mustafa xan hərbi kömək göndərilməsi xahişi ilə general A.Tormosovun yanına da adam göndərdiyini yazırdı. Amma daha böyük ümidini o, kapitan Çelyevin tezliklə gəlməsinə bağladığını bildirirdi (162).

Qacar qoşunlarının Lənkəran xanlığı üzərinə hücuma ciddi hazırlaşmasından rus qoşunları baş komandanlığı da xəbərdar idi. Ona görə də Lənkəran xanlığının qorunması üçün Sara adasına rus gəmilərinin göndərilməsi qərara alındı. Həmin gəmilərin rəhbəri leytenant Neklyudov təyin olundu. Onun bu vəzifəyə təyinatı haqqında əmr 1810-cu il fevral ayının 15-də imzalandı (163). Rus zabitlərinin yazışmalarından aydın olur ki, 1810-cu il mart ayının əvvəllərində leytenant Neklyudov artıq Lənkəran yaxınlığındakı Sara adasında idi.

Mir Mustafa xan leytenant Neklyudovla görüşündə ona ikinci oğlunu Tiflisə, general A.Tormosovun yanına göndərmək istədiyini bildirdi. Lakin onun oğlanları Çaruq dərəsində Xankişi bəy tərəfindən Mir Mustafa xana qarşı qaldırdığı qiyamın yatırılması ilə məşğul idilər. Bu qiyam tezliklə yatırıldı və orada vəziyyət müəyyən qədər normallaşdı. Bunun ardınca Qacar sarayı Mir Mustafa xanın yanına elçi göndərdi və Mir Mustafa xana çatdırıldı ki, Rusiya təbəəliyindən imtina edərsə şah qoşunları tərəfindən xanlıqdan qoparılmış ərazilər geri qaytarıla bilər. Bu təklif ilk baxışdan Mir Mustafa xan üçün cəlbedici göründü. Ona görə də Mir Mustafa xan oğlunun A.Tormosovun yanına göndərilməsini təxirə saldı və şah tərəfindən verilmiş təklifin araşdırılmasına başladı. Sonradan bəlli oldu ki, bu təklifin icrasından əvvəl Mir Mustafa xan öz qızını Qacar sarayına girov verməlidir. Mir Mustafa xan bu şərtə razı olmadı və ona görə şah təklifini rədd etdi. Onun qərarının şah sarayını qəzəbləndirəcəyindən ehtiyatlanan Mir Mustafa xan Sara adasında müdafiə tədbirlərini gücləndirməyə başladı. Lənkəran xanı adada ərzaq ehtiyatını artırdı ki, təhlükə yaranarsa köçüb orada yaşasın (164).

General A.Tormosov Qacar qoşunlarının ehtimal edilən hücumunun baş verəcəyi təqdirdə Mir Mustafa xanın ailəsi ilə birlikdə xanlıq ərazisini tərk etmək məcburiyyətində qalacağını istisna etmirdi. Ona görə də o, kapitan-leytenant Çelyevə tapşırdı ki, belə vəziyyət yaranmalı olsa, Lənkəran xanını ailəsi və yaxınları ilə birlikdə xanlıq ərazisindən çıxarılmasına kömək etsin. Xanlıqda yaşanan təşviş və narahatçılıq əhalini isə müstəqil şəkildə yollar aramağa vadar edirdi. Rus mənbələrinə görə, Qacar qoşunlarının növbəti yürüş zamanı törədə biləcəyi talan və qırğınların qarşısının alınması üçün Lənkəran xanlığının əhalisi toplanaraq Qacar sarayına öz nümayəndələrini göndərdilər. Həmin nümayəndələr şah sarayına çatdırdılar ki, Mir Mustafa xanın yaxın qohumu olan Əmirqulu bəyi girov kimi qacarların ixtiyarına verməyə hazırdırlar. Əvəzində isə xahiş olundu ki, Qacar qoşunlarının xanlıq üzərinə hücumu təxirə salınsın. Görünür, əhali tərəfindən belə bir tələb xan qarşısında da qoyulmuşdu. Çünki xan belə bir təklifi qəbul etməli olmuşdu. Mövcud məlumatlara görə, xana çatdırılmışdı ki, əhalinin tələbləri qəbul olunmayacağı təqdirdə Qızılağaç bölgəsi xana tabelikdən çıxacaq və bölgə xanlıqdan ayrılacaqdır. Bununla bağlı, bölgə əhalisinin qiyam qaldırmaq ehtimalı da istisna olunmurdu. 1810-cu il mart ayının 28-də Mir Mustafa xan leytenant Neklyudovla görüşündə qohumu Əmirqulu bəyi Qacar sarayına girov göndərməli olduğunu çatdırdı. Leytenant Neklyudov Lənkəran xanını Qacar sarayı ilə yaxınlaşmaqdan və qohumunu da şah sarayına girov göndərmək fikrindən uzaqlaşdırmağa

çalışdı. Başqa çıxış yolunun qalmadığını bildirən xan yaxşı halda Əmirqulu bəyin göndərilməsini 10 gün yubada biləcəyini dedi. Leytenant Neklyudovun təkidləri qarşısında Mir Mustafa xan Rusiyadan heç də üz döndərmədiyini və Rusiya tərəfindən hərbi kömək göstəriləcəyi halda şah sarayına girov verilmiş qohumu Əmirqulu bəydən imtina etməyə hazır olduğunu da bildirdi (165).

Rus zabitlərinin yazışmalarından aydın olur ki, Mir Mustafa xan qohumu Əmirqulu bəyi girov kimi qacarların sərəncamına göndərməli oldu (166). Lakin bu heç də Lənkəran xanlığı ətrafında yaşanan gərginliyi səngitmədi.

1810-cu ilin aprelində Əsgəranda A.Tormosovla Mirzə Bozorg arasında barışıq razılığının əldə edilməsi ətrafında danışıqlar başladı. Məlumdur ki, bu danışıqlar bir nəticə vermədi. Bununla belə, Lənkəran məsələsi danışıqların başlıca mövzularından birinə çevrildi. Müzakirələr zamanı tərəflərin hər biri Lənkəran xanlığının ona daha çox bağlılığını sübut etməyə və bununla da Lənkəran xanlığına daha çox haqqı olduğunu sübut etməyə çalışırdı. Bu məsələ ilə bağlı A.Tormosov şahzadə Abbas Mirzəyə məktub yazdı. Məktubda bildirilirdi ki, İranın daxili vəziyyətinin hələ qarışıq olduğu vaxtlarda Lənkəran xanı Mir Mustafa xan Rusiya imperiyasının himayəsini qəbul edib, amma müharibənin davam etməsi üzündən indiyə kimi bu xanlığın mənsubluğu haqqında heç bir qərar qəbul edilməyibdir. Tərəflər arasında ilkin olaraq razılaşdırılmışdı ki, həm Qacar sarayı tərəfindən, həm də Rusiya tərəfindən Lənkəran xanlığı ərazisinə qoşun yeridilməsin. Bununla belə A.Tormosov çalışırdı ki, Lənkəran xanlığının Rusiyanın himayəsi altında olması qəbul olunsun və bu, Abbas Mirzə tərəfindən də tanınsın (167).

Abbas Mirzə general A.Tormosovun Lənkəran xanlığı ilə bağlı yazdıqları ilə razılaşmadı. Onun yazdığına görə, mövcud olan sənədlər, yazışmalar və digər faktlar Lənkəran xanlığının Azərbaycan tərkibində olduğunu, qoşunlarının da Azərbaycan qoşunları ilə birlikdə vuruşduğunu özündə əks etdirirdi. Bildirilir ki, rus qoşunlarına qarşı Qarabağ, Şamaxı, İrəvan xanlıqlarında və digər yerlərdə aparılan müharibələrdə Talış xanlığının qoşunları Qacar qoşunlarının tərkibində vuruşmuş və böyük xidmətlər göstərmişdilər. Mir Mustafa xanın qardaşı Mir Bağır xan da Abbas Mirzənin göstərişi əsasında Salyana hücum etmişdi. Bütün bu faktları sadalayandan sonra Abbas Mirzə rus generalının Lənkəran xanlığı ilə bağlı iddiasına öz təəccübünü bildirirdi (168).

Əsgəran danışıqlarının getdiyi günlərdə Mir Mustafa xan öz elçisini bir də A.Tormosovun yanına göndərdi. Onların arasında aparılan yazışmalardan aydın olur ki, Mir Mustafa xan Rusiya himayəçiliyi

altında qalmağa meylli idi və çox güman ki, məktubunda da Əsgəran danışıqlarında Lənkəran xanlığı ilə bağlı məsələnin belə həllinə tərəfdar olduğunu bildirmişdi. General A.Tormosov Lənkəran xanının elçisini bir neçə günlüyə Əsgəranda saxladı ki, danışıqların nəticələrindən onun da xəbəri olsun. Danışıqlarda isə razlaşma əldə edilmədi. Bununla belə A.Tormosov Lənkəran xanlığının Rusiya himayəsi altında qalmaqda olduğunu və Abbas Mirzənin bu xanlığa irəli sürdüyü iddiaları qəbul etmədiyini bildirdi. General A.Tormosov onu da bildirdi ki, Lənkəran xanlığının dənizdən müdafiə olunması davam etdiriləcək və fürsət yaranan kimi xanlıq ərazisinə piyada qoşun bölmələri də göndəriləcəkdir (169).

1810-cu ilin yay döyüş mövsümünün başlanması ərəfəsində Qacar sarayı Lənkəran xanlığının məsələsinin dinc yolla həlli və bu xanlığın şah hakimiyyəti altına gətirilməsi üçün yeni bir cəhd etdi. Keçmiş Ərdəbil xanı Nəzərəli xanın anası Fətəli şah tərəfindən Mir Mustafa xanın yanına göndərildi, Lənkəran xanının qızlarının Fətəli şaha və onun oğlanlarında birinə verilməsi məsələsi qaldırıldı. Qızlarının şah ailəsinə nikah etdiriləcəyi təqdirdə Lənkəran xanına əvvəlcə itirdiyi ərazilərin geri qaytarılması, Lənkərana xüsusi diqqət göstərilməsi və s. vəd olundu. Əks təqdirdə, Lənkəran xanlığı yenidən Qacar qoşunlarının talançı yürüşləri ilə qarşılaşmalı idi. Yenidən Qacar təhlükəsi ilə üzbəüz qalan Mir Mustafa xan rus hərbi gəmilərinin rəhbəri leytenant Neklyudovu yanına çağırdı və qarşılaşdığı vəziyyət haqqında ona məlumat verdi. Leytenant Neklyudov məsləhət bildi ki, şah elçisini Sara adasına yenicə gəlmiş "Arianda" korveti ilə qorxutsun və Qacar sarayına da xəbər çatdırsın ki, onun müdafiəsi üçün Lənkərana yeni rus gəmiləri gəlmişdir. Xan belə də etdi. Amma eyni zamanda kömək göstərilməsi üçün o öz elçisini general A.Tormosovun və Bakı komendantı general Repinin yanına göndərdi (170).

Bununla belə, Mir Mustafa xanın rus qoşunlarından yetərincə kömək alacağına ümidi yox idi. Ona görə o, Qacar sarayı ilə ciddi qarşıdurmaya getməkdən də çəkindi və rus qoşunları komandanlığı ilə yazışmalarını da gizli aparmağa çalışdı. Mir Mustafa xanın gümanları doğru çıxdı və kömək göstərilməsi haqqındakı xahişinə general A.Tormosov yenə də müsbət cavab vermədi. Əslində A.Tormosovun Lənkəran xanlığına piyada qüvvələri göndərmək imkanı yox idi. A.Tormosov eyni zamanda Lənkəran xanının Qacar sarayının tələbləri qarşısında güzəştə getməsini də istəmirdi. O istəyirdi ki, Lənkəran xanı öz gücü ilə xanlığı qorusun və bundan sonra da Rusiyaya sədaqət nümayiş etdirsin.

Yeni döyüş mövsümünün başlaması ilə Qacar qoşunlarının Arazın şimalına kütləvi yürüş edəcəyi artıq gizli deyildi. İngilis sarayı tərəfindən də təhrik olunan Qacar sarayı Əsgəran danışıqlarında əldə edə bilmədiklərini silah gücünə əldə etmək üçün ciddi hazırlıqlar aparırdı. Qacar qoşunlarının yeni hücumlarının qarşısının alınması üçün rus hərbi qüvvələri əsasən Qarabağ və İrəvan xanlığı istiqamətlərinə səfərbər olundu. Lənkəran xanlığına isə piyada rus qüvvələrinin göndərilməsi yenə də müvafiq imkanın yaranacağı ana qədər təxirə salındı. Yalnız o vəd edildi ki, rus hərbi gəmiləri dənizdən xanlığın müdafiəsinə kömək göstərməyini davam etdirəcəkdir. (171).

Görünür, belə bir cavabın Mir Mustafa xanı qane etməyəcəyini anlayan general A.Tormosov nəhayət ki, sonradan az sayda olsa da piyadaların Lənkəran xanlığına göndərilməsini qərara aldı. Mir Mustafa xanın məktubunu alandan sonra o, Bakı komendantı general Repinə Lənkəran sahilinə əlavə hərbi gəmilərin, həmçinin həmin gəmilərdə bir miqdar piyadanın göndərilməsi haqqında tapşırıq verdi. Rus zabitlərinin yazışmalarında aydın olur ki, Sara adasına 80 nəfərlik piyada qrupunun göndərilməsi planlaşdırılırmış. General Repin yenə də Dağıstanda vəziyyətin heç də rusların xeyrinə olmadığını əsas tutaraq bu qədər adamın Lənkəran xanlığı üçün ayrılmasını mümkün saymadı. Belə olanda kapitan-leytenant Çelyev Lənkəran ətrafında olan gəmilərdən heç olmasa 50 nəfəri toplayıb sahilə çıxara biləcəyini vəd etdi. Kapitan Çelyev şübhə etmirdi ki, bu kömək də edilməsə Mir Mustafa xan birdəfəlik ümidsizliyə qapılaraq ruslardan üz döndərəcəkdir (172).

Məlumdur ki, 1810-cu ilin yay döyüş mövsümü də Qacar sarayına ümidində olduğu nəticələri gətirmədi. Abbas Mirzənin qoşun dəstələri heç bir istiqamətdə hərbi təşəbbüsü ələ ala bilmədən geri çəkilməli oldu. Bununla Arazın şimalında və eyni zamanda Lənkəran xanlığı ərazisində nisbi bir sakitlik bərqərar oldu. Bu nisbi sakitlik daha çox mövsümlə bağlı idi və Mir Mustafa xan Qacar qoşunlarının hücumuna məruz qalmayacağına heç də əmin deyildi. Görünür elə buna görə idi ki, 1810-cu ilin aprelində general A.Tormosov bir daha Lənkəran xanlığına piyada bölməsinin göndərilməsi haqqında qərar verdi. O yenidən Bakı komendantı Repinə tapşırdı ki, Lənkəran sahillərinə bir neçə hərbi gəmi və həmin gəmilər vasitəsilə piyada bölüyü göndərsin. Maraqlıdır ki, bu dəfə də general Repin general A.Tormosovun tapşırığını yerinə yetirmədi və Lənkəran xanlığına piyada bölüyü göndərməkdən imtina etdi. General Repin Lənkəran sahillərinə I dərəcəli kapitan Veselaqanın rəhbərliyi altında göndərilən eskadranın dəniz taborunun 195 nəfərlik şəxsi heyəti ilə kifayətlənməyi qaneedici saydı. Mir Mustafa xan isə bu qərarla razı

deyildi və aradan qalxmayan Qacar təhlükəsindən müdafiə olunmaq üçün yeni piyada bölmələrinin göndərilməsini xahiş etdi (173). Bununla belə, 1810-cu ildə Lənkəran xanlığına rus piyada qoşun dəstəsi çıxarılmadı.

General A.Tormosovun yazışmalarından aydın olur ki, 1810-cu ilin sonlarında Abbas Mirzənin vəziri Mirzə Həsən özü Lənkəran xanlığına gələrək Mir Mustafa xanla görüşdü. Bununla Abbas Mirzə növbəti dəfə Lənkəran xanını dinc yolla Qacar himayəsi altına gətirməyə cəhd göstərdi. Hava şəraiti üzündən Lənkəran xanlığına qoşun çıxarılması mümkün olmasa da Abbas Mirzə Mir Mustafa xanın Rusiyanın nəzarəti altında qalması ilə barışmırdı. Onun vəzirinin Mir Mustafa xanla görüşü zamanı irəli sürdüyü tələblərdən biri məhz Lənkəran xanlığının Rusiyaya bağlılığına son qoyulması idi. Bundan əlavə Lənkəran xanlığının Qacar hakimiyyətinə bağlılığının daha da möhkəmləndirilməsi üçün Mir Mustafa xandan tələb edildi ki, qızının şah oğluna nikah edilməsinə razı olsun. Rusiya qoşunları tərəfindən mühafizəsi etibarlı şəkildə təmin olunmadığı üçün Mir Mustafa xan şahzadənin elçisini yumşaq qarşıladı və çalışdı ki, irəli sürülən tələblərə verdiyi cavabı ilə ciddi qarşıdurmaya səbəb olmasın. Mirzə Həsən xanın elçiliyinin üzvlərindən biri ingilis elçiliyinin təmsilçisi idi və o, paltarını dəyişsə də, onu tanımaq mümkün olmuşdu. İngilis elçiliyi tərəfindən də Lənkəran xanlığına xüsusi diqqət yetirilməsi Mir Mustafa xanı daha ehtiyatlı olmağa sövq etdi. Rusiya ilə münasibətləri kəsmək istəmədiyi üçün Mir Mustafa xan rus qoşunları ilə mövcud əlaqələrin Qacar sarayı üçün təhlükə təşkil etmədiyini əsaslandırmağa çalışdı. Lənkəran xanı bildirdi ki, dəniz kənarında yerləşdikləri üçün Rusiya ilə ticarət əlaqələrinin itirilməsinin kimsəyə faydası olmayacaqdır. Ona görə Mir Mustafa xan şah elçisinə bu əlaqələrin saxlanmasına təkid etdi. Qızlarının şah oğlanlarına ərə verilməsi tələbi qarşısında da Mir Mustafa xan öz mövqeyini ortaya qoydu. Bildirdi ki, böyük qızı hazırda həbsdə olan keçmiş Ərdəbil xanı Nəzərəli xanın nikahındadır. Digər qızlarının isə kiçik olması şah elçilərinin diqqətinə çatdırıldı. Bununla belə, Mir Mustafa xan bəyan etdi ki, əgər Nəzərəli xan azad edilərək Ərdəbil xanlığına gətirilsə onda gələcəkdə ortancıl qızını kəbin yaşı çatanda şahın oğluna, nəvəsini isə Abbas Mirzənin oğluna verməyə hazırdır. Mirzə Həsən xan deyilənlərlə razılaşdı və bir nümayəndəsini Mir Mustafa xanın yanında saxlamaqla özü geri qayıtdı. Mirzə Həsən xan elçiliyinin Lənkəranda qalan nümayəndəsi Lənkəran xanlığını tərk etmiş əhalisinin geri qaytarılması ilə məşğul olmalı idi. Sonra da məlum oldu ki, həmin nümayəndə bu işlərlə heç də məşğul olmadı (174).

Mövcud olan məlumatlardan aydın olur ki, 1810-cu ilin sonlarında Mir Mustafa xan general A.Tormosova Lənkəran xanlığının dəniz sahillərində qala tikməyi və rus qoşunlarını da orada yerləşdirməyi təklif etdi. Bu təklif general A.Tormosov tərəfindən razılıqla qarşılandı və dərhal da onun tərəfindən Sara adasında olan mühəndis-poruçik Semyonova tapşırıq verildi ki, Lənkəran sahillərində qala tikilməsi imkanını araşdırsın, qalanın yerini müəyyənləşdirsin və onun planını hazırlasın. A.Tormosova görə, Araz çayının cənubunda möhkəm bir qalanı tikməklə güclü mövqe əldə edilmiş olardı. Onun fikrincə, bu qaladan Qacar qoşunlarına güclü zərbə endirmək mümkün idi və belə güclü zərbə ilə qarşılaşan Qacar qoşunları məcburiyyət qarşısında qalaraq ruslarla barışıq axtarmağa məcbur olacaqdılar. Poruçik Semyonov tərəfindən qısa zaman ərzində qalanın yeri və planı hazırlandı. General A.Tormosov həmin planı Rusiyanın hərbi nazirinə göndərdi və ondan xahiş etdi ki, bu plan təsdiq üçün Rusiya imperatoruna təqdim edilsin. A.Tormosov Rusiya hərbi nazirinin nəzərinə onu da çatdırırdı ki, Lənkəran qalası tikiləcəyi halda onun daxilində ən azı iki piyada taboru yerləşdirmək olardı. Bu taborun biri daimi olaraq qalada yerləşməli idi, digəri isə xanlıq ərazisində yaranan təhlükənin aradan qaldırılmasında istifadə olunmalı idi. General A.Tormosov əmin idi ki, belə bir qalanın Lənkəranda tikiləcəyi halda Lənkəran xanlığının Rusiyaya bağlılığı da həll edilmiş olacaq (175).

Rusiyanın hərbi nazirinə göndərilən məktuba Talış vilayətinin və Lənkəran şəhərinin təsviri haqqında, habelə layihələndirilən qala haqqında məlumatlar da əlavə edildi. Layihələndiriləcək qala haqqındakı məlumatda qalanın tikiləcəyi yerin üstünlüyü və xüsusiyyətlərinin təsviri, qala daxilində qoşun dəstəsinin yerləşdirilməsi üçün planlaşdırılan tikililər haqqında fikirlər öz əksini tapmışdı.

Lənkəran xanlığı ərazisində qala tikilməsi məsələsi Rusiyanın hərbi naziri tərəfindən imperatora məruzə edildi. Lakin Rusiya imperatoru belə bir qalanın tikilməsinə ehtiyac görmədi. Rusiya imperatoruna görə, Lənkəran xanlığı Rusiya üçün çox uzaq idi və onun tikintisinə çoxlu maliyyə vəsaitinin xərclənməsi sərfəli hesab edilmirdi. Eyni zamanda o da bildirilirdi ki, qala tikilsə belə bu qalaya xanın tələb etdiyi sayda rus qoşunlarının göndərilməsi mümkün olmayacaqdı (176).

Maraqlı burasıdır ki, Lənkəran xanlığı ərazisinə rus qoşunlarının göndərilməsi barəsində Mir Mustafa xanın xahişinə Rusiya sarayından da mənfi cavab gəldi. Bütünlükdə isə A.Tormosovun Qafqaz hakimi olduğu müddətdə Lənkəran xanlığına rus qoşunlarının çıxarılması və buna icazə alınması mümkün olmadı. Bununla Mir Mustafa xan öz müstəqilliyini

qoruyub saxlamaq üçün Rusiya tərəfindən etibarlı zəmanət almadı. Dənizdə mövcud olan hərbi gəmilər isə xanlığın qorunması üçün kifayət deyildi. Rusiya ilə münasibətlərin birdəfəlik kəsilməsi və Qacar sarayının tələblərinin qəbul edilməsi də Mir Mustafa xan üçün qəbuledilməz idi. Mir Mustafa xan Qacar sarayı tərəfindən onun hakimiyyətinin irsiliyini qəbul edəcəyi şübhə altında idi. Ona görə Mir Mustafa xan Qacar sarayı ilə ehtiyatlı münasibətdə olmağı davam etdirməli oldu.

4. Quba xanlığı ərazisində Rusiya işğalına qarşı üsyanların davamı

General A.Tormosovun bölgəyə gəlişi Quba xanlığı ərazisində rus işğalına qarşı xalq müqavimət hərəkatıının kifayət qədər yüksək olduğu bir dövrə təsadüf edir. 1809-cu ilin əvvəllərində Şeyxəli xanın rəhbərliyi altında xanlıq ərazisində rus işğalına qarşı davam etdirilən üsyan yatırılsa da onun təkrarlanması imkanı rus generallarını və zabitlərini hər an təşviş içərisində saxlayırdı. Rus qoşunları komandanlığı yeni bir üsyanın başlanmasına yol verməmək üçün bir tərəfdən Dağıstan hakimlərini Rusiya ətrafında səfərbər etməyə çalışırdı, bir tərəfdən də bu üsyanın hərəkətverici qüvvəsi olan Şeyxəli xanın zərərsizləşdirilməsi üçün yolları arayırdı. Rus generallarının davamlı cəhdlərinə baxmayaraq, Dağıstan hakimlərinin ram edilməsi və Rusiya tabeliyinə gətirilməsi üçün görülən işlər lazımi nəticəni vermirdi. Baxmayaraq ki, Qazıqumıq hakimi Surxay xanın qohumu Aslan bəy dəstəsi ilə Şeyxəli xanın üsyanının yatırılmasında iştirak etdi, bununla belə Surxay xan bölgədə Rusiyaya qarşı müxalifətçiliyin əsas simalarından bir olaraq qalmaqda idi. Rus generallarının təzyiq və hədələrinə baxmayaraq, digər Dağıstan hakimləri də Şeyxəli xanın müdafiə olunması üçün öz səylərini əsirgəmirdilər. Surxay xan hətta qardaşı oğlu Aslan xanın Şeyxəli xana qarşı silah qaldırmasından qəzəblənərək onun qohumlarını həbsə aldı və əmlaklarını da müsadirə etdi. Aslan bəyin özünün cəzadan nicat tapması üçün isə o, general A.Tormosov tərəfindən Tiflisə çağırıldı. Sonra da general Tormosov Surxay xana hədələyici məktub göndərdi ki, Aslan bəyin həbs olunmuş qohumlarını azad etsin və onların əmlakını geri qaytarsın (177).

Rus generalları etiraf edirdilər ki, Dağıstan vilayətlərinin əhalisi arasında Şeyxəli xana rəğbətlə yanaşanlar az deyildi. Başqa sözlə, burada Rusiya işğalına qarşı barışmazlıq qalmaqda davam edirdi. Hətta muzd qarşılığında Şeyxəli xana qarşı silahlı dəstələrin toplanmasını mümkün hesab edənlər də sonradan bunun heç də asan olmayacağı ilə qarşılaşdılar (178).

Şeyxəli xan özü isə Quba xanlığı ərazisində başladığı üsyanın yatırılmasından sonra Tabasarana çəkilərək Ersi kəndində yaşayırdı. Bu kənd Dərbənddən 20 kilometr, rus qoşunlarından isə cəmi 30 verst aralı idi. Şeyxəli xan qorxub-çəkinmədən rus qoşunlarına bu qədər yaxın bir məsafədə yaşayırdı. Ona görə rus generalları təşviş içərisində idilər ki, ilk fürsət yaranan kimi Şeyxəli xan yenidən ruslar üzərinə hücuma keçə bilər. Buna yol verməmək üçün əvvəlcə Tabasaran hakiminə məktub göndərildi, ondan Şeyxəli xanın tutulub təhvil verilməsi tələb olundu. Sonra Dərbənd qalasının komendantına Şeyxəli xanın ələ keçirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsi tapşırıldı. Belə bir tapşırıq Dərbənd nayibinə də verildi. Dərbənd nayibi də öz imkanlarından istifadə etməklə Şeyxəli xanın ələ keçirilməsinə və ya zərərsizləşdirilməsinə çalışmalı idi. Şeyxəli xanı zərərsizləşdirəcək şəxsə 500 çervon mükafat da təyin edildi (179).

Şeyxəli xan isə bu hədələrdən və ona qarşı qurulan planlardan nəinki çəkinmədi, əksinə öz fəallığını yenidən nümayiş etdirdi. 1809-cu il aprel ayının sonlarında Şeyxəli xanın dəstəsi ilə Dərbənd ətrafında olması haqqında məlumat alındı. Şeyxəli xanın Dərbənd ətrafından uzaqlaşdırılması üçün Dərbənd qalasının hakimi kapitan Loqvinenkonun rəhbərliyi altında bir topu olan bölük hazırladı. Şeyxəli xan və onun atlıları isə rus qoşun dəstəsinin gəlib çatmasından əvvəl Dərbənd ətrafında mövcud olan rus mühafizə dəstələrinə hücum etdilər, mühafizə postlarında dayanan bir kazakı öldürməklə digərlərini də yaraladılar. Həmin postlarda dayanan rus silahlılarının sayı 130 nəfərdən artıq idi. Onlar əvvəldən hazırlanmış müdafiə mövqelərində yerləşsələr də Şeyxəli xanın dəstəsinin hücumunun qarşısını saxlaya bilmədilər. Yalnız kapitan Loqvinenkonun topla müşayiət olunan dəstəsinin gəlişi Şeyxəli xanı və onun atlılarını geri çəkilməyə məcbur etdi (180). Çünki bu dəstənin ixtiyarında olan topun atəşləri qarşısında müdafiə olunmaq çox ağır idi.

Şeyxəli xanın və onun dəstəsinin yorulmaq bilməyən fəallığı qarşısında çox çətinliklə dayanan ruslar Dərbəndin rus qarnizonunun sayının artırılması barəsində məsələ qaldırdılar. Konkret tarixi şəraitdə bunun mümkün olmayacağını bilən rus generalları vəziyyətdən çıxmaq üçün yerli əhali arasında iş aparmağı, Şeyxəli xanı yerli əhali arasında dayaqdan məhrum etməyi məqsədəuyğun sayırdılar (181).

Rus qoşunları baş komandanı Şeyxəli xanın fəallaşmasının qarşısını almaq üçün Dağıstanın bir neçə hakiminə məktub göndərdi və onlardan da Şeyxəli xanın tutulması tələb olundu. Mövcud məlumatlar göstərir ki, Qaraqaytaq və Tabasaran hakimləri rus generalının bu tələblərinə məhəl qoymadılar. Tərki şamxalı Mehdi şamxal isə bir müddətdən sonra

general Tormosovun nəzərinə çatdırdı ki, dağıstanlıların Şeyxəli xanın dəstəsinə qoşulmasının qarşısını almaq mümkün deyil. Öz cavabı ilə Tərki şamxalı dolayısı yolla rus işğalına qarşı olan narazılığını da ifadə etdi. O bildirdi ki, Dərbənd xanlığının idarəçiliyinə haqqı olsa da, Dərbənd, Quba və Bakı general Repin tərəfindən idarə olunur. Onun sözü isə Dərbənd ətrafında qəbul olunmur və ona görə də rusların xeyrinə hər hansı bir iş də görə bilmir. Mehdi şamxal bəyan etdi ki, əgər Dərbənd və Quba birmənalı şəkildə onun idarəçiliyi altına verilərsə, onda Göysu çayından Qubaya qədər olan yolun təhlükəsizliyini təmin edər və xanlıq ərazisində sakitlik yaranar (182).

General A.Tormosov Tərki şamxalının təklifi ilə razılaşmadı və Dərbənd-Quba xanlıqlarının ona tapşırılmasından ehtiyat etdi. Baş komandan Dərbənd və Quba xanlıqları ərazisində rus işğalının qorunub möhkəmləndirilməsinin başlıca yolunu Şeyxəli xanın tapılıb zərərsizləşdirilməsində gördü. Onun fikrincə, mövcud şəraitdə Şeyxəli xanın zərərsizləşdirilməsinin üç yolu mövcud idi: 1) Dağıstan hakimlərini Rusiyaya tərəf daha çox meylləndirmək və onların vasitəsilə Şeyxəli xanı ələ keçirmək. Baş komandan Şeyxəli xanın tutulub rusların əlinə verilməsində əməkdaşlıq edəcək yerli hakim üçün 1500 çervon mükafat müəyyənləşdirdi. Amma A.Tormosov bu məsələyə kifayət qədər ehtiyatla yanaşılmasını tövsiyə edirdi. Onun fikrincə, Dağıstan hakimləri bu pulu əvvəldən alsalar onu xərcləyər və Şeyxəli xanın tutulması üçün də bir iş görməzdilər; 2) ikinci yol Şeyxəli xana sui-qəsd edilməsi idi. Baş komandan tövsiyə edirdi ki, bu işi görə biləcək adam tapılsın və Şeyxəli xanın öldürülməsi əvəzində ona 700 çervon mükafat vəd olunsun; 3) general A.Tormosov əvvəlki iki təklifinin reallığını inanmırdı və ona görə də çıxış yollarından biri kimi təklif edirdi ki, Şeyxəli xanla dil tapılsın, geri qaytarılsın və Quba xanı elan edilsin. Bundan sonra onun Rusiya təbəəliyini qəbul etməsi barəsində traktat imzalansın. Şeyxəli xan Rusiyadan qayğı görəcəyinə inandırılsın və sonra da ondan Rusiyaya sədaqət tələb olunsun. Bunun üçün isə Şeyxəli xan ya Tiflisə gəlməli və A.Tormosovun qarşısında Rusiyaya sədaqət andı qəbul etməli idi, ya da bu andı Bakı şəhərində general-leytenant Repinin şahidliyi ilə qəbul etməli idi. Görünür, A.Tormosov bu təkliflərin heç birinin həyata keçə biləcəyinə inanmırdı və ona görə tələb edirdi ki, onun bu təklifləri digərləri üçün açıqlanmasın (183).

Şeyxəli xanın eyni zamanda dəniz istiqamətindən nəzarət altında saxlanması qərara alındı. Əldə olunan məlumatlara görə, Abbas Mirzə dəniz vasitəsilə Şeyxəli xanla əlaqə saxlamaq, ona pul və digər zəruri əşyalar göndərmək istəyirdi. Bunun qarşısını almaq üçün general

A.Tormosov kapitan Çelyevə müvafiq tapşırıq verdi və o da "Volqa" gəmisini Dərbəndlə Bakı arasında müşahidə aparmağa yolladı. Bununla bərabər, Dərbənd və Quba şəhərlərinə nəzarət gücləndirildi ki, Şeyxəli xanın Qacar sərkərdələri ilə təmaslarını vaxtında müəyyənləşdirmək mümkün olsun. Bununla kifayətlənməyən rus generalları Şeyxəli xana pusqu qurulmasına da qərar verdilər. Bu iş isə Quba atlı dəstəsinin rəhbəri Xanbutay bəyə tapşırıldı. Xanbutay bəy öz fəaliyyəti ilə Rusiyaya sədaqətli olması barədə rus generallarının etimadını qazanmışdı. Digər tərəfdən onun Şeyxəli xanla da təmasları var idi. Ruslar Xanbutay bəyi şirin vədlərlə yoldan çıxararaq onu Şeyxəli xana qarşı qəsddə iştirak etməyə sövq etdilər. Xanbutay bəy vəd etdi ki, Şeyxəli xanla meşəlik ərazidə görüş təyin etsin və görüş yeri ətrafında gizlicə dəstələr yerləşdirsin. Şeyxəli xan görüş yerinə gələndə mühasirəyə alınsın və bununla da onun işi bitirilsin. Görəcəyi bu işin əvəzində Xanbutay bəyə rus ordusunun mayoru rütbəsi, ona və dəstə üzvlərinə maliyyə mükafatları vəd edildi (184).

Amma Şeyxəli xanın zərərsizləşdirilməsi ilə bağlı bütün bu planlar bir nəticə vermədi və nəinki Şeyxəli xanı zərərsizləşdirmək, heç onun rus işğalına qarşı fəallaşmasının da qarşısını almaq mümkün olmadı. 1809-cu il may ayının 17-də Şeyxəli xan ətrafındakı dəstə ilə Dərbənd ətrafında dayanmış mühafizə postuna hücum etdi. Şeyxəli xanın dəstəsinin 700 nəfərdən ibarət olduğu bildirilirdi. Rəqəmin doğruluğu qəbul edilərsə, onda Şeyxəli xanla həmfikir olanların sayının kifayət qədər olduğunu görmək mümkündür. Şeyxəli xan dəstəsi ilə Dərbənd ətrafındakı mühafizə dəstəsinə güclü zərbə vurandan sonra yenidən geri çəkildi və Dərbəndin 35 verstliyində olan Marağa kəndində yerləşdi. Rusların fikrincə, burada Şeyxəli xan dəstəsini gücləndirdikdən sonra yenidən Dərbənd üzərinə hücum edə bilərdi. Ona görə qərara alındı ki, Şeyxəli xan dayandığı yerdən sıxışdırılsın. Bu işin həyata keçirilməsi Qubada dayanan Sevastopol muşketyor alayının mayoru Ryabininə tapşırıldı. Mayor Ryabinin bir bölük və bir ədəd topla adı çəkilən məntəqəyə yollanmalı idi. Onun dəstəsinə kazaklar və Quba atlıları da verilməli idi. Bakı qalasının komendantı mayor Ryabininin dəstəsinə kömək verilməsini Dərbənd komendantı polkovnik Adrianoya da tapşırdı. Polkovnik Adriano mayor Ryabininlə əlaqə saxlamalı və onunla birləşmək üçün Dərbənddən bir dəstə hazırlayıb yola salmalı idi. Bununla da Şeyxəli xanın dayandığı kəndin müxtəlif istiqamətlərdən hücum altına alınması təmin edilməli idi. Rus qoşun dəstəsi Şeyxəli xanı tutmalı idi. Əgər bu məqsədə nail olunmasaydı, onda Şeyxəli xan heç olmasa həmin

kənddən uzaqlaşdırılmalı idi. Bununla eyni zamanda yerli əhali də qorxudulmalı idi ki, bir də Şeyxəli xana dəstək olmasın (185).

Rus generalları Şeyxəli xanın ələ keçirilməsi üçün təşkil etdikləri dəstənin gözlənilən nəticədən daha çox, ziyan gətirə biləcəyini də istisna etmirdilər, Rus silahlılarının Quba əhalisinə zorakılıq göstərmələri əhali arasında ruslara qarşı barışmaz mövqeni daha da gücləndirmiş olardı. Ona görə, general Repin təkidlə tapşırırdı ki, rus dəstəsi rus təbəələrini qorumağa gedir və bu dəstə üzvləri heç kimi incitməli deyildirlər. General A.Tormosov isə belə bir dəstənin təşkilini ümidlə qarşıladı və tapşırıq verdi ki, Şeyxəli xanın ələ keçirilməsi üçün bu dəstə bütün vasitələrdən istifadə etsin. Silah gücünə bunun mümkün olmayacağı təqdirdə A.Tormosov casuslardan istifadə olunmasını lazım bildi. Pul və mükafatlar qarşılığında casusluğa razı olmuş şəxslərdən istifadə edilməsi də Şeyxəli xanın zərərsizləşdirilməsi üçün atılan addımlardan biri hesab edilirdi. General A.Tormosov bir daha bəyan edirdi ki, Şeyxəli xanı ələ keçirməyincə Qubada və Dağıstanda ruslar üçün sakit həyat bərqərar olmayacaqdır (186).

Bağlanılan bütün ümidlərə baxmayaraq, mayor Ryabinin rəhbərliyi altında olan qoşun dəstəsi Şeyxəli xanın ələ keçirilməsinə nail ola bilmədi. Əvəzində, rus qoşun dəstəsi Marağa kəndində amansız zorakılıq və talanlar həyata keçirdi. Rus generalları da etiraf edirdilər ki, Marağa kəndində törədilən dağıntıları görəndən sonra daha heç bir kənd Şeyxəli xana sığınacaq verməzdi. Marağa kəndindən uzaqlaşmalı olan Şeyxəli xan əvvəllər olduğu kimi yenə də Tabasaranın Ersi kəndində məskən saldı və bununla bağlı məlumatlar rus generallarına da çatdı. Ona görə, general Repin Ersi kəndinə də rus qoşun dəstəsi göndərməyə hazırlaşırdı. Bu dəstəyə də ilk növbədə Şeyxəli xanı ələ keçirmək tapşırığı verilməli idi. Buna nail olunmadıqda isə Şeyxəli xan oradan sıxışdırılmalı və sonra da yerli əhali Şeyxəli xana sığınacaq verdiyinə görə elə cəzalandırılmalı idi ki, digər kəndlərin əhalisinə də dərs olsun (187).

Yuxarıda deyildiyi kimi, Lənkəran xanı Mir Mustafa xanın dəfələrlə müraciət etməsinə baxmayaraq, bu xanlığa piyada qoşun dəstəsi göndərilmədi. Xüsusilə, Bakı komendantı general-leytenant Repin təkidlə Lənkəran xanlığına qoşun dəstəsi göndərilməsinə qarşı çıxdı. Çünki Şeyxəli xanın Rusiya işğalına qarşı fəallığının artmasına görə general Repin Bakının və Qubanın müdafiəsini zəiflətməyə cürət etmirdi. General Repin Şeyxəli xanın zərərsizləşdirilməsi üçün Qubadan kənara piyada dəstələrinin göndərilməsinə də razı deyildi. Çünki onun fikrincə, Qubadakı qüvvələrin sayını azaltmaqla Qubada təhlükə daha da arta bilər. 1809-cu ilin iyulunda Qubada 3 bölük, Dərbənddə 4 bölük və

Bakıda da 4 bölük var idi. O hətta Bakıda dayanan bölüklərin birinin Lənkərana göndərilməsinə razı deyildi. O yazırdı ki, silah tutmağı öyrənmiş xalqa qarşı mövcud qüvvələr kifayət deyildir. Hətta Bakıdakı bölüklərin sayını azaltmaqla general Repin Şeyxəli xanın başlayacağı hücum qarşısında aciz qalacaqlarını bildirirdi. Başqa sözlə, o şübhə etmirdi ki, Quba və Dərbənddə olan qüvvələr Şeyxəli xanın hücumlarının qarşısını saxlaya bilməyəcək. Bakıdan isə yetərli sayda kömək göndərilməsi mümkün olmayacaqdı. General Repin etiraf etmək məcburiyyətində qalırdı ki, Quba əhalisinin əksəriyyəti Şeyxəli xana meyllilik göstərməkdədir. O əmin deyildi ki, sözdə Rusiya təbəəliyinə razı olan yerli hakimlər Şeyxəli xanın növbəti hücumunun başlanacağı təqdirdə Rusiya maraqlarını qoruyacaqlar. General Repin belə bir qənaətdə idi ki, yerli hakimlər açıq şəkildə Rusiyaya qarşı üsyanda iştirak etməsələr də gizlində bu üsyanın hərəkətverici qüvvəsi olan Şeyxəli xanın dəstəsinin möhkəmləndirilməsinə kömək göstərəcəklər. Qazıqumıq hakimi Surxay xanın Rusiya təbəəliyinə qəbul olunmaq haqqında traktatı imzalamaması isə general Repinin təşvişini daha da artırırdı. Ona göstərilən təzyiqlər nəticəsində Surxay xan müəyyən vaxt ötdükdən sonra traktatı imzalayacağını vəd etmişdi. Surxay xanın tam nəzarət altına alınması ilə Rusiya Şeyxəli xanı yerli dayaqlarının birindən məhrum etmək istəyirdi. Lakin Surxay xan da rusların boyunduruğu altına düşməyə tələsmirdi. Surxay xanın Şeyxəli xanla əlbir olmaq ehtimalı rusları daha ciddi hazırlıqlara malik olmağa sövq edirdi. Ona görə də 1809-cu ilin iyul ayında general-leytenant Repin rus qoşunları baş komandanlığı qarşısında Xəzəryanı ərazilərə daha 2 tabor hərbi qüvvənin göndərilməsi haqqında vəsatət qaldırdı. General Repin əmin deyildi ki, hətta bu qüvvələr onun ixtiyarına verilsə belə Şeyxəli xan da, Dağıstan hakimləri də daha rus işğalına qarşı üsyan qaldıra bilməzlər (188).

Surxay xanın Şeyxəli xanla birləşməsi ehtimalı heç də əbəs deyildi. Mövcud olan məlumatlara görə, 1809-cu ilin sentyabrında Şeyxəli xan Surxay xanla görüşdü. Onlar birlikdə rus işğalına qarşı mübarizə aparmağı və bunun üçün yeni dəstə toplamağı qərara aldılar. Bu dəstə toplanandan sonra Şeyxəli xan Surxay xanla birlikdə Quba üzərinə hücum etməli idi. Bu barədə məlumat alan kimi general-leytenant Repin mayor Ryabininə tapşırdı ki, 2 bölük və 2 ədəd topla Şeyxəli xanın hücumunun qarşısını almağa hazır olsun. Qubada toplanmış olan könüllü atlılar da mayor Ryabininə kömək göstərməli idi. Rus komandanlığı Şeyxəli xanın dəstəsinə Qubadan kənarda da zərbə endirilməsi yollarını arayırdı. Nəzərdə tutulmuşdu ki, Şeyxəli xanla Surxay xanın dəstələrinin yeri müəyyənləşdirilən kimi mayor Ryabinin dəstəsi ilə həmin məkana

doğru irəliləsin və Şeyxəli xanla Surxay xanın dəstəsi üzərinə hücum etsin. Sentyabr ayının ortalarında mayor Ryabinin Şeyxəli xanın Starjal adlı kənddə olması barəsində xəbər aldı. Sentyabr ayının 20-də o, 20 nəfərlik dəstə ilə Ziaxur adlanan kəndə yollandı və oradan Starjal kəndinin ağasını yanına gətizdirdi. Mayor Ryabinin nədənsə Starjal kəndi üzərinə hücum etməyə cəsarət etmədi. Yalnız kəndin ağasından tələb etdi ki, Şeyxəli xanı kənddən çıxarsın. Əks təqdirdə mayor Ryabinin kənd üzərinə hücum təşkil ediləcəyini və kənd əhalisinin də bu hücumdan çox ziyan görəcəyini söylədi. Starjal kəndinin ağası rus qoşunlarının zorakılıqlarından qorxaraq Şeyxəli xanın kənddən çıxması ilə razılaşdı (189).

Mayor Ryabinin eyni zamanda Surxay xana məktub göndərdi və Şeyxəli xanla iş birliyinə görə onu təhdid etdi. Surxay xan isə ona belə bir məlumat çatdırdı ki, o, Şeyxəli xanın işlərinə qarışmır və Rusiyaya da hər hansı bir ziyan yetirməyəcəkdir. General Repin güman edirdi ki, Surxay xan doğrudan da Şeyxəli xanla əlaqəsini kəsərsə, onda Şeyxəli xan Axtıda məskən tapa bilərdi. Ona görə planlaşdırılırdı ki, məsələni dəqiqləşdirsin və gələcəkdə Axtı üzərinə də qoşun dəstəsi göndərsin (190).

Surxay xanın Şeyxəli xandan uzaqlaşdırılmasına nail olmaq üçün general A.Tormosov Şəki xanı Cəfərqulu xana da məktub yazdı. Baş komandan Qazıqumıq hakiminin Rusiya təbəəliyini qəbul etməyə söz verdiyi halda Mehrəm kəndi yaxınlığında qoşun topladığını bildirdi. O, Cəfərqulu xanın vasitəsilə bu dəstənin nə üçün toplandığını öyrənmək istəyirdi. General A.Tormosov həmin dəstənin Qazıqumığın təhlükəsizliyinin təmin edilməsi üçün ola biləcəyini istisna etmirdi. Lakin bu ehtimalın doğruluğuna şübhə ilə yanaşırdı və bu dəstənin məhz Şeyxəli xanla birlikdə rus qoşunları üzərinə hücum üçün toplandığını güman edirdi. General A.Tormosov Şəki xanının vasitəsilə ümumiyyətlə Surxay xanın niyyətlərindən xəbər tutmaq istəyirdi ki, həmin niyyətlərin qarşısının alınması üçün vaxtında hazırlıq görsün. General A.Tormosov Şəki xanının köməyi ilə Surxay xanı öz tərəfinə çəkməyə də çalışırdı. Bunun üçün Surxay xanın şirnikləndirilməsi də mümkün sayılırdı. Onun fikrincə, Surxay xan Rusiya imperatorunun qayğı və mərhəmətini qazanmaq üçün yaranmış yaxşı fürsətdən bəhrələnə bilərdi. Bu mərhəməti qazanmaq üçün isə Surxay xan atlılarının seçilmiş bir dəstəsini Şeyxəli xanın yanına göndərməli, həmin dəstə də fürsət tapan kimi Şeyxəli xanı ya diri ələ keçirməli, ya da onu qətlə yetirməli idi. A.Tormosov onu da əlavə edirdi ki, Surxay xan keçmiş Quba xanının zərərsizləşdirilməsi üçün belə bir addım atardısa onun Rusiya qarşı-

sındakı xidməti özünün də gözləmədiyi bir şəkildə mükafatlandırıla bilərdi. General A.Tormosov Şəki xanından xahiş edirdi ki, məktubla Surxay xanla əlaqə yaratsın və Surxay xan üçün yaranmış fürsətin faydasınə onun nəzərinə çatdırsın (191).

Bu məkrli planın həyata keçib-keçməyəcəyindən asılı olmayaraq Surxay xanın Şeyxəli xanla rus işğalına qarşı oxşar mövqedə dayanması general A.Tormosovun da ciddi təşvişinə səbəb oldu. Çünki bu şəxslərin ittifaqının yerli əhali tərəfindən də dəstəklənəcəyi təqdirdə rus qoşunları gözlənilməz təhlükə ilə qarşılaşa bilərdi. Ona görə Quba qarnizonunun gücləndirilməsi haqqında general-leytenant Repin tərəfindən qaldırılan məsələ tam süvari generalı A.Tormosov tərəfindən də dəstəkləndi. Çünki Bakı-Quba-Dərbənd marşrutu Cənubi Qafqazdakı rus qoşunlarının əsas təchizat marşrutu idi. Qubanın itirilməsi ilə Cənubi Qafqazda rus işğalının möhkəmləndirilməsi də çətinləşə bilərdi. General A.Tormosov razı oldu ki, Sevastopol alayının 2 taboru Qubada yerləşdirilsin. Onun fikrincə, Bakı qalasını bir taborla da qorumaq mümkün idi. Çünki Bakı qalasının istehkam üstünlükləri buna imkan verirdi. Dərbənd qalasının mühafizəsi isə Gizlərdən gətirilmiş bölüyə tapşırılmalı idi. A.Tormosov tələb edirdi ki, onun göstərişi dərhal yerinə yetirilsin və Quba qarnizonuna rəhbərlik general-mayor Quryevə tapşırılsın (192).

Şeyxəli xanın rus işğalına qarşı mübarizəsinin qarşısını almaq isə ruslara müvəffəq olmadı. Yorulmaq və usanmaq bilməyən Şeyxəli xan Quba xanlığı əhalisinin də rus işğalına qarşı biganə qalmamağa səfərbər edə bilmişdi. 1809-cu ilin döyüş mövsümündə Qacar qoşunları Quba xanlığı istiqamətində irəliləyə bilməsələr də, bu xanlıq ərazisində ruslar üçün yaradılmış gərginlik Qarabağ-İrəvan-Gəncə ətrafındakı gərginlikdən heç də zəif deyildi. 1809-cu ilin sentyabr-oktyabr aylarında Dərbəndlə Quba arasında mövcud olan rus müdafiə postlarına Şeyxəli xanın atlılarının hücumları artdı. Vəziyyət rus hərbçiləri üçün böhranlı hala çatdırıldı. General-leytenant Repin bildirirdi ki, rus postları üzərinə hücumların qarşısını almağa çalışır. Lakin onu da əlavə edirdi ki, bu çoxsaylı xalqın qarşısını almaq mümkün deyildir. Bu xalqın qarşısını yalnız qorxu ilə, yəni çoxsaylı qoşun dəstəsi ilə saxlamaq mümkündür. General Repinə görə, Qubada olan hərbi dəstənin bu məntəqəni tərk etməsindən sonra ruslara qarşı hücumlar xüsusi ilə artıbdır. Onun yazdığına görə, yerli əhaliyə əvvəldən dərs verilməli idi, Şeyxəli xana sığınacaq vermiş kəndlər talan edilməli idi. Amma general Repin təəssüflə qeyd edirdi ki, xanlığın kəndlərinə qarşı zorakılıqların tətbiq edilməsi üçün onun kifayət qədər qüvvəsi yox idi. General Repin kiçik dəstələrin kəndlər üzərinə göndərilməsinə ehtiyat edirdi. Amma bu kiçik

dəstələrin möhkəmləndirilməsi üçün Quba qalasının mühafizəsini də zəiflətmək istəmirdi. Onun fikrincə, Quba qalası daxilindəki əhalidə də Rusiyaya bağlılıq lazım olan səviyyədə deyildi və ehtiyatın əldən verilməsi ilə bu əhali də qiyam qaldıra bilərdi. Ona görə general Repin bir daha onun tabeliyinə əlavə qüvvələrin verilməsi haqqında məsələ qaldırdı (193).

General Repinin bu xahişinə müsbət cavab verilmədi. General A.Tormosov Quba qarnizonunun gücləndirilməsi haqqında əvvəlki xahişə əməl olunmasından sonra yenidən əlavə qüvvələrin tapılmasını mümkün saymadı. O bildirdi ki, Dərbəndə artıq Gizlərdən bir tabor gətirilmişdir və bu tabor daimi olaraq orada qalmalı idi. Ona görə də Quba-Dərbənd istiqamətində qüvvələrin yetərli olduğu hesab edilirdi. Bundan əlavə general Quryevin rəhbərliyi altında Qubada 2 tabor yerləşdirilməsi haqqında göstəriş verilmişdi. A.Tormosov əlavə bir taborun da istənilməsini təəccüblə qarşılayırdı. Baş komandan əlavə taborun Şeyxəli xana sığınacaq vermiş kəndlərin talan edilməsi üçün istənilməsini də əsassız sayırdı. O bildirirdi ki, indiyə kimi Quba kəndlərinin soyulub viran edilməsi gözlənilən nəticəni verməmişdir (194).

Yerli əhalinin qorxudulması və təzyiq altında saxlanması ilə Şeyxəli xanın ələ keçirilməsinin qeyri-mümkünlüyünü general-mayor Quryev də etiraf edirdi. O bildirirdi ki, Qubada Şeyxəli xana qohum olan və onun fəaliyyətini dəstəkləyən insanların sayı xeyli çoxdur. Bəylərin və ağaların çoxunun da Şeyxəli xana rəğbətlə yanaşdığı qeyd olunurdu. Ona görə də Şeyxəli xana qarşı hər hansı bir tədbir planlaşdırılanda dərhal ona xəbər çatdırılırdı (195).

Rus generallarının yazışmalarından aydın olur ki, havaların soyumasına baxmayaraq 1809-cu ilin sonlarında Quba kəndlərində artıq rus işğalına qarşı güclənməkdə olan əhval-ruhiyyəni müşahidə etmək olardı. Bu əhval-ruhiyyənin genişləndirilməsinin qarşısının alınması üçün rus generalları Şeyxəli xana əməli kömək göstərən Qazıqumıq hakimi Surxay xanın da üzərinə qoşun dəstəsi göndərilməsini lazım bilirdilər. General Repin təklif edirdi ki, Surxay xanın üzərinə bir tabor qüvvə göndərilsin, Surxay xan hakim olduğu ərazilərdən qovulsun və onun yerinə Rusiyaya sədaqəti ilə tanınan qohumu Aslan bəy təyin edilsin. Güman edilirdi ki, bununla Quba xanlığında və bütün Dağıstanda rus işğalına qarşı hərəkatların dayaqlarından biri zərərsizləşdirilmiş olardı (196).

Amma 1809-cu ilin sonunda Surxay xanın üstünə hücum edilməsi haqqında məlumat mövcud deyil. Çox güman ki, soyuq hava şəraitində belə bir hücumun edilməsi məqsədəuyğun sayılmadı. Həmin hücum üçün

xeyli sayda qoşun lazım idi. Bütünlükdə, mövcud olan məlumatların araşdırılması göstərir ki, 1810-cu ilin birinci yarısı nisbi sakitliyi ilə xarakterizə olunur. Çox güman ki, bu sakitliyin olması bir tərəfdən Rusiya ilə Qacar sarayı arasında danışıqların aparılması ilə, digər tərəfdən də Qacar qoşunlarının 1810-cu ilin yayında planlaşdırılan hücumunun gözlənilməsi ilə bağlı idi.

Əsgəran danışıqlarında bir nəticə hasil olmayandan sonra rus qoşunları yenidən Qacar hücumları ilə üzbəüz qalmalı oldular. Belə bir zamanda Qubaya əlavə qoşun çıxarılmasına rus qoşunları komandanlığının başqa imkanları yox idi. Gözlənilirdi ki, Qacar qoşunlarının hücumlarının başlanması ilə Quba ərazisində də Şeyxəli xan xeyli fəallaşa bilərdi. Bu narahatçılığa son qoymaq üçün general A.Tormosov bu dəfə Şamaxı xanı Mustafa xanın köməyindən bəhrələnməyə çalışdı. O, Mustafa xandan xahiş etdi ki, Şeyxəli xanın yanına öz elçisini göndərsin, Şeyxəli xanı öz fəaliyyətindən əl çəkməyə çağırsın, onu A.Tormosovun yanına gələrək bağışlanmasını xahiş etməyə dəvət etsin. Mustafa xan general A.Tormosovun xahişini alandan sonra Quba xanlığı ərazisinə Baloğlan bəy adlı bir elçisini göndərdi. Bu elçi isə general A.Tormosovun istəklərinin tam əksinə olaraq hərəkət etməyə başladı. Baloğlan bəy Şeyxəli xanın tərəfdarlarından olan Bağır bəy və Əli bəylə Qubanın kəndlərini gəzərək Şeyxəli xanın yenidən Quba xanı təyin edildiyini çatdırır və yerli əhalini Şeyxəli xanı yeni Quba xanı kimi qarşılamağa çağırırdılar. Aparılan bu təbliğat çox tez bir zamanda əhali arasında əks-səda tapdı, bir sıra Quba bəyləri Şeyxəli xanın yanına yollanaraq onun dəstəsinə qoşuldular. Şeyxəli xan da dəstəsi ilə Quba xanlığı ərazisinə gəldi və bununla əhalidə rus işğalına qarşı əhval-ruhiyyənin güclənməsinə bir təkan verdi. Vəziyyətdən xəbər tutan general A.Tormosov Şamaxı xanlığındakı rus qoşun dəstəsinin rəhbəri podpolkovnik Tixonovski ilə əlaqə saxladı və ona Mustafa xanın bu məsələdə tutduğu mövqeni araşdırmağı tapşırdı. A.Tormosov Şamaxı xanından istədi ki, öz elçisini dərhal geri çağırsın və həbs etsin. Şeyxəli xanın tutulması və Quba əhalisi arasında üsyan əhval-ruhiyyəsinin yatırılması üçün lazımi işlər görülsün (197).

1810-cu il iyul ayının sonunda general A.Tormosov Bakı komendantı general Repindən də Quba əhalisi arasında müşahidə olunan çıxışların yatırılması üçün təcili tədbirlər görülməsini və bu çıxışın yatırılmasının təşkili üçün özünün də Qubaya yollanmasını tələb etdi. General Repin Quba əhalisi arasında izahat işi apararaq Şeyxəli xanın yenidən Qubaya gətirilməsi xəbərinin doğru olmadığını çatdırmalı və Şeyxəli xanın dəstəsinin dağıdılması üçün qətiyyətli addımlar atmalı idi. Onun fikrincə,

Şeyxəli xanın dəstəsinin əziləcəyi təqdirdə onun xan təyin edilməsi barədə şayiələrin doğru olmadığı əhaliyə bəlli olardı (198).

Bununla belə, Quba əhalisi arasında genişlənən həyəcanı yatırmaq mümkün olmadı. Əksinə, bu həyəcan rus işğalına qarşı kütləvi üsyana çevrildi. Rus zabitləri də öz yazışmalarında bildirirdilər ki, Quba əyaləti üsyan etmişdir, əhali Şeyxəli xanı Tabasarandan çağırmışdır, Quba ilə əlaqə kəsilmişdir. Çünki Qubaya aparan yollar üsyançıların nəzarəti altına keçmişdi. Rus zabitləri onu da bildirirdilər ki, həm Surxay xan, həm də Rusiya təbəəliyini qəbul etmiş Dağıstan hakimləri gizli şəkildə Şeyxəli xana kömək göstərirdilər. Şeyxəli xanın dəstəsində də Dağıstan əyalətlərindən çoxlu sayda könüllü var idi (199).

Rus tarixçiləri üsyanın başlanması ilə Quba əhalisinin iki yerə bölündüyünü yazırlar. Biri üsyana tərəfdar çıxanlar, digəri isə Rusiya təbəəliyinə sədaqətli qalaraq Quba qalasına sığınanlar (200). Əslində isə üsyan kütləvi xarakter daşıyırdı. Quba qalasında olanların da heç də hamısı Rusiya tərəfdarları deyildi. Sadəcə olaraq qalada olan rus qarnizonu üsyançılardan qorxduğu üçün qalaya qapanıb müdafiə olunur və qaladakıları da bayıra buraxmırdılar.

General A.Tormosov Quba əhalisinə Şeyxəli xanın heç vaxt xan olmayacağını bildirməklə ona çatdırdı ki, yanına gəlib müti olduğunu söyləyərsə onun bağışlanması üçün Rusiya imperatoruna müraciət edə bilər. Şeyxəli xan isə general A.Tormosovun bu dediklərini istehza ilə qarşıladı və rus zabitlərinə çatdırdı ki, bütün rus qüvvələrinin Quba xanlığı ərazisini tərk etməsini istəyir. O bu tələbini irəli sürməkdə haqlı olduğunu qeyd edir və bildirirdi ki, Quba ona və onun əcdadlarına mənsub olmuşdur. Başqa sözlə, Şeyxəli xan çatdırmaq istəyirdi ki, ruslar işğal etdikləri əraziləri tərk etməlidirlər və onların bu ərazilərə iddia irəli sürməyə haqqları yoxdur. Şeyxəli xanın rəhbərliyi altında qalxan üsyanın yatırılması və Quba qalasında mühasirədə qalmış rus taboruna kömək göstərilməsi üçün 1810-cu il avqust ayının 10-11-də Bakı ətrafından Quba istiqamətinə rus qoşun dəstəsi göndərildi. Bu dəstəyə mayor Levitski rəhbərlik edirdi və Qubaya çatan kimi oradakı qüvvələr rəhbərliyi öz üzərinə götürməli idi. Mayor Levitski Quba qalasındakı vəziyyəti sahmana salandan sonra qüvvələrin bir hissəsi ilə qaladan çıxmalı və xanlıq ərazisində alovlanan üsyanın yatırılmasına cəhd göstərməli idi (201).

Avqust ayının 12-də mayor Levitskinin dəstəsi səhər Xıdır-Zində məntəqəsinə yetişdi və burada Şeyxəli xanın tərəfdarlarından ibarət dəstənin müqaviməti ilə qarşılaşdı. Həmin dəstənin təxminən 300 nəfərdən ibarət olduğu bildirilir. Şeyxəli xanın tərəfdarları yüksəklikdə

mövqe tutaraq rus dəstəsini atəşə tutdular. Xan tərəfdarlarının atəşi altında hərəkət etməyin mümkün olmayacağını görəndə mayor Levitski iki istiqamətdən onların üzərinə hücum təşkil etdi. Şeyxəli xanın tərəfdarları yüksəklikdən geri çəkilməli olsalar da Qubaya doğru yolun Gilgil çayına qədər olan hissəsi ətrafında döyüş mövqeləri tutdular və rus dəstəsinə təzyiqi daha da artırdılar. Həmin günün axşamı mayor Levitskinin dəstəsi Gilgil çayı ətrafında düşərgə saldı. Gecə ərzində də Şeyxəli xanın tərəfdarları bu dəstə üzərinə atəşləri dayandırmadılar. Rus mənbələrinə görə, həmin atəşlər nəticəsində rus dəstəsi itki də verməli oldu. Elə bu mənbənin məlumatıma görə, avqustun 13-də Şeyxəli xanın atlı və piyada tərəfdarlarının sayı bir neçə min nəfəri ötmüşdü. Bu silahlılar ətrafdakı bütün yüksəkliklərin üzərində döyüş mövqeləri tutdular. Qubaya aparan yol da bu yüksəkliklərin arasından keçdiyi üçün mayor Levitski ciddi çətinliklə qarşılaşmalı oldu. Geriyə hərəkət üçün yolun açılması isə Bakıdan olan 74 nəfərlik atlı könüllü dəstəyə tapşırıldı. Əsgərəli bəyin rəhbərliyi altında olan bu dəstə atəş mövqeyinə doğru irəliləsə də Şeyxəli xanın dəstəsi ilə vuruşmaqdan imtina etdi və dəstə üzvləri Şeyxəli xanın dəstəsinə qoşuldu. Sonra onlar da xan tərəfdarları ilə birlikdə rus dəstəsini atəşə tutdular. Bundan sonra baş verən hadisələr zamanı rus dəstəsinin uğursuzluğunun gizlədilməsi üçün Şeyxəli xanın dəstəsinin sayı haqqında daha böyük rəqəmlər göstərilir. Rus generallarının yazdığına görə, Gilgil çayı ətrafındakı döyüş zamanı Şeyxəli xanın tərəfdarları 2 minlik atlı dəstəsində və 1000 nəfərlik piyada dəstəsində birləşmişdilər. Ruslar isə cəmi 160 nəfər idilər. Belə kiçik saylı dəstənin 3 minlik dəstə qarşında duruş gətirə bilməsi heç də inandırıcı görünmür. Rus generalları bu rəqəmlə də kifayətlənmirdilər. Onlar yazırdılar ki, Gilgil çayı ətrafındakı döyüşdən sonra mayor Levitski dəstəsi ilə Bakıya qayıtmağı qərara aldı. Bu zaman rusları 3 min nəfərlik atlı dəstəsi və 2 min nəfərlik piyada dəstəsi təqib edirdi. Piyada dəstəsinə Şeyxəli xanın özünün rəhbərlik etdiyi bildirilir. Təqiblə müşayiət olunan mayor Levitskinin dəstəsi elə həmin gün də Bakı ətrafındakı düşərgələrdən birinə yetişə bildi (202).

Bakı komendantı general-leytenant Repin Bakı qalasında qalmış üç bölükdən birini mayor Levitskinin köməyinə göndərmək istədi. Amma Bakı atlılarının Şeyxəli xanın dəstəsinə qoşulmasını eşidəndə Bakı daxilində də üsyan qalxacağından ehtiyatlandı və Bakının mühafizəsini təşkil etmək üçün bölükləri qala daxilində saxlamağı lazım bildi. Qubada qalxan üsyanın yatırılması üçün isə o, general Tormosov qarşısında ora əlavə bir yeger taborunun, bir muşketyor taborunun və kazak alayının yarısının göndərilməsi haqqında məsələ qaldırdı. General Repin eyni

zamanda Şamaxı xanı Mustafa xandan Quba üsyanının yatırılması üçün silahlı dəstə göndərilməsini xahiş etdi. Lakin belə bir kömək Şamaxı xanlığından göndərilmədi (203).

General A.Tormosov isə öz növbəsində Şəki xanı Cəfərqulu xana müraciət etdi və onun qarşısında Quba xanlığındakı rus qoşun dəstəsinə kömək göndərilməsi tələbini qoydu. Onlar arasındakı yazışmalardan aydın olur ki, Quba ərazisində üsyan qalxanda Cəfərqulu xan xanlıq ərazisində Rusiyaya az-çox meylli qalan bəylərə məktub göndərdi və onları Rusiyaya sədaqətli qalmağa təşviq etdi. Quba ərazisində yalnız Buduq kəndi üsyana qoşulmamışdı. Bu kəndin rus işğalına qarşı üsyanda iştirak etməməsinin səbəbini söyləmək çətindir. Cəfərqulu xan Buduq ağaları Məhəmməd bəylə İsa bəyə, habelə Xınalıq əhalisinə məktub göndərdi, onların mövqeyini təqdir etdi. Eyni zamanda Şəki xanı həmin məntəqələrin mühafizəsinə kömək üçün Şəkidən bir silahlı dəstə göndərdi ki, bu hərəkət general A.Tormosovun razılığı ilə qarşılandı (204).

Cəfərqulu xanın bu hərəkəti A.Tormosovun təqdirinə səbəb olsa da, üsyanın yatırılması üçün yetərli deyildi. Şeyxəli xanın rəhbərliyi altında rus işğalına qarşı başlanan kütləvi üsyan yatırılması üçün general A.Tormosov Cəfərqulu xandan daha ciddi addımlar atılmasını tələb etdi. A.Tormosov bildirdi ki, Şəki xanının Rusiya imperiyasının xidmətində durmaqdan başqa seçimi yoxdur və ona görə də o, Qubada rus işğalına qarşı qalxmış üsyanın yatırılmasında daha yaxından iştirak etməlidir. Bu fəaliyyətinin qarşısında Cəfərqulu xana çox səxavətli mükafatlar da vəd edildi.

Şeyxəli xanın rəhbərliyi altında alovlanan xalq üsyanının təfərrüatları haqqında müfəssəl yerli mənbələr olmadığı üçün onun vüsəti və gedişi haqqında rus mənbələri əsasında mühakimə yürütmək məcburiyyəti yaranmışdır. Bununla belə, Şeyxəli xanın üsyanından çaşqınlıq və qorxu içində olan rus generallarının yazışmalarında da həmin hərəkat haqqında müəyyən təsəvvür əldə etmək mümkündür. Məsələn, rus qoşunları baş komandanı A.Tormosov etiraf edirdi ki, Quba əhalisində üsyançı ruh həmişə mövcud olmuş, işğaldan keçən 4 il ərzində qubalılar həmişə açıq və gizli şəkildə Şeyxəli xanla əlaqə yaratmış, müxtəlif vasitələrlə ona dəstək nümayiş etdirmiş və həmişə də ümid etmişlər ki, Şeyxəli xan yenidən Quba xanı olacaqdır. Onun sözlərinə görə, qubalılar əmin idilər ki, xalqın arzusunu nəzərə alaraq Rusiya dövləti də Şeyxəli xanı Quba xanı kimi təsdiq edəcəkdir. General A.Tormosov alovlanan Quba üsyanını qubalıların niyyətlərinin və onların Şeyxəli xanla olan təmaslarının nəticəsi kimi qiymətləndirirdi. General A.Tormosov haqlı olaraq qeyd edirdi ki, Quba ərazisində rus qoşunlarının olmasına baxma-

yaraq Quba kəndlərini mütilik altında saxlamaq tam şəkildə müyəssər olmamışdır. Bunun nəticəsi idi ki, Şeyxəli xan Quba sərhədlərinə yaxınlaşan kimi yerli kəndlər də onun üsyanına qoşuldular (205).

Bu deyilənlər onu göstərir ki, rus generallarının ən qaba ifadələrlə müraciət etdiyi Şeyxəli xan əslində xanlıq ərazisində rus işğalına qarşı barışmaz xalq əhval-ruhiyyəsini qoruyub saxlamış və rusların səylərinə baxmayaraq onun xan olması əhali tərəfindən unudulmamışdı. General A.Tormosov kütləvi Quba üsyanının qaldırılmasına görə, yalnız Şeyxəli xanı deyil, onun həmkarlarını, üsyanın fəal iştirakçılarını çox ağır şəkildə cəzalandırmaq istəyirdi. Bu niyyətində də o, Şəki xanı Cəfərqulu xanın yardımlarına arxalanmaq istəyirdi. A.Tormosovun sözləri ilə deyilərsə, o, Quba üsyançılarını elə bir şəkildə cəzalandırmaq istəyirdi ki, onlar Şeyxəli xanın nə vaxtsa Quba xanı ola biləcəyini bir daha fikrilərinə gətirməsinlər, Şeyxəli xan isə bir daha xan olmaq xəyallarına düşməsin.

Quba üsyanının yatırılmasının, Quba daxilində rus işğalına qarşı etirazların susdurulmasının başlıca səbəblərindən biri kimi, Şeyxəli xanın məhvi ön plana çəkilirdi. A.Tormosova görə, rus hərbçilərinə yetirdiyi itkilərə, rus qoşunlarına yaratdığı narahatçılıqlara görə Şeyxəli xan bu cəzaya layiq idi. Şeyxəli xanın qətlini isə A.Tormosov məhz Şəki atlılarına etibar etmək istəyirdi. Şeyxəli xanın zərərsizləşdirilməsi və Quba üsyançılarının cəzalandırılması üçün general A.Tormosov Xəzəryanı ərazilərdəki rus qoşunlarının rəhbəri olan general-leytenant Repinin rəhbərliyi altında xüsusi əməliyyat hazırlamağı planlaşdırırdı. Şəki xanlığının silahlı dəstəsi də rus qoşun dəstəsi ilə birlikdə bu əməliyyatda iştirak etməli idi. Mayor Levitskinin dəstəsinin başına gələnlərdən məlum idi ki, general-leytenant Repinin ixtiyarında Quba üsyançılarına qarşı mübarizə üçün kifayət qədər qüvvə yoxdur. Bakıda olan bölmələrin Bakıdan çıxarılmasına isə rus generalları cəsarət etmirdilər ki, burada da ruslara qarşı üsyan alovlana bilər. Ona görə də Şəki xanının hazırlayacağı dəstə, əslində, Quba üsyanının yatırılması üçün əsas zərbə qüvvəsi ola bilərdi. General A.Tormosov tələb edirdi ki, Cəfərqulu xan ən azı 1000 nəfərlik atlı dəstəsi təşkil etsin və həmin dəstəni Qubadakı rus qoşun dəstəsi ilə birləşmək üçün Xınalıq dağlarına göndərsin. Baş komandanın fikrincə, Şəki silahlı dəstəsi Xınalıq dağları istiqamətindən hərəkət edəcəyi təqdirdə üsyan qaldırmış Quba kəndləri ilə Şeyxəli xanın əlaqələri kəsilə bilərdii. General A.Tormosov Şəki xanının qardaşı Əmiraslan bəyin də Quba üsyanının yatırılmasına cəlb edilməsini təklif etdi. Əmiraslan bəy öz atlı dəstəsi ilə general Nebolsinin sırıncamında idi. General Nebolsinə də tapşırıq verildi ki, Əmiraslan

bəyin dəstəsi geri çağırılacağı təqdirdə onun getməsinə maneçilik yaratmasın (206).

Bu zaman general Nebolsinin dəstəsi Çardaxlı ətrafında düşərgə salmışdı. Əmiraslan xanın dəstəsi Qubaya yollanandan sonra general Nebolsinin ətrafında qalan dəstə Ağstafa-Zəyəm ətrafında düşərgə salmalı, Gəncənin ətrafı ilə Qazax və Şəmşəddil mahallarının mühafizəsini təmin etməli idi.

A.Tormosovun yazdıqlarından belə bir qənaətə gəlmək olar ki, o, Şəki silahlı dəstəsinə Quba xanlığı ərazisində fəaliyyət azadlığı verirdi. Yəni, üsyan qaldırmış kəndlərin yağmalanması və talanması üçün onlar azad idilər. Lakin o xahiş edirdi ki, imkan daxilində üsyan etməmiş kəndlərə toxunulmasın və üsyan qaldırmış kəndlərin əhalisinə də aman verilsin ki, sonradan bu əhali yenidən Rusiyaya qarşı üsyan etməsin. Amma ciddi şəkildə tapşırılırdı ki, Şeyxəli xanın tapılması, onun hər hansı bir yolla qətlə yetirilməsi üçün hər şey edilsin. Şeyxəli xanı qətlə yetirəcək şəxsə xüsusi mükafat da vəd olunurdu.

A.Tormosovun tapşırığı əsasında Cahangir bəy Şəqqaqi də dəstəsi ilə Quba üsyanının yatırılmasında iştirak etməli idi. Cahangir bəy Şəqqaqinin dəstəsi Şəki dəstəsi ilə birlikdə fəaliyyət göstərməli idi. Cəfərqulu xandan da tələb olunurdu ki, Cahangir bəylə birgə fəaliyyət üçün lazımi şəraiti təmin etsin. Rusiyaya itaət yolunu seçmiş Cahangir bəy Şəqqaqi ilə bağlı A.Tormosovun xüsusi planı var idi. O istəyirdi ki, Quba üsyanını yatırandan sonra Cahangir bəyi Quba xanı təyin etsin və bununla da Qubada kimin xan olacağı barəsində söz-söhbətlərə son qoyulsun (207).

General A.Tormosov eyni zamanda Bakı komendantı general-leytenant Repinə də əmr göndərdi, o da Quba üsyançılarına qarşı mübarizə aparmağa hazır olsun (208).

1810-cu ilin avqust ayı Quba üsyanının vüsət aldığı bir dövrdür. Mövcud olan məlumatlara görə, Şeyxəli xan bu zaman Qrız kəndində məskunlaşmışdı və xanlığı müvəqqəti olaraq buradan idarə edirdi. O hətta Qrız kəndi yaxınlığında yeni bir şəhər tikilməsini də planlaşdırırdı (209).

Mövcud məlumatlardan aydın olur ki, Bakı komendantı general Repin Quba üsyanının gedişində Şeyxəli xanla təmas yaratmağa çalışmış və ona məktub göndərmişdi. Məktubun məzmunu açıqlanmasa da heç şübhəsiz ki, burada Şeyxəli xandan Quba üsyanının dayandırılması tələb olunurdu. Şeyxəli xan da silahdaşlarından olan Cəfərqulu bəylə ona cavab göndərdi. Cəfərqulu bəy Qubanın tanınmış bəylərindən idi və rus işğalına qarşı barışmazlığı ilə seçilirdi. Elçi kimi gəlməsinə baxmayaraq,

Cəfərqulu bəy Bakıda general Repin tərəfindən həbs edildi və onun bu əməli general A.Tormosov tərəfindən də müdafiə olundu (210).

Quba üsyanının alovlanmasında general A.Tormosov başqa səbələrin olmasını da istisna etmirdi. Bu səbəblərin nədən ibarət olmasını açıqlamasa da A.Tormosovun yazdığına əsasən, bu üsyanın baş verməsinə rus qoşun dəstəsinin fəaliyyətsizliyinin, bir çox rus zabitlərinin baş verənlərə laqeyd mövqeyinin baş komandanın nəzərdə tutduğu səbəblər olmasını güman etmək mümkündür. Məsələn, general A.Tormosov Bakı komendantını ittihamlandırırdı ki, onun tabeçiliyində olan zabitlər son dərəcə süstdürlər. Baş komandan təəccüblə bəyan edirdi ki, Quba qalasında iki tabor dayanıb və onlar Quba qalasına qapılaraq heç bir fəaliyyət göstərmirlər. A.Tormosovun fikrincə, qala daxilində bir taborun saxlanılması kifayət idi, digər tabor isə xalq əhalinin sakitləşdirilməsində iştirak edə bilərdi. General Repinin verdiyi məlumatlara görə, Quba əhalisi tərksilah edilmişdi və onlar təhlükə təşkil etmirdilər. General A.Tormosov bildirirdi ki, bu məlumatın doğru olduğu halda rus taborlarının nədənsə ehtiyatlanmağa əsasları yoxdur. Belə bir şəraitdə daha cəsarətli hərəkət etmək əvəzində rus taborları general A.Tormosovun anlamayacağı bir hərəkətsizlik nümayiş etdirirdilər. Eyni zamanda A.Tormosov Quba qarnizonunun ərzaq və yemlə təchiz edilməməsini rus zabitlərinin öz vəzifələrinə laqeydliklə yanaşmasının nəticəsi hesab edirdi. Quba xanlığı ərazisində ərzaq ehtiyatları çox olduğu halda rus qarnizonu özünə ehtiyat toplamamışdı. Ərzağın toplanmamasını A.Tormosov heç də xanlıq ərazisində təhlükəli vəziyyətin olması ilə əlaqələndirmirdi və belə hesab edirdi ki, bu məsələdə də rus zabitləri sonsuz laqeydliyə yol vermişlər. Avqust ayında yerli qarnizon öz ehtiyatları hesabına qidalanmalı olduğu halda Bakıdan ərzaq ehtiyatı göndərilirdi. Bu məsələ ilə bağlı general A.Tormosov Bakı komendantı qarşısında sərt tələblər qoydu. General Repinə yazdığı məktubunda A.Tormosov bildirirdi ki, Şeyxəli xan və Quba əhalisi arasında fəallaşma duyulanda gələcək ehtiyaclar barəsində düşünmək və ərzaq ehtiyatlarını toplanmaq lazım idi. Quba qarnizonunda ərzaq qıtlığının olması xəbəri alınanda A.Tormosov Bakı komendantından tələb etdi ki, heç olmasa ixtiyarında olan qüvvə ilə Qubaya yol açsın və oradakı hərbçilərə ərzaq çatdırsın. Bunun üçün general Repin Bakıda dayanan 4 bölükdən 2-ni istifadə edə bilərdi. Həmin bölüklər ərzaq ehtiyatlarını Qubaya çatdıran kimi dərhal geri dönməli və Bakıda öz yerlərini tutmalı idilər. A.Tormosov onu da tələb etdi ki, Qubaya göndəriləcək dəstəyə rəhbərlik mayor Levitskiyə tapşırılmasın. Baş komandanın fikrincə, mayor Levitski artıq bir dəfə qorxaqlıq və məsuliyyətsizlik nümayiş etdirmiş və

ona tapşırılmış bölməni Qubaya çatdıra bilməmişdi. General A.Tormosov Bakı komendantının ondan əlavə qüvvə kimi 2 taborun və bir kazak alayının yarısını istəməsinə də cavab verdi və bildirdi ki, belə bir imkana malik deyildir (211).

General A.Tormosov Quba üsyanının yatırılması üçün əslində daha böyük qüvvələrin gərəkli olmasını qəbul edirdi. Amma ixtiyarında bu qüvvələr olmadığı üçün Şəki xanlığından kömək almağa çalışırdı. Bundan əlavə o, Şamaxı xanına da Quba istiqamətinə dəstə göndərilməsi barəsində tapşırıq verdi. Nəzərdə tutulmuşdu ki, Qarabağ istiqamətində yerləşən rus qüvvələrindən də 2 bölük ayrılsın. Həmin bölük Şamaxıya gələrək burada Mustafa xanın təşkil etdiyi atlı dəstə ilə birləşin və sonra Qubaya doğru hərəkətini davam etdirsin. Risq olmasına baxmayaraq, Bakı bölüklərindən biri də Quba üsyanının yatırılmasına göndərilməli idi. Bu bölük Şamaxıdan gələn dəstə ilə birləşməli və Qubaya yollanmalı idi. General A.Tormosov hətta Dərbənddən də bir bölüyün Quba üsyanının yatırılmasına cəlb edilməsinin mümkünlüyünü qəbul edirdi. Bu qüvvələr Qubadakı taborlara birləşdirildikdən sonra üsyanın yatırılmasına və Şeyxəli xanın zərərsizləşdirilməsinə başlamalı idilər. A.Tormosov əmin idi ki, sadalanan bu hərbi bölmələr Quba üsyanının yatırılması üçün kifayətdir (212).

Bakı komendantı Repinin verdiyi məlumatdan aydın olur ki, Quba üsyanının yatırılması general A.Tormosovun qurduğu xəyali planlar qədər asan deyildi. Şeyxəli xanın rəhbərlik etdiyi xalq üsyanı elə bir gücə malik idi ki, Quba qalasındakı 2 rus taboru malik olduğu toplarla bərabər qaladan kənara çıxmağa cəsarət etmirdi. Quba qarnizonunun ərzaq ehtiyatının tükənməsi isə general Repinin xüsusi təşvişinə səbəb olmuşdu. Çünki soyuqların yaxınlaşmasına kimi bu qarnizon mühasirədən çıxarılmasaydı ərzaq ehtiyatlarının toplanması mümkün olmayacaqdı. Hazırkı şəraitdə isə qala qarnizonuna ərzaq ehtiyatı çatdırılmasaydı bu qarnizon çox ciddi çətinliklərlə üzləşməli və döyüş qabiliyyətini bütünlüklə itirməli olacaqdı. Ona görə də A.Tormosov Quba xanlığına göndərilməsi üçün əlavə qüvvə axtarışına başladı. Bununla əlaqədar, A.Tormosov general Nebolsinə tapşırıq verdi ki, Gəncə ətrafındakı rus qarnizonundan bir bölüyü bir topla birlikdə Nuxaya göndərsin. Bu bölük Cəfərqulu xanın topladığı atlı dəstə ilə birlikdə Quba xanlığına yollanmalı idi (213).

Şamaxı xanlığında toplanan dəstəyə və bu dəstəyə Qarabağdakı rus qarnizonunda və Bakı qalasında birləşəcək bölmələrə Şamaxı xanının yanında olan podpolkovnik Tixonovski rəhbərlik etməli idi. Podpolkovnik Tixonovski Qubaya çatacağı təqdirdə oradakı qarnizonu da

özünə birləşdirməli və Quba üsyanının yatırılmasına cəlb edilmiş bütün qüvvələrə rəhbərliyi öz üzərinə götürməli idi. General A.Tormosov podpolkovnik Tixonovskidən açıq və ciddi şəkildə tələb edirdi ki, Şeyxəli xan məhv edilsin. Bu mümkün olmasa o, xanlıq ərazisindən qovulsun və sonra da üsyançılara divan tutulsun. Podpolkovnik Tixonovski bütün vasitə və imkanlardan istifadə etməklə üsyançıları cəzalandırılmalı və xanlıq ərazisində rusların marağında olduğu asayiş təmin edilməli idi (214).

Rus qoşunları baş komandanlığının bütün səylərinə baxmayaraq sentyabrın ortalarına qədər Quba üsyanının yatırılması üçün ruslar ciddi bir addım ata bilmədilər. Bu müddət ərzində üsyan da genişləndi, üsyançıların rus işğalına qarşı barışmaz iradəsi daha da gücləndi. General A.Tormosov 1810-cu il sentyabr ayının ortalarında etiraf edirdi ki, üsyan alovu çox geniş şəkildə yayılmış və demək olar ki, bəylərin hamısı, habelə bütün xalq Şeyxəli xanla birləşmişdir, Qubanın Dərbəndlə və Bakı ilə əlaqələri kəsilmişdir. Bu üsyanın genişlənməsində A.Tormosov Şamaxı xanı Mustafa xanın Şeyxəli xanla gizli əlaqələrinin təsirini də istisna etmirdi (215). Bununla belə, yaranmış şəraitdə A.Tormosov Şamaxı xanına qarşı hər hansı bir cəza tədbirinin həyata keçirilməsinə də cəsarət etmirdi.

General A.Tormosov şübhə etmirdi ki, Mustafa xanın mövqeyi Quba üsyanının sonradan necə inkişaf etməsinə həlledici təsir göstərə bilər. Onun Şeyxəli xanı davamlı dəstəkləyəcəyi halda Quba üsyanının yatırılması xeyli çətinləşə bilərdi. Əksinə, Mustafa xan Rusiya maraqlarına meylli olduğu halda Quba üsyanının yatırılması asanlaşa bilərdi. Ona görə də general A.Tormosov Şamaxı xanına məktub göndərdi. Həmin məktubunda Şamaxı xanını Rusiya qarşı çıxmasından çəkindirmək istəyən A.Tormosov yazırdı ki, hələ də Şamaxı xanına etibar edir, ona olan hörmətini saxlayır və ona hər zaman kömək göstərməyə hazırdır. A.Tormosov istəyirdi ki, Mustafa xan Quba üsyanı ilə əlaqəsi olsaydı belə bu yoldan çəkilsin və yenidən Rusiya təbəəliyini davam etdirsin. Baş komandan eyni zamanda ona çatdırırdı ki, onun Quba üsyanının yatırılmasına silahlı dəstə göndərməsi Mustafa xanın Rusiyaya qarşı olmadığını sübut etmiş olar və bununla da o, Rusiya imperatorunun sonsuz mərhəmətini qazanmış olardı. Eyni zamanda Mustafa xandan Qubaya silahlı dəstə göndərməsi də xahiş olundu (216).

General A.Tormosov Quba üsyanının yatırılmasına cəlb ediləcək qüvvələrə rəhbərliyi podpolkovnik Tixonovskiyə tapşırsa da, sonradan bu qərarını dəyişdi. 1810-cu il sentyabrın ortalarında general A.Tormosov bu vəzifəni polkovnik Lisaneviçə həvalə etdi. Polkovnik Lisaneviç

Qubaya çatana kimi podpolkovnik Tixonovski oradakı qüvvələrə rəhbərliyi icra etməli, sonra isə o bu vəzifəni polkovnik Lisaneviçə təhvil verməli idi. Qeyd etmək lazımdır ki, Quba üsyanının yatırılması üçün əməliyyatın keçirildiyi dövrə aid olan sənədlərdə Lisaneviç artıq general-mayor kimi təqdim olunur. Lisaneviç Qarabağ xanlığı ərazisində xan ailəsinə və yerli əhaliyə göstərdiyi zorakılıqlarla tanınırdı. Çox güman ki, A.Tormosov onun məhz bu sərtliyinə görə Quba üsyanının yatırılmasına rəhbərlik etməsini lazım bilmişdi.

Polkovnik Lisaneviç general A.Tormosovun əmrini alan kimi 4 unter-zabit, 30 sıravi və 100 kazakla birlikdə Şamaxı xanlığına yola düşməli idi. Onun general A.Tormosovdan aldığı ilk tapşırıq Şamaxı xanı Mustafa xanı Şeyxəli xanla əməkdaşlıqdan yayındırmaq idi. Polkovnik Lisaneviçin Mustafa xanla tanışlığı var idi və A.Tormosov güman edirdi ki, bu tanışlıq Şamaxı xanının nəzərinin yenidən Rusiyaya döndərilməsi üçün faydalı ola bilər. Polkovnik Lisaneviç Mustafa xana çatdırmalı idi ki, onun Qacar qoşunlarına ümid bəsləməyi əbəsdir, havaların soyuması ilə Qacar qoşunları yenidən Arazın o tayına çəkilə bilər. Əgər Mustafa xan qacarlara meylliliyini saxlamalı olacaqdısa, onda hər şeyi itirə bilərdi. Polkovnik Lisaneviç general Tormosovun səlahiyyətli nümayəndəsi kimi onunla danışmalı və onun etimadını qazanmağa çalışmalı idi. Polkovnik Lisaneviçin eyni zamanda Şamaxıda olduğu zaman Mustafa xanın hansı təsirlərə məruz qaldığını da öyrənməyə çalışmalı idi. Mustafa xanın yenidən Rusiya mövqeyinə qaytarılmasını A.Tormosov polkovnik Lisaneviçin əldə edə biləcəyi ciddi uğur kimi qəbul edirdi (217).

Polkovnik Lisaneviçə tapşırılan başlıca vəzifə isə Quba üsyanının yatırılmasına rəhbərlik etmək idi. Bunun üçün o, Şamaxı dəstəsini də özünə birləşdirib Qubaya doğru hərəkəti davam etdirməli idi. Podpolkovnik Tixonovskiyə verilən tapşırıqlar eyni ilə polkovnik Lisa-neviş üçün də təkrarlandı. Quba üsyançılarının ciddi cəzalandırılması, Şeyxəli xanın məhv edilməsi polkovnik Lisaneviç qarşısında dayanan başlıca vəzifələr idi. Üsyanda fəal iştirak edilənlərə qarşı qırğınlar törədilməli və onların əmlakı müsadirə edilərək dövlətin hesabına keçirilməli idi. A.Tormosov eyni zamanda Quba xanlığının idarəçiliyinin təşkili ilə bağlı da bəzi göstərişlər verdi. O, Quba üsyanının yatırılacağına ümidlə yanaşırdı. Şeyxəli xan və onun ətrafını zərərsizləşdirmək və on-ları xanlıqdan sıxışdırmaq niyyətində olsa da, A.Tormosov xanlıq idarə üsulunun ləğvinə ehtiyac görmürdü. O güman edirdi ki, Quba xanı məqamına Rusiyaya sədaqətli olan şəxsi gətirməklə Qubada antirus əhval-ruhiyyəsinin qarşısını almaq olardı. Yeni xan vəzifəsinə Cahangir

xan Şəqqaqinin nəzərdə tutulduğunu A.Tormosov polkovnik Lisaneviçin də diqqətinə çatdırdı və ondan tələb etdi ki, Cahangir bəyi müşahidə altında saxlasın, Quba üsyanının yatırılmasında ondan səmərəli istifadə etsin, onun Quba əhalisi arasında nüfuz qazanmasına kömək etsin. Polkovnik Lisaneviç yerli şəraiti yaxşı öyrənməli və yeni təyin ediləcək xana hansı məhdudiyyətlərin tətbiqi və hansı səlahiyyətlərin verilməsi haqqında öz təkliflərini hazırlamalı idi (218).

1810-cu il sentyabr ayının ortalarından Quba üsyanının yatırılması üçün təyin olunmuş qüvvələrin Quba xanlığına doğru irəliləməsi başladı. 17-ci yeger alayından Qubaya yollanmalı olan 2 bölük sentyabr ayının 11-də Şamaxıya yetişdi. Amma bu bölüklərin hazırlıq səviyyəsi podpolkovnik Tixonovskini təmin etmədi. Hər şeydən əvvəl həmin bölüklərin ərzaq ehtiyatları yox idi. Bu bölüklər üçün ayrılmış ərzaq ehtiyatları Şamaxıya çatana qədər yolda məsrəf olunmuşdu. Belə olanda podpolkovnik Tixonovski Mustafa xana müraciət etdi ki, bu bölüklər üçün 5 günlük ərzaq ehtiyatı versin. Nəzərdə tutulurdu ki, 5 günlük ərzaq ehtiyatı ilə Bakı xanlığının sərhədinə çatmaq mümkün olacaq və ondan sonra ərzaq ehtiyatları general-leytenant Repin tərəfindən təmin ediləcəkdir. Lakin Mustafa xan rus bölüklərinə ərzaq əşyaları verməkdən imtina etdi. Şamaxı xanı açıq şəkildə bildirirdi ki, əvvəllər rus bölmələri ərzaqla təmin edilirdisə, indi artıq bunu etmək istəmir. Eyni zamanda o bunun üçün general A.Tormosovdan da göstəriş almadığını bəyan etdi. Podpolkovnik Tixonovski bildirirdi ki, həmin vaxt Şamaxı xanlığında kifayət qədər ərzaq ehtiyatları var idi. Hər halda Şamaxı xanından rədd cavabı alandan sonra podpolkovnik Tixonovski onda olan maliyyə vəsaiti hesabına bazardan 6 günlüyə ərzaq ehtiyatı aldı. Başqa sözlə, general A.Tormosovun bütün təhdidlərinə və vədlərinə baxmayaraq Mustafa xanın təmkinini pozmaq mümkün olmadı. Rus bölmələrinə ərzaq vermədiyi kimi, Mustafa xan Quba üsyanının yatırılmasına da qüvvə ayırmadı. Əslində, podpolkovnik Tixonovski Qarabağdan gələn rus bölüklərini Şamaxı xanlığında toplamalı olan atlı dəstə ilə birləşdirdikdən sonra Qubaya istiqamət götürməli idi. Yuxarıda deyilənlərdən göründüyü kimi, A.Tormosov Şamaxı xanlığında 1000 nəfər atlının toplanmasına ümid edirdi. 1810-cu il avqust ayının sonlarında podpolkovnik Tixonovski dəstənin toplanması gedişi ilə maraqlananda Mustafa xan bildirdi ki, 50 nəfər atlı və 400 nəfər piyadanın toplanması mümkün ola bilər. Amma rus bölükləri Şamaxıya çatanda məlum oldu ki, yalnız 20 nəfər səfər üçün hazırdır. Bununla, Mustafa xan açıq-açığına Quba üsyanının yatırılmasında rus qoşunlarına kömək etmək istəmədiyini nümayiş etdirdi. Sentyabr ayının 13-də, Qubaya doğru hərəkətə başlamaq

ərəfəsində podpolkovnik Tixonovski öz tərcüməçisini Mustafa xanın yanına göndərdi və Şamaxı dəstəsinin yola salınmasını ondan xahiş etdi. Mustafa xan həmin tərcüməçini hüzuruna buraxmadı və yanındakılar vasitəsilə ona çatdırdı ki, gedib öz işləri ilə məşğul olsun. Qoşun dəstəsi ilə nə etmək lazım olduğunu isə özü yaxşı bilir. Podpolkovnik Tixonovski Şamaxı dəstəsinin toplanmadığını və Mustafa xanın da onun toplanmasına meylli olmadığını görüncə, sentyabr ayının 15-də rus bölmələri ilə Quba xanlığına doğru hərəkətə başladı. Təxminən onunla eyni vaxtda Nuxaya gəlmiş olan rus bölüyü Şəki atlıları ilə birlikdə Xınalıq istiqamətində hərəkətə başladı (219).

Podpolkovnik Tixonovski onun müşayiətindəki bölüklərlə birlikdə sentyabrın 17-də Sumqayıt çayı yaxınlığında Şirvandan Qubaya aparan yola çıxdı. Burada ona Bakıdan göndərilmiş olan bölük də qatıldı. Həmin bölük Sevastopol muşketyor alayının bölüyü idi. Sentyabrın 20-də podpolkovnik Tixonovskinin dəstəsi Quba xanlığı ərazisində Beşbarmaq dağının yaxınlığındakı Doğumlu karvansarasına çatdı. Burada olarkən podpolkovnik Tixonovski Şəki atlı dəstəsinə rəhbərlik edən Cahangir bəy Şəqqaqidən xəbər tutdu. Yuxarıda deyildiyi kimi, Şəqqaqi dəstəsi Xınalıq dağları istiqamətindən irəliləməklə Quba xanlığına gəlməli idi. Xınalıq dağlarına qalın qar yağdığından oradan keçib getmək mümkün deyildi. Ona görə Cahangir bəy, habelə Şəki atlı dəstəsinə birləşdirilmiş Troitski muşketyor alayının bölüyünün komandiri ştabs-kapitan Penen Şirvandan dolanmaqla Qubaya getmək məcburiyyətində qaldı. Cahangir xan da podpolkovnik Tixonovskidən xahiş etdi ki, Şəki dəstəsinin bütünlüklə gəlib çatmasını gözləsin. Şeyxəli xanın tərəfdarları bundan xəbər tutdular və sentyabrın 22-də podpolkovnik Tixonovskinin bildirdiyinə görə, 200 nəfərlik xan tərəfdarları Beşbarmaq dağının yüksəkliklərində görünməyə başladılar. Podpolkovnik Tixonovski dərhal yüzbaşı Lyapininin rəhbərliyi altında olan kazak dəstəsinə xan tərəfdarlarını atəşə tutmağı tapşırdı. Xan döyüşçüləri isə bundan qorxmadılar. Əksinə, daha da yaxına gələrək döyüşə girdilər. Tərəflər arasında yarım saatlıq atışma baş verdi. Rus dəstəsinin müqavimətini qıra bilməyəndə üsyançılar geri çəkildilər (220).

Sentyabr ayının 25-də üsyançıların dəstəsi gecə vaxtı rus dəstəsinin üzərinə hücum etdi. Həmin gecə üsyançıların hücumu bir də təkrarlandı. Rus zabitləri bu hücumlar zamanı itki vermələri haqqında məlumat çatdırmırlar. Podpolkovnik Tixonovski üsyançıların təkrarlanan hücumlarının qarşısını almaq üçün onların üzərinə hücum etməyi qərarlaşdırdı. Sentyabr ayının 24-də podpolkovnik Tixonovskinin tapşırığına əsasən, bir kazak dəstəsi kəşfiyyata göndərildi. Həmin dəstə üsyançıların

dəstəsinin sığındığı yeri müəyyənləşdirməli və sonra da həmin yerə hücum təşkil edilməli idi. Kazaklar dağların arasında üsyançıların dəstəsinin yerini müəyyənləşdirə bildilər. Bu yer rus düşərgəsindən cəmi 7 verst aralı idi. Sentyabr ayının 24-də gecə vaxtı rusların 60 nəfərlik dəstəsi qəfildən üsyançıların dəstəsinin sığındığı yerə hücum etdilər və rus mənbələrinin məlumatına görə, bu hücum zamanı üsyançıların dəstəsinə ağır itki üz verildi. Qəfil hücumu gözləməyən üsyançılar geri çəkilmək məcburiyyətində qaldılar. Yenə rus mənbələrinin məlumatına görə, ruslara qarşı göndərilmiş dəstənin ağır itki verdiyini eşidəndə Şeyxəli xan podpolkovnik Tixonovskinin dəstəsi üzərinə hücum etməli oldu. Bu hücumun qarşısının alınması üçün rus dəstəsinin ixtiyarında olan toplar işə salındı və onların davamlı atəşləri nəticəsində Şeyxəli xanın dəstəsinin yaxınlaşmasının qarşısını almaq mümkün oldu (221).

Quba üsyanının yatırılmasında iştirak edəcək qüvvələrə rəhbərliyi üzərinə götürməli olan polkovnik Lisaneviç isə sentyabr ayının 26-da Şamaxıya yetişdi və həmin gün Fitdağ qalasına, Mustafa xanın görüşünə getdi. Görüş zamanı Lisaneviç general A.Tormosovun məktubunu Mustafa xana təqdim etdi və eyni zamanda Rusiyaya qarşı etimadsızlığının səbəbini Mustafa xandan öyrənməyə çalışdı. Mustafa xan onun Rusiyaya etimadsız yanaşması haqqında deyilənlərlə razılaşmadı. Əksinə, polkovnik Lisaneviçi inandırmağa çalışdı ki, imzaladığı vədə sadiqdir. Onun bildirdiyinə görə, haqqında deyilənlər isə düşmənlərinin yaydığı şayiələrdir. Mustafa xan keçmiş Şəki xanı Səlim xanla təmasda olması, qardaşı İsmayıl bəyi onun yanına göndərməsi haqqında deyilənləri də qəbul etmədi. Onun haqqında söz-söhbətlərin yayılmasında Şəki xanı Cəfərqulu xanla Bakı komendantı general-leytenant Repini günahlandırdı. Mustafa xan bildirdi ki, bu şəxslər ona qarşı yaxşı münasibətdə deyildirlər və ona görə də onu nüfuzdan salmağa çalışırlar. Nə üçün Fitdağ qalasında yerləşməsini soruşanda isə Mustafa xan bildirdi ki, onun Fitdağında yerləşməsi heç də ruslardan ehtiyatlanması ilə bağlı deyildir. O dedi ki, hələ ruslar Şamaxı xanlığında olmayanda Fitdağda yaşayırdı və Fitdağ qalasını təkmilləşdirməsi isə Qacar qoşunlarının hücumundan ehtiyatlanması ilə əlaqədardır. Çünki Mustafa xanın Fitdağ qalasında yaşamaqda davam etməsi və hətta bu qalanı yenidən möhkəmləndirməsi ruslarda Mustafa xanın mövqeyinə qarşı müəyyən şübhə yaratmışdı. Mustafa xan polkovnik Lisaneviçi əmin etdi ki, Şamaxı xanlığı ərazisinə rus qoşun dəstəsi yerləşdirilərsə, təhlükəsizliyi təmin olarsa qalanı tərk edə bilər. Mustafa xan söhbəti zamanı onun yanına göndərilmiş podpolkovnik Tixonovskiyə etibar etmədiyini və bəzi söhbətlərin yaranmasında onun da rolu olduğunu açıqladı.

Polkovnik Lisaneviç Mustafa xanla söhbətindən razı qaldı və onun dediklərinin səmimiliyinə inandığını bildirdi. Bu qənaətini o, general A.Tormosova da çatdırdı. Onun fikrincə, Mustafa xanı ruslardan ehtiyatlandıran səbəbləri müəyyənləşdirib aradan qaldırmaq və bununla da onda Rusiyaya meylliliyi saxlamaq mümkün idi. Mustafa xan polkovnik Lisaneviçə Qubaya göndərmək üçün atlı dəstə təşkil etməyə hazır olduğunu bildirdi. Çox güman ki, polkovnik Lisaneviç Mustafa xanı hakimiyyətinin rus qoşunları tərəfindən qorunub saxlanılacağına əmin etdi və onda Rusiya hakimiyyətinə yeni bir inam yarada bildi. Əvəzində, Mustafa xan da rus qoşunlarına yardım etməyi boynuna götürdü. Şamaxı xanı dərhal atlı dəstə topladı və polkovnik Lisaneviç bu dəstənin içərisindən 100 nəfəri götürüb özü ilə apardı. Polkovnik Lisaneviç general A.Tormosova göndərdiyi məktubunda Mustafa xanın Rusiyaya düşmən mövqedə olmadığını və onun belə mövqeyə yuvarlanmasına yol verməmək üçün ona qayğı göstərilməsinin zəruriliyini qeyd etdi (222).

Polkovnik Lisaneviç onu müşayiət edən rus hərbçiləri qrupu və 100 nəfərlik Şamaxı atlısı ilə 1810-cu il oktyabr ayının 1-də Qubaya yetişdi. Onun Qubaya gəlişinə qədər sentyabrın 21-24-də Beşbarmaq dağı həndəvərində podpolkovnik Tixonovskinin üsyançılarla apardığı döyüşlər istisna olmaqla rus qoşun dəstəsi ilə Şeyxəli xanın tərəfdarları arasında ciddi döyüş baş verməmişdi. Polkovnik Lisaneviç Quba ərazisinə yetişən kimi bütün qüvvələrə komandanlığı öz üzərinə götürdü və dərhal da üsyanın yatırılmasına başlamaq üçün hazırlıq işarəsi verdi (223).

General A.Tormosov polkovnik Lisaneviçin həm Azərbaycan dilini bildiyinə, həm də Quba xanlığına yaxşı bələd olduğuna görə Quba üsyanının yatırılmasında "faydalı" ola biləcəyini qeyd edirdi. Polkovnik Lisaneviç eyni zamanda Azərbaycan xanlarının döyüş imkanlarına da yaxşı bələd idi və bilirdi ki, rus hərbi qüvvələrindən fərqli olaraq Quba üsyanının silahlı dəstələri də könüllü şəkildə toplanmış, yaxşı təchizata, hərbi vərdişlərə və təcrübəyə malik olmayan dəstələr idi. Polkovnik Lisaneviç və onun zabitləri Azərbaycan xanlıqları ərazisində artıq neçə illik döyüş təcrübəsinə malik idilər və onların bu təcrübəsinin çoxsaylı toplarla müşayiət olunması rus qüvvələrinin üstünlüyünü təmin edə bilərdi və elə belə də oldu. Nəhayət yerli qüvvələrin çevik qruplardan istifadə etməsinə çalışmasının və coğrafi şəraitdən bəhrələnməyə çalışmasının nəzərə alınması rus qüvvələrinin hərbi üstünlüyünə yol açdı.

Qubaya yetişən günü general Lisaneviç dəstənin ağır təchizat vasitələrini və yüklərini Qubada olan Sevastopol alayının bir taborunun mühafizəsi altında saxladı və qalan qüvvələrlə Şabrana doğru irəlilədi.

Burada ona Qubada olan bir tabor da birləşdi. General Lisaneviç Şabrandan birbaşa Şeyxəli xanın ola biləcəyi məntəqələrə doğru hərəkət etməyi qərara aldı. Oktyabrın 2-də general Lisaneviç qüvvələrə dərələrdən keçməklə Bərmək qəzasına doğru irəliləmək göstərişi verdi. Görünür, Şeyxəli xan da rusların dərələrdən keçməklə irəliləyə biləcəyini gözləyirmiş. Ona görə onun olduğu məntəqəyə aparan dərəyə mühafizə postu qoydu. General Lisaneviç Şamaxı atlılarına dəstənin önündə hərəkət etmək əmri verdi. Mövcud məlumatlara görə, Şeyxəli xanın mühafizə dəstəsi Şamaxı atlıları tərəfindən aşkarlandı və ələ keçirildi. Çox güman ki, Şamaxı atlıları xan silahlılarını qəflətən haqlamış və onlardan kiminsə yayınmasına imkan verməmişdi. Bunun nəticəsi kimi, rusların irəliləməsi Şeyxəli xan üçün naməlum qalmışdı. Elə həmin gün rus qüvvələri Bərmək qəzasına daxil oldular. Burada olan silahlı dəstə rus qüvvələrinin qarşısını saxlaya bilmədi və tezliklə Bərmək qəzası rusların nəzarəti altına düşdü (224).

Oktyabr ayının 3-də rus qüvvələri Çıraq qalaya doğru irəlilədilər. Çox güman ki, Çıraq qalada da üsyançıların qüvvələri var idi. Hər halda Çıraq qala ətrafında ruslar müəyyən müqavimətlə rastlaşdılar. Hündür sıldırım yamaclarda mövqe tutan Şeyxəli xanın silahlıları rusların hücumu qarşısında geri çəkilmək məcburiyyətində qaldılar. Ruslar əvvəlcə Çıraq qala ətrafındakı yaşayış məntəqəsini, sonra isə Çıraq qalanın özünü ələ keçirdilər. Oktyabr ayının 4-də rus qüvvələri irəliyə hərəkətlərini davam etdirdilər. Bu dəfə ruslar Şişpər qəzasına istiqamət götürdülər. Ruslar bir neçə gün ərzində qüvvələri parçalamadan irəlilədilər və ona görə də onlara qarşı ciddi müqavimət göstərmək mümkün olmadı. Hədəf götürülən yaşayış məntəqələrinin üsyançı silahlı dəstələri ayrılıqda hücumun qarşısını almağa çalışırdılar. Bütün üsyançı silahlı qüvvələrin birləşdirilərək ruslara qarşı səfərbər edilməməsi əslində rusların vəziyyətini xeyli yüngülləşdirirdi. Məlumatlardan aydın olur ki, Şişpər qəzasına Şeyxəli xan özü gəlsə də yenə də üsyançıların bütün qüvvələri burada ruslara qarşı döyüşə cəlb edilməmişdi. Şeyxəli xan isə ətrafındakı dəstəsi ilə çoxsaylı rus qüvvələrinin qarşısını saxlaya bilmədi. Ona görə də rusların davamlı atəşləri nəticəsində Erşəli kəndi ətrafında mövqe tutan Şeyxəli xan başqa mövqeyə çəkilməli oldu (225).

Şeyxəli xanın dəstəsini yenidən qruplaşmaq və daha yaxşı mövqelərdə möhkəmlənməsinə yol verməmək üçün oktyabrın 5-də general Lisaneviç hücumu davam etdirdi. Şeyxəli xanın dəstəsi təqib edildi və Çiçili kəndi ətrafında onun dəstəsinə çatmaq mümkün oldu. Quba üsyançıları meşəliklə örtülmüş dağ yamaclarında mövqe tutub ruslara müqavimət göstərməyə çalışdılar. Məlumat qıtlığı üzündən bu

döyüşün təfərrütatı aydın olmasa da, Şeyxəli xanın dəstəsinin güclü müqavimət göstərməsi bəllidir. Rus mənbələrinə görə, Şeyxəli xanın dəstəsi meşəlik ərazidən sıxışdırılsa da, bu dəstə öz əvvəlki mövqelərini yenidən ələ keçirə bildi. Bununla belə, həmin mövqeləri qoruyub saxlamaq mümkün olmadı. Rus mənbələrindən aydın olur ki, Şeyxəli xan Çiçili kəndi ətrafından Qrız kəndinə çəkilməyi məqsədəuyğun bildi. Çünki Qrız kəndinin təbii-coğrafi şəraiti rus qoşunlarının hücumunun alınması üçün əlverişli imkanlara malik idi (226).

Oktyabr ayının 10-da general Lisaneviç rəhbərlik etdiyi qoşun dəstəsini Qrız kəndinə doğru hərəkətə gətirdi. Qəribə də olsa, Şeyxəli xanın özünün qərargah seçdiyi bu kənddə rus qüvvələrinə müqavimət göstərilmədi. Bunun səbəbi barəsində fikir söyləmək çətindir. Çox güman ki, rus qoşunlarının çoxluğu və onların ixtiyarında olan topların atəş imkanları Şeyxəli xanı müqavimət göstərməkdən çəkindirdi. Mənasız tələfata yer verməmək üçün Şeyxəli xan dəstəsi ilə Qrız kəndini tərk edib daha keçilməz ərazidə yerləşəm Yuxarıbaşa çəkildi. General Lisaneviç Quba üsyanının yatırılmasını başa çatdırmaq üçün Şeyxəli xanı oradan da çıxarmaq qərarına gəldi və bunun üçün həmin məntəqəyə doğru hərəkətə başladı. Şeyxəli xan burada da rus qüvvələrinə müqavimət göstərməyərək Samur çayını adladı və Tabasaran ərazisinə keçdi. General Lisaneviç Yuxarıbaş mahalını da ələ keçirdi, burada üsyançılara qoşulanları cəzalandırdı və sonra da Samur çayı ətrafına yollandı. Qoşun dəstəsinin ərzaq ehtiyaclarının ödənməsi üçün general Lisaneviç bir neçə gün Samur çayı ətrafında dayanmağı qərar aldı. Rus qoşun dəstəsi 10 günə yaxın Samur ətrafında dayandı. General Lisaneviçin yazdığına görə, Samur çayı ətrafında dayanması yalnız ərzaq ehtiyaclarının aradan qaldırılması ilə bağlı deyildi. O xəbər almışdı ki, Şeyxəli xan Tabasaranın Ersi kəndində məskunlaşıb. General Lisaneviç hücumunu davam etdirərək Tabasaran ərazisinə keçmək və Şeyxəli xana sığınacaq verdiyi üçün Tabasaran əhalisinə dərs vermək istəyirdi. Samur çayı ətrafında olarkən general Lisaneviç Şəkidən olan atlı dəstəsinin geri qayıtmasına icazə verdi. Onun sözlərinə görə, bununla dəstənin ərzaq təminatı məsələləri də bir qədər yüngülləşdi (227).

Rus mənbələrinə görə, Samur çayı ətrafında olarkən general Lisaneviç keçmiş Bakı xanı Hüseynqulu xanın da Bakı xanlığı ərazisində rus işğalına qarşı üsyan qaldırmaq üçün Beşbarmaq məntəqəsinə gəlməsi barəsində məlumat aldı. Bildirilir ki, Hüseynqulu xan rus qoşunları tərəfindən Quba üsyanının yatırılması üçün apardığı döyüşlərin nəticələrindən xəbər tutandan sonra geri qayıtmalı oldu. General A.Tormosovun yazdığına görə, general Lisaneviç keçmiş Bakı xanını haqlamaq

üçün onun ardınca atlı dəstə göndərdi. Lakin dəstə Hüseynqulu xana yetişə bilməyib geri qayıtdı (228).

Oktyabr ayının 21-də Lisaneviçin rəhbərlik etdiyi qoşun dəstəsi Samur çayını adlayaraq Tabasaran ərazisində daxil oldu. Mövcud məlumatlara görə, rus qoşun dəstəsinin Şeyxəli xanın dayandığı Ersi kəndinə kimi hərəkəti oktyabrın 25-nə qədər davam etdi. Bildirilir ki, Ersi kəndinin hakimi Abdulla bəy keçmiş Quba xanı Şeyxəli xanın kürəkəni idi və ona görə də burada daha arxayın şəkildə yaşaya bilərdi. Ersi kəndi ətrafında Quba üsyançıları ilə rus qoşun dəstəsi arasında ciddi döyüş baş verdi. Yerli əhali arasında tələfatın qarşısının alınması üçün ailələr evlərindən köçürülərək dağlara aparıldı və kənd Şeyxəli xanın dəstəsinin döyüş səngərlərinə çevrildi. Ersi hakimi Abdulla bəy və onun ətrafında olan silahlılar da rus qoşunlarına qarşı mövqe tutdular. Lisaneviç Şeyxəli xanla bərabər, Ersi hakiminə də zərbə endirmək və onu ələ keçirmək niyyətində idi ki, Şeyxəli xan gələcəkdə bir də özünə Ersidə məskən tapmasın. Niyyətinə nail olmaq üçün general Lisaneviç Ersi kəndini mühasirəyə aldı. Bunun üçün onun kifayət qədər qüvvəsi var idi. Yeger alayının və Sevastopol muşketyor alayının bir neçə bölməsi polkovnik Meysterin rəhbərliyi altında qarşı tərəfdən Ersiyə aparan yolla bu kəndə doğru irəliləmək əmri aldı. 17-ci yeger alayının bölmələri mayor Fartuxovun rəhbərliyi altında Ersi kəndini sağdan və kapitan İlyaşenkonun rəhbərliyi altında olan tüfəngçilər dəstəsi isə sol tərəfdən mühasirəyə almalı idilər. General Lusaneviç də rus qoşunlarının əsas dəstəsi ilə bir qədər geridə Ersiyə doğru irəliləyirdi. Əvvəlcə cinahlardan göndərilmiş bölmələr Şeyxəli xanın tərəfdarlarını atəşə tutdular və bununla da döyüş başladı. Cinahdan hücum edən bölmələrin ardınca qarşı tərəfdən irəliləyən polkovnik Meysterin dəstəsi də döyüşə qatıldı. Bununla Şeyxəli xanın dəstəsi üç tərəfli atəş altına düşdü. Rus mənbələrindəki məlumata görə, polkovnik Meysterin dəstəsi Şeyxəli xanın silahlılarını özünə cəlb etməklə kəndin boşalmış ərazisinə daxil ola bildi. Ardınca da cinah dəstələri kəndin kənarındakı evləri nəzarət altına ala bildilər. General Lisaneviçin dəstəsi isə döyüşə qoşulmaqla əldə edilmiş üstünlüyü daha da möhkəmləndirdi və Şeyxəli xan dəstəsinin kənddən sıxışdırılmasına başlandı. Bununla da əslində, Ersi kəndinin taleyi həll edilmiş oldu (229).

Həm Şeyxəli xan, həm də Ersi hakimi Abdulla bəy adamları ilə birlikdə hündür dağlardan keçməklə geri çəkildilər və onların izlənməsi mümkün olmadı. Rus qoşun dəstəsi 6 gün Ersidə dayandı. Bu müddət ərzində general Lisaneviç Tabasaranda Şeyxəli xanın tərəfini saxlayan kəndlərə cəza dəstələri göndərdi. Rus qoşunlarına qarşı Şeyxəli xanın tərəfdarlarının müqavimət mərkəzi olan Ersi və Artik kəndi bütünlüklə

yandırıldı, rus işğalı ilə barışmayan bəylər və yerli əhali var-yoxdan çıxarıldı, kəndlərə rəhbərlik Rusiyaya meylli şəxslərə tapşırıldı. General A.Tormosov da etiraf edirdi ki, digərlərinə dərs olması üçün Şeyxəli xanın hərəkatını dəstəkləyənlərə ciddi cəza verildi. Tabasaranda üsyan əhval-ruhiyyəsinə yol verilməməsi üçün əhalidən girovlar götürüldü, yerli əhali isə Rusiyaya sədaqətli qalacağı barəsində and qəbul etdi. Bundan sonra rus qoşun dəstəsi Qubaya qayıtdı. General Lisaneviç üsyançılara qarşı cəza tədbirlərini burada da davam etdirdi. Üsyanda iştirak edən Quba bəyləri hamısı yaxalanaraq həbs olundu. Bu bəylər də amansızcasına cəzalandırıldı, onların var-yoxu və əmlakı bütünlüklə qarət edildi, kəndlərin və mahalların idarəçiliyinə Rusiyaya meylli şəxslər gətirildilər və onlar Rusiyaya sədaqət barəsində and qəbul etdilər. Bununla da oktyabr ayının sonuna Quba üsyanı yatırılmış oldu (230).

Yuxarıda qeyd edildiyi kimi, üsyanın yatırılmasından sonra general A.Tormosov Quba xanı məqamına Cahangir xan Şəqqaqini gətirmək istəyirdi. Amma general Lisaneviç onun Quba xanı təyin edilməsinə razı olmadı. General Lisaneviç Quba üsyanının yatırılmasına müvəffəq olsa da Quba əhalisinin iradəsi qarşısında geri çəkilib Cahangir xanın Quba xanı təyin edilməsinə razılıq vermədi. Əhalinin tələbi isə ondan ibarət idi ki, kənar adam Qubaya xan təyin edilməsin. Digər tərəfdən də Quba əhalisinin Cahangir xanla məzhəb ayrılığı var idi. General Lisaneviç Cahangir xanın əhalisi sünnü olan qubalılar arasında nüfuz qazana biləcəyini istisna edirdi. General Lisaneviç hətta Rusiya meylli olan Quba bəyləri ilə Cahangir xan arasında isti münasibət yaranacağına inanmırdı. Belə olduğu halda onun fikrincə, xan aparatının saxlanması üçün əlavə hərbi qüvvələrə ehtiyac yarana bilərdi. Ona görə də general Lisaneviç, ümumiyyətlə, Qubada xanlıq aparatını ləğv etməyi məqsədəuyğun saydı. Xanlığın idarə edilməsi üçün isə 4 nəfərdən ibarət xüsusi şura təşkil etdi. Şuranın rəhbəri vəzifəsinə rus qoşunlarının Qubadakı rəhbəri təyin edildi. Müvəqqəti olaraq bu vəzifə podpolkovnik Tixonovskiyə tapşırıldı. General Lisaneviç Qubanı tərk edəndən sonra podpolkovnik Tixanovski bir müddət orada rus qüvvələrinin rəhbəri kimi qalmalı idi. Şuranın digər üzvləri vəzifəsinə isə Həsən bəy Buduqlu, Məhəmməd bəy və Əlibəyov aldı Quba bəyi təyin edildilər (231).

1811-ci ilin yanvarında Qubadakı hərbi qüvvələrə müvəqqəti rəhbərlik podpolkovnik Jmenskiyə tapşırıldı O həm də Qubanı idarə edən Şuranın rəhbəri olmalı idi. General A.Tormosovun Jmenskiyə ilk tapşırığı Quba üsyanının fəal iştirakçılarının cəzalandırılması oldu. Rus qoşunları baş komandanlığında Quba üsyanı fəallarının siyahısı tərtib edildi. Bu siyahıya əsasən, daha fəal üsyançılar Sibirə sürgün edilməli

idilər. Digərləri isə Bakıda əmək mükəlləfiyyətinə cəlb olunmalı idi. Sibirə göndərilməli olanların üzərində formal olaraq hərbi məhkəmə qurulmalı idi. General A.Tormosov tələb edirdi ki, bu məhkəmələr uzun sürməsin. Məhkəmədə çıxarılan qərar A.Tormosov tərəfindən təsdiqlənməli və sonra da həbs olunanlar gəmilər vasitəsilə Həştərxana göndərilməli idilər (232).

General Lisaneviç və rus qoşunları baş komandanı general A.Tormosov güman edirdi ki, Quba üsyançılarına və Şeyxəli xana güclü bir zərbə vurulub və bundan sonra Qubada rus işğalına qarşı hər hansı bir hərəkat baş verə bilməz. Lakin hadisələrin gedişi onların təsəvvürünü heç də təsdiq etmədi və bir neçə aydan sonra istər Quba ərazisində, istərsə də Tabasaranda rus işğalına qarşı yeni bir hərəkat canlanmağa başladı. Şeyxəli xan yenə də canlanmağa başlayan bu hərəkatın hərəkətverici qüvvəsi idi. Mövcud məlumatlara əsasən, demək olar ki, havaların istiləşməyə başlaması ilə, yəni 1811-ci ilin aprel-may aylarında Şeyxəli xanın ətrafında rus işğalına qarşı mübarizə aparacaq yeni bir dəstə formalaşmışdı. Məsələn, general A.Tormosovun 1811-ci il may ayının sonlarına olan yazışmalarında bildirilir ki, Tabasaran və Akuşada Şeyxəli xanın dəstəsinə qoşulmaq üçün toplaşanlar vardır. Həmin yazışmalardan aydın olur ki, may ayının sonunda general-mayor Quryevin rəhbərliyi altında yeni formalaşan üsyançı dəstələrin dağıdılması üçün rus qoşun dəstəsi də göndərilmişdi (233).

General Quryevin rəhbərliyi altında olan qoşun dəstəsi 1811-ci ilin iyun ayının birinci yarısında Samur çayı ətrafında düşərgə saldı. Burada general Quryev məlumat aldı ki, rus işğalına qarşı hərəkat yenidən geniş miqyas alıb, tabasaranlılardan və akuşalılardan başqa avarlar və qazıqumıqlar da Şeyxəli xanla birlikdə Quba ərazisindəki rus qüvvələri üzərinə hücum etməyə hazırlaşırlar. Bildirilir ki, Dağıstan hakimlərinin rus işğalına qarşı mübarizəsinə kömək göstərilməsi üçün Qacar və Osmanlı dövlətlərindən nümayəndələr Qazlqumlıq hakimi Surxay xanla, Şeyxəli xanla və ləzgilərin nümayəndələri ilə görüşmüşlər. Mövcud məlumatlara görə, 1811-ci ilin yazında Samur boyu kəndlərdə Şeyxəli xan artıq 300 nəfərlik bir dəstə toplaya bilmişdi. Bu dəstənin rus işğalı ilə barışmayan akuşalılarla, ləzgilərlə və digərləri ilə birləşməsi rus qoşunları üçün yeni bir təhlükə yarada bilərdi. Həmin təhlükənin qarşısının alınması üçün rus qoşun dəstəsi Samur çayı istiqamətinə yeridildi. Bundan əlavə Qubadakı rus qoşun dəstəsinin möhkəmləndirilməsi üçün əlavə qərarlar qəbul edildi. Bu məqsədlə Bakıdan bir piyada bölüyü Qubaya gətirildi. Eyni zamanda general Quryevə çatdırıldı ki, zərurət yarandığı halda Şəki və Şirvanın rus qüvvələri də Qubaya göndərilə bilər.

Şəkidə bir tabor, Şirvanda isə 2 bölük dayanırdı. Şəki taborunun Xınalıq istiqamətindən Qubaya göndərilməsi münasib sayılırdı. Bundan başqa, Dərbənddə də Bakıya gəlməli olan bir tabor var idi. Bu taborun da istifadəsi nəzərdə tutulurdu (234).

Əldə edilən məlumatlara görə, akuşalılar daha çox fəallıq göstərir və onlar Şeyxəli xanın dəstəsi ilə birlikdə Quba üzərinə hücum etmək istəyirdilər. Bu hücumun qarşısının alınmması üçün A.Tormosov Tərki şamxalına məktub yazdı. General A.Tormosov Tərki şamxalından xahiş edirdi ki, Dağıstan hakimləri arasında yüksək nüfuza malik bir şəxs kimi akuşalıları Şeyxəli xanla birləşməkdən və Quba üzərinə hücum etməkdən çəkindirsin (235). Bir neçə gündən sonra məlumat alındı ki, akuşalılar yox, avarlar Şeyxəli xanla birləşərək Quba üzərinə hücum etmək üçün ciddi hazırlıq aparırlar. Bildirilirdi ki, Qazıqumıqlı Surxay xanın atlıları artıq Samur çayı ətrafında görünməyə başlayıblar. Rus zabitləri rus qoşunları üzərinə hücumun uzaqda olmadığını ehtimal edirdilər. Yaxınlaşmaqda olan təhlükənin qarşısının alınması üçün Dərbənddən Bakıya doğru hərəkət edən 2 piyada bölüyü Qubada saxlanıldı. İyun ayının 26-da isə Bakıdan Sevastopol alayının daha bir bölüyü Qubaya göndərildi (236).

General A.Tormosov Qafqazda öz fəaliyyətini bitirənə qədər Şeyxəli xanın və Dağıstan hakimlərinin Quba üzərinə ciddi bir hücumu baş vermədi. Bu da daha çox çoxsaylı Dağıstan hakimləri arasında mövcud olan fikir ayrırılığı ilə bağlı idi. Şyxəli xanın rus işğalına qarşı barışmaz mübarizəsinə isə heç də son qoyulmadı. Bu mübarizəni davam etdirmək üçün onun hələ müəyyən potensialı var idi.

5. Şəki və Şamaxı xanlıqlarında hərbi-siyasi vəziyyət

Tam süvari generalı A.Tormosovun Qafqazda hakimliyi dövründə Şəki və Şamaxı xanlıqlarında mövcud olan hərbi-siyasi vəziyyət çox ciddi şəkildə nəzarət altında saxlanılırdı. Baxmayaraq ki, Qacar qoşunlarının Arazın şimalına təkrarlanan yürüşləri zamanı bu xanlıqlar döyüş əməliyyatlarından kənarda qalmışdı, bununla belə həmin xanlıqlar daxilində formalaşan hərbi-siyasi vəziyyət bütünlükdə Cənubi Qafqazda mövcud olan hərbi-siyasi şəraitə ciddi təsir göstərə bilərdi. Ona görə də bu xanlıqlar ərazisində baş verən hadisələr rus qoşunları tərəfindən daha ciddi olaraq izlənilir və mövcud vəziyyətlə bağlı müvafiq addımlar atılırdı.

Şəki xanlığının vəziyyəti, ruslar tərəfindən Şəkiyə xan təyin edilmiş Cəfərqulu xanın Rusiyaya bağlılığı rus qoşunları rəhbərliyini təmin edirdisə, Şamaxı xanı Mustafa xan isə rus generallarının narahatçılığına

səbəb olurdu. Rus təbəəliyini qəbul etmək məcburiyyətində qalsa da Mustafa xanın ruslara inandığı və etibar etdiyi açıq şəkildə hiss olunmurdu və bir çox hallarda isə onun Rusiyaya etimadsızlığına əsas verən hərəkətləri rusların kəskin narazılığı ilə qarşılaşırdı. Məsələn, 1809-cu ilin yay döyüş mövsümünün başlanması ərəfəsində məlumat alındı ki, keçmiş Şəki xanı Səlim xanın Mustafa xanla təmasları var və Kür çayı ətrafında sığınacaq tapmış Səlim xanın ərzaq və digər zəruri əşyalarla təmin edilməsinə Mustafa xan kömək göstərir. Rus qoşunları rəhbərliyi Səlim xana Rusiyanın barışmaz düşməni kimi yanaşırdı və ona görə Mustafa xanın Səlim xanla olan münasibətləri də Mustafa xanın Rusiyaya olan münasibəti kimi dəyərləndirilirdi. Mustafa xanın yanında olan podpolkovnik Tixonovskiyə tapşırıq verilmişdi ki, o, Şamaxı xanının Səlim xanla olan bütün təmaslarının kəsilməsinə çalışsın. Podpolkovnik Tixonovski ilə görüşündə isə Mustafa xan ona bildirdi ki, onun Səlim xanla olan təmaslarından general A.Tormosovun məlumatı vardır. Mustafa xan onu da bildirdi ki, Səlim xan Qacar sarayından çox ehtiyat edir və Qacar qoşunlarının ehtimal olunan yürüşləri zamanı onun vəziyyəti xüsusilə pisləşə bilər. Ona görə Mustafa xan podpolkovnik Tixonovski vasitəsilə rus generalları qarşısında Səlim xana Şamaxı xanlığında sığınacaq verilməsi və ya onunla əlaqələrin birdəfəlik kəsilməsi haqqında məsələ qaldırdı (237).

Mustafa xanın Səlim xanla olan münasibətləri Mustafa xanla Şəki xanı Cəfərqulu xanın arasındakı münasibətlərin gərginləşməsinə səbəb olmuşdu. Səlim xan Şəki xanlığına olan iddialarından heç də əl çəkməmişdi. Ona görə də Səlim xanla Mustafa xan arasında təmasları Cəfərqulu xan ona qarşı istiqamətlənmiş qəsd kimi qəbul edirdi. Rus qoşunları komandanlığı isə Şəki və Şamaxı xanları arasında gərginliyin mövcud olmasını rus maraqlarına cavab verməyən bir vəziyyət kimi qəbul edirdi. Ona görə general A.Tormosov bu vəziyyətə son qoymaqla Mustafa xanla Cəfərqulu xanı barışdırmağa çalışırdı.

Qeyd etmək lazımdır ki, 1809-cu ilin yayında Qacar qoşunlarının Arazın şimalına hücumu ərəfəsində Səlim xan general A.Tormosova məktub göndərdi və onun geri qayıtmasına icazə verilməsini istədi. Şəki xanlığından kənarlaşdırılandan sonra Səlim xan Arazın cənubuna çəkilməli olmuşdu. Lakin qürbətdə yaşamağa taqəti çatmadığı üçün o, general A.Tormosova müraciət etdi. Səlim xan bu məktubunda qacarlarla əlaqəsini kəsdiyini, Rusiya dövlətinə qarşı cinayət işlətmədiyini və geri qayıtmaq istədiyini bildirirdi. Səlim xan onu da yazırdı ki, Mustafa xan ona görə zəmanət verə bilər. General A.Tormosov bu məktubu müəyyən maraqla qarşıladı. O da digər rus generalları kimi Səlim xana qarşı

barışmaz mövqedə idi. Bununla belə, o hesab edirdi ki, Səlim xana Rusiya nəzarəti altında olan ərazilərdə sığınacaq vermək və beləliklə də onun fəaliyyətini nəzarət altında saxlamaq olar. General A.Tormosov Şəki xanına yazdığı məktubunda Səlim xanla bağlı mövqeyini ona da açıqladı və bildirdi ki, Səlim xanın qacarlarla əməkdaşlığındansa, nəzarət altında olan ərazilərdə ona sığınacaq verilməsi daha məqsədəuyğundur. General A.Tormosov Səlim xana göndərdiyi məktubunda ona çatdırırdı ki, Rusiya nəzarətində olan ərazilərdə ona sığınacaq verilməsi haqqında Rusiya imperatoruna vəsatət göndərilmişdir. General eyni zamanda xəbərdar edirdi ki, Rusiya imperatorundan cavab alana qədər Səlim xan ruslara qarşı heç bir hərəkətə yol verməsin. Əks təqdirdə o sığınacaq almaq üçün bütün şanslarını itirə bilər (238).

Rusiya imperatorunun razılığı olacağı təqdirdə general A.Tormosov keçmiş Şəki xanını ailəsi ilə birlikdə Tiflisə köçürməyi planlaşdırırdı. Burada o həm Şəki xanlığından, həm də Mustafa xandan uzaq olmaqla ruslar üçün xüsusi bir narahatlıq yarada bilməzdi. Əgər Tiflisdə də onun Şəki xanlığına olan iddiaları ilə bağlı fəaliyyəti müşahidə olunsaydı, onda Səlim xan ailəsi ilə birlikdə Rusiyanın şəhərlərindən birinə köçürülə bilərdi Rusiya imperatoru tərəfindən Səlim xana sığınacaq üçün razılıq verilməyəcəyi təqdirdə isə o, ailəsi ilə birlikdə Arazın cənubuna sıxışdırılmalı idi. Bütün bunlarla bərabər, A.Tormosov Cəfərqulu xanla Mustafa xanı barışdırmaq və onların arasındakı gərginliyi sovuşdurmaq istəyirdi. General Quryevə də tapşırıq verilmişdi ki, adları çəkilən xanların barışdırılması üçün lazımi işlər görsün (239).

Cəfərqulu xan onunla Mustafa xan arasında olan gərginliyin günahını Şamaxı xanında axtarmağı israr edirdi və bildirirdi ki, Rusiyaya sədaqətli olmayan xanlarla yaxşı münasibətdə ola bilməz. Onun dediklərinə görə, Mustafa xan da Rusiyaya sədaqəti ilə seçilmirdi və Rusiyaya xəyanət etmiş şəxslərlə dostluq əlaqələrinə malik idi. Şəki xanı sonra da əlavə edirdi ki, Mustafa xan Şəki əhalisini Səlim xanla birləşməyə təhrik edir, Şəki xanlığı ərazisindən Şamaxı xanlığına qaçanları geri qaytarmır, Şəki xanlığına basqınlar edən şamaxılıları isə cəzalandırmır (240).

Bununla belə, general A.Tormosov Şəki və Şamaxı xanlarının barışmasına təkid göstərirdi və bununla bağlı general Quryev də bu xanların barışdırılması üçün 1809-cu il iyul ayının sonunda konkret addım atdı. Qərara alındı ki, Şəki xanlığının sərhədində general Quryevin iştirakı ilə Mustafa xanla Cəfərqulu xanın görüşü keçirilsin, qarşılıqlı iradlara cavab tapılsın və sonra da onlar barışdırılsın. İlk baxışda hər iki xan qarşılıqlı barışığa razılıq verdilər. Görüş general Quryevin iştirakı ilə Göyçay çayı ətrafında baş tutmalı idi. 1809-cu il iyul ayının sonlarında

general Quryev Salyandan Göyçaya doğru hərəkətə başladı və Mustafa xana da xəbər etdi ki, görüş yerinə gəlsin. Cəfərqulu xan da əvvəlcədən görüş yeri və tarixi haqqında xəbərdar edilmişdi. Bu zaman Qacar qoşunlarının artıq Arazın şimalına hücumu başlamışdı və Qacar yürüşünün qarşısının alınması üçün rus qoşunları komandanlığı Mustafa xandan 1000 nəfərlik dəstə təşkilini və göndərməsini xahiş etmişdi. General Quryevin xəbərdarlığı əsasında Mustafa xan Şəki xanı ilə görüşmək üçün Şamaxıdan yola düşdü. Yolda ikən general Nebolsindən xəbər aldı ki, Qacar qoşunları Xudafərin körpüsü ətrafındadır. General Nebolsin əvvəlcə 1000 nəfərlik dəstənin hazırlanıb göndərilməsini, ikincisi isə sahələrdə yetişmiş olan əkin məhsullarının yığılmasını və bununla da məhsulun Qacar qoşunları tərəfindən tələf edilməsinə yol verilməməsini xahiş etdi. General Quryev yazırdı ki, Mustafa xan general Nebolsindən alınan tapşırığın tezliklə yerinə yetirilməsi üçün yarı yoldan geri qayıtmalı oldu (241).

Şəki xanı Cəfərqulu xan isə görüş yerinə gələrək üç gün Mustafa xanın yetişməsini gözlədi və planlaşdırılan bu görüşün baş tutmamasından xeyli narazı qaldı. Mustafa xanın geri qayıtmasının səbəbi haqqında məlumatı da Cəfərqulu xan ciddi qəbul etmədi. Bu görüşün baş tutacağı təqdirdə Şəki xanına görə onlar arasında mövcud olan anlaşılmazlığa aydınlıq gətirilə bilərdi. İki xan arasında yaranmış gərginliyi Cəfərqulu xan bütünlükdə bəzi qonşu xanların Rusiya maraqlarına uyğun gəlməyən mövqeyində görürdü və buna görə qonşu xanları qınayırdı. Göyçay çayı ətrafında görüşün baş tutacağı halda iki xan arasında Səlim xan haqqında da bir aydınlıq hasil ediləcəyi gözlənilirdi. Görüşün baş tutmadığına görə, Cəfərqulu xanın Səlim xana qarşı münasibəti daha da sərtləşdi. Bununla bağlı Cəfərqulu xan öz mövqeyini general A.Tormosova da yazdı və o, Səlim xana sığınacaq verilməsi planına qarşı çıxdı. Cəfərqulu xana görə, bu sığınacağın verilməsi ilə Səlim xan Şəki xanlığına iddiasından imtina etməyəcək və Mustafa xan da Şəki xanlığı iddiasında olan Səlim xana kömək edəcəkdi. Cəfərqulu xan general A.Tormosovu inandırmağa çalışırdı ki, sığınacaq almaqla Səlim xan öz mövqeyini dəyişməyəcək. Cəfərqulu xan təklif edirdi ki, Səlim xan Tiflisə çağırılsın. Əgər o, ailəsi ilə Tiflisə gələrdisə, onda ona sığınacaq verilməsi haqqında Rusiya imperatoru qarşısında məsələ qaldırmaq olardı (242).

Qacar qoşunlarının Arazın şimalına olan yürüşü Şamaxı və Şəki xanları arasında gərginliyi bir müddət arxa plana keçirdi. General A.Tormosov da Mustafa xanın yolun yarısından geri qayıtmasını doğru saydı və general Quryevə göndərdiyi məktubunda A.Tormosov bildirirdi

ki, hazırda belə işlərlə məşğul olmağın vaxtı deyil. Qacar qoşunlarının Arazın cənubuna yürüşə başlaması bölgəyə yenicə gəlmiş general A.Tormosovun da diqqət mərkəzində olan başlıca məsələ idi. Bölgədə yetərli sayda qoşun dəstəsi olmadığı üçün general A.Tormosov da Şamaxı xanına verilən tapşırığın tezliklə yerinə yetirilməsində maraqlı idi. Məhz bu tapşırığın icrasını əsas tutaraq Mustafa xan iyul ayının 25-də Girdiman çayı yaxınlığından geriyə üz tutdu (243).

General A. Tormosov iki xan arasında görüşün baş tutmamasını əslində razılıqla qarşıladı və onun fikrincə iki xan arasında anlaşma alınmasaydı, onların arasında narazılıqlar daha da genişlənərdi və bu da Rusiyanın maraqlarına zərbə vura bilərdi. Belə bir vəziyyətdə A.Tormosovun yazdığına görə, həmin xanlar bir-birinə daha çox ziyan yetirməyə çalışmaqla Qacar qoşunlarının dəf edilməsinə elə də maraq göstərməzdilər. Baş komandan təklif edirdi ki, Şəki və Şamaxı xanlarının barışması Qacar qoşunlarının hücumunun dayandırılmasından sonrakı dövrə saxlanılsın (244). Mövcud vəziyyətdə isə hər iki xanın öz dəstəsi ilə rus qoşunlarına kömək etməsi general A.Tormosovun daha çox diqqət dairəsində idi.

Lakin həm Mustafa xan, həm də Cəfərqulu xan rus generallarının tələb etdiyi vaxt ərzində dəstə toplayıb təqdim edə bilmədilər. Həmin xanların hər birinin bununla bağlı öz izahatları var idi. Mustafa xan Göyçay yaxınlığından geri qayıdandan sonra podpolkovnik Tixonovski onunla görüşdü və rus generallarının tələbini ona çatdırdı. Bu zaman artıq dəstənin toplanmasına başlanmışdı Lakin bu iş lazımi sürətlə getmirdi. Podpolkovnik Tixonovskinin təzyiq göstərmək cəhdlərinin qarşısında Mustafa xanın tələbi bu oldu ki, dəstə toplanan kimi onu general Nebolsinin ixtiyarına göndərəcəkdir. Podpolkovnik Tixonovskinin yazdıqlarından belə bir ehtimal da yaranır ki, Şamaxı dəstəsinin toplanmasında ləngliyə yol verilməsi xanlığın özünün gücləndirilməsi planları ilə bağlı idi. Çünki Qacar qoşunlarının Şamaxı xanlığına yürüşü haqqında da xəbərlər alınmışdı. Həmin hücumdan salamat çıxmaq üçün yerli əhalinin və mal-qaranın artıq dağlara köçürülməsinə başlanmışdı (245). Belə bir vəziyyətdə silahlı dəstənin Şamaxıda olması xanlığın müdafiəsi baxımından əhəmiyyət kəsb edirdi.

Şəki xanı Cəfərqulu xan isə dəstənin vaxtında rus qoşunları ixtiyarına verilməməsini başqa səbəblərlə əlaqələndirirdi. Şəki xanı ona düşmən olan iki şəxsin, Səlim xanla Məhəmməd Həsən xanın yarada biləcəyi qarışıqlığı əsas tutaraq dəstəni göndərmədiyini bildirirdi. Onun fikrincə, Şəki sərhədləri yaxınlığında qərar tutmuş Səlim xan istənilən vaxt Şəki əhalisini kütləvi çıxışa təhrik edə bilərdi. Cəfərqulu xan ondan da şikayət edirdi ki, Mustafa xan öz silahlı dəstəsinin tərkibinə cəlb

etmək istədiyi şəxslər belə bir təklifi alan kimi ailəsi ilə birlikdə Şamaxı xanlığı ərazisinə yollanır və Şamaxı xanı da onları qəbul edirdi. Dəstənin toplanmamasının bir səbəbini də Səlim xanın Şəki əhalisinə göstərdiyi təsirdə görən Cəfərqulu xan bir daha general A.Tormosov qarşısında onun Şamaxı xanlığından uzaqlaşdırılmasını xahiş etdi.

Cəfərqulu xan rəqəm göstərməsə də artıq müəyyən sayda dəstə toplandığını bildirirdi. Avqust ayının əvvəllərində bu dəstə Cəfərqulu xanın əmisi oğlu Rüstəm bəyin rəhbərliyi altında döyüş zonasına göndərildi. Şəki xanı dəstəyə toplaşanların hamısının döyüş zonasına çatacağına şübhə edirdi və özü də bildirirdi ki, dəstəyə cəlb edilənlərdən artıq 50 nəfər dəstəni tərk edib getmişdir. Rus zabitlərinin yazışmalarına görə, 1809-cu il avqust ayının ortalarına rus qoşunlarının ixtiyarına 350 nəfərlik Şəki dəstəsi gəlmişdi (246).

Podpolkovnik Tixonovski Şamaxı xanının topladığı dəstənin bir hissəsini isə avqust ayının ortalarında keçmiş Bakı xanı Hüseynquıu xanın rəhbərliyi altında bir neçə xanın Salyana hücumu zamanı Salyanın mühafizəsinə göndərdiyini yazırdı (247). Məlumdur ki, həmin hücumda Mustafa xanın qacarlara sığınmış qardaşı Həşim bəy də iştirak edirdi. Başqa bir məlumatda isə bildirilir ki, nəzərdə tutulan 1000 nəfərin yerinə Mustafa xan general Nebolsinin sərəncamına 400 nəfərlik dəstə göndərdi və bu dəstəyə rəhbərlik də Mustafa xan tərəfindən Şamaxıda nüfuzu olmayan bir bəyə tapşırıldı (248).

Mustafa xanın dəstəsinin təşkilindəki bu ləngliyi rus generallarının ona olan inamsızlığını daha da gücləndirdirdi və rus generalları ehtiyat edirdilər ki, Mustafa xanla qacarlar arasında gizli əlaqələr yaranmış olsun. Əldə olunmuş məlumatlar da Mustafa xanla bağlı rusların şübhələrini daha da artırırdı. Məsələn, 1809-cu ilin sentyabrında Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərinə yürüşünün qızğın vaxtında Mustafa xanın və Qarabağ xanı Mehdiqulu xanın Fətəli şaha məktub yazdıqları və keçmiş Şəki xanı Səlim xanın ətrafında olan Hacı Rəfi adlı birisi ilə məktubu Qacar sarayına göndərmələri haqqında məlumat alındı. Qacar qoşunlarının hücumu dövründə Mustafa xanla Mehdiqulu xanın daha iki dəfə Fətəli şaha məktub göndərdikləri barədə ruslara məlumat çatdırıldı. Yayılan xəbərlərə görə, Mehdiqulu xan rus qoşunlarının məğlubiyyətə düçar olması, Qacar qoşunlarının Tiflisə yetişməsi haqqında məlumatı ətrafındakılara da çatdırıbmış. Mustafa xan da guya bu məlumatların doğruluğuna inanmış və topladığı qoşun dəstəsinin bir hissəsini Səlim xana vermiş və Səlim xan da Şəki xanlığı ərazisinə daxil olaraq bir neçə kəndi yandırmışdı. Sonradan Şəki xanının dəstəsi Səlim xanı geri çəkilməyə məcbur edibmiş. Bu məlumatların doğru olub-

olmadığı ilə bağlı general A.Tormosov podpolkovnik Tixonoxskiyə tapşırırdı ki, araşdırma aparsın, Şamaxı dəstəsinin Səlim xanın rəhbərliyi altına verilməsinin doğruluğunu dəqiqləşdirsin (249).

Podpolkovnik Tixonovski general A.Tormosovun tapşırığı əsasında Mustafa xanın gizli əlaqələri, Səlim xanın Şamaxı xanından dəstə alıb-almaması barədə araşdırma apardı. Amma aydın bir nəticəni ortaya çıxara bilmədi. Bir çox suallara o heç cavab tapa bilmədi. Bütünlükdə isə o, Mustafa xan haqqında mənfi bir rəy hazırladı və general A.Tormosova göndərdi. Podpolkovnik Tixonovskinin yazdığına görə, Mustafa xan general Nebolsinin tapşırığına əsasən, 1000 nəfərlik qoşun dəstəsini təşkil etməməsi, yalnız 400 nəfərlik dəstənin Qarabağa göndərməsi, nüfuzlu bəylərin övladlarının girov kimi Tiflisə göndərilməməsi, keçmiş Şəki xanı Səlim xanla əlaqələri kəsməməsi Mustafa xandan şübhələnməyə əsas verirdi. Podpolkovnik Tixonovski Mustafa xanın Fətəli şaha Hacl Rəfi vasitəsilə məktub göndərməsini təsdiqləyə bilmədi. Eləcə də Fətəli şahın Mustafa xana məktub göndərməsi haqqında onun əlində heç bir sübut yox idi. Amma Səlim xanın Qacar sarayına məktub göndərməsi podpolkovnik Tixonovskiyə bəlli idi. Bu məktubun göndərilməsində Mustafa xanın iştirakının olub-olmadığını isə yenə də təsdiq edə bilmirdi. Səlim xanın Şəki xanlığının Ağdaş mahalına hücumu və orada kəndləri atəşə tutması faktı bəlli idi. Bu zaman Şamaxı atlılarının bu yürüşdə iştirakını təsdiq edə bilməsə də podpolkovnik Tixonovski Mustafa xanın bu yürüş zamanı Səlim xanı dəstəklədiyini ehtimal edirdi. Onun fikrincə, bununla Mustafa xan gərgin münasibətlərdə olduğu Cəfərqulu xanı cəzalandırmaq istəyirdi (250).

Səlim xanın Şəki xanlığı üzərinə basqın etməsi, 1809-cu ilin sonlarına yaxın rus generallarının Mustafa xana və Cəfərqulu xana olan münasibətləri yenidən gündəmə gəldi. Səlim xanın basqınları yalnız Şəki xanlığına yaradılan narahatçılıq kimi yox, eyni zamanda Rusiyanın maraqlarına qarşı yönəldilmiş əməllər kimi dəyərləndirildi. Səlim xanın məsələsi ilə bağlı general A.Tormosov 1809-cu il dekabr ayının 9-da həm Mustafa xana, həm də Cəfərqulu xana məktub göndərdi. Baş komandan həmin məktublarında Mustafa xana narazılığını çatdırdısa, Cəfərqulu xana isə Səlim xanla bağlı öz dəstəyini ifadə etdi. Mustafa xana çatdırıldı ki, Səlim xan şirvanlıların köməyi ilə Şəki xanlığı ərazisinə basqın edib və yerli əhaliyə məxsus mal-qaranı aparıbdır. Şirvanlıların Səlim xana köməyini isə A.Tormosov Mustafa xanın Səlim xana dəstəyi kimi qiymətləndirirdi. Ona görə də A.Tormosov Şamaxı xanından bir daha tələb etdi ki, Səlim xanla olan əlaqələrini kəssin. Əks təqdirdə, general Tormosov Mustafa xanın Rusiyaya sədaqətsizliyi barədə Rusiya

imperatoruna məruzə edəcəyi və bununla da Mustafa xanın Rusiya imperatorunun qəzəbi ilə qarşılaşacağı ilə hədələdi. Eyni zamanda o, Mustafa xandan tələb etdi ki, Şəki xanlığı ərazisindən talan edilmiş əmlak öz sahiblərinə geri qaytarılsın (251).

Cəfərqulu xana göndərdiyi məktubunda isə general A.Tormosov bildirdi ki, Səlim xanın tapılması və tutulması üçün general Nebolsinə ciddi tapşırıq vermişdir. Həmin tapşırığa əsasən general Nebolsin bir bölük piyada ilə Şəki xanlığının atlı dəstəsini Səlim xanın axtarışına göndərməli idi. Səlim xan ya tutulmalı, ya da Arazın cənubuna sıxışdırılmalı idi (252). Amma mövcud olan məlumatlar göstərir ki, Səlim xanı ələ keçirmək heç də mümkün olmadı.

1809-cu ilin döyüş mövsümünün başa çatması ilə yaranan nisbi sakitlik heç də uzun sürmədi. Əsgəran danışıqlarının nəticəsiz başa çatmasından az sonra Qacar qoşunlarının Arazın şimalına yeni hücumu baş verdi və bu yürüş digər xanlıqlar kimi Şamaxı və Şəki xanlıqları ərazisindəki hərbi-siyasi şəraitə də öz təsirini göstərdi. Doğrudur, Qacar qoşunlarının hücumu geniş vüsət almadı. Bununla belə, rus generalları Qacar qoşunlarının qarşısını əminliklə almaq üçün yenidən Şamaxı və Şəki dəstələrinin təşkilinə göstəriş verdilər. General A.Tormosov hələ 1810-cu ilin may ayında Cəfərqulu xana 300 nəfərlik dəstə təşkil etməyi və ilkin zərurət elan olunan kimi bu dəstəni general Nebolsinin sərəncamına göndərməyi tapşırdı. Bundan əlavə general A.Tormosov Şəki xanı qarşısında 500 nəfərdən ibarət ikinci dəstənin təşkil edilməsi tapşırığını qoydu. Bu qoşun dəstəsinin Qarabağ xanlığı ərazisinə, Xudafərin körpüsü ətrafına göndərilməsi nəzərdə tutulurdu. General A.Tormosov Qarabağ xanlığının Araz çayı boyu sərhəd xəttini müşahidə altında saxlamaqla fürsət yarananda Arazın cənubuna basqınlar təşkil etməyi də planlaşdırırdı. Güman edilirdi ki, belə basqınlar qacarların zəifləməsinə kömək edəcəkdir.

Belə basqınların həyata keçirilməsi üçün Qarabağ və Şəki xanlıqlarının atlı dəstələrinin birləşdirilməsi və bu birləşdirilmiş dəstəyə Cəfərqulu xanın qardaşının rəhbər təyin edilməsi də A.Tormosovun planlarına daxil idi. General A.Tormosov eyni zamanda Cəfərqulu xana xanlıq daxilində asayişin qorunmasını diqqət mərkəzində saxlamağı tapşırdı. Bunun üçün o, Cəfərqulu xandan xanlıq daxilində əlavə 2 minlik atlı dəstəsinin təşkilini istədi. Verilən tapşırıqların icrası üçün daimi hazırlığa malik olmalı olan bu dəstə həm xanlıq daxilində asayişi qorumalı, başqa sözlə rus işğalına qarşı müxalifətçiliyin qarşısını almalı, həm də döyüş zonasında xüsusi ehtiyac yarananda ora göndərilməyə hazır olmalı idi. General A.Tormosov Şəki xanından onu da tələb etdi ki,

Şamaxı xanına da silahlı kömək göstərməyə hazır olsun. Çünki məlumat alınmışdı ki, Qacar qoşunlarının bir dəstəsi də Şamaxı xanlığı istiqamətində irəliləyəcəkdir. A.Tormosov ümid edirdi ki, belə bir hadisə baş versə Cəfərqulu xan Mustafa xanla olan incikliyini kənara qoyacaq və Şamaxı xanlığının mühafizəsinə yardım göstərəcəkdir (253).

Bu, əlbətdə ki, general A.Tormosovun Mustafa xana qayğısından irəli gəlmirdi. Belə bir xahiş daha çox Mustafa xanın Rusiya təsirindən uzaqlaşmaq imkanının qarşısının alınması üçün edilirdi. Görəcəyi bu işlərin əvəzində A.Tormosov Şəki xanını şirnikləndirirdi və bildirirdi ki, onun oğlu İsmayıl üçün Peterburqda "Şəki xanının varisinə" adlı brilyantlarla bəzədilmiş qızıl medal hazırlanacaqdır və yaxın vaxtlarda ona çatdırılacaqdır.

1810-cu ilin aprel ayında Əsgəranda aparılan danışıqlardan sonra general A.Tormosov Şamaxı xanı Mustafa xanla görüşmək istədi. General A.Tormosovun yazışmalarından aydın olur ki, bununla bağlı o, Mustafa xana məktub göndərdi və onu Əsgərana dəvət etdi. Rus generalı ilə görüşməyə meylli olmayan Mustafa xan isə xəstə olduğunu əsas gətirərək A.Tormosovla görüşə getmədi. General A.Tormosov bu görüşün baş tutmamasına təəssüfləndiyini ifadə etsə də, vəziyyətin mürəkkəbliyini də ona çatdırdı. General A.Tormosov ehtimal olunan Qacar hücumlarının qarşısının alınması üçün xanlıq daxilində 3 minlik dəstəsinin təşkil olunmasını istədi. Eyni zamanda ona da təklif edildi ki, fürsət yarananda Arazın cənubuna basqınlar etsin, Qacar xanlarının mal-qarasını, ailələrini öz xanlığı ərazisinə gətirsin. Mustafa xanın təşkil etdiyi dəstə eyni zamanda rus qoşunlarına kömək göstərilməsi üçün də hazır olmalı idi. Başqa bir məktubunda isə general A.Tormosov Şamaxı xanının diqqətini başlıca olaraq məhz xanlığın mühafizəsinə cəlb edirdi. Qacar qüvvələrinin Şamaxı xanlığına girməsinin qarşısının alınmasını general A.Tormosov qarşıda dayana əsas vəzifələrdən biri sayırdı. Ona görə də general A.Tormosov Şamaxı xanlığı qoşunlarının sayının artırılmasını lazım bilirdi (254).

Elə bu əsnada general A.Tormosov Şamaxı xanının Qacar nümayəndələri ilə və yenidən Arazın cənubuna çəkilmiş Səlim xanla təmasları haqqında məlumat aldı. Ona çatan məlumatlara görə, Arazın şimalına yürüşə hazırlaşan Qacar qoşunlarının bir dəstəsi Şamaxı xanlığı üzərinə hərəkət etməli və Mustafa xanın ruslardan qopmasına nail olunmalı idi. Bundan başqa, Mirzə Bozorgun tapşırığı əsasında Səlim xan da öz nümayəndəsini Mustafa xanın yanına göndərdi ki, Mustafa xanın Qacar sarayı ilə bağlılığını daha da artırsın. Bu xəbərlərin araşdırılmasını general A.Tormosov yenidən podpolkovnik Tixonovskiyə tapşırdı. Qeyd

etmək lazımdır ki, general A.Tormosov Şamaxı xanının bəzi əlaqələrindən şübhələndiyi kimi, Mustafa xan da general A.Tormosovun bəzi hərəkətlərindən şübhələnməyə başladı. Məsələn, A.Tormosov Şamaxı xanlığına iddialı olan Qasım xanla açıq təmas saxlayırdı və Mustafa xanın nəzərincə, bununla A.Tormosov da Qasım xanın Şamaxı xanlığına iddiasını müdafiə edirdi. Bununla bağlı, Mustafa xan general A.Tormosova məktub göndərdi. General A.Tormosov şübhəsiz ki, Mustafa xanın iradlarını qəbul etmədi və Mustafa xanın qardaşı Qasım xanla təmaslarının Mustafa xana qarşı yönəlmədiyini bildirdi. General A.Tormosov ona etibar etdiyini bildirdi və əlavə etdi ki, Qacar qoşunları Şamaxı xanlığı üzərinə hücum etsələr, onda rus qoşunları onun köməyinə gələcəkdir (255).

Bununla belə, podpolkovnik Tixonovski general A. Tormosovun tapşırığı əsasında Mustafa xanın şübhəli əlaqələri haqqında məlumatları araşdırmağa, fəaliyyətini isə təhlil etməyə başladı. Podpolkovnik Tixonovski bildirdi ki, Qacar hücumu ehtimalı olmasına baxmayaraq, Mustafa xan qoşun dəstəsi toplanması haqqında general A.Tormosovun verdiyi tapşırığı icra etmir. Mustafa xan bu işə başlamağı vəd etsə də bu istiqamətdə onun fəallığı duyulmurdu. Podpolkovnik Tixonovski təəccüblə bildirirdi ki, Mustafa xan Arazın cənubuna talançı basqınlar edilməsi haqqında da general A.Tormosovun tövsiyələrinə məhəl qoymur. Buna görə podpolkovnik Tixonovski general A.Tormosov qarşısında vəsatət qaldırırdı ki, baş komandan bir daha Mustafa xana məktub yazsın və əvvəlki tapşırıqlarını bir daha təkrarlasın. Podpolkovnik Tixonovski onu da çatdırırdı ki, Mustafa xan qoşun toplamaq əvəzinə təcili şəkildə ərzaq ehtiyatları toplamaqla məşğuldur. Özü də bu ərzaq ehtiyatları Mustafa xanın yaşadığı Fitdağ qalasında deyil, Mədrəsə kəndində aparılırdı. Mustafa xanın keçmiş Quba və Şəki xanları olan Şeyxəli xanla və Səlim xanla əlaqələrinin mövcudluğu da təsdiqlənirdi. Podpolkovnik Tixonovskiyə görə, Səlim xan Şamaxı xanını ruslardan qopmağa sövq edirdi və bu addımı atacağı təqdirdə ona Fətəli şah adından böyük mükafatlar vəd olunurdu. Bunlardan sonra podpolkovnik Tixonovski belə bir nəticəyə gəlirdi ki, əvvəlki dövrlə müqayisədə Mustafa xanda böyük dəyişikliklər baş verib və o, Qacar qoşunlarının ehtimal olunan hücumunun qarşısını almağa da heç bir hazırlıq görmür. Bütünlükdə, podpolkovnik Tixonovskinin gəldiyi qənaət belə idi ki, Mustafa xan Qacar qoşunlarına qarşı vuruşmaq istəmir, Mustafa xan artıq Rusiya dairəsindən çıxmağa çalışır və bunların qarşısının alınması üçün Şamaxı xanlığı ərazisinə rus qoşun qüvvələri göndərilməlidir (256).

Məlumdur ki, general A.Tormosovun sərəncamında əlavə qüvvələr yox idi. Qacar qoşunlarının hücum təhlükəsi ilə bərabər, Qubada da rus

işğalına qarşı üsyan yetişməkdə idi. General A.Tormosov bu üsyanın qarşısının alınması üçün lazımi qüvvə tapa bilmədiyi halda, Şirvana qoşun dəstəsinin göndəriləcəyi istisna edilirdi. Mustafa xana qarşı cəza tədbirlərinin həyata keçirilməsi üçün də baş komandanın ehtiyat qüvvəsi yox idi və həm də mövcud mürəkkəb şəraitdə buna ehtiyat edirdi. Ona görə A.Tormosov Şamaxı xanının qacarlarla yaxınlaşması ehtimalının qarşısının alınması üçün mümkün dinc vasitələrə əl atdı. Cahangir xan Şəqqaqi general A.Tormosov tərəfindən Mustafa xanın yanına göndərildi ki, Şamaxı və Şəki xanlarının barışmasına vasitəçilik etsin. Şəki xanından tələb olundu ki, Mustafa xanla barışmağa etiraz etməsin. A.Tormosov podpolkovnik Tixonovskiyə tapşırdı ki, Cahangir xanın vasitəçilik işlərinə yardımçı olsun. Podpolkovnik Tixonovski münasib bildiyi uyğun vasitələrdən istifadə etməklə Mustafa xanı bu barışığa sövq etməli idi. A.Tormosov da yazırdı ki, adları çəkilən xanlar arasında barışığın əldə edilməsi Rusiyanın maraqlarına xidmət etmiş olardı. A.Tormosov, ümumuyyətlə, Cahangir xanı Şamaxıya göndərməkdə başqa məqsədi də var idi. O, istəyirdi ki, Cahangir xan bir müddət Mustafa xanın yanında qalsın, Qacar qoşunları geri çəkiləndən sonra Şamaxı xanlığı ərazisində 2 minlik qoşun dəstəsi təşkil edilsin və həmin qoşun dəstəsi Cahangir bəyin rəhbərliyi altında Arazın cənubundakı Şəqqaqi xanlığına hücum etsin və oradan Cahangir xanın ailəsini çıxarsın. Bütünlükdə isə təşkil edilmiş Şamaxı atlı dəstəsi yeger taboru ilə birləşərək Şamaxı xanlığı ərazisinin qorunmasına vəzifələndirilməli idi (257).

Digər tərəfdən A.Tormosov xanın qacarlara sarı meyllənə biləcəyinə inanmırdı. Baxmayaraq ki, Tixonovskinin təqdim etdiyi məruzələrə əsasən, yalnız belə bir qənaət əldə etmək mümkün idi. Həmin günlərdə həm A.Tormosovun apardığı araşdırmalar, həm də Mustafa xanın ona göndərdiyi məktub A.Tormosovda belə bir qənaət yaratdı ki, verilən vədlərə inanaraq Mustafa xan qacarlarla əməkdaşlığa getməyəcək, özünün müstəqilliyinin şübhə altına alınması ilə razılaşmayacaqdır. A.Tormosova görə, Mustafa xanda Rusiyaya meylliliyin olmaması daha çox onun xarakterinin mürəkkəbliyi ilə bağlı idi. Ona görə baş komandan podpolkovnik Tixonovskiyə tapşırdı ki, Mustafa xanla yaxın olsun və onun məhəbbətini qazanmağa çalışsın ki, bununla onda ruslara qarşı etimad güclənsin (258).

Amma Quba xanlığında rus işğalına qarşı üsyanın başlanması və bu üsyanın başlanğıcında Mustafa xanın yenidən açıq ruspərəst mövqe nümayiş etdirməməsi onunla rus generalları arasındakı münasibətləri bir qədər ciddiləşdirdi. Əvvəla, A.Tormosovun planlaşdırdığı kimi Cahangir xan Şəki və Şamaxı xanlarının barışdırılması üçün Şamaxıya gələ

bilmədi. Yuxarıda qeyd edildiyi kimi, Quba üsyanının başlanması ilə ona digər işlər tapşırıldı. O biri tərəfdən isə Quba üsyanının başlanmasına Mustafa xanın da təhrikçilik etməsi barədə məlumat alındı. Rus zabitləri şübhələnirdilər ki, Mustafa xan Quba xanlığı ərazisinə göndərdiyi elçi Baloğlan bəy Quba əhalisi arasında üsyana çağırış istiqamətində təbliğat aparır. Mustafa xan özü isə bunu qəbul etmədi. Amma bununla bərabər, məlum olduğu kimi, Mustafa xan Quba üsyanının yatırılması üçün atlı dəstənin təşkilinə də ciddi yanaşmırdı. O, açıq-açığına ilk vaxtlar bu dəstənin təşkili və Qubaya göndərilməsi istiqamətində əməli işlər görmədi. Əksinə, Mustafa xan Fitdağı qalasının möhkəmləndirilməsinə daha çox diqqət ayırdı ki, bu da rusların xoşuna gəlmədi. Fitdağ qalasının divarlarının möhkəmləndirilməsi üçün avqust ayının 15-dən başlayaraq tikinti işlərinə 3 min nəfərlik işçi qüvvəsi cəlb edilmişdi (259).

Şamaxı xanına qarşı istiqamətlənmiş şübhələrin qarşısının alınması üçün Mustafa xan A.Tormosova məktub yazdı və həmin məktubda Quba xanlığı ərazisinə öz elçisini göndərməkdə məqsədin nə olduğunu, habelə Quba üsyanının yatırılması üçün qoşun dəstəsi göndərə bilməməsinin səbəblərini açıqladı. A.Tormosov Şamaxı xanının izahatlarını doğru saydı və qoşun dəstəsi göndərilməməsinin qeyri-mümkünlüyü ilə razılaşdı. Mustafa xan bildirirdi ki, Qacar yürüşlərinin sona çatmadığı halda xanlıq ərazisini müdafiəsiz qoya bilməz və xanın qoşun dəstəsi xanlığın müdafiəsi üçün lazımdır. Qacar qoşunlarının Şamaxı xanlığı üzərində təhlükəsi olduğu üçün A.Tormosov da hələlik Şamaxı qoşun dəstəsinin Qubaya cəlb edilməsinə zərurət görmədi. Əksinə, A.Tormosov Şamaxı xanına məsləhət gördü ki, Kürdən Salyana kimi olan xətt üzərində Şamaxı dəstəsinin mühafizə postları qoyulsun (260).

Lakin Quba üsyanının genişlənməsi rus generalları üçün təhlükəli xarakter aldı. Onun vaxtında yatırılmaması Qubadakı rus qarnizonunun məhvi ilə bərabər, üsyanın ətraf vilayətlərə keçməsinə də yol açа bilərdi. Ona görə, A.Tormosov qərara aldı ki, Şamaxı xanlığında toplanan atlı dəstəsini Qubaya göndərsin. Bununla bağlı o, Mustafa xana məktub göndərdi. Məlum olduğu kimi, Şirvan dəstəsi Qarabağdan göndərilmiş rus qoşun bölmələri ilə birləşməli və sonra da podpolkovnik Tixonovskinin rəhbərliyi altında Qubaya doğru irəliləməli idi. A.Tormosov səmimiyyət nümayiş etdirməyə çalışaraq Mustafa xanı yola gətirmək istədi və onun Rusiya imperatoruna sədaqətli qalacağı ümidində olduğunu bildirdi (261).

Eyni tapşırıq Şəki xanı Cəfərqulu xana da verildi. Cəfərqulu xan isə 1000 nəfərlik bir dəstə təşkil etməli idi. Amma Mustafa xanla Cəfərqulu xan həm fərqli şəraitdə idilər, həm də A.Tormosovun verdiyi tapşırıqlara fərqlı şəkildə yanaşırdılar. Cəfərqulu xan ruslar tərəfindən təyin edilmiş

bir şəxs kimi tamamilə ruslardan asılı vəziyyətdə idi. Cəfərqulu xan könüllü olaraq Rusiyaya xidmət yolunu seçmişdi və ona görə də rus qoşunları baş komandanından aldığı tapşırığı da icra etmək məcburiyyətində idi. Digər tərəfdən Şəki xanlığının Qacar qoşunlarının hücumuna məruz qalacağı az ehtimal edilirdi. Ondan fərqli olaraq Mustafa xan A.Tormosovun tapşırığına laqeydcəsinə yanaşdı, öz maraqlarını ön plana çəkdi və ona görə də Cəfərqulu xandan fərqli olaraq qoşun dəstəsinin toplanmasına tələsmədi. Cəfərqulu xan isə bu məqamdan qonşu xanların gözdən salınması, onlara qarşı nifaq yaradılması üçün istifadə etməyə çalışdı. A.Tormosova yazdığı məktubunda onu da qonşu xanlara, o cümlədən də Mustafa xana qarşı yönəltməyə cəhd göstərdi. Cəfərqulu xan A.Tormosova çatdırırdı ki, hər gün Fətəli şahın nümayəndələri qonşu xanların, o cümlədən Mustafa xanın yanına gəlirlər, onlarla danışıqlar aparırlar. Cəfərqulu xan keçmiş Şəki xanı Səlim xanın da fəaliyyətinin rusların xeyrinə olmadığını bildirməyi unutmurdu. Cəfərqulu xan hətta A.Tormosova irad da tuturdu ki, o, qonşu xanların Rusiyaya qarşı laqeydliyinə münasibət nümayiş etdirmir (262).

Mustafa xan isə nəinki Quba üsyanının yatırılması üçün qoşun dəstəsinin toplanmasına tələsmədi, əskinə, onun qacarlarla təmasları haqqında yeni xəbərlər yayılmağa başladı. Bildirilirdi ki, guya Mustafa xan Fətəli şahdan qoşun göndərilməsini istəyib. General A.Tormosov bu məlumatı eşidən kimi dərhal Mustafa xana məktub yazdı, onda baş verən dəyişikliklərin səbəbini aydınlaşdırmağa çalışdı. Görünür, yayılan xəbərlərə ciddi əsas varmış ki, A.Tormosov da onların doğruluğuna inanıbmış. O yazırdı ki, ruslar Mustafa xanın işlərinə qarışmırlar, onun dinc həyatını korlamırlar. Ona görə də baş komandan ondan soruşurdu ki, onun baxışlarında nə üçün dəyişiklik baş verib. A.Tormosov inandırmağa çalışırdı ki, ruslar tərəfindən onun maraqları təhlükə altına alınmayacaq. Qacarların ona təsir etmək imkanını isə A.Tormosov rus maraqlarına təhlükə kimi deyil, Mustafa xanın öz maraqlarına təhlükə kimi qiymətləndirirdi. Şeyxəli xana kömək göstərilməsi cəhdlərini də A.Tormosov əbəs adlandırır və bildirirdi ki, Qacar qoşunlarının yürüşü başa çatan kimi Quba xanlığına qoşun göndərəcək və bu üsyanın fəallarını cəzalandıracaqdır. General A.Tormosov məktubunda Mustafa xandan qacarlarla olan təmasları və Fitdağ qalasının möhkəmləndirilməsi haqqında izahat istədi (263).

General A.Tormosovun yazdığı məktub kifayət qədər böyük məktub idi və bu məktubda açıq da olmasa Mustafa xana qarşı xeyli ağır təhdidlər mövcud idi. Mustafa xan bu təhdidlərin münasibətlərin kəskinləşməsinə səbəb olmaması üçün müəyyən yumşaqlıq nümayiş

etdirdi. O, A.Tormosov tərəfindən göndərilən polkovnik Lisaneviçi yaxşı qarşıladı və ona Quba üsyanının yatırılması üçün atlı dəstəsi də verdi. Məlumdur ki, Şamaxı xanlığından 100 nəfərlik atlı dəstə Quba üsyanının yatırılmasında rus qüvvələri tərkibinə qatıldı. Mustafa xanın Quba üsyanının yatırılmasına dəstə göndərməsi onunla A.Tormosov arasında mövcud olan gərginliyi bir qədər səngitdi və 1810-cu ilin son ayları həm Şamaxı, həm də Şəki xanlığı ərazisində vəziyyət normal məcrasında davam etdi

1811-ci ilin yanvar ayında yenidən Qacar qoşunlarının Arazın şimalına yürüşə hazırlaşması barəsində xəbər alındı. Əldə edilmiş məlumatlara görə, bu yürüş zamanı Şəki xanlığı da hücuma məruz qalmalı idi. Məlumat kifayət qədər ciddiliklə qəbul edildi. Baxmayaraq ki, Qacar qoşunlarının havaların isti vaxtı yürüşlərə üstünlük verməsi bəlli idi. Şəki xanlığına ehtimal edilən hücumun qarşısının alınması üçün general A.Tormosov Gəncədə bir rus taborunun 2 ədəd topla birlikdə Şəkiyə göndərilməsi barəsində qərar qəbul etdi. Cəfərqulu xana isə tapşırıq verildi ki, qoşunların ehtiyaclarının ödənməsi üçün ərzaq tədarükü aparsın. Ona eyni zamanda tapşırıldı ki, Şəki atlı dəstəsi də hazır vəziyyətə gətirilsin. General A.Tormosovun planına görə Şəki xanlığına göndərilmiş piyada taboru Şəki atlı dəstəsi ilə birlikdə Muğana gələcəyi ehtimal edilən Qacar qoşunlarını geri sıxışdırmalı idi. Bununla bağlı təşkil olunan dəstənin yetərli olub-olmadığını Cəfərqulu xandan soruşdu. General A.Tormosov əlavə qüvvə kimi Şamaxı xanından dəstə alınmasını istisna etmirdi. Amma açıq şəkildə bildirirdi ki, o, Mustafa xana inanmır. Ona görə əlavə rus bölmələrinin göndərilməsini və bütün dəstəyə də general Lisaneviçin rəhbər təyin edilməsini mümkün sayırdı. Fevral ayının ortalarında rus qoşun bölmələri Şəki xanlığı ərazisinə yetişdilər. Verilən tapşırığın icrası üçün əlavə qüvvəyə ehtiyac olduğu təqdirdə general A.Tormosov bu məsələnin də müsbət həll ediləcəyini bildirirdi (264).

Bu məsələ ilə bağlı general A.Tormosov Şamaxı xanı ilə əlaqə saxladı, Qacar qoşunlarının hücum ehtimalı ilə bağlı Mustafa xanın mövqeyini öyrənməyə çalışdı. Amma məlumdur ki, 1811-ci ilin ilk aylarında Qacar qoşunları Muğana və Şəki xanlığı istiqamətinə yürüş etmədi. A.Tormosov Qafqazı tərk edənə kimi isə Mustafa xanla rus generalları arasında ehtiyatlı münasibətə son qoyulmadığı kimi, Mustafa xanla Cəfərqulu xan arasındakı gərginlik də aradan qalxmadı.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Потто. Кавказская война.
   http://www.vehi.net/istoriya/potto/kavkaz/215.html
2. Акты Собранные Кавказской Археологической Комиссии (АКАК). Т. IV, Тифлис, 1870, с. 181
3. АКАК. Т. IV, с. 682
4. Parsanejad Ümid. Yəmin və Yəsar. Şərq qəzeti, 31 avqust 2005
5. Yenə orada
6. АКАК. Т. IV, с.194-195
7. АКАК. Т. IV, с.196
8. АКАК. Т. IV, с. 687-688
9. АКАК. Т. IV, с. 688
10. بینا ، ینـــاب‌اکبر. تاریخ سیاسی و دیپلوماسی ایران. جلد اول، تهران، 1348، ص.140
    زندفرد ف. سر گور اوزلی. تهران، 1386، ص.64
11. شیرازی م. سفرنامه ابولحسن خان شیرازی(الچی) به روسیه (مقدمه) . تهران، 1363، ص.42
12. شیرازی م. سفرنامه ابولحسن خان شیرازی(الچی) به روسیه. (مقدمه) تهران، 1363، ص.42
13. ناصر نجمی. عباس میرزا. تهران، 1374، ص.270
14. واتسون. تاریخ ایران. تهران، 1348، ص.؛ بینا ع. ص.140
15. زندفرد، ص.65
16. بینا ع. ص.141
17. شیرازی م. سفرنامه ابولحسن خان شیرازی(الچی) به روسیه (مقدمه)، تهران، 1363، ص.43 .
18. شیرازی م. سفرنامه ابولحسن خان شیرازی(الچی) به روسیه (مقدمه)، تهران، 1363، ص.43 .
    محمد تقی لسانالملک سپهر. تاریخ التواریخ. تاریخ قاجاریه. جلد اول، تهران، 1377، ص.175
19. محمد تقی لسانالملک سپهر. تاریخ التواریخ. تاریخ قاجاریه. جلد اول، تهران، 1377، ص.183
20. محمد تقی لسانالملک سپهر. تاریخ التواریخ. تاریخ قاجاریه. جلد اول، تهران، 1377، ص.183
21. قایمقامی ج. تحولات سیاسی و نظامی ایران. تهران، 1326، ص.27
22. بیانی خ. سیاست ناپولیون در ایران. تهران، 1346، ص. 81 ؛بینا ع. ص.131
23. قایمقامی، ص.33؛ زندفرد، ص.75
24. یمقامی، ص.32؛ زندفرد، ص.73

25. ایمقامی، ص.33؛ زندفرد، ص.75
26. نفیسی سعید. تاریخ اجتماعی و سیاسی ایران در دوره معاصر. جلد اول، تهران، 1383، ص.434
27. شیرازی م. سفرنامه ابولحسن خان شیرازی(الچی) به روسیه (مقدمه) . تهران، 1363، ص.44
زندفرد ف. سر گور اوزلی. تهران، 1386، ص.75
28. قایمقامی، ص.34
29. دنبلی عبدالرزاق . ماثر سلطانیه. تهران،1382، ص.337
30. آبادیان ح. روایت ایرانی جنگهای ایران و روس. تهران، 1380، ص.78
31. آهنگسروش (میرزا محمد صادیق وقایع نگار). تاریخ جنگهای ایران و روس. تهران، 1360، ص.172
32. آهنگسروش، ص.173
33. АКАК. Т. IV, с. 689
34. АКАК. Т. IV, с. 689
35. آهنگسروش، ص.176
36. АКАК. Т. IV, с. 690
37. دنبلی، ص.313-314
38. Дубровин Н. История войны и владычества русских на Кавказе. Т. V, С-Петербург, 1887, с.238
39. АКАК. Т. IV, с. 695
40. آهنگسروش، ص.177
41. АКАК. Т. IV, с. 694
42. آهنگسروش، ص.177؛ دنبلی،ص.318
43. АКАК. Т. IV, с. 696
44. АКАК. Т. IV, с. 696
45. АКАК. Т. IV, с. 695
46. Дубровин Н. Т. V, с.244
47. АКАК. Т. IV, с. 704-705
48. دنبلی،ص.324
49. بینا ع. ص.151
50. بینا ع. ص.152
51. بینا ع. ص. 153 ؛ دنبلی، ص.328
52. دنبلی، ص.328
53. بینا ع. ص.154
55. АКАК. Т. IV, с.709
56. АКАК. Т. IV, с. 709
57. АКАК. Т. IV, с. 710
58. АКАК. Т. IV, с.710
58 a. بینا ع. ص.154
59. АКАК. Т. IV, с. 711

60. Parsanejad. Mirzə Bozorg və Tormosov. "Şərq" qəzeti, 10 sentyabr 2005
61. آبادیان ح. روایت ایرانی جنگهای ایران و روس. تهران، 1380، ص.87
62. احمدی. ایران و برطانیه. تهران، 1379، ص.41
63. زندفرد، ص.94
64. Балаян Б.П. Дипломатическая история русско-иранской войны и присоединение Восточной Армении к Россию. Москва, 1988, с.85
65. Балаян Б.П. Дипломатическая история..., с.85
66. آبادیان ح. روایت ایرانی جنگهای ایران و روس. تهران، 1380، ص.82
67. АКАК. Т. IV, с. 556, 682
68. АКАК. Т. IV, с. 683
69. АКАК. Т. IV, с. 690
70. АКАК. Т. IV, с. 694
71. دنبلی، ص.315
72. Дубровин Н. Т. V, с.338
73. Дубровин Н. Т. V, с.338
74. АКАК. Т. IV, с.550
75. АКАК. Т. IV, с.551
76. АКАК. Т. IV, с.553-554
77. АКАК. Т. IV, с.554-555
78. АКАК. Т. IV, с.556
79. دنبلی، ص.359-360
80. دنبلی، ص.362
81. АКАК. Т. IV, с.716
82. Дубровин Н. Т. V, с.337
83. АКАК. Т. IV, с.558
84. Потто. Кавказская война.Т.I. От деревнейших времен до Ермолова. http://www.vehi.net/istoriya/potto/kavkaz/221.html
85. АКАК. Т. IV, с.557
86. АКАК. Т. IV, с.557
87. АКАК. Т. IV, с.717
88. میرزا محمد تقی لسانالملک سپهر. ناسخ التواریخ. تهران، 1311، ص.197
89. АКАК. Т. IV, с.718
90. АКАК. Т. IV, с.721, 559
91. АКАК. Т. IV, с.559
92. АКАК. Т. IV, с.946-947
93. АКАК. Т. IV, с.722
94. АКАК. Т. IV, с.724
95. АКАК. Т. IV, с. 724-725

96. Дубровин Н. T. V, c.351
98. АКАК. T. IV, c.724-725
99. АКАК. T. IV, c.725
100. Дубровин Н. T. V, c.351
101. АКАК. T. IV, c.726
102. АКАК. T. IV, c.726; Дубровин Н. T. V, c.353
103. АКАК. T. IV, c.733-734
104. Дубровин Н. T. V, c.354
105. АКАК. T. IV, c.736-737
106. АКАК. T. IV, c.737
106a. دنبلی، ص.335
107. АКАК. T. IV, c.737
108. АКАК. T. IV, c.737
109. Дубровин Н. T. V, c.358
110. АКАК. T. IV, c.738
110a. دنبلی، ص.336
111. АКАК. T. IV, c.744
112. АКАК. T. IV, c.734
113. Дубровин Н. T. V, c.361-362
114. АКАК. T. IV, c.738
115. АКАК. T. IV, c.741-742
116. АКАК. T. IV, c.569
117. АКАК. T. III, c.363
118. АКАК. T. III, c.515
119. احمدی ح. تالشان.تهران، 1384، ص.124
120. Məmmədova İ. Lənkəran xanlığı birinci Rusiya-İran müharibəsi dövründə. Bakı, 2007, s.40
121. دنبلی، ص.314
122. آهنگسروش، ص.177
123. АКАК. T. III, c.362
124. АКАК. T. III, c.362
125. АКАК. T. III, c.503
126. АКАК. T. III, c.502
127. АКАК. T. III, c.362
128. АКАК. T. III, c.363
129. АКАК. T. IV, c.685
130. АКАК. T. IV, c.579
131. АКАК. T. IV, c.579
132. АКАК. T. IV, c.519
133. АКАК. T. IV, c.580

134. АКАК. T. IV, c.580; احمدی ح. تالشان.تهران، 1384، ص.125
135. احمدی ح. تالشان.تهران، 1384، ص.125
136. АКАК. T. IV, c.576-577
137. АКАК. T. IV, c.581
138. АКАК. T. IV, c.581; Дубровин Н. T. V, c.265
139. آهنگسروش، ص.179
140. رضاقلی خان هدایت. روضتالصفا ناصری. جلد نهم، تهران، ص.7615
141. آهنگسروش، ص.180
142. АКАК. T. IV, c.581
143. АКАК. T. IV, c.516-517
144. АКАК. T. IV, c.586; Məmmədova İ, s.43
145. АКАК. T. IV, c.586
146. АКАК. T. IV, c.582
147. АКАК. T. IV, c.578
148. АКАК. T. IV, c.584
149. АКАК. T. IV, c.583
150. АКАК. T. IV, c.584
151. АКАК. T. IV, c.583
152. АКАК. T. IV, c.587
153. АКАК. T. IV, c.587
154. АКАК. T. IV, c.589-590
155. АКАК. T. IV, c.598
156. АКАК. T. IV, c.578
157. АКАК. T. IV, c.589-590
158. АКАК. T. IV, c.590
159. АКАК. T. IV, c.590
160. АКАК. T. IV, c.591
161. АКАК. T. IV, c.592
162. АКАК. T. IV, c. 592
163. Дубровин Н. T. V, c.282
164. Дубровин Н. T. V, c.283
165. АКАК. T. IV, c.593
166. АКАК. T. IV, c.597
167. АКАК. T. IV, c.593
168. АКАК. T. IV, c.713
169. АКАК. T. IV, c.594
170. АКАК. T. IV, c.594
171. АКАК. T. IV, c.596
172. АКАК. T. IV, c.597
173. АКАК. T. IV, c.598

174. АКАК. T. IV, c.750
175. АКАК. T. IV, c.756
176. Məmmədova İ., s.72
177. АКАК. T. IV, c.613
178. АКАК. T. IV, c.616
179. АКАК. T. IV, c.638
180. АКАК. T. IV, c.638
181. АКАК. T. IV, c.638
182. Дубровин Н. T. V, c.276
183. АКАК. T. IV, c.639
184. АКАК. T. IV, c.639
185. АКАК. T. IV, c.640
186. АКАК. T. IV, c.641
187. АКАК. T. IV, c.641
188. АКАК. T. IV, c.643
189. АКАК. T. IV, c.644
190. АКАК. T. IV, c.644
191. АКАК. T. IV, c.627
192. АКАК. T. IV, c.644-645
193. АКАК. T. IV, c.645
194. АКАК. T. IV, c.646
195. АКАК. T. IV, c.647
196. АКАК. T. IV, c.628-629
197. АКАК. T. IV, c.654
198. АКАК. T. IV, c.654
199. АКАК. T. IV, c.655; Дубровин Н. T. V, c.372
200. Дубровин Н. T. V, c.372
201. Дубровин Н. T. V, c.373
202. АКАК. T. IV, c.655
203. АКАК. T. IV, c.655
204. АКАК. T. IV, c.657
205. АКАК. T. IV, c.657
206. АКАК. T. IV, c.657
207. АКАК. T. IV, c.657
208. АКАК. T. IV, c. 656, 659
209. Mustafazadə T. Quba xanlığı. Bakı, 2005, s.221
210. АКАК. T. IV, c.656
211. АКАК. T. IV, c.659
212. АКАК. T. IV, c.660
213. АКАК. T. IV, c.660-661

214. AKAK. T. IV, c.661
215. AKAK. T. IV, c.662-663
216. AKAK. T. IV, c.663
217. AKAK. T. IV, c.663
218. AKAK. T. IV, c.664
219. AKAK. T. IV, c.535
220. AKAK. T. IV, c.665
221. AKAK. T. IV, c.665
222. AKAK. T. IV, c.536
223. AKAK. T. IV, c.668
224. AKAK. T. IV, c.668
225. AKAK. T. IV, c.668
226. AKAK. T. IV, c.669
227. AKAK. T. IV, c.666, 669
228. AKAK. T. IV, c.669
229. AKAK. T. IV, c.669
230. AKAK. T. IV, c.670
231. AKAK. T. IV, c.666
232. AKAK. T. IV, c.671
233. AKAK. T. IV, c.672
234.AKAK. T. IV, c.675
235. AKAK. T. IV, c.679
236. AKAK. T. IV, c.675
237. AKAK. T. IV, c.517
238. AKAK. T. IV, c.502
239. AKAK. T. IV, c.501-502
240. AKAK. T. IV, c.502
241. AKAK. T. IV, c.517
242. AKAK. T. IV, c.503
243. AKAK. T. IV, c.518
244. AKAK. T. IV, c.518-519
245. AKAK. T. IV, c. 518
246. AKAK. T. IV, c.504, 549
247. AKAK. T. IV, c.519
248. AKAK. T. IV, c.521
249. AKAK. T. IV, c. .519
250. AKAK. T. IV, c.521-522
251. AKAK. T. IV, c.522
252. AKAK. T. IV, c.505
253. AKAK. T. IV, c.508

254. AKAK. T. IV, c. 525-526
255. AKAK. T. IV, c.525-526
256. AKAK. T. IV, c.527-528
257. AKAK. T. IV, c.529
258. AKAK. T. IV, c.529-530
259. AKAK. T. IV, c.531
260. AKAK. T. IV, c.532
261. AKAK. T. IV, c.532
262. AKAK. T. IV, c. 512
263. AKAK. T. IV, c.533-535
264. AKAK. T. IV, c.512

VI FƏSİL

CƏNUBİ QAFQAZ UĞRUNDA APARILAN MÜHARİBƏNİN İLK MƏRHƏLƏSİNİN YEKUNLAŞMASI

1. Bölgənin daxili və xarici hərbi-siyasi şəraiti

General A.Tormosovun Qafqazdakı hakimiyyətinin son ayları Cənubi Qafqaz uğrunda beynəlxalq iddiaların yenidən kəskinləşməsi ilə xarakterizə olunur. Bir tərəfdən İngiltərə, digər tərəfdən Osmanlı Türkiyəsi Cənubi Qafqazda siyasi nüfuzun möhkəmləndirilməsi və Rusiyanın bölgədən sıxışdırılması istiqamətində fəallığını xeyli artırdılar. İngiltərənin Qacar sarayına yeni səfir təyin etməsi bu ölkə siyasətinin bölgədə fəallaşmasına yeni bir təkan verdi. Əvvəlki fəsildə qeyd edildiyi kimi, Harford Consun gəlişi ilə İngiltərənin Qacar qoşunlarının möhkəmləndirilməsi üçün göstərdiyi hərbi yardımlar da artdı. Mövcud olan məlumatlara görə, 1811-ci ildə İngiltərə tərəfindən Qacar qoşunlarının ixtiyarına 2 ədəd top, atış üçün 12 min xərc, 12 min tüfəng, qoşunların geyiminin tikilməsi üçün mahud parça və 3 milyon rubl vəsait ayırdı (1).

İngilis səfirləri özləri ilə bir neçə nəfər təcrübəli top mütəxəssisləri də gətirmişdilər ki, onların vasitəsilə həm Qacar qoşunlarında olan topların atəş qabiliyyəti artırılsın, həm də yerli topçular hazırlansın. Abbas Mirzə tərəfindən qoşunların toplarına rəhbərlik edilməsi də ingilis topçularından birinə həvalə olundu. Müəyyən müddət keçəndən sonra bir qrup yerli topçunu da topçuluq məharətinə öyrətmək mümkün oldu. Farsdilli mənbələrin verdiyi məlumata görə, Qacar topçuları ingilislərin təlim dövrəsini başa vurduqdan sonra bir dəqiqə ərzində toplardan 7 ədəd mərmi ata bilirdilər (2).

General A.Tormosovdan sonrakı hakimlərin fəaliyyəti dövründə ingilislərin bölgədə fəallaşması və onların Qacar sarayının fəaliyyətinə müdaxiləsinin artması daha geniş xarakter aldı. Xüsusilə, Gülüstan müqaviləsi ətrafında danışıqların aparılmasında və sülh anlaşmasının əldə edilməsində İngiltərə əsas oyunçulardan birinə çevrildi. Baxmayaraq ki, bu dövrün ingilis elçiləri özlərini Qacar sarayı ilə daha yaxın olduqlarını göstərməyə çalışırdılar, amma onlar öz fəaliyyətlərində daha çox İngiltərənin konkret tarixi dövr və şəraitdən irəli gələn maraqlarını rəhbər tuturdular. Bir çox hallarda ingilis elçilərinin mövqeyi Qacar sarayının siyasətinə müdaxilə xarakteri alırdı. Lakin Qacar sarayı kifayət qədər zəiflədiyi üçün bu müdaxilələrin qarşısının alınması da çətinləşirdi.

Eyni zamanda Osmanlı Türkiyəsi Rusiyanın Cənubi Qafqazdakı işğallarının aradan qaldırılması üçün öz fəallığını daha da genişləndirdi. Mövcud məlumatlara görə, qərb dövlətləri tərəfindən, xüsusilə də İngiltərə tərəfindən təhrik edilən Osmanlı Türkiyəsinin Cənubi Qafqazla sərhəd bölgələrində həm bu bölgəyə hücum üçün, həm də Qacar sarayına kömək göstərilməsi üçün hərbi-siyasi fəaliyyətini artırdı. Osmanlı Türkiyəsinin Cənubi Qafqaza olan təhlükəsinin qarşısının alınması üçün rus qoşunları komandanlığı 1810-cu ilin noyabrında Axalsıx qalasına hücum etməyi qərara aldı. Bu qala Osmanlı Türkiyəsi ilə Cənubi Qafqazın sərhədində yerləşməklə Osmanlı qoşunlarının ən yaxın bazalarından birini təşkil edirdi və burada Cənubi Qafqaza, o cümlədən də Gürcüstan ərazisinə qoşun çıxarılması təhlükəsi rusları təşvişdə saxlayırdı. Digər tərəfdən Gürcüstanın rus işğalı ilə barışmayan şahzadələri Aleksandr, Levon və İmeretiya çarı Solomon da Axalsıx paşalığına sığınmaqla Rusiya əleyhinə fəaliyyətini davam etdirirdilər. Onlar həm Axalsıx paşalığında, həm də Gürcüstan daxilində özlərinə tərəfdar toplamaqla Rusiya qoşunları üzərinə hücum üçün fürsət gözləyirdilər. Bu işdə adları çəkilən şahzadələr Osmanlı qurumları tərəfindən də lazımınca dəstəklənirdilər. Axalsıx paşalığında toplanmış olan Osmanlı silahlı qüvvələri Qacar qoşunları üçün ehtiyat qüvvə əhəmiyyəti kəsb edirdi. Çünki rus qoşunlarına qarşı döyüşlər başlananda Qacar sarayı Osmanlı dövləti ilə əməkdaşlığa girməyə və Axalsıx qüvvələrinin ruslara qarşı döyüşlərə çıxarılmasına çalışırdı (3). Rus qoşunlarının Cənubi Qafqazdan sıxışdırılması Osmanlı dövlətinin maraqlarına cavab verdiyi üçün belə xahişlərə diqqətlə yanaşılırdı.

Quba qiyamı yatırılandan sonra general A.Tormosov Axalsıx qalasına hücum etmək üçün bir fürsət əldə etdi. Bununla bağlı xüsusi plan işləndi, qoşun dəstəsi formalaşdırıldı, Axalsıx qalasının işğal edilməsi və bununla da oradakı antirus qüvvələrinə zərbə vurulması üçün rus qoşun-

ları üç dəstədə birləşdirildilər. Bu dəstələrin hər biri müxtəlif istiqamətlərdən Axalsıx üzərinə hücum etməli idi. Axalsıx qalası üzərinə hücum 1810-cu il noyabr ayının 16-da başladı. Noyabr ayının 19-da Axalsıx qalası ətrafındakı hakim yüksəkliklər rus qoşunlarının əlinə keçdi. Qalanın ələ keçirilməsi isə bütünlükdə rus işğalının möhkəmlənməsinə xidmət göstərəcək daha bir strateji məkanın ələ keçirilməsi demək olardı. Lakin ruslar buna nail ola bilmədilər. 1810-cu il noyabr ayının sonlarında rus qoşunları Axalsıx qalası ətrafından geri çəkildi (4). Bununla, A.Tormosov da əslində Cənubi Qafqazda ilk ciddi uğursuzluqla qarşılaşmalı oldu.

Axalsıx paşalığında rus qoşunları üzərində əldə edilən üstünlük həm Osmanlı, həm də Qacar saraylarından daha böyük uğurlara olan ümidlərini xeyli artırdı. Bunun üçün 1810-cu ilin sonu, 1811-ci ilin əvvəllərində Arazın şimalına növbəti yürüşün aparılması üçün həm Qacar sarayı, həm də Osmanlı sarayı hərbi hazırlıqlarını genişləndirdilər. İngiltərədən alınan maliyyə və texniki təchizat yardımı Qacar qoşunlarının növbəti hücumlara hazırlığını daha da gücləndirdi. Mövcud olan məlumatlara görə, İngiltərənin bu köməkləri daha da artırıldı, əlavə hərbçilər, maliyyə vəsaitləri və toplar İrana gətirildi. Astrabad, Mazandaran, Gilan və Lənqərudda gəmilərin quraşdırılmasına başlandı. Yeni qoşun hissələri formalaşdırıldı (5).

Osmanlı qoşunları ilə ittifaqın yaradılması da Qacar qoşunlarının hücumlarının uğurunun artırılması üçün əlavə bir mənbə idi. Bu baxımdan Ərzrum sərəsgərinin Gürcüstanla sərhəddə topladığı qoşun dəstəsi də Cənubu Qafqaz uğrunda aparılan mübarizənin kəskinləşdirə bilərdi. Ona görə də 1811-ci ildə Cənubi Qafqazda hərbi-siyasi vəziyyətin xeyli gərginləşəcəyi ehtimal olunurdu.

Qacar və Osmanlı sarayları rus qoşunlarının Cənubi Qafqazdan sıxışdırılması üçün Azərbaycan xanları və Dağıstan hakimləri ilə əməkdaşlığa da lazımi diqqət yetirirdilər. Məhz buna görə idi ki, general A.Tormosov Şamaxı xanına qacarlarla olan təmasları haqqındakı xəbərlərə çox həssaslıqla yanaşırdı. Qacar və Osmanlı elçilərinin Azərbaycan xanlıqlarına və Dağıstana davamlı səfərləri haqqında rus generallarında xeyli məlumatlar var idi. Osmanlı elçilərinin hətta Şimali Qafqaza göndərilməsi və onların vasitəsilə yerli xanların rus işğalına qarşı mübarizəyə çağırılması haqqında da məlumatlar var idi. Dağıstan ərazisinə göndərilən Osmanlı elçilərindən biri Şəki xanı Cəfərqulu xan tərəfindən ələ keçirildi və ondan Dağıstan hakimlərinə ünvanlanan 32 ədəd məktub tapıldı. Həmin məktublarda Osmanlı mənsubları məzhəb yolunda yerli xanları rus işğalına qarşı mübarizəyə qalxmağa çağırırdılar. Qeyd etmək

lazımdır ki, bu çağırışlar yerlərdə rəğbətlə qarşılanırdı. Məzhəb düşmənlərinə qarşı mübarizənin təşkilinə yerli ruhanilər ya özləri rəhbərlik edirdilər, ya da belə mübarizənin aparılmasını dəstəkləyirdilər (6).

1810-cu ilin sonlarında Qacar sarayı ilə Osmanlı sarayı öz aralarında Rusiyaya qarşı birgə mübarizə üçün anlaşma əldə etdilər və bundan sonra qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi üçün Osmanlı sarayının nümayəndəsi Əbdül Vahab əfəndi Qacar sarayına göndərildi(7). 1811-ci il yanvar ayının sonunda Yasinçizadə Əbdül Vahab əfəndi Təbrizə gəldi və ilkin olaraq burada Abbas Mirzə və ingilis elçisi H.Consla görüşdü. Təbrizdə Osmanlı elçisi təntənəli şəkildə qarşılandı və hələ Təbrizə çatmamış onun qarşısına ingilis elçiliyinin nümayəndələri və qoşun dəstəsi göndərildi. Əbdül Vahab əfəndi Cənubi Qafqazdakı vəziyyətlə bağlı həm Abbas Mirzə, həm də H.Consla müzakirələr apardı və Consa çatdırıldı ki, qarşıda duran tapşırıqların icrasında Osmanlı sarayı İngiltərənin də yardımlarına ümid edir. Bir neçə gün Təbrizdə qaldıqdan sonra Əbdül Vahab əfəndi Tehrana yola düşdü və orada Fətəli şahla da görüşdü. Cənubi Qafqazla bağlı qarşılıqlı fəaliyyət imkanları Qacar sarayında da müzakirə olundu və tərəfləri qane edə biləcək mövqe oxşarlığı əldə edildi (8).

Farsdilli mənbələrdə Əbdül Vahab əfəndinin Təbrizə gəlməsi və orada çoxlu qiymətli hədiyyələrlə Tehran sarayına yollanması haqqında məlumat vardır. Bildirilir ki, Tehran sarayında da Əbdül Vahab əfəndi sevinclə qarşılandı, tərəflər arasında yaxşı müzakirələr aparıldı və Əbdül Vahab əfəndi bir neçə gündən sonra yenidən Təbrizə qayıtdı (9).

Əbdül Vahab əfəndinin rəhbərliyi altında Tehrana gəlmiş elçiliyin qarşısında dayanan başlıca vəzifə Rusiya işğalına qarşı birgə mübarizə aparmaq haqqında əldə edilmiş anlaşmanın şah səviyyəsində dəstəklənməsinə nail olmaq idi. Rus qoşunları baş komandanlığı bu elçiliyin Tehrana səfərinin gedişini diqqətlə izləyirdi və iki saray arasında anlaşma əldə edildiyinə şübhə etmirdi. Çünki artıq 1811-ci ilin fevral ayında həm Arazın cənubunda Qacar qoşunlarının yeni yürüşlərə hazırlaşması haqqında, həm də Ərzrum, Qars və Axalsıxda Osmanlı qoşunlarının fəallaşması haqqında məlumatlar əldə edilmişdi. Güman edilirdi ki, iki tərəfli şəkildə aparılan hazırlıqların məqsədi Gürcüstan üzərinə birgə hücumun təşkil edilməsi idi (10).

Rus generalları Qacar qoşunlarının yeni müharibəyə hazırlığını diqqət altında saxlayır və əldə edilmiş kəşfiyyat məlumatları ilə onların planlarından xəbərdar olmağa çalışırdılar. Əldə olunmuş məlumatlara görə, Qacar qoşunları Qacar şahzadələrinin rəhbərliyi altında qruplaşdırıldılar və 1811-ci ilin yazında onların üç istiqamətdə irəliləməsi ehtimal olunurdu. Qacar qoşunlarının bir dəstəsi Qarabağa doğru, ikinci

dəstəsi Baş Aparana doğru və üçüncü dəstəsi isə Arpaçaya doğru irəliləməli idi. Üçüncü dəstə Ərzrum və Qars sərəsgərlərinin qoşun dəstələri ilə birləşərək Şuragöl mahalına hücum etməli idi. Axalsıx paşası Şərif paşanın silahlı dəstəsi də bu müştərək dəstənin hücumunu dəstəkləməli və sonra ümumi hücum İmeretiya və Kartaliniya istiqamətində davam etdirilməli idi. Osmanlı və Qacar qoşunlarının birgə hazırlıqlarının aparılması üçün Əbdül Vahab əfəndi Tehran sarayına maliyyə vəsaiti də təqdim etdi. Osmanlı ərazisindən alınan kəşfiyyat məlumatları da Qars və Ərzrum qoşunlarının birgə hücum üçün əməli hazırlıqlara başlamasını təsdiq edirdi (11).

Qacar və Osmanlı qoşunlarının yeni müharibə hazırlığı xəbərlərini eşidincə Azərbaycan xanlıqlarının və Dağıstan vilayətlərinin nümayəndələrinin də fəallaşması artır və onlar öz elçilərini Qacar və Osmanlı mənsublarının yanına göndərirdilər. 1811-ci ilin yayında Dağıstan vilayətlərinin elçiləri Abbas Mirzədən Şəki və Şamaxı xanlıqlarına qoşun çıxarılmasını və bu xanlıqların rus işğalından qurtarılmasını xahiş etdilər. Onlar, belə bir hücum başlanacağı təqdirdə yerli milli qüvvələrin Qacar qoşunlarına kömək göstərəcəklərini yazırdılar. Eyni zamanda Osmanlı mənsubları da yenidən Dağıstan vilayətləri ilə təmasları genişləndirməyə başladılar (12). Bu məlumatlar kifayət qədər ciddi məlumatlar idilər və onlar rus qoşunları baş komandanlığında əlavə gərginliklər yaradırdı.

Rusiyanın Avropa cəbhəsində qarşılaşdığı mürəkkəb hərbi şərait, bir tərəfdən Fransa ilə, digər tərəfdən də Balkanda Osmanlı Türkiyəsi ilə müharibə təhlükəsi bu və ya digər dərəcədə Cənubi Qafqazda formalaşan hərbi-siyasi vəziyyətə öz təsirini göstərirdi. Fransa ilə müharibənin başlaması Qacar və Osmanlı sarayında Cənubi Qafqazla bağlı planlarının icrasına ümidi daha da artıra bilərdi. Lakin Fransa-Rusiya münasibətlərinə İngiltərə öz maraqlarından yanaşırdı və ona görə də ingilis elçisinin Qacar sarayının siyasətinin marağına cavab verməyən müdaxiləleri də artırdı.

Bununla belə, 1811-ci ilin əvvəlində hərbi nazirin əmrinə əsasən Cənubi Qafqaz cəbhəsində olan 4 alay geri göndərildi. Onlar Taqanroq və Vladimir draqun alayları, habelə Sevastopol muşketyor və 46-cı yeger alayları idi. Bu alaylar Fransa ilə müharibə hazırlıqları ilə əlaqədar olaraq geri çağırıldılar (13). Adları çəkilən alayların geri çağırılması Qacar və Osmanlı qoşunlarının fəallaşdığı dövrdə Cənubi Qafqazdakı rus işğalının qorunmasını xeyli çətinləşdirirdi. Real hərbi vəziyyəti yuxarı orqanlara çatdırararq A.Tormosov mövcud olan qüvvələrlə Cənubi Qafqazın əldə saxlanmasının heç də asan olmayacağını bildirirdi.

1811-ci ilin iyun ayında Balkan cəbhəsində rus qoşunlarının Osmanlı qoşunları üzərində qələbə qazanması Cənubi Qafqaz ətrafında formalaşan hərbi-siyasi vəziyyətin müəyyən qədər səngiməsinə səbəb oldu. Osmanlı qüvvələrinin buradakı uğursuzluğu Cənubi Qafqaz uğrunda Osmanlı-Qacar anlaşmasının mövcudluğuna son qoydu (14). Bununla, 1811-ci ilin yayı üçün Cənubi Qafqaz cəbhəsində həyata keçirilməsi planlaşdırılan hücum kampaniyası da icra edilməmiş qaldı. Yenicə yaradılmış ittifaq dağıldığı üçün Abbas Mirzə də ayrılıqda Qacar qoşunlarının Arazın şimalına hücumunu məqsədəuyğun saymadı.

1811-ci ilin ortalarında general A.Tormosov səhhəti ilə əlaqədar olaraq Cənubi Qafqazdakı rus qoşunlarının baş komandanı vəzifəsindən azad edilməsi haqqında Rusiya imperatoru qarşısında vəsatət qaldırdı. 1811-ci il iyul ayının 6-da həmin vəsatət təmin olundu və Rusiya imperatorunun sərəncamı əsasən tam süvari generalı A.Tormosov səhhətinin bərpası üçün baş komandan vəzifəsindən azad olundu və ona Sankt-Peterburqa qayıtmağa icazə verildi. Qoşunlara baş komandan və mülki işlər üzrə hakim vəzifəsinə general-leytenant markiz Pauluççi təyin edildi (15).

1811-ci il iyulun 6-da Gürcüstandakı qoşunların komandanı və mülki işlər üzrə hakim vəzifəsinə markiz Pauluççinin təyin olunması haqqında ayrıca imperator sərəncamı da imzalandı. Həmin sərəncamda deyilirdi ki, A.Tormosovun təkrarlanan xahişləri əsasında səhhəti ilə əlaqədar olaraq vəzifəsindən azad edildi və Siz Gürcüstanın qoşun korpusunun komandanı və mülki işlər üzrə hakim vəzifəsinə təyin olunursunuz. Sərəncama əsasən markiz Pauluççi də general A.Tormosovun malik olduğu səlahiyyətlərə malik olmalı idi (16).

Qeyd etmək lazımdır ki, 1811-ci ilin əvvəlində Qafqaz inzibati-ərazi baxımından iki vahidə bölünürdü – Şimali Qafqaz və Cənubi Qafqaz. Markiz Pauluççi artıq yalnız Cənubi Qafqazın hakimi və Cənubi Qafqazda olan qoşunların komandanı idi. Şimali Qafqazın hakimliyi isə general-leytenant Rtişşevə tapşırılmışdı (17).

General Pauluççi milliyətcə italyan idi və 1779-cu ildə Modendə anadan olmuşdu. Gənclik illərində xidmətə daxil olmuş və sonradan hərbi xidmətini Avstriya ordusunda davam etdirmişdi. Avstriya ordusunda Pauluççi general-adyutant rütbəsinə qədər yüksəldi. O, 1807-ci ildə tərxis olundu və elə həmin ildə polkovnik rütbəsində rus ordusunda xidmətə qəbul edildi. 1808-ci ildə İsveçə qarşı müharibədə göstərdiyi xidmətlərə görə Rusiya ordusunun general-mayoru rütbəsi aldı. 1810-cu ildə o, general-kvartirmeyster və növbətçi general vəzifələrində

xidmətini davam etdirdi və elə həmin ildə general-leytenant rütbəsinə layiq görüldü (18).

Baş komandan vəzifəsinə təyin olunmazdan əvvəl general-leytenant Pauluççi hər halda bölgənin hərbi-siyasi şəraiti ilə tanış idi və A.Tormosov tərəfindən rəhbərlik edilən əməliyyatlarda da iştirak etmişdi. Buna görə də markiz Pauluççi qarşılaşa biləcəyi problemlərə də bələd idi. Baş komandan kimi ilk əmrlərindən birini o, rus qoşunları daxilində döyüş intizamının möhkəmləndirilməsinə həsr etdi. Onun əmrindən aydın olur ki, mürəkkəb hərbi şəraitdə rus zabitlərinin spirtli içkilərə və qumar oyunlarına meyliliyi markiz Pauluççini narahat edirdi. Rus zabitləri arasında mövcud olan icraçılıq səviyyəsi də onu qane etmirdi (19).

Azərbaycan xanlarına olan münasibətində isə general Pauluççi sələflərindən heç də geri qalmırdı və güman edirdi ki, xanlara qarşı tələbkarlığı artırmaqla onlara verilən tapşırıqların sözsüz icrasına nail ola biləcəkdir.

Markiz Pauluççi 1811-ci ilin sentyabr ayının 22-də vəzifəsinin icrasına başladı. Bu zaman Cənubi Qafqazda nisbi sakitlik yaransa da bölgə ətrafında mürəkkəb vəziyyət qalmaqda idi. Gürcüstanın daxilində, xüsusilə qərbi Gürcüstanda rusların marağında olan sakitlik mövcud olmadığı kimi, Dağıstanda, Quba, Şamaxı, Lənkəran, Qarabağ xanlıqlarında rusların narahatçılığına səbəb olacaq gərginlik qalmaqda idi. Naxçıvan və İrəvan xanlıqları isə Rusiya sərhədləri daxilinə salınmamışdı. Həmin xanlıqların işğalından Rusiya hələ də imtina etməmişdi. Amma rus qoşunları baş komandanı qarşısında dayanan başlıca məsələ heç şübhəsiz ki, işğal olunan ərazilərin rus nəzarəti altında saxlanmasına nail olunması idi.

Markiz Pauluççi vəzifəsinin icrasına başlayanda komandanlığı altında olan qoşun hissələrini qarşıdan gələn döyüşlərə lazımınca hazırlanmadığının şahidi idi. Xüsusilə, qoşunların ərzaq ehtiyatlarının yaradılması mümkün olmamışdı. Bunun əsas səbəblərindən biri kimi Cənubi Qafqazda məhsul qıtlığının olması göstərilirdi. Çıxış yolunun tapılması üçün o, həm Gürcüstanda, həm də Azərbaycan xanlıqları ərazisində məhsul toplanışının səviyyəsi ilə maraqlandı. Məlum oldu ki, İrəvan və Qarabağ xanlıqlarında, habelə Bakı, Quba və Dərbənd vilayətlərində məhsul toplanışı Gürcüstana nisbətən daha yaxşı olmuşdur. Ona görə markiz Pauluççi qərara aldı ki, digər ərazilərdə yerləşən qoşun hissələrinin müəyyən qismi ərzaq bol olan xanlıq və vilayətlərdə yerləşdirilsin. Markiz Pauluççi vəzifəsinin icrasına başlayanda rus qoşunları aşağıdakı məntəqələrdə yerləşdirilmişdi: general-mayor Portnyaginin rəhbərliyi altında Kaxetiyada, polkovnik Kotlyarevskinin rəhbərliyi altında Karta-

liniyada, polkovnik Popovun rəhbərliyi altında Somxetiyada, general-mayor Lisaneviçin rəhbərliyi altında Pəmbəkdə, general-mayor Simanoviçin rəhbərliyi altında İmeretiyada. Gəncə, Qarabağ, Şamaxı və Şəki xanlıqlarında olan qoşun bölmələrinə ümumi rəhbərliyi general-mayor Xatunsev, Quba-Dərbənddəki rus qanizonuna general-mayor Quryev rəhbərlik edirdilər. Ərzaq təminatının yaxşılaşdırılması üçün Gürcüstan ərazisində yerləşən bir neçə taborun Şamaxı, Qarabağ, Bakı və Qubaya yerləşdirilməsi nəzərdə tutulurdu (20).

Qacar və Osmanlı qoşunları tərəfindən hücum təhlükəsinin olmaması qoşunların ərzaq ehtiyatlarını da xüsusi bir gərginliyə məruz qalmadan aradan qaldırmağa kömək etdi.

Ərzaq təminatı imkanlarını və Qacar-Osmanlı təhdidlərini nəzərə almaqla markiz Pauluççi rus qoşunlarının dislokasiyasında müəyyən dəqiqləşdirmələr apardı.

İrəvan xanlığının şimal-şərq sərhədi boyunca, Ahalkələk ətrafında yerləşən qoşun dəstəsi Osmanlı dəstələrinin təhlükəsinin qarşısını almalı idi. Qacar qoşunlarının və İrəvan xanlığı qoşunlarının Gürcüstana aparan yolunun qarşısını isə Pəmbəkdə yerləşdirilmiş rus qarnizonu kəsməli idi. Markiz Pauluççi orada 9 tabor saxlamağı lazım bildi. Onun fikrincə, Tiflis piyada alayının 2 taboru və yeger alayından 3 bölük Gürcüstan sərhədinin mühafizəsi üçün yetərli idi. Ehtiyatda qalmış olan 9 bölükdən xüsusi vəzifələrin icrası, bu və ya digər məntəqələrə göndərilməsi üçün istifadə edilə bilərdi. Bu istiqamətdə rus qoşun bölüklərinin mövqelərinin daha da möhkəmləndirilməsi üçün Qarakilsə və Gümrüdə artilleriya mövqelərinin qurulması da məqsədəuyğun sayılırdı (21).

Bir rus qoşun dəstəsi Çardaxlı ilə Şəmkir arasında yerləşdirilmişdi. Bu dəstə Şəmşəddil və Gəncə ətrafını da nəzarət altında saxlayırdı. Həmin dəstənin iki bölüyü Qazax könüllü atlıları ilə birlikdə Dilican dərəsinin mühafizəsinə vəzifələndirilmişdi. Daha böyük qüvvə isə Qarabağa yerləşdirilmişdi. Çünki Qarabağ xanlığı Qacar qoşunlarının yürüşlərinin əsas marşrutu üzərində idi. Bir tabor Mehridə, biri Şuşada, başqa birisi Şuşa ilə Mehri arasında mövqe tutdu. Bundan başqa Qarabağda daha üç tabor var idi. Digər üç tabor isə xanlıq ərazisində hərbi-siyasi şəraitə nəzarət etməli, Qacar qoşunlarının fəallaşması hiss olunanda münasib mövqelərə çıxmalı idi. Ehtiyatda saxlanılan taborlar Şamaxı və Şəki xanlıqları üzərinə ola biləcək Qacar hücumlarının da qarşısını saxlamalı və Pəmbək ətrafında hərbi vəziyyət mürəkkəbləşəndə ora da kömək göndərilməsi nəzərdə tutulmalı idi. Başqa bir rus dəstəsi Dağıstanda dayanırdı. Bu dəstə Dağıstan ərazisində ruslara qarşı

çıxışların qarşısını almaqla bərabər, Qubada da vəziyyətin nəzarət altında saxlanmasını təmin etməli idi (22).



General-leytenant markiz Pauluççi

Bakıdakı rus qarnizonunu bir piyada taboru və bir dəniz taboru təşkil edirdi. Piyada taboru Bakının qurudan mühafizəsini, dəniz taboru isə dənizdən mühafizəsini təmin etməli idi. Eyni zamanda nəzərdə tutulurdu ki, əgər Qacar dövləti Xəzərin cənubunda hərbi gəmilər quraşdırılmasına

başlasaydı, dəniz taboru həmin gəmiləri məhv etməli idi. Lənkəran ətrafında isə rus gəmiləri dayanırdı. 1812-ci ilin fevralında markiz Pauluççi Bakıdan Lənkərana əlavə 300 nəfərlik bir dəstə göndərdi. Bu dəstənin Lənkərana gəlməsi Qacar şahzadəsini Lənkəran xanlığına hücum etməkdən ehtiyatlandırmalı idi (23).

General-leytenant Pauluççinin Cənubi Qafqazda hakimliyi elə də uzum sürmədi. Bununla belə, o, çox tezliklə anladı ki, Azərbaycan xanlarına qarşı höcətlik və ötkəmlik göstərmək heç də onun istədiyi nəticəni verməyəcəkdir. Buna görə o özünün dediyi kimi, Azərbaycan xanlarına müəyyən hörmətlə yanaşdı, onlara qarşı açıq ziddiyyətdən çəkinməyə çalışdı. Markiz Pauluççi öz yazışmalarında Şamaxı xanı Mustafa xana qarşı diqqətli olmağın müsbət nəticəsini də qeyd edirdi. Azərbaycan xanlarına ehtiyatla yanaşması nəticəsində o, qoşunların ərzaq ehtiyaclarını da daha asanlıqla təmin edə bildi. 1812-ci ilin yazından etibarən markiz Pauluççi qoşunların dislokasiyasına yenidən baxılmasını təklif etdi. Yeni vəzifəyə təyinatı ilə əlaqədar olaraq bu işi başa çatdıra bilməsə də markiz Pauluççi öz təkliflərini ondan sonra baş komandan olan general-leytenant Rtişşevə çatdırdı. Markiz Pauluççinin fəaliyyətinin sonlarına yaxın, yəni təxminən 1812-ci ilin əvvəllərində Qacar sarayından yenidən barışıq anlaşması haqqında təkliflər irəli sürüldü. Bu məsələnin həlli də markiz Pauluççinin Cənubi Qafqazdan getməsindən sonrakı dövrə təsadüf edir. General Pauluççi yersiz əminliklə bəyan edirdi ki, onun bir neçə uğurlu döyüşü, habelə Kaxetiyada rus işğalına qarşı qaldırılmış qiyamın yatırılması Qacar sarayını Rusiya ilə barışığa getməyə sövq etdi (24).

General Pauluççinin uzun sürməyən hakimliyi dövründə Azərbaycan xanlıqları ərazisində ciddi və kütləvi döyüşlər baş vermədi. Rusiya tərəfi də əslində buna hələ maraqlı deyildi. Çünki Rusiya üçün Avropa cəbhəsi, konkret olaraq Napoleon təhlükəsi dövlətin bütün gücünü özünə səfərbər edən strateji məsələ idi. Bununla belə, Azərbaycan xanlıqları ətrafında Rusiya üçün münasib olan hərbi-siyasi vəziyyət qalmaqda idi. Bir tərəfdən Azərbaycan xanlıqları arasında hələ də Rusiya işğalına qarşı vahid müqavimət hərəkatı yaratmaq üçün fikir və əməl birliyi yox idi. Şamaxı xanı ilə Şəki xanı arasında, həmin xanlarla keçmiş Quba xanı Şeyxəli xan arasında anlaşılmazlıq və mövqe müxtəlifliyi qalmaqda idi. Qarabağ xanının ailə daxili çəkişmələri davam edirdi. İrəvan xanı isə adları çəkilən xanlardan xeyli uzaq düşmüşdü. Digər tərəfdən Osmanlı Türkiyəsinin Cənubi Qafqazla bağlı iddiaları arxa plana çəkildi. İngiltərənin Cənubi Qafqazda Rusiyaya zərbə vurmaq planları da artıq öz aktuallığını itirməkdə idi. Çünki İngiltərə Rusiyanın güclü dövlət kimi

Fransanın qarşısına çıxmasında və Fransanın zəiflədilməsində maraqlı idi. Ona görə 1812-ci ildən başlayaraq Qacar sarayındakı İngiltərə elçiləri Qacar sarayını işğal olunmuş Azərbaycan xanlıqlarının Rusiya nəzarəti altında qalması ilə razılaşmağa sövq etməyə çalışırdı. Qacar sarayının isə təklikdə Azərbaycan xanlıqları uğrunda mübarizə aparmaq gücü yox idi. Əvvəlcə Fransanın, sonra isə İngiltərənin maliyyə və texniki yardımlarına baxmayaraq Qacar dövləti rus qoşunları ilə bərabər səviyyədə döyüşə biləcək qoşunların təşkilinə nail ola bilmədi.

1812-ci il fevral ayının 12-də Rusiya imperatoru general-leytenant markiz Pauluççinin Gürcüstandan rus qoşunlarının baş komandanı və mülki idarəçilik üzrə hakimi vəzifəsindən azad edilməsi və onun Sankt-Peterburqa qayıtması haqqında sərəncam imzalandı. Bununla bağlı sərəncamında Rusiya imperatoru bəyan edirdi ki, əla xidmətləriniz mənim diqqətimi cəlb etdi və istəyirəm ki, layiqli səviyyədə sizin xidmətinizdən istifadə edilsin. İmperatorun sərəncamından da hiss edildiyi və rus tarixçilərinin də qeyd etdiyi kimi, general Pauluççinin daha yüksək vəzifəyə irəli çəkilmək ehtimalına görə o, Cənubi Qafqazdan geri çağırıldı. Tezliklə bu ehtimal özünü doğrultdu və general-leytenant Pauluççi Rusiya imperatorunun general-adyutantı vəzifəsinə təsdiq edildi (25).

Rusiya imperatorunun 16 fevral 1812-ci il tarixli başqa bir sərəncamı ilə Gürcüstandakı rus qoşunlarının baş komandanı vəzifəsinə general-leytenant Rtişşev təyin olundu (26). General Rtişşev Azərbaycan xanlıqlarının ələ keçirilməsi istiqamətində Rusiya ilə Qacar dövləti arasında aparılan müharibənin çox məsuliyyətli bir dövründə bölgədəki rus qoşunlarının baş komandanı vəzifəsinə təyin olundu. Həmin mübarizənin birinci mərhələsinin başa çatdırılması, Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla Şimali Azərbaycan xanlıqlarının işğalının siyasi cəhətdən rəsmiləşdirilməsi və Gülüstan müqaviləsinin imzalanması general-leytenant Rtişşevin Cənubi Qafqazdakı fəaliyyəti dövrünə təsadüf edir.

2. Azərbaycanın şimalında rus işğalına qarşı mübarizənin davam etdirilməsi

Markiz Pauluççinin Cənubi Qafqazda fəaliyyətə başlamasından sonra qarşılaşdığı ilk ciddi sınaqlardan biri Azərbaycanın şimalında Şeyxəli xanın rəhbərliyi altında rus işğalına qarşı davam edən mübarizə idi. Doğrudur, bu mübarizədə Şeyxəli xan tək deyildi. Dağıstan vilayətlərinin hakimləri də rus işğalına qarşı qətiyyətli mövqe nümayiş etdirirdilər. Amma Şeyxəli xan Azərbaycanın şimalında və Dağıstan ərazisində rus

işğalına qarşı ciddi mübarizənin hərəkətverici qüvvəsi idi. Şeyxəli xan Quba bəylərini və əhalisini bu mübarizədə öz ətrafına səfərbər edə bildiyi kimi, Dağıstan hakimlərində də işğala qarşı barışmazlıq əhval-ruhiyyəsi aşılaya bilmişdi. Bunun nəticəsi idi ki, Azərbaycanın şimalında rus işğalına qarşı mübarizə alovlanmaqda davam edirdi.

1810-cu il üsyanının yatırılmasından sonra rus generallarında belə bir təsəvvür yaranmışdı ki, Quba və Dərbənd xanlıqlarında rus işğalına qarşı müqavimət hərəkatının kökünə ciddi zərbə vurulmuşdur. Şeyxəli xanın Quba xanlığından uzaqlaşdırılması da rus işğalına qarşı mübarizənin yenidən alovlanmayacağına ümidi daha da artırdı. Şeyxəli xan isə Quba xanlığından uzaqlaşdırılsa da, onun mübarizə əzmini qırmaq mümkün olmadı. Əksinə, o, yeni mübarizə üçün qüvvələr toplamaqda davam edirdi. Mövcud məlumatlara əsasən, demək olar ki, 1811-ci ilin yayında Şeyxəli xanın ətrafında yeni qüvvə formalaşmışdı.

1811-ci ilin payızının əvvəllərində Şeyxəli xan və onun tərəfdarları Canqaytaq, Akuşa və digər məntəqələrdə əhalini yeni üsyana hazırlaşmağa çağırdılar. Əhalidən xahiş olundu ki ərzaq ehtiyatı yaratsınlar və yaxınlaşmaqda olan bayramdan sonra üsyana qalxmağa hazır olsunlar. Çox güman ki, bayram dedikdə, müsəlman bayramlarından biri nəzərdə tutulurdu. Şeyxəli xan yenidən Quba xanlığı üzərinə hücum etməyi planlaşdırırdı. Bu məlumat rus generallarını ciddi təşvişə saldı və Qubadakı rus qoşunları rəhbəri general-mayor Quryevə tapşırıldı ki, rus qoşun bölmələri döyüşə hazır vəziyyətə gətirilsin və bölgədə baş verən proseslər nəzarət altında saxlanılsın. Üsyan əlamətləri hiss edildikdə isə müvafiq qətiyyətli addımlar atılsın (27).

Sonradan əldə edilmiş məlumatlar Şeyxəli xanın doğrudan da rus işğalına qarşı üsyan qaldırmağa hazırlaşdığını sübut etdi. 1811-ci il oktyabr ayının əvvəllərində Şeyxəli xan üsyanın qaldırılması üçün konkret işlərin görülməsinə başladı. Oktyabr ayının 11-də o, Utemiş kəndinə gəldi və orada üsyan tərəfdarı olan şəxslərlə görüşlər keçirdi. Oktyabr ayının 13-də isə Qayakənddə Akuşa hakimi canqaytaqlı Həsən xan və digər şəxslərlə görüşlər keçirdi, rus işğalına qarşı birgə mübarizə imkanları araşdırıldı. Üsyançıların sayının artırılması üçün dağ kəndlərindən könüllülər toplanması məsləhət bilindi. Rus generallarının məlumatına görə, üsyanın qaldırılması üçün Şeyxəli xan Qacar şahzadəsi ilə təmas qurdu və Rüstəm bəy adlı nümayəndəsini Abbas Mirzənin yanına göndərdi. Abbas Mirzə də üsyanın təşkili üçün Rüstəm bəy vasitəsilə Şeyxəli xana 4 min çervon pul göndərdi. Rüstəm bəy eyni zamanda belə bir məlumat gətirdi ki, Abbas Mirzə də artıq qoşunu ilə yürüşə başlayıb və Muğan düzündə düşərgə salıb. Oktyabr ayının əvvəllərində Şeyxəli

xanın özünün dəstəsinin 500 nəfər olduğu bildirilirdi. Lakin bu dəstə rus bölmələrinə qarşı cəbhə tutmaq üçün yetərli deyildi. Ona görə Şeyxəli xan dəstəsinin sayının artırılmasını vacib bilirdi. Eyni zamanda Dağıstan hakimlərinin dəstələri də rus işğalına qarşı üsyana qoşulmalı idilər. Nəzərdə tutulmuşdu ki, müştərək qüvvələrin sayı 6 min nəfərə çatdırılsın (28).

Havaların soyumağa doğru getdiyi bir vaxtda Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərinə hücuma başlaması inandırıcı görünməsə də rus qoşunları komandanlığı bu xəbəri narahatçılıqla qarşıladı. Qacar qoşunlarının hücumu ilə bağlı Şəki xanı Cəfərqulu xandan alınan məktub da yəqin ki, narahatçılığı daha da gücləndirdi. Şəki xanının Arazın cənubuna göndərdiyi adamlarından aldığı məlumatlar da Abbas Mirzənin Azərbaycan xanlıqları üzərinə hücuma hazırlaşmasından xəbər verirdi. Həmin məlumatlara görə, Abbas Mirzə hücum məqsədilə qoşunu ilə Təbrizdən hərəkət etməli idi. İngilis məsləhətçilərinin təklifinə əsasən, Abbas Mirzə atlı dəstələri ilə hücuma keçməli və bu hücumun kəsərini artırmaq üçün topları da özü ilə aparmalı idi (29).

Qacar qoşunlarının Arazın cənubuna adlamasının doğru olub-olmadığının araşdırılması general-mayor Xatunsevə tapşırıldı. General Xatunsev bu məsələni kifayət qədər ehtiyatla araşdırmalı və yerli xanların fəallaşmasına fürsət verməməli idi. Şamaxı xanlığı ərazisində yerləşən 2 rus taborunu yoxlamaq bəhanəsi ilə general Xatunsev Şamaxıya gəlməli və buradan Muğana adamlar göndərməli idi. Həmin adamlar da məsələ ilə bağlı məlumatlar toplayaraq ona çatdırmalı idilər. Məlumat doğru olacağı halda general Xatunsev Şamaxıda olan iki rus taboru ilə Muğan düzündəki Qacar qoşunları üzərinə hücuma keçməli və Qacar qüvvələrinə zərbə vurmaqla onların hücumu genişləndirmək planlarının qarşısını almalı idi. Şamaxıda yerləşən iki taborun gücləndirilməsinə Nuxadan 2 rus bölüyü və Qubaya yollanmaqda olan 16-cı kazak alayı da cəlb edilməli idi. 16-cı yeger alayı istirahət adı ilə bir müddət Şamaxıda saxlanılmalı və hücum təşkil edilərdisə kazaklar da bu hücumda iştirak edə bilərdilər. General-mayor Xatunsev Şamaxıda olduğu günlərdə Mustafa xanın ruslar üçün yenidən şübhə doğuran mövqeyinin müəyyənləşdirilməsi ilə də məşğul olmalı idi. Markiz Pauluççi də Mustafa xanın ruslara bağlılığına şübhə ilə yanaşırdı. Onu eyni zamanda Mustafa xanın Qacar sarayı ilə əlaqədə olub-olmaması, Şeyxəli xan hərəkatına hansı münasibət bəsləməsi də maraqlandırırdı. Muğan düzünə gəlməsi ehtimal olunan Qacar qoşunlarının Mustafa xanla heç bir əlaqəsinin olmaması aydınlaşardısa, onda general Xatunsev Şamaxı xanını da atlı dəstəsi ilə birlikdə Qacar qoşunlarına qarşı hücuma cəlb etməyə çalışmalı idi. Qacar

qoşunlarının Muğan düzündə düşərgə salması xəbərinin təsdiqlənməyəcəyi halda 16-cı kazak alayı dərhal Qubaya göndərilməli idi. General Xatunsev isə Bakı komendantı general-leytenant Repin və Qubadakı Sevastopol alayının rəhbəri general-mayor Quryevlə əlaqə quraraq Şeyxəli xan hərəkatının vəziyyəti ilə maraqlanmalı idi. Şeyxəli xanın üsyana hazırlaşması xəbəri təsdiq olunacağı təqdirdə general-mayor Xatunsev Şamaxıdakı rus taborlarından birini hərəkətə gətirməklə Qubaya yollanmalı və həmin taborla Qubadakı rus qoşun bölmələrini birləşdirərək onlara ümumi rəhbərliyi öz üzərinə götürməli idi. General Xatunsev Qubaya gələndən sonra Şeyxəli xanın fəallaşmasını gözləməli deyildi. Əksinə, hərbi təşəbbüsü öz əlinə almağa çalışmalı və Şeyxəli xan qüvvələrinin toplaşdığı ehtimal edilən məntəqələr üzərinə hücum təşkil etməli və üsyançıları neytrallaşdırmalı idi. Quba üsyanı yatırıldıqdan sonra Şamaxıdan aparılan tabor yenidən öz yerinə qaytarılmalı idi (30).

Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərinə hücum ehtimalı təsdiqlənməyəndə rus generalları bütün diqqətlərini Şeyxəli xanın yeni üsyanının yatırılmasına yönəltdilər. General-mayor Xatunsev Şamaxıdakı taborların biri və 16-cı kazak alayı ilə Qubaya doğru hərəkətə başladı. Amma Qubaya yola düşməzdən əvvəl general Xatunsev ona verilən tapşırıqla əlaqədar müəyyən araşdırmalar apardı. Əvvəla, müəyyən edildi ki, Qacar qoşunları Muğan düzündə hücum üçün bəzi hazırlıq aparsalar da sonradan hücum təxirə salınıb və Qacar döyüşçüləri evlərinə buraxıləblar. Bununla da qacarların hücum ehtimalı aradan qalxıb. General Xatunsevin araşdırmaları nəticəsində Mustafa xanın qacarlarla əlaqəsi də təsdiqini tapmadı. Amma Mustafa xan ruslara da etibar etmirdi. Bunu general Xatunsev Mustafa xanın xarakterinin qeyri-sabitliyi ilə əlaqələndirirdi (31).

1811-ci il oktyabr ayının sonlarında Şeyxəli xanın ətrafında kifayət qədər böyük bir dəstənin toplanması haqqında məlumat alındı. Rusların narahatçılığını artıran məqamlardan biri bu idi ki, Şeyxəli xan hərəkatı yenidən kütləvi hal alırdı və bir sıra Dağıstan hakimləri də Şeyxəli xan hərəkatında ya iştirak edir, ya da bu hərəkata geniş dəstək verirdilər. General Xatunsev onunla birlikdə hərəkət edən Xerson qrenadyor alayının taboru və 16-cı kazak alayı ilə noyabr ayının 16-da Qubaya yetişdi (32). Amma onun gəlişinə qədər Sevastopol alayının rəhbəri general Quryevin rəhbərliyi altında Qubada olan bölmələr artıq Şeyxəli xan üsyanının yatırılması üçün konkret fəaliyyətə başlamışdılar.

1811-ci il noyabr ayının ilk günlərində Şeyxəli xanın dəstəsinin Quba xanlığı ərazisinə yürüşü gözlənilirdi. Quba üsyançılarının hücumunun qarşısının alınması üçün general-mayor Quryev noyabr ayının 2-də

rəhbərlik etdiyi alayın 2 taboru və bir qrup kazakla bərabər noyabr ayının 2-də Qubadan Tabasaran əyalətinə doğru hərəkətə başladı. Onun əldə etdiyi məlumatlara görə, rus işğalı ilə barışmayanların əsas qüvvələri Tabasaranda yerləşmişdi və general Quryev də istəyirdi ki, üsyançıların mərkəzinə güclü zərbə endirməklə rus işğalına qarşı müqaviməti aradan qaldırsın. Amma Tabasarana doğru irəliləyərkən general Quryev bir ləzgi dəstəsini Quba üzərinə hücum məqsədilə Samur çayına yaxınlaşması haqqında məlumat aldı. Ləzgi dəstəsinin Qubaya çıxması orada qalmış rus bölmələrinin vəziyyətini xeyli çətinləşdirə bilərdi. Qubada vəziyyətin mürəkkəbləşməsinə yol verməmək üçün general Quryev dəstəsi ilə geri qayıtmağı qərara aldı və ağır dağ yollarının çətinliklərinə qatlaşmalı olan dəstə noyabr ayının 5-də gecə Samur çayı yaxınlığındakı Ziaxur adlı məntəqəyə yetişdi. Mövcud məlumatlara əsasən, belə bir qənaətə gəlmək olar ki, rus dəstəsinin hərəkəti yerli dəstələr tərəfindən izlənilirdi və rus dəstəsinə zərbə endirilməsi üçün yerli qüvvələr gecəliklə Ziaxur ətrafındakı yüksəkliklərdə mövqe tutdular. Noyabrın 6-da səhər açılınca general Quryev dəstəsini yerli qüvvələrin mühasirəsində olduğunu gördü və dəstənin bütünlüklə məhv olmaq təhlükəsi altından çıxarmaq üçün yerli qüvvələrin üzərinə hücum etməyi qərarlaşdırdı. General Quryevin dəstəsini 1348 nəfərlik Sevastopol alayının taboru, kazak qrupu və yerli könüllü atlılar təşkil edirdilər. Onun əmrinə əsasən, tüfəngçilar dəstənin önünə keçirildilər. Tüfəngçiların ardınca 2 ədəd topu olan 2-ci qrenadyor taboru və 1 ədəd topu olan 1 muşketyor bölüyü hərəkət edirdi. Dağlıq və meşəlik ərazidə atlıların hərəkəti çətin olduğu üçün kazaklar və yerli könüllü atlılar arxada saxlanıldı (33).

İstinad olunan rus mənbələri bu döyüşdə Şeyxəli xanın özünün iştirak edib-etmədiyini dəqiqləşdirmirlər. Amma Ziaxur ətrafında mövqe tutmuş üsyançılar rusların sayından və toplarından çəkinmədilər, kifayət qədər əlverişli mövqelər tutmaqla rusların hücumuna qarşı ciddi müqavimət göstərdilər. Ləzgilərin tüfəng atəşləri rus dəstəsini çıxılmaz vəziyyətə saldı. Bütün istiqamətlərdən açılan atəş rusların sıralarına bir çaşqınlıq gətirdi və general Quryevin bütün səylərinə baxmayaraq rusların döyüş gücünü nizamlamaq mümkün olmadı. Döyüş 6 saat davam etdi və bu müddət ərzində üsyançıların ağır zərbəsindən qorunmaq mümkün olmadı. Rus generallarının gözləmədiyi halda rus bölmələri üsyançıların şücaəti qarşısında geri çəkilmək məcburiyyətində qaldılar. Bu geri çəkilmə ruslar üçün çox ağır itkilərlə başa çatdı. 300 nəfərdən çox ölən və yaralanan oldu. Rus tarixçiləri də etiraf edirlər ki, üsyançıların aldığı bu ağır zərbədən sonra general Quryev çarəsiz bir vəziyyətə düşdü və general Xatunsev Qubaya yetişənə kimi bir də üsyançılara qarşı silah qal-

dırmağa cəsarət etmədi. Üsyançılar isə əksinə, bu uğurdan daha da ruhlandılar, Şeyxəli xanın dəstəsinin sıraları yeni könüllülər hesabına daha da artdı. General Xatunsev Qubaya çatanda Şeyxəli xanın dəstəsi də artıq Qubaya xeyli yaxınlaşmışdı (34). Amma nədənsə general Xatunsev Qubaya yetişməzdən əvvəl Şeyxəli xan Qubada qalmış rus dəstəsinə zərbə vurmağı qərarlaşdırmadı. Belə bir zərbənin vurulması ilə Şeyxəli xan Qubanı ələ keçirə və rusların qüvvəsini kifayət qədər zəiflədə bilərdi

Noyabr ayının ortalarında Şeyxəli xanın dəstəsi Qazıqumıq ərazisində idi. Baxmayaraq ki, Qazıqumıq hakimi Surxay xan Rusiyaya yaxınlığını bəyan edirdi, amma Şeyxəli xan hərəkatına hərtərəfli dəstək verirdi. Bu da rus generallarının sonsuz qəzəbinə səbəb olurdu. Çox güman ki, Qazıqumıq ərazisində yenidən təşkilatlandıqdan sonra Şeyxəli xan Quba üzərinə hücumu davam etdirməyi planlaşdırırdı. General Xatunsev isə Qubaya gələn kimi dərhal Şeyxəli xanın dəstəsinin zərərsizləşdirilməsi üçün hazırlıq görməyə başladı.

Bir neçə günlük hazırlıq işlərindən sonra general Xatunsev rəhbərliyi altında olan bölmələrə Şeyxəli xanın dəstəsi ilə döyüşə yollanmaq əmri verdi. Bu zaman Şeyxəli xanın artıq Rustov kəndi ətrafında olması haqqında məlumat alınmışdı. General Xatunsev də noyabrın 21-də dəstəsi ilə Rustov kəndinə doğru istiqamət götürdü. General Xatunsevin dəstəsinə Xerson qrenadyor alayının bir taboru, 46-cı yeger alayının bir taboru, 16-cı Don kazak alayı daxil idi. Dəstənin bütünlükdə 877 nəfərdən ibarət olduğu bildirilir. Rustov kəndinə doğru irəliləyərkən yol üzərində olan üsyançıların mühafizə qrupları zərərsizləşdirildi və səhəri gün üsyançıların harada yerləşməsi və qüvvələri haqqında zəruri məlumatlar topladılar. Rus mənbələri üsyançı qüvvələrin 7 min nəfərdən ibarət olduğunu bildirirlər. Kiçik bir ərazidə bu qədər qüvvənin yerləşdirilməsi şübhə doğursa da, hər halda general Xatunsev onların üstünə hücuma keçmək əmri verdi. Üç istiqamətdən üsyançılar üzərinə hücum təşkil edildi. Tərəflər arasında baş verən hücumun təfərrüatı məlum olmasa da onun gərgin keçdiyi xəbər verilir. Ruslar çətinliklə də olsa irəliləmək imkanı əldə etdilər. Əslində onların artıq başqa seçimi də qalmamışdı. Bu hücumdakı uğursuzluq bütün Quba ərazisinin rus işğalı altından çıxarılması ilə nəticələnə bilərdi. 4 saatlıq döyüşdən sonra üsyançılar öz mövqelərini tərk etmək məcburiyyətində qaldılar. Rus generalları əldə edilən uğurun qiymətini artırmaq üçün üsyançıların çox itki verdiyini qabartmağa çalışırdılar. Amma ruslar arasında verilən itki də çox idi. Rus mənbələrinin məlumatına görə, ruslar arasında ölənlərin və yaralananların sayı 100-ə çatırdı (35). Bu da döyüşün xeyli gərgin keçdiyini nümayiş etdirirdi. Çox güman ki, rusların ixtiyarında olan

topların işə salınması üsyançıları geri çəkilməyə məcbur etdi. Çünki onlar möhkəmləndirilmiş və əlverişli mövqelərdə qərar tutmuşdular və onların həmin mövqelərdən çıxarılması heç də asan deyildi.

Mövcud məlumatlara görə, Qazıqumıq hakimi Surxay xanın oğlu Nuh bəy də üsyançıların arasında idi. Onun üsyançılara qoşulması rus generallarını heç də razı salmadı və qərara alındı ki, yaranmış fürsətdən istifadə edərək Qazıqumıq torpaqlarına rus qoşun dəstəsi çıxarılsın və silah gücünə Qazıqumıq hakimi Surxay xan Rusiya asılılığını qəbul etməyə məcbur edilsin. Başqa sözlə Surxay xan Rusiya tərkibinə daxil olmaq haqqında traktatı imzalasın. Güman edilirdi ki, Surxay xanın Rusiya ağalığı altına alınması ilə Şeyxəli xanın üsyançı və mübariz iradəsini də qırmaq mümkün olacaqdır.

General Xatunsev ətraf kəndlərin üsyana qoşulan ağalarını və ağsaqqallarını həbs etdirdi. Onların bir çoxunu Quba qalasına, bir çoxunu da Bakı qalasına göndərdi. Markiz Pauluççi öz məktublarından birində Çiçi kəndindən Fətəli bəyin və axund Məhərrəmin həbsini təqdir edir və onların məhkəməyə veriləcəyini bildirirdi. Ümumiyyətlə, markiz Pauluççi Quba kəndlərinin həbs edilmiş bəyləri üzərində məhkəmə qurulmasını və Şeyxəli xanı dəstəklədiklərinə görə onların cəzalandırılmasını tələb edirdi (36).

General-mayor Xatunsev dəstəsi ilə dekabr ayının 2-də Samur çayı ətrafına yetişdi. O, buradan Qazıqumıq ərazisinə qoşun çıxarmalı, Şeyxəli xanın ələ keçirilməsinə çalışmalı və eyni zamanda ona kömək göstərən Surxay xan cəzalandırılmalı idi. Onun tapşırığı əsasında general-mayor Quryevin rəhbərliyi altında qoşunların bir hissəsi Samur çayı ətrafında saxlanıldı. Bu dəstə Qubanın mühafizəsini təmin etməli idi. General Xatunsev özü isə Qazıqumıq ərazisinə daxil oldu və nümayəndəsini Surxay xanın yanına göndərdi. Surxay xandan tələb olundu ki, Qazıqumıq ərazisində olan Şeyxəli xan həbs edilərək ruslara təhvil verilsin (37).

Surxay xan rusların tələbini yerinə yetirmədi və rusların ona qarşı tətbiq etdiyi zorakılığın məqsədini aydınlaşdırmağa çalışdı. O bildirdi ki, öz münasibətini Rusiya sarayı ilə bağlı dəyişməmişdir və ruslara sədaqətli olaraq qalmaqdadır. Surxay xan bəyan etdi ki, Şeyxəli xanla onun bir anlaşması yoxdur və onun hərəkatını dəstəkləmir. Oğlunun Şeyxəli xanın yanında olmasını isə onun Şeyxəli xanı ruslarla barışdırması üçün vasitəçiliyə göndərildiyini vurğulayırdı. General Xatunsev Qazıqumıq hakiminin izahatlarını qəbul etmədi. Rus generalları, o cümlədən də markiz Pauluççi Qazıqumıq hakiminin rus işğalına qarşı bölgədə alovlanan üsyanın hərəkətverici qüvvələrindən biri kimi xarak-

terizə edirdilər və ona görə də Surxay xana qarşı sərt münasibət nümayiş etdirilirdi. Bunun nəticəsi kimi, general Xatunsev bir daha göndərdiyi məktubla Şeyxəli xanın təhvil verilməsini Surxay xandan tələb etdi. Dekabr ayının 4-də Surxay xan da cavabında bildirdi ki, Şeyxəli xan onun nəzarəti altındadır və o artıq ruslar üçün bir təhlükə təşkil etmir. Surxay xan ruslara onu da çatdırdı ki, Şeyxəli xanı bir şərtlə təhvil verməyə hazırdır ki, ruslar da onun əvəzində Surxay xanın qohumu Aslan bəyi təhvil versinlər. Surxay xanın qardaşı oğlu olduğu bildirilən Aslan bəy yuxarıda qeyd edildiyi kimi, bütünlüklə Rusiya himayəsinə sığınaraq rus işğalını qəbul etmiş və Rusiyanın maraqları naminə çalışmağa hazır olan bir şəxs idi. Surxay xan rusların xidmətində dayanan Aslan bəyi onun yerinə təyin edə biləcəyindən ehtiyatlanırdı və ona görə də Aslan bəyin ələ keçirilməsinə çalışırdı. Qazıqumıq üzərinə hücum zamanı Aslan bəy də general Xatunsevim dəstəsində idi. Onun da öz əmisinə qarşı yürüşdə iştirak etməsi Surxay xanın sonsuz qəzəbinə səbəb olmuşdu. Rus generalları Surxay xanın bu tələbi ilə razı olmadılar. Onun nəzərinə çatdırıldı ki, Şeyxəli xan tutulub ruslara təhvil verilsə ruslar da əvəzində Surxay xan üzərinə hücumu dayandırarlar. Aslan bəyə gəlincə isə onun Surxay xana verilməsi yox, bölgədən Tiflisə geri çağırılması vəd olundu (38).

Surxay xan irəli sürülən təkliflə razılaşdığı halda Rusiya təbəəliyini rəsmən qəbul etməli və övladlarından birini də girov kimi Tiflisə göndərməli idi. Rusların təklifləri qəbul edilməyəcəyi halda isə Küri əyaləti Surxay xandan qoparılmalı və Aslan bəy də bu əyalətin hakimi təyin edilməli idi. Küri əyaləti aran ərazilər idi və Qazıqumığın əhalisi də əsasən bu əyalətin məhsullarından bəhrələnirdilər. Bu məhsul bazasının Surxay xanın əlindən alınması tezliklə onun diz çökməsinə gətirib çıxara bilərdi (39).

Rus generalları irəli sürdükləri tələblərin Surxay xan tərəfindən asanlıqla qəbul olunacağına və Şeyxəli xanın da həbs edilərək ruslara təhvil veriləcəyinə heç də inanmırdılar. Ona görə də general Xatunsev Surxay xanın cavabını gözləmədən onun üzərinə hücum hazırlığına göstəriş verdi. Onun dəstəsinin tərkibinə Sevastopol alayının bir taboru və 100 nəfər kazak daxil idi. Dekabr ayının 5-də yola düşən dəstə yol üzərində yerləşən 6 kəndi bütünlüklə yandırıb məhv etdi. Həmin kəndlərin əhalisini var-yoxdan çıxaran dəstə Şenük kəndi yaxınlığında düşərgə saldı. Bu dəstənin yerli əhaliyə qarşı sonsuz talanlarını və vəhşiliklərini eşidəndə Surxay xan öz nümayəndəsini general Xatunsevin yanına göndərdi, ondan bu zorakılıqlara son qoyulmasını xahiş etdi və vəd etdi ki, rusların tələbinə əməl olunacaqdır. General Xatunsev irəli

sürülən şərtlərə əməl olunması üçün Surxay xana 2 saat möhlət verdi və həmin vaxt ərzində cavab alınmadıqda yenidən ətraf kəndlərin talan edilməsinə göstəriş verildi. Qonşu kəndlərdən birinin talan edilməsi üçün general Xatunsev 46-cı yeger alayının bir taborunu, bu topla bərabər 50 nəfər kazak göndərdi. Rusların bu zorakılığı qonşu kənd əhalisinin müqaviməti ilə qarşılaşdı. Əlverişli mövqelərdə qərar tutan yerli əhali rusların qarşısını saxlamağa müvəffəq oldu. Belə olanda general Xatunsev həmin istiqamətə 2 ədəd top, əlavə 50 nəfər kazak və Xerson qrenadyor alayının 2 bölüyünü göndərdi. Əlavə gətirilmiş topların və bölmələrin zərbə qüvvəsi ilə kənd ətrafında mövqe tutmuş yerli əhalini geri sıxışdırmaq mümkün oldu. Yerli silahlılar kənd ətrafındakı mövqeləri tərk edərək yüksəklikdə yerləşən kəndə geri çəkildilər. Rus bölmələri kəndi talamaq tapşırığı alsalar da qarşılaşdıqları müqavimətdən sonra kəndə doğru hərəkət etməyə cəsarət etmədilər və yenidən İsnik kəndi yaxınlığındakı düşərgəyə döndülər (40).

General Xatunsev rastlaşdığı bu müqavimətdən sonra bir neçə gün İsnik ətrafında dayanmalı oldu və hücumun davam etdirilməsi üçün əlavə qüvvələr göndərilməsini tələb etdi. Onun tələbinə əsasən, Dərbənd və Tabasaran atlı dəstəsi, habelə Aslan bəyin dəstəsi ona qoşulmalı idi. Dekabr ayının 12-də Aslan bəyin dəstəsi ona yetişdikdən sonra general Xatunsev Küri kəndinə tərəf hərəkət haqqında göstəriş verdi. Tatarxan kəndi ətrafında ruslar növbəti müqavimətlə rastlaşmalı oldular. Amma bu müqavimət elə də güclü deyildi və ruslar Tatarxan kəndi ətrafında yerləşən yerli silahlıların müqavimətini qırmağa müvəffəq oldular. Tatarxan kəndi və ətrafda yerləşən digər kəndlər yenidən rus talanlarının və zorakılıqlarının qurbanı oldular. Bu zorakılıqlar elə bir miqyas aldı ki, Surxay xanın ətrafına toplaşmış silahlıların da çoxu öz ailələrini xilas etmək üçün ətraf kəndlərə səpələndilər. Tatarxan kəndi ətrafında olan yerli qüvvələrin rəhbəri Surxay xanın oğlu Nuh bəy rusların təcavüzündən müdafiə olunmaq üçün Küri kəndindəki qalaya geri çəkildi. Küri kəndi Küri əyalətinin əsas kəndi idi və bu əyalət Dərbənd, Tabasaran, Qazıqumıq, Rutul və Quba əyalətləri ilə həmsərhəd idi. Əyalətin əsas istehkam tikilisi də Küri kəndində idi. General Xatunsevin hücumunun davam etdiyi günlərdə Şeyxəli xan və Surxay xan da bu qalada yerləşmişdilər. General Xatunsev şübhə etmirdi ki, Surxay xanın və onunla birlikdə, eləcə də Şeyxəli xanın müqavimətini qırmaq üçün Küri qalasını ələ keçirmək lazımdır. Həmin qalanın ələ keçirilməsi yerli qüvvələri müqavimət qurğularından məhrum etmiş olardı. Ona görə də dekabr ayının 14-də Küri qalası üzərinə hücum başladı. Küri qalası yerli qüvvələr üçün etibarlı müqavimət bazası olsa da rusların top atəşləri

vasitəsilə müdafiə bürclərini bir-birinin ardınca dağıtmaq mümkün oldu. Nəhayət döyüş o nəticəyə çatdı ki, Şeyxəli xan, Surxay xan və onların ətrafındakılar qalanı tərk etməli oldular. Qala üzərinə hücum ruslar üçün 30 nəfərin ölməsi və yaralanması ilə nəticələnsə də onu nəzarət altına almaq mümkün oldu (41).

Yerli qüvvələr üçün xüsusi əhəmiyyət kəsb edən Küri qalasının alınması, ruslara qarşı müqavimətin zəiflədilməsinə səbəb oldu. Buunla belə, müqavimət hərəkatının liderləri olan Şeyxəli xanla Surxay xanı ələ keçirmək mümkün olmadı. Bunun əvəzini ruslar qarşılarına çıxan kəndləri yandırmaqla çıxdılar. Bu talanların və zorakılıqların dayandırılması xatirinə həm Surxay xan, həm də Şeyxəli xan general Xatunsevlə əlaqəyə girdilər, ona məktub göndərdilər və qarşılıqlı əməkdaşlığın mümkünlüyünü çatdırdılar. Surxay xan bir daha talanların dayandırılması və Aslan bəyin ona təhvil verilməsini xahiş etdi. Bunun əvəzində o, Rusiyaya sədaqətli olacağını bildirdi. Şeyxəli xan isə ona fürsət veriləcəyi halda müqavimətdən əl çəkəcəyini və Rusiya dövlətinə sədaqət nümayiş etdirəcəyini bildirdi. General Xatunsev Şeyxəli xana çatdırdı ki, ona öz əməllərindən əl çəkmək nəinki bağışlana bilər, hətta Şeyxəli xan Rusiya imperatorunun mərhəmətindən faydalana bilər. Şeyxəli xanın silahlı yolla ələ keçirilməsinin mümkün olmadığını görəndə rus generalları Şeyxəli xanın qarşılıqlı əməkdaşlıq təklifini maraqla qarşıladılar və ona görə də onun Rusiya bayrağı altına gətirilməsinə cəhd göstərildi. Şeyxəli xan rusların təklifini qəbul etməklə silahı yerə qoyacağı təqdirdə Tiflisə və ya Gəncəyə aparılmalı, orada onun yaşayışı üçün pul ayrılmalı və daimi nəzarət altında saxlanmalı idi. Markiz Pauluççi bildirirdi ki, 1806-cı ildə Quba xanlığının Rusiyaya birləşdirilməsinə başlanandan Şeyxəli xan yerli əhalini rus işğalı ilə barışmamağa təhrik edir. Ona görə o, təhlükəli adam hesab etdiyi Şeyxəli xanı nəzarət altına alınmasını rus maraqlarının qorunması üçün əhəmiyyətli hal sayırdı (42).

Surxay xana isə cavab verildi ki, onun nicat yolu Şeyxəli xanı tutub ruslara təhvil verməsidir. Bundan sonra rus qoşunlarının Qazıqumıq kəndlərini viran qoyması dayandırılmalı və qoşun bölmələri geri çağırılmalı idi. Markiz Pauluççi özü Surxay xanın nəzərinə çatdırırdı ki, onun kəndlərinin daşı daş üstündə qoyulmayacaq, əhali isə qılıncdan keçiriləcəkdir. Hədələrə baxmayaraq Surxay xan Şeyxəli xanı ruslara təhvil vermədi. Ruslar isə bunun əvəzində Küri əyalətini Qazıqumıqdan qopardılar və Aslan bəyi Küri hakimi elan etdilər (43).

Qeyd etmək lazımdır ki, Şeyxəli xan da Rusiya təklifini qəbul etmədi və bununla əslində ruslar bölgədə işğala qarşı mövcud olan müqavimətin kökünü qırmağa müvəffəq olmadılar. Görünür, elə bina görə idi ki,

general-leytenant Rtişşev Cənubi Qafqazda baş komandan kimi fəaliyyətə başlayanda dərhal Şeyxəli xanla maraqlandı, onun Rusiya dövlətinə münasibətinin dəyişib-dəyişmədiyini öyrənməyə çalışdı (44).

General Rtişşevin fəaliyyəti dövründə Şeyxəli xanın Rusiyanın nəzarəti altına alınmasına müəyyən diqqət ayrıldı. Lakin Gülüstan müqaviləsi imzalanana qədər Şeyxəli xan tərəfindən xüsusi bir fəallaşma baş vermədiyi kimi, onu rusların nəzarəti altına almaq da mümkün olmadı.

3. Qarabağ xanlığı uğrunda iddiaların yenidən kəskinləşməsi

Böyük dövlətlərin Cənubi Qafqazla bağlı iddialarının müharibəyə çevrilməsində ən çox ziyan görən xanlıqlardan biri Qarabağ xanlığı idi. Qarabağ xanlığı Qacar qoşunları üçün Azərbaycan xanlığının üzərinə açılan qapı rolunu oynayırdı. Qarabağ xanlığı ərazisində möhkəmlənməklə Cənubi Qafqazın taleyinə həlledici təsir göstərmək mümkün idi. Bu baxımdan Qarabağ xanlığı Rusiya və Qacar qoşunlarının hərbi qarşıdurma məkanına çevrilmişdi. Qacar qoşunlarının hərbi yürüşləri kimi rus qoşunlarının hərbi yerdəyişmələri və Qacar qoşunları ilə döyüşləri Qarabağ xanlığının siyasi və iqtisadi həyatına ciddi mənfi təsir göstərirdi. Xanlığın ikitərəfli hərbi təzyiqlərə məruz qalması onun əhalisinin güzəranını da günü-gündən ağırlaşdırırdı. Bunu Qarabağ xanı Mehdiqulu xan da məktubunda markiz Pauluççiyə çatdırırdı. Rusiya xəzinəsinə verilməli olan ödənclərin kəsirdə olmasının səbəbini də Qarabağ xanı xanlığa yetirilmiş ziyanlarla bağlı olduğunu bildirirdi. Yaranmış ağır iqtisadi durumu təsvir etməklə Mehdiqulu xan markiz Pauluççidən rus qoşunlarına verilməli olan vergilərdən xanlığın azad edilməsini də xahiş edirdi. Mehdiqulu xan Mehri və Günü əyalətlərinin mənsubluğuna da aydınlıq gətirilməsini lazım bilirdi. Bu əyalətlərin Qarabağ xanlığından aralanmaq meyli Mehdiqulu xanı razı salmırdı və o həmin məntəqələrin yenidən Qarabağ xanlığının tabeçiliyinə qaytarılmasını markiz Pauluççi qarşısında qaldırdı. General Pauluççi Qarabağ xanının bu təklifi ilə razılaşsa da xanlığın hərbi vergilərdən azad edilməsinə razılıq vermədi. Qarabağ xanlığı daxilində təsərrüfat həyatının mürəkkəb olduğu ilə razılaşsa da markiz Pauluççi bəyan etdi ki, istənilən şəraitdə Qarabağ əhalisi hərbi vergiləri ödəməlidir (45).

İqtisadi vəziyyətin ağırlaşması, rusların təyin etdiyi vergilərin ağırlığı Qarabağ əhalisi arasında haqlı narazılıqları artırırdı. Bu da xanlıq daxilində rus işğalına qarşı barışmaz əhval-ruhiyyəni gücləndirirdi. Qarabağ bəyləri və əhali arasında artan narazılıqlar isə Mehdiqulu xanın

hakimiyyətini zəiflədirdi. Ağır siyasi-iqtisadi şəraitə dözməyərək bir çox bəylər Arazın cənubuna köçür və bununla da həmin bəylər Qarabağ xanında narazı olanların sırasına qoşulurdular. Belələrinin sayının artması Mehdiqulu xanın da narahatlıqlarına səbəb olurdu. Mehdiqulu xanın bu narazılıqlarının aradan qaldırılması üçün markiz Pauluççi Şuşada kiçik hərbi məhkəmə qurulmasını təklif etdi. Həmin məhkəmə rus işğalı ilə razılaşmayıb xanlıq ərazisini tərk edənlərin axtarıb tapılması və xanlıq ərazisində rus işğalına və Mehdiqulu xanın xanlığına qarşı mövqe tutanların cəzalandırılması ilə məşğul olmalı idi. Mehdiqulu xan bu təklifin icrasına razılıq vermədi (46).

Bütünlükdə, markiz Pauluççinin Cənubi Qafqazda fəaliyyətə başladığı vaxt Mehdiqulu xanla rus qoşunları rəhbərliyi arasında mürəkkəb münasibətlər mövcud idi. Rus qoşunlarının Qarabağ həyatına vurduğu ağır zərbəni Mehdiqulu xan gündəlik yaşayışında açıqca hiss edirdi. General Pauluççinin sərt tələbi qarşısında Mehdiqulu xan rusların hərbi vergilərini ödəməyə razı olsa da, sonradan bununla bağlı əməli addımlar atmadı və rusların müəyyənləşdirdiyi vergilər vaxtında toplanmadı. Vəziyyət o yerə çatdı ki, markiz Pauluççi bu məsələyə qarışmalı oldu və o, Mehdiqulu xanı rusları aldatmaqda ittihamlandırdı və ona sərt şəkildə bildirdi ki, təyin edilmiş vergilər ödənməsə Mehdiqulu xan Qarabağ xanlığından uzaqlaşdırılacaqdır. Qarabağ xanlığı ərazisində olan rus qoşun bölmələrinin rəhbəri polkovnik Jivkoviçlə də Mehdiqulu xan arasında ciddi narazılıqlar mövcud idi. Rus silahına arxalanan polkovnik Jivkoviç özünü xanlığın ağası saymaqla bütün işlərə qarışır, Mehdiqulu xana qarşı hörmətsizlik nümayiş etdirirdi. Ona görə Mehdiqulu xan polkovnik Jivkoviçin islah edilməsi haqqında da markiz Pauluççi qarşısında məsələ qaldırdı. Markiz Pauluççi isə məsələni polkovnik Jivkoviçin nəzərinə çatdıracağını vəd etdi. Amma bununla o, belə Mehdiqulu xana qarşı olan təqiblərindən də əl çəkmədi (47).

1811-ci ilin sonu və 1812-ci ilin əvvəllərində Qarabağın xan ailəsi daxilində də bir gərginlik yaşanmaqda idi. Mehdiqulu xanın yalnız rus hərbçiləri ilə yox, eyni zamanda Cəfərqulu ağa ilə olan münasibətlərində də soyuqluq yaranmağa başlamışdı. Baxmayaraq ki, Qarabağ xanlığına yiyələnəndən sonra Mehdiqulu xan Cəfərqulu ağadan onun xanlığını tanıyacağına zəmanət almışdı, bununla belə onların arasında səmimi münasibət uzun sürmədi. Mehdiqulu xan hətta Cəfərqulu ağaya vəd olunan 36 kəndi də ona vermədi. Mehdiqulu xan general Qudoviçə məktub göndərərək bildirdi ki, haqqında danışılan kəndlər Cəfərqulu ağanın atası Məhəmməd Həsən ağaya mənsub olmamışdır. Ona görə də bu kəndlərin vərəsəlik yolu ilə Cəfərqulu ağaya verilməsi mümkün deyil.

Bununla belə, Mehdiqulu xan onu da bəyan etdi ki, həmin kəndləri Cəfərqulu ağaya verməyə hazırdır. Bir şərtlə ki, o, Mehdiqulu xanın hakimiyyətini tanısın. Qarabağnamə müəlliflərinin məlumatına görə, Cəfərqulu ağaya belə bir təklif olunubmuş. Lakin Cəfərqulu ağanın ətrafındakılar onu daha böyük iddialara təhrik etdilər və ona görə də Cəfərqulu ağa Mehdiqulu xanın xanlığını tanımasına açıq münasibət nümayiş etdirmədi. Nəticədə, Mehdiqulu xanla Cəfərqulu ağa arasında nifaq və ədavət qızışdı. Abbas Mirzə və yaxınları bu məsələdən xəbər tutan kimi dərhal öz xeyirlərinə istifadə etməyi qərarlaşdırdılar. Əvvəlcə, Cəfərqulu ağanın arxalandığı Cəbrayıl elinin bir sıra bəylərinin Qaradağa köçürülməsinə cəhd göstərildi. Mehdiqulu xanla Cəfərqulu ağanın arasındakı nifaqdan təşvişə düşən Cəbrayıl bəyləri Mahmud ağa, Lütfəli minbaşı, Yaqub ağa, Hüseyn ağa və digərləri Qarabağı tərk edib Qaradağa köçməyi qərara aldılar (48). Çox ehtimal ki, bu bəylərin və ağaların Qaradağa üz tutmasında Abbas Mirzə adamlarının da əli vardı. Qarabağın zəiflədilməsi üçün Abbas Mirzənin adamları belə bir fürsəti əldən verməzdilər.

M.M.Xəzaninin yazdığına görə, bu vaxtlarda Arazın o tayından Cəfərqulu ağa üçün yazıldığı bildirilən məktub Mehdiqulu xanın əlinə keçdi. Yazılanlardan aydın olur ki, bu məktubda Cəfərqulu ağanın o tayda gözlənildiyi bildirilibmiş. Mehdiqulu xan bu məktubdan öz məqsədi üçün istifadə etməyi qərar aldı və onların Şuşa qalasındakı rus hərbi dəstəsinin komandirinə təqdim etdi. Həm Mehdiqulu xan, həm də rus dəstəsinin komandiri həmin məktubların mənşəyini araşdırmadan Cəfərqulu ağanın Abbas Mirzə ilə yazışmada olması və onun da Arazın o tayına köçməyə hazırlaşması qənaətinə gəldilər. Bundan sonra Cəfərqulu ağanın həbsinə qərar verildi (49).

Cəfərqulu ağaya ünvanlandığı ehtimal edilən həmin məktubda guya Qacar taxtının şahzadəsi yazırmış ki, Cəfərqulu ağaya əvvəldən də etibar edirmiş. Abbas Mirzənin sözlərinə görə, o, Cəfərqulu ağanın öz iradəsini nümayiş etdirəcəyinə və şah səltənəti qarşısında layiqli xidmət göstərəcəyinə inanırmış. Şahzadə bildirirdi ki, baş verənlər haqqında məlumat aldıqdan sonra Cəfərqulu ağaya qarşı rəğbəti daha da güclənib. Eyni zamanda Abbas Mirzə Cəfərqulu ağaya çatdırırdı ki, onun da qarşılıqlı səmimiyyətinə inana bilər. Abbas Mirzə daha sonra məktubunda Cavanşir və Cəbrayıl ellərinin böyüklərini də o taya köçməyə çağırırdı və əmin edirdi ki, bu çağırışı qəbul edənlərə qarşı heç bir hörmətsizlik göstərməyəcək. Əksinə, onun çağırışını qəbul edənlərə bəylik, hakimlik veriləcəkdir (50).

Cəfərqulu ağa aldığı xəbərdən inana bilmədi ki, onun həbs olunması haqqında qərar verilib. Bir tərəfdən Rusiyaya sədaqətli olduğu, digər tərəfdən Abbas Mirzə ətrafının ona qarşı təxribatçı münasibət bəslənildiyi üçün rus qüvvələri tərəfindən həbs olunacağına inanmadı.

Bununla belə, Qırçı qışlağında olarkən Cəfərqulu ağa həbs edildi və bir müddət rus hərbi dəstəsinin düşərgəsində dustaq saxlanıldı. Onun həbsi Sultanbud yaxınlığında dayanmış Troitski muşketyor alayının 3-cü taborunun komandiri mayor Cini tərəfindəən həyata keçirildi (51). Sonra qərara alındı ki, Cəfərqulu ağa Tiflisə yola salınsın. Nəzərdə tutulmuşdu ki, o, rus hərbçilərinin müşayiəti ilə Tiflisə çatdırılsın. Cəfərqulu ağa isə bununla razılaşmaq istəmirdi. O, Rusiyaya meylli bir şəxs olduğu və hətta Rusiyanın yardımına ümid bəslədiyi halda rusların nəzarəti altında dustaq kimi Tiflisə yollanmağı arzu etmirdi. O, xahiş etdi ki, evini, ailəsini və nökərlərini rusların yanında girov qoyub Tiflisə özü təklikdə, hərbi konvoysuz getsin. Cəfərqulu ağa onu da təklif etdi ki, əvvəlcə Tiflisə məktub göndərilsin və onun dustaq kimi Tiflisə göndərilməsinin zəruri olub-olmaması öyrənilsin. Ən başlıcası isə Cəfərqulu xahiş etdi ki, onu xalq arasına dustaq kimi çıxarmasınlar. Rus hərbçiləri bu xahişləri qəbul etmədilər və onu silahlıların nəzarəti altında Tiflisə yola saldılar. Ruslar Cəfərqulu ağanın mindiyi ata bir rus əsgəri də mindirdilər ki, qaçmaq üçün onun heç bir şansı olmasın. Bununla belə, Tərtər çayının yaxınlığında Cəfərqulu ağa rus hərbçilərinin müşayiətindən qaçmağa müvəffəq oldu. O, Qarabağ xanlığına qayıtdı və buradakı rus hərbi dəstəsinin komandirinə məktub yazaraq bildirdi ki, dustaq kimi Tiflisə getməyi ar bilir, o özü rus sərdarına məktub yazacaq və sonra təklikdə onun hüzuruna yollanacaqdır (52).

Cəfərqulu ağa doğrudan da rus qoşunlarının Qafqazdakı komandanı markiz Pauliççiyə məktub göndərdi. Ona Rusiyaya sədaqətli olduğunu çatdırdı və eyni zamanda onun Rusiya tərəfindən himayə olunmasını xahiş etdi. Lakin markiz Pauliççi bu məktuba cavab vermədi (53). Çox güman ki, cavab almamasını Cəfərqulu ağa Rusiyanın ona himayədarlıq göstərməməsi kimi qiymətləndirdi və onda ümidlərini Abbas Mirzənin verdiyi vədlərə bağlamaq məcburiyyətində qaldı. Abbas Mirzə Cəfərqulu ağaya və onun həbsdən qaçmasından sonra sığındığı Cəbrayıl elinin bəylərinə qayğı göstərməyə söz vermişdi (54).

M.M.Xəzaninin yazdığına görə, Cəfərqulu ağa Şamaxı xanı Mustafa xana məktub yazıb onu vasitəçilik etməyə çağırdı. Cəfərqulu ağa istəyirdi ki, Mustafa xan onun haqqında qərəzli işlər görüldüyünü rus sərdarına çatdırsın. Amma Mustafa xan bu işi görmədi və bildirdi ki, Cəfərqulu ağanın əsgərlərin mühafizəsindən qaçması onun vəziyyətini ağırlaşdırıb

və yəqin ki, onun əməli bağışlana bilməz. Bu da Cəfərqulu ağanın ruslarla münasibətlərinin davam etdirilməsinin əhəmiyyətsiz olması qənaətinə gətirdi (55). Əvəzində isə yuxarıda qeyd olunduğu kimi, Abbas Mirzə ona himayədarlıq və hətta Qarabağ xanı olmasına yardım vəd edirdi. Bu da Cəfərqulu xan üçün müəyyən maraq kəsb edirdi.

Abbas Mirzə yaranmış vəziyyətdən yararlanmağı qərara aldı. Havaların soyuq olmasına, qışın yetişməsinə baxmayaraq Abbas Mirzə yenidən Qarabağ üzərinə hücum əmri verdi. Mövcud olan məlumatlara görə, Abbas Mirzə Cəfərqulu ağaya məktub göndərib bildirdi ki, onu xilas etmək üçün qışda Qarabağ üzərinə səfərə hazırlaşmağa başlamışdır. Bununla bağlı Abbas Mirzənin hətta dayısı sərdar Əmir xan da Cəfərqulu ağanın yanına göndərildiyi bildirilir.

Qış aylarında şah qüvvələrinin döyüşlərdə iştirak etməsi bir qayda olaraq qəbul edilmirdi. Heç şübhəsiz ki, belə bir qərar qəbul etməkdə Abbas Mirzənin əsas məqsədi yalnız Cəfərqulu ağaya kömək göstərmək deyildi. Qış fəslində döyüşə girməkdə qarşıya qoyulan vəzifələrdən biri sözsüz ki, itirilmiş xanlıqların geri qaytarılması və sülh müzakirələrində arzu olunan nəticələrin əldə edilməsi üçün ruslara təzyiqlər göstərilməsi idi.

Mövcud olan məlumatlara görə, Abbas Mirzə bu dövrdə müəyyən xəstəlikdən əziyyət çəkirdi və fransalı həkimin nəzarəti altında müalicə olunurdu. Havaların soyuq keçdiyi bir vaxtda ehtiyatsızlıq etməsi onun xəstəliyini daha da gücləndirə bilərdi. Abbas Mirzədən başqa onun yaxın köməkçisi və məsləhətçisi olan Mirzə Bozorg da xəstəliyə tutulmuşdu. Bu hallar Qarabağ xanlığı üzərinə yeni hücuma rəhbərlik edilməsinə çətinlik yarada bilərdi (56). Lakin bu hücum Abbas Mirzə üçün kifayət qədər ciddi əhəmiyyət kəsb edirdi və 1812-ci ilin əvvəllərində Abbas Mirzə rəhbərlik etdiyi qoşun dəstəsi ilə yenidən Qarabağa doğru istiqamət götürdü.

Rus mənbələrinə görə, 1812-ci ilin əvvəlində Qarabağda yerləşən rus hərbçilərinin sayı elə də çox deyildi. Mövcud olan qüvvələr də səpələnmiş halda olduğu üçün onların ümumi müqavimət imkanı böyük deyildi. Abbas Mirzə öz qoşun dəstəsi ilə yürüşə başlayanda Mehridə 17-ci yeger alayının beş bölüyü var idi. Bu alayın daha iki bölüyü Tuğda və iki bölüyü də Gorusda yerləşirdi. Tuğda yerləşən bölüklərin mövcud şəxsi heyəti 140 nəfərdən ibarət idi. Onlar da Şuşa qarnizonunun gücləndirilməsinə göndərilmişdi. Şuşadakı rus hərbi dəstəsinin komandiri polkovnik Jivkoviç Mehridə və Gorusdakı bölükləri Abbas Mirzənin qoşun dəstəsinin istiqamət götürdüyü Şahbulağa və Sultanbuda göndərməyi məqsədəuyğun bilmədi. Polkovnik Jivkoviç Şuşa qalasında

olan qüvvələrdən bir qrup təşkil etdi. Həmin qrupa 17-ci yeger alayının 250 əsgəri və 4 zabiti daxil idi. Bu qrup kapitan İlyaşenkonun rəhbərliyi altında Sultanbuda yola salındı (57).

Sultanbudda dayanan rus dəstəsi Troitski muşketyor alayının 517 əsgərindən və 10 zabitdən ibarət idi. Rus mənbələrinə görə, Sultanbud üzərinə hücuma keçən Abbas Mirzə qüvvələri 10 min atlı və 8 min piyadadan təşkil edilmişdi. Dəstənin tərkibində 11 top və 100 ədəd zənburək var idi (58).

Farsdilli mənbələr təsdiq edirlər ki, Abbas Mirzənin dəstəsində olan toplara ingilis mütəxəssisi rəhbərlik edirdi və onun rəhbərliyi altında topların sərrast və səmərəli fəaliyyəti Abbas Mirzə dəstəsinin hərbi uğuruna zəmin yaratdı (59).

Bu yürüş zamanı əsas döyüş Qarabağ xanlığının Şamaxı xanlığı ilə sərhədindəki Sultanbudda baş verdi. Əsas döyüşün nə üçün burada baş verməsi haqqında aydın bir fikir mövcud deyil. Rus tarixçilərinin yazdığına görə, həbs edilmiş Cəfərqulu ağa Sultanbudda olduğu üçün Qacar qoşunları ora istiqamət götürdülər (60). Amma məlumdur ki, Cəfərqulu ağa həbsdən qaçaraq Cəbrayıla sığınmışdı və hətta buranın camaatını da Arazın cənubuna köçürmək istəyirdi. Farsdilli mənbələrdə isə bildirilir ki, Sultanbudda rusların möhkəmləndirilmiş mövqeləri var idi və orada rusların 2-3 min nəfərlik qoşun dəstəsi dayanırdı (61). Ola bilsin ki, Abbas Mirzə Sultanbuddakı rus qarnizonunu məhv etmək istəyirdi. Amma Sultanbud ətrafındakı hərbi uğurun sonradan genişləndirilməməsi Abbas Mirzənin son məqsədinin nədən ibarət olması barəsində aydın təsəvvür yaratmır.

Mövcud olan məlumatlara görə, ilkin olaraq kapitan İlyaşenkonun rəhbərliyi altında olan rus dəstəsi qacarlarla üzbəüz gəlməli oldu. Həmin dəstə çox çətinliklə Şahbulağa qədər gəlib çıxa bilsə də sonradan qacarlar bu dəstəni Sultanbuda aparan yolunun qarşısını kəsdilər (62) və bununla Sultanbuddan rus qarnizonu əlavə köməkdən məhrum oldu.

Mehdiqulu xana görə, Sultanbudda dayanan rus taborunun rəhbəri mayor Cini Qacar qoşunlarının hücum ehtimalını laqeydliklə qarşıladığı üçün ağır nəticələrlə üzləşməli oldu. Farsdilli mənbələrə görə, Cəfərqulu ağanın rus həbsindən qaçması xəbərini eşidəndən sonra Abbas Mirzə onu Qarabağ hakimi təyin etdi (63). Qarabağ xanlığı Qacar qoşunlarının nəzarəti altına düşəcəyi təqdirdə xanlıq Cəfərqulu ağaya tapşırılmalı idi. Mehdiqulu xan qacarlar tərəfindən qəbul edilməyəcəyini bilirdi və ona görə Qacar qoşunlarının yerdəyişmələrini nəzarət altında saxlamağa çalışırdı. Qacar qoşunlarının Qarabağ üzərinə hücum hazırlığını başlayanda artıq Mehdiqulu xan öz adamları vasitəsilə bundan xəbər tutdu.

Məlumat dərhal da mayor Ciniyə çatdırıldı. Havaların soyuq vaxtında Qacar qoşunlarının hücumunu inandırıcı saymayan mayor Cini bu xəbərə istehza ilə yanaşdı. Qacar qoşunlarının hərəkət edərək Araz çayı kənarında toplanması, bir neçə gündən sonra qoşunların Arazın şimalına adlaması, qacar qoşunlarının Sultanbuda doğru irəliləməkdə olması haqqında xəbərləri də mayor Cini inandırıcı saymadı. Mehdiqulu xan Qacar qoşunlarının hücumundan qorunmaq üçün ətraf kəndlərin əhalisinin Tərtər dağlarına köçürülməsini, xan ətrafının və rus bölmələrinin isə Şahbulaq qalasına köçürülməsini təklif etdi. Mayor Cini bu təklifi də qəbul etmədi. Mehdiqulu xan hətta müvəqqəti olaraq Samux və Gəncə istiqamətində geri çəkilməyi də təklif etdi. Bu təklif də qəbul olunmayanda Mehdiqulu xan bəzi elatlara və tayfalara öz ərazilərində müdafiə tədbirləri görməyi tapşırdı (64).

Nəhayət 1812-ci il fevral ayının 1-də Abbas Mirzənin rəhbərlik etdiyi qoşunların ön dəstələri Sultanbud ətrafında görünməyə başladılar. Həmin gün Sultanbudda olan rus hərbi dəstəsi ilə Abbas Mirzənin qoşun dəstəsi arasında beş saat davam edən ciddi döyüş baş verdi. Qeyd edildiyi kimi, Abbas Mirzənin dəstəsində olan topların sərrast atəşlə döyüşə qoşulması ruslara xeyli itki yetirdi. Əvvəla rusların ixtiyarında olan toplar sıradan çıxarıldı. Bununla rusların zərbə qüvvəsi zəiflədildi. Sonra top atəşləri vasitəsilə rusların canlı qüvvəsinə itkilər yetirildi. Xüsusilə, rusların zabitləri arasında da itkilərin sayı artdı. Elə döyüşün əvvəlində rus dəstəsinin komandiri qarşı tərəfdən atılan güllənin qurbanı oldu. Nəticədə rus dəstəsi idarə olunmaz vəziyyətə düşdü. Belə olanda dəstədə sağ qalan zabitlər qərara aldılar ki, komandanlıq kapitan Olovyaşnikova tapşırılsın. Kapitan Olovyaşnikov Cəfərqulu ağanın dustaq kimi Tiflisə müşayiət edən dəstənin rəhbərli olmuşdu. Cəfərqulu ağanın mühafizəsini təşkil edə bilmədiyi üçün o, günahkar sayılıb nəzarət altına alınmışdı. Lakin rus dəstəsi ağır vəziyyətə düşdüyü üçün komandanlığın ona etibar edilməsi zərurəti ortaya çıxdı. Amma bu da rusları xilas edə bilmədi. Abbas Mirzə dəstəsinin toplarla müşayiət olunan çevik hücumu rusların bütün manevr imkanlarını heçə endirdi və onların vəziyyətini mürəkkəbləşdirdi. İbrahim bəyin rəhbərliyi altında olan Marağa dəstəsi, Mirzə Əhməd xanın və Nəzərəli xanın dəstələri rus səngərlərinin üzərinə hücum çəkdilər və bəzi yerlərdə qarşı tərəflər arasında hətta süngü döyüşü başladı. Bildirilir ki, bir neçə rus zabiti əlbəyaxa döyüşdə qarşı tərəfin süngüləri ilə öldürüldü (65).

Ə.Dünbəli Sultanbuddakı döyüşü təsvir edərkən yazırdı ki, həmin günün səhəri günəş üfüqdən boylanan kimi toplar, qorxu bilməyən alaylar və atlılar döyüşə atıldılar. Qacar qoşunlarının topları səngərdən

kənarda olan rus toplarını susdurdular və alaylar bir-birinin ardınca rusların üzərinə hücuma atıldılar. Hər iki istiqamətdən hücum gücləndirildi. Müəllif də bildirir ki, son dərəcə ağır keçən bu döyüş 4-5 saat davam etdi. Ə.Dünbəli döyüşdə Təbriz topçularının məharətini xüsusi olaraq qeyd edirdi. Bu topçulara ingilis zabiti olan Misterlin rəhbərlik edirdi. Döyüşün qızğın vaxtında Abbas Mirzə ingilis zabitinə göstəriş verdi ki, bütün rus mövqeləri top atəşinə tutulsun. Topçular da bu tapşırığa əməl etdilər. Müəllifin yazdığına görə, Təbriz topçuları əvvəlcə rus toplarını hədəfə götürdülər və onları parça-parşa etdilər (66). Onların itirilməsi ilə rusların zərbə qüvvəsi də zəiflədi. Qeyd etmək lazımdır ki, rus toplarının Qacar topçuları tərəfindən məhv edilməsini rus tarixçiləri də təsdiq edirlər. Bildirilir ki, onların cəmi 2 ədəd topu var idi ki, onlar da sıradan çıxarıldı (67).

Sonra Abbas Mirzənin topçuları rus səngərlərini hədəf aldılar və rusların göründüyü səngərlər atəşə tutuldu. Ciddi artilleriya hazırlığı aparılandan sonra İbrahim bəyin rəhbərliyi altında olan Təbrizin iki alayı, Cəfərqulu xan Marağa dəstəsi ilə, Mirzə Əhməd xan, Nəzərəli xan və ingilis mayoru Kreştin rəhbərliyi altında olan dəstələrlə rus səngərlərinə hücum etdilər. Bu döyüşün səngərlərdə süngü döyüşünə çevrildiyi təsvir edilmişdir. Bildirilir ki, həmin süngü döyüşündə bir sıra rus zabitləri öldürüldü, bir neçəsi isə əsir götürüldü. Ə.Dünbəlinin yazdığına görə Qarabağ xanı Mehdiqulu xan döyüşün gedişini meşənin içərisindən müşahidə edirdi. Rus dəstəsi uğursuzluqla qarşılaşanda Mehdiqulu xan da döyüş meydanından çəkilməyi üstün tutdu. Rusların sağ qalanlarının vəziyyəti isə çıxılmaz hal aldı. Nicat yolunun olmadığını görəndə onlar ağ bayraq qaldırdılar və təslim olmalarını bəyan etdilər. Abbas Mirzə əvvəlcə əsir götürülmüş rus döyüşçülərindən birini döyüş mövqeyində olan rusların yanına göndərdi və onlara çatdırdı ki, silah və sursatlarını təhvil verib tabe olurlarsa, onların həyatına zəmanət verir. Rusların aman diləməkdən başqa çarəsi qalmadı və ona görə təslim olduqlarını bildirdilər. Ə.Dünbəli Abbas Mirzə tərəfindən Mirzə Bozorgun rus səngərlərinə göndərildiyini qeyd edir. Rus səngərlərinə yollanan nümayəndələr rus əsgərlərini və onların silahlarını təhvil aldılar. Ə.Dünbəlinin yazdığına görə, ruslardan 2 ədəd top, 2 ədəd bayraq qənimət götürüldü. Silah və sursatdan əlavə 820 rus hərbçisinin əsir alındığı da bildirilir (68).

Ə.Dünbəli rus əsirləri ilə yaxşı rəftar edildiyini yazırdı. Onun məlumatına görə, rus əsirlərinə Qacar düşərgəsində mərhəmət göstərildi, həkimlərə tapşırıldı ki, bütün yaralılara kömək göstərilsin, ölmüş rus əsgərləri xristian adətlərinə əməl edilməklə torpağa tapşırılsın. Ə.Dünbəli eyni zamanda Şuşadan Sultanbuddakı qoşun dəstəsinə köməyə göndəril-

miş dəstənin taleyinə də aydınlıq gətirirdi. Müəllif konkret şəxs adı çəkməsə də bu, sözsüz ki, kapitan İlyaşenkonun rəhbərliyi altında olan dəstə idi. Ə.Dünbəli köməyə göndərilən dəstənin 400 nəfərdən ibarət olduğunu qeyd edir. Abbas Mirzə Əsgəran ətrafında olarkən belə bir dəstənin köməyə gəlməsindən xəbər tutdu və Əmir xanın rəhbərliyi altında bir dəstəni rusların qarşısını kəsməyə göndərdi. Əmir xan öz dəstəsi ilə Şuşadan gələn dəstənin qarşısını kəsə bildi və ruslar qorunmaq üçün Şahbulaq qalasına sığınmalı oldular. Əmir xan onları Şahbulaq qalasında mühasirəyə aldı. Müəllif yazır ki, Abbas Mirzə özü də Şahbulaq qalası üzərinə hücum etdi Rus dəstəsi çıxış yolunun olmadığını görüb fürsət yaranan kimi Cimruğ dağına tərəf qaçdı. Bundan xəbər tutanda Abbas Mirzə onların arxasınca bir dəstə göndərdi. Bununla belə, ruslar təhlükəli şəraitdən qaçıb canlarını qurtarmağa nail oldular (69).

"Rövzət-üs səfa" əsərində də Ə.Dünbəlinin yazdığı məlumatlar müxtəsər şəkildə təkrarlanır (70). Mirzə Məhəmməd Sadıq Vəqayeneqarın əsərində isə Sultanbud döyüşü ilə bağlı müəyyən fərqli məlumatlar mövcuddur. Həmin məlumatlar döyüşün təfərrüatlarını təsəvvür etmək baxımından maraqlıdır. Müəllifə görə, Abbas Mirzə səngər döyüşlərində daha çox təcrübəsi olan Kəmrə və Kəzzaz alaylarını bu hücuma qoşdu. Mirzə Məhəmməd Sadıq da mayor Misterlinin rəhbərliyi altında olan topçuların fəal olmasına, tərəflər arasında döyüşün süngü döyüşünə keçməsinə toxunmuşdur. Müəllif 22 rus zabitinin əsir götürüldüyünü bildirirdi. O da əsir götürülənlərin 820 nəfər olduğunu qeyd edir. Eyni zamanda o da əlavə olunur ki, bu əsirlər sonradan könüllü olaraq islam dinini qəbul etdilər. Müəllif onu da yazır ki, təslim olan ruslar Abdulla xan Qacarın rəhbərliyi altında olan alaya verildilər (71).

Sultanbud döyüşü haqqında Abbas Mirzənin də qeydləri mövcuddur. Osmanlı paşalarına yazdığı məktublardan birində Abbas Mirzə müxtəsər və ümumi ifadələrlə bu döyüş haqqında münasibətini açıqlamışdır. Abbas Mirzə də bu döyüşdə Qacar toplarından yaxşı istifadə edildiyini, tərəflər arasında əlbəyaxa döyüşün baş verdiyini və rusların aman dilədiklərini qeyd etmişdir. Abbas Mirzənin yazdığına görə isə təslim olan rusların sayı 500-600 nəfərdən artıq idi (72).

Sultanbud döyüşünün şahidi və iştirakçısı olan Mehdiqulu xan da bu döyüşlə bağlı təəssüratlarını bəyan etmişdi. O, tərəflər arasında 7 saatlıq gərgin və qanlı döyüşün baş verdiyini bildirirdi. O da bir neçə rus zabitinin yaralandığını və öldürüldüyünü təsdiq edirdi. Əsgərlər və sərbazlar arasındakı itkilərin sayı da çox idi. Mehdiqulu xan da əlbəyaxa döyüş baş verməsindən söz açır və rus zabitlərinin öldürülməsindən sonra Qacar qüvvələrinin hücumunun daha da gücləndiyini vurğulayırdı.

Mehdiqulu xana görə, dustaq vəziyyətində olan Olovyaşnikov qılıncını götürüb Qarabağ xanı ilə birlikdə Qacar qüvvələrinə qarşı döyüşə girdi, Qacar sərbazları səngərlərdən və rus çadırlarından uzaqlaşdırıldı. Havanın qaralması ilə döyüş dayandırıldı və qacarlar rus düşərgəsini və mövqelərini mühasirəyə aldılar. Gecə ikən Abbas Mirzənin rus dilində olan məktubu ruslara çatdırıldı. Həmin məktubda məlum olduğu kimi, Abbas Mirzə ruslara təslim olmağı təklif etdi. Mehdiqulu xan isə bu təklifə qarşı çıxdı. Markiz Pauluççiyə yazdığı məktubunda Mehdiqulu xan kapitan Olovyaşnikovu da bu təklifi qəbul etməməyə çağırdığını bildirirdi. Onun fikrincə, gecə ikən dəstə ilə Sultanbudu tərk edib Şahbulaq qalasına, ya da meşələrə çəkilmək mümkün idi. Kapitan Olovyaşnikov verdiyi cavabla Mehdiqlu xanın təkliflərinə əks çıxdı. Sonradan isə kapitan Olovyaşnikov öz mövqeyini dəyişməli oldu. Onun cavabı Mehdiqulu xana belə oldu ki, siz rus qoşunlarını tərk etməlisiniz, özüm haqqında isə mən özün fikirləşərəm, Şahbulaq və digər yerlərə gedən deyiləm (73).

Mehdiqulu xanın yazdığına görə, o, rus qoşunlarını tərk etmək istəmirdi. Əvəzində isə kapitan Olovyaşnikov təkidlə onun uzaqlaşmasını tələb etdi. Əks təqdirdə ona qarşı sərt addımlar atacağı ilə hədələdi. Bundan sonra gecədən keçmiş o, bir unter-zabiti və 3 əsgəri Qacar düşərgəsinə göndərdi və onlar vasitəsilə Abbas Mirzənin təklifinə cavab da yolladı. Kapitan Olovyaşnikov təslim olmağı qərara aldı. Mehdiqulu xanın yazdığına görə, bundan sonra bir neçə nəfər yaxınlaşıb ona rus düşərgəsini tərk etməyi təklif etdilər. Onlar bildirdilər ki, əks halda Mehdiqulu xan da tutulub Abbas Mirzəyə təhvil verilə bilər. Ona görə də Mehdiqulu xan gecəliklə Sultanbuddan uzaqlaşıb Şuşaya qayıtdı. Qarabağ xanı onu da yazırdı ki, onun tutulması üçün arxasınca Qacar atlıları göndərilmişdi. Lakin xanı tutmaq onlara müyəssər olmadı. Səhəri gün isə kapitan Olovyaşnikov bütün dəstəsi ilə qacarlara təslim oldu (74).

M.M.Xəzaniyə görə, vəziyyət mürəkkəb xarakter alanda kapitan Olovyaşnikov özü Mehdiqulu xana təklif etdi ki, döyüş məntəqəsini tərk etsin və əgər iki gün ərzində kömək yetişərsə rus dəstəsi də vəziyyətdən çıxa bilər. Belə olanda gecə ikən Mehdiqulu xan yanındakı bəylərlə birlikdə düşərgəni tərk edib Tərtər istiqamətinə qaça bildi. Müəllif yazır ki, Mendiqulu xan kömək göndərilməsi üçün Gəncə və Tiflisdəki rus komandirlərinə məktub yazdı. Lakin bunun bir nəticəsi olmadı (75).



Sultanbud döyüşü

Sultanbud ətrafındakı döyüş yalnız Qacar qoşunlarının üstünlüyü ilə başa çatmadı. Eyni zamanda Qarabağ xanlığının çoxlu sayda əhalisi Arazın cənubuna köçürüldü. Mirzə Məhəmməd Sadıq Vəqayeneqar yazır

ki, Cəbrayıl elinin çoxunu Abbas Mirzə Arazın cənubuna köçürdü. Onların qalanını da Cəfərqulu ağa Arazın cənubuna köçürdü (76). Rus zabitlərinin yazdığına görə, Sultanbud döyüşündən sonra Tuğ kəndindən 200 ailə Cəfərqulu ağaya qoşularaq Arazın cənubuna köçdü. Başqa bir məlumatda isə bildirilirdi ki, Qarabağ xanlığında yaranmış vəziyyətlə əlaqədar əhali arasında Arazın cənubuna köçmək istəyənlərin sayı xeyli çox idi. Rus generalları təsdiq edirdilər ki, son illər ərzində Qarabağdan 5 minədək ailə, yəni Qarabağ əhalisinin təxminən yarısı Arazın cənubuna köçürülmüşdü (77). Bu isə xanlığın iqtisadi həyatına ciddi təsir göstərməklə yanaşı, həm də xanlığın azərbaycanlı (müsəlman) əhalisinin nisbətini kəskin şəkildə aşağı salırdı.

Xanlıq əhalisinin Arazın cənubuna köçməsinin qarşısını almaq üçün rus zabitləri Mehdiqulu xandan tələb etdilər ki, Araz çayı kənarında olan kəndlər Şuşa qalası ətrafına köçürülsün, mümkün olmayan kəndlərdən isə girovlar götürülsün ki, onlar köçmək fikrinə düşməsinlər (78).

Sultanbud və Şahbulaq ətrafında döyüşlər baş verən zaman general Pauliççi Quba və Şamaxı xanlıqları ərazisində davam edən həyəcanların yatırılması ilə məşğul idi. Həmin döyüşlərdə yol verilən itkilər, habelə rus hərbçilərinin əsir götürülməsi onu ciddi təşvişə saldı və Abbas Mirzənin uğurlarının digər xanlıqlara yayılmasının qarşısını almaq üçün dərhal Qarabağa əlavə qoşun dəstəsi göndərməyi qərarlaşdırdı. Mövcud olan məlumatlara görə, general Pauliççi əvvəlcə Qarabağa göndərilən əlavə hərbi dəstənin komandanlığını öz üzərinə götürmək istəyirdi. Sonra o fikrindən daşındı və həmin dəstəyə rəhbərlik polkovnik Kotlyarevskiyə tapşırıldı. Bu dəstənin tərkibində 1500 atlı var idi. Polkovnik Kotlyarevskiyə göstəriş verildi ki, təcili şəkildə Zərdaba doğru istiqamət götürsün. O buradan Qarabağ ərazisinə daxil olaraq Abbas Mirzənin dəstəsi ilə döyüşə girməli idi. Kotlyarevskinin dəstəsinin gəlişi Abbas Mirzəni döyüşə girmədən Arazın cənubuna çəkilməyə məcbur etdi. Farsdilli mənbələr bildirirlər ki, Abbas Mirzənin geri çəkilməsinə səbəb Qarabağ kəndlərinin çoxunun boşalması, əhalinin cənuba üz tutması, ərzaq və yem ehtiyatlarının olmaması və s. idi (79).

Əslində Qarabağ doğrudan da çətin bir vəziyyətə salınmışdı. Bir-birinin ardınca davam edən döyüşlər, xanlıq üzərində iki böyük dövlətin qüvvələrinin qarşıdurması əhalinin vəziyyətini günü-gündən ağırlaşdırdı. Mehdiqulu xanın əlbətdə ki, bu qarşıdurmanın qarşısını almaq imkanı yox idi. Əhali isə var-yoxdan çıxır, tələb olunan vergiləri ödəməkdə çətinlik çəkirdi. Araz kənarı kəndlərin çoxu isə Qarabağ ərazisinə köçürülmüşdü. Bu kəndlərin əhalisi Abbas Mirzə adamlarının vədlərinə inanaraq Arazdan cənubda sakitlik tapacaqlrına ümid edirdi. Yaranmış

belə vəziyyət Abbas Mirzənin təchizat məsələlərinin təminatını çətinləşdirə bilərdi. Amma bunu onun geri çəkilməsinin yeganə səbəbi kimi qiymətləndirmək olmaz. Abbas Mirzənin qoşunlarının tam formalaşmaması və lazımi təcrübə əldə etməməsi, böyük və həlledici döyüşlərə girməyə imkan vermirdi. Abbas Mirzə polkovnik Kotlyarevskinin daha çox sayda olan dəstəsi ilə döyüşə girməyin uğurunun şübhə altında olduğunu bildiyi üçün geri çəkilməli oldu.

Mövcud olan məlumatların birinə görə, Qarabağa yaxınlaşandan sonra xanlığın xristian əhalisi polkovnik Kotlyarevskiyə öz xidmətlərini təklif etdilər. Onların köməyi və bələdçiliyi ilə polkovnik Kotlyarevski Abbas Mirzə qüvvələrinin üzərinə qəfil hücum təşkil etdi və bundan sonra Abbas Mirzə geri çəkilməli oldu. Həmin məlumata görə, Abbas Mirzənin toplarına rəhbərlik edən zabit Rusiya ilə İngiltərə arasında anlaşma imzalandığını əsas tutaraq ruslara qarşı atəş açmaqdan imtina etdi. Abbas Mirzə özü toplardan rusları atəşə tutmağa cəhd göstərsə də bir nəticə hasil olmadı (80).

Abbas Mirzə Sultanbud ərazisində ruslar üzərində qələbənin başlıca səbəbini ingilislər tərəfindən idarə olunan topların sərrast və səmərəli işləməsində görürdü. Sonradan o təəssüf edirdi ki, beynəlxalq vəziyyətin dəyişməsi üzündən ingilis hərbçilərinin Abbas Mirzə ordusuna yardımını davam etdirmək mümkün olmadı (81). İngilis hərbçilərinin toplara rəhbərlik etməsindən imtina etməsi faktı özü də Abbas Mirzəni polkovnik Kotlyarevskinin gəlişi ərəfəsində Qarabağı tərk etməyə sövq edə bilərdi.

Polkovnik Kotlyarevski Abbas Mirzənin dəstəsi ilə açıq döyüşə girə bilməsə də Qarabağ elatlarının və kəndlərinin Arazın cənubuna köçürülməsinin qarşısını almağa çalışdı. O, Mehdiqulu xanı da məcbur etdi ki, bu istiqamətdə əməli addımlar atılsın və bununla da Qarabağın boşalmasının qarşısı alınsın. Görülən tədbirlər nəticəsində Qarabağın Araz kənarında yerləşən bir sıra kəndləri Şuşa ətrafına köçürüldü. Köçürülməsi mümkün olmayan kəndlərdən isə girovlar götürüldü. Polkovnik Kotlyarevski hətta Arazın cənubuna adlayaraq ora sürülmüş Qarabağ kəndlərinin geri qaytarılması niyyətinə düşdü. Polkovnik Kotlyarevski güman edirdi ki, Arazın cənubuna sürülmüş Qarabağ elatının geri qaytarılması xanlıq əhalisinin rus silahının gücünə inamını daha da artıra bilər. Bununla bağlı o, polkovnik Jivkoviçə göstəriş verdi ki, 250 nəfərdən ibarət olan və bir topla müşayiət olunan iki bölük yegerlə Xudafərin körpüsünə doğru hərəkət etsin və bu körpünü nəzarət altına alsın. Mayor Dyaçkovun rəhbərliyi altında Şuşada olan 200 nəfər piyada da polkovnik Jivkoviçin dəstəsinə qoşulmalı idi. Polkovnik Jivkoviçə

tapşırıldı ki, martın 15-nə qədər Xudafərin körpüsünü nəzarət altına alsın (82).

Mart ayının 12-də polkovnik Kotlyarevski də Kür çayı sahillərindən Xudafərinə doğru hərəkətə başladı. Martın 15-nə kimi o da Xudafərin körpüsünə yetişməyi planlaşdırırdı. Marşrut boyu polkovnik Kotlyarevski talan üçün Qarabağ xanlığına soxulmuş kiçik saylı dəstələrə zərbə endirdi. Xanaşen çayı yaxınlığında onun Cəfərqulu ağanın rəhbərliyi altında olan dəstəyə zərbə vurduğu bildirilir. Martın 14-də səhər tezdən polkovnik Kotlyarevski öz dəstəsi ilə Xudafərin körpüsündən 30 verst aşağı olan Sarıcanlı keçidinə yetişdi. Burada o, cənuba sürülməsi üçün gətirilmiş Tuğ kəndinin əhalisi ilə rastlaşdı. Kənd əhalisi Araz çayının daşması üzündən çayı keçə bilmədi. Polkovnik Kotlyarevski silahlı mühafizəçilərin müşayiəti ilə onları geri qaytardı. Sarıcanlı keçidindən 10 verst yuxarı olan Sultanlı keçidində də çayı adlamaq mümkün olmadı. Onda polkovnik Kotlyarevski bütün dəstəsi ilə Xudafərin körpüsünə doğru üz tutdu. Lakin ora yetişəndə polkovnik Kotlyarevski körpünün Abbas Mirzə qüvvələri tərəfindən uçurulduğunun şahidi oldu. Kotlyarevskinin gördüyü əməli tədbirlər nəticəsində Qarabağın cənuba sürülmüş bir sıra kəndləri geri qaytarıldı. Arazın cənubuna aparılmış qarabağlılar arasında polkovnik Kotlyarevskinin bəyanatı yayıldı. Bu bəyanatda Kotlyarevski qarabağlıları əmin etdi ki, onlar öz sakit həyatına yenidən davam edə biləcəklər (83).

Sultanbud döyüşündən sonra Cəfərqulu ağanın cənuba çəkilməsi də qətiləşdi. Rus hakimiyyətinə bağlanan ümidlərin əbəs olduğunu görən Cəfərqulu ağa Arazı adladı və Qaradağda məskunlaşdı. Ona Abbas Mirzə tərəfindən xanlıq fərmanı imzalandı. Qaradağın Taxtaqapı mahalı və Əhər qəsəbəsi də onun ixtiyarına verildi. Ona ildə 4 min tümən maaş kəsildi (84).

Cəfərqulu ağa Arazın cənubuna çəkiləndən sonra markiz Pauluççinin göstərişi ilə onun anası Xeyirnisə bəyim ruslar tərəfindən həbs edildi. Bu vaxt o, oğlu Cəfərqulu ağa ilə təmas quraraq həbsdən qaçmaq üçün yollar aramağa başladı. Mövcud məlumatlara görə, Cəfərqulu ağa qoşun dəstəsi ilə Qarabağ xanlığına yürüş etməli və Xeyirnisə xanım da yaranmış qarışıqlıqdan istifadə edərək rusların nəzarətindən qurtarmağa çalışmalı idi. Ruslar Xeyirnisə xanımın bu niyyətindən xəbər tutdular və dərhal onu Tiflisə göndərdilər. Xeyirnisə xanıma təklif edildi ki, o ya Rusiya xəzinəsinə 150 min rubl vəsait ödəsin, ya da Rusiyaya sürgün həyatını qəbul etsin. Xeyirnisə bəyim də tələb olunan pulu ödəməyə razı oldu. Rus mənbələrinə görə, Cəfərqulu ağa ruslardan aralandığı üçün Abbas Mirzədən 150 min rubl mükafat almışdı. Ona görə də ruslar həmin

mükafat həcmində vəsait istəyirdilər. Ruslar vəd etdilər ki, 150 min rubl ödənildikdən sonra Xeyirnisə bəyimə pasport veriləcək və o istədiyi yerə getməkdə azad olacaqdır. Bu məsələ ilə bağlı xüsusi komissiya təşkil edildi ki, Xeyirnisə xanımın əmlakı qiymətləndirilsin və Tiflisə gətirilsin. Təşkil olunan komissiya Xeyirnisə bəyimin bütün əmlakına 20 min rubl qiymət qoydu. Ona görə də Xeyirnisə xanımın Voronej quberniyasına göndərilməsi qərara alındı. Amma bu qərar icra olunmadı və Gülüstan müqaviləsinin imzalanmasından bir müddət sonra Xeyirnisə bəyimə yenidən Qarabağa qayıtmağa icazə verildi (85).

M.M.Xəzaninin verdiyi məlumata görə, Sultanbud döyüşündən sonra Pauliççi Şamaxı xanlığından yolunu Qarabağa saldı və Şuşada Mehdiqulu xanla görüşdü. Qarabağ xanlığı ərazisində baş verən həyəcanlar rus sərdarını təşvişə saldı və o, xanlıq ərazisində rus hakimiyyətinə qarşı hər hansı gərginliyin baş verməməsi üçün hətta Mehdiqulu xanı da xanlıqdan kənarlaşdırmaq niyyətində idi. Aparılmış araşdırmalar nəticəsində Qarabağ xanlığı ərazisində baş verən həyəcanlar üşün Mehdiqulu xanın elə də günahkar olmadığı aydınlaşdı. Mehdiqulu xan yaxınlaşmaqda olan hər bir təhlükə ərəfəsində qaladakı rus dəstəsinin komandirinə məlumat verdiyini və istər xanlığın müdafiəsinin gücləndirilməsi və istərsə də xanlıq əhalisinin mühafizəsinin təmin edilməsi üçün verilən təkliflərin qəbul edilmədiyini general Pauliççiyə çatdırdı. Bundan sonra sərdar Pauliççi Mehdiqulu xana toxunmadı və bir müddətdən sonra Qarabağı tərk etdi.

Mehdiqulu xanın ruslara qarşı əməkdaşlıq üçün Fətəli xandan məktub aldığı və bu məktubun general Kotlyarevskiyə çatdırıldığı barədə rus mənbələrində məlumat vardır. Həmin məktubda Fətəli şah Qarabağ xanına təklif edirdi ki, rus kafirlərinin öldürülməsi və əsir götürülməsi üçün mübarizəyə qalxsın. Bunun əvəzində Fətəli şah Qarabağ xanı ilə əvvəlki gərgin münasibətlərini unudacağını və Mehdiqulu xanı yenidən Qarabağ xanı təyin edəcəyini vəd edirdi. Bundan əlavə vəd olunurdu ki, Qarabağ ərazisindən köç etmiş bütün əhali yenidən toplanaraq xanlıq ərazisinə qaytarılacaqlar. Mehduqulu xan isə bu təklifi qəbul etmədi və Fətəli şahdan gəlmiş məktubu tanışlıq üçün general Kotlyarevskiyə göndərdi (86). Çünki Mehdiqulu xan qacarların hakimiyyətini qəbul etmədiyi kimi, Qacar sarayının real gücə malik olduğuna da inanmırdı.

Bununla belə, rus mənbələrinə görə, Mehdiqulu xan sonralar Qacar sarayı ilə yazışmaları davam etdirdi ki, bu da rusların ona qarşı etimadsızlığını artırdı.

General Pauluççinin səfərindən sonra Qarabağ xanlığının Qacar qoşunlarının yürüşlərindən mühafizə olunması üçün əlavə tədbirlər

görüldü. Mehridə olan tabor daha da gücləndirildi. Qarabağda olan rus qüvvələrinin düşərgəsi isə Ağoğlana keçirildi. Bununla əlaqədar Əsgəranda olan rus qüvvələri də Ağoğlana köçürüldü. Bu məntəqə Araz çayına yaxın idi və Arazın cənubunda formalaşan silahlı dəstələr Qarabağ üzərinə yürüşlər təşkil edəcəyi təqdirdə Ağoğlandakı rus qoşun bölmələri daha çevik fəaliyyət göstərmək imkanına malik idi.

1812-ci ilin aprelində Cənubi Qafqazdakı rus qoşunlarının baş komandanı və bölgənin mülki işlər üzrə hakimi vəzifəsinə general-leytenant Rtişşev təyin edildi. Məlumdur ki, general Rtişşevin Cənubi Qafqaza gəlişi Rusiya üçün çox mürəkkəb hərbi-siyasi şəraitə təsadüf edir. Avropa cəbhəsində yaranmış vəziyyətlə əlaqədar olaraq Rusiyanın hələ də Cənubi Qafqaza əlavə hərbi qüvvə göndərmək imkanı yox idi. Ona görə də Rusiya Cənubi Qafqazda vəziyyətin sakitləşməsinə, hərbi fəallığın dondurulmasına çalışırdı.

Sultanbud döyüşündən sonra Qacar qoşunlarında yüksək əhval-ruhiyyə yaranmışdı və buna görə qoşunların Arazın şimalına, o cümlədən Qarabağ xanlığı ərazisinə yenidən hücum edəcəyi istisna deyildi. Rus generallarının Azərbaycan xanlıqları ətrafında vəziyyətin sakitləşdirilməsinə çalışdıqları vaxt Abbas Mirzə də ruslar tərəfindən işğal olunmuş xanlıqların ələ keçirilməsinə təkidli idi. 1812-ci ilin əvvəlindən formalaşmağa başlayan döyüş əhval-ruhiyyəsi də hələ sovuşmamışdı. İstər Abbas Mirzə, istərsə də onun ətrafındakılar Rusiyanın Cənubi Qafqazdan sıxışdırılmasında hərbi amili daha ciddi şəkildə qəbul edirdilər. İrəvan xanlığının müstəqil qaldığı halda Abbas Mirzə qüvvələrinin şimala yönəldilmiş hərbi zərbəsinin əsas istiqamətlərindən biri isə Qarabağdan keçməli idi.

Qarabağ xanlığına nail olmaqla Abbas Mirzə qüvvələri Gəncə, Şəki, Şirvan və Quba xanlıqlarına çıxış imkanı alırdı. Şah qüvvələrinin Qarabağa təhlükəli yürüşlərinin qarşısını almaq üçün Rusiya komandanlığı burada yerləşdirilmiş rus qüvvələrinə və onun komandiri general-mayor Kotlyarevskiyə böyük ümid bəsləyirdi. Onun komandanlığı altında Qarabağ xanlığı ərazisində yerləşən hərbi qüvvələr aşağıdakılardan ibarət idi: gürcü qrenadyor alayının və 17-ci yeger alayının 9 bölüyü, Sevastopol alayının bir taboru və 16-cı don kazak alayı. Bununla belə general Kotlyarevskinin vəziyyəti kifayət qədər ciddi hesab edilirdi. Çünki Qacar qoşunları Qarabağdan keçməklə Arazın şimalına hücum ehtimalı daim qalmaqda idi (87).

Yuxarıda qeyd edildiyi kimi, Mehridə rus qoşunlarının bir taboru dayanmışdı. Bu məntəqə Təbrizə çox yaxın idi və onun üzərinə həmişə yürüş təhlükəsi qalmaqda idi. Ona görə də Mehrinin möhkəmləndirilməsi

Qarabağda rus işğalının qorunması baxımından əhəmiyyət kəsb edirdi. Mehridəki taborun təxminən bir bölüklük şəxsi heyəti ağır hava şəraitinə dözməyərək xəstələnmişdi. Ona görə əslində Mehrinin mühafizəsini iki bölüklük qüvvə icra etməli olurdu. General Kotlyarevskinin fikrincə, havaların qızması ilə rus hərbçiləri arasında xəstəlik daha da genişlənəcək və onda rus hərbçilərinin vəziyyəti daha da mürəkkəbləşəcəkdi. General Kotlyarevski ehtiyat edirdi ki, Mehridəki vəziyyətdən xəbər tutan kimi Qacar qoşunları hücuma başlaya bilərlər. Bundan əlavə, əhali arasında rus qoşunlarına qarşı çıxışların qarşısının alınması üçün rus hərbi qüvvələri kiçik qruplara bölünərək yaşayış məntəqələrinə yerləşdirilmişdi. Həmin qruplar yaşayış məntəqələrini nəzarət altında saxlayırdılar. Qacar qoşunlarının hücumunun başlanacağı vaxt rus qruplarının bir yerə toplanaraq döyüşə girməsi də müəyyən vaxt tələb edirdi. Bu isə Qacar qüvvələrinə hərbi üstünlük verə bilərdi. Bu çətinliyin aradan qaldırılması üçün general-mayor Kotlyarevski heç olmasa ona kazak dəstələri ilə kömək göndərilməsini xahiş etdi (88).

1812-ci il iyul ayının 25-də general Rtişşevə göndərdiyi məktubunda general Kotlyarevski Mehdiqulu xanın yenidən şah sarayı ilə məktublaşmağa başladığını yazırdı. General Kotlyarevski istər Mehdiqulu xanın, istərsə də Qarabağ əhalisinin Rusiyaya sədaqətinə şübhə ilə yanaşırdı və Araz çayı kənarında şah qüvvələrinin cəmləşdirilməsi barədə məlumatlar alması onun Qarabağın qorunması ilə bağlı təşvişlərini daha da artırdı.

Bu təşvişlər çox tezliklə reallığa çevrildi və Qaradağ hakimi Hacı Məhəmməd xanın və digər üç xanın rəhbərliyi altında şah qüvvələri iyul ayının 12-də yenidən Qarabağ xanlığı üzərinə hücuma keçdi. Hücuma keçən dəstənin 4 min atlıdan ibarət olduğu bildirilirdi. Abbas Mirzə və onun ətrafındakılar Rusiya sarayının Cənubi Qafqaza yeni hərbi qüvvələr göndərmək imkanında olmadığını bilirdi və ona görə də mövcud fürsətdən yararlanmağa çalışırdılar. Lakin Abbas Mirzə qüvvələrinin həm də yalnız kütlə şəklində hücuma keçməsi onların zərbə qüvvəsini zəiflətdiyi üçün qarşı tərəfin müdafiə şanslarını da artırırdı.

Beləliklə, iyul ayının 12-də Qarabağ xanlığı üzərinə hücum edən Abbas Mirzə qüvvələrinin bir hissəsi Geranzur kəndi, digər bir hissəsi isə Xinzirək kəndi üzərinə hərəkət etdilər. 17-ci yeger rus alayının bu bölgədə olan bölüyü kapitan Kulyabkanın rəhbərliyi altında Abbas Mirzə qüvvələrinin qarşısını kəsməyə cəhd göstərdi. Rusların sərəncamında 1 ədəd top var idi və hücum olunan kəndlərdən toplanan ermənilər də onların yardımında idi. General Kotlyarevski bu döyüşlə bağlı yazdığı raportunda Qarabağda məmur işləyən Qasım bəyin ətrafına topladığı 25 atlı və 200 piyada ilə rus bölüyünə təsirli yardım göstərdiyini qeyd edir.

Qasım bəyin və rus bölüyünün birgə səyləri nəticəsində hücum edən qüvvələrin qarşısı kəsildi. Buna baxmayaraq şah qüvvələri bir neçə dəfə döyüşdən qələbə ilə çıxmağa cəhd göstərdi. Gorusda yerləşən rus bölüyünün komandiri mayor Dyaçkov Goranzur və Xinzirək kəndləri istiqamətindəki döyüşdən xəbər tutan kimi kapitan Kulyabkanın köməyinə yollandı. Nəticədə Abbas Mirzə qüvvələri geri çəkilmək məcburiyyətində qaldı. Rus mənbələrinə görə, hücum edən qüvvələr ağır itkilər verərək döyüş meydanını tərk etdilər. Bildirilir ki, şah döyüşçülərinin 70 nəfəri öldürüldü. Yaralananların da çoxu dünyasını dəyişdi. O cümlədən Hacı Məhəmməd xanın da yaralananlar arasında olduğu qeyd edilirdi (89).

Alınan növbəti zərbəyə baxmayaraq, Abbas Mirzə düşərgəsində döyüş ab-havası yenə səngimədi. İyul ayının sonlarına əldə edilmiş məlumatlarda Abbas Mirzənın Təbriz yaxınlığındakı düşərgədə olması, qüvvələrinin yeni gətirilmiş 12 ədəd topla möhkəmləndirilməsi və onun Qarabağ istiqamətində irəliləmək əzmində olduğu bildirilirdi. Amma istər iyul ayında, istər avqust ayında Qarabağda ciddi bir qarşıdurma baş vermədi.

Bununla belə, Qacar qoşunlarının hücum təhlükəsi heç də aradan qalxmadı. Həmin təhlükədən daha yaxşı sığortalanmaq üçün rus qoşunları komandanlığı sülh danışıqlarının gücləndirilməsinə səylərini artırdı. Güman edilirdi ki, ilkin razılaşmaların əldə edilməsi ilə tərəflər arasındakı hərbi qarşıdurmaya da son verilə bilər. Lakin Rusiya sarayının şərtləri Qacar sarayını qane etmirdi. Ona görə danışıqlar və müzakirələr ağır keçdi. Abbas Mirzə isə sərfəli təkliflərlə Azərbaycan xanlıqlarına olan iddialarına nail olmaq üçün hərbi yürüşlərin davam etdirilməsindən əl çəkməmişdi. Xüsusilə, Aslandüzdə aparılan sülh danışıqları nəticəsiz bitəndə irəli sürülən şərtlərin qəbul olunması üçün tərəflərin hərbi gücə üstünlük vermələri yenidən aktuallaşdı. Abbas Mirzə əslində bunun üçün hazırlıq görməkdə idi və hələ sülh danışıqlarının başlanması ərəfəsində Təbriz ətrafında xeyli hərbi qüvvə toplanmışdı. Yaranmış şəraitdə güclü bir döyüşün təşkili hər iki tərəfin işinə yaraya bilərdi. Rusiya tərəfi növbəti uğursuz döyüşlə Abbas Mirzəni güzəştə getməyə məcbur edə bilərdi. Eyni zamanda Abbas Mirzə rus qoşunlarına güclü bir zərbə endirməklə Rusiyanın güzəştlərə getməsinə nail olardı.

1812-ci il oktyabr ayının əvvəllərində gürcü vəliəhdi Aleksandr Mirzənin təhrikçiliyi və rəhbərliyi ilə Gürcüstan əhalisi Rusiya işğalına qarşı üsyan qaldırdı. Həmin üsyan danışıqların aparılması üçün bölgəyə gəlmiş general Rtişşevi məcbur etdi ki, o da oktyabr ayının ilk günlərində Qarabağı tərk etsin və Gürcüstana yollansın. General Rtişşev bəyan edirdi ki, bu üsyanın bütün Qafqaza yayılmaq təhlükəsi var idi.

Gürcülərlə birlikdə ləzgilər də rus qoşunlarına qarşı üsyan qaldırmağa hazırlaşırdılar. Onların da rus işğalına qarşı üsyanlara qoşulması rus qoşunlarının arxa ilə əlaqələrinin kəsilməsinə gətirib çıxara bilərdi. Kənardan hər hansı bir köməyin gəlməsinə ümid olmadığı bir vaxtda bu üsyanın genişlənməsi Cənubi Qafqazdakı rus işğalını güclü zərbə ola bilərdi. Çünki bu üsyanın uğuru Azərbaycan xanlıqlarında da rus işğalına qarşı müqaviməti gücləndirə bilərdi. Bu isə həm general Rtişşevin, həm də digər rus generallarının ciddi narahatçılığı ilə qarşılaşırdı. Ona görə də getməmişdən qabaq generl Rtişşev qarabağdakı rus qoşun dəstəsinin komandiri general Kotlyarevskiyə öz tövsiyə və tapşırıqlarını verdi (90). Baş komandan təkidlə tapşırdı ki, Araz çayı boyu toplanmış olan Abbas Mirzə qüvvələrinin Qarabağ xanlığı ərazisinə hücumunun mütləq alınsın və Qarabağın rus işğalı altında saxlanması təmin edilsin. Bu məsələnin üzərində general Rtişşev xüsusi ilə təkid etdi. Çünki Qacar qoşunlarının Qarabağ xanlığı üzərinə olan yürüşlərinin qarşısının alınması üçün general Kotlyarevski Arazın cənubuna yürüş etmək və orada Qacar qoşunlarının əsas qüvvələrini zərbə vurmaq haqqında təkliflərlə çıxış edirdi. General Rtişşev bu təklifi birmənalə şəkildə rədd edir və general Kotlyarevskidən də tələb edirdi ki, mövcud rus işğalının qorunması rus qoşunları qarşısında dayanan əsas vəzifədir.

General-leytenant Rtişşev Qarabağ xanlığı ərazisini tərk edəndə Mehdiqulu xan onunla xudahafizləşməyə gəlmədi. Xanın bu hərəkəti general Kotlyarevskini çox qəzəbləndirdi və onda belə bir qənaət yaratdı ki, Mehdiqulu xan artıq ruslardan qopmaq istəyir. Rus generalı güman edirdi ki, Gürcüstan ərazisində rus işğalına qarşı baş qaldırmış xalq üsyanı Mehdiqulu xanın da Rusiyaya bağlılığına təsir göstərmişdir. Xanlıq ərazisində ruslarla əməkdaşlıq edən bir sıra bəylərə təzyiq göstərməsi də Mehdiqulu xanın ruslara olan münasibətinin ciddi şəkildə dəyişilməsi kimi qəbul edilirdi. General Kotlyarevski Mehdiqulu xanı təhdid etməklə ondan general Rtişşevi haqlamağı və onunla xuda-hafizləşməyi tələb etdi. Mendiqulu xan bu təhdiddən sonra general Rtişşevin arxasınca yollandı və Tərtər çayı yaxınlığında onunla xudahafizləşə bildi. Rus tarixçiləri general Kotlyarevskinin bu addımı atmaqla Qarabağ xanlığı daxilində ruslara qarşı hazırlanmış üsyanın qarşısını aldığını bildirirlər (90a).

Cənubi Qafqazda və o cümlədən də Azərbaycan xanlıqları ərazisində mövcud olan hərbi-siyasi şərait Abbas Mirzə tərəfindən də diqqətlə izlənilirdi. Ona da məlum idi ki, Fransa ilə müharibə aparıldığı üçün Rusiyanın Cənubi Qafqaza əlavə hərbi qüvvələr göndərmək imkanı yoxdur. O biri tərəfdən isə Azərbaycan xanlıqları ərazisində rus işğalına

qarşı mövcud olan barışmazlıq rus qoşunları üçün heç də yaxşı ab-hava yaratmırdı.

Gürcüstan ərazisində Aleksandr Mirzənin rəhbərliyi altında rus işğalına qarşı üsyan qaldırılması Abbas Mirzəni də Arazın şimalına planlaşdırdığı hücumu tezləşdirilməyə sövq etdi. Havaların soyumaqda olmasına baxmayaraq, yaranmış vəziyyət uğurlu hücum üçün münasib sayılırdı. Ona görə Qacar qoşunlarına hazırlıq əmri verildi. 1812-ci il oktyabrın 8-də Abbas Mirzə 20 minlik Qacar qoşununu Araz çayına doğru hərəkət etdirdi. Abbas Mirzə ilk növbədə Qarabağ xanlığı ərazisinə daxil olub general Kotlyarevskinin rəhbərliyi altında orada olan rus dəstəsini məhv etmək və Qarabağ xanlığını rus işğalından qoparmaq istəyirdi. Lakin sonra o özünün döyüş planına dəyişiklik etdi. O, Pirqulu xanın rəhbərliyi altında 3 minlik atlı dəstəsini Şəki xanlığı üzərinə göndərdi. Bu dəstə Şəki xanlığını da rus işğalı altından çıxarmaqla keçmiş Şəki xanı Səlim xanı yenidən xanlıq taxtına bərpa etməli idi. Abbas Mirzə isə Araz çayını adlamasa da talançı məqsədlə Qarabağ xanlığı ərazisinə bir sıra kiçik dəstələr göndərdi. Əslində isə Abbas Mirzə qarşısına daha geniş plan qoymuşdu. O, şəxsən Qarabağ xanlığının ələ keçirilməsinə rəhbərlik etmək istəyirdi. Bu niyyətinə nail olmaq üçün Abbas Mirzə Qarabağ ərazisinə göndərdiyi kiçik dəstələrlə general Kotlyarevskinin qüvvəsini parçalamaq, zəiflətmək və bundan sonra onun üzərinə həlledici hücuma keçmək istəyirdi. General Rtişşevin fikrincə, Səlim xanla Pirqulu xanın dəstəsi Salyanı ələ keçirməli və burada Azərbaycan xanlıqları üzərinə hücuçu genişləndirmək üçün bir mövqe yaratmalı idilər. Guya nəzərdə tutulubmuş ki, Qacar qüvvələri buradan Şamaxı və Şəki xanlıqları üzərinə hücum etsinlər, sonra da həm gürcülərə hərbi kömək göndərsinlər, həm də Gəncədə, Şamxorda, Şəmşəddildə, Qazaxda, Borçalıda azərbaycanlı əhalinin rus işğalına qarşı üsyana qalxmasına təkan versinlər (91).

General Rtişşevin qadağasına baxmayaraq, Qarabağdakı rus dəstəsinin komandiri general Kotlyarevski isə Abbas Mirzə dəstələrinin hücumlarının qarşısının alınması üçün öz taktikasını işlətdi və bu taktika son nəticədə rus qoşunlarının vəziyyətini kifayət qədər yüngülləşdirdi. Rus tarixçiləri birmənalı şəkildə bildirirlər ki, general Kotlyarevski rus qoşunları baş komandanının əmrini yerinə yetirmədi və Arazın cənubuna yürüş etmək haqında özü qərar qəbul etdi (91a). Baxmayaraq ki, general Rtişşev sonradan Rusiya çarlna göndərdiyi məruzəsində general Kotlyarevskinin məhz onun tapşırığı əsasında hərəkət etdiyini bildirirdi.

Qeyd etmək lazımdır ki, general Kotlyarevskinin Aslandüzdə yerləşən Qacar qoşunları üzərinə yürüş etmək haqqında özbaşına qərar

qəbul etməsi ciddi iradlarla qarşılanmışdı. Aslandüz yürüşü başa çatandan sonra general Kotlyarevski bu iradlara cavab verilməsi məqsədilə general Rtişşevin adına böyük bir məktub yazdı və mövqeyini də həmin məktubda açıqladı (92). Bu məktub bölgəyə rus işğalını gətirən bir hərbçinin məktubu idi və ona görə də general Kotlyarevski hərəkətlərini hər şeydən əvvəl Cənubi Qafqazda rus işğalının möhkəmləndirilməsi zərurəti ilə əsaslandırırdı. General Kotlyarevski yazırdı ki, onu Aslandüzə yürüş keçirməkdə ittihamlandıran şəxslərə Suvorovun sözləri ilə cavab vermək istəyir ki, qalibi günühlandırmazlar. Sonra da məktubda Aslandüzə yürüş edilməsinin zəruriliyini doğuran hərbi şəraitin müxtəsər təsviri verilmişdi. Burada Rusiyanın Fransa ilə müharibədə olması, Cənubi Qafqazdakı rus qoşunlarının köməksiz qalması, Azərbaycan xanlıqlarının əhalisinin rus işğalına qarşı mübarizədə Qacar qoşunlarına kömək niyyətində olması, bütünlükdə Cənubi Qafqazda rus işğalına qarşı üsyan təhlükəsi olması və s. məsələlərə toxunulmuşdu. General Kotlyarevski də təsdiq edirdi ki, Abbas Mirzənin ilkin qərarı onun dəstəsi üzərinə hücum edilməsi idi. Amma Abbas Mirzə sonradan bu qərarını dəyişməli olmuşdu. Kotlyarevskinin fikrincə, ilkin planının dəyişməsi Abbas Mirzənin qarşısına daha böyük vəzifələr qoyması ilə bağlı idi. Rus generalının fikrincə, Abbas Mirzə Kotlyarevskinin Qarabağdakı dəstəsinin məhv edilməsi üçün 4-5 minlik bir dəstə ayırmışdı. Onun yazdıqlarına görə, Abbas Mirzə özü isə əsas qüvvələri ilə Pirqulu xanla Səlim xanın rəhbərliyi altında olan avanqard dəstənin ardınca yollanmalı, Şamaxı və Şəki xanlıqlarından keçməklə Kaxetiyaya qədər irəliləməli idi. Bu yürüş zamanı azərbaycanlı və gürcü üsyançıları özünə birləşdirməklə Abbas Mirzə daha da güclənə bilərdi. General Kotlyarevski şübhə etmirdi ki, belə böyük bir dəstənin qarşısını almaq üçün Gürcüstanda olan general Rtişşevin ixtiyarında lazımi qüvvə yox idi. Rus generalı əsaslandırmağa çalıpşırdı ki, rus işğalı üçün gözlənilən bu böyük təhlükənin qarşısının alınması üçün Qacar qoşunları düşərgəsinə hücum etməyi qərarlaşdırdı.

General Kotlyarevski belə qərara gəldi ki, öz qüvvələrini dəstələrə parçalayıb talançı yürüşlərin qarşısını almağa istiqamətləndirməkdənsə, bütün qüvvələrini toplayıb Abbas Mirzənin Arazın cənubunda olan düşərgəsinə zərbə endirsin və bununla da Abbas Mirzə qüvvələrinin nizamını pozsun. Amma görünür, general Kotlyarevski həyata keçirmək istədiyi hücumun kifayət qədər təhlükəli olduğunu hiss edirdi və bunu onun əmrlərində də görmək mümkündür. Hücumun başlanması ərəfəsində, yəni 1812-ci il oktyabrın 18-də general Kotlyarevski dəstədə onu əvəz edəcək yüksək rütbəli zabitə ünvanlanan əmr imzaladı və bu

əmrdə bildirdi ki, əgər o, hücum zamanı həyatını itirərsə, dəstəyə rəhbərliyi öz üzərinə götürsün. O tələb edirdi ki, Qacar qoşunları üzərinə ilki hücum uğursuz alınarsa, onda növbəti hücum həyata keçirilsin və Qacar qoşunlarına ağır zərbə vurmamış dəstə geri qayıtmasın. Hücumun uğurla başa çatacağı təqdirdə isə ruslar Arazın cənubunda olan köçəri əhalini Arazın şimalına gətirməli idilər (92a).

1812-ci il oktyabrın 18-də general Kotlyarevski rus bölmələrinin Qacar qoşunları düşərgəsinə yürüşü zamanı düzülüşü və vəzifələri haqqında da əmr imzaladı. Həmin əmrdə deyilirdi:

"Birinci və ikinci kareni gürcü qrenadyor alayının taborları təşkil edəcəklər. Beləki, bu zaman fuzelyor (çaxmaq daşlı tüfənglərlə silahlanmış) bölüklər altı taqımlı karelər təşkil etməlidirlər. Qrenadyor taqqımlar birinci karenin qarşı tərəfinin sağında qərar tuturlar, atıcı bölüklər isə sol tərəfində. Bununla ön dəstə dörd taqımda süngü ilə daha yaxşı təzyiq üçün hazırlanır. Üçüncü kareni gürcü qrenadyor alayının bir bölüyü, Sevastopol alayının 200 nəfəri və 17-ci yeger alayınınkarabiner bölüyü təşkil edəcək... Karelərin topları birinci sırada yerləşdirilsin. Onlardan biri qrenadyor taqımları arasında, digəri isə atıcı taqımlar arasında. Hər karedə toplara bir zabit və bir unter zabitdən əlavə 20 nəfər ən etibarlı adamlar ayrılsın. Onlar toplardan ayrılmamalıdırlar.

İki yeger bölüyü mayor Dyaçkovun rəhbərliyi altında birinci karenin sağında düzülürlər. Mayor Lentovskinin rəhbərliyi altında olan bölük isə üçüncü karenin solunda düzülməklə cinahə təşkil etməlidir. Səfər zamanı irəlidə iki yeger bölüyü, onların arxasınca birinci karenin qrenadyor bölüyü, onlardan sonra iki ədəd top, sonra isə orta sütun, sonra isə digər iki kare həmin düzülüşdə, onların arxasınca isə yeger bölüyü hərəkət edəcək. Araz çayı adlanan kimi dərhal kare vəziyyəti alınsın. Sonra necə hərəkət etmək barəsində əmr veriləcək.

Kazak alayları avanqardda, ayrıca 50 nəfərlik dəstə isə aryerqardda hərəkət edəcək. Araz çayını keçəndən sonra isə onlar aşağıdakı kimi düzüləcəklər: Krasnov birinci karenin sağında, Popov birinci və ikinci karelərin ortasında. Düşərgəyə yaxınlaşanda üçüncü kare və yegerlər bölüyü düşmənin sol cinahına hücum etməlidirlər. Birinci və ikinci karelər isə çalışmalıdırlar ki, sürətlə düşmən düşərgəsinin arxasına hərəkət edib düşmənin piyada və artoilleriyasının yerləşdiyi düşərgənin ortasına hücum etsinlər. Mayor Dyaçkovun rəhbərliyi altında olan iki yeger bölüyü qaçaraq sürətlə şahzadənin çadırına hücum etməlidir. Bunun üçün onlara bələdçi veriləcək. Kazak alayları birinci karenin hücum etdiyi istiqamətdə düşmənin arxasında mövqe tutmalı və bütün qaçanları kəsib doğramalıdırlar. Süngülərlə mümkün qədər sürətlə hücum

edilməlidir və bu zaman üçüncü dəstə topların və bayraqların olduğu yerdə qalmalıdırlar" (93).

Qacar qoşunlarının Arazın cənubunda yerləşən düşərgəsinə zərbə endirilməsi üçün general Kotlyarevski 1500 nəfər piyada, 500 nəfər kazak və 6 topdan ibarət dəstəsi ilə oktyabrın 18-də gecə Araza doğru istiqamət götürdü və çayı keçib ayın 19-da səhər Abbas Mirzənin Aslandüz ətrafındakı düşərgəsinə zərbə vurdu (93a).

Qacar sarayının rəsmi tarixçisi olan Dünbəli də bu faktı təsdiq edir. Lakin bu hadisənin baş verməsinin bəzi detallarını da açıqlayır. Onun da fikrincə, general Kotlyarevski Qarabağa gözlənilən böyük hücumun qarşısını almaq üçün özünəməxsus taktikaya əl atdı. Belə ki, onun Qarabağdan göndərdiyi bir neçə şəxs Araz çayını adlayıb Mehdiqulu xanın qardaşı Cəfərqulu xanla görüşdü. Qarabağdan gələnlər xanlıq ərazisində vəziyyətin getdikcə mürəkkəbləşdiyini və buna görə də xanlıq əhalisinin çoxunun Arazın cənubuna keçmək istədiyini bildirdilər. Bununla bağlı Cəfərqulu xandan kömək istəndi. Cəfərqulu xan da Abbas Mirzəyə müraciət etdi və Sadıq xan Qacarın rəhbərliyi altında bir dəstənin Qarabağa göndərilməsinə ondan icazə aldı. Tezliklə həmin dəstə də Qarabağa yola salındı. Dünbəlinin yazdığına görə, Qarabağdan gələnlər eyni zamanda Abbas Mirzə düşərgəsinin kəşfiyyatını apardılar, düşərgədə nə qədər qoşunun olması, onların təchizatı və imkanları barədə məlumatları öyrənib general Kotlyarevskiyə çatdırdılar (94). General Kotlyarevski də bu məlumatlar əsasında öz hücumunu təşkil etdi.

Farsdilli mənbənin məlumatına görə, Abbas Mirzənin düşərgəsində qalan qüvvələrin döyüş qüdrəti yüksək deyildi. Düşərgədə qalan qüvvələr əsasən yenicə cəlb olunmuş qoşun dəstələri idi. İngilis təlimatçıları düşərgədə sərbazların və topçuların öyrədilməsi ilə məşğul idilər. Bundan başqa düşərgənin mühafizəçiləri general Kotlyarevskinin dəstəsinin yaxınlaşması barəsində də vaxtında xəbər tuta bilmədilər. Çünki general Kotlyarevski dəstənin avanqardına Qarabağ atlılarını yerləşdirmişdi. Onlar da özlərini Cəfərqulu xanın tərəfdarları kimi təqdim etməklə düşərgədə mühafizəçilərin diqqətini yayındırdılar. Dəstənin əsas qüvvələri yaxınlaşan kimi düşərgənin mühafizəçiləri həbs edildilər və düşərgənin mühasirə edilməsi üçün yol açıldı. Abbas Mirzə özünü qəfil şəkildə yaxalanmış gördü və düşərgənin təchizatının geri köçürülməsinə göstəriş verməklə ruslara qarşı döyüş əmri verdi. Abbas Mirzə özü də döyüşə atıldı. Təcrübəsiz topçuların fəaliyyətinin səmərəsizliyi onun vəziyyətini kifayət qədər ağırlaşdırdı. Dünbəlinin məlumatına görə, rus dəstəsinin say üstünlüyü döyüşün taleyini də həll etdi və Abbas Mirzə geri çəkilmək məcburiyyətində qaldı (95).

Mənbədən o da aydın olur ki, döyüşlər əsasən Aslandüz yüksəkliyi ətrafında baş verdi və döyüşün gedişində Sultanbudda əsir götürülmüş bir sıra rus əsirləri general Krasovskinin dəstəsinə qoşula bildilər.

General Kotlyarevskinin dəstəsi oktyabrın 18-də gecə Abbas Mirzənin qoşunları düşərgəsindən 15 verst aralıda Araz çayını adlamağa başladı. Bu hərəkət kifayət qədər sakit və səssiz aparıldı ki, Qacar qoşunları rəhbərliyi baş verənlərdən xəbər tutmasın. Oktyabr ayının 19-da səhər saat 8-də rus qüvvələri Aslandüzə yaxınlaşanda oradakı Qacar qüvvələrinin müdafiəyə hazır olduğu müşahidə edildi. Çox güman ki, görülən ehtiyat tədbirlərə baxmayaraq, rus qüvvələrinin yaxınlaşması haqqında məlumat əldə edilmişdi. Ona görə rus dəstəsi dərhal döyüşə qoşulmalı oldu.

Rusdilli mənbələrə görə, general Kotlyarevski öz qüvvələrini üç dəstədə qruplaşdırdı və bu dəstələrin ön tərəfini iti bucaq şəklində düzəltdi ki, düşmən sıralarını daha asanlıqla yarmaq mümkün olsun. Hücumun əsas istiqaməti kimi Aslandüz yüksəkliyi götürüldü. Abbas Mirzə bu yüksəklikdə atlılarını yerləşdirsə də, orada lazımi şəkildə möhkəmlənə bilməmişdi. General Kotlyarevski də bundan istifadə edərək Aslandüz yüksəkliyini ələ keçirdi. Abbas Mirzə döyüşün əldən gedə biləcəyini hiss edərək bütün qüvvələrini səfərbərliyə aldı və rusların üstünə hərəkət etdi. Tərəflər arasında kifayət qədər gərgin keçən bir döyüş başladı. Şahidlərin yazdığına görə, Abbas Mirzənin sürətli və səmərəli hücum istəyi onun qüvvələri daxilində hətta müəyyən nizamsızlığa da səbəb oldu. Topçular, tüfəngçilar atlıların sürətli qaçışı arxasında öz üzərinə düşən vəzifələri lazımınca yerinə yetirə bilmədilər. Silahlılar arasında bir qarışıqlıq yarandı. Abbas Mirzə topçuların atəşlərindən istifadə edə bilmədi. Müəyyən qədər nizamsız keçən döyüşə zənburəklər cəlb edildi ki, onların da atəşləri döyüşün gedişinə kəskin təsir göstərmədi. Ruslar üzərində uğurun əldə edilməməsi Abbas Mirzə qüvvələri arasında nizamsızlığı və pərakəndəliyi daha da artırdı. Döyüşün ilk günü Abbas Mirzə üçün uğursuz başa çatdı. Rus mənbələrinin məlumatına görə, döyüşün ilk günündə Qacar qoşunları 35 ədəd zənburək itirdilər. Bundan başqa çoxlu sayda zənburək mərmisi və təmtəraqlı Qacar düşərgəsi də rusların əlinə keçdi. Qacar qoşunları Dədəyurd çayının Araza qovuşan hissəsində qurulmuş mövqelərə toplaşdılar.

Abbas Mirzə öz tüfəngçilərini bir neçə dəfə rus qüvvələrini atəşə tutmağa göndərdi. Onların apardıqları atəşlər ruslar üçün müəyyən vaxtlarda narahatçılıqlar yaratsa da, döyüş mövqelərində ciddi bir dəyişiklik yaratmadı. Döyüş gününün sonunda general Kotlyarevski məlumat aldı ki, ilkin uğursuzluğuna baxmayaraq Abbas Mirzə növbəti

günün döyüşünə hazırlıq aparır. Bunun üçün Abbas Mirzə müxtəlif məntəqələrdə olan silahlı dəstələrin ona qoşulması üçün tapşırıq vermişdi. Belə bir məlumat alandan sonra general Kotlyarevski ayın 20-də səhər tezdən hələ Abbas Mirzə qüvvələri qruplaşmağa imkan tapmamış onların üzərinə hücum etməyi qərara aldı (96).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqar rus qoşunlarının gözlənilməz uğurunu Qacar qoşunları arasında casusluğun artması ilə əlaqələndirirdi. Onun yazdığına görə, ruslar yerli ermənilərin vasitəsilə Qacar qoşunları haqqında ətraflı məlumat toplaya bildilər. Bu casusluq işləri başlıca olaraq Qacar qoşunlarına ticarət xidməti göstərən ordubazarın satıcıları tərəfindən aparılırdı. Nəticədə, general Kotlyarevski Qacar qoşunlarının sayı, quruluşu, yerləşməsi, mühafizənin təşkili və digər məlumatları əldə etdi və rus generalı bu məlumatları əldə etdikdən sonra gecə hücumunun təşkili barəsində göstəriş verdi. Bildirilir ki, rusların ən seçilmiş dəstələri də ordubazarın satıcılarının bələdçiliyi ilə güman edilməyən yollarla Qacar düşərgəsinə yaxınlaşdılar. Müəllifin yazdığına görə, ordubazar satıcılarını Qacar qoşunlarında yaxşı tanıyırdılar. Ona görə rus dəstəsinə bələdçilik edən satıcılar yaxınlaşanda Qacar düşərgəsinin mühafizəçiləri heç nədən şübhələnmədən onların ətrafına toplaşdılar. Ruslar da bundan istifadə edib Qacar mühafizəçilərini mühasirəyə aldılar və onlara yaxınlaşaraq əsir götürdülər. Bununla Qacar düşərgəsi mühafizəsiz qaldı və rus qoşunları da qacarların üzərinə hücum çəkdilər. Mirzə Məhəmməd Sadıq Vəqayeneqarın yazdığına görə, ruslar hücum edəndə Abbas Mirzə özü də yuxuda idi. Onun çadırını qoruyan mühafizəçilər yaralansa da, Abbas Mirzə atlanaraq oradan uzaqlaşmağa müvəffəq oldu. Bununla belə, qoşun dəstəsinin toparlanmasına və müqavimət göstərməsinə də cəhd etdi. Lakin bu cəhd bir nəticə vermədi. Çünki ruslar artıq bütün düşərgəni ələ keçirmişdilər. Vəziyyətdə dəyişiklik yaratmaq üçün Abbas Mirzə topçuları fəallaşdırmaq istədi. Qacar düşərgəsində yaranmış qarışıqlığa baxmayaraq, müəllif Qacar piyadalarının nəhayət ki, toparlanaraq ruslara qarşı ciddi müqavimət göstərməsini qeyd edirdi. Bildirilir ki, hətta bəzi mövqelərdə ruslar geri çəkilməli də oldular. Belə olanda ruslar öz toplarını yaxınlıqdakı yüksəkliklərdən birinin üzərinə gətirdilər ki, Qacar mövqelərini daha yaxşı hədəfə ala bilsinlər (97).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqar Qacar qoşunlarının Aslandüz yaxınlığındakı uğursuzluğunun başqa bir səbəbini isə ingilis topçularının döyüşdən imtina etməsi ilə əlaqələndirirdi. O yazırdı ki, döyüşün gedişində Abbas Mirzə Qacar topçularına rəhbərlik edən Misterlindən ruslara qarşı top atəşləri aparmağı tələb etdi. Qacar topçularının rəhbəri olan Misterlin ruslara qarşı atəş açmaqdan imtina etdi və bildirdi ki,

Rusiya ilə İngiltərə arasında sülh müqaviləsi imzalandığı üçün ruslara qarşı atəş aça bilməyəcəkdir. Abbas Mirzə bu cavabdan qəzəblənərək özü toplardan bir neçə atəş açdı. Lakin onun atdığı bombalar rus qoşunlarına ciddi bir xəsarət yetirmədi. Müəllifin yazdığına görə, Misterlin atəş açmaqdan imtina etsə də, sonradan rusların hücumunun onun özü üçün də təhlükəli ola biləcəyi qənaətinə gəldi və bundan sonra ruslara qarşı atəş açmağa başladı. Elə bu zaman o, rus əsgərlərindən birini gülləsinə tuş gəldi və dünyasını dəyişdi (97a).

General Rtişşev Rusiya sarayına göndərdiyi məruzəsində Qacar qoşunları tərkibində vuruşan daha iki ingilis topçusunun adını çəkmişdir. Bunlar kapitan Lindsey və mayor Krissati idilər. Onun verdiyi məlumata görə, Aslandüz ətrafında olan döyüşdə mayor Krissati öldürülmüşdü. Kapitan Lindseyin taleyindən isə xəbər yox idi (98).

Növbəti gün üçün qarşıda dayanan vəzifələrin müzakirəsi zamanı Abbas Mirzə düşərgəsində olan ingilis zabitləri geri çəkilməyi tövsiyə etdilər. Onların fikrincə, geri çəkilmək qoşunların müəyyən təchizat əşyalarının qorunub saxlanmasına imkan verərdi. Abbas Mirzə bununla razı olmadı. Baxmayaraq ki, gecə ikən onun qoşunlarından fərarilik edənlər də az olmadı. Bu fərarilər arasında Sultanbudda əsir götürülmüş rus hərbçiləri də var idi. Onların çatdırdığı məlumatlar əsasında general Kotlyarevski Qacar qoşunları düşərgəsində baş verənlər haqqında geniş təsəvvür əldə etdi. Abbas Mirzə ingilis məsləhətçilərinin təklifini qəbul etmədi və oktyabrın 20-də rus qüvvələri ilə döyüşü davam etdirmək əmri verdi.

Ə.Dünbəlinin yazdığına görə, Marağa sərbazları, digər dəstələr və topçular Aslandüz yüksəkliyinin mühafizəsinə vəzifələndirilmişdilər. Bu qüvvələr eyni zamanda rus qoşunlarının yerdəyişmələrini müşahidə altında saxlamalı idilər.

Oktyabrın 20-də səhər tezdən onun dəstəsi Dərəyurd çayını adlayaraq Abbas Mirzə qüvvələrinə doğru istiqamət götürdü. General Kotlyarevskinin tapşırığına əsasən, gürcü qrenadyor alayının 7 bölüyü müstəqim şəkildə Abbas Mirzə qüvvələrinə doğru irəlilədi. Yeger alayının taboru isə Araz çayı istiqamətindən Abbas Mirzə qüvvələrini əhatə etmək tapşırığı aldı. Ehtiyatda qalan kiçik bir dəstəyə Dərəyurd çayı boyunca aşağı hərəkət etmək, kazak dəstəsinə isə Araz istiqamətindən Abbas Mirzə qüvvələrinin geri çəkilmək yolunu bağlamaq əmri verildi. Səhər tezdən ruslar da Abbas Mirzə mövqelərinin üzərinə sürətli hücum təşkil etdilər.

Rus tarixçilərindən birinin verdiyi məlumata görə, general Kotlyarevski hələ qaranlıq ikən Qacar qoşunları üzərinə hücumu yenidən

başıladı. Bu məlumatda bildirilir ki, Qacar qüvvələri ötən günün uğursuzluğundan nəinki nəticə çıxarmadılar və əks-hücuma keçmək fikrinə düşmədilər, heç öz təhlükəsizliklərini də təmin etmədilər. Rus urenadyorlarının gizli şəkildə yaxınlaşaraq yenidən qəfil hücuma keçmələri Qacar silahlılarını bir daha çaş-baş saldı və onlar sürətlə geri çəkilmək məcburiyyətində qaldılar (98a).

General Rtişşevin məlumatına görə isə, ilk günün uğursuzluğundan sonra Abbas Mirzə qoşunları ilə Dərəyurd çayı yaxınlığındakı Aslandüz qalası ətrafında mövqe tutdu. Buradan o, ətrafa səpələnmiş olan dəstələrə xəbər göndərib onları yenidən öz ətrafında toplamağa başladı. Bununla Abbas Mirzə öz qüvvələrini toparlayaraq ruslara güclü zərbə vurmaq istəyirmiş. Vaxtilə Qacar qoşunlarına əsir düşərək Qacar qoşunları tərkibində xidmətə başlayan ruslardan biri gecə ikən qaçaraq general Kotlyarevskinin dəstəsinə qoşuldu və Abbas Mirzənin niyyətləri haqqında ona məlumat verdi. General Kotlyarevski də hərbi təşəbbüsü əlində saxlamaq üçün yenidən ilk zərbəni özü vurmaq qərarına gəldi (99).

Ruslar sakit şəkildə kifayət qədər Qacar düşərgəsinə yaxınlaşaraq süngü döyüşünə atıldılar və bununla qacarlar yenidən qəfil şəkildə yaxalandılar. Nəticədə onlar yenidən ruslara qarşı ciddi müqavimət nümayiş etdirə bilmədilər və çox tezliklə düşərgəni tərk etməyə məcbur oldular. Qacar qüvvələri Aslandüz qalasına toplaşıb orada müdafiə olunmaq istəsələr də, rusların hücumu ilə bu qala da alındı (99a).

Farsdilli mənbələrə əsasən, Abbas Mirzə hücuma çıxardığı qüvvələrinin ön sıralarında əsir götürülmüş və müsəlmanlaşdırılmış ruslardan təşkil edilmiş dəstə vuruşurdu. Onlar kifayət qədər döyüşgənlik nümayiş etdirsələr də, rusların qarşısını saxlamaq mümkün olmadı. Abbas Mirzə qüvvələri bütünlükdə ciddi müqavimət göstərməyə nail olmadılar. Rusların güclü zərbəsi qüvvələr arasındakı pərakəndəliyi daha da artırdı. Mirzə Məhəmməd Sadıq Vəqayeneqar yazırdı ki, Abbas Mirzə bu döyüş zamanı hündür səslə qüvvələrini döyüşə həvəsləndirməyə çalışırdı. Bu zaman onun atının ayağı çuxura düşərək büdrədi və Abbas Mirzə yerə yıxıldı. Amma heç bir xəsarət almadı. Onun əlindən çıxmış atı qoşunlar arasında qaçanda çoxları Abbas Mirzənin həlak olduğunu güman etdilər. Müəllifin yazdığına görə, Abbas Mirzənin öldürüldüyünü güman edən dəstələr arasında nizam pozuldu və çoxları döyüş meydanını tərk etdilər. Abbas Mirzə vəziyyəti belə görəndə yeni bir ata minib dağılmaqda olan qoşunları yenidən öz ətrafına toplamağa başladı və Hacı Həmzə adlı məntəqədə mövqe tutdu (100).

Farsdilli mənbələrdə olan məlumatlardan belə bir qənaətə gəlmək olar ki, Abbas Mirzə hələ də döyüşdən çıxmaq fikrində deyildi. Lakin o,

məlumat aldı ki, rus qoşun dəstəsi Aslandüzdə dayanmayaraq Qarabağ xanlığı ərazisinə çəkilmişdir. Onda Abbas Mirzə də geri çəkildi. Baş verən döyüş haqqında Fətəli şaha məlumat verildi. Abbas Mirzə güman edirdi ki, rus qoşun dəstəsi geri çəkilsə də Ərdəbil üzərinə hücum edə bilər. Ehtimal olunan bu hücumun qarşısının alınması üçün onun tapşırığı əsasında İsmayıl xan Damğaninin rəhbərliyi altında bir qoşun dəstəsi Ərdəbil istiqamətinə göndərildi (101).

Abbas Mirzə qüvvələri növbəti dəfə uğursuzluğa düçar oldu. Bununla Abbas Mirzənin tərəflər arasında müzakirə olunan şərtlərin qəbul olunmasında silah gücünə güzəştlər əldə etmək niyyəti də nəticəsiz qaldı. Rus mənbələrinə görə, Aslandüz döyüşü zamanı Abbas Mirzə 1200 döyüşçüsünü itirdi, 537 nəfər əsir götürüldü. Əsir götürülənlər arasında Abbas Mirzə tərəfində vuruşan 28 rus əsgəri də var idi. Bunlardan başqa 3 döyüş bayrağı və ingilislər tərəfindən hazırlanmış 11 ədəd top ələ keçirildi. Ələ keçirilmiş topların hamısı işlək vəziyyətdə idi. Başlıcası isə Abbas Mirzə qüvvələrinə ağır zərbə endirildi. Ruslar arasındakı itkilər bildirildiyinə görə, 30 nəfərdən ibarət idi. Yaralananların sayı 100-ə yaxın idi (102).

Mövcud məlumatlara görə, Aslandüz ətrafındakı döyüş zamanı rus qoşunlarından bir 1 zabitlə 27 sıravi öldürülmüş, 102 nəfər də yaralanmışdı. Rus qoşunları Qacar qüvvələrini geri çəkilməyə məcbur edəndən sonra yenidən Qarabağ ərazisinə döndülər. Oktyabr ayının 23-də general Kotlyarevski Arazın cənubuna təşkil etdiyi yürüş barədə müfəssəl raport hazırlayıb gürcü qrenadyor alayının ştabs-kapitanı Bıxovsev vasitəsilə Tiflisə göndərdi. Onun rəhbərlik etdiyi dəstə isə Ağoğlanda düşərgə saldı. Arazın cənubuna təşkil etdiyi hücuma görə general Kotlyarevski sonradan generel-leytenant rütbəsinə və 3-cü dərəcəli Georgi ordeninə layiq görüldü (102a).

Aslandüz döyüşü Azərbaycan xanlıqlarının gələcək tarixinin müəyyənləşdirilməsində ciddi təsirə malik olan bir hadisəyə çevrildi. Miqyası geniş olmasa da rus generallarının incəliklə hesablanmış bu döyüşü ilə Azərbaycan xanlıqları üzərindəki rus işğalı daha da möhkəmləndirildi, Azərbaycan xanlıqlarının yenidən müstəqilləşmək imkanını əslində mövcud şəraitdə həll edilməz bir məsələyə çevirdi. Bununla eyni zamanda rus qoşunları Qacar dövlətinin də Azərbaycan xanlıqlarını ələ keçirmək planlarının qarşısını ala bildi.

Aslandüz ətrafında əldə edilmiş üstünlük rus qoşunlarının Qarabağ xanlığı ərazisindəki vəziyyətini də xeyli yaxşılaşdırdı. Qacar qoşunlarının yaxın zamanlarda Qarabağ xanlığı üzərinə kütləvi yürüşünü istisna edən rus qoşunları komandanlığı Mehridəki rus taborunu geri çağırmağı qərara

aldı. Qış aylarında bu taborun Şuşa ilə əlaqələri kəsildiyi kimi, yay aylarında da taborun şəxsi heyəti arasında xəstəlik genişləndi. General Rtişşevin verdiyi məlumata görə, iki il ərzində bu taborun 400 hərbçisi istidən dünyasını dəyişmişdi. 1812-ci il dekabr ayının ortalarında həmin tabor rus qoşunlarının Ağoğlandakı düşərgəsinə gətirildi (103).

1813-cü ildə Gülüstan sülh müqaviləsi imzalanana kimi Qarabağ xanlığı ərazisində ciddi hərbi proseslər baş verməmişdi. 1813-cü il may ayının əvvəllərində xəstəliyi ilə əlaqədar olaraq general Kotlyarevski Qarabağı tərk etdi və ondan sonra xanlıq ərazisindəki rus bölmələrinə rəhbərlik polkovnik Jivkoviçə tapşırıldı.

Yuxarıda qeyd edildiyi kimi, hələ general Kotlyarevskinin dəstəsinin Arazın cənubuna yürüşü başlamazdan əvvəl Qacar qoşunlarının Pirqulu xanın və keçmiş Şəki xanı Səlim xanın rəhbərliyi altında olan avanqard dəstəsi Azərbaycan xanlıqları üzərinə hücuma başlamış və Şəki xanlığına qədər irəliləmişdi. Aslandüzdə Qacar qoşunlarına ciddi zərbə vurulması bu avanqard dəstənin Azərbaycan xanlıqları ərazisindəki fəaliyyətinə də təsir göstərdi. Qacar qoşunlarının köməyindən kənar qalması Pirqulu xanla Səlim xanın vəziyyətini xeyli çətinləşdirdi. Digər tərəfdən Gəncə ətrafında yerləşən rus qoşun dəstəsi general-mayor Klodt fon Yurqens-burqun rəhbərliyi altında avanqard Qacar dəstəsinə qarşı çıxarıldı. General Yurqensburq dəstəsi ilə Kür çayını adlayaraq Qacar dəstəsinə doğru istiqamət götürdü. Belə olanda Pirqulu xanla Səlim xan geri çəkilmək məcburiyyətində qaldı. Rus mənbələrində olan məlumata görə, Şəki xanı Cəfərqulu xanın və İlisu sultanı Əhməd xanın atlıları da rus dəstəsinə qoşulmuşdular. Bu mənbələrin məlumatına görə, Qacar dəstəsinin bəzi yükləri və bəzi məmurları da rus dəstəsi tərəfindən ələ keçirildi(103a).

Rus generallarının məlumatına görə, həmin günlərdə İrəvan xanı da ixtiyarında olan dəstə ilə Pəmbək və Şuragöl mahallarında olan rus qoşun dəstəsi üzərinə hücumlar etdi. Üç dəfə təkrarlanan bu hücumların qarşısı da həmin bölgədə olan general Lisaneviçin dəstəsi tərəfindən alındı (104). Bununla da, 1812-ci ilin sonlarında Cənubi Qafqazdan rus qoşun-larının sıxışdırılması üçün yaranmış münasib şəraitdən istifadə etmək mümkün olmadı. Bu isə öz növbəsində Cənubi Qafqazda və o cümlədən də Azərbaycan xanlıqlarə ərazisində rus işğalına qarşı kütləvi üsyan qalxmasına əks-təsir göstərdi.

4. Lənkəran xanlığının işğalı

Markiz Pauluççi Cənubi Qafqazdakı rus qoşunlarının baş komandanı təyin ediləndə Naxçıvan və İrəvan xanlıqları kimi Lənkəran xanlığı da müstəqilliyini qoruyub saxlamağa müvəffəq olmuşdu. Bununla belə, xanlıq kifayət qədər mürəkkəb hərbi-siyasi durumda idi. Qacar qoşunlarının hücum təhlükəsi hər an qalmaqda idi. Mir Mustafa xanın Qacar sarayı qarşısında güzəştə getməməsi və Qacar şahzadəsinin təkliflərinin qəbul olunmaması Qacar qoşunlarının hücum təhlükəsini daha da artırırdı. Müstəqilliyinin qorunmasına hələlik zəmanət kimi qəbul etdiyi Rusiya tərəfindən isə real və yetərli hərbi kömək Lənkəran xanına göstərilmirdi. Bu isə Mir Mustafa xanın əlavə təşvişlərinə səbəb olurdu. Sara adasında dayanmış azsaylı rus qarnizonu Qacar qoşunları hücumlarının qarşısının alınmasında Mir Mustafa xanı razı salacaq dərəcədə iştirak etmirdi. Bölgənin hərbi-siyasi şəraitinin mürəkkəbləşməkdə olması Lənkəran xanlığının müstəqilliyinin qorunması üçün daha təsirli yolların tapılmasını tələb edirdi. Mir Mustafa xanın ümid yeri rusların göndərə biləcəyi hərbi qüvvələr idi. Ona görə də 1811-ci il noyabr ayının 13-də Mir Mustafa xan yenidən rus qoşunlarının baş komandanına məktub göndərdi.

Mir Mustafa xan bir daha bəyan edirdi ki, Rusiya himayəsini qəbul edəndən sonra bütün ümidlərini Rusiyaya bağlamışdır və eyni zamanda Rusiyanın maraqlarını qorumağa çalışmışdır. Xan bildirirdi ki, Qacar şahı dəfələrlə onu öz tərəfinə çəkməyə çalışsa da heç vaxt ona verilən təklifləri qəbul etməmişdir. Bunun əvəzində isə Mir Mustafa xanın yazdığına görə, Qacar şahı ondan qisas almağa çalışırdı və bununla əlaqədar o, ətraf xanlara da xəbər göndərmişdi ki, Lənkəran xanlığı üzərinə hücumlar təşkil etsinlər. Lənkəran xanı daha sonra yazırdı ki, bu talançı yürüşlərin qarşısının alınması üçün dəfələrlə rus qoşunları baş komandanından kömək istəmişdir. Amma belə bir kömək ona göstərilməmişdir. Sara adasındakı kiçik rus qarnizonu isə Mir Mustafa xana kömək göstərilməsi üçün göstəriş almamışdı. Ona görə Lənkəran xanı müraciətlə bildirirdi ki, onu Rusiya təbəəsi kimi qəbul edirsə, onda xanlığa hərbi yardım göndərilsin. Ya da Mir Mustafa xan da övladlarından birini Rusiya sarayına göndərsin ki, orada kömək göstərilməsi məsələsi qaldırılsın. Mir Mustafa xan özünün Rusiya sarayına yollanmasını və hərbi kömək üçün Rusiya imperatoruna kömək etməsinin mümkünlüyünü də qeyd edirdi. Mir Mustafa xan xahiş edirdi ki, Qacar qoşunları güclənməzdən və Lənkəran xanlığını talan etməzdən əvvəl Rusiya imperatoru qarşısında məsələ qaldırılsın, Rusiyadan alınan hərbi

kömək sayəsində xanlığın mühafizəsi təmin edilsin. Konkret olaraq Mir Mustafa xan 400-500 nəfərlik qoşun dəstəsinin Lənkəran xanlığına yerləşdirilməsini istəyirdi. Həmin qoşun dəstəsinin azuqə və yem təminatını Mir Mustafa xan öz üzərinə götürürdü (104a).

Markiz Pauluççi Lənkəran xanının məktubu ilə tanış olandan sonra bu xanlıqdakı vəziyyət haqqında müəyyən məlumatlar əldə etdi və belə bir qənaətə gəldi ki, doğrudan da xanlıqda rus maraqlarının daha ciddi şəkildə qorunmasına ehtiyac vardır. Bu istiqamətdə lazımi addımların atılmaması Qacar qoşunlarının bu xanlığa hücum təhlükəsini daha da artırırdı. Ona görə də markiz Pauluççi Bakıda dayanan hərbi-dəniz dəstəsinin rəhbəri, I dərəcəli kapitan Veselaqaya tapşırdı ki, Sara adasında rus qarnizonunu daha da gücləndirsin və zərurət yarananda dənizdən Mir Mustafa xana kömək göstərilsin. Markiz Pauluççi onu da etiraf edirdi ki, Mir Mustafa xanın piyada qüvvələrinin köməyinə daha çox ehtiyacı vardır. Çünki Qacarların Xəzər dənizində hərbi gəmiləri yox idi və dənizdən hücuma məruz qalmaq təhlükəsi də ciddi deyildi. Qurudan isə Mir Mustafa xan yaxşı müdafiə olunmamışdı və ona görə də qurudan hücum təhlükəsi daha böyük idi. Piyada qoşun dəstəsinin göndərilməsinə gəlincə markiz Pauluççi də sələfləri kimi Mir Mustafa xana müsbət cavab vermədi. Lakin bütün vasitələrlə onu ümidləndirməyə çalışdı ki, Rusiya tərəfdən müdafiə olunacaqdır. Müsbət cavab verilməməsini isə markiz Pauluççi tabeliyində yetərli hərbi qüvvə olmaması ilə əlaqələndirirdi. Onun fikrincə, Lənkəran xanlığına daimi şəkildə orada qalmalı olacaq qoşun dəstəsi göndərilməli idi. Müvəqqəti olaraq göndərilən qoşun dəstəsi isə Qacar sarayını qıcıqlandırar və Qacar qoşunlarını Lənkəran xanlığı üzərinə hücuma təhrik edərdi. Daimi şəkildə markiz Pauluççi ən azı bir taborun Lənkəran xanlığı ərazisinə göndərilməsini zəruri sayırdı (105).

Mövcud məlumatlara əsasən, belə qənaətə gəlmək olar ki, Mir Mustafa xan yuxarıda haqqında danışılan məktubu Tiflisə göndərəndən sonra onun yanına Qacar sarayının elçiləri gəldilər. Bununla bağlı, Mir Mustafa xan Bakıdakı rus hərbi-dəniz eskadrilyasının komandiri Veselaqaya 4 məktub göndərdi və yaranmış mürəkkəb vəziyyəti onun diqqətinə çatdırdı. Mir Mustafa xan həmin məktublarında bildirirdi ki, Qacar sarayı onun Rusiya ilə yaxınlaşmasından razı deyildir və Qacar sarayı tələb edirdi ki, əgər Mir Mustafa xan bu mövqeyini dəyişməyəcəksə xanlığı tərk etsə yaxşıdır. Yox, əgər Mir Mustafa xan Qacar sarayına tabe olmağı qəbul etsəydi, onda Mir Mustafa xana böyük vədlər verilirdi. Qacar sarayı bildirirdi ki, Mir Mustafa xanın mənfi cavabı xanlığın yerlə yeksan edilməsi ilə nəticələnə bilər. Deyilənlərin həyata

keçirilməsinə hazır olduğunu nümayiş etdirmək üçün Lənkəran xanlığının sərhədlərinə doğru 6 min nəfərlik qoşun dəstəsi yeridildiyi bildirilirdi. Həmin qoşunlara qacarların beş xanı rəhbərlik edirdi. Bu qoşun dəstəsi Qacar sarayının əmrini alan kimi Lənkəran xanlığı üzərinə hücum etməyə hazır idi. Görünür, Qacar elçilərinin təhdidləri kifayət qədər ciddi və gözlənilən idi. Ona görə Mir Mustafa xan Qacar sarayını qəzəbləndirməmək üçün elçilərə çoxlu qiymətli hədiyyələr verdi və onları razı şəkildə geri göndərdi (106).

Farsdilli tarixi ədəbiyyatda olan məlumatlara görə, Fətəli şah tərəfindən Molla Əli Gilani, Abbas Mirzə tərəfindən isə Mir Mustafa xanın əmisi oğlu Seyid Kazım adlı birisi elçi kimi Lənkəran xanının yanına göndərildilər. Lakin bu elçilər də məqsədlərinə nail ola bilmədilər (107).

Bakıya göndərdiyi məktublara münasibət bildirilməmiş Mir Mustafa xan 1811-ci il noyabr ayının sonlarında markiz Pauluççinin Bakıya gələcəyi barəsində məlumat aldı. Markiz Pauluççi ilə görüşmək, hərbi yardım üçün birbaşa müraciət etmək üçün Mir Mustafa xan qardaşı Mir Bağır bəyi dərhal Baklya göndərdi. Mir Bağır bəylə görüşündə general-leytenant Repin bildirdi ki, markiz Pauluççinin 1811-ci ilin yazında Bakıya gəlməsi ehtimal olunur (108). Markiz Pauluççu ilə görüşə bilməsə də Mir Bağır bəy Lənkəran xanlığı ətrafında vəziyyətin mürəkkəbləşməsi haqqında general Repinə və I dərəcəli kapitan Veselaqaya öz təşviş və narahatçılığını çatdırdı.

I dərəcəli kapitan Veselaqa Lənkəran xanlığı ətrafında yaranmış vəziyyəti Rusiya maraqları üçün təhlükəli saydı və Lənkəran xanlığına əlavə hərbi qüvvələr göndərilməsi qənaətinə gəldi. Markiz Pauluççidən aldığı tapşırıq da ondan Lənkəran xanlığının Qacar qoşunlarından mühafizəsi üçün əlavə tədbirlər həyata keçirməsini tələb edirdi. O qərar aldı ki, Bakıda dayanan bütün hərbi gəmiləri Lənkərana doğru hərəkət etdirsin. Həbi gəmilərin döyüş imkanlarını gücləndirmək üçün Veselaqa Bakının komendantı general Repindən ona bir bölük piyadanın verilməsini xahiş etdi. Hərbi eskadrilyanın hərəkətə başlamasından əvvəl isə Veselaqa "Qornostay" gəmisini elçisi ilə birlikdə Lənkərana yola saldı. Bu elçi I dərəcəli kapitan Veselaqanın məktubunu Mir Mustafa xana çatdırmaqla yaxın günlərdə əlavə rus qüvvələrinin gələcəyini bildirməli və bununla da Mir Mustafa xana ümidlər verməli idi (109).

Piyada bölməsinin olmayacağı təqdirdə Veselaqa dəniz piyadalarından bir dəstəni özü ilə Lənkərana aparmaq istəyirdi. Amma general-leytenant Repin onun ixtiyarına piyada bölməsi vermədiyi kimi, dəniz piyadalarının bu səfərə cəlb edilməsinə də razı olmadı. General Repin bu

qərarını ilk növbədə Lənkəran xanlığında piyada qüvvələrinə xüsusi ehtiyacın olmaması ilə əlaqələndirirdi. Onun sözlərinə görə, Lənkəran xanının məktubunda da belə bir zərurət hiss olunmurdu. Digər tərəfdən Lənkəran ətrafının klimatı general Repini ora piyada qüvvələri göndərməkdən çəkindirirdi. Çünki Lənkəran ətrafında xəstələnən və ölən rus hərbçilərinin sayı digər xanlıqlara nisbətən xeyli çox idi. Nəhayət, general Repin yerli xanların sözlərinə inanmamağa çağırırdı. Onun fikrincə, yerli xanlar vəziyyətin təhlükəliliyini qabartmaqla çox halda öz şəxsi maraqlarını təmin etməyə çalışırdılar. Bakı komendantı bildirirdi ki, hazırkı şəraitdə Lənkəran xanlığının mühafizəsi üçün dəniz eskadrilyası da yetərlidir (110).

Nəticədə I dərəcəli kapitan Veselaqa hərbi eskadrilya ilə Lənkərana yollanmağı qərar aldı. Bununla bağlı, Veselaqa markiz Pauliççiyə də məruzə göndərdi. O bildirirdi ki, həm Lənkərandakı vəziyyətin necə olması ilə şəxsən tanış olmaq istəyir, həm də lazım olardısa Lənkəran sahilinə dəniz bölmələrini çıxaracaqdır. I dərəcəli kapitan Veselaqa bununla Mir Mustafa xana kömək də göstərmək istəyirdi. Amma Veselaqa ixtiyarında olan hərbi qüvvələrin yetərli olmayacağından da ehtiyatlanırdı. Ona görə də Veselaqa markiz Pauluççi qarşısında dəniz taborundan bir bölüyün onun sərəncamına verilməsi haqqında vəsatət qaldırdı. Veselaqa istəyirdi ki, bu bölük daimi şəkildə onun tabeliyində qalsın. Lazım olardısa bu bölüyü Lənkərana aparsın, lazım olmayanda isə həmin bölüyü Bakıda saxlasın və zərurət yarananda dərhal bu bölükdən öz qərarına uyğun olaraq istifadə etsin (111).

Markiz Pauluççi bütünlükdə kapitan Veselaqanın yazdıqları ilə razılaşdı. O bir daha general-leytenant Repinə göstəriş verdi ki, Lənkəran xanlığına bir piyada bölüyü göndərsin. Bu bölük I dərəcəli kapitan Veselaqanın rəhbərlik etdiyi gəmilərlə göndərilməli idi. Eyni zamanda hərbi eskadrilyanın Lənkərana göndərilməsinin zəruriliyi bir daha təkrarlandı. Veselaqa Lənkərana yollanaraq vəziyyətlə yaxından tanış olmalı, durumun mürəkkəb olacağı təqdirdə Mir Mustafa xana kömək göstərməli idi. Vəziyyəti I dərəcəli kapitan Veselaqa özü qiymətləndirməli, gəmilərin orada qalıb-qalmaması haqqında qərar qəbul etməli idi. Mir Mustafa xana da Rusiya köməyi göstəriləcəyi vəd edilməli idi. Xüsusi zərurət olmadığı təqdirdə isə gəmilər geri qayıtmalı idi. Markiz Pauluççi Lənkəran klimatının rus hərbçiləri üçün ağır olduğuna görə belə bir qənaətdə idi (112).

I dərəcəli kapitan Veselaqa Lənkəran xanının qardaşı Mir Bağır bəylə Lənkərana yola düşdü və bölgəyə yetişən kimi dərhal Mir Mustafa xanın köməyinə yetişdi. Həmin görüş zamanı xanlıq ətrafında yaranmış hərbi-

siyasi şərait haqqında ətraflı məlumat alan Veselaqa gərgin vəziyyətin mövcudluğu ilə razılaşmalı oldu. Lənkəran xanı onu da bildirdi ki, Qacar şahzadəsi tərəfindən xanlıq üzərinə hücum qərarı qəbul edilib və bu hücumda iştirak edəcək qoşunlar xanlığın sərhədinə yaxınlaşmaqdadır. 1812-ci il yanvar ayının ortalarında Mir Mustafa xan təşviş içində yenidən ruslardan kömək istədi. Lənkəran xanı bildirirdi ki, Qacar qoşunları daha da yaxınlaşmaqdadır və xanlıq üzərinə hücum etmək üzrədir. Vəziyyət haqqında daha ətraflı məlumat əldə etmək üçün I dərəcəli kapitan Veselaqa leytenant Kunitskini Lənkərana göndərdi. Leytenant Kunitski də həm Lənkəran əhalisi arasında, həm də Lənkərandakı rus tacirləri arasında təşviş və çaşqınlığın olması ilə qarşılaşdı. Rus tacirləri öz yüklərini Sara adasına, əhali isə Qamışavan qalasına daşıyırdılar. Mir Mustafa xanın əmlakı və ailə üzvləri də yarımada şəklində salınmış Qamışavan qalasına daşınırdı. Vəziyyətin mürəkkəbləşməsi barəsində leytenant Kunitskinin gətirdiyi məlumatdan sonra Veselaqa quruya hərbi qüvvə çıxarmaq qərarına gəldi. O, 95 nəfərdən ibarət olan dəniz əsgərlərini və muşketlərlə silahlandırdığı 70 matrosu Lənkəran xanının köməyinə yolladı. Bu dəstəyə rəhbərlik leytenant Pobedinskiyə tapşırıldı və ona bir ədəd top da verildi. Dəstə Lənkərana çıxmaqla hücumun qarşısının alınması üçün əlverişli mövqe tutmalı idi. Quruya çıxarılmış dəstənin dənizdən dəstəklənməsi üçün miçman Milyukovun rəhbərliyi altında Lənkəran sahillərinə bir qayıq da göndərildi. Qayığa yerləşdirilmiş bir ədəd top və 2 ədəd zənburək quruya çıxan dəstənin fəaliyyətini atəş zərbəsi ilə gücləndirməli idi. Quruya çıxarılmış olan matroslar Qamışavan qalasına yerləşdirildilər. Onların ixtiyarına 2 ədəd 6 funtluq top da verildi. Bu toplar gəmilərdən alınmışdı. Bundan başqa qalanın sağ cinahına yaxınlaşmış olan qayıqda da bir ədəd 3 funtluq top var idi. Həmin topdan da qalanın müdafiəsi üçün istifadə olunmaqda idi. I dərəcəli kapitan Veselaqa qalanın mühafizəsinin möhkəmləndirilməsinə xüsusi fikir verdi. Çünki, leytenant Pobedinskinin rəhbərliyi altında olan dəstə də Qacar qoşunlarının təzyiqi ilə qarşılaşacağı təqdirdə geri çəkilib bu qalaya sığınmalı idi. Veselaqa bu tədbirlərlə də kifayətlənmədi. Qacar qüvvələrinin Lənkərana yaxınlaşmasının qarşısının alınması üçün "Qornostay" gəmisi Lənkəranla Ənzəli arasında sahil boyu manevr etməli idi. Bu zaman qacarlara məxsus olan üzən vasitələrlə qarşılaşacağı təqdirdə gəminin heyəti onları ya ələ keçirməli, ya da məhv etməli idi. Eyni zamanda sahil boyu müşahidə olunan Qacar qüvvələrinin qarşısının alınması da gəmi heyətinə tapşırılmışdı. Başqa iki hərbi gəmi də Lənkəran ətrafında mövqe tutdu. Bu gəmilər Qacar qüvvələrinin sahil boyunca Lənkərana yaxınlaşmasına mane olmalı və rus qüvvələri Sara

adasına geri çəkilmək məcburiyyətində qalacaqları təqdirdə onları himayə etməli idilər (113).

Məlumdur ki, 1812-ci ilin yanvarında Qacar qoşunları Arazın şimalına hücum etmək üçün ciddi hazırlıq görürdülər. Mir Mustafa xan da sözsüz ki, Qacar qoşunlarının bu hazırlığından xəbər tuturdu və şübhə etmirdi ki, Qacar qoşunları Lənkəran xanlığı üzərinə hücuma keçəcəkdir. Onun təşvişinin, əslində, ciddi səbəbi var idi və ona görə də ruslardan kömək istədi. Sara adasında olan rus qüvvələri 1812-ci ilin yanvar ayının ortalarından etibarən Lənkəran xanlığının qacarların əlinə keçməməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsini Rusiya maraqlarına uyğun sayırdı və bildirilirdi ki, Lənkəranın Qacar qoşunları tərəfindən tutulacağı təqdirdə onun yenidən geri qaytarılması çox çətin olacaqdır. Mir Mustafa xan öz qənaətlərini markiz Pauluççiyə də çatdırdı və eyni zamanda ondan 250 nəfərlik piyada dəstəsinin Lənkərana göndərilməsini xahiş etdi. I dərəcəli kapitan Veselaqa bildirirdi ki, onun Lənkərana çıxardığı dəstə az saylıdır. Bu dəstənin himayə olunması üçün Lənkəran sahillərinə gətirilmiş gəmilərin orada uzun müddət saxlanılması isə qorxuludur. Çünki Qacar qüvvələri sahildə qurulmuş toplarla gəmilərə ziyan yetirə bilərdilər (114).

Məlumdur ki, Qacar qüvvələri bir qayda olaraq qış aylarında hücuma keçmirdilər. Doğrudur, onlar 1812-ci ilin fevralında Qarabağa qoşun çıxardılar. Amma sonra Qacar şahzadəsi öz hücumunu digər xanlıqlar istiqamətində davam etdirmədi. Çox güman ki, havaların qeyri münasib olması üzündən Qacar qoşunları o zaman geri çəkildilər. Güman etmək olar ki, Lənkəran xanlığı üzərinə hücum da havaların qeyri münasib olması üzündən ləğv edildi. I dərəcəli kapitan Veselaqanın əldə etdiyi məlumatlar da bundan xəbər verirdi. Mir Mustafa xanla növbəti görüşü zamanı Veselaqa eşitdi ki, Lənkəran xanlığı üzərinə hücum etmək üçün Gilanda toplanmış qoşun dəstəsi buraxılmışdır. Muğanda toplanmış qoşun dəstəsi isə Abbas Mirzənin rəhbərliyi altında Qarabağa yollanmışdı. Ona görə də 1812-ci ilin ilk aylarında Lənkəran xanlığı ətrafında mövcud olan mürəkkəb hərbi-siyasi şərait müəyyən qədər səngidi. Bununla belə, Mir Mustafa xan yenə də xanlıq ərazisinə piyada rus qüvvələrinin göndərilməsinə təkid edirdi. Mir Mustafa xan rus qoşun dəstəsinin mövcudluğunu Qacar hücumundan qorunmağın zəmanəti kimi qəbul edirdi. Bölgədə olan rus zabitləri tərəfindən Mir Mustafa xan xüsusi təzyiqlərə məruz qalmırdı. Əksinə, böhranlı vəziyyətdə onların köməyinə arxalanmağa çalışırdı. Mir Mustafa xan ruslarla münasibətinin gələcəyini də belə təsəvvür edirdi və ona görə də Qacar sarayının təzyiqləri qarşısında rus hərbi qüvvələrinə sığınmağı xanlığının gələcəyi

üçün təhlükə saymırdı. Mir Mustafa xan yenə də 500 nəfərlik rus dəstəsinin göndərilməsini arzu edirdi və bildirirdi ki, belə bir dəstənin gəlməsi ilə Lənkəran xanlığının mühafizəsini tam şəkildə təmin edə bilərdi (115).

Markiz Pauluççi Lənkəran xanının dedikləri ilə qismən razılaşdı və Qacar qoşunlarının Lənkəran xanlığına buraxılmaması üçün Bakıda dayanan dəniz taborunun 200 nəfərlik dəstəsinin göndərilməsinə razılıq verdi. Onun fikrincə, bu dəstənin Lənkərana göndərilməsi həm Qacar qoşunlarına müəyyən təsir göstərər və onları Lənkəran xanlığı üzərinə hücumdan çəkindirər, həm də Lənkəran xanında ruslara inamı artırardı (116).

Markiz Pauluççinin Cənubi Qafqazdakı baş komandanlığı dövründə Lənkəran xanlığı ərazisində ciddi bir hərbi qarşıdurma baş vermədi. Amma bu heç də Lənkəran xanlığı ətrafında hərbi-siyasi şəraitin nəzarət altına alınması demək deyildi. 1812-ci ilin yazının gəlişi ilə Lənkəran xanlığı ətrafındakı hərbi-siyasi şəraitdə də fəallaşma duyulmağa başladı. Bu dövrdə rus qoşunlarına artıq general-leytenant Rtişşev rəhbərlik edirdi. Onun Cənubi Qafqaza gəlməsindən sonra Rusiya ilə Qacar sarayı arasında Azərbaycan xanlıqlarının taleyi ilə bağlı danışıqlar son mərhələsinə daxil oldu. İşğal olunmuş Azərbaycan xanlıqlarının Rusiyanın ərazisi kimi rəsmiləşdirilməsi ətrafında aparılan müzakirələrdə Lənkəran xanlığı da diqqət mərkəzində idi. Həm Rusiya sarayı, həm də Qacar sarayı bu xanlığı öz əlinə keçirmək üçün hərbi yolu istisna etmirdi. Ona görə Lənkəran xanlığı ətrafındakı hərbi-siyasi şərait gərgin olaraq qalmaqda idi. Xüsusən, Qacar sarayının Lənkəran xanlığını öz hakimiyyəti altında saxlamaq üçün israrlı olması xanlıq ətrafında hərbi-siyasi şəraitin gərginləşdirilməsi üçün bir mənbə idi.

Məlumdur ki, Rusiya ilə Qacar sarayı arasında aparılan ilkin müzakirələrdə iki dövlətin sərhəd xəttinin Kür-Araz çaylarından keçməsi Rusiyanın təklifi kimi ortaya qoyulmuşdu. Azərbaycan xanlıqlarının bölgüsünün bu xətt üzrə aparılacağı təqdirdə Lənkəran xanlığı Rusiya sərhədindən kənarda qalmalı olurdu. Başqa sözlə, Rusiya sərhədindən kənarda olan Lənkəran xanlığı Qacar qoşunları qarşısında davam gətirə bilməyərək qacarların hakimiyyətini qəbul etməli idi. Mir Mustafa xanın Rusiya himayəsini qəbul etməsi, qacarlar hakimiyyəti altına düşməmək üçün rusların köməyinə arxalanması Rusiyanın Lənkəran xanlığına olan marağını da artırırdı. Elə bu marağın nəticəsi idi ki, markiz Pauluççi Cənubi Qafqazı tərk etməmişdən əvvəl Bakıdan Lənkəran xanlığı ərazisinə 200 nəfərlik bir dəstə göndərdi. General Rtişşev Qacar sarayı ilə sülh müqaviləsi imzalaması naminə Lənkəran xanlığının Rusiya

sərhədlərindən kənarda müstəqil şəkildə qalmasının mümkünlüyünü qəbul edirdi. Amma Rusiya sarayından ona verilən təlimatda Lənkəran xanlığı ilə bağlı Rusiya iddialarının gücləndirilməsi tələb olunurdu. Mir Mustafa xanın 20 il əvvəl qəbul etdiyi Rusiya himayəsini əldə əsas tutaraq Rusiya tərəfi ən azı Rusiya himayəçiliyi altında Lənkəran xanlığının hələlik müstəqil qalmasına çalışmalı idi (117). Başqa sözlə, general Rtişşev çalışmalı idi ki, Qacar dövləti Lənkəran xanlığı üzərində nəzarət əldə edə bilməsin. Ona görə Lənkəran xanlığının müstəqilliyinə nail olmaqla Qacar iddiasını bu xanlıq üzərindən uzaqlaşdırmaq, sonra isə bu xanlığın Rusiya sərhədləri daxilinə salınması planlaşdırılırdı. Bunun üçün ilk növbədə Lənkəran xanlığını Qacar hücumlarından qorumaq lazım idi. Ona görə də general Rtişşev Lənkəran xanının ona yazdığı məktubla müəyyən mənada razılaşdı və Lənkəran xanlığına əlavə qüvvələr göndərilməsinin lazımlılığını qəbul etdi. Bunun nəticəsi kimi general Rtişşev I dərəcəli kapitan Veselaqaya göstəriş verdi ki, Lənkəran ətrafında olan hərbi qüvvələri geri çəkməsin və Bakıdan Lənkərana əlavə qüvvələr gətirilsin. Həmin qüvvələr Həştərxandan Bakıya göndərilmiş olan yeni qoşun dəstəsindən alınmalı idi. Eyni zamanda Bakı, Quba və Dərbənddə yerləşən rus qoşunlarının rəhbəri general-mayor Xatunsevə də göstəriş verildi ki, Lənkəran xanlığı üzərinə hər hansı təhlükə yaranarsa, dərhal ora kömək göndərsin (118).

Məlumatlardan aydın olur ki, ruslar Lənkərana əlavə qüvvə göndərdilər və oradakı dəstənin üzvlərinin sayı 400 nəfərə çatdırıldı (119). Amma bu qüvvələrin artırılması Lənkəran xanlığını heç də Qacar hücumlarından qoruya bilmədi.

Yuxarıda qeyd edilmişdi ki, Fətəli şah da, Abbas Mirzə də elçilərini Mir Mustafa xanın yanına göndərərək onu ruslardan ayırmağa çalışdılar. Amma bu elçiliklər bir nəticə vermədi. Belə olanda elçi kimi göndərilmiş Seyid Kazım Tehrana qayıtdı, apardığı müzakirələrin nəticəsi barəsində Mirzə Bozorga məlumat verdi. O da öz növbəsində bu məlumatları Fətəli şaha çatdırdı. Mir Mustafa xanın dinc yolla hakimiyyət altına gətirilməsinin mümkün olmadığını görən Fətəli şah Təbrizdə olan şahzadə Abbas Mirzənin yanına çapar göndərdi və ona Mir Mustafa xanı cəzalandırmağı tapşırdı. Abbas Mirzə də dərhal qoşunları Lənkərana doğru hərəkətə gətirdi və sərkərdələrinə tapşırıq verdi ki, Mir Mustafa xanı tutaraq Təbrizə gətirsinlər (120).

Mövcud məlumatlara əsasən, bu hücumun başlanması 1812-ci ilin yayının əvvəllərinə təsadüf edir. Lənkəran xanlığı üzərinə hücum başlanması üçün Abbas Mirzə Meşkinə gəldi və burada hücumda iştirak edəcək qüvvələrin qruplaşdırılmasını apardı. Əmir xan Qacarın rəhbərliyi

altında olan qoşun dəstəsinə Ərkivan kəndi üzərindən Lənkərana hücum edilməsi tapşırıldı. İsmayıl xan Qacar Şambayati və Sadıq xan Qacarın rəhbərliyi olan digər dəstələr isə Züvənd istiqamətindən Lənkərana doğru irəliləməli idilər. Bir dəstə də Gilanda təşkil edilməli və bu dəstə də Astrabaddan keçməklə Lənkəran üzərinə hücumda iştirak etməli idi. Farsdilli tarixi ədəbiyyatda bildirilir ki, Mir Mustafa xan 300 nəfərlik bir rus taborunun köməyi ilə müdafiə mövqeləri tutdu, oğlu Mir Həsən xanı Qacar qoşunlarının hücum edən dəstələrinin qarşısını almağa göndərdi. Amma Mir Həsən xan məğlub olaraq Qamışavana çəkildi (121).

Mirzə Əhməd Mirzə Xudaverdinin XIX əsrin 80-cı illərində qələmə aldığı "Əxbarnamə" əsərində Qacar qoşunlarının Lənkəran üzərinə hücumu haqqında daha geniş məlumat mövcuddur. Əsər Lənkəran xanlığına rəğbətlə yazıldığı üçün burada subyektiv münasibət güclü olsa da, müəllif tərəfindən müəyyən təfərrüatlara aydınlıq gətirilmişdi. Adı çəkilən əsərdə bildirilir ki, Qacar qoşunlarının yaxınlaşması xəbəri alınanda Mir Mustafa xan oğlu Mir Həsən xanı qoşunla xanlığın müdafiəsinə göndərdi. Müəllif Mir Mustafa xanın övladları Mir Həsən xanla Mir Hüseyn xanı xeyli vəsf edir və onların Qacar qoşunlarına qarşı igidliklə vuruşduqlarını yazırdı. Əsərdə olan məlumata görə, Mir Mustafa xanın övladları Qacar qoşunları üzərinə qəfil hücum etmək üçün qəbiristanlıqda mövqe tutdular. Mir Mustafa xan özü də qəfil hücum təşkil edilməsinin tərəfdarı idi. Lakin bu zaman onun ixtiyarında kifayət qədər qüvvə yox idi. Müəllifə görə, Mir Mustafa xanın döyüşçülərinin çoxu ailə üzvlərini Qamışavan qalasına gətirmək üçün dağılmışdılar. Sonra bildirilir ki, Mir Mustafa xan tərəfindən Mir Hüseyn xana başqa bir tapşırıq verildi. Mir Hüseyn xan xanlıq qoşunlarının bütün atlılarını toplayaraq səhər açılan kimi Qacar qüvvələrinin üzərinə hücuma keçməli idi. Mir Hüseyn xan döyüşə qoşulmaqla Qacar qoşunlarının diqqətini özünə cəlb etməli və sonra da yavaş-yavaş geri çəkilməli idi. Qacar qoşunları Mir Hüseyn xanın dəstəsinin ardınca irəliləyəndə Ağaallah bəyin rəhbərliyi altında olan tüfəngçilər onları atəşə tutmalı idilər (122).

Səhər açılan kimi Mir Hüseyn xanın dəstəsi Qacar qoşunlarına doğru hərəkətə başladı. Mir Mustafa xan isə başqa bir dəstəsi ilə mövqe qurub Mir Hüseyn xanın ardınca Qacar qüvvələrinin yaxınlaşacağını gözlədi. Lakin Mir Mustafa xanın qurduğu plan baş tutmadı. Mir Hüseyn xan çoxsaylı Qacar qoşunlarının üzərinə hücum etməyə cəsarət etmədi və onun atlılarının çoxu döyüş meydanından yayındılar. Bu xəbəri eşidəndə Mir Mustafa xan öz ətrafında olan tüfəngçilər dəstəsinə döyüşə girməyi tapşırdı. Bu qərarın da bir nəticəsi olmadı. Çünki Mir Mustafa xanın tüfəngçiləri döyüş meydanına yetişəndə Qacar qüvvələri səngər və

xəndəklərdə münasib döyüş mövqeləri tutmuşdular. Ona görə onlarla döyüşə girmək çətinləşdi. Qacar qüvvələrinə üstün gələ bilməyəndə Mir Mustafa xan ətrafındakı silahlılarla Gərmətük kəndinə tərəf geri çəkildi. Ağaallah bəyin rəhbərliyi altında tüfəngçilər dəstəsi isə Ərdəbilə tərəf üz tutdular. Onların geri çəkilməsi ilə vəziyyətin daha da mürəkkəbləşəcəyini hiss edən Mir Mustafa xan Ağaallah bəyin arxasınca çapar göndərdi. Lakin Ağaallah bəy Lənkəran xanının yenidən döyüşə qatılmaq təklifini qəbul etməyərək yoluna davam etdi (123).

Mir Mustafa xan Şiləvar və Digah kəndlərini keçməklə özünü Qamışavan qalasına çatdırdı. Bu vaxt onun ailəsi də artıq burada idi. Qacar qoşun dəstəsi isə Dərgah bəyin rəhbərliyi altında irəliyə doğru hərəkətini davam etdirdi. Qacar qüvvələri Lənkəran xanının imarətinə od vurdular. Müəllif bildirir ki, bu zaman Mir Həsən xan şah qoşunları üzərinə hücum etdi və Qacar qoşunlarını iki yerə böldü. Onların bir dəstəsi Lənkərana tərəf, digər dəstəsi isə əvvəlki mövqelərinə tərəf geri çəkildi. Bununla belə, Qacar qoşunlarının müqavimətini qırmaq mümkün olmadı və Lənkəran Qacar qüvvələrinin əlinə keçdi. Lənkəran qalasında möhkəmləndikdən sonra Qacar qoşunları Qamışavan qalası üzərinə də hücum etdilər. Müəllif bildirir ki, yalnız Mir Həsən xanın igidliyi sayəsində Qamışavan qalasını müdafiə etmək mümkün oldu. Şahid ifadələri əsasında yazılmış olan "Əxbarnamə" əsərində Kərbəlayı Şahverdi bəy adlı birisinin igidliyindən də söz açılır. Əsərdə Kərbəlayi Şahverdi bəylə Mir Həsən xanın birgə iştirak etdiyi döyüşlərdən birinin müxtəsər təsviri verilmişdir. Qamışlıqdan keçmək məcburiyyətində qalan Mir Həsən xanla Kərbəlayi Şahverdi bəyin rəhbərlik etdiyi dəstə Lənkəran ətrafında gözlənilmədən Qacar qoşunlarına zərbə vurdu. Bu qəfil hücumu gözləməyən Qacar qoşunu iki dəstəyə bölündü və hər dəstə bir tərəfə çəkildi. Qacar qoşunlarının geri çəkilməsini görəndə Mir Mustafa xan da yanındakı tüfəngçilərlə hücuma keçdi. Mir Mutafa xanın ətrafında Rzaəli bəy, Əli Mirzə bəy oğlu adlı şəxslərin Qacar qüvvələrinə qarşı igidliklə vuruşması əsərdə öz əksini tapmışdır. Müəllif eyni zamanda 200 nəfərlik rus dəstəsinin də Mir Mustafa xanın yanında olmasından xəbər verir. Haqqında danışılan döyüşü müəllif atasının danışıqlarına istinadən təsvir edirdi və verilən məlumatdan aydın olur ki, bu döyüşdə Qacar qoşunlarının əsas qüvvəsi deyil, yalnız bir dəstəsi iştirak edirdi. Lənkəran xanlığının qoşununun bu dəstəyə qarşı döyüşü kifayət qədər səxavətli təsvir olunmuşdur. Hər halda bu təsvir onu göstərir ki, Lənkəran xanının dəstəsi bu döyüşdə üstün gəldi və Qacar qüvvələri geri çəkilərək ələ keçirmiş olduqları Lənkəran qalasına toplandılar (124).

Bir farsdilli tarixi araşdırmada Mir Mustafa xanla oğlu Mir Həsən xanın hücum edən Qacar qoşunlarının qarşısını almağa çalışdıqları halda, Mir Hüseyn xanın dəstəsinin isə Lənkəran qalasının müdafiəsinə vəzifələndirildiyi bildirilir. Mir Mustafa xanın və Mir Həsən xanın dəstələrinə zərbə endirəndən sonra Qacar qoşunları Lənkəran qalasını mühasirəyə aldılar. Lənkəran qalasının müdafiəsinə dənizdəki rus gəmilərinin top atəşləri də kömək verirdi. Bununla belə, Qacar qoşunlarının qarşısını saxlamaq mümkün olmadı və avqust ayının 19-da Lənkəran qalası Qacar qoşunlarının əlinə keçdi. Əmirqunə xan Qacarın rəhbərliyi altında olan bir dəstə rus hərbi gəmilərini atəşə tutdular. Araşdırmada bildirilir ki, nəticədə bir ədəd rus hərbi gəmisi nişan alınaraq dənizdə batırıldı. Lənkəran qalası alınandan sonra Abbas Mirzənin göstərişinə əsasən, Qızılağacdan başlayaraq Lənkəranın cənubuna qədər sahil boyu müdafiə bürcləri tikildi ki, rusların yaxınlaşması müşahidə altında saxlanılsın. Eyni zamanda Qamışavan qalası da mühasirəyə alındı və bu qala uzun müddət mühasirədə saxlanıldı. Farsdilli tarixi ədəbiyyatın verdiyi məlumata görə, havaların soyumasına baxmayaraq Ərkivan, Astara və Lənkəranda müdafiə qalalarının əsası qoyuldu, Lənkəran qalasının mühafizəsi Abbas Mirzə tərəfindən Əsgər Əfşar Urumi adlı birisinə tapşırıldı. Ərkivan qalasını isə Mirzə Rəfi Rəştinin rəhbərliyi altında olan Gilan tüfəngçilərii qorumalı idi. Bildirilir ki, bütünlükdə Lənkəran mühafizəsi üçün 2 tabor sərbaz, 5 ədəd top və 500 nəfər Gilan çəriyi ayrılmışdı (125).

"Əksir-üt tıvarix" əsərində də Əmir xanın rəhbərliyi altında rus gəmilərinin atəşə tutulması və bir ədəd gəminin dənizdə batırılması haqqında məlumat vardır. Əsərdə bildirilir ki, sahil ərazidə Qacar qüvvələri ilə ruslar arasında döyüş 2 saat davam etdi. Bu döyüşdə ruslar bir gəmini itirməklə məğlub oldular və bundan sonra Əmir xan Qacar Qamışavan qalasının mühasirəsinə göstəriş verdi. Bu əsərdəki məlumatdan belə bir qənaət hasil olur ki, Qamışavan qalasının mühasirəsi 2 ay davam etdi. Lakin onu almaq mümkün olmadı. Belə olanda Əmir xan Qacar hava şəraitinin pisliyini və ərzağın azlığını əsas tutaraq Abbas Mirzə qarşısında qoşunların əsas hissəsinin geri qaytarılması haqqında məsələ qaldırdı. Abbas Mirzə isə əsərdə olan məlumata görə, Lənkəran xanlığı ərazisində tikilmiş qalanın mühafizəsini Mirzə Rəfi xan Rəştiyə və xanlığın idarəçiliyini də Hacı Məhəmməd xan Qaraquzluya tapşırandan sonra Əmir xan Qacarın Lənkəran xanlığından geri dönməsinə icazə verdi (126).

"Məəssər-e Soltaniyyə" əsərində Qacar qoşunlarının Lənkəran xanlığı üzərinə hücumu haqqında kifayət qədər geniş məlumat vardır.

Yuxarıda istinad edilən əsərdə olduğu kimi Ə.Dünbəli də Lənkəran xanlığı üzərinə hücuma ümumi rəhbərliyin Əmir xan Qacar tərəfinfən edildiyini bildirir. Əmir xan Qacar həm də Lənkərana ilk daxil olanlar sırasında idi. Müəllifə görə, Mir Mustafa xan şah qoşunlarının irəliləməsinin qarşısını almaq üçün körpüləri dağıtdı, böyük ağacları kəsərək keçid yollarına atdırdı. Amma bunların bir nəticəsi olmadı. Əsərdə Qacar qoşunları topçularının səmərəli fəaliyyət göstərmələri qeyd olunur. Bildirilir ki, Lənkəranın müdafiəsində olan ruslar da geri çəkilib Qamışavana sığındılar. Eyni zamanda Sara adasında dayanmış hərbi gəmilər döyüş vəziyyətinə gətirildilər. Ə.Dünbəli rus gəmilərinin toplarla təchiz olunduğunu qeyd edir. Lakin onların sayı ilə bağlı söylənilən rəqəm qeyri-realdır. Məsələn, o yazır ki, hər bir gəmidə 16 ədəd top var idi. Bununla belə, müəllifə görə rus gəmiləri Qamışavan qalasına yaxınlaşaraq döyüşə qatıldılar. Rus piyadaları isə Qamışavandan çıxaraq qala yaxınlığında mövqe tutdular. Verilən məlumatdan məlum olur ki, Qamışavan qalasından çox da uzaq olmayan bir ərazidə tərəflər arasında güclü döyüş baş verdi. Bu zaman Əmir xan Qacar qoşun dəstəsinin bir hissəsi ilə həmin ərazidə idi. Rusların hücuma başladığını görəndə Əmir xan Qacar da qoşunların digər hissəsinin yetişməsini gözləmədən döyüşə girdi. Bu döyüş iki saat davam etdi. Müəllifin məlumatına görə, bu döyüşdə ruslar məğlub oldular və bir rus gəmisi dənizdə batırıldı. Yazılana görə, bununla da ruslar geri çəkilməli oldular. Əmir xan Qacar qoşunun bir hissəsini həmin ərazidə saxladı və özü isə Lənkərana döndü, Lənkəranın giriş və çıxış yollarını nəzarət altına aldı. Sonradan isə sahil boyu Mürdab Siyahruda qədər mühafizə bürcləri tikdirdi və həmin bürclərə dəstələr təyin etdi. Eyni zamanda Qamışavan qalası mühasirəyə alındı. Müəllifin yazdığına görə, mühasirənin sürdüyü vaxt qala daxilindəkilər bir neçə dəfə gecə ikən Qacar qüvvələri üzərinə hücum etdilər. Bundan başqa rus hərbi gəmilərinin toplarının da Qacar səngərlərini atəşə tutduğu bildirilir. İki ay ərzində bu atəşlər davam etdi. Verilən məlumata görə, bu dəstələr Qacarlar arasında ciddi itkilərə səbəb olmasa da, onlara müəyyən narahatlıqlar yaratdı (127).

Ə.Dünbəlinin verdiyi maraqlı məlumatlardan biri Lənkəran xanlığı üzərinə hücumda iştirak edən ingilis zabitləri haqqındadır. O bildirir ki, ingilis zabitləri bu döyüşə qoşulsalar da sonradan onlar İngiltərə ilə Rusiya arasında münasibətlərin yaxşılaşmasını əsas tutaraq vuruşmaqdan imtina etdilər və geri qayıtdılar. Digər maraqlı bir məlumat isə Qamışavan qalası üzərinə basqınların təşkil edilməsidir. Bildirilir ki, belə basqınlardan birində qalanın qarovulunda dayanmış rus əsgərləri əsir

götürüldülər. Bütünlükdə isə Qacar qüvvələri Qamışavan qalasını ələ keçirə bilmədilər (128).

İstinad olunan rus arxiv sənədlərində və tarixi araşdırmalarında Qacar qoşunlarının Lənkəran xanlığı üzərinə hücumu məlum fərqli mövqedən işıqlandırılmışdır. Bu məlumatlara görə, əmir xan Qacarın rəhbərliyi altında olan Qacar qoşunları 1812-ci il avqust ayının 9-da Lənkərana hücum etdilər. Mir Mustafa xan bu hücumun qarşısının alınmasını asan olmayacağı üçün ailə üzvlərini və əşyalarını Sara adasına göndərdi. Özü isə övladları ilə birlikdə Qamışavanda mövqe tutmuş rus dəstəsinə qoşuldu. Bu zaman Qacar topçularına ingilis zabitləri rəhbərlik edirdilər və topçu bölmələrində ingilislərin təlimini keçmiş 2 min nəfər var idi. I dərəcəli kapitan Veselaqa general-leytenant Rtişşevə yazdığı məruzəsində bildirirdi ki, ingilislər Qacar qoşunalrının avanqard dəstəsi ilə və 8 ədəd topun müşayiəti ilə ruslar tərəfindən mühafizə olunan mövqeyə hücum etdilər. Veselaqa məlumatını dəqiqləşdirməsə də müəyyən etmək olar ki, söhbət Qamışavan qalasından gedir. Çünki Veselaqa sonra yazır ki, şah qüvvələri rusların, habelə Lənkəran xanının və onun ətrafındakıların sığındığı qalanın divarının uçurulmasına cəhd göstərdilər. Məlumdur ki, rus dəstəsi və Lənkəran xanı yaxınları ilə birlikdə Qamışavan qalasında müdafiə olunurdular. Lakin Qacar qoşunları qalanı ala bilmədilər və dənizdəki rus hərbi gəmilərindən açılan atəşlər Qacar sərbazlarının qalaya yaxınlaşmasına imkan vermədilər. Avqustun 10-da Qacar qüvvələri bir də qala üzərinə hücuma keçdilər. Amma bu dəfə də onlar niyyətlərinə nail ola bilmədilər (129).

Lənkəran qalasının ələ keçirilməsi mümkün olmayanda hücumda iştirak edən ingilis mayoru Harris tabeçiliyində olan zabitlərdən birini I dərəcəli kapitan Veselaqanın yanına göndərdi və ona barışıq təklif etdi. Təklif olundu ki, 7 günlük barışıq elan edilsin. Mayor Harris bu müddət ərzində yəqinləşdirmək istəyirdi ki, doğrudanmı Rusiya ilə İngiltərə arasında ittifaq müqaviləsi imzalanıb. Belə bir müqavilənin imzalanmasının təsdiqlənəcəyi təqdirdə mayor Harris ruslara qarşı hücumda iştirak etməyi dayandırmaq istəyirdi. Amma I dərəcəli kapitan Veselaqa bu təklifi qəbul etmədi. Onda mayor Harris özü Veselaqanın görüşünə getdi. Onların görüşü "Arianda" korvetində baş tutdu. Veselaqa yenə də mayor Harrisin irəli sürdüyü təklifi qəbul etmədi. Belə olanda döyüş davam etdirilməli oldu. Qacar qoşunları Qamışavan qalasını mühasirədə saxlamaqla bərabər, sahilboyu əlverişli müdafiə mövqelərini ələ keçirdilər, mühəndis-istehkam işlərini genişləndirdilər. Dənizdə sahil boyu manevr edən "Qrom" gəmisi Qacar qoşunlarının sahil yaxınlığında

fəallaşmasını müşahidə altında saxlayır və fürsət yarandıqca Qacar mövqelərini atəşə tuturdu (130).

Barışıq təklifini qəbul etməyən rusların vəziyyəti heç də yaxşı deyildi. Rus dəstəsi Qamışavan qalasında mühasirədə qalmaqla Qacarlara qarşı ciddi bir fəallıq göstərə bilmədi. Mayor Povalişinin rəhbərliyi altında olan bu dəstə 400 nəfərdən ibarət idi. Dəstənin ixtiyarında bir ədəd top var idi. Ətrafda əlverişli döyüş mövqeləri tutmuş çoxsaylı Qacar qüvvələri mayor Povalişinin dəstəsini heç qaladan kənara çıxmağa belə imkan vermirdi. Ona görə əslində, bu dəstənin özünün köməyə ehtiyacı var idi. Dənizdə dayanan hərbi gəmilərin köməyi də istənilən səviyyədə deyildi. Çünki bu gəmilər sahilə çox yaxınlaşa bilmirdilər və ona görə onların toplarının atəşi məsafə məhdudluğuna malik idi. Digər tərəfdən bu gəmilər eyni zamanda Qacar toplarının atəş təzyiqləri altında idi. Payızın küləkli klimatında həmin gəmilərin dəniz sahilində saxlanılması məsləhət bilinmirdi. Onların sahildən uzaqlaşması isə mühasirədə qalan rus dəstəsinin vəziyyətini daha da çətinləşdirə bilərdi. Qala daxilində qalanların ərzaqla təminatı çətinləşdiyi kimi, buradakı rus dəstəsinin geri çəkilməsi də kifayət qədər təhlükəli idi. Ona görə də I dərəcəli kapitan Veselaqa həyəcan təbili döyməyə başladı (131).

Vəziyyətin az-çox düzəldilməsi üçün Veselaqa həm general-leytenant Rtişşevdən, həm də general-mayor Kotlyarevskidən kömək istədi. O, general Kotlyarevskidən xahiş etdi ki, Lənkəran xanlığındakı Qacar qoşunlarının yayındırılması üçün Qarabağda və ya Meşkində Qacar qoşunları üzərinə hücum təşkil etsin. Veselaqa güman edirdi ki, bununla Lənkəran xanlığı ərazisindəki Qacar qüvvələrinin bir hissəsi geri çağırıla bilər. Və ya heç olmasa Abbas Mirzənin özünün qoşun dəstəsi ilə Lənkəran xanlığına gəlməsini təxirə sala bilər (132). O, general-leytenant Rtişşevin qarşısında isə vəsatət qaldırdı ki, Lənkərana əlavə qüvvələr və toplar göndərilsin və həmin qüvvələrin iştirakı ilə Qacar qoşunları üzərinə hücumlar təşkil edilsin. Bir neçə gündən sonra I dərəcəli kapitan Veselaqa daha ağır və təhlükəli vəziyyətdə olduğunu və əlavə qüvvələrin göndərilməyəcəyi təqdirdə Lənkəran xanını, onun ətrafındakıları və rus qoşun dəstəsini Sara adasına köçürmək məcburiyyətində qalacağını açıqladı (133).

General Rtişşev Lənkəran xanlığı ərazisindəki rus dəstəsinin vəziyyətinin mürəkkəb və təhlükəli olması qənaəti ilə razılaşdı. Amma Lənkəran xanlığı ərazisinə göndərilmək üçün onun əlavə qüvvə toplamaq imkanı məhdud idi. Ona görə o, Lənkəran xanlığı ərazisində rus qoşun dəstəsi üçün mövcud olan gərginliyin zəiflədilməsi üçün başqa vasitələri işə salmaq məcburiyyətində qaldı. Bu zaman general Rtişşevlə Abbas

Mirzə arasında sülh müqaviləsinin imzalanması üçün müzakirələr artıq başlamışdı. Həmin müzakirələrin davam etdirilməsi üçün general Rtişşev 1812-ci il sentyabr ayının əvvəllərində Qarabağ xanlığı ərazisində idi. O, yeni sərhəd bölgəsində Abbas Mirzə ilə görüşməyi planlaşdırırdı. Bu görüş baş tutmazdan əvvəl general Rtişşev Abbas Mirzəyə məktub göndərdi və onun qarşısında Lənkəran xanlığında döyüşlərin dayandırılması məsələsini qaldırdı. Qarşılıqlı razılaşmaya əsasən, tərəflər arasında danışıqların aparılması zamanı döyüş əməliyyatları dayandırılmalı idi. Abbas Mirzə general Rtişşevin təklifini qəbul etdi və Lənkəran xanlığı ərazisində döyüşlərin dayandırılmasına göstəriş verdi (134).

Bu razılıq ilə bağlı Abbas Mirzə general Rtişşevə məktub göndərdi. Qacar şahzadəsi general Rtişşevin ikitərəfli görüşə gəlməsindən sevindiyini bildirdi və rus generalının şərəfinə Talış hakimlərinə hər cürə düşmənçilik fəaliyyətini dayandırmağı tapşırdığını söylədi. Abbas Mirzə onu da yazırdı ki, ikitərəfli görüşün Araz çayı sahilindəki Sultan hasarı adlanan məntəqədə keçirilməsini təklif edir. General Rtişşevin general Kotylraevski ilə yazışmalarından aydın olur ki, Lənkərandakı rus qüvvələrinin vəziyyətinin yüngülləşdirilməsi üçün general Kotlyarevskinin Qacar qüvvələri üzərinə hücumu da nəzərdən keçirilirmiş. Abbas Mirzədən məlum cavab alınandan sonra general-leytenant Rtişşev general Kotlyarevskiyə hər hansı bir təxribatın icrasına daha ehtiyac olmadığını bildirirdi (135).

Əslində, Abbas Mirzə Lənkəran xanlığı ilə bağlı öz istədiyinə nail olmuşdu və ona görə də general Rtişşevin təklifini qəbul etdi. Qacar qoşunlarının hücumu ilə Lənkəran xanlığı demək olar ki, nəzarət altına alınmışdı və bu da sülh müzakirələri zamanı Lənkəran xanlığı ilə bağlı Qacar şahzadəsinə ciddi üstünlük verə bilərdi. Yəni, Lənkəran xanlığı Qacar qoşunlarının nəzarəti altında olduğu üçün bu xanlığın məsələsi Qacar hakimiyyətinə mənsub olan bir ərazi kimi müzakirələrin gündəliyindən çıxarıla bilərdi. Abbas Mirzənin əldə etməyə çalışdığı da elə bu idi.

General Rtişşev Lənkəran xanlığı ərazisində döyüşlərin dayandırılmasına Abbas Mirzədən müsbət cavab aldıqdan sonra I dərəcəli kapitan Veselaqadan da tələb etdi ki, o da Qacar qoşunlarına qarşı döyüşlərdən çəkinsin. Döyüşlərin dayandırılmasına qarşılıqlı razılıq əldə edildiyi üçün general Rtişşev Lənkəran xanlığına əlavə qüvvələrin ayrılmasına ehtiyac görmürdü. Bütünlükdə, I dərəcəli kapitan Veselaqadan tələb olundu ki, qərar tutduqları mövqelərdə dayansınlar, hər hansı bir fəallıq nümayiş etdirmədən qarşı tərəf müşahidə altında saxlansın. Əgər Qacar qoşunları yeni bir hücum başlasaydı, onda rus dəstəsi silahla onun qarşısını almağa

çalışmalı idi. I dərəcəli kapitan Veselaqanın sərəncamında olan qüvvələrdən istifadə etməklə Lənkəran xanlığını mühafizə etməli idi. Sülh danışıqlarının bir nəticəyə çatmayacağı və Qacar qoşunlarının Lənkəran xanlığı ərazisində fəallığı artacağı təqdirdə rus dəstəsi də döyüşə qoşula bilərdi. Əgər bu zaman rus dəstəsinin Qacar qoşunlarının qarşısını saxlamağa gücü çatmasaydı və kömək üçün əlavə qüvvələr gəlsəydi, onda Veselaqa dəstəni gəmilərlə geri çəkə bilərdi. Bu zaman qaladakı toplar və Mir Mustafa xanın özü və ailəsi də gəmilərə alınmalı və Bakıya doğru istiqamət götürməli idi. General Rtişşev bildirirdi ki, Qamışavan qalasının tərk edilməsi və bununla da Lənkəran xanlığının bütünlüklə Qacar qoşunlarının nəzarəti altına verilməsi heç bir müdafiə imkanı qalmadıqda edilə bilərdi. Rus qoşunları baş komandanı eyni zamanda Rusiya ilə İngiltərə arasında sülh müqaviləsinin imzalanması ilə bağlı çar fərmanını da göndərdi. I dərəcəli kapitan Veselaqa bu fərmanı ingilis mayoru Harrisə göndərməli və bununla ingilis zabitlərinin rus qoşunlarına qarşı döyüşdən çıxarılmasına cəhd göstərməli idi. Mayor Harrisin nəzərinə çatdırılmalı idi ki, ingilis zabitləri ruslara qarşı döyüşməklə Rusiya ilə İngiltərə arasında yaranmış dostluq ittifaqını pozurlar (136).

General-leytenant Rtişşev İngiltərənin Qacar sarayındakı səfiri Qor Uzeleyə də məktub göndərdi, İngiltərə ilə Rusiya arasında sülh müqaviləsi imzalandığını onun nəzərinə çatdırdı. General Rtişşev ingilis zabitlərinin Lənkəran xanlığı ərazisində ruslara qarşı vuruşmasını təəccüblə qarşılayır və bu iştirakın səbəbini Qor Uzeleydən öyrənməyə çalışırdı. Məktubda soruşulurdu ki, bəlkə iki dövlət arasında müqavilə imzalanmasına baxmayaraq ingilis zabitləri Qacar qoşunları tərkibində ruslara qarşı vuruşmağı davam etdirmək haqqında xüsusi göstəriş alıblar? Amma general Rtişşev ona da ümidini bağlayırdı ki, ingilis zabitləri iki dövlət arasında yaradılacaq dostluq ittifaqının əleyhinə olaraq ruslara qarşı döyüşməyi dayandıracaqlar (137).

1812-ci il sentyabr ayında rus qoşunları rəhbərliyinin nümayəndələri ilə Abbas Mirzənin nümayəndələri arasında sülh müqaviləsi ətrafında danışıqlar aparıldı. Ona görə sentyabr ayında Lənkəran xanlığı ərazisində sakit hərbi şərait mövcud idi. Tərəflər arasında ciddi hərbi qarşıdurma baş vermədi. Hər iki tərəfin rəhbərliyi müzakirələrin nəticəsini gözləyirdi. Lakin aparılan danışıqlar bir nəticə vermədi. Rusiya tərəfi işğal etdiyi əraziləri Qacar dövlətinə güzəştə getməkdən imtina etdi. Qacar sarayı isə əksinə, Azərbaycan xanlıqlarına yenidən iddia irəli sürdü. Nəticədə, tərəflər razılaşa bilmədilər. Belə olanda tərəflərin Lənkəran xanlığına diqqəti yenidən gücləndi. Rusiya tərəfi istəyirdi ki, Lənkəran xanlığının Rusiya himayəsində olmasını bəhanə edərək bu xanlığı işğal

etsin. Qacar sarayı isə çalışırdı ki, heç olmasa Lənkəran xanlığını ələ keçirə bilsin.

Lənkəran xanlığını işğal altında saxlamaq üçün bu xanlıq ərazisində çox saylı Qacar qoşunları mövcud idi. 1812-ci ilin oktyabr ayına aid olan rus sənədlərinin birində Lənkəran xanlığı ərazisində olan Qacar qoşunlarının 1000 nəfərlik piyada və 2 min nəfərlik atlı dəstəsinin olduğu göstərilir (138). Başqa bir sənəddə isə xanlıq ərazisindəki Qacar qoşunlarının sayının 7 min nəfər olduğu bildirilir (139). Hər halda Qacar qoşunları Lənkəran xanlığı ərazisində hərbi üstünlüyə malik idilər və xanlıq ərazisindəki rus dəstəsi Qacar qoşunlarının müqavimətini qırmağa nəinki qadir deyildi, hətta bu dəstənin özü də məhv olmaq təhlükəsi qarşısında idi. Sülh müzakirələrinin arzu edilən nəticələrlə bitməyəcəyini görəndə general Rtişşev Lənkərandakı rus dəstəsinin gücləndirilməsi qərarına gəldi. Bununla bağlı o, Bakı və Qubadakı qoşunların rəhbəri general-mayor Xatunsevə göstəriş verdi ki, Troitski piyada alayının 3 bölüyünü 2 ədəd topla bərabər Lənkəran istiqamətinə göndərsin. Bu bölmələr 1812-ci il oktyabr ayının əvvəlində kapitan Yakovlevin rəhbərliyi altında Qubadan hərəkətə başladı. Adı çəkilən bölmələrdən bir bölük və bir ədəd top Salyanda dayanmalı və məntəqəni Qacar qoşunlarının hücumundan qorumalı idi. Bu bölüyə Şamaxı xanı Mustafa xanın atlı dəstəsi də qoşulmalı idi. Digər 2 bölük və 1 ədəd top isə kapitan Yakovlevin rəhbərliyi altında Bakıda gəmilərə yüklənərək Lənkərana doğru hərəkətə başlamalı idi. General-mayor Xatunsev general Rtişşevin tapşırığını yerinə yetirsə də, əslində bu qərarla razı olmadığını da hiss etdirdi. Konkret dəlillərlə general Xatunsev bir daha bildirdi ki, Quba və Bakı ərazisinin mühafizəsi qüvvələrin azlığı üzündən tamamilə zəifləmişdir. Kapitan Yakovlevin rəhbərliyi altında üç bölüyü Qubadan göndərmiş olsa da, general Xatunsev general-leytenant Rtişşevin qarşısında imkan yaranan kimi həmin bölmələrin geri qaytarılması haqqında vəsatət qaldırdı. Təklif olundu ki, bu bölmələrin əvəzinə digər ərazilərdən bölmələr göndərilsin (140).

General-leytenant Rtişşev general Xatunsevin vəsatətini qəbul etmədi. Əksinə, general Xatunsev tərəfindən Lənkərana göndərmək üçün başqa ərazilərdən bölmələr götürmək təklifi rəhbərliyə hörmətsizlik kimi qiymətləndirildi. General Rtişşev onun nəzərinə çatdırdı ki digər ərazilərdə hərbi-siyasi şəraitin necə olmasından yaxşı xəbərdardır. O, konkret olaraq Qarabağ xanlığı ərazisində və Şəki xanlığında hərbi şəraitin kifayət qədər mürəkkəb olduğunu və ona görə də o xanlıqların ərazisindən qüvvə alınmasının qeyri-mümkün hesab etdi. Onun fikrincə, həmin xanlıqlara nisbətən Quba ətrafında daha sabit bir şərait mövcud idi

və ona görə də 3 bölmənin məhz Qubadan götürülməsinə qərar verildi. Bununla yanaşı, Rtişşev bildirirdi ki, Troitski alayının 2 bölüyü Lənkəran xanlığı ərazisində Qacar qoşunlarına qarşı döyüş keçirilməsi üçün alınmışdır. O əlavə edirdi ki, bu döyüş uzun müddətli olmayacaqdır və əgər I dərəcəli kapitan Veselaqa tərəfindən həmin döyüş lazımi səviyyədə aparılsaydı, onu tezliklə başa çatdırmaq olardı. General Rtişşev ümid edirdi ki, bu döyüşlə Qacar qüvvələrini Lənkəran xanlığı ərazisindən çıxarmaq mümkün olacaq. Bundan sonra isə Troitski alayının 2 bölüyünün Lənkəran ərazisində qalmasına ehtiyac olmayacaqdı. Ona görə döyüş başa çatandan sonra həmin 2 bölük gəmilərlə Salyana çatdırılmalı və oradan da bölüklər quru yolla Qubaya qayıtmalı idilər (141).

General-leytenant Rtişşev Troitski alayının bölükləri ilə bağlı I dərəcəli kapitan Veselaqaya da yazılı əmr göndərdi və ondan tələb etdi ki, Qacar qoşunlarına qarşı hərbi əməliyyat uğurla başa çatdırıldıqdan sonra həmin bölüklər Qubaya yollanmaları üçün gəmilərlə Salyana göndərilsinlər (142).

Mövcud olan məlumatlara görə, kapitan Yakovlevin rəhbərliyi altında olan 2 bölük oktyabr ayının sonlarında Lənkəran sahillərinə yetişdi və həmin ayın 29-da Qamışavandakı rus dəstəsi ilə birləşdi. Bu bölüklərin gəlişi ilə Qamışavan ətrafındakı rus dəstəsi müəyyən qədər gücləndi və dəstənin müdafiə olunmaqdan əlavə, Qacar qoşunları üzərinə basqınlar etməsi də mümkün hesab olundu. Ona görə noyabr ayının 7-də Troitski alayının 100 nəfərlik bölməsi ilə Mir Mustafa xanın dəstəsi birlikdə yaxınlıqdakı çaya aparan yol üzərində dayanan Qacar dəstəsinin üzərinə hücum etdi. Həmin dəstə zərərsizləşdirildi və hətta bəzi qənimətlər də əldə edildi. Bu uğurdan ilhamlanan ruslar noyabr ayının 9-da Lənkərana aparan yol üzərində qurulmuş Qacar mövqelərinə hücum etdilər. Kapitan Yakovlevin rəhbərliyi altında olan 260 nəfərlik dəstə də bu hücum zamanı üstünlük əldə etdi. Çox güman ki, ruslar gözlənilmədən qacarların üzərinə atılmış və onların toparlanmasına imkan verməmişdilər. Çünki rus mənbələrində Qacar dəstəsinin sayının çox olması göstərilir. Rus zabitləri öldürülən və yaralanan Qacar silahlıları haqqında qeyri-real görünən bir rəqəm göstərirlər. Ancaq bildirilir ki, ruslar da bu döyüşdə xeyli itki verdilər – 12 hərbçi öldürülmüş və 47 nəfər isə yaralanmışdı (143). Elə bu rəqəmlərin özü də göstərir ki, tərəflər arasında ciddi döyüş baş verdi. Hər halda bu döyüşdən sonra bir müddət ruslar kiçik dəstələrlə Qacar qoşunlarının üzərinə hücum etməyə cəsarət etmədilər. I dərəcəli kapitan Veselaqa bunu Qacar qoşunlarının meşəlik ərazidə möhkəmləndirilmiş mövqelərə malik olması və belə mövqelərə hücumun təhlükəli olması ilə əlaqələndirirdi (144).

Görünür, Lənkərandakı rus dəstəsinin hətta möhkəmləndirildikdən sonra belə Qacar qoşunlarının öhdəsindən gələ bilməyəcəyini general-leytenant Rtişşev anlayırdı. Elə buna görə idi ki, hələ 1812-ci il oktyabr ayının sonlarında general Rtişşev general Kotlyarevskinin dəstəsinin Lənkəran xanlığına göndərilməsinin məqsədəuyğunluğunu qeyd edirdi. Onun fikrincə, bu yolla Lənkəran xanlığını Qacar qoşunlarından təmizləmək mümkün idi (145).

I dərəcəli kapitan Veselaqa isə ixtiyarında olan qüvvələrlə Lənkərana nəzarəti ələ keçirə bilməyəcəyini general Rtişşevə yazmaqla yenə də ondan əlavə qüvvələr istədi. Veselaqa bildirirdi ki, onun ixtiyarında silah işlətmək gücündə olan 380 nəfər qalmışdır. Bu qüvvə də iki yerə bölünmüşdü. Bir dəstə Lənkərandan çıxan yolları nəzarət altına götürmüşdü, digər dəstə də Qamışavan qalasını qoruyurdu. Veselaqa topların və təcrübəli zabitlərin göndərilməsi barəsində də vəsatət qaldırdı (146).

Qacar qoşunlarının Lənkəran xanlığı ərazisindən sıxışdırılması üçün başqa vasitələrə də əl atıldı. 150 nəfərlik rus piyada dəstəsi ilə müşayiət olunan Mir Mustafa xan Ərkivana yollandı, Ərkivan ətrafındakı kəndlərin əhalisi ilə danışdı, onları Qacar qüvvələrinə itaət etməməyə çağırdı. Onun bu çağırışları öz nəticəsini verdi və Ərkivan ətrafındakı bir sıra kəndlərin əhalisi yenidən Mir Mustafa xana sədaqətli ola biləcəklərini bəyan etdilər. Bu da imkan verdi ki, Lənkəran xanlığının qərb kəndlərinin hesabına xan ailəsinin və rus dəstəsinin ərzaq təchizatını yaxşılaşdırmaq mümkün olsun.

Hər halda Lənkərandakı rus dəstəsinin və Lənkəran xanının fəallaşması xanlıq ərazisindəki Qacar qoşunlarının rəhbərliyinin də təşvişinə səbəb oldu. Mövcud olan məlumatlara görə, xanlıq ərazisindəki Qacar qoşunlarına Hacı Məhəmməd xan rəhbərlik edirdi. Qacar qoşunları tərəfinə keçmiş rus zabitləri podpolkovnik Koçnev və podporuçik Lısenko da Hacı Məhəmməd xana köməklik edirdilər. Rus qoşun dəstəsi fəallaşmağa başlayandan sonra Lənkəran xanlığı ərazisində səpələnmiş Qacar dəstələrinin nümayəndələri Lənkərana toplaşaraq vəziyyəti müzakirə etdilər və sonra da Abbas Mirzəyə məktub göndərdilər ki, Lənkəran xanlığı ərazisinə əlavə qüvvələr yollasın. Abbas Mirzə də bu xahişi qəbul etdi və Hacı Məhəmməd xana məktub göndərdi ki, yaxın zamanlarda Lənkəran xanlığına əlavə kömək göndəriləcəkdir. Rus zabitlərinin sonrakı yazışmalarından aydın olur ki, Abbas Mirzə Lənkəran xanlığına 2500 nəfərlik daha bir dəstə göndərdi. Ona görə I dərəcəli kapitan Veselaqa bir daha general Rtişşev qarşısında Lənkəran xanlığına əlavə rus qüvvələrinin göndərilməsi haqqında məsələ qaldırdı. Veselaqa əlavə qüvvəyə ehtiyacı öz dəstəsinin azsaylı olması ilə əlaqələndirirdi. O

bildirirdi ki, əgər açıq sahədə döyüşmək mümkün olsaydı, Qacar qoşunlarına üstün gələ bilərdi. Hazırkı şəraitdə isə Qacar qüvvələrinin sayı çoxdur və onlar meşə daxilində əlverişli mövqelər tutmuşlar. Bu da onların müqavimətinin qırılmasını mümkünsüz edir (147).

General-leytenant Rtişşev isə Lənkəran xanlığı ətrafında yaranmış vəziyyəti qiymətləndirərək daha ciddi addım atmağı qərarlaşdırdı. O, general Kotlyarevskinin dəstəsinin Lənkərana göndərilməsini və Qacar qüvvələrinin oradan birdəfəlik çıxarılması planının icrasına başlamasını daha məqsədəuyğun saydı. Bununla bağlı, general Rtişşev dekabr ayının 1-də general Kotlyarevskinin ünvanına təlimat imzaladı. General Rtişşev Lənkəran xanlığında yerləşən rus dəstəsinin vəziyyətini və fəaliyyətini müxtəsər olaraq təsvir etməklə, əlavə Qacar dəstələrinin gəlməsindən sonra rus qüvvələrinin vəziyyətinin pisləşəcəyini bildirirdi. Onu da əlavə edirdi ki, havaların soyuması üzündən Lənkərandakı eskadrilyanı geri qaytarmaq lazımdır. Bu isə həm oradakı rus dəstəsinin, həm də bütünlükdə Lənkəran xanlığının Rusiyaya bağlılığını xeyli çətinləşdirə bilərdi. Ona görə də general Kotlyarevskiyə belə bir tapşırıq verilirdi ki, dəstəsi ilə Lənkəran xanlığına hərəkət etsin, oradakı Qacar qoşunlarını ya məhv etsin, ya da xanlıq ərazisindən çıxarsın. Bundan sonra Mir Mustafa xan öz vəzifəsinə bərpa edilsin. Xanlıq ərazisində əməliyyatın necə qurulmasını isə general Rtişşev general Kotlyarevskinin öhdəsinə buraxırdı (148).

Lənkəran xanlığına irimiqyaslı hücumun təşkil edilməsi ərəfəsində general Kotlyarevskinin təşəbbüsü ilə bağlı başqa bir əməliyyatın təşkilinin məqsədəuyğunluğu da araşdırılırdı. Tərəflər arasında sülh danışıqları bir nəticə verməyəndə general Kotlyarevski belə bir təklif irəli sürdü ki, dəstəsi ilə Arazın cənubuna hərəkət etsin, Qacar qoşunlarının toplanış mərkəzinə güclü zərbə vursun və bununla da Qacar sarayı Rusiyanın təklif etdiyi sülh planının qəbuluna məcbur edilsin (149).

General Rtişşevin özündə də bu planın icrasına bir meyllilik var idi. Lakin I dərəcəli kapitan Veselaqanın sonuncu məktubunu alandan və Lənkəran xanlığı ərazisinə əlavə Qacar qüvvələrinin gəlməsi haqqında eşidəndən sonra Lənkəran xanlığının məsələsinin tezliklə Rusiya xeyrinə həll edilməsi qənaətinə gəldi. Ona görə də dərhal general Kotlyarevskiyə təlimat göndərdi. Əslində, Arazın cənubuna qoşun çıxarılması da general Rtişşev üçün maraqlı təklif olaraq qalmaqda idi. Çünki qacarların toplanış mərkəzinə zərbə vurmaqla Rusiya Azərbaycan xanlıqları üzərindəki hakimiyyətlərini xeyli möhkəmlədə bilərdi. Lakin Arazın cənubuna qoşun çıxarılması üçün sərf olunan vaxt ərzində Lənkəran xanlığı

ərazisindəki vəziyyət dəyişə bilərdi. General Kotlyarevskiyə göndərdiyi təlimatdan görünürdü ki, general Rtişşev baş komandana xas olmayan bir tərəddüd içərisində idi. O, Lənkəran xanlığının Qacar qoşunlarından təmizlənməsini istəyirdi və bunun üçün general Kotlyarevskinin dəstəsini Lənkərana göndərməyə meylli idi. Amma eyni zamanda Lənkəran xanlığına qoşun çıxarıb-çıxarmamağı general Rtişşev general Kotlyarevskinin öz seçiminə buraxırdı. General Rtişşev bunu da mümkün sayırdı ki, general Kotlyarevski dəstəsinin bir hissəsini təcrübəli bir zabitin rəhbərliyi altında Lənkəran xanlığına göndərsin. Özü isə dəstənin digər hissəsi ilə Arazın cənubuna yollansın. Amma general Rtişşev general Kotlyarevskinin özünün Lənkəran xanlığına yollanmasını istəyirdi və xahiş edirdi ki, qərarı barədə onu məlumatlandırsın (150).

General Kotlyarevski hər halda Lənkərana doğru irəliləmək haqqında qərar qəbul etdi. Lakin onun dəstəsi Lənkəran istiqamətində hərəkətə təxirlə başladı. Buna da səbəb Mehridə olan rus dəstəsinin geri qayıtmasının gözlənilməsi ilə bağlı idi. Mehridəki dəstə uzaqlığı, hava şəraitinə görə əlaqələrin kəsilməsi ilə bağlı mürəkkəb şəraitdə idi. Ona görə qərara alındı ki, bu dəstə ümumiyyətlə Mehridən çıxarılsın. Dəstə nəhayət ki, geri qayıtmağa müvəffəq olandan sonra general Kotlyarevski bütün dəstəyə yürüşə hazırlıq əmri verdi. Mehridən dönən dəstənin döyüş qabiliyyətli hissəsi də Lənkəran yürüşünə cəlb edildi. 1812-ci il dekabr ayının 17-də Ağoğlan ətrafındakı düşərgədə toplanan general Kotlyarevskinin dəstəsi hərəkətə başladı. Bu dəstənin tərkibində 2 minə yaxın adam var idi: 1500 nəfər nizami qüvvələr idi, 470 nəfər isə kazak. Dəstənin sərəncamında 6 ədəd top da var idi. Dekabr ayının 18-də general Kotlyarevskinin dəstəsi Araz çayını adladı və Muğan düzünə daxil oldu. Ətrafda mövcud olan qalın qar rus dəstəsinin irəliləməsini çətinləşdirsə də, ayın 19-da 80 verst yol getmək mümkün oldu. Ayın 20-də dəstə yoluna davam etdi və ayın 21-də Lənkəran xanlığının ərazisinə daxil oldu. Bildirilir ki, Kotlyarevskinin dəstəsi Lənkərana doğru hərəkəti zamanı Lənkərandakı Qacar qoşunlarının daha da gücləndirilməsi üçün göndərilmiş dəstə ilə qarşılaşdı. Bu dəstəyə Pirqulu xan rəhbərlik edirdi. Lakin tərəflərin heç biri bu qarşılaşma zamanı döyüşə girməyi məqsədəuyğun saymadı. Ona görə də tərəflər sakitcə bir-birindən aralandılar (151).

Dekabr ayının 22-də general Kotlyarevski Lənkərana doğru hərəkətini davam etdirdi. Rus mənbələrinə görə, general Kotlyarevskinin dəstəsi Ərkivana yaxınlaşanda oradakı Qacar qüvvələri döyüşə girmədən qalanı tərk etdilər. Bildirilir ki, Ərkivan qalası ingilis zabitlərinin rəhbərliyi altında yenidən qurularkən onun ətrafına xəndəklər də çəkilmiş

və bununla da kifayət qədər möhkəmləndirilmişdi. Ruslar özləri də etiraf edirdilər ki, şah qoşunları Ərkivan qalasında müqavimət göstərsəydilər, ruslara xeyli itki yetirilə bilərdi və qalanı almaq ruslar üçün çətinləşərdi. Qacar dəstəsi isə bunu etmədi. Bildirilir ki, Ərkivan qalasını 1500 nəfərlik Qacar dəstəsi və qacarların tərəfinə keçmiş 400 nəfərlik fəraridən ibarət bir qüvvə qoruyurdu. Həmin qüvvələrə Baba xanla Əsgər xan rəhbərlik edirdilər. Qacar dəstəsi Ərkivandan elə tələsik çəkilməli oldu ki, bu dəstəyə məxsus olan 2 ədəd top, top mərmiləri, barıt, güllə, qurğuşun və digər əşyalar rusların əlinə keçdi (152).

Rus mənbələrində qacarlar tərəfində rus fərarilərindən ibarət dəstənin olması haqqında ətraflı məlumat mövcud deyil. Həmin dəstənin mövcudluğuna aydınlıq gətirilməsə də, çox güman ki, onlar fərari ruslar deyil, Syltanbud döyüşündə əsir edilmiş hərbçilər idi. Onların sayı kifayət qədər çox idi. Bu əsir ruslar sonradan Arazın cənubuna aparıldılar və orada müsəlmanlaşdırıldılar. Həmin hərbçilərdən ayrıca bir alay təşkil edildi və həmin alaya "yeni müsəlman" adı verildi. Ərkivan qalasının müdafiəsində iştirak etməklə bərabər, sonradan bu alay Lənkəran qalasının rus qoşunlarından qorunmasında da iştirak etdi (153).

Ərkivan qalasından qaçan Qacar qüvvələrinin arxasınca rus dəstəsi göndərildi. 400 nəfərlik piyada və 300 nəfər kazakdan ibarət olan həmin dəstəyə podpolkovnik Uşakov rəhbərlik edirdi. Rus mənbələrinə görə, rus dəstəsi Qacar qüvvələrini haqlayıb onlara güclü zərbə vurdu, öldürülənlərin sayı rus mənbələrində 300 nəfər göstərilir. Sonradan məlum oldu ki, ruslar doğrudan da bu qədər adam öldürüblər. Lakin onların öldürdükləri Qacar sərbazları deyil, xəstə Qacar sərbazları və onları müşayiət edənlər olmuşlar (bu barədə aşağıda danışılacaq). Bundan əlavə bildirilir ki, qacarlar tərəfində vuruşan ruslardan 52 nəfər əsir götürüldü, 600 baş at ələ keçirildi. Rus dəstəsindən isə bir nəfərin öldürülməsi və 5 nəfərin də yaralanması haqqında məlumat verilirdi. Ərkivan qalası ələ keçirilməndən sonra orada mayor Dyaçkovun rəhbərliyi altında 1 ədəd topa malik 100 nəfərlik bölmə saxlanıldı. Bundan sonra general Kotlyarevski Lənkərana doğru hərəkətini davam etdirdi (154).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqar da Əhməd xan Kaşaninin Ərkivan qalası ətrafında öldürüldüyünü bildirir. Sonra da əlavə edir ki, Ərkivan qalası daxilində olan Qacar qüvvələri və qala əhalisi Aslandüzdə baş vermiş hadisənin oxşarı ilə qarşılaşmamaq üçün könüllü şəkildə qalanı təhvil verməyi qərara aldılar (155).

Ərkivan qalası alınandan sonra general Kotlyarevski yerli əhaliyə müraciət etdi, ruslar tərəfindən onların incidilməyəcəyini bildirdi və Qacar qüvvələrinə müqavimət göstərilməsi üçün əhaliyə çağırış etdi.

Eyni zamanda Qacar qüvvələri ilə əməkdaşlıq etmək məcburiyyətində olanların bağışlanacağı bəyan edildi. Rus tarixçilərinin yazdıqlarına görə, bu müraciət əhali tərəfindən yaxşı qarşılandı və onların arasında Qacar qüvvələrinə qarşı mübarizə aparmaq istəyənlərin sayı çoxaldı (156).

General Kotlyarevskinin dəstəsi dekabr ayının 25-də Lənkəran yaxınlığında olan Qumbaşı adlı məntəqəyə çatdı. Burada general Kotlyarevski Lənkəran xanı Mir Mustafa xan və onun yaxınları tərəfindən sevinclə qarşılandı (157). Belə bir dəstənin Lənkərana gəlməsini Mir Mustafa xan çoxdan arzulayırdı və güman edirdi ki, bu bir dəstənin gəlişi ilə xanlığın müstəqilliyini də qoruya biləcəkdir.

Dekabr ayının 25-də general Kotlyarevski I dərəcəli kapitan Veselaqanın rəhbərliyi altında olan rus qarnizonu ilə birləşdi. Sabahı gün isə, yəni dekabrın 26-da Lənkəran qalası rus qoşunları tərəfindən mühasirəyə alındı. Dekabrın 27-dən qalanın top atəşinə tutulması başlandı. Rus mənbələrinə görə, möhkəmləndirilmiş Lənkəran qalasını 4 min nəfərlik Qacar dəstəsi qoruyurdu. Qala daxilindəki Qacar qüvvələrinə Sadıq xanın rəhbərlik etdiyi bildirilir. Farsdilli tarixi ədəbiyyatda Lənkəran qalası daxilində 2 min nəfərlik Qacar dəstəsi və 2 min də yerli əhalinin olduğu bildirilir (158).

Rus mənbələrinə görə, Abbas Mirzə Lənkəran qalasının komendantı Sadıq xana məktub göndərdi və onu geri çəkilməməyə, son damla qanına qədər qalanı qorumağa çağırdı (159). Həm rusdilli mənbələrdə, həm də farsdilli mənbələrdə Sadıq xan Əzadanlı igid döyüşçü kimi təqdim olunmuşdur. Mənbələrdə Sadıq xan Əzadanlıdan başqa Qacar qoşunları tərəfindən ruslara qarşı igidliklə vuruşan Məhəmməd bəy Qacarın, Cəfərəli xanın, Mehdi xanın, Həsən xan Bestaminin və digərlərinin də adları çəkilmişdir (160).

Dekabr ayının 27-də, Lənkəran qalasının bombalanmasına başlanan günü general Kotlyarevski qala komendantı Sadıq xana məktub göndərdi və onu qalanı könüllü şəkildə təhvil verməyə çağırdı. General Kotlyarevski yazırdı ki, rus qoşunlarının iradəsinə əsasən Talış əyalətini (Lənkəran xanlığını) farsların əlindən azad etmək üçün gəlmişdir və ona görə də Lənkəranı almalıdır. Rus generalına görə, Sadıq xan igid və zəkalı bir rəhbər idi. Bununla belə, onun müqavimət göstərməsi mənasız sayılırdı. Bildirilirdi ki, Sadıq xan nə qədər yaxşı sərkərdə olsa belə, Abbas Mirzədən yaxşı sərkərdə ola bilməz və Sadıq xan qüvvələri də Abbas Mirzənin qoşunlarından çox deyil. General Kotlyarevski sonra yazırdı ki Abbas Mirzəni Aslandüzdə məğlub edən Rusiya qoşunları indi Lənkəran ətrafındadırlar. Lənkəran xanlığı ərazisində rus qoşun bölmələri də bu qoşunlara qoşulmuşlar. Məktubda daha sonra deyilirdi

ki, Fətəli şah özü rus qoşunlarının qarşısında dayana bilmədiyi halda Sadıq xanın dəstəsinin bunu etməyə gücü çatmaz. Mənasız qanın axıdılmasının qarşısının alınması üçün qalanın təhvil verilməsi təklif edilirdi. Sadıq xan insanların həyatının qorunmasına çağırılırdı və onun nəzərinə çatdırılırdı ki, təslim olmasa hər şeyini itirəcəkdir. Sadıq xandan cavab alınması üçün üç saat möhlət verilirdi. Bu vaxt bitəndən sonra bütün toplardan atəş davam etdirilməli idi (161).

Sadıq xan general Kotlyarevskinin təslim olmaq məktubuna cavab yazdı və ona özünün sərt mövqeyini bildirdi. O, general Kotlyarevskinin Lənkəran xanlığını qacarların əlindən xilas etməyə gəlməsi barəsində yazdığı sözlərə istehza ilə yanaşdı və onu yalan danışmaqda ittihamlandırdı. Sadıq xana görə, ruslar xanlıq əhalisinə zülm vermək üçün gəlmişdilər. Mir Mustafa xan sağ olduqca ruslar onu müdafiə edəcəklər. Amma o, dünyasını dəyişəndən sonra Lənkəran xanlığının müstəqil qalacağına Sadıq xan inanmırdı. Onun fikrincə, Mir Mustafa xan öz mövqeyi ilə artıq varislərinin gələcəkdə bədbəxt qula çevrilməsinin əsasını qoymuşdu. Sadıq xan Lənkəran xanını eqoist, ağılsız, sabahı görə bilməyən, hakimiyyət ehtiraslarını təmin etməyə çalışan, nəsillərinin gələcəyi haqqında düşünməyi bacarmayan bir şəxs kimi xarakterizə edirdi. Məktubda təəssüflə qeyd olunurdu ki, Mustafa xan öz vətəninin gələcəyini dinsiz gəlmələrə, təcavüzkarlara tapşırmış və bununla xalqını da aciz itaətkarlara çevirmişdir. Sadıq xana görə, həlak olmuş insanların əzabları əbədi lənət kimi Mir Mustafa xanın boynunda qalacaqdır (162).

Məktubda deyilirdi ki, ruslar Lənkəran xanlığını qacarların əlindən azad etmək üçün yox, başqa torpaqlar hesabına öz ərazilərini genişləndirmək məqsədilə gəlmişlər. Bir neçə cümlə ilə Sadıq xan Rusiyanın işğalçılıq siyasətinin mahiyyətini çox dəqiqliklə açа bilmişdi. O yazırdı – doğrudanmı siz dünyanın böyük dövlətlərindən birində darısqallıqda yaşayırsınız və ona görə də genişlik axtarırsınız? Sonsuz tamahkarlıqları ilə tanınan rus imperatorları bütün gücsüz çarlıqları öz hakimiyyətinə tabe etməyi qarşılarına məqsəd qoymuşdur. Xüsusilə də, müharibə aparılmasına hazır olmayan müsəlman hakimiyyətlərini. 2 min verst sizdən aralı yaşayan və sizə yad olan insanların azad edilməsindənsə, sizin mülkədarların buxovu və zülmü altında olan öz kəndlilərinizi azad etməniz daha yaxşı olmazmı? (163).

General Kotlyarevski Sadıq xana göndərdiyi məktubunda mənasız insan qanı axıdılmaması üçün qalanın könüllü şəkildə təhvil verilməsini Allah və insanlıq qarşısında doğru əməl olduğunu yazırdı. Sadıq xan isə cavab məktubunda general Kotlyarevskinin bu təklifinə öz münasibətini

bildirirdi. Sadıq xana görə, ruslar Allaha inanmırdılar və insanlığı da sevmirdilər. Əgər belə olmasaydı onlar öz əsgərlərini mənasız müharibəyə aparıb onların qırılmasına səbəb olmaz, onların arvad-uşaqlarına rəhm edər, onlara öz vətənlərində dinc yaşamağa imkan verərdilər. Mənasız qanlar axıdılmasının ilk səbəbkarı da ruslar sayılırdı. Sadıq xan bəyan edirdi ki, ruslar öz vətənlərinin sonsuz böyüklüyünə baxmayaraq, soyğunçular kimi müsəlman xanlıqlarına soxulub buranın əhalisini qəddarcasına məhv edirlər, yerli əhalini müqavimət göstərməyə məcbur edirdilər və yerli xalqlar da çalışırlar ki, öz müstəqilliklərini əldən verməsin, öz iradələrini və azadlıqlarını qoruyub saxlasınlar. Sadıq xana görə, onlar ruslarla müharibə etmirlər, yalnız müdafiə olunurlar və əlavə edirdi ki, ruslar vəhşi heyvanlar kimi hücum edirlər və bildirirdi ki, biz bütünlüklə qırılsaq belə, qalanı könüllü şəkildə təhvil verməyəcəyik (164).

General Kotlyarevskinin 2 minlik dəstəsi ilə Aslandüzdə Abbas Mirzənin 30 minlik qoşununa qalib gəlməsi iddiası ilə də Sadıq xan razılaşmırdı. O yazırdı ki, rus generalı bu döyüş haqqında həqiqəti deməyə cəsarət etmir. Çünki həmin döyüş Qacar qoşunlarının müəyyən hissələrinin xəyanəti nəticəsində uğursuzluğa düçar olub və ona görə də rus generalının özünü tərifləməsini o, yersiz sayırdı. Sadıq xana görə, Abbas Mirzənin ciddi tələbkarlığı ilə barışa bilməyən 10500 sərbaz ağ bayraq qaldıraraq könüllü şəkildə Aslandüzə hücum edən ruslara təslim oldular. Onlar güman edirdilər ki, təslim olmaları əvəzində rusların mərhəməti ilə qarşılaşacaqlar. Sadıq xana görə, ruslar bu mərhəməti və humanistliyi göstərmədilər və təslim olan 10 min sərbazı məhv etdilər, yalnız 500 nəfəri sağ saxlayaraq əsir götürdülər. Sadıq xan bu əməli şərəfsizlik kimi qiymətləndirirdi və şübhə etmirdi ki, rusların bu əməlindən sonra sərbazlar artıq etibar edib ruslara təslim olmazlar. Sadıq xan məktubunda rus əsgərlərinə yazığı gəldiyini bildirirdi. Çünki onun sözlərinə görə, soyğunçu planların həyata keçirilməsi üçün rus əsgərləri rus generallarının əlində alətə çevrilmişdilər. Rus əsgərlərinin əldə etdiyi qənimətlərin faydasını yalnız rus generalları görürdülər və əsgərlər bundan məhrum idilər (165).

Ərkivan qalası ətrafında baş verən döyüşün nəticələrini də Sadıq xan rus humanistliyinin mahiyyətinin başqa bir təzahürü sayırdı. Onun yazdıqlarından aydın olur ki, o da Ərkivan qalasındakı Qacar qarnizonunun tərkibində olmuşdur. Sadıq xan və onun ətrafındakılar məqsədyönlü şəkildə rus qüvvələrinə müqavimət göstərməkdən əl çəkmişdilər. Çünki qaladakı sərbazların çoxu xəstə idi və onlar döyüş qabiliyyətində deyildilər. Ruslarla döyüşün başlanması xəstə sərbazların


əsir götürülməsi təhlükəsini artıra bilərdi. Ona görə də Qacar dəstəsi rus qüvvələri yetişməmiş Ərkivan qalasını tərk etməyi və Lənkəran qalasına üz tutmağı qərarlaşdırdılar. Sadıq xanın yazdığından aydın olur ki, Lənkərana doğru hərəkət edərkən qarşıda qoşun bölmələri, arxada isə xəstələr və onların müşayiətçiləri hərəkət edirdilər. Arxada hərəkət edən 350 nəfərlik dəstənin 260 nəfəri xəstə sərbazlar, 50 nəfəri fərari ruslar və 40 nəfəri də mehtərlər idilər. Podpolkovnik Uşakovun rəhbərliyi altında təqib üçün göndərilən dəstə də qacarların arxada qalan hissəsinə yetişmiş, 300 nəfər xəstə sərbazı və mehtərləri müsəlman olduqları üçün qılıncla yerindəcə doğramış, 50 nəfər rusu isə rus olduqları üçün öldürmədən əsir etmişdilər. Xəstələrin və əsirlərin öldürülməsini Sadıq xan vəhşilik kimi dəyərləndirirdi və belə bir vəhşiliyə yalnız rusların qadir olduğunu vurğulayırdı. Sadıq xan qılınc qaldıranın qılıncla da öldürüləcəyini bildirir və yazırdı ki, bir gün rus əsgərləri özləri qiyam qaldıraraq qonşu dövlətlər üzərinə həyata keçirdikləri zülmə görə rus generallarını və rus çarını qətlə yetirəcəklər (166).

Sadıq xan Əzadanlı general Kotylarevskiyə göndərdiyi məktubunda rus qoşunlarının müəyyən uğurlar qazanmasının səbəbinə də toxunurdu. Onun fikrincə, keçmiş xanlar huşyarlıq və biri-digəri ilə həmrəylik nümayiş etdirə bilsəydilər və öz şəxsi maraqları arxasınca qaçmasaydılar, onda haqlı olduqlarını sübut edə bilərdilər. Sadıq xan şübhə etmirdi ki, həmin xanlar özlərinin düşünülməmiş səhvlərinə görə peşman olacaqlar.

Qacar tayfasının nümayəndəsi olan Sadıq xan Əzadanlı general Kotlyarevskinin "qan axıdılmasının qarşısını almaq" təklifinə verdiyi məsləhətlə məktubunu bitirirdi. Sadıq xan rus generalına cavab verirdi ki, öz əsgərlərinizə yazığınız gəlsin, bizi müqavimət göstərməyə məcbur etməyin, qərəzli və zalım gəlmələr kimi haradan gəlmişsinizsə ora da geri qayıdın. Sadıq xan qətiyyətlə bəyan edirdi ki, inadla və amansızcasına müdafiə olunacağıq, əcdadlarımızın torpaqları naminə, gələcək nəsillərimizin rifahı naminə sizinlə ölənə qədər vuruşacağıq (167).

Sadıq xanın general Kotlyarevskiyə göndərdiyi məktubunda həm Aslandüz döyüşünün nəticələri, həm də Ərkivan qalası ətrafında baş verən hadisələrlə bağlı maraqlı məqamlar vardır. Məktubdan görünür ki, Ərkivan qalası ətrafında baş verən döyüş heç də rus mənbələrinin yazdığı kimi cərəyan etməmişdir və podpolkovnik Uşakov da əslində Qacar dəstəsinin əsas qüvvələri ilə deyil, bu dəstənin xəstələri və yaralıları ilə vuruşmuş və ona görə də Qacar dəstəsinə böyük itki verə bilmişdi. Aslandüz ətrafında 10 min nəfərlik Qacar dəstəsinin təslim olması və sonra da onların qırılması haqqındakı Sadıq xanın məlumatı da müəyyən maraq kəsb edə bilər. Çünki onun söylədiyi bu məlumata rus mənbə-

lərində və hazırkı araşdırma üçün istifadə edilən farsdilli mənbələrdə və tarixi ədəbiyyatda rast gəlmək mümkün deyil.



Lənkəran qalasının yerləşməsi və rus qoşunları tərəfindən mühasirə edilməsi planı

Beləliklə, general Kotlyarevskinin Lənkəran qalasını döyüşsüz almaq cəhdi heç bir nəticə vermədi və belə olanda qalanın top atəşinə tutulması üçün əmr verildi. Qalaya top atəşlərinin gücləndirilməsi üçün general Kotlyarevskinin tapşırığı əsasında gəmilərdən 3 pudluq mortir də gətirildi. Ruslar ümid edirdilər ki, top atəşləri ilə qala divarlarını dağıdıb qala daxilinə nüfuz etmək mümkün olacaqdır. İki gün ərzində toplar dayanmadan qala divarlarını atəşə tutdular. Lakin top mərmiləri möhkəm qala divarlarının dağıda bilmədilər. Qala daxilinə atılan mərmilərdən isə qala müdafiəçiləri lazımınca müdafiə olunurdular. Belə olanda dekabrın 29-da general Kotlyarevski bir də Sadıq xana məktub göndərdi və növbəti dəfə onu qalanı təhvil verməyə razı salmaq istədi. Rus generalı yazırdı ki, Aslandüzdə Abbas Mirzə qoşunlarını məğlub edən bütün qoşunlar burada toplaşmışlar. Bundan əlavə, Lənkəran xanlığı ərazisində olan rus qoşunları da bura gəlmişdir. General Kotlyarevski Sadıq xanın nəzərinə çatdırırdı ki, nə qədər igid olsanız belə buradakı qüvvələrin qarşısını almağa gücünüz çatmaz. Onun yazdığına görə, rus əsgərlərinin arvadı, uşağı, qohumları yox idi və onlar bütünlüklə imperatorun xidmətində idilər və qələbənin əldə edilməsi üçün həyatlarını verməyə hazır idilər. Sonra isə əlavə edirdi ki, sizin hər birinizin arvadı, uşağı var, həm özünüzü qurban verirsiniz, həm də onları. General Kotlyarevski əlavə edirdi ki, öz vəziyyətiniz haqqında düşünün, bilin ki, Ərkivan ətrafında qoşununuz yoxdur, Qacar qoşunları Lənkəran xanlığı ərazisindən çıxarılmışdır, Abbas Mirzə özü də məğlubiyyətə düçar olub və sizə kömək göstərmək iqtidarında deyil. Rus generalı məktubunu onunla bitirirdi ki, Lənkəran qalası ətrafından geri çəkilən deyil. O bəyan edirdi ki, ya öləcək, ya da Lənkəranı alacaq. Qala müdafiəçilərinə fikirləşmək üçün yenidən 3 saat vaxt verildi. Həmin vaxt ərzində cavab alınmazdısa hücum yenidən davam etdirilməli idi (168).

Cavab isə verilmədi. Sadıq xan general Kotlyarevskinin növbəti məktubuna cavab verməyə ehtiyac duymadı və bütün qala müdafiəçilərini ruslara qarşı son nəfəsədək vuruşmağa səslədi. Bununla bağlı o, tələb etdi ki, qoşun rəhbərləri və sərbazlar öz mövqelərində olmaqla düşmənə qarşı müqavimət göstərməyi davam etdirsinlər, qalanı qorumaq üçün canlarını da əsirgəməsinlər. Sadıq xanın fikrincə, onlar qalanı etibarlı şəkildə öz əllərində saxlamalı və bununla da düşmənə sübut etməli idilər ki, müdafiə olunmağı bacarırlar. Sadıq xan qala müdafiəçilərini xəbərdar etdi ki, düşmənlər qalanı alsalar heç kəsə rəhm etməyəcəklər və heç kəsi sağ buraxmayacaqlar. Ona görə də o, hamını şərəfli ölümə çağırdı (169).

Sadıq xanın yenidən qalanı təhvil verməyə razı olmaması rusların vəziyyətini bir daha çətinləşdirdi. Çünki bir tərəfdən soyuq hava rus qoşunlarına sonsuz narahatlıq yaradırdı, digər tərəfdən də top mərmilərinin qıtlığının yaranması rusların vəziyyətini mürəkkəbləşdirirdi. Başqa sözlə, qalanın mühasirəsini uzun müddət davam etdirmək imkanı yox idi. Digər tərəfdən məlumat alınmışdı ki, Abbas Mirzə də Lənkəran qalasındakı dəstəyə kömək göstərmək niyyətindədir (170).

Abbas Mirzə doğrudan da Lənkəran qalasının daxilində qalmış dəstəyə kömək göstərmək üçün Təbrizdən hərəkətə başladı. Qalanın müdafiəsi uzansaydı onun dəstəsi Lənkərana yetişə bilərdi. Lakin Abbas Mirzə Meşkinə yetişəndə Lənkəran qalasının ruslar tərəfindən işğal edilməsi haqqında məlumat aldı (171).

General Kotlyarevskinin həlledici hücuma başlamaqdan başqa çarəsi yox idi. Əks təqdirdə məğlub olmaqla bərabər, dəstə digər problemlərlə də qarşılaşa bilərdi.

Lənkəran qalasının daxilində müdafiə olunan Qacar dəstəsi də müəyyən çətinliklərlə qarşılaşmışdı. Əvvəla, qaladan çəkilmək imkanı yox idi. General Kotlyarevskinin təklifi qəbul edilmədiyi üçün qaladakılar ya ruslara üstün gəlməli idilər, ya da döyüşdə canlarını verməli idilər. Digər tərəfdən qala daxilindəkilərin də sursatı və təchizatı tükənmək üzrə idi. Rus qoşunlarının Lənkəran üzərinə hücumu başlayan ərəfədə Qacar qoşunlarındakı ingilis zabitləri ruslara qarşı döyüşməkdən imtina edib geri çəkilmişdilər. Bu da Qacar dəstələrinin döyüş qabiliyyətinə öz təsirini göstərirdi.

General Kotlyarevski top atəşləri ilə qala divarlarının dağıdılmasının çətin olduğunu görüncə piyadaların divarlar üzərinə hücumunun təşkili fikrinə düşdü. Bunun üçün o, Mir Mustafa xandan çoxlu sayda uzun ölçülü nərdivanların hazırlanmasını xahiş etdi. Mir Mustafa xanın göstərişi əsasında Lənkəranın ətrafındakı meşələrdə çoxlu sayda nərdivan hazırlandı və rus dəstəsinin ixtiyarına verildi (172). General Kotlyarevskinin planına əsasən ruslar bu nərdivanlarla Lənkəran qalasının divarlarını aşıb qala daxilinə yol açmalı idilər.

1812-ci il dekabr ayının 30-da general Kotlyarevski Lənkəran qalasının üzərinə hücum əmri imzaladı. Əmrdə deyilirdi ki qalanın təhvil verilməsinə qarşı tərəfi məcbur etmək üçün bütün vasitələrdən istifadə edildiyinə və qarşı tərəfin qalanı təhvil verməyə meylli olmadığına görə, onun həmlə ilə rus silahına tabe etdirilməsindən başqa bir yolu qalmamışdır. Rus generalı bu son vasitəyə əl atmaq qərarına gəldiyini qoşunlara bildirir və bütün zabitlərə və əsgərlərə çatdırırdı ki, geri

çəkilmək yolverilməzdir. O bəyan edirdi ki, biz gərək ya qalanı alaq, ya da ölək, başqa yol yoxdur.

.



Rus qoşunlarının Lənkəran qalası üzərinə hücumu

Əmrdə daha sonra bildirilirdi ki, qarşı tərəfə 2 dəfə qalanın təhvil verilməsi təklif olunmuşdur. Lakin qarşı tərəf inadkarlıq göstərir. Kotlya-

revskiyə görə, igid əsgərlər gərək qarşı tərəfə sübut etsinlər ki, rus süngüsünün qarşısında heç nə dayana bilməz. Onun yazdığına görə, ruslar yalnız belə qalaları almayıblar. Beləliklə ruslar üçün heç nədir. General hamıdan aşağıdakıları tələb edirdi: birinci – itaət; ikincisi yadda saxlamaq ki, həmləyə nə qədər tez başlansa və nərdivanlara nə qədər tez dırmaşmaq mümkün olsa itkilər o qədər az olacaq. General əlavə edirdi ki, təcrübəli əsgərlər bunu bilirlər, təcrübəsizlər isə inanacaqlar. Onun üçüncü tələbi isə belə idi ki, həmlə bütünlüklə başa çatmamış kimsə ölüm təhlükəsi altında qənimət arxasınca getməsin. Çünki iş başa çatmamış əsgərləri qənimət üstündə öldürə bilərlər. Sonra general Kotlyarevski həmlədə iştirak edəcək hissələri adlarını sadalayır və əminliyini bildirirdi ki, bu hissələrin döyüşçüləri özlərini göstərəcəklər. Rus generalı əmrinin sonunda onu da bildirirdi ki, gözlənilənlərin əksinə olaraq kimsə qorxaqlıq edərsə, o, xain kimi cəzalandırılacaqdır, qorxaqlar dərəcəsindən asılı olmayaraq ya güllələnəcək, ya da asılacaqdır (173).

Lənkəran qalası üzərinə hücumda iştirak etməli olan qüvvələr qarşıya qoyulan tapşırıqlara uyğun olaraq qruplaşdırıldı və general Kotıyarevskinin əmri ilə rəsmiləşdirildi. Hücumun həyata keçirilməsi üçün 3 sütun təşkil edildi. Birinci sütunu polkovnik Uşakovun rəhbərliyi altında olan Gürcüstan qrenadyor alayının 6 bölüyü təşkil edirdi. İkinci sütuna Troitski alayının 350 nəfərlik qüvvəsi daxil idi. Üçüncü sütunda isə 17-ci yeger alayının 313 nəfəri və 37 nəfər qrenadyor var idi. Bu sütun mayor Tereşkoviçin rəhbərliyi altında irəli getməli idi. Səhərə yaxın saat 5-də sütunlar təyin olunmuş məntəqədən qalaya doğru hərəkətə başlamalı idilər. Sütunların qarşısında tüfəngçilərin irəliləməsi nəzərdə tutulmuşdu. Qarşı tərəfdən atəş açılmayacağı təqdirdə rus tüfəngçiləri də atəş açmamalı idilər. Onlar sakitcə və mümkün sürətlə qalaya yaxınlaşmalı idilər. Sütunlar isə divarlara yaxınlaşan kimi nərdivanlardan istifadə etməklə divarların üzərinə qalxmağa çalışmalı idilər. Birinci sütun Qamışavan tərəfə baxan divara və onun üzərindəki batareyaya həmlə etməli idi. Üçüncü sütun mayor Tereşkoviçin rəhbərliyi altında dənizə baxan batareyaya və onun sağında olan divar üzərinə həmlə etməli idi. Sütunlar qala batareyalarını ələ keçirən kimi oradakı topların səmtini qala daxilinə çevirərək atmağa başlamalı idilər. Eyni zamanda qala divarları üzərinə qalxan ruslar oranı qala döyüşçülərindən təmizləməli idilər. Birinci sütun qala darvazalarını tezliklə ələ keçirərək açmalı və ehtiyat qüvvələrin qala daxilinə buraxılmasını təmin etməli idi. Gürcü qrenadyor alayı iki dəstəyə bölünərək cinahlardan yalançı hücum görüntüsü yaratmaq üçün istifadə olunmalı idi. Təbilçilər sütunların hərəkəti zamanı sakit dayanmalı və döyüşçülər qala divarları üzərinə dırmaşmamış "ura"

qışqırmalı deyildilər. Bütün batareyalar və divarlar ələ keçiriləndən sonra da əmr olmadan qala daxilinə enmək olmazdı. Amma qala divarları alınan kimi divarlar üzərindən qala daxilindəkilər atəşə tutulmalı idilər. General Kotlyarevski xəbərdarlıq edirdi ki, qala bütünlüklə ələ keçirilmədən təbillər vasitəsilə döyüşün dayandırılmasına işarə olmayacaqdır və belə bir işarə olsa belə onun doğruluğu qəbul edilməməli idi. General Kotlyarevski onu da çatdırırdı ki, sütunların hansı nərdivanlarla qala üzərinə qalxmaq istəməsə, həmin sütunun döyüşçüləri arxadan güllələnəcəklər (174).

Qeyd etmək lazımdır ki, Lənkəran ətrafına gətirilmiş olan Xəzər dəniz taborunun bölmələri də hücumda iştirak edirdilər. Onlar 2-ci sütunda idilər və general Kotlyarevskinin əmrində dəniz taborunun bölmələri də Troitski alayının qüvvələri kimi göstərilmişdir. "Əxbarnamə" əsərində Lənkıran qalası üzərinə hücum ərəfəsində general Kotlyarevski ilə Mir Mustafa xan arasında bir dialoqun mətni verilmişdir. General Kotlyarevski öz təkəbbürünü nişan verərək Mir Mustafa xana belə deyir: " Bu gecə qalanı tutacağam". Müəllifin yazdığına görə, onlar Azərbaycan türkcəsində danışırlarmış və farsca yazılmış "Əxbarnamə" də bu dialoq Azərbaycan türkcəsində verilmişdir. Mir Mustafa xan da rus generalının arxayınçılığı qarşısında Allah qoysa" cavabı verir. General Kotlyarevski də bəyan edir ki, "Allah qoysa da tutacağam, qoymasa da tutacağam". Əsərdə dialoq sonra farsca davam etdirilir. General Kotlyarevski yenə özünə xas hikkəsi ilə Mir Musrafa xana bildirir ki, mənim sizə ehtiyacım yoxdur, adamlarınızla gedin və uzaqdan tamaşa edin (175).

General-leytenant Rtişşev Rusiya imperatoruna göndərdiyi məruzəsində Lənkəran qalası üzərinə hücumun dekabrın 31-dən yanvarın 1-nə keçən gecə başladığını bildirirdi (176). Baxmayaraq ki, bəzi tarixi ədəbiyyatda bu hücumun dekabrın 30-dan 31- nə keçən gecə başlaması haqqında da məlumata rast gəlmək mümkündür. Qəməri tarixi ilə isə Lənkəran qalası üzərinə hücum 1227-ci ilin aşura günü baş verdi. Ona görə də Mirzə Məhəmməd Sadıq Vəqayeneqar yazırdı ki, həmin gün Lənkəran qalasında islamla küfr bir-birinə qarışdı (177).

Hücum səhərə yaxın, saat 5-də başladı. General Kotlyarevskinin əmrinə uyğun olaraq sütunlar bir-birinin ardınca qalaya doğru hərəkətə başladılar. Sütunların önündə tüfənglərlə silahlanmış əsgərlər gedirdilər. Ruslar səssiz hərəkət etməklə qalaya yaxınlaşmaq istəyində olsalar da buna imkan tapmadılar. Çox güman ki, rusların bütün hərəkətləri qaladakıların müşahidəsi güman ki, rusların bütün hərəkətləri qaladakıların müşahidəsi altında saxlanılırdı. Ona görə də rusların irəliləməyə başlaması qaladakılar tərəfindən müşahidə olundu və dərhal da ruslar

atəş altına alındılar. Qala müdafiəçilərinin belə sayıqlığı rus sütunlarının işini xeyli çətinləşdirdi. Mənbələrin məlumatına görə, rus sütunları 3 saat qaladakıların atəşləri altında qaldılar. Rus generalları da etiraf edirdilər ki, rusların divara dırmanmaq cəhdləri qaladakıların güclü müqaviməti ilə rastlaşır və nəticədə ruslar arasında itkilər artırdı. Ölənlər arasında çoxlu sayda rus zabitləri də var idi. Birinci sütunun rəhbəri polkovnik Uşakov da ilk öldürülənlər arasında idi. Onun öldürülməsi ilə birinci sütun da irəli hərəkət etməkdən dayandı. Qala müdafiəçilərinin fədakar müqaviməti birinci sütunun qüvvələrinin iradəsini qırdı. Bu sütunda baş verənlərin digər sütunlara təsirinin qarşısını almaq üçün, o cümlədən elə 1-ci sütunun bölmələrini yenidən döyüşə qaldırmaq üçün general Kotlyarevski özünü sütuna yetirdi və sütunu irəli aparmağa cəhd göstərdi. General Kotlyarevski də bir neçə güllə yarası aldı və yerə yıxılıb hərəkətsiz qaldı. General Kotlyarevskinin son gücü ilə döyüşə çağırış sədasından sonra gürcü qrenadyor alayının mayoru Abxazov 1-ci sütunun bir bölüyü ilə divara dırmaşaraq qaladakıların batareyasını ələ keçirə bildi. Dərhal da orada olan topların səmti dəyişdirildi və qala daxilindəkilər atəşə tutuldular. Bu isə digər sütunlara imkan verdi ki, qala divarları üzərinə dırmaşsınlar. Baxmayaraq ki, bu onlara heç də asanlıqla başa gəlmədi. Qala divarları üzərində və qala daxilində qarşıdurma əlbəyaxa süngü davasına çevrildi. Hər iki tərəf üstünlük əldə etmək üçün bütün güclərini ortaya qoydular. Kifayət qədər əzmkarlıqla döyüşən Qacar sərbazları 3-cü sütunun rəhbəri mayor Tereşkoviçi də ölümcül yaraladılar və bir neçə gündən sonra o, dünyasını dəyişdi. General Kotlyarevski isə yaralanmaqla döyüş qabiliyyətini itirdi və onu bir də döyüşdən sonra öldürülən hərbçilər arasında tapmaq mümkün oldu. Qala daxilindəkilər ruslara çoxlu sayda itki yetirməyə müvəffəq olsalar da, onların qarşısını saxlaya bilmədilər. Qacar dəstəsi özü də çoxlu itki verərək qala ilə vidalaşmalı oldu (178).

2 saat davam edən qanlı döyüşdən (179) sonra qala daxilindəkilərdən bir miqdar sərbaz divar üzərindən özlərini Lənkəran çayına ataraq xilas olmağa cəhd göstərdilər. Qacarların bu istiqamətdən geriyə çəkilməsinin qarşısının alınması üçün çayın hər iki tərəfinə ruslar yerləşdirilmişdilər. Onların top və tüfənglərdən atdığı atəş sərbazların çoxunun həyatı bahasına başa gəldi (180).



General Kotlyarevski

Ə.Dünbəli yazırdı ki, Lahican tüfəngçilərinin rəhbəri döyüşün əvvəlində öldürüldüyü üçün tüfəngdarlar onlara tapşırılmış bürcdən geri çəkildilər və ruslar da həmin bürcü ələ keçirdilər. Bu bürcdən də qala daxili top və tüfənglərdən atəşə tutuldu. Onun yazdığına görə, tərəflər arasındakı qanlı döyüş beş saat davam etdi. Müəllif döyüşün gedişində Sadıq xan Qacar Əzadanlının və Məhəmməd bəy Qacarın şücaətlə vuruşduqlarını və qala daxilində həlak olduqlarını yazır. Əsərdə eyni zamanda rusların qüvvəsinin üçdə ikisinin tələf olduğu bildirilir (181).

Əslində, hər iki tərəf bu döyüşdə çoxlu sayda itki verdi. General-leytenant Rtişşev Rusiya imperatoruna göndərdiyi məruzəsində Qacar qoşunlarından qala daxilində 2500 nəfərin öldürüldüyünü, qalanların isə Lənkəran qalasından qaçmaq istəyərkən qırıldığını yazırdı (182). Rus tarixçiləri isə qalada olan 4 min nəfərlik Qacar qarnizonundan 3737 nəfərin öldürüldüyünü və bunlardan başqa qaladan qaçmaq istəyərkən çoxlu adamın öldürüldüyünü yazırlar (183).

Lənkəran qalası üzərinə hücum zamanı rus qoşunları nəhayətsiz zorakılıqlar nümayiş etdirdilər. Onlar qala daxilindəki əhaliyə, xəstələrə, yaralılara və əsirlərə mərhəmət göstərməyərək qarşılarına çıxanları məhv etdilər. Belə bir zorakılığın olmasını rus generalları özləri də etiraf edirdilər. Rusiya imperatoruna göndərdiyi məruzəsində general-leytenant Rtişşev də təsdiq edirdi ki, heç kim əsir götürülməmişdir. Guya rus hərbçiləri güclü müqavimətlə rastlaşdıqları üçün hər şeyi süngü ilə həll etdilər (184). Lənkəran qalası üzərinə hücumla bağlı general-mayor Portnyaginin adına göndərilmiş bir məktubda da qeyd olunurdu ki, kimsə əsir saxlanılmamışdır. Qalanın müdafiəsi zamanı farsların (burada həm də azərbaycanlılar nəzərdə tutulur) göstərdiyi inadkarlığı görə rus əsgərləri heç kimə aman vermədilər (185).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqar da öz əsərində rus hərbçilərinin qəddarlığına və amansızlığına bir neçə cümlə yer ayırmışdır. O yazırdı ki, qaladan kimsə salamat çıxmadı, ruslar hətta südəmər körpələri də süngüyə keçirdilər, yaşlı qadınlara rəhm etmədilər, böyükdən kiçiyə hamını qətlə yetirdilər (186).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqarın bu cümlələrinə şərh yazan İran tarixçiləri Qarabağda Sultanbud ətrafındakı məlum döyüşə işarə edərək bildirirdilər ki, orada 820 rus hərbçisi əsir götürüldü. Amma onlar öldürülmədi və islam dinin qəbul edəndən sonra hətta Qacar qoşunlarının sıralarına da qoşuldular (187).

Lənkəran qalasının süqutundan sonra Qacar qoşunlarına məxsus 2 döyüş bayrağı, 8 ədəd top, Sadıq xanın gümüş sancağı, böyük miqdarda barıt, ərzaq və digər təchizat əşyaları rusların əlinə keçdi. Rusların bu döyüş zamanı verdiyi itki isə 1000 nəfərə çatırdı (188). Bu böyük itkiyə baxmayaraq, rus qoşunları Cənubi Qafqaz cəbhəsində strateji əhəmiyyətli qələbə qazandılar. Lənkəran qalası ətrafındakı döyüş Gülüstan sülh müqaviləsinin imzalanmasına kimi keçirilmiş son ciddi döyüş oldu. Bu döyüşün uduzulması ilə Qacar sarayının İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Arazın şimalındakı Azərbaycan xanlıqlarına və Lənkəran xanlığına iddia şansı azaldısa, əksinə, rusların bu şansları daha da artdı. Lənkəran qalası ətrafında baş verən döyüş Rusiyanı Gülüstan sülh müqaviləsinə daha da yaxınlaşdırdı və Rusiya Lənkəran xanlığı ərazisində də kifayət qədər möhkəmləndi.

Lənkəran qalası üzərinə döyüş başa çatandan sonra general Kotlyarevskinin dəstəsi xanlıq ərazisini tərk etdi və 1813-cü il yanvar ayının 29-da bu dəstə Ağoğlandakı düşərgəyə gəldi. Lənkəran xanlığının təhlükəsizliyi isə yenidən I dərəcəli kapitan Veselaqanın rəhbərliyi altında olan qoşun dəstəsinə tapşırıldı (189). Veselaqanın dəstəsinə dəniz taboru və

Troitski alayının 2 bölüyü daxil idi. Rus qoşunlar komandanlığı bu dəstənin Lənkəran xanlığının Rusiyanın nəzarəti altında saxlamaq üçün yetərli olmadığını bilirdi. Lakin Cənubi Qafqazdakı mövcud hərbi-siyasi şərait digər bölgələrdən qoşun bölmələrinin ayrılıb Lənkəran xanlığına göndərilməsinə imkan vermirdi. General Rtişşev onu da qeyd edirdi ki, Lənkəran və Ərkivan qalalarında olan dəstələr yaxşı halda sığındıqları qalaları qoruya bilirdilər. Amma Qacar qoşunları yenidən böyük qüvvə ilə hücum edərdilərsə, həmin qalalardakı dəstələr onların qarşısını saxlaya bilməzdilər. Bununla belə, Mir Mustafa xanın Rusiyaya sədaqətli olması general Rtişşev üçün ümid verici bir hal idi. Lakin onun qüvvələrinin zəifliyi də rusların narahatçılığına səbəb olurdu. Lənkəran qalası ətrafındakı qələbəyə baxmayaraq, Qacar qoşunları yenidən Lənkəran qalası üzərinə hücum etməyəcəyinə rus generalları əmin deyildilər. Rus generallarına görə, əgər Qacar qoşunları yenidən Lənkəran qalası üzərinə hücum edərdilərsə və buradakı zəif qüvvələrə üstün gələrdilərsə, onda Qacar sarayında özünə inam artar və ona görə də onları sülh danışıqlarında güzəştə getməyə məcbur etmək daha çətin olardı (190).

1813-cü ilin may ayında Cənubi Qafqazda olan rus alaylarının itkilərinin aradan qaldırılması və bu alayların yenidən komplektləşdirilməsi üçün Həştərxan quberniyasında 288 nəfərin xidmətə cəlb edilməsi gözlənilirdi. Lənkəran xanlığının mühafizəsinin gücləndirilməsi üçün general Rtişşev təklif edirdi ki, həmin kontingent ayrıca bir bölmədə birləşdirilsin və bu bölməyə Lənkəran taboru adı verilsin. Sonra isə Həştərxan qarnizon alayının bir bölüyü ona birləşdirilsin və tabor halına gətirilsin. Bu tabora əlavə olaraq bir kazak bölüyünün verilməsi də təklif olunurdu. Həmin kazak bölüyünə Bakıdan və Lənkəran xanlığından atlar toplanmasını general Rtişşev öz üzərinə götürürdü. Təklif olunurdu ki, Lənkəran taboru təşkil olunandan sonra gəmilərə yüklənsin və bu gəmilər Bakı və Lənkəran sahillərində reydlər etsin. Bununla həm sahil əraziləri Qacar qoşunlarından qorumaq olardı, həm də Xəzər dənizində rus ticarətinin təhlükəsizliyi təmin edilmiş olardı. General Rtişşev eyni zamanda təklif edirdi ki, yeni yaradılacaq tabora, bu taborların yükləndiyi hərbi gəmilər dəstəsinə komandanlıq Həştərxan komendantı olan general-leytenant Rotqofa tapşırılsın. General Rtişşev ümid edirdi ki, general Rotqofun rəhbərliyi altında yaradılacaq dəniz desantı Qacar qoşunlarının Lənkəran xanlığı üzərinə hücumlarının qarşısının alınması üçün faydalı olacaqdır (191).

Qeyd etmək lazımdır ki, general-leytenant Rtişşevin təklifi qəbul edildi. General-leytenant Rotqof müvəqqəti Lənkəran taborunun rəhbəri təyin edildi və taborun şəxsi heyətinin toplanmasında o özü də yaxından iştirak edirdi. 1813-cü ilin may ayının ortalarında general-leytenant

Rtişşev ona məktub göndərdi və Lənkəran xanlığı sahillərində ona görməli olacağı işlər haqqında tapşırıqlarını verdi. Lənkəran taboru müvafiq döyüş hazırlığını keçib hərbi gəmilərlə Lənkəran xanlığı sahillərində reydə gələndə taborun şəxsi heyəti sahilə çıxarılmalı və general Rotqof Lənkəran xanlığında olan qüvvələrə rəhbərliyi də öz üzərinə götürməli idi. General Rotqof Lənkərana gələn kimi general Rtişşevi məlumatlandırmalı idi və eyni zamanda Lənkəran xanlığındakı hərbi-siyasi şərait haqqında mütəmadi olaraq ona məlumat göndərməli idi. General Rotqof ilk növbədə Lənkəran və Ərkivan qalalarının qarnizonunu formalaşdırmalı idi. Bu qalaların qarnizonu həm yeni əsgərlərlə, həm də təcrübəli əsgərlərlə komplektləşdirilməli idi. Həştərxandan gətirilmiş şəxsi heyətin yerdə qalan hissəsi Lənkərandakı dəniz taboru Troitski alayının 2 bölüyü və kazaklarla birləşdirilərək xüsusi dəstə təşkil edilməli idi. Həmin xüsusi dəstə Lənkəran xanlığını Qacar qoşunlarının hücumundan qorumalı, özünü dərhal təhlükə hiss olunan məntəqəyə çatdırmalı idi. General Rotqofdan tələb olunurdu ki Mir Mustafa xanla da daim əlaqədə olsun və onu da qoşun dəstəsinin ehtiyaclarının həllinə cəlb etsin. Mir Mustafa xan öz atlıları ilə xanlığın sərhəd xəttini müşahidə altında saxlamalı və Qacar qoşunlarının hücumu müşahidə ediləndə dərhal general Rotqofa məlumat verməli idi. Başlıcası isə general Rtişşev general Rotqofa ehtiyatlı olmağı, yalnız Lənkərn xanlığının mühafizəsində dayanmağı və Qacar qoşunlarına qarşı hücum xarakterli fəaliyyətə yol verməməyi tapşırırdı. Onun sözlərinə görə, Qacar qoşunları üzərinə hər hansı bir hücum təşkil edilməsini Qacar sarayı Rusiyanın sülh danışıqlarının əleyhinə olması kimi qiymətləndirə bilərdi ki, bu da Rusiyanın maraqlarına cavab vermirdi. Qacar qoşunlarının hücuma başlayacağı təqdirdə isə onlara qətiyyətli cavab verilməsi lazım bilinirdi (192).

General Rotqofun desant dəstəsinin formalaşdırılması bir qədər uzun çəkdi və bu dəstə 1813-cü il iyul ayının 25-də Lənkərana yetişdi. General Rotqof Lənkərana yetişəndən sonra I dərəcəli kapitan Veselaqa Lənkəran və Ərkivan qalalarındakı, habelə Lənkəran xanlığı ərazisindəki rus bölmələrinə rəhbərliyi təhvil verdi (193).

Lənkəran xanlığına desant dəstəsi göndərməkdən əlavə, general Rtişşev Lənkəran qalasının təmir edilməsini də lazım bildi. Bununla bağlı, Bakıdan Vasilyev adlı bir mühəndis Lənkərana göndərildi. Onun rəhbərliyi altında Lənkəran qalası və eyni zamanda Ərkivan qalası təmir edilərək tam müdafiə vəziyyətinə gətirilməli idi. Bununla belə, qeyd etmək lazımdır ki, Gülüstan müqaviləsi imzalanana qədər Lənkəran xanlığı ərazisində hərbi qarşıdurma müşahidə edilmədi.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века. Москва, 1969, с. 132
2. دنبلی عبدالرزاق . ماثر سلطانیه. تهران،1382، ص.388
3. Ибрагимбейли Х.М., с.128
4. Ибрагимбейли Х.М., с.129
5. Ибрагимбейли Х.М., с.130
6. Дубровин Н. История войны и владычества русских Кавказе. Т. V, С-Петербург, 1887, с.312
7. Дубровин Н. , Т. V, 403; Иоаннисян А.Р. Присоединение Закавказья к Росии и международные отношения в начале XIX столетия. Ереван, 1958, с.312
8. Иоаннисян А.Р., с.312-313
9. دنبلی، ص.343
10. Акты Собранные Кавказской Археологической Комиссией (АКАК). Т. IV, Тифлис, 1870, с. 753
11. АКАК, Т. IV, с. 759
12. АКАК, Т. IV, с. 761
13. Дубровин Н. , Т. V, 416
14. Ибрагимбейли Х.М., с.132
15. АКАК, Т. IV, с. 56
16. АКАК, Т. V, с. 1
17. Дубровин Н. , Т. V, 419
18. Дубровин Н. , Т. V, 420
19. Дубровин Н. , Т. V, 421-422
20. АКАК, Т. IV, с. 51
21. АКАК, Т. IV, с. 54
22. АКАК, Т. IV, с. 55
23. АКАК, Т. IV, с. 55
24. АКАК, Т. IV, с. 56
25. Дубровин Н. , Т. V, 483
26. АКАК, Т. V, с. 201
27. АКАК, Т. V, с. 162
28. АКАК, Т. V, с. 162-163
29. АКАК, Т. V, с. 124
30. АКАК, Т. V, с. 163-164
31. Дубровин Н. , Т. V, 426

32. АКАК, T. V, c. 148;
33. АКАК, T. V, c. 164; Дубровин Н. , T. V, 426
34. Дубровин Н. , T. V, 427
35. АКАК, T. V, c. 160
36. АКАК, T. V, c. 168
37. Дубровин Н. , T. V, 428
38. АКАК, T. V, c. 171; Дубровин Н. , T. V, 428
39. АКАК, T. V, c. 171
40. Дубровин Н. , T. V, 429
41. Дубровин Н. , T. V, 430
42. АКАК, T. V, c. 172-173
43. АКАК, T. V, c.150, 160
44. АКАК, T. V, c. 631
45. АКАК, T. V, c. 130-131
46. АКАК, T. V, c. 132
47. АКАК, T. V, c. 131-132
48. Xəzani M.M. Kitabi tarixi Qarabağ, s.182. Bax: "Qarabağnamələr", ikinci kitab. Bakı, 1991, s.94-204
49. Yenə orada, s.182
50. Дубровин Н. , T. V, 440
51. Дубровин Н. , T. V, 440
52. Xəzani M.M., s.183-184
53. Дубровин Н. , T. V, 441
54. آهنگسروش (میرزا محمد صادیق وقایع نگار). تاریخ جنگهای ایران و روس. تهران، 1360، ص. 197
55. Xəzani M.M., s.184
56. دنبلی عبدالرزاق . ماثر سلطانیه. تهران،1382، ص.362
57. Дубровин Н. , T. V, 446
58. Дубровин Н. , T. V, 446
59. آهنگسروش ، ص. 197
60. Дубровин Н. , T. V, 446
61. دنبلی، ص.365
62. Дубровин Н. , T. V, 446
63. آهنگسروش ، ص. 197
64. АКАК, T. V, c. 137
65. Xəzani M.M., s.185; Дубровин Н. , T. V, 447
66. دنبلی، ص.365
67. Дубровин Н. , T. V, 447
68. دنبلی، ص.366
69. دنبلی، ص.368

70. رضاقلی خان هدایت. روضتالصفا ناصری. جلد نهم، تهران، ص.7632
71. آهنگسروش ، ص. 197
72. دنبلی، ص.367
73. АКАК, T. V, c. 138
74. АКАК, T. V, c. 138
75. Xəzani M.M., s.183
76. آهنگسروش ، ص. 197
77. АКАК, T. V, c. 132, 133, 577
78. АКАК, T. V, c. 133
79. دنبلی، ص.369 ; Дубровин Н. , T. V, 448
80. آهنگسروش ، ص. 206
81. "Şərq" qəzeti, 19 sentyabr 2005-ci il
82. Дубровин Н. , T. V, 449
83. Дубровин Н. , T. V, 450-451
84. دنبلی، ص.368 ; Xəzani M.M., s.186
85. АКАК, T. V, c. 134; Дубровин Н. , T. V, 440
86. АКАК, T. V, c. 576
87. Дубровин Н. История войны и владычества русских ра Кавказе. T. VI, С-Петербург, 1888, c.27
88. Дубровин Н. , T. VI, c.27
89. АКАК, T. V, c. 660
90. АКАК, T. V, c. 675, 681
90a. Дубровин Н. , T. VI, c.76-77
91. АКАК, T. V, c. 692
91a.Военная история Грузинского гренадерского е.и.в. великого князя Константина Николаевича полка, в связи с торией Кавказской войны. Тифлис, 1865, c.66
92. Военная история Грузинского гренадерского...c.66-69
92a. Военная история Грузинского гренадерского... c.70
93. Военная история Грузинского гренадерского... c.70-71
93a. АКАК, T. V, c. 692
94. دنبلی، ص.394
95. دنبلی، ص.395
96. АКАК, T. V, c. 693
97. آهنگسروش ، ص. 206
97a. آهنگسروش ، ص. 208
98. АКАК, T. V, c. 693
98a. Военная история Грузинского гренадерского... c.72-73
99. АКАК, T. V, c. 693
99a. АКАК, T. V, c. 693

100. 208 .آهنگسروش ، ص
101. 208 .دنبلی، ص.398 ; آهنگسروش ، ص
102. АКАК, T. V, c.692
102a. Военная история Грузинского гренадерского... c.73-74
103. АКАК, T. V, c.696-697
103a. АКАК, T. V, c.685-686
104. АКАК, T. V, c.686
104a. АКАК, T. V, c.141
105. АКАК, T. V, c.140
106. АКАК, T. V, c.141
107. 129.احمدی. تالشان. تهران، 1384، ص
108. АКАК, T. V, c. 141
109. АКАК, T. V, c.141
110. АКАК, T. V, c.142
111. АКАК, T. V, c.142
112. АКАК, T. V, c.142
113. АКАК, T. V, c.143
114. АКАК, T. V, c.143
115. АКАК, T. V, c.144
116. АКАК, T. V, c.144
117. АКАК, T. V, c.592
118. АКАК, T. V, c.593
119. АКАК, T. V, c.593
120. Байрамалибеков Т. История Талышинского ханства. www.talish.org/.../teymur-istoriyatalish-xanata.pdf
121. 131.احمدی. تالشان. تهران، 1384، ص
122. 68.میرزا احمد خداوردی. اخبارنامه. تهران، 1383، ص
123. 70.میرزا احمد خداوردی. اخبارنامه. تهران، 1383، ص
124. 74.میرزا احمد خداوردی. اخبارنامه. تهران، 1383، ص
125. 130.احمدی. تالشان. تهران، 1384، ص
126. 350.علی قلی میرزا اتضادالسلطنه. اکسیر التواریخ. تهرانریا، 1370، ص
127. 382.دنبلی، ص
128. 382.دنبلی، ص
129. АКАК, T. V, c.593; Дубровин Н. , T. VI, c.50
130. Дубровин Н. , T. VI, c.50
131. АКАК, T. V, c.593
132. АКАК, T. V, c.603
133. АКАК, T. V, c.594
134. АКАК, T. V, c.594
135. АКАК, T. V, c.664

136. АКАК, Т. V, с.594-595
137. АКАК, Т. V, с.664
138. АКАК, Т. V, с.676
139. АКАК, Т. V, с.595
140. АКАК, Т. V, с.677
141. АКАК, Т. V, с.683
142. АКАК, Т. V, с.595
143. АКАК, Т. V, с.597
144. АКАК, Т. V, с.597
145. АКАК, Т. V, с.691
146. АКАК, Т. V, с.597
147. АКАК, Т. V, с.597
148. АКАК, Т. V, с. 597, 691
149. Дубровин Н. , Т. VI, с.88
150. АКАК, Т. V, с.596
151. Дубровин Н. , Т. VI, с.91
152. АКАК, Т. V, с.698
153. آهنگسروش ، ص. 209
154. АКАК, Т. V, с.698
155. آهنگسروش ، ص. 209
156. Дубровин Н. , Т. VI, с.91
157. میرزا احمد خداوردی. اخبارنامه ، ص.68 ; احمدی. تالشان. تهران، 1384، ص.131
158. АКАК, Т. V, с.702; Дубровин Н. , Т. VI, с.93
159. АКАК, Т. V, с.703
160. رضاقلی خان هدایت. روضتالصفا ناصری. جلد نهم، تهران، ص.7649
161. Дубровин Н. , Т. VI, с.93-94
162. Байрамалибеков Т. История Талышинского ханства... с.19
163. Yenə orada, s.19
164. Yenə orada
165. Yenə orada, s.20
166. Yenə orada, s.21
167. Yenə orada
168. Дубровин Н. , Т. VI, с.95
169. Байрамалибеков Т. История Талышинского ханства... с.22-23
170. Yenə orada
171. دنبلی، ص.400
172. احمدی. تالشان. تهران، 1384، ص.133
173. Потто В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях. Т.1. Санкт-Петербург. http://www.vehi.net/istoriya/potto/kavkaz/221.html

174. Yenə orada
175. میرزا احمد خداوردی. اخبارنامه ، ص.76
176. АКАК, T. V, c.702
177. آهنگسروش ، ص. 209
178. АКАК, T. V, c.702; Дубровин Н. , T. VI, c.97-98
179. میرزا احمد خداوردی. اخبارنامه ، ص.77
180. Байрамалибеков Т. История Талышинского ханства... c.26
181. دنبلی، ص.401
182. АКАК, T. V, c.702
183. Дубровин Н. , T. VI, c.98
184. АКАК, T. V, c.703
185. АКАК, T. V, c.700
186. آهنگسروش ، ص. 209
187. آهنگسروش ، ص. 209
188. АКАК, T. V, c.700, 702
189. Дубровин Н. , T. VI, c.99
190. АКАК, T. V, c.707
191. АКАК, T. V, c.708-709
192. АКАК, T. V, c.717-718
193. АКАК, T. V, c.601

VII FƏSİL

GÜLÜSTAN MÜQAVİLƏSİNİN İMZALANMASI

1. Azərbaycan xanlıqlarının işğalının rəsmiləşdirilməsi ilə bağlı tərəflərin mövqeyi

Markiz Pauluççinin, xüsusilə də general-leytenant Rtişşevin Cənubi Qafqazdakı baş komandanlığı dövründə Rusiya ilə Qacar sarayı arasında müharibənin dayandırılması və sülh müqaviləsinin imzalanması üçün danışıqlar yeni bir mərhələyə qədəm qoydu. Əvvəlki illərdə aparılan danışıqlardan fərqli olaraq yeni şəraitdə aparılan danışıqlarda İngiltərənin iştirakı və fəallığı xeyli artdı. Bu da heç şübhəsiz ki, İngiltərənin izlədiyi maraqlardan irəli gəlirdi.

Rusiya sarayı ilə Qacarlar dövləti arasında Cənubi Qafqazla bağlı iddiaların hərbi müstəvidə kəskinləşdiyi illərdə İngiltərənin bu bölgə ilə bağlı birbaşa maraqları və bu bölgəyə qoşun çıxarmaq planları yox idi. Lakin İngiltərə hökuməti Cənubi Qafqaz ətrafında cərəyan edən proseslərdən Rusiya ilə və Qacar dövləti ilə öz maraqlarına uyğun olan münasibətlərin qurulmasında istifadə etməyə çalışırdı. Çünki adları çəkilən dövlətlərin Cənubi Qafqazdakı proseslərə hansı səviyyədə cəlb olunması İngiltərənin həm Yaxın Şərqdəki mövqeyinə, həm də Avropa cəbhəsindəki vəziyyətinə birbaşa təsir göstərə bilərdi. Ona görə Gürcüstan və Azərbaycan xanlıqları uğrunda Rusiya ilə Qacarlar sarayı arasında hərbi qarşıdurmanın kifayət qədər kəskinləşdiyi bir vaxtda bu dövlətlərin hər biri ilə xüsusi münasibətlərin qurulması İngiltərə hakimlərinin diqqətini ciddiliklə özünə cəlb edirdi. Bu istiqamətdə ingilis siyasətinin bölgədə daha incəliklə uzlaşdırılması, müharibə vəziyyətində olan iki dövlət arasında ingilis maraqlarına cavab verən münasibətlərin yaradılması üçün ser Qor Uzeley İngiltərənin Qacar sarayındakı yeni səfiri təyin edil-

di. Hadisələrin sonrakı inkişafı göstərdi ki, İngiltərədən çox-çox uzaqlarda cərəyan edən hərbi-siyasi proseslərdə ingilis maraqlarının nəzərə alınması ilə ser Qor Uzeleyin bölgəyə göndərilməsi kifayət qədər düşünülmüş bir seçim idi. Çünki Qor Uzeley bölgədəki hərbi-siyasi proseslərə və geosiyasi vəziyyətə həlledici təsir göstərən Gülüstan müqaviləsinin hazırlanmasında, razılaşdırılmasında və imzaya çatdırılmasında fəal şəkildə iştirak etdi.

Qor Uzeley 1770-ci il iyunun 24-də anadan olmuşdu. Onun həyatının cavanlıq dövrü Hindistanla bağlıdır. Qor Uzeley 1787-ci ildə Hindistana gəlir və 1804-cü ilə kimi burada fəaliyyət göstərir. O, Hindistanda bir müddət ticarət işləri ilə məşğul oldu və 1792-ci ildə isə pambıq parça istehsal edən fabrik açdı. İşgüzarlığı və bacarığı sayəsində o öz təsərrüfatını xeyli genişləndirə bildi. Hindistanda olarkən Qor şərq xalqlarının tarixi və mədəniyyəti ilə yaxından tanış olmağa çalışdı və hətta fars dilini öyrənməyə müvəffəq oldu. İşgüzar və intellektual keyfiyyətləri ilə Qor Uzeley İngiltərənin Hindistandakı hakimi ser Uelslinin diqqətini özünə cəlb etdi və onlar arasında yaxın münasibət yarandı. 1805-ci ildə Qor Uzeley Londona qayıtdı və elə həmin vaxtlarda İngiltərənin Hindistandakı hakimi Uelsli də Londona döndü. İngilis sarayında işgüzar nüfuza malik olan Uelsli hökumətin xarici işlər naziri təyin edildi. Uelsli elə bir vaxtda xarici işlər naziri təyin edildi ki, bu dövrdə İngiltərə ilə Qacarlar dövləti arasında yeni münasibətlər formalaşmaqda idi. Ona görə Qacar sarayı ilə münasibətlərin qurulmasına nazir Uelsli Hindistandan yaxşı tanıdığı Qor Uzeleyi də cəlb etməyə başladı. 1809-cu ilin sonunda İngiltərəyə gəlmiş olan Qacar sarayının elçisi Mirzə Əbülhəsən xana Londonda mehmandarlıq etmək də Qor Uzeleyə tapşırıldı. Mirzə Həsən xanın elçilik missiyası 1810-cu ilin ortalarına qədər davam etdi. Bu müddət ərzində Qor Uzeley onunla oldu və bu yaxınlıq ona Qacar sarayında baş verənlər və bölgədə gedən proseslər haqqında geniş məlumatlar almağa imkan verdi. Məlumdur ki, Mirzə Əbülhəsən xan Londonda olarkən 1809-cu ildə İngiltərə ilə Qacar sarayı arasında imzalanan müqavilə təsdiq edildi. Bu müqavilə İngiltərə ilə Qacarlar dövləti arasında münasibətlərin yeni bir səviyyəyə çatdırılmasını İngiltərənin xarici işlər naziri tərəfindən Qor Uzeley bu dövlətin Qacar sarayındakı fövqəladə səfiri təyin edildi.



Ingilis elçisi Qor Uzeley

1810-cu il iyul ayının 18-də Qor Uzeley "Lion" gəmisində Portsumut limanından Bombey şəhərinə doğru hərəkətə başladı. Onunla birlikdə Mirzə Əbülhəsən xanın 8 nəfərlik heyəti də yola düşdü. Qeyd etmək lazımdır ki, bu səfər xeyli uzun çəkdi. 1810-cu ilin sonlarında Qor Uzeley Bombeyə yetişdi və 1811-ci il mart ayının 5-də isə o, Buşehrə daxil oldu (1).

Ser Qor Uzeley İran daxilində də xeyli vaxt itirdi. Buşehrdən sonra o, həm Şirazda, həm də İsfahanda oldu. Tehrana isə 1811-ci il noyabr ayının 9-da çatdı. Əslində, formalaşmaqda olan tarixi şərait ingilislərin maraqlarına cavab verirdi və ona görə də ingilis məqamları tələsgənlik göstərməyə də çalışmırdılar. Belə ki, Fransanın İran üzərindən Hindistana hücum etməsi ehtimalı azalmaqda idi. Avropada isə Fransaya

qarşı yeni bir koalisia formalaşmaqda idi. Şah sarayı ilə yaradılan münasibətlər ingilislərin Hindistandakı maraqlarının qorunması üçün daha çox ehtiyat addımı idi.

Bununla belə, ingilis səfiri şah sarayında böyük hörmətlə qarşılandı və İngiltərə ilə yeni münasibətlərə böyük ümidlər bağlandığı bəyan edildi. Yeni səfirə iki dövlət arasında yeni və mükəmməl bir müqavilənin hazırlanması səlahiyyəti verildiyindən, bir müddət sonra bu məsələ üzərində işə başlandı. İran və İngiltərə arasında imzalanacaq mükəmməl müqavilənin bir çox detalları Londonda razılaşdırıldığından bu istiqamətdə aparılan işlər xüsusi bir çətinliklə qarşılanmadı. Nəticədə, 1812-ci il martın 14-də İngiltərə ilə şah sarayı arasında böyük müqavilə imzalandı. Şah sarayının məqsədi daha çox Cənubi Qafqaza olan iddialarının təmin edilməsində İngiltərənin yardımını almaq idi. Müqavilədə bu məsələyə birbaşa toxunulmasa da, qeyd olunurdu ki, Avropa dövlətlərindən hər hansı biri İran üzərinə hücum edərdisə, İngiltərə şah sarayına hərbi yardım göstərməli idi. Bu hərbi yardım - qoşun göndərilməsi, birbaşa hərbi yardım mümkün olmayanda isə maliyyə yardımı göstərilməsi şəklində olmalı idi. İngiltərə eyni zamanda Xəzər dənizində hərbi gəmilər düzəldilməsində şah sarayına kömək göstərməli idi. İngilis sarayı bu müqavilədə Hindistanın təhlükəsizliyinin təmin edilməsi üçün nəzərdə tutulan maddələrin yenidən təsbit edilməsinə nail oldu (2).

İngilis səfiri gətirdiyi çoxlu sayda hədiyyələri şaha təqdim etməklə və onda şah qoşunlarının möhkəmləndiriləcəyinə ümidləri artırmaqla şahın xüsusi rəğbətini qazandı. Ser Qor Uzeley vəd etdi ki, 50 minlik qoşun dəstəsinin təlim-tərbiyəsi ingilis hərbçilərinin üzərinə qoyulacaq, şah qoşunları üçün İngiltərədən 30 min ədəd tüfəng gətiriləcəkdir. Məhz bu vədlərin verilməsi şah sarayında Rusiyaya qarşı aparılan müharibənin uğurlu sonluğuna inamları artırdı. Şah qoşunlarının yenidən qurulmasında yenidən iştirak edən ingilis hərbçilərinin maaşları İngiltərə hökuməti tərəfindən ödənilməli idi. Lakin müqavilə ilə razılaşdırıldı ki, bu zabitlərin xidmətinin həvəsləndirilməsi üçün onlara şah sarayı tərəfindən də mükafatlar ayrılacaqdır. Bu mükafatlar zabitlərin rütbələrinə uyğun olaraq aldıqları maaşın yarısı miqdarında olmalı idi. İngilis zabitləri onlara tapşırılan vəzifələri doğru və düzgün yetirmədikdə isə bu barədə ingilis səfirinə xəbər verməklə həmin zabit şah qoşunlarından uzaqlaşdırılmalı idi (3).

İmzalanmış müqaviləyə əsasən, şah sarayı da öz üzərinə bir sıra öhdəliklər götürdü. Məsələn, İngiltərə dövlətinin düşmən münasibətdə olduğu Avropa dövlətləri ilə şah sarayı öz münasibətlərini kəsməli idi.

Başqa sözlə, şah sarayı ingilislərin düşmənlərini öz düşmənləri kimi qəbul etməli idi. Həmin dövlətlərlə şah sarayı münasibətlərini dayandırmalı idi. Sonra Avropa dövlətlərinin hərbi qüvvələrinin İran ərazisindən keçərək Hindistana getmələrinə yol verilməməli idi (4).

İngilis hərbçilərinin şah qoşunlarına yerləşdirilməsi ilə onların qoşunların təşkilində və idarəçiliyində nüfuzları xeyli artdı. Şah qoşunlarında xidmətə başlayan ingilis zabitləri hətta bütün qoşunlara rəhbərliyin onlara həvalə olunması haqqında ingilis səfirliyi qarşısında məsələ qaldırdılar. Görünür, Qor Uzeley də şah qarşısında belə bir məsələ qaldırıbmış. Çünki şahzadə Abbas Mirzə qoşunlara rəhbərliyin ingilis zabitlərinin əlinə keçməsinə razı olmadı. Şahzadə bəyan etdi ki, qoşunlar xanlıqlar və vilayətlər üzrə toplanmalı olacaq və yerli hakimlər də topladıqları qoşun dəstələrinin rəhbəri olaraq qalacaqlar (5).

İmzalanan müqavilə elə tərtib edilmişdi ki, onu padşahlardan əlavə taxt-tac varisləri də imza etməli idilər. Bununla əlaqədar olaraq, Qor Uzeley rəhbərlik etdiyi səfirlik 1812-ci il may ayının 25-də Tehrandan Təbrizə, Abbas Mirzənin görüşünə yola düşdü (6). Bu heyət iyul ayının ortalarında Təbrizə çatdı və burada ingilis heyətinin dəbdəbəli qarşılanma mərasimi oldu. İngilis elçisi özü ilə şahzadəyə 35 min funt sterlinq pul gətirmişdi ki, bu pul Qacar qoşunlarının yenidən qurulmasına xərclənməli idi. Müqavilə isə Abbas Mirzə tərəfindən də imzalanandan sonra ratifikasiya üçün Qor Uzeleyin qardaşı Uilyam Uzeley tərəfindən Londona aparıldı. Uilyam Uzeley də səfirlik heyətinin tərkibində Tehrana gəlmişdi və Londona yollanarkən o öz yolunu İrəvan xanlığından saldı. Uilyam Uzeleyin yol qeydlərindən aydın olur ki, ingilis zabitləri artıq İrəvan xanlığının qoşunlarının hazırlaşdırılmasına başlamışdılar. İrəvan xanlığının qoşunlarına xeyli sayda ingilis tüfəngi də verilmişdi (7).

Lakin İngiltərə ilə İran arasında ser Qor Uzeleyin iştirakı ilə imzalanan böyük müqavilə elə imzalandığı andan şah sarayının intizarında olduğu əhəmiyyətini itirməyə başladı. Çünki Avropada yaranmış yeni şərait İran-İngiltərə münasibətlərinə yeni məzmun verdi ki, bu da şah sarayının xeyrinə olmadı. Rusiyanın əvvəllər ittifaqda olduğu Fransa ilə müharibəyə girməsi, Fransaya qarşı Rusiyanın və İngiltərənin də iştirak etdiyi yeni koalisiyanın yaradılması İngiltərənin İranla bağlı siyasətinə də müəyyən dəyişikliklər gətirdi. Yeni şəraitdə İngiltərə ilə Rusiya müttəfiqə çevrildilər və belə olan şəraitdə İranın Rusiyaya qarşı barışmaz mövqedə dayanması daha İngiltərəni qane etmirdi. İstər Rusiya və istərsə də İngiltərə üçün konkret tarixi şəraitdə Fransaya müqavimət göstərilməsi başlıca aktuallıq kəsb etdi. Avropa cəbhəsində Rusiya qoşunları nə qədər möhkəmlənərdisə, Napoleona qarşı müqavimət də o dərəcədə

güclü ola bilərdi. Ona görə ingilis sarayı Rusiya ilə İran arasında barışığın əldə edilməsinə və cənub cəbhəsində azad olan rus qoşun dəstələrinin Avropa cəbhəsinə göndərilməsinə diqqətini daha da artırdı. Tezliklə ser Qor Uzeleyin də qarşısına belə bir tapşırıq qoyuldu.

Ser Qor Uzeley malik olduğu əlaqələrdən bəhrələnərək özü üçün aydınlaşdıra bildi ki, Fətəli şahı sülh danışıqlarının başlanmasına cəlb etmək olar. Abbas Mirzə isə Rusiya ilə barışıq danışıqlarının başlanması əleyhinə idi. Başqa sözlə, o, Rusiya tərəfinin verdiyi təkliflər əsasında yəni, rus qoşunlarının nəzarəti altında olan ərazilərə iddiaların geri götürülməsi əsasında barışığa razı deyildi. Abbas Mirzə bütün Cənubi Qafqazın işğaldan azad olunması və şah sarayının nəzarəti altına verilməsini tələb edirdi.

Mövcud olan məlumatlardan aydın olur ki, 1812-ci ilin mart ayından etibarən ser Qor Uzeley ilə Cənubi Qafqazdakı rus qoşunları baş komandanı arasında yazışmalar başlamışdı. Qor Uzeleyin markiz Pauluççiyə göndərdiyi məktubundan aydın olur ki, ingilislərin gəlişinin məqsədi Qacar sarayına Fransa təsirinin aradan qaldırılması idi. İngilis elçisi rus qoşunları baş komandanına 1811-ci il ərzində ingilislər tərəfindən şah sarayına ayrılan maliyyə vəsaiti və hərbi təchizat haqqında məlumat verdi. Təkcə 1811-ci ilin sonlarında İngiltərə tərəfindən şah qoşunlarına 12 ədəd top, 12 min atımlıq xərc, 12 min tüfəng və 12 min nəfərə paltar tikilməsi üçün mahud parça verilmişdi. 20 ədəd top isə qoşunlara təhvil verilmək üçün Bəndər-Buşehrə gətirilmişdi (8).

Təbrizdə olarkən Qor Uzeley Abbas Mirzəni Rusiya ilə sülh müzakirələrinin başlanmasına meylləndirməyə çalışdı. Bu iki şəxs arasında bir neçə görüş baş verdi. Amma Abbas Mirzə həmin vaxt ingilis səfirinin qarşısında qətiyyət göstərdi və Qacar sarayının maraqlarından doğan mövqeni ortaya qoydu. Doğrudur, bu mövqe reallığa əsaslanmırdı və mövcud hərbi-siyasi şəraitin Qacarların xeyrinə dəyişdirilməsi üçün yetərli hərbi güc yox idi. Bununla belə, İngiltərə ilə bağlanılan müqavilə, işğal olunmuş Azərbaycan xanlıqlarının əhalisi arasında rus işğalına qarşı mövcud olan barışmaz əhval-ruhiyyə Abbas Mirzədə Rusiyanın güzəştə məcbur ediləcəyinə bir ümid yaradırdı. Ona görə Qor Uzeleyin də dəstəklədiyi Rusiya mövqeyi Abbas Mirzə tərəfindən qəbul edilmədi.

İstər Rusiyanın, istər Qacar sarayının, istər İngiltərənin bölgədə cərəyan edən proseslərdəki maraqları Azərbaycan xanlıqlarının və o cümlədən də Gürcüstanın maraqları üzərində kəsişirdi. Azərbaycan xanlıqlarının özlərinin isə öz maraqlarını təmsil etmək imkanı artıq onların əlindən alınmışdı. Rusiya işğalından sonra Gəncə, Bakı və Quba xanlıqları ləğv edilərək yerində Rusiya tərəfindən idarə olunan vilayətlər

yaradılmışdı və bu xanlıqların taleyinin həll edilməsi rusların əlinə keçmişdi. Şəki xanlığına Rusiyanın adamı olan Cəfərqulu xan təyin edilmişdi və xanlıq ərazisində xanlığın müstəqilləşməsi tələbləri ilk növbədə elə Cəfərqulu xan tərəfindən yatırılırdı. İradəcə zəif olan Qarabağ xanı Mehdiqulu xan xanlığın müstəqilliyini təmsil edəcək səlahiyyətlərə malik deyildi. Onun işğala qarşı hətta mövqeyini belə ifadə etməsi xanlıq ərazisindəki rus qoşunları tərəfindən dərhal susdurulurdu. Lənkəran xanı Mir Mustafa xan öz müstəqilliyini Rusiyanın sərhədləri daxilində görürdü və onun siyasi iradəsinin ruslar tərəfindən təmsil edilməsinə etiraz etmirdi. Əslində, Mir Mustafa xanın başqa bir seçimi də qalmamışdı. Şamaxı xanı Mustafa xan isə müstəqillik istəklərinin həyata keçirilməsində gücsüz idi. Onun istəyindən asılı olmayaraq Rusiya Şamaxı xanlığının təmsilçiliyini öz üzərinə götürmüşdü. Buna əməli etiraz üçün Mustafa xanın gücü çatmırdı və bunun üçün ittifaqa girə biləcəyi bir qüvvə də artıq yox idi. Naxçıvan və İrəvan xanlıqları Rusiya işğalından kənar qalmaqla müstəqilliklərini müəyyən dərəcədə qoruyub saxlaya bilmişdirlər. Müstəqilliyin bir sıra əlamətləri bu xanlıqlarda qalmaqda idi. Amma hərbi-siyasi baxımdan bu xanlıqlar da Qacar sarayından yarımasılı vəziyyətdə idilər. Qacar sarayı bu xanlıqlara böyük qoşun dəstələri yeritməklə xanları öz nəzarəti altına almışdı. Başqa sözlə, onların siyasi taleyinin müəyyənləşdirilməsini Qacarlar sarayı öz əlində saxlaya bilmişdi. Bununla da işğala qarşı mübarizədə birləşə bilməyən və pərakəndə müdafiədə siyasi müstəqillikləri məhdudlaşdırılan Azərbaycan xanlıqlarının gələcək taleyinin müəyyənləşdirilməsi səlahiyyətləri iki dövlətin əlində cəmləşmişdi. Azərbaycan xanlıqları ilə bağlı Rusiyanın mövqeyinə gəlincə isə, general-leytenant Rtişşevin Gürcüstandakı qoşunların baş komandanı təyin edilməsindən və bölgəyə gəlməsindən sonra bu məsələ Rusiya sarayı tərəfindən bir daha konkretləşdirildi. Eyni zamanda general Rtişşevdən də tələb olundu ki, Rusiyanın bu mövqeyindən irəli gələn maraqlar Qacar sarayı ilə aparılacaq danışıqlarda qorunsun. General-leytenant Rtişşevin 1812-ci il aprel ayının 7-də Rusiya sarayından aldığı məktubda bildirilirdi ki, Qacar dövləti ilə sülh müqaviləsinin bağlanması üçün ona tam səlahiyyət verilir. İki dövlət arasında imzalanacaq müqaviləni rusların baxışından sülh müqaviləsi adlandırmaq olardı. Azərbaycan xanlıqları üçün isə bu, əslində sülh müqaviləsi yox, Azərbaycan xanlıqlarının işğalını rəsmiləşdirən təcavüzkar bir akt idi. Ona görə Gülüstanda iki dövlətin təmsilçiləri arasında imzalanan müqavilə rus mənbələrində sülh müqaviləsi kimi təqdim edilsə də, onun siyasi mahiyyəti diqqətdən kənarda qalmamalıdır. Qacar dövləti üçün də bu müqavilə sülh müqaviləsi deyildi və bu müqaviləni Qacar

sarayı üçün heç kapitulyasiya aktı kimi qəbul etmək də doğru olmazdı. Bu müqaviləni Qacar dövlətinin geosiyasi iddialarını məhdudlaşdıran bir sənəd adlandırılması daha doğru olardı.

Rusiya anlamında olan sülhün əldə edilməsi aşağıdakı şərtlər daxilində qəbul edilirdi: 1) Rusiya sarayı əvvəllər işğal edilmiş əraziləri öz tərkibində saxlamaqla sərhəd xəttinin Kür, Araz və Arpaçaydan keçməsini istəyirdi. Bu şərtin qəbul edilməsi o demək idi ki, Rusiya İrəvan və Naxçıvan xanlıqlarının da Rusiyaya qatılmasını istəyir. Yeni şəraitdə isə Rusiya müəyyən "güzəştlərə" gedilməsini mümkün sayırdı. Yəni, Rusiya yalnız işğalı altında olan ərazilərlə kifayətlənməyi mümkün sayırdı və İrəvan xanlığı ilə Naxçıvan xanlığının sülh müqaviləsinə daxil edilməsini hələlik tələb etmirdi. 1812-ci il Rusiya üçün kifayət qədər mürəkkəb bir il idi. Avropa cəbhəsində Rusiyanın qarşılaşmış olduğu hərbi-siyasi şərait Qafqaz cəbhəsində hərbi fəallığın zəiflədilməsini tələb edirdi. Bu baxımdan Rusiyanın yeni şəraitə uyğun olaraq irəli sürdüyü şərt Rusiyanın Qacar dövləti qarşısında müəyyən qədər yumşaldılmasını nümayiş etdirirdi. Ona görə də Rusiya hələlik İrəvan və Naxçıvan xanlıqlarına olan iddialardan əl çəkirdi. Bununla Qafqaz cəbhəsində hərbi fəallığı səngitməklə, Rusiya hərbi qüvvələrini başlıca olaraq Avropa cəbhəsində yönləndirmək istəyirdi; 2) Sərhəd xəttinin hərbi baxımdan əlverişli ərazidən keçməsi məsləhət bilinirdi. Sərhəd xəttinin hansı ərazilərdən keçməsi ilə bağlı qərar qəbul edilməsi general Rtişşevin seçiminə buraxılırdı; 3) Təkid olunurdu ki, işğal olunmuş ərazilərin cənubundan keçən sərhəd xətti ilə Qafqaz xətti arasında və Xəzəryanı ərazilərdə yaşayan xalqlar və onlara mənsub olan ərazilərin Rusiya tabeliyinə keçməsi imzalanacaq müqavilədə öz əksini tapsın və Qacar sarayı məcbur edilsin ki, həmin ərazilərə iddia irəli sürməkdən əl çəksin, bu ərazilərin Rusiyanın şəriksiz mülkiyyətində olması təsdiq edilsin; 4) Lənkəran xanlığı hər iki tərəfdən müstəqil xanlıq kimi tanınmalı idi. Çünki bu zaman Lənkəran xanlığı hələ işğal edilməmişdi. Bununla belə, Rusiyanın Lənkəran xanlığı üzərindəki himayədarlıq hüququ tanınmalı idi; 5) Qarşı tərəfə qəbul etdirilməli idi ki, Xəzər dənizində yalnız Rusiya hərbi donanma saxlaya bilər. Qacar dövlətinin Xəzər dənizində hərbi donanma saxlamaq hüququ tanınmamalı idi; 6) Yuxarıda sadalanan şərtlər Qacar sarayı tərəfindən qəbul ediləcəyi təqdirdə Rusiya tərəfi Fətəli şahı İranın taxt-tac sahibi kimi tanımalı idi; 7) Eyni zamanda Rusiya sarayı Abbas Mirzənin vəliəhdliyini və taxt-tac varisliyini tanımağa söz verirdi. Rusiya tərəfindən vəd edilməli idi ki, Fətəli şahdan sonra Abbas Mirzənin, ondan sonra da varislərinin hakimiyyət tanınacaq və Fətəli şah xanədanının hakimiyyətinin qorunması üçün Rusiya

gələcəkdə hərbi qüvvə ilə də dəstək verəcəkdir; 8) Qacar dövləti ilə əvvəllər imzalanmış müqavilələr öz qüvvəsində qalmalı idi. Yalnız yeni imzalanacaq müqavilədən irəli gələn müəyyən maddələr əvvəlki müqavilələrdən çıxarıla bilərdi; 9) Ticarət əlaqələrinin genişləndirilməsinə də Rusiya tərəfi öz maraqlarını nümayiş etdirməli idi. İkitərəfli maraqlara cavab verən ticarət münasibətləri dəstəklənməklə Rusiyanın maraqlarına cavab verməyən şərtlər isə qəbul edilməməli idi. General Rtişşevə səlahiyyət verilirdi ki, əsirlərin dəyişdirilməsi, səfirliklərin göndərilməsi və digər maraq doğuran məsələlərlə bağlı sülh müqaviləsinə əlavə maddələr daxil edilməsi haqqında qərar qəbul etsin (9).

Sadalanan şərtlər Rusiyanın nəzərdə tutduğu sülh müqaviləsinin əsasını təşkil etməli idi və Rusiya sarayı tələb edirdi ki, müzakirələrin aparılmasında ingilis vasitəçiliyi fəallaşsa da, Rusiyanın şərtləri birmənalı şəkildə qəbul edilməlidir. İngilis elçiliyi isə hər vasitə ilə iki dövlət arasındakı müzakirələrdə iştirak etməyə çalışırdı. Qor Uzeleyin Tehranda və Təbrizdə olması da ingilislərin vasitəçilik missiyasının fəallaşmasının ifadəsi idi. 1812-ci ilin aprelində İstanbuldakı ingilis səfiri Kanninq də ölkəsinin Rusiya ilə Qacarlar dövləti arasında sülh müzakirələrinin fəallaşdırılmasına hazır olduğunu bəyan etdi. Rusiya sarayı bu vasitəçiliyə etiraz etmədi. Bir şərtlə ki, Rusiyanın tələbləri qəbul edilsin. Rusiya İngiltərənin İranla aparılan sülh müzakirələrinə müdaxilə edəcəyindən, sülh müqaviləsinə İngiltərənin maraqlarını əks etdirən maddələr daxil etməyə çalışacağından ehtiyatlanırdı. Ona görə Rusiya sarayından general Rtişşevə tapşırıldı ki, sülh müzakirələrinin gedişinə ingilis nümayəndələrinin müdaxilələrinə imkan verməsin (10).

Rusiya ilə Qacar dövləti arasında sülh müqaviləsinin əldə edilməsinə vasitəçilik etməyə keçmiş Neapol səfiri Surra-Kapriola da cəlb olunmuşdu. Bu şəxs Heapolun səfiri kimi Rusiyaya gəlmişdi və vətənində hakimiyyət dəyişikliyindən sonra o, Rusiyada qalmalı olmuşdu. Geniş siyasi əlaqələrinə görə hersoq Surra-Kapriola Rusiyanın saray daxilində öz nüfuzunu saxlamaqda idi. İngiltərənin İstanbuldakı səfiri Kanninq də hersoq Surra-Kapriolanın vasitəsilə Rusiya sarayı ilə əlaqə saxlayırdı və İngiltərənin vasitəçilik təklifini də onun vasitəsilə Rusiya sarayına çatdırdı. Rusiyanın hökumət rəsmilərinin xahişi əsasında hersoq Surra-Kapriola həm İngiltərənin İstanbuldakı səfiri Kanninqə, həm də bu ölkənin Tehrandakı səfiri Qor Uzeleyə məktub yazdı. O, hər iki səfirə çatdırdı ki, bölgədə yaranmış status-kvo əsasında Rusiya İranla sülh müqaviləsi imzalamağa hazırdır. Hersoq Serra-Kapriolanın Qor Uzeleyə yazdığı məktub Rusiya sarayı tərəfindən general Rtişşevə göndərildi.

General Rtişşev həmin məktubdan istifadə etməklə danışıqların başlanmasına cəhd göstərməli idi. Bununla bağlı general Rtişşev məmur Freyqanqı Təbrizə göndərməyi qərara aldı. Freyqanq Neapol hersoqunun məktubunu Qor Uzeleyə çatdırmaqla bərabər, general Rtişşevin iki məktubunu da Abbas Mirzəyə çatdırmalı idi. General Rtişşev məktubunda Abbas Mirzəyə özünün yeni baş komandan təyin edilməsi haqqında məlumat çatdırmaqla, Freyqanqın səfərinin başa çatdırılmasına köməklik göstərilməsini də xahiş edirdi. General Rtişşev onu da bildirirdi ki, Abbas Mirzənin sülh anlaşmasına meylli olduğu təqdirdə bu istiqamətdə əməli fəaliyyətə başlamaq üçün imkan açılacaqdır. O, sülh danışıqlarının aparılmasına hazır olduğunu da Qacar şahzadəsinin nəzərinə çatdırırdı (11).

Freyqanq 1812-ci il aprel ayının 28-də Tiflisdən yola düşdü və yolunu İrəvan xanlığı ərazisindən saldı. O, İrəvan xanı sərdar Hüseyn xanla görüşdü və Hüseyn xan da onun qarşısında xanlıq qoşunlarına sıra baxışı keçirdi. Bir neçə gün İrəvanda qaldıqdan sonra Freyqanq yolunu davam etdirdi və may ayının 14-də Təbrizə çatdı. Burada da onun yaxşı qarşılandığı bildirilir. May ayının 17-də rus elçisi Abbas Mirzə ilə görüşə bildi. Bu zaman ingilis elçisi Qor Uzeley Tehranda idi. Ona görə də Freyqanq Tehrana yollanmağı qərara aldı. Lakin ona çatdırıldı ki, buna ehtiyac yoxdur və yaxın zamanlarda ingilis elçisi özü Təbrizə gələcəkdir. Freyqanq bir ay gözlədikdən sonra Qor Uzeley Təbrizə yetişdi və onunla görüşdü (12).

Mövcud olan məlumatlara əsasən demək olar ki, 1812-ci ilin aprel ayında Abbas Mirzənin nümayəndəsi Hacı Əbülhəsən xan Tiflisdə olmuş və general Rtişşevlə görüşə bilmişdi. Abbas Mirzə nümayəndəsi vasitəsilə general Rtişşevdən xahiş etdi ki, o öz xüsusi nümayəndəsini onun yanına göndərsin və ona ətraflı məlumat çatdırsın. General Rtişşev bu təklifi qəbul etdi və yeni məktubunu adyutantı podporuçik Popovla Təbrizə, Abbas Mirzəyə göndərdi. Freyqanqın Təbrizə yola düşməsindən bir müddət sonra podporuçik Popov da Təbrizə doğru hərəkətə başladı. Həmin məktubunda general Rtişşev bir daha sülh müzakirələrinin aparılmasına hazır olduğunu bəyan etdi və Abbas Mirzəyə təklif etdi ki, iki dövlət arasında sülh müzakirələrinin başlanması üçün rəsmi məktubla bərabər, sülh müzakirələrini aparmaq səlahiyyəti olan birisini onun yanına göndərsin (13).

Podporuçik Popov Təbrizə çatanda məmur Freyqanq hələ də orada idi. İstər Abbas Mirzənin nümayəndəsindən eşitdikləri, istərsə də podporuçik Popovun görüşünün nəticələri general-leytenant Rtişşevdə belə bir qənaət yaratdı ki, şah sarayı danışıqların aparılmasına


meyllidir. Nə qədər ki, ser Qor Uzeley Təbrizə yetişməmişdi istər Freyqanq, istərsə də podporuçik Popova qarşı qonaqpərvərliyin nümayiş etdirilməsi də şahzadənin ruslarla təmasları gücləndirmək istəyindən xəbər verirdi. Qacar şahzadəsi ilə aparılan danışıqlarda Abbas Mirzə general Rtişşevin yanına öz etibarlı nümayəndəsini göndərməyə hazır olduğunu və hətta özünün də sərhəd bölgəsində general Rtişşevlə görüşməsinin mümkünlüyünü bəyan etdi. İkitərəfli danışıqların aparılmasına meylini təsdiq etmək üçün Abbas Mirzə qoşunlara da 20 günlük istirahət verdi. Bundan əlavə xoş iradənin əlaməti kimi Abbas Mirzə Qarabağ xanlığı ərazisində əsir götürdüyü ruslardan 6 zabiti və 100 əsgəri də general Rtişşevə geri qaytarmağa vəd etdi. Abbas Mirzənin ruslarla ikitərəfli danışıqlara hazır olması heç də onun Rusiyanın şərtlərini qəbul etməyə hazır olmasından irəli gəlmirdi. Bu danışıqlara hər tərəf öz mövqeyindən yanaşırdı və Abbas Mirzə ümid edirdi ki, bu danışıqların gedişində Rusiyanı işğal etdiyi Azərbaycan xanlıqlarını boşaltmağa sövq edə biləcəkdir. Lakin ingilis elçisinin Təbrizə gəlməsindən və vəziyyətlə tanış olmasından sonra ruslara qarşı münasibət dəyişdi. Qor Uzeleyin açıq müdaxiləsi və təsiri nəticəsində ruslara verilən vədlərdən imtina edildi. Hətta Qacar qoşunlarının yenidən toplanmasına göstəriş verildi ki, bu da Abbas Mirzənin Arazın şimalına hücuma hazırlaşması ilə bağlı idi (14).

Şah sarayının İngiltərə ilə yeni siyasi-hərbi münasibətlər üzərində davam edən əlaqələri ingilis səfiri Qor Uzeleyə də imkan verirdi ki, şah sarayının apardığı siyasətə müdaxilə etsin. General Rtişşevə göndərdiyi məktubunda o, şah sarayının Rusiya ilə sülh danışıqlarına başlamasına etirazını bildirirdi. Bundan sonra Təbrizdə qərara alındı ki, general Rtişşevin adyutantı tezliklə geri qaytarılsın. Podporuçik Popovla birlikdə Tehrandakı ingilis səfirliyinin nümayəndəsi ser Qordon və Abbas Mirzənin nümayəndəsi Hacı Əbülhəsən də Tiflisə gəldilər. Onlar Abbas Mirzənin general Rtişşevə yazmış olduğu məktubu da gətirdilər. Abbas Mirzə ingilis səfiri ilə münasibətlərin necə formalaşmasından asılı olmayaraq həmin məktubunda bir daha həm tərəflər arasında müvəqqəti barışığın əldə edilməsinə, həm də sülh bağlanmasına meylli olduğunu nümayiş etdirdi. General Rtişşev də Abbas Mirzəyə göndərdiyi növbəti məktubunda əvvəlcə müvəqqəti barışığın əldə edilməsinə, ardınca isə sülh müzakirələrinin başlanmasına tərəfdar olduğunu bildirdi. Ser Qordon isə ingilis səfiri Qor Uzeleyin adından bildirdi ki, şah sarayının Rusiya ilə sülh danışıqları aparmasına etiraz etmir və şah sarayı mövcud olan sərhəd xətti üzrə sülh müqaviləsinin imzalanmasını müzakirə edə bilər. General Rtişşevin fikrincə, bu diplomatik fəallaşma sülh müzaki-

rələrinin başlanmasına təkan verə bilərdi. Eyni zamanda o, şah qüvvələrinin yenidən Azərbaycan xanlıqları üzərinə hücuma keçməyəcəyinə əmin deyildi. Ona görə diplomatik addımlarla bərabər, general Rtişşev mümkün hücumların qarşısının vaxtında alınması üçün zəruri müdafiə tədbirlərini də görürdü (15).

Yuxarıda qeyd edildiyi kimi, şah sarayı tərəfindən Qor Uzeleyə səlahiyyət verilmişdi ki, Abbas Mirzə ilə birlikdə Rusiya ilə danışıqlar aparsın. O da bu səlahiyyətdən istifadə edərək sülh danışıqları ətrafında cərəyan edən proseslərə müdaxilə edirdi. Qor Uzeleyin bu məsələlərdəki mövqeyi Cənubi Qafqazda status-kvonun saxlanmasına etiraz etməsi ilə bağlı idi. General Rtişşevin elçisi Freyqanqla görüşündə Qor Uzeley Qacarlar dövləti ilə Rusiya arasında sülh müqaviləsinin bağlanmasına vasitəçilik etməyə hazır olduğunu, şəxsən özünün də bu məsələdə əməkdaşlığa cəhd etməsini bildirsə də, üstüörtülü şəkildə status-kvonun saxlanmasının qeyri-mümkünlüyünə də işarə etdi. Qor Uzeley status-kvonun saxlanacağı təqdirdə müzakirələrin aparılmasının qeyri-mümkünlüyü onun ser Qordon vasitəsilə general Rtişşevə göndərdiyi məktubunda öz əksini tapdı (16).

Ser Qor Uzeleyin belə bir mövqe nümayiş etdirməsinin bir neçə səbəbi var idi. Əvvələ, Rusiya ilə İngiltərə arasında ittifaq münasibətləri hələ rəsmiləşdirilməmişdi və ona görə də Rusiyanın Cənubi Qafqazda müharibəyə cəlb edilməsi ingilis maraqlarına cavab verirdi. Digər tərəfdən Qor Uzeleyin Tehrana gəlişi ilə şah qoşunlarının ixtiyarına xeyli maliyyə vəsaiti, tüfəng, top, digər hərbi təchizat və çoxlu sayda ingilis zabiti verilmişdi. Qor Uzeleyin fikrincə, bütün bunlar Qacar qoşunlarının mənzərəsini xeyli dəyişəcək və ingilislərin köməyi ilə möhkəmlənən Qacar qoşunları rusların Azərbaycan xanlıqları ərazisindən geri çəkilməsi ilə nəticələnəcəkdi. Rus qoşunlarının geri çəkilməsi isə Rusiyanı İranla danışıqlarda daha böyük güzəştlərə sövq edə bilərdi. Nəhayət, Cənubi Qafqazda vəziyyətin sabit olmaması yerli əhalinin rus işğalına qarşı qiyam qaldıracağına ümidləri artırırdı. Ser Qor Uzeley ehtimal edirdi ki, şah qoşunlarının uğurlu döyüşləri işğal olunmuş ərazilərin əhalisinin ruslara qarşı fəallaşmasına təkan verə bilər (17).



Ser Qor Uzeley

Hersoq Serra-Kapriolanın vasitəçiliyi ilə Qor Uzeleyin Rusiya maraqlarına uyğun danışıqlara cəlb edilməsinə bağlanan ümid özünü doğrultmadı. Status-kvo əsasında sülh danışıqlarının aparılmasına başlamaq təklifi həm ser Qor Uzeley, həm də Qacar sarayı tərəfindən birmənalı qarşılanmadı. Qacar sarayında belə bir güman yarandı ki, status-kvonun saxlanmasına razı olan Rusiyanın vəziyyəti heç də yaxşı deyil. Ona görə də, Qor Uzeley kimi Qacar sarayı da belə bir qənaətə gəldi ki, Rusiyaya qarşı uğurlu döyüşün aparılması Rusiyanı daha böyük güzəştlərə məcbur edə bilər. Bu uğurlu döyüşün aparılması üçün Fətəli şah özü də çoxsaylı qoşun dəstəsi ilə Sultaniyyə çəməninə gəldi. Əlavə olaraq, Təbrizdə yeni qoşun dəstələrinin toplanmasına başlandı. Nəzərdə tutulurdu ki, Qacar qoşunlarında yenidən qurulmuş 8 minlik sərbaz dəstəsi də növbəti yürüşdə iştirak edəcəkdir (18).

Təbrizdə yeni qoşun dəstələrinin toplanmasına başlananda general Rtişşevin elçiləri və onlarla birlikdə yuxarıda adları çəkilən şəxslər

Tiflisə yola salındılar. Öz elçisi vasitəsilə göndərdiyi məktubunda Abbas Mirzə general Rtişşevə sülh müzakirələrinin aparılmasına tərəfdar olduğunu bildirdi. Konkret olaraq sülh müzakirələri ilə bağlı isə məktubda ciddi bir təklif yox idi. Qacar şahzadəsi daha çox Rusiya tərəfinin hansı şərtlərə malik olması ilə tanış olmaq niyyətini açıqlayırdı. General Rtişşevin mövqeyi isə belə idi ki, əvvəlcə tərəflər arasında barışıq haqqında anlaşma imzalansın, sonra isə sülh müqaviləsi ətrafında müzakirələr başlansın. Bununla bağlı, general Rtişşev də sərhəd bölgəsində Abbas Mirzə ilə görüşməyə razı idi (19).

Abbas Mirzənin və general Rtişşevin elçilərinin Təbrizdən qayıdıb Tiflisə yetişməsi 1812-ci il iyul ayının əvvəllərinə təsadüf edir. Elçilər Tiflisdə olduqları zaman şah qoşunlarının dəstələri həm Qarabağ xanlığına, həm də Şəmşəddil mahalına hücum etdilər. Görünür, bununla Qacar şahzadəsi yeniləşmiş şah qoşunlarının nəyə qadir olduğunu yoxlamaq istəyirdi. Bu dəstələrin hücumlarının nəticə verməməsi Abbas Mirzənin və Qor Uzeleyin elçilərini Tiflisdə apardığı danışıqlara da öz təsirini göstərə bilərdi. Amma dəstələr uğursuzluğa düçar olaraq geri çəkilməli oldu. Bu isə öz növbəsində Tiflisə gəlmiş elçilərlə danışıqlarda Rusiyanın mövqeyinin güclənməsinə səbəb oldu.

General Rtişşev ingilis elçisinin Tiflisə gəlmiş nümayəndəsi ser Qordonla üç dəfə görüşdü. Bu görüşlərdə İngiltərənin Rusiya ilə Qacar sarayı arasında anlaşma əldə etməsinə kömək göstərməyə hazır olması bəyan edildi. Bununla belə Qor Uzeleyin əvvəlki mövqeyi bir daha Rusiya tərəfinin diqqətinə çatdırıldı. Qor Uzeleyin adından çıxış edən ser Qordon da ağası kimi Azərbaycan xanlıqlarının gələcəyi ilə bağlı Rusiyaya qarşı ciddi tələblər irəli sürdü. Ser Qordon da fikirləşirdi ki, Qacar qoşunlarının güclənməsi Rusiyanı öz mövqeyindən geri çəkilməyə məcbur edə bilər. Ona görə də rus generalının nəzərinə çatdırıldı ki, şah qoşunlarında ciddi dəyişiklik baş verib, bu qoşunlar indi yalnız basqınlar etməyə deyil, eyni zamanda Rusiya ilə uzun müddətli müharibə aparılmasına da hazırdır. Qordon qeyd edirdi ki, İranın beynəlxalq vəziyyəti yaxşılaşıbdır, bu dövlətin artıq Rusiyadan başqa düşməni yoxdur və s. İngilis elçisinin nümayəndəsi Gürcüstan və Dağıstanda yerli xanların Rusiyaya qarşı qiyama hazırlaşmalarına da işarə etdi və bununla Rusiyanın Qafqazdakı vəziyyətinin həssas olması nəzərə çatdırıldı (20).

Əslində, doğrudan da Gürcüstanda və Dağıstanda olduğu kimi Arazın şimalında işğal edilmiş Azərbaycan xanlıqları ərazisində Rusiya qüvvələrinə qarşı bir barışmazlıq və Rusiya işğalına qarşı qiyam üçün obyektiv bir baza var idi. Amma Rusiya işğalına və şah qoşunlarının yürüşlərinə qarşı Azərbaycan xanlıqları birləşə bilmədikləri kimi,

Azərbaycan xanlıqları ərazisində işğala qarşı mövcud olan barışmazlıq da vahid ümummilli hərəkata çevrilə bilmədi. Ayrı-ayrı xanlıqların ərazisində isə işğala qarşı müqavimət uzun sürmürdü və onları ayrılıqda yatırmaq xeyli asan olurdu. Bu qiyamların uğurla nəticələnməsi üçün yerli əhali arasında şah qoşunlarının köməyinə də müəyyən ümidlər bağlanılırdı. Amma Qacar sarayı belə köməyin göstərilməsinə həmin xanlıqların şah hakimiyyəti altına gətirilməsi üçün bir vasitə kimi baxırdı ki, bu da yerli əhali tərəfindən qəbul olunmurdu. Ona görə ingilis elçiliyinin Qafqazda rus işğalına qarşı müqavimətin genişlənməsi ehtimalına işarə etməsi rus qoşunları komandanını elə bir təşvişə salmadı.

Ser Qordon general Rtişşevlə görüşündə Qacarlar sarayının Cənubi Qafqazda mövcud status-kvonun dəyişdirilməsi şərti ilə sülh müzakirələrini başlamağa hazır olduğunu və ingilis elçiliyinin də Qacar sarayını bu mövqeyindən döndərmək gücündə olmadığını bəyan etdi. Ser Qordon onu da bildirdi ki, Osmanlı Türkiyəsi ilə sülh bağlanması üçün Rusiya bu dövlətə nəzərdə tutduğu güzəştlərin Qacar sarayı ilə müzakirələrdə də təkrarlanması yaxşı olardı. General Rtişşev isə Rusiya ilə İngiltərə arasında formalaşmaqda olan yeni dostluq münasibətlərini ser Qordonun nəzərinə çatdıraraq Cənubi Qafqazda status-kvonun hər hansı bir şəkildə dəyişdirilməsinə razı olmadığını bildirdi. Rus qoşunları baş komandanı ser Qordonun dilindən səslənən təhdidləri və xəbərdarlığı da qəbul etmədi. Əksinə, bildirdi ki, Rusiya imperatorunun tapşırığına əsasən iki dövlət arasında sülh müqaviləsinin imzalanmasını, müharibənin dayandırılmasını istəyir. General Rtişşev bəyan etdi ki, rus silahının gücü hesabına ələ keçirilmiş ərazilərin geri qaytarılmasına razı deyil. O, Qacar dövlətinin gücləndiyi və qoşunlarının da möhkəmləndiyi haqda söylənilənləri də şübhə altına aldı və 8 il ərzində cəbhədə baş verənləri buna sübut kimi göstərdi. Rus generalı qeyd etdi ki, şah sarayı artıq neçə ildir ki, Rusiyanın ələ keçirdiyi ərazilərə iddia irəli sürür, hərbi yürüşlər edir. Amma bu iddiaların həyata keçirilməsi üçün şah qoşunlarının möhkəmlənməsi onların fəaliyyətində heç də hiss olunmur. General Rtişşevə görə rus qoşunları isə artıq çoxdan nizamlanıb, təşkilatlanıb və möhkəm intizama malikdir. Onun potensialı bütün dünyaya bəllidir. Generalın fikrincə, yenicə yaradılan şah qoşunları və sayı artırılan atlı qüvvələr Rusiya qoşunlarına üstün gələ bilməzdilər. Əksinə, general Rtişşev də şah qoşunlarını hədələdi və söylədi ki, şah sarayını sülhə məcbur etmək üçün Rusiyanın çoxlu imkanları vardır. Sonra da general bəyan etdi ki, onun imperatoru müharibəyə yox, sülhə üstünlük verir, Qacar dövlətindən öz ərazilərini güzəştə getməsini istəmir, sərhəd xəttinin yalnız işğal olunmuş ərazilərin sərhədindən keçməsini istəyir.

Baş komandan təkrar etdi ki, şah sarayı real olanların ardınca getsin, yəni Rusiyanın şərtlərini qəbul etsin və daha ümidlərlə yaşamasın. Onun söylədiyinə görə, şah sarayı ümidlərinin reallaşacağı arzusu ilə müharibəni başlamış olarsa, iddiasında olduğu digər ərazilər də əlindən çıxar və Qacar dövləti üçün əlverişli olmayan yeni bir şərait yarana bilər (21).

Yuxarıda qeyd edildiyi kimi, ingilis elçiliyi Rusiya tərəfindən Osmanlı Türkiyəsi ilə sülh anlaşmasının əldə edilməsi zamanı qəbul edilən güzəştlərin Qacar dövləti ilə müzakirələrə də tətbiq olunmasını təklif etdi. General Rtişşev ser Qordonla danışıqlar zamanı bu məsələyə də münasibətini bildirdi. O qeyd etdi ki, əvvəla Osmanlı Türkiyəsinə qarşı Rusiya dövləti tərəfindən hansı güzəştlərin verilməsindən xəbəri yoxdur. Digər tərəfdən isə o bəyan etdi ki, bu məsələlərin eyniləşdirilməsi düzgün deyildir. General Rtişşev birmənalı şəkildə ingilis nümayəndəsinin nəzərinə çatdırdı ki, ona Rusiya imperatoru tərəfindən Cənubi Qafqazda status-kvonun saxlanılması şərti ilə sülh müqaviləsinin imzalanmasına səlahiyyət verilmişdir (22).

Bir müddət sonra Abbas Mirzənin və Qor Uzeleyin nümayəndələri ilə general Rtişşevin görüşləri başa çatdı. Bu nümayəndələr geri yola salındı. Abbas Mirzənin elçisi Hacı Əbülhəsən ingilis nümayəndəsi ilə birlikdə geri qayıtmaqdan imtina etdi. Ona görə onlar ayrılıqda yola salındılar. Əvvəlcə, ser Qordon Qarabağ xanlığından keçməklə Təbrizə istiqamət götürdü. Ondan bir neçə gün sonra isə Hacı Əbülhəsən İrəvan xanlığından keçməklə Təbrizə doğru yola düşdü. General Rtişşevin təəssüratlarına görə, Hacı Əbülhəsən Rusiyanın sülh müqaviləsinin bağlanmasına meylli olduğunu bütünlüklə Abbas Mirzəyə çatdıracağında qərarlı görünürdü. Baş komandanın yazdığına görə, Hacı Əbülhəsən Rusiya təkliflərinin Abbas Mirzə tərəfindən qəbul ediləcəyinə arxayın görünürdü. Qacar elçisi bildirmişdi ki, Abbas Mirzənin səlahiyyətli nümayəndəsinin general Rtişşevin yanına göndərilməsinə və Abbas Mirzə tərəfindən azad edilməsinə söz verilmiş rus əsirlərinin qaytarılmasına çalışacaqdır (23).

Ser Robert Qordonun Qarabağ xanlığından keçməklə Təbrizə yola salınması haqqında qərar general Rtişşev tərəfindən qəbul edilmişdi. O istəyirdi ki, Gürcüstanla bərabər, Azərbaycan xanlıqları ərazisində də rus işğalına qarşı müqavimətin olmadığına ser Qordon əmin olsun. Bundan başqa, general Rtişşev ingilis elçiliyinin nümayəndəsində həm də rusların güclü olması təsəvvürünü yaratmaq istəyirdi. Bunun üçün ser Qordona rus generalları və ayrı-ayrı qoşun dəstələrinin rəhbərləri ilə görüşmək və onların xidmətini müşahidə etmək fürsəti yaradıldı. General Rtişşev xüsusilə ser Qordona general Kotlyarevskinin rəhbərliyi altında Qarabağ xanlığında olan qoşun dəstəsini göstərmək istəyirdi. Bir tərəfdən general

Kotlyarevskinin dəstəsi rus qoşunlarının güclü dəstələrindən biri idi və bu dəstə ilə tanışlıq ser Qordonda rus qoşunlarının güclüyü barəsində təsəvvür yarada bilərdi. Digər tərəfdən, general Kotlyarevskinin dəstəsi məsafəcə Təbrizə ən yaxın olan dəstələrdən biri idi və bu dəstə piyada marş həyata keçirməklə 5 gün ərzində Təbrizə yetişə bilərdi. Bununla da ruslar ser Qordonun nəzərinə çatdırmaq istəyirdilər ki, onlar qısa müddətdə Təbriz üzərinə hücum edə bilərlər (24).

Sülh müqaviləsinin şərtlərinin müəyyənləşdirilməsinə ingilis elçiliyinin müdaxilə etməsi və həmin şərtləri Rusiyaya qəbul etdirməyə çalışması, habelə İngiltərənin iki dövlət arasındakı müzakirələrə təsiri Rusiyanın istəklərinə cavab vermirdi. Rusiya sarayı İngiltərənin müzakirələrin aparılmasına vasitəçilik və himayəçilik etməsini istəyirdi, müzakirələrin gedişinə və dövlətlərin mövqelərinə müdaxilə edilməsini isə yox. Qacar sarayı isə ser Qor Uzeleyin sülh müzakirələrində iştirakına təkid edirdi. Bu isə general Rtişşevin Rusiya sarayından aldığı təlimatın tələbləri ilə uyğunluq təşkil etmirdi. Ona görə general Rtişşev Rusiya sarayına məktub yazaraq Qacar sarayının sülh müzakirələrinə razı olacağı və bu zaman Qor Uzeleyin də bu müzakirələrdə iştirak etmək istədiyi təqdirdə necə hərəkət etməli olduğunu soruşdu (25).

General Rtişşev ser Qordonla ingilis elçisi Qor Uzeleyə, Hacı Əbülhəsənlə isə Abbas Mirzəyə məktublar göndərdi. Qacar şahzadəsi ser Qordonun Qarabağdan keçməklə Təbrizə göndərilməsinin məqsədini dərhal anladı. Onun nəzərində belə bir addım atılması rusların köhnə hiyləsinin nəticəsi idi. Abbas Mirzə rusların güclü olduğuna inanmırdı və əmin idi ki, ruslar ser Qordona eyni qoşun dəstəsini bir neçə dəfə müxtəlif yerlərdə göstərmiş və bununla da ruslar ser Qordonu aldatmağa çalışmışdılar (26).

1812-ci il avqust ayının əvvəllərində Robert Qordon Tiflisdən göndərdiyi məktubunda Qor Uzeleyə çatdırırdı ki, Rusiyanın Qafqazdakı qoşunlarını baş komandanının şah sarayı ilə müqavilə imzalamağa tam səlahiyyəti vardır. Onun yazdıqlarına görə, general Rtişşev şəxsən bu məsələyə xüsusi diqqət yetirirdi və hazır idi ki, Araz çayı yaxınlığında Abbas Mirzə ilə görüşsün və sülh müqaviləsi ilə bağlı onunla müzakirə aparsın. Rus generalının xahişi də belə idi ki, mümkün qədər tez sülh müqaviləsi imzalansın. Bununla bağlı hətta qoşun komandirlərinə göstəriş verilmişdi ki, döyüşlər dayandırılsın və danışıqlar üçün münasib şərait yaradılsın (27)

Bu məktub yetişəndə Abbas Mirzə Naxçıvan-Mərənd yolu üzərindəki hərbi düşərgəsində idi. Qor Uzeleyin tapşırığına əsasən iki nəfər vasitəsilə müşayiət olunan Moriye həmin məktubu Abbas Mirzənin

düşərgəsinə apardı. Səhəri gün Moriye Abbas Mirzə tərəfindən qəbul olundu. Abbas Mirzə rus generalının sülh müqaviləsi bağlamaq təklifi ilə tanış oldu. General Rtişşev eyni zamanda Rusiya ilə Osmanlı dövləti arasında Buxarestdə imzalanmış müqavilənin surətini də göndərmişdi. Çox güman ki, Rtişşev bununla şah sarayının Osmanlı dövlətinin köməyindən məhrum olduğunu Abbas Mirzənin diqqətinə çatdırır və ona Rusiyanın təklifi əsasında sülh müqaviləsi imzalamalı olacağını bildirirdi. Şahidlərin yazdığına görə, Abbas Mirzə Rusiya ilə Osmanlı dövləti arasında imzalanmış müqavilənin surətini çox diqqətlə mütaliə etdi və onun bəzi maddələri ilə bağlı öz yaddaşlarını etdi. General Rtişşev eyni zamanda sülh müqaviləsi imzalamağa səlahiyyətli olduğunu və şah sarayının meyl göstərdiyi təqdirdə qoşunların təmas xəttində müzakirələrin başlanmasına hazır olduğunu çatdırdı (28).

Farsdilli mənbələrə görə, Robert Qordon Tiflisə göndəriləndə Abbas Mirzənin bir sıra təkliflərini də general Rtişşevə çatdırdı. Abbas Mirzə rus generalının diqqətinə çatdırırdı ki, əgər doğrudan da sülh müqaviləsinin müzakirəsinə başlamaq istəyirsə Qaracadağ qışlaqlarına tərəf gəlsin. Mənbənin yazdığına görə, Abbas Mirzə general Rtişşevdən müqavilə şərtlərinin əvvəlcə göndərilməsini və 40 günlüyə döyüşlərin dayandırılmasını xahiş etdi. Abbas Mirzə bildirirdi ki, Talış zonası Rusiya ilə müzakirə olunacaq sülh müqaviləsinin mövzusu olmamalıdır (29).

Abbas Mirzə avqustun 8-də və 10-da məktublar yazıb general Rtişşevə göndərdi və danışıqlar üçün şərtlərini açıqladı. Bununla belə, aparılan məsləhətləşmələr və danışıqlardan sonra tərəflər arasında sülh müzakirələrinə başlanması razılaşdırıldı.

2. Azərbaycan xanlıqlarının işğalını rəsmiləşdirəcək müqavilə ətrafında ilk müzakirə cəhdləri

Hətta qərara alındı ki, müzakirələr bir başa Abbas Mirzə ilə general Rtişşev tərəfindən başlansın. Bunun üçün onlar Araz çayı yaxınlığında görüşərək irəli sürülən təklifləri araşdırmalı idilər. İlkin razılaşma əldə ediləndə görüşün yeri və tarixi məlim deyildi. General Rtişşev görüş yerinin seçilməsi məsələsində Abbas Mirzənin istənilən təklifi ilə razı olacağını bəyan etdi. Bir şərtlə ki, bu görüş yeri Rusiyanın işğalı altında olan ərazidən, yəni Qarabağ xanlığının cənub sərhədi olan Araz çayından çox da uzaq olmasın. İyul ayının sonu, avqustun əvvəlində general Rtişşev bu məsələ ilə bağlı Abbas Mirzəyə üç məktub göndərdi. Lakin onların heç birinə cavab almadı (30).

Bununla belə, Rusiyanın mövcud vəziyyəti, Fransa ilə müharibənin alovlanması şah sarayı ilə sülh müqaviləsinin bağlanmasını vacib edirdi. Ona görə də, general Rtişşev Abbas Mirzə ilə sülh danışıqlarının harada aparılacağından məlumatı olmasa belə 1812-ci il avqust ayının 21-də Tiflisdən Qarabağ xanlığına yola düşdü. Məlum idi ki, danışıqlar Qarabağ xanlığının sərhədində, ya da ki sərhəd xətti yaxınlığında aparılacaqdır. Müzakirələrin aparılmasına razılıq əldə edilməsi ilə Abbas Mirzə tərəfindən 10 günlük atəşkəs haqqında qərar verildi. Eyni zamanda rus generallarının nəzərinə çatdırıldı ki, Talış xanlığında baş verən hadisələr sülh danışıqlarının mövzusu olmamalıdır (31).

General Rtişşevin fikrincə, Abbas Mirzə bu müzakirələrin başlanmasına razı olsa da öz planlarının hərbi yolla həyata keçirilməsi niyyətindən də əl çəkməmişdi. Çünki Abbas Mirzə Sultanbud döyüşündə bir tabor rus hərbi qüvvəsinin məhvini və əsir düşməsini general Rtişşevin komandanlığı altında olan qüvvələrinin zəiflədiyi kimi dəyərləndirirdi.Ona görə də, Abbas Mirzə Təbriz ətrafında qoşunlarının sayının artırılması ilə məşğul idi. General Rtişşevin əlində olan məlumata görə, Təbriz ətrafında Abbas Mirzənin 13 min nəfərlik piyada qoşunu var idi. Atlı qoşunun sayının isə bundan xeyli çox olduğu güman edilirdi. Bundan başqa Fətəli şah tərəfindən əlavə 8 min nəfərlik qoşun dəstəsinin göndəriləcəyi gözlənilirdi. Rus generalı ehtimal edirdi ki, Abbas Mirzə sülh danışıqları pərdəsi altında Gürcüstandakı həyəcanlı vəziyyətdən istifadə edəcək və əhalini ruslar əleyhinə qaldırmağa çalışacaq. Buna nail olmaq üçün Abbas Mirzənin himayəsi altında olan gürcü vəliəhdi Aleksandr Mirzə də fəallığını artırdı. Bundan başqa sülh müzakirələrinin alınmayacağı təqdirdə Abbas Mirzə qüvvələrinin Qarabağ xanlığı üzərinə hücum edəcəyi təhlükəsi də var idi. General Kotlyarevskinin rəhbərliyi altında Qarabağda olan rus hərbi qüvvələri yuxarıda göstərilən sayda Abbas Mirzə qüvvələrinin qarşısını almağa yetərli deyildi. Ona görə danışıqlar üçün Qarabağa yollanan general Rtişşev Qarabağ dəstəsinin möhkəmləndirilməsi üçün özü ilə hərbi qüvvə gətirdi (32).

General Rtişşev sülh müzakirələrinin aparılmasına yollananda Lənkəran xanlığında hərbi-siyasi şərait mürəkkəbləşmişdi. Avqust ayının əvvəllərindən etibarən Lənkəran xanlığı şah qoşunlarının hücumuna məruz qaldı. Lənkəran xanlığında yaranan vəziyyətin təsviri barədə yuxarıda yazılanlardan məlumdur ki, şah qoşunlarının hücumu Lənkəranda yerləşən rus dəstəsi üçün kifayət qədər təhlükəli xarakter aldı. Hətta Lənkəran ətrafında dayanan hərbi-dəniz qüvvələrinin rəhbəri Veselaqa Qarabağdakı rus dəstəsinin komandiri general Kotlyarevskiyə müraciət etdi, onu Abbas Mirzə qüvvələrinə qarşı təxribat xarakterli döyüşlərə

başlamağa çağırdı. Məlumatlardan belə qənaətə gəlmək mümkündür ki, general Rtişşev də Qarabağ dəstəsinin Talış xanlığı ərazisində olan Abbas Mirzə qüvvələrinin yayındırılması üçün kiçik döyüşlərə qatılmasına tərəfdar idi. Amma sonradan general Rtişşev həm İrandakı ingilis səfiri Qor Uzeley ilə, həm də Abbas Mirzənin özü ilə yazışmalar apardı. Ser Qor Uzeleyə göndərdiyi məktubunda general Rtişşev bildirirdi ki, Rusiya ilə İngiltərə arasında artıq sülh müqaviləsi imzalanıb, iki ölkə arasında ticarət əlaqələri bərpa olunub və artıq ümumi düşmən ölkə olan Fransaya qarşı vuruşmaq üçün İngiltərə Rusiyaya dəniz qüvvələri ilə və digər qüvvələrlə kömək göstərmişdir. Bundan sonra general Rtişşev ingilis zabitlərinin Lənkəranda rus qoşun dəstəsinə qarşı hücumda iştirak etməsinə təəccübünü bildirirdi və bu məsələyə aydınlıq gətirməsini xahiş edirdi. Abbas Mirzəyə göndərdiyi məktubunda isə general Rtişşev sülh müzakirələrinin baş tutmasını Lənkəran xanlığındakı döyüşlərin dayandırılmasından asılı olduğunu bildirdi (33).

Sentyabr ayının 5-də general Rtişşev Əsgərana yetişdi. Elə həmin günlərdə o, Abbas Mirzədən məktub aldı. Abbas Mirzə general Rtişşevin sülh müzakirələri üçün Qarabağa gəlməsindən məmnunluğunu ifadə etdi. Qacar şahzadəsi Talış xanlığında döyüşlərin dayandırılmasını bəyan etməklə ikitərəfli görüşün Araz kənarındakı Sultan Hasarı məntəqəsində keçirilməsi haqqında qərar qəbul etdiyini bildirdi. Nəhayət Abbas Mirzə general Rtişşevin nəzərinə onu da çatdırdı ki, sülh müzakirələrində ingilis səfiri Qor Uzeleyin iştirakı vacibdir və ona görə o da Təbrizə dəvət olunubdur (34).

Əsgəran qalasına yaxınlaşanda Abbas Mirzə Nəcəfqulu xan adlı əyanını və Təbriz nayibini general Rtişşevin qarşılanması və müşayiət olunması üçün göndərdi. Nəcəfqulu xan general Rtişşevi Əsgərandan ikitərəfli görüşlər keçiriləcəyi məntəqəyə qədər müşayiət etməli idi. Sentyabr ayının 9-da general Rtişşev artıq Araz çayından 25 verst aralı olan Qaraköpək məntəqəsində idi. Bura yetişəndən sonra general Rtişşev 19-cu diviziyanın komandiri general-mayor Axverdovu məktubla birlikdə Abbas Mirzənin yanına göndərdi. General Axverdov general Rtişşevin Qaraköpəkə yetişdiyini Abbas Mirzəyə çatdırmaqla bərabər, eyni zamanda görüşün keçiriləcəyi məkanı da onunla razılaşdırmalı idi. General Axverdova tapşırıldı ki, görüşün keçirilməsi üçün Araz çayından 1-2 verst uzaq olmayan məntəqə seçilsin. Rus generalı bir daha Abbas Mirzənin nəzərinə çatdırmalı idi ki, general Rtişşev tutduğu vəzifə və malik olduğu rütbəyə görə Rusiya sərhədindən çox da uzaqlaşa bilməz. General Axverdova verilən tapşırıqlar təkliflər şəklində general Rtişşevin Abbas Mirzəyə ünvanladığı məktubunda da öz əksini tapmışdı. Rus

qoşunlarının komandanı Abbas Mirzə qarşısında eyni zamanda atəşkəsin uzadılması haqqında da məsələ qaldırdı (35).

Görüşün keçirilməsi ilə bağlı bir sıra protokol məsələlərinin aydınlaşdırılması da Abbas Mirzədən xahiş olundu. General Rtişşevi maraqlandırırdı ki, hər tərəfdən mühafizə məqsədilə hansı sayda qüvvə olmalıdır, neçə ədəd top gətirilməlidir. Rus qoşunları baş komandanı təklif edirdi ki, bu məsələ razılaşdırılsın və görüş yerində hər iki tərəfdən bərabər sayda hərbi qüvvə iştirak etsin. Danışıqların aparılması üçün general Rtişşev 2 çadırın qurulmasını məqsədəuyğun bilirdi. Bu çadırların biri ona, digəri isə Abbas Mirzəyə məxsus olmalı idi. Abbas Mirzəyə olan hörmət üzündən general Rtişşev ilkin olaraq Abbas Mirzənin çadırına getməyə etiraz etməyəcəyini yazırdı. Çadırlarda danışıqların aparılması üçün nümayəndə heyətlərinin rəhbərlərinin eyni sayda şəxslər tərəfindən müşayiət olunması da general Rtişşevin təklifləri arasında idi. General Rtişşev müvəqqəti barışıq anlaşmasına aydınlıq gətirilməsini də qarşı tərəfdən xahiş etdi. Sentyabr ayının 10-da elan edilmiş barışıq müddəti bitməli idi. Barışığın hansı tarixə qədər uzadılması qərarını general Rtişşev Qacar şahzadəsinin öhdəsinə buraxırdı və yazırdı ki, onun bu məsələ ilə bağlı qəbul etdiyi qərara hörmətlə yanaşacaqdır. Amma o xahiş edirdi ki, barışığın uzadılması ilə bağlı qərar əvvəldən elan edilsin ki, o da qoşun dəstələrinə müvafiq tapşırıq versin (36).

General Rtişşevin məktubunu gətirən general Axverdov Abbas Mirzə tərəfindən qəbul edildi. Amma bu qəbul zamanı general Axverdov Qacar şahzadəsi Abbas Mirzəyə qarşı kobudluq nümayiş etdirdi və şah sarayının protokol qaydalarına hörmətsizlik göstərdi. Əvvəlcə Abbas Mirzənin əyanları və hətta ingilis səfiri general Axverdova xəbərdarlıq etdilər ki, Qacar şahzadəsinin qəbuluna girərkən ayaqqabılarını çıxartmalıdır. Axverdov isə ayaqqabılarını çıxartmadan Abbas Mirzənin çadırına daxil oldu və müvafiq izni gözləmədən Abbas Mirzə qarşısında əyləşdi. Ona xəbərdarlıq edənlərə isə bildirdi ki, Rusiya imperatorunun qəbuluna necə gedirsə, burada da o normaları əsas tutacaqdır (37).

Rus mənbələrində isə bu məsələ fərqli şəkildə təsvir edilmişdir. Rus mənbələrinə görə, general Axverdovun Qacar sarayının protokol normalarına riayət etməməsi doğrudan da baş vermişdi. Onun görüşdüyü ilk şəxslərdən biri şahzadə qayməqamı Mirzə Bozorg idi. Bildirilir ki, general Axverdovla ilk görüşdə Mirzə Bozorg ondan general Rtişşevin Abbas Mirzəyə yazdığı məktubunu istədi. Mirzə Bozorg bu məktubun məzmunu ilə tanış olmaq istəyirdi. General Axverdovdan eyni zamanda tələb olundu ki, şahzadə ilə görüşdən əvvəl ingilis elçisi ilə görüşsün. Daha sonra ona çatdırıldı ki, Abbas Mirzə ilə görüşə getmək üçün ge-

neral Axverdov fars libası geyinsin. General Axverdov bu şərtlərin heç birini qəbul etmədi. Mirzə Bozorg buna cavab olaraq bildirdi ki, Abbas Mirzə Rusiya ilə sülh müqaviləsinin bağlanmasını istəyir və yalnız bu istəyin nişanəsi kimi ola bilsin ki, rus generalını öz hüzuruna qəbul etsin. Əslində elə belə də oldu. Amma görüşdən əvvəl Mirzə Bozorg şahzadənin xidmətçiləri vasitəsilə Abbas Mirzəyə çatdırdı ki, rus general şah sarayının protokol normalarına əməl etmir və ona görə də general Axverdova öz hüzurunda oturmağa icazə verməsin. Yəni, general Axverdov ayaq üstündə Rusiya tərəfinin mövqeyini məruzə etsin və müəxxəs olsun. Bununla belə, Abbas Mirzə general Axverdovu normal qaydada qarşıladı, onunla söhbət etdi, general Rtişşevin məktubu ona oxundu. Görüşün sonunda Abbas Mirzə bildirdi ki, general Rtişşevin məktubuna cavab hazırlanacaq və qayməqam Mirzə Bozorg vasitəsilə ona çatdırılacaqdır (38).

Abbas Mirzə həmin məktubda qaldırılan təkliflərlə ümumən razılaşdı. O general Rtişşevin sülh müzakirələrinin aparılmasına hazır olduğuna görə məmnunluğunu ifadə etdi və görüş yerini Sultan Hasarından Araz çayına daha yaxın olan Ağtəpə adlı məntəqəyə dəyişdi. Ingilis elçiliyinin katibi Ceyms Moriyerin yazdığına görə, Abbas Mirzənin bu görüşə razılıq verməsi Qor Uzeleyin təzyiqindən sonra baş verdi. Onun bildirdiyinə görə, 1812-ci il sentyabr ayının 7-də Qor Uzeley Təbrizdən Abbas Mirzənin düşərgəsinə gəldi və Rusiya tərəfinin təklifləri ətrafında onunla müzakirələr apardı. Bu müzakirələrin nəticəsi isə o oldu ki, Abbas Mirzə general Rtişşevlə Ağtəpədə görüşməyə razı oldu (39). Həmin məntəqə Araz çayından 2 fərsəng aralı idi. Abbas Mirzə eyni zamanda atəşkəs dövrünün daha 20 gün uzadılmasını qərara aldı. General Axverdovla bərabər, Abbas Mirzə öz nümayəndəsini, ingilis səfiri isə öz nümayəndəsini general Rtişşevin yanına göndərdilər. General Rtişşev onları qəbul etdi. Amma sülh danışıqlarının aparılması üçün təyin edilmiş yeni məkanı qəbul etmədi. Rus generalı görüş yerinin Qarabağ xanlığının sərhəd xəttinə daha yaxın olmasını istəyirdi. O təklif edirdi ki, görüş yeri Araz çayından 2 verst məsafə çərçivəsində olsun. Bu təklifin nəzərə alınmamasını general Rtişşev sülh danışıqlarına maneə yaradılması kimi qiymətləndirirdi (40).

Abbas Mirzə göndərdiyi məktubunda görüş yeri kimi Arazın yaxınlığında yer seçilməsinə Fətəli şah tərəfindən buyuruq olmadığını bildirdi. Ona cavab olaraq general Rtişşev də Arazdan uzaq olan bir ərazidə görüş keçirə bilməyəcəyini yazdı. Ona görə general Rtişşev yazırdı ki, sülh müzakirələrinə meylli olsa da qarşılıqlı anlaşmanın əldə edilməsinə səy göstərsə də, görüş üçün təklif olunan yeri qəbul edə

bilməz və o, şahzadə tərəfindən belə bir yerin təklif olunmasını sülh müzakirələrinə maneə yaratmaq kimi qiymətləndirirdi. General Rtişşev bir daha təkrar etdi ki, görüş üçün Araz ətrafında yer seçilməsə onda bu görüş alınmayacaqdır. Rus generalı onu da əlavə edirdi ki, müzakirələrin aparılması məqsədilə görüşün keçirilməsi üçün öz tərəfindən lazım olan işləri görmüşdür. Bundan sonra general Rtişşev şahzadə Abbas Mirzəyə təklif etdi ki, qarşılıqlı şəkildə səlahiyyətli şəxslər müəyyənləşdirilsin və həmin səlahiyyətli şəxslər Ağoğlanda görüşərək sülh müqaviləsini müzakirə etsinlər. Müvəqqəti barışıq müddətinin 20 gün uzadılması ilə bağlı Qacar şahzadəsinin təklifini general Rtişşev qəbul etdi və bununla bağlı qoşun dəstələrinə müvafiq tapşırıq verildiyini Abbas Mirzənin nəzərinə çatdırdı. O vəd etdi ki, şah qoşunları bu barışığı pozmasa, rus qoşunları ona riayət edəcəkdir (41).

Qacar şahzadəsi general Rtişşevə cavab yazdı və bildirdi ki, görüş yerinin seçilməsi səlahiyyəti general Rtişşev tərəfindən ona həvalə olunmuşdu. O isə rus baş komandanının Araz çayından çox da uzaqlaşa bilməyəcəyindən xəbərsiz idi. Təklif olunan görüş yeri də rus generalının istəyindən xəbərsiz seçilmişdi. Tərəflərin səlahiyyətli nümayəndələrinin təyin edilməsi təklifini Abbas Mirzə də müdafiə etdi və vəzir Mirzə Əbülqasımın səlahiyyətli nümayəndə təyin edildiyini və səlahiyyətli nümayəndələrin Aslandüzdə görüşməsinin mümkünlüyünü general Rtişşevə çatdırdı. General Rtişşevin diqqətinə o da çatdırıldı ki, Mirzə Əbülqasımla birlikdə danışıqlarda ingilis elçiliyinin nümayəndəsi Moriyer də iştirak etməlidir (42).

General Rtişşev səlahiyyətli nümayəndələrin görüşünün Aslandüzdə keçirilməsini mümkün saydı və sentyabr ayının 25-də onun səlahiyyətli nümayəndəsi general Axverdov Aslandüzə yola düşdü. Onu danışıqlarda general Rtişşevin Dəftərxana müdiri Mogilyevski müşayiət etməli idi Abbas Mirzənin məktubunu general Rtişşevə ingilis elçiliyinin katibi Moriyer çatdırdı. General Rtişşev də öz cavablarını Moriyer vasitəsilə göndərdi. Bundan başqa general Rtişşev ingilis elçisinin katibi ilə ayrıca görüş keçirdi və iki dövlət arasında sülh müqaviləsinin hansı şərtlər altında qəbul oluna biləcəyini genişliyi ilə açıqladı (43).

General Rtişşev eyni zamanda general-mayor Axverdovla ayrıca görüş keçirdi və sülh müzakirələrinin hansı şərtlər altında aparılması üçün onu təlimatlandırdı. Qarşılıqlı razılaşmaya əsasən, səlahiyyətli nümayəndələr general Rtişşev və Abbas Mirzə tərəfindən təlimatlandırılmalı idilər ki, bu səlahiyyətli nümayəndələr tərəflərin iradəsini bütünlüklə ifadə edə bilsinlər. General Rtişşev müzakirələrin hansı şərtlər çərçivəsində aparılması barədə fikirlərini yazılı şəkildə tərtib etdi və onu

öz möhürü ilə təsdiqlədi. General Rtişşev general Axverdovdan tələb etdi ki, görüş zamanı Qacar nümayəndələrinin səlahiyyətli şəxs olmaları barəsində onlardan sənəd istəsin və həmin sənədi müzakirələrin sonuna kimi özündə saxlasın. Eyni zamanda general Axverdovun səlahiyyəti barəsində ona verilmiş məktub qarşı tərəfdə qala bilərdi. General Rtişşev təkidlə tapşırdı ki, onun irəli sürdüyü şərtlər dəyişdirilmədən qarşı tərəfə qəbul etdirilsin (44).

General Rtişşevin hazırladığı təlimata əsasən, Rusiya tərəfi aşağıdakı şərtlər altında iki dövlət arasında sülh müqaviləsinin imzalanmasına razı idi: 1) Sərhəd xətti Rusiyanın silah gücünə fəth etdiyi və ya könüllü şəkildə Rusiyaya çatmış ərazilərin sərhədindən keçməlidir. Bu ərazilərin İrana güzəştə gedilməsi mümkün deyil; 2) İki dövlət arasında sərhəd aşağıdakı xətt üzrə müəyyənləşdirilməlidir: Kür çayının mənsəbindən başlayaraq onun Araza qovuşan hissəsinədək, oradan isə Araz boyu Mehriyə kimi, sonra sərhəd xətti Qarabağ xanlığı ilə Naxçıvan xanlığı arasında yerləşən Alagöz dağlarından keçməklə Salavat dağına kimi uzanmalı, oradan da Dərələyəz vadisinə qədər davam etməli idi. Bu vadi Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarının qovşağı hesab edilirdi. Sonra sərhəd xətti İrəvan xanlığı, Gəncə dairəsi, Qazax və Şəmşəddil mahallarından uzanan xətdən keçməli və Eşikmeydana çıxmalı idi. Sonra sərhəd Həmzəçəmən çayının və yolunun sağ tərəfindən uzanmaqla Pəmbək dağlarının zirvəsindən adlamaqla Şuragölə qədər davam etməli idi. Buradan sərhəd Şuragöl zirvəsindən Arpaçaya qədər davam etməli idi. Göstərilən bu məkanlar sərhəd xəttinin ümumi göstəriciləri olmalı idi. Sərhəd xəttinin dəqiqləşdirilməsi və konkretləşdirilməsi üçün isə iki tərəfdən komissarlar təyin edilə bilərdi. Komissarların dəqiqləşdirmələri sonradan general Rtişşev və şahzadə Abbas Mirzə tərəfindən təsdiq edilməli idi; 3) Təklif olunan bu sərhəd xətti ilə Qafqaz xətti arasındakı, habelə Xəzər sahili boyu ərazilər, bu ərazilərdə yaşayan xalqlar Rusiyanın mülkiyyəti sayılmalı idi və Qacarlar dövləti bu ərazilərə və xalqlara qarşı iddia qaldırmamalı idi. Həmin xalqlar və ərazilər aşağıdakılardır: Qarabağ xanlığı, Gəncə xanlığı (Yelizavetpol vilayətinə çevrilmişdi), Şəki xanlığı, Şamaxı xanlığı, Bakı xanlığı, Quba və Dərbənd xanlıqları, Car və Balakən camaatı, Şuragöl mahalı. Sonra isə Gürcüstan və Dağıstandakı qurumlar və əyalətlər sadalanırdı; 4) Lənkəran xanlığı hər iki tərəfdən Rusiyanın himayəsi altında olan müstəqil xanlıq kimi tanınmalı idi; 5)Xəzər dənizində yalnız Rusiyanın bayrağı altında olan hərbi gəmilər üzə bilərdilər. Yəni, Qacarlar dövlətinin Xəzər dənizində hərbi donanma saxlamaq hüququ tanınmırdı; 6) Rusiya ilə Qacarlar dövləti arasında imzalanan əvvəlki müqavilələr öz

qüvvəsini saxlamalı və yalnız yeni imzalanacaq müqavilələrə uyğun onlarda dəqiqləşdirmələr aparılmalı idi; 7) Ticarət əlaqələrinin canlandırılması Rusiya tərəfindən dəstəklənməli idi; 8) Əsirlərin qarşılıqlı şəkildə dəyişdirilməsi, elçilərin qəbul edilməsi və saxlanması, şəhərlər üzrə ticarətin təşkili üzrə agentlərin və konsulların təyin edilməsi qəbul edilirdi (45).

Bu şərtlər qəbul olunacağı halda Rusiya tərəfi öz üzərinə bir sıra şərtləri, o cümlədən Fətəli şahən padşahlığının və onun övladlarının vərəsəlik hüququnun tanınacağını öz üzərinə götürməli idi. General Rtişşev təlimatında bir daha xatırladırdı ki, ingilis nümayəndələri müzakirələrin aparılmasına yalnız vasitəçilik edə bilərdilər, amma müzakirələrin gedişinə müdaxilə etməməli idilər. Qacar şahının göstərişinə əsasən ingilis nümayəndələrinin iştirakı ilə razılaşmaq məcburiyyətində qalan general Rtişşev general Axverdova tapşırırdı ki, ingilis nümayəndələrinin müzakirələrdə iştirakı qaçılmaz olsa belə razılaşdırılmış müqavilə layihəsində İngiltərə ilə bağlı hər hansı bir maddə öz əksini tapmamalı idi. Əgər Qacar nümayəndələri İngiltərə ilə bağlı hər hansı bir müddəanın müqavilə layihəsinə daxil edilməsinə çalışsaydı, general Axverdov belə bir məqamı qəbul etmək səlahiyyətində olmadığını bildirməli idi (46).

Qarşılıqlı şəkildə razılaşdırılmış olan barışıq müddəti 1812-ci il oktyabr ayının 3-də başa çatmalı idi. Rusiya nümayəndəsi təkid göstərməli idi ki, danışıqlar çox uzanmasın və barışıq müddəti başa çatana kimi danışıqlar yekunlaşdırılsın. Əgər danışıqları aparan Qacar nümayəndələri barışığın uzadılmasına səlahiyyətləri çatardısa, general Axverdov onlarla daha üç həftəlik barışıq razılaşması imzalaya bilərdi. Əks təqdirdə danışıqları dayandıraraq geri qayıtmalı idi. General Axverdov danışıqların qeydlərini aparmalı idi. Bu və ya digər məqamlar üzrə qarşı tərəfin bütün iradları həmin qeydlərdə öz əksini tapmalı idi. Qacarlar tərəfində olan rus əsirlərinin qaytarılmasının müqavilədə öz əksini tapmasına general Rtişşev təkid etmirdi. Onun fikrincə, bu məsələni ayrıca bir sənəddə razılaşdırmaq olardı (47).

General Rtişşevdən lazımi təlimatlar alandan sonra 19-cu rus diviziyasının komandiri general-mayor Axverdov danışıqların aparılmasına yola salındı. Xəstə olmasına baxmayaraq general Axverdovun bu danışıqlara yollanmasına general Rtişşev xüsusi təkid göstərdi. Onun fikrincə, general Axverdov danışıqları daha qətiyyətli şəkildə apara bilərdi. General Rtişşevin yanında olan Abbas Mirzə elçisi Hacı Əbülhəsən də general Axverdovla birlikdə yola salındı. General Rtişşevin Abbas Mirzəyə yazdığı məktubu da general Axverdov özü ilə apardı.

1812-ci il oktyabr ayının əvvəllərində Aslandüzdə tərəflərin nümayəndələrinin görüşü və müzakirələri oldu. Sülh müqaviləsinin imzalanması üçün tərəflər öz şərtlərini açıqladılar. Bu şərtlər bir-birindən əsaslı şəkildə fərqlənirdilər. Rusiya tərəfi yuxarıda qeyd edildiyi kimi, Gürcüstanı və işğal etdiyi digər xanlıqları öz işğalı altında saxlamaq istəyirdisə, şah tərəfi də Rusiyanın işğal etdiyi xanlıqların və vilayətlərin ruslar tərəfindən boşaldılmasını istəyirdi. Abbas Mirzənin nümayəndəsi sülh müqaviləsinin konkret olaraq aşağıdakı şərtlər daxilində imzalanmasını istəyirdi: 1) Qacar şahının ölkənin padşahı kimi tanınması; 2) Qacar taxt-tacının vəliəhdinin tanınması; 3) Şah vəliəhdinin ölkənin idarə edilməsindəki səlahiyyətinin tanınması; 4) İki ölkə arasında tacirlərin sərbəst hərəkətinə icazə verilməsi.

Abbas Mirzənin nümayəndəsi Mirzə Əbülqasım iki dövlət arasında dostluq münasibətlərinin bərqərar olmasının zəruriliyinə də toxundu. Onun sözlərinə görə, iki dövlət arasında düşmənçilik aradan qalxmalı və əvvəlki münasibətlər öz yerini tutmalı idi. Şah saryının nümayəndəsi bildirirdi ki, qarşı tərəflər arasında baş verən döyüşlər nəticəsində bir vaxtlat İrana mənsub olan vilayətlər Rusiyanın işğalı altına düşmüşdür. Onun təklifinə görə Rusiya dostluq münasibətlərinin formalaşmasına tərəfdardırsa, onda qoşunlarını işğal etdiyi ərazilərdən çıxarmalı və əvvəlki sərhəd xətti bərpa edilməlidir. Bundan əlavə Mirzə Əbülqasım bəzi təkliflər də irəli sürdü ki, onlar da əsasən tərəflər arasında etimadın yaradılmasından ibarət idi (47a).

Aslandüz müzakirələrində iştirak edən Moriye tərəflər arasında yenidən müharibənin başlanmasının qarşısını almaq üçün öz təklifləri ilə çıxış etdi. Moriye ehtimal edirdi ki, tərəflərin mövqeləri arasında böyük fərqliliyin olması yenidən döyüşlərin başlanmasına gətirib çıxara bilər ki, bu da konkret tarixi şəraitdə İngiltərənin maraqlarına cavab vermirdi. O, tərəflərin nümayəndələrindən xahiş etdi ki, döyüşlərin daha dörd ay müddətinə dayandırılması üçün anlaşma imzalansın. Sonra şah sarayının və Rusiya qoşunlarının nümayəndələri Rusiya sarayına yollansınlar. Həmin nümayəndələrin Rusiya sarayında apardıqları danışıqlarda Cənubi Qafqazın taleyi də aydınlaşdırılsın. Moriye onu da təklif edirdi ki, Rusiya özünün xoş iradəyə malik olduğunu nümayiş etdirmək üçün işğal etdiyi vilayətlərin birini boşaltsın və əgər müzakirələr sülh müqaviləsinin imzalanması ilə nəticələnməzsə, onda yenidən həmin vilayəti tutsun. Amma Rusiya qoşunları nümayəndəsi cənab Moriyenin təklifini qəbul etmədi və sülh müzakirələri başa çatmamış kiminsə çar sarayına göndərilməsinə ehtiyac olmadığını bildirdi (48).

3. Tərəflər arasında danışıqların pozulması və Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərinə yeni hücumu

Rusiyanın aparılan müzakirələrdəki mövqeyi yuxarıda qeyd edildiyi kimi, işğal etdiyi ərazilərin rəsmiləşdirilməsi və şah sarayının bu ərazilərə olan iddialarına son qoyulması idi. Ona görə Rusiya nümayəndəsi irəli sürdüyü ağır şərtlərdən başqa digər hər hansı bir təklifin müzakirəsinə razı olmadı. Bu isə sözsüz ki, şah əyanlarının, o cümlədən Abbas Mirzənin acığına səbəb oldu. Tarixi ədəbiyyatda mövcud olan məlumata görə, Azərbaycan əhalisi də sülh müzakirələri zamanı Rusiyanın irəli sürdüyü şərtlərdən son dərəcə narazı idi və əhali arasında işğalçılara qarşı müqavimət əhval-ruhiyyəsi güclənməyə başladı. Xüsusilə, Təbriz əhalisi arasında ruslara qarşı barışmazlıq ruhu özünü daha qabarıq göstərdi. Bildirilir ki, Təbriz xanlarının, tacirlərinin nümayəndələri, o cümlədən rus qoşunlarına qarşı mübarizədə 9 övladını şəhid vermiş Əsədulla Soltan adlı Təbriz sakini Abbas Mirzənin görüşünə gəldilər. Onlar ruslara qarşı mübarizə üçün öz köməklərini təklif etdilər. Əsədulla Soltan digər 12 övladını da Abbas Mirzənin düşərgəsinə gətirdi və həmin övladları ilə birlikdə özünün də işğala qarşı mübarizədə iştirak etməyə hazır olduğunu söylədi. Tarixi ədəbiyyatda bir çox tayfaların, obaların nümayəndələrinin də Abbas Mirzəyə öz yardımlarını təklif etdiyi bildirilir (49).

Qacar nümayəndələri Rusiya tərəfini çox inadkar və qeyri-real təkliflər irəli sürməkdə günahlandırdığı kimi, general Rtişşev də Qacarların qəbul olunmaz tələblər ortaya qoyduğunu bildirirdi. Rusiya sarayı Gürcüstan, Dağıstan vilayətlərini və Azərbaycan xanlıqlarının işğalından geri çəkilmək niyyətində deyildi Ona görə, Qacar nümayəndəsinin işğal olunmuş Azərbaycan xanlıqlarına iddia irəli sürülməsini eşidən general-leytenant Rtişşev general Axverdovdan dərhal geri qayıtmasını tələb etdi.

Qacar tərəfi ilə danışıqların dayandırılmasını general Rtişşev az qala Rusiya imperatorunun Azərbaycan xanlıqlarına qayğısının ifadəsi kimi təqdim etməyə çalışırdı. Onun yazdığına görə, Rusiya bu xanlıqlardan imtina edəcəyi təqdirdə Qacarlar dövləti onları öz tərkibinə qatacaq və bu xanlıqlardan qisas alacaqdı. Bu fikirlərini ifadə etdikdən sonra general Rtişşev Azərbaycan xanlarını Qacar qoşunlarının gözlənilən hücumlarının qarşısını almağa hazır olmağa çağırırdı. General Rtişşev Qarabağdakı rus qoşun dəstəsinin rəhbəri general Kotlyarevskiyə də sülh müzakirələrinin pozulmasının ardınca Qacar qoşunlarının gözlənilən hücumuna qarşı hazır olmaq tapşırığı verdi. General Kotlyarevskinin

dəstəsinin möhkəmləndirilməsinə yardım edilməsini isə o, Şamaxı xanından xahiş etdi. Mustafa xandan xahiş olundu ki, Kür çayı boyunca müdafiə xətti yaradılmasına, Qacar qoşunlarının Kür çayını adlamasının qarşısının alınmasına, habelə zərurət yaranarsa Qacar qoşunlarının Şəki xanlığına ola biləcək hücumunu dəf etməyə kömək göstərsin. Eyni məzmunlu məktubu general Rtişşev Şəki xanı Cəfərqulu xana da göndərdi və oktyabr ayının 1-də rus generalı Qarabağdan Tiflisə yola düşdü (50).

Bir tərəfdən Rusiyanın ağır sülh şərtləri, digər tərəfdən də əhalinin rus işğalına qarşı köklənməsi Abbas Mirzədə də döyüş əhval-ruhiyyəsini gücləndirdi. O həm Şəki, həm də Qarabağ istiqamətinə qoşun dəstələri göndərmək qərarına gəldi. Şəkinin yerli əyanları da öz nümayəndələrini göndərərək Abbas Mirzədən kömək istəmişdilər və yaranmış şəraitdə Abbas Mirzə bu köməyi göstərməyi qərara aldı. Qarabağa isə Aslandüzdən keçməklə Abbas Mirzə özü yollanmaq istəyirdi. O nəzərdə tutmuşdu ki, Qarabağdakı qoşun dəstələrini mühasirəyə alsın və onlara güclü zərbə endirsin. Bu niyyətinə nail olsaydı Abbas Mirzə Rusiyanı da məcbur edə bilərdi ki, sülh şərtlərini bir qədər yumşaltsın. Onun bir uğurlu döyüşü sülh müzakirələri üçün yeni şərait yarada bilərdi. Bir uğurlu döyüş rusların da mövqeyini möhkəmlədə və şah sarayına təklif olunan şərtləri qəbul etdirə bilərdi. Ona görə əslində rus qoşunları komandanlığı da şah qoşunları ilə döyüşə girmək üçün münasib olan an axtarırdı. Başqa sözlə, Asandüz müzakirələrindən sonra hər iki tərəf güclü olduğunu nümayiş etdirmək üçün döyüş məqamı gözləyirdi və bu məqamı elə Aslandüzdə tərəflərin əlinə düşdü.

Elə bu əsnada ingilis səfiri Qor Uzeley İngiltərə ilə Rusiya arasında ittifaq müqaviləsinin imzalanması haqqında məlumat aldı. Həmin müqavilə əslində, 1812-ci ilin iyun ayında imzalanmışdı (51). Amma bu barədə rəsmi məlumat ona 1812-ci ilin sentyabrında çatdı. Dövlətinin Rusiya ilə rəsmi ittifaqda olduğunu biləndən sonra Qor Uzeley Abbas Mirzə qoşunlarında olan bütün ingils hərbçilərini hissələri tərk etməyə və fəaliyyətlərini dayandırmağa çağırdı. Qor Uzeley onlara rus qoşunlarına qarşı vuruşmağı qadağan etdi. Abbas Mirzə və saray əyanları ingilis səfirindən təkidlə xahiş etdilər ki, ingilis hərbçilərini qoşunlardan geri çağırmasın. Çünki onların öz fəaliyyətlərini dayandırması qoşun dəstələrinin döyüş qabiliyyətinə ciddi təsir göstərə bilərdi. Əslində elə belə də oldu. Bununla belə, ser Qor Uzeley razı oldu ki, iki ingilis zabiti və 13 nəfər ingilis çavuşu Abbas Mirzənin qoşunlarında qalsınlar.

Qacar qoşunlarının Azərbaycan xanlıqları və mahalları üzərinə hücumunu çox gözləmək lazım gəlmədi. 1812-ci il oktyabr ayının 6-da

İrəvan xanlığında olan qoşunların bir dəstəsi xanlıq ərazisindən işğal altında olan Azərbaycan mahalları üzərinə basqın etdi. Başqa bir dəstə isə Hamamlı istiqamətinə doğru irəlilədi. Bu dəstələr sayca böyük deyildilər və ona görə də onların irəliləməsinin qarşısını almaq mümkün oldu. Oktyabr ayının 8-də Abbas Mirzənin böyük qoşun dəstəsi ilə Aslandüzə gəlməsi haqqında məlumat alındı. Rus generallarında Abbas Mirzənin Arazın şimalına hücuma keçməyə hazırlaşdığı barədə şübhə yox idi. Qacar qoşunlarının hücumu qarşısında güclü mühafizə xəttinin yaradılması üçün Ağoğlanda dayanan general Kotlyarevski general-mayor baron Klodtdan xahiş etdi ki, dəstəsi ilə Tərtər çayına yaxınlaşsın və Tərtər çayı ətrafında mövqe tutsun (52).

Rus generallarının oktyabr ayının 10-da əldə etdiyi məlumatdan aydın olur ki, Pirqulu xanın rəhbərlik etdiyi qoşun dəstəsi keçmiş Şəki xanı Səlim xanla birlikdə Şəki xanlığına hücum etmək üçün Kür çayına doğru istiqamət götürmüşdülər. Bu hücumun qarşısının dayandırılması üçün general-mayor Kotlyarevski bir daha general Klodta xəbər göndərdi ki, Kür çayı yaxınlığındakı Pirəzə kəndinə doğru hərəkət etsin. General-mayor Kotlyarevskinin bu qərarı general Rtişşev tərəfindən də dəstəkləndi və o da Şamxor ətrafında dayanan general-mayor baron Klodta Pirəzə kəndinə doğru irəliləmək göstərişi verdi. General Rtişşev eyni zamanda Pirqulu xanın dəstəsinin irəliləməsinin dayandırılması üçün general Klodta lazımi göstərişlər verdi. General Kotlyarevski general Klodtun 4 bölükdən ibarət olan dəstəsinin iki yerə bölünməsini, onların birinin Pirəzəyə doğru, digərinin isə Tərtər körpüsü ətrafına göndərilməsini məsləhət bildi. General Rtişşev onun bu təklifini qəbul etmədi və bütün dəstə Pirəzə kəndinə göndərildi.

Qacar qoşunlarının hücumunun genişlənməsinin qarşısını almaq üçün Tərtər körpüsünə də qüvvə göndərmək ruslar üçün müəyyən əhəmiyyət kəsb edirdi. Amma general Rtişşev bunun üçün əlavə qüvvə tapa bilmədi. General Klodtun bütün dəstəsinin Pirəzə kəndə ətrafına göndəriləcəyi təqdirdə belə onun Pirqulu xanın dəstəsinin qarşısını dayandıra biləcəyinə əminlik yox idi. Ona görə general Rtişşev general Kotlyarevskiyə tapşırdı ki, Pirqulu xan Pirəzəni adlamağa müvəffəq olsa onda öz dəstəsinin bir hissəsini onun arxasınca göndərsin. General Rtişşev eyni zamanda Şəki xanı Cəfərqulu xana da tapşırdı ki, Pirqulu xan dəstəsi ilə Pirəzəyə yaxınlaşanda o da öz dəstəsi ilə həmin məntəqəyə yollansın və Pirqulu xanın dəstəsi üzərinə hücuma keçsin. Rus qoşunları baş komandanı ondan da ehtiyat edirdi ki, Şəki xanlığına yürüş etmək adı ilə Pirəzəyə yaxınlaşmış olan Pirqulu xan rus dəstəsinin diqqətini yayındıraraq hücumu Tərtər və Gəncə istiqamətində davam etdirə bilər.

General Rtişşevin fikrincə, Qacar qoşunları istiqamətlərini Gəncəyə tərəf dəyişmiş olsaydılar, onda bu dəstəni daha asanlıqla məğlub etmək olardı. Çünki general Kotlyarevski Pirqulu xanın dəstəsini ardınca rus dəstəsini göndərsəydi, onda Qacar qüvvələri ağır vəziyyətə düşə bilərdi. Güman edilirdi ki, general Kotlyarevski ilə general Klodtun dəstələri fəaliyyətlərini uzlaşdırmaqla şah qoşunlarına güclü zərbə vura bilərdilər. General Rtişşev əmin idi ki, Pirqulu xanın dəstəsi məğlubiyyətə uğradılsaydı onda Abbas Mirzə daha Arazın şimalına yürüş etməyə cəsarət etməzdi (53).

General Rtişşev general Klodta tapşırdı ki, Pirqulu xanın dəstəsinin fəaliyyətini ciddi nəzarət altında saxlasın, bu dəstənin Tərtər və Gəncə istiqamətinə yollanmaq niyyətindən vaxtında xəbər tutsun və bütünlükdə öz addımlarını general Kotlyarevskinin fəaliyyəti ilə əlaqələndirsin. General Klodt təyinat yerinə çatan kimi Şəki xanından öz dəstəsini onun yanına göndərməyi tələb etdi (54).

Rus generallarının bu hazırlıqlarına baxmayaraq onlar vaxtında toparlana bilmədilər və baron Klodt öz dəstəsi ilə Pirəzə ətrafına yetişməzdən əvvəl Pirqulu xan dəstəsi ilə artıq Kür çayına çatmışdı. General-mayor Klodt Kür çayına çatanda Şəki xanı Cəfərqulu xandan məlumat aldı ki, oktyabr ayının 14-ü gecəsi Pirqulu xan dəstəsi ilə Ağcabədi yaxınlığında Kür çayını adlamağa hazırlaşır. Rus qoşunları Mingəçevirdən 10 verst aşağıda olan keçidə çatanda Pirqulu xanla Səlim xanın 3 minlik dəstə ilə artıq Şəki xanlığı ərazisində olması barəsində məlumat alındı. Cəfərqulu xan öz dəstəsi ilə Qacar qoşunlarının qarşısını saxlamaq gücündə deyildi. Ona görə də o, general Klodta yazdı ki, tezliklə özünü Şəki xanlığına yetirsin. Yoxsa, bütün Şəki xanlığı ərazisi Qacar qüvvələrinin nəzarəti altına düşə bilərdi (55).

General Rtişşev general Klodtun Mingəçevir yaxınlığında Kür çayını adlaması və Şəki xanlığı ərazisinə daxil olmasını təqdir etdi. Onun gümanınca əlavə rus qoşun dəstəsinin Şəki xanlığı ərazisinə gəlməsi həm şah qüvvələrinin irəliləməsini dayandırar, həm də yerli əhali arasında rus qoşunlarına qarşı qiyamın qaldırılmasının qarşısını alardı. General Klodtdan tələb olundu ki, Cəfərqulu xanın atlı dəstəsi ilə birləşərək Pirqulu xanın üzərinə sürətli hücumlar həyat keçirsin və onun bütün fəaliyyətini müşahidə altında saxlasın. General Klodt Qacar qüvvələrini Kür çayını geri keçməsi zamanı haqlayıb onlara güclü zərbə vurmalı idi ki, bu zaman Qacar qüvvələrinə böyük itkilər yetiriləcəyi ehtimal edilirdi. Rus generalı Qarabağda olan dəstənin rəhbəri ilə əlaqə saxlayaraq heç olmasa Qacar qüvvələri Kürü geri adlayanda onların üzərinə birgə hücum üçün fəaliyyət birliyi yaratmağa çalışmalı idi. Mövcud məlumatlara görə,

general Kotlyarevski Pirqulu xanın dəstəsinin Şəki xanlığına daxil olmasından xəbərsiz idi. Ona görə general Rtişşev ondan tələb etdi ki, Qacar qüvvələrini Şəki xanlığı ərazisindən çıxarılmasında iştirak etsin. Bunun üçün ona tövsiyə edilirdi ki, Qacar qüvvələrinin təqibi üçün bir tabor və ya üç bölük göndərsin. Bu qüvvə bir ədəd topla və kazaklarla möhkəmləndirilməli idi. General Kotlyarevskinin göndərdiyi dəstə Kür çayı ətrafında mövqe tutub Qacar qüvvələrinin geri qayıtmasını gözləməli və Qacar qüvvələri keçidə yaxınlaşanda onlara zərbə endirməli idi (56).

Amma general Rtişşevin bu qabaqlayıcı tədbirlərinə ehtiyac qalmadı. Rus qoşun dəstəsinin yaxınlaşması xəbərini eşidən kimi Pirqulu xan hücumunu dayandırıb geriyə üz tutdu. General Klodt oktyabrın 17-də Kür çayını adlayandan sonra səhəri gün Nalbənd adlı məntəqəyə çatdı. Pirqulu xanın dəstəsi isə Nuxadan 30 verst aralı olan Bozdağda dayanmışdı. Rus dəstəsinin gəlməsi də burada Pirqulu xana çatdırıldı. Məlumatların qıtlığı üzündən Pirqulu xanın nədən dərhal geri çəkilmək haqqında qərar qəbul etdiyini söyləmək çətindir. Çünki onun dəstəsi sayca rus dəstəsindən üstün idi. General Klodt geri çəkilən Qacar qüvvələrini təqib etmədi. Onların ardınca Cəfərqulu xanın dəstəsi göndərildi. Pirqulu xan dəstəsi ilə Zərdabla Körpükənd arasındakı keçiddən keçməklə Şəki xanlığı ərazisinə daxil olmuşdu. Geri qayıdarkən isə həmin keçidə üz tutmayaraq sürətlə Şamaxı xanlığına tərəf hərəkət etdi. Şəki xanının dəstəsi Pirqulu xanı Şamaxı xanlığı sərhədinə qədər izlədi və oradan geri qayıtdı. General Klodt isə Qacar qüvvələrinin sonrakı hərəkətindən xəbər tutmaq üçün öz adamını Şamaxı xanı Mustafa xanın yanına göndərdi. Sonradan məlum oldu ki, Pirqulu xanın dəstəsi Şamaxı xanlığı ərazisində dayanmadan gecə ikən qamışlıqla irəliləyərək Kür axarının Zərdabdan aşağı hissəsində çayı adlayıb cənuba doğru uzaqlaşıb (57).

Pirqulu xanın dəstəsinin uzun bir yol keçərək Şəki xanlığına gəlməsi və burada hətta döyüşə belə girmədən geri çəkilməsi Şəki xanlığı ərazisində rus işğalına qarşı qiyam başlanması ehtimalını da aradan qaldırdı. Bu qiyamın baş verə biləcəyi rus generallarını təşvişə salmışdı və onlara gizli deyildi ki, belə qiyamlar üçün obyektiv səbəb yalnız Şəki xanlığında deyil, digər xanlıqlarda, o cümlədən Gürcüstanda da mövcud idi. Həmin qiyamların qalxmasına yol verməmək üçün rus qoşunları Azərbaycan xanlıqları və Gürcüstan ərazisinə səpələnmişdilər.

Cənubi Qafqazda rus işğalına qarşı qiyam əhval-ruhiyyəsinin olmasının başlıca səbəblərindən birini general Rtişşev Arazın cənubu ilə şimalı arasında yazışmaların, canlı əlaqələrin mövcudluğunda görürdü.

Bu əlaqələr vasitəsilə əhalinin qiyama hazırlaşdırılmasına və onun həyata keçirilməsinə istiqamət verilir və kömək göstərilir. Ona görə də general Rtişşev Arazın cənubu ilə şimalı arasında yerli əhali tərəfindən qurulan bütün əlaqələrin nəzarət altına alınmasını mühüm sayırdı və bu iş general Kotlyarevskiyə həvalə edildi. Bununla bağlı general Kotlyarevskiyə tapşırıldı ki: 1) Əgər Abbas Mirzənin yanından onun elçisi və ya nümayəndəsi hər hansı bir tapşırıqla general Kotlyarevskinin yanına gəlsəydi, general Kotlyarevski onu nümayişkaranə şəkildə qəbul etmədən geri göndərməli və bununla yerli xanlara və əhaliyə göstərməli idi ki, baş komandandan başqa kimsənin Qacar tərəfi ilə əlaqəyə girməyə ixtiyarı yoxdur. Arazın cənubundan gəlmiş elçi və ya nümayəndə nəzarət altına alınmalı və silahlı müşayiətlə geri göndərilməli idi. Bu zaman geri göndərilən nümayəndəyə elan olunmalı idi ki, general Kotlyarevskinin Qacar məqamlarından hər hansı bir göndəriş qəbul etmək səlahiyyəti yoxdur və belə hallarda Qacar tərəfi yalnız rus qoşunları baş komandanına müraciət etməli idi. 2) General Kotlyarevski nəzarət etməli idi ki, Azərbaycan xanlıqları bu tələbə ciddi riayət etsin. Bu xanlar onların adına yazılmış məktubları, onların yanına göndərilmiş nümayəndələri qəbul etməli deyildilər. Arazın cənubundan gələn çaparlar dərhal tutularaq general Kotlyarevskiyə təhvil verilməli idi. General Kotlyarevski də bu çaparları yenidən geri göndərməli idi. Eyni zamanda geri göndərilən çaparların daha hansı tapşırıqla gəlməsi, Arazın şimalında kimlərlə görüşmək istəməsi də araşdırılmalı idi. 3) General Kotlyarevski Qarabağ, Şamaxı və Şəki xanlarına çatdırmalı idi ki, onlar Rusiya ilə imzaladıqları müqaviləyə əsasən Qacar məqamları ilə heç bir təmasa girməli deyildilər. Azərbaycan xanlarının diqqətinə çatdırılmalı idi ki, əgər onlar Qacar mənsubları ilə əlaqəyə girsələr, ya onların nümayəndələri general Kotlyarevskinin xəbəri olmadan Arazın cənubuna səfər etsələr, ya da Arazın cənubundan kimi isə qəbul etsələr, Arazın cənubundan məktub alsalar və onu gizlin açsalar, ya Arazın cənubundan gəlmiş nümayəndələrin olduğu yeri gizlətsələr və onların bu əməllərinin üstü açılsa onda həmin xanlar rus qanunlarına görə ciddi cəzalandırılacaq, onların xanlıqları əllərindən alınaraq Rusiya xəzinəsinin mülkiyyətinə çevriləcəkdir. 4) Abbas Mirzənin və ya Qacar məqamlarının general Rtişşüvin adına məktub gətirən çaparlarını general Kotlyarevski lazımi etiketlərə riayət etməklə qəbul etməli və sonra da onları Gürcüstana göndərməli idi. Bu zaman diqqət yetirilməli idi ki, Qacar çaparları başqa şəxslərlə əlaqəyə girməsinlər. Buna yol verilməməsi üçün çaparın yanına qarovul təyin edilməli idi. Arazın sərhəd boyu ərazilərinin məqamlarından general Rtişşevin adına məktub gətirildikdə isə çapar rus düşərgəsində

saxlanılmalı, məktub general Rtişşevə göndərilməli idi. General Rtişşevdən alınan cavab məktubu saxlanılan çapara təqdim edilməli və geriyə yola salınmalı idi. Arazın cənubundan şifahi ismarıclar qəbul edilməli deyildi. Əgər kimsə Qacar məqamlarından şifahi xəbər gətirdiyini bildirsəydi, həmin adam tutulub saxlanmalı və onunla casus kimi rəftar edilməli idi. 5) General Kotlyarevskiyə çatdırıldı ki, Qacar sarayındakı ingilis səfiri adından general Rtişşevə məktub gətirən şəxs də ehtiramla qarşılanmalı və ləngidilmədən silahlı müşayiət altında Gürcüstana göndərilməli idi. Məktubu gətirən ingilis yox, yerli adam olsaydı onda o ciddi nəzarətə götürülməli və ona başqaları ilə ünsiyyətə girməyə imkan verilməməli idi. General Kotlyarevski ingilis səfiri tərəfindən ona göndərilən məktubu qəbul edə bilərdi. Lakin bu məktubun məzmunu ilə tanış olub general Rtişşevə məruzə etməli və onunla razılaşdırıldıqdan sonra cavab yazmalı idi. 6) Nəhayət, general Kotlyarevskinin icazəsi olmadan Arazın cənubuna gediş-gəlişin qarşısı alınmalı idi. Məlumatlar toplamaq üçün isə ora kimlərsə göndərilə bilərdi. Yerli xanlar da məlumat toplamaq üçün Arazın cənubuna kimləri isə göndərmək istəsəydilər, bunu gərək general Kotlyarevski ilə razılaşdıraydılar (58).

General Rtişşevin bu təlimatının hansı səviyyədə icra edildiyini söyləmək çətindir. Amma məlumdur ki, istər ruslar tərəfindən, istərsə də yerli xanlar tərəfindən müəyyən çaparlar və onların məktubları ələ keçirilirdi. Lakin adi müşahidə postlarının qoyuluşu ilə Arazın iki tayı arasında gediş-gəlişin qarşısını almaq elə də asan deyildi.

Bununla belə, Pirqulu xanın dəstəsi Şəki xanlığı ərazisindən çıxarıldıqdan sonra ruslar üçün başlıca təhlükə Aslandüzə toplaşmış olan şah qoşunları idi və artıq məlumdur ki, şah qoşunlarının təhlükəsinin aradan qaldırılması üçün general Kotlyarevski qəfil şəkildə Aslandüzə hücum etdi və şah qüvvələrinə güclü zərbə vurdu.

Abbas Mirzənin rastlaşdığı uğursuzluq əsasən ingilis hərbçilərinin şah qoşun dəstələrini tərk etməsi ilə bağlansa da, bu, şübhəsiz ki, heç də şah qüvvələrinin uğursuzluğunun əsas səbəbi deyildi. Növbəti uğursuzluğun əsas səbəbi şah qüvvələrinin lazımi döyüş keyfiyyətlərinə malik olmaması idi. İngilis hərbçilərinin məşvərətləri müəyyən irəliləyişlər təsəvvürü yaratsa da, əslində dövlətin hərbi sistemində elə bir dəyişiklik baş verməmişdi. Hər halda Aslandüzdə Abbas Mirzənin qoşunları daha bir ciddi uğursuzluqla rastlaşdı və hətta rus qoşunları Abbas Mirzə qoşunlarına aid olan 11 ədəd topu da qənimət götürdülər. Bundan əlavə, çoxlu sayda döyüşçünün də əsir düşdüyü bildirilir. Şah qoşunları eyni zamanda həm Pəmbək, həm də Lənkəran istiqamətində uğursuzluğa düçar oldular.

Aslandüz uğursuzluğu Rusiya ilə sülh müqaviləsi imzalanması ərəfəsində Abbas Mirzənin üzləşdiyi ən böyük uğursuzluq oldu. Əslində bu uğursuzluq şah qüvvələrinin acınacaqlı vəziyyətini nümayiş etdirdi və artıq şübhə yeri yox idi ki, şah qüvvələri rus qoşunlarının işğalçılıq yürüşlərinin qarşısını almağa, Cənubi Qafqaza sahib çıxmağa qadir deyildir.

4.Azərbaycan xanlıqlarının işğalının rəsmiləşdirilməsi ətrafında diplomatik fəallıqların və ingilis müdaxilələrinin artması

Aslandüz və Lənkəran ətrafındakı uğursuzluqlara baxmayaraq şah əyanlarının heç də hamısı Rusiya ilə sülh danışıqlarının aparılmasına razı deyildilər. Xüsusilə, Abbas Mirzənin qəyyumu olan Mirzə Bozorg Rusiyanın irəli sürdüyü müqavilə şərtlərinin Qacarlar dövlətinin maraqlarına cavab vermədiyinə əmin idi. Ona görə Mirzə Bozorg şah sarayındakı ingilis elçisi Qor Uzeleyin vasitəçiliyinə də inamsızlıqla yanaşırdı. Mirzə Bozorg da həmfikirləri kimi Aslandüz məğlubiyyətini Abbas Mirzə qüvvələrində olan ingilis zabitlərinin fəaliyyətisizliyi ilə bağlayırdı. Bunun nəticəsi kimi ingilislərin iki dövlət arasında vasitəçiliyə başlaması şah sarayında artıq inamsızlıqla qarşılanırdı.

İkitərəfli sülh müqaviləsinin müzakirəsi və imzalanması prosesini sürətləndirmək üçün 1813-cü ilin əvvəllərindən etibarən general Rtişşevlə ingilis elçisi Qor Uzeleyin arasında yazışmalar fəallaşdı. General Rtişşev kapitan Nazarov adlı birisini məktubla şah sarayında olan Qor Uzeleyin yanına göndərdi. Bu məktubda Rusiya tərəfinin sülhə meylliliyi və ser Qor Uzeleyin bu prosesdə vasitəçilik missiyasının genişləndirilməsi arzusu ifadə olunmuşdu. General Rtişşevin yazdıqlarından belə aydın olur ki Qacar məqamları sülh müzakirələrinin başlanması ilə bağlı şifahi olaraq Lənkəran xanlığındakı rus qoşunları rəhbərinə və İrəvan xanı vasitəsilə general Rtişşevə müraciət etmişdilər. General Rtişşev sülh müzakirələrinin yenidən başlanmasına hazır olduğunu qeyd edərək bildirirdi ki, Qacar məmurları əvvəllər olduğu kimi müzakirələr zamanı yalnlz öz maraqlarını güdəcəklərsə, onda sülh müzakirələrinin bir nəticəsi olmayacaqdır. Başqa sözlə general Rtişşev çatdırmaq istəyirdi ki, Rusiyanın irəli sürdüyü şərtlərin qəbul olunması ehtimalı varsa, onda müzakirələrə başlamaq olar. General Rtişşev bir daha vurğulayırdı ki, Rusiya Qacar sarayının hər hansı əlavə güzəştlərə getməsini istəmir və yalnız ələ keçirdiyi əraziləri özündə saxlamaq istəyir (59).

Aslandüzdə, Lənkəranda və digər məntəqələrdə şah qüvvələrinə ciddi zərbə vurandan sonra rus qoşunları bölgədə hərbi təşəbbüsü əllərində saxlayırdı. Qışın yaxınlaşması da onların mövqelərini daha da möhkəmləndirirdi. Ona görə də rus qoşunları komandanlığı yeni hərbi əməliyyatların keçirilməsində maraqlı deyild və çalışırdı ki, işğal etmiş olduğu əraziləri əllərində saxlasın və bu işğalın nəticələrini ikitərəfli müqavilə imzalamaqla rəsmiləşdirsin. Şah sarayı isə Rusiya qoşunlarına qarşı yeni bir uğurlu döyüşün keçirilməsi üçün münasib anı gözləyirdi. Güman edilirdi ki, belə bir döyüşün keçirilməsi müzakirələr zamanı Qacar sarayının mövqeyini müəyyən dərəcə yaxşılaşdıra bilər.

1813-cü ilin yazında məlumat alındı ki, rus qoşunları İrəvan xanlığı ərazisinə daxil olub burada azuqə və ərzaq toplanması ilə məşğuldurlar. Bu xəbər həm şah sarayını təşvişə saldı, həm də İrəvan xanı sərdar Hüseyn xanın narahatçılığına səbəb oldu. Qərara alındı ki, rus qoşunlarının yenidən fəallaşmasının qarşısının alınması üçün onların İrəvan xanlığı ərazisində olan dəstəsinə zərbə endirilsin. Bu vəzifə sərdar Hüseyn xana həvalə olundu. Mənbələrdə olan məlumata görə rus qoşunlarının yenidən fəallaşması ilə bağlı sərdar Hüseyn xan İrəvan əhalisi arasında iş apardı, kafirlərə qarşı cihad hisslərini camaata aşılaya bildi və bunun nəticəsində 2 min nəfər könüllü şəkildə onun qoşunlarına qoşuldu. Lazımi hazırlıq işləri başa çatdırılandan sonra rus qoşun dəstəsi üzərinə sürətli bir hücum təşkil edildi. 3-4 saat çəkən döyüşdə İrəvan xanlığının qoşunlarının qələbə qazandığı bildirilir. O da bildirilir ki, döyüşün gedişində İrəvan xanının döyüşçülərindən 34 nəfər şəhid oldu. Ruslar tərəfindən isə 400 nəfər öldürüldüyü, yaralandığı və itkin düşdüyü qeyd olunurdu (60).

İrəvan xanlığı ərazisində əldə edilmiş uğur xəbəri Fətəli şaha çatdırılanda o, Azərbaycana doğru hərəkət etmək barəsində göstəriş verdi. Mənbələrin yazdığına görə, bu səfərdə onu böyük bir qoşun dəstəsi müşayiət edirdi. Mirzə Məhəmməd Tağı və Yusif xanın rəhbərliyi altında 12 min nəfərlik canbaz dəstəsi, Fərəculla xan Əfşar və şahzadə Əlixanın rəhbərliyi altında olan qoşun dəstəsi şahı müşayiət edidi. Şah əvvəlcə Sultaniyyə çəmənində gəldi və oradan da Ocan çəmənində istiqamət götürdü. Bir müddətdən sonra Abbas Mirzə də qoşun dəstəsi ilə Ocan çəmənində gəldi. Mənbələrin yazdığına görə, Abbas Mirzəni də 12 min nəfərlik qoşun dəstəsi müşayiət edirdi. Bu qoşun dəstəsinin yetişməsi ilə Ocan düzündə böyük bir güc toplandı. Şahın tapşırığı ilə Abbas Mirzə Ocan çəmənində toplanmış qoşunlara sıra baxışını keçirdi. Fətəli şah baxış keçirilən qoşunların vəziyyətindən çox razı qaldı və yeni

qoşun formalaşdırılması istiqamətində Abbas Mirzənin fəaliyyətini bir daha təqdir etdi (61).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqar isə Azərbaycana daha böyük sayda qoşun dəstəsinin toplanmasından xəbər verir. Onun qeydlərinə görə, Fətəli şahın tapşırığı əsasında Xorasan hakimi Məhəmməd Vəli Mirzə 18 min nəfərlik qoşun dəstəsi ilə gələrək Qəzvin yaxınlığında düşərgə saldı. İsmayıl xan Şambayatı və Zülfüqar xan Damğani isə 12 min nəfərlik könüllü dəstə ilə Qəzvin yaxınlığında bu dəstəyə birləşdilər. Onlardan əlavə, Əlimərdan Əfqan, Məhəmmədtağı Mirzə, Əmir xan Hezarə, Yusif xan Sepəhdar da piyada və süvarilərdən ibarət 12 min nəfərlik dəstə ilə ümumi qüvvələrin tərkibinə qatıldı. Xocavənd süvarilərindən ibarət olan 1000 nəfərlik dəstə ilə Mahmud Mirzə də ruslara qarşı döyüşə hazır olduğunu bəyan etdi. Ümumi qüvvələrə qoşulan Fərəculla xan Əfşarın, Əmənulla xan Kəzzazinin, Məhəmmədəli xan Qovanlının, Rzaqulu xan Saveyinin, Məhəmməd Həsən xan Dəvəlinin dəstələrində isə ümumilikdə 18 min nəfər olduğu bildirirlir. Abbas Mirzənin rəhbərliyi altında toplanan bütün qüvvələrin ümumi sayının 70 min nəfər olması haqqında məlumat vardır (62).

Mənbələrin məlumatına görə, qoşunların təmas xəttinə yaxın ərazidə bu qədər sayda qoşun toplanması yenidən Rusiyanın Qafqazdakı qoşunları baş komandanı Rtişşevin narahatçılığına səbəb oldu. Avropa istiqamətində Rusiya ilə Fransa arasında müharibənin başa çatmadığı üçün Qafqazdakı qoşunların əlavə qüvvələrlə möhkəmləndirilməsi hələ ki, mümkün deyildi. Ona görə də general Rtişşev şah qoşunları ilə fəal döyüşlərin aparılmasının tərəfdarı deyildi. Daha aktuallıq kəsb edən sülh müqaviləsinin imzalanmasına nail olmaq üçün isə o, yenidən ingilis səfiri Qor Uzeleyə müraciət etdi. General Rtişşev şah sarayı ilə sülh müqaviləsinin imzalanmasına kömək göstərilməsi üçün ser Qor Uzeleyə məktub göndərdi. Rus generalı ümid edirdi ki, ingilis səfirinin fəal vasitəçiliyi şah sarayını Rusiya ilə müqavilə imzalanmasına sövq edə bilər.

Formalaşan hərbi-siyasi və tarixi şərait ingilis səfirindən də diplomatik fəaliyyətini genişləndirməyi tələb edirdi. Avropa cəbhəsində Fransanın yenidən öz əvvəlki nüfuzunu bərpa etməyə cəhd göstərməsi qarşısında Rusiya qüvvələrinin iki cəbhəyə bölünməsi İngiltərənin təhlükəsizliyini zərbə altında qoyurdu. Digər tərəfdən Fransa yenidən İranla münasibətlərin yaradılmasına, Rusiyaya qarşı istiqamətlənmiş Fransa-İran ittifaqının bərpasına çalışırdı. Hətta bu məsələ ilə bağlı Fransanın Visintri Morizio adlı nümayəndəsi Ənzəliyə gəlib çıxmışdı. Ona tapşırıq verilmişdi ki, şah sarayının Fransa ilə yeni ittifaq təşkil

etməsi məsələsinə münasibətini aydınlaşdırsın. İngilis səfiri şah sarayı ilə olan yaxın münasibətlərindən istifadə etməklə Fransanın nümayəndəsinin fəaliyyətinə əngəl yaratdı və Fransa-İran danışıqlarının yeni mərhələsinin başlanmasına imkan vermədi (63).

Ser Qor Uzeley Rusiya ilə İran arasında sülh müqaviləsinin imzalanmasına nail olmaq üçün şah sarayında görüşlərə və danışıqlara başladı. Apardığı işin nəticəsi kimi o, şah sarayının vəziri Mirzə Şəfini də Rusiya ilə sülh müqaviləsinin imzalanmasına razı saldı. İngilis generalı Fətəli şahla olan görüşlərində də bu məsələni onun diqqətinə çatdırdı. O, prosesin başlanmasına nail olunması üçün sülh müqaviləsinin şərtlərinin şah sarayının istəkləri əsasında qurulacağını bildirdi. Bunun elə də asan olmayacağını anlayanda ingilis səfiri başqa bir fərziyyəni irəli sürdü. O açıqladı ki, ruslar işğal etdikləri əraziləri müvəqqəti olaraq öz nəzarətləri altında saxlayacaqlar və münasib an yetişən kimi ruslar bu əraziləri tərk edəcəklər. Qor Uzeley hətta bu məqamı özündə əks etdirən müqavilə layihəsini də hazırladı və güman etdi ki, belə bir layihənin mövcudluğu Fətəli şahı və Abbas Mirzəni müzakirələrin başlanmasına meylləndirə bilər (64).

Qor Uzeley tezliklə general Rtişşevin məktubuna cavab hazırladı və onu kapitan Nazarova təqdim etdi. Kapitan Nazarovu geriyə müşayiət edən Məhəmmədəli bəy adlı bir əyan isə şahın baş vəziri Mirzə Şəfinin general Rtişşevə ünvanladığı məktubu gətirdi. Hər iki məktubda şah sarayının Rusiya ilə sülh müqaviləsi bağlanmasında meylli olduğu bildirilirdi. Məktublarda iki tərəf arasında sülh danışıqlarının 1813-cü ilin yayında başlana biləcəyinə ümidlər ifadə olunurdu (65).

General Rtişşevin yazışmalarından aydın olur ki, Qacar sarayında Rusiyanın şərtləri altında sülh müqaviləsi imzalanmasını istəməyənlər çox idi və onlar mümkün vasitələrlə Fətəli şahı və Abbas Mirzəni Rusiya ilə sülh müqaviləsinin imzalanmasından yayındırmağa çalışırdılar. General Rtişşev Qacar əyanlarının Rusiya işğalçılığına qarşı müqavimət nümayiş etdirilməsini məkr və hiylə kimi təsvir edirdi. O, ingilis elçisinin isə Qacar məqamları ilə oxşar mövqedə olmamasını məmnunluqla qarşılayır və Qacar sarayının sülh müqaviləsinin imzalanmasına sövq edilməsi üçün ingilis elçisinin son cəhdlərini minnətdarlıqla qarşılayırdı. Azərbaycan xanlıqları ilə bağlı Qor Uzeleyin Rusiyanın iddialarına dəstək verməsini general Rtişşev imperator tərəfindən ona həvalə olunmuş işlərin həllinə kömək edən vasitə, Rusiya ilə İngiltərə arasındakı dostluq münasibətlərinin formalaşmasına yol açan hərəkətlər kimi xarakterizə edirdi. Azərbaycan xanlıqlarının işğal altına salınması üçün Rusiya ilə Qacarlar dövləti arasında siyasi alverə qatılan Qor Uzeleyin

"xidmətlərini"general Rtişşev mütləq Rusiya imperatorunun nəzərinə çatdıracağını bildirirdi. General Rtişşev ümid edirdi ki, Qor Uzeley Rusiya ilə sülh müqaviləsi imzalanması üçün Qacarlar sarayında mövcud olan müxalifətçiliyi aradan qaldıracaqdır. Məqsədə nail olmaq üçün rus qoşunları baş komandanı ingilis elçisini bu müxalifətçiliyə qarşı sərt mövqe tutmağa təhrik etmək də istəyirdi. Rusiyanın Azərbaycan xanlıqlarını işğal etməsinə və bu işğalçılığın rəsmiləşdirilməsinə ingilis elçisi Qor Uzeleyin təkid etməsinə Qacar sarayında olduğu kimi, Abbas Mirzənin Təbrizdəki dəftərxanasında da müxalifətçilik mövcud idi. Bunun nəticəsi idi ki, general Rtişşevin ingilis elçisinə məktubunu aparan kapitan Nazarov bir neçə gün Təbrizdə tutulub saxlanıldı. Bu məsələni general Rtişşev Qor Uzeleyə hörmətsizlik kimi təsvir edərək ingilis elçisini Qacar əyanlarına qarşı daha sərt mövqe tutmağa çağırdı. Bundan başqa yazışmalara Təbriz əyanlarının mane olmaması üçün general Rtişşev çaparların Xəzər dənizi sahillərindən keçməklə Tehrana yollanmasını təklif edirdi (66).

İki ölkə arasında sülh müqaviləsinin imzalanması vəziyyətinə çeviklik vermək üçün general Rtişşev əvvəlki Qacar heyətlərinin danışıqlardan kənarlaşdırılmasını lazım bilirdi. Danışıqların aparılması şah sarayı tərəfindən Abbas Mirzəyə həvalə olunduğu üçün bir qayda olaraq ruslarla görüşə Qacar şahzadəsi ətrafındakı əyanlar göndərilirdi. Bu əyanlar da Cənubi Qafqazın Rusiya tərəfindən işğalı ilə barışmayan Abbas Mirzənin mövqeyini əks etdirirdilər. Rus generalının fikrincə, növbəti sülh müzakirələrinin aparılması Abbas Mirzənin ətrafındakı əyanlara tapşırılardısa, onda tərəflər yenə də bir nəticə əldə edə bilməyəcəkdilər. Ona görə, general Rtişşev ingilis elçisi qarşısında sülh müzakirələrinin Tehran sarayı tərəfindən aparılmasına nail olunması barədə məsələ qaldırdı. General Rtişşev ingilis elçisinə göndərdiyi məktubunda Cənubi Qafqazın işğal edilməsini və sonra da bu işğalın rəsmiləşdirilməsini qan axıdılmasının dayandırılması, qarşılıqlı faydalı sülhün əldə edilməsi kimi təqdim edir və Qacar əyanlarını belə sülhə qarşı çıxmasına təəccübünü ifadə edirdi (67).

Fətəli şahın vəziri Mirzə Şəfi ilə təmas qurulmasını general Rtişşev sülh müzakirələrinin sürətləndirilməsinə lazımi addım kimi qəbul edirdi. Bu işdə də ingilis elçisi Qor Uzeley öz xidmətlərini göstərə bilmişdi. Kapitan Nazarov Tehrandan geri qayıdarkən Mirzə Şəfidən də general Rtişşevə məktub gətirdi. Rus generalının yazdıqlarından görmək mümkündür ki, Mirzə Şəfi də Rusiyanın şərtləri daxilində sülh müqaviləsinin imzalanmasına razı idi. Ona görə də general Rtişşev ser Qor Uzeleyə göndərdiyi məktubunda Mirzə Şəfini çox böyük səxavətlə

tərifləyirdi, onu öz vətəninin xeyrinə canfəşanlıq edən bir şəxs adlandırırdı. Nəhayət general Rtişşev məktubunun sonunda Rusiya sarayına Qacar sarayının səlahiyyətli səfirinin göndərilməsi məsələsinə də münasibət bildirdi. O, sülh müqaviləsi imzalanmazdan əvvəl belə bir səfirin Rusiyaya göndərilməsinə razı deyildi. Onun fikrincə, sülh müqaviləsi imzalanmasından əvvəl İran səfirinin Rusiyaya göndərilməsinin heç bir nəticəsi olmayacaq və əksinə, vaxt itkisinə səbəb olacaqdı. Generala görə, sülh müqaviləsinin hazırlanması məqsədilə belə bir elçiliyin göndərilməsi nəzərdə tutulardısa, onun da faydalılığı şübhə altında olacaqdı. General Rtişşev bəyan edirdi ki, sülh müqaviləsinin müharibə bölgəsində bağlanması üçün ona Rusiya imperatoru tərəfindən lazımi səlahiyyət verilmişdir. Ona görə də onun hazırlanması üçün Rusiya paytaxtına getmək zəruri sayılmırdı (68).

Eyni gündə general Rtişşev ingilis elçisinə ikinci məktubunu da yazdı və həmin məktubda sülh müzakirələrinin aparılmasında Mirzə Şəfinin iştirakını bir daha məmnunluqla qeyd etdi. General Rtişşev şübhə etmirdi ki, Mirzə Şəfi ilə daha asanlıqla dil tapmaq mümkün olacaq və bu da rusların şərtləri daxilində sülh müqaviləsinin imzalanmasını sürətləndirəcəkdir. Ona görə baş komandan Mirzə Şəfidən məktub alınmasını sevinclə qarşıladı və dərhal da ona cavab verdi. İkinci məktubunda general Rtişşev sülh müzakirələrinin başlanması üçün öz təkliflərini açıqladı. Həmin təkliflər Mirzə Şəfiyə göndərilən məktubda da öz əksini tapmışdı. General Rtişşev ilk növbədə sülh müzakirələrinin başlanması üçün Mirzə Şəfidən razılıq məktubu almaq istəyirdi. Müsbət cavab olacağı təqdirdə sülh müzakirələrinin aparıldığı müddətdə döyüşlərin dayandırılması təklif olunurdu. Bununla bağlı təklif olunurdu ki, Mirzə Şəfi tərəfindən səlahiyyətli bir şəxs bu səlahiyyətə malik olmasını təsdiq edən məktubla general Rtişşevin yanına göndərilsin. Bu səlahiyyətli şəxslə müvəqqəti barışığın müddəti razılaşdırılsın və sonra da barışığın əldə edilməsi sərhəd boyunca yerləşən Qacar qoşunlarına elan edilsin. General Rtişşev əsirlərin qarşılıqlı şəkildə dəyişdirilməsini də mümkün sayırdı (69).

Öz məktubunda general Rtişşev sülh danışıqlarının harada keçirilməsinə də münasibətini bildirdi. Təbriz əyanlarının sülh müqaviləsinin imzalanmasına mane olmasının qarşısını almaq üçün general Rtişşev bu danışıqların elə Tehranda aparılmasını təklif etdi. Qacar sarayı bu təkliflə razılaşacağı təqdirdə general Rtişşev özünün səlahiyyətli məmurunu Tehrana göndərəcəyini bildirdi. Bu məmur sülh müzakirələrini aparmalı və sülh müqaviləsini imzalamalı idi. General Rteşşevin özünün sülh müqaviləsinin imzalamasına gəlincə isə o bildirirdi ki,

Rusiya imperatorunun icazəsi olmadan bölgəni tərk edə bilməz. Amma onu da əlavə edirdi ki, Qacar şahı müzakirələrin aparılmasının təmas bölgəsində olmasına icazə verərsə, Mirzə Şəfi də bu danışıqlara göndərilərsə, onda onunla görüşməkdən imtina etməz. Amma general Rtişşev xahiş edirdi ki, bu görüş yeri hazırkı sərhəd bölgəsində olsun. General Rtişşev ingilis elçisindən xahiş edirdi ki, irəli sürdüyü təkliflərin qəbul olunmasına və bununla da sülh müzakirələrinin başlanmasına öz köməyini göstərsin (70).

Lakin sülh müzakirələrinin başlanması general Rtişşevin gözlədiyi qədər də asanlıqla baş vermədi. Rus işğalına qarşı mövcud olan müxalifətçiliyin aradan qaldırılması ingilis elçisi üçün çətin bir vəzifəyə çevrildi. İngilis elçisinin katibi Moriyer də öz yazışmalarında Rusiya ilə sülh müqaviləsinin imzalanmasına güclü müqavimət olduğunu və sülh müqaviləsinin bu şəraitdə əldə edilməsinin çətin olacağını bildirirdi. Doğrudur, o, Qacar əyanlarının Rusiya işğalçılığına qarşı müxalifətçiliyini Qacar əyanlarının hiyləgərliyi və bicliyi kimi qələmə verirdi. Bununla belə, o, Abbas Mirzənin və şah qayməqamı Mirzə Bozorgun sülh müqaviləsinin imzalanmasına qarşı qətiyyətli mövqe tutduqlarını yazırdı (71).

Abbas Mirzə və onun ətrafı doğrudan da Rusiyanın işğalçılığının rəsmiləşdirilməsinə qarşı barışmazlıq nümayiş etdirirdi. Lakin bu mövqenin əməli nəticəyə çevrilməsi üçün Abbas Mirzənin əlində artıq səmərəli təsir vasitəsi yox idi. Qacar qoşunlarının rus qoşunları qarşısında səbatsızlığı göz önündə idi və mövcud hərbi imkanlarla Rusiyanı Cənubi Qafqaz iddialarından uzaqlaşdırmaq qeyri-mümkün idi. Beynəlxalq təzyiqlər baxımından isə Qacar dövlətinin daha güvənəcəyi bir ölkə yox idi. Bir müddət əvvəl müttəfiq kimi qəbul olunan İngiltərənin elçisi artıq birmənalı şəkildə Rusiya mövqeyinə himayədarlıq edirdi. Abbas Mirzənin və onun ətrafının son seçimi isə sülh müqaviləsinin bağlanmasına mane olmaq və imkan daxilində sülh müzakirələrinin aparılmasını təxirə salmaq idi.


Fətəli şah özü də aydın idi ki, çox asanlıqla Rusiyanın işğalçılığının qəbul edilməsinə razı deyildi və bu müqavilənin imzalanmasından qaçmaq üçün yollar axtarırdı. Bu baxımdan Rusiya ilə Fransa arasında müharibənin davam etməsinə müəyyən ümidlər bağlanılırdı. Şaha belə məlumatlar çatdırılırdı ki, 1813-cü ildə bu müharibədə Fransa qoşunları Peterburqa daxil ola biləcək və bu şəhər də Moskva kimi fransalılar tərəfindən dağıdılacaqdır. Məsələləri daha yaxşı araşdırmaq üçün 1813-cü ilin yayında Fətəli şah Sultaniyyəyə yollandı və eyni zamanda Qacar sarayı tərəfindən Mirzə Əbülhəsən xana göstəriş verildi ki, ser Qor

Uzeleyin bütün hərəkətləri nəzarət altına alınsın. Fətəli şah Sultaniyyədə olanda ingilis elçisi Həmədanda idi. İngilis elçisi istilərdən qorunmaq üçün qısa müddətə Həmədama gəlmişdi. Bir neçə gendən sonra ingilis elçisi Rusiya ilə sülh müqaviləsinin imzalanmasına qətiyyətlə etiraz edən qayməqamın da Sultaniyyəyə gəlməsindən xəbər tutdu və onda belə bir güman yarandı ki, orada sülh müqaviləsinin imzalanmaması ilə bağlı qərar qərar qəbul olunacaqdır. Ona görə də ser Qor Uzeley dərhal Sultaniyyəyə yollanmağı və şahla görüşməyi qərara aldı. İngilis elçisinin mehmandarı Mirzə Əbülhəsən xanın onun Həmədanı tərk etməsinə mane olmaq cəhdi də Qor Uzeleydə Qacar əyanlarının ondan xəbərsiz yeni qərar hazırlamalarına şübhə yaratdı. Şahın dəvəti olmadan ingilis elçisinin onun yanına yola düşməsi yalnız Mirzə Əbülhəsən xanın deyil, şah əyanlarının və eləcə də şahzadənin qəzəbinə səbəb oldu. Belə bir xoşa gəlməz vəziyyətlə rastlaşsa da ingilis elçisi öz niyyətindən üz döndərmədi. Yazışmalarında ingilis səfiri bildirirdi ki, bu şəraitdə o öz vətəninin maraqları naminə hərəkət edir və qarşılaşdığı şəraitdə uğur qazanmağın vacib olduğunu bildirirdi (72).

İngilis elçisi 1813-cü il iyunun 16-da Həmədandan yola düşdü və həmin ayın 31-də Soltaniyəyyə yetişdi. İngilis səfirinin bu səfərdə məqsədi Fətəli şahla görüşmək idi. Soltaniyyəyə çatandan sonra ingilis səfiri şahla görüş məsələsini tənzimləmək üçün heç vəzir Mirzə Şəfiyə müraciət etməyi də lazım bilmədi. O birbaşa şahın özünə müraciət edib görüş üçün vaxt ayrılmasını xahiş etdi. Şah ingilis səfirinin nə məqsədlə gəldiyindən xəbərdar idi və ilk baxışdan belə görünür ki, bu məsələ ilə bağlı onu qəbul etmək arzusu yox idi. Belə olanda ingilis səfiri şantaja əl atdı və şaha xəbər göndərdi ki, əgər şah ingilis səfirini qəbul etməsə bu, ingilis padşahına hörmətsizlik kimi qəbul ediləcək. Sonra da ingilis səfiri çadırını yığışdıraraq İranı tərk edəcəkdir. Fətəli şah ruslarla sülhün bağlanmasına müqavimət göstərməyə çalışsa da, son nəhayətdə ingilis səfirinin hədələrini qəbul etmək məcburiyyətinə qaldı və sülh müzakirələrinin başlanması üçün Abbas Mirzəyə göstəriş verdi. Şah eyni zamanda ingilis elçisinə də bu müzakirələrdə Abbas Mirzə ilə birlikdə iştirak etmək səlahiyyəti verdi (73).

1813-cü il ərzində Fransa qoşunlarının Avropa cəbhəsində ara bir baş verən uğurlu döyüşləri İngiltərə hökumətini təşviş içərisində saxlayırdı və bu uğurların təkrarlanmaması üçün ingilislər Rusiyanın bütün diqqətinin Avropa cəbhəsinə cəmləşdirilməsinə çalışırdı. Ona görə Qor Uzeley də Rusiyanın istəklərinin tezliklə nəzərə alınmasını və Rusiya ilə Qacar sarayı arasında sülh müqaviləsinin imzalanmasını istəyirdi. Sülh

müqaviləsi üçün Rusiyanın şərti isə işğal edilmiş ərazilərin Rusiya sərhədləri daxilində saxlanması idi.



Fətəli şah qoşunlarının Soltaniyyə çəmənindəki düşərgəsi

Mövcud olan məlumatlara görə, Fətəli şahın sülh müzakirələrinin davam etdirilməsinə göstəriş verməsindən sonra da Abbas Mirzə, Mirzə Bozorg və elə Fətəli şah özü də Rusiyanın Cənubi Qafqazdakı işğallarına son qoyulmasına təkid edirdilər. Belə olanda ingilis elçisi müxtəlif bəhanələri ortaya atmağa başladı. Onun bəhanələrindən biri də bu oldu ki, sülh müqaviləsi imzalansa da Rusiya işğal olunmuş əraziləri uzun müddət nəzarət altında saxlamaq niyyətində deyil. Şah sarayını sülh müqaviləsinin imzalanmasına razı salmaq üçün Qor Uzeley başqa bir müqavilə də tərtib etdi. Bu müqavilədə guya sülh müqaviləsinin imzalanmasından sonra rus qoşunlarının işğal edilmiş əraziləri necə boşaltması təsbit olunmuşdu (74).

Qeyd etmək lazımdır ki, bu məsələ kifayət qədər ciddiliklə ortaya qoyulmuşdu. Hər vasitədən əli üzülən şah sarayı Qor Uzeleydən tələb etdi ki, rusların sonradan işğal olunmuş ərazilərdən çıxarılacağı barədə öhdəliknamə hazırlayıb təqdim etsin. Qor Uzeley deyildiyi kimi, belə bir sənədi hazırladı və həmin sənəd hazırda ingilis arxivlərində saxlanılmaqdadır. Bu sənədin bir yerində deyilirdi ki, Qacar dövlətinin səfiri Rusiyanın paytaxtına yetişəndən sonra ingilis dövlətinin səyləri və Qacar şahzadəsinin xahişləri ilə Rusiyanın böyük imperatoru Qarabağ, Şirvan, Şəki və Bakı vilayətlərini İrana qaytaracaqdır. İngilis elçisi onu da öhdəsinə götürmüşdü ki, adları çəkilən xanlıqlar qaytarılana qədər İngiltərə Qacar dövlətinə maliyyə yardımı göstərməkdə davam edəcəkdir (75) .

Əlbəttə ki, burada adları çəkilən xanlıqların Rusiya qoşunlarının çəkilməsindən sonra hansı statusda olacaqlarına toxunulmurdu. İngilis elçisinin və şah sarayının fərziyyəsi belə idi ki, rus qoşunları geri çəkiləndən sonra həmin xanlıqlar Qacar hakimiyyətinin nəzarət altına alınacaqdır.

Şah sarayını Rusiya ilə müqavilə bağlamağa məcbur etmək üçün ingilis səfirinin əlində başqa vasitələr də var idi və o bu vasitələrdən də istifadə etdi. Qor Uzeley şah sarayına xəbər göndərdi ki, Rusiya ilə sülh danışıqları başlanmasa, İngiltərə tərəfindən şah qoşunlarına göstərilən maliyyə yardımları dayandırılacaqdır. Ölkənin ağır iqtisadi durumunda şah sarayı ingilis maliyyə yardımının dayandırılmasını istəmirdi. Digər tərəfdən ingilis maliyyə yardımlarının dayandırılması İngiltərə ilə şah sarayı arasındakı münasibətlərin kəsilməsi demək olardı. Ona görə şah sarayı bu xəbərdarlığın qarşısında geri çəkilməli oldu. Ser Qor Uzeley İngiltərənin xarici işlər nazirinə göndərdiyi məktubunda yazırdı ki, ingilis maliyyə yardımlarının dayandırılacağı hədələri ilə şahı sülh müzakirələrinin başlanmasına razı sala bildi. Onun yazdığına görə şah eyni

zamanda Mirzə Bozorgun müdaxiləsinə yol vermədən müzakirələrin aparılmasına razı oldu. İngilis səfiri çox böyük məmnunluqla öz nazirinə çatdırırdı ki, İngiltərənin dostu və müttəfiqi olan Rusiyaya kömək göstərilməsinə nail olmuşdur. İngilis səfiri onu da əlavə edirdi ki, iki ölkə arasında sülh müqaviləsinin imzalanmasından sonra Rusiyanın Qafqazdakı qoşunları nəhayət İngiltərənin və Rusiyanın müştərək düşməninə qarşı istifadə oluna biləcəkdir (76).

Mənbələrdə və tarixi ədəbiyyatda olan məlumatlardan aydındır ki, Abbas Mirzə Rusiya ilə sülh bağlanmasına qarşı çıxırdı. O hətta ingilis səfirinə də çatdırdı ki, rusların 1812-ci ildə göstərdiyi cəsarətin cavabını 1813-cü ildə verəcəkdir. Sülh imzalanmasının qarşısını almaq üçün Abbas Mirzə Fətəli şahla görüşdü. Şah əyanlarının, şahzadələrin iştirakı ilə keçirilən görüşdə o, ruslarla nəzərdə tutulan sülh müqaviləsinin son dərəcə təhqiredici olduğunu, əhalinin bununla razı olmayacağını bəyan etdi. O bildirdi ki, qoşunların imkanları hələ tükənməyib və rus qoşunlarına lazımi cavab vermək mümkündür. Abbas Mirzənin bu və ya digər arqumentləri həm şahı, həm də saray əyanlarını sülh müqaviləsinə qarşı çıxmağa sövq etdi. Vəziyyətin belə dəyişməsi ehtimalı yenidən ingilis səfirini təşvişə saldı. Şah sarayının Rusiya ilə sülh bağlanmasına məcbur etmək üçün Qor Uzeley yenidən Fətəli şahla görüşmək qərarına gəldi (77).

Hər halda ingilis elçisinin təhdidləri və şantajları öz nəticəsini verdi və başqa bir səmərəli yolu olmayan şah sarayı sülh müzakirələrinin başlanmasına qərar verdi. Bununla bağlı Qor Uzeleyə səlahiyyət verildi ki, Rusiya ilə bir illiyə müvəqqəti barışıq anlaşması imzalasın. Bu məsələnin həll edilməsi ilə bağlı Qor Uzeley general Rtişşevə məktub yazdı və bu məktubu Kempbel adlı bir ingilislə ona göndərdi. Eyni zamanda Mirzə Şəfi də general Rtişşevə məktub yazdı və bu məktubu Məhəmmədəli bəy adlı birisi ilə göndərdi. Məhmmədəli bəy və Kempbel birlikdə Tiflisə yola düşdülər (78).

Onu da qeyd etmək lazımdır ki, Rusiya ilə sülh müzakirələrinin başlanması haqqında şah sarayının qərar verməsini ingilis səfiri İngiltərənin maraqlarına cavab verdiyi üçün çox böyük sevinclə qarşıladı. Bununla bağlı ingilis məqamlarına göndərdiyi məktubunda Qor Uzeley onları da təbrik edir və İngiltərədən xeyli uzaq olan "əsil rus dostlarına faydalı olduqlarına" görə məmnunluğunu gizlətmirdi. Onun yazdığına görə, Qacar sarayının təklifi əsasında Rusiya ilə 12 aylıq barışıq bağlaması Gürcüstanın müdafiəsinə istifadə olunan rus qoşunlarının İngiltərənin düşməninə qarşı göndərilməsini mümkün edirdi. Qor Uzeley ona da işarə edirdi ki, Qacar sarayı fikrindən yenə də dönməli olsa, onda

Qacarlara göstərilən maliyyə yardımlarının kəsilməsi ilə bağlı qorxudacağını bildirirdi (79).

Farsdilli mənbələrdə ingilis səfirinin və şah vəziri Mirzə Şəfi Mazandaraninin sülh müqaviləsinin imzalanması üçün dövlətin maraqlarına cavab verməyən fəaliyyət göstərmələri barəsində xeyli məlumat mövcuddur. Bu şəxslərin hər ikisinin mövqeyi mənbələrdə acı təəssüflə xatırlanır. Məsələn, Mirzə Məhəmməd Vəqayeneqar yazırdı ki, ingilis səfiri Mirzə Şəfinin vasitəsilə Rusiya ilə sülh müqaviləsini ortaya atdı. Amma şahzadə bu təklifi qəbul etmədi və ingilis səfirinə ağır cavab verdi. Abbas Mirzə bildirdi ki, yenidən döyüşlərə başlamaqla münasib sülh müqaviləsinin imzalanması üçün fərqli şərait yaradacaqdır. Mirzə Şəfi isə Abbas Mirzənin bu mövqeyi ilə razılaşmadı və şah qarşısında məsələ qaldırdı ki, sülh müqaviləsinin imzalanması ilə bağlı Rusiyanın təklifi rədd edilməsin. Mirzə Şəfidən başqa Qacar dövlətinin xarici işlər naziri olan Mirzə Əbülhəsən xan da Rusiya ilə sülh müqaviləsinin imzalanmasına təkid göstərdi (80).

Ə. Dünbəli də yazırdı ki, rus qoşunları baş komandanı ser Qor Uzeleyə məktub yazıb ondan Rusiya ilə Qacarlar arasında sülh müqaviləsinin imzalanmasını istədi. İngilis elçisi də çalışdı ki, şahı sülh müqaviləsini imzalamağa razı salsın. Sədr-əzəm Mirzə Şəfi də bu məsələdə ingilis səfiri ilə həmfikir idi və şah qarşısında da sülh müqaviləsi imzalanması təklifini müdafiə etdi.

Qacar sarayının sülh müzakirələrinə razı olması xəbəri general Rtişşevi son dərəcə sevindirdi və bu razılığın əldə edilməsindəki səylərinə görə ingilis elçisi Qor Uzeleyə hədsiz minnətdarlığını ifadə etdi. Bununla belə, rus qoşunlarının baş komandanı sülh müzakirələrinin aparılması üçün bir illik barışıq elan edilməsi təklifi ilə razı olmadı. Onun fikrincə, uzun müddətli elan edilmiş barışıq müharibə vəziyyətində olan ölkələr üçün sabitliyi təmin edə bilməzdi. Sülh müqaviləsinin əsasını təmin edən maddələrin araşdırılmasına bir il vaxt sərf edilməsini general Rtişşev qəbul etmədi. O bildirdi ki, sülh müqaviləsinin şərtləri hazırlanaraq artıq Qacar sarayına təqdim olunmuşdur və bu maddələr üzərində artıq Mirzə Əbülhəsən xanla birlikdə müzakirələr də aparılmışdır. General Rtişşevə görə, sülh müqaviləsinin layihəsi ilə qarşılıqlı tanışlıq mövcud olduğu halda bunun üçün yenidən bir il vaxt ayrılması səmərəsiz yerə vaxt itkisindən başqa bir şey deyildi. O ehtiyat edirdi ki, bir il müddətində Qacar sarayı müzakirələrdən yayına və bu halda iki ölkə arasında müharibə yenidən başlaya bilər. O istisna etmirdi ki, bu halda vəziyyət dəyişə bilər və onda Qacarlar sarayına bu gün təklif olunan şərtlərdən daha ağır şərtlər təklif oluna bilər (82).



General Rtişşev

İngilis elçisi Qor Uzeley general Rtişşevə göndərdiyi məktubunda iki ölkə arasında müqavilənin müzakirəsi və imzalanması üçün yenidən Qacar sarayının səfirinin Rusiyaya göndərilməsi məsələsini qaldırdı. General Rtişşev isə yenə də bu təklifin əleyhinə çıxdı və səfirlərin mübadiləsinin yalnız sülh müqaviləsinin imzalanmasından sonra mümkün olacağını bildirdi. Bir daha o, ingilis elçisinə çatdırdı ki, Qacar dövləti ilə sülh müqaviləsinin imzalanması səlahiyyəti ona verilmişdir və bunun üçün Rusiya paytaxtına elçi göndərməyə ehtiyac yoxdur (83).

Qacar sarayı çalışırdı ki, sülh müzakirələrinin Peterburqa keçirməsinə nail olsun. Güman edilirdi ki, bir başa Rusiya sarayının iştirakı ilə aparılan müzakirələrdə müəyyən güzəştlər əldə etmək mümkün olacaq, Qacar nümayəndələri tərəfindən qaldırılan təkliflərə Rusiya sarayı diqqətlə yanaşacaqdır. Bu təklif general Rtişşev tərəfindən qətiyyətlə rədd ediləndə Qacar sarayı kiçik sülh müqaviləsi təklifini irəli sürdü. Bu təklifin də mahiyyəti ondan ibarət idi ki, böyük sülh müqaviləsinin razılaşdırılması Peterburqa keçirilsin və orada Rusiya sarayı qarşısında işğal edilmiş ərazilərin müəyyən hissəsinin azad edilməsi məsələsi qaldırılsın. Hər halda Qacar sarayında Rusiya imperatorunun yumşaqlıq nümayiş etdirəcəyinə bir ümid var idi (84).

General Rtişşev sülh müzakirələrini başa çatdırılması üçün 50 günlük barışıq elan edilməsi ilə razı olduğunu bildirdi. O eyni zamanda sülh müzakirələrinin aparılması üçün yer də təklif etdi. Bu yer İrəvan xanlığı ilə Naxçıvan xanlığının sərhədində, Araz çayı yaxınlığında, Ağoğlanla üzbəüz olan Gülüstan kəndi idi. Müzakirələrin aparılması üçün bir də Lənkəran xanlığı sərhədi yaxınlığında münasib bir məkan təklif olundu. General Rtişşev ingilis səfirinin nəzərinə çatdırdı ki, sülh müzakirələrini aparacaq şah nümayəndəsi konkret səlahiyyətə, aydın təsəvvürə malik olsun. O xəbərdar edirdi ki, Qacar nümayəndəsi müvafiq səlahiyyətə və avtoritetə malik olmasa, onda onunla müzakirələr aparılmayacaqdır (85).

General Rtişşev tərəfindən Gülüstan kəndinin müzakirə yeri kimi seçilməsi təsadüfi deyildi. Gülüstan kəndi Qarabağ xanlığının ərazisində yerləşməklə Araz çayına da yaxın idi. Həm də bu məntəqədə çoxlu ərzaq ehtiyatları var idi. Konkret tarixi şərait üçü Gülüstan kəndinin sülh müzakirələrinin yeri kimi seçilməsi həm də hərbi-strateji əhəmiyyət kəsb edirdi. Gülüstanda olduğu vaxt ərzində general Rtişşev həm Gürcüstanı, həm Talış xanlığını, həm də Pəmbəki ciddi nəzarət altında saxlaya bilərdi. Həmin məntəqələrdə Rusiya əleyhinə həyəcanlar və ya rus qüvvələrinə qarşı döyüşlər baş versəydi, general Rtişşev ətrafındakı qüvvələri tez bir zamanda həmin məntəqələrə ata bilərdi.

General Rtişşev 1813-cü ilin iyul ayının ortalarında bu təkliflərinin məktub halına salaraq Kembpel vasitəsilə Qor Uzeleyə göndərdi. Bu məktuba cavab almaq və bununla qarşı tərəfin irəli sürülən təkliflərə münasibətini öyrənmək üçün general Rtişşev xeyli gözləməli oldu. Çünki Qor Uzeleyin məktubuna cavab bir də avqust ayının sonlarında alındı. Yazılanlardan aydın olur ki, general Rtişşevin məktubunu alandan sonra onun təkliflərinin qəbul edilməsi üçün Qor Uzeley Qacar sarayının əyanları ilə xeyli iş aparmalı olmuş və nəhayət bu təkliflərin qəbul edilməsinə nail olmuşdu. Bununla da Qacar sarayı nəhayət ki, sülh müqa-

viləsinin imzalanmasına razı oldu. O da bəlli olur ki, Qacar sarayı verilən təklifləri heç də asanlıqla qəbul etmədi. Heç şübhəsiz ki, onların qəbul edilməsi üçün Qor Uzeley yenidən şantaj və təhdid yolunu tutdu və əldə edilən nəticəyə görə Qor Uzeley yenidən general Rtişşevin səxavətli tərifləri ilə qarşılaşdı (86).

Sülh müqaviləsinin imzalanması ilə bağlı Qacar sarayında son müzakirələr və məsləhətləşmələr aparılandan sonra nümayəndə heyətinin rəhbəri kimi Mirzə Əbülhəsən xan təyin edildi. General Rtişşev Mirzə Əbülhəsən xanın şah heyətinin rəhbəri təyin edilməsini məmnunluqla qarşıladı. Sülh müzakirələrinin aparılacağı yerin müəyyənləşdirilməsi isə general Rtişşevin öhdəsinə buraxıldı. O isə yenidən müzakirələrin Gülüstanda aparılmasını təklif etdi və bu təklif Qacar sarayı tərəfindən qəbul olundu. O cümlədən, şah sarayı tərəfindən sülh müzakirələrinin aparılması üçün 50 günlük barışığın elan edilməsi təklifi də qəbul olundu. Bununla da iki dövlət arasında sülh müqaviləsinin imzalanması üçün ilkin şərtlər yaradılmış oldu. Bununla belə, Qacar sarayı Rusiya tərəfindən işğal edilmiş müəyyən ərazilərin azad edilməsində israrlı idi. Ona görə Rusiya tərəfinə təklif olundu ki, Rusiya tərəfindən işğal olunmuş ərazilərin müəyyən hissəsinin gələcəkdə azad edilməsinin mümkünlüyü haqqında müqaviləyə xüsusi bir bənd əlavə edilsin. İngilis elçisi Qor Uzeley bu barədə məktubunda general Rtişşev qarşısında məsələ qaldırdı. Rtişşev isə bu təklifi birmənalı şəkildə rədd etdi. O bildirdi ki,bölgədə status-kvonun saxlanması şərti ilə müqavilə imzalanması Qacar sarayı tərəfindən qəbul edilmişdir. Bu şərtlə müqavilə imzalanmasından sonra gələcəkdə hansısa ərazilərin azad edilməsi artıq mümkün olmayacaqdır. İngilis elçisinin məktubunda eyni zamanda kiçik sülh müqaviləsinin imzalanması təklifi də xatırlanırdı. Bu təklif də Rtişşev tərəfindən rədd edildi və bu təkliflərin irəli sürülməsini o, Qacar sarayının sülh müqaviləsinin imzalanmasına etimadsızlıqla yanaşması kimi qiymətləndirirdi. Qacar sarayının sülh müzakirələrindən yayınması ehtimalının qarşısını almaq üçün general Rtişşev başqa bir təklif irəli sürdü. O təklif etdi ki, onun irəli sürdüyü tələblər əsasında sülh müqaviləsinin imzalanan sülh müqaviləsinə ayrıca bir əlavə qəbul edilsin və həmin əlavədə nəzərdə tutulsun ki, sülh müqaviləsinin imzalanmasından sonra şah sarayının heyəti Rusiya paytaxtına yollansın və İran tərəfinin bütün xahişləri və təklifləri Rusiya sarayı qarşısında qaldırılsın. Əlavə o da bildirilməli idi ki, Qacar heyəti tələb yox, yalnız xahiş irəli sürə bilərdi. General Rtişşev öz tərəfindən də vəd etdi ki, Qacar sarayının xahişlərini və təkliflərini Rusiya imperatoruna çatdıracaqdır. Baş komandan onu da çatdırdı ki, müqaviləyə əlavə əsas sülh

müqaviləsinin imzalanmasından və qarşılıqlı şəkildə təsdiqlənməsindən sonra qəbul edilə bilər (87).

General Rtişşev şah sarayının irəli sürdüyü yeni təkliflərlə münasibətini növbəti məktubunda yazıb şah elçisi Məhəmmədəli bəy vasitəsilə geri, Qor Uzeleyə göndərdi. Məhəmmədəli bəylə birlikdə Cənubi Qafqazdakı rus qoşunlarının növbətçi generalı vəzifəsini icra edən mayor Mandrıkin də Qacar sarayına göndərildi. Qacar sarayı tərəfindən sülh müzakirələrinin başlanmasına qərar verilsəydi mayor Mandrıkin Mirzə Əbülhəsən xanın heyətini Gülüstana kimi müşayiət etməli idi. Qor Uzeleyə göndərdiyi məktubunda general Rtişşev bir daha bildirdi ki, Qacar sarayının irəli sürdüyü son təkliflər qəbul edilməzdir və əgər Qacar heyəti yalnız həmin təkliflərin nəzərə alınacağı şərtilə sülh müzakirələrinə yollanmaq istəyirsə, bunun bir nəticəsi olmayacaqdır və o, ümumiyyətlə müzakirə yerinə gəlməyəcəkdir. General Rtişşev ser Qor Uzeleydən bir daha bu məsələ ilə məşğul olmağı və Qacar sarayının öz mövqeyini dəyişməyəcəyi təqdirdə mayor Mandrıkini geri yola salmağı xahiş etdi (88).

General Rtişşev bu dəfə də şərtlərini Qacar sarayına qəbul etdirməyə müvəffəq oldu. Onun yazışmalarından aydın olur ki, 1813-cü il sentyabr ayının əvvəllərində ingilis elçisi Qor Uzeleydən məktub aldı və Qor Uzeleyin Qacar sarayında apardığı işlərdən məlumatlandı. Qor Uzeley ona Qacar sarayının irəli sürülən bütün təkliflərlə razılaşmasını açıqladı. Müqavilə imzalanmasından sonra Rusiyanın bəzi əraziləri boşaltmasının çətinliyi barəsində maddəyə gəlincə isə, ingilis elçisi bildirirdi ki, general Rtişşev həmin maddəni dəyişə bilər. Baş komandan təkliflərini qəbul edilməsini şah sarayının Rusiya təklifləri qarşısında güzəştə getməsi kimi qəbul etdi. O bəyan edirdi ki, Qacar sarayı Rusiyanın gücü qarşısında güzəştə getmək məcburiyyətində qalmışdı. Bu baxımdan o, rus eskadrilyasının Lənkərana çıxarılmasını Rusiyanın gücünün nümayişi kimi dəyərləndirirdi. Onun fikrincə, şah sarayı rus hərbi gəmilərinin Xəzər dənizinin cənubuna doğru irəliləyəcəyindən ehtiyat edirdi və ona görə də sülh müqaviləsinin imzalanmasına razı oldu. Qacar sarayı danışıqların nə vaxt başlaması haqqında da qərarını açıqladı. Gözlənilirdi ki, Mirzə Əbülhəsən xan sentyabrın 20-də Gülüstana yetişəcək. Onun yetişməsi ilə də danışıqlar başlana bilərdi. Bununla belə, general Rtişşev şah sarayının sülh müzakirələrindən yayınmağa cəhd göstərməsini də istisna etmirdi. Bunun üçün əslində səbəb də var idi. Sülh müqaviləsi Qacar sarayı tərəfindən arzu olunmayan şərtlər üzərində qurulmuşdu. General Rtişşev həm də ehtiyat edirdi ki, 50 günlük barışıqdan istifadə edərək Qacar sarayı yeni döyüşlərə hazırlaşmağa başlaya bilər. Ona görə

də general Rtişşev rus qoşunlarına da döyüşə tam hazır vəziyyətdə olmaq tapşırığı verdi. General Rtişşev onu da istisna etmirdi ki, şah sarayı danışıqlara başlamaqla vaxt udmaq istəyir. Şah sarayının müqavilənin imzalanmasına meylli olmayacağı halda general Rtişşev sülh müzakirələrini dərhal dayandıracağını və Qacar sarayını sülh müqaviləsini imzalamağa məcbur etmək üçün yenidən silaha əl atacağını bildirdi (89).



Mirzə Əbülhəsən xan

Hər halda Qacar sarayı çıxılmaz vəziyyətdə qalaraq sülh müzakirələrinin başlanmasına qərar verdi. Sülh müzakirələrinin aparılmasına səlahiyyətli olması barəsində şah sarayı tərəfindən Mirzə Əbülhəsən xana fərman verildi və o, heyəti ilə birlikdə Gülüstan kəndinə yola salındı. General Rtişşev isə sentyabr ayının 10-da sülh müzakirələrinin aparılması üçün Tiflisdən Gülüstana doğru irəliləməyə başladı və sentyabr ayının 21-də Gülüstana yetişdi. O dərhal da öz adyutantını və kiçik bir silahlı dəstəni Mirzə Əbülhəsən xanın qarşılanmasına göndərdi. Mirzə Əbülhəsən xan Qarabağ xanlığı ərazisində ehtiramla qarşılandı və Gülüstan kəndinə müşayiət olundu. Gülüstan kəndinə yaxınlaşanda isə onun pişvazına bir eskadron çıxarıldı. Bir neçə şah əyanı və 350-yə qədər adamla müşayiət olunan Mirzə Əbülhəsən xan nəhayət sentyabrın 27-də Gülüstana yetişdi (90).

Farsdilli mənbə və araşdırmaların məlumatına görə, general Rtişşevin xüsusi nümayəndəsi olan yaveri Təbrizə gəldi ki, şah sarayının nümayəndəsini sülh müqaviləsinin imzalanması üçün Gülüstana müşayiət etsin. General Rtişşevin xüsusi nümayəndəsi bir eskadron kazak tərəfindən müşayiət olunurdu. Xüsusi nümayəndə bölgəyə gəlmiş olan şah tərəfindən də qəbul edildi və

bununla da əslində şah sarayının ikitərəfli müqavilə imzalanmasına razılığı ifadə olundu. Bundan sonra xüsusi nümayəndə şah sarayının təmsilçisi ilə birlikdə Gülüstana doğru üz tutdu (91).

Burada sözsüz ki, söhbət mayor Mandrıkindən gedir. Mayor Mandrıkin sentyabr ayının 20-də Təbrizdən general Rtişşevə məktub göndərdi və bildirdi ki, nümayəndə heyətinin sentyabrın 23-də Gülüstana yetişməsi gözlənilir. Elə həmin gün general Rtişşev ingilis elçisi Qor Uzeleydən də məktub aldı. Amma şah sarayının nümayəndə heyəti sentyabr ayının 23-də deyil, yuxarıda qeyd edildiyi kimi, sentyabrın 27-də Gülüstana yetişdi. Heyətin yolda ləngiməsinin nə ilə bağlı olduğunu söyləmək çətindir. Bununla belə, heyətin səfəri general Rtişşevin nəzarəti altında idi. Araz çayının şimalına adlayandan sonra Mirzə Əbülhəsən xanın heyəti üç yerdə xüsusi şəkildə qarşılandı. Araz çayını adlayanda heyəti general Rtişşevin yaveri və kiçik kazak dəstəsi qarşıladı. Gülüstan yaxınlığında isə heyətin qarşılanmasına bir eskadron draqun və general Rtişşevin dəftərxanasının vəzifəli məmurları göndərildi. General Rtişşev sentyabr ayının 21-dən Gülüstanda idi və o dərhal da şah heyətinin yerləşməsi üçün xüsusi çadırların qurulmasına göstəriş verdi (92).

İkitərəfli müqavilənin imzalanması üçün çox fəallıq göstərmiş olan ingilis səfiri Qor Uzeley Gülüstan danışıqlarında iştirak etmədi. Müqavilənin hansı şərtlərlə bağlanacağı artıq ona bəlli idi və əslində o,

hökuməti tərəfindən qarşısına qoyulmuş vəzifənin icrasına nail olmuşdu. Qor Uzeley İngiltərənin şah sarayına təsirindən bəhrələnərək şah tərəfini Rusiyanın şərtləri daxilində güzəştə getməyə və müqavilə imzalamağa sövq edə bildi. Hətta ona da nail oldu ki, Rusiyanın şərtləri daxilində bu ölkə ilə müqavilə imzalanmasına müxalifətdə olan Abbas Mirzənin qəyumu qayməqam Mirzə Bozorg danışıqlar prosesinə buraxılmasın (93).

5. Gülüstan müqaviləsi

Mirzə Əbülhəsən xanın rəhbərliyi altında olan İran nümayəndə heyəti Gülüstan kəndinə yetişəndən sonra rus nümayəndə heyətinin düşərgəsindən çox da uzaq olmayan bir yerdə düşərgə saldı. Hər iki düşərgənin arasındakı məsafənin ortasında isə xüsusi çadır quruldu ki, danışıqlar və müzakirələr orada aparılsın. Sentyabrın 27-də Mirzə Əbülhəsən xanla general Rtişşev arasında ilk görüş baş tutdu. Həmin görüş tanışlıq görüşü idi və qarşılıqlı salamlaşma və tanışlıqdan sonra başa çatdı. Elə həmin gün Mirzə Əbülhəsən xan qonaq sifəti ilə general Rtişşevin düşərgəsinə baş çəkdi. Səhəri gün də rus generalı Əbülhəsən xanın düşərgəsində oldu və burada onlar etimadnamələrin necə mübadilə edilməsi haqqında məsləhətləşmə apardılar. Sentyabrın 29-da tərəflər etimadnamələrini təqdim etdilər. Müqavilənin şərtləri ətrafında isə müzakirələr sonrakı gündən etibarən başladı. Əsas müzakirələrə girişməzdən əvvəl tərəflər 50 gün müddətinə barışıq anlaşması ətrafında danışıqlar apardılar və oktyabr ayının 1-də belə bir anlaşma imzalandı. Barışıq anlaşmasının giriş hissəsində general Rtişşevin və Mirzə Əbülhəsən xanın titulları sadalanır və sonra da bildirilirdi ki, sülh müzakirələrinin aparılması üçün ilkin olaraq bu sənəd imzalanır (94).

Anlaşmanın 1-ci maddəsində deyilirdi ki, qarşılıqlı razılaşmaya əsasən, barışıq 50 gün müddətinə və noyabr ayının 21-nə qədər imzalanır. 2-ci maddədə bildirilirdi ki, barışıq elan edilən müddətdə sakitlik və əmin-amanlıq təmin edilməlidir. Barışığın hazırlanması ilə Gürcüstanın baş komandanı (general-leytenant Rtişşev) sərhəd boyunca yerləşən bütün rus qoşun dəstələrinə barışığın əldə edilməsini elan etməli və ciddi şəkildə qoşunlara xəbərdarlıq etməli idi ki, silaha əl atmasınlar, İran sərhədini aşmasınlar və barışıq şərtlərinə tam riayət etsinlər. İran tərəfinin səlahiyyətli nümayəndəsi də öz tərəfindən bütün sərhəd məntəqələrinə xəbər göndərməklə qoşun rəhbərlərinə barışığa riayət etməyi və döyüş fəaliyyətini dayandırmağı tapşırmalı idi. Əgər barışıq müddətində qənimət ələ keçirilməsi üçün kiçik basqınlar baş verərdisə, basqını həyat keçirmiş tərəf bunun qarşısını almalı və ələ keçirilmiş qəniməti geri

qaytarmalı idi. Əgər kəndlərin qarət edilməsi məqsədilə basqınlar həyata keçirilərdisə, onda bu hadisə barışıq anlaşmasının pozulması kimi qiymətləndirilə bilərdi. 3-cü maddədə nəzərdə tutulmuşdu ki, əgər tərəflər arasında sülh müqaviləsinin imzalanması baş tutmazdısa onda barışıq anlaşmasının icrası da dayandırılmalı idi. Bu zaman tərəflər arasında sülh müqaviləsinin imzalanmasının baş tutmayacağının elan edilməsindən 20 gün sonra barışıq anlaşması dayandırıla bilərdi. Bu müddət ona görə verilirdi ki, şah sarayının nümayəndə heyəti sabitlik şəraitində öz ölkəsinə qayıda bilsin. 4-cü maddədə qeyd edilirdi ki, barışıq anlaşmasının imzalanması və döyüş əməliyyatlarının dayandırılması barədə qoşun rəhbərlərinə xəbər göndəriləndən dərhal sonra sülh müqaviləsinin müzakirəsinə başlanmalıdır. Bu maddədə xüsusi olaraq təsbit olunmuşdu ki, sülh müqaviləsi status-kvonun saxlanması şərti ilə qəbul edilməli və təsdiq olunmalıdır (95).

Barışıq anlaşmasının imzalanmasından dərhal sonra tərəflər arasında sülh müqaviləsinin müzakirələri başlandı. İlk baxışdan Mirzə Əbülhəsən xan sülh müqaviləsinin müzakirəsinə işgüzarlıqla başladı və status-kvonun saxlanması çərçivəsində sülh müqaviləsinin layihəsinin hazırlanmasını da general Rtişşevə etibar etdi. O təklif etdi ki, general Rtişşev bu müqavilənin mətnini hazırlasın və sonra da müqavilənin bəndlərinin müzakirəsi aparılsın. Amma Mirzə Əbülhəsən xan öz xahişini də irəli sürdü və bildirdi ki, sülh müqaviləsinin imzalanmasından əvvəl müqaviləyə Əlavə qəbul edilsin. Şah nümayəndəsi bu xahişinə hörmətlə yanaşılacağına ümid etdiyini bildirdi. Müqaviləyə Əlavədə göstərilməli idi ki, sülh müqaviləsinin imzalanmasından sonra Qacar sarayının elçisi Rusiya sarayına yollanaraq şah tərəfinin istək və təkliflərini Rusiya tərəfinə təqdim edəcəkdir. Bu istək və təkliflər isə Cənubi Qafqazda işğal edilmiş ərazilərin Rusiya tərəfindən boşaldılması idi. Burada ilk növbədə bəzi Azərbaycan xanlıqlarının Rusiya işğalından azad edilməsi nəzərdə tutulurdu. General Rtişşev bu xahişlə razılaşmadı və bir daha bildirdi ki, müqaviləyə Əlavə sülh müqaviləsinin razılaşdırılmasından və imzalanmasından sonra qəbul edilə bilər. Yuxarıda qeyd edildiyi kimi, tərəflər arasında ilkin razılaşma da belə idi. Lakin şah sarayında Rusiya ilə sülh müqaviləsinin imzalanmasına və bununla da Azərbaycan xanlıqlarının Rusiya işğalı altına düşməsinə güclü müxalifət mövcud idi. Bu müxalifətçiliyin təzyiqlərini yumşaltmaq və bütünlükdə, Rusiya işğalının məhdudlaşdırılacağına azacıq ümid əldə etmək üçün şah sarayı ilkin olaraq müqaviləyə Əlavənin imzalanması qərarını ortaya qoydu. Mirzə Əbülhəsən xan bəyan etdi ki, şah sarayından aldığı təlimata əsasən, əvvəl general Rtişşevlə müqaviləyə Əlavə ətrafında danışıqlar aparmalı və şah

sarayının xahişi əsasında general Rtişşevin bu Əlavənin qəbuluna razılaşdıqdan sonra sülh müqaviləsinin müzakirəsi başlanmalıdır. Mirzə Əbülhəsən xan bu məsələdə xeyli təkid göstərdi və general Rtişşevin etirazlarını da qəbul etmədi. General Rtişşev bəyan etdi ki, müqaviləyə Əlavənin nə vaxt qəbul ediləcəyi barədə təklifi əvvəlcə şah sarayı tərəfindən qəbul olunmuşdu və indi tamam başqa bir mövqe nümayiş etdirilməsini o, anlaşılmazlıq kimi dəyərləndirdi. General Rtişşev əvvəlki razılaşma haqqında Rusiya sarayına da məlumat göndərmiş və orada Rusiya rəhbərliyinə çatdırmışdı ki, şah sarayının təklifi rədd edilmiş və şah sarayı da bu mövqe ilə razılaşmışdır. Ona görə də general Rtişşev şah nümayəndəsinin yeni təkidli tələbi qarşısında çətin seçim qarşısında qaldı (96).

Amma görünür ki, Mirzə Əbülhəsən xanın təkidi çox ciddi olmuş və general Rtişşev də onun qarşısında güzəştə getmək məcburiyyətində qalmışdı. Ola bilsin ki, sülh müzakirələrinin dayandırılması təhlükəsi də yaranmışdı. Çünki Mirzə Əbülhəsən xan bəyan etdi ki, müqaviləyə Əlavə imzalanandan sonra bu Əlavəni şah sarayına göndərməli və şah sarayı bu Əlavəyə öz razılığını bildirəndən sonra sülh müqaviləsi üzərində müzakirələrə başlamalı idi. Mirzə Əbülhəsən xan öz təhlükəsizliyi, şah sarayında sülh müqaviləsi ilə bağlı ortaya çıxa biləcək ittihamların qarşısının alınması üçün bu addımı atmalı oldu. Belə olanda general Rtişşev müqaviləyə Əlavənin qəbul edilməsinə razılıq verdi. Lakin bu Əlavənin təklif olan mətnini dəyişdirdi. Müqaviləyə Əlavənin mətninin nədən ibarət olduğu haqqında general Rtişşevin yazışmalarında geniş məlumat yoxdur. O öz yazışmalarının bir yerində ötəri olaraq bildirmişdir ki, müqaviləyə qəbul edilmiş Əlavəyə görə, Rusiya öz səfirini Qacar sarayına, Qacar dövləti də öz səfirini Rusiya sarayına göndərəcəkdir (97). Güman etmək olar ki, Əlavədə general Rtişşevin əvvəlcə təklif etdiyi məqam öz əksini tapmışdı. Yəni, müqavilə imzalanandan sonra Qacar sarayının elçisi Rusiyaya gedib müqavilənin şərtləri ilə bağlı xahişləri Rusiya imperatoruna çatdıra bilərdi.

Rusiya sarayı birmənalı şəkildə işğal olunmuş əraziləri öz hakimiyyəti altında saxlamaq istəyirdi və bu məsələdə İran tərəfi ilə yeni danışıqlar başlanmasını istəmirdi. Ona görə də, Rusiya sarayının xüsusi razılığı olmadan sülh müqaviləsinə Əlavənin imzalanması və bu Əlavəyə əsasən Qacar sarayının Cənubi Qafqazın bəzi ərazilərindən rus qoşunlarının geri çəkilməsi haqqında Rusiya imperatoru qarşısında məsələ qaldırmaq hüququnu narazılıqla qarşıladı **(**98**)**

Müqaviləyə Əlavə imzalanandan sonra Mirzə Əbülhəsən xan onu razılaşdırmaq üçün çaparla Qacar sarayına göndərdi. Ona görə danışıq-

larda fasilə yaranması ehtimalı ortaya çıxdı. Çünki Mirzə Əbülhəsən xan çaparın geri qayıtmasından sonra müzakirələrin davam etdirilməsinin mümkünlüyünü bəyan etdi. Onun bu bəyanatı general Rtişşev tərəfindən həm vaxtın uzadılması, həm də müqavilənin müzakirəsinə maneəçilik yaradılması kimi qiymətləndirildi. Onun fikrincə, sülh müqaviləsinin maddələrinin razılaşdırılması üçün bu qədər vaxt itirilsəydi, onda danışıqlar yarımçıq qala bilərdi. Ona görə Mirzə Əbülhəsən xan çapar göndərməsi ilə bir vaxtda general Rtişşev də Qor Uzeleyə məktub yazdı və onu Tehrana göndərdi. General Rtişşev yaranmış vəziyyəti ingilis elçisinin nəzərinə çatdıraraq ondan şah sarayına yenidən təzyiq göstərməsini xahiş etdi. General Rtişşev istəyirdi ki, Mirzə Əbülhəsən xan müqavilənin şərtləri ilə bağlı özü qərar qəbul etsin və ona belə bir səlahiyyət verilsin. Bununla da hər maddə üzrə əldə edilmiş razılaşmaya şah sarayının münasibətini gözləməyə ehtiyac qalmasın. Əks təqdirdə, general Rtişşev müzakirələri dayandıracağı ilə hədələdi (99). General Rtişşevin Qor Uzeleyə yazdığı məktubu da Tehrana Mirzə Əbülhəsən xanın çaparı apardı.

Oktyabrın 2-dən başlayaraq sülh müqaviləsi üzərində müzakirələr davam etdirildi. Müzakirələrin belə tezliklə başlamasından belə güman etmək olar ki, general Rtişşev Mirzə Əbülhəsən xanı Qacar sarayına göndərdiyi çaparın qayıtmasını gözləmədən birgə işi davam etdirməyə razı sala bilmişdi.

1813-cü il oktyabr ayının 12-də iki dövlət arasında sülh müqaviləsinin bütün şərtlərini razılaşdırmaq mümkün oldu və elə həmin gün də Rusiya tərəfindən general Rtişşev və Qacar sarayı tərəfindən Mirzə Əbülhəsən xan sonradan Gülüstan müqaviləsi kimi tanınan bu müqaviləni imzalayaraq möhürlədilər. General Rtişşevin yazışmalarında bu müqavilə həm də "İran dövləti ilə ümümrusiya imperiyası arasında əbədi sülh haqqında traktat" kimi təqdim olunur. Qeyd etmək lazımdır ki, sülh müqaviləsinin maddələrinin razılaşdırılması üzərində də iş xeyli gərgin keçdi. Qacar sarayını bu müqavilənin bağlanmasına meylləndirmək üçün Qor Uzeley də xüsusi canfəşanlıq göstərdi ki, general Rtişşev də öz yazışmalarında Rusiya maraqlarının qorunmasına kömək edən bu ingilis diplomatına minnətdarlığını çatdırdı.

Gülüstan müqaviləsi giriş və 11 maddədən ibarətdir. Müqavilənin mətni öz dövrünün dil üslubiyyatına uyğun olaraq hazırlanmışdır. Ona görə bugünkü gün üçün onun dili həm rus dilində, həm də fars dilində kifayət qədər ağırdır və bu mətnin Azərbaycan dilinə tərcüməsi əlavə şərhləri və izahatları tələb edir. Azərbaycan dilində bu müqavilənin mətni kütləvi informasiya vasitələrində çap olunsa da, onun yenidən və daha

peşəkar səviyyədə tərcüməsinə ehtiyac vardır. Çünki bu mətnin hər ifadəsi özlüyündə hüquqi öhdəliklərin daşıyıcısıdır və onların tərcüməsindəki yanlışlıq həmin öhdəliklərin lazımınca təsəvvür edilməsini çətinləşdirə bilər.

Müqavilənin sonuncu maddəsindən göründüyü kimi, Gülüstan müqaviləsi rus dilində tərtib olunub və sonra da fars dilinə tərcümə edilibdir. Qeyd etmək lazımdır ki, müqavilənin fars dilinə tərcüməsində kifayət qədər sərbəstliyə yol verilib, mətndə fars dilinin üslubiyyatından irəli gələn çoxlu təkrar məzmunlu ifadələr işlədilibdir. Sülh müqaviləsinin bağlanması üçün aparılan müzakirələrin şahidi olmuş İngiltərənin İrandakı elçiliyinin katibi Moriyer də bu məqamı müşahidə edərək yazmışdı ki, Gülüstan müqaviləsinin "farsca nüsxəsi İran ibarələri ilə yazılmışdı" **(**100**)**

Aşağıda müqavilənin istinad edilən maddələri rusca mətndən tərcümə edilmişdir.

Müqavilənin giriş hissəsi :

İmperator həzrətləri, ali şöhrətli və qüdrətli hökmdar imperator və ümumrusiya hakimi-mütləqi və alicənab padşah və İran dövlətinin maliki və amiri öz təbəələrinə yüksək hökmdar şəfqəti ilə qarşılıqlı səmimi istəklə onların ürəyincə olmayan müharibə fəlakətlərinə son qoymaq və qədimdən ümumrusiya imperiyası və İran dövləti arasında mövcud olan möhkəm sülhü və xeyirxah dost qonşuluğu bərqərar etmək məqsədilə nəcib qənaətə gəldilər ki, bu doğru və nicatverici iş üçün: Əlahəzrət ümumrusiya imperatoru general-leytenant, Gürcüstanda və Qafqaz xəttindəki qoşunların baş komandanı, Həştərxanda, Qafqazda, Gürcüstanda mülki işlər üzrə və bütün sərhəd məsələlər üzrə baş hakimi, Xəzər hərbi donanması komandanı, Müqəddəs Aleksandr Nevski ordeninin, I dərəcəli Müqəddəs Anna ordeninin, Müqəddəs Əzabkeş və Qalib Georgi ordeninin 4-cü dərəcəli kavalerini, üzərində "İgidliyə görə" yazısı olan qızıl qılınc sahibi alicənab Nikolay Rtişşevi,Əlahəzrət İran padşahı isə özünün yüksək nüfuzlu və yüksək şərəfli, Türkiyə və İngiltərə saraylarındakı keçmiş fövqəladə səfiri, İran əyanları arasında hökmdarın ən yaxın əmiri seçilmiş İran sarayının sirli işlər müşavirini, vəzir xanədanına mənsub olan İran sarayında 2-ci dərəcəli əmir, padşahın xüsusi lütfünə sahib olaraq almazlarla bəzədilmiş xəncər və qılınca, şal libasa, almazlarla bəzədilmiş at yarağına layiq görülmüş Mirzə Əbülhəsən xanı öz səlahiyyətliləri təyin etsinlər. Nəticədə biz adları yuxarıda çəkilən səlahiyyətlilər Qarabağ vilayətinin Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndinə gələrək vəkalətnamələrin mübadiləsindən sonra bizə verilmiş ixtiyar və yüksək səlahiyyət çərçivəsində hər

kəs öz tərəfindən bizim hökmdarlarımız adından qərara alacağımız sülh və dostluqla bağlı hər şeyi müzakirə edərək aşağıdakı maddələri əbədi olaraq qərara aldıq və təsdiq etdik.

Müqavilənin rusca mətninin heç bir maddəsində "İran" kəlməsi işlədilməmişdir. Bütün mətn boyu "Persiya" və ondan törəyən sözlər işlədilmişdir. Farsca mətndə isə bu sözlər bütün maddələrdə "İran" kimi verilmişdir. Giriş hissəsinin ilk cümlələrində hər iki dövlətin padşahı xüsusi epitetlərlə xatırlanır. Qacar sarayı üçün İran padşahının epitetləri xüsusi hüquqi anlam və əhəmiyyət kəsb edirdi. Məlumdur ki, Rusiya sarayı Fətəli şahı İran padşahı kimi tanımamışdı. Giriş hissədə İran hökmdarı İran dövlətinin maliki, amiri, İran dövlətinin təmsilçisi kimi qəbul edilirdi. Eyni zamanda burada İran şahının iki dövlət arasında sülh müzakirələrinin aparılması üçün səlahiyyətli şəxs təyin etmək səlahiyyəti də təsbit olunmuşdur. Bununla bir növ Qacar sarayı Fətəli şahın padşahlığının rəsmən tanınmasına Rusiya ilə imzalanan müqavilədə nail olmuşdu. Müqavilənin farsca mətnində hökmdarlara daha çox epitetlər əlavə edilmişdir. Məsələn, Rusiya imperatoruna fars dilində "cəmcah" epiteti şamil edilmişdir. Bu sözün mənası "Cəmşid cəlallı" anlamındadır. Müqavilənin rusca mətnində bu ifadə yoxdur. İran şahına isə " padşah-e əzim-e Süleyman cah" epiteti şamil edilmişdir. Bu ifadənin tərcüməsi belədir – Süleyman cəlallı böyük padşah.

Müqavilənin giriş hissəsində bildirilir ki, iki dövlət arasında möhkəm sülhün və xeyirxah qonşuluğun bərqərar edilməsi üçün sülh müqaviləsinin imzalanması qərara alındı. Bu ifadələr əslində protokol ifadələrindən başqa bir şey deyildi. Çünki məlumdur ki, Qacar sarayı Rusiya ilə sülh müqaviləsinin imzalanmasına getmək istəmirdi və imzalanacaq sülh müqaviləsinin də iki dövlət arasında sülh yaradacağına əmin deyildi. Qacar sarayı hətta sülh müzakirələrinin aparılması zamanı da yeni və fərqli bir müqavilənin imzalanması yollarını arayırdı.

Girişdə dövlət hökmdarları ilə bərabər, tərəflərin səlahiyyətli nümayəndələrinin adlarının qarşısında da bir sıra epitetlər sadalanmışdır. Görünür, müqavilədə Rusiyanın səlahiyyətli nümayəndəsi olan general-leytenant Rtişşevin adının qarşısında bir sıra epitetlərin sadalanacağı şah sarayına məlum idi. Ona görə Mirzə Əbülhəsən xanın adının qarşısında hansı epitetlərin sadalanması şah sarayında müəyyən müzakirələrə səbəb olmuşdu. Bu məqamla bağlı ingilis elçiliyinin katibi Ceyms Moriyer belə yazırdı: " Rus nümayəndəsi general Rtişşev xüsusi ləqəblər və imtiyazlar sahibi idi. İran nümayəndəsi üçün də istəyirdilər ki, bir sıra ləqəblər və imtiyazlar tapılsın ki, rusun ləqəblərinin və imtiyazlarının qarşısında cilvələnsin. Ona görə müqavilədə İran nümayəndəsinin qarşısında bu

ləqəblər yazıldı - padşahın xüsusi lütfünə sahib olaraq almazlarla bəzədilmiş xəncər, bıçağa və qılınca, şal libasa, layiq görülmüş" (101)

Mirzə Əbülhəsən xanın Rusiyaya elçi təyin edilməsi haqqında Fətəli şahın xüsusi fərmanı vardır. Həmin fərmanda yuxarıdakı ləqəblər sadalanmışdır. Əlavə olaraq Mirzə Əbülhəsən xanın almazlarla bəzədilmiş at yarağı ilə mükafatlandırıldığı da bildirilmişdir. Çox güman ki, Mirzə Əbülhəsən xanın Rusiya sarayına elçi təyin edilməsi Gülüstan müqaviləsinin imzalanmasından əvvəl baş vermişdi və sonra şah fərmanında olan ləqəblər və mükafatlar Gülüstan müqaviləsinin girişinə də əlavə edilmişdi. Girişdə Mirzə Əbülhəsən xanın Türkiyə və İngiltərə sarayında elçi olması da xatırlanmışdır. Bəzi farsdilli tarixi ədəbiyyatda Mirzə Əbülhəsən xanın Rusiya və İngiltərə sarayında elçi olması göstərilmişdir. Mətnin farsca variantında "Rum və İngiltərə" göstərilmişdir ki, burada "Rum" Osmanlı Türkiyəsinə işarədir. Rusiyada isə Mirzə Əbülhəsən xan Gülüstan müqaviləsinin imzalanmasından sonra elçi kimi olmuşdur. Bütünlükdə isə, Mirzə Əbülhəsən xanın Gülüstan müqaviləsindən əvvəl İngiltərədə, sonra isə Rusiya və Fransada elçi olması haqqında geniş məlumatlar vardır. Osmanlı Türkiyəsində isə ola bilsin ki, qısa müddətli səfərdə olmuşdur və ona görə də tarixi ədəbiyyatda bu səfərə xüsusi yer ayrılmamışdır.

Birinci maddə *- Bu müqavilə ilə indiyə kimi Rusiya imperiyası ilə İran dövləti arasında mövcud olmuş düşmənçiliyə və ədavətə son qoyulur. Qoy əlahəzrət ümumrusiya hökmdarı ilə əlahəzrət İran şahı, onların vəliəhdləri və taxt-tac varisləri və onların ali dövlətləri arasında əbədi sülh, dostluq və möhkəm anlaşma olsun.*

Müqavilənin ilk maddəsində müqavilənin bağlanması ilə tərəflərin qarşısına qoyduğu məqsəd açıqlanır. Burada bildirilir ki, əvvəllər iki dövlət arasında mövcud olmuş düşmənçiliyə və ədavətə son qoyulur. Müqavilədə iki dövlət arasında möhkəm sülhün olması niyyəti ifadə olunmuşdur. Bu niyyətlə bağlı bir daha yuxarıda söylənilən fikrə qayıtmaq olar ki, tərəflər sülhə müxtəlif səviyyələrdən yanaşırdılar. Bununla belə, birinci maddə müqavilənin az maddələrindəndir ki, tərəflərin xüsusi iradları ilə qarşılaşmadı və fikir ixtilafı olmadan qəbul edildi.

Bu maddədə diqqəti çəkən başqa bir məqam bir daha İran şahının və onun varislərinin statusunun təsbit edilməsidir. Məlumdur ki, müqavilənin imzalandığı vaxt ölkə şahı Fətəli şah idi və onun vəliəhdi və taxt-tac varisi də Abbas Mirzə idi. Gülüstan müqaviləsi imzalanan kimi Rusiya hələ də Fətəli şahı şah kimi və Abbas Mirzəni də onun vəliəhdi kimi tanımamışdı. Gülüstan müqaviləsinin birinci maddəsi ilə Rusiya dolayısı yolla Fətəli şahın dövlət başçısı olmasını qəbul etməli olmuşdu.

İkinci maddə *- İki ali dövlət arasındakı ilkin təmaslarla qarşılıqlı razılaşmaya görə sülhün status-qvo and presentem əsasında qurulması qərara alındı. Yəni, tərəflər hazırda onların tam ixtiyarında olan ərazilərin, xanlıqların və mülklərin sahibi olaraq qalırlar. Ona görə Ümumrusiya imperiyası ilə İran dövləti arasında sərhəd bu gündən başlayaraq aşağıdakı xətt olacaqdır: Adınabazar adlanan yerdən başlayaraq düz xəttlə Muğan düzündən keçməklə Araz çayının Yeddibulaq keçidinə qədər, oradan da üzü yuxarı Kəpənək çayının Araza qovuşduğu yerədək, sonra da Kəpənək çayının sağ tərəfi ilə Mehri sıra dağlarınadək, oradan isə sərhəd xanlıqlar arasından davam edəcək: Qarabağ və Naxçıvan xanlıqları arasından, Alagöz sıra dağlarından, Qarabağ, Naxçıvan və İrəvan xanlıqlarının Yelizavetpolun (keçmiş Gəncə xanlığı)bir hissəsinin qovuşduğu Dərələyəz yaylasından, oradan da İrəvan xanlığını Yelizavetpol dairəsindən, Qazax və Şəmşəddili isə Eşşəkmeydan yaylasından ayıran xətt üzrə, oradan da dağlar silsiləsi ilə Həmzəçəmən çayının axarının və yolunun sağ tərəfi ilə, Pəmbək sıra dağları ilə Şuragölü ayıran döngəyə qədər, həmin döngədən qarlı Alagöz dağının zirvəsi ilə, oradan Mastaras və Artik arası Şuragöl sıra dağları ilə Arpaçayadək. Talış vilayəti müharibə gedişində əldən ələ keçdiyinə görə bu xanlığın sərhədi Ənzəli və Ərdəbil tərəfdən daha böyük düzgünlük üçün bu müqavilənin qəbulu və təsdiqindən sonra qarşılıqlı razılaşma əsasında hər iki tərəfdən seçilmiş komissarlar hər iki tərəfin baş komandanlarının rəhbərliyi altında hazırda tərəflərin tam ixtiyarında olan torpaqların, kəndlərin, dərələrin, çayların, dağların, göllərin, düzlərin doğru və mükəmməl təsvirini hazırlayacaq. Onda Talış xanlığının status-quo presentem əsasında sərhəd hüdudları müəyyənləşəcək ki, tərəflər ixtiyarında olan ərazidə qalsınlar. Eləcə də yuxarıda xatırlanan sərhəddə nə isə bu və ya digər tərəfə aşarsa ali dövlətlərin komissarlarının araşdırması zamanı tərəflər status-qvo presentum əsasında razılaşacaqlar.*

Bu maddənin razılaşdırılması üzərində iş xeyli vaxt apardı və bunu general Rtişşev də etiraf edirdi. Bu maddə əslində Gülüstan sülhünün mahiyyətini təşkil edirdi və onun təsdiqlənməsi ilə İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalı rəsmiləşdirirdi. Eyni zamanda bu maddənin təsdiqlənməsi ilə Qacarlar dövləti də Arazın şimalında olan Azərbaycan xanlıqlarına və Gürcüstana olan iddialarından əl çəkməli olurdu. Bu maddədə iki dövlət arasındakı sərhəd xəttinin haradan keçməsi təsbit olunmalı idi. General Rtişşevə görə, bu maddənin razılaşdırılmasındakı çətinliyin bir səbəbi Mirzə Əbülhəsən xanın xəritə ilə işləmək təcrübəsinin olmaması və

Rusiya tərəfindən işğal olunmuş ərazilərin sərhədindən xəbərsiz olması idi. Digər tərəfdən isə guya Mirzə Əbülhəsən xana göstəriş verilibmiş ki, sərhəd xətti ümumi şəkildə, sərhəd məntəqələri ilə müəyyənləşdirilsin. Məsələnin dəqiqləşdirilməsi üçün isə bir neçə gün vaxt lazım oldu. Bu maddənin qarşılıqlı şəkildə qəbul olunması üçün general Rtişşevin təklifi ilə həmin maddədə müqavilənin imzalanmasından və qüvvəyə minməsindən sonra ikitərəfli komissarların təyin edilməsi nəzərdə tutuldu. Bu komissarlar bölgədə status-kvonun saxlanması ilə sərhəd xəttinin keçəcəyi dəqiq koordinatları müəyyənləşdirməli və sonra da bu koordinatlar qarşılıqlı şəkildə qəbul olunmalı idi. Maddədə sərhəd komissarlarına Lənkəran xanlığı ilə bağlı konkret vəzifələr müəyyənləşdirilmişdi. Lənkəran xanlığının Ənzəli və Ərdəbillə olan sərhədi xətti tərəflərin nəzarəti altında olan ərazilərin sərhəd xətti boyunca müəyyənləşdirilməli idi. Sərhəd komissarlarının digər sərhəd xətləri ilə bağlı vəzifələrinə isə ümumi şəkildə sonuncu cümlədə toxunulmuşdur. Bu cümlənin farsca variantının daha dəqiq şəkildə ifadə olunduğu nəzərə çarpır. Həmin cümlənin farsca variantının dəqiq tərcüməsi belədir – *Həmçinin yuxarıda göstərilən sərhədlərdə nə isə tərəflər arasındakı xətdən kənara çıxarsa hər iki tərəfin məsul şəxsləri və vəzifələndirilmiş mühəndisləri status-qvo presentum əsasında razılaşacaqlar.*

General Rtişşevin təkidli israrından sonra 2-ci maddədə Lənkəran xanlığı da Rusiyanın sərhədləri daxilində qəbul edildi. Buna nail olunmasını general Rtişşev əhəmiyyətli hadisə sayırdı. Onun fikrincə, Rusiya Lənkəran xanlığında möhkəmləndikdən sonra orada hərbi gəmilər üçün yaxşı bir liman qurmaq olardı. O əlavə edirdi ki, Lənkəran xanlığında dəniz limanının olması Qacar dövlətini ehtiyatlanmağa vadar edərdi. General Rtişşev hətta Lənkəran xanlığında rus qoşunlarının və rus hərbi gəmilərinin sayının artırılmasını da məqsədəuyğun bilirdi. O gələcəkdə Həştərxandakı hərbi limanın da Lənkərana köçürülməsini təklif edirdi (102).

Üçüncü maddə- *Şah həzrətləri özünün əlahəzrət Ümumrusiya imperatoruna səmimi dostluğunun sübutu üçün öz adından və İran taxt-tacının ali varisləri adından bu xanlıqların Rusiya imperiyasının mülkiyyətində olduğunu qəbul edir: Qarabağ və hazırda Yelizavetpol adlanan vilayətə çevrilmiş Gəncə xanlığı. Habelə Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış xanlığının Rusiya imperiyasının hakimiyyəti altında olan torpaqları. Sonra bütün Dağıstan, Gürcüstan, Şoragöl mahalı, İmeretiya, Quriya, Minqreliya və Abxaziya, eyni zamanda müəyyənləşdirilmiş sərhəd xətti ilə Qafqaz xətti arasında, bu sonuncu ilə Xəzər dənizi kənarındakı torpaqlar və xalqlar.*

Maddənin 3-cü maddəsi üzərində də razılaşdırma işi xeyli vaxt apardı. Bu maddə Cənubi Qafqazda hansı xanlıqların və vilayətlərin Rusiyanın hakimiyyəti altına keçməsi konkret olaraq sadalanırdı. Mirzə Əbülhəsən xan bəyan edirdi ki, iki dövlət arasında sərhəd xətti qəbul edilirsə, həmin sərhəd daxilində qalan vilayətlərin Rusiyanın hakimiyyəti altına keçdiyi aydındır. Ona görə də onların sadalanmasına ehtiyac yoxdur. Qarşılıqlı izahatlar veriləndən sonra Mirzə Əbülhəsən xan maddənin müəyyən dəyişikliklərlə qəbul edilməsinə razı oldu. Mirzə Əbülhəsən xan təklif etdi ki, bu maddəyə xanlıqların və böyük vilayətlərin adları salınsın və kiçik ərazi qurumlarının adları müqaviləyə daxil edilməsin. Maddənin ilkin variantında yazılıbmış ki, Fətəli şah və onun varisi adları çəkilən ərazilərə aid bütün hüquqlardan və iddialardan imtina edirlər. Mirzə Əbülhəsən xan isə təklif etdi ki, bu fikir müqavilədə - adları çəkilən ərazilərin Rusiya imperiyasının daimi mülki olmasının Fətəli şah və onun varisi tərəfindən tanınması – kimi verilsin. Bu fikrin ifadəsi üçün maddənin birinci cümləsinin son sözləri olan "qəbul edir" ifadəsi fars dilində daha yumşaq şəkildə ifadə olunmuşdur. Fars variantında bildirilri ki, şah öz adından və varisləri adından sadalanan əraziləri *"Rusiya imperiyasına məxsus və aid bilir"* Sonra Mirzə Əbülhəsən xan Dağıstan xalqlarının adlarının sadalanması əvəzinə, onların "bütün Dağıstan" kimi ifadə olunmasını xahiş etdi. Bu təkliflər general Rtişşev tərəfindən qəbul edildi (103).

Dördüncü maddə- *Ümumrusiya imperator həzrətləri qarşılıqlı olaraq özünü əlahəzrət İran şahına dostluğunu nümayiş etdirmək, ona qonşu olan dövlətdə, İranda möhkəm əsas üzərində mütləq və qadir hakimiyyət görmək üçün özünün və varislərinin adından iqrar edir ki, İran dövlətinin vəliəhdi təyin olunacaq İran şahının oğluna lazım olanda kömək göstərəcək. Belə ki heç bir xarici düşmən İran sarayının işlərinə qarışmasın və İran sarayı möhkəmlənsin. Lakin İran dövləti daxilində şah övladları arasında münaqişə yaranarsa, həmin vaxt şah xahiş etməyincə Rusiya imperiyası bu işlərə qarışmayacaqdır.*

Müqavilənin 4-cü maddəsinə əsasən Rusiya dövləti Fətəli şahı İran padşahı və onun oğlunu da şahzadə kimi tanımalı idi. Mirzə Əbülhəsən xan 4-cü maddənin bu şəkildə verilməsi əleyhinə çıxdı və bildirdi ki, Müqavilənin giriş hissəsində Fətəli şahın sadalanmış titulları onun İranın padşahı olduğunu təsdiq edir. Şah elçisi bildirdi ki, Fətəli şah taxta çıxdığı gündən əhali onu ölkənin padşahı kimi qəbul edir. Hazırkı şəraitdə qəbul edilən müqavilədə Fətəli şahın padşahlığının təsdiq edilməsi ilə bağlı fikir əhalidə və bir sıra xanlarda şah haqqında zərərli təsəvvürlər yarada bilər. General Rtişşev şübhə etmirdi ki, Mirzə Əbülhəsən

xan bu fikrini şah sarayından aldığı təlimata əsasən söyləyirdi. Çünki Mirzə Əbülhəsən xan müqavilənin digər maddələrindən fərqli olaraq 4-cü maddəsinin məhz onun dediyi kimi təsbit olunmasını istəyirdi və qarşı tərəfin bu məsələ ilə bağlı heç bir təklifini və izahatını qəbul etmədi. Mirzə Əbülhəsən xanın inadkarlığı general Rtişşevin narazılığı ilə qarşılaşsa da rus general sülh müqaviləsinin bağlanması naminə şah elçisinin təklifini qəbul etmək məcburiyyətində qaldı. 4-cü maddədə konkret ad çəkilmədən Fətəli şahın övladlarından birinin vəliəhdliyi tanındı və zərurət yarananda vəliəhdə silahlı kömək göstərilməsi vəd olundu. Müqavilədə şahın vəliəhdi kimi konkret olaraq Abbas Mirzəinin adının çəkilməməsinin də öz səbəbi var idi. Mirzə Əbülhəsən xan general Rtişşevin nəzərinə çatdırırdı ki, Fətəli şah çoxdandır ki, Abbas Mİrzəni taxt-tac varisi elan etmişdir və bu gün də bu qərar qüvvədədir. Lakin Fətəli şahın oğlan övladları çox idi. Farsdilli tarixçilər öz əsərlərində onlardan 60-nın adlarını sadalamışlar və bildirilir ki, bu siyahı heç də tam deyildir. Abbas Mirzə şahın 4-cü oğlan övladı idi. Onun özündən böyük qardaşları bunlar idilər – Məhəmmədəli Mirzə, Məhəmmədqulu Mirzə və Məhəmmədvəli Mirzə. Bu qardaşların arasında yaş fərqi elə də böyük deyildi. Məsələn, Məhəmmədəli Mirzə cəmi 7 ay Abbas Mirzədən böyük idi. Bununla belə irsi hakimiyyətə böyük qardaş daha çox haqlı sayılırdı. Abbas Mirzənin vəliəhd elan edilməsi bir tərəfdən onun savadlı və bacarıqlı olması ilə əlaqələndirilir, bir tərəfdən də Ağa Məhəmməd şah Qacarın vəziyyəti ilə. Deyilənə görə o, Fətəli şaha vəsiyyət edibmiş ki, taxt-tac vəliəhdi valideynlərinin hər ikisi Qacar tayfasına aid olan övlad elan edilsin **(**104**)**. Fətəli şahın Qacar tayfasından olan xanımından doğulan ilk oğlan övladı Abbas Mirzə idi və Fətəli şah da hakimiyyətin bütünlüklə Qacar qanına məxsus övladında qalması üçün Abbas Mirzəni vəliəhd elan etdi. Bu isə istər-istəməz digər qardaşlar arasında müəyyən narazılıqlara səbəb oldu. Qacar sarayı ehtiyat edirdi ki, Abbas Mirzənin taxt-tac varisi kimi hər hansı bir rəsmi sənəddə təsbit olunması qardaşların narazılığının artmasına səbəb ola bilər. Güman edilirdi ki, bu narazılıq da Fətəli şah xanədanı daxilində və o cümlədən də ölkə daxilində sabitliyi poza bilər. Vəliəhdin adının müqavilədə çəkilməməsinə general Rtişşev heç də etiraz etmədi. Çünki əslində Rusiya tərəfi üçün vəlihədin kim olacağı elə də mühüm deyildi. General Rtişşev yazırdı ki, Fətəli şahdan sonra hakimiyyətə iddia edənlər çox olacaqdır. Amma kimin gücü və iti qılıncı varsa hakimiyyətə də o yiyələnəcəkdir. Belə bir şəraitdə Rusiya isə onun üçün daha münasib olan şahzadələrdən birini müdafiə edər və ona hərbi yardım göstərər. Fətəli şahın sağlığında

qanuni vəliəhd təyin edildiyi təqdirdə isə bu hadisələr baş verməyə də bilərdi (105).

Qeyd etmək lazımdır ki, Abbas Mirzə Qacar şahı tərəfindən ölkə taxt-tacının vəliəhdi kimi elan edilsə də, Rusiya tərəfindən onun vəliəhdliyi bir də 1819-cu ildə tanındı (106). Müqavilədə Abbas Mirzənin rəsmi vəliəhd kimi xatırlanması İran tərəfindən məqsədəuyğun bilinməsə də, onun Rusiya tərəfindən belə gec tanınması Rusiyanın Abbas Mirzəyə müəyyən təzyiq vasitələrinin saxlamaq cəhdi ilə əlaqələndirilir. İran tarixçilərinin fikrincə, bu maddənin qəbul edilməsi ilə Rusiya İranın daxili işlərinə qarışmaq üçün özünə bir yol da saxlamışdı. Yəni, xarici düşmənin İran sarayının daxili işlərinə qarışmasının qarşısının alınması bəhanəsi ilə Rusiya İran ərazisinə hərbi qüvvələrini yeritməyə bir əsas da yaratmışdı (107**).**

Beşinci maddə *- Rus ticarət gəmilərinin əvvəlki qayda üzrə Xəzər dənizi sahilləri boyunca üzmək və sahilə yan almaq hüququ verilir. Özü də gəmi qəzaları zamanı İran tərəfindən dostluq köməyi göstərilməlidir. Belə bir hüquq İran ticarət gəmilərinə də şamil olunur - əvvəlki qayda ilə Xəzər dənizində üzsün və Rusiya sərhədlərinə yan alsın. Gəmi qəzaları zamanı isə qarşılıqlı olaraq iranlılara hər cürə kömək göstəriləcək. Hərbi gəmilərə gəldikdə isə, müharibədən əvvəl olduğu kimi sülh dövründə və hər zaman rus hərbi bayrağı Xəzər dənizində tək mövcud olmuşdur. Ona görə indi də ona təklikdə əvvəlki ixtiyar verilir ki, Rusiya dövlətindən başqa heç bir dövlət Xəzər dənizində hərbi donanmaya malik ola bilməz.*

Bu maddə Xəzər dənizində gəmilərin üzməsinə təminat verilməsi ilə bağlı idi. Burada əsas məqam Xəzər dənizində hərbi gəmilər saxlamaq üçün müstəsna hüququn Rusiyaya verilməsi idi. General Rtişşev bu barədə də israrla təklif etdi ki, əvvəllər olduğu kimi yenə də Xəzər dənizində yalnız Rusiya hərbi gəmilər saxlaya bilər. Bununla Rusiya Xəzər dənizini həm bütünlükdə nəzarət altına alırdı, həm də İran tərəfindən ehtimal edilən təhlükə önlənirdi. Çünki Qacar dövləti Xəzər dənizinə hərbi gəmilər çıxarsaydı bu gəmilərdən istifadə etməklə Xəzəryanı əraziləri təhlükə altında saxlayar və bu ərazilərə dənizdən hücumlar təşkil edə bilərdilər. Mirzə Əbülhəsən xan da Qacar dövlətinin Xəzər dənizində hərbi donanma saxlamaq hüququnu müqavilədə təsbit etməyə çalışdı. Əvəzində general Rtişşev bildirdi ki, Rusiyanın təklifi qəbul edilməzsə onda müzakirələri və barışıq anlaşmasının icrasını dayandıracaqdır. Bu tələbin müqavilədə əks etdirilməsinin çətinliklərindən biri iki dövlət arasında əvvəllər imzalanmış sənədlərdə Rusiyanın Xəzər dənizində hərbi hegemonluğunun rəsmi şəkildə öz əksini

tapmaması idi. Maddədə təsbit olunan "əvvəl olduğu kimi" ifadəsinin əslində hüquqi bazası yox idi. Məlumdur ki, Əfşarlar dövləti dövründə Nadir şah ingilis mühəndislərinin vasitəsilə Xəzər dənizində hərbi gəmilərin quraşdırılmasına başlamışdı. Nadir şahın qətlə yetirilməsi ilə bu iş yarımçıq qaldı. Qacar sarayı ilə İngiltərə arasında olan razılaşmaya görə də ingilislər Xəzər dənizində hərbi gəmilərin quraşdırılmasına kömək etməli idilər. Rusiyanın təklifinin qəbul edilməsi bu işin də qarşısını almalı idi. Ona görə də Mirzə Əbülhəsən xan Rusiyanın yeni şərtinə qarşı müqavimət göstərdi. General Rtişşev yazırdı ki, bu maddənin Rusiya maraqları üzərində qurulması üçün çox ciddi səylər göstərməli oldu. Mirzə Əbülhəsən xan rus generalının təkidləri qarşısında güzəştə getməli oldu. General Rtişşev isə onun bu addımını öz vətəninin dərindən sevməsinin əlaməti kimi dəyərləndirdi. Rus generalı onun tələbləri qarşısında güzəştə gedən Mirzə Əbülhəsən xan haqqında belə yazırdı – onun xarakterinin belə alicənab cəhəti hər cürə ehtirama layiqdir. Bununla belə, müqavilənin farsca variantında Xəzər dənizində Rusiyanın hegemonluğa malik olması bir qədər yumşaq şəkildə ifadə edilmişdir. Görünür, Mirzə Əbülhəsən xan müqavilənin rusca variantında təsbit olunmuş şərtin kəskinliyinin Qacar sarayında ciddi narazılıqla qarşılana biləcəyindən nehtiyat etmişdi. Ona görə də rusların tələbi müqavilədə saxlanmaqla onun ifadə tərzi dəyişdirilmişdi.

Bu məsələ ilə bağlı maddənin fars variantının Azərbaycan dilinə hərfi tərcüməsi aşağıdakı kimi səslənir: *"Rusiyanın hərbi əsgəri gəmiləri xüsusunda isə dostluq zamanında və hər zaman Rusiya dövlətinin əsgəri gəmiləri Xəzər dənizində ələm və bayraqla necə olmuşdularsa, indi də dostluğa görə icazə verilir ki, əvvəlki qaydaya əməl edilsin və Rusiyadan başqa heç bir dövlətin Xəzər dənizində əsgəri gəmiləri olmasın*"(108).

Mirzə Əbülhəsən xan Rusiyaya getdiyi güzəştlərin qarşısında heç olmasa hansısa ərazinin rus işğalı altından çıxarılmasını xahiş etdi. Bildirdi ki, Qacar sarayında iki dövlət arasında sülh müqaviləsinin imzalanması əleyhinə olanların etirazlarını yatırmaq üçün onlara nə isə təqdim etmək lazımdır. General Rtişşev şah elçisinin bu xahişinin nəzərə alınması üçün bir çıxış yolu tapdı və bəyan etdi ki, Mehriyə iddiadan əl çəkir. General Rtişşev yazırdı ki, Mehri mahalı Qarabağdan qoparılaraq güzəştə gedildi. Amma Qarabağ xanlığının bu mahalının qoparılaraq Qarabağ xanlığından ayrılmasını general Rtişşev sözsüz ki, bu mahalın sahibi olan Qarabağ xanı ilə məsləhətləşmədi. Çünki aydın idi ki, formal olaraq Qarabağ xanlığı öz mövcudluğunu saxlasa da, general Rtişşev işğal altında olan bu ərazilərin taleyinin müəyyənləşdirmək səlahiyyətində olduğunu güman edirdi. Sonra da Qarabağ torpaqlarının parça-

lanması haqqındakı qərarına haqq qazandırmaq üçün rus generalı Mehrini boş, əhalisiz dağlıq ərazi adlandırırdı. Mehri mahalı general Rtişşevin xatirində rus qoşunlarının böyük itkilər verdiyi ərazi kimi qalmışdı. Coğrafi şəraitinə görə, orada yerləşən rus qoşun dəstəsinə azuqə və təchizat çatdırılması çətin idi. Digər tərəfdən isə Mehrinin ab-havası ruslar üçün heç də əlverişli deyildi və iki il yarım ərzində ruslar Mehridə müxtəlif xəstəliklər üzündən 800 nəfər hərbçisini itirmişdilər. Ona görə general Rtişşev Mehri mahalının Qarabağ xanlığından qoparılaraq güzəştə getməsinə təəssüflənmədiyini bildirirdi (109).

Burada belə bir məqama da diqqət yetirmək lazımdır ki, general Kotlyarevski Lənkəran xanlığı üzərinə hücum etməzdən əvvəl Mehridəki rus taboru xanlığın mərkəzinə gətirildi. Rus taboru Mehrini tərk edən kimi, Abbas Mirzənin qüvvələri oranı nəzarət altına aldılar. Başqa sözlə, Gülüstanda sülh müzakirələri aparıldığı vaxt Mehri şah qoşunlarının nəzarəti altında idi. Ola bilsin ki, bu məqam da general Rtişşevin qərarına təsir göstərdi.

Mehri ilə bağlı müqavilədə hər hansı bir məqam öz əksini tapmamışdır. Yalnız 2-ci maddədə sərhəd xəttinin müəyyənləşdirilməsi zamanı Mehri Rusiya ərazilərindən kənarda saxlanmışdır.

Rusiya sarayından təlimat verilmişdi ki, iki dövlət arasında əvvəllər imzalanmış müqavilələrin qüvvədə saxlanması haqqında yeni imzalanan müqaviləyə bir maddə əlavə edilsin. Mirzə Əbülhəsən xan birmənalı şəkildə bu təklifə qarşı çıxdı. Bildirdi ki, İranda tez-tez baş verən saray çevrilişləri nəticəsində əvvəllər imzalanmış müqavilələr itib-batıbdır. Ona görə həmin müqavilələrin saxlanmadığı və bu müqavilələrdə hansı məsələlərin təsbit olunmasını bilmədiyi halda onların qüvvədə qalmasına zəmanət verə bilməz. General Rtişşev onun izahatlarını qəbul etməli oldu və belə bir maddə müqaviləyə salınmadı. Rus generalı bildirdi ki, Mirzə Əbülhəsən xanın təklifindən sonra həmin maddənin müqaviləyə salınmasına təkid etmədi. Onun sözlərinə görə, əvvəllər imzalanmış müqavilələrin əksər maddələri vaxt ötdükdən sonra öz əhəmiyyətini itirmişdir. Həmin müqavilələrdə yalnız ticarətlə bağlı bəzi diqqət cəlb edən maddələr var idi. Ticarətlə bağlı maddələr isə ayrıca olaraq yeni müqavilədə öz əksini tapmışdı. Ona görə də, əvvəlki müqavilələrin qüvvədə saxlanması barəsində maddənin yeni müqaviləyə daxil edilməməsi Rusiyanın maraqlarını heç də kölgə altında qoymur (110).

Altıncı maddə *- Hər iki tərəfdən döyüşdə götürülmüş əsirlər müqavilənin imzalanmasından və təsdiqindən üç ay sonra azad edilirlər. Onlar Qarakilsəyədək hər iki tərəfdən ərzaqla və yol xərcləri ilə təmin edilirlər, orada sərhəd rəisləri əsirlərin dəyişdirilməsi üçün qarşılıqlı*

təmasa girirlər. Özbaşına və yaxud cinayət edərək qaçanlara könüllü şəkildə arzu edərlərsə azad şəkildə öz vətəninə qayıtmaq hüququ verilir. Milliyyətindən asılı olmayaraq qayıtmaq istəməyənlər isə məcbur edilməsin. Bu zaman qaçanlara hər iki tərəfdən amnistiya və ya əfv verilir.

Müqavilənin 6-cı maddəsi əsirlərin dəyişdirilməsi haqqında idi. Hərbi əsirlərin dəyişdirilməsi haqqında tərəflər arasında fikir oxşarlığı mövcud idi. Mənbələrdə hər iki tərəfin müxtəlif vaxtlarda əsirlər götürməsi haqqında məlumatlar verilmişdir. Qacar qoşunları qarşı tərəfdən kütləvi şəkildə Sultanbud döyüşü zamanı çoxlu əsir götürmüşdü. Heç şübhəsiz ki, ruslar onları geri qaytarmaq istəyirdilər. Baxmayaraq ki, onlar bütünlüklə islam dinini qəbul etmiş və bir çoxu da Qacar qoşunlarında xidmətə qəbul edilmişdirlər. Ona görə də müqavilədə əsirlərin qaytarılmasının könüllü şəkildə həyata keçirilməsi təsbit olundu. Çünki onlardan geri qayıtmaq istəməyənlər də ola bilərdi. General Rtişşev burada mülki əhalinin geri qaytarılması haqqında məsələ qaldırdı. Ona yaxşı məlum idi ki, Azərbaycan xanlıqları ərazisindən rus işğalına dözməyərək Arazın cənubuna çoxlu sayda əhali köçmüş və bununla çoxlu sayda yaşayış məntəqələri boşalmışdı. Qarşılıqlı məsləhətləşmələrdən sonra yaşayış yerlərini dəyişmiş əhaliyə könüllü surətdə geri qayıtmaq hüququ müqavilənin 6-cı maddəsində təsbit edildi (111).

Yeddinci maddə *- Yuxarıda deyilənlərdən əlavə əlahəzrət Ümumrusiya imperatoru və Əlahəzrət İran şahı qərara gəlirlər ki, lazım olduqda göndərilən ali sarayların səfirləri və nümayəndələri onların rütbələrinə və onlara tapşırılan işlərin əhəmiyyətinə müvafiq olaraq qəbul edilsinlər, onlar tərəfindən əvvəllər olduğu kimi ticarətə himayəçilik üçün lazım bilinən şəhərlərə təyin olunan müvəkkil və konsulların yanındakı məiyyətin sayı 10 nəfərdən artıq olmasın və onlar etibarlı məmurlar kimi vəzifələrinə layiq hörmət və ehtiramla qarşılansınlar, onlar nəinki incidilməsin, əksinə bu ölkələrin təbəələri incidilərsə onların şikayəti əsasında ədalətli məhkəmə qurulsun və incidilmişlərin qanuni razılığı təmin edilsin.*

Müqavilənin 7-ci maddəsi iki ölkə arasında səfirlik və konsulluq heyətlərinin mübadiləsi haqqında idi. Bununla bağlı da tərəflər arasında müəyyən müzakirələr aparıldı. İran tərəfi əslində səfirlik əlaqələrinin qurulmasına tərəfdar idi. Amma bir məsələ şah nümayəndəsinin nigarançılığı ilə qarşılaşırdı. Şar sarayında belə bir ehtimal var idi ki, İranda Rusiya səfirliyinin və ya konsulluqlarının açılmasına icazə verilərsə, Rusiya tərəfi səfirlik heyəti adı altında İran ərazisinə silahlı bölmələr göndərə bilər. General Rtişşev müqavilədə səfirlik heyətlərinin

qarşı tərəfin sarayında qəbul protokolu haqqında xatırlanmasını istədi. Mirzə Əbülhəsən xan bu təkliflə razılaşmadı və bildirdi ki, bu məqamım müqaviləyə salınması etik normalardan kənara görünə bilər. General Rtişşev təkid göstərsə də Mirzə Əbülhəsən xan ehtiyat edirdi ki, konsulluq heyəti adı altında İran şəhərlərinə qoşun bölmələri yeridilə bilər. Belə olanda general Rtişşev konsulluq heyətlərinin 10 nəfərdən artıq olmaması haqqında təklif irəli sürdü. Mirzə Əbülhəsən xan bu təklifi qəbul etdi və həmin təklif 7-ci maddə də öz əksini tapdı. Rus tacirlərinin İran şəhərlərində karvansara tikmək təklifinə də Mirzə Əbülhəsən xan birmənalı yanaşmadı. Belə ki, ingilislər karvansara adı altında Buşehrdə möhkəm qalalar tikmişdilər. Mirzə Əbülhəsən xan ehtimal edirdi ki, ruslar da ticarət karvansaraları adı altında müdafiə qurğuları tikə bilərlər. Şah elçisinin bu nigarançılığına görə general Rtişşev ticarət karvansaralarının tikilməsinin müqavilədə öz əksini tapmasına təkid etmədi.

Səkkizinci maddə *- əlahəzrətlərin təbəələri arasında ticarət əlaqələrinə gəlincə, əgər onlar öz hökumətlərindən, sərhəd rəislərindən Rusiya və İran vətəndaşlığına mənsub tacir olduqlarını sübut edən sənədlərə malik olarlarsa quru yolla və ya dənizlə azad şəkildə bu razılığa gələn dövlətlərə gedə biləcəklər, orada kim nə qədər istəyirsə yaşaya və ticarətlə məşğul ola biləcək və o cümlədən də maneçilik olmadan geri qayıda biləcəklər. Rusiya imperiyasına aid olan ərazilərdən İrana gətirilən mallar, eləcə də İrandan Rusiyaya aparılanlar satıla və ya dəyişdirilə bilər. İki ali dövlətin tacirləri arasında borc və digər şikayətlər üzrə yaranan mübahisələr konsul və ya müvəkkil tərəfindən baxılır, onlar olmayan yerdə isə yerli rəislərə aid olunur. Onların xahişləri əsil həqiqət əsasında araşdırılmalı, özü yaxud lazım gələn adam vasitəsilə razılaşmanın əldə olunmasını təmin etməli və sonra onların incidilməsinə və sıxışdırılmasına imkan verilməməlidir. İrana gəlmiş olan Rusiya tacirləri əgər istəsələr azad şəkildə İrana dost olan digər dövlətlərə də gedə bilərlər. İran dövləti onları zəruri sənədlərlə təmin edəcəkdir. Müvafiq olaraq ticarət işləri üçün Rusiyadan keçməklə Rusiyaya dost olan digər dövlətlərə getmək istəyən İran tacirlərinə qarşı Rusiya hökuməti tərəfindən bu qaydalara riayət ediləcəkdir. İrana səfər edən və ya orada yaşayan Rusiya təbəələrinin ölüm hadisəsi olarsa onların əmanətləri və digər daşınan və daşınmayan əmlakı dost dövlətin təbəəsinə mənsub əmlak kimi gizlədilmədən və maneəsiz, qanuni əsasda və qəbzlə onların yoldaşlarına və ya qohumlarına verilməli və həmin qohumlara imkan verilməlidir ki, digər mədəni dövlətlərdə və hansı hakimiyyətin mövcudluğundan asılı olmayaraq həmişə Rusiya imperi-*

yasında edildiyi kimi öz istəklərinə və xeyirlərinə uyğun olaraq kimə istəsələr satsınlar.

Bu maddə iki dövlət arasında ticarət əlaqələrinin qurulmasına və genişləndirilməsinə şərait yaradılması ilə bağlı idi. Rusiya ərazilərin işğalının rəsmiləşdirilməsinə nail olduqdan sonra iki dövlət arasında ticarət əlaqələrinin genişləndirilməsində maraqlı idi və ona görə də ticarət məsələləri ilə bağlı olan maddələr elə bir mübahisə doğurmadan hər iki tərəfin razılığı ilə qarşılandı. Rusiya tərəfi bu maddədə ona da nail oldu ki, rus tacirləri yalnız İranda azad şəkildə ticarət etmək hüququ almadılar, onlar eyni zamanda İran ərazisindən tranzit kimi istifadə etməklə digər ölkələrə adlamaq hüququ da əldə etdilər. Bu zaman şah dövləti rus tacirləri üçün lazımi şəraiti yaratmalı idi. Maddədə tacirlərin fəaliyyətinin təşkili ilə bağlı bəzi digər məsələlər də öz əksini tapdı.

Doqquzuncu maddə *- Rus tacirlərinin İran şəhərlərinə və limanlarına gətirdikləri yüklərdən 5 faizdən artıq rüsum tutulmasın və tacirlər həmin yüklərlə hara getsələr də onlardan ikinci dəfə tələb olunmasın. Eyni ilə də oradan çıxarılan İran yüklərindən. Daha heç bir səbəb və bəhanə ilə heç bir rüsum, vergi və hədiyyə tələb olunmasın. Oxşar rüsum bu qaydada bir dəfə İran təbəələri tərəfindən Rusiya şəhərlərinə və limanlarına gətirilən və çıxarılan İran yüklərinə də tətbiq edilməlidir.*

Doqquzuncu maddə də ticarət əlaqələrinin tənzimlənməsi haqqında idi. General Rtişşev bu maddələrdə Rusiyanın maraqlarının qorunmasını, iki ölkə arasında ticarət əlaqələrinin genişləndirilməsini şərtləndirən maddələrin qəbul olunmasına çalışdığını yazırdı. O bildirirdi ki, bu maddələrin qəbulu zamanı Rusiyanın ticarətlə bağlı qanunlarından uzaqlaşmamışdı. Rusiyadan İrana daşınan ticarət yüklərindən 5 faiz gömrük rüsumu tutulurdu. Bu rüsum forması Rusiya ərazisində ticarət edən İran tacirlərinə də şamil edilməli idi. General Rtişşev onu da qeyd edirdi ki, rus qoşunları bir qayda olaraq İranın sərhəd bölgələrində ticarətlə məşğul olurlar. İran tacirləri isə əksinə. Ölkənin müxtəlif bölgələrindən olan tacirlər Rusiyanın müxtəlif bölgələrində ticarət edirdilər və bu zaman ticarət balansında üstünlük əldə edirdilər. Rus generallarının fikrincə, iki dövlət arasında sülh müqaviləsi imzalandıqdan sonra rus tacirləri yalnız sərhəd bölgələrində deyil, İrandan keçməklə digər ölkələrdə də ticarət etmək imkanı əldə edəcəkdilər. Ticarət yüklərindən 5 faiz gömrük rüsumu tutulması haqqında razılaşmanın əldə edilməsi üçün Mirzə Əbülhəsən xanla xeyli müzakirə aparılması lazım gəldi. Şah elçisi dövlət xəzinəsinin doldurulması üçün ən azı 10-12 faiz vergi tutulması üzərində təkid edirdi. General Rtişşevin mövqeyi isə belə idi ki, gömrük vergilərinin münasib olması ticarət əlaqələrinin genişlənməsinə və bunun

nəticəsində gömrükdən əldə edilən daxil olmaların artmasına səbəb ola bilər. Son nəhayətdə general Rtişşevin bu təklifi də qəbul olundu. Bu maddələrin müzakirəsi zamanı diqqət yetirilən ciddi məqamlardan biri də ticarət yükləri ölkəyə daxil olarkən onlardan yalnız bir dəfə vergi tutulmasını qanuniləşdirmək idi. General Rtişşevə görə, İran ərazisində xanlar üzərində mərkəzi hakimiyyətin nəzarəti zəif idi. Ona görə də, hər bir xan öz ərazisində ticarət yüklərindən özü istədiyi miqdarda gömrük rüsumu tuturdu. Bu məsələdə də razılığı gəlindi ki, ölkəyə daxil olan yüklərdən yalnız bir dəfə gömrük vergisi tutulsun və bundan sonra yüklər ölkə daxilində azad şəkildə dövriyyə edilsin (112).

Onuncu maddə *- Müqavilə tərəfdaşı olan səltənətlərin hər birinin sahilinə və ya limanına və ya quru yolla sərhəd şəhərlərinə yük gətirilərkən hər iki tərəfin tacirlərinə öz mallarını vəzifəsi ticarətin maneəsiz dövriyyədə olmasına, satıcıdan və alıcıdan könüllü şəkildə xəzinəyə qanuni rüsumların ayrılmasına nəzarət etmək olan gömrük məmurlarının və kirayədarların (*topdan mal alanların-M.S.*) icazəsini almadan satmaq, başqalarını almaq və ya dəyişdirmək hüququ verilir.*

Bu maddədə əsas diqqət qarşılıqlı ticarətin tənzimlənməsinə yönəldilmiş və bununla bağlı tərəflərin öhdəlikləri müəyyənləşdirilmişdir.

On birinci maddə *- Bu müqavilə imzalanandan sonra ali səltənətlərin səlahiyyətliləri qarşılıqlı şəkildə, gecikdirmədən hər yerə lazımi məlumatlar və hər yerdə hərbi əməliyyatların dərhal dayandırılması haqqında göstərişlər göndərəcəkdir.*

Əbədi sülh haqqında hazırkı müqavilə fars dilinə tərcümə edilməklə iki bərabər hüquqlu nüsxədə, ali müqavilə tərəflərinin yuxarıda göstərilən səlahiyyətliləri tərəfindən imzalanmış, möhürləri ilə təsdiq edilmiş və mübadilə olunmuşdur və əlahəzrət Ümumrusiya imperatoru və əlahəzrət İran şahı tərəfindən təsdiqlənərək əlahəzrətlərin öz imzaları ilə təntənəli ratifikasiya olunacaqdır. Müqavilələrin təsdiq olunmuş nüsxələri ali saraylar tərəfindən onların yuxarıda göstərilən səlahiyyətlilərinə üç ay müddətində göndəriləcəkdir.

Qarabağ əyalətində, Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndindəki Rusiya düşərgəsində İsanın miladının min səkkiz yüz on üçüncü ilin oktyabr ayının on ikinci günündə, fars təqviminə görə isə min iki yüz iyirmi səkkizinci ilin şəvval ayının iyirmi doqquzuncu günündə bağlanmışdır.

İmzalamışlar:

Səlahiyyətləndirilmiş və Gürcüstanın baş komandanı Nikolay Rtişşev


Çox şöhrətli İran dövlətindən səlahiyyətləndirilmiş Mirzə Əbülhəsən xan

Mirzə Əbülhəsən xan Gülüstana yola düşərkən Ağa Mirzə Məhəmməd Naini adlı mirzəni də özü ilə aparmışdı ki, imzalanacaq müqavilənin mətninin yazıya köçürülməsi ilə məşğul olsun. Lakin general Rtişşev ona etibar etmədi və müqavilənin mətninin farsca köçürülməsi işini farsca bilən erməni və gürcülərə həvalə etdi. Müqavilənin imzalanmasından sonra isə toplardan yaylım atəşləri açıldı və bir neçə gün şadyanalıq keçirildi (113).

Beləliklə, Gülüstan müqaviləsinin imzalanması ilə Şimali Azərbaycan xanlıqlarının İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Rusiyanın işğalı altına düşdülər. Şah qoşunları Şimali Azərbaycan xanlıqlarına olan iddialarını sübut etmək üçün Rusiya qoşunları qarşısında uğursuzluğa düçar oldular. Ayrı-ayrı döyüşlər istisna olmaqla müharibənin getdiyi müddətdə hərbi təşəbbüs demək olar ki, rusların əlində qaldı. Parçalanmış Azərbaycan xanlıqlarının hər birinin ayrılıqda malik olduğu qoşunlar isə elə bir potensiala malik deyildi ki, Rusiya qoşunlarına, ya da şah qoşunlarına müqavimət göstərsin. Yalnız İrəvan xanlığının müdafiə potensialı həm bu xanlığı, həm də Naxçıvan xanlığını işğaldan xilas etdi. Şah qoşunları İrəvan ətrafında uğursuzluğa düçar olub geri çəkiləndə məhz İrəvan qoşunları güclü rus qüvvələrinin qarşısında müqavimətə başladılar və İrəvan qalası üzərinə ikinci dəfə hücum edən feldmarşal Qudoviç də məhz İrəvan qalasının müdafiəçilərindən güclü zərbə alaraq geri çəkildi.

Hərbi gücsüzlüyü ilə bərabər, şah sarayı Gülüstan müqaviləsinin imzalanması prosesində diplomatik səbatsızlığını da nümayiş etdirdi. Şah sarayının iradəsi bu müqavilənin müzakirəsi zamanı saray nümayəndəsi olan Mirzə Əbülhəsən xan tərəfindən deyil, ikitərəfli danışıqlarda birbaşa iştirak etməyən ingilis səfiri ser Qor Uzeley tərəfindən ifadə olunurdu. Ser Qor Uzeley şah sarayının müqavimət hisslərini kütləşdirmək üçün vəd etdi ki, Rusiya tərəfindən işğal olunmuş ərazilərin bir hissəsi geri qaytarılacaqdır. Araşdırmaçıların və tarixçilərin də gəldiyi qənaət belədir ki, ingilis səfiri səy göstərsəydi bu məsələyə nail olmaq mümkün idi. Lakin bu istiqamətdə ingilis səfiri heç bir cəhd göstərmədi. Çünki onun təmsil etdiyi dövlətin maraqları belə tələb edirdi ki, Rusiya özünün cənub sərhədlərindən tam xatircəm olsun və bütün diqqətini və gücünü Avropa cəbhəsində Fransaya qarşı cəmləsin. Məhz belə bir məqsədlə Rusiya ilə şah sarayı arasında vasitəçilik etdiyini ingilis səfiri özü də etiraf edirdi. O, İngiltərənin xarici işlər nazirinə müqavilənin imzalanmasından az sonra göndərdiyi məktubda öz fəaliyyəti haqqında pafoslu fikirlər yazmaqla bərabər bəyan edirdi ki, İngiltərə və Rusiya dövlətini məmnun

edəcək nəticə əldə etmiş və şah sarayı ingilis diplomatiyasının mahir oyunlarının qurbanı olduğunu anlamamışdır (114).



Gülüstan müqaviləsinin imzalanmasından sonar
Azərbaycan xanlıqlarının işğal coğrafiyası

İngilis səfirliyinin nümayəndəsi Moriye yazırdı ki, Gülüstan müqaviləsinin mətni Tehranda şah sarayının əyanları arasında ciddi müzakirələrə səbəb oldu. Amma saray əyanlarının müzakirələrinə səbəb olan məqamlar Rusiyanın işğalını təsbit edən maddələr deyil, müqavilə mətninin ayrı-ayrı ifadələri, şahın ləqəblərinin necə verilməsi və digər formal məqamlar idi. Saray əyanlarından olan Hacı Mirzə Ağası adlı

birisi isə hətta bəyan etdi ki, Xəzər dənizinin duzlu suyuna nə ehtiyac var ki, onun barəsində müzakirələr də açılsın? (115).

Gülüstan müqaviləsinin imzalanmasından sonra da şah sarayı ingilis səfirinin məkrli oyunlarının qurbanı oldu. İngilis səfiri şah sarayının qəzəbinə düçar olmamaq üçün bildirdi ki, hələ Rusiya tərəfindən işğal olunmuş əraziləri itirilmiş hesab etmək olmaz. O, şaha təklif edirdi ki, Rusiya imperatorunun sarayına elçi göndərilsin və itirilmiş torpaqların geri qaytarılması məsələsi Rusiya imperatorunun özü ilə müzakirə edilsin. Qor Uzeley şah sarayını əmin etdi ki, əgər məsələ Rusiya sarayında müzakirə edilsə, Rusiya imperatoru işğal olunmuş ərazilərin bir hissəsini geri qaytaracaqdır. Fətəli şah bu oyuna da aldandı və Gülüstan müqaviləsini imzalamış Mirzə Əbülhəsən xanı Sankt-Peterburqa elçi təyin etdi. Fətəli şah eyni zamanda ingilis səfirindən xahiş etdi ki, Rusiyaya yollansın və Mirzə Əbülhəsən xanla birlikdə Rusiya sarayı ilə danışıqlar aparılmasında iştirak etsin. Avropaya qayıtmağa bir bəhanə axtaran Qor Uzeley dərhal bu təklifə razı oldu. Mirzə Əbülhəsən xanla Qor Uzeleyin daxil olduğu nümayəndə heyəti 1814-cü ilin may ayında Təbrizdən Sankt-Peterburqa doğru hərəkətə başladı. Rusiyanın maraqlarının qorunmasında xüsusi canfəşanlıq göstərən ser Qor Uzeley Rusiya sarayı tərəfindən böyük ehtiramla qarşılanıb sarayın yüksək mükafatlarına layiq görüldüyü halda, Mirzə Əbülhəsən xan apardığı danışıqlarda hər hansı bir nəticəyə nail olmadı. Rusiya sarayı bir mənalı şəkildə işğal etdiyi Azərbaycan xanlıqlarının ərazisinin boşaldılmasını qeyri-mümkün saydı.

1828-ci il fevral ayının 22-də Rusiya ilə İran arasında Türkmənçay müqaviləsinin imzalanması ilə əslində Gülüstan müqaviləsinin müddəaları da öz qüvvəsini itirdi. Bu məsələ Türkmənçay müqaviləsinin 2-ci maddəsində əksini tapmışdır. Həmin maddədə deyilirdi: " Ali tərəflər arasındakı düşmənçilik imperatorun iradəsinə görə sona çatdığından Gülüstan müqaviləsinin müddəaları da ləğv olunur. Ona görə əlahəzrət İran şahənşahı və əlahəzrət ümumrusiya imperatoru lazım bildilər ki, Rusiya ilə İran arasında sülh və dostluq əlaqələrinin möhkəmləndirilməsi üçün adı çəkilən müqaviləni aşağıdakı maddələrlə və şərtlərlə əvəz etsinlər" (116). Bununla da Gülüstan müqaviləsinin hüquqi mövcudluğuna son qoyuldu.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. زندفرد ف. سر گور اوزلی. تهران، 1386، ص.
2. ناصر نجمی. عباس میرزا. تهران، 1374، ص.306-307
3.39. قایمقامی ج. تحولات سیاسی نظامی ایران. تهران، 1326، ص.
4. Yenə orada
5. Yenə orada, s.40
6. آیران و بریتانیا. تهران، 1379، ص.45
7. Иоаннисян А.Р. Присоединение Закавказья к Росии и международные отношения в начале XIX столетия. Ереван, 1958, с.355-356
8. Акты Собранные Кавказской Археологической Комиссии (АКАК). Т. V, Тифлис, 1873, с.177
9. Yenə orada, s.649-650
10. Yenə orada, s.650
11. Иоаннисян А.Р....с.351-353
12. Иоаннисян А.Р....с.353; АКАК. т. V, ... с.654
13. АКАК, т. V, ... с.654
14. Yenə orada, s.654-655
15. Yenə orada, s. 654-659
16. Yenə orada, s.655
17. Yenə orada
18. Yenə orada
19. Yenə orada, s.654
20. Yenə orada
21. Yenə orada, s.657
22. Yenə orada
23. Yenə orada, s.658
24. Yenə orada, s.658
25. Yenə orada, s.659
26. Иоаннисян А.Р....с.358
27. شیرازی م. سفرنامه ابولحسن خان شیرازی(الچی) به روسیه. (مقدمه)، تهران، 1363، ص.47 ؛ نجمی ناصر، 312
28. شیرازی م. سفرنامه، 47 ،بینا ا. تاریخ سیاسی و دیپلوماسی ایران. جلد اول، تهران، 1344، ص.38
29. دنبلی عبدالرزاق . ماثر سلطانیه. تهران،1382، ص.388-389
30. АКАК, т. V, ... с.661;
31. АКАК, т. V, ... с.662; 389-388 ،دنبلی

32. AKAK, т. V, ... c.663
33. Yenə orada, s.664
34. Yenə orada
35. Yenə orada, s.664-665
36. Yenə orada, s.665
37. نجمی ناصر، 314
38. AKAK, т. V, ... c.673
39. شیرازی م. سفرنامه ، 48
40. Yenə orada, s.665
41. Yenə orada, s.667
42. Yenə orada, s.667
43. Yenə orada, s.668
44. Yenə orada
45. Yenə orada, s.669
46. Yenə orada, s.670
47. Yenə orada, s.670
47a. دنبلی م، 391
48. شیرازی م. سفرنامه، 51
49. نجمی ناصر، 319-320
50. AKAK, т. V, ... c.675-676
51. مدنی ج. تاریخ تحولات سیاسی و روابت خارجی ایران. جلد اول، تهران، 1378، ص.150
52. AKAK, т. V, ... c.676
53. Yenə orada, s.678
54. Yenə orada, s.679
55. Yenə orada
56.Yenə orada, s.682
57. Yenə orada, s.682, 684
58. Yenə orada, s.680-681
59. Yenə orada, s.698-699
60. دنبلی، 404
61. Yenə orada, s.405
62. آهنگسروش (میرزا محمد صادیق وقایع نگار). تاریخ جنگهای ایران و روس. تهران، 1360، ص.82-83
63. بینا ا،172، مدنی ج، 154
64. دنبای، 207-208
65. AKAK, т. V, ... c.717
66. Yenə orada, s.712-713
67. Yenə orada, s.714
68. Yenə orada, s.715

69.Yenə orada, s.715-716
70. Yenə orada, s.716
71. Yenə orada, s.720
72. Yenə orada, s.721
73. АКАК, т. V, ... с.721; 208-207 ،دنبلی
74. 408-407 ،دنبلی
75.202 ،زندفرد
76. 155 ،مدنی
77. 322 ،نجمی ناصر
78. АКАК, т. V, ... с.722
79. Yenə orada
80. 212 ،آهنگسروش
81. 406 ،دنبلی.
82. АКАК, т. V, ... с. 722-723
83. Yenə orada, s.722
84. Дубровин Н. История войны и владычества русских ра Кавказе. Т. VI, С-Петербург, 1888, с.122
85. АКАК, т. V, ... с.724
86. Yenə orada, s.729
87. Yenə orada, s.730
88. Yenə orada, s.731
89. Yenə orada, s.731-733
90. Yenə orada, s.740
91. محمود محمود. تاریخ روابت سیاسی ایران و انگلیس. جلد اول، تهران،1378 ص.172-173
92. АКАК, т. V, ... с.740
93. 176 ،بینا ا
94. АКАК, т. V, ... с.734
95. Yenə orada
96. Yenə orada, s.741
97. Yenə orada, s.737
98. Балаян ... с.99
99. АКАК, т. V, ... с.735
100. 173 ،محمود محمود
101. Yenə orada
102. АКАК, т. V, ... с.742
103. Yenə orada, s.743
104. نفیسی سعید. تاریخ اجتماعی و سیاسی ایران در دوره معاصر. جلد اول، تهران، 1383، ص.425
105. АКАК, т. V, ... с.743-744

106. Балаян ... c.94
107. مدنی، 157
108. نجفقلی حسام مغری. تاریخ روابت سیاسی ایران و انگلیس. تهران، 1366، ص.38-39
109. АКАК, т. V, ... c.744-745
110. Yenə orada, s. 745
111. Yenə orada
112. Yenə orada, s.746
113. "Şərq" qəzeti, 26 oktyabr 2005-ci il
114. بینا علیاکبر، 176
115. مدنی ، 176
116. نجفقلی حسام مغری. تاریخ روابت سیاسی ایران و انگلیس. تهران، 1366، ص.42

NƏTİCƏ

Gülüstan müqaviləsinin imzalanması kifayət qədər ciddi bir tarixi hadisə idi. Doğrudur, bu müqavilənin imzalanması bölgədə başlayan hərbi-siyasi proseslərə son qoymadı. Bununla belə, Gülüstan müqaviləsinin imzalanması Azərbaycan xanlıqları və bütünlükdə yerli xalqlar və dövlətlər üçün bir sıra nəticələri ortaya çıxardı.

Bu nəticələrdən biri siyasi nəticələrdir. Gülüstan müqaviləsini imzalanması ilə bölgənin geosiyasi mənzərəsi dəyişdi. Hərbi, siyasi, iqtisadi inkişafının dinamik dövrünü yaşayan Rusiya kimi böyük bir dövlət öz geosiyasi maraqlarını birbaşa təmin etdi və öz sərhədini Araz çayına və Xəzər dənizinin qərb sahili ilə onun cənubuna qədər genişləndirə bildi. Rusiyanın Dağıstan hakimlikləri və Azərbaycan xanlıqları ilə məhdudlaşan sərhədləri Araz çayı boyunca Qacarlar dövləti ilə müştərək sərhəd xəttinə çevrildi. Cənubi Qafqazın qərbində Osmanlı Türkiyəsi ilə İrəvan xanlığının sərhəd kəsişməsinə qədər olan ərazilər, Cənubi Qafqazın şərqində isə Xəzərboyu demək olar ki, bütün ərazilər Rusiyanın işğalı altına düşdü. Bununla, Rusiya Qara dənizlə Xəzər dənizi arasındakı bölgəyə sahib olmaqla bərabər, Xəzər dənizində də hakim rolu ələ keçirdi.

Azərbaycan xanlıqlarını və Gürcüstanı işğal etməklə Rusiya Qacarlar dövlətinin Cənubi Qafqaza olan iddialarının qarşısına sədd çəkdi və Qacarlar dövləti konkret tarixi şəraitdə şimal sərhəd xəttinin Araz çayından və Lənkəran xanlığının cənubundan keçməsi ilə razılaşmalı oldu. Bununla, Rusiya Cənubi Qafqazda geosiyasi üstünlüyə nail oldu. Rusiyanın əldə etdiyi yeni mövqelər eyni zamanda Osmanlı Türkiyəsinin də Cənubi Qafqazda nüfuz əldə etmək planlarının qarşısını aldı.

Dövrün böyük dövlətlərindən olan İngiltərə də dolayısı yolla Cənubi Qafqaza hesablanmış geosiyasi planlarının həyata keçməsinə fürsət əldə etdi. Əvvəllər Rusiyanın Cənubi Qafqazda möhkəmlənmək cəhdlərinə qarşı barışmaz mövqe tutan İngiltərə bir müddət sonra Avropada cərəyan

edən proseslərlə əlaqədar olaraq Rusiyanın müttəfiqinə çevrildi və Qacar sarayına olan təsir imkanlarından istifadə etməklə Fətəli şah hakimiyyətini Cənubi Qafqazın Rusiya işğalı altında qalmasına razılaşmağa məcbur etdi. Yəni, İngiltərə Azərbaycan xanlıqlarının və bütünlükdə Cənubi Qafqazın Rusiya tərəfindən işğalına dəstək verdi və onun qanuniləşdirilməsi üçün kifayət qədər geniş diplomatik fəaliyyət ortaya qoydu. Bir tərəfdən təzyiq, bir tərəfdən də müəyyən vədlər verməklə ingilis diplomatları öz dövlətinin təlimatlarını yerinə yetirdilər və Qacar sarayını məcbur etdilər ki, Azərbaycan xanlıqlarına olan iddialarından əl çəksin və bu bölgə Rusiyanın işğalı altında qalsın. Bununla, Rusiyanın Azərbaycan xanlıqları üzərindəki işğalının möhkəmləndirilməsində və bölgədə yeni geosiyasi mənzərənin qanuniləşdirilməsində İngiltərənin də özünəməxsus rolu oldu. Belə bir vəziyyət İngiltərənin dövlət maraqlarına cavab verirdi. Çünki İngiltərə hökuməti çalışırdı ki, Cənubi Qafqazdakı müharibəyə tezliklə ara verilsin və Rusiyanın əsas diqqəti Avropa cəbhəsində İngiltərənin başlıca rəqibi və düşməni olan Fransaya qarşı müharibəyə cəlb edilsin. Cənubi Qafqazda müharibənin dayandırılması ilə buradakı rus qüvvələrinin müəyyən hissəsini də Fransaya qarşı mübarizəyə səfərbər etmək olardı. Rusiya isə Cənubi Qafqazda müharibənin dayandırılmasına işğal etdiyi əraziləri əlində saxlayacağı təqdirdə razı olurdu. İngiltərə hökumətini Azərbaycan xanlıqlarının müstəqilliyi və ya işğal altında olması elə də maraqlandırmırdı. Onun maraq dairəsində olan rus qoşunlarının Avropa cəbhəsinə səfər olunmasına nail olunması idi ki, buna da Qacar sarayına təzyiq etməklə müəyyən dərəcədə nail oldu.

Gülüstan müqaviləsinin imzalanması ilə Azərbaycan xanlıqlarının müstəqilliyinə son qoyuldu. Bu xanlıqlar Nadir şahın qətlindən sonra Azərbaycan ərazisinin rus qoşunları tərəfindən işğalına başlanmasına qədər ən azı yarım əsirdən çox müstəqil dövlətçilik tarixinə malik oldular. Azərbaycan xanları öz dövlət aparatlarını yaratdılar və dövlətçilik atributlarına malik oldular. Onların hər birinin sərhədləri məlum idi və bu sərhədlərin qorunması üçün müstəqil silahlı dəstələrə də malik idilər. Hətta müxtəlif vaxtlarda Qacar sarayının nümayəndələri ilə barışıq danışıqları aparan rus generalları da bildirirdilər ki, onlar müstəqil olan və digər bir dövlətin idarəsi altında olmayan xanlıqlarını işğal etmişlər. Ona görə Qacar sarayının xanlıqlara iddialı mövqedən barışıq şərtləri irəli sürməsini rus generalları qəbul etmirdilər. Qacar sarayının Cənubi Qafqazın vaxtilə İranın tərkibində olması mövqeyindən çıxış etməklə bu bölgəyə iddia irəli sürməsi ilə də rus generalları razılaşmadılar və Gülüstan müqaviləsi də rusların iddiasının təmin

edilməsi ilə imzalandı. Bununla Arazın şimalında və cənubunda yerləşən Azərbaycan xanlıqları arasında siyasi əlaqələr qırıldı və bu xanlıqlar fərqli dövlətlərin hakimiyyəti altında qaldılar.

Gəncə və Bakı xanlıqları işğal edilən kimi ruslar tərəfindən orada xanlıq üsul-idarəsi dərhal, Quba xanlığında isə Gülüstan müqaviləsinin imza edilməsi ərəfəsində ləğv edildi. Digər xanlıqların xanlıq üsul-idarəsi bir müddət saxlanıldı. Lakin həmin xanlıqların Rusiya tərkibinə qatılması ilə ikitərəfli müqavilələr imzalandı və xanlar Rusiyaya sədaqətli olacaqları barəsində and qəbul etdilər. Xanlıq üsul-idarəsinin saxlanılmasından istifadə etməklə yerli xanlar müstəqilliklərini qorumaq üçün göstərdikləri bütün cəhdlər rus generallarının ciddi müqaviməti ilə qarşılaşdı və bununla həmin xanlara göstərildi ki, onların idarə etdikləri xanlıqlar artıq Rusiya dövlətinin tərkib hissəsidir.

Bəzi tarixi ədəbiyyatda Gülüstan müqaviləsi Gülüstan sülh müqaviləsi kimi xatırlansa da, əslində bu müqavilə sülhə bağlı olmayan, Rusiyanın Azərbaycan xanlıqları və bütünlükdə Cənubi Qafqaz üzərində işğalını rəsmiləşdirən siyasi bir sənəd idi. Ona görə bu müqavilənin sülh müqaviləsi adlandırılması onun Cənubi Qafqaza gətirdiyi tarixi reallıq haqqında tam olmayan bir təsəvvür yarada bilər.

Gülüstan müqaviləsini ortaya qoyduğu nəticələrdən biri də hərbi-siyasi nəticə idi. Bu müqavilə Azərbaycan xanlıqları ərazisində və bütünlükdə Cənubi Qafqazda cərəyan edən hərbi əməliyyatların nəticəsi kimi ortaya çıxmış bir sənəd idi. Rusiya öz hərbi üstünlüyünü bu sənədin imzalanması ilə qarşı tərəflərə qəbul etdirmiş oldu.

Rusiya dövrün inkişaf etməkdə olan güclü dövlətlərindən biri idi. Onun iqtisadi sahədəki inkişafı silahlı qüvvələrin təchizatında da özünün ifadəsini tapdı və buna görə, Rusiyanın ordusu istər təchizat baxımından, istər təşkilatlanma baxımından, istər döyüş hazırlığı baxımından dövrünün güclü ordularından biri idi və onun bu inkişaf səviyyəsi də istər Azərbaycan xanlıqlarının silahlı qüvvələri ilə, istərsə də Qacar qoşunları ilə müqayisədə özünü nümayiş etdirdi.

Azərbaycan xanlıqlarının silahlı qüvvələrinin Rusiya qoşunlarının hücumu qarşısında lazımi müqavimət göstərmək imkanına malik olmaması müəyyən obyektiv-tarixi səbəblərlə bağlı idi. Əvvəla, Azərbaycan xanlıqlarının hər biri Rusiya ilə müqayisədə kiçik potensiallı dövlətlər idilər. Bu xanlıqların iqtisadi inkişaf səviyyəsi, səfərbərlik imkanları, silahlı dəstələrin təchizat imkanları Rusiya ilə müqayisədə son dərəcə məhdud idi. Bundan başqa Azərbaycan xanlıqları Nadir şah dövrünün müharibələrindən yenicə çıxaraq hələ lazımi gücü əldə etməmişdilər. Daxili qarşıdurmalar da onların müdafiə qabiliyyətini zəiflətmişdi. Xan-

lıqların parçalanması, onların hər birinin ayrılıqda işğala qarşı cəbhə tutması isə Rusiyanın hərbi uğuruna müəyyən zəmin yaradırdı. Bununla belə, xanlıqlar daxilində işğala qarşı barışmaz əhval-ruhiyyənin olması rus qoşunları üçün xeyli problemlər doğurdu. Faktların öyrənilməsi göstərir ki, konkret tarixi şəraitdə xanlıqlar arasında işğala qarşı hərbi ittifaqın yaradılması ən azı Rusiya işğalına qarı ciddi maneəyə çevrilə bilərdi. Lakin bu istiqamətdə qətiyyətli addımlar atılmadı. Hətta Şəki və Quba xanlıqları ərazisində rus işğalına qarşı kütləvi üsyanlar qalxanda belə xanlıqlar arasında vahid fəaliyyət barəsində səmərəli iş birliyi alınmadı. Ona görə də rus komandanlığı öz qüvvələrini bu və ya digər istiqamətdə səfərbər etməklə bu üsyanları da yatırmağa müvəffəq olurdu.

Gülüstan müqaviləsinin imzalanmasına qədər cərəyan edən müharibənin tərəflərinin müəyyənləşdirilməsi baxımından qeyd etmək lazımdır ki, Azərbaycan xanlıqları da bu müharibənin tərəfi idi. Yəni Azərbaycan xanlıqları ayrıca tərəf kimi bu müharibədə iştirak etməli olmuşdu. Tarixi ədəbiyyatda bu müharibənin rus - İran müharibəsi adlandırılması ilk baxışda belə bir təsəvvür yaratmamalıdır ki, müharibə yalnız Rusiya və İran qoşunları arasında baş vermişdi. Azərbaycan xanlıqlarının müstəqilliyi məsələsi bu xanlıqların silahlı dəstələri ilə Rusiya qoşunlarının arasında baş verən müharibədə həll olunurdu. Bir çox hallarda xanlar məzhəb, dil, mədəniyyət birliyi baxımından Qacar qoşunlarına kömək üçün müraciət edirdilər. Amma bu kömək ya gecikir, ya da Qacar qoşunları mövsümü çətinliklərə görə Arazın şimalına çıxa bilmirdilər. Əslində, istər rus qoşunlarının, istərsə də Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərinə hücumu eyni mahiyyət daşıyırdı və ona görə də Azərbaycan xanlıqları ümumən, eyni səviyyədə bu təhlükələrin qarşısını almaqda maraqlı idi.

Azərbaycan xanlqılarının işğal edilməsindən sonra təchizat, təminat, təşkilatlanma və hazırlıq baxımından rus qoşunlarından xeyli geri qalan Qacar qoşunlarının Arazın şimalına planlaşdırılan hücumları bəzi hallarda Azərbaycan xanlarının müəyyən ümidlərinə səbəb olsa da, bu qoşunların qarşıya qoyduğu hərbi iddiaların həyata keçirilməsi həmin ümidləri də heçə endirirdi. Çünki bu hücumların xalq gətirdiyi fəlakətlər rus qoşunlarının gətirdiyi fəlakətlərdən heç də az olmurdu.

Azərbaycan xanlıqlarına olan iddiaların hərbi yolla həyata keçirilməsi üçün Qacar sarayının Fransadan və İngiltərədən kömək almaq ümidi də bir nəticə vermədi və istənilən halda Rusiyanın Cənubi Qafqazdan sıxışdırılması mümkün olmadı. Gülüstan müqaviləsinin imzalanması ilə Rusiya Qacar sarayını məcbur etdi ki, işğal altında olan Azərbaycan xanlıqlarına irəli sürdüyü iddialarından müvəqqəti də olsa əl çəksin.

Azərbaycan xanlıqları işğal edilsə də Azərbaycan xanlıqlarının hərbi potensialı heç də məhv edilmədi. Xüsusilə, xanlıqlar daxilində mövcud olan atlı dəstələrin çevikliyi, döyüş vərdişləri rus generallarının diqqətini özünə cəlb etdi və bu atlı dəstələrdən istər Gülüstan müqaviləsinin imzalanmasına qədər, istərsə də Gülüstan müqaviləsinin imzalanmasından sonra rus yürüşlərində istifadə edilməsinə cəhd göstərildi.

Gülüstan müqaviləsinin imzalanması ilə hüquqi status alan işğalın ortaya qoyduğu nəticələrdən biri də bəşəri nəticələr idi. Yəni, rus işğalı Azərbaycan xalqının parçalanmasına yol açdı, bu işğal özü ilə yerli əhaliyə talanlar, dağıntılar, milli sıxıntılar, fərqli bir yaşayış normaları gətirirdi. Bunu isə xalq kütlələri qəbul etmədi. İşğala qarşı bir ümumxalq iradəsi formalaşdı və tezliklə bu iradə ruslara qarşı barışmaz mübarizəyə çevrildi. Bu üsyanların yerli xanların ətrafında baş verməsi onu göstərdi ki, xalq kütlələri öz milli hakimiyyətləri daxilində yaşamağa üstünlük verirlər. Lakin dağınıqlıq, lazımi hərbi potensialın olmaması üzündən bu üsyanlar gözlənilən nəticəni vermədi və Gülüstan müqaviləsinin imzalanması ilə Azərbaycan xalqı tarixinin yeni bir mərhələsinə qədəm qoydu.

Əlavə

Azərbaycan xanlıqları ərazisində aparılan müharibə zamanı rus qoşunlarının verdiyi itkilər haqqında

Gülüstan müqaviləsinin imzalanmasına qədər Azərbaycan xanlıqları ərazisində aparılan müharibə zamanı tərəflərin verdiyi itkilər barəsində tam mənzərə yaradılması qeyri-mümkündür. Bunun öz səbəbləri vardır. Hər şeydən əvvəl, istər Azərbaycan xanlıqlarında, istərsə də Qacar qoşunlarında hərbi yazışmalar ciddi tələblərə cavab vermirdi. Məlumdur ki, Azərbaycan xanlıqlarının və Qacar qoşunlarının qüvvələrinin əsasını könüllülər təşkil edirdilər. Onların toplanması, döyüşlərə cəlb edilməsi çox zaman tayfa başçılarının və ya yerli hakimlərin ixtiyarına buraxılırdı. Onlar isə mümmün olan kontingenti toplayaraq döyüşlərə cəlb edir və bu zaman daxili yazışmaların, statistikanın aparılmasına ümumi şəkildə yanaşılırdı. Ona görə də döyüşlərin getdiyi müddət ərzində canlı itkilərin sayı haqqında ciddi məlumatlar mövcud deyildi. Dövrün yazılı mənbələrində də tərəflərin itkiləri haqqında bəzən reallığı əks etdirməyən rəqəmlər öz əksini tapırdı.

Rus qoşunlarında bu iş nisbətən daha ciddi şəkildə qurulmuşdu. Çünki Azərbaycan xanlıqları ərazisində müharibə aparan rus qüvvələrinin əsasını nizami hissələr təşkil edirdilər ki, onların düzgün qeydiyyatı aparılırdı. Ona görə də rus qoşunlarının itkiləri haqqında hazırda daha geniş məlumatlar mövcuddur. Bu məlumatları toplayan rus müəllifi A.L.Qizetti 1901-ci ildə Tiflisdə " Qafqaz-dağlı, fars, türk və Zakaspi diyarındakı müharibələri zamanı Qafqaz qoşunlarının itkiləri haqqında toplu. 1801-1885" (А.Л.Гизетти. Сборник сведений о потерях Кавказских войск во время войн Кавказско-горской, персидских, турецких и в Закаспийском крае. Тифлис, 1901) adı altında çap etdirmişdir. Kitabdakı məlumatlar Qafqaz Hərbi Dairəsinin arxivində saxlanılan sənədlər əsasında hazırlanmışdır. Kitabda müharibə zamanı həyatlarını itirmiş rus zabitlərinin adları da sadalanmışdır. Kiçik zabitlərin və sıravi heyət haqqında isə ümumi şəkildə məlumatlar verilmişdir.

Doğrudur, rus generalları bir çox hallarda uğursuzluqlarını gizlətmək üçün yuxarı orqanlara dəqiq məlumatlar vermirdilər və ya yaralananların sayını döyüşün başa çatdığı zaman üçün verirdilər. Amma döyüşdən sonra bu yaralananlardan nə qədərinin həyatını itirməsi haqqında məlumatlara isə səthi yanaşılırdı. Ona görə, A.Qizettinin tərtib etdiyi məlumatlarda da müəyyən naqislik ola bilər. Bununla belə, bu məlumatlar rus qoşunlarının Azərbaycan xanlıqları ərazisindəki itkilər haqqında müəyyən təsəvvür yaratmağa imkan verir.

	Zabit heyəti			Sıravi heyət		
	ölü	yaralı	əsir	ölü	yaralı	əsir
1803-cü il						
Gəncə üzərinə hücumda						
Dekabrın 2-də şəhər ətrafı bağlar və ərazilr tutularkən	-	1	-	7	30	-
Şəhərin mühasirəsi zamanı	-	1	-	1	5	-
1804-cü il						
4 yanvarda Gəncə qalası üzrəinə hücum zamanı	3	14	-	35	192	-
Cəmi:	3	16	-	43	227	-
İrəvan üzərinə hücum zamanı						
20 iyun. Eşmiədzin ətrafındakı döyüş	-	4	-	8	54	2
30 iyun. İrəvan ətrafında döyüş	-	4	-	1	32	-
15 iyul. Qacar qoşunlarının İrəvan ətrafına hücumu zamanı	4	9	-	58	108	7
18 iyun-2 sentyabr arası	-	8	-	17	100	15
Cəmi:	4	25	-	84	294	24
21 avqust. Qarakilsə yaxınlığında mayor Montrezorun dəstəsi üzrəinə hücum zamanı	4	-	-	95	-	15
3-14 sentyabr tarixində general Sisianovun dəstəsinin İrəvandan geri çəkilməsi zamanı	-	2	-	3	15	1
General Portnyaginin Gərniçay yaxınlığında Abbas Mirzə düşərgəsinə hücumu zamanı	1	1	-	2	60	-
Müxtəlif döyüşlər zamanı	2	-	-	24	12	-

1805-ci il						
15 iyun. Cəbrayıl bağlarında mayor Lisaneviçin Qacar sərkərdəsi Pirqulu xanın dəstəsi ilə döyüşüü zamanı	-	-	-	2	18	-
24 iyun. Polkovnik Karyaginin Şahbulaq çayı yaxınlığında Qacar qoşunları ilə döyüşü	1	5	-	32	158	-
25-28 iyun. Polkovnik Karyaginin Şahbulaq qalasına tərəf geriləməsi zamanı	-	7	-	57	19	-
26 iyun. Qacar qoşunlarına əsir düşənlər	-	-	1	-	-	57
26 iyul. Gəncə qalasının Abbas Mirzə tərəfindən mühasirə edilməsi zamanı	-	1	-	3	7	-
23-27 iyul. Abbas Mirzə qüvvələrinin Zəyəm çayı yaxınlığında rus təchizat arabaları üzərinə hücumu zamanı	1	-	1	17	32	-
14 iyul. Tərtər çayı yaxınlığında Qacar qüvvələrinin knyaz Sisianovun dəstəsi üzərinə hücumu zamanı	-	-	-	12	4	4
11 avqust-3 sentyabr. General Zavalişin tərəfindən Bakı qalasının mühasirəsi zamanı	1	-	-	3	6	-
1806-cı il						
13 iyun. Abbas Mirzə dəstəsinin general Nebolsinin dəstəsi üzərinə hücumu zamanı	-	4	-	8	52	-
28 oktyabr. General Nebolsinin dəstəsinin Nuxa üzərinə hücumu zamanı	-	4	-	16	27	7

8 fevral. General Sisianovun Bakı ətrafında danışıqlar apardığı zaman	2	-	-	-	-	-
1807-ci il						
16 mart. Baş Şuragöl kəndi ətrafındakı döyüş zamanı	1	-	-	12	3	-
Türk və qacar qoşunları ilə müxtəlif döyüşlər zamanı	-	2	-	10	26	-
1808-ci il İrəvanın mühasirəsi zamanı						
8 oktyabr.Müxənnət təpəsi ətrafındakı döyüş zamanı	-	1	-	2	29	-
9 oktyabr-1 dekabr tarixində qalanın mühasirəsi zamanı	1	2	-	14	51	-
27 noyabr. İrəvan qalası üzərinə hücum günü	16	26	-	282	861	-
İrəvan qalası ətrafında cəmi	17	29	-	298	941	-
30 oktyabr. General Nebolsinin Naxçıvan ətrafında Abbas Mirzə dəstəsi ilə döyüşü zamanı	-	6	-	37	66	6
5 dekabr. General Nebolsinin dəstəsinin Naxçıvandan geri çəkilməsi zamanı	-	-	-	25	58	-
1809-cu il						
Qacar və türk qoşunları ilə müxtəlif döyüşlər zamanı	1	7	-	87	130	11
1810-cu il						
14-15 iyun, 5 iyul. Mehri ətrafındakı döyüşlər zamanı	2	4	-	9	38	-

4 iyul. Hamamlı yaxınlığındakı döyüş zamanı	1	7	-	8	81	-
15-26 noyabr. Acıqara kəndi yaxınlığındakı döyüş zamanı	-	8	-	23	21	6
1811-ci il						
6 noyabr. General Quryevin dəstəsinin Ziaxur kəndi üzərinə hücumu zamanı	1	7	-	30	170	-
22 noyabr. General Xatunsevin Rustov kəndi üzərinə hücumu zamanı	1	4	-	6	81	-
6 dekabr. General Xatunsevin Şahı kəndi üzərinə hücumu zamanı	-	2	-	9	32	-
1812-ci il						
1 fevral. Sultanbud məntəqəsindəki döyüş zamanı	2	-	8	50	-	510
20 oktyabr. Aslandüz döyüşü zamanı	1	2	-	27	97	-
Qacar və türk qoşunları ilə müxtəlif döyüşlər zamanı	1	6	1	59	61	50
1813-cü il						
Lənkəran qalası üzərinə hücum zamanı	16	25	-	325	584	-

MÜNDƏRİCAT

I FƏSİL
CƏNUBİ QAFQAZ BEYNƏLXALQ MARAQLARIN KƏSİŞMƏSİNDƏ 3
1. İngilis siyasətinin bölgə maraqları 3
2. Azərbaycan xanlıqlarının işğalında Fransa amili 11
3. General Qardanın İran missiyası 24
4. İstifadə olunmuş mənbə və ədəbiyyat 40

II FƏSİL
QARABAĞ XANLIĞININ İŞĞALI 43
1. Kürəkçay müqaviləsinin imzalanması və Qarabağın Rusiyaya birləşdirilməsi 43
2. Qacar qoşunlarının Qarabağ üzərinə hücumu 58
3. Əsgəran döyüşü 68
4. İbrahim xanın qətli 87
5. İbrahim xanın qətlindən sonra Qarabağda hərbi-siyasi vəziyyət 99
6. İstifadə olunmuş mənbə və ədəbiyyat 107

III FƏSİL
RUSİYA İŞĞALÇILIĞININ SİSİANOV DÖVRÜNÜN SONU 111
1. Şəki xanlığının Rusiyaya birləşdirilməsi 111
2. Şamaxı xanlığının Rusiyaya birləşdirilməsi 125
3. Bakı xanlığının işğalı cəhdi və Sisianovun qətli 142
4. İstifadə olunmuş mənbə və ədəbiyyat 164

IV FƏSİL
AZƏRBAYCAN XANLIQLARI ÜZƏRİNDƏ İŞĞALIN MÖHKƏMLƏNDİRİLMƏSİNİN YENİ DÖVRÜ 168
1. Sisianovun qətlindən sonra bölgədə hərbi-siyasi şərait 168
2. Azərbaycan xanlıqları ətrafında İ.Qudoviçin Qacar sarayı ilə danışıqlar aparması 179

3. Quba və Bakı xanlıqlarının işğalı 199
4. Şəki xanlığında Rusiya işğalına qarşı qiyam 218
5. Şamaxı və Lənkəran xanlıqlarında vəziyyət 237
6. İrəvan xanlığı üzərinə ikinci hücum 247
7. İstifadə olunmuş mənbə və ədəbiyyat 287

V FƏSİL
GÜLÜSTAN MÜQAVİLƏSİNİN İMZALANMASI ƏRƏFƏSİNDƏ AZƏRBAYCAN XANLIQLARININ HƏRBİ-SİYASİ VƏZİYYƏTİ 295
1. Azərbaycan xanlıqları ətrafında yeni beynəlxalq şəraitin formalaşması 295
2. Qarabağ xanlığında hərbi-siyasi vəziyyət 326
3. Lənkəran xanlığı uğrunda iddiaların kəskinləşməsi 350
4. Quba xanlığı ərazisində Rusiya işğalına qarşı üsyanların davamı 375
5. Şəki və Şamaxı xanlıqlarında hərbi-siyasi vəziyyət 403
6. İstifadə olunmuş mənbə və ədəbiyyat 417

VI FƏSİL
CƏNUBİ QAFQAZ UĞRUNDA APARILAN MÜHARİBƏNİN İLK MƏRHƏLƏSİNİN YEKUNLAŞMASI 425
1. Bölgənin daxili və xarici hərbi-siyasi şəraiti 425
2. Azərbaycanın şimalında rus işğalına qarşı mübarizənin davam etdirilməsi 435
3. Qarabağ xanlığı uğrunda iddiaların yenidən kəskinləşməsi 445
4. Lənkəran xanlığının işğalı 474
5. İstifadə olunmuş mənbə və ədəbiyyat 511

VII FƏSİL
GÜLÜSTAN MÜQAVİLƏSİNİN İMZALANMASI 517
1. Azərbaycan xanlıqlarının işğalının rəsmiləşdirilməsi ilə bağlı tərəflərin mövqeyi 517
2. Azərbaycan xanlıqlarının işğalını rəsmiləşdirəcək müqavilə ətrafında ilk müzakirə cəhdləri 534

3. Tərəflər arasında danışıqların pozulması və Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərinə yeni hücumu 543
4. Azərbaycan xanlıqlarının işğalının rəsmiləşdirilməsi ətrafında diplomatik fəallıqların və ingilis müdaxilələrinin artması 550
5. Gülüstan müqaviləsi 568
6. İstifadə olunmuş mənbə və ədəbiyyat 589

NƏTİCƏ 593
ƏLAVƏ
Azərbaycan xanlıqları ərazisində aparılan müharibə zamanı rus qoşunlarının verdiyi itkilər haqqında 598

MEHMAN SÜLEYMANOV

GÜLÜSTAN MÜQAVİLƏSİ

II HİSSƏ



606

«Elm və təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Dizayn: ***Zahid Məmmədov***
Texniki redaktor: ***Günay Məmmədova***

Çapa imzalanmış **14.05.2014**
Şərti çap vərəqi **38.** Sifariş № **459**
Kağız formatı **70x100 1/16.** Tiraj **500**

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: ***nurlan1959@gmail.com***
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.